Ziyad Səmədzadənin elmi fəaliyyətində Azərbaycan və dünya iqtisadiyyatı problemlərinin tədqiqi böyük yer tutur. Dünya ölkələrinin təcrübəsini dərindən öyrənən və onların mütərəqqi cəhətlərini Azərbaycanda təbliğ edən Z. Səmədzadə bir çox ölkələrdə, o cümlədən bir neçə dəfə Çin Xalq Respublikasında olmuş, 2001-ci ildə çapdan çıxmış "Dünya iqtisadiyyatı: Çin" iqtisadi möcüzəsi" kitabını nəşr etdirmişdir. Azərbaycan və rus dillərində çıxan "Çinin iqtisadi möcüzəsi", 2009-cu ildə çapdan çıxmış "Çin qlobal dünya iqtisadiyyatında" kitablarının müəllifi sübut etdi ki, bu bir xoşbəxt təsadüf deyildir, aqrar sektorun sənaye islahatlarının, dünya təcrübəsinə sığınaraq,

xalqın maraqları ilə maliyyənin qarşılıqlı və səmərəli inteqrasiyasının məntiqi nəticəsidir. Bu monoqrafiyaları ilə alim iqtisad elminə böyük töhfə vermişdir.

Z.Səmədzadənin elmi fəaliyyətində Azərbaycanın iqtisadi müstəqilliyi problemlərinin araşdırılması xüsusi yer tutur. Onu bu mürəkkəb, taleyüklü problemin elmi tədqiqi sahəsində pioneer saymaq mübaliğə olmaz.

Ziyad Səmədzadənin gördüyü işlər dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. Azərbaycan iqtisadiyyat elminin inkişafındakı xidmətlərinə görə akademik bu günlərdə Prezident İlham Əliyevin sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Ziyad Səmədzadənin «Dağlıq Qarabağ: Naməlum həqiqətlər» kitabı

Akademik Z.Səmədzadə SSRİ və digər müttəfiq respublikalar üzrə külli miqdarda müqayisəli materiallar əsasında mürəkkəb elmi hesablamalar apararaq, mərkəzləşdirilmiş plan-maliyyə sisteminə xas olan ciddi qüsurları üzə çıxardı və inandırıcı şəkildə sübut etdi ki, respublikanın ərazisində yaradılmış milli gəlirdən istifadə etmək hüquqları yolverilməz dərəcədə məhduddur.

Bu, Azərbaycanın iqtisadi müstəqilliyi haqqında qanun layihəsi üçün əsas götürüldü. 1989-cu ildə akademikin rəhbərliyi ilə Azərbaycanın iqtisadi müstəqilliyi problemlərinə həsr olunmuş respublika miqyaslı böyük bir elmi-praktik konfrans keçirildi. Bu tədbir öz mahiyyətinə görə keçmiş İttifaqda bu qəbildən olan ilk tədbir idi. Son dərəcə maraqlı və vacib problemə həsr olunmuş bu konfransın işində fəal iştirak edən elmi qüvvələr və mütəxəssis-praktiklər tərəfindən işlənib hazırlanmış tövsiyələr və müvafiq qanun layihəsi hazırlandı.

Kənardan saxta iddialarla qaldırılmış Qarabag probleminin lap ilk günlərindən akademik Ziyad Səmədzadə ermənilərin Azərbaycanın bu qədim diyarının «sosial-iqtisadi geriliyi haqqında» ilk iradlarının təhlilinə başladı. Azərbaycana qarşı irəli sürülən saxta ittihamlar, güya ermənilərin həyat səviyyəsinin aşağı olması, onlara qarşı sosial mədəni baxımdan ayrı seçkilik edilməsi ilə baglı iftiralar əsaslandırılmış dəlillərlə təkzib edildi. Akademikin həmin dövrdə hazırladığı tədqiqatların əksəriyyəti onun geniş əks-səda doğurmuş «Dağlıq Qarabağ: naməlum həqiqətlər», «Naqornıy karabax: neizvestnaə pravda» adlı kitablarda öz əksini tapdı.

Ancaq Ziyad Səmədzadənin «Dağlıq Qarabağ: Naməlum həqiqətlər» kitabı həm tarixilik, həm siyasilik cəhətdən, həm də iqtisadçı qələmindən çıxdığı üçün çox faydalıdır. Bu kitab vətəndaş alim qələminin bəhrəsidir, təkcə publisistik dildə yox, əsasən təkzibedilməz iqtisadi faktların gücü ilə danışır.

Dünya iqtisad elminin nüfüzlü alimlərinin Ziyad Səmədzadə haqqında fikirləri

Z.Səmədzadə keçmiş Sovetlər İttifaqında ilk iqtisadçı alimlərdən biri idi ki, iqtisadi inkişafın regional aspektlərinin tempi və səviyyəsini təhlili ilə ərazi proporsiyasının planlaşdırılması və proqnozlaşdırılmasının metodologiyasının yaradılmasının vacibliyini sübuta yetirmişdir.

Akademik, keçmiş SSRİ və İttifaqa daxil olan respublikalar üzrə müqayisəli statistik məlumatlardan səmərəli şəkildə istifadə edərək böyük həcmdə hesablamalar aparmış və mərkəzləşdirilmiş maliyyə-plan sistemində olan çox ciddi qüsurları aşkara çıxarmışdır. Akademik Ziyad Səmədzadə bu tədqiqatı ilə SSRİ məkanında ilk dəfə nəzəri iqtisadi müddəaları bilavasitə tətbiqi iqtisadiyyat səviyyəsinə və əksinə köçürülməsi üçün aqreqasiya və dezaqreqasiya metodologiyası işləyib hazırlamış və onun praktiki səviyyədə tətbiqini həyata keçirmişdir.

2004-ci ildə akademikin ölkə və onun hüdudlarından kənarda böyük əks-səda doğurmuş, "Böyük yolun mərhələləri" - "Azərbaycan iqtisadiyyatı yarım əsrdə: reallıq və perspektivlər" adlı kitabı çapdan çıxmışdır. Dünyanın tanınmış alim və mütəxəssisləri Ziyad Səmədzadənin bu əsərini yüksək qiymətləndirmişlər.

SSRİ-nin ən tanınmış dövlət xadimlərindən biri, SSRİ-nin neft sənayesinin inkişafında böyük rol oynamış, texniki elmlər doktoru, Sosialist Əməyi Qəhrəmanı, Sialkovski adına Kosmonavtika Akademiyasının akademiki Nikolay Konstantinoviç Baybakov Ziyad Səmədzadəni Azərbaycan elminin inkişafındakı xidmətlərinə görə yüksək qiymətləndirmişdir: "Ziyad Səmədzadə böyük və şərəfli ömür yoluna malikdir. Onun elmi və ictimai fəaliyyəti həddindən artıq geniş və çoxşaxəlidir. MK-nın iqtisadiyyat şöbəsinə, Ali Sovetin plan-büdcə komissiyasına, eləcə də, respublikanın Dövlət Plan Komitəsinə rəhbərlik edən iqtisadçı alim və ictimai xadim kimi Z.Səmədzadənin əldə

etdiyi zəngin təcrübə ona Azərbaycanın ötən əsrdəki ictimai-siyasi, iqtisadi-sosial həyatı barədə, qlobal iqtisadi problemləri dərindən təhlil etməyə imkan vermişdir".

SSRİ Baş nazirinin müavini, RF EA akademiki L.Abalkin yazırdı: "Z.Səmədzadənin "Əmək məhsuldarlığı və əhalinin məşğulluq strukturunun problemləri" mövzusunda 31 yaşında olarkən müdafiə etdiyi doktorluq dissertasiyası Sovet İttifaqında ən mükəmməl elmi iş idi. Nəticə etibarilə o, respublikada bu sahədə elmi iqtisadi məktəbin əsasını qoymuşdur".

Moskva şəhərinin meri Q.X. Popov isə bildirir ki, Z.Səmədzadə həm böyük nəzəriyyəçi alim, həm təcrübəçi, təşkilatçı, həm də müasir iqtisadi ideyaların ötürücüsüdür: "Bir sıra nəhəng tədqiqatların və işlərin, makro iqtisadiyyatın problemləri, regional iqtisadiyyatın effektivliyi, istehsalın tempi və proporsiyaları, demoqrafiya və məşğulluqla bağlı monoqrafiyaların müəllifidir. Hakim anlayışlara qeyri-standart baxış, yaradıcı düşüncə tərzi, tənqidi analiz alimə maddi sahənin sərhədləri haqqında orijinal nəticələr çıxarmağa imkan verir".

Ziyad Səmədzadə nüfuzlu beynəlxalq simpozium və konqreslərdə

40 ildən artıqdır ki, Z.Səmədzadə çoxsaylı beynəlxalq simpozium və konqreslərdə Azərbaycanı ləyaqətlə təmsil edir. Nüfuzlu elmi məclislərdə çıxış edən akademik müasir iqtisad elminin aktual istiqamətləri və respublikanın iqtisadi inkişafı, onun dünya iqtisadiyyatına inteqrasiya edilməsi imkanları və bunun yolları barədə sanballı elmi məruzələri ilə diqqəti cəlb edir.

Ziyad Səmədzadə nüfuzlu beynəlxalq simpozium və konqreslərdə Azərbaycanı ləyaqətlə təmsil edir. Strasburq və Stokholm, San-Fransisko və Barselona, Ankara və Brüssel, Sidney və Paris, Moskva və Sankt-Peterburq, Vaşinqton, Akaba və Pekin daha neçə belə coğrafi məkanlarda keçirilən böyük forum, konfrans və simpoziumlarda akademik Z.Səmədzadə geniş elmi diapazonunu nümayiş etdirərək, öz ideya və baxışlarını Azərbaycanın müasir iqtisadi elminə və inkişafına yönəltmiş, çıxışları və hesabatları ilə onun dünya arenasına çıxış yollarını göstərməyə çalışmışdır. Bu forumların tribunasından çıxış edən akademik geniş elmi diapozona malik olduğunu nümayiş etdirərək, müasir iqtisad elminin aktual istiqamətləri və Azərbaycanın iqtisadi inkişafı, onun dünya iqtisadiyyatına inteqrasiya edilməsi imkanları və bunun yolları barədə sanballı elmi məruzələri ilə diqqəti cəlb edib və etməkdədir.

Z. Səmədzadə TASİS proqramının Azərbaycanda fəaliyyətə başlaması üçün böyük zəhmət çəkmiş, Avropa İttifaqının (Aİ) ekspertləri ilə çoxsaylı görüşlər keçirmiş, milli koordinator, bir iqtisadçı-alim kimi TRASEKA proqramının hazırlanması ilə bağlı elmi araşdırmalar aparmış, 1993-cü ilin may ayında Brüsseldə birinci beynəlxalq konfrasda əsas məruzə ilə çıxış etmiş və Brüssel bəyannaməsini imzalamışdır.

Akademik Səmədzadə yeni ideya və üsulların, yeni iqtisadi təfəkkürün yorulmaz təbliğatçısı kimi

Z. Səmədzadə yeni ideya və üsulların, yeni iqtisadi təfəkkürün yorulmaz təbliğatçısıdır. Bu ideyalar Ziyad Səmədzadə 1981-1992- ci illərdə baş redaktoru olduğu «Azərbaycan xalq təsərrüfatı» jurnalının səhifələrindnə ardıcıl şərh edilmişdir. 1999-cu ildə akademik «İqtisadiyyat» adlı qəzet təsis etmiş və ounn nəşrinə başlamışdır. Qətiyyətlə demək olar ki, bu mətbu orqan hazırda müasir iqtisadi ideya və baxışların əsl carçısına, peşəkar iqtisadçıların, eləcə də Azərbaycanın sosial-iqtisadi inkişafı problemlərinə aid biliklərini genişləndirən bütün oxucuların dostuna və köməkçisinə çevrilmişdir.

Qəzetin baş redaktoru olan akademik ölkənin bütün iqtisadçı alimlərini, politoloqlarını, bazar istrukturlarının tanınmış nümayəndələrini və mütəxəssis-praktikləri bu nəşrin işinə cəlb etməyə, əsl yaradıcı kollektiv yaratmağa müvəffəq olmuşdur. Alim dövlət başçısının müəyyən etdiyi inkişaf strategiyasının təbliği sahəsində də yorulmaz fəaliyyət göstərir. Mətbuat səhifələrində, televiziya və radioda gündən-günə inkişaf edən, yeniləşən Azərbaycannın iqtisadi siyasətinin fəal təbliğatçısı kimi çıxış edir, neft strategiyasının, regionların tarazlı inkişafı ilə Dövlət proqramının reallaşmasının konkret nəticələrini əks etdirən xüsusi nəşrlər hazırlayır. Bütün bunlar bir daha akademik Z. Səmədzadənin bir elm təşkilatçısı və yeni ideyalar təbliğatçısı kimi yorulmaz fəaliyyətini inandırıcı şəkildə sübut edir.

Dünya təcrübəsi göstərir ki, ictimai elmlər arasında özünəməxsus yer tutan, daim inkişafda olan iqtisad elminin cəmiyyətdə artan rolu bu istiqamətdə ayrıca təyinatlı ensiklopediyanın

yaradılması məsələsini aktuallaşdırıb. Bu missiyanı akademik Ziyad Səmədzadə öz üzərinə götürmüş, onun ideya müəllifliyi və baş redaktorluğu ilə hazırlanıb nəşr edilən irihəcmli fundamental "Böyük İqtisadi Ensiklopediya" da respublikanın elmi-mədəni həyatında diqqətəlayiq hadisələrdən birinə çevrilmişdir "Böyük İqtisadi Ensiklopediya" dünya iqtisadiyyatının tarixi, bu gün iqtisadi həyatın müxtəlif sahələrində istifadə edilən terminlərin mahiyyəti, görkəmli iqtisadçıların fəaliyyəti barədə ətraflı məlumat və bilik mənbəyidir.

Ensiklopediyada iqtisadi termin və anlayışların, nəzəriyyə və baxışların mükəmməl izahları verilib, iqtisadi hadisələrin məzmunu və əhəmiyyəti yüksək peşəkarlıqla açıqlanıb, müasir gerçəkliklər fonunda dünya iqtisad elminin nailiyyətləri hərtərəfli işıqlandırılıb. Ensiklopediya çoxsaylı nəzəri, faktroloji materiallar əsasında ictimai həyatdan gələn sualları cavablandırmaqla, oxucuya çoxsaylı iqtisadi hadisələr, kateqoriyalar, modellərlə bağlı zəruri bilgilər verir, iqtisadi termin, söz və ifadənin mahiyyətinin mükəmməl izahını təqdim edir. Burada makroiqtisadi tarazlıq, marketinq, investisiya, menecment, maliyyə, audit, mühasibatlıq, pul-kredit, qiymətli kağızlar bazarı, rəqabət, inhisar, inovasiyalar, monoiqtisadiyyat və digər bu kimi çoxsaylı anlayışların mahiyyəti yeni elmi interpretasiyada açıqlanır. Həmçinin dünya iqtisadiyyatının tarixi, müxtəlif iqtisadi nəzəriyyələr, iqtisadi sistemlərin problemləri, elmi-iqtisadi məktəblər və onların görkəmli nümayəndələri haqqında mühüm məlumatlar verilir, müasir gerçəkliklər fonunda dünya iqtisad elminin nailiyyətlərini hərtərəfli işıqlandırır. Ensiklopediyanın unikallığı bir də ondadır ki, bu sanballı nəşr formalaşmış, mövcud iqtisadi vəziyyətə istinadən çox düşünülüb, biçimli bir sxemdə qurulub.

Ensiklopediyada son iyirmi bir ildə ölkəmizin bu elm sahəsi üzrə əldə etdiyi yeni nailiyyətləri, eyni zamanda, xalqımızın yüksək sosial-iqtisadi, mədəni, intellektual səviyyəsinin də aydın forma və məzmunda əks etdirir. Topluda Azərbaycanın müasir, sosial, siyasi və iqtisadi, hüquqi sistemi müxtəlif aspektlərinə geniş diqqət yetirilir. Müstəqil Azərbaycanın iqtisadi qüdrətinin artması, dünya iqtisadiyyatına inteqrasiyasına xidmət edən nurlu inkişaf strategiyasının elmi-metodoloji əsasları və mahiyyəti konkret fakt və dəlillərlə işıqlandırılır. Ensiklopedik nəşrlərin dəyəri ondadır ki, onlar iqtisad elminin və onun alətlərinin əsas, nisbətən sabit və dayanıqlı kateqoriya və anlayışlarını özündə cəmləşdirirlər. Bu mənada, Böyük İqtisadi Ensiklopediyanın mühüm fərqlən-dirici cəhətlərini qeyd edərkən öl-kəmizin müasir sosial-siyasi və iqtisadi-hüquqi sisteminin müxtəlif aspektlərinə geniş diqqət yetirildiyini vurğlamaq vacibdir. Belə ki, müstəqil Azərbaycanın iqtisadi qüdrətinin artmasına, dunya iqtisadiyyatına inteqrasiyasına xidmət edən milli inkişaf strategiyası, azad bazar münasibətlərinin bərqərar olmasının, yeni iqtisadi sistemin formalaşmasının elmi-metodoloji əsasları və mahiyyəti burada konkret fakt və dəlillərlə işıqlandırılmışdır Azərbaycanın ilk iqtisadi bestselleri kimi ensiklopediya kitab aləmində özunəməxsus yer tutacaqdır. Tam məsuliyyətlə bildirmək olar ki, ölkənin və onun hüdudlarından kənarda sayılıb-seçilən iqtisadçı alimlər arasında özünəməxsus yeri və sanbalı olan akademik Ziyad Səmədzadə ağır bir işi öhdəsinə götürmüş və onu layiqincə də yerinə yetirməklə, Azərbaycan elminə, xüsusilə də iqtisad elminə böyük töhfə vermişdir.

Nəticə

Respublika ictimaiyyəti onu böyük alim və praktik-iqtisadçı, bacarıqlı təşkilatçı və nüfuzlu rəhbər, müasir mütərəqqi iqtisadi ideyaların daşıyıcısı və fəal təbliğatçısı kimi tanıyır. Ziyad Səmədzadənin elmi fəaliyyətində Azərbaycan və dünya iqtisadiyyatı problemlərinin tədqiqi böyük yer tutur. Ziyad Səmədzadə nüfuzlu beynəlxalq simpozium və konqreslərdə Azərbaycanı ləyaqətlə təmsil edir. Z. Səmədzadənin elmi fəaliyyətində Azərbaycanın iqtisadi müstəqilliyi problemlərinin araşdırılması xüsusi yer tutur. Onu bu mürəkkəb, taleyüklü problemin elmi tədqiqi sahəsində pioneer saymaq mübaliğə olmaz. Dünya təcrübəsi göstərir ki, ictimai elmlər arasında özünəməxsus yer tutan, daim inkişafda olan iqtisad elminin cəmiyyətdə artan rolu bu istiqamətdə ayrıca təyinatlı ensiklopediyanın yaradılması məsələsini aktuallaşdırıb. Bu missiyanı akademik Ziyad Səmədzadə öz üzərinə götürmüş, onun ideya müəllifliyi və baş redaktorluğu ilə hazırlanıb nəşr edilən irihəcmli fundamental "Böyük İqtisadi Ensiklopediya" da respublikanın elmi-mədəni həyatında diqqətəlayiq hadisələrdən birinə çevrilmişdir "Böyük İqtisadi Ensiklopediya" dünya iqtisadiyyatının tarixi, bu

gün iqtisadi həyatın müxtəlif sahələrində istifadə edilən terminlərin mahiyyəti, görkəmli iqtisadçıların fəaliyyəti barədə ətraflı məlumat və bilik mənbəyidir.

Akademik Ziyad Səmədzadə bu gün də ona məxsus olan gənclik enerjisi və həvəsi ilə yüksək işgüzarlıq və əzmkarlıq göstərir.

AKADEMİK ZİYAD SƏMƏDZADƏNİN ELMİ FƏALİYYƏTİNDƏ İQTİSADİ TƏHLÜKƏSİZLİK PROBLEMLƏRİ

Şəfa Əliyev i.e.d., professor
Sumqayıt Dövlət Universitetinin "Dünya iqtisadiyyatı və markeinq" kafedrasının müdiri
shafaaliyev@gmail.com

Xülasə

Məqalədə akademik Ziyad Səmədzadənin elmi fəaliyyətində iqtisadi təhlükəsizlik problemlərinə yanaşmalar və görkəmli alimin bu sahədəki fəaliyyəti tədqiq olunur. Hələ Sovetlər Birliyi dönəmində Ziyad Səmədzadənin Azərbaycan Respublikası iqtisadiyyatının aktual prolemləri, xüsusilə, əmək ehtiyatlarının və məhsuldar qüvvələrin yerləşdirilməsi, iqtisadiyyatın şaxələndirilməsi məsələləri üzrə davamlı və səmərəli fəaliyyətinin başlıca aspektləri verilmişdir. Azərbaycanda müstəqilliyin bərpasının ilk illərində akademik Ziyad Səmədzadənin çoxşaxəli siyasi, ictimai və iqtisadçı – alim kimi fəaliyyətinin mühüm məqamları açıqlanmışdır. Azərbaycanın iqtisadi inkişaf modelinin təkmilləşdirilməsində və konseptual müddəaların formalaşdırılmasında onun elmi əsərlərinin və yanaşmalarının böyük əhəmiyyəti araşdırılmışdır. Son dövrlərdə görkəmli elm xadiminin milli iqtisadiyyatımızın diversifikasiyalaşdırılmasında, onun iqtisadi təhlükəsizliyinin gücləndirilməsində elmi-praktiki töhfələri baxılmışdır. Azərbaycan iqtisadiyyatının inkişafının dayanıqlı olmasında və rəqabət qabiliyyətinin artırılmasında göstərdiyi xidmətlərindən yanaşmaqla, akademik Ziyad Səmədzadənin elmi fəaliyyətində iqtisadi təhlükəsizlik problemlərinin açıqlanması və həlli yollarının müəyyənləşdirilməsi ilə bağlı ümumiləşdirmələr aparılmışdır.

Hər bir ölkənin özünəməxsus iqtisadi inkişaf yolu, ənənəsi və dövlətçilik meyarları, prinsipləri vardır. Azərbaycan Şərqin ilk demokratik respublikası kimi bir çox sahələrdə özünəməxsus dövlətçilik atributları formalaşdırmağa nail olmuşdur. Bunların sırasında xüsusilə fərqlənən istiqamətlərdən biri iqtisadi təhlükəsizlik məsələsidir. Milli təhlükəsizliyin mühüm tərkib hissəsi kimi iqtisadi təhlükəsizlik problemləri, bunlarla bağlı yanaşmalar strateji əhəmiyyət kəsb edir. Digər tərəfdən, strateji təhlükəsizlik məsələlərinə kompleks və sistemli yanaşma vacib şərtlərdəndir.

Ölkəmizin son yüz ildəki keçdiyi tarixi qısaca vərəqləsək, müstəqillik və milli, həm də iqtisadi təhlükəsizlik amilləri baxımından mürəkkəb bir yol keçdiyinin şahidi olarıq. 1918-20-ci illərdə fəaliyyət göstərən Azərbaycan Demokratik Respublikası xalqımızın milli mənafeyinə uyğun şəkildə iqtisadi təhlükəsizlik konsepsiyasının bünövrəsini qoysa da, onu inkişaf etdirmək zaman və müstəqilliyimizə uzanan xain əllər səbəbindən mümkün olmamışdır [1, s.307]. Keçmiş SSRİ dövründə isə milli məsələlər və təfəkkür prizmasından yanaşmalar olduqca çətin məsələ idi. Azərbaycan özü müstəqil beynəlxalq subyekt olmadığından, respublikamızın iqtisadi maraqları mərkəzdən idarə olunurdu və buna milli iqtisadi maraq kimi yanaşmaq qeyri-mümkün idi.

Resurslarla zəngin və bütün sahələrdə güclü potensiala malik olan respublikamızın milli resursları mərkəz tərəfindən idarə olunurdu və o sahələrə diqqət yönəldilirdi ki, burada da mərkəzin maraqları üstün olsun. 1920-50-ci illərə kimi Azərbaycan neftinə və onun daha çox istismarına

əsaslı kapital yönəldilmişdir. Bu isə iqtisadiyyat sahələri arasında güclü disproporsiya yaratmışdı. Sibirdə daha ucuz neft yataqları kəşf olunan kimi mərkəzdən-Moskvadan Azərbaycanın neft sənayesinin inkişafına maraq xeyli zəiflədi. 1950-ci illərdən başlayaraq ağır sənaye sahələrinin inkişafına, xüsusilə, daha zərərli kimya istehsalatlarının yaradılmasına üstünlük verildi. Sumqayıtda güclü sənaye mərkəzi yaradılsa da, ekoloji problemlər ən kəskin həddə çatdı və bu şəhərin xeyli çirklənməsinə səbəb oldu.

Ulu öndər Heydər Əliyevin tarixi səyləri nəticəsində 1970-ci illərdən başlayaraq respublikamızın iqtisadi strukturunda köklü dəyişikliklər aparıldı. Neft və qaz sənayesinin maddi-texniki bazası misli görünməmiş səviyyədə yeniləndi, böyük vəsait tələb edən zavodlar tikildi. O cümlədən, Bakıda dərin özüllər zavodu istismara verildi. Respublikanın energetika, kimya və neftkimya, metallurgiya, cihazqayırma, yeyinti və yüngül sənaye sahələrində iri müəssisələr və istehsal gücləri yaradıldı.

Maraqlıdır ki, dahi zəkaya malik olan Heydər Əliyev elmin inkişafına, o cümlədən, iqtisadi tədqiqatlara, iqtisadi təhlillərin aparılmasına və konsepsiyaların işlənməsinə böyük önəm vermişdir. Belə bir şəraitdə respublikasmızın ən perspektivli, işgüzar, fəal, bacarıqlı və peşəkar iqtisadçı-alimi olan akademik Ziyad Səmədzadə böyük əmək sərf edərək, iqtisadiyyat elminin inkişafına, iqtisadi yanaşmaların formalaşmasına, respublikanın iqtisadi təhlükəsizliyinin konseptual əsaslarının işlənməsinə, elmi dəlillərə söykənmiş məqsədli proqramların və tədbirlər kompleksinin hazırlanmasına ciddi töhfələr verə bilmişdir. Ziyad Səmədzadə məsul dövlət işlərində işləməklə bərabər, gərgin rejimdə elmi tədqiqatlar aparır, bir-birinin ardınca dəyərli elmi əsərlər ərsəyə gətirməyə nail olmuşdur.

Hələ akademik Ziyad Səmədzadə 1960-cı illərin ortalarından başlayaraq AMEA-nın İqtisadiyyat İnstitutunda işləyərkən, respublikamızın iqtisadi sabitliyi, iqtisadi baxımdan inkişafı ilə bağlı problemləri yaxşı mənimsəmişdi, öyrənmişdi və müxtəlif səviyyələrdə, dərc etdirdiyi məqalə və digər elmi əsərlərində cəsarətlə bu problemləri açıqlayırdı, həlli yollarını dilə gətirirdi. Lakin onların daha geniş konseptual səviyyədə baxılması və yüksək səviyyəli qərarların qəbul edilməsi şəraiti yetişməmişdi.

1970-ci illərin əvvəllərindən başlayaraq, respublikada yeni ab-havanın yaranması və Heydər Əliyevin rəhbərliyi altında bütün sahələrdə ittifaq səviyyəsində yüksək hədəflərin qarşıya qoyulması, iqtisadi yüksəlişin təmin edilməsi ilə əlaqədar olaraq peşəkar və dərin təhlil bacarığına malik olan iqtisadçı – alimlərə və kadrlara böyük ehtiyac yaranmışdı. Məhz belə bir şəraitdə ulu öndər Heydər Əliyev Ziyad Səmədzadəni Azərbaycan Respublikası Mərkəzi Komitəsinə dəvət etmiş və İqtisadiyyat şöbəsinə müdir təyin etmişdir. Sonrakı illərdə-1992-ci ilədək olan dövr ərzində Ziyad Səmədzadə Ali Sovet sədrinin birinci müavini, Baş nazirin birinci müavini, Dövlət Plan-İqtisad Komitəsinin sədri və s. mühüm vəzifələrdə işləmişdir.

Görkəmli alim həmin dövrdə respublika iqtisadiyyatının təhlükəsizliyinin gücləndirilməsi üçün vacib olan istiqamətlər üzrə, o cümlədən, iqtisadi inkişaf, iqtisadiyyatın strukturu, demoqrafik problemlər, məşğulluq və regional inkişaf məsələləri üzrə samballı və nüfuzlu elmi əsərlər, həmçinin dərin elmi-praktiki məzmuna malik monoqrafiyalar yazmışdır. Xüsusilə, əmək məhsuldarlığının səmərəlilik məsələləri və milli gəlirin formalaşdırılması üzrə mühüm elmi konsepsiyalar məhz akademik Z.Səmədzadənin adı ilə bir sırada durur. Bu istiqamətlərdə hazırlanan məqsədli respublika proqramlarının demək olar ki, hamısında Z.Səmədzadənin konseptual yanaşmaları və təklifləri yer almışdır. Paytaxt Bakının inkişaf potensialının yeni müstəvidə baxılması və inkişaf problemlərinin həlli yollarının müəyyənləşdirilməsi üzrə Heydər Əliyevin

birbaşa tapşırığı ilə tədqiqatlar aparmış və idarəetmə orqanları üçün metodiki fəaliyyət üsulları və tövsiyələr hazırlamışdır.

1990-cı illərin əvvəllərində Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdə vəziyyət kifayət qədər mürəkkəbləşmişdi. Sosial və iqtisadi sahələrdə xaos hökm sürürüdü, sərişdəsizlər aparıcı dövlət vəzifələrinə doluşmuşdular. Siyasi və iqtisadi böhran dərinləşməkdə davam edirdi, büdcədə pul yox idi, iqtisadiyyatın əsas sahəsi olan neft sənayesi tarixinin ən acınacaqlı vəziyyətinə düşmüşdü. Digər iqtisadiyyat sahələrinin inkişaf etdirilməsi üçün resurslar və dövriyyə vəsaitləri, investisiyalar yox idi, sürətlə işsizlər ordusu yaranırdı. İri müəssisələr bir-birinin ardınca bağlanır, ittifaq tabeli müəssisələrin fəaliyyəti isə iflic vəziyyətinə düşmüşdü. Təsərrüfat və satış əlaqələri kəsilmiş, bazarlar itirilmiş, hər tərəfdə kadr axıcılığı sürətlənirdi. Ölkənin iqtisadi böhrandan çıxarılması konsepsiyası və strategiyası yox idi. Bu dövrdə akademik Ziyad Səməd-zadənin rəhbərliyi altında 1992-ci ildə "Azərbaycan xalq təsərrüfatının idarəetmə strukturunun təkmilləşdirilməsi"nə dair təhriri məruzə hazırlanmış və Nazirlər Kabinetinə təqdim olunmuşdur.

Həmin dövrdə ölkə iqtisadiyyatının böhran vəziyyətindən çıxarılması və sabitləşdirilməsi istiqamətində də təxirəsalınmaz tədbirlər işlənilmiş, həmçinin, xarici iqtisadi siyasət konsepsi-yasının, iqtisadiyyatın dövlət tənzimlənməsi mexanizmlərinin və regional inkişafın dövlət tənzim-lənməsi mexanizmləri işlənilmişdir. Sonrakı illərdə ölkənin iqtisadi inkişaf strategiyasının və islahatların dərinləşməsi problemləri istiqamətində fundamental elmi tədqiqatlar aparılmışdır. Akademik Ziyad Səmədzadə Azərbaycanın iqtisadi müstəqilliyi, onun təmin olunması, iqtisadi suverenlik və bazar münasibətlərinə keçidlə bağlı müxtəlif ölkə və beynəlxalq statuslu nüfuzlu konfranslarda və tədbirlərdə məruzələrlə çıxışlar etmişdir. Azərbaycanın iqtisadi potensialının açıqlanması, obyektiv qiymətləndirilməsi, adekvat mexanizmlərin işlənməsi və tətbiq olunması, müstəqil respublikanın iqtisadi təhlükəsizliyinin gücləndirilməsi üzrə davamlı elmi tədqiqatlar aparmış, məzmunlu məqalələr və digər elmi əsərlər dərc etdirmişdir.

Akademik Ziyad Səmədzadə beynəlxalq səviyyədə Azərbaycanın iqtisadi müstəqillik potensialını və ölkəmizin inkişafında beynəlxalq əməkdaşlığın tərəflər üçün səmərəliliyini fəal şəkildə təşviq etmiş, dünyanın müxtəlif ölkələrində nüfuzlu elmi praktiki tədbirlərdə və beynəlxalq konfranslarda məruzələrlə çıxış etmişdir. Ölkəmiz və onun iqtisadi təhlükəsizliyi üçün çətin bir dövrdə 1993-cü ildə ABŞ-ın San-Fransisko şəhərində Beynəlxalq İqtisadçılar İttifaqının elmi sessiyasında yadda qalan məruzə ilə dünya elmi ictimaiyyətinin, siyasətçilərin və investorların diqqətini Azərbaycanın iqtisadi potensialına yönəltmişdir. Brüsseldə Avropa Birliyinin dəstəyi ilə keçirilən konfransda "Azərbaycan iqtisadi islahatlar və inkişaf" adlı məruzəsi böyük marağa səbəb olmuşdur. Bundan əlavə dinamik inkişafda olan Çin Xalq Respublikasında-Xarbin şəhərində "Azərbaycanın iqtisadi potensialı"na dair silsilə çıxışlar etmişdir.

1995-2005-ci illər ərzində görkəmli akademik Ziyad Səmədzadə dünyanın bir çox ölkələrində, həmçinin, ölkəmizdə keçirilən yüksək səviyyəli elmi tədbirlərdə, iqtisadi inkişaf və problemlərə həsr olunmuş konfranslarda, seminarlarda müstəqil Azərbaycanın iqtisadi təhlükəsiz-liyinin gücləndirilməsinin milli iqtisadi maraqlara uyğun şəkildə elmi-metodoloji yanaşmalarının formalaşdırılmasında və bu istiqamətlərdə işlək mexanizmlərin hazırlanmasında gərgin əmək sərf etmişdir. Məsələn, 1995-ci ildə Bakıda keçirilən müxtəlif elmi-praktiki konfranslarda ölkədə aparılan iqtisadi islahatların strategiyası və taktikasına dair, həmçinin, bazar iqtisadiyyatının reallıqları və mövcud problemlər istiqamətində, milli iqtisadiyyatın sabitləşdirilməsi problemlərinə dair fundamental yanaşmalarını ortaya qoymuşdur. 1996-cı ildə Bakıda keçirilən elmi-nəzəri konfransda Ziyad Səmədzadə "Müstəqil dövlətin iqtisadi təhlükəsizliyinin bəzi məsələləri

haqqında" məruzəsində həmin dövrdə həllini gözləyən strateji problemlərlə və perspektivdə reallaşdırılmalı olan prioritetlərlə bağlı məzmunlu təkliflər irəli sürmüşdür.

Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıtmasından sonra ölkəmizdə siyasi sabitliyin təmin edilməsi, bir çox iqtisadi sahələrdə köklü islahatların aparılması, ölkənin iqtisadi müstəqilliyinin gücləndirilməsi üçün zəruri tədbirlərin görülməsi fundamental iqtisadi araşdırmaların aparılmasını, xüsusilə, iqtisadi təhlükəsizliyin təmin edilməsi üzrə optimal və dayanıqlı fəaliyyət mexanizmlərinin müəyyənləşdirilməsini şərtləndirirdi. Şübhəsiz, belə bir vəziyyətdə iqtisadçı-alimlərin üzərinə böyük vəzifələr düşürdü.

Bunları dərindən dərk edən akademik Ziyad Səmədzadə bir-birinin ardınca ölkənin iqtisadi təhlükəsizliyinin problemləri ilə bağlı araşdırmalar aparmış, məqalələr yazmış və məruzələrlə çıxış etmişdir. Onlardan bir neçəsinə diqqət yönəltmək istərdim. Məsələn, 1999-cu ildə Bakıda keçirilən və ölkəmizdəki iqtisadi islahatlara və problemlərə həsr olunan elmi-praktiki konfransda "Bir daha iqtisadi təhlükəsizlik haqqında", elə həmin ildə digər bir mötəbər tədbirdə-beynəlxalq seminarda "XXI əsrin astanasında Azərbaycanın iqtisadi və ərzaq təhlükəsizliyi", həmçinin "Müasir mərhələdə iqtisadi təhlükəsizlik problemləri", 2000-ci ildə isə Bakıda beynəlxalq simpoziumda "Respublikanın iqtisadi təhlükəsizlik problemi" adlı prinsipial və məzmunlu məruzələrlə çıxış etmişdir.

Növbəti illərdə də – 2002-2003-cü illərdə yorulmaq bilməyən elm fədaisi akademik Z.Səmədzadə "Müstəqil Azərbaycan Respublikasının iqtisadi təhlükəsizlik strategiyasının prinsipial istiqamətləri haqqında", "Azərbaycanın iqtisadi inkişaf strategiyasında iqtisadi təhlükəsizlik probleminin yeri və rolu" və s. geniş məruzələri ilə çıxışları yadda qalmışdır. Görkəmli elm xadiminin 2004-cü ildə nəşr etdirdiyi "Böyük yolun mərhələləri" – "Azərbaycan iqtisadiyyatı yarım əsrdə: reallıqlar və perspektivlər" adlı kitabı isə ölkəmizin iqtisadi inkişaf proseslərinin ilk dəfə kompleks təhlilinə və keçilən iqtisadi yolun qiymətləndirilməsinə həsr olunmuş fundamental bir elmi əsər kimi qəbul olunmuşdur. Bu kitab ictimai-siyasi xadimlərin, məsul işçilərin, almi və tədqiqatçıların stolüstü kitabına çevrilmişdir, "ölkə və onun hüdudlarından kənarda böyük əks-səda doğurmuşdur" [2, s.9].

Son 15-20 il ərzində akademik Ziyad Səmədzadənin elmi fəaliyyətində əsas diqqət ölkə iqtisadiyyatının dayanıqlılığının təmin edilməsinə, iqtisadi inkişaf modelinin təkmilləşdirilməsinə, xüsusilə, milli iqtisadiyyatın neftdən asılılığının azaldılması strategiyasının və prioritetlərinin adekvatlığının gücləndirilməsinə, ölkənin iqtisadi təhlükəsizlik əsaslarının və mexanizmlərinin müasir dövrün tələbləri baxımından yenilənməsinə yönəldilmişdir. "İqtisadiyyat" qəzetində iqtisadi təhlükəsizlik problemləri və bu sahədə olan prioritet vəzifələr daim diqqət mərkəzində saxlanılmış, dərin təhlillər aparılmış, görkəmli alimlər, siyasi və ictimai xadimlərin iştirakı ilə dəyirmi masalar keçirilmişdir. Ölkəmizin iqtisadi təhlükəsizliyinin gücləndirilməsi və iqtisadi sabitliyin maksimum dərinləşdirilməsi, iqtisadi inkişaf meyllərinin dayanıqlı olması üçün davamlı şəkildə Çin iqtisadiyyatını və Çin möcüzəsini tədqiq etmiş, məqalələr və monoqrafiyalar ərsəyə gətirmişdir. Bu ölkənin müsbət təcrübəsinin aktual aspektlərinə xüsusi diqqət yönəldilmişdir. Akademik hesab edir ki, "Dövlətin iqtisadi təhlükəsizliyi müstəqil Azərbaycanın mühüm və fundamental nailiyyətidir" [3].

2005-ci ildən başlayaraq 2020-ci ilə kimi ölkənin Ali qanunvericilik orqanında – Milli Məclisdə millət vəkili və Komitə sədri kimi, hazırda da yenə millət vəkili kimi səmərəli fəaliyyəti dövründə Ziyad Səmədzadə elmi yaradıcılığına və tədqiqatlarına bir an da olsun fasilə verməmiş, əksinə daha böyük əzmlə və məhsuldarlıqla çalışmışdır. Xüsusilə, ölkəmizin iqtisadi təhlükəsizliyinin gücləndirilməsi, regional və beynəlxalq platformada nüfuzunun artması, rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətində konseptual yanaşmalar ortaya qoymuş və onların reallaşdırılmasına çalışmışdır. Ulu Öndər Heydər Əliyevin Azərbaycanın tarixi-iqtisadi xüsusiyyətlərinə, geosiyasi

şəraitinə, milli mənafelərinə uyğun hazırladığı inkişaf strategiyasının yorulmaz təbliğatçısı və tədqiqatçısı kimi səmərəli elmi fəaliyyət göstərmişdir.

Bundan əlavə, görkəmli akademik Ulu Öndərin layiqli varisi - İlham Əliyevin prezidentlik fəaliyyətinin ilk 100 gününü "xalqın ümid işığı" kimi qiymətləndirmişdir və həmin dövrdən başlayaraq daim ölkə Prezidentinin siyasətinə uyğun milli iqtisadiyyatımızın davamlı və dayanıqlı inkişafına öz töhfəsini vermişdir. Ölkənin iqtisadi gücünün artması və beynəlxalq səviyyədə güclənməsi, iqtisadi təhlükəsizliyi ilə bağlı məsələlərin dərin tədqiqindən çıxış etməklə akademik belə hesab edir ki: "Azərbaycan Respublikasında iqtisadiyyatın keyfiyyətli və dayanıqlı inkişafı Prezident İlham Əliyevin iqtisadi siyasətinin təntənəsidir" [4]. Z.Səmədzadəyə görə, dünya maliyyə böhranının yaratdığı mənfi səbəblər və nəticələr kontekstində dövlət başçısının formalaşdırdığı və təkmilləşdirdiyi milli inkişaf modeli Azərbaycanın iqtisadi təhlükəsizliyinə ən etibarlı təminatdır [5].

Son on il ərzində də görkəmli alimin elmi əsərlərində Azərbaycan iqtisadiyyatının qlobal çağırışlara və problemlərə uyğun olaraq qarşısında duran strateji vəzifələrə, hədəflərə, onların həyata keçirilməsində və bu istiqamətlərdə fundamental səviyyədə elmi yanaşmaların təmin olunmasında maksimum fəallıq nümayiş etdirmişdir. "Akademikin son illərdə gördüyü işlərdə Azərbaycan iqtisadiyyatı dünya təsərrüfat sisteminin tərkib hissəsi kimi nəzərdən keçirilir və bütövlükdə, o, ölkənin iqtisadi inkişaf strategiyasının elmi bazasının gücləndirilməsi məsələlərinin həllində fəal iştirak edir" [6]. Ziyad Səmədzadə ölkənin iqtisad elminin, iqtisadçı-alimlərin fəaliyyətini və bacarığını özünün səmərəli və konstruktiv yanaşmaları ilə milli iqtisadiyyatın mühüm problemlərinin araşdırılmasına, daha məhsuldar mexanizmlərinin işlənməsinə, iqtisadi təhlükəsizliyin gücləndirilməsinə xidmət edən konseptual müddəaların formalaşdırılmasına sövq edir və istiqamətləndirir.

Ölkəmizin iqtisadi mənafeyinin və təhlükəsizliyinin qorunması görkəmli alimin fəaliyyətində ana xətt kimi keçir. "Ümumiyyətlə, Ziyad Səmədzadə dövlətin iqtisadi inkişaf siyasətinin formalaşmasında yaxından iştirak edən bir dövlət adamı və peşəkar praktik iqtisadçı alim kimi həmişə Beynəlxalq Valyuta Fondunun, Dünya Bankının, Ümumdünya Ticarət Təşkilatının və s. kimi beynəlxalq maliyyə və iqtisadi qurumların tələb və tövsiyələrinə çox ehtiyatla, düşünülmüş şəkildə yanaşmağın tərəfdarı olaraq çıxış edir" [7]. Hesab edirəm ki, bu cür yanaşma və söylənilən fikirlər obyektiv mənzərəni özündə əks etdirir. Hələ müxtəlif təsərrüfat və dövlət işlərində məsul vəzifələrdə çalışarkən, bu böyük alimlə əlaqələrimiz formalaşmışdı və görüşlərimiz olurdu. Hər dəfə Ziyad müəllimə qulaq asarkən, bu insanın və görkəmli alimin öz dövlətini və millətini nə qədər dərindən sevdiyinə bir daha əminlik yaranırdı. Sonralar elmi fəaliyyətimdə onun qayğısını və dəstəyini aldım və bu günə kimi sıx elmi əməkdaşlıq etməyimdən qürur duyuram. Akademik Ziyad Səmədzadə iqtisad elmləri doktoru dərəcəsi almaq üçün dissertasiya işimin müdafiəsində əsas opponentim olub və onun aşkarladığı iradlar, nöqsanlar, konstruktiv tövsiyələri olduqca dərin məzmuna malik idi və sonrakı tədqiqatlarda düşündürücü xarakter daşıyırdılar.

Nəticə

Akademik Ziyad Səmədzadənin ölkəmizin iqtisadi təhlükəsizlik problemləri ilə bağlı ardıcıl və səmərəli elmi fəaliyyətinin tədqiqi üzrə bir qrup məsələləri ümumiləşdirmək olar:

– görkəmli elm xadimi, akademik Ziyad Səmədzadənin elmi fəaliyyətində iqtisadiyyatımızın təhlükəsizlik problemləri, onların həlli yollarının müəyyənləşdirilməsi və adekvat tədbirlərin görülməsi maksimum prioritet səviyyədədir;

– aparılan araşdırmalarda təkcə problemlər açıqlanmır, onların yaranma səbəbləri fundamental təhlil olunur və gələcəkdə bu halların qarşısın alınmasına fundamental elmi-praktiki yanaşmalar ortaya qoyulur;

– görkəmli alimin strateji baxışları və hazırladığı fəaliyyət mexanizmləri milli ruhdan, düşüncədən, dövlətinə və millətinə bağlılıqdan yoğrunmuşdur, ərsəyə gəlmişdir;

– bu fədakar elm cəfakeşinin qayəsi, məqsədi və arzusu ölkəmizi güclü dövlət, dayanıqlı iqtisadiyyata malik və rəqabətqabiliyyətli ölkə kimi görməkdir və bunun üçün var qüvvəsi ilə çalışmaqdan yorulmur.

Bunlarla bərabər, akademik Ziyad Səmədzadənin elmi, ictimai-siyasi fəaliyyəti olduqca genişdir. Görkəmli elm xadiminin bir istiqmətdə - milli iqtisadiyyatımızın təhlükəsizliyi kontekstində uzun bir dövrü əhatə edən məzmunlu və məhsuldar elmi fəaliyyətinin bir hissəsi əhatə olunub. Amma, əlavə olaraq qeyd etmək istərdik ki, Z.Səmədzadə həm də böyük enerjiyə malik bir iqtisadçı alimdir. O yorulmadan işləyir və çalışır, problemləri özündən uzaqlaşdırmır, onların üzərinə cəsarətlə gedir. Bu amillər də nəzərə alınmaqla, yorulmaz elm xadimini 80 illik yubileyi münasibətilə təbrik edir, möhkəm can sağlığı və bundan sonra da məhsuldar elmi fəaliyyətlə məşğul olmağını arzulayırıq!

Ədəbiyyat

1. Əliyev Ş.T. Azərbaycan iqtisadiyyatı. Sumqayıt, 2018. – 376 s.
2. Z.Ə.Səmədzadə. Biblioqrafiya. Bakı. – Elm, 2010.– 492 s.
3. Dövlətin iqtisadi təhlükəsizliyi müstəqil Azərbaycanın mühüm nailiyyətidir//İqtisadiyyat və audit. – 2001. - №12. – S.10-18. Dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsi müstıqil Azərbaycanın fundamental nailiyyətidir // Respublika. – 2001. – 16 oktyabr.
4. Səmədzadə, S.Ə. Azərbaycan Respublikasında iqtisadiyyatın keyfiyyətli və dayanıqlı inkişafı Prezident İlham Əliyevin iqtisadi siyasətinin təntənəsidir// İqtisadiyyat.– 2007. – 19-26 dekabr; İqtisadiyyat və audit. – 2007. № 12. – s.4-12.
5. Səmədzadə, S.Ə. Azərbaycan milli inkişaf modeli iqtisadi təhlükəsizliyinə ən etibarlı təminatdır. // İqtisadiyyat.– 2009. – 15-21 yanvar.
6. Bünyadov,T., Musayev,A. Görkəmli ictimai xadim və istedadlı alim."Xalq qəzeti", 19 iyun 2020-ci il. http://science.gov.az/az/news/open/13421.
7. Əlizadə, A., Həbibbəyli, İ. Elmin zirvəsində. 24.06.2015. "Azərbaycan" qəzeti, 24 iyun 2015. http://science.gov.az/az/news/open/2233.

Summary

The approaches to the problems of economic security in the scientific activity of academician Ziyad Samadzade and the activities of the prominent scientist in this field are examined in the article. The main aspects of Ziyad Samadzadeh's sustainable and effective activity during the Soviet Union on the current problems of the economy of the Republic of Azerbaijan, in particular, the deployment of labor resources and productive forces, the diversification of the economy are given. In the first years of the restoration of independence in Azerbaijan, important aspects of the multifaceted political, social and economic activity of academician Ziyad Samadzadeh are considered then. The great importance of his scientific works and approaches in improving the model of economic development of Azerbaijan and the formation of conceptual provisions are studied too. Recently, the scientific and practical contributions of the prominent scientist in the diversification of our national economy, strengthening its economic security are given. Approaching his contribution to the sustainable development of the Azerbaijani economy and increasing its competitiveness, generalizations in the scientific activity of academician Ziyad Samadzadeh to reveal the problems of economic security and identify solutions are made.

AZƏRBAYCAN İQTİSADİYYATINDA Z.Ə.SƏMƏDZADƏNİN ELMİ YARADICILIĞININ ROLU VƏ ƏHƏMİYYƏTİ

Orucəliyeva Bəsti Əli qızı. i.f.d., dos.
Dosent Sumqayıt Dövlət Universiteti.
bestioruceliyeva@gmail.com
Orucəliyeva Şəkər Şahlar qızı
Müəllim Azərbaycan Dövlət Pedaqoji Universiteti.
oruceliyeva.sheker@gmail.com

Azərbaycan iqtisadi fikrini ləyaqətlə təmsil edən,iqtisad elminin inkişafında böyük xidmətlər göstərən yenilikçi alim,dövlət xadimi,AMEA-nın həqiqi üzvü iqtisad elmləri doktoru,professor, akademik Ziyad Əliabbas oğlu Səmədzadənin anadan olmasının 80 illiyi qeyd olunur.

Z.Ə.Səmədzadə iqtisad elmində meyarların dəyişdiyi bir vaxtda iqtisadi hadisələrə yeni yanaşmaları görən və təhlil edən uzaqgörən,iqtisad elminin ideoloji çərçivədən çıxaraq öz təbii məcrasına düşməsinə əmək sərf edən alimlərimizdən biridir.Akademik Z.Ə.Səmədzadə ən mötəbər məclislərdə xalqını ləyaqətlə təmsil edən ictimai xadimdir.Respublika iqtisadiyyatının və iqtisad elminin rastlaşdığı elə bir problemli sahə yoxdur ki,alim bu problemin həllinə öz münasibətini bildirib,həlli yollarını tapmasın.Plan-maliyyə sistemi,əmək məhsuldarlığı,əhalinin məşğulluq strukturu regional iqtisadiyyatın səmərəliliyi,təkrar istehsalın sürəti və proporsiyaları,istehsalın səmərəlilik göstəriciləri,iqtisadi artım,qeyri-istehsal sahəsi,iqtisadiyyatda struktur irəliləyişləri milli gəlirin surəti ictimai istehsalın strukturu və səmərəliliyi,demoqrafik inkişaf və əmək ehtiyatları, büdcə və vergi siyasəti, keçid dövrü, iqtisad elminin müasir vəziyyəti,Neft Fondu,neftin qiyməti, qloballaşan iqtisadiyyatda sahibkarlıq fəaliyyəti,regional inkişaf, kadr məsələsi, respublikanın inkişafında millilik və dünyəvilik,Azərbaycan iqtisadi fikir tarixi və s. Akademikin yaradıcılığında müraciət etdiyi problemlərin tam olmayan bir siyahısıdır.

Akademik 550-dən çox elmi əsərin, xeyli sayda elmi araşdırmaların,bir çox monoqrafiyaların müəllifidir.Onun elmi yaradıcılığını təhlil etmək fikrimcə Azərbaycan iqtisadi fikir tarixinin mühüm tədqiqat obyekti ola bilər.

Z.Ə.Səmədzadənin çoxşaxəli iqtisadi fəaliyyətinin başlandığı il 60-cı illərə təsadüf edir.Onun ilk əsəri "Azərbaycan SSRİ-də əmək məhsuldarlığı və əhalinin məşğulluğunun sahə quru-luşu"monoqrafiyasıdır.

Akademik hələ 50 il bundan əvvəl qeyri istehsal sahəsinin sürətlə inkişaf etməsini və onun strukturunun yaxşılaşdırılmasını respublikanın tərəqqisi üçün əsas amil hesab edirdi.Respublikada xalq təsərrüfatında əmək məhsuldarlığının səviyyəsi əmək məhsuldarlığının,əsas amillərinin təhlili,onun iqtisadiyyatda struktur irəliləyişləri və qarşılıqlı əlaqəsinin elmi konsepsiyasının formalaşması məsələləri də məhz Z.Səmədzadənin fəaliyyəti ilə bağlıdır.(1)

Z.Səmədzadənin əmək məhsuldarlığı problemlərinə aid bir sıra silsilə əsərləri:"Əmək məhsuldarlığı və məhsulun strukturu","İctimai istehsalın strukturu və səmərəlilik","Bakının sosial-iqtisadi inkişafı",1970-ci illərdə Azərbaycan iqtisadiyyatının inkişafı problemləri olmuşdur ki,bu əsərlərə görə də alim elm və texnika sahəsində mükafata layiq görülmüşdür.

1980-ci illərdə alim təkcə əsərlər yaradıb problemləri üzə çıxarmaqla və həmin problemlərin həlli yollarını göstərməklə kifaytlənməmişdir.Akademik eyni zamanda bir sıra iqtisadi alimlərə rəhbərlik edərək onlarla birlikdə "1980-ci illərdə respublikada Demoqrafik inkişaf və əmək ehtiyatlarından istifadə","Dağ rayonlarının sosial-iqtisadi inkişafı","Material tutumu","Enerji tutumu" adlı inkişaf proqramlarını da hazırlamışdır.Bu proqramlar özünün hər bir rayon və şəhərdə sahələr üzrə mövcudluğu ilə fərqlənirdi.Bu da o zaman iqtisadiyyatda sərt planlaşma və idarəetmə sistemində mühüm uğur hesab olunurdu.Akademikin yaradıcılığında regionların,Bakının iqtisadi inkişafının mühüm problemlərinin həlli xüsusi yer tutur.Elə o vaxt Ziyad Səmədzadə regionların inkişafı haqda 46 səhifəlik monoqrafiya hazırlamış ali idarəetmə orqanlarına təqdim etmişdir. (2) 1980-ci ilin axırlarında Azərbaycanda yaranmış Qarabağ problemi hamının olduğu kimi akademik Ziyad Səmədzadəni də narahat etmişdir.

O vaxt erməni akademiki Aqanbekiyan tərəfindən Azərbaycana qarşı irəli sürülən ittihamlar:Qarabağda ermənilərin həyat səviyyəsinin dözülməz olması,ermənilərə qarşı ayrı-seçkilik edilməsi ilə bağlı yalanlar, iftiralar səsləndirildi.Məhz o dövrdə ermənilərə,Aqanbekyana tutarlı cavab vermək tələb olunurdu.Ermənilərin cavabın həm də tanınmış dövlət işçiləri və ya məhz iqtisadçı Ziyad Səmədzadə kimi alimlərin verməsi vacib idi.Alim ermənilərin Azərbaycanın Qarabağ bölgəsində sosial-iqtisadi gerilik haqqında iradlarının geniş təhlilinə başladı.Ziyad Səmədzadənin o dövrdə də apardığı tədqiqatlar "Dağlıq Qarabağ:naməlum həqiqətlər", "Naqorniy Karabax-neizvestnaya pravda" kitablarında öz əksini tapmışdır. Ziyad Səmədzadənin bu yazdığı əsərlərdə akademik Aqanbekyanın 2 yalançı tezisinə tutarlı cavablar verildi və deyildi:ermənilərin ortaya atdığı sosial-iqtisadi gerilik Qarabağ münaqişəsində bir bəhanədir.(3)

Elə o vaxtlar Ziyad Səmədzadənin Dağlıq Qarabağ haqqında yazdığı kitablar həm azərbaycanca, həm də bir neçə xarici dildə nəşr olunurdu.

Alimin elmi fəaliyyətində Azərbaycanın iqtisadi müstəqilliyi probleminin araşdırılması xüsusi yer tutur.Ziyad Səmədzadə öz həmkarları ilə SSRİ və başqa respublikalar üzrə xeyli miqdarda toplanmış müqayisəli materiallar əsasında elmi hesablamalar apararaq,mərkəzləşmiş plan-maliyyə sisteminə xas olan qüsurları üzə çıxartmışdır.

Məhz bununla Ziyad Səmədzadə sübut etdiki respublikanın ərazisində yaradılmış milli gəlirdən istifadə etmək göstriciləri olduqca aşağıdır(4).Elə o vaxt alınan bu nəticə Azərbaycanın iqtisadi müstəqilliyi haqqında qanun layihəsi üçün əsas götürüldü.

Ziyad Səmədzadənin rəhbərliyi ilə elə o vaxtlar,1989-cu ildə Azərbaycanın iqtisadi müstəqilliyi problemlərinə həsr olunmuş iki beynəlxalq elmi-praktik konfrans keçirildi.

Ziyad Səmədzadənin "Dünya iqtisadiyyatı"," Çin iqtisadi möcüzəsi","Çin qlobal dünya iqtisadiyyatında"və başqa əsərləri Çində,MDB dövlətlərində,Avropa və Asiya ölkələrində çox yüksək qiymətləndirilmişdir.Çin iqtisadi inkişafını Azərbaycanda tədqiq edən ilk alimlərdən biri məhz akademik Ziyad Səmədzadədir.Akademik özünün elmi əsərləri tədqiqat nəticələri ilə mövcud fəaliyyətlərin ön sırasında dayanır.Alim əsərlərində Azərbaycan İqtisadiyyatının daha davamlı inkişafını təmin etmədə beynəlxalq təcrübədən hərtərəfli faydalanmağı əsas götürür.(5)

Ziyad Səmədzadə Azərbaycanı 40 ildən çoxdur ki xarici dövlətlərdə keçirilən simpozium və konqreslərdə ləyaqətlə təmsil edir.

Ziyad Səmədzadə öz ideyalarınını xalqa çatdırmaq üçün 1982-1992-ci illərdə redaktoru olduğu " Azərbaycanın xalq təsərrüfatı"jurnalından geniş istifadə etmişdir.O,eyni zamanda 1992-ci ildə" Iqtisadiyyat"adlı qəzet də təsis etmişdir.Akademik qəzetdə Böyük Vətən müharibəsindən arxiv materiallarına əsaslanaraq silsilə məqalələr nəşr etdirmişdir.

Prezident İlham Əliyevin müəyyən etdiyi inkişaf strategiyasının təbliği sahəsində Ziyad Səmədzadə bu gün də yorulmadan fəaliyyət göstərir regionların inkişaf proqramının reallaşdırılmasının nəticələrini əks etdirən xüsusi nəşrlər hazırlayır.Akademik Postsovet dövründən bu günə kimi Azərbaycanın sosial-iqtisadi inkişafı barədə yorulmadan araşdırmalar aparır.

Alimin parlament fəaliyyəti də diqqətə layiqdir.O Milli Məclisin İqtisadiyyat və siyasət komitəsinin Sədri kimi də bir çox işlər görür.Alim iqtisadi qanunvericilik bazasının möhkəmləndirilməsi, ölkənin iqtisadi inkişaf strategiyasının büdcə-vergi siyasətinin maliyyə sisteminin təkmilləşdirilməsi məsələlərinin həllində fəal iştirak edir. 80 yaşı tamam olan akademik daha böyük həvəslə,enerji ilə Azərbaycanın sosial-iqtisadi inkişafına kömək olan tədqiqatçılar üzərində yorulmadan işləyir öz tövsiyyələrini hazırlayır, səmərəli ictimai fəaliyyət göstərir.

Görkəmli alim Ziyad Səmədzadəyə gördüyü bu işlərdə müvəffəqiyyətlər arzulayırıq.

Ədəbiyyat

1.Z.Ə.Səmədzadə " Azərbaycanda SSRİ-də əmək məhsuldarlığı və əhalinin məşğulluğunun sahə quruluşu"(monoqrafiya) Bakı 1973

2.Z.Ə.Səmədzadə "Bakının sosial-iqtisadi inkişafı" (monoqrafiya) Bakı 1970

3. Z.Ə.Səmədzadə " Dağlıq Qarabağ:naməlum həqiqətlər" Bakı 1995

4.Z.Ə.Səmədzadə "İctimai istehsalın strukturu və səmərəliliyi"(monoqrafiya) Bakı 1980

5. Z.Ə.Səmədzadə "Çin qlobal dünya iqtisadiyyatında" Bakı 2009

DAYANIQLI İNKİŞAFIN NƏZƏRİ-METODOLOJİ MƏSƏLƏLƏRİ

İQTİSADİYYATIN DAYANIQLILIĞINA MİLLİ İNKİŞAF MODELİNİN TƏSİRİ

Elşən Əli oğlu İbrahimov, i.f.d., dosent
Azərbaycan Kooperasiya Universiteti
e-mail: elwen.1977@mail.ru

Xülasə

Tədqiqatlar göstərir ki, hər bir ölkədə milli iqtisadi inkişaf modeli sosial-iqtisadi proseslərin tənzimlənməsinə və təkmilləşdirilməsinə xidmət etməklə xüsusi əhəmiyyət kəsb edir. Bu model ölkədə dayanıqlı və davamlı inkişafa təkan verməklə, onun daha yetkin formalaşmasına etibarlı zəmin yaradır. Məhz bu baxımdan da təqdim olunan məqalədə iqtisadiyyatın dayanıqlılığına milli iqtisadi inkişaf modelinin təsiri məsələləri həm nəzəri cəhətdən, həm də Azərbaycanın reallıqları modeli nöqteyi-nəzərdən təhlil və şərh edilmişdir. Milli iqtisadi inkişaf modelinin strateji baxımdan dünyada gedən qloballaşma və inteqrasiya prosesləri ilə əlaqədar təkmilləşdirilməsi və inkişaf etdirilməsi kompleks şəkildə araşdırılmışdır.

Müəllif qeyd edilən istiqamətlərə uyğun müvafiq materialları tədqiq etmiş, ümumiləşdirmələr apararaq bir sıra təklif və tövsiyələr irəli sürmüşdür.

Açar sözlər: milli iqtisadiyyat, iqtisadi inkişaf, inkişaf modeli, dayanıqlı inkişaf, iqtisadi tərəqqi

Giriş

Milli iqtisadiyyat inkişaf etdikcə və qlobal məkana inteqrasiya olunduqca, müsbət təsirlərlə yanaşı bu və ya digər problemləri də qabartmış olur. Əslində, belə problemlər daha çox qlobal iqtisadiyyata uyğunlaşmaq zərurətindən qaynaqlanır. Belə problemlərdən biri də milli iqtisadi tərəqqi və onun modeli məsələləridir. Araşdırmalar göstərir ki, müstəqillik əldə etdikdən sonra bu problem respublikamızda özünü büruzə verdikcə bu və ya digər formada qabardılaraq müəyyən fikirlər söylənilsə və yazılsa da, hazırki dövrdə də öz aktuallığını saxlamaqdadır. Bu isə ona dəlalət edir ki, milli iqtisadi model probleminin şərh olunması zərurət təşkil etməklə aktuallığı ilə həmişə gündəmdədir.

Milli iqtisadi inkişaf və onun Azərbaycan modeli

Milli iqtisadi inkişaf modeli iqtisadi həyatın sosial proseslərlə çulğalaşması məntiqinin təkcə bir istiqamətini yox, bütövlüyünü ifadə edir. Məhz bu baxımdan onun tədqiq olunması və araşdırılması çoxtərəfli istiqamətlərdə özünü büruzə vermiş olur. Buna görə də milli iqtisadi model haqqında birdən-birə mükəmməl fikirlər yürütmək şübhəsiz ki, çətindir. Milli iqtisadi inkişaf modeli strateji baxımdan işlənilmiş olsa da o, taktiki baxımdan dünyada gedən qloballaşma prosesləri ilə bağlı daim təkmilləşdirilməli və inkişaf etdirilməlidir. Bu model, ilk öncə ölkə iqtisadiyyatının bütövlüyü baxımından işlənilməli və nəticə etibarilə respublikamızın davamlı inkişafı yolunda aydınlaşdırıcı, istiqamətverici bir əsas olmalıdır. Təbii ki, dayanıqlı və davamlı inkişaf üçün modeldə iqtisadiyyatın bütün sahələrinin yeri düzgün müəyyənləşdirilməlidir. Bu prosesi aydınlaşdırmaq üçün isə, ilk öncə modelin mahiyyət və məzmun çalarlarına baxmaq yerinə düşərdi.

Bir sıra iqtisadçıların fikrincə, hər bir ölkədə iqtisadiyyatın müstəqil, milli maraqlara əsaslanan modelinin formalaşmasında dörd əsas şərtdə - ərazi birliyi, ərazi əmək bölgüsü, iqtisadi birlik və istehsalın kompleks inkişafının olmasına əməl olunmalıdır. Burada əvvəlki iki şərt hər bir dövlətin iqtisadi atributu olmaqla, ərazisinin bütövlüyünü, sərhədlərinin toxunulmazlığının qorunmasını, təbii və iqtisadi potensialına uyğun milli, məhsuldar qüvvələrini yaradıb məqsədəuyğun yerləşdirilməsini təcəssüm etdirir. Üçüncü şərt ölkənin ayrı-ayrı əraziləri arasında qarşılıqlı əlaqələrin inteqrasiyası nəticəsində iqtisadiyyatın böyüklüyü və tamlığını, dördüncü şərt isə əvvəlki şərtin mövcudluğundan irəli gələrək məhsuldar qüvvələrin inzibati-ərazi vahidləri üzrə sosial-iqtisadi zəminə uyğun optimal yerləşdirilməsi ilə milli iqtisadiyyatın əsaslarının yaradılmasını əks etdirir [5].

Model ölkə iqtisadiyyatının sosial proseslərlə çulğalaşması məntiqini kompleks şəkildə ifadə edərək, qabaqcıl və inkişaf etmiş ölkələrin təcrübəsini öyrənmək, milli mənafeləri özündə əks

etdirən demokratik dövlət quruculuğunun əsas istiqamətlərindən birini təşkil etməlidir. Buna görə də onun düzgün müəyyən edilərək həyata keçirilməsi çoxtərəfli istiqamətlərdə aparılmalıdır. Əlbəttə, yetkin və bütöv iqtisadi inkişaf modeli haqqında birdən-birə mükəmməl fikirlər söyləmək çətindir. Özünəməxsus xüsusiyyətlərə malik olan bu model hər bir iqtisadi-təsərrüfat subyektinin, regionların və bütövlükdə dövlətin güclü, möhkəm və dayanıqlı inkişafını təmin edən məntiqlərə söykənməli, səmərəli bazar münasibətlərinin təkmilləşdirilməsi əsasında idarə olunan sosial-iqtisadi yüksəlişin əsas parametrlərini özündə əks etdirməlidir. Təbii ki, inkişaf etmiş ölkələrdə olduğu kimi, Azərbaycanda da bazar münasibətlərinin təşəkkülü və inkişafının əsas məqsədi-milli dirçəlişin, dayanıqlı və davamlı inkişafın sürətlə qloballaşan dünya dövlətlərinin iqtisadi inteqrasiyasına qovuşmanın tam təmin edilməsidir. Bu baxımdan qeyd etmək olar ki, hal-hazırda dünyada formalaşdırılmış iqtisadi modellərin təhlili nəticəsində optimal variant kimi Azərbaycanda "tənzimlənən sosial bazar iqtisadiyyatı modeli" qurulmaqla, sosial-iqtisadi inkişafın dayanıqlılığı və davamlılığı təmin edilmişdir. Hesab etmək olar ki, bu variant Azərbaycan xalqının və dövlətin mənafelərinə tam uyğun olmaqla müsbət xüsusiyyətləri ilə özünü doğrultmuşdur.

Azərbaycanın iqtisadi inkişaf modeli hər bir istehsal və təsərrüfat subyektinin, coğrafi mənada ərazinin, sosial-iqtisadi baxımdan xalqın, millətin iqtisadi-sosial mənafelərini özündə təcəssüm etdirən, respublikanın dövlət müstəqilliyinin təmin olunması prinsiplərinə söykənən bazar iqtisadiyyatının formalaşdırılması əsasında idarə olunan milli, sosial-iqtisadi tərəqqimizin gələcək strateji məqsədlərinin əsas cəhətlərini özündə ifadə etməlidir. Bütövlükdə, nəzərə almaq lazımdır ki, bazar iqtisadiyyatı münasibətlərinə keçid məqsəd deyil, milli iqtisadi tərəqqinin və sivil ölkələrin iqtisadi inteqrasiyası yolunda mühüm vasitədir. Şübhəsiz, bu baxımdan respublikamızın iqtisadi inkişaf modeli çoxçalarlıdır, bununla belə, mühüm əhəmiyyət kəsb edən məqamların əlavə edilməsi də maraq doğuran hallardandır.

İqtisadi inkişaf modelinin davamlı inkişafa təsiri

İqtisadi inkişaf modeli vahid sistem kimi sabit, keyfiyyətcə real olan elementlərdən ibarətdir və onların qarşılıqlı əlaqəsi şəklində bütöv formada fəaliyyət göstərir. Bu modelin təbiətinə uyğun təsərrüfat mexanizmi və idarəetmə sistemi də fəaliyyət göstərir. Bütün bunları nəzərə alaraq qeyd etmək olar ki, milli inkişaf modelinin düzgün müəyyən olunması və təşəkkül tapmasında kor-koranə deyil, düşünülərək elmi cəhətdən əsaslandırılmış, düzgün müəyyən edilmiş üsullardan istifadə edilməlidir. Həm də ona görə ki, bu model dayanıqlı və davamlı inkişafı təmin edə bilsin.

Davamlı inkişafa dair beynəlxalq sənədlərdən, eləcə də milli iqtisadi inkişaf modelinə dair aparılan araşdırmalardan belə nəticəyə gəlinir ki, ölkə iqtisadiyyatında tələbatlar sistemi müəyyənləşdirməli, bu və ya digər dərəcədə prioritet istiqamətləri ortaya qoyulmalıdır. Həm də bu tələbatların əsaslandırılması ehtiyatlar məntiqinə söykənməli və iqtisadi inkişafın təkcə kəmiyyət tərəflərini yox, keyfiyyət hallarını da nəzərə almalıdır. Bu modelin müstəsna əhəmiyyəti və mühüm prinsiplərindən biri də ölkənin davamlı iqtisadi inkişafı ilə paralel müxtəlif əhali qruplarının maddi rifah halının dinamik olaraq yaxşılaşdırılmasında ifadə olunmalıdır. Göründüyü kimi, davamlı inkişaf və iqtisadi tərəqqi modeli eyni tələbləri özündə cəmləşdirir. Belə ki, davamlı inkişaf resurslardan qənaətlə istifadəni, indiki nəslin tələbatının gələcək nəslin tələbatına toxunmadan ödənilməsini tələb etdiyi halda iqtisadi inkişaf modelinin isə ehtiyatları nəzərə alması, iqtisadi inkişafın təkcə kəmiyyət tərəflərini deyil, keyfiyyət tərəflərini də əhatə etməsi və yekunda bütün bu məsələlərə kompleks yanaşılması tövsiyə edilir.

Milli iqtisadi sistemin formalaşması və inkişafının əsas şərtlərindən biri də onun tənzimləmə mexanizminin düzgün müəyyən edilməsidir. Təhlillər göstərir ki, müasir iqtisadi sistemlər təkcə bazar mexanizmi ilə avtomatik şəkildə idarə oluna bilməz. Bu isə öz növbəsində dövlətin tənzimləyici rolunun yüksəldilməsini ortaya qoyur. Ümumiyyətlə, müasir iqtisadi sistemin dövlət tərəfindən tənzimlənməsi dedikdə, bu sistemin sabit və dayanıqlı inkişafına nail olunması, iqtisadiyyata müdaxilənin ölçü və hədlərinin düzgün müəyyən edilməsi, həmçinin dövlətin əlində olan mülkiyyətin optimal həcmdə olmasıdır. Optimal həcm dedikdə o başa düşülür ki, həmin göstərici ictimai tələbatın ödənilməsinin əsas amili kimi çıxış etsin. Burada iqtisadi proselərin düzgün proqnozlaşdırılması, proqramlaşdırılması və planlaşdırılması da dövlətin həll etməli olduğu məsələlərdən hesab edilir.

Əksər ölkələrdə, o cümlədən Azərbaycanda öz xarakteri etibarilə qarışıq iqtisadiyyat mövcuddur. Belə ki, burada müxtəlif mülkiyyət formalı təsərrüfat formaları fəaliyyət göstərir. Lakin xüsusi mülkiyyət və strateji sahələrdə dövlət mülkiyyəti daha üstün mövqeyə malikdirlər. Bu sistemdə təsərrüfat mexanizmi formasında bazar mexanizmi və dövlətin tənzimləmə mexanizmi aparıcı rol oynayır. Buna görə də, Azərbaycanın mili iqtisadi inkişaf modelinin formalaşdırılmasında iqtisadiyyatın qarışıq xarakterdə olması nəzərə alınmalı, fərqli mülkiyyət növlü təsərrüfat formalarını əlaqələndirmək üçün xüsusi əlaqələndirici bir mexanizm tətbiq edilməlidir. Həm də nəzərə almaq lazımdır ki, bazar münasibətlərinə uyğun inkişaf edən ölkə iqtisadiyyatında sosial proseslər və sosial yönümlülük də mühüm yer tutmalıdır. Bu proseslərin dövlət tərəfindən tənzimlənməsində isə plan-proqram mexanizminin üstünlüklərindən istifadəyə də ehtiyac yaranır. Buna görə də milli inkişaf modelinin formalaşmasında sosial yönümlü və planlı-proqramlı tənzimlənən bazar iqtisadiyyatı modelinə üstünlük verilməsi davamlı iqtisadi tərəqqinin zəruri şərti kimi qəbul edilməlidir. İqtisadi sistemin mahiyyətini və təşəbbüskarlıq, yaradıcılıq meyillərini özündə əks etdirən təsərrüfatçılıq formalarının, azad sahibkarlığın inkişafına da daimi qayğı göstərilməsi də mühüm məsələlərdən biridir. Bu istiqamətdə Azərbaycan dövlətinin həyata keçirdiyi tədbirlər, gördüyü işlər göz qabağındadır. Bununla yanaşı, sahibkarlıq və təşəbbüskarlıq meyillərinin inkişafına dövlət qayğısı daha da artırılmalı, haqsız rəqabətə qarşı antiinhisar tədbirləri genişləndirilməli, maliyyə - kredit, vergi, qiymət və digər iqtisadi vasitələrlə yerli sahibkarlar, xüsusən də istehsalçılar daim həvəsləndirilməlidirlər. Dövlətin həyata keçirdiyi tədbirlər ölkə iqtisadiyyatının özəl və dövlət bölmələrinin davamlı və səmərəli inkişafına elə şərait yaratmalıdır ki, onlar qarşılıqlı şəkildə fəaliyyət göstərərək, milli iqtisadi inkişaf modelinin təşəkkülündə öz funksiyalarını və öhdəliklərini layiqincə yerinə yetirə bilsinlər.

Davamlı iqtisadi inkişafın hədəfləndiyi müasir bazar münasibətləri şəraitində iqtisadi inkişafla sosial siyasətin uzlaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Nəzərə alınmalıdır ki, dövlətin sosial siyasəti-cəmiyyətin sosial-iqtisadi fəaliyyətinin tənzimlənməsi istiqamətlərindən biridir. Bu siyasətin məzmunu isə sosial təsisatlar, cəmiyyətin müxtəlif təbəqələri, həmçinin onların sosial durumu və şəraitlərinin yaxşılasması, cəmiyyət üzvlərinin həyat səviyyəsinin yüksəldilməsi üçün şəraitin təmin edilməsi, ictimai istehsalda iştirak etmək üçün səmərəli iqtisadi sistemi formalaşdırmaqla, sosial təminatın yaradılmasından ibarətdir. Azərbaycanın son illərdə iqtisadi inkişaf sahəsində əldə etdiyi nailiyyətlər və perspektivlər buna imkan verir. Unutmaq olmaz ki, sosial siyasətin düzgün müəyyənləşdirilməsi və təminatı bilavasitə iqtisadiyyatla bağlıdır. Eyni zamanda, sosial inkişaf həm də davamlı inkişaf tələblərindən irəli gələn bir zərurətdir.

Bildiyimiz kimi, 90-cı illərin əvvəllərində Ermənistan özünün havadarlarının köməkliyi ilə respublikamızın zəngin təbii-iqtisadi potensiala malik, füsünkar Qarabağ regionunu və ona bitişik 7 rayon olmaqla bütövlükdə 20 faizini işğal etmişdir. Kifayət qədər qururverici haldır ki, Müzəffər Ali Baş Komandanımız Cənab İlham Əliyevin rəhbərliyi ilə Rəşadətli ordumuz 27 sentyabr 2020-ci ildən başlayaraq 44 gün müddətində torpaqlarımızı işğaldan azad etmişdir. Vətən müharibəsinin (İkinci Qarabağ) Azərbaycanın qələbəsi ilə yekunlaşması ölkəmizin zəngin təbii resurslarının əhəmiyyətli hissəsinin yerləşdiyi işğaldan azad olunmuş ərazilərdə maliyyə mənbələrinin formalaşdırılması və iqtisadi artım hesabına inkişaf perspektivləri yüksək qiymətləndirilir. Bu məqsədlə prioritet sahələr üzrə müəssisələr şəbəkəsinin yaradılması, emal baxımından perspektivli olan iqtisadiyyat sahələrinin potensialının təsərrüfat və maliyyə dövriyyəsinə cəlb edilməsi vəzifələrini reallaşdırmaq vacib hesab olunur. Həyata keçiriləcək "Yaşıl enerji" zonaları, "ağıllı kənd" layihələri və bunlarla bağlı yüksək texnologiyaların bu ərazilərə gətirilməsi Qarabağ regionunun sosial-iqtisadi inkişafı ilə bərabər, intelektual inkişafın və insan kapitalından səmərəli istifadə edilməsinin yeni resurslarını formalaşdıracaqdır. Təbii sərvətlərin, faydalı qazıntıların işlənməsi investisiyalar quruluşu baxımından da böyük perspektivlər vəd edir. Qeyd edilən məsələlərin reallaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 24 noyabr 2020-ci il tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin İqtisadi Məsələlər üzrə işçi qrupu tərəfindən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2021-2025-ci illər üzrə bərpası və dayanıqlı inkişafı Dövlət Proqramı" hazırlanmışdır.

Ölkəmizdə uğurla həyata keçirilən iqtisadi-sosial islahatlar sürətli iqtisadi inkişafla yanaşı, əhalinin həyat səviyyəsi və yaşayış tərzinin yüksəlməsinə də müsbət təsir göstərmişdir. Əslində bu təbiidir, çünki iqtisadi amillə sıx bağlı olan sosial siyasət birinci növbədə müvafiq vəsaitlərin toplanması və onun iqtisadiyyatın ümumi inkişafına sərf edilməsi, sonra isə bu vəsaitlərdən əhalinin tələbat strukturu nəzərə alınmaqla istifadə olunması ilə əlaqədardır. Bu prinsipə ölkənin iqtisadi və sosial inkişaf siyasətində xüsusi diqqət yetirilir, əhalinin rifah halının yaxşılaşdırılmasının konkret istiqamətləri müəyyən edilir. Bunlar isə, əsasən əmək haqqının minimum hissəsinin yaşayış minimumuna uyğunlaşdırılması, ölkədə işsizliyin səviyyəsinin aşağı salınması və yeni iş yerlərinin açılması, inflyasiyanın qarşısının alınması və digər istiqamətləri əhatə edir. Təsadüfi deyil ki, Azərbaycanda işsizlik 2005-ci ildə 317,8 min nəfər və ya 3,7 faiz, 2010-cu ildə 258,3 min nəfər və ya 2,8 faiz olduğu halda 2019-cu ildə 234,9 min nəfər və ya 2,3 faiz təşkil etmişdir. Həmçinin, son 16 ildə uğurla həyata keçirilən məşğulluq strategiyasının nəticəsində ölkədə 2,2 milyondan çox yeni iş yerləri açılmışdır ki, bunun da təxminən 1 milyon 563 mini yeni daimi iş yerlərinin payına düşmüşdür. Qeyd etmək yerinə düşər ki, təkcə 2019-cu il ərzində ölkədə 238 947 yeni, o cümlədən 127 428 daimi iş yeri açılıb [8].

Müşahidələr onu göstərir ki, müasir şəraitdə hərtərəfli sosial-iqtisadi uğurlarla yanaşı, müəyyən çatışmazlıqlar da mövcuddur. Məsələn, bunlardan biri onunla bağlıdır ki, əhali gəlirlərinin artımı ilə ümumi daxili məhsulun (ÜDM) yüksəlişində uyğun əlaqəli və elmi cəhətdən əsaslandırılmış koordinasiya meyilləri gözlənilən səviyyədə deyil. Bu amil özünü, əsasən iqtisadi differensiyanın yüksəlməsi ilə göstərir. Məhz buna görə də, energetika və xammal-resurs ixracı modelindən iqtisadi inkişafın innovasiya modelinə keçid - yeni və təkmil modelin formalaşdırılmasını ön plana çəkir. Bu modelin tərkib elementləri daxilində iqtisadi sərbəstliyin, sosial ədalətin və milli rəqabətqabiliyyətliliyinin balanslaşdırılması və stimullaşdırılması da mühüm rol oynayır. Müvafiq yanaşma resurs-müddət və icra mərhələləri arasında qarşılıqlı bağlılığı təmin edəcək bir çox istiqamətlər üzrə kompleks əlaqələndirməni tələb edir.

Burada başlıca məsələlərdən biri kimi, ölkənin insan potensialının inkişafına, əsasən də onun keyfiyyət cəhətlərinə xüsusi diqqət yetirilməsidir. Bu amil hər bir cəmiyyət üzvünün maddi və mənəvi rifah vəziyyətinin yaxşılaşdırılmasını, həm də onların həyat tərzinin yüksəldilməsi üçün mövcud potensiallarından səmərəli istifadə etməsində əlverişli mühitin yaradılmasını ön plana çəkir. Tədqiqatlar göstərir ki, nəticə olaraq, ölkə həyatının hər bir sahəsində rəqabətqabiliyyətli insan kapitalı yetişəcəkdir ki, bu da konsepsiyanın məqsəd və vəzifələrinin icrasının təmin olunmasında yüksək əhəmiyyət kəsb edir. Bütün bu amillər isə, müsbət meyillərin əldə olunmasına öz mühüm təsirini göstərə bilər. Belə ki, cəmiyyətdə neqativ demoqrafik meyillərin qarşısının alınması, əhalinin say artımında nəzərdə tutulan stabilliyin yaranması və onun artım imkanlarının yüksəlməsi, ölkədə həyat tərzinin getdikcə yaxşılaşması, əməkhaqqı sistemində səmərəli metodların tətbiq edilməsi, onun davamlı artımı üçün əlverişlı şəraitin yaradılması, bütün bu amillərin əmək məhsuldarlığının artım tempi və işçi qüvvəsinin keyfiyyət göstəriciləri ilə əsaslı şəkildə əlaqələndirilməsi iqtisadi tərəqqinin davamlılığı baxımından zəruridir [4; 5;6].

Davamlı iqtisadi inkişafa nail olmağın vacib məsələlərindən biri də seçilmiş inkişaf modelində institusional mühitin və sahibkarlıq fəaliyyətinin inkişafı, iqtisadi artıma təsir edəcək amillərin, bazarda rəqabət qabiliyyətinin yüksəldilməsi məsələlərinin diqqət mərkəzində saxlanılmasıdır. Bu baxımdan yüksək rəqabət mühitini təmin edəcək institusional mühit yaratmaq, sahibkarlıq fəaliyyətində fəallığa və daha səmərəli yollarla kapital cəlbinə meyilli mexanizmi formalaşdırmaq, iqtisadiyyatda açıq və gizli lüzumsuz inhisar mühitini aradan qaldırmaq, bazarda sağlam rəqabətin yaradılması üçün bütün imkanlardan istifadə etmək, vergi sisteminin tətbiqində beynəlxalq standartlara keçidi təmin etmək, inkişaf üçün mane olan vergi yükünü daha səmərəli formalarla əvəz etmək, müasir texnologiyalar tətbiq, həmçinin peşəkar işçi və mütəxəssis heyətini cəlb etməklə istehsal məsrəflərini aşağı salmaq, yeni və müasir sahibkarlıq növlərinin və müəssisələrin yaradılmasına və fəaliyyətinə dəstək olmaq, onların işini stimullaşdırmaq günümüzün reallığından gələn zərurətdir. Bütün bunlarla yanaşı, davamlı inkişafı təmin edəcək iqtisadi inkişaf modelinin mühüm şərtlərindən biri də iqtisadiyyatda innovasiya texnologiyalarının inkişafına meyilliyin güclənməsi və əlverişli strukturun formalaşdırılmasıdır. Bunun üçün milli innovasiya sistemini formalaşdırmaqla

təhsil sahəsinin elmi tədqiqat işlərinə inteqrasiya etməsi, strateji sahələr üzrə fundamental nəticələr verən tədqiqatların genişləndirilməsi, bu istiqamətdə milli təsərrüfatların tələbatına uyğun çevik və səmərəli tənzimləyici mexanizmlərin yaradılması, rəqabətqabiliyyətli sahibkarlığın, intellektual mülkiyyət bazarının formalaşdırılması, elmi-texniki tərəqqinin nailiyyətlərinə əsasən innovasiya tədbirlərinin tənzimlənməsi və stimullaşdırılması mexanizminin qurulması zərurət təşkil edir.

Təbii ki, müasir qloballaşma şəraitində səmərəli modelin formalaşdırılması və davamlı iqtisadi inkişafın zəruri şərtlərindən biri də xarici iqtisadi əlaqələri daha da genişləndirmək, ölkənin beynəlxalq əmək bölgüsündə iştirakının səmərəli yollarını müəyyən etməkdir. Bunun üçün isə ilk növbədə iqtisadi inkişafda müqayisəli üstünlük imkanlarını dəqiqləşdirərək və qlobal təsirləri nəzərə alaraq, xarici bazarlarda iştirak səviyyəsini qiymətləndirmək və onun artırılması yollarını konkretləşdirmək, ölkəyə səmərəli şərtlərlə ucuz kapitalın, yüksək texnologiyaların və peşəkar mütəxəssislərin cəlbi üzrə tədbirlər sistemini hazırlamaq, ölkənin Avropa və Asiya bazarlarına tədricən iqtisadi inteqrasiya istiqamətlərini həyata keçirmək, inkişaf etmiş və inkişaf etməkdə olan qabaqcıl dövlətlərlə birgə iqtisadi fəaliyyətin təşkili üzrə zəruri mexanizm yaratmaq, Azərbaycan məkanında zəruri beynəlxalq maliyyə bazarının formalaşmasına nail olmaq məqəsəduyğundur.

Davamlı iqtisadi tərəqqinin zəruri amillərindən biri də iqtisadi inkişafın yeni ərazi, məkan modelini yaratmaqdır. Burada əsas prinsiplərdən biri – respublikamızın inkişafının milli mənafe prinsiplərinə uyğun konkret coğrafi-tarixi şərait çərçivəsində, bütövlükdə müstəqilliyimizə söykənən, iqtisadiyyatımızın geniş təkrar istehsalı baxımından qarşılıqlı əlaqədə olan sahələrin mənafelərinin uzlaşdırılması, onların qarşılıqlı iqtisadi münasibətlərinin son nəticəsinə görə bazar iqtisadiyyatının tələblərinə uyğun qurulması və s. ilə qabaqcıl ölkələr səviyyəsinə yüksələrək, sivil və normal həyat tərzi üçün əsas yaratmalıdır. Başqa sözlə desək, iqtisadi inkişaf modeli formalaşdırılarkən, respublika iqtisadiyyatının kompleksliliyi regional inkişaf və bütövlüyü baxımından işlənilməli, iqtisadiyyatın strukturunda müxtəlif sahələrin mövqeyi və perspektivləri müəyyənləşdirilməlidir [3; 7].

Nəticə.

Beləliklə, aparılan araşdırmalardan bu nəticəyə gəlmək olar ki, movcud potensial imkanları, coğrafi şəraiti, sosial inkişafı təmin edən iqtisadi inkişaf modeli davamlı inkişafa gətirib çıxara bilər. Hansı ki, bu model özəl sektorun və insan potensialının inkişafını, innovativ yanaşmaların, innovasiyaların tətbiqinin genişləndirilməsini nəzərdə tutur. Eyni zamanda, iqtisadi inkişaf modeli məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsinə, xarici iqtisadi əlaqələrin inkişafına, həyat səviyyəsinin dinamik şəkildə yaxşılaşdırılmasına, fasiləsiz iqtisadi artıma və s. imkan yaratmalıdır. Bütün bunlarla yanaşı, iqtisadi modelin formalaşdırılması da davamlı tərəqqini tələb edir. Hansı ki, bu davamlılıq da müəyyən prinsiplərə əsaslanır.

Ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikasının milli iqtisadiyyat və iqtisadiyyatın sektorları üzrə Strateji Yol Xəritələri // Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiqlənib. – Bakı, 2016.
2. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər // Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir. – Bakı, 2021.
3. Səmədzadə, Z.Ə. Böyük yolun mərhələləri – Azərbaycanın yarım əsrlik iqtisadiyyatı, onun yeni reallıqları və perspektivləri / Z.Ə.Səmədzadə. – Bakı, 2004. – 936 s.
4. Alıyev, İ.H. Milli iqtisadiyyat: modernləşmə və davamlı inkişaf / İ.H.Alıyev, S.Y.Hüseynov, A.M.Əsədov – Bakı, 2012. – 475 s.
5. Əhmədov, M.A. Qloballaşma və milli iqtisadiyyatın formalaşması / M.A.Əhmədov. – Bakı, 2003. – 520 s.
6. Hüseynov, T.Ə.Azərbaycanın milli iqtisadi inkişaf modeli: nəzəriyyə və praktika / T.Ə.Hüseynov - Bakı, 2015 - 466 s.
7. İbrahimov, E.Ə. İqtisadiyyatın davamlı inkişafının maliyyə-büdcə tənzimlənməsi və stimullaşdırılması problemləri / E.Ə.İbrahimov. Bakı: Kooperasiya, – 2018. – 320 s.
8. www.stat.gov.az

Эльшан Али оглы Ибрагимов, Д. Ф. Э., доцент
Азербайджанского Университета Кооперации,

Влияние модели национального развития на устойчивость економики

Резюме

Исследования показывают, что в каждой стране модель национального экономического развития имеет исключительно важное значение в регулировании и совершенствовании социально-экономических процессов. Эта модель создает надежную основу для дальнейшего устойчивого развития экономики. С этой точки зрения в статье проанализированы вопросы влияния национальной модели развития на устойчивость экономики как в теоретическом аспекте, так и исходя из реалий Азербайджана.

В комплексном порядке исследованы стратегические взаимосвязи национальных моделей развития экономики с общемировыми процессами глобализации и интеграции.

На основе анализа соответствующих научных источников сделаны обобщения, представлены предложения и рекомендации по затронутым вопросам.

Ключевые слова: национальная экономика, экономическое развитие, модель развития, устойчивое развитие, экономический прогресс.

Elshan Ali Oglu Ibrahimov, PhD in economics of Azerbaijan Cooperative University,

The impact of national development model on the sustainability of the economy

Abstract

The researches show that the model of National Economic Development in each country is of particular importance, serving the regulation and development of socio-economic processes. This model should form the basis for sustainable and sustainable development in the country by responsibility. In this regard, the article analyzes and interprets the issues of the impact of the national economic development model on the stability of the economy both theoretically and from the point of view of the development model of Azerbaijan. The improvement and development of the national economic development model in relation to the globalization and integration processes taking place in the world from a strategic point of view has been justified.

The author researched relevant materials in accordance with the mentioned directions, made generalizations and gave a number of suggestions and recommendations.

Keywords: national economy, economic development, development model, sustainable development, economic promotion.

DAYANIQLI İNKİŞAF VƏ RƏQƏMSALLAŞDIRMA

Ramiz Kamal oğlu İsgəndərov, i.e.d., professor
Azərbaycan Texniki Univesiteti
isgenderov_ramiz@mail.ru
Zaur Rauf oğlu Əsədov, i.f.d.
Azərbaycan Dövlət Neft və Sənaye Univesiteti
asadovz@mail.ru

Xülasə

Məqalədə dayanıqlı inkişaf anlayışının respublikamızın gələcəyi üçün əhəmiyyəti açıqlanmış, bu prosesin həyata keçirilməsində rəqəmsallaşdırmanın yüksək effektivlik nümayiş etdirməsi qeyd olunmuşdur. Eyni zamanda dayanıqlı inkişaf konsepsiyalarının işlənib hazırlanması və tətbiqi prosesləri zamanı məlumatların toplanması, emal edilməssi və idarəetmə qərarlarının qəbul olunmasında rəqəmsallaşmanın üstünlüklərinə diqqət edilmişdir.

Respublikamızda dövlət tərəfindən dayanıqlı inkişaf və rəqəmsallaşmanın vacibliyi vurğulanmış, ölkəmizdə bu istiqamətdə qəbul olunmuş normativ sənədlər və həyata keçirilmiş proqramlar qeyd lunaraq, onların müasir iqtisadiyyatımıza etdiyi təsirlər açıqlanmışdır.

Açar sözlər: dayanıqlı inkişaf, rəqəmsallaşma, maliyyə dayanıqlılığı, strateji dayanıqlılıq, rəqəmsal transformasiya, maşın öyrənmə, əşyaların interneti, virtual genişlənmiş reallıq.

Məlumdur ki, bazar iqtisadiyyatı şəraitində müasir rəqabətqabiliyyətli təşkilatın ən vacib xüsusiyyətlərindən biri onun dayanıqlılığıdır. Bu amil iqtisadi sistemlərin dayanıqlı inkişafı və bazar iştirakçılarının artımı anlayışları ilə sıx bağlıdır.

İqtisadi quruluşu dəyişdirilməsi üçün uzun bir yol keçərək, sahibkarlıq fəaliyyətinin bir forması olan təşkilat müasir yüksək texnologiyalı bazar modellərinin müxtəlif formalarına çevrilir və bu zaman həmin təşkilatların idarə edilməsi prosesi çox ciddi dəyişikliklərə məruz qalaraq çoxamilli və mürəkkəb bir konsepsiyaya çevrilir.

Təşkilatın dayanıqlılığı nə qədər yüksək olarsa, nəticədə bazardakı gözlənilməz dəyişikliklərin, siyasi qeyri-sabitliyin, müxtəlif daxili və xarici amillərin bu təşkilata təsiri daha az olacaqdır. Bu da yekunda onun tarazlıq vəziyyətinin itirilməsi və iflas riski ehtimallarının azalmasına səbəb olacaq.Tədqiqatçılar dayanıqlılıq anlayışına artan diqqəti texnologiya və informasiya cəmiyyətinin sürətli inkişafı ilə əlaqələndirirlər. Dayanıqlı inkişaf anlayışının özünün yaranması qlobal iqtisadi və eokoji böhranlar və resurs qıtlığı problemlərinin ortaya çıxması ilə əlaqədar 1970-ci illərə təsadüf etmişdir. "Dayanıqlı inkişaf" termini ilk dəfə 1987-ci ildə BMT -nin Ətraf Mühit və İnkişaf Komissiyasının hesabatında istifadə edilmişdir. Bu hesabata uyğun olaraq, "dayanıqlı inkişaf, nəsillərin cari və gələcək ehtiyaclarını nəzərə alan bir fəaliyyət və inkişaf üsuludur". Lakin qeyd etmək lazımdır ki, bir çox alimlər dayanıqlı inkişaf anlayışının müxtəlif formalarda şərh edirlər[7].

Daha geniş anlayışda dayanıqlı inkişaf məhdud resursların bərpasını, bu resurslardan səmərəli istifadəni, ekoloji təhlükəsizliyi, yüksək keyfiyyətli iqtisadi artımı təmin edən bilən bir iqtisadi inkişaf nəzəriyyəsi kimi baxılmalıdır.

Hal-hazırda, dayanıqlılıq anlayışı maliyyə, texnoloji, istehsal, təşkilati, marketinq, investisiya, innovasiya və sosial kimi bir çox göstəricilərdən formalaşır.

Təşkilatlar üçün dayanıqlı inkişafın daha vacib üç amilinə baxaq:

1. Maliyyə dayanıqlılığı - ayrı-ayrı bölmələr arasında maliyyə vəsaitlərin daha səmərəli bölüşdürülməsi və hərəkəti, daha əlverişli kredit şəraitin təmin edilməsi sahəsində təsirli siyasət kimi başa düşülə bilər. Maliyyə dayanıqlığının məqsədi təşkilatın bazar kapitallaşmasını maksimum dərəcədə artırmaq, uzunmüddətli mənfəət əldə etmək və təşkilatın kapitalının strukturunu optimallaşdırmaqdır.

2. Strateji dayanıqlılıq deyərkən təşkilatın xarici və daxili məlumat axınının istiqamətləndirilməsi, alternativ variantların təhlili və proqnozlaşdırılması, təşkilatdakı məlumat idarəetmə sistemlərinin optimal fəaliyyəti üçün strategiyaların (marketinq, texnoloji, sənaye, sosial, ekoloji və s.) seçilməsi baxımından dayanıqlılıq başa düşülür.

3. Ətraf mühit amillərinin təsirinə müqavimət dedikdə mikro və ya makro mühitdə baş verən hər hansı bir dəyişikliyin təşkilatın fəaliyyətinin pozulmasına və məqsədlərə çatmaq qabiliyyətindən məhrum edilməsinə səbəb olmamama imkanları başa düşülür. Xarici mühitin parametrləri dəyişdikdə, təşkilat resurs potensialını lazımi səviyyədə saxlamağa, sabit qalmağa, amillərin təsiri nəticəsində faktiki rəqəmlərin planlaşdırılmış göstəricilərdən kənarlaşmasını yumşaltmağa qadir olur [5].

Təşkilatın dayanıqlılığından danışarkən, bir çox alimlər əsasən maliyyə sferasına daha çox üstünlük verir. Dayanıqlılıq anlayışının maliyyə blokuna likvidlik, ödəmə qabiliyyəti, çeviklik və maliyyə asılılığı kimi ənənəvi xüsusiyyətləri daxil etmək mümkündür. Bir sıra maliyyə parametrlərinin əsas kapitala qoyulan investisiyalar, investisiya aktivliyi, investisiya həcmi göstəriciləri və təşkilatların cəlbediciliyi kimi investisiya parametrləri ilə birləşməsi tendensiyası da mövcuddur.

Müasir rəqəmsal vasitələrin sahibkarlıq subyektlərinin fəaliyyətinə daxil edilməsi və bu dəyişikliklərin dayanıqlılığa təsirini maliyyə baxımından qiymətləndirilməsi günümüzün aktual

araşdırma sahələrindən biridir. Bu sahədə ən uyğun araşdırma istiqamətlərindən biri artıq həyata keçirilmiş layihələr əsasında investisiya meylinin və istehsalın optimallaşdırılmasının rəqəmsal tətbiqlərlə səmərəli idarə edilməsinin qiymətləndirlməsidir. Bu cür rəqəmsallaşdırma təşkilatın istehsal həcmini və məhsuldarlığının artırılması, maliyyə mənbələrinin optimal səviyyəsini qorumaqla həyata keçirilməsi yalnız təşkilatın sabit və səmərəli cari fəaliyyətini deyil, həm də gələcək sabit inkişafını təmin etməlidir.

Rəqəmsallaşma anlayışı bu gün elm və istehsal təcrübəsinin ən müxtəlif sahələrində tətbiq olunur. Rəqəmsallaşma, şirkətin əsas proseslərinin rəqəmsal formata çevrilməsidir. Rəqəmsal çevrilmədə rəqəmsal texnologiyaların istifadəsi müştəri təcrübəsini yaxşılaşdırır və nəticədə təşkilatın işinin keyfiyyəti artır və bu da onun dayanıqlı inkişaf etməsinə kömək edir. Müasir "rəqəmsallığa keçid" təşkilatlar üçün həm də təcrübədə işləyən və həm istifadəçilərə, həm də müəssisələrə fayda verən güclü bir vasitə olmaqla yanaşı investisiyanın gəlirliliyinin artırılmasına da kömək edir [6].

Tədqiq olunan hallar göstərir ki, tətbiq olunan inteqrasiya edilmiş idarəetmə texnologiyaları, ilk növbədə, pul dövriyyəsinə, istehsal və dövriyyədən keçən kapital prosesinin sürətinə və iqtisadi dövriyyədə olan kapitalın daha çevik hərəkətetməsinə yönəldilir.

İstehsalçı şirkətlərinin rəqəmsal çevrilmə mövzusunda araşdırılan əsas layihələri Big Data (İri Məlumat Massivləri) texnologiyalarına, maşın təliminə (Machine Learning) və süni intellektə (Artificial İntellect) əsaslanaraq əsas istehsalda istifadə olunan avadanlıqların səmərəliliyinin artırılması və onların sıradan çıxmasını proqnozlaşdırılması sferalarını əhatə edir.

Bir insan əvvəlki təcrübəsinə, əvvəlki istehsal proseslərindn toplanmış məlumatlara əsaslanaraq qərarlar verir. Maşın sistemləri isə daha geniş həcmli məlumat toplusunu nəzərə alaraq qruplaşdırma aparır və bu məlumatlar arasında məntiqi əlaqələr qurmağa çalışır. Nəticədə, planlaşdırılmamış təmir zamanı avadanlıqların məhsuldarlığının azalması, aşınmanın pozucu təsiri düzəldilir və istehsal dövrünün sabitliyi təmin edilir.

Aşağıdakı sahələrdə rəqəmsallaşmanın mümkün təsirlərini nəzərdən keçirmək məqsədə-uyğundur:

Kəmiyyət:

1) maliyyə nəticələrinə birbaşa təsir edən dəyişikliklər:

- istehsal həcminin artırılması;
- göndərilən məhsulların maya dəyərinin azaldılması;
- nağd və nağdsız vəsaitlərin dövriyyəsi.

2) maliyyə göstəricilərinə dolayı təsir edən dəyişikliklər:

- işçilərin sayının azalması;
- əmək məhsuldarlığının artması;
- proqnoz səhvləri ehtimalının azaldılması.

Keyfiyyət:

- modelləşdirmə, analitik təhlil, vizuallaşdırma;
- vahid planlaşdırma prosesinin aparılması;

Bu cür dəyişikliklərin əsas üstünlüyü resursların, səhmlərin, alışların optimallaşdırılması və ümumiyyətlə təşkilat üçün - kapitala təzyiqin minimuma endirilməsidir. Bu, alternativ inkişaf mənbələrindən istifadə etməklə investisiya maliyyələşdirilməsi kəsirinin düzəldilməsinə imkan yaranır.

Bu tendensiyaları avtomatlaşdırılmış sistemlərin hazırlanması və tətbiqi sahəsində ən böyük xidmət təminatçılarının ekspert mülahizələri ilə müqayisə etmək lazımdır. Onların hazırlanması və tətbiqi ilə birbaşa məşğul olan mütəxəssislər (şirkət rəhbərləri, biznes məsləhətçiləri və s.) tez-tez yeni texnologiyaların və rəqəmsallaşdırmanın tətbiqi nəticəsində yaranan praktiki dəyişiklikləri qiymətləndirməklə məşğul olurlar.

Sənaye 4.0-də birləşdirilmiş yenilikçi və rəqəmsal üsullarla əlaqəli alətlər dəstinə böyük məlumat təhlili (Big Data Analysys), maşın öyrənmə (Machine Learning), əşyaların interneti (İOT), virtual genişlənmiş reallıq (VR), 3D modelləşdirmə və s. aid edilirlər.

Avadanlıqların və bütün fabriklərin rəqəmsallaşdırılması üzrə kompleks həllər investisiya həcminin azalması ilə, məhsul tədarükçüsünün iş modellərinin tədarükçüsünə çevrilmə tendensiyası olduğu qlobal bazarın sürətlə dəyişən strukturlarına uyğun olaraq modelin yenidən qurulmasını təmin edir.

Son dövrlərdə Respublikamızda dayanıqlı inkişaf məsələləri əsas prioritet sahələrindən biri olmuşdur. BMT və onun tərəfdaşları Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olmaq üçün dayanıqlı inkişafın iqtisadi, sosial və ekoloji aspektlərini əhatə edən 17 DİM-i, 88 hədəfi və 119 göstəricini prioritetləşdirmişlər [1].

Bu prioritet DİM-ləri:

- yoxsulluğa son,
- aclığa son,
- yaxşı səhiyyə və rifah,
- keyfiyyətli təhsil,
- gender bərabirliyi,
- təmiz su və sanitariya,
- layiqli əmək və sanitariya,
- sənaye, innovasiya və infrastruktur,
- bərabərsizliyin azaldılması,
- dayanıqlı şəhərlər və icmalar,
- iqlim dəyişikliklərinə qarşı mübarizə,
- dəniz ekosisteminin mühafizəsi,
- torpaq ekosisteminin mühafizsi,
- sülh, ədalət və səmərəli institutlar və
- məqsədlər üçün tərəfdaşlıq təşkil edirlər.

2016-cı ildə Azərbaycan Respublikasının Prezidenti, BMT-nin Azərbaycan hökumətinə göstərdiyi dəstəyin əlaqələndirilməsi üçün əsas tərəfdaş kimi fəaliyyət göstərən Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılmasına dair fərman imzalamışdır. Həmçinin Azərbaycan, MAPS (2030 Gündəliyi naminə aktuallaşdırma, sürətləndirmə və siyasətə dəstək) missiyasını həyata keçirən ilk ölkələrdən biri olub və ölkə öz təcrübəsini 2018-ci ildə keçirilən Dayanıqlı İnkişaf üzrə Bakı Forumunda təqdim etmişdir. Respublikamızda DİM-ləri təşviq etmək istiqamətinə özəl sektor, media, parlament üzvləri və ictimaiyyət də daxil olmaqla müxtəlif qrupların cəlb edilməsi üçün xüsusi səylər göstərilməkdədir. [1]

Bu məqsədlə ölkəizdə bir sıra inkişaf proqramlari, o cümlədən,

- "Yaşayış minimumu", "Ünvanlı dövlət sosial yardımı", "Sosial müavinətlər", "Əmək pensiyası" haqqında Azərbaycan Respublikasının qanunları;
- "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" və onun həyata keçirilməsi üzrə 2 Dövlət Proqramı (2007- 2010-cu illər və 2011-2015-ci illər üzrə);
- regionların sosial-iqtisadi inkişafı istiqamətində 3 dövlət proqramı (2004-2008, 2009-2013 və 2014-2018- ci illər üzrə);
- "Təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı" (2008-2012-ci illər), "Ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı" (2009-2013-cü illər), 2007-2015-ci illərdə "Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı", "Elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı (2009-2015-ci illər), "Təhsilin inkişafı üzrə Dövlət Strategiyası";
- 2011-2015-ci illər üçün "Şəkərli diabet", "Vərəmlə mübarizə", "Talassemiyanın müalicə və profilaktikası", "Hemofiliya xəstəliyi" üzrə və s. Tədbirlər Proqramları; Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair 2015-2020-ci illər üçün Strategiya;
- "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası;
- Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" 06 dekabr 2016-cı il tarixli Fərmanına müvafiq olaraq təsdiq edilmiş Milli iqtisadiyyat və İqtisadiyyatın 11 prioritet sektorunun inkişafı

üzrə ümumilikdə 12 strateji yol xəritəsi və s. bir çox proqram və layihələr dövlətin dəstəyi ilə həyata keçirilmişdir [10].

Eyni zamanda bu proqramların hər birinin icrası xüsusi rəqəmsal həllərin tətbiqini nəzərdə tutur.

Respublikamızda elektron xidmətlərin təqdim olunma miqyasını genişləndirmək üçün ilə müasir kommunikasiya imkanlarının köməyi ilə sürətli genişzolaqlı şəbəkə infrastrukturunun qurulması və onun üzərindən e–təhsil, e-vergi, e–səhiyyə, e–bankçılıq, e–ticarət və s. kimi elektron xidmətlərin əhatə dairəsi genişləndirilməkdədir. Xüsusilə, dövlət idarəetməsində rəqəmsallaşdırma biznes üçün şəffaf, hesabatlı, səmərəli və proqnozlaşdırıla bilən rəqəmsal həllərin köməyi ilə vətəndaşların qəbulu sistemləri yaradılmışdır.

Eyni zamanda, məktəblərin, elmi təşkilatların, istehsal müəssisələrinin internetə çıxış imkanlarının və informasiya təminatının yaxşılaşdırılması istiqamətində fəaliyyətlər stimullaşdırılır və yeni daha sürətli şəbəkələrin sürətlə tətbiqi həyata keçirilir.

Eyni zamanda E-məktəb və e-məktəbəqəbul sistemilərinin tətbiqi, rəqəmsal tədris vasitələrindən geniş istifadə priritet istiqamətlərdən sayilir. Rəqəmsal tədrisin həvəsləndirilməsi üçün, bütün təhsil səviyyələrində yüksək keyfiyyətli rəqəmsal tədris materiallarının (məsələn, e-kitablar, e-seminarlar, açıq tədris materialları, veb-imtahanların keçirilməsi və s.) geniş tətbiqi mövcud pandemiya şəraitində xüsusi önəm kəs edir.

Dövlət e-ödəniş, e-vergi, e-intellektual idarəetmə və s. elektron xidmətlərin tətbiqini genişləndirərək, rəqəmsal iqtisadiyyatın inkişafını dəstəkləyir. Bununla da sahibkarların dövlət xidmətlərindən istifadəsini daha rahat, şəffaf və əlçatan olunmasına çalışılır.

Dünyada Azərbaycan brendi olaraq tanınan və "vahid məkan" prinsipi əsasında dövlət xidmətləri göstərən "ASAN xidmət" mərkəzlərinin əhatə dairəsi və göstərdiyi xidmətlərin çeşidi genişləndirilir.

Bir çöx yerli müəssisələrin xaricdə tanıdılması və ölkəyə investisiya axınını artırılması məqsədilə dövlətin dəstəyi ilə ABAD, AZPROMO və "Made in Azerbaijan" layihələri keçirilmiş və sahibkarlar bu layihələrin köməyi ilə xarici satış bazarlarına çıxış əldə edə bilmişlər.

Eyni zamanda maliyyə, rabitə, investisiyalar və s. sahələrdə fəaliyyət göstərən bir sıra iri korporasiyalar da dayanıqlı inkişaf üçün rəqəmsal həllərdən geniş istifadə etməyə başlamışlar.

Nəticə

Bütün bu deyilənlər bir daha sübut edir ki, dayanıqlı inkişafın həyata keçirilməsində rəqəmsal həllərdən istifadə vacib amillərdən biridir və ölkəmiz də bu proseslərin vacibliyini aydın dərk edərək ölkədə əsas inkişaf prioritetlərini bu istiqamətlərdə yönləndirir. Ölkəmizdə dayanıqlı inkişaf və rəqəmsallaşdırma standartlarının yaradılması və tətbiqi üçün kifayət sayda qanun layihələri qəbul olunmuş və dövlət proqramları həyata keçirilmişdir. Eyni zamanda fərdi sahibkarlıq subyektlərinin də dayanıqlı inkişaf və rəqəmsallaşma konsepsiyaları dəstəklənmiş və onlar da milli strategiyaların hazırlanması və icrası proseslərinə yaxından cəlb olunmuşlar.

İstifadə edilmiş ədəbiyyat:

1. Azərbaycan – 2030: minilliyin inkişaf məqsədlərindən dayaniqli inkişaf məqsədlərinə doğru Azərbaycan Respublikasının "Dünyamızın transformasiyası: 2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi"nin icrası ilə əlaqədar ilkin addımları haqqında KÖNÜLLÜ MİLLİ HESABAT 2019-cu il
2. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi, 2016
3. "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyası, 2012
4. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası, 2013
5. Литвинов А. Н., Смирнова И. Л. Влияние категории капитализации на устойчивость организации // Инновационное развитие: потенциал науки и современного образования: Пенза : Наука и Просвещение, 2020.
6. Гидденс Э. Ускользающий мир: как глобализация меняет нашу жизнь. М.: Весь мир, 2014.
7. BMT, Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlı fəaliyyətimiz https://azerbaijan.un.org/az/sdgs
8. https://www.taxes.gov.az/az/post/1281

Рамиз Камал оглы Искендаров Д.э.н., профессор
Азербайджанского Технического Университета
Заур Рауф оглы Асадов Д.ф.н.
Азербайджанского Государственного Университета Нефти и Промышленности

Устойчивое развитие и цифровизация

Резюме

В статье объясняется важность концепции устойчивого развития для будущего нашей страны, отмечена высокая эффективность цифровизации в реализации этого процесса. При этом было уделено внимание преимуществам цифровизации в сборе, обработке данных и принятии управленческих решений при разработке и реализации концепций устойчивого развития.

Подчеркнута важность устойчивого развития и цифровизации государством в нашей стране, отмечены принятые в этом направлении нормативные документы и программы, реализуемые в нашей стране, заявлено их влияние на нашу современную экономику.

Ключевые слова: устойчивое развитие, цифровизация, финансовая устойчивость, стратегическая устойчивость, цифровая трансформация, машинное обучение, Интернет вещей, виртуальная дополненная реальность.

Ramiz Kamal oglu Iskendarov
Doctor of Economics, Professor, Consultant of the

Department of Economics and Statistics of the
Azerbaijan Technical University
Zaur Rauf oglu Asadov
Doctor of Philosophy, Lecturer of the Department of Economics and Management of Industry, Azerbaijan State University of Oil and Industry

Sustaınable development and dıgıtalızatıon

Summary

The article explains the importance of the concept of sustainable development for the future of our *country, notes the high efficiency of digitalization in the implementation of this process. At the same time, attention was paid to the advantages of digitalization in collecting, processing data and making management decisions in the development and implementation of sustainable development concepts.*

The importance of sustainable development and digitalization of the state in our country was emphasized, the regulatory documents and programs implemented in our country adopted in this direction were noted, and their influence on our modern economy was declared.

Keywords: sustainable development, digitalization, financial sustainability, strategic sustainability, digital transformation, machine learning, Internet of Things, virtual reality.

İQTİSADİYYATIN DAVAMLI İNKİŞAFININ EGOİN QİYMƏTLƏNDİRMƏ METODOLOGİYASI

Bayramov Şahin Vaqif oğlu i.f.d., dos.
Mingəçevir Dövlət Universitetinin rektoru

Xülasə

Məqalədə son 30 ildə iqtisadi, sosial və ekoloji ədəbiyyatda geniş müzakirə edilən "dayanıqlı inkişaf" anlayışının iqtisadi aspektinin kəmiyyətcə ölçülməsi ilə bağlı müxtəlif ölçmə metodlarının müqayisəsi aparılır. Bu metodlardan biri olan EGOİN metodunun digər metodlardan fərqi cəhətləri göstərilərək onun mahiyyəti araşdırılır. Həmçinin məqalədə EGOİN metodunun əsaslandığı determinantlar, onların dayanıqlı inkişafın digər aspektləri ilə əlaqəsi müəyyən edilir. EGOİN

metodunun determinantlarının ayrı-ayrılıqda qiymətləndirilməsi metodlarına və əldə edilən məlumatların etibarlılığı məsələlərinə xüsusi diqqət edilir.

Açar sözlər: *dayanıqlı inkişaf, sahibkarlıq, dövlət idarəetməsi, məşğulluq, investisiya, EGOİN metodu*

Giriş

Ölkələrin iqtisadi inkişaf səviyyəsinin müxtəlifliyi, hər hansı bir ölkənin digərlərinə nisbətən daha varlı və uğurlu inkişafının səbəbləri iqtisad elmini həmişə maraqlandırıb. Nə üçün ölkələrin iqtisadi artım səviyyələri və artım templəri bir-birindən fərqlidir? Hətta bəzi ölkələrdə bir regionun inkişaf səviyyəsinin digərlərindən ciddi fərqlənməsi nə ilə bağlıdır? Qlobal səviyyədə maliyyə və ya ticarət rejimlərinin dəyişiklikləri nə üçün bəzi ölkələrə daha ciddi, bəzilərinə isə zəif təsir göstərir? Bu və ya digər suallar ölkə iqtisadiyyatının davamlılığı ilə bağlıdır. Hər bir ölkə istəyir ki, iqtisadi cəhətdən davamlı və dayanıqlı inkişaf etsin. Çünki ölkənin iqtisadi təhlükəsizliyi onun davamlılığından çox asılıdır.

Bütün bu suallar daha konkret şəkildə Azərbaycan iqtisadiyyatına da aiddir. Belə ki, Azərbaycan iqtisadiyyatında son 20 ildə ÜDM-in həcmi artmaqdadır. Ölkəyə neft və qaz ixracından böyük həcmdə pul gəlir. Bu pulların müəyyən hissəsi iqtisadiyyatın qeyri-neft sektorunun inkişafı üçün investisiya olaraq yönəldilir. İstehlak həcmi, dövlət xərcləri də artmaqdadır. Bütün bunlar deməyə əsas verirmi ki, Azərbaycan iqtisadiyyatının inkişafı dayanıqlı və ya davamlıdır? Əlbəttə, bu suala cavab vermək üçün biz iqtisadiyyatın davamlılığını kəmiyyətcə qiymətləndirməliyik.

Ədəbiyyata baxış

İqtisadi davamlılıq və onun kəmiyyətcə qiymətləndirilməsini öyrənən görkəmli tədqiqatçılardan biri də Sinqapur iqtisadçısı Lim Chong Yahdır [1]. O, "Üçlük artım nəzəriyyəsi" adlandırdığı metodologiyanın ayrıca götürülən ölkədə iqtisadi davamlılığı kəmiyyətcə ölçməyə imkan verdiyini iddia edir. Bu nəzəriyyənin davamlı inkişafa həsr edilən digər nəzəriyyələrlə kəsişmə nöqtəsi ondan ibarətdir ki, C.Lim də davamlı inkişafa iqtisadi, sosial və ekoloji sistemlərin qarşılıqlı təsirdə olduğu mürəkkəb sistem kimi yanaşır. Fərqli cəhət ondan ibarətdir ki, "Üçlük artım nəzəriyyəsi" üç alt nəzəriyyədən – EGOİN nəzəriyyəsi, üçqat C nəzəriyyəsi və S əyrisi nəzəriyyəsindən ibarətdir. Bu nəzəriyyələrin hər biri iqtisadiyyatın müxtəlif aspektlərin davamlılığını kəmiyyətcə qiymətləndirilməsini nəzərdə tutur. EGOİN nəzəriyyəsinə əsasən, iqtisadi artım səviyyəsinə görə ölkələrin fərqlənməsi onlara aid $\sum EGO\dot{I}N$-nin həcmi ilə bağlıdır. İqtisadi artım tempi üzrə ölkələrin bir-birindən fərqlənməsi isə $\Delta EGO\dot{I}N$-lə bağlıdır. EGOİN isə ölkənin ÜDM-nin həcminə birbaşa təsir göstərən cəmi istehsal amillərini kəmiyyətcə və keyfiyyətcə xarakterizə edir. Bura E-sahibkarlıq, G-dövlət idarəetməsi, O-adi əmək, İ-investisiya və N-təbii resurslar daxildir. Bu beş göstəricinin hər biri kəmiyyətcə ölçülə biləndir və EGOİN bu göstəricilərin kompozit indeksi kimi hesablanır. Bu göstəricilərdən üçü – E-sahibkarlıq, O-adi əmək və G-dövlət idarəetməsi birbaşa insan əməyi ilə bağlı olduğundan insan kapitalını təşkil edir və bir-biri ilə sosial əməkdaşlıq sistemini təşkil edirlər. C.Lim hesab edir ki, G, yəni idarəetmə "pis" olarsa, onda sosial tərəfdaşlığın digər üzvləri, yəni O-adi əmək və E- sahibkarlıq uğurlu ola bilməz. Ona görə də adətən xarici kapital bu determinantların inkişafına deyil, əsasən İ-investisiya və N-təbii kapitalın inkişafına üstünlük verir.

"Üçlük artım nəzəriyyəsi"nin ikinci tərkib hissəsi "üçqat C nəzəriyyəsidir". Bu nəzəriyyəyə görə müasir milli iqtisadiyyatlar dünya təsərrüfat sisteminə bu və ya digər səviyyədə inteqrasiya etməli olurlar. Belə inteqrasiya səviyyəsi, xüsusilə, ölkənin xarici ticarət və birbaşa xarici investisiya rejimləri ölkə iqtisadiyyatının davamlılığına müəyyən təsir göstərir. Milli, regional və beynəlxalq əlaqələr ölkə iqtisadiyyatının davamlılığında mühüm rol oynayır. Bu nəzəriyyəyə görə,

$\sum C$- iqtisadi artımın səviyyəsini, ΔC - isə iqtisadi artımın tempini müəyyən edən determinantlardan biridir.

"Üçlük artım nəzəriyyəsi"nin üçüncü tərkib hissəsi "S əyrisi nəzəriyyəsidir". Bu nəzəriyyəyə görə milli iqtisadiyyatlar üç qrupda təsnifləşdirilir. Birincisi, "tısbağa" kimi yavaş-yavaş inkişaf edən iqtisadiyyatlardır (məsələn, Fiji, Şimali Koreya, Zimbabve və sair). İkinci tip iqtisadiyyatlar "at" kimi sürətlə hərəkət edən iqtisadiyyatlardır (məsələn, Çin, Hindistan, Sinqapur və sair). Üçüncü tip iqtisadiyyatlar isə "fil" kimi güclü, lakin yavaş hərəkət edən iqtisadiyyatlardır (məsələn, ABŞ, Böyük Britaniya, Yaponiya, Kanada və sair). Bu nəzəriyyəyə əsasən, "tısbağa ölkələr" hələ sənaye ölkəsi hesab oluna bilməzlər və bu ölkələrdə cəmiyyətin istehlak həcmi azdır, yüksək əhali artımı var, investisiyanın və yığımın həcmi aşağıdır, iqtisadiyyatda bilik-tutumlu sahələr inkişaf etməyib, $\sum EGO\dot{I}N$ və ΔEGOİN azdır. "At ölkələr" sənaye ölkələridir və bu ölkələrdə artım tempi yüksəkdir, cəmiyyətin istehlak həcmi orta səviyyədədir, əhali artımı orta səviyyədədir, yüksək investisiya və yığım həcmi var, sənayeləşmə yüksəkdir, bilik-tutumlu iqtisadi sahələr inkişaf edir, $\sum EGO\dot{I}N$ və ΔEGOİN orta səviyyədədir. "Fil ölkələr" isə post-sənaye dövrünü yaşayırlar və bu ölkələrdə artım tempi aşağıdır, cəmiyyətin istehlak həcmi yüksəkdir, əhali artımı tempi aşağıdır, yığım və investisiya tempi aşağıdır, iqtisadiyyatda bilik-tutumlu sahələr üstünlük təşkil edir, $\sum EGO\dot{I}N$ və ΔEGOİN yüksəkdir.

İqtisadiyyatın davamlılıq səviyyəsinin kəmiyyətcə qiymətləndiriməsi problemləri Daly və Cobb tərəfindən aparılan tədqiqatlarda da araşdırılıb [2]. Onlar tərəfindən hazırlanan Davamlı İqtisadi Rifah İndeksi (İSEW) əslində ÜDM göstəricisini əvəz edən yeni bir göstəricidir. Son zamanlar ÜDM göstəricisinin iqtisadi inkişafı və onun davamlılığını ifadə etməsinə şübhələr iqtisadçılar arasında geniş yayılmaqdadır. Çoxlu sayda milli iqtisadiyyat göstərmək olar ki, orada rifah halı iqtisadi artımla korrelyasiyaya malik deyil. Xüsusilə, gəlirlərinin əsas hissəsi təbii resursların ixracı hesabına yaranan ölkələrdə cəmiyyətin rifah halı ilə iqtisadi artım səviyyəsi və iqtisadi artım tempi arasında əlaqə yoxdur. Belə ölkələrin əksəriyyətində ölkə iqtisadiyyatı təbii resursların dünya bazarındakı qiymətindən güclü surətdə asılı olur.

Metodologiya

Biz Azərbaycan iqtisadiyyatının davamlılıq dərəcəsini kəmiyyətcə qiymətləndirmək üçün iki müxtəlif metoddan müqayisəli şəkildə istifadə edəcəyik. Birincisi, C.Limin "Üçlük artım nəzəriyyəsi"nə əsaslanan və M.C.Poh Gek tərəfindən inkişaf etdirilən qiymətləndirmə metodudur [3]. İkincisi isə, Daly və Cobb tərəfindən hazırlanan "Davamlı İqtisadi Rifah İndeksi"dir. Birinci metodla iqtisadi davamlılığın qiymətləndirilməsi üçün EGOİN kompozit indeksindən istifadə edəcəyik:

$$EGO\dot{I}N_i = \frac{r_{Ei}*E_i+r_{Gi}*G_i+r_{Oi}*O_i+r_{Ii}*I_i+r_{Ni}*N_i}{r_{Ei}+r_{Gi}+r_{Oi}+r_{Ii}+r_{Ni}} \quad (1)$$

burada E_i, G_i, O_i, I_i, N_i - $i-$ ci ölkədə, uyğun olaraq, sahibkarlıq, dövlət idarəetməsi, adi əmək, investisiya və təbii resurslar indeksidir. Bu indekslərin qiymətləri (0;100) intervalında dəyişir. Kompozit indeks də həmin intervalda dəyişə bilir. $r_{Ei}, r_{Gi}, r_{Oi}, r_{Ii}, r_{Ni}$- i-ci ölkədə, uyğun olaraq, sahibkarlıq, dövlət idarəetməsi, adi əmək, investisiya və təbii resurslar indeksinə aid çəkilərdir. Çəkilərin müəyyən edilməsi zamanı orta kvardat meyil (RMSD) və ya orta kvadrat səhv (RMSE) metodundan istifadə etmək olar:

$$RMSD = \sqrt{\frac{1}{N}\sum_{i=1}^{N}\delta_i^2} \quad (2)$$

Burada $\delta_i = (\theta_{1i} - \theta_{2i})$-qalıqdır. Bu düstura əsaslanaraq EGOİN-in sub-indekslərinin çəkiləri üçün

$$r_{mi} = r_{m0} * \left[1 - 0.01 * \beta * \sqrt{\frac{\sum_{p=1}^{q}(X_{mi} - X_{pi})^2}{(q-1)}}\right] \quad (3)$$

Burada X_{mi} və X_{pi} uyğun olaraq, EGOİN-nin sub-indekslərdir. Bu sub-indekslər üçün (3) bərabərliyi aşağıdakı formada ifadə edilə bilər:

$$r_{Ei} = r_{E0} * \left[1 - 0.01 * \beta * \sqrt{\frac{((E_i - G_i)^2 + (E_i - O_i)^2 + (E_i - I_i)^2 + (E_i - N_i)^2}{4}}\right] \quad (4)$$

$$r_{Gi} = r_{G0} * \left[1 - 0.01 * \beta * \sqrt{\frac{((G_i - E_i)^2 + (G_i - O_i)^2 + (G_i - I_i)^2 + (G_i - N_i)^2}{4}}\right] \quad (5)$$

$$r_{Oi} = r_{O0} * \left[1 - 0.01 * \beta * \sqrt{\frac{((O_i - E_i)^2 + (O_i - G_i)^2 + (O_i - I_i)^2 + (O_i - N_i)^2}{4}}\right] \quad (6)$$

$$r_{Ii} = r_{I0} * \left[1 - 0.01 * \beta * \sqrt{\frac{((I_i - E_i)^2 + (I_i - G_i)^2 + (I_i - O_i)^2 + (I_i - N_i)^2}{4}}\right] \quad (7)$$

$$r_{Ni} = r_{N0} * \left[1 - 0.01 * \beta * \sqrt{\frac{((N_i - E_i)^2 + (N_i - G_i)^2 + (N_i - O_i)^2 + (N_i - I_i)^2}{4}}\right] \quad (8)$$

Qeyd edək ki, EGOİN indeksində sahibkarlıq (E), dövlət idarəetməsi (G), sadə əmək (O), investisiya (I) və təbii resurslar (N) sub-indekslərinin hər biri də özünəməxsus alt-indekslərdən ibarətdir və onları ümumi şəkildə

$$X_i = \frac{\sum \propto_j x_{ij}}{\sum \propto_j} \quad (9)$$

kimi ifadə edə bilərik. Burada $X(E; G; O; I; N)$, x_{ij}-i-ci sub-indeksin j-ci alt-indeksi, $\propto_j$-j-ci alt-indeksə aid çəkidir.

EGOİN kompozit indeksinin kəmiyyətcə qiymətləndirilməsi üşün hər bir sub-indeksin kəmiyyətcə qiymətləndirilməsinə və hər bir sub-indeks və alt-indekslər üçün çəkilərin müəyyən edilməsinə ehtiyac var. Nəzərdə tutulan sub-indekslərin müəyyən edilməsi üçün nüfuzlu beynəlxalq tədqiqat qruplarının metodologiyasından, əksər hallarda isə hazır hesablamalarından istifadə ediləcək.

E (sahibkarlıq) sub-indeksi üzrə kəmiyyət göstəricisinin müəyyən edilməsi üçün Qlobal Sahibkarlıq Monitorunun (Global Entrepreneurship Monitor [4]) və Global Rəqabətlilik üzrə Hesabatın (Global Competetiveness Report [5]) məlumatlarından istifadə ediləcək. Bu zaman E-sub-indeksi üçün alt indekslər kimi 1) *biznes mühitinin əlverişliliyi*; 2) *bazara giriş*; 3) *bilik kapitalı*; 4) *sahibkarlıq mədəniyyəti* götürmək olar.

Biznes mühitinin əlverişliliyi alt-indeksi Dünya Bankının Doing Business tədqiqat qrupu [6] tərəfindən hər il əksər ölkələr üçün hesablanır.

"Bazara giriş" alt-indeksi yerli və xarici bazarların ölçüsü və bazarda mövcud məhdudiyyətləri xarakterizə edir. Bu alt-indeks alıcılıq qabiliyyəti pariteti əsasında ÜDM həcmi ilə bazara daxil olan idxal mallarının həcminin cəmindən ixrac mallarının həcminin çıxılması kimi ölçülür. Bazarda məhdudiyyətləri isə Heritage Fondunun "ticarət azadlığı indeksi" [7] əsasında hesablamaq olar.

Bilik kapitalı alt-indeksinin kəmiyyətcə ölçülməsi digər alt-indekslərə nisbətən bir qədər çətindir. Belə ki, bu alt-indeks ölkə vətəndaşlarının bilik və bacarığını, təcrübəsini, informasiyanı, texnoloji yenilikləri və sair əhatə edir. Bilik kapitalı alt-indeksini kəmiyyətcə

$$KC_{it} = (1 - \delta) * KC_{i,t-1} + R_{it} \quad (10)$$

kimi hesablamaq olar. Burada KC_{it}-i-ci ölkədə t ilində toplanmış bilik kapitalı, R_{it}- i-ci ölkədə t müddətində tədqiqat və inkişaf üçün (R&D) sərf edilən vəsait, δ – bilik kapitalının amortizasiyasıdır. Bilik kapitalının (4.9) bərabərliyi əsasında kəmiyyətcə qiymətləndirilməsi üçün δ-nın və KC_{i0}- t=0 kimi qəbul edilən hər hansı ildə bilik kapitalının müəyyən edilməsi zəruridir. $KC_{i0} = \frac{R_{i0}}{g+\delta}$ qəbul etsək, burada R_{i0}- ilkin t=0 zamanında R&D üzrə xərclər, g- R&D xərclərinin müəyyən dövr ərzində orta loqarifmik artımıdır. KC_{i0}-nın müəyyən edilməsi də bilik kapitalının ammortizasiyasının hesablanmasını tələb edir. (10) üzrə hesablamalar zamanı məlumatları İNSEAD tərəfindən hazırlanan Qlobal İnnovasiyalar İndeksindən (Global İnnovation İndex) əldə etmək olar [8].

Sahibkarlıq mədəniyyəti alt-indeksi həm cəmiyyətin, həm də fərdin sahibkarlıq fəaliyyətinə münasibətini xarakterizə edir. Belə münasibət sahibkarlıq fəaliyyətinin uğuruna ciddi təsir göstərir. Müqayisə üçün qeyd edək ki, keçmiş sovet quruluşunda sahibkarlıq fəaliyyətinə münasibət neqativ olduğundan bu sistemin dağıldığı və bazar iqtisadiyyatının formalaşmağa başladığı ilkin illərdə, yəni keçən əsrin 90-cı illərində cəmiyyətdə sahibkarlığa münasibət hələ də neqativ olaraq qalmışdı. Lakin, zaman keçdikcə sahibkarlığın iqtisadi inkişafda rolu haqqında maariflənmə vəziyyəti xeyli dəyişdirdi. Adətən cəmiyyətdə sahibkarlığa münasibətin yaxşılaşması yeni biznes strukturlarının formalaşmasına təkan verir.

Sahibkarlıq mədəniyyətinin kəmiyyətcə ölçülməsi xeyli çətindir. Bu göstəricini müəyyən yaxınlaşmada Qlobal Sahibkarlıq və İnkişaf İndeksinin (Global İntrepreneurship and Development İndex) tərkib hissəsi olan Sahibkarlığa Münasibət İndeksinin məlumatından istifadə edərək qiymətləndirmək olar. Qeyd edək ki, bu indeksin hazırlanmasında sorğulardan istifadə edilir [9]. Bu sorğulara biznesin başlanması üçün şəraitin nə dərəcədə yaxşı olması, nə dərəcədə bilik və bacarığın tələb olunması, biznes qurmağın karyera üçün zəruriliyi və sair suallarla 18-64 yaşında insanlar cəlb olunurlar.

EGOİN indeksinin "Dövlət idarəetməsi" (G) sub-indeksinin kəmiyyətcə qiymətləndirilməsində səkkiz əsas alt-göstəricidən istifadə edilir [10]. Bunlar 1) iştirakçılıq, 2) konsensusa yönəlmə, 3) hesabatlılıq, 4) şəffaflıq, 5) məsuliyyətlilik, 6) səmərəlilik, 7) bərabərlik və inklyuzivlik, 8) qanunun aliliyidir. Yaxşı idarəetmə həm də qərar qəbuletmə prosesində azlığın maraqlarını nəzərə alan idarəetmədir. EGOİN indeksində hökumətin nə dərəcədə "uğurlu" olmasını kəmiyyətcə qiymətləndirmək də xeyli çətindir. Çətinliyi şərtləndirən əsas səbəb ondan ibarətdir ki, belə qiymətləndirmələrin əksəriyyəti subyektiv rəylərə və sorğulara əsaslanır. Belə qiymətləndirmə aparan qurumlardan biri Legatum İnstitutudur [11]. Burada dövlət idarəetməsi indeksi üç aspektdən qiymətləndirilir: 1) hökumətin effektivliliyi və hesabatlılığı; 2) seçkilərin ədalətliliyi və siyasi iştirakın təmin edilməsi; 3) qanunun aliliyi. Bu üç aspektin kəmiyyətcə qiymətləndirilməsi zamanı həm obyektiv, həm də subyektiv mənbələrə əsaslanan 16 alt göstəricidən istifadə edilir.

Dövlət İdarəetməsi (G) sub-indeksinin kəmiyyətcə qiymətləndirilməsində Dünya İqtisadi Forumu tərəfindən hazırlanan Qlobal Rəqabətlilik İndeksinin tərkib hissəsi olan İnstitusional Ətraf Mühit İndeksindən (Institutional Environment Index) də istifadə etmək olar. Lakin, nəzərə almaq lazımdır ki, bu indeks təklükəsizlik və korrupsiya problemlərini ehtiva etmir. Ona görə də, korrupsiya üzrə qiymətləndirmə zamanı əsasən Korrupsiyanın Qavranılması İndeksi (Corruption Perceptions Index) [12] nəzərə alınır.

EGOİN indeksinin ***"Sadə əmək" ("O")*** sub-indeksi əsasən iki tərkib hissədən ibarətdir. Birincisi, əmək bazarı, ikincisi, əmək bazarında olan əmək qabiliyyətli insanlar. Əmək bazarının səmərəliliyi və əlverişliliyi fəaliyyətə motivasiyanı gücləndirir və iqtisadi səmərəni artırır. Əmək qabiliyyətli insanların sağlamlıq durumu və təhsil səviyyəsi də onların əməyinin keyfiyyətini

yüksəldir. Yüksək keyfiyyətli təhsil və səhiyyə sistemi, həmçinin sosial kapital sağlam, təhsilli və xoşbəxt işçi qüvvəsinin yetişməsi üçün zəruridir. EGOİN indeksinin tərkib hissəsində 1) *təhsil və təcrübə ili*; 2) *sağlamlıq və səhiyyə infrastrukturu*; 3) *sosial kapital*; və 4) *əmək bazarının əlverişliliyi və səmərəliliyi* kimi dörd alt-indeksin öyrənilməsi nəzərdə tutulur. Hər bir alt-indeksin əmək bazarına və işçi qüvvəsinin inkişafına təsirləri iqtisadi ədəbiyyatda geniş tədqiq edilib.

Təhsil alt-indeksi yüksək keyfiyyətli işçi qüvvəsinin yetişməsində təhsil ilinin və təcrübənin rolunu xarakterizə edir. Bu problemə həsr edilən araşdırmalar arasında J.Mincer tərəfindən aparılan tədqiqatlar diqqətəlayiqdir. Bu tədqiqatlarda belə nəticəyə gəlinir ki, gəlirlərin loqarifmi təhsil ilindən, potensial təcrübə ilindən və potensial təcrübə ilinin kvadratından asılıdır [13]. Mincer bərabərliyi adlanan belə asılılığı aşağıdakı kimi ifadə etmək olar:

$$Log(w_i) = \beta_0 + \beta_1 * S_i + \beta_2 * X_i + \beta_2 * X_i^2 + e_i \qquad (11)$$

Burada $Log(w_i)$-i-ci fərdin qazancının loqarifmidir. β_0- təhsil olmadığı halda qazancın həcmi, S_i-i-ci fərdin təhsil müddəti, X_i-i-ci fərdin iş təcrübəsi, e_i-qalıqdır. β_1-təhsilə yönələn investisiyanı, β_2-iş təcrübəsinin təcrübənin əmək məhsuldarlığına verdiyi töhvəni xarakterizə edən əmsallardır.

Sadə əmək ("O") sub-indeksinin təhsil alt-indeksinin kəmiyyətcə hesablanması üçün onun üç aspekti – 1) təhsilin əldə edilməsi imkanının olması, 2) təhsilin keyfiyyəti və 3) insan kapitalı aspektləri kəmiyyətcə qiymətləndirilir. 1-ci aspektin ölçüsü kimi hər hansı yaş qrupunda olan insanların təhsilə cəlb edilən hissəsi götürülür. Bu göstəricilər Dünya İnkişaf İndikatorlarından (World Development Indicators) [14], təhsilin keyfiyyəti ilə bağlı məlumatlar isə həmçinin Gallup World Poll [15] təşkilatının həyata keçirdiyi sorğulardan əldə edilə bilər.

Sağlamlıq və səhiyyə alt-indeksi işçi qüvvəsinin sağlamlıq səviyyəsinin və səhiyyə infrastrukturunun əmək məhsuldarlığına olan təsiri əks etdirir. S.Chansarn [16] tərəfindən G7, bəzi Qərb və bəzi şərq ölkələrini əhatə edən tədqiqatların nəticəsinə əsasən, əmək məhsuldarlığının artım tempinin təhsilin, səhiyyənin və texnoloji inkişafın səviyyəsindən asılılığını

$$y = \alpha_0 + \alpha_1 * X_1 + \alpha_2 * X_2 + \alpha_3 * X_3 + \beta_1 * r_1 + \beta_2 * r_2 + \beta_3 * r_3 + \mu \qquad (12)$$

kimi ifadə etmək olar. Burada y- əmək məhsuldarlığının orta illik artım tempi, X_1- təhsil illərinin orta uzunluğu (təhsil ölçüsü); X_2- doğulanda orta ömür uzunluğu (sağlamlıq ölçüsü); X_3- cəmi istehsal amillərinin məhsuldarlığının orta illik artım tempi (texnoloji inkişaf ölçüsü); r_1, r_2, r_3 uyğun olaraq, G7, qərbin inkişaf etmiş, şərqin inkişaf etmiş ölkələri üçün "1", əks halda "0" qiyməti alan göstəricilərdir.

Sağlamlıq və səhiyyə alt-indeksi üzrə kəmiyyət göstəriciləri kimi əsasən üç göstəricidən istifadə edilir: 1) əsas sağlamlıq göstəriciləri; 2) səhiyyə infrastrukturu; 3) sağlamlıqdan razılıq. Bu göstəricilərdən birincisi və ikincisi ilə bağlı məlumatları Dünya Bankının Dünya İnkişaf İndikatorları bazasından və Dünya Səhiyyə Təçkilatının [17] məlumatlar bazasından əldə etmək olar. Üçüncü göstərici ilə bağlı məlumatları isə Gallup World Pool təşkilatının sorğularına əsaslanaraq toplamaq olar.

Sosial kapital alt-indeksi cəmiyyətdə insanlar arasındakı münasibətlərldən, o cümlədən, inamdan, normalardan, adətlərdən qaynaqlanaraq iqtisadi agentlər üçün xarici effektlər (externalities) yaradır. Cəmiyyətdə insanlar arasındakı qeyri-formal münasibətlər birliklər, assosiasiyalar və sair formasında təşkilatlanaraq inkişaf edə bilir. Belə münasibətlər fərdin iqtisadi davranışına ciddi təsir göstərərək bütünlükdə iqtisadi inkişafa pozitiv və ya neqativ təsir göstərə bilir. Dini baxışlar, adət-ənənələr və sair mədəniyyət aspektlərinin iqtisadi təsirləri Maks Veberin "İqtisadiyyat və cəmiyyət", həmçinin "Protestant etikası" əsərlərində dərindən təhlil edilib. Lakin, bu iki fenomen arasındakı əlaqənin kəmiyyətcə qiymətləndirilməsinə yalnız son zamanlar cəhdlər edilir. Sosial

kapital alt-indeksini Gallup World Poll, həmçinin Dünya Dəyər Xidmətləri (World Value Service) [18] təşkilatı tərəfindən toplanmış məlumatlar əsasında qiymətləndirmək olar.

Əmək bazarının əlverişliliyi və səmərəliliyi alt-indeksi bir iqtisadi fəaliyyət sahəsindən digərinə işçi qüvvəsinin keçidinin nə dərəcədə asanlığını və bu zaman nə dərəcədə sosial risklərin olmasını, həmçinin gender bərabərliyini və işçi qüvvəsinin stimullaşdırılması ilə işçinin əməyinin nəticəsi arasındakı əlaqənin olmasını xarakterizə edir. Bu alt-indeksin hesablanmasını bu sahəyə birbaşa təsiri olan 9 göstəricinin, o cümlədən, 1) işçi və işəgötürənin əlaqələrinin kooperasiyası; 2) əmək haqqının elastikliyi; 3) məşğulluğun sərtliyi; 4) işəgötürmə və işdən azadetmə praktikası; 5) işdən azadetmə xərcləri; 6) işdə rəhbərliyə güvənmək; 7) beyin axını; 8) işçi qüvvəsində qadınların iştirakı; 9) ödəniş və məhsuldarlıq arasındakı əlaqənin kəmiyyətcə ölçüsünün ədədi ortası kimi hesablamaq olar. 1-ci, 2-ci, 4-cü, 6-cı, 7-ci və 9-cu göstəriciləri Dünya İqtisadi Forumunun İcraçı Rəy Sorğusu Xidmətindən [19], 3-cü və 5-ci göstəriciləri Dünya Bankının Doing Business qrupunun tədqiqatlarından, 8-ci göstəricini isə Beynəlxalq Əmək Təşkilatının tədqiqatlarından əldə etmək olar.

EGOİN indeksinin dördüncü – ***investisiya (I) sub-indeksi*** ölkə iqtisadiyyatının davamlı inkişafında investisiyaların rolunu əks etdirir. İnvestisiya eko-sisteminin əsas amillərini müəyyən etmək üçün onun yığımla əlaqəsi xüsusən nəzərə alınmalıdır. İstehlak olunmayan gəlirlər yığım kimi saxlanıla və investisiya kimi istifadə oluna bilər. İqtisadi tədqiqatların analizi deməyə əsas verir ki, investisiyaların həcminə təsir göstərən əsas amillər kimi 1) daxili yığım həcmini; 2) xarici iqtisadi əlaqələrdə ictimai kapital axınını; 3) xarici birbaşa investisiyaları; 4) özəl kredit bazarı sektorunu; və 5) ölkədə xarici valyutaların mübadilə kursunu götürmək olar.

Daxili investisiya ilə yığımın ÜDM-də həcmi arasındakı əlaqə Feldstein-Horioka reqresiyası kimi iqtisadi ədəbiyyatda özünə yer tutub [20]. Belə ki, daxili yığım həcminin daxili investisiya həcminə pozitiv təsiri ilə bağlı Feldstein-Horioka reqresiyası bazarların maliyyə inteqrasiyası ideyasını təkzib edir, yəni daxili bazarda yığımın artması kapitalın ixracına gətirib çıxarmır, əksinə daxili investisiyaları artırır.

Birbaşa xarici investisiyaların investisiya eko-sisteminin amili kimi iqtisadi artıma və davamlı inkişafa təsiri iqtisadi ədəbiyyatda birmənalı deyil. Belə ki, bəzi tədqiqatlar belə təsirlərin pozitiv (məsələn, M.Carkovic [21], M.Juma [22], A.Khaliq [23], M.Iqbal və digərləri [24]), bəzi tədqiqatlar isə (məsələn, A.Ek [25], N.Falki [26]) neqativ olduğunu göstərir. Ölkədən ölkəyə BXİ-ın təsirinin fərqli olması ölkənin iqtisadi xüsusiyyətlərindən və cəmiyyətin iqtisadi davranışından da asılı ola bilər. Bəzi tədqiqatlarda (məsələn, R.Schmidt [27]) iddia edilir ki, BXİ-ın iqtisadi artıma və onun tempinə təsiri BXİ-ın "astana" qiymətləri ilə bağlıdır. BXİ-ın elə həcmi var ki, o həcmə qədər iqtisadi artıma təsir hiss edilmir. Lakin, BXİ-ın həcmi bu həddi aşandan sonra pozitiv təsirlər hiss edilir. R.Schmidt BXİ üçün "astana" qiymətlərini ölkədə adambaşına ÜDM həcminin 18 misli həcmində qiymətləndirir. BXİ bu həddi aşandan sonra ölkənin ÜDM həcminin artımına və artım tempinin sürətlənməsinə səbəb olur. Lakin, ölkədən ölkəyə bu asılılıq dəyişir. R.Schmidt BXİ ilə ÜDM həcminin dəyişməsi arasındakı əlaqəni

$$\Delta Y = \beta_0 + \beta_1 * I_{Di} + \beta_2 * \Delta P_i + \beta_3 * (L\dot{I}FE)_i + \beta_4 * (TRADE)_i + g * (Y_{0i}, F\dot{D}I_i) + \varepsilon \quad (13)$$

kimi ifadə edir. Burada, ΔY-iqtisadi artım tempi, I_{Di}-adambaşına daxili investisiyanın ÜDM payı, ΔP_i-əhalinin artım tempi, $(L\dot{I}FE)_i$- doğulanda gözlənilən ömür uzunluğu, $(TRADE)_i$-adambaşına xarici ticarət dövriyyəsinin ÜDM-də payı; Y_{0i}-tədqiq edilən ilkin dövrdə adambaşına ÜDM həcminin ABŞ-ın bu göstəricisinə olan nisbət; $F\dot{D}I_i$-BXİ-ın cəmi axınının adambaşına ÜDM həcminə nisbəti; $g()$-qeyri-xətti funksiyadır; ε-modelin qalığıdır.

EGOİN indeksinin İnvestisiya (I) sub-indeksinin kəmiyyətcə qiymətləndirilməsi üçün tələb olunan göstəriciləri, o cümlədən, 1) daxili yığımın ÜDM-də payı; 2) BXİ-nın son 3 ildə dəyişməsi; 3) bir məşğula düşən kapitalın həcmi; 4) makroiqtisadi mühit üzrə ümumi reytinq; 5) inflyasiya dərəcəsi; 6) milli büdcə balansının ÜDM-in həcmində payı; 7) faiz dərəcəsi; 8) dövlət borcunun ÜDM-də payı; 9) ölkənin kredit reytinqi göstəricilərini Dünya İnkişaf İndikatorları və Qlobal Rəqabətlilik Hesabatlarından əldə etmək olar.

EGOİN indeksinin ***təbii resurslar (N)*** **sub indeksi** daha çox dörd alt-indeksin kəmiyyətcə ölçülməsini tələb edir: 1) su ehtiyatlarının; 2) enerji ehtiyatlarının; 3) ərzaq ehtiyatlarının və 4) ətraf mühitin çirklənmədən qorunması səviyyəsi. Bu alt-indekslər su ehtiyatlarının, enerji ehtiyatlarının, təbii resursların istehlakının nə dərəcədə davamlı olması ilə, həmçinin ətraf mühitin çirklənməsi dərəcəsi ilə kəmiyyətcə qiymətləndirilə bilər.

Su ehtiyatlarının davamlılığı deyəndə 1) su ehtiyatlarının mövcudluğu; 2) su ehtiyatlarının əlçatanlığı; 3) sudan istifadə sisteminin səmərəli qurulması; 4) su ehtiyatlarından istifadə sahələri; 5) su ilə bağlı olan ətraf mühitin vəziyyəti. Su ehtiyatlarının davamlılığını xarakterizə edən kəmiyyət göstəricilərini, o cümlədən, 1) içməli suyun əlçatanlığı; 2) təmizlik üçün istifadə edilə bilən suyun əlçatanlığı; 3) suyun keyfiyyəti indeksi; 4) su stresi indeksi; 5) su çatışmazlığı indeksinin kəmiyyətcə ölçülməsi nəzərdə tutula bilər. Bu göstəricilərdən 1-ci və 2-ci Dünya İnkişaf İndikatorları məlumat bazasından, 3-cü UNEP GEMS/Water qurumunun məlumat bazasından, 4-cü UNH Water Systems Analysis məlumatlar bazasından və 5-ci FAO qurumlarının məlumat bazalarından əldə edilə bilər.

Ətraf mühitin çirklənməsi alt-indeksini

$$PE\dot{I}_i = \sum_j^6 w_j * X_{ij} \qquad (14)$$

kimi ifadə etmək olar. Burada, $PE\dot{I}_i$-i-ci ölkədə ətraf mühitin çirklənməsi alt-indeksi, w_j-çirkləndiricilərin ümumi həcmdəki çəkisi, X_{ij}-i-ci ölkədə ətraf mühiti çirkləndirən maddələrin həcmini xarakterizə edən göstəricidir. Belə çirkləndiricilər arasında əsasən kükürd dioksidi (0.2 şəki ilə), azot oksidi (0.1 çəki ilə), metan olmayan uçucu üzvü birləşmələr (0.1 çəki ilə), regional ozon (0.1 çəki ilə), daxili hava çirkləndiricilər (0.25 çəki ilə) və şəhər çirkləndiriciləri (0.25 çəki ilə) xüsusi çəkiyə malikdir. Bu göstəricilərlə bağlı məlumatları Dünya Səhiyyə Təşkilatının və Dünya Bankının məlumatlar bazasından əldə etmək olar.

Ədəbiyyat

1. LIM Chong Yah.The Trinity Growth Theory: A Theory of Wealth and Poverty. *19 October 2012*. EGC Report No: 2012/03
2. Cobb, J.B., & Daly, H. E. For the common good: redirecting the economy towards community, the environment, and a sustainable future. Beacon Press, Boston. 482 pp.
3. Mona Chew Poh Gek. Measuring economic sustainability of nations:Singapour as case study. School of Humanities and Social Sciences, 2013
4. Global Entrepreneurship Monitor. https://www.gemconsortium.org/report
5. The World Economic Forum. Global Competetiveness Index. http://reports.weforum.org/global-competitiveness-report-2018/?doing_wp_cron=1563563794.3027489185333251953125
6. World bank Group. Doing Business https://www.doingbusiness.org/en/reports/global-reports/doing-business-2019
7. The Heritage Foundation. https://www.heritage.org/index/about
8. The Global Innovation Index. https://www.globalinnovationindex.org/gii-2018-report

9. The Global Entrepreneurship and Development Institute https://thegedi.org/global-entrepreneurship-and-development-index/

10. United Nations The Economic and Social Commission for Asia and the Pacific (ESCAP). What is good governance. https://www.unescap.org/sites/default/files/good-governance.pdf

11. The Legatum İnstitute. https://li.com/

12. Transparency İnternational https://www.transparency.org/cpi2018

13. Mincer, J.Schooling, Experience and Earnings. New York: National Bureau of Economic Research, 1974.

14. World bank. World Development Indicators. http://wdi.worldbank.org/tables

15. Gallup World Poll. https://www.gallup.com/services/170945/worldpoll.aspx

16. Chansarn Supachet. Labor Productivity Growth, Education, Health and Technological Progress: A Cross-Country Analysis//Economic Analysis & Policy, Vol. 40 No. 2, september 2010.

17. World Health Organization. https://www.who.int/

18. World Value Service. http://www.worldvaluessurvey.org/wvs.jsp

19. World Economic Forum Executive Opinion Servey http://reports.weforum.org/global-competitiveness-report-2018/appendix-b-the-executive-opinion-survey-the-voice-of-the-business-community/

20. Feldstein, Martin and Horioka, Charles. "Domestic Saving and International Capital Flows." The Economic Journal, Vol. 90, (June 1980), pp. 314-329.

21. Carkovic, M. V., & Levine, R. Does foreign direct investment accelerate economic growth? U of Minnesota Department of Finance Working Paper 2002.

22. Juma, M. A. (2012). The effect of foreign direct investment on growth in Sub-Saharan Africa (Doctoral dissertation, Amherst College).

23. Khaliq, A. and Noy, I. Foreign direct investment and economic growth: Empirical evidence from sectoral data in Indonesia. Journal of Economic Literature, 2007, 45(1), 313-325

24. Iqbal, M. S., Shaikh, F. M., and Shar, A. H. Causality relationship between foreign direct investment, trade and economic growth in Pakistan. Asian Social Science, 2010, 6(9), 82.

25. Ek, A. The Impact of FDI on Economic Growth: The Case of China, 2007.

26. Falki, N. Impact of foreign direct investment on economic growth in Pakistan. International Review of Business Research Papers, 2009, 5(5), 110-120

27. Schmidt, Rodney. Enough foreign direct investment quickens economic growth everywhere. October, Ottawa, Canada: North-south Institute, 2008.

Shahin BAYRAMOV, PhD

Rector of Mingachevir State University

EGOIN evaluation methodology of sustainable economic development

Summary

The article compares different measurement methods related to the quantitative measurement of one of aspects of the concept of "sustainable development", which has been widely discussed in the economic, social and environmental literature for the last 30 years. The essence of EGOIN method, which is one of these methods, is investigated by showing its differences from other methods. The article also identifies the determinants on which the EGOIN method is based and their relationship to the social and environmental aspects of sustainable development. Particular attention is paid to the methods of individual assessment of the determinants of the EGOIN method and the reliability of the data obtained.

Keywords: *sustainable development, entrepreneurship, public administration, employment, investment, EGOIN method*

Байрамов Шахин, PhD
Ректор Мингачевирского Государственного Университета

EGOİN методология для оценки устойчивого экономического развития

Резюме

В статье сравниваются различные методы измерения одного из аспектов концепции «устойчивого развития», широко обсуждаемой в экономической, социальной и экологической литературе на протяжении последних 30 лет. Исследована сущность метода EGOIN, который является одним из этих методов, и показаны его отличия от других методов. В статье также определены детерминанты, на которых основан метод EGOIN, и их связь с социальными и экологическими аспектами устойчивого развития. Особое внимание уделяется методам индивидуальной оценки детерминантов метода EGOIN и достоверности полученных данных.

Ключевые слова: *устойчивое развитие, предпринимательство, государственное управление, занятость, инвестиции, метод EGOIN.*

DAYANIQLI İNKIŞAFDA TƏBİİ İNHİSAR AMİLİ, "TƏBİİ İNHİSAR" KATEQORİYASINA İQTİSADİ NƏZƏRİYYƏ MƏKTƏBLƏRİNİN YANAŞMALARI

Hüseynov Qalib Sirac oğlu, i.f.d., dosent
Sumqayıt Dövlət Universiteti
qalib.huseynov69@mail.ru

Xülasə

Təbii inhisarlar iqtisadiyyatın bütövlüyü və dayanıqlılığının saxlanmasında böyük rol oynayır. Bir sıra təbii inhisar sahələri ölkəmizin dünya inteqrasiyasına da töhfə verir. İqtisadi nəzəriyyə məktəblərinin müxtəlif istiqamətləri "təbii inhisar" kateqoriyasının mahiyyəti və məzmununun müəyyən edilməsinə müxtəlif yanaşmalar təklif edirlər. Bu yanaşmaların əksliyinə baxmayaraq təbii inhisarların yaranması, işləməsi və fəaliyyətinin tənzimlənməsi prosesində dövlətin mühüm rolu əksər iqtisadçılar tərəfindən qəbul olunur. Məqalədə "təbii inhisar" kateqoriyasının tərifi açıqlanmışdır, onun xarakterik əlamətləri və fəaliyyətinin ilkin şərtləri araşdırılmış, eyni zamanda bu tip inhisarı başqalarından fərqləndirən bir sıra fərqli xüsusiyyətlər ayrılmışdır.

İqtisadi inkişafın müasir mərhələsi təsərrüfatçılığın innovasiya texnologiyaları və idarəetmə strategiyaları əsasında səmərəli metodlarına keçidlə xarakterizə olunur. Bu prosesdə xüsusi rolu təbii inhisarlar oynayır. Təbii inhisarların fəaliyyətində dəyişikliklər ölkənin bütün makroiqtisadi göstəricilərinə təsir göstərir. Resurs və məhsulların istehlakçılara qədər çatdırılmasını həyata keçirməklə təbii inhisarlar milli iqtisadiyyatın bütövlüyü və dayanıqlılığının saxlanmasında hədsiz rol oynayır. Ölkəmizin bir sıra təbii inhisar sahələrinin məhsulları dünya ölkələrinin tələbatını ödəyərək dünya bazarında satılır, bu isə ölkənin beynəlxalq iqtisadi münasibətlərdə iştirakını genişləndirir. Azərbaycanda təbii inhisarların fəaliyyətinin qeyri-kafi makroiqtisadi və mikroiqtisadi səmərəliliyi ilə bağlı bir sıra problemlər mövcud olsa da dövlət büdcəsi gəlirlərinin tamamlanmasında onlar əhəmiyyətli rol oynayır [1, s. 127].

Əgər təbii inhisarlara iqtisadi kateqoriya olaraq yanaşsaq aydın olar ki, o nəzəri-iqtisadi tədqiqatların spesifik obyektini özündə əks etdirir. Bu obyektin çoxüzlülüyü "təbii inhisar" kateqoriyasının mahiyyət və məzmununu alternativ nəzəriyyələrin tətbiqi ilə gələcək dəqiqləşdirilməsini, təbii inhisarların fəaliyyəti mexanizminin təkmilləşdirilməsi yolu ilə əsaslandırılmasını tələb edir.

Təbii inhisarlar haqqında Azərbaycan Respublİkasının Qanununda təbii inhisar subyektlərinin fəaliyyət sahələrinə aşağıdakılar aid edilir:

- neft və neft məhsullarının magistral boru kəmərləri ilə nəqli;
- təbii qazın boru kəmərləri ilə nəqli, saxlanması və paylanması xidmətləri;
- elektrik və istilik enerjisinin ötürülməsi və paylanması xidmətləri;
- magistral və yerli dəmir yolu xətlərinin, yol qurğu və tikililərin istismarı, hərəkəti idarəetmə və hərəkət təhlükəsizliyi fəaliyyəti, dəmir yolu stansiyaları və sərnişin vağzalları xidmətləri;
- aeroport xidmətləri, aeroportların, uçuş zolaqları və qurğuların istismarı, hava gəmilərinə aviasiya və aeronaviqasiya xidmətləri;
- metro nəqliyyatında yolların, tunellərin və stansiyaların istismarı, hərəkəti idarəetmə və hərəkət təhlükəsizliyi fəaliyyəti;
- su limanı xidmətləri, liman qurğularının istismarı, yükaşırma və dəniz üzgüçülüyünün təhlükəsizliyi fəaliyyəti;
- ümumi istifadədə olan elektrik və poçt rabitəsi xidmətləri, qəbuledici verici radio və televiziya stansiyalarının, yüksəktezlikli qurğuların istismarı və nəzarət fəaliyyəti;
- baş sutəmizləyici qurğular, magistral borular, su kəməri şəbəkəsi və onların üzərindəki təzyiq və tənzimləyici qurğuların istismarı;
- kanalizasiya təsərrüfatında aerasiya, mexaniki təmizləmə stansiyaları, nasosxanalar, baş və yağış kollektorları və kanalizasiya xətlərinin istismarı;
- meliorasiya və irriqasiya sahələrinə aid olan su anbarları, kanallar, kollektorlar, boru kəmərləri və bəndlərin istismarı;
- istilik təchizatı xidmətləri.

Mütləq inhisar iqtisadi nəzəriyyədə, xüsusilə onun təkmil rəqabət bazarının öyrənilməsi ilə məşğul olan hissəsində mərkəzi kateqoriyalardan biridir. Təriflərdən birinə görə "mütləq (xalis) inhisar – aşağıdakı fərqləndirici xüsusiyyətlərə malik bazar strukturudur: a) bazarda bütün tələbə xidmət göstərən yalnız bir satıcı firma iştirak edir, yəni firmanın ölçüsü sahənin ölçüsü ilə bir-birinə uyğun gəlir, b) bu firma yaxın əvəzedicilərinə malik olmayan nadir əmtəəni nəzərdə tutur, c) potensial rəqiblər üçün bazara giriş bir və ya bir neçə səbəbə (dövlətin inhisarı, patentlər, resurslar üzrə ekslyuziv imkana malik olma) görə bağlıdır, ya da iqtisadi cəhətdən səmərəli deyil (vahid mərkəzdən nəzarət tələb edən nemətin çatdırılmasının şəbəkə xarakteri, miqyasın müsbət verimi)" [2, s. 436].

Bazarda əhəmiyyətli gücə malik olan mütləq inhisarçı nəinki qiymət, həm də satışın həcmi ilə manipulyasiya edə bilir. Onun üçün məhdudlaşdırıcı kimi yalnız böyük qiymətlər şəraitində daha elastik olan ümumi tələb çıxış edir.

İlk dəfə "təbii ("praktiki") inhisar termini iqtisadi fikrin klassik istiqamətinin nümayəndəsi Con Stüart Mill tərəfindən "Siyasi nəzəriyyənin əsasları" (1949) əsərində işlənmişdir. O təbii inhisarların aşağıdakı nümunələrini nəzərdən keçirmişdir: qaz- və su təchizatı, yollar, kanallar və dəmir yolları. Nəticədə Avstriya iqtisadçısı F. fon Vizer bu halda rəqabət prinsipinin tamamilə dağıdıcı olduğunu təsdiq edərək onu "real" inhisar adlandırmışdır. Küçə boyunca müxtəlif şirkətlərin iki-üç dəst olmaqla boruların çəkildiyi israfcıl "sahə daxilində rəqabət" tədricən "sahə

üzrə rəqabətə" keçmişdir. Bazara girişin konkurs növlərinin analoji prosedurları dəmir yol tikintisində də baş vermişdir. XX əsrdə təbii inhisarı U.Baumol (W. Baumol), U.Şapard (W.Shephard), H.Demses (H.Demsetz) öyrənmişdir.

İqtisadi nəzəriyyə məktəblərinin müxtəlif istiqamətlərində "təbii inhisar" kateqoriyasının mahiyyəti və məzmununun müəyyən edilməsinə müxtəlif yanaşmalar təklif olunur.

Əksər hallarda təbii inhisarın əsas əlaməti qismində istehsalın miqyaslı olması seçilir. Təbii inhisar sahəvi bazar strukturudur, burada "istehsal miqyaslarının artımı ilə yerinə yetirilən qənaət o qədər böyük olur ki, məhsul onun istehsalı ilə digərlərinin məşğul olmasındakına nisbətən daha aşağı xərclər şəraitində firmanın yalnız özü tərəfindən istehsal oluna bilir" [3, s. 148]. Bu fikir yaxın əvəzedicilərinin olmaması səbəbi ilə əlaqədar təbii inhisar müəssislərinin məhsul və xidmətlərinə tələbin qeyri-elastikliyi üzrə istinadlarla tamamlanır [4, s. 516-523]. Təbii inhisar –texnoloji xüsusiyyətlərinə görə iki və daha çox firmada olduğundan daha gəlirli olan şirkətdir [5, s. 246].

N.D.Xayman tərəfindən verilmiş tərif orta xərclər funksiyasının xüsusiyyətlərinə əsaslanmışdır. "Təbii inhisar – bir məhsul vahidinə olan bütün bazar tələbini, eyni həcmdə əmtəəni iki və daha çox firmanın tədarük etdiyi halda onlar üçün mümkün ola bildiyindən daha aşağı orta xərclər ilə təmin edə bilən firmadır" [6, s. 334]. Analoji yanaşmaya K.R.Makkonnelin də işlərində rast gəlinir.

Daha müasir dəqiqləşdirici yanaşma diqqəti müəllifi amerikan iqtisadçısı U.Baumol olan xərclərin subadditivliyi konsepsiyasına yönəldir, L.B.Royun tərifinə görə "xərclərin subadditivliyi (subadditive costs) - xərclərin xüsusiyyətidir, ona uyğun olaraq bir firma üçün onların məbləği sahədə istehsalın verilmiş müsbət səviyyəsi şəraitində iki də və daha çox firmaya nisbətən aşağıdır" [7, s. 448]. Xərclər funksiyasının subadditivliyi onu bildirir ki, təbii inhisar dəyişməz və yaxud artan uzunmüddətli orta xərclər şəraitində fəaliyyət göstərdiyi halda miqyasın müsbət verimi həmişə onların azaldığını bildirir.

Deyilənləri ümumiləşdirərək təsdiq etmək olar ki, təbii inhisarların müəyyən edilməsinə **neoklassik** yanaşma aşağıdakı müddəalara əsaslanmışdır:

1. Miqyasın müsbət effektinin mövcudluğu;

2. Miqyasın müsbət effektinin təsirinin nəticəsi olaraq uzunmüddətli dövrdə azalmaqda olan orta xərclər;

3. Firmanın miqyasının sahənin ölçüsünə qədər genişləndirilməsinin məqsədəuyğunluğu və rəqabətin qeyri-rentabelliyi, bu isə yalnız bir istehsalçının olmasının effektiv olduğunu göstərir.

Təbii inhisar problemləri iqtisadi fikrin institusional istiqaməti çərçivəsində də öyrənilir. Keçmiş amerika institusionalizminin yaradıcısı T.Veblen inhisarların fəaliyyətinə tənqidi yanaşırdı və proqnozlaşdırırdı ki, sənayenin inhisarlaşdırılması istehsalın həcminin azalmasına, birja qiymətlərinin artmasına gətirib çıxara və gələcək iqtisadi böhranın səbəblərindən biri ola bilər. C.Kommons "Kollektiv işlərin iqtisadiyyatı" (1951) əsərində, əksinə, hesab edirdi ki, iri korporasiyalar böhran dövründə daha dayanıqlı olur, tsiklik proseslərə əks təsir göstərə bilirlər. O təsdiq edirdi ki, inhisarlaşdırılmış iqtisadiyyatda müxtəlif təşkilati güclər (dövlət, həmkarlar təşkilatı və korporasiyalar) arasında qarşılıqlı təsiri və kompromisi qoruyub saxlayan üsulları axtarmaq lazımdır. İqtisadi ziddiyyətlərin həll edilməsi öz hüquqi əsaslarına malik kollektiv fəaliyyətlər vasitəsilə mümkündür. Daha sonra buna oxşar bir şeyi "Yeni sənaye cəmiyyəti" əsərində C.Helbreyt demişdir. O istehsalın iri müəssisələrdə mərkəzləşdirilməsinin məqsədəuyğunluğu və inkişaf etmiş texniki struktura malik iri maşınlı istehsalın ümumilikdə yeni iqtisadi sistemin əsası olmasının zəruriliyi haqqında yazmışdır. C.Helbreytin fikirnə görə, yeni cəmiyyətdə inhisarların

milliləşdirilməsi və onların iqtisadi hakimiyyətinin birbaşa dövlət müdaxiləsi vasitəsilə məhdudlaşdırılması baş verməlidir.

Neoinstitusionalizmdə müxtəlif növdən olan inhisarların öyrənilməsinə bir sıra digər yanaşmalardan istifadə olunur. O yanaşmalardan mülkiyyət hüququ nəzəriyyəsi və ondan törəyən müqavilələr nəzəriyyəsi, eyni zamanda transaksiyalar nəzəriyyəsi və ondan törəyən transaksiya xərcləri nəzəriyyəsi əsasdır. Onlar təşkilati və hüquqi yanaşmalar əsasında təbii-inhisar bazar strukturlarının yaranmasını izah edirlər. Transformasiya iqtisadiyyatının araşdırmalarında, özəlləşdirmə proqramlarının əsaslarından biri R.Kouz teoremi ola bilər ki, ona görə yeni mülkiyyət strukturunun formalaşması sayəsində məhdud mənbələrdən səmərəli istifadə etmək mümkündür [8, s. 7]. R.Kouz "Firmanın təbiəti" (1937) əsərində, nəinki iri firmaların, həm də şəbəkə və vertikal-inteqrasiyalı strukturların mövcudluğunun səmərəliliyini sübut edir. Digər neoinstitusionalistlər F.Naymonun ardınca firmanın (o cümlədən iri firmaların) yaranmasını bazar qeyri-müəyyənliyinin aradan qaldırılması ilə bağlayırlar.

Təkamül institusionalizminin nümayəndələri üçün iqtisadiyyatın təbii-inhisar sektorunun vəziyyətindən çox onun dinamikası və transformasiyası vacibdir. Firmanın təkamül konsepsiyasında (R.Nelson, S.Uinter) sahədə istehsalın mərkəzləşdirilməsi məhz həmin sahənin innovasiya və investisiya aktivliyinin spesifik amilləri ilə bağlıdır. Fransa iqtisadiyyatının nümayəndələrindən biri J.Sapir bu anlayışın bütün hərtərəfliliyini təhlil edərək belə bir nəticəyə gəlir ki, təbii inhisar sahəsinə potensial olaraq aid olan istənilən fəaliyyəti o şərtlə hesab etmək olar ki, onda rəqabət mümkün deyil və yaxud səmərəli deyil, yəni arzuolunan deyil [9, s. 42].

Təbii inhisarın fəaliyyətinin sosial (ictimai) effektlərini də qeyd etmək lazımdır. "Təbii inhisar – inhisarların xüsusi formasıdır, burada əmtəə və xidmətlərin istehsalı istehsalın vahid daha effektiv təşkilati strukturunu və əhaliyə xidmətin daha səmərəli sistemini yaratmağa imkan verir. Göstərilən bölmələr əhalini həyati baxımdan zəruri olan xidmətlərlə təmin etmək üçün böyük sosial əhəmiyyət kəsb edir və çoxluq etibarilə dövlət tərəfindən bu məqsədlər uçun istifadə edilir. Buna görə də bu cür inhisarların fəaliyyəti o birilərinə nisbətən onun nəzarəti altında olur. Bu tərif diqqəti təbii inhisarların nəinki səmərəliliyi, həm də sosial yönümlülüyü və ictimai əhəmiyyətliliyi üzərinə yönəldir. Çünki çox halda əhalinin həyati cəhətdən vacib xidmətlərlə təmin edilməsi sosial rifah səviyyəsini əks etdirir.

Təbii inhisarın öyrənilməsinə istehsal yanaşması ondan ibarətdir ki, hazırda o milli iqtisadiyyatın infrastrukturunun bir hissəsi hesab olunur. Buna görə də təbii inhisarı xidmətlərin çatdırılmasının şəbəkə xarakteri ilə də bağlayırlar. Həqiqətən dövlət əhəmiyyətli təbii inhisarlara neft və qazın tədarükünü, enerji və istilik şəbəkəsini, dəmir yol nəqliyyatını, hava daşınmalarının dispetçer sistemini aid edirlər. Bu sahələr istehsal infrastrukturunu formalaşdıran sahələrdir. Fikrimizcə, infrastrukturların fəaliyyəti həm müsbət, həm də mənfi (fasiləsiz iş halında) olmaqla böyük xarici effektlərə səbəb olur. Belə ki, kommunikasiyalarım sıradan çıxması səbəbindən itkilər onların köməyi ilə əldə edilən məhsullar üzrə birbaşa son hədd faydalarına nisbətən daha böyük ola bilir.

Bir sıra müəlliflər təbii inhisar şəbəkələrindən başqa onun hansısa bir məhdud və qeyri-məhsuldar resursa eksklyuziv malik olması ilə bağlı resurs inhisarı kimi çoxlu növlərini ayırırlar.

Önəmlisi odur ki, şəbəkə və resurs inhisarları, bir qayda olaraq, bir-birindən ayrılmazdır. Gələcəkdə fəaliyyət növlərindən birini inhisarlaşdıran şirkətin bazardakı dominant mövqeyi xeyli dərəcədə bir-biri ilə bağlı olan spesifik aktivlərin firmadaxili birləşdirilməsi sayəsində yaranır. Bu cür inteqrasiyanın effektivliyini O.Uilyamsonun birgə ixtisaslaşmış (və yaxud interspesifik) aktivlər nəzəriyyəsi əsasında izah etmək olar.

Müqavilələrin müasir institusional nəzəriyyəsində bütün aktivlər ümumi, spesifik və interspesifik aktivlərə bölünürlər. Ümumi aktivlər müxtəlif fəaliyyət növlərinə tətbiq oluna və eyni gəliri gətirə bilər. O.Uilyamsona görə spesifik aktivlər "onların alternativ məqsədlərə və yaxud alternativ istifadəçilər tərəfindən istehsal potensialında itkisiz istifadəsi üçün yenidən profilləşdirilə bilər". Onlar yüksək risklə əlaqədar olaraq spesifik investisiyalar nəticəsində yaradılır, onlardan istifadə kvazirentaya səbəb olur. İnterspesfik aktivlər – nəinki kooperasiyada istifadə edilən, həm də bir-bir ilə bağlı olan aktivlərdir. Onların birləşdirilməsi əhəmiyyətli sinergetik effekt verir və kvazirentanın mənbəyi olur. Bununla yanaşı bu cür aktivlərin hər birindən istifadənin alternativ dəyəri sıfıra yaxındır.

Mülkiyyət hüququnun konsoldasiyası, nəticədə, həmin firmanın transaksiya xərclərini azaldır. Bu əlavə üstünlük miqyasın müsbət verimi effektini gücləndirir. Şəbəkə iqtisadiyyatında inteqrasiya funksiyalarının həyata keçirilməsi üzrə imtiyazları əldə edən firma sahədə dominant mövqe qazanır.

İqtisadçılar təbii inhisar hadisəsinin mahiyyətini müxtəlif cür müəyyən edirlər. Neoklassiklər tərəfindən verilən tərif, hər şeydən əvvəl, istehsalın texnoloji xüsusiyyətlərinə əsaslanır ki, bundan da miqyasın artan verimi və uzunmüddətli dövrdə orta xərclər funksiyasının azalması irəli gəlir. Xərclərin subadditivliyi konsepsiyası neoklassik yanaşmada verilmiş tərifi genişləndirir və bazarın səmərəli inhisarlaşdırılması hədlərini daha əminliklə göstərir. Bütövlükdə yanaşmalar sahəyə girişin iqtisadi faydasını və baryerlərin xüsusiyyətləri haqqında mülahizələrinə əsaslanır. İnstitusional yanaşma o cümlədən bazarın inhisarlaşdırılmasını şərtləşdirən və dəstəkləyən iqtisadi siyasət sahəsində mülkiyyət hüquqları və digər formal qaydalara əsaslanır. O transaksiya xərclərinin azalması ilə təbii inhisarların yaranmasını əlaqələndirir. Bu yanaşma diqqəti mənafelər balansının gözlənilməsinin əhəmiyyətinə də yönəldir.

Bundan başqa, təbii inhisarın fəaliyyətinin xarakteristikası zamanı onların sərəncamına düşən resursların yerləşdirilməsi və əlçatanlığı xüsusiyyətlərini və ölkədəki ümumi makroiqtisadi vəziyyəti nəzərə də almaq lazımdır. Beləliklə, təbii inhisar nəinki mikroiqtisdiyyatın, həm də makroiqtisadiyyatın və təbii resurs iqtisadiyyatının öyrənilməsi obyekti ola bilər.

Sahə bazarının təbii-inhisar vəziyyətinin yaranması və inkişafının ilkin şərtləri haqqında məsələyə gəldikdə sahə bazarlarının nümayəndələri (D.Ross, F.Şerer, S.Avdaşeva) bütövlükdə təbii inhisarın neoklassik tərifini qəbul edərək onu istehsal texnologiyasını, bazar tələbini, məhdud resurslara unikal şəkildə malik olmanı, konkret sahə bazarını xarakteristika edən təbii amillərin (coğrafi vəziyyət və s.) birləşdirici xüsusiyyətlərinin təsiri olaraq müəyyən etmişdilər.

Hipotezanın əsaslandırılması institusional bir yanaşmanın istifadəsini nəzərdə tutur, çünki neoklassik nəzəriyyədən fərqli olaraq institusional təhlil "mərkəzi rolun marjinal dəyərlərin bərabərləşdirilməsinə həvalə olunduğu sırf kəmiyyət təhlilindən daha keyfiyyətli institusional təhlilə doğru dəyişir, burada diskret alternativ strukturlar müqayisə olunur"

Siyasi-hüquqi nəzəriyyənin nümayəndələri (T.DiLorenso, Q.Qrey, R.Erli) təbii inhisarın mahiyyətinə digər cərəyan nümayəndələrinin verdiyi tərif ilə razılaşırlar və eyni zamanda əsas səbəblər qismində iqtisadi (bazar) və texnoloji amilləri ayırırlar. Buna baxmayaraq eyni zamanda siyasi-hüquqi nəzəriyyə nümayəndələrinin konsepsiyası təbii inhisarların formalaşmasında dövlətin əhəmiyyətli rolu haqqında fərziyyəyə də əsaslanır.

Hələ XIX əsrin birinci yarısında S.Beyli və U.N.Senior təbii inhisarlara uyğun gələn və statusu hökumət tərəfindən yaradılan və dəstəklənən istehsal şəraitini tədqiq edərək tezis irəli sürdülər. XX əsrdə "Rifahın tariflərdən, inhisarlardan və oğurluqdan itkiləri" (1967) işində Q.Tallok bazarda inhisar mövqeyinin yaradılması və saxlanmasına onların özünəməxsus investisiyaları

haqqında şirkətlərin bazara daxil olması uğrunda siyasi rəqabəti haqqında yazmış və bu problemi hakimiyyət orqanlarının yenidən investisiyalı davranışı ilə əlaqələndirmişdir. Daha sonra bazarda inhisar vəziyyətinin yaradılması və qorunub saxlanması üzrə siyasi xərclər haqqında R.Pozner "Təbii inhisar və onun tənzimlənməsi" (1969) əsərində yazmışdır.

Beləliklə, təbii inhisarların meydana gəlməsinin əsas səbəblərinin müəyyən edilməsinə yanaşmaların sistemləşdirilməsi belə bir nəticə çıxarmağa imkan yaradır ki, müxtəlif iqtisadi məktəblərin baxışlarındakı fərqlər müxtəlif mümkün ilkin şərtlərin ümumi kompleksindən ayrı-ayrı amillər qrupunun ayrılması ilə şərtləşir.

Qeyd etmək lazımdır ki, təbii inhisarların meydana gəlməsi səbəbləri üzrə göstərilən baxışların aşkar əksliyi şəraitində təbii inhisarların yaranması, işləməsi və fəaliyyətinin tənzimlənməsi prosesində (sahənin inhisardan azad olunması vasitəsilə ləğvinə qədər) dövlətin mühüm rolu əksər iqtisadçılar tərəfindən qəbul olunur.

Dövlətin rolu təbii inhisarın maraqlar balansına nail olunması və qeyri-müəyyən çoxluqda onun məhsulunun istehlakçılarının təmin edilməsi zəruriliyindən də ibarətdir. Əks təqdirdə bütövlükdə bazarın inhisar təşkilinə xas olan maksimal mənfəət əldə etmək istəyinə üstün gəlinməsi onun ictimai əhəmiyyətini ikinci plana keçirir. Buna görə də təbii inhisar tənzimlənən fəaliyyət sferası kateqoriyasına aiddir. Müasir hüquq iqtisadiyyatının yaradıcısı R.Pozner yazırdı ki, nəzəriyyə təbii inhisarın tənzimlənməsinin zəruriliyini göstərir.

Təbii inhisarın texnoloji xüsusiyyətləri qiymətəmələgəlmə təcrübəsində də öz əksini tapır. Ona yüksək daimi xərclər və son hədd xərclərinin mövsümi dəyişmələri xarakterikdir. Buna görə də bu tipdən olan firma iki komponentli tarif adlandırılan tarifi sınaqdan keçirir. O özündə aşağıdakılar birləşdirir: a) təminatlı minimum xidmətlərin göstərilməsi əvəzinə xidmətə malik olmağın haqqı, bu isə inhisara böyük çəkidə daimi xərclər yerləşdirməyə imkan verir; b) əlavə xidmətlərin istehlakı üzrə ödəniş.

Belə nəticəyə gəlmək olar ki, təbii inhisarın əsasını istehsalın texnologiyası və istehlakçılara xidmət göstərilməsi xüsusiyyətləri təşkil edir [10, s. 58]. Bu istehsal miqyasına qənaət, xərclərin subadditivliyi kimi əlamətlər təbii inhisarın fərqləndirilməsi üçün vacib, ancaq kifayət qədər deyil. Yüksək giriş baryerləri və rəqib firmaların olmaması da bu sahə üçün xarakterikdir, ancaq təbii inhisarı bütünlükdə inhisardan fərqləndirmir. Bu sahə özündə mühüm ictimai yükü daşıyır, o strateji əhəmiyyətə malik olaraq aşağıdakı xüsusiyyətlərə malikdir: buraxılan məhsulun unikallığı və tələbin aşağı qiymət elastikliyi, bazarın qurulmasının şəbəkə xarakteri

Təbii inhisar öz bazar hakimiyyəti üzündən bir sıra bütöv məni iqtisadi nəticələrə səbəb olur.

a) inhisarçılar tərəfindən qiymətlərin nəzarətsiz yüksəldilməsi bütün sahələrdə xərclərin artmasına səbəb olur və iqtisadiyyatda inflyasiya proseslərini doğurur;

b) digər firmalar tərəfindən rəqabətin olmaması məhsulun yenilənməsi, onun keyfiyyətinin, istehlakçılara xidmət səviyyəsinin yüksəldilməsi üçün stimulları azaldır, bu texnoloji geriliyə və istehsalın qeyri-çevikliyinə səbəb ola bilər.

b) inhisar mənfəəti heç də həmişə investisiya qoyuluşu məqsədləri üçün xərclənmir, çox vaxt onlar qeyri-məhsuldar istehlak, bürokratik aparatın şişməsinin bazasına çevrilir, bu isə idarəetmə xərclərinin artmasına və istehsalın effektivliyinin azalmasına gətirib çıxarır [11, s. 436].

Effektiv qərarların qəbulu üçün xarici stimulların və yaxud daxili motivlərin olmaması nəticəsində resursların israfçılığı iqtisadi nəzəriyyədə X-qeyri-səmərəliliyi adlanır. X-qeyri-səmərəliliyi hadisəsi rus mənşəli amerika iqtisadçısı X.Leybenstayl tərəfindən aşkar edilmiş və elmə gətirilmişdir. İstehsal xərclərinin artması onun nəticəsidir, o isə inhisarın texnoloji və bazar üstünlüyünü qismən, bəzən isə tamamilə tarazlayır.

Adi inhisardan fərqli olaraq təbii inhisar çox dayanıqlıdır. Hətta effektiv olmağı dayandırmaqla o potensial rəqiblər üçün istehsalın effektiv həcminə nail olmaq üçün tələb olunan kapital qoyuluşlarının miqyası olan dəfedilməz baryeri qoruyub saxlayır. Təbii inhisar, bir qayda olaraq, bazarı saxlamaqdan daha çox ona sahib olmaq üçün böyük səylər tələb edir.

Nəticə

Təbii inhisar obyektiv hadisə olaraq bazarın xüsusi halını özündə əks etdirir, onun çərçivəsində isə firma öz maraqlarını reallaşdırmağa çalışır. Təbii inhisarın formalaşmasının sosial-iqtisadi ilkin şərtləri mühüm məsələ olaraq qalır. Gələcəkdə onun düzgün həlli təbii inhisar sahələrinin yenidən təşkili və effektiv fəaliyyəti imkanlarını daha dəqiq müəyyən etməyə kömək edəcəkdir. Təbii inhisarların əlamətlərinin ümumiləşdirilmiş xarakteristikasını qısa olaraq aşağıdakı kimi təklif edirik: xərclərin subadditivliyinin xüsusiyyəti, təbii inhisarın iqtisadi effektivliyi, istehsal miqyasına kəskin ifadə edilmiş qənaət, "yüksək" təbii giriş baryerləri, tələbin aşağı elastikliyi, buraxılan məhsulun unikallığı, bazarın təşkilinin şəbəkə xarakteri, strateji vaciblik.

Ədəbiyyat siyahısı

1. Гусейнов Г.С. Развитие электроэнергетики - важное условие превращения Азербайджана в логистический хаб. Логистические системы в глобальной экономике. Часть 1. Научно-исследовательский сектор. Материалы XI Международной научно-практической конференции (1-2 апреля 2021., Красноярск.

2. Малькина М.Ю. Экономическая теория. Часть 1. Микроэкономика: Учебное пособие, - Нижний Новгород: Изд-во Нижегородского госуниверситета (НПГУ). – 2009. – 436 с.

3. Экономическая теория. Учебник / Под ред. Николаевой И.П. – М.: Проспект. – 2000.

4. Малинникова Е.В. Естественные монополии в экономике России: проблемы, противоречия и первые итоги // Экономический журнал ВШЭ. – 1998. - №4.

5. Королькова Е.Н. Естественная монополия: регулирование и конкуренция // Экономический журнал Внешней школы экономики. – 2000. - №2.

6. Хайман Н.Д. Современная микроэкономика: анализ и применение: В 2-х томах / Под редакцией С.В.Вольдейцева. – М.: Финансы и статистика. – 1992.

7. Рой Л.В. Анализ отраслевых рынков. Учебник для студентов вузов / Л.В.Рой, В.П.Третьяк; Моск. гос. ун-т им. М.В.Ломоносова. – М.: ИНФРА-М.

8. Буркеева, Р.Г. Социально-экономическая природа российских естественных монополий / Р. Г. Буркеева // Экономические науки. – 2018. – № 159.

9. Сапир Ж. Естественные монополии: проблемы определения и конроля. – 1998,

10. Аляров С.А. Естественные монополии России: Современное состояние и стратегия инновационного развития: монография / под общ. ред. А.Ю.Егорова, д-ра экон. наук, проф., засл. деят. Науки РФ. – М.: Изд-во «Палеотип», - 2006.

11. Малкина М.Ю. Экономическая теория. Часть I. Микроэкономика: Учебное пособие. – Нижний Новгород: Изд-во Нижегородского госуниверситета (ННГУ). – 2009.

MÜASIR ŞƏRAİTDƏ İQTİSADİYYATIN ÇOXŞAXƏLİLİYİNİN TƏMİN EDİLMƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİ

Anar Fazil oğlu Abbasov
iqtisad elmləri doktoru, professor
Azərbaycan Kooperasiya Universiteti
e-mail: anar1973@mail.ru

Xülasə

Tədqiqatın məqsədi: - milli iqtisadiyyatın çoxşaxəlilinin təmin edilməsinin spesifik xüsusiyyətlərini tədqiq etməkdən ibarətdir.

Tədqiqatın metodologiyası- tədqiqat işində müqayisəli təhlil, qruplaşdırma, ümumiləşdirmə və təhlil metodlarından istifadə edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti- ölkədə çoxsaylı məhsul istehsalı son nəticədə iqtisadiyyatın və dövlət büdcəsinin beynəlxalq bazar konyunkturundan asılılığının neytrallaşdırılmasına səbəb olur. Bu baxımdan iqtisadiyyatın şaxələndirilməsi istiqamətində tədbirlərin gerçəkləşdirilməsi əhəmiyyətlidir.

Tədqiqatın nəticələri – iqtisadiyyatın şaxələndirilməsi ölkəmiz üçün qeyri-neft sektorunun inkişafı baxımından mühüm əhəmiyyətə malik olduğundan bu sahədə tövsiyyə xarakterli təkliflər irəli sürmüşdür.

Tədqiqatın örijinallığı və elmi yeniliyi – iqtisadiyyatın çoxşaxəliliyinin təmin edilməsinin zəruriliyi, şaxələndirmə prosesinə təsir edən amillər, şaxələndirmənin məqsədləri və .s müəyyənləşdirilmişdir.

Açar sözlər: - milli iqtisadiyyat, iqtisadiyyatın şaxələndirilməsi, beynəlxalq bazar konyunkturu, qeyri-neft sektoru.

Giriş

Məlum olduğu kimi, beynəlxalq münasibətlər sistemində güclənən siyasi və iqtisadi qloballaşmanın özünəməxsus xüsusiyyətləri inkişaf səviyyəsindən asılı olaraq dünyanın müxtəlif ölkələrinin sosial-iqtisadi həyatına müxtəlif formada təsir göstərir. Dünyada siyasi qloballaşma bir qütblü dünya da dünyanın inkişaf etmiş ölkələrinin vahid siyasi gücdən və eləcə də vahid dünya hökumətindən asılılığını gücləndirsə də, iqtisadi qloballaşma ilk növbədə iqtisadiyyatın beynəlxalq bazar konyukturundan aslılığını daha da artırmaqdadır. Bu baxımdan milli iqtisadiyyatın əsasını və ixtisaslaşdırma istiqamətini əsas etibarilə xammal və ya yarımfabrikatların istehsalı təşkil edən ölkələrdə sosial iqtisadi proseslərdə bazar konyunkturu əhəmiyyətli təsir vasitəsinə çevrilir. Beynəlxalq bazar konyunkturunda baş verən dəyişikliklər və tərəddüdlər mahiyyət etibarilə milli iqtisadiyyatın əsas ixrac istiqamətini təşkil edən xammal və yarımfabrikatlar istehsalı prosesinə öz təsirini göstərir və bundan əlavə, dünyanın əksər xammal istehsalçıları olan ölkələrinin dövlət büdcələrində də zəruri tərəddüdlərin yaranmasına gətirib çıxarır. Xüsusilə karbohidrogen resurslarının istehsalı üzrə ixtisaslaşmış ölkələrdə beynəlxalq bazar konyunkturunda baş verən dəyişikliklər ölkənin iqtisadiyyatına çoxtərəfli təsir imkanına malik olur. Məlum həqiqətdir ki, karbohidrogen istehsalçıları olan ölkələrdə bütövlükdə iqtisadiyyat neft üzərində qurulur və dövlət büdcəsi neftdən gələn gəlirin həcmindən bilavasitə asılı olur. Neftdən gələn gəlirin həcmi isə beynəlxalq bazarda baş verən konyunktur dalğalanmalarından, eləcə də tələbatın səviyyəsindən,

siyasi proseslərdən və nəhayət bu yönümdə dəyişən qiymət proseslərindən bilavasitə aslılıq güclənir.

Qloballaşma şəraitində iqtisadiyyatın xammal yönümünün dəyişdirilməsi və beynəlxalq bazar konyunkturundan aslılığın neytrallaşması məqsədilə bütövlükdə milli iqtisadiyyatın modernləşdirilməsinə və o cümlədən iqtisadiyyatın çoxşaxəli inkişafının təmin edilməsinə kəskin ehtiyac yaranır. Beləliklə, əslində müasir şəraitdə qloballaşmanın ən mühüm çağırışlarından biri iqtisadiyyatın çoxşaxəliliyinin təmin edilməsidir. İqtisadiyyatın çoxşaxəliliyini bir sıra iqtisadi ədəbiyyatlarda iqtisadiyyatın diversifikasiya kimi də səciyyələndirirlər. İqtisadiyyatın çoxşaxəliliyinin təmin edilməsi iqtisadiyyatın modernləşməsinin mühüm tərkib hissəsi hesab edilir. Müasir şəraitdə sosial-iqtisadi proseslərin modernləşdirmədən, təsərrüfat iqtisadi həyatı yeniləşdirmədən bütövlükdə qloballaşma prosesinə uyğunlaşmaq mümkün deyildir. Nəzərə almaq lazımdır ki, bir sıra cəmiyyətlərdə modernləşdirmə proseslərinə heç də birmənalı yanaşma mövcud deyildir. Modernləşmə prosesinin tənqidçiləri hesab edirlər ki, modernləşdirmə əslində qərb mədəniyyətin inkişaf etməkdə olan ölkələrin sosial iqtisadi həyatına daxil olmasından başqa bir şey deyildir. Doğrudur, bütün bunlar sosial modernləşmənin mühüm tərkib hissəsi sayılmaqla bütövlükdə qərb mədəniyyətini ənənəvi adət və ənənələr üzərində hegemon mövqeyinin güclənməsinə və dominatlığına gətirib çıxarmasını inkar etmək mümkün deyildir.

İqtisadiyyatın çoxşaxəliliyinin təmin edilməsinin tarixi aspektləri.

İqtisadiyyatın modernləşdirilməsinin ən mühüm tərkib hissəsindən biri olmaqla iqtisadiyyatın çoxşaxəliliyinin təmin edilməsi prosesi ilk növbədə xammal istehsalına əsaslanan milli iqtisadiyyatlarda xüsusilə mühüm əhəmiyyətə malikdir. İqtisadiyyatın çoxşaxəliliyinin təmin edilməsinin özünə məxsus tarixi aspektləri mövcuddur.

Milli sərvət hər bir ölkənin strateji iqtisadi potensialının, ictimai rifahın ən ümumi və inteqral göstəricisi olmaqla, vacib makroiqtisadi kateqoriyalardan biridir. Digər tərəfdən milli sərvət ölkənin davamlı inkişafının birbaşa bazası olmaqla, iqtisadi artımın əsas amillərini xarakterizə edir. İqtisadi artım öz növbəsində ümumi daxili məhsul, milli gəlir və son nəticədə milli sərvətlə bağlı olmaqla, davamlı inkişafın əsas məqsədi olan real həyat səviyyəisini, milli rifahı yüksəldərək, cəmiyyətin malik olduğu ictimai nemətləri artırır.

Milli sərvət hər bir ölkənin, millətin mövcud olduğu müəyyən tarixi dövrdə iqtisadi inkişafının real nəticələrinin məcmu dəyərləndirilməsi kimi çıxış edir. Milli sərvət çox əhatəli anlayış olmaqla, əmtəələrin istehsalını, xidmətlərin göstərilməsini və insanların yaşayışını təmin edən, onların həyat - yaşayış keyfiyyətini yüksəldən ölkənin bütün növ aktivlərinin: maddi, maliyyə, ekoloji-təbii, mənəvi-sosial nemətlərinin məcmusudur. Milli sərvəti, həmçinin, davamlı inkişafı təmin edən və bu inkişafa təkan verən başlıca faktor kimi də dəyərləndirmək mümkündür. Bu mənada milli sərvət və davamlı inkişaf konsepsiyaları və onların inkişaf modelləri bir-birilə çox sıx qarşılıqlı əlaqədədir.

Davamlı inkişafın təmini üçün ilk növbədə bu inkişafın bazası kimi çıxış edən milli sərvətin tərkib hissələrinin düzgün müəyyən edilməsi, artırılması, onun strukturu və dinamikası obyektiv və tam formada qiymətləndirilməsini aktual və vacib vəzifələrdən hesab etmək lazımdır. Milli sərvətin qiymətləndirilməsinin əsas problemi onun tərkib elementlərinin düzgün müəyyən edilməsi və onların hər birinin ayrılıqda dəyərləndirilməsinin mürəkkəbliyi və bunun üçün lazım olan məlumatların kifayət qədər mövcud olmaması, ümumi hesablama metodologiyasının təkmil olmaması və bir çox iqtisadi və siyasi amillərlə bağlıdır.

Qeyd etmək lazımdır ki,milli sərvətin dünya səviyyəsində razılaşdırılmış qiymətləndirmə və hesablama metodu BMT-nin Statistika Komissiyası tərəfindən tövsiyə edilən Milli Hesablar Sisitemi (SNA) -2008 (MHS-2008) və Dünya Bankının ekspertlərinin təklif etdiyi, son dövrlərdə geniş yayılmış milli sərvət konsepsiyalarına əsaslanır. Bu iki yanaşmanın təhlili nəticəsində tərəfimizdən milli sərvətin aşağıda əsaslandırılmış və kompleks əhatəli tərkib hissələri təklif olunmuşdur:

1. Əsas kapital (istehsal aktivləri).
2. Təbii kapital (qeyri-istehsal aktivləri).
3. İnsan kapitalı və institusional-sosial kapital.
4. Maliyyə aktvləri.

Göründüyü kimi, milli sərvət modeli “dörd dayaq” modeli olmaqla, dayanıqlı və qarşılıqlı əlaqədə olan əsas faktorların - qüvvələrin universal inkişaf modelinə əsaslanır. Bu modeli başqa sözlə, “Məqsədlər - hədəflər və Məsrəflər - faydalar” modeli də adlandırmaq olar.

Milli sərvət modelini tam mənada transformasiya olunmuş davamlı inkişaf modeli kimi təqdim etmək mümkündür. Davamlı inkişaf konsepsiyası hal-hazırda üç sütun modeli olmaqla özündə üç istiqaməti: ətraf mühiti, sosial mühiti və iqtisadiyyatı birləşdirir. Fikrimizcə, iqtisadiyyat elminin

baş məsələsindən çıxış edərək və onun əsas vəzifəsinin insanların tələbatının ödənilməsi və bunun birbaşa maddi istehsalla bağlı olduğunu nəzərə alaraq, davamlı inkişaf modelini, daha dəqiq formada milli sərvətin transformasiya olunmuş modeli kimi aşağıdakı formada təqdim etmək olar:



Şəkil. Milli sərvətin "Dörd da formasiya olunmuş davamlı inkişaf modeli

Burada I, II, III və IV milli sərvətin əsas tərkib hissələri - hədəfləri olmaqla davamlı inkişaf konsepsiyasının da iqtisadi mühitinin daha dəqiqləşdirilmiş formada əsas hədəflərini göstərir. Bu da real olaraq milli sərvət və davamlı inkişaf modellərinin qarşılıqlı əlaqəsi və uyğynluğunu bir daha göstərir. Göstərilən "Dörd dayaq" modelinə başqa sözlə "Məqsədlər - hədəflər və Məsrəflər - faydalar" nöqteyi-nəzərincə yanaşsaq, onda burada qeyd edildiyi kimi, I, II, III, IV - hədəfləri, "1" - hər bir hədəfə uyğun məsrəfləri və "2" - isə ümumi məqsədin - milli sərvətin yaradılması, artırılması və həmçinin davamlı iqtisadi inkişafın təminin reallaşdırılması nəticəsində hər bir hədəfdən əldə edilən rifahı - faydaları göstərir. Bu faydalar cəmiyyəti bütövlükdə rifahına və eyni zamanda gələcək nəsillərin maraqlarının qorunmasına xidmət edir. Beləliklə, milli sərvət və davamlı inkişaf konsepsiyasında mövcud reallıq onların bir-birilə sıx qarşılıqlı əlaqədə olması və uyğunluğu, həmçinin bir-birini tamamlaması ilə əlaqədardır. Milli sərvətin yaradılması və artırılması məhz elə davamlı iqtisadi inkişafın təmini, məqsədi və hədəfləri deməkdir.

Milli sərvətin tərkib hissələri və eyni zamanda davamlı iqtisadi inkişafın hədəfləri içərisində insan kapitalının rolu böyük əhəmiyyətə malikdir. Müasir dövrdə və perspektivdə də milli sərvətin yaradılması və artırılması mənbəyi kimi innovasiyalı və rəqabətli davamlı iqtisadi inkişafın strateji resursu kimi hər bir ölkənin aktiv insan resursları və insan kapitalının inkişafı və ona daha böyük dəyər verilməsi ölkələrin strateji iqtisadi inkişafının başlıca istiqaməti kimi çıxış edir. Belə ki, müasir dövrdə inkişaf etmiş ölkələrdə milli sərvətin yaradılması və artırılmasında, deməli dayanıqlı iqtisadi inkişafın təminində insan kapitalının xüsusi çəkisi 80-90%-ə qədər yüksəlməkdədir. Bu bir daha müasir dövrdə və perspektiv strateji inkişafda aktiv insan faktoru və insan kapitalının inkişafını obyektiv zərurətə çevirir.

AZƏRBAYCANDA PANDEMİYA DÖVRÜNDƏ İQTİSADİ İSLAHATLAR VƏ DAYANAQLI İNKİŞAF

Məmmədova F.Ə., i.f.d., dosent
Azərbaycan Mematlıq və İnşaat Universitetii
ORCİD İD: 0000-0003-0384-9395
fidanmammadova12@gmail.com
Məmmədov M.A., i.e.d., professor
Azərbaycan Mematlıq və İnşaat Universitetii
ORCİD İD: 0000-0002-0062-840X
m.m.asirli@mail.ru

Xülasə

Məqalədə Azərbaycanda aparılan iqtisadi islahatlar, bu islahatların aparılmasına yönəldilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsi" Strateji Planında sahələr üzrə nəzərdə tutulan hədəflər, inkişaf strategiyaları, dövlət proqramlarında nəzərdə tutulan tədbirlərə müvafiq həyata keçirilən islahlar bu islahatların ölkə iqtisadiyyatının dayanıqlı inkişafının təmin edilməsində mühüm əhəmiyyəti tədqiq edilmişdir. 2020-ci il və 2021-ci ilin birinci yarısında pandemiya dövründə iqtisadiyyatın sahələri tədhlil edilmiş və Covid-19 pandemiyası təsirləri araşdırlmış, onların aradan qaldırılması istiqamətində aparılan işlər və nail olunmş nəticələr nəzərdən keçirilmişdir.

Açar sözlər: islahatlar, Strateji Yol Xəritəsi, siyasət, Covid-19, davamlı inkişaf, regional inkişaf, inkişaf strategiyaları

Dünyanın bir çox ölkələrində 2020-ci ilin əvvələrindən COVİD-19 pandemiyasının sürətlə yayılması iqtisadiyyatın sahələrinin inkişafına mənfi təsir göstərməyə başladı və bununla əlaqədar Azərbaycan hökuməti müvafiq tədbirlər hazırlanıb həyata keçirilməsi məqsədi ilə səmərəli və çevik və təxirəsalınmaz fəaliyyət istiqamətləri müəyyənləşdirdi. Beləki, Azərbaycan höküməti iqtisadi sistemdə yaradılmış dayanıqlı inkişafı təmin edən səmərəli iqtisadi islahatların və onun tərkib hissəsi olan İnkişaf Strategiyalarında, Dövlət Proqramlarında , Tədbirlər Planlarında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini təmin edən mexanizmlərin işlənilməsini prioritet istiqamət kimi önə çəkərək dəstəklədi. Belə ki, ölkənin dayanaqlı inkişafı qeyd olunan strategiyanın və proqramların davamlı həyata keçirilməsindən çox aslıdır. Ölkə prezidentinin pandemiyanın Azərbaycan Respublikasının iqtisadiyyatına,makroiqtisadi sabitliyə , və sahibkarlıq subyektlərinə mənfi təsirini azaldılması ilə əlaqədar müvafiq Sərəncamının icrası ilə qısa və orta müddətli yol xəritəsi hazırlandı. Bu yol xəritəsi İqtisadi artıma və sahibkarlığa dəstək, Məşğulluq və sosial rifaha dəstək və Makroiqtisadi və mzaliyyə sabitliyi istiqamətlərini əhatə edir. Bu istiqamətlərin həyata keçirilməsi pandemiya nəticəsində iqtisadiyyatın sektorlarında yaranan problemlərin mərhələlərlə həll edilməsinə və inkişafı dəstəkləməyə imkan verdi. Bu şəraitdə beynəlxalq təcrübələrinin tədqiqi göstərir ki, COVİD və bu kimi hadisələrin baş verdiyi tarixi hadisələr iqtisadiyyatın inkişafına təsirlərinin və onun nəticələrinin nəzərə almaqla tərtib edilən proqram və inkuşaf strategiyalarini və bunlara müvafiq islahatlar həyata keçirən ölkələrdə yaranmış dayanıqlı inkişaf saxlanılmasına nail olurlar. Bu istiqamətdə Azərbaycanda da iqtisadiyyatın sahələri üzrə hazırlanmış proqram və inkişaf layihələri, planları və inkişaf strategiyaları çərçivəsində həyata keçrilən islahatlar COVİD 19 pandemiyası şəraitində ölkədə iqtisadi aktivliyin bərpa olunmasında əhəmiyyətli rol oynamışdır. Beləki, ölkə iqtisadiyyatının göstəricilərinin həhlili göstərir ki,həyata keçrilən bu işlər nəticəsidə Azərbaycanda 2021-ci ilin 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə UDM real ifadədə 2,1% və adambaşına düşən real ÜDMisə 1,6% artmışdır. Ölkədə ÜDM-in istehsal strukturunda əsas payının 51,4% malların itehsalına aid olmuşdur. Qeyri – neft sektoru üzrə istehsal olunanəlavə dəyər ümumilikdə 5,1%artaraq ÜDM onun payı 64,2% olmuşdur. Onuda qeyd etmək lazımdır ki, 2021-ci ilin yanvar-iyun ayları ərzində əsas kapitala investisiyalar qoyuluşlarnun 61%-i daxili investisyslar, 39%-i isə xarici investisyalar hesabına formalaşdırılmış və bu investisyaların 49,3%-i neft və 53,7 %-i isə qeyri – neft sektoruna yönəldilmişdir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, baş verən bu

pandemiya şəraitində yuxarıda göstərilən tədbirlərin və ona müvafiq stabilləşmə və inkişaf xarakterli islahatların aparılması ölkə iqtisadiyyatında təmin edilmiş dayanaqlı inkişafı saxlamış , bu dövürdə ölkə əhalisinin nominal gəlirləri ötən ilin müvafiq dövrü ilə müqayisədə 0,4% artaraq 27,6 mlrd.man.təşkil etmişdir .Aparılan təhlil göstərir ki, son illərdə qeri – neft sənayesinin inkişafının artımına xüsusi diqqət edilir, belə ki 2021- ci ilin birinci rübündə ötən ilin müvafiq dövrü ilə müqayisədə 11,9% artması müşahidə olunur .

Beləliklə , yuxarıda aparılan təhlil göstərir ki, Azərbaycanda mütəmadi olaraq həyata keçirilən islahat-inkişaf xarakterli iqtisadi siyasətin nəticəsində iqtisadiyyatın şaxələndirilməsi, qeyri neft sektorunun dinamik və dayanıqlı inkişafının təmin edilməsi, rəqabət qabiliyyətli məhsul istehsal edən sahələrin inkişafının sürətləndirilməsi 2004-2023-cü illəri əhatə edən Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafına yönəldilmiş dörd dovlət proqramları, Azərbaycanın 2016-2020-ci illərdə Strateji Yol Xəritəsi çərçivəsində, bütün sahələrdə COVİD-19 pandemiyasının nəticələrinin aradan qaldırılması istiqamətində zəruri tədbirlər həyata keçirilməsi yüxarıda göstərilən inkişafı təmin etmişdir. Ölkədə 2025-ci ilədək milli iqtisadiyyatın dayanıqlı inkişafı və rəqabət qabiliyyətinin gücləndirilməsi bir məqsəd kimi qarşıya qoyulmuşdur. Eyni zamanda 2025-ci ilə qədər dövr üzrə vacib hədəf kimi sosial rifah halının yaxşılaşdırılması və insan indeksinin ən yüksək həddə çatdırılmasını təmin edən, yüksək texnoloji inkişafa və iqtisadiyyatın optimal strukturuna əsaslanan güclü rəqabətqabiliyyətli və inklüziv iqtisadiyyatın qurulması əsas məqsəd olaraq nəzərdə tutulur. Bu məqsədlə ölkədə iqtisadiyyatının davamlı inkişafına nail olmaq və nəticədə rəqabət qabiliyyətli məhsul istehsalını təmin etmək üçün yuxarıda qeyd edilən inkişaf konsepsiyalarına müvafiq iqtisadiyyatın bütün sahələrini əhatə edən tədbirlərin həyata keçirilməsi davam etdirilir.Bunların nəticəsi olaraq iqtisadiyyatın şaxələndirilməsi istiqamətində ölkəmizdə məqsədyönlü tədbirlərin reallaşdırılması son illərdə qeyri-neft sektorunun inkişafını sürətləndir-mişdir. Ölkədə biznes mühitinin liberallaşdırılması istiqamətində həyata keçirilən tədbirlər bu sektorların dayanıqlı inkişafının təmin olunmasında xüsusi əhəmiyyətə malik olmuşdur. Strateji Yol Xəritəsində milli iqtisadiyyat və iqtisadiyyatın 11 sektoru üzrə nəzərdə tutulmuş hədəflərə nail olmaq üçün ölkədə iqtisadi islahatları təmin edən tədbirlərin prioritetliyinin mərhələlərlə müəyyənləşdirilməsi, dəyərləndirilməsi və onların məntiqi ardıcıllıqla həyata keçirilməsinin təmini zəruri amil olaraq daimi nəzərdə tutulmalıdır [1].

Beləliklə, yuxarıda göstərilən tədbirlər çərçivəsində aparılan islahatlar, iqtisadiyyatın digər sektorları ilə yanaşı sosial sektorun da inkişafını təmin etmişdir. Beləki, pandemiya şəraitində bu tədbirlərin həyata keçirilməsi ölkədə əhalinin sosial rifah halının yaxşılaşdırılmasını və insan indeksinin yüksək həddə şatırılmasını təmin etmiş , 2021-ilin birinci yarsında ölkə əhalisinin nominal gəlirləri əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 0,4% artaraq 27580,7 milyon manat olmuşdur. Bunlar ilə yanaşı, 2021-ci ilin birinci yarısında ölkə iqtisadiyyatında fəaliyyət göstərən işçilərin orta əmək haqqı 724 man., neft-qaz sektorunda 3215,9 man. Qeyri – neft sektorunda 672,6 man., dövlət müəssisələrində 635,5 man və özəl müəssisələrdə 832,1 manat səviyyəsində olmuşdur.

Eyni zamanda Dövlət Statistika Komitəsinin Tikinti sektorunun 2021-ci il üzrə məlumatlarının təhlili göstərir ki, tədqiqatın aparıldığı, yəni 2021-ci ilin birinci yarısında Azərbaycanda iqtisadi və sosial sahələrin inkişafı üçün butun maliyyə mənbələrindən əsas kapitala 2365,2 milyon manat,əvvəlki il ilə müqayisədə 19,4% az vəsqit yönəldilmişdir. Ümumi sərmayənin 26,0% dövlət , 74,0% qeyri-dövlət sektorunun sərmayədərləri tərəfindən həyata keçirilmişdir .Sərmayə qoyluşunun 74,8 faizi tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf edilmişdir. Onuda xüsusi olaraq göstərmək lazımdı ki, daxili mənbələrdən əsas kapitala yönəldilən vəsaitin həcmi ümumi sərmayənin 52,1 faizini təşkil edir [5].

Qeyd olunanlar ilə yanaşı, Azərbaycanda inkişaf konsepsiyaları, dövlət proqram, tədbirlər və iş planlarında nəzərdə tutulan tədbirlərin ardıcıl yerinə yetirilməsi son nəticədə qeyri-neft sektorunun dayanaqlə inkişafını təmin etmiş və nəticədə bu sektorda yaradılan əlavə dəyərin həcminin əvvəlki illərə nisbətən artımı təmin edilmişdir .Beləki, ölkə iqtisadiyyatının sahələri üzrə əsas göstəricilərinin təhlili göstərir ki, yalnız 2021-c-ilin birinci yarsında iqtisadiyyatın qüyri neft sektorunda yaradılan əlavə dəyərin həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,1% artaraq

12062,0 milyon manata şatdırılmışdır. Bu sektorda yaradılan əlavə dəyərin ÜDM-də xüsusi çəkisi 63,8% olmuşdur.

Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə hazırlanmış və davamlı həyata keçirilən iqtisadi siyasət iqtisadiyyatın sahələrinin inkişaf hədəflərinə nail olmağın və ölkənin dayanıqlı inkişafının təminatıdır. Xüsusi olaraq qeyd etmək lazımdır ki, bu hədəflərə nail olunmasında ölkədə qəbul olunmuş ümumi, sahəvi və regional inkişaf proqramları çərçivəsində qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, iqtisadiyyatın şaxələnməsi, regionların davamlı və tarazlaşdırılmış sosial- iqtisadi inkişafının təmin olunması sahəsində nəzərdə tutulan infrastrukturun inkişafına istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi xüsusi önəmə malikdir.

Bu məqsədlə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə 2004-2018-ci illəri əhatə edən üç dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin nəticələri və 2019-2023-cü illər üzrə dördüncü dövlət proqramınnın prioritet istiqamətlərindən biri olan ölkə regionlarının enerji infrastrukturlarının yenidən qurulması, inkişaf etdirilməsi üzrə tədbirlər mərhələlərlə həyata keçirilməsi sahələr uzrə yuxarıda qeyd olunan inkişafın təmin edilməsində mühüm əhəmiyyətə malikdir.

Ölkədə dinamik inkişafın formalaşmasında yuxarıda qeyd olunan proqramlar və inkişaf konsepsiyaları ilə yanaşı "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üzrə Dövlət Proqramı" da nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi ölkədə yeni əlavə dəyəri yaradan sənaye sahələrinin yaradılmasını təmin etmiş, bir çox sənaye məhsulları üzrə özünü təminetmə səviyyəsinə yüksəltmiş, bu isə öz növbəsində ölkədə dayanıqlı inkişafın yaranmasına əhəmiyyətli təsir göstərir [2]. Bu məqsədlə 2019-cu ildə ölkənin sənaye sektorunun çox şaxələndirilmiş inkişafını təmin edilməsi, yeni emal sənayesi müəssisələrinin yaradılmasının dəstəklənməsi, ixrac yönümlü və idxalı əvəz edən rəqabətqabliyyətli elm tutumlu məhsul istehsalı, innovasiya texnalogiyalarının tətbiq edilməsi, fəaliyyət göstərən sənaye zonalarında imüasir tələblərə cavab verən infrastrukturun yaradılması, həmçinin klasterləşdirmə və sənaye müəssisə-lərinin səmərəli fəaliyyət göstərməsinin dəstəklənməsi istiqamətində müvafiq tədbirlər yerinə yetirilir. Bu tədbirlərin həyata keçirilməsi Dövlət investisiya proqramının əsas məqsədlərindən biri kimi nəzərədə tutulur, ancaq bunlar ilə yanaşı ölkə iqtisadiyyatının ,xususi ilə də qeyri-neft sektorunun davamlı və tarazlı inkişafı, regionların inkişafı, ölkənın iqtisadi təhlükəsizliyinin təmin edilməsi, ətraf mühitin mühafizəsinə yönəldilmiş investisiya layihələrinin ardıcıl,sistemli və səmərəli həyata keçirilməsinin təmin edilməsi prioritet istiqamətlər olaraq proqramın əsas məqsədlərindəndir. İnvestisiya proqramları ölkənin sosial-iqtisadi inkişaf inkişaf məqsədlərinə və istiqamətlərinə müvafiq hazırlanır. Belə ki, 2019-cu il üçün də investisiya proqramı hazırlanarkən ölkənin sosial-iqtisadi inkişafına uyğun olaraq infrastruktur sahələrin inkişafı və onların davamlı istifadənin təmini, qeyri neft sektoruna və regionların inkişafına investisiya qoyluşunun stimullaş-dırılması, investisiyaların regionlar arasında optimal bölüşdürülməsi ,sosial sahələrə investisiya qoyluşu prioritetlərinin həyata keçirilməsinə istiqamələndirilmişdir.

Eyni zamanda yuxarıda göstərilən hesabatın tədqiqi göstərir ki, 2019-cu ildə sənayenin müxtəlif sahələri üzrə tədbirlərin həyata keçirilməsi işləri davavamlı aparlmış və nəticədə Sənayenin inkişafına istiqamətlənmiş mexanizmlərdən biri olan sənaye parkları və sənaye məhəllələri yaradılmış belə ki, bu ildə 46 müəssisə rezident kimi qeydiyyata alınmış və bunlardan 25 artıq istehsal fəliyyətinə başlamış və bunun nəticəsində 8 mindən çox daimi iş yerləri yaradılmışdır .

Ölkədə aparılan iqtisadi islahatların əsas hədəflərindən biri də iqtisadiyyatın sahələrində müasir infrastruktur təminatının yaradılmasıdır. Yuxarıda qeyd olunan inkişaf strategiyasının, sahələr üzrə dövlət proqramlarının icrasının tədqiqi göstərir ki, ölkə iqtisadiyyatının infrastruktur təminatı daimi müasirləşdirilir,qabaqcıl modern infrastruktur yaradılır. Dördüncü sənaye inqilabı mərhələsində ölkəmiz yerləşdiyi əlverişli coğrafi mövqe, zəngin təbii və insan resurslarından səmərəli istifadə etməklə beynəlxalq miqyasda İKT sahəsində yeniliklərin reallaşdırılması, rəqəmsallaşma və rəqəmsal iqtisadiyyatın formalaşması nəticəsində ölkənin dayanıqlı inkişafı üçün əlverişli yeni imkanlar yaradır [4]. Qeyd olunanlar isə digər istiqamətlər ilə yanaşı ölkədə iqtisadi islatların davamlılığını təmin etmək üçün iqtisadiyyatın mövcud vəziyyətinin dərin təhlili əsasında hazırlanmış və dövlət başçısının 6 dekabr 2016-cı il fərmanı ilə təsdiq edilmiş "Milli İqtisadiyyat və

iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsi" Strateji Planın əsas hədəfləridir. Bu sahələrdə aparılan islahatlar nəticəsində son illərdə iqtisadi islahatlar baxımından Azərbaycan sürətli və dinamik inkişaf yolu keçir, qazanılmış nailiyyətlər beynəlxalq təşkilatlar, beynəlxalq maliyyə qurumları tərəfindən yüksək dəyərləndirilir. Ölkənin sosial-iqtisadi inkişafa yönəlmiş dövlət proqramları çərçivəsində yerinə yetirilən işlərin hesabatlarının araşdırılması göstərir ki, ölkə iqtisadiyyatının inkişafı və idarə edilməsində sahələr üzrə nəzərdə tutulan tədbirlərdə dövlət-sektorları ilə yanaşı, özəl sektorların da fəaliyyəti xüsusi maraq kəsb edən aktual məsələlərdəndir. Ona görədə özəl sektorların proqramlar çərçivəsində fəaliyyətinin və onun digər qurumlarla əlaqələndirilməsi səviyyəsi dəyərləndirmək üçün mütəmadi hesabatlar araşdırılmalı və dövlət-özəl sektorun əməkdaşlığını təkmilləşdirmək məqsədi ilə müvafiq təklif və tövsiyyələr hazırlanmalıdır.

Ölkə iqtisadiyyatının şaxələndirilmiş inkişafının təmin edilməsində Strateji Yol Xəritəsində sektorların inkişafı üzrə nəzərdə tutulmuş hədəflərə çatdırılmasının təmin edilməsində dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin icrasında dövlət və özəl sektorun əlaqələndirilmiş fəaliyyətləri aparılan islahatların məqsədlərindən biri olması, bu isə son nəticədə güclü iqtisadiyyatın yaradılmasının əsasını təşkil edir. Bu fəaliyyət istiqamətləri bazar iqtisadiyyatı mexanizmləri əsasında proqramlar çərçivəsində sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə yerli və xarici investisiyaları, müasir texnologiyaları cəlb etmək və müasir idarəetmə təcrübəsindən səmərəli istifadə etməklə rəqabətqabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılmasını və onların beynəlxalq standartlara müvafiq rəqabətqabiliyyətli məhsul istehsalını təmin etməkdə əhəmiyyətli rola malikdir. Qeyd etmək lazımdır ki, sahə proqramlarında və əsasən də ölkə regionlarının iqtisadiyyatının sahələrinin infrastruktur təminatının inkişafının yönəldilmiş 2004-2023-cu illəri əhatə edən dörd dövlət proqramlarında çox şaxəli tədbirlər nəzərdə tutulmuşdur ki, bunlarda sahələrin fəaliyyət istiqamətlərini müəyyən edirlər.

Beləliklə, yuxarıda qeyd olunan məqsədlərə çatmaq üçün dövlət və özəl sektorların qarşılıqlı fəaliyyətlərini təmin etməklə ölkənin qeyri-neft sektorunun infrastruktur təminatının yaxşılaşdırılması, sahibkarlığın sürətli inkişafının təmin edilməsi, ixracyönümlü məhsul istehsalının stimullaşdırılması, əhalinin məşğulluq səviyyəsinin artırılması istiqamətində inkişaf strategiyalarında , dövlət proqran və tədbirlər planlarında nəzərdə tutulan prioritet istiqamətlər digər prioritetlərlə yanaşı ölkə iqtisadiyyatının dayanaqlı inkişafına və onun dünya iqtisadi sistemə səmərəli inteqrasiyasının sürətlənməsinə yönəldilmişdir.

İstifadə edilmiş ədəbiyyat:

1."Milli İqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsi" Strateji Planı, Prezidentin 6 dekabr 2016-cı il fərmanı

2."Şaxələndirilmiş iqtisadiyyatın infrastruktur təminatı: əsas meyllər və inkişaf istiqamətləri" Beynəlxalq Elmi Konfransın materialları, "Nəşriyyat-Poliqrafiya Mərkəzi", AzMİU, Bakı-2019, 593 səh.

3."Azərbaycan Respublikası Regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", 2019-cu il 9 aylıq hesabatı

4."Tikintinin iqtisadiyyatı və menecment" elmi-praktiki jurnal, 2019-cu il №3, Bakı-2019

5. İqtisadiyyatın əsas göstəriciləri,Dövlət statistika Komitəsinin hesabatı , Bakı 2021.

Mammadova F.A. Mammadov M.A

Azerbaijan University of Architecture and Construction

Economic situation, economic reforms and development directions in Azerbaijan during pandemic

Summary

The article examines the economic reforms carried out in Azerbaijan, the goals outlined by industries according to Strategic Plan of the "Strategic Road Map for the National Economy and Main Sectors of the Economy", aimed at implementing these reforms, development strategies, and reforms carried out in accordance with State Programs. It has been noted the importance of these reforms in the sustainable development of the national economy.

Fields of economy, effect of COVID-19 pandemic on economy, efforts in the direction of eliminating of effect of pandemic during 2020 and first half of 2021were analyzed and achievements revized in work.

Keywords: reforms, Strategic Roadmap, politics, Covid-19, sustainable development, regional development, development strategies

DAYANIQLI INKIŞAFIN METODOLOJI ƏSASLARI

Kəmalə Mehdi qızı Məmmədova, i.ü. f.d., dos. ə.
Azərbaycan Memarlıq və İnşaat Universiteti
kama.1973@list.ru
https://orcid.org/0000-0002-3100-6160

Xülasə

İstər nəzəri, istərsə də praktiki aspektlərdə "dayanıqlı inkişaf"ın zəruriliyini əsaslandırmaq məqsədilə daim gedən diskussiyalar onun elmi kateqoriyasının mahiyyətinin üzə çıxarılması zərurətini yaradır. Tezisdə bu anlayışın mahiyyəti və onun strateji hədəfləri dəqiqləşdirilir. "Artım" və "inkişaf" anlayışları arasında fərq qoyulur ki, bunlara uyğun olaraq, "artım" həm malların, xidmətlərin kəmiyyətcə artması, həm də onların keyfiyyətcə dəyişməsi başa düşülür.

Açar sözlər: Dayanıqlı inkişaf, iqtisadi artım, strateji hədəf, ekologiya, xidmət sahələri

"Dayanıqlı inkişaf" ("sustainable development"), dünya birliyinin diqqətini yalnız BMT-nin ətraf mühit və inkişaf Komissiyası ("Brundtland Komissiyası") tərəfindən hazırlanmış "bizim ümumi gələcəyimiz" (1987) məruzəsinin dərc olunmasından sonra cəlb edib. BMT-nin ətraf mühit və inkişaf üzrə 1992-ci ildə Rio-de-Janeyroda keçirilən konfransı çərçivəsində Dayanıqlı İnkişaf trayektoriyasına çıxışın sivilizasiyanın həyati zəruriliyi ilə bağlı qəbul edilmiş qərarların konseptual əsasını məhz onun qənaəti təşkil etmişdir. "Dayanıqlı inkişaf" dedikdə, gələcək nəsillərin bu imkandan məhrum edilmədən, indiki nəslin həyat tələbatının ödənilməsinə nail olunan irəli hərəkət modeli nəzərdə tutulurdu.

Biosferin təsərrüfat gücü daxilində cəmiyyətin sabit, tarazlaşdırılmış sosial-iqtisadi inkişafı, indiki nəslin rifahının effektiv dinamikasını və gələcək nəsillərin öz tələbatlarını ödəmək qabiliyyətini təmin edir. Dayanıqlı inkişaf-gələcək nəsillərin öz ehtiyaclarını təmin etmək qabiliyyətinə xələl gətirmədən mövcud nəslin ehtiyaclarının ödənilməsidir. O, iqtisadi artım, insan potensialının ədalətli inkişafı və sağlam məhsuldar ekosistemlər arasında arzuolunan tarazlığa nail olmaqdır [2, s.56].

Dayanıqlı inkişaf fenomeninin müxtəlif şərhlərində onları birləşdirən üç məqamı vurğulamaq olar. Birincisi, ümumiyyətlə, sivilizasiyanın və xüsusilə, insanın yaşaması üçün qeyd-şərtsiz bir amil kimi yaşayış mühitinin qorunması zəruriliyinin dərk edilməsi nəzərdə tutulur. Bir tərəfdən, təbii ehtiyatların tükənməsi reallaşır, digər tərəfdən isə, insanın istehsalat - təsərrüfat və sosial-mədəni fəaliyyətinin məhsulları (tullantıları) elə miqyas alır ki, onlar təbii ekosistemlərin utilizasiyasına uymur. İkincisi, "artım" və "inkişaf" anlayışlarının həm malların, xidmətlərin kəmiyyət artımının, həm də keyfiyyət dəyişikliyinin başa düşüldüyü "artım" anlayışlarının fərqləndirilməsi nəzərdə tutulur. İnkişaf varlığın keyfiyyətli müxtəlifliyidir. Əgər təklif olunan şərhdə artım real fiziki hüdudlara malikdirsə, onda inkişaf, əslində, sonsuzdur. Üçüncüsü, zəngin və kasıb ölkələr arasında dünya təbii resurs potensialının "ədalətli" bölüşdürülməsinə şərait yaradılması zərurəti haqqında tezisin postulyasiyası nəzərdə tutulur. Söhbət bir tərəfdən, inkişaf etməkdə olan dünya əhalisinin (1960-1970-ci illərin astanasında hazırlanan) əsas tələbatının ödənilməsi strategiyasının həyata keçirilməsindən, digər tərəfdən isə, inkişaf etmiş ölkələrin əhalisinin istehlakının rasional-laşdırılması tendensiyasından gedir (bu, 1980-1990-cı illərin astanasında özünü göstərməyə başladı).

Dayanıqlı inkişaf, regionun fəaliyyətinin nəzəri və empirik modelidir ki, burada yaranan təhlükələrə və onların gələcək təhlükəsiz inkişafı üçün lokallaşdırılması yolu ilə təhdidlərə çevik reaksiya verməsi məqsədilə sosial sistem yaradılır və real fəaliyyət göstərir. Dayanıqlı inkişaf, ictimai və təbii alt sistemlər arasında dinamik tarazlıq kimi çıxış edir, inkişaf etmiş və inkişaf etməkdə olan iqtisadiyyatlar arasında disparitetin kəskin azaldılması strategiyası, texnoloji tərəqqi metodları, istehlakın rasionallaşdırılması və yoxsulluğun aradan qaldırılması strategiyası kimi mühüm əhəmiyyət daşıyır. O, hazırda mövcud olan iqtisadi və sosial nemətləri optimallaşdıran sosial və iqtisadi inkişaf formasıdır. Dayanıqlı inkişaf - iqtisadi, siyasi, sosial və ekoloji sahələrin elə inkişafıdır ki, bu da daxili xarakteristikalar kimi tarazlıq və disparitetin azaldılmasına can atır. Bu da bütövlükdə regionun balanslaşdırılmış, davamlı hərəkətini təmin edir və bunun nəticəsi olaraq insanların həyatı yaxşılaşır [8, s. 115-116].

Ekoloji amillər getdikcə daha çox iqtisadiyyatın inkişafına məhdudiyyətlər qoyur, iqtisadi inkişaf isə ekologiya sahəsində gərginliyin artmasına gətirib çıxarır ki, bu da öz növbəsində sosial sahədə problemlər yaradır. Dayanıqlı inkişaf yoluna keçidin məzmunundan danışarkən, bu məsələləri ekologiya problemlərinə yönəltmək düzgün olmazdı, amma aydındır ki, onsuz dayanıqlı inkişaf modeli prinsip etibarilə reallaşa bilməz. Dayanıqlı inkişafın təmin olunması üçün aşağıdakı şərtlər vacibdir [4, 30]:

– təbii ehtiyatların qorunub saxlanılması bərpa olunan resurslardan istifadə etməklə onların təbii bərpa olunma tempini aşmayan və bərpa olunmayan resurslardan istifadənin səmərəliliyini texniki tərəqqinin nailiyyətləri əsasında əvəzetmə imkanlarını nəzərə almaq;

– iqtisadi artımın yeni keyfiyyətinin aralıq inkişaf göstəricisi kimi yüksək templərə nail olmaq ehtiyacının tanınması. təbii ehtiyatların mövcudluğunu qoruyarkən və onların keyfiyyətini vaxtında təmin edərkən iqtisadi inkişafın təmiz faydalarını maksimuma çatdırır;

– yalnız adambaşına real gəlirin artırılmasını nəzərdə tutur, həm də ictimai rifahın digər göstəricilərinin yüksəlməsini təmin edir;

– iqtisadiyyat və cəmiyyətdə müsbət struktur dəyişikliyinə gətirib çıxarır;

– əhalinin rifahının yüksəlməsinin hədəf seçilməsi;

– gələcək nəsillərin maraqlarını və onların sağlam yaşayış hüquqlarını nəzərə alaraq ekoloji təhlükəsizliyin təmin edilməsi.

Dünya birliyinin qlobal dayanıqlı inkişafı və Azərbaycanın dayanıqlı inkişafı yollarının axtarışı regionların bu sahədə olan problemini aktuallaşdırır. Nəzərə alsaq ki, hazırda Qarabağda quruculuq və müasir iqtisadi inkişaf fəaliyyəti ilə daha çox müəyyən edilir, toplanmış təcrübəni ümumiləşdirmək və yaymaq, regional səviyyədə dayanıqlı inkişafın idarə olunmasına elmi yanaşmalar işləyib hazırlamaq lazımdır. Yeni idarəetmə paradiqmasına keçid regionun sosial-iqtisadi və ekoloji vəziyyətinin kompleks qiymətləndirilməsi və davamlı inkişaf prinsipləri əsasında regional sosial-iqtisadi strategiyanın yeni meyarlarının işlənib hazırlanması ilə bağlıdır [6, 39-40].

Yuxarıda deyilənləri nəzərə alaraq hesab edirik ki, müasir şəraitdə dayanıqlı inkişaf məqsədinə nail olmaq deyil, bu məqsədə nail olmaq üçün prosesin təşkili aktual vəzifədir. Fikrimizcə, bu gün Azərbaycan üçün mücərrəd, eyni zamanda, təcrübədə ərazinin dayanıqlı inkişaf modelini aydın şəkildə konkretləşdirmək çox vacibdir. Bu zaman ərazi çərçivəsində bu inkişafın mahiyyətini dərk etmədən dayanıqlı inkişaf prinsiplərini darmadağın etməyin mənası yoxdur. Onu da qeyd etmək lazımdır ki, dayanıqlı inkişafa keçid hər şeydən əvvəl yeni düşüncə tərzinin, cəmiyyətdə yeni şüurun yaradılmasıdır ki, bu da daha çətindir və sosial-iqtisadi və ekoloji transformasiyalarla birlikdə yeni sivilizasiyaya keçidi təmin edəcəkdir. XXI əsrdə Azərbaycanın inkişaf strategiyası onun sosial, mənəvi, ekoloji, iqtisadi və resurs potensialına uyğun olmalı, dayanıqlı inkişaf sahəsində ölkənin milli maraqlarının prioritetinə əsaslanmalıdır.

Ədəbiyyat

1. И. Я. Блецхин. Стратегия устойчивого развития региональных систем. СПб, 2001.

2. Р. Г. Власов. Регионы России: внутрирегиональная политика, устойчивое развитие и безопасность. 1997.

3.М.Ю. Калинников. Теоретико-методические основы концепции устойчивого развития региона. // Региональная экономика: теория и практика. 2005. № 9.

4. Н.В. Чайковская. Проблемы обеспечения экономической устойчивости хозяйственной системы региона. // Региональная экономика: теория и практика. 2005. № 6.

5. Экономические исследования и приложения. СПб.: Вып. 2, Изд-во Европ. ун-та в СПб., 2001.

Азербайджанский Архитектурно-Строительный Университет
кан.э.н., доц, **Мамедова Кямаля Мехди гызы**

Основы методологии устойчивого развития

Резюме

Постоянные дискуссии, проводимые с целью обоснования необходимости "устойчивого развития" как в теоретическом, так и в практическом аспектах порождают необходимость выявления сущности его научной категории. В тезисе раскрывается сущность этого понятия и его стратегические цели. Поясняется различие между понятиями "рост" и "развитие", в соответствии с которым под "ростом" понимается как количественное увеличение товаров, услуг, так и их качественное изменение.

Ключевые слова: Устойчивое развитие, экономический рост, стратегическая цель, экология, сфера услуг

Azerbaijan University of Architecture and Construction
Ph.d., Associate Professor
Mammadova Kamala Mehdi gizi

Fundamentals Of The Methodology Of Sustainable Development

Resume

Constant discussions in order to justify the need for "sustainable development" both in theoretical and practical aspects give rise to the need to identify the essence of its scientific category. The thesis reveals the essence of this concept and its strategic goals. A distinction is made between the concepts of "growth" and "development", according to which "growth" is understood as a quantitative increase in goods and services, as well as their qualitative change.

Keywords: Sustainable development, economic growth, strategic goal, ecology, service sector

BMT-NIN "DAVAMLI İNKİŞAFIN MƏQSƏDLƏRİ-2030" STRATEGİYASININ GÖSTƏRİCİLƏRİNİN TƏHLİLİ VƏ DAVAMLI INKIŞAF STRATEGIYASININ ENERJI GÖSTƏRICILƏRININ ƏMƏLƏ GƏLMƏ MƏNŞƏYİ

Səlimov Sulduz Mürşüd oğlu, i.f.d.
AMEA İqtisadiyyat İnstitutu
sulsal@mail.ru

Xülasə

Məqalədə Beynəlxalq təşkilatların davamlı inkiafa yanaşma metodologiyaları təhlil edilmiş, BMT-nın davamlı inkişaf metodologiyasının dayanıqlı inkişafı xarakterizə edən göstəriciləri araşdırılmış, davamlı ınkışaf strategıyasının enerjı göstərıcılərının əmələ gəlmə mənşəyi təhlil edilməklə yanaşı, Azərbaycan Respublikası üzrə davamlı ınkışaf strategıyasının enerjı göstərıcılərının iqtisadi və ekoloji aspektinin işlənməsi verilmişdir.

1992-ci ildə Birləşmiş Millətlər Təşkilatının təşəbbüsü ilə Rio-de-Janeyro şəhərində keçirilmiş beynəlxalq konfransda qeyd edildiyi kimi, dünyanın gələcək inkişafı ilk növbədə ekoloji problemlərin necə həll olunmasından asılı olacaqdır. Bu konfransda dünyada mövcud olan ətraf mühit problemlərinin həlli yolları çox ciddi şəkildə nəzərdən keçirilmiş və mühüm qərarlar, o

cümlədən artıq bütün Beynəlxalq ekoloji təşkilatların proqram sənədinə çevrilmiş "Dayanıqlı inkişaf" konsepsiyası qəbul edilmişdir.[2] Bu konsepsiyada iqtisadi inkişafın ekoloji tarazlıqla vəhdət təşkil etməsi, üstünlüyün ətraf mühitin qorunmasına verilməsi, ekoloji problemlərin ilk növbədə həll olunması, gələcək nəsillərin imkanları məhdudlaşdırılmadan çağdaş nəsillərin rifahının yaxşılaşdırılması ön xəttə çəkilmişdir. Buna nail olmaq üçün ilk növbədə iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsi və ətraf mühitin qorunması təmin olunmalıdır.

İndiki dövrdə ətraf mühitlə bağlı mövcud vəziyyət hər bir ölkəni ekoloji problemləri ümumbəşəri kontekstə çıxarmağa məcbur etmişdir. Bu gün artıq ətraf mühitin mühafizəsi məsələləri aparıcı beynəlxalq təşkilatların proqram sənədlərində öz əksini tapmışdır.

Azərbaycan Respublikası son illər sosial və iqtisadi inkişaf sahələrində kifayət qədər nailiyyətlər əldə etmişdir ki, bu da milli və beynəlxalq sənədlərdə öz əksini tapmışdır. Sosial və iqtisadi sahələrdəki nailiyyətlərin artmasının dayanıqlı olması ölkə tərəfindən əsas prioritet qismində qəbul edilmişdir. Ölkənin ekoloji strategiyası, ətraf mühitin qorunması sahəsində fəaliyyətin koordinasiyasının gücləndirilməsi yolu ilə milli, beynəlxalq və regional səviyyələrdə təbii ehtiyatların mühafizəsi, elmə əsaslanan inkişaf prinsiplərinin tətbiqi, indiki və gələcək nəsillərin maraqlarını təmin edən ölkənin iqtisadi və insan resurslarının istifadəsində dayanıqlığın təminatına yönəlmişdir.

İqtisadi proseslərdə ekoloji funksiyaların mühüm əhəmiyyəti və əhalinin rifahı iqtisadi və ekoloji faktorların qarşılıqlı əlaqəsinin nəticələrinin ölçülməsinə tələbatı şərtləndirən amildir.[3] Bu funksiyalara istehsal və istehlakın təbii resurslarla təminatı, tullantıların təbiət tərəfindən udularaq zərərləşdirilməsi və insan həyatı üçün əlverişli şəraitin təmin edilməsi daxildir.

Məlumdur ki, təbii resurslar olmadan məhsul və xidmətlərin istehsalının mümkünsüzlüyü nəticə etibarilə onların azalmasına və tullantıların əmələ gəlməsinə gətirib çıxarır. Lakin son zamanlaradək ilk baxışdan başa düşülən səbəblərə görə beynəlxalq aləmdə milli hesablarda mühit hesabına əhəmiyyət verilmirdi. Birinci – hesab edilirdi ki, insanların fəaliyyəti təbiətə lokal təsir göstərir və təbiət özü-özünə bərpa olunma xüsusiyyətinə malikdir. İkinci - ətraf mühitin iqtisadiyyatın inkişafına və əhalinin rifahına təsirinin uçotu olduqca qarışıq metodoloji problemlərin həllini və əldə edilməsi baha başa gələn böyük məlumat massivinin olmasını tələb edən çox çətin məsələdir.

Lakin, reallıq və insan təfəkkürünün dəyişməsi təbii sistemlərə əsaslanan antropogen fəaliyyət və funksiyaların bir-birinə dərin qarşılıqlı təsir etməsinin, təbii resursların tükənməsindən və ətraf mühitin pisləşməsindən bu və ya digər səviyyədə bütün dövlətlərin əziyyət çəkdiyinin qəbil edilməsinə gətirib çıxartdı.

İqtisadi, sosioloji və ekoloji dəyişiklikləri xarakterizə edən göstəricilər sistemi olmadan iqtisadi fəaliyyətin ətraf mühitə təsirinin ölçülməsinin və bu təsirin aradan qaldırılması yollarının tapılmasının mümkünsüzlüyü hazırkı göstəricilər sisteminin hazırlanmasını zəruri etmişdir.[5]

Dayanıqlı inkişafın məqsədləri (ing. Sustainable Development Goals) – Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyası tərəfindən qəbul edilmiş 17 məqsəd BMT-nin 2015-ci ilin sentyabr ayında keçirilən tarixi sammitində dünya liderləri tərəfindən qəbul edilmiş "2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"də əks olunan Dayanıqlı İnkişaf Məqsədləri (DİM-lər) 1 yanvar 2016-cı il tarixində rəsmi şəkildə qüvvəyə minib. Hər kəsi əhatə edən və universal xarakter daşıyan bu yeni Məqsədlər fonunda, qarşıdakı on beş il ərzində ölkələr "heç kəsi kənarda qoymamaq" prinsipini rəhbər tutaraq, yoxsulluğun bütün formalarına son qoymaq, bərabərsizliklərə qarşı tədbirlər görmək və iqlim dəyişikliyi ilə mübarizə aparmaq məqsədilə bütün səylərini səfərbər edəcəklər. "Qlobal Məqsədlər" kimi də tanınan DİM-lər Minilliyin İnkişaf Məqsədlərinin (MİM-lər) əldə etdiyi nəticələrə əsaslanır və daha da irəli gedərək, yoxsulluğun bütün formalarının aradan qaldırılmasını hədəfləyir. Yeni DİM-lərin özünəməxsusluğu onların bütün ölkələri, o cümlədən yoxsul, zəngin və orta gəlirli ölkələri planetin mühafizəsini təmin etmək şərtilə, tərəqqini təşviq etmək üçün tədbirlər görməyə səsləməsində əks olunur. DİM-ləri təsdiq edir ki, yoxsulluğun aradan qaldırılması iqtisadi artımın təmin edilməsinə yönələn strategiyalarla əlaqəli şəkildə həyata keçirilməlidir. Onlar təhsil, sosial müdafiə və məşğulluq imkanları da daxil olmaqla geniş spektrli sosial ehtiyacları və bununla yanaşı, iqlim dəyişikliyi ilə mübarizə və ətraf mühitin mühafizəsini ön

plana çəkir. DİM-lərin icrası hüquqi baxımdan icbari xarakter daşımasa da, Hökumətlərdən bu 17 məqsədi qəbul etmək və onlara nail olmaq üçün milli çərçivələr yaratmaq gözlənilir. Ölkələrin əsas öhdəliyi DİM-lərin icrasında əldə olunan irəliləyişi izləmək və təhlil etməkdir. Bunun üçün keyfiyyətli və əlçatan məlumatların vaxtında toplanması tələb olunur. DİM-lərin icrasının regional səviyyədə izlənməsi və təhlili isə milli səviyyədə aparılan təhlillərə əsaslanacaq və qlobal səviyyədə izləmə və təhlil işində istifadə olunacaq.

Minilliyin İnkişaf Məqsədlərinin nailiyyətlərini davam etdirəcək yeni qlobal inkişaf çərçivəsinin müəyyənləşdirilməsi üzrə danışıqlar 2012-ci ildən 2015-ci ilədək davam etdi. Yekun sənəd 2015-ci ilin sentyabrında ABŞ-ın Nyu-York şəhərində keçirilən BMT-nin Dayanıqlı İnkişaf Sammitində imzalandı.

25 sentyabr 2015-ci il tarixində BMT-nin Baş Assambleyasının üzvü olan 193 dövlət tərəfindən "2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" qəbul edildi. Gündəlik 92 bənddən ibarətdir və 51-ci bənddə 17 Davamlı İnkişaf Məqsədi və əlaqəli 169 hədəf göstərilir. Hər bir hədəf üçün irəliləyişi ölçmək məqsədilə bir neçə göstərici müəyyənləşdirilib. Ümumilikdə, 304 göstərici var. BMT-nin 2030-cu il Gündəliyi uzrə Dayanıqlı İnkişafın Məqsədləri və hədəfləri aşağıdakı cədvəldə verilmişdir.

Cədvəl 1. BMT-nın davamlı inkişaf strategiyasının məqsədləri və hədəfləri

	Məqsədlər	Hədəflər
1	Yoxsulluğa son	Hər yerdə yoxsulluğun bütün formalarına son qoymaq
2	Aclığa son	Aclığa son qoymaq, ərzaq təhlükəsizliyinə və daha yaxşı qidalanmaya nail olmaq və dayanıqlı kənd təsərrüfatını təşviq etmək
3	Yaxşı səhiyyə və rifah	Yaşından asılı olmayaraq hər kəsin sağlam yaşamasını təmin etmək və rifah halını yaxşılaşdırmaq
4	Keyfiyyətli təhsil	Hər kəs üçün inklüziv və keyfiyyətli təhsili təmin etmək və ömür boyu təhsili təşviq etmək
5	Gender bərabərliyi	Gender bərabərliyinə nail olmaq, bütün qız və qadınları səlahiyyətləndirmək
6	Təmiz su və sanitariya	Hamıya suyun və kanalizasiya xidmətlərinin əlçatanlığını təmin etmək
7	Sərfəli və təmiz enerji	Hamının sərfəli, etibarlı, dayanıqlı və müasir enerji mənbələrinə çıxışını təmin etmək
8	Layiqli əmək və iqtisadi artım	İnklüziv və dayanıqlı iqtisadi artımı, hamı üçün məşğulluğu və layiqli əməyi təşviq etmək
9	Sənaye, innovasiya və infrastruktur	Möhkəm infrastruktur yaratmaq, inklüziv və dayanıqlı sənayeləşməni təşviq etmək və innovasiyaların inkişafına dəstək vermək
10	Bərabərsizliyin azaldılması	Ölkədaxili və ölkələrarası bərabərsizliyi azaltmaq
11	Dayanıqlı şəhərlər və icmalar	Şəhər və yaşayış məntəqələrinin açıqlığını, təhlükəsizliyini, davamlılığını və ekoloji dayanıqlılığını təmin etmək
12	Məsuliyyətli istehlak və istehsal	Dayanıqlı istehlak və istehsal modellərinə keçidi təmin etmək.
13	İqlim dəyişikliyinə qarşı mübarizə	İqlim dəyişikliyi və onun təsirlərinə qarşı mübarizə aparmaq üçün təxirəsalınmaz tədbirlər görmək
14	Dəniz ekosisteminin mühafizəsi	Okeanları, dənizləri və dəniz ehtiyatlarını qorumaq və onlardan səmərəli istifadə etmək
15	Torpaq ekosisteminin mühafizəsi	Meşələri dayanıqlı şəkildə idarə etmək, səhralaşmaya qarşı mübarizə aparmaq, torpaqların deqradasiyasına son qoyaraq onları bərpa etmək üçün tədbirlər görmək və bioloji müxtəlifliyin itirilməsinin qarşısını almaq
16	Sülh, ədalət və səmərəli institutlar	Ədalətli, sülhsevər və açıq cəmiyyətləri təşviq etmək
17	Məqsədlər üçün tərəfdaşlıq	Dayanıqlı inkişaf üçün qlobal əməkdaşlığı canlandırmaq

***** Mənbə http://unazerbaijan.org/az/dayaniqli-inkisaf-C9%99qs%C9%99dl%C9%99ri /dayaniqli-inkisaf-uzr%C9%99-2030-cu-il-gund%C9%99liyi/

1987-ci ildə Brundland Hesabatinin ("Bizim ümumı gələcəyimiz") nəşrindən sonra bir sıra beynəlxalq və milli təşkilətlar davamlı inkişaf strategiyasının bu və digər aspektlərinin göstəricilər kompleksini inkişaf etdirdilər. 1992-ci ildə Dünya Sammitində ("Rio-92") "XXI əsrin gündəliyi" planının qəbulundan sonra bu naliyyətlər beynəlöalq səviyyədən başlıca təkan aldilar. Bu planın 40-cı fəslində xüsüsi qeyd edilir ki, ölkələr və beynəlxalq dövlət və qeyri-dövlət təşkilatları davamli inkişaf strategiyasının göstəricilərinin işlənilmə konsepsiyasını beynəlxalq, regional və milli səviyyələrdə razilaşdirsinlar.

Davamlı inkişaf strategiyasinin enerji göstəricilarinin (DİSEG) əsas kompleksi ölçülməsinə görə müvafiq olaraq mövzular və movzularin parametrləri Birlaşmiş Millətlər Təşkilatinin (BMT) koseptual strukturuna uyğun hazırlanıb. Aşağidakı cədvəldə DİSEG əsas mahiyyətini təşkil edən göstəricilərin siyahısı verilib. 30 göstəricilər ölçülmə təsnifatina görə 3 qrup aspektə bölünür (sosial, iqtisadi və ekoloji). Onlar təsnifatlarina görə 7 mövzulara və bu mövzulara uygun olaraq 19 parametrlərə ayrilir. Bəzi göstəricilər ölçülmə təsnifatina əsəsən birdən artıq mövzu və mövzunun parametrlərinə aid olur.

Davamlı inkişaf strategiyasının (DİS) tədqiqatı 4 əsas qrup aspektlərin ölçülməsidir: sosial aspekt, iqtisadi aspekt, ekoloji aspekt və təşkiləti aspekt. DİSEG-inin tədqiqatı 3 əsəs aspektlərin ölçulməsindən ibarətdir: sosial aspekt, iqtisadi aspekt və ekoloji aspekt. Hərçənd ki, möhkəm təşkilatçılıq strukturunda enerji sistemlərinin effektliyi və etibarlılığı əhəmiyyətlidir, göstəricilərdə bu təşkilatı formalarıa əks etdirilməsi inkişaf etdirilir və ola bilsin ki sonradan DİSEG-inin aspektlərinə əlavə ediləcək.

Cədvəl 2. Azərbaycan Respublikası üzrə davamlı inkişafının enerji göstəriciləri [5]

Göstəricilər	
Sosial göstəricilər	
SOC 1	Insan potensialının inkişafı indeksi
SOC 2	Ev təsərrüfatının payı, elektriksiz və ya sənaye elektiriki olmadan, yaxud qeyri sənaye enerjisindən güclü asılılıq %
SOC 3	Yanacaq və elektrik enerjisinə sərf edilən ev gəlirinin payı %
İqtisadi göstəricilər	
ECO 1	Azərbaycanda adambaşına düşən enerji istehlakı NET/adam
ECO 2	ÜDM vahidinə düşən enerji istehlakı (kg NET/1000 manat).
ECO 3	Azərbaycanda YER-də itkilərin payı (%)
ECO 4	Neft ehtiyatlarının çoxluğu (il)
ECO 5	Qaz ehtiyatlarının çoxluğu (il)
ECO 6	ÜDM-in enerji tutumluğu (ümumi enerji təchizatına hesablamaqla), kq neft ekvivalenti/ ABŞ dolları
ECO 7	Kənd təsərrüfatı, meşəçilik və balıqçılığın ümumi enerjinin son istehlakında xüsusi çəkisi
ECO 9	Azərbaycan Respublikası ev təsərrüfatlarında enerji məhsullarının istehlakı, min NET
ECO10	Azərbaycan Respublikasında nəqliyyatın ümumi enerjinin son istehlakında xüsusi çəkisi, faizlə
ECO11	Azərbaycan Respublikasında elektrik və istilik enerjisinin istehsalı zamanı yanacağın istifadə səmərəliliyi payı, %
ECO12	Azərbaycan Respublikasında elektrik enerjisinin istehsalında qeyri karbohidrogen enerjinin payı, (%)
ECO13	Azərbaycan Respublikasında bərpa olunan mənbələrdən enerji təchizatının ümümi enerji təchizatında xüsusi çəkisi, (%)
Ekoloji göstəricilər	
ENV 1	Azərbaycan Respublikasında inqrediyentlər üzrə stasionar mənbələrdən ölkənin atmosfer havasına atılan bir nəfərə düşən çirkləndirici maddələr, kg/nəfər
ENV 2	Azərbaycan Respublikasında karbon dioksid tullantılarının ÜDM* vahidinə nisbəti, kqCO_2/min dollar
ENV7	Azərbaycan Respublikasında inqrediyentlər üzrə stasionar mənbələrdən ölkənin atmosfer havasına atılan çirkləndirici bərk maddələrin ümumi enerji təchizatına nisbəti, kq/NET.
ENV8	Azərbaycan Respublikasında utilizasiya olunmuş təhlükəli tullantıların inqrediyentlər üzrə stasionar mənbələrdən ölkənin atmosfer havasına atılan çirkləndirici bərk maddələrə nisbəti, faizlə

Nəticə

Müasir dövrdə dünya haqqındakı təsəvvürlər köklü surətdə dəyişilməkdədir. Dünya mənzərəsi haqqındakı mühafizəkar baxışlar (yəni ənənəvi təsəvvürlər) ikinci plana keçir və yeni təsəvvürlər əsasında ciddi dəyişikliklər baş verir. Burada söhbət bəşəriyyətin təkamül yolu ilə inkişaf və irəliyə doğru hərəkət dinamikasından gedir. Dövr yüksək texnologiyalar dövrüdür, təbiətə, onun resurslarına olan istehlakçı münasibətlər dəyişilməkdədir. Sözügedən dəyişiklik davamlı inkişafa nail olunmasında antroposentrist yanaşmanın biosentirst yanaşmanı əvəz etməsidir. Davamlı inkişaf zamanın tələbidir və dəyişikliklərin əsas istiqamətlərini müəyyənləşdirir. Energetika sektoru da daxil olmaqla elmi araşdırmaların aparıldığı bütün sahələrdə davamlı inkişafa nail olunması məsələsi müasir dövrün başlıca prioritetlərindəndir. Lakin bir vacib məqamı xüsusi olaraq nəzərə almaq lazımdır ki, dövr yeni reallıqlar dövrüdür, yeni reallıqlar əhəmiyyətli dərəcədə energetika sahəsinin davamlı inkişaf nəzəriyyəsi və metodologiyasına ciddi təsir göstərmişdir. Nəzərə almaq lazımdır ki, energetika elə bir sahədir ki, burada üç fundamental komponentə tarazlaşdırılmış münasibət əsasında inkişafa nail olunması zərurəti günbəgün daha qabarıq şəkildə özünü büruzə verir: ekologiya; cəmiyyət; iqtisadiyyat. Qeyd etmək lazımdır ki, energetika sahəsinin davamlı inkişaf komponentləri bir-biri ilə sıx bağlıdır və mühüm strateji prioritetləri diqqəti cəlb edir:

- Enerji təhlükəsizliyi və bütün növ enerji resurslarının şaxələndirilməsi;
- Bərpa olunan, ekoloji təmiz və davamlı enerji mənbələrindən istifadə edilməsi imkanlarının artırılması;
- Enerji istehsalının texnoloji səviyyəsinin yüksəldilməsi, ekoloji yükün azaldılması və ekoloji gərginliyin yumşaldılması;
- Şəbəkə infrasttukturunun müasirləşdirilməsi və inkişafı və s.

Ədəbiyyat siyahısı

1. Ə.X. Nuriyev Azərbaycanda iqtisadi inkişaf və modernləşmə siyasətinin konseptual sasları. Bakı, “AVROPA” nəşriyyatı-2013, 418 səh.
2. Салимов С.М. Нефтегазовая промышленность – основа стратегии устойчивого азвития Азербайджанской Республики М.: МАКС Пресс, 2015. – 292 с.
3. Салимов С.М. Энергетическая безопасность как важнейшее условие стратегии устойчивого развития Азербайджанской Республики М.: МАКС Пресс, 2009. – 212 с.
4. Ə.X. Nuriyev Azərbaycanda iqrisadiislahatların reallaşdırılmasının əsas istiqamətləri. “Kooperasiya” elmi-praktiki jurnalı №3(50)-2018, səh.5-9.
5. Salimov S.M. Energy indicators for sustainable development of Azerbaijan Republic– Economic dimension. European Journal of Sustainable Development Volume 7, 2018. №1. P236-248. European Center of Sustainable Development Rome, Italy
6. Salimov S.M. Особенности устойчивого развития экономики Азербайджанской Республики Баку: Национальная Академия Наук Азербайджана Институт Экономики, Научные труды, I выпуск – 2018. №1. P.66-73.
7. Salimov S.M. Исследование индекса развития человеческого потенциала в контексте устойчивого развития Азербайджанской Республики Баку: Национальная Академия Наук Азербайджана Институт Экономики, Научные труды, I I выпуск – 2018. №2. P.137-142.
8. Salimov S.M. Формирование эффективной структуры экономики Азербайджанской Республики как определяющий фактор устойчивого развития Баку: Национальная Академия Наук Азербайджана Институт Экономики, Новости, Выпуск – 2018. №5. P.29-36.
9. Salimov S.M. Моделирование влияние энергетической безопасности на величину устойчивости развития Азербайджанского Республики Баку Национальная Академия Наук Азербайджана Институт Экономики, Научные труды, IV выпуск – 2017. №6. P.88-95.
10. Salimov S.M., Mirzayev F.A., Shikhlinskaya R.Y., Sadiqova P.S. The concept of sustainable development indicators in the model analysis of fuzzy methods of Azerbaijan Republic Baku: Azerbaijan National Academy of Sciences Institute of Economy. Scientific works I Issue. – 2017. №1. P 68-73.

AZƏRBAYCANIN DAVAMLI İNKİŞAF KONSEPSİYASINA KEÇİDİNİN KONSEPTUAL ƏSASLARI VƏ PRİORİTETLƏRİ

Günay Məhiş qızı Pənahova i.f.d., dosent
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
gunaypanahova@gmail.com

Xülasə

Məqalədə dünya təcrübəsinə əsaslanaraq davamlı inkişafa keçid konsepsiyasının təmin edilməsi, bütünlükdə insan fəaliyyət göstərdiyi bütün sahələri iqtisadi davamlılıq, sosial davamlılıq, ekoloji davamlılıq, habelə indiki və gələcək nəsillərin maraq və mənafeləri nəzərə alınaraq elmi-metodoloji baxımdan araşdırılaraq dəyərləndirilir və bu zaman xüsusi qeyd olunur ki, inkişafı müəyyən edən amillərin xarakterindən, strukturundan asılı olaraq neqativ meyllər də müşahidə olunur ki, bu da özünü "Gələcəyi olmayan inkişaf", qeyri bərabər inkişaf formasında təzahür edir. Çünki, bəzi hallarda iqtisadi inkişafın nəticəsində təbii ehtiyatların tükənməsi, ətraf mühitin çirklənməsi, demoqrafik balansın pozulması halları da müşahidə olunur. Azərbaycanın konkret faktiki materiallarının təhlili əsasında belə qənaətə gəlinir ki, son 10 illikdə ölkədə sosial-iqtisadi inkişaf sahəsində əldə olunan uğurlar yaradılmış iqtisadi, sosial, elmi-texniki, maliyyə potensialı, insan kapitalı, infrastruktura, əhalinin sosial rifahının yaxşılaşması səviyyəsi, habelə normativ - hüquqi qanunvericilik və institusional baza davmlı inkişaf konsepsiyasına keçidi əməli bir problem kimi qarşıya qoymağa imkan verdi. Daha sonra ölkənin sosial-iqtisadi inkişafının mövcud vəziyyəti və mövcud imkanlar daxilində hərəkətə gətirilə bilən start vəziyyəti və imkanlarının GZİTtəhlili əsasında 360 dərəcəli diaqnostikası əsasında ölkəmizin malik olduğu resurslar balansı, onlardan istifadə dərəcəsi və mövcud şəraitdə hərəkətə gətirilə bilən potensial dəyərlədirilmiş, yaxın gələcək üçün milli iqtisadiyyatın başlıca prioritetləri, məqsədləri, hədəflərini müəyyənləşdirməyə cəhd edilmiş, eyni zamanda sosial-iqtisadi proseslərin tənzimlənməsinin mövcud forma, metod, prinsip, vasitələrinin mexanizmlərinin ölkəmizdə yaxın gələcəkdə iqtisadi, sosial, demoqrafik, ekoloji, humanitar və institusional inkişafının səmərəli reallaşdırılması ilə bağlı konkret təkliflər və tövsiyyələr irəli sürülür.

Açar sözlər: davamlı inkişaf, iqtisadi davamlılıq, sosial davamlılıq, ekoloji davamlılıq, GZİTtəhlil, "Gələcəyi olmayan inkişaf", "Qeyri bərabər inkişaf", inkişaf konsepsiyası, milli prioritetlər, iqtisadi mühit, sosial mühit, ekoloji mühit

Son on illikdə Azərbaycanda sosial-iqtisadi inkişaf sahəsində əldə olunan uğurlar, yaradılmış iqtisadi, sosial, elmi-texniki, maliyyə potensialı, insan kapitalı, infrastruktura, əhalinin sosial rifahının yaxşılaşması səviyyəsi, habelə normativ-hüquqi qanunvericilik və institusional baza ölkəmizə davamlı inkişafa keçidi əməli bir problem kimi qarşıya qoymağa imkan verdi. Qeyd olunanları nəzərə alaraq ölkə prezidenti lham Əliyevin 2 fevral 2021-ci il sərəncamı ilə təsdiqlənmiş '"Azərbaycan 2030 sosial inkişafına dair'' təsdiqlənmiş strateji sənəddə əslində növbəti onillikdə ölkəmizin davamlı inkişafa keçididn başlıca milli prioritetlərini özündə əks etdirir. Eyni zamanda onu da xüsusi qeyd etmək lazımdır ki, son iki ildə koronovirus pandemiyası nəticəsində dünyanı bürüyən iqtisadi, sosial humanitar böhran və son illərdə dünya bazarında xam neftin qiymətinin dalğalanması, milli iqtisadiyyatın inkişafında neft amilinin rolu və imkanlarının, gəlirlərinin məhdudlaşması, iqtisadi inkişafın amillərini, meyarlarını, hərəkətverici qüvvələrini, prinsiplərini, reallaşma mexanizmlərini deformasiyaya uğratmatmışdır. Bu isə öz növbəsindəperspektiv dövrə tətbiqən ölkəmizdəmilli iqtisadiyyatın davamlı inkişaf baxımından keyfiyyətcə yeni iqtisadi inkişaf strategiyasını işləyibhazırlanmasını obyektiv zərurətə cevirdi. Bu baxımdan ölkəmizinsosial-iqtisadi inkişafının mövcud vəziyyətinin GZİT(güclü, zəif tərəflərini, imkanları, təhlükə və təhdidləri) təhlilini və 360 dərəcəlidiaqnostikasını, ölkəmizin malik oldugu resurslar balansı, onlardan istifadə dərəcəsinin və mövcud şəraitdə hərəkətə gətirilə bilən potensialın dəyərləndirilməsini, yaxın gələcək üçün milli iqtisadiyyatın inkişafının başlıca məqsədlərinin, hədəflərinin, prioritetlərinin müəyənləşdirilməsinitələb edir.

Məlumdur ki, qloballaşma şəraitində bəşəriyyətin resurslara olan tələbatlarının durmadan artmasıilə yanaşı, onların istehsalının getdikcə baha başa gəlməsi, dünyada baş verən qloballaşma proseslərinin məntiqi nəticəsi olaraq asılılığının güclənməsi iqtisadi, sosial, demoqrafik və ekoloji problemlərin ümumbəşəri xarakter daşımasına səbəb olmuşdur. Beləbir şəraitdə Azərbaycanda səmərəli fəaliyyət göstərən milli iqtisadiyyatın formalaşdırılması və inkişafı həlledici dərəcədə onun davamlı inkişaf modelinə кeçidi ilə şərtlənir.

İnkişaf etmiş ölkələrin tarixi təcrübəsi göstərir ki, milli iqtisadiyyatın davamlı inkişafa keçidini təmin etmək üçün hər şeydən əvvəl ölkənin resurs potensialı indiki və gələcək nəsillərin maraq və mənafeləri nəzərə alınmaqlasəmərəli reallaşdırılmalı, tədricən resurslara, investisiyalara əsaslanan inkişaf modelindən innovasiyalı inkişaf modelinə keçid üçün tələb olunan zəruri iqtisadi, sosial, ekoloji, texniki-texnoloji potensial formalaşdırılmalıdır.

Ümumən, davamlı inkişaf konsepsiyasının əsasını belə bir sivil yanaşma təşkil edir ki, sosial-iqtisadi sistemlərin və inkişaf modellərinin xarakterindən asılı olmayaraq milli iqtisadiyyatın elə bir inkişafını təmin etmək lazımdır ki, elmi –texniki tərəqqinin tətbiqi və inkişafı nəticəsində bütün səviyyələrdə insanların davamlı yaşayış prisipləri gözlənilsin və ətraf mühitin tarazlığı pozulmasın**.**

Bütün bunlar öz növbəsində milli iqtisadiyyatın artım amillərinin davamlı inkişaf baxımından dərk olunaraq yenidən dəyərləndirilməsini obyektiv zəruriyyətə çevrilir. Belə bir şəraitdə hər bir ölkədə həyata keçirilən iqtisadi siyasətin optimallığı, səmərəliliyi, onun indiki və gələcək nəsillərin maraq və mənafelərinə cavab verməsi, hər şeydən əvvəl milli iqtisadiyyatların dünyada baş verən ekoloji tarazlıgın gözlənilməsi ilə şərtlənir**.** Bu baxımdan, yaxın gələcəkdə ölkəmizdə itehsalın modernləşməsi, innovasion inkişafın rəqabətqabiliyyətliliyinin artırılması, iqtisadiyyatın strukturunun və diversifikasiyasının təkmilləşdirilməsi, inklyuziv iqtisadi artımın təmin edilməsi davamlı inkişaf prinsiplərinə, mexanizmlərinə, hədəflərinə əsaslanmalıdır.

Problemin aktuallığını xüsusi vurğulayan ölkə prezidenti İlham Əliyev cənabları Bakı Dövlət Universitetinin 90 illik yubileyində qeyd etmişdir: “Azərbaycan iqtisadiyyatında keçid dövrü başa çatmışdır. Biz mövcud reallıqları təhlil etməklə nəticələr çıxarmalı, yeni paradiqmalar haqqında düşünməli və Azərbaycan iqtisadiyyatının davamlı inkişafa keçidlə bağlı iqtisadi inkişaf modelinin konseptual əsaslarını müəyyənləşdirməliyik. Bütün bu məsələlər yaxın gələcək üçün ölkəmizdə işlənib hazırlanan dövlətin strateji iqtisadi siyasətinin ana xəttini təşkil etməlidir”. [1]

Milli iqtisadiyyatların davamlı inkişafa kecid konsepsiyası öz növbəsində ölkənin iqtisadi inkişaf səviyyəsinin və potensialının iqtisadi, elmi-texniki, maliyyə, sosial, ekoloji və insan kapitalı baxımından obtektiv dəyərləndirilməsini tələb edir.

Təhlil göstərir ki, dünya inkişafının ayrı-ayrı inkişaf mərhələsində davamlı inkişafa keçidin prioritetləri və məqsədləri də təkmilləşir. Qeyd etmək lazımdır ki, 6 dekabr 2016-cı il tarixində on bir sektor üzrə 12 Strateji Yol Xəritələri prezident sərəncamı ilə təsdiq olundu.

Bu yol xəritələrində ilk dəfə olaraq iqtisadi və sosial inkişafının ahəngdarlığının, indiki və gələcək nəsillərin maraq və mənafelərinin vəhdət halında həll edilməsi, habelə iqtisadiyyatın inklyuzivliyinin artırılması strateji bir vəzifə kimi qarşıya qoyuldu.

Bu zaman milli iqtisadiyyatın təhlükəsizliyinin gözlənilməsi ölkəmizdə həyata keçiriləcək iqtisadi islahatlar strategiyasının formalaşdırılması və reallaşdırılmasınınistisna bilməyən şərti kimi müəyyənləşdirildi. Yaxın gələcəkdə ölkəmizin davamlı inkişaf modelinə kecməsi ilə baglı qarşısında duran strateji məqsəd və hədəflərin reallaşdırılması müvafiq olaraq milli iqtisadiyyatın strukturunun dəyişən şəraitə və tələbə uyğun təkminləşdirilməsini, real və maliyyə sektoru arasında optimal tarazlığın təmin edilməsini tələb edir.

Təhlil göstərir ki, son onillikdə ölkə iqtisadiyyatına yönəldilmiş əsaslı vəsait qoyuluşunun cox böyük hissəsi neft-qaz resurslarının dünya bazarına cıxarılması, sahibkarlıgın inkişafı ücün zəruri iqtisadi-sosial və bazar infrastrukturunun loqistika imkanlarının yaradılmasına, artırılmasına yönəldilmişdir ki, onların da başlıca maliyyə mənbəyi dövlət büdcəsi ilə yanaşı Neft Fondundan ayrılan transfertlər hesabına maliyyələşdirilmişdir. Zənnimizcə, qeyd olunanlar Azərbaycanın davamlı inkişaf strategiyasına kecidinin ən xarakterik cəhətlərindən hesab edilməlidir.

Bütün bunlar yaxın gələcəkdə ölkəmizdə milli iqtisadiyyatın davamlı və dinamik inkişafına qarşı mümkün ola biləcək kataklizmaları və bütünlükdə geoiqtisadi və qeyri-sabitliyin neqativ

təsirinə davamlılığını kəskin artıracaqdır. Ümumən, 1993-2020-ci illər ərzində bütün maliyyə mənbələri hesabına ölkəmizdə əsas kapitala yönəldilmiş investisiyaların həcmi 270 milyard dollardan cox olmuşdur.Bu gün Azərbaycan iqtisadiyyatı əslində kəmiyyət dəyişikliklərindən keyfiyyət dəyişikliklərinə keçid mərhələsindədir. Təcrübə onu təsdiqləyir ki, P.Solou haqlı olaraq qeyd edir ki, iqtisadi siyasət müəyyənləşdirilərkən üc əsas məsələ diqqət mərkəzində olmalıdır. Birincisi, cəmiyyət milli gəlirin az və yaxud cox hissəsini yıgıma yönəltməlidir. Ikincisi, aparılan iqtisadi siyasətin yıgıma necə təsir edə biləcəyi müəyyənləşdirilməlidir və nəhayət, ücüncüsü, iqtisadi siyasətin dəyişməsinin texniki tərəqqiyə necə təsir edə biləcəyi aydınlaşdırılmalıdır. Həmçinin M.Porter yazır ki, ölkənin iqtisadiyyatının rəqabət qabiliyyətinə iqtisadi inkişafın məlum klassik amillər ilə yanaşı milli şərait, başqa sözlə milli təsərrüfatın quruluş, milli mədəniyyət, dövlət idarə işcilərinin mentaliteti, hətta ölkənin tarixi və s. də mühüm təsir göstərir. [2]

Əlbəttə bu zaman P.Solounun qeyd etdiyi kimi mövcud istehsal olunmuş kapitalla təbii ehtiyatlar arasında davamlılıq dərəcəsinin gözlənilməsi davamlı inkişaf proqramlarının hazırlanmasının ilkin şərtidir.

Ümumən, XX əsrin 70-ci illərindən başlayaraq iqtisadi artım anlayışına davamlı inkişafla baglı yeni yanaşmalar meydana gəldi. Davamlı inkişaf konsepsiyasının beynəlxalq aləmdə əməli bir problem kimi qarşıya qoyulması öz başlangıcını 1971-ci ildə "Roma klubu" tərəfindən hazırlanan "Artımın hədləri" adlı məruzəsindən götürür. Həmin məruzədə xüsusi qeyd olunurdu ki, təbii, xüsusən enerji resurslarından getdikcə artan miqyasda və israfcılıqla istifadə olunması ətraf mühitə böyük ziyan vurur, onu yararsız hala salır, bütünlükdə perspektivdə yer üzərində canlıların normal yaşayışının mümkünlüyünü şübhə altına salır. Bu problemi həll etmək ücün ekstensiv iqtisadi artımın məhdudlaşdırılması ekoloji tarazlıq gözlənilməklə intensiv inkişafa kecid zərurəti əsaslandırıldı. Qeyd olunan məruzənin prinsiplərinin aktuallıgını və əməli əhəmiyyətini nəzərə alaraq 1972-ci ildə Stokqolm şəhərində davamlı inkişafla baglı beynəlxalq konfrans kecirildi. Bu konfransda yer üzərində resursların məhdudlugu probleminin həllində nəzərə alınması bəşəriyyətə bir cagırış kimi irəli sürüldü. Daha sonra 1992-ci ildə 2002 və 2012-ci illərdə kecirilən beynəlxalq sammitlərdə davamlı inkişaf konsepsiyasının fundamental prinsipləri, yolları, mexanizmləri, prioritetləri müəyyənləşdirildi.

1972-ci ildə Nobel mükafatları laureatları Y.Nordhaus və C.Tobin "Artım artıq köhnəlmişdir" adlı tədqiqatlarında da əslində ilk dəfə olaraq iqtisadiyyatın davamlılıgını qiymətləndirmək ücün model təklif olunmuşdur. 1974-cü ildə isə Robert Solou tərəfindən iqtisadiyyatın davamlı inkişafının şərtləri ilk dəfə olaraq formalaşdırıldı.O, qeyd edirdi ki, istehsal olunmuş kapitalda təbii resurslar arasında nəzərdə tutulan davamlılıgı təmin etmək ücün iqtisadiyyatın istehlakının davamlılıq proqramını tərtib etmək ücün tədricən azalan sürətlə artırılması zəruri şərtləri göstərirdi. Daha sonra 20 oktyabr 1987-ci ildə BMF-nin 42-ci sessiyasının qətnaməsində bəşəriyyətin davamlı inkişafın əsas prinsipləri müəyyənləşdirildi.

Məlumdur ki, dünya iqtisadi ədəbiyyatında ölkənin iqtisadi inkişaf səviyyəsindən, secdiyi inkişaf modelindən dünya iqtisadiyyatına inteqrasiya dərəcəsindən asılı olaraq zəif və güclü davamlılıq anlayışları fərqləndirilir.

"Zəif davamlılıq – elə inkişafdır ki, nəsildən-nəslə o azalmır" Digər iqtisadcılar isə qeyd edirlər ki, zəif davamlılıgı "əsas kapitalın vəziyyətini pisləşdirmədədn istehlakın davamlı təmin edilməsi kimi nəzərdən kecirilən" fikri ilə tam razıyıq. Biz o iqtisadcıların "zəif və güclü" davamlı inkişafın hədlərinin müəyyənləşdirilməsinin göstərici və indikatorlarını dəqiq müəyyənləşdirmək ən cox cətin və ziddiyyətli bir proses oldugunu qeyd edirlər. [3]

"Davamlılıq – bu uzun müddətli iqtisadi, ekoloji və mədəni həyat qabiliyyəti olmaqla sosial, maliyyə, ekoloji tarazlılıgı" uzun müddətli vəhdətinə əsaslanan bir inkişafdır". Ədəbiyyatda göstərilir ki, davamlı iqtisadi inkişafın 5 əsas ünsürü iqtisadiyyat, ekologiya, ədalətlilik, təhsil və davamlı inkişafın qiymətləndirilməsinin göstəriciləri və indikatorları vardır. [4]

Ümumən tədqiqatçıların o fikri ilə razılaşmaq olar ki, davamlı inkişaf insanların həyat tərzinin, tələbatlarını, maddə, rifah halının yaxşılaşdırılması ilə təbii resursların ekosistemin arasındakı zəif balansın qorunub saxlanmasını nəzərdə tutur. [5]Təhlil göstərir ki, yüksək dərəcədə formalaşmış milli iqtisadiyyatlarda davamlı inkişaf strategiyasının əməli cəhətdən səmərəli reallaşdırılması

məlum ümumi prinsiplərlə müəyyənləşsə də onun meqa, makro, mezo, mikro və region səviyyəsində təmin edilmə xüsusiyyətlərini hökmən nəzərə almaq lazımdır. Belə ki, ayrı-ayrı ölkələrin milli iqtisadiyyatları inkişaf səviyyəsindənasılı olaraq onun rəqabətqabiliyyətliliyinin yüksəldilməsində ayrı-ayrı amillərin rolu hökmən nəzərə alınmalıdır. Son illərə beynəlxalq aləmdə davamlı inkişafın sosial və humanitar aspektləri gücləndirilməsi və həmin məqsədlərin əməli cəhətdən reallaşdırılması daha aktuallaşmışdır. Bu baxımdan BMT-nin 2015-ci il sentyabr ayında kecirilən sammitində qəbul olunan davamlı inkişafın məqsədlərinə uygun olaraqAzərbaycanda 2030-cu ilə qədər ölkəmizdə davamlı inkişaf məqsədlərinin icrasını təmin etmək ücün institusional və siyasi baxımdan kompleks yanaşmanın zəruriyyətini nəzərə alaraq "2030 Gündəliyi" qəbul olundu və Azərbaycanın Dayanıqlı inkişafı üzrə Milli Əlaqələndirmə Şurası yaradıldı və inklyuziv iqtisadi artım konsepsiyasına kecid mühüm bir vəzifə kimi qarşıya qoyuldu.

Son dövrlərdə BMT-tərəfindən irəli sürülən prinsiplərdə "Gələcəksiz inkişaf", habelə "Qeyri-bərabər inkişaf" anlayışlarından istifadə olunur. Eyi zamanda inkluziv artım konsepsiyası insanın hərtərəfli inkişafı, həmçinin səhiyyə və təhsil xidmətinin inkişafı, bu xidmətlərin ancaq inkişafı deyil, bütün əhali qrupları arasında həmin xidmətlərin əlçatan olmasını nəzərdə tutur.

Son nəticədə ölkədə inklyuziv inkişafın xarakterinə onun seçdiyi inkişaf modeli, iqtisadiyyatın tarixən formalaşmış strukturu, inkişaf səviyyəsi və milli mentaliteti güclü təsir göstərir.

Dünya təcrübəsi göstərir ki, davamlı inkişafın hər hansı bir ölkənin konkret timsalında əməli cəhətdən reallaşdırılması məntiqi ardıcıllıqla: milli iqtisadiyyatın inkişaf səviyyəsinin sistemli GZİT təhlilini, məqsədlərin müəyyənləşdirilməsini, mövcud iqtisadi münasibətlər sisteminin milli maraqlara nə dərəcədə cavab verməsini və nəhayət, onun tənzimlənməsinin forma, metod, miqyas və vasitələrinin müəyyənləşdirilərək dəyərləndirilməsini tələb edir.Ümumən, qloballaşan dünyada hər bir ölkə davamlı inkişafı təmin etmək üçün, dörd problemi həll etməlidir.

Birincisi, müasir dövrdə dünya iqtisadiyyatının inkişafı nəticəsində yaranan ekoloji problemləri həll etmək ücün müvafiq tədbirlər sistemini həyata kecirməli; ikincisi, davamlı insan inkişafını təmin etmək ücün zəruri sosial-iqtisadi proqramları reallaşdırmalı; ücüncüsü, müasir dövrdə müşahidə olunan demoqrafik problemləri həll etmək ücün müvafiq siyasət formalaşdırıb həyata kecirməli; dördüncüsü mövcud iqtisadi problemlər davamlı inkişaf baxımından cari və perspektiv məqsədlər nəzərə alınaraq sistem halında həll edilməli; onu da xüsusi vurğulamaq lazımdır ki, son nəticədə ekoloji, sosial, demoqrafik problemlərin həlli imkanları həlledici dərəcədə iqtisadi inkişafın səviyyəsi və xarakterindən asılı olur.Eyni zamanda o da nəzərdən qaçırılmamalıdır ki, davamlı inkişafın konsepsiyasının əməli cəhətdən reallaşdırılması ilk növbədə, ölkənin malik olduğu davamlılıq potensialı ilə şərtlənir.[7]

Eyni zamanda təhlil göstərir ki, davamlılıq potensialı ümumən ölkənin malik oldugu mütləq üstünlüklərlə müəyyənləşsə də, düzgün, optimal, cevik iqtisadi siyasət reallaşdırmaqla qlobal, regional, milli maraqları, cari və perspektiv məqsədlərin həllinin optimal mərhələliyini gözləməklə bu potensialı xeyli artırmaq olar.

Azərbaycanın son illərdəki, uğuru öz əksini Azərbaycan "Davamlı inkişaf hesabatı - 2020" sənədində də tapmışdır. Hesabata əsasən Azərbaycan dünyanın 166 ölkəsi arasında "davamlı inkişaf məqsədləri indeksi" üzrə 54-cü pillədə qərarlaşıb.Müqayisə üçün deyək ki, Azərbaycan "davamlı inkişaf məqsədləri indeksi"nə görə regional liderdir, belə ki, hesabatda Rusiya 57-ci, Gürcüstan 58-ci, İran 59-cu, Qazaxıstan isə 65-ci yerdə qərarlaşmışdır.

Qeyd etmək lazımdır ki, son nəticədə davamlı iqtisadi artım konsepsiyasına kecid həlledici dərəcədə real sektorun inkişafı və səmərəliliyi ilə baglıdır. "Azərbaycan iqtisadiyyatının təklif baxımından təhlili də ugurlu strategiyanın müsbət nəticələrini göstərir. Son 10 il ərzində Azərbaycan iqtisadiyyatında makroiqtisadi sabitlik qorunmuş, iqtisadiyyatın diversifikasiyası və sahibkarlıgın inkişafı istiqamətində mühüm islahatlar aparılmış və zəruri tədbirlər görülmüşdür. Eyni zamanda bu dövr ərzində regionların tarazlı inkişafı təmin edilmiş, ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyi yüksəlmiş və ölkənin dünya iqtisadiyyatına sürətli inteqrasiyası davam etmişdir" [8]

Davamlı inkişafa keçidin təmin olunması milli iqtisadiyyatın təhlükəsizliyinin gözlənilməsi ilə birbaşa bağlı bir problemdir. İqtisadi təhlükəsizlik konsepsiyası nəinki milli maraqların qorun-

masını, habelə milli maraqların mühafizəsi və reallaşdırılması mexanizmini, milli sahibkarlığın və istehsalın inkişafını, cəmiyyətdə sosial-iqtisadi sabitliyi təmin etmək qabiliyyətini özündə əks etdirməlidir. O da bir həqiqətdir ki, davamlı inkişaf strategiyasınınəməli cəhətdən səmərəli reallaşdırmaq ücün sosial-iqtisadi inkişafla baglı qəbul olunan hər bir qanunvericilik aktı kifayət qədər güclü, intellektual yükə malik olmaqla cari və perspektiv məqsədləri nəzərə almalıdır.

Nəticə

Ümumən Azərbaycan post pandemiya və post konflikt dövründə keyfiyyətcə yeni olan 2021-2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olur. Bunları nəzərə alaraq ölkə prezidentinin 2 fevral 2021-ci il sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair" 5 milli prioriteti müəyyənləşdirmişdir. Bu prioritetlər növbəti 10 illik üçün dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşdırılmasını, inklyuziv inkişafın təmin edilməsini, rəqəmsal iqtisadiyyatın iqtisadi-sosial həyatın bütün sahələrində və nəhayət "Qarabağa böyük qayıdış" proqramını əhatə etməklə yaxın gələcəkdə ölkəmizin dinamik və davamlı inkişafına səbəb olacaqdır.

Pandemiyanın ölkə iqtisadiyyatına təsiri səbəblərindən, habelə məcmu tələbin komponentlərində azalma fonunda iqtisadiyyatın baza sahələri olan qeyri neft-qaz sənayesi və kənd təsərrüfatında artımın davam etməsinə baxmayaraq, bütövlükdə ÜDM real ifadədə 2020-ci ildə 2019-ci illə müqayisədə 4,3% azalmış, cari qiymətlərlə 72,4 milyard manattəşkil etmişdir.

Ümumən, yaxın perspektivdə ölkəmizin davamlı inkişaf konsepsiyasına kecidin potensial imkanlarının reallaşdırılması; innovasiya yönümlü investisiya siyasətini formalaşdırılaraq reallaşdırılmasını, müvafiq istehsal – sosial yönümlü infrastrukturun yaradılmasını, milli innovasiya sisteminin formalaşdırılmasını, intellektual kapitalın ümumi daxili məhsulda xüsusi çəkisinin kəskin artırılmasına nail olunmasını obyektiv zərurətə cevirmişdir.

Ədəbiyyat siyahısı

1. Azərbaycan qəzeti, 17 mart 2016
2. Z.Ə.Səmədzadə, "Cin qlobal dünya iqtisadiyyatında". Bakı 2009, səh 178
3. M.Porter. Международная конкуренция. M.1993 cü il
4. Quliyev R.R. Qloballaşan iqtisadiyyat. Azərbaycan prizmasında Bakı 2002
5. Тодаро «Экономическое развитие» Киев 1994
6. Ələkbərov U.A. Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları. – Bakı, 2013
7. Хильман "Государственное и экономическое политика" стр 348 Москва 2010
8. Dövlətin iqtisadi siyasəti, M.A.Əhmədov, A.C.Hüseyn, Bakı 2014
9. "Qloballaşma və milli iqtisadiyyatın formalaşması" M.A.Əhmədov Bakı 2005
10. Muradov Ə. Azərbaycan iqtisadiyyatı: oxşar çağırışlar, fərqli baxışlar. /http://diskurs.az /az/az-rbaycan-prof-dal-t-muradov-az-rbaycan-iqtisadiyyati-oxşar-cagirislar-f-rqli-baxislar/.)
11. prof.N.M.Müzəffərli, İqtisadiyyatın sosial yönümlülüyü, sagcı və solcu sistemlərdə", Bakı 2014
12. Cozef F.Stiglits Qloballaşma və onun dogurdugu narazılıqlar. Bakı 2004 səh. 95

AZƏRBAYCANDA MÜASİR DAYANIQLI İNKİŞAF VƏ İQTİSADİ ARTIM AMİLLƏRİ

Hacıyeva Xəyalə Nizami qızı
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), mütəxəssis
xayala_haciyeva@mail.ru

Xülasə

Məqalədə Davamlı İnsan İnkişafı konsepsiyasının məqsədləri analiz edilmiş, davamlı insan inkişafı strategiyası nəzəri cəhətdən tədqiq edilmiş, müasir demoqrafik problemlərin həlli yolları araşdırılmış, iqtisadi ədəbiyyatda iqtisadi artımla iqtisadi inkişafın fərqləri anlayışına müəllif yanaşması əsaslandırılmışdır. Müəllif tərəfindən iqtisadi artım, onun amilləri, innovasiyalı iqtisadiyyatın mahiyyəti və müasir iqtisadi inkişafda innovasiyanın rolu, bu sahədə olan problemlər

və onların həlli istiqamətləri, dövlətin davamlı inkişafını şərtləndirən amillər elmi-nəzəri cəhətdən şərh edilmişdir.

Açar sözlər: Demoqrafik artım, inkişaf strategiyası, development-inkişaf, makroiqtisadi sabitlik, əhali artımı.

Müasir dövrdə dünyada genişlənən qloballaşma prosesləri çərçivəsində Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının təmin edilməsi onun strateji istiqamətlərinin müəyyənləşdirilməsi demoqrafik proseslərin təhlilini və onların meydana gəlməsi səbəblərinin araşdırılmasını tələb edir. Demoqrafik proseslərin inkişafı istiqamətləri bilavasitə dövlət tərəfindən həyata keçirilən sosial-iqtisadi siyasətə təsir göstərir. Bu, bir tərəfdən dövlət tərəfindən həyata keçirilən sosial-iqtisadi siyasətin effektivliyini artırır, digər tərəfdən isə demoqrafik inkişaf sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyini gücləndirir. Bu gün dünyada baş verən demoqrafik proseslər ziddiyyətli bir xarakter daşıyır. Burada açıq şəkildə şimal və cənub divergensiyası mövcuddur. Bir tərəfdən, cənubda iqtisadi cəhətdən zəif və yoxsulluğun geniş yayıldığı ölkələrdə əhali sürətlə artır, digər tərəfdən, yüksək iqtisadi göstəricilərə malik şimal ölkələrində əhalinin azalma meyilləri müşahidə olunur. Lakin qeyd etmək lazımdır ki, cəmiyyətdə baş verən digər proseslərdən fərqli olaraq demoqrafik sistem homostatik xarakter daşıyır. Yəni demoqrafik sistem ətalətli bir sistem olmaqla xarici təsirlərə çox zəif cavab verir. Əgər demoqrafik inkişaf bilavasitə ölkənin iqtisadi vəziyyətindən asılı olsa idi, onda inkişaf etmiş ölkələr demoqrafik problemlərlə üzləşməzdi.

Müasir qloballaşan dünyada demoqrafik problemlərin əsas xarakterik xüsusiyyəti ondan ibarətdir ki, bir ölkədə demoqrafik problem əhalinin təbii artımının azalması, digər ölkədə isə əhalinin yüksək təbii artımı ilə bağlıdır. Təbii artımı aşağı olan və iqtisadi cəhətdən inkişaf etmiş ölkələr bu problemi miqrasiya hesabına həll etməyə çalışırlar. Demoqrafik proseslərin xüsusiyyətləri hər bir ölkə üçün xarakterik olan cəhətlərin araşdırılmasını tələb edir. Bir ölkə üçün əhəmiyyətli olan demoqrafik siyasət başqa ölkə üçün əks təsir göstərir. Müasir demoqrafik problemlər bu gün Azərbaycanda istər dövlət, istərsə də elmi ictimaiyyət tərəfindən böyük maraq doğurur. Demoqrafik proseslərin cəmiyyətdə baş verən digər proseslərdən fərqi ondan ibarətdir ki, onların həllinin inkar edilməsi cari vəziyyətdə hiss olunmur. Lakin uzun illər onların nəzərə alınmaması gələcəkdə çox mürəkkəb və bəzən həlli mümkün olmayan sosial-iqtisadi fəsadların və hətta ölkənin müdafiə qabiliyyətinin azalmasına səbəb olan proseslərin meydana gəlməsinə səbəb olur.

Dünya iqtisadiyyatında baş verən sosial-iqtisadi inkişaf proseslərinin analizi sübut edir ki, heç də həmişə ölkədə baş verən iqtisadi yüksəliş insan inkişafına adekvat təsir göstərmir. Onun həyata keçirilməsi üçün iqtisadi artımla yanaşı bilavasitə insan inkişafına xidmət edə bilən, cəmiyyətin bütün qrup və təbəqələrinin xüsusiyyətlərini əhatə edən, ölkədə baş verən sosial-iqtisadi prosesləri insan inkişafına yönəldə bilən institusional mühitin formalaşması zəruridir. Azərbaycanda fəaliyyət göstərən hökumət və qeyri-hökumət təşkilatları o cümlədən BMT və Böyük Britaniyanın Oksfam humanitar təşkilatı və s. tərəfindən həyata keçirilən layihələr (yoxsulluğun azaldılması ilə mübarizə, ekoloji proqramlar, gender problemləri üzrə tədqiqatlar, tədris və səhiyyə sahəsindəki islahatlar) insan inkişafına doğru istiqamətlənmişdir. 1995-ci ildən başlayaraq hər il İnsan inkişafı haqqında milli hesabatlar dərc olunmağa başlanmışdır. İnsan İnkişafı İndeksi (İİİ) ölkədəki insan kapitalının keyfiyyətini xarakterizə edən əsas sintetik göstəricidir. Bu indeks özündə əsas üç göstəricini əks etdirir: ϖ əhalinin sağlamlıq səviyyəsini xarakterizə edən orta ömür müddəti indeksi; ϖ əhalinin təhsil səviyyəsi indeksi; ϖ adambaşına düşən ÜDM-i xarakterizə edən indeks. Davamlı insan inkişafı strategiyasında elə inkişaf modeli nəzərdə tutulur ki, əhalinin bütün təbəqələrinin maraqları, cəmiyyətin müasir və prioritet inkişaf istiqamətləri, ətraf mühitin gələcək nəsillər üçün qorunması təmin edilmiş olsun. Davamlı insan inkişafı paradiqmasının əsasını aşağıdakı prinsiplər təşkil edir: ϖ davamlılıq; ϖ ədalətlilik; ϖ insanların inkişafı və maddi rifah. Davamlı İnsan İnkişafı konsepsiyasının son məqsədi özündə cəmləşdirməklə insan inkişafını təmin edə bilən iqtisadiyyatın bütün sahələrini - səhiyyəni, təhsili, mədəniyyəti və s əhatə edir. [1].

Müstəqil və suveren Azərbaycan dövləti postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2021–2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olmuşdur. Ölkənin ərazi bütövlüyünün bərpası ilə yeni strateji dövrdə dərin struktur islahatları hesabına yüksək iqtisadi artım mənbələrinin aşkarlanması vasitəsilə Azərbaycanda iqtisadi artımın daha da artırılması, yüksək

rifah cəmiyyətinin qurulması, azad edilmiş bölgələrə tarixi qayıdış və əbədi məskunlaşmanın təmin edilməsi cənab prezidentimizin əsas missiyalarındandır. Müstəqillik qazanan Azərbaycan keçid dövründə mövcud olan çətinliklərin öhdəsindən məharətlə gəlib. Bundan sonra iqtisadi inkişaf yoluna qədəm qoyan dövlətimizdə bir-birinin ardınca genişmiqyaslı layihələr gerçəkləşdirilib ki, bu da Azərbaycanın inkişaf strategiyasında öz bəhrəsini göstərib.

Azərbaycanın ərazi bütövlüyünün təmin olunması xalqımızın çoxəsrlik tarixində möhtəşəm yer tutur. Dövlət sərhədlərini bərpa etməklə Azərbaycan xalqı son bir əsrdə hərbi və diplomatik sahədə ən böyük zəfərə nail oldu.

Bu Böyük Qayıdış vətəndaşlarımızın işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşmasında və bu ərazilərin ölkənin iqtisadi fəaliyyətinə qoşulmasında bir körpü olacaqdır. Əvvəlki dövrlərdə olduğu kimi, işğaldan azad edilmiş ərazilərə qayıdan insanların təhlükəsiz yaşayışı təmin edilməli, bu region ölkənin ən abad guşələrindən birinə çevrilməlidir. Müasir həyatın əsası olan layiqli yaşayışın bərpası üçün bütün sahələrdə quruculuğa nail olunmalıdır. Bu səbəbdən əhalimizin Böyük Qayıdışı çərçivəsində növbəti məqsədlərə nail olunmalıdır: dayanıqlı məskunlaşma və iqtisadi fəaliyyətə reinteqrasiya. Bu torpaqlarda həyatın bərpa edilməsi üçün görüləcək işlər çoxdur. Ərazilərdə bir dənə də tikili yoxdur. İnzibati binalar, təhsil və tərbiyə ocaqları, mədəniyyət, səhiyyə müəssisələri və digər inşaat işləri görülməli, sakinlər qayıtdıqdan sonra həyat sürməsi üçün evlər tikilməlidir. Yəni bu ərazilərdə böyük və möhtəşəm layihələr həyata keçiriləcəkdir. Dövlətimizin başçısı müraciət və çıxışlarında dəfələrlə bəyan edib ki, düşmənin darmadağın etdiyi ərazilərimizi abadlaşdıracağıq, torpaqlarımız gülüstana çevriləcək [2].

İqtisadi ədəbiyyatda iqtisadi artımla iqtisadi inkişafın fərqləri anlayışı haqqında 3 əsas fərqli görüş mövcuddur.

Birinci görüşə görə iqtisadi artım bir ölkənin ölçüləbilən iqtisadi faktorlarının müəyyən müqayisə edilən dövr içində kəmiyyət baxımından dəyişməsidir. Ölkənin ümumdaxili məhsul həcminin artması həm iqtisadi böyümə və həm də iqtisadi inkişaf kimi ələ alınır. Burada iqtisadi artımla birgə əhalinin də artımı nəzərə alınır. Artım ölçülə bilən xüsusiyyətdə olduğu üçün mənfi (azalma, daralma) və ya müsbət (artım) kimi nəticəsi ola bilər. Məsələn, iqtisadiyyatda müxtəlif ölçüləbilən xarakterlər: ÜDM, işlə təminat, ixracda, idxalda artım, əhali artımı və s. Bu ölçülər müəyyən dövrə aid hesablanır və müəyyən bir dövrlə də müqayisə edilir. Buna görə də burda həm riyazi olaraq artım, həm də azalma baş verə bilər. Ancaq həm ÜDM-nin həm də əhali sayının artması eyni zamanda baş verməyə bilər. Və ya əhali artımı daha çox ÜDM isə nisbətən az arta bilər. Bu zaman adambaşına düşən milli gəlir azalış göstərəcəkdir. Bu görüşün əksikliyini təngid edən ikinci görüşə görə iqtisadi inkişaf isə daha çox fərdi bazda kalitatif-keyfiyyət baxımından müqayisəsi aparılan bir anlayışdır.

Yuxarıda misal çəkdiyimiz ÜDM-iqtisadi artım, ÜDM/əhali sayı (Adam başına düşən ümumi daxili məhsul) isə iqtisadi inkişaf göstərgəsi bu görüş tərəfindən qəbul edilir. Ancaq eyni zamanda bu görüşdə həm ÜDM-də, həm də əhalidəki dəyişmələr də nəzərə alınır və buna görə mütləq və nisbi dəyişmələrlə də bu nisbət hesablanır. Təbii ki bu iki faktorun birində olan dəyişmə adambaşına gəlirdə də dəyişməyə səbəb olacaqdır. Əgər adambaşına düşən gəlirdə dəyişmə olmazsa yəni "0" olarsa bu durum iqtisadiyyatda stagnation-durğunluq, dəyişmə mənfi -azalma yönündə olarsa, reqression-geriləmə, müsbət-artım yönündə olarsa, pozitiv dəyər alarsa development-inkişaf kimi qəbul edilir. Burada bir önəmli məsələni də qeyd etməyi lazım bilirəm. Bu da ÜDM-nin Satınalma Gücü Paritesinə (GDP on a purchasing power parity) görə hesablanmasıdır ki bunu beynəlxalq qurumların ölkələr üzrə inkişaf göstərgələrində daha çox nəzərə alırlar və bu daha real bir göstərgədir.

Üçüncü bir görüş isə bu haqqında ümumiyyətlə ilk ikisindən fərqli olaraq sadəcə kantitativ-kəmiyyət göstərgələrindən yola çıxmaqla deyil, ümumiyyətlə iqtisadiyyatın strukturunda və müxtəlif sahələrdə baş verən irəliləyişin iqtisadi inkişafın göstəriciləri olaraq qəbul edir. Bu görüşün əsasını fransız iqtisadçısı Franchois Perroux qoymuşdur. Ona görə, iqtisadi artım real milli gəlirin müəyyən bir dövr içində düzənli dəyişməsidir. Bu adambaşına düşən ÜDM ilə də ölçüləbilər. İqtisadi inkişaf isə daha çox iqtisadiyyatın müxtəlif sahələrində və bütünündə struktural bazda olan

dəyişikliklər, inkişafdır. İqtisadi inkişaf artım ilə birlikdə bu struktural dəyişiklikləri də özündə cəmləşdirir və buna görə də daha geniş bir anlayışdır.

Yuxarıdakı izahat nəticəsində qeyd edə bilərik ki, iqtisadi inkişaf iqtisadi artımdan daha geniş anlayışdır. Özündə həm kəmiyyət, həm də keyfiyyət baxımından dəyişiklikləri, inkişafı birləşdirir. İqtisadi inkişaf sadəcə müəyyən dövr içində əldə edilən ümumdaxili məhsulun artması demək deyil bu artımın iqtisadiyyatda və əhalinin rəfah səviyyəsindəki müsbət dəyişikliklərə təsirindən də ibarətdir. Ümumiyyətlə iqtisadi inkişaf davamlılıq xarakterdə olub, ən yaxşı iqtisadi strukturun əldə edilməsidir. İqtisadi inkişaf məqsədli iqtisadi siyasət aparılarsa, iqtisadi artım bu struktur dəyişiklərində əhəmiyyətli rol oynayar.

Verilmiş izahat nəticəsində qeyd edə bilərik ki, iqtisadi inkişaf iqtisadi artımdan daha geniş anlayışdır. Özündə həm kəmiyyət, həm də keyfiyyət baxımından dəyişiklikləri, inkişafı birləşdirir. İqtisadi inkişaf sadəcə müəyyən dövr içində əldə edilən ümumdaxili məhsulun artması demək deyil bu artımın iqtisadiyyatda və əhalinin rəfah səviyyəsindəki müsbət dəyişikliklərə təsirindən də ibarətdir. Ümumiyyətlə iqtisadi inkişaf davamlılıq xarakterdə olub, ən yaxşı iqtisadi strukturun əldə edilməsidir. İqtisadi inkişaf məqsədli iqtisadi siyasət aparılarsa, iqtisadi artım bu struktur dəyişiklərində əhəmiyyətli rol oynayar.

İqtisadi tərəqqinin genişlənməsi ölkənin inkişafını və xalqın rifahını təmin edir. İqtisadi inkişaf ictimai münasibətlərin bütün sahələrinə sirayət etmişdir. Dövlətin iqtisadi inkişafından qaynaqlanan yüksək maliyyə imkanları uzun illər makroiqtisadi sabitlik və artıma mühüm töhfə vermiş, təhlükəsizliyitəmini üçün güclü potensial yaratmışdır. Ölkədə yaşanan siyasi sabitlik, təhlükəsizlik mühiti və davamlı iqtisadi inkişaf xalqın rifahını təmin edən əsas taleyüklü amillərdəndir. Azərbaycan iqtisadiyyatda dayanıqlı inkişaf modelini tərənnüm edən ölkələr sırasındadır. Uğurlu sosial-iqtisadi və siyasi nailiyyətlər, milli və multikultural dəyərlər qarşıdakı illərdə Şərqlə Qərbin qovşağı olan Azərbaycanın qüdrətinin daha da artacağına əminlik yaradır. Bu imkanlar 2030-cu ilə qədər olan mərhələdə Azərbaycanın iqtisadi suverenliyinin möhkəmləndirilməsinə və müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsinə zəmanət verir. Ölkənin iqtisadi inkişafı ictimai münasibətlərin bütün sahələrinə sirayət etmişdir. Dövlətin iqtisadi inkişafından qaynaqlanan yüksək maliyyə imkanları uzun illər makroiqtisadi sabitlik və artıma mühüm töhfə vermiş, təhlükəsizliyi təmini üçün güclü potensial yaratmışdır. Ölkədə yaşanan siyasi sabitlik, təhlükəsizlik mühiti və davamlı iqtisadi inkişaf xalqın rifahını təmin edən əsas taleyüklü amillərdir.

Milli maraqlar, yeni reallıq və müasir dövr milli iqtisadiyyatımız üçün yeni strateji vəzifələri diktə edir. Milli sosial rifah səviyyəsinin davamlı artması məqsədilə yüksək, dayanıqlı, inklüziv və başlıca olaraq özəl təşəbbüslərə arxalanan iqtisadi artımın sürətlənməsi, azad edilmiş ərazilərə əhalinin qayıdışının təmini Azərbaycanın yeni inkişaf magistralının ideoloji nüvəsini təşkil edir. Ölkəmizin uzunmüddətli davamlı və sürətli inkişafı üçün cəmiyyət, biznes və dövlət üçlüyünün uğurlu əlaqəsi möhkəmləndiriləcəkdir. Dövlətin iqtisadiyyatda rolunun bazaryönlü islahatlar vasitəsilə effektiv və səmərəli idarə olunması, özəl mülkiyyət institutlarının gücləndirilməsi, biznesə dost dövlət idarəetməsi və xarici bazarlara yerli məhsulların çıxışını artırmaq məqsədilə ticarət rejimlərinin daha da liberallaşdırılması iqtisadi yüksəlişin təməl amilləri olacaq. Ölkədə özəl təşəbbüslərin yaradıcı və innovativ əsaslarla inkişaf etdirilməsi iqtisadi resursların daha yüksək əlavə dəyər yaradan sahələrə istiqamətlənməsini təmin edəcəkdir.

Dövlətimizin inkişafına və cəmiyyətin rifahına xidmət edən növbəti təşəbbüs isə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlı proqramın təsdiq olunması oldu ki, bu da dövlətin idarəolunmasında strateji planlaşmanın təcəssümüdür. Risklərin azalmasına, sahələrin sürətli inkişafına, həmçinin istiqamətlər üzrə sahəvi prioritetlərin müəyyən olunmasına xidmət edən sözügedən strateji idarəetmə metodu, eyni zamanda ölkəmizin gələcək inkişaf mənzərəsini də müəyyən edir.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" eyni zamanda, Birləşmiş Millətlər Təşkilatının "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərin icrası istiqamətində də xüsusi əhəmiyyət kəsb edir. Həmin prioritetlər aşağıdakılardır[3].:

1. Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
2. Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
3. Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
4. İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
5. Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi.

Risklərin azalmasına, sahələrin sürətli inkişafına, həmçinin istiqamətlər üzrə sahəvi prioritetlərin müəyyən olunmasına xidmət edən sözügedən strateji idarəetmə metodu, eyni zamanda ölkəmizin gələcək inkişaf mənzərəsini də müəyyən edir.

Dövlətin davamlı inkişafını şərtləndirən amillərdən biri də yüksək səviyyəli təhsil sistemidir. Azərbaycanda XXI əsrin tələblərinə uyğun olan təhsil sisteminin formalaşmasında dövlətin iqtisadi potensialının payı mütləq artırılmalıdır. Dünyada artan rəqabətə davam gətirə bilmək üçün iqtisadiyyatın uzunmüddətli inkişafı müasir və güclü təhsilə arxalanmalıdır. Məhz təhsil vasitəsilə insan kapitalının milli sərvətdə iştirak payı davamlı şəkildə artırılmalıdır. Strateji dövrdə kompetensiya, sosial vərdişlər və bacarıqların harmoniyada inkişafına əsaslanan "ömürboyutəhsil"ə xüsusi önəm verilməlidir. Güclü təhsil hesabına yüksək peşə bacarıqlarına malik insan kapitalı yaratmaq üçün ali təhsil müəssisələrinin beynəlxalq səviyyədə keyfiyyət baxımından rəqabətədavamlığı təmin olunmalıdır. Ətraf mühit və "yaşıl artım" ölkənin dayanıqlı inkişafını təmin edən önəmli amillərdəndir. Qlobal iqlim dəyişikliklərinin miqyasını nəzərə alaraq ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməli, təmiz enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpası təşviq edilməlidir. Bu, istilik effekti yaradan qaz emissiyasını beynəlxalq normalara uyğun səviyyədə saxlanılması istiqamətində göstərilən səylərə mühüm töhfə olacaqdır. Ölkənin perspektiv iqtisadi inkişafı ilə bərabər ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətli bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə təmin edilməlidir. Dövlətin iqtisadi inkişafında Milli Prioritet kimi qəbul olunan ətraf mühitin qorunması vəzifəsi iki növbəti məqsədin effektiv reallaşdırılmasına xidmət edir: yüksək keyfiyyətli ekoloji mühitin təmin olunması və yaşıl enerji məkanın yaradılması.

Nəticə

Azərbaycanın inkişaf yolunda inamla irəliləməsinin digər bir səbəbi də xalqın dövlətimizin başçısına olan etimadıdır. Daim Prezidentimizə sadiqlik nümayiş etdirən Azərbaycan xalqı ötən il Vətən müharibəsi zamanı daha böyük birlik nümayiş edirərək qələbəmizin qazanılmasına töhfələrini verdilər. Qalib dövlətin qalib xalqı təbii ki, iqtisadi inkişaf yolunda bundan sonra da uğurlara nail olacaq, prezidentimizin rəhbərliyi ilə möhtəşəm proqramların həyata keçirilməsinin şahidi olacağıq və növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafında müəyyən olunmuş beş milli prioritetinin qorunması və reallaşdırılmasına xidmət etmək Azərbaycanda yaşayan hər bir şəxsin vətəndaşlıq vəzifəsidir

Ədəbiyyat siyahısı

1. Azərbaycanın Vergi Jurnalı, Bakı, 1/2013
2. Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı. (2004). Bakı, Azərbaycan Respublikası Qanunları Külliyyatı, № 11, səh. 28
3. www.science.gov.az
4. Алексеев А. В. Приоритеты государственной политики создания инновационной экономики в РФ. – Новосибирск: ИЭОПП СО РАН, 2015. – С. 17.
5. http://banco.az/az/news/iqtisadi-artim-ve-iqtisadi-inkisaf

DAYANIQLI İNKİŞAFIN MALİYYƏ TƏMİNATININ TƏKMİLLƏŞDİRİLMƏSİNDƏ BEYNƏLXALQ TƏCRÜBƏDƏN İSTİFADƏ İMKANLARI

Orman Təminxa oğlu Abdinov
Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi
Dayanıqlı inkişaf məsələləri sektorunun baş məsləhətçisi
Azərbaycan Dövlət İqtisad Universiteti
Daxili fiskal siyasət və dövlət maliyyəsi-doktorant
e-poçt: orman.abdinov@yahoo.com

Xülasə

Məqalədə müxtəlif elm adamları, o cümlədən Dayanıqlı inkişaf məqsədlərinin maliyyyələş-dirilməsində Əddis Əbəbə fəaliyyət planı , həmçinin Biləşmiş Millətlər Təşkilatının Ticarət və inkişaf konfransı, o cümlədən Beynəlxalq Valyuta fondu tərəfindən hazırlanmış hesabatlarda Dayanıqlı inkişafın maliyyələşdirilməsində beynəlxalq təcrübə araşdırılmışdır. Eyni zamanda inkişafın maliyyələşdirilməsində maliyyə vasitəçiliyinin, yaşıl istiqrazların və xarici birbaşa investisiyaların artan rolu barədə müxtəlif elm adamlarının fikirləri tədqiq edilmişdir.

Açar sözlər: Dayanıqlı inkişaf, Əddis-Əbəbə prinsipləri, Millətlər Təşkilatının Ticarət və inkişaf üzrə Konfransı, yaşıl istiqrazlar, maliyyələşmə, xarici birbaşa investisiyalar

Giriş

Dayanıqlı inkişaf konsepsiyasının son illərdə daha yüksək əhəmiyyətə malik olması, onun dünya ölkələri tərəfindən təqdir olunması və həmçinin nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən ona yüksək diqqətin ayrılması bu konsepsiyada nəzərdə tutulan məsələlərin ümumbəşəri xarakter alması ilə əlaqədardır. Məhz bu xarakter dayanıqlı inkişafın mahiyyətinin daha da geniş açılmasına səbəb olmuşdur. Bundan əlavə, onun həyata keçirilməsində Dayanıqlı maliyyələşdirmənin rolunun tədqiq olunması tədqiqatçılar və elmi ictimaiyyət nümayəndələri qarşısında duran vacib məsələlərdəndir. DİM-lərin ölkəmizin uğurla implementasiyasında maliyyənin rolu danılmaz olsa belə, ancaq tədqiqatçılar tərəfindən bu mövzuda az elmi araşdırma aparılmışdır. Qeyd edilən Məqalədə Dayanıqlı inkişafın maliyyələşməsində müxtəlif elm adamlarının tədqiqatları araşdırılmış, habelə nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən bu istiqamətdə hazırlanmış hesabatlar tədqiq olunmuşdur.

Təhlil və qiymətləndirmə

Dayanıqlı maliyyə yeni bir maliyyə paradiqması olaraq inkişaf etməkdə olan bir anlayışdır. Müxtəlif tədqiqatçılar Dayanıqlı maliyyəyə dair tədqiqatlar aparmışlar. Belə ki, Dayanıqlı maliyyəni maliyyə qərarlarının qəbul edilməsində ətraf mühit, sosial və idarəetmə faktorlarını nəzərə alan maliyyə kimi izah etmişdirlər **[4]**.

Dayanıqlı inkişafın maliyyələşdirilməsi istiqamətində nüfuzlu Dünya Bankı və Beynəlxalq Valyuta Fondu tərəfindən aparılmış fundamental tədqiqatlara əsasən "Dünyamızın transformasiyası: 2030 Günədliyi"də əks olunan məqsəd, hədəf və göstəricilərə nail olunmasında inkişafın maliyyələşdirilməsinin genişləndirilməsinin vacibliyi qeyd edilir. Belə ki, Dayanıqlı İnkişafın Maliyyələşdirmə Hesabatında DİM-lərin həyata keçirilməsində maliyyə sahəsində innovasiyalarının təşviq edilməsinin əhəmiyyəti vurğulanmışdır **[1].**

DİM-lərə nail olmaq üçün maliyyələnin olması vacib və ən ümdə məsələlərdəndir. Belə ki, Beynəlxalq Valyuta Fondu tərəfindən aparılmış tədqiqatlara əsasən, dünyada inkişaf etməkdə olan ölkələrin səhiyyə, təhsil, yollar, elektrik, su və kanalizasiya sahələrinə qoyulan investisiyalar üçün orta hesabla hər il üzrə 2,6 trilyon ABŞ dolları məbləğində maliyyə çatışmazlığı ilə üzləşdiyi bildirilmişdir. Aşağı gəlirli inkişaf etməkdə olan ölkələr üçün bu, ümumi daxili məhsulunun (ÜDM) 15% -ni təşkil edə biləcək əlavə illik xərclər deməkdir **[2].**

Eyni zamanda, 2015-ci ildə Efiopiyanın paytaxtı Əddis Əbəbə şəhərində təşkil edilmiş üçüncü "İnkişafın Maliyyələşdirmə"si adlı konfransda müzakirə olunan məsələlərə əsasən inkişafın, o cümlədən dayanıqlı inkişafın maliyyələşdirilməsində ilkin olaraq daxili resursların səfərbər

edilməsinin, eyni zamanda bu istiqamətdə inkişaf etmiş maliyyə bazarlarının rolunun vacibliyi vurğulanmışdır **[3]**.

Dayanıqlı İnkişafın maliyyələşdirilməsi ilə bağlı tövsiyələr Dayanıqlı İnkişaf Məqsədləri gündəliyinin maliyyələşdirilməsində nəzərə alınmışdır. Belə ki, qeyd edilən Hesabatda vergi gəlirlərinin ikiqat artması, qlobal vergi qaydalarının əsaslı şəkildə dəyişdirilməsi, güzəştli inkişaf əməkdaşlığının ikiqat artırılması və maliyyələşmənin ayrılması, həmçinin effektivliyinin artırılması təklif olunur **[6].** Böyük maliyyə mənbəyinə ehtiyacın olması, həmçinin onların icra vəziyyətini ölçmək üçün indikatorların müəyyən edilməməsi DİM-lərə nail olunmasında əsas çətinliklər kimi xarakterizə olunur **[7].**

Dayanıqlı inkişafın maliyyələşdirməsinə nəzər saldıqda qeyd etmək olar ki, bu proses dövlət və özəl sektorun qarşılıqlı fəaliyyəti nəticəsində mümkün ola bilər **[8].** Eyni zamanda tədqiqatçı öz araşdırmasında tələb olunan maliyyə axınlarının miqyasını idarə etmək üçün təsirli siyasətlər və institusional strukturları necə təmin etməli olduğumuzu və ilkin zəruri maliyyələşmənin böyük hissəsinin özəl bazarlardan keçdiyini, bəzilərinin xeyriyyəçilikdən və kommersiya məqsədli olmayan işlərdən qaynaqlanacağını və bir çoxunun dövlət sektorundan alınacağını vurğulamış, lakin onların necə və hansı formada təşkil olunacağı barədə qəti fikir söyləməmişdir.

Qlobal olaraq Kapital bazarına fikir versək belə nəticəyə gəlmək olar ki, Birləşmiş Millətlər Təşkilatının Ticarət və inkişaf üzrə Konfransı (UNCTAD) tərəfindən aparılmış araşdırmaya əsasən, Dayanıqlı İnkişaf Məqsədlərinin maliyyləşdirilməsində dayanıqlılıq üzrə fondlar, yaşıl istiqrazlar, və sosial istiqrazlar əsas yeri tutur. Eyni zamanda qeyd etmək lazımdır ki, dayanıqlı inkişaf üçün vacib olan fondların 90 faizi inkişaf etmiş ölkələrin payına düşür. UNCTAD-ın araşdırmalarına əsasən hal-hazırda dayanıqlı inkişafın maliyyələşdirilməsində 3100 belə fond var ki, bu fondların aktivlərinin qiyməti 900 milyard dollar dəyərində qiymətləndirilir.

2010-2019-cu illər aralığında dayanıqlı inkişafla bağlı ABŞ və Avropada fondların sayı 1304 dən 2708-ə qədər artmış və buda müvafiq olaraq onların aktivlərini 195 milyarddan 813 milyard dollara qədər artırmışdır. İnkişaf etməkdə olan ölkələrdə dayanıqlı inkişaf yeni fenomen kimi qəbul edilir və bu istiqamətdə olan fondların sayı xeyli azdır. Qeyd etmək olar ki, 2019-cu ildə Çin Xalq Respublikasında 95 belə fond varki onlarında ümumi aktivlərinin dəyəri 7 milyard dollar dəyərində qiymətləndirilir. Bu məqsədlə yaradılmış fondların sayı son beş ildə daha da artmışdır. Qeyd etmək olar ki, bu istiqamətdə Brazilya, Sinqapur, Cənubi Afrika Respublikasında son zamanlar bu istiqamətdə fondlar yaradılmışdır.

Dayanıqlı İnkişaf Məqsədlərinin maliyyələşdirilməsi məqsədilə yaradılmış fondlarda əsas məqsəd yoxsulluğun və bərabərsizliyin azaldılması təşkil etsədə, yaşıl və sosial istiqrazlar birbaşa ətraf mühit, təmiz və əlçatan enerjiyə çıxışın təmin edilməsi, o cümlədən innovasiya və infrastrukturun inkişafı üçün əhəmiyyətlidir.

Qlobal olaraq yaşıl istiqrazların həcmi 2019-cu ildə 51 faiz artaraq 260 milyard dollar səviyyəsinə çatmışdır. İlkin olaraq yaşıl istiqrazlardan enerji, tikinti və nəqliyyatın inkişaf etdirilməsi məqsədilə istifadə olunur. Region olaraq nəzər salsaq əgər, yaşıl istiqrazların həcminin sürətlə artmasına görə Asiya və Sakit okean və Avropa ölkələri öndə getsədə, Latın Amerikası, Karib və Afrika ölkələrində zəif inkişaf etmişdir.

Bununla yanaşı, Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinin maliyyələş-dirilməsinin ölçülməsinə dair hesabata nəzər salsaq qeyd edə bilərik ki, dayanıqlı inkişafın maliyyələşdirilməsi əsasən birbaşa xarici investisiyalardan, maliyyə vasitəçilərindən və özəl-dövlət tərəfdaşlığının rolundan asılıdır. Qeyd edilən hesabata əsasən, DİM-lərin maliyyələşdirilməsinin ölçülməsinə dair ilkin olaraq aşağıda qeyd olunan vacib sahələrdə Dayanıqlı İnkişaf Məqsədlərinin maliyyələşməsini ölçmə potensialı olan maliyyə vasitəçiliyi növlərini araşdırırıq. Belə ki, aşağı inkişaf etmiş ölkələrdə maliyyə çıxışın təmin edilməsi və yaxud DİM-lərin həyata keçirilməsi üçün portfel investorların cəlb edilməsi, şirkətlərin, layihələrin və fərdi sahibkarların qlobal kapital bazarlarına çıxışının təmin edilməsi, aşağı dərəcəli investisiyaların təsirini maksimum dərəcədə artırmaq üçün vasitəçilik prosesindən istifadə etmək, məsələn, köməkçi müəssisələrin davamlı təcrübələrini təmin etməklə və ya müəyyən coğrafiyalara, əhaliyə və ya fəaliyyətlərə diqqət yetirməklə buna nail olmaq olar.

Bununla yanaşı, özəl investisiyaların DİM-lər üçün cəlbi məsələsinə gəldikdə isə qeyd etmək olar ki, mövcud kapital axınlarını, əlverişli bir mühitin yaradılmasının rolunu və dövlət-özəl birləşməsinin necə əlaqələndirilməsini nəzərə almaq üçün daha geniş miqyaslı bir baxış lazımdır. Eyni zamanda, korporativ və maliyyə vasitəçilərinin roluna nəzər saldıqda qeyd edə bilərik ki, korporativ və maliyyə vasitəçiliyi institusional investorların risk-gəlir və ölçü məhdudiyyətləri ilə uyğun gəlmədikdə DİM-lərin maliyyələşməsində vacib rol oynaya, həmçinin DİM-lər üzrə investisiyaların həcmi az, riskli və ya qeyri-likvid olduqda vahid körpü rolunu oynaya bilər. Yerli səviyyədə maliyyə vasitəçiliyi qlobal investisiyaların yerli iqtisadi və sosial inkişafa təsirini maksimum dərəcədə artıra bilər, habelə azad iqtisadiyyata xas olan bazarda əlavə pul kütləsinin yaradılmasını sürətləndirə bilər.

Bundan əlavə, Dayanıqlı inkişaf üzrə 2030 Gündəliyində və Əddis Əbəbə prinsiplərində Xarici Birbaşa investisiyaların inkişafın dayanıqlılığında rolunun vacibliyi bildirilir, eyni zamanda qeyd edilən Gündəlik və prinsiplərdə transmilli şirkətlərin aşağı inkişaf etmiş ölkələrdə Dayanıqlı inkişaf Məqsədlərinin icrasında əhəmiyyəti vurğulanmışdır. Məlumat üçün qeyd edək ki, xarici birbaşa investisiyalar investisiyaların növünə görə Real və Maliyyə investisiyalara bölünür.

Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf Konfransının hesablamalarına əsasən, inkişaf etməkdə olan ölkələrdə 2013-2017-ci illər üzrə xarici birbaşa investisiyalar 39%, portfel investisiyalar 17%, banklar tərəfindən verilən istiqrazlar 9% təşkil etmişdir. Bundan fərqli olaraq, aşağı inkişaf etmiş ölkələrdə xarici maliyyələşmənin əsas mənbəyini rəsmi inkişafa yardım və pul köçürmələri təşkil etmişdir. Buna baxmayaraq xarici birbaşa investisiyalar xarici maliyyələşmədə 21%, banklar tərəfindən verilən istiqrazların həcmi isə 14% təşkil etmişdir. İnkişaf etməkdə olan ölkələrdə portfel investisiyalar və banklar tərəfindən verilən istiqrazlarla müqayisədə Xarici birbaşa investisiyalar daha stabil rol oynayır. Bununla yanaşı, inkişaf etməkdə olan bazarlarda əsas maliyyə mənbəyini dövlət tərəfindən verilən istiqrazlar, özəl istiqrazlar, xarici birbaşa investisiyalar, portfel üzrə kapital axını təşkil etmişdir **[8].**

Əgər biz inkişaf etməkdə olan bazarlar və Dayanıqlı inkişaf məqsədləri üzrə analiz etsək, bu zaman Xarici birbaşa investisiyalar bir çox makro- mikro iqtisadi mənfəətlər əldə edilər və bununda nəticəsində iqtisadiyyatda yeni sektorların yaradılması, yeni bazarlara çıxışın təmin edilməsi, yeni iş yerlərinin açılması, texnoloji transferin baş verməsi, məhsuldarlıq səviyyəsinin artması, idarəetmə və idarəçiliyin təkmilləşdirilməsi, kapitalın daha məhsuldar sahələrə yönləndirilməsinə müvəffəq olunar.

Xarici Birbaşa İnvestisiyaların 2030 Gündəliyi və Əddis Əbəbə fəaliyyət planında dəstəyi baxımından milli inkişaf planları ilə uyğunlaşması vacib məsələlərdəndir. Əddis Əbəbə fəaliyyət planının 45-ci paraqarafına əsasən: "*Biz, layihələr milli və regional dayanıqlı inkişaf strategiyaları ilə uyğunluğuna əsasən birbaşa investisiyaların, xüsusi ilə xarici birbaşa investisiyaların vacibliyini qəbul edir. Biz əsas prioritetimiz olaraq məhsuldar işə və layiqli əməyə, o cümlədən dayanıqlı sənaye və məhsuldar kənd təsərrüfatına investisiya yatırılan layihələri dəstəkləyəcəyik*".

DİM-lərin uğurla icrasında inkişafın maliyyələşdirilməsində bankların və digər maliyyə institutlarının rolu vacibdir. Belə ki, buna aşağıda qeyd olunanlara əsasən nail olmaq olar:

İpoteka, istiqraz və digər maliyyə vəsaitlərinin cəlb edilməsi;

Dayanıqlı inkişaf məqsədli məhsul və həllərin (enerji səmərəliliyi və bərpaolunan enerji) maliyyələşdirilməsində istiqrazların vacibliyi;

Dairəvi iqtisadiyyatı inkişaf etdirmək üçün lizinqlərin rolu.

Birləşmiş Krallığın Beynəlxalq İnkişaf Departamenin araşdırmalarına əsasən, maliyyəyə çıxışın olması yoxsulluğun azaldılmasına təsir etməklə bərabər eyni zamanda, investisiya və məhsuldarlığın artırılması və risklərin idarəedilməsi nəticəsində iqtisadi şoklara qarşı dayanıqlılığın artması iqtisadi inkişafın da artmasına səbəb olur **[9].** Əgər biz ətraf mühitin qorunması tərəfindən məsələyə yanaşsaq qeyd edə bilərik ki, özəl istiqrazlar və banklar tərəfindən verilən kreditlər üzrə imkanlar təmiz enerjiyə və ya digər ekoloji cəhətdən sağlam tətbiqlərə keçən həm siyahıda olan, həm də siyahıda olmayan şirkətlər üçün vacibdir. 2018-ci ildə yaşıl istiqrazlar dayanıqlı maliyyədə yüksək sürətlə irəliləyən sahə olmuşdur. Belə ki, ümumi bazar dəyəri 2017-ci ildə 3.1 milyard

dollardan 2018-ci ildə 5.1 milyard dollar səviyyəsinə (xüsusilə daşınmaz əmlak üzrə 32%, enerji 24%.) çatmışdır **[9].**

Dayanıqlı inkişafın maliyyələşməsində vacib alətlərdən biri də Sindikatların yaradılmasıdır. Maliyyə vasitəçiliyinin əsas fiqurlarından biri olan Sindikatlar vasitəsilə riskləri diversifikasiya etmək və institusional investorları cəlb etmək mümkündür. Dayanıqlı inkişaf Məqsədlərinin maliyyələşdirməsi baxımından Sindikatlar kommersiya bankları və ya institusional investorlar üçün çox kiçik və ya çox riskli investisiyaların miqdarını artırmaq və maliyyələşdirmə xərclərini azaltmaq üçün istifadə edilə bilər **[10].**

Nəticə

Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində səmərəliliyin əldə edilməsi, davamlı maliyyələşdirmə meyarlarına cavab vermək baxımından bir-birindən asılı olan dövlət və bazar maliyyə sistemlərinə əsaslanan təsirli və inteqrasiya olunmuş maliyyə modelinin vacibliyini tələb edir. Bu səbəbdən hökumətlər dayanıqlılıq üçün dövlət və bazar maliyyə sistemləri arasında paralel inkişaf və əməkdaşlığı təmin etməlidirlər. Eyni zamanda UNCTAD-ın Davamlı İnkişaf üçün İnvestisiya Siyasəti Çərçivəsi Sənədində əsasən, özəl sektor vasitəsilə investisiyalarının artırılması, davamlı maliyyə alətlərindən istifadə, COVID-19 pandemiyasının maliyyələşdirilməsindən istifadə və daha yaxşı ətraf mühit, sosial və idarəçilik standartlarının təşviqi inkişafın maliyyələşdirilməsində vacibdir. Yuxarıda qeyd olunanlara əsasən adıçəkilən məqalədən aşağıdakı nəticələrə gəlmək mümkündür;

- Maliyyələşdirmənin DİM-lərə görünən təsiri səbəbindən hökumətlər maliyyə sistemində bunu idarə etmək üçün kəsərli mikro və makro-prudensial həllər tətbiq etməlidir;
- Maliyyə siyasətinin və davamlı inkişaf siyasətinin inteqrasiyası hökumətlər üçün prioritet olmalıdır; maliyyə siyasətinin və reallığın inteqrasiyasını təmin etmək üçün bu siyasətlərin ümumi monitorinq göstəriciləri və ümumi məqsədləri olmalıdır;
- Hökumətlər ictimaiyyətin və bazar maliyyə sisteminin DİM-lərə nail olunmasının icrasına nəzarət sistemi tətbiq etməlidir;
- DİM-lərin həyata keçirilməsi ilə əlaqəli investisiyalar və fəalliyyətlər haqqında keyfiyyətli və etibarlı məlumatlar investisiya və inklüziv iş təcrübələri ilə bağlı araşdırmalar üçün çox vacibdir. Mövcud məlumatların düzgünlüyü, mənbədən və hesabat verən təşkilatın bu məlumatı təmin etmək qabiliyyətindən asılı olaraq dəyişir. Bu səbəbdən müəssisələrin dərc edilmiş məlumatların etibarlılığını təmin etmək üçün daxili və xarici mənbələrin düzgünlüyündən istifadə etməsi vacibdir

Ədəbiyyat siyahısı

1. https://journals.vgtu.lt/index.php/TEDE/article/view/13863

2. United Nations. (2019). More money needed to implement Sustainable Development Goals, Secretary General tells ECOSOC Financing for Development Forum, calling 2019 “Defining Year”. Secretary General. Statements and Messages. SG/SM/19546-ECOSOC/6973-DEV/3397. Retrieved April 15, 2019, from https://www.un.org/press/en/2019/sgsm19546.doc.htm

3. Long, C., & Miller, M. (2017). Taxation and the Sustainable Development Goals. Do good things come to those who tax more? Shaping policy for development. ODE Briefing note.

4. Schoenmaker, D. (2017). Investing for the common good: A sustainable finance framework. Bruegel essay and lecture series. https://bruegel.org/wp content/uploads/2017/07/From-traditional-to-sustainable-finance_ONLINE.pdf

5. Development Finance International, & Oxfam. (2015). Financing the sustainable development goals: Lessons from government spending on the MDGs (report). Government Spending Watch. Retrieved June 5, 2020, from www.governmentspendingwatch.org

6. Kumar, S., Kumar, N., & Vivekadhish, S. (2016). Millennium Development Goals (MDGs) to Sustainable Development Goals (SDGs): Addressing unfinished agenda and strengthening sustainable development and partnership. Indian Journal of Community Medicine, 41(1), 1–4. https://doi.org/10.4103/0970-0218.170955

7. Sachs, J. D. (2015). Goal-based development and the SDGs: Implications for development finance. Oxford Review of Economic Policy, 31(3–4), 268–278. https://doi.org/10.1093/oxrep/grv031
8. UNCTAD. 2015. Investment policy framework for sustainable development. New York and Geneva: United Nations
9. The Importance of Financial Sector Development for Growth and Poverty Reduction. 2004. DFID(9)
10. United Nations Global Compact: Scaling finance for the sustainable development goals 2019

The Opportunities To Use İnternational Experience İn İmproving The Financing Of Sustainable Development

Orman Taminkha oglu Abdinov
Minisitry of Economy of the Republic of Azerbaijan
Sustainable Development Issue Division-chief advisor
Azerbaijan State Economiv University
Internal fiscal policy and public finance-phd
e-mail: orman.abdinov@yahoo.com

Summary

The mentioned article examines international experience in financing sustainable development in reports which were prepared by various scholars, including the Addis Ababa Action Plan for Financing Sustainable Development Goals, the United Nations Conference on Trade and Development, and the International Monetary Fund. At the same time, the views of various scholars on the growing role of financial intermediation, green bonds and foreign direct investment in financing development have been explored.

Key words: Sustainable development, financing, Addis-Ababa action plans, United Nations Conference on Trade and Development (UNCTAD), green bonds, foreign direct investments

MÜƏSSİSƏNİN DAYANIQLI İNKİŞAFININ MAHİYYƏTİ VƏ ONA TƏSİR GÖSTƏRƏN AMİLLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

Hüseynzadə Gülşən Qalib qızı
Sumqayıt Dövlət Universiteti
gulsen396@mail.ru

Xülasə

Tezisdə müəssisənin dayanıqlı inkişafının mahiyyəti açıqlanır, müəssisənin iqtisadi dayanıqlığı üçün qısamüddətli və orta müddətli meyarlar üzərində dayanılır. Burada dayanıqlı inkişaf sistemlərində sənaye müəssisələrinin fəaliyyətinin qiymətləndirilməsi üçün bir qrup göstəricilər sərf-nəzər edilir. Bir sıra tədqiqatçıların müəssisəyə təsir edən xarici və daxili amillər dairəsi barədə fikir və tövsiyələrinə yer verilir.

Müasir qloballaşma şəraitində müəssisənin səmərəliliyi, davamlı təsiri zaman keçdikcə qeyri-bərabər və ya dövri olaraq fərqli güc və qeyri-bərabər təzahürlə davam edən mühitin təsirindən asılıdır. Müəssisədən daim hazır olması və bu təzahürlərə adekvat cavab verməsi tələb olunur. Xarici mühitə uyğunlaşmamaq iflas və iş itkisinə səbəb ola bilər.

İqtisadi nəzəriyyədə yeni elmi terminlər meydana çıxmışdır - müəssisənin iqtisadi dayanıqlığı, müəssisənin iqtisadi sabitliyi.

Öz mahiyyətinə əsasən müəssisənin dayanıqlı inkişafı məqbul bir taktiki sabitlik ilə strateji sabitliyi təmin etməlidir. Eyni zamanda şirkətin fəaliyyətinin müxtəlif parametrləri müəyyən dərəcədə bir-birinə zidd ola bilər və bir-biri ilə ziddiyyət təşkil edə bilər. Fəaliyyətin gəlirliliyi və satışların artım sürəti, öz kapitalının gəlirliliyi və ödəmə qabiliyyəti, istehsal sahələrinin köhnəlməsi

və borc götürülmüş maliyyələşmə mənbələrindən asılılıq və bir çox digər parametrlər ziddiyyət təşkil edə bilər. Nəticədə, verilən qərarlar müxtəlif parametrlər arasında kompromis axtarışı ilə əlaqələndiriləcəkdir. Müəssisənin inkişafının dayanıqlığı üçün vacib meyar, adətən, fəaliyyətin əsasən özünümaliyyələşdirmə və satış həcmlərinin artım sürətini təmin etməyə imkan verən bir miqdarda öz dövriyyə kapitalının formalaşması əsasında həyata keçirilməsi üçün kifayət qədər optimal mənfəətin təmin edilməsi hesab olunur. [1, səh. 73].

İlk dəfə 1973 və 1979-cu illərdəki qlobal enerji böhranlarının nəticəsi olan məhdud resurslar probleminin nəzərdən keçirilməsi ilə əlaqədar olaraq "iqtisadi dayanıqlıq" termini meydana çıxdı. Mövcud olduğu dövrdə iqtisadi düşüncənin bu istiqaməti ayrı bir intizama çevrilir ki, bu da "ekosestat" (dövlətin iqtisadi təhlükəsizliyi) adlanır, yəni dövlətin iqtisadi sabitliyi deməkdir. Sonuncusu, struktur elementlərinin (ərazilər, sənaye, müəssisələr) iqtisadi sabitliyi ilə əldə edilə bilər. Bu məsələlərlə məşğul olan alimlər arasında sözügedən kateqoriyanın tərifi ilə bağlı hələ bir fikir birliyi yoxdur.

Beləliklə, iqtisadi dayanıqlığın mahiyyətini təhlil edərək aşağıdakı tərif formalaşdırıla bilər: iqtisadi dayanıqlıq sabit dayanıqlığı və həyat qabiliyyətini təmin edən iqtisadi mənbələrin və onların potensialının tarazlaşdırılmış vəziyyətidir və ən vacib xarici və daxili amilləri nəzərə almaqla uzunmüddətli perspektivdə genişlənmiş təkrar istehsal üçün normal şəraitdir. Bazar münasibətləri şəraitində müəssisələrin işinin sabitliyi makro mühitin məlum amillərindən asılıdır. Bunlara iqtisadi inkişafın dövri xarakteri, cəmiyyətin iqtisadi proseslərinə dövlətin müdaxiləsinin xüsusiyyətləri və şərtləri, sektor aspektləri, qlobal rəqabət və s. daxildir. [2, səh. 180].

Yerli və xarici ədəbiyyatda müəssisənin iqtisadi dayanıqlığını təyin edən müxtəlif amillər verilir. Məsələn, bu müəssisənin rəqabət üstünlüyünün həyat dövrü mərhələləri nəzərə alınmaqla bir müəssisənin iflasına səbəb olan amillərin təsnifatı.

1. Yaranma mərhələsi: şirkətin missiyasının və istehsal profilini düzgün təyin etməməsi; aşağı sahibkarlıq qabiliyyəti; idarəetmə işçilərinin aşağı ixtisası; qeyri-adekvat marketinq; borc kapitalının yüksək payı; icraçıların aşağı ixtisası; transaksiya xərclərinin uyğunsuzluğu.

2. Artımın sürətlənmə mərhələsi: borc kapitalının yüksək payı; transaksiya xərclərinin uyğunsuzluğu.

3 . Yetkinlik mərhələsi: dövriyyə kapitalının yüksək dərəcəsi; idarəetmə işçilərinin yaşlanması və çeviklik itkisi; əsas fondların köhnəlməsi; qeyri-adekvat marketinq; transaksiya xərclərinin uyğunsuzluğu.

4. Artımın yavaşıma mərhələsi: dövriyyə kapitalının yüksək dərəcədə ölməsi; idarəetmədə çeviklik itkisi; qeyri-adekvat marketinq; transaksiya xərclərinin uyğunsuzluğu.

5. Eniş mərhələsi: əsas fondların köhnəlməsi; borc kapitalının yüksək payı; qeyri-adekvat marketinq; transaksiya xərclərinin uyğunsuzluğu.

Müəssisələrin iqtisadi dayanıqlığının onun həyati fəaliyyətinin bir sıra amillərinin əlaqəsi və qarşılıqlı əlaqəsinə əsaslanan sistemli bir yanaşma nöqteyi-nəzərindən qiymətləndirilməsi təklif olunur: ictimai-istehsal, hüquqi, sosial-mədəni, sosial, ixtisas, yönümlü, maliyyə və iqtisadi, ticari, həm də istiqamətin regional aspektini əks etdirən iqtisadi və ətraf mühit, tarixi və mədəni və iqtisadi-coğrafi.

Müəssisənin ictimai istehsal istiqamətində dayanıqlığını qiymətləndirərərkən onun iqtisadi sabitliyini təmin etmək üçün lazım olan mövcud amilləri təhlil etmək tövsiyə olunur: əsas fondların mövcudluğu və strukturu, onların gücü və faktiki artım səviyyəsi. Bu əsasda, xidmət keyfiyyətinin yaxşılaşdırılması, xidmətin maya dəyərinin azaldılması, gəlirin artırılması imkanları barədə təklif verilə bilər ki, bu da əsas fondların yaxşılaşdırılmasından asılıdır.

Fikrimizcə, sistem təhlili prinsiplərindən istifadə bir müəssisənin iqtisadi sabitliyini fəaliyyətinin effektivliyini xarakterizə edən bir sıra göstəricilər və xüsusiyyətlər kimi təqdim etməyə imkan verir. Buna, müəssisənin səmərəliliyi sistemini əks etdirən zaman meyarlarına görə formalaşan, müəssisənin iqtisadi sabitlik səviyyəsini xarakterizə edən ümumiləşdirici göstəricilər və istiqamətlər sisteminə əsaslanan ekspert qiymətləndirmə metodundan istifadə etməklə nail olmaq olar.

Müəssisənin iqtisadi dayanıqlığı üçün qısamüddətli meyarlar:

1. Məhsuldarlıq müəssisənin xarici mühitin tələblərinə uyğun olaraq göstərdiyi xidmətlərin tələb olunan miqdarını və keyfiyyətini təmin etmək qabiliyyətini göstərir. Müəssisənin müştərilər və müştərilərlə əlaqəli fəaliyyətinin nəticələrini müəyyən edən mənfəət, satış həcmi, bazar payı, potensial istifadə göstəriciləri ilə xarakterizə olunur.

2. Keyfiyyət göstərilən xidmətlər kompleksinin təmin edilməsində alıcıların və müştərilərin ehtiyaclarını ödəmək deməkdir.

3. Səmərəlilik bölgə iqtisadiyyatı qurumlarının iqtisadi dayanıqlığının qiymətləndirilməsinə təsir göstərən "nəticələrin" xarici amillərə və amillərə nisbətidir.

4. Müəssisənin istehlakçıların ehtiyaclarına uyğun olaraq yenilikçi məhsulların buraxılması üçün bir fəaliyyət növündən digərinə mənbələri yenidən bölüşdürmə qabiliyyəti deməkdir.

Çeviklik göstəriciləri çevik istehsal texnologiyasının yaradılmasına və bu cür texnologiyadan istifadə edə biləcək mütəxəssislərin hazırlanmasına əsaslanır. Çevikliyin üç cəhəti müəssisənin dayanıqlığına təsir edir: birincisi, xarici mühitdəki dəyişikliklərə cavab vermək bacarığı (alıcılar, rəqiblər, idarəetmə orqanları); ikincisi, işçilərin təşkilatdakı dəyişikliklərə cavab vermə qabiliyyəti; üçüncüsü, müəssisənin bu cür dəyişiklikləri nəzərə alaraq planlaşdırma, təşkilatlanma, istiqamətləndirmə və nəzarətdə metodlarını və siyasətlərini uyğunlaşdırma qabiliyyəti.

5. Məmnunluq müəssisə işçilərinin işdə özlərini necə rahat hiss etdiklərini və kollektivdəki rollarından məmnun olduqlarını göstərir. Məmnunluq göstəriciləri alıcı və müştərilərin əldə etdikləri ilə yanaşı müəssisənin işçiləri tərəfindən əldə edilən faydanın nəzərdə keçirildiyi şəraitdə müəssisəni sosial sistem kimi təmsil edir ki, onlara da təyin olunmuş iş üzrə işçilərin münasibətləri, kadr dəyişikliyi, işdən kənar qalma, gecikmə və şikayətlər daxildir.

Müəssisənin iqtisadi dayanıqlığı üçün orta müddətli meyarlar qısamüddətli meyarlarla müqayisədə daha uzun horizontu əks etdirirlər.

1. Rəqabətlilik müəssisənin bazar vəziyyətindəki və bölgədəki mövqeyini xarakterizə edir. Göstəricinin mahiyyəti alıcılar və müştərilər üçün mübarizə aparmaq vaxtı gəldikdə müəssisədə rəqabətin nə qədər ciddi qəbul edilməsidir. Rəqabətlilik ölçüsü istehsal, keyfiyyət və elastiklik baxımından əks olunur və müəssisənin məhsulunun alıcılarının tələb etdiyi şeyi istehsal edə biləcəyinə əsaslanır.

2. Təşkilatın zamanla effektivliyini göstərən inkişaf, xarici mühitin gələcək tələbatını ödəyəcək şəkildə investisiya qoymaqdan ibarətdir. Bu istiqamətdəki göstəricilər, tək bir məhsulun sərbəst buraxılması, təlim və yenidən hazırlama proqramının yaradılması və idarəetmə heyəti üçün hazırlıq ilə əlaqəli rəqabətli uğursuzluqlardan qorunma tədbiri kimi istehsal imkanlarının genişləndirilməsinə resursların qoyulması və müəssisənin xarici mühitdəki dəyişikliklərə cavab verməyə kömək etməsi ilə xarakterizə olunur. Rəqabətlilik bir müəssisənin seçdiyi bazarda öz mövqeyini qorumaq qabiliyyəti deməkdirsə, inkişaf dəyişikliklər baş verərsə cavab verməyə imkan verən proaktiv strategiyalar deməkdir.

Dayanıqlı inkişaf sistemlərində sənaye müəssisələrinin fəaliyyətinin qiymətləndirilməsi qaydalara salınır və aşağıdakı göstəricilər qrupunun ayrılmaz qiymətləndirməsini özündə əks etdirir:

a) bazarda korporativ rəqabət qabiliyyətindəki dəyişikliklər;

b) biznesin operativ idarə edilməsi sisteminin inkişafı;

c) sənaye və iqtisadi inkişaf;

d) müəssisənin dayanıqlı inkişafı üçün maliyyə və iqtisadi dəstək səviyyəsi. [3, səh. 92].

Təşkilatın fəaliyyəti bir-biri ilə sıx əlaqəli proseslər və amillər kompleksidir. Şirkətin dayanıqlı inkişafı birbaşa şirkətin fəaliyyətinə təsir göstərən xarici və daxili amillərin keyfiyyət təhlilindən asılıdır. Xarici mühiti daim izləyərkən şirkətlərin əsas fəaliyyət göstəricilərini proqnozlaşdırmaq lazımdır. Şirkətin dayanıqlı inkişafına təsir göstərən daxili amillər təşkilatın fəaliyyətinə daimi və birbaşa təsir göstərir və bu səbəbdən onlara xüsusi diqqət yetirilməlidir. Təşkilatın xarici faktorları müəssisəyə birbaşa, həm də dolayı təsir göstərir. Bu o demək deyil ki, onlara daha az diqqət yetirmək lazımdır.

Nəticə

Tədqiqat zamanı şirkətin dayanıqlı inkişafına təsir göstərən amillərin təhlili zamanı məlum olub ki, dayanıqlıq bir sıra amillərin birbaşa və ya dolayı təsiri altında formalaşır. Tədqiqatçılar

müəssisələri öz səylərini təşkilata təsir edən xarici və daxili amillərlə işləməyə yönəltməyi tövsiyə edirlər. Xüsusilə, idarəetmə strukturunun düzgün qurulması kimi cəhətlərə xüsusi diqqət yetirmək lazımdır. Müəssisə həm də peşəkar sahədəki kadrların inkişafına diqqət yetirməlidir, şirkətin korporativ mədəniyyəti üzərində davamlı iş müəssisədaxili sosial və psixoloji vəziyyətin qorunmasına kömək edəcəkdir. Həmçinin şirkətin ekoloji siyasəti üzərində işləmək tövsiyə olunur, inflyasiya şəraitində təşkilatın fəaliyyətinin qiymətləndirilməsinin real göstəricilər üzrə aparılmasına diqqət yetirmək məqsədəuyğundur. İnvestisiya strategiyası müəssisənin uzunmüddətli hədəflərinə yönəldilməli, lakin onun mövcud iqtisadi fəaliyyətlər kontekstində həyata keçirilməsinə xüsusi diqqət yetirmək lazımdır. Daimi monitorinq və xarici və daxili amillərlə işləmək müəssisənin dayanıqlı inkişafına nail olmağa gətirib çıxarır.

Ədəbiyyat siyahısı

1. Стрелкова, Л.В. Управление устойчивым развитием промышленных предприятий в современных условиях (на примере ОАО "АВТОВАЗ") / Л.В. Стрелкова, Д.И. Тарасов // Вестник Нижегородского университета им. Н.И. Лобачевского. Серия: Социальные науки. – 2015. – № 1(37).

2. Ильясова, М.К. Экономическая сущность, факторы и критерии устойчивого развития предприятия / М.К. Ильясова // Современный менеджмент и управление: тенденции и перспективы развития : Сборник научных трудов / Под общей редакцией М.Н. Стефаненко. – Симферополь : Индивидуальный предприниматель Хотеева Л.В., 2020.

3. Коновалова, М.В. Современная концепция устойчивого развития предприятия / М.В. Коновалова // Modern Science. – 2020. – № 12-1.

DÖVLƏTİN STRUKTUR SİYASƏTİNİN MİLLİ İQTİSADİYYATIN DAVAMLI İNKİŞAFINDA ROLUNUN QİYMƏTLƏNDİRİLMƏSİ

Həmidova Almaz Məmmədağa qızı, i.f.d., baş müəllim
Sumqayıt Dövlət Universiteti
almashamidova@mail.ru

Xülasə: *Məqalədə struktur siyasətinin işlənib hazırlanmasının məqsəd və vəzifələri açıqlanmışdır. Struktur siyasəti hazırlanarkən nəzərə alınmalı olan əsas amillər müəyyən edilmişdir. Struktur siyasətinin əsas vasitələri kimi makroiqtisadi, resurs, informasiya institusional vasitələri tədqiq edilmişdir. Strateji planlaşdırma çərçivəsində struktur siyasətinin formalaşdırılması prosesinin əsas mərhələləri tədqiq edilmişdir. Struktur dəyişikliyi üçün modelin seçilməsi əsaslandırılmış, dünyanın bir sıra aparıcı ölkərərinin iqtisadiyyatlarında özünü təsdiqləyən üç əsas modelə baxılmışdır. Milli iqtisadiyyatın struktur şaxələndirilməsi çərçivəsində dövlətin struktur siyasətinin formalaşdırılması mərhələləri təklif edilmişdir.*

Dünya iqtisadi proseslərinin qloballaşması, elmi-texniki tərəqqinin sürətlənməsi, müasir informasiya texnologiyaların istifadəsi həm bütövlükdə milli iqtisadiyyatın, həm də sahələrin strukturunda köklü dəyişikliklər tələb edir. İqtisadiyyatda struktur dəyişikliklərinin həyata keçirilməsi uzunmüddətli bir vəzifədir. Strukturun aktiv və dinamik təkmilləşdirilməsi olmadan iqtisadiyyatın və sosial sahənin davamlı inkişafını təmin etmək mümkün deyil. Bütün binlar dövlətin aktiv struktur siyasətinin həyata keçirilməsi problemini aaktuallaşdırır.

Beynəlxalq iqtisadi münasibətlərin qloballaşması şəraitində dünya iqtisadiyyatının innovativ inkişaf modelinə yönəldilməsi, texnologiya nəsillərinin, istehlakçı standartları və üstünlüklərinin yüksək nisbətdə əvəzlənməsi ilə vahid açıq dünya bazarı formalaşır. Eyni zamanda ayrı-ayrı ölkələrin milli və regional bazarları qlobal dünya bazarının seqmentlərinə çevrilməkdədir. Bu qlobal bazarda sərt rəqabət mövcuddur. Hər bir ölkə kimi hər bir region ənənəvi bazarları qorumaq və yeni bazarları fəth etmək üçün rəqabət qabiliyyətini təmin etməli və daim qorumalıdırlar. Buna görə də ölkədə və regionlarda aparılan islahatların ən vacib strateji vəzifəsi sosial-iqtisadi sistemin

dəyişdirilməsi, iqtisadiyyatın struktur cəhətdən modernləşdirilməsi, yüksək inkişaf templərinin və iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin təmin edilməsidir. Bazar iqtisadiyyatının formalaşması və inkişafı qloballaşma və açıq dünya bazarı şəraitində obyektiv bir zərurətə çevrilir. Texnoloji dövrlərin sürətlə dəyişməsi, həyatın bütün sahələrində intensiv innovasiya prosesləri, ölkənin və onun regionlarının dünya iqtisadi məkanına inteqrasiyası yalnız yüksək inkişaf etmiş və rəqabətli bazar iqtisadiyyatı şəraitində mümkündür. Buna görə ölkədə və regionlarda həyata keçirilən islahatların ən vacib strateji vəzifəsi sosial-iqtisadi sistemin transformasiyası, iqtisadiyyatın struktur modernləşdirilməsi, yüksək inkişaf templərini və iqtisadiyyatın rəqabət qabiliyyətini təmin etməkdir [2, s. 17].

Bu vəziyyətdə milli iqtisadiyyatda aşağıdakı istiqamətlərdə struktur siyasətinin təkmilləşdirilməsi aparılmalıdır:

1. Ölkənin əsas rəqabət üstünlüklərinin aşkarlanması və milli iqtisadiyyatın inkişafı və struktur modernləşdirilməsi üçün effektiv mexanizmlərin müəyyənləşdirilməsi.

2. Milli iqtisadiyyatının bütün sahələrinin modernləşdirilməsinin konkret istiqamətlərinin və mərhələlərinin müəyyənləşdirilməsi.

3. Ölkənin və onun regionlarının iqtisadi məkanının modernləşdirilməsi baxımından struktur dəyişikliklərinin optimal vektorunun və bu dəyişikliklərin həyata keçirilməsinə təsir göstərə biləcək amillərin müəyyənləşdirilməsi.

4. Milli iqtisadiyyatın struktur siyasətinin mərhələli həyata keçirilməsi üçün uzunmüddətli startegiya və dövlət proqramlarının hazırlanması.

5. Milli iqtisadiyyatının əsas sahələrinin inkişafı və modernləşdirilməsinə dair hazırlanmış strategiya və dövlət proqramlarının, həmçinin, iqtisadiyyatın modernləşməsini təmin edən istənilən struktur dəyişikliklərinin həyata keçirilməsi üçün müvafiq təsirli mexanizmlərin hazırlanması və onlardan istifadə edilməsi.

Milli iqtisadiyyatın davamlı inkişafı üçün obyektiv zəruri şərt onun struktur elementləri arasında ardıcıllığı təmin etməkdir. Milli iqtisadiyyatın strukturu çox vaxt iqtisadi artımın sürətinə və keyfiyyətinə, cəmiyyətin resurs potensialından istifadə və inkişaf səviyyəsinə, ölkə əhalisinin tələbatını kəmiyyət və keyfiyyət baxımından təmin etmək dərəcəsində ifadə olunan sosial istehsalın səmərəliliyinə həlledici təsir göstərir.

Məlumdur ki, struktur siyasət iqtisadiyyatın tipini dəyişdirməyə, mütərəqqi fəaliyyət sahələrinə yönəlmiş dövlət siyasətidir. Struktur siyasətinin əsas məqsədi qısa, orta və uzunmüddətli perspektivdə cəmiyyət üçün mövcud olan resurslardan səmərəli istifadəyə və rəqabət üstünlüklərinə nail olmaqdır. Həmçinin, ölkə iqtisadiyyatının balanslı və davamlı inkişafına, elmi-texniki tərəqqinin qabaqcıl nailiyyətlərinin tətbiqi əsasında istehsalın texniki modernləşdirilməsinə nail olmaq, əhalinin sosial müdafiəsini və onun artımını təmin etməkdir. Qeyd edək ki, dövlətin struktur siyasətinin məqsədləri milli iqtisadi təhlükəsizliyin iqtisadiyyatın davamlı inkişafını təmin etmək, daxili və xarici mənfi amillər və təhdidlərin mövcudluğundan asılı olmayaraq cəmiyyətin sosial-iqtisadi sabitliyini təmin etmək kimi məqsədləri ilə sıx bağlıdır [3].

Struktur siyasəti hazırlanarkən aşağıdakılar nəzərə alınmalıdır:

- milli iqtisadiyyat üçün əhəmiyyətli iqtisadi artım təmin edə bilən regional bazarların vəziyyəti;
- iqtisadi artıma imkan verən sahə strukturlarının formalaşması;
- resursların aşkarlanması, səfərbər edilməsi və məqsədyönlü istifadəsi;
- milli iqtisadiyyatın struktur modernləşdirilməsi prosesinin iştirakçıları üçün iqtisadi stimullaşdırma sisteminin inkişafı;
- maliyyə axınlarının şəffaflığının təmin edilməsi və effektiv nəzarətin həyata keçirilməsi.

Bir çox onilliklər ərzində bazar iqtisadiyyatının dövlət tənzimlənməsi nəzəriyyəsi və təcrübəsi seçilmiş struktur siyasətini həyata keçirməyə imkan verən iqtisadiyyatdakı nisbətlərə dövlət təsirinin genişləndirilmiş mexanizmini inkişaf etdirmişdir. Bu mexanizmin bir hissəsi olaraq birbaşa və dolayı təsir vasitələrini ayırmaq olar. Dövlətin struktur siyasətinin həyata keçirilməsində ən vacib vasitə onun yaradılmasına birbaşa investisiya qoyulmasıdır.

Struktur siyasətinin əsas vasitələrinə aşağıdakı cədvəl vasitəsilə baxa bilərik:

Cədvəl. Struktur siyasətinin əsas vasitələri

Struktur siyasətinin vasitələri	**Vasitələrin mahiyyəti**
Makroiqtisadi vasitələr	- istehsalın inkişafı üçün əlverişli ümumi iqtisadi mühit yaratmaq; - maliyyə sabitliyini qorumaq və inflyasiyanın inkişafının qarşısını almaq; - büdcə kəsirini aradan qaldırmaq; - milli valyutanın sabit məzənnəsini saxlamaq.
İnformasiya vasitələri	- istehsal fəaliyyətlərində qərar qəbul etmək və riskləri minimuma endirmək üçün iqtisadi agentlərə sosial-iqtisadi mühit barədə etibarlı məlumat vermək.
Resurs vasitələri	- bazar subyektlərini inkişaf üçün reproduktiv mənbələrlə təmin etmək.
İnstitusional vasitələr	- rəqabətqabiliyyətli bir iş aparmaq üçün hüquqi, təşkilati və iqtisadi mühit formalaşdırmaq; - iqtisadi qaydanı təmin etmək.

Makroiqtisadi vasitələr kimi maliyyə siyasəti, büdcə siyasəti, investisiya siyasəti, ÜDM-in artım tempi, demoqrafiya siyasəti və s. çıxış edir. Resurs vasitələri kimi əmək, xammal ehtiyatları, iş qüvvəsinin keyfiyyəti və s. çıxış edir. İnstitusional vasitələr kimi ölkənin qanunvericilik bazası, rəqabət mühiti, məqsədlər, inzibati məhdudiyyətləri göstərmək olar.

Fəal struktur siyasətinin həyata keçirilməsində təsirli vasitə məhsulların dövlət ehtiyacları üçün alınmasıdır. Bəzi məhsul və xidmətlər üçün dövlət sifarişlərinin məqsədyönlü şəkildə yerləşdirilməsi nəinki cəmiyyətin onlar üçün ehtiyaclarını ödəməyə və bununla da balanssızlıqların yaranmasının qarşısını almağa imkan verir, həm də müəssisələr arasında yeni iqtisadi əlaqələrin qurulmasına təsir göstərir. Bu da öz növbəsində böyük sənaye komplekslərinin və texnoloji innovasiyaların, klasterlərin meydana gəlməsinə səbəb ola bilər. Klasterlərin meydana çıxması iqtisadiyyatın yeni sahələrinin yaranmasına səbəb olur [5]. Qeyd edək ki, ölkədə struktur modernləşdirilməsi ayrı-ayrı sahələrin inkişafındakı tarazlığın aradan qaldırılması və iqtisadiyyatın sahə quruluşunun tədricən klaster quruluşuna çevrilməsi istiqamətində aparılmalıdır. İstehsal və xidmət təşkilatları kimi klasterlərin inkişafı həm region, həm də ölkə iqtisadiyyatının davamlı artımını təmin edə bilər.

Uzunmüddətli milli maraqları nəzərə alaraq struktur dəyişiklikləri strateji planlaşdırılması prosesində məqsədyönlü şəkildə aparılmalıdır. Strateji planlaşdırma çərçivəsində struktur siyasətinin formalaşdırılması prosesi müəyyən ardıcıllıqla, mərhələlərlə həyata keçirilir:

- istiqamətin təyin edilməsi;
- amillərin təhlili;
- strateji alternativlərin formalaşdırılması;
- prioritetlərin seçilməsinin əsaslandırılması;
- prioritetlərin təyin edilməsi;
- məqbul bir strategiyanın seçilməsi;
- strategiyanın həyata keçirilməsinin metod və vasitələrinin müəyyənləşdirilməsi;
- tədbirlər proqramının hazırlanması;
- tədbirlərin həyata keçirilməsi üçün idarəetmə sisteminin formalaşdırılması;
- proqram fəaliyyətlərinin həyata keçirilməsi mexanizminin formalaşdırılması;
- strategiyaların və tədbirlər proqramının tənzimlənməsi prosedurlarının işlənib hazırlanması;
- dövlət strukturları və hökumət orqanları üçün konkret tədbirlər planının hazırlanması;
- tədbirlərin və əldə edilmiş nəticələrin həyata keçirilməsi üçün monitorinq sisteminin formalaşdırılması.

İdarəetmə vasitələrinin iqtisadiyyatın strukturuna təsiri problemi iqtisadi siyasətin planlaşdırılmasında əsas yer tutmalıdır. Struktur siyasətinin müəyyənləşdirilməsində iqtisadiyyatın uzunmüddətli quruluşu və ixtisaslaşmasının əsaslandırılmasına xüsusi əhəmiyyət verilir. Bu vəziyyətdə təbii ki, ilkin amillər təbii, istehsal, əmək, innovasiya, maliyyə və digər mənbələrdən istifadənin real

qiymətləndirilməsi və səmərəliliyidir. Struktur siyasətini hazırlayarkən və həyata keçirərkən regionun resurslarını, uzunmüddətli hədəfləri və mövcud və perspektivli satış bazarlarının real ehtiyaclarını səmərəli şəkildə əlaqələndirmək olduqca vacibdir. Bu elementlərin balansı dərin strateji təhlil geniş marketinq tədqiqatlarını tələb edən iqtisadiyyatın davamlı inkişafı üçün vacibdir. Qeyd edək ki, Azərbaycan özünün elə bir inkişaf səviyyəsinə çatmışdır ki, bu da ölkənin struktur siyasətinin səmərəliliyi ilə bağlıdır. Struktur dəyişiklikləri elmi-texniki tərəqqinin sürətləndirilməsi ilə qarşılıqlı əlaqədə və asılılıqda olan bir proses kimi xarakterizə olunur. Azərbaycanda elə bir elmi-texniki və struktur siyasəti formalaşdırmaq lazımdır ki, o biri tərəfdən ölkəmizin malik olduğu bütün resurslarından səmərəli istifadəyə, həm də ölkəmizin qarşısında duran sosial-iqtisadi problemlərin mümkün qədər optimal müddətdə həll etməyə şərait yaratsın [1].

Milli iqtisadiyyatın strukturundakı dəyişikliklər iqtisadi, elmi, texniki və sosial tərəqqinin təsiri altında baş verir. Bazar tipli iqtisadiyyatın struktur dəyişiklikləri xarici-iqtisadi, ictimai-siyasi vəziyyətin, demoqrafik, ekoloji və bir çox digər amillərin dəyişməsindən qaynaqlanır. Milli iqtisadiyyatın quruluşu kimi, struktur siyasəti də geniş və dar mənada müəyyən edilir. Geniş mənada struktur siyasəti dövlətin ümumi iqtisadiyyata təsirini özündə cəmləşdirir. Dar mənada, dövlətin təsir dairəsi sahələrarası olur.

Struktur dəyişiklikləri bir sistem elementlərinin nisbətindəki bir dəyişikliyi ifadə edir. Struktur dəyişiklikləri ölkə iqtisadiyyatının səmərəliliyini artırmaq üçün böyük potensiala malikdir. Ölkə iqtisadiyyatının davamlılığını və sabitliyini təmin etmək yalnız aktiv struktur və innovativ dəyişikliklər həyata keçirildikdə mümkündür. Uzun illər struktur dəyişikliyi problemi üzərində çalışaraq hər dəfə balanslaşdırılmış sənaye quruluşunun formalaşmasına təsir edən əlavə amillər tapırıq. Bu gün, bizim fikrimizcə, sənaye istehsalının balanslaşdırılmış bir quruluşu formalaşdırılarkən ölkənin iqtisadi açıqlıq amili nəzərə alınmalıdır. Üstəlik, qeyd etmək lazımdır ki, bu, təkcə makro səviyyədə deyil, həm də regional iqtisadiyyatın səviyyəsinə aiddir [4].

Hər hansı bir təsərrüfat subyekti üçün struktur dəyişikliklərinin istiqamətinin seçilməsi istənilən iqtisadi səviyyədə ən aktual problemlərdən biri olaraq qalır. Fikrimizcə, hazırda həll edilməli olan iki əsas məsələ var - birincisi, əsas kimi hansı iqtisadi quruluşu, ikincisi, iqtisadiyyatın struktur dəyişikliklərinin hansı modelini götürmək lazımdır. Dövlət, ilk növbədə, iqtisadiyyatın sahəvi quruluşunun formalaşmasında iştirak etməlidir, digər struktur strukturları daha çox "bazarın görünməz əli" tərəfindən formalaşır. Sənayedəki struktur dəyişikliklərinin istiqamətlərini seçərkən iqtisadiyyatın (sənayenin) sektoral quruluşundan istifadə etməyi təklif edirik.

İkinci problemli məsələ struktur dəyişikliyi üçün bir modelin seçilməsidir. Dünyanın bir sıra aparıcı ölkələrinin iqtisadiyyatlarında özünü təsdiqləyən üç əsas modeli mövcuddur:

1. İdxalın əvəzlənməsi modeli. Bu, ölkəyə idxal olunan məhsulların satışını məhdudlaşdırarkən daxili bazarı doyurmaq üçün regional sənaye məhsulları istehsalçılarının yaradılması, stimullaşdırılması və dəstəklənməsini əhatə edir. Bu, regionlarda əmək ehtiyatları, faydalı qazıntılar və daxili investisiya mənbələri olduqda mümkündür. Bu model üçün optimal olan ölkədə (və ya bir qrup bölgədə) bitmiş (və ya son) məhsulların tam istehsal dövrünün formalaşmasıdır.

2. İxrac yönümlü model. Bu, iqtisadiyyatda "lokomotivlərin" və ya "artım nöqtələrinin" (vergi və gömrük güzəştləri, ixracatçı müəssisələrə güzəştli kredit verilməsi, aşağı məzənnə ilə dəstəklənməsi və onların fəaliyyət göstərməsi və inkişafı üçün digər əlverişli şəraitin yaradılması) yolu ilə inkişafını əhatə edir. Bu modelin tətbiqi yalnız dövlət və regional hakimiyyətlərin səylərinin birləşdirilməsi ilə mümkündür.

3. İnnovativ model. Daxili və dünya səviyyəsində yeni satış bazarlarını meydana gətirən yüksək texnoloji və kapital tələb edən sənayelərin inkişafına, istifadəsinə əsaslanan, əlavə dəyəri yüksək olan son məhsul və xidmətlərin yüksək texnoloji istehsalının inkişafı ilə elmi cəhətdən səmərəli, resurslara qənaət edən bir iqtisadiyyatın formalaşması və inkişaf etməsini nəzərdə tutur.

Fikrimizcə, bu modelləri seçərkən:

1. Ölkədə və dünya bazarında ən çox tələb olunan mal və xidmətlərin müəyyən edilməsi.

2. Regionlarda müvafiq sənaye sahələrinin yaradılması üçün real imkanlarının, həm istehsalçıların, həm də malların qiymət və keyfiyyət xüsusiyyətləri baxımından rəqabətdə iştirak etmək imkanlarının qiymətləndirilməsi zəruridir.

Ümumiyyətlə, ölkənin sosial-iqtisadi inkişafının müxtəlif istiqamətləri və metodlarının, habelə müxtəlif səviyyəli idarələr arasındakı qarşılıqlı əlaqə problemləri struktur siyasətinin tənzimləmə bazasında müxtəlif subyektlərin məqsədlərinin, metodlarının və maraqlarının əlaqələndirilməsini zəruri edir [5]. Milli iqtisadiyyatın struktur şaxələndirilməsi çərçivəsində müxtəlif idarəetmə səviyyələrinin məqsədlərini, metodlarını və səlahiyyətlərini konkretləşdirmək üçün dövlətin struktur siyasətinin formalaşdırılmasında aşağıdakı mərhələləri qeyd edə bilərik.

Dövlətin struktur siyasətinin formalaşdırılmasının ilk mərhələsi milli iqtisadiyyatın strukturunun təhlili olmalıdır. Çox vaxt təcrübədə milli iqtisadiyyatın strukturunu təhlil etmək üçün bütün istiqamət və metodlardan istifadə edilmir. Milli iqtisadiyyatın inkişaf proqramlarında ümumi daxili məhsulun müsbət dinamikası ölkənin iqtisadi siyasətinin səmərəliliyinin sübutu kimi qəbul edilir. Aydındır ki, bu yanaşma nəinki ölkənin sosial-iqtisadi sisteminin idarə edilməsində iqtisadiyyatın mövcud strukturunun rolunu müəyyənləşdirməyə imkan verir, həm də gələcəkdə iqtisadiyyatın strukturunun inkişafı üçün prioritetlərin seçilməsində səmərəli fəaliyyətə kömək etmir. Milli iqtisadiyyatın strukturunun təhlili üçün bir sıra metod və istiqamətlərin istifadəsi onu xarakterizə etməklə yanaşı, strukturun güclü və zəif tərəflərini də müəyyənləşdirməyə imkan verəcəkdir.

Struktur siyasətinin ikinci mərhələsi milli iqtisadiyyatda struktur problemlərin müəyyənləşdirilməsi olmalıdır. Burada müəyyən bir əraziyə xas olan problemləri dövlət əhəmiyyətli problemlərdən ayırmaq vacibdir.

Struktur siyasətinin formalaşmasının üçüncü mərhələsində milli iqtisadiyyatın strukturunun inkişafı üçün məqsədlər və prioritetlər formalaşdırılmalıdır.

Struktur siyasətinin həyata keçirilməsinin dördüncü mərhələsi milli iqtisadiyyatın inkişafı üçün seçilmiş prioritetlər və ssenarilər çərçivəsində tədbirlər sisteminin formalaşdırılması ilə əlaqədardır.

Beşinci mərhələ təşkilati mərhələdir. Ölkənin struktur siyasətinin təşkilati əsaslarının formalaşması iki əsas prinsipdən irəli gəlməlidir:

- ümumi vəzifələrin həyata keçirilməsində müxtəlif əlaqələrin və təşkilati bölmələrin fəaliyyətlərinin koordinasiyasının təmin edilməsi;
- idarəetmədə şaquli və üfüqi əlaqələrin eyni vaxtda birləşməsini, qərar qəbuletmədə mərkəzsizləşmənin optimal nisbətinin təmin edilməsi.

Dövlətin təsərrüfat subyektlərinin mənafelərini əlaqələndirmək üçün bütün səviyyələrdə ictimai birliklərin, işgüzar dairələrin və əhalinin nümayəndələrini əhatə edəcək koordinasiya şuraları yaradılmalıdır. Bu mərhələdə milli iqtisadiyyatın struktur siyasətinin vəzifələrinə uyğun gələn tənzimləmə bazası formalaşdırılmalıdır. Həmin bazada fərdi idarəetmə strukturlarının qarşılıqlı əlaqəsi qaydaları, müqavilələrin bağlanması prinsipləri və s. öz əksini tapmalıdır.

Altıncı mərhələ monitorinq sisteminin formalaşması ilə əlaqələndirilir. Bunun üçün struktur siyasətinin məqsədlərinin həyata keçirilməsi üçün bir sıra göstəricilər hesablanır.

Milli iqtisadiyyatın struktur siyasətinin təklif olunan alqoritm çərçivəsində həyata keçirilməsi müxtəlif səviyyəli hakimiyyət orqanlarının, əhalinin və biznesin maraqlarının nəzərə alınmasına və artırılmasına, ölkə iqtisadiyyatın struktur şaxələndirilməsinə əhəmiyyətli təsir göstərər.

Nəticə

Nəticə olaraq deyə bilərik ki, struktur siyasəti iqtisadiyyatın elmi və sənaye sahələrinə geniş miqyaslı investisiya qoyulmuş innovasiya proqramlarının tətbiqi kontekstində həyata keçirilməlidir. Dövlətin struktur siyasəti ölkənin inkişafındakı tarixi tendensiyalar, ərazi əmək bölgüsündə rolu, geosiyasi mövqeyi nəzərə alınmaqla milli iqtisadiyyatın sahə quruluşunun yaxşılaşdırılması problemlərini həll etməlidir. Qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi effektiv qurumların yaradılması, dövlət və biznesin bütün səviyyələrinin qarşılıqlı əlaqəsi şəraitində mümkündür.

Hesab edirik ki, Azərbaycanın struktur siyasəti çoxşaxəli olmalı və ən azı aşağıdakı sahələrdə hərəkətləri əhatə etməlidir:

- ixracın şaxələndirilməsi, bərpa olunan xammal ixracını genişləndirməklə neft-qaz qiymətlərindəki dalğalanmalardan asılılığı azaltmaq;
- mövcud qabaqcıl texnologiyaların sürətli yayılması hesabına aşağı və orta texnoloji sektorların inkişafı;

- yüksək texnologiyalar da daxil olmaqla xidmət sahələrinin inkişafı;
- yüksək texnologiyalı sektorların dəyər zəncirlərindəki vəziyyətinin yaxşılaşdırılması;
- yeni sektorların və fəaliyyətlərin yaranmasına şərait yaratmaq.

Bütün bunlar son nəticədə iqtisadiyyatın rəqabət qabiliyyətinin, mövcud məhsul ehtiyatlarının, əmək məhsuldarlığının və əhalinin rifahın daha yüksək səviyyəsinin artırılmasına imkan verməklə ölkənin davamlı iqtisadi inkişafına əhəmiyyətli təsir göstərəcəkdir.

Ədəbiyyat

1. Mikayılova S.M. Iqtisadi təhlükəsizliyin təmin olunmasının makroiqtisadi problemləri. Bakı, Gənclik, 2009, 400 s.

2. Ахмедуев А. Ш. Стратегическое управление социально-экономическим развитием региона. М.: Экономика, 2013, 307 с.

3. Воробьева И.П. Государственное регулирование национальной экономики : учебное пособие. Томск : Издательский дом ТГУ, 2014, 292 с.

4. Рабаданова А.А. Структурная политика региона в условиях модернизации экономики // Вопросы структуризации экономики, 2013, № 4, с. 102-104.

5. Сухарев О. С. Структурный анализ экономики. М.: Финансы и статистика, 2012, 216 с.

QLOBAL MALİYYƏ BÖHRANININ YAYILMASI VƏ ONUN BRİCS ÖLKƏLƏRİNƏ TƏSİRİ

Amin A.Tağıyev
(AzDİU-nun iqtisad üzrə fəlsəfə doktoru hazırlığı üzrə doktorantı)
amintaghiyeff@gmail.com

XÜLASƏ

Bu təqdiqat işinin məqsədi 2008-ci ildə ABŞ-da baş verən maliyyə tənəzzülünün BRİCS (Braziliya, Rusiya, Hindistan, Çin, Cənubi Afrika Respublikası) dövlətlərinin iqtisadi inkişafına təsirini öyrənməkdir. Johansen kointeqrasiya testi, vahid kök testi, Granger səbəb-nəticə əlaqəsi testi, vektor xəta düzəltmə modeli yuxarıda qeyd olunan məqsədin yerinə yetirilməsi üçün tətbiq edilmişdir. Dünya Bankının məlumat bazası vasitəsilə bu təqdiqat işi üçün nümunə məlumatlar toplanmışdır ki, bura 16 illik dövr üzrə (2002-2018) 5 (beş) ölkə daxil edilmişdir. Mənim proqnozuma əsasən əldə olunan nəticələr göstərir ki, 2008-ci il böhranını nəzərdən keçirən zaman iqtisadi inkişaf, birbaşa xarici investisiyalar və ixracat arasında neqativ baxımdan statistik cəhətdən əhəmiyyətli uzun müddətli əlaqə mövcuddur. Tədqiqat zamanı əldə olunan nəticəyə əsasən, bu böhran BRİCS dövlətlərinə statistik olaraq əhəmiyyətli və mənfi şəkildə təsir göstərib. Xəta düzəltmə modelinin nəticələrinə uyğun olaraq, BRICS ölkələri böhrandan yalnız ixracat, iqtisadi artım və xarici kapital investisiyaları kimi makro iqtisadi göstəricilər baxımından uzun müddətli gərginliklər və fasilələrlə üzləşərək çıxıblar. Bu təsir əsasında müəyyən edilir ki, maliyyə böhranı dünyanın inkişaf etməkdə olan iqtisadiyyatlarına yayılma (zərərli təsirin) axınını təmin edib.

TƏDQİQATIN AKTUALLIĞI

ABŞ-da 2008-ci ildə baş verən maliyyə böhranına qədər İkinci Dünya Müharibəsindən sonra inkişaf etmiş dövlətlərdə cəmi 18 maliyyə şoku yaşanmışdır. Bu böhranlardan 5-i (İspaniya-1977, Norveç-1987, Finlandiya-1991, İsveç-1991 və Yaponiya-1992) oldcuqca böyük böhranlardır. Keçid iqtisadiyyatına malik ölkələrdə ən vacib maliyyə böhranları 1997-ci ildə baş verən Asiya Böhranı, 1998-ci ildə baş verən Kolumbiya Böhranı və 2001-ci ildə baş verən Argentina böhranlarıdır. Lakin, Amerikan iqtisadiyyatında sonuncu ipoteka böhranı səbəbləri, müddəti və təsirləri baxımından daha çox ciddi maliyyə böhranıdır (Reinhart və Rogoff, 2009).

Böyük xaosa səbəb olan 21-ci əsrin birinci maliyyə tsunamisi Şərqin likvidliyinin çox olması və Qərbin kreditləri yanlış şəkildə idarə etməsinin nəticəsi kimi təzahür etmişdir. Alan Greenspanın

rəhbərliyi altında Federal Ehtiyat Bankının yumşaq pul siyasəti və Buş hökumətinin geniş büdcə kəsirlərinə baxmayaraq, ABŞ 2000-ci illərdə ucuz Çin mallarını idxal etməyə davam edərək ciddi inflyasiya problemi yaşamadı. ABŞ Xəzinə Departamenti büdcə kəsirlərini əhatə etmək üçün beynəlxalq bazarlara daha çox istiqraz buraxdığı halda, bu istiqrazların ən böyük alıcıları Asiya ölkələri, xüsusilə Çin və bəzi Yaxın Şərq ölkələri idi. Eyni zamanda, Yaponiyanın daşınmaz əmlak aktivləri fond birjaları və digər özəl aktivlər daxil olmaqla bütün növ investisiya elementlərini Yapon yeninə əlaqələndirdi. Digər tərəfdən, hec fondları ilə əlaqəli faiz dərəcələrinin demək olar ki, sıfır səviyyəsinə enməsi faktı həmçinin bütün dünyada aktivlərin qiymətində azalmaya gətirib çıxardı. Beləliklə, ABŞ tərəfindən buraxılan maliyyə aktivlərinə bütün dünyada yüksək tələbat vardı ki, bu da növbəti dövrlərdə Amerikanın aktiv bazarlarında süni şişirilmələrin baş verməsinə vasitəçilik etdi. Bundan başqa, Çinin xarici valyutada əmanətlər və ehtiyatlarının yüksək səviyyədə olması və devalvasiya zamanı Çin hökumətinin həyata keçirdiyi yüksək valyuta məzənəsi siyasəti həmçinin Amerikan istiqrazlarına marağı artırdı və aktivlərin qiymətinin süni şişirdilməsinə səbəb oldu (Overholt, 2010).

2007-ci ilin avqust ayında, ABŞ-da maliyyə təşkilatlarının balansında elan edildiyi kimi mənzil qiymətləri və maliyyə aktivlərinin qiymətləri qəfil aşağı düşməyə başladı və xüsusilə yüksək riskli ipoteka kreditlərinin geri qaytarılma dərəcəsi gözləntilərdən aşağı səviyyədə qaldı. Müəyyən oldu ki, bir çox maliyyə təşkilatları, o cümlədən ən böyük ipoteka korporasiyaları olan Fannie Mae və Freddie Mac öz borclarını ödəyə bilmədi. Beləliklə, maliyyə böhranı maliyyə bazarlarına etimadın olmaması və panika nəticəsində ortaya çıxdı. Amerikan hökuməti elan etdi ki, o, 7 sentyabrda iflasdan qorunması üçün Freddie Mac və Fannie Mae korporasiyalarını milliləşdirib. Amerika tarixində ən böyük böhrandan çıxış əməliyyatı həyata keçirildi və 639 milyard ABŞ dolları həcmində aktivlərə malik olan Lehman Brothers investisiya bankı həmçinin 15 sentyabr tarixində iflasdan mühafizə altına alındı. Bu satınalmalar maliyyə bazarlarında panikanı daha da artıraraq satış proseslərinin sürətlənməsi və maliyyə aktivlərinin dəyərinin azalmasına gətirib çıxardı. Beləliklə, ABŞ-ın maliyyə investisiya bankları sənayesi tamamilə çökdü[1]. Maliyyə riskləri və maliyyə asılılığı əmsalında yüksək artımlar banklardan əmanətlərin geri götürülməsi və likvidlik səviyyələrində azalmalara gətirib çıxardı. Bu, banklararası bazarda qısa qeyri-müəyyənlik dövrünü başlatdı və maliyyə sisteminin sabitliyini zəiflətdi (Naudé, 2009).

2007-ci ilin ortalarında aktivlərin dəyərində süni şişirdilmələr ilə Amerikada başlayan qlobal böhran zamanı Federal Ehtiyat Sistemi faiz dərəcələrini azaldaraq genişlənən pul siyasətini izləyib. Amerika hökuməti həmçinin problemli maliyyə aktivlərini satın alaraq bank kompensasiya əməliyyatlarında iştirak etmişdir. Lakin, bütün bu tədbirlərə baxmayaraq, maliyyə böhranının digər ölkələrə yayılması və qlobal böhrana çevrilməsinin qarşısı alına bilməmişdir. İnkişaf etmiş dövlətlər, xüsusilə Aİ dövlətləri bu maliyyə şokunun geniş təsirlərinə məruz qalan dövlətlər olmuşdur. Bununla belə, maliyyə böhranı bazar iqtisadiyyatı inkişaf etməkdə olan ölkələrə də əks təsir göstərmişdir.

2008-ci ilin sentyabr ayında Lehman Brothers-in tənəzzülündən sonra, bütün BRİCS ölkələrində maliyyə bazarları çökən zaman vəziyyət drammatik şəkildə korlandı. İqtisadiyyatın digər hissələrində də tənəzzülə uğrayan maliyyə bazarların əks-təsiri müşahidə olundu. İqtisadiyyatlar arasında ticarət əməliyyatlarına dəyişikliklər edildi və bu da inkişaf etməkdə olan BRİCS ixrac-gəlir ölkələrinin və ayrıca olaraq Çinin vəziyyətini pisləşdirdi. Eyni zaman ərzində, öz enerji ixracatına güvənən Rusiya iqtisadiyyatında əmtəə və neftin qiymətində kəskin azalma müşahidə olundu və bu iqtisadiyyata ciddi zərbə vurdu.

Beləliklə, bütün BRİCS bazarları bu və ya digər şəkildə böhranın onların inkişafında özünü göstərməsi ilə ciddi təsirə məruz qaldı. Maliyyə böhranının əks təsirinin bütün iqtisadiyyata

[1] Cəmi kredit həcmində yaranan bu gərginlik və bir çox böyük maliyyə təşkilatının gözlənilmədən çökməsi John Taylor (2009) tərəfindən "Qaratoxmaq Kraliça Problemi (Queen of Spades)" kimi müəyyən edildi. Kart oyunlarından biri olan Qaratoxmaq Kraliça oyununda oyunun sonunda qaratoxmaq kraliça kartına sahib olan oyunçu ən yüksək rəqəm alaraq oyunu uduzur. Ətraflı məlumat üçün bax J. B. Taylor (2009), "The Financial Crisis and the Policy Responses: An Empirical Analysis of What Went Wrong", **NBER Working Paper Series**, No.14631

yayılmasının digər səbəbi iqtisadiyyatın hər bir sahəsinin bu yavaşımanın təsirinə məruz qalması olmuşdur.

MÖVZUNUN ÖYRƏNİLMƏ SƏVİYYƏSİ

2008-ci il maliyyə böhranı və onun təsirləri ilə əlaqəli problemlər beynəlxalq elmi cəmiyyət və o cümlədən iqtisadi və humanitar elm sahəsində çalışan elm adamları arasında müzakirə mövzusudur. Bəzi ölkələrə hələ də maliyyə böhranının təsirini hiss edir. Bu vəziyyətdə böhranın səbəb və nəticələrinin araşdırılmasının həlledici rol oynaması təbiidir. Odur ki, bu elmi işin motivasiyası iqtisadi artımı təhlil edərək ABŞ maliyyə böhranının BRİCS ölkələrinin iqtisadiyyatlarına təsirini tənqidi şəkildə müşahidə etmək səylərində dayanır.

TƏDQİQATIN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

Yeni böhranlara qarşı görüləcək tədbirlər baxımından bu böhranların səbəbləri və yayılma mexanizmlərini bilmək böyük əhəmiyyət daşıyır. Odur ki, aşağıdakı tədqiqat sualı bu layihə çərçivəsində əlaqəli ölkələrə böhranın təsirini qiymətləndirmək məqsədi daşıyan bu elmi işin əsas məqsədinə nail olmaq üçün bələbçi rolunu oynayacaq:

2007-2008-ci illərdə baş verən maliyyə böhranının BRİCS ölkələrinin iqtisadi artımına təsiri nədir?

Buna baxmayaraq, tədqiqat sualına cavab vermək və tədqiqatın məqsədini tamamlamağa dəstək vermək üçün bir sıra xüsusi vəzifələr müəyyən edilmişdir:

- maliyyə şokunun təsirini nəzərdən keçirərək seçilmiş dəyişənlər arasında uzun müddətli əlaqəni müşahidə etmək;
- Böhranın BRİCS ölkələrinin ÜDM-də artıma həlledici təsirini öyrənmək;
- ÜDM artımı, birbaşa xarici investisiya və ixracat arasında səbəb-nəticə əlaqəsini aşkar etmək.

TƏDQİQATIN METODOLOGİYASI VƏ VƏ MƏLUMAT MƏNBƏYİ

Tədqiq edilən fenomen üzrə tədqiqat işindən əldə olunan biliklər məlumatların toplanması yolu ilə əldə olunur. Bu tədqiqatda fenomeni daha aydın şəkildə izah edə bilən ikinci dərəcəli məlumatlardan istifadə olunur. Tədqiqatın məqsədinə müvafiq olan məlumatlar əsasən Dünya Bankı, BVF və UNCTAD-dan əldə olunub. Bu tədqiqat işində, 2002-2018-ci illəri əhatə edən dövr üzrə məlumatlar işlənir və təhlil üçün seçiliB. Onu problemin qoyulması üçün müvafiq olan şəkildə həyata keçirmək məqsədilə, seçilmiş ikinci dərəcəli məlumatlar cədvəllər, qrafalar və sözlərdə yerləşdiriliB. ÜDM artımı dərəcəsi ilə idarə olunan iqtisadi inkişaf və onun təsirləri arasında empirik əlaqə bütün dövr üzrə araşdırılıb və həmçinin böhran dövrü ərzində müəyyən edilib.

Model, dəyişənlər və fərziyyələr

Aydınlıq gətirmək üçün, mən seçilmiş dəyişənlərin kointeqrasiya təhlili üçün fərdi metodologiya addımlarını sadalayıram. Bütün bu testləri həyata keçirmək üçün EViews 10.0 statistik proqram təminatından istifadə olunacUB.

1. Vahid Kök Testləri (PP və ADF); 2. VAR Təhlili; 3. Johansen kointeqrasiya testi;
4. VECM; 5. Granger səbəb-nəticə əlaqəsi testi.

VAHİD KÖK SINAQLARININ NƏTİCƏLƏRİ

PP və ADF vahid kök testlərinin daimi üzv və daimi üzv tendensiyası modellərindən əldə olunan nəticələr göstərilir. ADF vahid kök testinin nəticələrinə uyğun olaraq, daimi üzv və daimi üzv-tendensiya modelində bütün dəyişənlər birinci fərqdə sabit hesab edilib. Eyni nəticə PP test nəticələrində müşahidə olunub. Yəni, seçilmiş dəyişənlər daimi üzv və daimi üzv-tendensiya modelində birinci fərqdə sabit müşahidə olunub.

Nəticə etibarı ilə, hər iki testin nəticələrinə uyğun olaraq, bütün dəyişənlər hər iki model üçün 1 % və 5 % səviyyəsində əhəmiyyətlidir. Sadəcə ÜDM artım dərəcəsinin ehtimal dəyəri kointeqrasiya testi üçün təqdirəlayiq olan daimi-tendensiya modelində 10 % səviyyədə əhəmiyyətlidir.

KOİNTEQRASİYA TESTİNİN NƏTİCƏSİ

Bütün dəyişənlər səviyyələrdə qeyri-sabit olur və birinci qaydaya inteqrasiya olunurlar. Dəyişənlər arasında kointeqrasiya əlaqələrinin mövcud olması ehtimalı göstərilir. Kointeqrasiya təhlilində seçilmiş dəyişənlər arasında uzun müddətli sabit vəziyyətli münasibətlər göstərilir; odur

ki, statistik baxımdan əhəmiyyətli münasibətlər yaradılması həlledici addım hesab edilir. Buna görə də, kointeqrasiya təhlil testi aşağıdakı hipotezlərə əsasən kointeqrasiya vektorlarının mövcud olması üçün həyata keçirilir:

H_0: dəyişənlər arasında kointeqrasiya əlaqəsi mövcud deyil;

H_1: dəyişənlər arasında kointeqrasiya əlaqəsi mövcuddur.

Qeyri-sabit dəyişənlər arasında reqressiyanın qiymətləndirilməsi zaman düzgün əlaqə göstərilməyə bilər. Tədqiqatda istifadə olunan dəyişənlər öz səviyyə dəyərləri ilə qeyri-sabit olub. ÜDM artımı və digər iki dəyişən arasında əlaqəni müəyyən etmək üçün kointeqrasiya təhlili aparmaq zəruri hesab edilir. 2008-ci ildəki maliyyə böhranının təsiri modelə ekzogen dəyişən kimi əlavə edilib. Bu səbəbdən, ədəbiyyatda ən çox istifadə olunan Johansen kointeqrasiya testindən istifadə olunub və nəticələr verilir.

Qeyd edildiyi kimi, testdə 5 % əhəmiyyətlilik səviyyəsində 1 kointeqrasiya əlaqəsi göstərilib. Əksər iqtisadi ədəbiyyatda 1 % və ya 5 % əhəmiyyətlilik səviyyəsindən istifadə olunub, beləliklə bu nəticəni 10 % əhəmiyyətlilik səviyyəsində izah etməyə məhəl qoyulmayıb. Əgər 10 % səviyyəni nəzərdən keçirsək, biz izləmə testində 2 kointeqrasiyanın tapılacağını müşahidə edə bilərik.

Johansen kointeqrasiya testinin nəticəsi əsasında müəyyən edilmişdir ki, birinci 2 modeldə Max-Eigen statistikası 5 % əhəmiyyətlilik səviyyəsində həlledici dəyərdən daha böyükdür və üçüncü modeldə daha kiçikdir. Odur ki, ÜDM artımı və ixracat arasında iki kointeqrasiya vektorunun olduğu görünür, BXİ və dəyişənlər uzun müddətdə birlikdə fəaliyyət göstərirlər.

Maksimum özünəməxsus dəyərin təsirləri və izləmə statistikaları arasında yalnız kiçik uyğunsuzluq var. Buna baxmayaraq, izləmə statistikasına daha çox əhəmiyyət verilə bilər, izləmə statistikasında bütün ən kiçik özünəməxsus dəyər nəzərə alındığı üçün, onun maksimum özünəməxsus dəyərdən daha çox təsiri var (Kasa, 1992; Serletis və King, 1997). Müqayisədə, Johansen və Juselius (1990) iki modelin ziddiyyətlli nəticələr verdiyi izləmə (trace) statistikasından istifadəni təbliğ edirlər.

Göstərildiyi kimi, iki cədvəldə fərqli nəticələr əldə olunub. Bununla belə, əminliklə deyə bilərik ki, seçilmiş dəyişənlər arasında kointeqrasiya mövcuddur. Bunu daha aydın şəkildə ifadə etmək üçün, ixracat, BXİ və ÜDM artımı arasında əlaqəni ayrılıqda görmək üçün əlavə olaraq iki Johansen kointeqrasiya təhlili aparmaq müvafiq hesab edilib (böhranı modelə ekzogen dəyişən kimi əlavə edərək).

Verilmiş nəticələrə uyğun olaraq, birinci modeldə H_0 fərziyyəsi imtina edilib, çünki, həm İzləmə (trace) statistikası və həmdə Max-Eigen statistikası 5% əhəmiyyətlilik səviyyəsinin həlledici dəyərindən daha böyük olub. Bu səbəbdən, ÜDM artımı və BXİ arasında bir kointeqrasiya vektorunun olduğu və uzun müddətli perspektivdə hər iki dəyişənin birlikdə fəaliyyət göstərdiyi müəyyən edilib.

Eyni nəticə ÜDM artımı və ixracat arasında da müşahidə olunub. Beləliklə, dəyişənlər arasında uzun müddətli əlaqə 5 % əhəmiyyətlilik səviyyəsində müəyyən edilib. Bununla, Johansen testi əsasında BXİ və ixracatın ÜDM artımı ilə kointeqrasiya olunduğu sübut olunub.

VECM-İN NƏTİCƏLƏRİ

ÜDM artımı, ixracat və BXİ-nın uzun müddətli perspektivdə kointeqrasiya olunması nəticəsinə əsasən xəta düzəltmə modelini qurmaq üçün kointeqrasiya vektorunu tətbiq edilir. Kointeqrasiya olunan dəyişənlərin prinsipi budur ki, zamanla uzun müddətli müvazinətdə yayınmalar baş verir. Modelin yenidən uzun müddətli müvazinəti qazanması üçün, bəzi dəyişənlər onu təmin etmək mövqeyində olmalıdır. Xəta düzəltmə modelində, sistemdə dəyişənlərin qısa müddətli dinamikasına müvazinətdə yayınmalar təsir göstərir. Xəta düzəltmə modelinin tənliyinə dəyişənlərin birinci fərqləri, o cümlədən uzun müddətli kointeqrasiya reqressiyasının bir yubanma xətası daxildir:

(ÜDM Artım Dərəcəsi) $GDPGROWTHRATE_{t-1}$= -17,43128+0.644578 (birbaşa xarici investisiya) FDI_{t-1} +0.687088 (İXRAC) $EXPORT_{t-1}$

Praktikada, xəta düzəltmə parametrinin statistika baxımından əhəmiyyətli və mənfi olması gözlənilir. Xəta düzəltmə modelinin test nəticələrinə uyğun olaraq, xəta düzəltmə mexanizmi işləyir, çünki, uzun müddətli xəta düzəltmə əmsalları mənfidir və bir dövr ərzində baş verən müvazinətsizlik növbəti dövrdə bərpa oluna biləcək. Odur ki, uzun müddətli əlaqə müvafiq dövr üzrə müəyyən edilmiş modelə uyğundur və müvazinətdən yayınma olan zaman uzun müddət ərzində təkrar balanslaşdırılacağını göstərir. Qısa müddətli əmsalları nəzərdən keçirərək ÜDM artımı böhran zamanı 0,23 % azalıb və bunu modelə ekzogen dəyişən kimi əlavə etmişik. Bu nəticə təsdiq edir ki, böhran BRİCS dövlətlərinə əks təsir göstərib. Beləliklə, ixracın 1 % qiymətləndirilməsi ÜDM artımını 0,687 % artıracağı güman edilir. BXİ-da 1 % artım üçün, ÜDM artımı 0,644 % artır. Əlavə olaraq, düzgün işarələr baxımından, yuxarıdan göründüyü kimi tənliyin nəticəsi qənaətbəxşdir. Müəyyən edilib ki, ixracat və BXİ, ÜDM artımı dərəcəsi əlaqəsi ilə düzgün müsbət işarəyə malikdir. Uzun müddətli müvazinətdən əvvəlki ildə yayınma cari dövrdə 10,25 % tənzimləmə sürəti ilə düzəldilmişdir (qısa müddətdə).

GRANGER SƏBƏB-NƏTİCƏ ƏLAQƏSİ TESTİNİN NƏTİCƏSİ

Təhlilin bu bölməsinin məqsədi ixracat və BXİ-nın 2002-2018-ci illəri əhatə edən dövr ərzində BRİCS ölkələrində ÜDM artımına səbəb olub olmadığını test etməkdir. Buna görə də, Granger Səbəb-Nəticə Əlaqəsi Testi aşağıdakı fərziyyəyə əsasən əlaqənin mövcud olması üçün tətbiq olunur:

Birinci sıfır hipotez budur ki, ixracat ÜDM artımına səbəb olmur;

İkinci sıfır hipotez budur ki, BXİ ÜDM artımına səbəb olmur;

Üçüncü sıfır hipotez budur ki, ÜDM artımı ixracata səbəb olmur;

Dördüncü sıfır hipotez budur ki, ÜDM artımı BXİ-nə səbəb olmur.

Əldə olunan nəticələrə uyğun olaraq, "LOG_GDP Growth sıfır hipotezi LOG_Export"-a səbəb olmur və 1 % əhəmiyyətlilik səviyyəsində imtina edilir və "LOG_GDP Growth sıfır hipotezi LOG_FDI"-a səbəb olmur və 5 % əhəmiyyətsizlik səviyyəsində imtina edilir. Buna uyğun olaraq, iqtisadi inkişafdan BXİ və ixracatlara bir istiqamətli (bir tərəfli) səbəb-nəticə əlaqəsi müəyyən edilmişdir. İxracat, BXİ və iqtisadi inkişaf arasında əlaqəli ilə bağlı olaraq, araşdırma göstərir ki, biz sıfır hipotezi qəbul edirik ki, BXİ və ixracat iqtisadi artıma səbəb olmur və BRİCS ölkələri halında ixracat, BXİ və iqtisadi inkişaf arasında heç bir əlaqə yoxdur. Johansen kointeqrasiya testində verilmiş dəyişənlər arasında uzun müddətli əlaqəlinin sübut olunduğuna baxmayaraq, səbəb-nəticə əlaqəsi istiqamətinin ixracatdan ÜDM artımına və BXİ-dən ÜDM artımına doğru irəlilədiyi barədə heç bir əlaqə yoxdur. Qısaca olaraq, ÜDM BXİ və ixracatın səbəbi olduğu halda, ixracat və BXİ iqtisadi artımın səbəbi deyildir.

QALIQ DİAQNOSTİKASININ NƏTİCƏLƏRİ

İlk olaraq, normal şərait üçün nümunə məlumatları yoxlanılmalıdır. Bu test istifadə olunan metodologiyanı dəqiqləşdirmək üçün aparılır. Bu test P-dəyərini təmin edəcək və sıfır hipotezin etibarlılığı yoxlanılacaq. Kiçik P-dəyəri halında H_o-dan imtina etmək üçün qənaətbəxş dəlillər var və məlumat normal hesab edilməyəcək. Əks təqdirdə, normal hesab ediləcək. P-dəyəri bu təhlildə 0,01-dən böyük olduğu halda, Test üçün nümunənin paylanması normal güman edilir. Normallıq testi üçün fərziyyələr aşağıdakılardır:

H_o: məlumatlar normal paylanmır.

H_a: məlumatlar normal paylanır

Cədvəl 10-da göstərildiyi kimi, 0,01% əhəmiyyətlilik səviyyəsində H_o -dan imtina edilir. Bu onu göstərir ki, bizim modelimiz normaldır.

Məlumatda avtomatik korrelyasiya probleminin olub olmadığı Durbin-Watson testi ilə müəyyən edilə bilər. Avtomatik korrelyasiya testi üçün hipotezlər aşağıdakılardır:

(H_0) qalıqlar avtomatik korrelyasiya olunur

(H_a) qalıqlar arasında korrelyasiya yoxdur

Sıfır hipotezdən imtina olur, bu da o deməkdir ki, bizim modelimizdə avtomatik korrelyasiya problemi yoxdur

NƏTİCƏ VƏ TÖVSİYƏLƏR

Bu tədqiqat işində 2008-ci ildə ABŞ-da baş verən böhranın BRİCS dövlətlərinin iqtisadi inkişafına təsiri təhlil edilib. Nəticə etibarı ilə, həm asılı dəyişən (ÜDM artım dərəcəsi) və həm də bəzi müstəqil dəyişənlər (BXİ, ixracat) əvvəlki tədqiqatlara uyğun olaraq seçilib. Məlumatların təhlili Johansen kointeqrasiya və Granger səbəb-nəticə modelinə əsasən həyata keçirilib.

Hər bir vəzifənin təfsilatlı təhlil olunan nəticəsinə gəldikdə isə biz aşağıdakı nəticələri müşahidə edə bilərik:

- Birincisi, bütün dəyişənlər bir reqressiya modelində təhlil olunub. Həmin zaman, Max-Eigen statistikasında dəyişənlər arasında 2 kointeqrasiya vektoru müəyyən edilib. Lakin izləmə statistikasının nəticələrində bir kointeqrasiya vektoru göstərilib. İki fərqli nəticə müşahidə olunub və uzun müddətli əlaqəni düzgün şəkildə müşahidə etmək məqsədilə dəyişənlər üçün Johansen testini ayrılıqda aparmaq qərarına gəlinmişdir. Johansen kointeqrasiya testinə uyğun olaraq, ÜDM artımı - BXİ və ÜDM artımı – ixracat arasında 5 % əhəmiyyətlilik səviyyəsində 1 kointeqrasiya vektoru müəyyən edilib. Bu sübut etmişdir ki, seçilmiş dəyişənlər uzun müddətli dövrdə birlikdə hərəkət edir;
- Böhranın hər bir ölkəyə təsiri araşdırılmayıb. Uzun müşahidə məlumatları tətbiq edildiyi üçün, böhranın BRİCS təşkilat səviyyəsində təsirinin mənfi baxımdan və statistik olaraq əhəmiyyətli olduğu müəyyən edilib;
- Granger Səbəb-Nəticə Əlaqəsi Testinin nəticələrinə uyğun olaraq, dəyişənlər arasında bir istiqamətli əlaqə müşahidə olunub. Beləliklə, müəyyən edilmişdir ki, iqtisadi inkişafdan ixracat və BXİ-ə əlaqə mövcuddur. Nəticələr müvafiq olaraq 1 % və 5 % səviyyəsində statistik baxımdan əhəmiyyətli olub.

TƏDQİQATLA BAĞLI MƏHDUDİYYƏTLƏR

Təklif olunan bu tədqiqatla bağlı məhdudiyyətlər aşağıdakı kimidir:

Birincisi, tədqiqat işində panel data modelindən istifadə olunmuşdur və bu, ölkələrin bəzi spesifik xüsusiyyətlərini nəzərdən keçirməyə bizə imkan vermir. Çünki seçilən dəyişənlər arasındakı əlaqə ölkə səviyyəsində deyil, təşkilati səviyyədə təhlil olunur.

İkincisi, bəzi dəyişənləri ölçmək çətindir. Məsələn, böhranın təsirini üçün böhranı saxta dəyişkən kimi (dummy variable) modelə əlavə olunur.

TƏDQİQATLA BAĞLI VERİLƏN TÖHFƏ

Tədqiqatın nəticələri təsvir olunan məhdudiyyətlər xaricində müxtəlif yollarla öz töhfəsini verir. Məsələn, bu, iqtisadi artım və investisiya, ixrac və 2008-ci il tənəzzülünün inkişaf etməkdə olan iqtisadiyyatlara təsiri arasındakı əlaqənin xarakterinə dair ümumi ədəbiyyata dəstək olaraq empirik sübut kimi təqdim etməklə öz töhfəsini verir. Əlavə olaraq, bu təhlilin əsas determinantları nəzəri kontekst əsasında təsvir olunur. Daha dəqiq desək, bu tədqiqat, böhranın BRİCS ölkələrinə təsiri ilə əlaqədar tədqiqatların sayının az olduğu mövcud ədəbiyyat toplusuna dəyər qatır.

ƏLAVƏ TƏDQİQAT/ARAŞDIRMA ÜÇÜN TƏKLİFLƏR

Birincisi, bu tədqiqatda yalnız FDI (Birbaşa Xarici İnvestisiya) və ixraclar iqtisadi artıma təsir göstərən amillər olaraq seçilmişdir. Əlavə tədqiqat, iqtisadi artımda digər amillərdən, məsələn, dövlət xərcləri və son istehlak xərclərindən necə təsirləndiyinə dair bir fikir verə biləcək fərqli tədbirləri özündə birləşdirə bilər. İkincisi, gələcək tədqiqatlar, aralarındakı əlaqəni təhlil etmək üçün ABŞ-ın bəzi makroiqtisadi göstəricilərini modelə əlavə edə bilər. Çünki, bildiyimiz kimi, böhranın mənşəyi ABŞ-dır. Üçüncüsü, əlavə tədqiqatlar onların spesifik xüsusiyyətlərini (coğrafi mövqeyi, ipoteka krediti dərəcəsi və s.) nəzərə alaraq böhranın hər bir ölkəyə təsirini ayrıca olaraq araşdıra və onları təsirin dərəcəsini ölçməklə müqayisə edə bilər. Buna baxmayaraq, bu təhlildə qeyd olunan nəticələr etibarsız hesab olunmamalıdır.

Ədəbiyyat

1. Agbetsiafa, D. (2011) "The Recent Global Financial Crisis: Impacts On Selected Developing Regions". International Business & Economics Research Journal (IBER) 10 (10), 93-102

2. Angkinand Prabha, A. (2008) "Output Loss And Recovery From Banking And Currency Crises: Estimation Issues". SSRN Electronic Journal

3. Anoruo, E., & Ramchander, S. (2008). "Exports and economic growth: An error correction model". Semantic Scholar.

4. Azman-Saini, W., Law, S. and Ahmad, A. (2010) "FDI And Economic Growth: New Evidence On The Role Of Financial Markets". Economics Letters 107 (2), 211-213

5. Bajpai, N. (2011) "Global Financial Crisis, Its Impact On India And The Policy Response". Columbia Global Centers, South Asia, Columbia University, Working Paper No, 5.

6. Chimobi, O.P. (2010). "The estimation of long-run relationship between economic and growth, investment and export in Nigeria". International Journal of Business and Management 5(4), 215–222.

7. Claessens, S., Dell'Ariccia, G., Igan, D. and Laeven, L. (2010) "Cross-Country Experiences And Policy Implications From The Global Financial Crisis". Economic Policy 25 (62), 267-293

8. Diao, X., Zhang, Y. and Chen, K. (2012) "The Global Recession And China's Stimulus Package: A General Equilibrium Assessment Of Country Level Impacts". China Economic Review 23 (1), 1-17

9. Doornik, J. (1998) " Approximations to the asymptotic distributions of cointegration tests". Journal Of Economic Surveys 12 (5), 573-593

10. Dritsakis, N. Varelas, E. and Adamopoulos, A. (2006) "The main determinants of economic growth: An Empirical Investigation with Granger Causality. Analysis for Greece". European Research Studies Journal. IX(3–4), 47–58.

11. Granger, C. (1969) "Investigating Causal Relations By Econometric Models And Cross-Spectral Methods". Econometrica 37 (3), 424

12. Granger, C. and Newbold, P. (1974) "Spurious Regressions In Econometrics". Journal Of Econometrics 2 (2), 111-120

13. Guan, J.L. and Hong, Y. (2012). "An Empirical Analysis on U.S. Foreign Trade and Economic Growth". AASRI Procedia 2, AASRI Conference on Power and Energy Systems 39-43

14. Haq, M., Khan, K. & Parveen, A., (2014). The Growth and Employment Impacts of the 2008 Global Financial Crisis on Pakistan. The Lahore Journal of Economics 19(2), pp.129–154

15. Hemen, A., Williams, H. and Olaniyi, A. (2014) "The Impact 0F Global Financial Crisis On Economic Growth On A Developing Economy". Journal Of Management And Business Studies 3(1), 23-31

16. Hsiao, C. and Shen, Y. (2003) "Foreign Direct Investment And Economic Growth: The Importance Of Institutions And Urbanization". Economic Development And Cultural Change 51 (4), 883-896

17. Johansen, S. (1988) "Statistical Analysis Of Cointegration Vectors". Journal Of Economic Dynamics And Control 12 (2-3), 231-254

18. Johansen, S. and Juselius, K. (2009) " Maximum Likelihood Estimation and Inference on Cointegration with Application to the Demand for Money". Oxford Bulletin Of Economics And Statistics 52 (2), 169-210

19. Kouki, M., Belhadj, R. and Chikhaoui, M. (2017) "Impact Of Financial Crisis On GDP Growth: The Case Of Developed And Emerging Countries". International Journal Of Economics And Financial Issues (7(6), 212-221

20. Lin, J.Y., and Y, Li. (2003) "Export and Economic Growth in China: A Demand-oriented analysis". China Economic Quarterly. 2(4), 779–794.

21. Malik, S. and Janjua, Y. (2011) "The Impact Of Recent Financial Crisis On Economic Growth And Youth Employment In South Asia". SSRN Electronic Journal

Amin A. Tagiyev (UNEC, PhD student in economics)

SPREAD OF THE GLOBAL FİNANCİAL CRİSİS AND ITS IMPACTS ON DEVELOPİNG COUNTRİES

Abstract

The target of thesis work is to peruse influence of the 2008 US financial recession of on economic development of BRICS nations. Johansen cointegration test, unit root test, Granger causality test, besides vector error correction model, was operated fulfilling above-mentioned objective. The sample data were collected through the World Bank database for this dissertation which includes five (5) countries for period of sixteen years (2002-2018). In line with my forecast, the findings reveal that there is a positively significant long-term connection among economic development, FDI and export meanwhile considering the 2008 crisis. According to the result obtained from investigation, crisis affected BRICS nations statistically significantly and negatively. According to the findings of the error correction model, BRICS countries came out of the crisis by experiencing a short-term contraction and breaks only in terms of macroeconomic indicators such as exports, economic growth and foreign capital investments. This effect determines that financial crisis has provided contagion flow to world's developing economies.

İQTISADI BÖHRANLARIN XARAKTERISTIKASI ONLARIN FORMALAŞMASINI ŞƏRTLƏŞDIRƏN SƏBƏBLƏR VƏ AMILLƏR

Əsədov Zaur Cahangir oğlu, doktorant
AMEA İqtisadiyyat İnstitutu
zaur.asadov.89@gmail.com

Xülasə

Məqalədə iqtisadi böhranların xarakteristikası onların formalaşmasını şərtləşdirən səbəblər və amillər araşdırılmış, bu zaman əsas diqqət mövzunun aktuallığının əsaslandırılmasına, alimlərin problemə dair yanaşmalarına, müəllifin onlara mövqeyinin açıqlanmasına yönəldilmişdir. Bundan əlavə iqtisadçıların böhranlara dair müxtəlif baxışları göstərilmişdir.

Açar sözlər: iqtisadi böhran, böhran amilləri, böhranın səbləri

Qlobal maliyyə böhranları inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin iqtisadi artımına böyük təsir göstərir. Bu inflyasiyanın qeyri müəyyənliyi, faiz dərəcələri, işsizliyin artması, tələbin azalması və ölkələrin ÜDM-in azalması kimi ciddi vəziyyətlər yarada bilir. Bütün bu elementlər biznesin inkişafına və onun gələcəkdə böyüməsini mənfi təsir göstərir (Fratzscher, 2012). Maliyyə böhranı, əksər hallarda banklar kimi maliyyə qurumlarında çaxnaşma ilə əlaqələndirilir, beləki investorlar ya aktivlərini satırlar ya da aktivlərin dəyərinin düşməsini gözləyərək pullarını bank hesablarından çıxardırlar. Tarixən dünya üçün iqtisadi bir fəlakətə çevrilən ən ağır iqtisadi böhran 1929-cu ildə oldu. Bu hesabat 2008-ci il iqtisadi böhranı ilə əlaqələndirilir. 2007-08-ci illərdə qlobal iqtisadiyyat 1929-cu il Böyük Depressiyadan sonra ən təhlükəli böhranlardan biri ilə qarşılaşdı. Bu hesabatın məqsədi son iqtisadi depressiyanın səbəblərini anlamaq və iş mühitində bu cür böhranları proqnozlaşdıracaq proqnozlaşdırma vasitələri və metodlarını müəyyənləşdirməkdir (Klassens və digərləri, 2010) **[1].**

İqtisadçıların əsərlərində, müxtəlif sistemlərin inkişafındakı böhranlara dair müxtəlif baxışlar mövcuddur. Ölkəmizdə üstünlük təşkil edən əsas baxışlardan biri, böhranlar kapitalist istehsal üsuluna xasdır və xarakterik xüsusiyyəti "artım çətinlikləri" deyilən sosialist istehsal üsulu altında yarana bilməz. Digər iqtisadçılar "böhran" anlayışının yalnız makroiqtisadi səviyyəyə tətbiq olunduğunu və təsirsiz bir istehsal və idarəetmə sisteminin səbəb olduğu daha az kəskin problemlərin mikro səviyyəyə daha uyğun olduğunu düşünürlər. İddialara əsasən bu problemlər inkişaf böhranının və obyektiv tendensiyaların yaratdığı nəticələr deyil Böhran konsepsiyası ən çox hər hansı bir müəssisənin böhrana qarşı idarəetmə prosesini bu və ya digər şəkildə təsir edən risk

anlayışı ilə yaxından əlaqələndirilir. **[2].** "Böhran" termini özlüyündə bir çox məna daşıyır. Bu mənalar rəhbərləri və liderləri böhran vəziyyətində nə edəcəyinə dair qərar verməkdə istiqamətləndirir. Böhran ədəbiyyatlarında böhranı dair xüsusi şərtlər mövcuddur. Məsələn, böhran vəziyyətləri nadir, əhəmiyyətli, yüksək təsirli, birmənalı olmayan, təcili və yüksək payları əhatə edən altı xüsusiyyətlərə ayrılır **[3].** Böhran, təşkilatın / sistemin əsas dəyərlərinin təhdid altında olduğu bir vəziyyəti gətirib çıxardır və belə bir anda kritik qərar qəbul etməyi tələb edir. Təşkilat və səhmdarlar üçün sabitliyi pozan bir təsir mövcuddur və bu dövrdə bir və ya daha çox məsələnin, səhvlərin və ya prosedurların artması gözlənilir. Böhran anlayışı, risk anlayışı ilə sıx bağlı olub, bu və ya digər səviyyədə istənilən idarəetmə qərarının işlənməsi metedologiyasına təsir edir **[4; 7].**

Dünya iqtisadi böhranlarının gedişatının xüsusiyyətlərinə dair aparılan əvvəlki tədqiqatlar onların səbəblərinin qeyri-müəyyənliyini göstərir. Hər bir ölkədə qlobal iqtisadi böhranlarının təzahürünün daxili səbəbləri formalaşır, ancaq qloballaşma şəraitində bu digər ölkələrə də yayıla bilər. Onların meydana gəlməsini təyin edən amillər böhranların səbəblərini müəyyənləşdirməkdə mühüm rol oynayır. Dünya iqtisadi böhranlarının amilləri əsasən müəyyən ölkələrin və ya onların birliklərinin fəaliyyət şərtləri ilə müəyyən edilir **[5]:** siyasi, iqtisadi, maliyyə, texnoloji, sosial, demoqrafik, mədəni-tarixi, informasiya, infrastruktur **[6].**

Siyasi şərtlər mövcud geosiyasi quruluş modellərinin məhv edilməsi və yeni siyasi quruluş formalarının meydana çıxması prosesində yaranan müvafiq amilləri müəyyənləşdirir. Siyasət dünyadakı mülkiyyət hüquqlarının yenidən bölüşdürülməsi və gücün dünya liderlərinin əlində cəmlənməsi üçün bir vasitədir və ziddiyyətlərdən qaçmaq sadəcə mümkün deyil. İqtisadi inkişaf-dakı ziddiyyətlər, ölkələr arasındakı münasibətlərdə fikir ayrılığı yarandıqda, siyasi partiyaların və ictimai-siyasi təşkilatların ideologiyaları beynəlxalq təşkilatların və beynəlxalq arenadakı siyasi aktyorların maraqlarına uyğun gəlmədiyi zaman ortaya çıxır, ölkələr arasındakı iqtisadi münasibətlər isə siyasi xarakter alır. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin ambisiyaları potensial rəqiblərin iqtisadi inkişafının stimullaşdırılmasında və məhdudlaşdırılmasında mühüm rol oynayır, beləki onların təsiri yalnız siyasi deyil, həm də sonuncunun müvafiq müqavimətinə səbəb olan iqtisadi rıçaqlar tərəfindən həyata keçirilir. Sonradan fərqli inkişaf səviyyəsinə və dünya iqtisadiyyatına təsir dairəsinə sahib olan ölkələr arasında siyasi və iqtisadi münasibətlərdə ziddiyyətlər yaranır. Dünyanın inkişafı üçün qloballaşma şərtləri hökumətləri qlobal siyasi sistemin və iqtisadiyyatın subyektlərinə çevirdi **[8].** Daxili və xarici siyasət arasındakı uyğunsuzluq siyasi sahədəki ziddiyyətlərin yaranmasının əsas mənbəyidir və bu sonradan iqtisadi sahəyə yayılır.

İqtisadi şərtlər bir ölkədəki və ya bölgədəki iqtisadiyyatın hazırkı vəziyyətinə əsaslanır. İqtisadiyyat genişlənmə və daralma dövrlərindən keçdikcə bu şərtlər zamanla iqtisadi və iş dövrləri ilə birlikdə dəyişir. İqtisadiyyat genişləndikdə iqtisadi şərtlər sağlam və ya müsbət hesab edilir və iqtisadiyyat daraldıqca iqtisadi şərtlər qeyri-sağlam və ya mənfi kimi görünür. Bir ölkənin iqtisadi şərtləri pul və maliyyə siyasəti, qlobal iqtisadiyyatın vəziyyəti, işsizlik səviyyəsi, məhsuldarlıq, valyuta məzənnələri, inflyasiya və digərləri daxil olmaqla çoxsaylı makroiqtisadi və mikroiqtisadi amillərdən təsirlənir **[9].**

Dünya iqtisadiyyatında gedən son proseslər **maliyyə** sektorunun dinamik iqtisadi artım üçün vacibliyini bir daha təsdiq etmişdir. Maliyyə sektorundakı amillər arasında "ümumi investor", birbaşa dövlətlərarası investisiya, maliyyə bazarlarının liberallaşması, birbaşa maliyyə əlaqələri, ümumi maliyyə qurumları (transmilli banklar, maliyyə şirkətləri), valyuta asılılığı (dollarlaşma) yer alır. Azərbaycanda maliyyə sektorunun inkişafına dair 5 əsas strateji hədəf müəyyənləşmişdir:

- **Dinamik və sağlam institutlardan ibarət maliyyə sisteminin formalaşdırılması** - 2015-ci ildən etibarən xarici iqtisadi şoklar və milli valyutanın devalvasiyası şəraitində maliyyə sisteminin risk həssaslığı artmış və maliyyə göstəriciləri pisləşmişdir. Yeni çağırışların həlli istiqamətində bankların restrukturizasiyası və kapitallaşması, aktivlərin sağlamlaşdırılması, sığorta bazarının inkişafı, maliyyə inklüzivliyinin gücləndirilməsi istiqamətində tədbirləri əks etdirən strateji hədəflər müəyyən edilmişdir.
- **Maliyyə bazarlarının inkişafı** - Maliyyə bazarlarında investor və emitentlərin aktivliyi məhduddur. Məhdudlaşdırıcı amillərin aradan qaldırılması məqsədilə kapital və pul bazarının

inkişafı, bazar iştirakçıları üçün əlverişli mühitin yaradılması istiqamətində strateji hədəflər müəyyən edilmişdir.

• **İnfrastrukturun gücləndirilməsi** - infrastrukturun təkmilləşdirilməsi məqsədilə kredit məlumatlarının mübadiləsi sisteminin inkişafı, kreditorların hüquqlarının müdafiəsi üzrə işlək mexanizmlərin yaradılması, məhkəmə qərarlarının standartlaşdırılması və icra intizamının yaxşılaşdırılmasına yönəlmiş strateji hədəflər müəyyən edilmişdir.

• **Tənzimləmə və nəzarət mexanizminin təkmilləşdirilməsi** - Mövcud iqtisadi mühitdə maliyyə institutlarının risklərə həssaslığının artması və yeni risk zonalarının yaranması sektorda risklərin idarə edilməsi təcrübələrinin təkmilləşdirilməsini zəruri etmişdir.

• **Maliyyə savadlılığının yüksəldilməsi** - Buna nail olmaq məqsədilə maliyyə sistemi mütəxəssislərinin ixtisaslaşmasının dərinləşməsi və maliyyə savadlılığının artırılmasına yönəlmiş strateji hədəflər müəyyən edilmişdir **[10].**

Texnoloji şərtlərin inkişafı məhsuldar qüvvələrin inkişaf səviyyəsi, elm və təhsilin rolu, fundamental tədqiqatlar, dizayn işlənmələri, elmi intensiv və innovativ texnologiyaların istehsaldakı payı ilə müəyyən edilir. Yüksək texnoloji inkişaf səviyyəsinə (innovativ fəaliyyətə) sahib olan ölkələr dünya gəlirlərindən böyük payını sahib olurlar. Dünya iqtisadi böhranlarının texnoloji amilləri istehsal metodları, yeniləşməni stimullaşdırmaq üçün alətlər, istehsalın texniki və iqtisadi çevrilməsinin xüsusiyyətləri, texnoloji bazarının inkişaf səviyyəsi fərqləri ilə ortaya çıxan ziddiyyətlərlə müəyyən edilir. Davamlı inkişaf və yeni texnologiyaların tətbiqi prosesinin təmin edilməsi böhranın başlanğıcını təxirə salmağa imkan verir **[11].**

Sosial şərtlərin inkişafı dünya iqtisadi böhranlarının yayılmasında mühüm rol oynayır - bu, cəmiyyətin davranışı, müxtəlif tərəflərin (dövlətlərin, beynəlxalq təşkilatların və şirkətlərin) şəxsi maraqlarının və onların əldə olunma imkanların təsiri altında formalaşır **[12].** Cəmiyyətin davranışı sosial əhval-ruhiyyə, ehtiyacların ödənmə dərəcəsi və onların təmin edilməsinin gələcək perspektivləri, təhsil səviyyəsi, psixoloji xüsusiyyətləri və mənəvi-əxlaqi prinsiplər kimi amillərlə müəyyən edilir.

Demoqrafik şərait iqtisadi inkişafa və dünya iqtisadi böhranlarının təzahürünə müxtəlif təsir göstərir, bunlar əhalinin kəmiyyət və struktur xüsusiyyətləri ilə müəyyən edilir. Demoqrafik amillərə aşağıdakılar daxildir: əhali sayı, əhali sıxlığı, yaş quruluşu. Əhali sayı istehlak həcmini (dünya tələbatı) müəyyənləşdirdiyindən mühüm rol oynayır. Bölgələr və əhalinin sıxlığı, iş yerlərini planlaşdırmasında və biznesin qurulmasında vacib rol oynayır. Əhalinin yaş quruluşu əmək potensialını təşkil edir.

Mədəni-tarixi şərtlər tarixi hadisələrin, mədəni və dini xüsusiyyətlərin təsiri altında uzun müddət müəyyənləşir və formalaşır. Bu qrup amillər bacarıqları, davranış normalarını, dəyərləri, vərdişlərini, əhalinin ənənələrini, sosial davranış formalarını müəyyənləşdirir. Tərbiyə mədəniyyəti istehsal üsullarını, iş və istirahət prosesinin təşkilini əhəmiyyətli dərəcədə təsir edir və eyni zamanda iş aparmaq yollarını da müəyyənləşdirir. Çözülməmiş qalan dini və etnik ziddiyyətlər böhranlara gətirib çıxardır. Bu cür qarşıdurmaların artması müharibələrə, dini ekstremizmə, terrorizm və digər radikal hərəkətlər səbəb ola bilər.

İnformasiya şərtləri informasiya texnologiyalarının inkişaf səviyyəsi, informasiya kanalları, məlumatların yayılması mexanizmləri ilə müəyyən edilir. Dünya iqtisadi böhranlarının təzahüründə informasiya amillərinin formalaşmasında mühüm rolu cəmiyyətin yeni məlumatları qəbul etmə, ötürmə və mənimsəmə qabiliyyəti oynayır. Bununla belə, ölkənin inkişaf səviyyəsini və cəmiyyətin təhsilini nəzərə almaq lazımdır.

İnfrastruktur şərtləri bazar münasibətlərinin inkişafı üçün yeni bazar münasibətləri formalarının normal işləməsini və tənzimlənməsini təmin edən müvafiq təşkilati və hüquqi institusional çərçivənin formalaşdırılmasını tələb edir. Dünya iqtisadiyyatının quruluşuna uyğun olaraq beynəlxalq münasibətlərin və iş proseslərinin koordinasiyasını və tənzimlənməsini təmin edəcək bir institusional quruluş yaratmaq lazımdır. Bazar infrastrukturundakı balansın pozulması bazarda manipulyasiya etməyə imkan verir ki, bu da iqtisadi böhranın əmələ gəlməsi nəticələnir.

Bu günə qədər iqtisadi böhranların səbəbləri ilə bağlı vahid bir baxış yoxdur. Onlar, bir qayda olaraq, meydana gəlmə müddətinə və böhran proseslərinin yerləşdiyi ölkəyə görə fərqlənirlər.

Böhranlar obyektiv və subyektiv səbəblərdən də yarana bilir. **Böhran obyektiv səbəblərdən** - tsiklik (dövrü) modernləşmə və struktur dəyişmələri ilə bağlı baş verə bilər. **Böhran subyektiv səbəblərdən** - iqlimin xüsusiyyətlərindən irəli gələn təbiət hadisələri, idarəetmədəki nəzarətsizlik, özbaşınalıq və digər səhvlərdən, zəlzələlərdən vəs. baş verə bilər.

Böhran daxili və xarici səbəblərdən baş verə bilər. **Xarici səbəblər** - makroiqtisadi inkişaf strategiyası və ya dünyanın iqtisadi inkişaf meyllərindən, rəqabət, ölkədəki siyasi vəziyyətlə əlaqədar da ola bilər. **Daxili səbəblər** - isə marketinq strategiyasının riskliliyindən, daxili münaqişələrindən, istehsalın təşkilindəki çatışmazlıqlardan, idarəetmədəki qeyritəkmillikdən, innovasiya və investisiya siyasətindən irəli gəlir **[7].**

NƏTİCƏ

İqtisadi böhran - iqtisadi sistemdəki balansın əhəmiyyətli dərəcədə pozulmasıdır ki, bu da çox vaxt istehsal və bazar münasibətlərindəki normal əlaqələrin itməsi və qopması ilə müşayiət olunur. Bu da sonluqda məcmu tələb və məcmu təklif arasındakı makroiqtisadi tarazlığın pozulmasına gətirib çıxardır. İqtisadi böhranların formalaşmasını şərtləşdirən əsas amillər - siyasi, iqtisadi, maliyyə, texnoloji, sosial, demoqrafik, mədəni-tarixi, informasiya və infrastrukturdur. Bu amillərin hər birinin ayrı ayrılıqda iqtisadi böhranın formalaşmasında çox böyük təsiri və çəkisi vardır. Bizim fikrimizcə siyasi və maliyyə amilləri digərləri ilə müqaisədə kəskin təsirə malikdir. Beləki siyasi amillər mövcud geosiyasi quruluş modellərinin məhv edilməsi və yeni siyasi quruluş formalarının meydana çıxması prosesində yaranan müvafiq amilləridir. Siyasət dünyadakı mülkiyyət hüquqlarının yenidən bölüşdürülməsi və gücün dünya liderlərinin əlində cəmlənməsi üçün bir vasitədir və ziddiyyətlərdən qaçmaq sadəcə mümkün deyil. Qlobal iqtisadiyyat və maliyyə bazarlarında müşahidə edilən proseslərə çevik adaptasiya birbaşa maliyyə sektorunun qarşısında duran ən vacib amillərdir.

İqtisadi böhranların əmələ gəlmə səbəbləri ilə bağlı vahid bir baxış olmadığından, bunları obyektiv, subyektiv, daxili və xarici səbəblər kimi qiymətləndirirlər.

Ədəbiyyat siyahısı

1. Portfolio of Economic Crisis. https://www.globalassignmenthelp.com/free-samples/portfolio-of-economic-crisis
2. Киндлбергер Ч., Алибер Р. (2010). Мировые финансовые кризисы. Мании, паники и крахи. – СПб.: Питер, 2010. – 544 с.
3. Simola S. (2014). Teaching corporate crisis management through business ethics education. European Journal of Training and Development. 2014;38(5):485-503. DOI: 10.1108/EJTD-05-2013-0055
4. Kayes D.C., Allen N.C., Self N. (2012). Integrating learning, leadership, and crisis in management education: Lessons from army officers in Iraq and Afghanistan. Journal of Management Education. 2012;37(2):180-202. DOI: 10.1177/1052562912456168
5. Блауг М (2004). Методологии экономической науки, или как экономисты объясняют. Пер. с англ. / Науч. ред. и вступ. ст. В.С.Автономова. – М.: НП «Журнал Вопросы экономики», 2004. – 416 с
6. Хоош Я. (1974). Факторы экономического роста / Янош Хоош; [пер. с венгерского языка Э. Э. Ботизи]. – М. : Экономика, 1974. – 223 с.
7. Həsənov H. K. (2013). «Antiböhranlı idarəetmə» (dərs vəsaiti) – Bakı Biznes Universitetinin nəşri, səh 168.
8. QBR (2001). Глобалізація і безпека розвитку: Монографія / [Білорус О. Г., Гончаренко М.О., Зленко В. А. та ін.]; кер. авт. кол. і наук. ред. О. Г. Білорус. К.: КНЕУ, 2001. – 733 с
9. EC (2020). Chen J., Robert C.Kelly, Economic Conditions. Nov 27, 2020 https://www.investopedia.com/terms/e/economic-conditions.asp
10. SYXM (2016). Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Bakı, 2016, 60 s.

11. Чухно А. А (2010). Інституціонально-інформаційна економіка : підручник / А. А. Чухно, П. М. Леоненко, П. І. Юхименко ; за ред. акад. НАН України А. А. Чухна. – К. : Знання, 2010. – 687 с.

12. Нестик Т. (2004). Труд, капитал, энергия. Культурный, социальный и символический капиталы (обзорный материал) [Электронный ресурс] / Нестик Т. // О ситуации в России. Альманах «Восток». – № 2(14), февраль. – 2004. – Режим доступу: http://www.situation.ru/app/j_art_325.htm.

SUSTAINABLE DEVELOPMENT ISSUES IN AZERBAIJAN IN RECENT YEARS

Nigar Huseynova Doktorant, müəllim
Bakı Biznes Universiteti
nigarrahmanovna@gmail.com

In the short period after the restoration of state independence, despite the very serious difficulties faced by Azerbaijan, it has undergone a great development, stable and secure, modern, democratic, legal and secular country, gaining a reputation in the world as a reliable partner. By the great strategy of President Ilham Aliyev, the great leader Heydar Aliyev's ideas become a reality and find their historical confirmation. Undoubtedly, the far-sighted policy, high intellectual level, analytical intelligence, rich experience and great skill in socio-political processes, public administration and foreign policy play a decisive role in achieving all these successes. It is no coincidence that as a result of the policy pursued by President Ilham Aliyev, who declared in 2003 that he would turn Azerbaijan into a powerful state, our country is the political, economic and cultural center of the region, initiator and active participant in global energy and transport projects. It joined the ranks of the countries that launched satellites into space, and a few years ago was elected a member of the UN Security Council with the support of most countries around the world. I would like to emphasize a number of strategic directions of this policy.

President Ilham Aliyev's socio-economic development strategy stipulates the definition of specific goals and objectives for the development of each area and ways to achieve them. In order to sustainably improve the living standards of citizens, which is the main goal of this strategy, systematic measures have been taken to diversify the economy, increase competitiveness, develop entrepreneurship, open modern enterprises, expand access to new markets and other areas.

At the same time, thousands of kilometers of modern roads and road junctions have been built, railways, airports, power plants, reservoirs and other infrastructure facilities have been put into operation, all of which contribute to the growth of the country's economic power.Complex geopolitical and economic processes in the world in recent years, a sharp drop in crude oil prices, the devaluation of the national currencies of our major trading partners and other negative factors have affected the Azerbaijani economy and reduced the country's revenues. However, in accordance with the potential created in previous years and the new economic conditions, institutional, monetary, financial, etc. radical reforms, continuous improvement of the business and investment climate, measures taken to develop entrepreneurship have made it possible to minimize these negative effects, and the implementation of social programs has continued.

It is no coincidence that in the Global Competitiveness Report 2016-2017, which covers 138 countries, as a result of reforms, Azerbaijan has improved its position by 3 points compared to last year, rising from 40th to 37th place, and continues to lead in the CIS.

The oil strategy authored by the great leader Heydar Aliyev is crucial for the sustainable economic development of Azerbaijan. It was the successful implementation of the oil strategy that played a locomotive role in the development of other sectors of the economy. The implementation of international projects of global importance in the field of energy, in addition to increasing the economic potential of our country, also serves to expand regional and international cooperation.In this regard, the Baku-Tbilisi-Ceyhan and Baku-Tbilisi-Erzurum oil and gas pipelines, which play an

important role in ensuring energy security not only in the region but also in Europe, were put into operation in 2006-2007, the Southern Gas Corridor in 2014, in 2015 the foundation of TANAP was laid in.

The importance of the Southern Gas Corridor project, initiated and led by Azerbaijan, should be emphasized. The project envisages full-scale development of the Shah Deniz gas condensate field and delivery of Azerbaijani gas reserves to European markets through the relevant infrastructure. The project will make a valuable contribution to strengthening Europe's energy security.

At the new stage, the President in ensuring the sustainability of the country's economic development, preventing the negative effects of the crisis trends in the world economy .Ilham Aliyev's policy of economic diversification plays a decisive role. One of the most important directions of this policy is the complex measures taken in connection with industrialization and the development of the non-oil industry. In recent years, the pace of industrialization in the country has increased, and the improvement of the regional structure of industry has become one of the main priorities.

One of the main directions in the field of industrialization is the application of the latest technologies. Along with the expansion of metallurgy, mechanical engineering, chemistry, production of construction materials, food and other traditional industries, new industries have been created. Thus, with the launch of the first artificial satellite into orbit, the foundation of the space industry was laid. In a short period of time, the defense industry has already equipped our army with modern weapons, and its products have been successfully demonstrated at international exhibitions and sold to developed countries. A number of enterprises have been launched in the field of alternative and renewable energy, and new promising projects are being implemented. With the launch of the shipyard, a completely new branch of industry was established, and according to the production profile, this enterprise has no analogues in the region.

Only in recent years, large industrial enterprises based on modern technologies, such as gypsum, large-scale transformers, modern building materials, metal structures, cement, solid waste incineration and sorting plants in Baku, Gazakh and Nakhchivan have been established. As a result of the launch of new industrial enterprises, dependence on imports for a number of construction products has been reduced, and demand has been met through local production. In addition, plants based on new technologies in the metallurgical and chemical industries have been opened. In order to develop traditional industries, Azerkhalcha OJSC has started construction of carpet workshops in 10 regions and will be completed in the first half of next year. As a result, 1,600 new jobs will be created.

Expansion of innovative production in accordance with the requirements of the new era is an important factor. It is no coincidence that the President declared 2014 the "Year of Industry" in Azerbaijan. One of the main directions of the "State Program for the Development of Industry in the Republic of Azerbaijan for 2015-2020", which is currently being successfully implemented, is to strengthen the activities of industrial and technology parks, the creation of industrial zones. Sumgayit Chemical Industry, Balakhani Industrial and Garadagh Industrial Parks, established by the relevant decrees and orders of the President, are already operating. Work is underway to organize Mingachevir and Pirallahi Industrial Parks. Stimulating measures are implemented for residents in industrial parks and zones.

As the whole world knows, the greatest success of the Republic of Azerbaijan in 2020 was in the Second Karabakh War was to liberate their lands from occupation.Socio-economic development and restoration of the liberated territories, which are currently of strategic importance, is one of the priority directions of socio-economic development of the country's economy in the next 10 years. Very strong work has been started in this direction on the instructions of the President.

AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAF MODELİ

MÜASİR DÖVRDƏ AZƏRBAYCANDA REALLAŞDIRILAN İNKLYUZİV İNKİŞAF STRATEGİYASININ KONSEPTUAL ƏSASLARI VƏ ƏSAS İSTİQAMƏTLƏRİ

Məhiş A. Əhmədov, i.e.d., prof.
Azərbaycan Dövlət İqtisad Universiteti(UNEC)
"İqtisadiyyatın tənzimlənməsi" kafedrasının müdiri
mehishahmedov@gmail.com

Xülasə

Məqalədə Azərbaycanın inklyuziv artım konsepsiyasına keçidin təmin edilməsinin problemləri, nəzəri-metodoloji və əməli baxımdan araşdırılır. Inklyuziv artım konsepsiyası ilə bağlı mövcud konsepsiyaların GZİT təhlili və dəyərləndirilməsi belə bir qənaətə gəlməyə əsas verir ki, inklyuziv artım hər şeydən əvvəl əmək potensialından optimal istifadə etmək, səmərəli məşğulluğu təmin etmək, yoxsulluğu və onun neqativ nəticələrini minimuma endirmək, müxtəlif sosial qruplar arasında gəlirlərin səviyyəsində mövcud olan kəskin fərqləri aradan qaldırmaq, eləcə də müxtəlif regionlar arasında yaşayış səviyyəsində, xüsusən sosial infrastruktur təminatında olan bərabərsizliyi azaltmaq, ümumən, insanın hər tərəfli inkişafını, həmçinin səhiyyə, təhsil xidmətlərinin əlçatan olması zəruridir. O da bir həqiqətdir ki, davamlı inkişafa keçidi təmin etmədən əslində inklyuziv inkişaf tipinə keçid mümkün deyildir. Daha sonra Azərbaycanın konkret materialları əsasında inklyuziv artım konsepsiyasına keçidin imkanları, başlıca yolları, xarakterik cəhətləri və mexanizmləri GZİT təhlil əsasında dəyərləndirilir, üstün istiqamətlər müəyyənləşdirilərkən xüsusi qeyd olunur ki, ölkəmizin inklyuziv inkişafa keçidini təmin etmək üçün işlənib hazırlanan inklyuziv inkişaf strategiyasında ölkəmizdə innovasiya yönümlü investisiya siyasətinin formalaşdırılması və reallaşdırılması, perspektiv dövrə tətbiqən davamlı inkişafı təmin etmək üçün müvafiq sosial infrastrukturun yaradılması, ümumi daxili məhsulun strukturunda insan kapitalının xüsusi çəkisinin kəskin artırılmasını, effektiv sosial siyasəti reallaşdırmaq üçün zəruri institusional strukturların yaradılmasını və inklyuziv inkişafa keçidi milli prioritetə çevrilməsi mühüm əhəmiyyət kəsb edir. O da xüsusi vurğulanır ki, ölkəmizin malik olduğu resurslar balansı, onlardan istifadə dərəcəsi, son illərdə sosial-iqtisadi inkişafda əldə olunan nailiyyətlər ölkəmizə yaxın gələcəkdə onun inklyuziv iqtisadi artım konsepsiyasına kecidinə imkan verəcəkdir.

Sonda ölkəmizdə inklyuziv artım konsepsiyasına keçidi təmin etmək üçün həyata keçirilən sosial inkişafın, sosial tərəqqinin və sosial təminat sisteminin effektiv həyata keçirilməsi mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı konkret təklif və tövsiyyələr irəli sürülür.

Açar sözlər: **inklyuziv artım konsepsiyası, dayanıqlı inkişaf, inklyuziv inkişaf, Strateji yol xəritəsi, inkişaf konsepsiyası, sosial inkişaf, sosial təminat sistemi.**

Müstəqillik illərində Azərbaycanda sosial-iqtisadi inkişafın bütün istiqamətləri üzrə əldə olunan nəticələr, yaradılmış iqtisadi, sosial, maliyyə potensialı, insan kapitalı, infrastruktura, institusional baza, habelə əhalinin sosial rifahının yaxşılaşması səviyyəsi ölkəmizdə inklyüziv inkişafa keçidi əməli bir problem kimi qarşıya qoymağa və onu mərhələ-mərhələ reallaşdırmağa imkan verdi. Qeyd olunanları nəzərə alaraq ölkə prezidenti lham Əliyevin 2 fevral 2021-ci il sərəncamı ilə təsdiqlənmiş '"Azərbaycan 2030 sosial inkişafına dair'' təsdiqlənmiş strateji sənəddə " Dinamik , inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət "in qurulması növbəti 10 illik üçün 5 Milli prioritetdən biri kimi müəyyənləşdirilmişdir. Eyni zamanda onu da qeyd etmək lazımdır ki , son ildə koronovirus pandemiyası nəticəsində dünyanı bürüyən iqtisadi, sosial humanitar böhran, habelə milli iqtisadiyyatın inkişafında neft amilinin rolunun nisbətən məhdudlaşması bütünlükdə iqtisadi inkişafın xarakterinə qlobal təzyiqlərin artması, iqtisadi artım amillərini, meyarlarını, sosial yönümünü, hərəkətverici qüvvələrini prinsiplərini reallaşdırma mexanizmlərini deformasiyaya uğratdı.

Qeyd etmək lazımdır ki, ölkəmizdə sosial-iqtisadi inkişafın xarakteri, onun inklyuzivliyi Azərbaycanın Konstitusiyası ilə şərtlənir. Konstitusiyasının "İqtisadi inkişaf və dövlət" bölməsinin 15-ci maddəsində göstərilir: "Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafı müxtəlif

mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edir. Azərbaycan dövləti bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir"[1]

Dünya təcrübəsində və mövcud iqtisadi ədəbiyyatlarda sosial yönümlü bazar iqtisadiyyatına, başqa sözlə inklyüziv inkişaf anlayışınaın mahiyyətinə, göstəriçilərinə, indikatorlarına, onların təmin olunması imkanlarına, yollarına və reallaşma mexanizminə dair vahid bir yanaşma yoxdur. Belə ki, belə, "Avropa 2020" strategiyasını hazırlayan komissiyanın rəyində göstərilir ki, inklyüziv inkişaf ölkənin əmək potensialından dolğun istifadə, tam məşğulluğun təmin edilməsi, yoxsulluğun və onun nəticələrinin azaldılması, müxtəlif sosial qruplar arasındakı gəlirlərin səviyyəsindəki fərqlərin minimuma endirilməsi, bütünlükdə sosial inkişafa nail olunmasını, ölkə regionlarının arasındakı mövcud disproporsiyaların aradan qaldırılmasını və s. nəzərdə tutur. Zənnimizcə, inklyüziv inkişaf anlayışına belə yanaşma diqqəti daha çox cəlb edir. Eləcə də, eyni zamanda, XXI əsrin ilk onilliyində elmi ədəbiyyatda daha çox inklyüziv inkişaf anlayışını bəzi iqtisadçılar daha geniş mənada şərh edirlər ki, inklyüziv inkişaf ancaq ÜDM-in artımı ilə deyil, eyni zamanda insan kapitalının hər tərəfli inkişafını, cəmiyyətdə gəlirləri yaradan insanların ölkənin ümumimilli gəlirlərində payının artırılmasını, onların ölkənin iqtisadi həyatında fəal iştirakını, təhsil və tibbi xidmətin az təminatlı əhali qrupları üçün əlçatan olmasını, məhsul və xidmət vahidinə çəkilən xərclərin aşağı salınması, habelə təbii resurslardan səmərəli istifadəsini, ətraf mühitin qorunması problemlərini də özünə daxil etməlidir. Ayrı-ayrı ölkələrin inklyüziv inkişaf konsepsiyasına keçidinin mümkünlüyü və real vəziyyətin təhlili göstərir ki, bütünlükdə milli iqtisadiyyatların inkişaf səviyyəsi və seçdiyi iqtisadi inkişaf modeli bu prosesin sürətinə və xarakterinə mühüm təsir göstərir. Onu da xüsusi qeyd etmək lazımdır ki, son illərdə müstəqillik əldə etmiş post-sovet respublikalarında və eləcə də milli münaqişələrə cəlb olunmuş ölkələrdə inklyüziv inkişafın təmin edilməsi mümkünlüyü daha geniş müqayisədə iqtisadi, sosial və siyasi amillərin təsirinə məruz qalırlar. Bu baxımdan, Azərbaycanın inklyüziv inkişaf konsepsiyasına keçidinin mümkünlüyü dəyərləndirilərkən Vətən müharibəsi nəticəsində Qarabağ regionunun işğaldan azad olunması və həmin regionunun bərpası, dirçəlişi, qaçqın və köçkünlərin əbədi torpaqlarında məskunlaşması və bütünlükdə bu regionunun ölkənin milli iqtisadiyyatına səmərəli, optimal reinteqrasiyası ilə bağlı yaranan yeni iqtisadi-sosial reallıq nəzərdən qaçırılmamalıdır. Bütün qeyd olunanlar belə bir fikri təsdiqləyir ki, ölkəmizin inklyuziv inkişafa keçidi idarə olunan, tənzimlənən, sistemli bir proses kimi həyata keçirilməlidir. Çünki, bütünlükdə ölkə üzrə rifahda bərabərliyi, gəlir və istehlakdakı mövcud olan qeyri-bərabərliyi aradan qaldırmadan, eyni zamanda cəmiyyətin bütün üzvləri üçün yaşamaq hüququnu, azadlıq hüququnu layiqli əmək hüququnu, bütünlükdə inklyuziv cəmiyyətdə yaşayışını təmin etmək üçün zəruri, iqtisadi, sosial mühit və normativ-hüquqi baza yaradılmalıdır.

Inkişaf etmiş ayrı-ayrı ölkələrin inklyuziv inkişaf konsepsiyasının təhlili göstərir ki, fundamental prinsiplər eyni olsa da lakin, hər bir ölkənin iqtisadi inkişaf səviyyəsindən, sosial-iqtisadi-humanitar proseslərin tənzimləmə modelindən, milli mentalitetdən asılı olaraq fərqli cəhətlərə, habelə hər bir konkret dövr üçün prioritetlər və reallaşma mexanizmləri vardır. Bu baxımdan ölkəmizdə inklyuziv inkişaf konsepsiyasını işləyib hazırlayarkən ölkəmizin mövcud iqtisadi-sosial reallıqları, qlobal çağırışlar, milli, regional, yerli maraqlar da nəzərə alınaraq bu problemə differensial yanaşmaq lazımdır. Ölkəmizdə inklyuziv inkişaf konsepsiyasını və onun prioritetlərini müəyyənləşdirərkən hökmən Azərbaycan Respublikasında inklyuziv inkişaf indeksinin səviyyəsini müəyyən edən amillər də nəzərə alınmalıdır.

Mövcud iqtisadi ədəbiyyata və müvafiq dövlət sənədlərinə əsaslanaraq Azərbaycan Respublikasında inklyuziv inkişaf indeksinin artımını təmin edən amilləri aşağıdakı kimi müəyyənləşdirə bilərik:

- Son onillikdə ÜDM-in dəfələrlə artması; Adambaşına ÜDM-nin dəfələrlə artımı; Yoxsulluq səviyyəsinin kəskin azaldılması; Ölkənin xarici borcunun ÜDM-nin 20% -dən az olması; Demoqrafik asılılığın aşağı səviyyədə olması; Cini indeksinin G7 ölkələri ilə müqayisədə aşağı olması; ÜDM-nin hər vahidinə görə atmosferə atılan CO_2 –nin dəfələrlə azalması; Median gəlirlərin əhəmiyyətli artımı və s.

Bu da bir həqiqətddir ki, inklyüziv inkişaf konsepsiyası əslində davamlı inkişaf modelinin tərkib hissəsi kimi nəzərdən keçirilməlidir. Son illərdə beynəlxalq aləmdə davamlı inkişafın sosial

və humanitar aspektlərin gücləndirilməsi, eyni zamanda həmin məqsədlərin əməli cəhətdən reallaşdırılması zərurəti daha da aktuallaşmışdır. Belə ki, BMT-nin 2015-ci ilin sentyabr ayında kecirilən sammitində qəbul olunan davamlı inkişafın məqsədlərinə uyğun olaraq davamlı inkişaf məqsədlərinin icrasını təmin etmək üçün problemə institusional və iqtisadi baxımdan kompleks yanaşmanın zəruriliyi xüsusi vurğulanmalıdır. Həmin məqsədlərin səmərəli reallaşmasını təmin etmək məqsədi ilə Azərbaycanda Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılmışdır.

Qeyd etmək lazımdır ki, Azərbaycan bu gün iqtisadi inkişafın elə bir mərhələsinə daxil olmuşdur ki, onun gələcək inklyüziv inkişafı daha çox təbii resursların dövriyyəyə cəlb olunmasına deyil, ölkənin bütün resurs potensialından xüsusən, insan kapitalından səmərəli və optimal nisbətdə istifadə edilməsinə əsaslanmalıdır. Bu gün milli iqtisadiyyatımız artıq özü öz inkişafını, rəqabətqabiliyyətliliyini yüksəltmək, təhlükəsizliyini təmin etmək, ən başlıcası isə sosial problemləri həll etmək imkanlarına malikdir. O da bir həqiqətdir ki, Azərbaycanın dünya iqtisadiyyatına fəal inteqrasiya olduğu müasir şəraitdə bütün sahə və istiqamətlər üzrə zəruri sistemli, məntiqi islahatlar aparmadan inklyüziv inkişaf konsepsiyasına keçməsi mümkün deyildir. Qeyd olunanları nəzərə alaraq son vaxtlar ölkəmizdə dəyişən iqtisadi konyunkturaya və iqtisadi reallıqlara uyğun islahatlar strategiyası işlənib hazırlanmış və əməli cəhətdən uğurla reallaşdırılır.

Son illərdə ölkəmizdə inklyuziv inkişafla bağlı həyata keçirilən islahatlar ümumən: investisiya-innovasiya; sahibkarlıq mühitinin yaxşılaşdırılması; investisiyanın təşviqi; struktur və institusional islahatların aparılması; milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsi; qeyri-neft sektorunun və ixracının inkişafının stimullaşdırılması; gəlir gətirən əmək tutumlu sahə və istehsalatların inkişafına dövlət dəstəyi; əməkhaqqı, pensiya və sosial-müavinət sisteminin təkmilləşdirilməsi; «Made in Azerbaijan» brendinin təşviqi və s. istiqamətlər üzrə qruplaşdırmaq olar. Məhz bütün bu işlərin məntiqi nəticəsidir ki, Dünya Bankı tərəfindən yayımlanmış "Doing Business - 2020" hesabatında Azərbaycan dünyanın 10 ən islahatçı dövlət siyahısına daxil edilmiş və 2020-cu ildə dünyanın ən çox islahat aparan ölkəsi elan edilmişdir.

Ölkəmizdə aparılan islahatların istiqamətləriə və xarakterinin qiymətləndirilməsi zamanı belə bir prinsipial yanaşmasını xüsusi qeyd etmək lazımdır ki, həyata keçiriləcək bütün iqtisadi islahatlar strategiyasının, tədbirlər sisteminin formalaşdırılması və reallaşdırılmasının istisna bilməyən şərti milli iqtisadiyyatın təhlükəsizliyinin təmin edilməsi, milli maraq və mənafelərin gözlənilməsi olmalıdır.

Ölkəmizdə inklyuziv inkişaf konsepsiyasına keçid məqsədilə həyata keçirilən milli iqtisadi inkişaf strategiyasının formalaşdırılması və inkişafının prinsipial müddəalarına və prioritetlərinə əsaslanaraq Azərbaycan Respublikasının Prezidentinin 16 mart 2016-cı il tarixli sərəncamında «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri»ndə ilk dəfə olaraq iqtisadi və sosial inkişafın ahəngdarlığının, indiki və gələcək nəsillərin maraq və mənafelərinin vəhdət halında həll edilməsi, habelə iqtisadiyyatın inklüzivliyinin artırılmasını strateji bir vəzifə kimi qarşıya qoydu. **Bu proqram** sənəddə Azərbaycan iqtisadiyyatının GZİT təhlili və 360 dərəcəlik diaqnostikası əsasında ölkəmizin rəqabət üstünlükləri, bütünlükdə inklüziv iqtisadi inkişafın fəlsəfəsi, paradiqması, prinsipləri öz əksini tapmışdır.

2003-2020-ci illərdə ölkəmizdə 3500-dən çox məktəb, 600 tibb müəssisəsi yenidən tikilib və ya əsaslı təmir edilmişdir. 48 olimpiya mərkəzi yaradılıb, 18 min kilometr avtomobil yolları tikilmişdir. Ölkə əhalisinin qazla təminatı 97%-ə çatmış, əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması sahəsində xüsusən, rayonlarda çoxsaylı layihələr həyata keçirilmişdir, nəticədə əhalinin içməli su ilə təminatı 75% səviyyəsindədir. Ümumən, 2004-2020-ci illərdə reallaşdırılan üc və hazırda reallaşdırılan 4 regionların sosial-iqtisadi inkişaf proqramlarının nəticələri daha sanballıdır.

Azərbaycanda inkyüziv inkişafın təmin edilməsində dövlət tərəfindən reallaşdırılan investisiyanın təşviqi proqramları xüsusi əhəmiyyətə malikdir. Qeyd etmək kifayətdir ki, 1 yanvar 2019-cu ilə kimi ölkəmizdə 107 layihə reallaşdırılır, cari ildə isə 332 layihənin reallaşdırılması nəzərdə tutulmuşdur. Bütün bu layihələrin reallaşdırılması ölkəmizdə 12 min yeni iş yerinin yaradılmasına səbəb olacaqdır. İnklüziv iqtisadi artımın təmin edilməsində ölkəmizdə uğurla reallaşdırılan özünəməşğulluq proqramının da rolu diqqəti cəlb edir. Bu proqram 2019-cu ildə 7000 nəfər əhalini əhatə etməklə onların işlə təminatı səviyyəsi yaxşılaşdıracaqdır. Məlumdur ki, ölkədə inkyüziv

inkişafın təmin edilməsində kiçik və orta sahibkarlığın inkişafı mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə "Ailə biznesinə asan dəstək" "ABAD" mərkəzlərinin yaradılması ölkəmizdə məşğulluğun səviyyəsinin yüksəldilməsinə öz töhvəsini verəcəkdir.

Təhlil göstərir ki, müasir dövrdə Azərbaycan iqtisadiyyatı əslində kəmiyyət dəyişikliklərindən keyfiyyət dəyişikliklərinə, səmərəliliyə əsaslanan iqtisadiyyata keçid mərhələsindədir. Belə ki, iqtisadi artımda intensiv amillərin xüsusən, elmtutumlu, habelə, ixtisaslı əməktutumlu sahələrin üstün inkişafı hesabına iqtisadi artımda intellektual kapitalın payı artmağa doğru meyil edir, qeyri-neft sektorunun ÜDM-də xüsusi çəkisi artır, idxal və ixracın strukturu təkmilləşir, milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyi tədricən yüksəlir. Ölkəmizin post-neft erası dövrünə daxil olması şəraitində inkyüziv inkişafın təmin edilməsinin çox mühüm istiqaməti qeyri-neft sektorunun inkişafı və diversifikasiyası ilə bağlıdır. Son illərdə bu istiqamətdə həyata keçirilən sistemli tədbirlər və dövlət proqramları nəticəsində qeyri-neft sektorunun ÜDM-də payı 65%-ə çatmışdır.

Təhlil göstərir ki, son illərdə ölkəmizin iqtisadi inkişaf sahəsində əldə etdiyi nəticələr və mövcud olan potensial onun rəqabət qabiliyyətini xeyli yüksəltmişdir. Dünya İqtisadi Forumunun 2019-cu ildə "Qlobal rəqabətlillik hesabatında" Azərbaycan 141 ölkə arasında 58-ci yerdə qərarlaşmışdır.

Onu da qeyd edək ki, Azərbaycanın "İnklüziv İnkişaf İndeksi 2018" hesabatında da inkişaf etməkdə olan ölkələr üzrə ilk üçlükdə, MDB məkanında isə birinci yerdə qərarlaşıb. Dünya İqtisadi Forumunun hesabatında Azərbaycan Litva və Macarıstan istisna olmaqla digər bütün inkişaf etməkdə olan ölkələri geridə qoyub.

Dünya təcrübəsi göstərir ki, müasir dövrdə insan kapitalı milli iqtisadiyyatların inkişafının, rəqabətqabiliyyətliliyinin yüksəldilməsinin, əmək məhsuldarlığının artırılmasının, ən başlıcası isə inkyüziv inkişaf konsepsiyasına keçidin təmin edilməsinin hərəkətverici qüvvəsinə çevrilmişdir.

Son 15 il ərzində bütün istiqamətlər və sahələr üzrə ölkəmizdə sosial-iqtisadi inkişafda əldə olunan nəticələr ölkə Prezidentinin iqtisadi inkişafın inklüzivliyini yüksəltmək məqsədilə çox ciddi sosial proqramları reallaşdırmağa imkan verdi. Belə ki, ölkə prezidenti 2019-cu il 25 fevral tarixli sərəncamı ilə "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" sərəncamı ilə böyük əhali qrupunun sosial müavinətlərini, 26 fevral 2019-cu il digər fərmanı ilə "Məcburi köckünlər və onlara bərabər tutulan şəxslər ücün vahid aylıq müavinətləri"n həcmini kəskin artırdı.

Ölkə prezidentinin digər 8 fevral 2019-cu il "Minimum əməkhaqqının artırılması haqqında"sərəncamı ilə minimum əməkhaqqı 38,5% artırılaraq 130 manatdan 180 manata qaldırıldı ki, bununla da minimum əməkhaqqının səviyyəsi yaşayış minimumu səviyyəsinə tam uyğunlaşdırıldı. 19 aprel 2018-ci il tarixdə 1997-ci il avqust ayının 2-dək şəhid olmuş hərbi qulluqçuların vərəsələrinə 11 min manat məbləğində birdəfəlik pul vəsaiti ödənilməsi habelə, "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" 14 fevral 2019-cu il tarixli sərəncamı ilə onların sosial vəziyyətini yaxşılaşdırmaq üçün elmlər doktoru hazırlığı üzrə doktorantların təqaüdləri 300 manat, fəlsəfə doktoru hazırlığı üzrə doktorantlara isə 180 manat məbləğində müəyyənləşdirildi, habelə bu sərəncamla magistrantların və tələbələrin təqaüdlərinin artırılması haqdaq sərəncam verdi. İnklüziv inkişafın təmin edilməsində ölkədə bütün əhali qrupları üçün səhiyyənin əlçatan olması mühüm əhəmiyyətə malikdir. Bunu nəzərə alaraq ölkə Prezidenti 20 dekabr 2018-ci il tarixli "Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncamı ilə tam fəaliyyətə başlayan icbari tibbi sığortanın tətbiqi ilə bağlı bütün işlərin 2020-ci ildən başa çatdırılması və tətbiqi nəzərdə tutulmuşdur.

Ölkə prezidentinin digər 27 fevral 2019-cu il tarixli "Əmək pensiyaları haqqında" sərəncamı ilə sosial və əmək pensiyaları əhəmiyyətli dərəcədə artırıldı. Ümumən son illərdə ölkəmizin əhalisinin sosial rifahının yaxşılaşdırılması sahəsində ciddi irəliləyişlər müşahidə olunur.

COVİD – 19 pandemiyası bütünlükdə hətta inkişaf etmiş ölkələrin, eləcə də Azərbaycanın sosial-iqtisadi inkişaf, xüsusən inklyuziv inkişafına, dinamikasına, xarakterinə, reallaşma mexanizminə, maliyyə imkanlarına, məşğulluğun səviyyəsinə, xüsusən az təminatlı ailələrin sosial vəziyyətinə habelə kiçik və orta sahibkarlığın fəaliyyətinə güclü neqativ təsir göstərdi. Koronavirus

pandemiyasının qeyd olunan neqativ təsirlərini minimuma endirmək üçün Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə kompleks tədbirlər sistemi müəyyənləşdirildi, ilkin olaraq 2020-ci ilin dövlət büdcəsindən qeyd olunan məqsədlər üçün 2,2 milyard manat vəsait ayrıldı. Inklyuziv inkişafı xarakterinə, insanların gəlirlərinin səviyyəsi ilə yanaşı təhsil və səhiyyə xidmətlərinin aztəminatlı ailələr üçün əlçatan olması üçün müvafiq tədbirlər həyata keçirildi. Belə ki, onu qeyd etmək istərdik ki, ölkə prezidentinin 2020-ci il 13 aprel tarixli 138 nömrəli qərarı ilə 2019-2020-ci tədris ilinin II semestri və 2020-2021-ci tədris ilinin I semestri üçün müvafiq olaraq 15,2 min və 13,9 min tələbələrin təhsil haqqı xərcləri dövlət büdcəsinin vəsaitləri hesabına ödənilmişdir. Insanların pandemiya şəraitində səhiyyə xidmətlərinə olan tələbatı keyfiyyətlə ödəmək üçün bu sahənin maddi-texniki bazasının və infrastrukturunun gücləndirilməsi ilə bağlı çox ciddi tədbirlər reallaşdırıldı.

Qeyd etmək lazımdır ki, ölkədə inklyuziv inkişafın mövcud reallıqlar şəraitində reallaşmasını təmin etmək üçün ölkəmizdə COVİD-19 pandemiyası dövründə məşğulluq və sosial rifah güclü dəstək tədbirləri həyata keçirilməyə başlandı. Belə ki, ölkə əhalisinin 48,1 %-nin başqa sözlə, 4,8 milyon nəfərini əhatə edən 4 istiqamət üzrə 12 tədbirlər sistemi həyata keçirildi. Bunlara ilk növbədə dövlət sektoru üzrə işçilərin işsizlik risklərinin qorunması və sosial müdafiəsi istiqaməti, qeyri-dövlət sektoru üzrə muzdlu işçilərin işsizlik risklərinin qorunması, sosial müdafiəsi, işsizlik və işdən azad olunmuş şəxslərin məşğulluğu və sosial müdafiə sistemi, əhalinin xüsusi həssas təbəqələrindən olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi, o cümlədən yaşı 65-dən yuxarı olan şəxslərə evlərdə sosial xidmətlərin göstərilməsi və sosial müdafiəsi, maddi yardımların, habelə enerji və kommunal xərclərdə əhəmiyyətli güzəştlərin edilməsi nəzərdə tutulmuşdur.

Post pandemiya dövrünün sosial sahədəki gərgin şəraitinə uyğun olaraq ölkəmizdə bütünlükdə əmək münasibətlərinin və demoqrafiyanın xarakterində də keyfiyyət dəyişiklikləri baş verdi. Belə ki, 2021-ci il yanvarın 1-nə muzdla işləyən işçilərin əmək haqqı 2,7% artmışdır. Ümumən, həmin işçilərin 53,8%-i dövlət sektorunda 46,2%-i isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir. Son il ərzində əhalinin sosial demoqrafik qrupları üzrə yaşayış minimumun məbləği 190 manata, o cümlədən əmək qabiliyyətli əhali üçün 201 manata, pensiyaçılar üzrə 157 manata, uşaqlar üzrə 170 manata çatdırılmışdır. Bu dövr ərzində bütünlükdə ölkəmizdə sosial müdafiə və sosial təminat istiqamətində ünvanlı sosial dövlət yardımı 2019-cu ilə nisbətən 5,1% artırılması ilə yanaşı sosial müavinətlər və təqaüdlər də 4,1% artırılmışdır. Vətən müharibəsindən sonra ölkəmizdə həyata keçirilən sosial siyasətdə şəhid ailə üzvləri, müharibə iştirakçılarına güclü sosial dəstək tədbirləri reallaşdırılır. Belə ki, 7 min şəxsə sosial dəstək tədbirləri, o cümlədən 3,6 min nəfər şəhid ailə üzvlərinə pensiya, müavinət təyin edilmiş, bir çoxlarının mənzilə və avtomobillərə olan ehtiyacları ödənilmişdir. Ölkə prezidentinin müvafiq göstərişinə əsasən işğaldan azad olunmuş torpaqlarda qaçqın və köçkünlərin məskunlaşması və onların normal həyat fəaliyyətlərinin bərpa olunmasına qədər onlara edilən maliyyə dəstəyi, güzəştlər davam ediləcək. Ölkəmizdə post pandemiya və post konflikt dövründə inklyuziv inkişafı təmin etmək üçün zəruri institusional strukturlar, o cümlədən dayanıqlı və operativ sosial təminat agentliyi fəaliyyətə başlamışdır (DOST)

Məlumdur ki, effektiv iqtisadi inkişaf strategiyasının işlənib hazırlanması və qəbul olunması milli iqtisadiyyatın inklüziv inkişafının təmin edilməsinin ilkin şərtidir. Çünki, son nəticədə reallaşdırılması nəzərdə tutulan inkişaf konsepsiyasının uğuru həlledici dərəcədə ölkədə mövcud olan tənzimləmə sisteminin nə dərəcədə səmərəli və optimal olmasından asılı olur. Beləliklə, iqtisadi inkişaf strategiyası işlənib hazırlanarkən ölkənin mövcud maliyyə və iqtisadi potensialı və multiplikator effektinin nəzərə alınması da ən vacib şərtlərdən biri hesab edilməlidir. Sosial-iqtisadi inkişafın xarakteri və dinamikasına qanunvericiliyin təsirinin obyektiv qiymətləndirilməsinin mühüm əhəmiyyətini nəzərə alaraq Azərbaycan dövləti daima öz fəaliyyətində sosial-iqtisadi inkişafla bağlı qəbul olunan bütün normativ-hüquqi aktların kifayət qədər güclü, intellektual yükə malik olmasına çalışır.

Onu da xüsusi vurgulamaq istərdik ki, son illərdə inklyüziv-iqtisadi artımla bağlı Azərbaycan dövləti tərəfindən qəbul olunmuş bütün proqramlar, layihələr, qarşıya qoyulan məqsədlər və həyata keçirilməsi nəzərdə tutulan tədbirlər vaxtında və keyfiyyətlə yerinə yetirilmişdir.

Nəticə

Ümumən Azərbaycan post pandemiya və post konflikt dövründə keyfiyyətcə yeni olan 2021-2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olur. Bunları nəzərə alaraq ölkə prezidentinin 2 fevral 2021-ci il sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair" 5 milli prioriteti müəyyənləşdirmişdir. Zənnimizcə həmin prioritetlərin uğurla reallaşdırılması ölkəməzən yaxın gələcəkdə inklyuziv inkişaf konsepsiyasına keçidinə imkan verəcəkdir.

Ümumən, son 15 il ərzində ölkəmizin sosial-iqtisadi inkişafının GZİT təhlili və 360 dərəcəli diaqnostikası əsasında dəyərləndirilməsi inklüziv inkişaf strategiyasının əsas prioritetlərini birincisi, inklyüziv inkişafa nail olunması üçün innovasiya yönümlü investisiya siyasətinin formalaşdırılmasını və reallaşdırılmasını, ikincisi, perspektiv dövrə tətbiqən ölkəmizdə davamlı inklyüziv artımı təmin etmək üçün müvafiq infrastrukturun yaradılmasını, üçüncüsü, Azərbaycanda dünya standartlarına və meyarlarına cavab verən milli innovasiya sisteminin formalaşdırılmasını, dördüncüsü, ölkənin ümumi daxili məhsulda intellektual kapitalın xüsusi çəkisinin kəskin artırılmasını, beşincisi, bazarın dəyişən şəraitə, tələb və iqtisadi reallıqlara uyğun olaraq zəruri institusional dəyişikliklərin aparılması kimi müəyyənləşdirməyə imkan verdi.

Pandemiyanın ölkə iqtisadiyyatına təsiri səbəblərindən, habelə məcmu tələbin komponentlərində azalma fonunda iqtisadiyyatın baza sahələri olan qeyri neft-qaz sənayesi və kənd təsərrüfatında artımın davam etməsinə baxmayaraq, bütövlükdə ÜDM real ifadədə 2020-ci ildə 2019-ci illə müqayisədə 4,3% azalmışdır. Azərbaycanda növbəti 10 illikdə milli prioritetlərin reallaşdırılmasının başlıca hərəkətverici qüvvəsi Vətən müharibəsi nəticəsində torpaqlarımızın işğaldan azad olunmuş 20%-nin yenidən təsərrüfat dövriyyəsinə cəlb edilməsi nəticəsində bu ərazilərin bərpası və dirçəlişi insanların bu torpaqlarda məskunlaşması, müvafiq iqtisadi, sosial bazar infrastrukturunun yaranması, bu işlərin həyata keçirilməsi üçün ölkəmizin maliyyə potensialının mövcudluğu, habelə bir çox xarici ölkələrin Qarabağın bərpası prosesinə cəlb edilməsi nəticəsində məşğulluğun kəskin artması, insan kapitalının inkişafı və bütünlükdə post-konflikt və post pandemiya dövründə yaranacaq əlverişli biznes, sahibkarlıq mühiti mühüm rol oynayacaqdır.

Məhz ölkədə həyata keçirilən uğurlu strategiyanın nəticəsidir ki, Dünya Bankının "Doing Biziness 2020" hesabatına əsasən dünya iqtisadiyyatında baş vermiş böhranlı 2020-ci ildə Azərbaycan mövqeyini 6 pillə yaxşılaşdıraraq 34-cü pillədən 28-ci pilləyə yüksəlmiş, növbəti dəfə dünyanın "Ən islahatçı 10 ölkəsi" sırasına daxil olmuşdur.

Ümumən, yaxın perspektivdə ölkəmizin inklyuziv inkişaf konsepsiyasına kecidin potensial imkanlarının reallaşdırılması, innovasiya yönümlü investisiya siyasətini formalaşdırılaraq reallaşdırılmasını, müvafiq istehsal –sosial yönümlü infrastrukturun yaradılmasını, milli innovasiya sisteminin formalaşdırılmasını, intellektual kapitalın ümumi daxili məhsulda xüsusi çəkisinin kəskin artırılmasına nail olunmasını, qloballaşan dünyada bazarın dəyişən şəraitinə və tələbinə müvafiq olaraq zəruri institusional dəyişikliklərin aparılmasını və post-pandemiya dövründə yaranan reallıqları nəzərə alaraq inklyuziv inkişaf baxımından keyfiyyətcə yeni iqtisadi inkişaf strategiyasının hazırlanmasını obyektiv zərurətə cevirmişdir.

Bütün bunlar bizə belə qənaətə gəlməyə tam əsas verir ki, qeyd olunan problemlərə, xüsusən koronavirus pandemiyasının yaratdığı çətinliklərə baxmayaraq müasir dövrdə ölkəmizin malik olduğu resurslar, onlardan istifadə dərəcəsi yaxın gələcəkdə hərəkətə gətirilə bilən potensialı nəzərə alaraq işlənib hazırlanan inklyüziv inkişaf strategiyası yaxın perspektivdə ölkəmizin milli iqtisadiyyatının dinamik və davamlı inklyuziv inkişafını təmin edəcəkdir.

Ədəbiyyat

1. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair prioritetlər" Azərbaycan qəzeti 3 fevral 2021-ci il
2. "Milli iqtisadiyyatın perspektivləri üzrə" Strateji yol xəritəsi. Prezident.az Bakı 2016
3. M.A.Əhmədov "Qloballaşma və milli iqtisadiyyatın formalaşması" Bakı 2005 səh. 326
4. "Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev strategiyası" Bakı 2019 səh. 38
5. E.Hacızadə "Azərbaycan və dünya iqtisadiyyatı" Bakı 2018 səh. 446
6. "Azərbaycan" qəzeti 24 may 2019

7.“Milli iqtisadiayyatın davamlı inkişafa keçid strategiyası: makroiqtisadi aspektlər və müasir reallıqlar” M.A.Əhmədov AMEA-nın Elmi Xəbərləri Bakı 2016

MİLLİ İQTİSADİYYATIN İQTİSADİ İNKİŞAF FƏLSƏFƏSİ

Saleh Məmmədov, i.e.d., professor
Bakı Mühəndislər Universiteti
samammadov@beu.edu.az

Milli iqtisadiyyatın formalaşması və inkişşafı fəlsəfəsi hər bir cəmiyyət üçün vacib nəzəri problemdir. Bu nəzəriyyənin işlənməsində ilk tədqiqatçı kimi məclisinə toplandığımız hörmətli alimimiz, akademik Ziyad Səmədzadənin xüsusi rolu olmuşdur.

Keçən əsrin 70-ci illərinə qədər Azərbaycan iqtisadiyyatı keçmiş SSRİ-nin tərkib hissəsi kimi müxtəlif sahələr üzrə təhlil olunmuşdur. Ümumi milli iqtisadiyyatın təhlilinə qətiyyən yol verilməmişdir.

1980-ci ildə o vaxtlar respublikaya rəhbərlik edən Heydər Əliyev AKP MK-nin plenumunda ilk dəfə olaraq Azərbyaycan Respublikasının sərvətlərinin Mərkəzi hökümət tərəfindən ədalətsiz bölgüsü məsələsini qaldırdı. Bu məruzənin əsas maddələri o vaxtın dövlət rəhbəri Heydər Əliyevin göstərişi ilə Ziya Səmədzadənin rəhbərliyi ilə mənim elmi rəhbərim, Maliyyə-kredit kafedrasının müdiri dosent Rafik Babayevin və mənim də iştirak etdiyim işçi qrupu tərəfindən hazırlanmışdır. Bu məruzədə ölkə başçısı Məhsuldar qüvvələrin yerləşdirilməsinin və milli gəlirin regional və ərazilər arası qeyri-bərabər bölgüsününün mahiyyətini, səbəblərini və nəticələrini açdı və Mərkəz qarşısında Azərbaycandan mərkəz fondlarına ötürülən resursların ciddi surətdə araşdırılması tələbini qoydu (uzun müddət idi ki, Mərkəz fondlarının yaradılmasında nisbi olaraq Azərbaycan keçmiş müttəfiq respublikalar arasında birinci yerdə dururdu, amma iqtisadi inkişaf səviyyəsində isə sonuncu yerlərdən birini tuturdu).

Sosial-iqtisadi inkişaf göstəricilərinə görə Azərbacan digər respublikalar içərisində 70-80-ci illərdə sonuncu yerlərdən birini tutmuşdur. Amma SSRİ-nin tərkibinə daxil olduqda respublikanın göstəriciləri birincilər, 50-60-cı illərdə isə ortabablar içərisində idi. Buna baxmayaraq açıq istismar səviyyəsinə görə 70-80-ci illərdə Azərbaycan birinci yerə çıxmışdır (bu dövrə qədər adətən çox aşağı olmuşdur). Poradoksal vəziyyət yaranmışdır. İnkişaf səviyyəsi ən aşağı olan olan respublika ən çox istismara məruz qalırdı. Bunun da əsas səbəbi respublika rəhbərliyinin cahanfəşanlığı, bir qırmızı bayraq, yaxud da vəzifə pillələrində bir addım irəli atmaq üçün bütün ölkəni qurban vermək istəyi olmuşdur. (Bax Cədvəl 2.b.1.)

Cədvəl 1. Keçmiş SSRİ respublikaları içərisində açıq istismar səviyyəsi.

Respub likalar	Adam baş.istif.olunan milli gəlir, rubl	Milli gəl-dən Mosk-ya ver-n (+) və alınan (-)vəsaitin payı,%	Respub likalar	Adam başına istif.olunan milli gəlir, rubl	Milli gəl-dən Mosk-ya ver-n (+) və al-n(-)vəs-n payı,%
Rusiya	2455	+5.3	Moldava	1899	-5.2
Ukrayna	1843	+7.3	Latviya	2674	-2.0
Belarus	2053	+10.1	Qırğıs-n	1375	-17.7
Özbək-n	1139	-8.1	Tajik-n	1096	-15.4
Qazağ-n	1900	-18.4	Ermən-n	1426	-18.3
Gürjüs-n	1817	+4.6	Türkm-n	1305	+3.7
Azərb-n	**1255**	**+24.9**	Estoniya	2820	-9.1
Litva	2549	-5.4	-	-	-

Cədvəldən məlum olur ki, Azərbaycan adambaşına düşən istifadə olunmuş milli gəlirə görə (1988-ci ilin məlumatlarına görə) Tacigistan müstəsna olmaqla bütün respublikalardan geri qalırdı. Bununla bərabər açıq istismar səviyyəsinə görə birinci yerdə durur və bu səhədəki kənarlaşma çox böyük idi, daha doğrusu ittifaq fonduna ən çox vəsait verən respublika olmuşdur. Əslində isə tam

əksinə olmalı idi. Aşağı inkişaf səviyyəsinə malik olan respublika ittifaq fondundan daha çox almalı idi ki, onun inkişaf səviyyəsi digəriləri ilə bərabərləşsin.

Qısa olaraq demək olar ki, həmin dövrdə hər ildə ölkənin inkişafına qoyulan cəmi kapital qoyuluşlarından iki dəfə çox vəsait əvəzsiz olaraq Moskvaya verilirdi

Təbii ki, bu məruzə mərkəzin qəti xoşuna gəlmədi və Heydər Əliyevə qarşı ciddi basqılar başladı. Heydər Əliyev bu çıxışı ilə Sovet bölgü sisteminə böyük zərbə vurdu, gizli saxlanılan bütün rəqəmləri açıqladı və Azərbaycanın ciddi istismara məruz qaldığını dünyaya sübut etdi, həm də Azərbaycan milli iqtisad elminin əsasını qoydu. Bütün iqtisad bölmələrinə ciddi göstəriş verdi ki, belə acınacaqlı vəziyyətin səbəbləri araşdırılsın, Azərbaycan iqtisadiyyatı Sovet iqtisadiyyatının tərkib hissəsi kimi deyil, bütöv bir orqanizm, müstəqil ölkə iqtisadiyyatı kimi tədqiq olunsun.

Heydər Əliyevin plenumda çıxışı da bu problemə həsr olunmuşdur. Məruzədən sitat gətirərək dissertasiyanı Moskvaya təqdim etdikdə Moskva alimləri təəccüblərini gizlədə bilmədilər. Sovet rejiminin kəskin vaxtında belə bir riskli çıxışa heç kim inanmırdı. Belə çıxışa görə hər kəs ciddi cəzaya düçar ola bilərdi.

Ən dəhşətlisi isə odur ki, millətin ziyalı olaraq irəli çıxardığı alimlər həm Heydər Əliyevi və həm də Ziyad Səmədzadəni hər vəhclə inkar etməyə çalışırdı. Həmin illərdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin bilavasitə rəhbərliyi altında bir neçə akademik və professorlar tərəfindən yazılmış və 1987-ci ildə (imperiyanın dağılması reallaşan və nisbi demokratikləşmə prosesinin getdiyi vaxt) Azərbaycan dövlət nəşriyyatı tərəfindən nəşr olunmuş kitabı (Sovetskiy Azerbaydjan: mifı i deystvitelnosti. Bakı-1987) nəzər salsanız hər şey aydın olar. Həmin kitabda müəlliflər əsil reallıqlırı əks etdirən Qərb iqtisadçı və politoloqlarını tənqid atəşinə tutaraq Sovet rejimini müdafiə edir, eyni zamanda sübuta yetirməyə çalışırdılar ki, guya Azərbaycan Moskvaya heç nə vermir, tam əksinə Moskvadan böyük məbləğdə dotasiya alır. Bu məqsədlə hətta rəqəmlər də uydudurdular və savadsızcasına bunu sübut etməyə çalışırdılar. Amma reallığı gizlətmək mümkün deyildi.



Qrafik 1. Azərbaycan Respublikasında açıq istismar səviyyəsi.

Nəzərə almaq lazımdır ki, istismar yalnız açıq formada deyil, həm də gizli həyata keçirilirdi. Bunlardan əsası qiymətlər vasitəsilə yerinə yetirilirdi. Respublikadan alınan mallar real dəyərindən xeyli aşağı qiymətə (bütün məhsulların qiymətləri Moskva tərəfindən təyin olunurdu) alınır və respublikaya gətirilən mallar isə real dəyərindən çox yüksək qiymətə satılırdı. Məsələn son vaxtların qiymətləri ilə nefti Moskva tonu 10 manatdan alırdı, amma onun beynəlxalq qiyməti heç vaxt 110-120 ABŞ dollarından aşağı enməmişdir, hətta 80-ci illərin əvvəllərində 290 dollara çatmışdır. Təqribi hesablamalar göstərir ki, bu yolla respublikanın ümumi milli gəlirinin Mərkəzə aparılması, yəni gizli iqtisadi istismar səviyyəsi Sovet dövründə heç vaxt 20 %-dən aşağı düşməmişdir.

1970-ci illərdə neftin və neft məhsullarının qiymətlərinin sürətlə yüksəlməsi gizli istismar səviyyəsinin güclənməsinə şərait yaratmışdır. Məsələ burasındadaır ki, 1970-ci ildən başlayaraq neftin qiyməti sürətlə artmağa başlamışdır. Əgər 1970-ci ildə bir ton xam neftin qiyməti 10,7 ABŞ

dolları olmuşdursa, 1971-ci ildə 13,5, 1975-ci ildə 70,6, 1981-ci ildə 229,0 dollar təşkil etmiş və bundan sonra yenidən yavaş-yavaş enərək 115-120 dollar ətrafında sabitləşmişdir.

İlk dəfə H. Əliyev və Ziyad Səmədzadə tərəfindən gündəmə gətirilən müstəqil milli iqtisadiyyatın formalaşmasının əsasını təşkil edən bu problemlər iqtisad institutunun gənc alimləri tərəfindən də araşdırılmışdır. Sonralar Azərbaycan Respublikası Xalq Təhsili Nazirinin –1991-ci il aprel tarixli əmri ilə Azərbaycan Dövlət İqtisad İnstitutunun nəzdində xüsusi prinsiplərlə çalışan "Sosial-iqtisadi inkişaf" elmi tədqiqat laboratoriyası yaradıldı. Elmi tədqiqat ocağı mənim rəhbərliyimlə fəaliyyətə başladı. Artıq laboratoriya yaradılan ərəfədə mən bu mövzuda həm namizədlik və həm də doktorluq dissertasiyasını müdafiə etmişdim. Laboratoriya tam təsərrüfat hesabı və özünü maliyyələşdirmə prinsipləri əsasında çalışırdı, böyük məbləğlərdə müqavilələrə malik idi. Bununla bərabər labaratoriyada ölkənin bazar iqtisadiyyatına keçid konsepsiyası, prosesin hüququ bazası və kadr potensialı, müstəqil milli iqtisadiyyatın qurulması və idarəedilməsi prinsipləri hazırlanmışdır.

İqtisadi inkişafın əsasını iqtisadi inkişaf fəlsəfəsi təşkil edir. Amma təəssüflər olsun ki, ümumiyyətlə beynəlxalq aləmdə bu mövzu diqqət mərkəzindən yayınmışdır. Bu mövzunun işlənməsi zamanı ilk əvvəl iqtisadi inkişaf fəlsəfəsi müəyyən edilmiş, Azərbayjan üçün onun spesifik xüsüsiyyətləri araşdırılmış və ölkənin iqtisadi inkişafı üçün iqtisadi inkişaf fəlsəfəsi əsas olaraq qəbul olunmuşdur.

İqtisadi inkişaf dedikdə milləti formalaşdıran fərdlərin iqtisadi güjünün artımı nəzərdə tutulur. Həmin fərdlərin iqtisadi gücünün artması məhz iqtisadi inkişafı müəyyən edir. Bu ümumi bir tərifdir. Amma bəzi fərdlər çox zəif də ola bilər, onların gücü çox aşağıya da enə bilər. Fərdlərin iqtisadi gücü dedikdə məcmuu və orta güc nəzərdə tutulur. Amma burada başqa suallar ortaya çıxır. Bu güc hər şey deməkdirmi? Bu güc tutaq ki, bir adamın gündə neçə odun kəsə bilməsi iləmi ölçülür, yaxud başqa meyyarlar da varmı? Əlbəttə, fərdlərin gücünün olması heç də hər şey demək deyil. Bir ölkənin fərdlərinin gücü ola bilər, amma reallaşmadığından güc kimi qiymətləndirilə bilməz. Bir azərbaycanlının və bir Yaponun iqtisadi güjünü müqayisə etsək görərik ki, iqtisadi güc etibarı ilə bir Yapon bir Azərbaycanlıdan təqribən 80 dəfə güclüdür, yəni, bu qədər çox istehsal etmək və ya qazanmaq gücünə malikdir. Bu ayrı-ayrılıqda hər kəsin öz ölkəsində görə biləcəyi işdir. Amma bu gün, tutaq ki, Rusiyada bir yapon bir Azərbaycanlı ilə elə eyni miqdarda istehsal edə bilir, bəzən fərdi olaraq Azərbaycanlı Yapondan güclü çıxa bilir. Mühiti yarada bilən cəmiyyətlər və uyğun olaraq sürətli inkişafı təmin edən ölkələr yaradıcı cəmiyyətlər sayılır, əks istiqamətdə qurulan ölkələr isə istehlakçı cəmiyyətlər adlanır. Yaradıcı cəmiyyətlər yaradıcı istiqamətlərə böyük miqdarda vəsait xərcləyir (ÜDM-un 3-5 %-i), təhsilə böyük miqdarda pul xərcləyir, investisiyalara, istehsalata və xüsusilə də əsas fondlara kapital qoyuluşuna vəsait xərcləyir. Yaradıcı cəmiyyətlərin istehsalı, mənfəəti çox yüksəkdir, ixracının əsas hissəsi elmi texnoloji məhsullardı. İstehlakçı cəmiyyətlər isə tam əksinə, əsas diqqəti istehlaka, ərzağa, dəbdəbəli həyata sərf edirlər. Azərbaycan, digər müsəlman ölkələri kimi əsasən istehlakçı cəmiyyət kimi formalaşmışdır. Elmə cəmi UDM—un 0,2%-ni, təhsilə 3,4 %-ni xərcləyir. İxracın 96%-i xammaldan ibarətdir. İllik patent sayı 100-150 - ni keçmir.

Zəruri mühit olmadığına görə potensial iqtisadi güc formalaşdırıla bilinmir. Bazar iqtisadiyyatına keçid elan olunduğu vaxtdan etibarən ölkədə leqal milyarder formalaşmamışdır. Amma münbit mühit olan ölkələrə köç edən Azərbaycan ətəndaşlarıicərı icərisindən 7 milyarder çıxmışdır. Hətta bu milyarderlərin bəzilərinin ümumi istehsalı 10 milyonluq Azərbaycanlının istehsalından çoxdur.

Buradan iki nəticə çıxarmaq olur:

Birincisi, iqtisadi güc olması heç də onun reallaşması demək deyil, bunun üçün həm də şəraitin, mühitin olması lazımdır. Mühit olmadıqda güc yalnız potensial olaraq qalır və iqtisadi inkişafa heç bir təsiri olmur. Belə mühit isə ayrı-ayrı fərdlər tərəfindən deyil, onların toplumları, qrupları (dövlətləri) tərəfindən yaradılır. Fərdlərin gücü və mühitin yarada bildiyi ümumi güc onların toplumlarının, dövlətlərinin gücünü müəyyən edir.

İkincisi isə, Azərbaycanın iqtisadi gücü çox böyükdür, lakin mühit olmadığından bu güc yalnız potensial olaraq qalır və bü gün də tam istifadə oluna bilmir. Hətta Azərbaycanda millət belə

gücün olmasından xəbərsizdir, ilk öncə millət öz gücünü qavramalıdır. İnsanların gücünün böyük olmasına baxmayaraq dövlətin bu gücün təzahürü üçün mühiti yaratmaq imkanları zəifdir. Bəzən hazırda dövlət nəinki fərdlərin gücünün artmasına kömək etmir, əksinə, bu gücün reallaşmasına mane olur və beləliklə də son nəticədə ümumi gücün zəifləməsinə şərait yaradır. İstifadə olunmadıqca isə güc zəifləyir, daralır. Əgər indi Əfqanıstanda və ya Türkmənistanda fəaliyyət göstərən idarəçilik mexanizmini olduğu kimi Sinqapura və ya Koreya Respublikasına abstract olaraq olduğu kimi tətbiq etsək bir neçə ilə eyni mənzərəni ala bilərik.

İnsanların iqtisadi gücü yalnız onların fiziki gücü ilə müəyyən olunmur. Fiziki güc iqtisadi gücə müsbət təsir edən amildir. Amma əsas güc zehni və təşkilati güclə müəyyən olunur. Əgər ayrı-ayrı fərdlərin fiziki gücləri ən çox birin beşə nisbətində fərqlənə bilərsə, zehni və ya təşkilati gücləri sonsuz ölçüyə qədər fərqlənə bilər.

İqtisadi inkişafın ən vacib hədəfi millətin potensial gücünü reallaşdırmaq və onun günü-gündən artırılmasıdır. Nə üçün bu güc reallaşa bilmir və artırılmır? Suala cavab vermək üçün bir sıra əlamətləri və xüsusiyyətləri təhlil etmək vacibdir. Burada proqramın tərtib olunması zamanı müəyyən etdiyim və iqtisadi inkişaf fəlsəfəsinin əsasında dayanan iki qanunu da göstərmək zərurəti var:

1. Fərdlərin gücü ilə yanaşı təbiətin də hər bir məmləkətə bəxş etdiyi nemətlər vardır. Bu nemətlər ayrı-ayrı məmləkətlər arasında tamamilə qeyri-bərabər bölüşdürülmüşdür. Təcrübə göstərir ki, təbii güc, bu nemətlər çox olan yerlərdə insanların məcmuu gücü az olur, çünki ehtiyaclar daha çox təbii güclə ödənilir. Amma təbii nemətlər olmayan yerdə insanların məcmuu gücü daha yüksək olur. İnsan gücü təbii gücdən fərqli olaraq istifadə olunduqca güc gətirir. İnsanlar məcburiyyət qarşısında qalaraq daha təsirli üsullar axtarır, daha çox güc sərf edirlər ki, bu da onların məzmun iqtisadi gücünün artmasına gətirib çıxarır. Buradan da iqtisadi inkişaf fəlsəfəsinin yuxarıda qeyd etdiyimiz qanunlarından birinin mahiyyəti meydana çıxır: Təbii ehtiyyatlarla insan gücünün tərs mütənasibliyi qanunu. Qanun aşağıdakı formada ifadə oluna bilir:

$$N\uparrow H\downarrow \text{ və ya } N=K/H \quad (1)$$

Burada, N - təbii ehtiyyatlarla təminlik dərəcəsini,
H - isə məcmuu insan gücünü,
K - mütənasiblik əmsalını göstərir.

Təbii ehtiyyalarla zənginlik səviyyəsi insanların müqavimət gücünə və bütövlükdə məcmuu gücünün formalaşmasına mənfi təsir edir. İnsan təbiətdən nə qədər çox müqavimət görürsə, ona qarşı bir o qədər müqavimət formalaşdırır və bununla da daha çox güc toplamış olur. Körpəliyindən meşələrdə heyvanların içində qalıb böyüyən insanlara (mouqlilərə) az rast gəlinməmişdir. Amma evdə böyümüş bir uşaq meşəyə buraxılası olsa, nələrin baş verəcəyi, o uşağın həmin şəraitə uyğunlaşa biləcəyi böyük sual altına düşüəcəkdir. Təəssüflər olsun ki, Azərbaycanda bu qanunun fəaliyyəti çox açıq formada özünü göstərir. Amma təbii ki, qanunun fəaliyyətindən dəyən zərəri azaltmaq və minimuma endirmək üçün tədbirlər görmək olar və proqramın bütün müddəaları məhz bu tədbirlər sistemi əsasında formalaşmışdır.

2. İqtisadi idarəçilikdə və iqtisadi inkişafda nə qədər dar çərçivədə insanlar iştirak etsə iqtisadi inkişafın səviyyəsi bir o qədər aşağı olmalıdır. Bu iqtisadi demokratiyanın mahiyyətini əks etdirir və iqtisadi inkişafın yuxarıda qeyd etdiyimiz ikinci qanununun məzmununu izah edir: iqisadiyyatın idarə olunmasında fərdlərin iştirak səviyyəsi ilə iqtisadi inkişafın düz mütənasib asılılığı qanunu. Qanunun qısa formulu belədir:

$$P\uparrow G\uparrow \text{ və ya } P=KG \quad (2)$$

Burada,
P - məjmuu insan iştirakı səviyyəsi indeksini,
G - isə istehsalın artım və səmərəlilik indeksini
K - mütənasiblik əmsalını ifadə edir.

İqtisadi inkişafda və iqtisadiyyatın idarə edilməsində nə qədər çox insan iştirak etsə və ya insanların bu prosesə qoşula bilmək səviyyəsi nə qədər çox olsa iqtisadi inkişafın sürəti və səmərəliliyi bir o qədər yüksək olacaqdır. Məhz buna görə də kommunist iqtisadiyyatı çökdü, ümumiyyətlə, diktatura rejimlərinin hamısında iqtisadiyyat zəif olur və irəliləmir. Bazar iqtisadiyyatında bir mühüm prinsip var. Həmin prinsip ondan ibarətdir ki, harada ki, dövlət iqtisadiyyat və ticarətlə məşğul olur, orada iqtisadiyyat çökür. Çünki, dövlət də abstrakt bir şey deyildir, o bir qrup insandan ibarətdir. Bir qrup insanın idarəçiliyi ilə milyonlarla əhalinin qarışdığı və iştirak etdiyi idarəçilik eyni ola bilməz. Müasir şəraitdə də Azərbaycanın iqtisadiyyatının idarə edilməsinə (həm də biznes fəaliyyəti nəzərdə tutulur) və iqtisadiyyatının inkişafı zamanı bu qanunauyğunluğa tam riayət olunmur. Buna görə də ölkəmizdə inkişaf və yüksəliş son dövrlərdə zəifləmişdir.

3. İqtisadi inkişafda başqa bir əlamət insanlar arasında gəlir bölgüsündə fərqlərin səviyyəsini normal ölçülər səviyyəsində tənzimləməkdən ibarətdir. Amma bu heç də kommunist rejimi şəraitində olduğu kimi hamıya bərabər bölgü demək deyil. Əksinə belə bölgü iqtisadiyyatı dayandıra bilər. Bunun iqtisadi inkişafa ciddi təsiri vardır. İnsanlar təbiət etibarı ilə bir-birilərindən fərqlidir. Ağıl, zəka, fiziki quruluş – hamısı fərqlidir. Təbii ki, onların gördükləri işlər də fərqli olacaqdır. Əgər bu işin nəticəsi olaraq hər kəsə eyni haqq verilərsə, daha çox çalışanlara haqsızlıq edilmiş olardı. Daha çox qabiliyyəti olan qabiliyyətini istifadə etməz və onu inkişaf etdirməz, investisiyalarını artırmaz, hər hansı əlavə iş görməz və ya öz üzərinə böyük məsuliyyət götürməz. Çünki bunun qarşılığını almayacaqdır. Bütün bunların nəticəsində potensial güc istifadə olunmaz və bütövlükdə iqtisadi inkişaf olmaz. Amma bununla bərabər bölgüdə həddindən artıq təbəqələşmənin yaranması da iqtisadi balansı poza bilər və sosial partlayışlarla nəticələnə bilər. Bölgüdə haqq və ədalət prinsipi və ehtiyacı olana yardım göstərilməsi iqtisadi inkişafın mühüm əsasını təşkil edə bilər.

4. Proqram üzrə nəzərdə tutulan iqtisadi inkişaf fəlsəfəsinin mühüm elementlərindən biri də qənaət sistemindən ibarətdir. Qənaət rejimi bütün istiqamətlərdə iqtisadiyyatın canına hopmalıdır. Bunun üçün isə iqtisadi sistem qənaət stimullaşdırıcı olmalıdır. Burada həm əmək, həm maddi və həm də pul ehtiyyatlarının qənaətlə istifadəsindən söhbət gedir. Bu gün istifadə olunan "mənimki deyil, nə işimə qalıb" prinsipi ilə yanaşma metodu kökündən dəyişdirilməlidir. Ölkədə milli mənafe ilə şəxsi, qrup və ya dövlət mənafelərini bir-birindən fərqləndirmək lazımdır. Şəxsi, qrup və ya dövlət mənafeləri milli mənafelərin tərkib hissələridir. (bax formula 3)

$$N=G+P, \quad (3)$$

Burada,

N – milli mənafeni,

G – dövlət mənafeyini,

P – isə şəxsi mənafeləri ifadə edir.

Şəxsi mənafelər qrup, partiya, birlik mənafelərini də formalaşdıra bilər. Formuladan göründüyü kimi toplananların yerində və qarşılıqlı həcmində dəyişiklik cəmdə mütləq dəyişiklik yaratmır. Buna görə də milli mənafelərin qorunması üçün hər yerdə, kimin mülkiyyəti olmasından asılı olmayaraq qənaət rejimi gücləndirilməlidir. Amma burada qənaət ediləcək deyə istehsalata və ümumiyyətlə cəmiyyətin inkişafına zərər verə biləcək daraldığı qənaətdən də qaçmaq lazımdır.

İctimai və siyasi şərait.

Azərbaycan uzun müddət tənəzzül dövrünü yaşamış, üç əsrdən artıqdır ki, müxtəlif dövrlərin əsarətində inləmiş, parçalanmış, əzilmiş və məhz bunlara görə də həm iqtisadi, həm mədəni və həm də milli inkişafda çox geri qalmışdır. Lakin əsrin əvvələrində parçalanmış Azərbaycan xalqının bir hissəsinin yaşadığı Şimali Azərbaycanda nisbi canlanma yaranmışdır. Bu əsrin əvvələrində Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən olan Bakıda neft hasilatının başlanması və Şimali Azərbaycanın tərkibində olduğu Çar Rusiyasında nisbətən demokratikləşmə prosesinin başlanması ilə əlaqədar olaraq ölkə sürətli iqtisadi inkişaf baş vermiş, xarici kapitalın axını yüksəlmiş, bu da elm və mədəniyyətə, mətbuat və musiqinin ciddi inkişafına təkan olmuşdur.

Milli və İqtisadi oyanış 1918 -ci ildə Şərqdə və bütövlükdə müsəlman aləmində ilk dəfə olaraq demokratik respublikanın qurulması ilə nəticələnmiş, ilk dəfə olaraq Azərbaycan öz taleyinə və

zəngin ehtiyatlarına sərbəst sərəncam vermək hüququ qazanmışdır: Amma bu sərbəstlik uzun sürməmiş və yeni yaranmış olan son dövrlərin ən qanlı imperiyası yenidən Şimali Azərbaycanı öz əsarətinə almış və sərasər 70 il istismar etmiş, milli hökümət qurulmuş ciddi iqtisadi və mədəni inkişafın bazası qoyulmuşdur.

Lakin tezliklə xarici müdaxilənin nəticəsində bunun qarşısı alınmış, dövlət çevrilişi baş vermiş və Sovet imperiyasının qalıqları yenidən ölkənin canına daraşmış və müstəqil dövlətçiliyini ala bilməsələr də iqtisadi qüdrətini sarsıtmış, respublikanı müflis vəziyyətinə salmışdılar. Keçmiş Sovet İttifaqının ən yüksək pilləsində yer almış böyük lider, təcrübəli siyasətçi, çevik sərkərdə rəhbərliyə dəvət olunmuş və ölkəni dərin böhrandan çıxarmağa və sabit inkişaf relsinə gətirməyə nail olunmuşdur. Azərbaycanın digər daha böyük hissəsi yenə də İranın tərkibində əyalət olaraq qalmaqda davam edir. Amma həm Sovet imperiyası və həm də postimperiya dövründəki əzab-əziyyət, boğulmalar ən başlıca qüvvə olan insanların müqavimət çox ciddi sürətdə artırmışdır. Cəmiyyətin təsir əks-təsirə bərabərdir qanunu burada özünü göstərmişdir.İnsanlar nə qədər çox sıxılmışlarsa, bir o qədər də mətinləşmiş, ümumi gücü artırmışdır. Amma buna baxmayaraq bu gücün artması heç də iqtisadi göstəricilərdə öz əksini tapa bilməmişdi. Nisbi göstəricilərə görə ölkənin inkişaf səviyyəsi hələ bu gün də 19-cu əsrin (1870-ci il) göstəriciləri səviyyəsinə qalxa bilməmişdir. Ölkə bütün dünya iqtisadiyyatının inkişafı səviyyəsinə uyğun sürət götürə bilməmişdir, başqa ölkələr daha sürətlə yüksəlişə nail olduğuna görə mütləq göstəricilərdə geriləmə olmamasına baxmayaraq nisbi inkişaf səviyyəsinə görə ciddi reqres müşahidə olunmuşdur (Bax Cədvəl 1).

Cədvəl 2. Adambaşına düşən Ümumi daxili məhsula görə Azərbayjanın dünya səviyəsinə və ən inkişaf etmiş-lider ölkələrin səviyyəsinə görə nisbəti, %-lə [2]

Azərbayjanın səviyyəsi	1870	1900	1913	1950	1973	2000	2020
Ümumdünya səviyyəsindən	114.6	96.4	96.6	133.2	105.8	9.5	40,1[3]
Lider ölkənin səviyyəsindən	31.0	26.5	28.0	29.6	26.2	1.83	3,9

Mənbəə: World Economic Outlook, May, 2000, July 2021 və Keçmiş SSRİ Dövlət Statistika Komitəsinin materialları əsasında tərtib edilmişdir.

Sovet sistemi dağıldıqdan sonra iqtisadi siyasətdə bir qədər dəyişik kurs götürüldü, riskin aradan qaldırılması məqsədi ilə ciddi tədbirlər görüldü. Bu zaman maddi resursların daha geniş formada mənimsənilməsi, istehlakçılığın daha da dərinləşməsi, amma maddi resurslar hesabına riskin aradan qaldırılması və böyük maliyyə rezervlərinin yaradılması yolu seçildi. Bu da yenə də inkişafa müsbət təsir etdisə də, ölkənin nisbi müqayisə səviyyəsini qaldırmadı və əsas gücün və məcmu immunitetin qaldırılmasına nail olunmadı. Ölkənin ərazi bütövlüyünün bərpası və qüdrətli ordunun yaradılması məcmu immunitetin formalaşmasında açığı nisbətən bağladı və bundan sonra ölkənin yaradıcı bir toplum halına gətirilməsi, inkişafın sürətlə yüksəlməsi, iqtidarın ölkəni inkişaf etmiş ölkəyə çevirmək imkanlarının reallaşması istiqamətində ilkin şərtlər yaradılmışdır.

Ümumiyyətlə, hazırda sürətlə inkişaf üçün əsas amillər hesab oluna biləcək bütün şərait yaranmışdır:

1.Ən vacib və başlıca amil olan insan amili yetişmişdir. İnsanların zehni və ruhi inkişafında artıq təməl yetişmə var. Sovet dövrünün son mərhələlərində insanlara qarşı həyata keçirilən mənəvi terror burada öz çirkin zilərini buraxsa da bütövlükdə proseslərə ciddi təsir edə biləcək insan potensialı yetişmişdir. Bu gün təhsil səviyyəsinə,iş bacarığına, mənəvi qabiliyyətinə və bir sıra digər xüsusiyyətlərinə görə Azərbaycan sakini dünyanın əksəriyyət ölkələrindən irəlilədir. Savadlılıq və iş bacarığına görə bir sıra dünyanın ən inkişaf etmiş ölkələri səviyyəsindədir. Amma bu yalnız potensial olaraq qalır. Bu potensialı işə salmaq üçün isə iqtisadi sistem qurulmalıdır. Elm və təhsil

[2] Лидер юлкя кими яввялки иллярдя (1870 вя 1900) Бюйцк Британийа, сонракы дюврлярдя (1913, 1950, 1973 вя 2000) ися АБШ, 2020-ci il üçün isə Luksemburq qəbul edilmişdir, Азярбайжанда ЦДМ вя йа Милли эялир статистикасынын апарылмасы дюврцня гядяр кечмиш ССРИ-нин рягямляри ясас эютцрцлмцшдцр.

[3] 2020-ci ilin rəqəmləri nominal dəyərə əsasən hesablanmışdır, lakin alıcılıq pariteti nəzəriyyəsinə görə təqribən orta ümumdünya səviyyəsindən 105% və lider ölkənin səviyyəsindən isə 16,8% təşkil etmişdir.

bu immunitetin formalaşmasında cox böyük rol oynayır. Lakin müstəqillik illərində bu olduqca vacib sahələrdə irəliləyiş əvəzinə Sovet dövrü ilə müqayisədə ciddi geriləmə müşahidə olunmuşdur. ÜDM-un 3-4 dəfə artımı şəraitində ölkənin elm xərcləri mütləq həcmdə 50% azalmışdır, bu heç bir başqa ölkədə rastlanmayan müstəsnalıq təşkil etmişdir. Yeni idarəetmə inqilabı kimi qiymətləndirilən rəqəmsallaşma prosesi tamamilə elmi prosesdi və cəmiyyətin inkişafında da inqilabi dəyişiliklər etməyə qadirdir. Bir çox tədbirlər görülməsinə baxmayaraq hələ də orta dünya səviyyəsindən irəli gedilməmişdir. Rəqəmsallaşmanın tamamlanması növbəti beş ildə ÜDM-un 3-4 dəfə artırılmasına imkan yaradacaq.

2. Azəbaycan orada yaşayan insanların iradəsindən asılı olmayaraq çox əlverişli bir geopolitik və coğrafi şəraitdə yerləşmişdir. Bu hər zaman Azərbaycan üçün bir üstünlük olmuşdur. Amma bu şəraitin əhəmiyyəti XXI əsrdə bir neçə dəfə artılıb. Bu isə Azərbaycanın körpü olduğu Cənubla Şimal, Qərblə Şərq arasında daha balanslı inkişafa şərait olacaq, Asiya regionunun inkişafı Avropaya yaxınlaşacaq, mümükündür ki, Asiya Avropa və Amerikanı qabaqlayacayaq. Beləliklə, bu körpü 21-ci əsrdə Azərbaycanın inkişafına xeyli kömək edəcək.

3. Hazırda böyük miqdarda təbii ehtiyatlar, neft, qaz, əlvan metallar və digər resurslar aşkar edilmiş və bunlardan müstəqil Azərbaycanın inkişafını təmin emək üçün lazımlı zəmində istifadə əldə olunmuşdur. Bu resurslar hesabına böyük miqdarda valyuta rezervləri yaradılmış, rəqəmsallaşma üçün ilkin şərtlər təmin olunmuşdur. Əldə olunan maliyyə rezervləri hesabına yalnız Azərbaycan deyil, bir neçə Azərbaycan kimi ölkələri sürətli inkişaf yoluna yönləndirmək olardı.

4. Aəzrbaycanın qonşu regionlarının Azərbaycanın iqtisadi potensialına uyğun olaraq inkişafı da bu dövrə təsadüf edir. Azərbaycanın istehsal etdiyi malları uzağa getmədən yaxın qonşu ölkələrdə rəqabətsiz bazalamaq imkanın əldə edilməsi sürətli inkişafın əsas amillərindəndir. Ən yaxın qonşu ölkələr Gürcüstan, Türkiyə, Ermənistan energetika məhsullarından böyük ehtiyacı olan ölkələrdirsə, onlarında istehsal etdiyi məhsullara Azərbaycanda böyük ehtiyac vardır.

Bütün ictimai, siyasi və iqtisadi şərait XXI əsrin Azərbaycan üçün tərəqqi və inkişaf əsri olacağına imkan yaradır. Yalnız insanlardan daha çox işləmək və formalaşmış potenisalı reallaşdırmaq tələb olunur.

MAKROİQTİSADİ PROPORSİYALARIN TƏNZİMLƏNMƏSİNİN SAHƏLƏRARASI İNKİŞAF PROBLEMLƏRİ

Vahid Hacıbəy oğlu Abbasov, i.e.d., professor, BDU
Lalə Maarif qızı Vəliyeva, dissertant, BDU

Xülasə

Məqalədə makroiqtisadi proporsiyaların mahiyyəti və baş vermə xarakteri açıqlanmaqla, bunların milli mənafelərə uyğunlaşdırılması məqsədi ilə iqtisadi məktəblərin daima diqqət mərkəzində saxlanılması və yeni fikirlərlə tamamlanması məsələrinə baxılmışdır. Milli iqtisadi sistemlərdə dövrü olaraq baş verən dəyişiklərlə əlaqədar olaraq, iqtisadiyyatın sabitliyinin təmin edilməsini dövlətin əsas məqsədi kimi qəbul edərək, klassik və keynçi, neoklassik və neokeysçi, institusional və monetar baxışların bazar mexanizminin əsaslarının gözlənilməsi ilə əlaqədar irəli sürdükləri ideyalar şərh edilmişdir. Sahələrarası səviyyədə makroiqtisadi qanunauyğunluqları əks etdirən mexanizmlərin müəyyənləşdirilməsinə, bu sahədə sənaye və kənd təsərrüfatı sahələrinin xüsusi rolunun əsaslandırılmasına, qeyri-neft sektorunun davamlı inkişaf etdirilməsinə yönəldilmiş milli inkişaf proqramlarının reallaşdırılmasını təmin etmək üçün insan və maliyyə resurslarından səmərəli istifadənin prioritetləri müəyyənləşdirilmişdir.

Açar sözlər: milli iqtisadiyyat, milli maraq, makroiqtisadi proporsiya, klassk təlimlər, keynsçi təlimlər, sahələrarası proporsiya, sənaye və kənd təsərrüfatı

1. Makroiqtisadi proporsiyalara dair iqtisadi məktəblərin yanaşmaları

Makroiqtisadi proporsiyalar müxtəlif daxili və xarici təsirlərə məruz qalan milli iqtisadi sistemlərin tarazlıq vəziyyətinə gətirilməsi məqsədlərinə əsaslanan iqtisadi mexanizmlərin yarada

biləcəyi hədəfləri özündə birləşdirir. Bu proporsiyalar məcmu tələblə məcmu təklif, məcmu gəlirlər və xərclər, yığımla istehlak, yığımla investisiyalar, idxal və ixrac kimi ümumi iqtisadi tarazlıqlarla yanaşı, bir sıra sahədaxili və sahələrarası proporsiyaların da tənzimlənməsi zəruriliyini ortaya qoyur. Hər bir ölkənin yanacaq-enerji resurslsrı, təbii sərvətləri, insan resurslarının kəmiyyət və keyfiyyəti, coğrafi mövqeyi, ərazi-iqtisadi inteqrasiyalarda təmsil olunması ilə müşaiyyət olunan iqtisadi şəraitlərdən, eləcə də bir sıra dini-etiqat və sosial-psixoloji ənənələrin təsirindən asılı olaraq bu proporsiyaların xarakteri və tənzimlənmə şəraitləri və mexanizmləri bir-birindən fərqlənir. Məhsuldar qüvvələrin və istehsal münasibətlərinin inkişafının müxtəlif mərhələlərində makroiqtisadi proporsiyaların dəyişməsi, bunların milli maraq və mənafelərə uyğunlaşdırılması iqtisadi məktəblərin daima diqqət mərkəzində saxlanılmış və yeni fikirlərlə tamamlanmışdır.

İqtisadi nəzəriyyədə makroiqtisadi proporsiyalara dair söylənən fikirlərdə klassik məktəb XX əsrin 30-cu ilərinə qədər üstünlük təşkil etmişdir. Həmin dövrə qədər makroiqtisadiyyat bütöv bir elm kimi formalaşmadığından vahid bir konsepsiya və ideyanı ifadə edən konkret bir məktəb mövcud olmamışdır. Ayrı-ayrı makroiqtisadi məsələlərin və problemlərin tədqiqi və şərhində A.Smitin, D.Rikardonun, K.Marksın, Le.Valrasın fikirləri adətən klassik ənənələrə sadiqlik göstərən yanaşmalardan ibarət olmuşdur. Le.Valrasın əsas məqsədi abstrakt səviyyədə mükəmməl rəqabət şəraitində bazarın fəaliyyətini tədqiq etmək və bazarın həqiqətdə tarazlığa doğru necə irəlilədiyini göstərmək olmuşdur. Onun iqtisad elminə olan töhfəsi istehlakçı davranışı nəzəriyyəsidir. O, müasirlərindən fərqli olaraq bu nəzəriyyəni dərindən və cəsarətlə təhlil etmişdir. Onun modeli məhsuldar xidmətlər və istehlak malları bazarlarının qarşılıqlı fəaliyyət sistemidir (2). Makro-iqtisadi məsələlərin və problemlərin tədqiqinə dair nisbətən sistemləşdirilmiş və ardıcıl xarakter kəsb edən konsepsiya A.Marşallın və digər neoklassik məktəbin nümayəndələrinin əsərlərində verilmişdir (1).

Bu məktəbin ideyalarında iqtisadiyyat mahiyyətinə görə əsasən təkmil rəqabət iqtisaiiyyatı kimi təqdim olunur, qeyri-təkmil rəqabətin meydana gəlməsi isə təsadüfi hal kimi xarakterizə olunur. Tarazlığın bərpa olunması Sey qanununun əsasında baş verir ki, bu qanuna görə təklif tələbi doğurur. Buna görə də təklifin dəyişməsi tələbin dəyişməsinə səbəb olacaq və iqtisadiyyat yenidən tarazlıq vəziyyətinə qayıdacaqdır. Bütün istehsal amillərindən tam istifadə olunması təklifin potensial səviyyəsi kimi dəyərləndirilərək, istehsal amillərinin qarşılıqlı əvəzlənməsi ilə müşaiyyət olunacağı və iqtisadiyyatın özütənzimlənən olduğu iddia edilərək dövlətin müdaxiləsinin minimal olması qənaətinə gəlinir. Iqtisadiyyatın özünütənzimləmə ideyası əsas tutularaq əməkhaqqı, qiymət və faiz dərəcəsi kimi mexanizmlərdən istifadəyə üstünlük verilirdi.

• “dəyər zəncirini yüksəltmək” istəyi, yəni aşağı gəlirli iqtisadiyyatların əmtəə ixracatından uzaqlaşması və daxili dəyər artımını artırması və orta gəlirli iqtisadiyyatlar üçün yüksək gəlirli iqtisadiyyatlarla texnoloji “tutuma” sahib olması;

• yuxarıda göstərilənlərə uyğun olaraq rəqəmsal iqtisadiyyatla əlaqəli yeni texnologiyaların meydana çıxması.

Dünyada gedən prosesləri nəzərə alaraq, Azərbaycan Respublikası hökumət siyasətlərini əhatə edən sosial-iqtisadi konteksti dəyişərək: regional bərabərsizlik, ərazi yoxsulluğu, sağlamlıq və qida problemləri, ətraf mühitin qorunub saxlanması kimi problemləri həll edilməsi baxımından, yeni layihələr işlənib hazırlanması aktual məsələyə çevrildi.

Dünya inkişafının yeni bir mərhələyə qədəm qoyulması ilə, sənayelər arasındakı fəsadlar artıq tədqiqatçılar tərəfindən qəbul edilir. Məhz bu səbəbdən, rəqabət qabiliyyətini artırmadan, istehsal fəaliyyətinin inkişaf etdirməsi mümkün deyildir. Başqa sözlə, rəqabətlilik anlayışının daha yaxşı başa düşülməsi, istehsalda istehsalın inkişafı xaricində bir çox şərtlərin yerinə yetirilməsini nəzərdə tutur. Xarici ticarət əlaqələrinin yüksək səviyyədə qurulması baxımından, eyni zamanda bu proses, Respublikanın xarici iqtisadi əlaqələrinin daha sabit bir müstəvidə yerləşməsi üçün olduqca əhəmiyyətlidir. Bu baxımdan, Azərbaycan Respublikasının hökumət siyasətində, sektoral sənaye inkişafının başlanğıc mərhələsindən tutmuş davam edən texnoloji dəyişikliyi iqtisadi, sosial, ərazi, innovasiya strategiyaları, tez-tez texnologiya ötürülməsini və beynəlxalq texnologiyaların inkişaf məsələsi yer almaqdadır.

Həmçinin, Respublikasının hökumət siyasətindəki bu meyllərin əksəriyyəti, aşağı sənaye sahələrinin qurulmasını və ixracı təşviq etmək siyasətlərinin əlaqələndirilməsi, iş mühitinin yaxşılaşdırılması, ticarət xərclərinin azaldılmasında daxili dəstək və xarici tədbirləri birləşdirmək kimi məsələlər yer almaqdadadır. Göstərilən sahələrin hər biri əhəmiyyətli olmasına baxmayaraq, iqtisadiyyatda idxal və ixrac məsələsi aktual olmuşdur.

Bu gün dünyada yeni sənaye siyasətləri bu ikiliyi, idxal və ixrac məsələsini əhatə edir. Belə ki, dünyada aparılan bu siyasətlər 2008-09 maliyyə böhranından sonra dərin sənaye yenidən qurulması dövründə hazırlanmışdır. Bu proses həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə ənənəvi sənaye sahələrinin çətin keçidlərini həll etmək məqsədini daşıyır. Digər tərəfdən, yeni sənaye siyasətləri iqtisadiyyatı rəqəmsallaşmaya uyğunlaşdırmağa yönəldilir. Bu rəqəmsal məkanda yeni fəaliyyətlər (tətbiqetmə əsaslı xidmətlər) yaratmaq üçün yeniliklərə təkan verməklə bərabər sənaye sektorlarında rəqəmsal proseslərin qəbul edilməsini təşviq etmək deməkdir. Respublikada bu sahədə aparılan layihələrin nəticəsi olaraq, 2021 - ci ilin yanvar-mart aylarında iri, orta və kiçik sahibkarlıq subyektləri üzrə malların satışı, işlərin görülməsi və xidmətlərin göstərilməsi özəl sektor üstünlük təşkil etmişdi.

Cədvəl 1. 2019 - cu il üçün pərakəndə ticarət dövriyyəsi (mülkiyyət növləri üzrə)

Pərakəndə ticarət dövriyyəsində, milyon manatla		Pərakəndə ticarət dövriyyəsinin ümumi həcmində, faizlə	
dövlət mülkiyyəti	qeyri-dövlət mülkiyyəti	dövlət mülkiyyəti	qeyri-dövlət mülkiyyəti
43.3	39348.4	0.1	99.9

Cədvəldən göründüyü kimi, 2019-cu ildə fərdi sahibkarların sayının qeyri – dövlət mülkiyyətində artması, bu sektorun artan templə inkişafından xəbər verir. Eyni zamanda, həm daxili bazarın inkişafına təkan verməklə yanaşı, bazar iqtisadiyyatında uğurlu rəqabət sferasının yaranmasına zəmin yaradır. Bazar iqtisadiyyatına xas olan rəqabət mühitinin sağlam olması, gələcəkdə xarici bazarın ölkəyə daha çox xeyir verəcəyindən xəbər verir. Belə ki, rəqabətqabliyyətli məhsul istehsalı hər bir müəssisənin qarşısına qoyduğu hədəflərdən ən əsası hesab olunmaqdadır. Bazar iqtisadiyyatı rəqabət mühütün yaradır, amma idarə etmir. Bu sahənin tarazlığının qorunub saxlanılması dövlətin üzərinə düşür.

Bu baxımdan, Azərbaycan Respublikasının xarici siyasəti dünya ölkələri sırasında layiqli yer tutmasına yönəldilmiş islahatlar həyata keçirmədədir. Hazırda Azərbaycan Respublikasının xarici ölkələrdə 57 səfirliyi, 9 baş konsulluğu, 5 beynəlxalq təşkilat yanında daimi nümayəndəliyi, 7

təmsilçilik ofisi və 11 fəxri konsulluğu fəaliyyət göstərir. Respublikamızda isə 58 dövlətin səfirliyi, 4 baş konsulluq, 10 fəxri konsulluq və 20 beynəlxalq təşkilatın nümayəndəliyi fəaliyyət göstərir. Dövlətlər arası hüquq müqavilələri ilə tənzimlənənən bu təşkilatlar, xarici ticarət əlaqələrinin inkişafında xüsusi rol oynamaqla yanaşı, bu sahənin gələcəkdə inkişafına zəmin yaradır.

Bu baxımdan Azərbaycan Respublikasının xarici ticarət əlaqələrinin dinamikasını nəzərdən keçirdikdə, ticarət dövriyyəsinin artıb – azalma tempini müqayisə etmək daha asan olur. Beynəlxalq iqtisadi əlaqələrdəki inkişafın təminatçısı olmaqla, beynəlxalq iqtisadi təşkilatlar, bəzən də ölkələr arasındakı inteqrasiyanın inkişafına təkan verən təşkilatlar kimi də tanınırlar. Bu sahədə Azərbaycanın xarici ticarət dövriyyəsinin dinamikası xüsusi maraq doğurur.

Cədvəl 2. Xarici ticarət dövriyyəsinin dinamikası, (milyon ABŞ dolları ilə [2]

	2012	**2013**	**2014**	**2015**	**2016**	**2017**	**2018**	**2019**
Ticarət dövriyyəsi	33560.9	34687.9	31016.3	21945.8	21946.7	24103.3	30955.0	33302.8
İdxal	9652.9	10712.5	9187.7	9216.7	8489.1	8783.3	11465.9	13667.2
İxrac	23908.0	23975.4	21828.6	12729.1	13457.6	15320.0	19489.1	19635.6
saldo	14255.1	13262.9	12640.9	3512.4	4968.5	6536.7	8023.2	5968.4
Xarici ticarət dövriyyəsi əvvəlki ilə nisbətən faktiki qiymətlərlə, faizlə								
	89.3	106.3	94.1	104.3	112.9	85.2	96.1	96.8
İdxal	96.9	109.1	85.4	99.5	89.6	83.8	100.2	93.5
İxrac	86.2	105.1	98.0	106.3	129.7	86.1	93.8	98.8

Cədvələ nəzər saldıqda görürük ki, 2012 – ci illə müqayisədə, 2019 – cu ilə kimi ticarət dövriyyəsində azalma baş vermişdir. Belə ki, 2012 – ci illə müqayisədə, 2019 –cu ildə 2582 milyon ABŞ dolları həcmində azalma olmuşdur. Onu da qeyd etmək lazımdır ki, Dekabr 2019-cu ildə başlayan COVID-19 koronovirusu pandemiyasının yaratdığı fəsadlardan biri də, iqtisadiyyatın ayrı-ayrı sahələri olmuşdur ki, burada xarici ticarəti xüsusi qeyd etmək lazımdır. Azərbaycanın xarici ticarət sektoruna koronovirusu pandemiyasının vurduğu zərərlər daha geniş bir mövzudur. Bu sahənin tədqiqinə çox ehtiyac olduğunu düşünürəm. Azərbaycan Respublikasının beynəlxalq ticarət əlaqələrinin inkişafında beynəlxalq iqtisadi təşkilatlarla əlaqələrin zəifləməsi buna zəmin yaradır.

Bu səbəbdən, Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyası (UNECE) və Avropa Birliyinin maliyyə investisiya quruluşu olan Avropa İnvestisiya Bankı, iqtisadi əməkdaşlığı inkişaf etdirmək, birgə səyləri gücləndirtmək üçün, Anlaşma Memorandumu imzalayaraq, 2030 -cu ilədək, AİB və UNECE tematik iş sahələrində, daha sıx əməkdaşlığı üstünlük verdiklərini bütün dünyaya bildirdilər. Bu Anlaşma Memorandumu xüsusi investisiya layihələri ilə əlaqəli fəaliyyətlərdə, o cümlədən UNECE çoxtərəfli ətraf mühit sazişləri, investisiya planları və layihələrinə əsaslanan birgə fəaliyyət üçün milli fəaliyyət planlarının və sərhədyanı müqavilələrin həyata keçirilməsinə dəstək daxil olmaqla əməkdaşlıq imkanlarının inkişafına təkan vermiş olacaqdır.[4]

Azərbaycan Respublikasının beynəlxalq ticarət əlaqələri, ölkənin sosial, mədəni və siyasi həyatı ilə əlaqəli funksiyalar və dünyadakı bütün ölkələrin əlaqələrini ortaya qoyur. Xarici ticarət artmağa təkan verir milli məhsullar bazarının inkişafı, istehsalın səmərəliliyi, mal və xidmətlərin daxili qiymətlərini azaldır, istehsalın təşkili metodlarını inkişaf etdirir.

Azərbaycan Respublikası ilə digər ölkələr arasında ticarət əlaqələrinin inkişafında xarici iqtisadi təşkilatların rolu və təsiri böyükdür. Belə ki, Azərbaycan Respublikasının beynəlxalq ticarətin artım templərinə və struktur dəyişikliklərinə qatqısındakı əhəmiyyətli artımlar, dünya iqtisadiyyatının inkişafı ilə izah olunur.

Hazırda dünyada, texnoloji avadanlıqların və müxtəlif maşınların dünya ticarəti sürətlə inkişaf etməkdədir. Maşınqayırma sahəsində əsas inkişaf etmiş ölkələrin ixracatı 75 %-dir. Bu sahədə Azərbaycan Respublikasının, qlobal səviyyədə ticarəti sabitdir və əhəmiyyətli bir artım gözlənilmir. Eyni zamanda xammal qiymətinin gündəlik artması, kənd təsərrüfatı istehsalında müxtəlif

vəziyyətlərdə baş verən tələbin artması ilə izah olunur. Hamısı birlikdə aqrar bölgənin gələcək inkişafı üçün şərait və konsepsiyalar formalaşdırdı. Elmi və texnoloji tərəqqinin inkişaf edir. Əlvan metallara tələbat artır. Onları tətbiq istehlakın müxtəlif sahələrində müşahidə olunur. Rəngli mallara tələb artmaqdadır, bu da onlara olan ehtiyacın artması deməkdir. Dünya ticarət ticarətinin inkişaf sürəti artan bir xarakter daşıyır ki, bu da parçalanma və istehsalın ixtisaslaşmasının böyüməsini təmin edir. Bu inkişaf sürəti dünya mal ticarəti ilə müqayisə edilə bilər. Dünya əmək bölgüsü dünya ticarəti sahəsinin inkişafı ilə təmin olunur.

Məhz dünya mübadiləsinin əhəmiyyətinin artması, ziddiyyət şəklində özünü göstərən dünya ticarətinin öyrənilməsi prosesində çətinliklər yaranır. Bu gün Amerika dünya iqtisadi əlaqələri baxımından lider ölkə kimi seçilir. Beynəlxalq münasibətlərin bütün sahələrinin inkişafında iştirak edir. Rusiya üçün Amerika və Çin yalnız strateji tərəfdaşlar deyil, eyni zamanda yeni bilik və texnologiyaların mənbəyidir. Azərbaycanda iqtisadi əlaqələr inkişaf edir.

Hazırda Azərbaycanda geniş miqyaslı istehsal dövlətin dəstəyinə can atır. İstehsal riskləri və yüksək ixtisaslı işçilərin sayının az olması, bəzi ticarət sahələrinin dünya bazarında öz mövqeyini tutmasına mane olur. Məhz bu səbəbdən, bu sistemdə aşağı səviyyədə infrastruktur, qeyri-sabit bazar və inflyasiya müşahidə olunur.

İnvestisiya cəlb etmək və innovasiya mexanizmini artırmaq tələbatını yaradır. Nəzərə almaq lazımdır ki, hazırda qlobal iqtisadiyyatın yenidən qurulması zamanı, beynəlxalq bazarlarda inkişaf etmək mövqe səviyyəsini yaratmaq və artırmaq, kapitalın ixracı və idxalı üçün müxtəlif imkanlar yaranmışdır.

İqtisadi və sosial inkişaf Azərbaycan Respublikası üçün prioritetdir. Bu hədəflərə çatmaq üçün bu ölkə ən inkişaf etmiş sənayelərin qorunması, mövcud infrastruktur dizaynının dəyişdirilməsi və bir sıra şərtlərin yaradılması, investisiya mühitinin dəyişdirilməsi və qeyri-məhsul məhsulları ixracına stimul verilməsi kimi həlləri nəzərdən keçirməsi vacib amillərdəndir.

Azərbaycan şirkətlərinin ixracı üçün əlverişli şəraitin yaradılması, ölkənin iqtisadi siyasətinin prioritet hədəfidir. Xarici ticarət, həyata keçirilməsi üçün dövlət tərəfindən müxtəlif metodlarla tənzimlənir. Azərbaycan Respublika xarici siyasətində, beynəlxalq müqavilələrin bağlanması, qaydaların qəbul edilməsi, xarici ticarət xidmətlərinə icazə verilməsi və digər proseslər beynəlxalq ticarət fəaliyyətinin artmasına imkan verir. Dünya qloballaşma səviyyəsində Azərbaycan Respublikası, dünya iqtisadiyyatında fəaliyyət göstərən bir keyfiyyət parametrinin seçilməsi və mövcud milli iqtisadiyyatların dəyişdirilməsi dünya iqtisadiyyatının inkişafı proqramına daxil edilmişdir.

Nəticə olaraq onu demək lazımdır ki, iqtisadi artımın əsas mənbəyi yeni tərəqqidir. Məhz bunun nəticəsində əmək məhsuldarlığında artım, iqtisadiyyatın bütün sahələrinin təşkilinin səmərəliliyi, rəqabətin artması və yeni sahələrin meydana çıxmasında müşahidə olunur. Bütün bu dəyişikliklərin nəticəsi, həm əhalinin istehlak həcmində, həm də gəlirlərində artan sərmayə ilə artmasına, həm də bu dəyişikliklər əvvəllər mövcud olmayan istehsal texnologiyalarının meydana gəlməsinə kömək edir. Bunun nəticəsində dövlət əmək fəaliyyətinin inkişafına investisiyaları artıraraq yeniliyi təşviq edə bilər. əminliklə demək olar ki, yeniliklərin dövlət tərəfindən dəstəklənməsi, onların inkişaf sürətinə təsir göstərməyə imkan verəcəkdir.

Azərbaycan Respublikasının xarici ticarət sahəsindəki innovasiyanın daha da böyüməsi perspektivlərini təhlil edərək, bunların intellektual fəaliyyətin nəticəsi olduğunu qeyd etmək olar. Həm daxili, həm də xarici bazarın tarazlığının qorunun saxlanılmasında dövlət nəzarəti olmalıdır. Xarici iqtisadi təşkilatların bu sahədə təsirinin nəzərə alınması vacib məsələlərdən hesab olunmalıdır. Nəzərə almaq lazımdır ki Azərbaycan Respublikasının daxili bazarı kifayət qədər açıqdır və qlobal iqtisadi sistemin daha çox inteqrasiyasına kömək edir. Bütün bu amillər Azərbaycanda iş mühitinin yaxşılaşması səbəbindən rəqabət və texnologiyaya yatırımın artmasına işarə edir.

Ədəbiyyat siyahısı

1. https://www.azerbaijans.com/content_730_az.html
2. https://www.stat.gov.az/source/trade/

3. Александрова А.А., Тахумова О.В. ОСНОВНЫ МЕЖДУНАРОДНЫЕ ТОРГОВЫЕ ОТНОШЕНИЯ РОССИИ И КИТАЯ // В сборнике: Развитие современной науки: теоретические и прикладные аспекты Сборник статей студентов, магистрантов, аспирантов, молодых ученых и преподавателей. Под общей редакцией Т.М. Сигитова. Пермь, 2017. С. 39-41.

4. https://unece.org/media/Trade/press/358198

5. "Beynəlxalq Maliyyət Təşkilatları və Azərbaycan". Dərs vəsaiti. Bakı, "Zərdabi-Nəşr" MMC Nəşriyyat Poliqrafiya müəssisəsi, 2016, 268 səh.

6. World Trade Organization 154, rue de Lausanne CH-1211 Geneva 2 Switzerland www.wto.org

AZƏRBAYCANDA İQTİSADİYYATIN DÖVLƏT TƏNZİMLƏNMƏSİ

Əhədova Nübar Adil qızı, müəllim
Lənkəran Dövlət Universiteti,
n.ahadova85@gmail.com

Mövcud qlobal mühit və bu səbəbdən də neft qiymətlərinin dəyişkənliyi maliyyə davamlılığını gücləndirməyi, təbii qaynaqlardan əldə olunan gəlirlərdən səmərəli istifadəni və ciddi bir makroiqtisadi çərçivəni qəbul etməyi obyektiv zərurətə çevirir. İqtisadi inkişaf istiqamətində görülən tədbirlər sayəsində dövlət hədəflərini reallaşdırmaq üçün fiskal və monetar siyasətinin daha rasional bir koordinasiyasına can atır. Azərbaycanın güclü maliyyə davamlılığı və pul siyasəti ilə bağlı gələcək tədbirlər iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üçün Strateji Yol Xəritələrinin birinci məqsədi çərçivəsində təsvir edilmişdir.

Bu baxımdan iqtisadi siyasət və təbii sərvətlərdən əldə olunan gəlirlərə əhəmiyyətli dərəcədə qənaət üçün bir çərçivə təmin etmək məqsədilə görülən tədbirlər yanında, Azərbaycanın təbii sərvətlərinin düzgün idarə edilməsinin çətinliyi də nəzərə alınır. Təklif olunan əsas hədəflər bunlardır: neft gəlirlərinin rasional istifadəsinə "qızıl qayda" yanaşması və bu səbəbdən borc idarəçiliyi üçün zəruri maliyyə bazası. Bu çərçivədə Orta Müddətli Xərclər Çərçivəsinin daha da gücləndirilməsi, güclü büdcə rəhbərliyi və səmərəli büdcəyə uyğunlaşma, dövlət xərclərinin səmərəliliyinə əmin olmaq və neft gəlirlərinin dəyişkənliyini azaltmaq üçün görülən tədbirlərin davamı olmalıdır. Əsas hədəf yalnız ciddi bir fiskal bazası deyil, həm də monetar çərçivəsidir.

Sərt monetar siyasəti çərçivəsi və məqsədlərin effektiv həyata keçirilməsi makroiqtisadi mühitin həlledici bir hissəsidir. Bu baxımdan pul siyasətinin iqtisadi siyasətlə əlaqəli şəkildə həyata keçirilməsi, iqtisadiyyatdakı dəyişiklikləri əks etdirmək üçün pul amillərində tələb olunan düzəlişlərin qiymətləndirilməsi iqtisadi potensialı daha da gücləndirmək üçün vacibdir.

İqtisadi potensialı daha da gücləndirmək üçün fiskal və monetar çərçivələrinin qarşılıqlı fəaliyyətinə əlavə olaraq, başqa bir strateji hədəfin dövlət müəssisələrində özəlləşdirmə və islahatlar olduğu deyilir. Strateji Yol Xəritəsi, ölkə daxilində özəl sektorun fəaliyyətinin genişləndirilməsi, dövlət müəssisələrinin səmərəliliyinin artırılması və biznes mühitinin yaxşılaşdırılması yolu ilə birbaşa xarici investisiyaların cəlb olunmasına stimul vermək üçün mövcud təşəbbüsləri dəstəkləməyi hədəfləyir və bu səbəbdən bu sahədə atılacaq addımlar ikinci hədəfdə təsvir edilmişdir.

Rəqabətçi, əhatəli və davamlı iqtisadi məqsədləri həyata keçirmək səylərinin bir hissəsi olaraq, üçüncü hədəf insan kapitalı hadisəsini daha da sürətləndirməkdir. Bu günə qədər təşəbbüslər əsaslandırılır və tədbirlər aşağıdakı sahələr daxilində planlaşdırılır: təhsilin insan kapitalına töhfəsi, müəssisələrin daha səmərəli olmasına kömək etmək üçün əmək məhsuldarlığının artırılması.

Dördüncü hədəf iş mühitinin daha da yaxşılaşdırılmasıdır. Büdcə və pul siyasəti nəticəsində iqtisadiyyata stimul əlverişli bir iş mühiti dövründə əldə edilə bilən mənbələrdən daha səmərəli istifadəni təmin edə bilər.

Azərbaycan iqtisadiyyatında baş verən proseslər ölkə daxilində cansıxıcılıq və dünya bazarlarında neft qiymətlərinin dəyişməsi ilə əhəmiyyətli dərəcədə əlaqəli idi və bu səbəbdən bu cür dalğalanmaların ÜDM-ə təsiri bir sıra stimul mexanizmləri şəklini aldı. Neft qiymətlərindəki dəyişikliklər ARDNF-nin dövlət büdcəsinə köçürmələrinə birbaşa təsir etmişdir. Ekvivalent vaxtda, ARDNF-nin dövlət büdcəsinə köçürmə məbləğindəki dəyişikliklər dövlət xərcləri kimi əks olundu. Dövlət xərclərinin iqtisadiyyatda payını nəzərə alaraq, dövlət xərclərindəki dəyişikliklərin ÜDM-dəki dəyişikliklərlə üst-üstə düşdüyü tez-tez görünür.

Azərbaycan iqtisadiyyatının təbii ehtiyatlardan və xüsusən də neftdən asılılığının həm qısa, həm də uzunmüddətli perspektivdə azaldılması zəruridir. Uzunmüddətli perspektivdə neftin qiymətlərindən fiskal asılılıq, bu sahəyə daha diqqətli yanaşmanı şərtləndirir. Azərbaycanın təbii ehtiyatlarının tükənməsi diqqəti davamlı iqtisadi inkişaf modelinin qəbuluna yönəlmiş digər yanaşmaların seçilməsinə yönəldir. Beləliklə, Azərbaycanın təsdiqlənmiş neft və qaz ehtiyatlarının İran, Səudiyyə Ərəbistanı və ya Qazaxıstan kimi ölkələrə nisbətən daha tez tükənə biləcəyi təxmin edilir. Davamlı kəşfiyyat işləri (xüsusilə kiçik yataqlar üçün) bu dövrü artıra bilər, lakin mövcud vəziyyət sonrakı 30 il ərzində neft və qaz gəlirlərindən əldə olunacaq gəlirlərdən asılılığın azaldılmasını tələb edir.

Neftdən yüksək asılılıq iqtisadiyyatı bir neçə cəhətdən təsir edir. məsələn, neft ticarəti ilə əlaqəli mübadilə gəlirlərindəki dəyişikliklər və bu səbəbdən də manat daxilindəki qeyri-sabitlik nəticəsində milli valyutaya olan inam azalır.

Qlobal makroiqtisadi tendensiyalar gələcək nəsillər üçün ehtiyatlar yaradır və buna görə də inteqrasiya edilmiş maliyyə idarəetmə prinsiplərinin effektivliyi ölkə üçün vacibdir. Bu günə qədər dörd əsas komponent nəzərdən keçirildi: neft gəlirlərinin dövlət büdcəsinə köçürülməsi, xərcləmə mexanizmi və investisiya intizamı, orta müddətli xərclər çərçivəsinin gücləndirilməsi və iqtisadi baxımdan tətbiq olunma büdcə mexanizmi. Bu səbəblə, maliyyə, pul və iqtisadi hədəflər, eyni zamanda aralarındakı qarşılıqlı asılılıq və bir-birini tamamlayan səbəblər daha optimal hesab edilməlidir.

ARDNF-in Azərbaycanın dövlət büdcəsinə köçürülməsi zamanı sabitliyin təmin edilməsi üçün "qızıl qaydanın" tətbiqi nəzərdən keçirilməlidir.

Hazırda ARDNF-nin Maliyyə Nazirliyinə köçürdüyü vəsaitin miqdarı neftin qiymətindən asılı olaraq dəyişir. Fondla Maliyyə Nazirliyi arasında "qızıl qayda" adlanan daha sərt bir transfer mexanizmi, dövlət xərclərini (və beləliklə ÜDM artımını) pul köçürmələrini sabitləşdirərək neft qiymətlərindəki dalğalanmalardan daha yaxşı qoruya bilər. "Qızıl qayda"nın təsiri belədir: dövlət cari və kapital xərcləri üçün büdcə hazırlayır. Büdcə xərclərinin çox hissəsi qeyri-neft gəlirləri ilə qarşılanırsa və qeyri-neft gəlirlərindəki kəsir (vergi-xərc fərqi) "qızıl qayda" da nəzərdə tutulduğu kimi azdırsa, bu fərq orta neft miqdarı ilə ödənilir. Neft gəlirlərinin qalan hissəsi özəl investisiyaların yatırılmasının qarşısını almaq üçün xarici ölkələrə investisiya qoyan xüsusi bir fondda toplanır. Bu fond zamanla böyüyür və insanlar üçün gələcək ehtiyatları yığır. Fondun özü bufer rolunu oynayır; Neft qiymətləri müəyyən bir səviyyədən aşağı düşdükdə, yığılmış ehtiyatları dövlət büdcəsinə davamlı köçürərək dövri dalğalanmalara qarşı təhlükəsizlik tamponu təmin edilir.

Bu mexanizm bir sıra üstünlüklərə malikdir, bunlardan ən başlıcası sabitlikdir. Qızıl qayda ÜDM-in dəyişkənliyini daha da azaldacaq və Maliyyə Nazirliyinin mövcud vəsaitin həcmini və manatın məzənnəsini proqnozlaşdırmasını asanlaşdıracaq.

Proqnozlaşdırma imkanları da öz növbəsində uzunmüddətli böyümə üçün şərait yaradacaq və dövlət xərclərinin səmərəliliyini artıracaqdır. Dövlət xərclərinin əhatə dairəsini və dəyişkənliyini məhdudlaşdırmaq özəl sektorun sıxılma qabiliyyətini də məhdudlaşdırır. Digər bir təsir, Maliyyə Nazirliyinin bəzi illərdə potensial dövlət büdcəsi kəsirini maliyyələşdirmək üçün kapital bazarlarına çıxışı olacaq və bu da kapital bazarının dərinləşməsinə kömək edəcəkdir.

Bu şəkildə, ölkənin Azərbaycanda qısamüddətli büdcə ehtiyaclarını ödəmək üçün "qızıl qayda"nı tətbiq etməyə çalışmaqla yanaşı, neftin qiymətlərindəki dəyişikliklərin təsiri azaldılacaq və Fondun vəsaitlərinin indiki və gələcək üçün ədalətli paylanmasını təmin edəcəkdir. Həm institusional, həm də praktik tədbirlər maliyyə davamlılığının təmin edilməsi və maliyyə siyasəti nəticəsində davamlı iqtisadi inkişafa nail olmaq baxımından vacibdir.

Fikrimcə "Qızıl qayda"nın effektiv tətbiqi Azərbaycanda ümumi dövlət sektorunun davamlılığının və məhsuldarlığının təmin olunmasına kömək edəcəkdir. Səmərəli xərc siyasəti, sərmayə gəliri və kapital gəliri kimi amillər nəzərə alınaraq kapital xərcləri üçün mənbələrin rasional istifadəsini təmin edəcəkdir. Başqa sözlə, büdcə intizamı tətbiq olunur. Belə bir siyasət tələb olunan texnoloji inkişafdan və insan kapitalının inkişafından əmin olmaq üçün uyğun layihələrin seçilməsinə imkan verəcəkdir.

İNSAN İNKİŞAFI VƏ MƏŞĞULLUQ

İNSAN KAPİTALININ İNKİŞAFININ İNKLÜZİV SİYASƏTİ

Mədətov Mansur Akif oğlu, i.f.d.
Bakı Biznes Universiteti
mansurmadatov@gmail.com

Xülasə

Son vaxtlar müasir iqtisadi ədəbiyyatlarda insan kapitalı nəzəriyyəsi yeni ideyaların və yeniliklərin mənbəyi, eləcə də onların qavrayışını və yayılmasını asanlaşdıran bir amil kimi qeyd edilir.

İnsan öz bilik və bacarıqlarının kapitallaşmasını reallaşdırarkən cəmiyyətdə baş verən proseslərə uyğunlaşmaq, öz peşəkar-ixtisas və siyasi karyerasını intellektual, fiziki resurslarla təmin etmə imkanı əldə edir.

Bu gün insan kapitalının daha geniş şərhləri məşhurdur: onun tərkibinə istehsal fəaliyyətinin nəticəsinə dolayı təsir edə bilən şəxsi keyfiyyətlərin, dünyagörüşünün, dəyərlərin geniş məcmusu daxildir.

İlkin olaraq insan kapitalı konsepsiyasının müəllifləri yeni konsepsiyanı lakonik olaraq formalaşdırmaq əvəzinə, məcmu ictimai məhsulun yaradılmasında qeyri-maddi və insandan ayrılmaz aktivlərin maddi ehtiyatlarla birlikdə rolunun bərabər olması ideyasını izah və müdafiə etməyə olduqca çalışırdılar. Lakin insan kapitalının kanonik tərifi hələ də hazırlanmamışdır. Bu isə öz növbəsində onun ölçülməsində müxtəlif yanaşmalara gətirib çıxarır. Belə olduğu halda insan kapitalının innovasiyalı iqtisadiyyatda tutduğu mövqenin araşdırılması aktual əhəmiyyət kəsb edir.

Açar sözlər: insan kapitalı, insan kapitalının ölçülməsi, sosial rifah, sosial kapital konsepsiyası, inklüziv siyasət.

Giriş. Bir sıra müəlliflər hesab edirlər ki, dinamik inkişafın təmin olunmasında insan kapitalının rolu olduqca şişirdilmişdir. Onların fikrincə, modellərdə yüksək və ya sabit iqtisadi artım göstərən ölkələrin təhsil xərclərini və insan kapitalı yığımını tez bir zamanda artırması kimi əks əlaqəsi nəzərə alınmır.

Bununla yanaşı, daha sıx tədqiq edildikdə, aydın olur ki, ekonometrik modellərin əksəriyyəti insan kapitalının artımının əhəmiyyətli korrelyasiyasını nə vaxt baxımından, nə də ki, ölkələrarası çərçivədə verə bilmir. 1960-1985-ci illərdə inkişaf etməkdə olan ölkələrin əhalisinin təhsil potensialının kəskin artımı iqtisadi artım sürətinə praktiki olaraq heç bir təsir göstərməmişdir [8]. Digər tədqiqatçılar da analoji nəticələrə gəlmişlər [3]. Ən geniş yayılmış izah insan kapitalı ehtiyatlarının qeyri-dəqiq ölçülməsidir. Tədqiqatçılar modellərdə istifadə edilən hesablamaların çox şübhəli olduğunu qeyd edirlər. Bununla yanaşı, iradlar informasiya-statistik məlumatların kasadlığı ilə əlaqədar olaraq həm qiymətləndirmələrin məzmununa, həmçinin onların modelləşdirilməsində texniki çatışmazlıqlara münasibətdə irəli sürülür.

Bundan başqa, əhali tərəfindən yığılmış təhsil ehtiyatının (təhsil fondunun) böyük hissəsi, əgər yüksək işsizlik və ya ixtisaslı iş qüvvəsindən səmərəsiz istifadə zamanı o tam mənada istehsal prosesinə cəlb edilməyibsə, iqtisadi inkişaf göstəricilərinə zəif təsir göstərə bilər. Eyni zamanda, nisbətən uğurlu iqtisadiyyatlar xarici əmək miqrasiyasının təşviqi ilə müəyyən işçi qruplarının çatışmazlığını kompensasiya edə bilər (Birinci model inkişaf etməkdə olan ölkələrin, ikinci model isə inkişaf etmiş ölkələrin vəziyyətini əks etdirir.). Bununla yanaşı, qloballaşma şəraitində müvəffəqiyyətli ölkələrin imkanları və müvafiq olaraq daha zəif iqtisadiyyatlara qarşı təhdidlər kəskin şəkildə artır.

1. **İnsan kapitalının ölçülməsindəki müxtəliflik.** İnsan kapitalının müəyyənləşdirilməsində aksent onun ölçülməsinə münasibətdə müxtəlif yanaşmalara gətirib çıxarır. Əsas fərq ondan ibarətdir ki, bu xüsusi növ qeyri-maddi sərvətə malik olmağa, onun əldə olunması və istifadə olunması prosesinə və ya onun fəaliyyəti nəticəsində əldə olunacaq faydaya aksent edilir. Məsələn, ən ümumi, neytral anlayışlar kimi aşağıdakıları misal gətirmək olar: insan kapitalı – şəxsi, sosial və

iqtisadi rifahın yaradılmasına töhfə verən fərdlərdə cəmlənmiş bilik, təcrübə və xüsusiyyətlərin təcəssümüdür.

Bir çox mənbələrdə kateqoriyanın bazar xarakteri barədə məlumat verilsə də, aktivin yaranması mənşəyi haqqında heç nə deyilmir.

Yalnız istehsal qabiliyyətini ölçməyə imkan verən metod əsasında insanı istehsalçı kimi tədqiq etmək olar. İnsan kapitalı ideyası belə göstəricini əldə etmək üçün irəli sürülmüşdür. İnsan kapitalı fərdin sahib olduğu məhsuldar bacarıq, qabiliyyət və bilik kimi müəyyən edilir və onun tərəfindən istehsal olunmuş əmtəə və xidmətlər məcmusunun bazar qiyməti ilə ölçülür. İnsan kapitalı fərdin gəlir əldə etməsinə imkan verən bacarıq, keyfiyyət və qabiliyyətdir.

Anlayışların müəyyən edilməsinin digər bir qrupunda insan kapitalının təbiət tərəfindən bəxş edilmədiyi, onun istehsal olunan süni resurs olub, yaradılması üçün məqsədyönlü səylərin vacibliyi vurğulanır. "İnvestisiyalar hesabına daha da məhsuldar olmuş insanın fiziki və əqli potensialını artıran ixtisaslı əməyi ixtisassız əməkdən fərqləndirmək lazımdır. İnsan kapitalını məhz bu investisiyalar formalaşdırır" [7]. Bununla yanaşı, xüsusən sonra verilmiş bir çox anlayışlarda insan kapitalının dəyər təbiətinə (ənənəvi olaraq istehsal vasitələrində maddiləşmiş) birbaşa işarə olunmur: "Əmək prosesində tətbiq olunan istehsal vasitələrini istehsal etmək üçün təbiət cisminin şəklini dəyişməsi nəticəsində fiziki kapitalın yaranması kimi insan kapitalının da yeni metod və fəaliyyət növlərini mənimsəməsi üçün insanlar bacarıq və qabiliyyət əldə edərək dəyişilirlər" [4].

Əvvəlcə, insan kapitalı nəzəriyyəçilərinin əksəriyyəti, əgər onların konkret mülahizələrinə müraciət etsək, bu anlayışın bütün mümkün şərhlərindən daha darına üstünlük verdiklərinin şahidi olarıq: ona formal təhsil sistemində əldə olunan və bilavasitə ödənişli məşğulluq sahəsində gəlir qazanmaq məqsədilə istifadəsi nəzərdə tutulan bilik, bacarıq və qabiliyyətləri aid edirdilər. Q.Bekkerin ifadəsi geniş yayılmışdır: insan kapitalı "insana investisiyalar hesabına formalaşır. Onlara təhsili, istehsalatdakı hazırlığı, səhiyyə xərclərini, miqrasiya və qiymətlər və gəlirlər haqqında məlumat axtarışını aid etmək olar" [9]. Lakin, sitat müəllifinin nəzəri konsepsiyası baxımından qeyd edilən strukturu qüsursuz deyil.

Belə ki, səhiyyə xərcləri yalnız onların fiziki aşınmasına mane olduğu dərəcədə insan kapitalının həcminə təsir göstərir və beləliklə də, onun ömrünü uzadır. Onlar yığılmırlar və avadanlıqların təmiri xərcləri kimi yalnız cari xərclərin bir hissəsini təşkil edirlər. Bundan əlavə, insana təbiət tərəfindən verilən sağlamlıq faydalı qazıntılar və torpağın məhsuldarlığı kimi təbii sərvətdir. Səhiyyə xidmətlərinə olan tələbat sağlamlıq vəziyyətində normadan kənarlaşmaların aradan qaldırılması zəruriliyi ilə müəyyən edilir. Buna görə də, o insanın səhhəti pisləşdikcə yüksəlir. Ona görə də səhiyyəyə edilən investisiyaların həcmi ilə "sağlamlıq kapitalı" arasında birbaşa əlaqə olmaya da bilər. Qiymətlər və miqrasiya imkanları haqqında informasiya konkret işçinin keyfiyyət xüsusiyyətlərinə daha da az təsir edir. Müvafiq xərclər fərdi insan kapitalının artmasına deyil, həm daha yaxşı realizasiya, həmçinin konyunktur amillərinin hesabına onun iqtisadi veriminin yüksəldilməsinə yönəldilmişdir.

Bəzi müəlliflər insan kapitalının tərkibinə insanın yalnız şəxsi keyfiyyətlərini deyil, eyni zamanda insanlar arasında təcəssüm etmiş sosial kapitalı da daxil etməyi mümkün hesab edirlər. Sosial kapitalı insan kapitalının elementi kimi təqdim etmək, əsasən terminologiyanı qəbul etmiş, lakin insan kapitalı konsepsiyasının quruluşunu tam dərk etməyən rus tədqiqatçıları üçün xarakterikdir [11, 12]. Maraqlı olan odur ki, sosial kapital konsepsiyasını qəbul edən və dəstəkləyən Bekker onu insan kapitalı ilə qarışdırmır [2]. Sosial kapital nəzəriyyəsinin yaradıcıları da eyni şəkildə hərəkət edirlər. "Fiziki kapital hiss olunur, insan kapitalı az hiss olunur, çünki bilik və bacarıqlar insanda təcəssüm edir, insanlar arasındakı münasibətlərdə təzahür edən sosial kapital isə daha az hiss olunandır" [5]. İnsan və sosial kapitalın ayrılması Dünya Bankının məşhur metodologiyasında öz əksini tapır. Burada onlar məcmu insan resurslarında təcəssüm olunan dünya sərvətinin ayrı-ayrı elementləri kimi təsnif edilir [6].

İnsan kapitalının süni olaraq yaradılmış, təkrar istehsal edilə bilən sərvətin bir hissəsi kimi qəbul edilməsi onun formalaşdırılmasına yönəldilmiş keçmiş səylərin cəmlənməsi yolu ilə hesablanmasına əsaslanır. Bu səylər ya natural göstəricilərə, ya da insana edilən investisiyaların dəyər qiymətləndirilməsinə əsaslanaraq ölçülə bilər. Bu metod bir tərəfdən örtülü və dolayı

xərclərin uçotunun aparılmasının çətinliyi ilə əlaqədar, digər tərəfdən isə bir çox hallarda xərclər və nəticələr arasındakı əlaqələrin aydın olmaması səbəbindən məhduddur.

Keçmiş yığımların nəticələrinin ölçülməsinə əsaslanan yanaşma (insan kapitalı veriminin qiymətləndirilməsi) bu çatışmazlıqlardan uzaqdır. Məlumdur ki, insan kapitalının maddi və qeyri-maddi faydaları vardır. Qeyri-maddi faydalar heç də həmişə bazar münasibətləri ilə bağlı olmur (Ümumiyyətlə "qeyri-pul" və "qeyri-bazar" anlayışları bir-birinə uyğun gəlmir. Əmək bazarında böyük insan kapitalına malik fərdin qeyri-pul mənfəəti işsizlik riskinin azalmasıdır). Lakin praktikada bu qiymətləndirmə metodu (onun variantlarının əksəriyyətində) yalnız pul gəlirləri nəzərə alınmaqla məhdudlaşdırılır və ona görə də insan kapitalının real ehtiyatını azaltmış olur.

İnsan kapitalına aid edilə bilən əhalinin parametrlərinin birbaşa qiymətləndirilməsi də tətbiq edilir. Lakin onun geniş tətbiqi uçotu tələb olunan parametrlərin əsaslandırılması, onların qiymətləndirilməsi texnologiyasının hazırlanması və müxtəlif planlı indikatorların vahid əsasa gətirilməsi ilə əlaqədar olaraq texniki və metodoloji çətinliklərlə məhdudlaşır.

Yalnız müxtəlif yanaşmaların köməyi ilə əldə edilən insan kapitalı qiymətləndirmələri arasında deyil, həmçinin konkret metodikadan asılı olan onların hər birində böyük fərqlər vardır. Bunun ölçmə texnologiyalarının, informasiya bazalarının, hesablama metodlarının qeyri-qənaətbəxş olması ilə bağlılığı haqqında fikir vardır. Əslində məcmu investisiyalar, əhalinin malik olduğu qabiliyyət və bacarıqların bilavasitə qiymətləndirilməsi hesabına əldə edilən ölçmələr nəticəsində alınan təxminlər və gəlirlərin (verimin) kapitallaşdırılması üst-üstə düşməlidir.

Bununla belə, bizə elə gəlir ki, uyğunsuzluqların mənbəyini nəzəri konsepsiya səviyyəsində axtarmaq lazımdır: təsvir olunan üç yanaşma əvvəldən insan qabiliyyət və bacarıqlarının üst-üstə düşməyən alt sistemlərinin ölçülməsinə yönəldilmişdir. Birbaşa qiymətləndirmə zamanı mənşəyi və ona olan tələbdən asılı olmayaraq insanın bütün potensialı ölçmə obyektinə çevrilir. İnvestisiyaların məcmusu üzrə ölçülmə xüsusi səylərin təsiri altında təkrar istehsal olunan və yaradılan qabiliyyət və bacarıqlar alt sisteminə yönəldilir. Qaytarma (verim) üzrə ölçmə süni şəkildə yaradılanın bir hissəni və genetik cəhətdən qazanılmış, təbiət tərəfindən verilmişin bir hissəsini əhatə edir. Ən dar yanaşma zamanı insan potensialının məqsədyönlü şəkildə yaradılmış və pul gətirən hissəsi ölçülür.

2. **İnsan kapitalı və inklüziv siyasət.** İnsan kapitalının inkişafı, onun həyat

keyfiyyətinin yüksəldilməsi siyasəti, modernləşdirmə vəzifələrinin həlli ilə qarşılıqlı əlaqəsi aktual əhəmiyyət kəsb edir. Bu qarşılıqlı əlaqələr inklüziv inkişaf konsepsiyasında təhlil olunur. İnklüziya (latın sözü olub daxil etmə, daxil etmək, daxil edilmək deməkdir) fərdlərə, sosial qruplara, müxtəlif təbəqələrə ictimai həyatda, qərar qəbul edilməsində imkan verən daxil olmaq, konkret fəaliyyət növündə, siyasətdə iştirak etmə prosesidir.

Mütəxəssislər qeyd edirlər ki, hazırda inklüzivlik anlayışı geniş istifadə olunur. O iki əsas ideyanı ifadə edir: 1) iqtisadi artım nəticəsində yaradılmış imkanlar bütün insanlar üçün əlçatan olmalıdır; 2) gəlirlərin qeyri-bərabərlik səviyyəsi və əsas xidmətlərə əlçatanlıq məqbul həddə qədər məhdudlaşdırılmalıdır [14]. Başqa sözlə, söhbət dövlət siyasətinin məqsədlərinin və onun insan kapitalının inkişafı ilə həyat keyfiyyətinin yüksəldilməsini əlaqələndirmək imkanının biznes və vətəndaş cəmiyəti institutlarının qarşılıqlı əlaqəsi prinsipləri üzərində qurulmuş dövlət idarəçiliyi problemlərinə daxil edilməsindən gedir.

İnsan kapitalının inkişafının inklüziv siyasəti dedikdə bizi əhatə edən hər şeyə, o cümlədən insanın özünə keyfiyyətcə yeni münasibət əsasında insanın öz qabiliyyətlərinin inkişafı, fərdlərin, sosial qrupların, təbəqələrin maraqları və tələbatları nəzərə alınmaqla ictimai mühitin formalaşdırılmasına bərabər əlçatanlığın yaradılması prosesi başa düşülür.

Dünya təcrübəsi göstərir ki, bir çox müasir ölkələr əlaqələndirilən və tənzimlənən inklüziya üzrə koordinatorlar institutu yaratmaqla müvəffəqiyyətə insan kapitalı inklüzivliyi hesabına nail olurlar. İnsan kapitalının nəzəriyyəsi və təcrübəsi əsasında ABŞ, Qərbi Avropa, Şərqi Asiya ölkələrinin inkişafı formalaşır. Bununla yanaşı gəlirlərdəki qeyri-bərabərliyin, təhsil və səhiyyənin keyfiyyət cəhətləri, əhali artımının, rəqabətqabiliyyətli peşəkarların olmasının, əmək məhsuldarlığının ərazi və regional göstəriciləri tədqiqatlarda meyar kimi çıxış edir.

Mütəxəssislərin qeyd etdiyi kimi müasir şəraitdə insan kapitalından intensiv istifadəni nəzərdə tutan sosial, iqtisadi və siyasi inkişaf paradiqmasından danışmaq olar [13]. Bunun səbəbi ondan

ibarətdir ki, əvvəlki sosial-iqtisadi inkişaf, həyat keyfiyyətinin yüksəldilməsinin modelləri və mexanizmləri səmərəli işləmir, aparıcı rol oynamır və insan resursları, idarəetmə, siyasətdə inklüzivlik daha önəmli yer tutur.

Dövlət inklüziv inkişafda aparıcı rol oynayır. Onun əhəmiyyəti təkcə iqtisadi və sosial artımın yenidən bölüşdürülməsində deyil, həmçinin iqtisadiyyat və cəmiyyət, iqtisadi və sosial inkişaf arasında qarşılıqlı əlaqə institutlarının yaradılmasının təmin edilməsində əks olunur. Ölkənin tərəqqisi ÜDM-in artımı ilə yanaşı insan inkişafı indeksinin (İİİ) yüksəlməsi ilə də ölçülür.

Bununla əlaqədar olaraq müvafiq sahələrin işçiləri və əhali qruplarının dəstəklənməsi üçün müvafiq sektorlarda islahatların həyata keçirilməsi, təhsil imkanlarının bərabərləşdirilməsi, təhsil sahəsində ilkin qeyri-bərabərliyin aradan qaldırılması məqsədilə büdcə resurslarının artırılması haqqında təklif formalaşdırılır.

Evristik dəyərə malik müstəsna hərəkətli substansiya olan insan kapitalı uzunmüddətli istifadə neməti kimi köhnələ, sosial-iqtisadi, istehsal amillərinin, tələb və istehlakın dəyişməsindən asılı olaraq azala bilir. Bununla əlaqədar qeyd etmək lazımdır ki, o təkcə fərdlər üçün deyil, həmçinin sosial qruplar, təbəqələr, ayrıca təsərrüfat idarəetmə strukturları, dövlət və bütövlükdə cəmiyyət üçün nemət hesab edilməlidir. P.Burdye tələb və təklif məntiqi ilə siyasi həyatı təsvir edərkən qeyd edir ki, kapitalın müxtəlif növləri subyektlər arasında qeyri-bərabər bölüşdürülür, onlardan bəziləri isə seçilmiş imtiyazlı təbəqələrə qismət olur. Rəqabət mübarizəsi şəraitində siyasi məhsulun istehsalında yalnız agentlər fəallıq göstərirlər, sadə vətəndaşlar isə "istehlakçı" vəziyyətində siyasi istehsaldan uzaqlaşdıqca tələyə düşmüş olurlar [10].

İnsan kapitalını fərdi, kollektiv, milli, həmçinin səmərəlilik meyarına görə aşağıdakı kimi təsnifləşdirirlər:

1)bilik, bacarıq, və qabiliyyətləri cəmləşdirən ümumi;

2)bu və ya digər konkret şəraitdə qazanılmış bacarıq və qabiliyyətlər;

3)ona qoyulmuş investisiyalardan tam səmərəli faydalılıq gətirən yaradıcı (müsbət);

4)insan kapitalının bir hissəsi olub cəmiyyət üçün heç bir fayda gətirməyən, əhalinin həyat keyfiyyətinin, şəxsiyyət və cəmiyyətin inkişafına mane olan mənfi və ya dağıdıcı. Dağıdıcı insan kapitalı daşıyıcıları kateqoriyasına korrupsionerlər, oğrular, tənbəllər, tüfeylilər, cinayətkarlar daxildir. Mənfi insan kapitalı müəyyən dərəcədə vətəndaş institutlarının mənfi ənənələrinə (yalançı tərbiyə, yalançı təhsil, yalançı elm, yalançı mədəniyyət) əsaslanır.

Mənfi kapitala mənaca yaxın olan passiv kapitaldır. Passiv kapital sahibləri maddi və sosial nemətləri istehlak edirlər. Passiv kapitaldan qurtulmaq üçün mütəxəssislər fərddə peşəkarlığın, yüksək motivasiyanın mövcudluğunu göstərən orta göstərici kimi IQ-nün tətbiq edilməsini təklif edirlər. Eyni zamanda mütəxəssislər əhalinin həyat qabiliyətini, iş qabiliyyətliyini, təhsil və innovasiyaya meyilliyini xarakterizə edən dörd qrup parametrləri özündə cəmləşdirən inteqrirləşdirilmiş insan kapitalından istifadəni təklif edirlər.

İnsan kapitalının inkişafı müasir dövrün vacib istiqamətinə çevrilir. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında və "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda insan kapitalının inkişafı, bilik və innovasiyalara əsaslanan inkişaf prioritet təşkil edir. Eləcə də "Təhsil haqqında" və "Elm haqqında" Azərbaycan Respublikasının qanunları da ölkədə insan kapitalının inkişafına xidmət edən mühüm dövlət sənədləridir.

Dövlət başa düşür ki, qlobal rəqəmsallaşdırma, texnoloji dəyişiklik, uberizasiya (Uberizasiya (Uber şirkətinin adından) – kompüter platformalarından, mobil əlavələrdən istifadə etməklə müştərilərlə xidmət təchizatçıları arasında pirinq (bitkoinlər, kriptovalyuta) əməliyyatlarının həyata keçirilməsi, həmçinin bu termin əmtəə alışından xidmət (lizinq, kontrakt, kardşarinq və s.) alışına keçidi də göstərir.) cəmiyyəti, onun təmayülünü, istehsal sistemini, idarəetmə prosesini radikal dəyişir və müasir insan kapitalının aparıcı rolunu prioritet kimi qəbul edən dövlətin yeni inkişaf modelini inkişaf etdirməyi diqtə edir.

XXI əsrin insan kapitalı mürəkkəb substansiya kimi bütün müasir cəmiyyəti əhatə edir və müvafiq olaraq onun hər tərəfli təsiri altına düşür. "Bunun üçün insan potensialının inkişaf etdirilməsi, insan kapitalının keyfiyyətinin və əmək məhsuldarlığının yüksəldilməsi ilə bağlı

məsələlərə xüsusi diqqət veriləcək, institusional və biznes mühiti daha da yaxşılaşdırılacaq, infrastruktur yaradılacaq, təhsil-təlim prosesi və ixtisaslı kadr hazırlığının, əmək bazarı və biznes sektoru arasında koordinasiyanın effektivliyi artırılacaq, innovasiyaya meyilli (elm və texnologiya tutumlu) istehsal (xidmət) sektorunun investisiya cəlbediciliyi artırılacaq, klaster yaratma təşəbbüsləri dəstəklənəcək və əmək məhsuldarlığının yüksəldilməsi üzrə əsas prioritetlər müəyyənləşdiriləcəkdir" [1].

Bununla əlaqədar olaraq iki məsələyə diqqət yetirək.

1. Həqiqətən də müasir insan üçün öz bacarıqlarının inkişafında, biliklərinin tətbiqində yeni çətinliklər yaranır. Lakin "texnologiyaların inkişaf sürəti əksər insanların bilikləri mənimsəmək və tətbiq etmək imkanlarını əhəmiyyətli dərəcədə üstələyir" fikrinin dəqiqləşdirməyə ehtiyacı vardır. Elm sübut etmişdir ki, insan dünya ilə təmasda olarkən imkanlarının yalnız bir hissəsindən istifadə edir. Beləliklə, insanın imkanları ilə qabiliyyətlərinin qarşılıqlı əlaqəsi təhlil edilir. Alimlər hesab edirlər ki, ölçməklə insanın qabiliyyətlərini tam xarakterizə etmək mümkün deyil, onun qabiliyyətlərinin kəmiyyəti demək olar ki, heç bir vaxt müəyyən edilə bilməz.

2. "İnsan potensialı" və "insan kapitalı" anlayışlarının dövlət sənədlərinə daxil edilməsinə baxmayaraq, hələ insan kapitalının inkişafı dövlət hakimiyyət orqanlarının konkret fəaliyyət istiqaməti kimi nəzərdən keçirilmir. Bu baxımdan, məqsəd, vəzifə və tövsiyələr müəyyən edilməmişdir.

Hazırda mövcud problemin insan kapitalının inkişafının inklüziv siyasəti əsasında həlli vaciblyi meydana çıxmışdır. Bu siyasət dövlət, biznes və vətəndaş cəmiyyətinin əməkdaşlığını, mövcud prosesə fərdlərin, kollektiv milli amillərin, gəlirlərdəki qeyri-bərabərlik səviyyəsinin azaldılmasının, əsas xidmətlərə əlçatanlığın genişləndirilməsinin səmərəli daxil edilməsini nəzərdə tutur.

Dünya təcrübəsi təsdiq edir ki, üç sektorun inklüziyası əsasında bir çox ölkələr insan inkişaf prosesi və insanın özünə münasibətdə yeni keyfiyyət dəyişikliklərinə nail olmuşlar. Ölkəmizdə dövlət-özəl, sahələrarası, sosial tərəfdaşlıqda, texnoparkların, elmi mərkəzlərin yaradılmasında təcəssüm edən dövlət, biznes və vətəndaş cəmiyyətinin əməkdaşlığı sahəsində zəngin təcrübə toplanmışdır.

Nəticə. İnsan kapitalının inkişafı sahəsində bir çox perspektiv qərarlar intellektual sistemi (smart system) təşkil edən informasiya modelləşdirməsi sistemi (BIM), kiberfiziki sistemlər (COS), "ağıllı şəhər", yığım və təhlil texnologiyaları (big data), blokchain, əşyalar interneti (LoT) kimi yeni texnologiyaların tətbiqində öz əksini tapır. Müasir şəraitdə ümummilli funksiyalar (iqtisadi, sosial-mədəni, rekreasion, təbiəti mühafizə, demoqrafik, sosial nəzarət funksiyaları, şərt və stimullar yaratmaq, o cümlədən qeyri-kənd təsərrüfatı fəaliyyəti üçün) yerinə yetirən kəndin, kənd əhalisinin, kənd ərazisinin həyat qabiliyyəti yüksəlir.

İnsan kapitalı inkişafının inklüziv siyasəti müasir dövrün sistem obyektinə, vacib institutuna çevrilir. O iqtisadi geriliyi aradan qaldırmağa, əmək məhsuldarlığını dəfələrlə artırmağa, vətəndaşların fəallığını və məsuliyyətini yüksəltməyə imkan verir.

İstifadə olunan ədəbiyyat:

1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi.
2. Becker G.S. Accounting for Tastes. Cambridge MA: Harvard University Press, 1996.
3. Benhabib I. and Spiegel, M. The role of human capital in economic development: evidence from aggregate cross-country data. Journal of Monetary Economics. Elsevier Science B.V., Vol. 34, issue 2. Amsterdam, 1994. p. 143-173.
4. Coleman J. S. Foundations of Social Theory. Cambridge, MA: Belknap Press of Harvard University Press, 1990. P. 304.
5. Coleman J. S. Social Capital in the Creation of Human Capital // Education, Culture, Economy and Society / H. Lauder, P. Brown, A.S. Wells (eds.). Oxford: Oxford University Press, 1997. P. 80.
6. Dixon J. A., Hamilton K. Expanding the Measure of Wealth // Finance and Development. December 1996. P. 15.

7. Machlup F. Knowledge: Its Creation, Distribution, and Economic Significance. Vol. II: The Economics of Information and Human Capital. Princeton: Princeton University Press, 1984. P. 419.
8. Pritchett L. Where Has All the Education Gone? // World Bank Economic Review. 2001. Vol. 15, No 3.
9. Беккер Г. С. Человеческое поведение: экономический подход. Избранные труды по экономической теории. М.: ГУ-ВШЭ, 2003. С. 39.
10. Бурдье П. Социология политики (пер. с фр.). М.: Socio-Logos. 1993. с. 182.
11. Курганский С. А. Человеческий капитал: сущность, структура, оценка. Иркутск: ИГЭА, 1999.
12. Полищук Е. А. Человеческий капитал в экономике современной России: проблемы формирования и реализации. Ижевск: Изд-во ИжГТУ, 2005.
13. Сморгунов Л.В. Государство, сотрудничество и инклюзивный рост. – Власть. № 11. 2017. с. 22-30.
14. Спенс М. Следующая конвергенция. Будущее экономического роста в мире, живущем на разных скоростях. М.: Изд-во Института Гайдара. 2013. с. 116-117.

İNSAN KAPİTALININ ELMİ-NƏZƏRİ BAXIMINDAN ÖYRƏNİLMƏSİ

Famil Niftiyev, c.f.d., aparıcı elmi işçi
Tərəvəzçilik Elmi Tədqiqat İnstitutu
f.niftiyev@mail.ru

İnsan bilikləri, vərdişləri və bacarıqlarının insan kapitalı nəzəriyyəsi çərçivəsində işlənməsi Teodor Şultz ilə başlayır. Bu gün təhsil, səhiyyə və mənzil obyektlərinin iqtisadi fəaliyyətə necə və nə dərəcədə təsir göstərməsi və iqtisadi artımın və əldə olunan inkişafın bütün ölkəyə təsiri məsələsi iqtisadi inkişafın müəyyənedicisinə çevrilmişdir.

İnsan kapitalının ədəbiyyatda investisiya və iqtisadi artım baxımından müxtəlif təhlillərə məruz qaldığı görülür. Bu səbəbdən insan kapitalını araşdıran əsas iqtisadçıların fərqli şərhləri tərtib olunmağa çalışılmışdır (cədvəl 1).

Cədvəldən də göründüyü kimi, insan kapitalı fenomeni Teodor Şultz ilə aydın xətlərlə çəkilmişdir. İzləyiciləri Jacob Mincer, Edward Denison, Gary Beker və Mark Blaug da insan kapitalının fenomenini Teodor Şultz baxımından qiymətləndirdilər və əsasən təhsilin investisiya və istehlak xüsusiyyətlərinə diqqət yetirdilər.

Ancaq Paul Romer ilə başlayan dövrlə insan kapitalı da istehsal cəbhəsində yaratdığı bazar təsirləri baxımından qiymətləndirilmişdir. Bu inkişaf iqtisadi paradiqmalardakı dəyişikliklə sıx bağlıdır. Xülasə olaraq, sözügedən dəyişiklik "Bilik iqtisadiyyatı" konsepsiyasının təhlildə mərkəzləşdirilməsi ilə əlaqədardır.

Cədvəl 1

1960-dan bu günə qədər insan kapitalının müxtəlif şərhləri

Tədqiqatçılar	İl	Tərif	Asılı dəyişən
Şultz, T.W.	1961	İnsan kapitalı; Təhsil və iş nəticəsində qazanılan bilik və bacarıq kimi bir kapitaldır. İnsan kapitalı planlaşdırmadan əldə olunan mənfəəti təmin edir.	Gəlir yaradan insan investisiyaları
Mincer, J.	1962	İnsan kapitalı; təhsil və məktəb yolu ilə zəruri işçi qüvvəsini tənzimləyəcəkdir.	İşçi qüvvəsinin təbiəti
Denison, E.F.	1962	İnsan kapitalı; Kəmiyyətcə torpaq, işçi qüvvəsi və kapital ilə izah edilə bilməyən artma sürətini ifadə edən işçi qüvvəsidir.	Təkmilləşdirilmiş işçi qüvvəsi
Beker, G.S.	1964	İnsan kapitalı; Təhsildə iştirak edən hər bir fərdin ən yüksək gəlir qrupuna qədər bərabər gəlir təmin edə biləcəyi bir sərmayədir. Mənfəət tamamilə özəldir və təhsil yolu ilə cəmiyyətə verilən səmərəliliyin nəticəsi olaraq sosial mənfəət təmin edir.	Təhsil investisiyalarının özəl və sosial gəlirləri
Bovman, M.J.	1969	İnsan kapitalı; İnvestisiya tərəfdən qiymətləndirildikdə, sosial	İnvestisiyalar

		xidmətlər, səhiyyə və təhsil xərcləri fiziki kapital qoyuluşlarına bənzəyir (inkişaf prosesində olduğu kimi istehsal prosesində də əhəmiyyətli rol oynayır).	
Blaug, M.	1976	İnsan kapitalı; Hökumət və özəl sektorun birbaşa və dolayı xərcləri ömür boyu qazanclara təsir göstərsə də, gələcəyin pul və qeyri-pul gəlirləri formalaşır.	Pul və qeyri-pul gəlirləri
Romer, P. M.	1986	İnsan kapitalı; Bu yeni böyümə nəzəriyyələrinin bir formasıdır. Bilik istehsalı bazar impulslarına və şərtlərinə daxili cavabdır (genişləndirilmiş mənfəət imkanları, daha yaxşı təhsil).	İnkişaf etmiş mənfəət
Romer, P. M.	1987	İnsan kapitalı; Bilik istehsalını daha da mənimsəyən və böyümə nəzəriyyəsini tamamlayan bir amildir. Peşəyə yatırımlar gəlirlərini artıracaqdır.	Artan məlumat ehtiyatı
Romer, P. M.	1990	Ümumi insan kapitalı ehtiyatı vacib anlayışdır. Səhm kimi insan kapitalı daha yüksək artma tempi təmin edir.	Daha sürətli artma dərəcəsi
Beker, G. S., Murphy, K. M. ve Tamura, R	1990	İnsan kapitalı; Doğum nisbəti aşağı olan cəmiyyətlərdə ailələr insan kapitalına yatırımlarını artırma fürsəti var. Bu səbəbdən də əhali nisbətlərinin aşağı olmasına baxmayaraq iqtisadi böyümədə üstünlüklü mövqelərə sahibdirlər.	Daha sürətli iqtisadi artım
Cohn, E. ve Geske, T. E.	1990	İnsan kapitalı; Bir fərdin məhsuldarlığı təhsil yolu ilə artarkən, fərdin qazancını artırma şansı var və sosial tarazlıq özünü tənzimləməyə başlayır.	Artan məhsuldarlıq
Beker, G. S.	1993	Bir şirkətin sərmayə qoyuluşu, aparat və materialdakı qazancı, bir şəxsin özünün etdiyi investisiya və qazancına bənzəyir. Bu şəkildə məşğulluq imkanları yaxşılaşır.	Məşğulluq və qazanc

Mənbə: Fredrick Muyia Nafukho, Nancy Hairston, Kit Brooks, "İnsan Kapital Nəzəriyyəsi: İnsan Resurslarının İnkişafına Təsiri", İnsan Resurslarının Beynəlxalq İnkişafı, Cild: 7, No: 4, 2004, s. 547. istifadə edilmişdir.

Teodor Şultz insan kapitalı nəzəriyyəsinin üç qurucusundan biri kimi qəbul edilir. Teodor Şultz 1961-ci ildə nəşr etdirdiyi əsərində təhsilin iqtisadi artıma təsirini obyektiv kapitalın gəlirliliyi və insan kapitalının gəlirliliyi nisbətində ölçüdü. Şultz insan kapitalının 1960-cı illərə qədər iqtisadi təhlildən kənarlaşdırılmasının səbəblərindən birini, insan kapitalının həddindən artıq məhsuldarlığa məruz qalmayan fitri istedadlar kimi tərif etməsi ilə əlaqələndirdi və Qərb cəmiyyətlərinin bu dövrdə insan kapital qoyulmuş xərclər fiziki kapital qoyuluşlarından çox yüksək idi.

Ümumi kapitalın gəlirə nisbətinin sabit qalmasının səbəbi, insan kapitalının ümumi kapital daxilində göstərilməsinə aiddir. Gəlirin artması ilə fiziki kapital ehtiyatlarının azalmasına baxmayaraq insan kapitalının əksinə artdığına diqqət çəkdi. Digər tərəfdən, insanın iqtisadi qabiliyyət və bacarıqlarının əldə edilmiş bir istehsal olduğuna diqqət çəkdi. Fərdin belə bir iqtisadi bacarıq əldə etməsi üçün təhsil, səhiyyə, miqrasiya və peşə təhsili kimi sahələrə investisiya qoyması lazım olduğunu vurğuladı. O, əmək haqqının yuxarıda göstərilən insan investisiyalarına həssaslığının hər şeydən üstün olduğunu müdafiə etdi. Nəhayət, bu nöqtədən başlayaraq insan kapitalına yatırımlar gəlir bölgüsündə artımın gəlir bölgüsü bərabərsizliyini aradan qaldıran ən dominant amil olduğunu müdafiə etdi. Özəl sektorun yaratdığı gəlirlərin və ya sərvət imkanlarının yenidən bölüşdürülməsini hədəfləyən tədricən vergi tətbiqetmələrinin fərdi gəlirlərə təsir göstərə bilməyəcəyini bildirdi.

Fiziki kapital qoyuluşlarında artımın fərdi gəlirlərdən asılı olduğunu vurğulayaraq, fərdi gəlirin insan kapitalı istiqamətində irəlilədiyini xatırladaraq, bu vəziyyətdə insan kapitalına qoyulan investisiyaların bərabər paylanmasının, gəlir bölgüsü ədalətinin təmin edilməsi baxımından vacib olduğunu bildirdi.

Bundan əlavə, Şultz "Təhsilin İqtisadi Dəyəri" adlı kitabında təhsil və mədəniyyət arasındakı münasibətə dair fikirlərini bildirdi. Teodor Şultza görə, öyrənmə və tədris prosesi mədəni yığımlarla müəyyən edilir və bu səbəbdən bir cəmiyyətdən digər cəmiyyətə təhsil konsepsiyası fərqli mənalar verə bilər. Digər tərəfdən, məktəb və təhsil terminoloji anlayışlarını bir-birini əvəzləyən bir şəkildə

istifadə etməyin əlverişsiz olduğunu bildirdi. Təhsil; Təhsil müəssisələrinin funksiyalarına diqqət yetirərkən, məktəb təhsili; Öyrənmə və tədris əlaqələrini təhlil etməyə xidmət edir.

Təhsil bir cəhətdən investisiya, digər tərəfdən istehlak kimi tərif edilə bilər. Bununla birlikdə, Şultza görə, investisiya meyarlarında ən vacib təyin edici "unudulmuş gəlir" dir. Unudulmuş qazanc analizdə nəzərə alınmırsa, yanıltıcı nəticələr əldə etmək mümkündür. Məsələn, dövlətin kolleclərə və ya digər özəl məktəblərə xərclədiyi xərclər xaricindəki ailə xərcləri nəzərə alınmazsa, təhsilin gəlirliliyi nisbətən daha yüksək olacaqdır. Digər tərəfdən istehlak tərəfində məktəb; Cari dövr üçün bir istehlak xərcidir və bir investisiya olaraq gələcək istehlakı artıracaq bir investisiya növüdür.

Şultza görə, təhsil tələbinin qiymət tələbi; Qısa müddətdə digər əmək haqqı və qiymət hərəkətlərindən müstəqil şəkildə inkişaf etsə də, uzun müddətdə təhsil xarici amillərdən çox asılı vəziyyətdə inkişaf edir. Digər tərəfdən, təhsil tələbində əsas həlledici amilin gəlir çevikliyi olduğunu vurğuladı. Gəlir tələbinin ölçülməsində unudulmuş qazanc dəyişkənlər arasında yer alması olduğunu müdafiə etdi. Çünki unudulmuş qazanclar ölkənin inkişaf səviyyəsinə görə fərqlənsə də, iqtisadiyyatla insanlar arasındakı əlaqə daha aydın görünəcəkdir.

Şultz kitabının sonrakı fəsillərində, təhsil yolu ilə unudulmuş qazanclara əsaslanan inkişafa dair izahlı bir funksiya əldə etmək üçün ABŞ, İsrail, Meksika və Venesuela kimi dörd ölkə üçün hesablamalar aparmışdır. Sənayeləşmənin yavaş olduğu və kənd təsərrüfatı sektorunun üstünlük təşkil etdiyi ölkələrdə, ümumi xərclərin yüzdə yüzdə unudulan qazancın yüksək bir tendensiyanı izlədiyini göstərdi. Sözügedən işdə ümumi təhsil xərcləri aşağıdakı düsturla ifadə olunur:

Məktəb xərcləri + Unudulmuş qazanc = Ümumi təhsil xərcləri

Nəticədə, ABŞ və İsrail oxşar nisbətlərə, Meksika və Venesuela isə oxşar nəticələrə sahibdir. Sözügedən təhlilin sadəcə iqtisadi konsepsiyalara əlavə olaraq sosial-mədəni xəttin də təsir etdiyini vurğulayarkən, müəyyən mənada sosial hərəkətliliyin vacibliyini də vurğuladı.

TİBBİ SIĞORTA SİSTEMİNİN TƏTBİQİNİN İNSAN KAPİTALININ İNKİŞAFINDA ROLU (Dünya təcrübəsi, Azərbaycanda mövcud vəziyyət və Strateji Yol Xəritəsi)

Əlişova Çinarə Akif qizi, dissertant
AMEA Iqtisadiyyat Institutu
alishova.chinara@mail.ru

Xülasə

İnsan kapitalının inkişafında səhiyyənin rolunu demək olar ki, heç bir tədqiqatçı inkar etmir və bu məsələ uzun illərdir ki, müzakirə predmeti deyil. Lakin insan kapitalının stimullaşdırılması üçün səhiyyənin necə inkişaf etdirilməsi məsələsi ciddi diskussiya predmeti olaraq qalır. Dövlətin səhiyyə sisteminə müdaxiləsi, o cümlədən onun maliyyələşdirilməsində dövlətin rolunun və payının artırılması nə dərəcədə vacibdir? Yaxud səhiyyə xərclərinin özəl mənbədən təmin edilməsi daha çox stimulaşdırılmalıdır? Səhiyyə xidmətləri bazarı iqtisadiyyatın digər sektorlarında fəaliyyət göstərən bazarlar kimi xüsusiyyətlərə malikdirmi? Səhiyyə sistemində fərdi, dövlət, kommersiya təşkilatlarının, sığorta agentliklərinin xərcləri hansı proporsiyada olmalıdır? Və sair bu kimi sualların düzgün cavablandırılması səhiyyə sisteminin inkişafını və dolayısı ilə əhalinin sağlamlıq səviyyəsinin yüksəldilməsini, sonda isə insan kapitalının artırılmasını təmin etməlidir.

Açar sözler: tibbi sığorta, səhiyyə sistemi, insan kapitalı

Tibbi sığorta sisteminin mahiyyəti

Kennet Arrou və J.Akerlof öz əsərlərində səhiyyə sistemində bazar münasibətlərinin, xüsusilə, rəqabətin roluna şübhə ilə yanaşırdılar. Onların yanaşmasına görə səhiyyə sisteminin özünəməxsus xarakterinə uyğun olaraq, bazarın uğursuzluğu baş verə bilər[5]. Çünki səhiyyə xidmətləri bazarında informasiyanın assimmetrikliyi, xarici amillər, rəqabət mühitinin olmaması hökm sürür. Digər tərəfdən, bu xidmətlərin mahiyyətində gəlir əldə etməkdən daha çox ictimai rifah məsələlərinin dayanır. Qeyd edək ki, K. Arrou tərəfindən aparılan tədqiqatlar keçən əsrin 60-cı illərindən

sonra ABŞ dövlətinin səhiyyə siyasətinin formalaşmasında mühüm rol oynayıb. Onun tərəfindən yazılan və "Tibbi yardımın rifah iqtisadiyyatı və qeyri-müəyyənlik" adlı məqaləsinə son 50 ildə 5000 dəfədən çox istinadlar edilib. Tədqiqatın əsas nəticəsi ondan ibarətdir ki, tibbi xidmətlər bazarında qeyri-müəyyənlik hökm sürür. Belə qeyri-müəyyənlik tibbi xidmətlər bazarının uğursuzluğunun əsasında dayanır. Məsələn, hətta hər hansı insana tibbi xidmətlərin göstərilməsi ilə bağlı əminlik olsa belə, belə xidmətlərin göstərilməsindəki qeyri-müəyyənlik elementi qalmış olur. Digər mühüm qeyri-müəyyənlik göstərilən tibbi xidmətin keyfiyyəti ilə bağlıdır. Tibbi xidmətlər bazarında mövcud olan bu iki növ qeyri-müəyyənlik xidmətlərin qiyməti ilə bağlı digər qeyri-müəyyənliyi yaradır.

Tibbi xidmətlər bazarında olan qeyri-müəyyənliyi yaradan mühüm səbəblərdən biri belə xidmətlərlə bağlı informasiyanın qeyri-simmetrikliyidir. Belə ki, tibbi xidməti göstərən həkimin və bu xidmətdən yararlanan xəstənin həm xidmətin zəruriliyi və keyfiyyəti ilə bağlı informasiyası eyni deyil.

Belə qeyri-müəyyənlik tibbi sığorta sisteminə də aiddir. Belə ki, tibbi problemlərdən sığortalanmaq üçün sığorta şirkətinə müraciət edən fərd sığorta şirkətinə nisbətən özünün xəstəliyi və ya orqanizmindəki zəif cəhətlərlə bağlı daha çox məlumata malik olur. Ona görə də sığorta agentliyi ilə sığortalanan şəxs arasında asimmetrik informasiya formalaşır. Sığorta şirkətləri bilir ki, onlara müraciət edən və sığortalanmağa cəhd edən şəxslər öz sağlamlıqları üçün daha tez-tez tibbi xidmətlərdən istifadə etməyə meyilli olacaqlar. Ona görə də tələbin artması şəraitində sığorta faizlərini artırmağa meyilli olurlar. Qiymət artımı isə sığorta agentliklərinə müraciətlərin sayını azaldaraq, sığorta bazarını uğursuz edir. Bu mexanizm maşın bazarındakı asimmetrik informasiyanın tibbi xidmətlər bazarına tətbiq edilməsi ilə Akerlof [**Ошибка! Источник ссылки не найден.**] tərəfindən işlənmişdir.

Tibbi sığorta sistemindəki qeyri-müəyyənliyin hökm sürməsinə baxmayaraq, bu sistem əhalinin tibbi xidmətlərdən yararlanması məqsədilə səhiyyə müəssisələrinə müraciətinin artırılmasına xidmət edir. Əhali tibbi sığorta imkanlarından istifadə edərək, nəinki zəruri hallarda, hətta profilaktiki tədbirlər məqsədilə səhiyyə xidmətlərindən yararlanmağa cəhd edirlər.

- Tibbi sığorta xərclərinin növləri
-

Cədvəl 1. 2017-ci il üzrə dövlət tərəfindən sosial tibbi sığorta xərcləri (STSX) ən yüksək olan 30 ölkə (milyon ABŞ dolları)

	Ölkələr	STSX			Ölkələr	STSX			Ölkələr	STSX
1	ABŞ	753,255		11	Türkiyə	19,976		21	Indoneziya	6,873
2	Yaponiya	401,502		12	Avstriya	19,188		22	macarıstan	5,874
3	Almaniya	294,534		13	Meksika	17,606		23	Yunanıstan	5,444
4	Çin	239,132		14	Niderland	16,571		24	Slovakiya	4,998
5	Fransa	209,976		15	Kolumbiya	13,297		25	İspaniya	4,812
6	Koreya Resp.	54,764		16	Israil	12,494		26	Hindistan	4,251
7	Rusiya	30,345		17	Iran	12,369		27	Peru	3,259
8	Belçika	28,676		18	Çili	11,979		28	Costa Rica	2,992
9	Argentina	25,359		19	Çexiya	10,777		29	Finlandiya	2,867
10	Polşa	20,197		20	Rumuniya	6,888		30	Xorvatiya	2,855

Qeyd: Dünya Səhiyyə Təşkilatının məlumatları əsasında müəllif tərəfindən tərtib edilib

Tibbi sığorta səhiyyə xərclərini artırmaq yolu ilə səhiyyə xidmətlərinə olan tələbi artırır. Tibbi sığorta xərcləri arasında ən geniş yayılanı "sosial tibbi sığorta" və "icbari özəl sığorta" sxemləridir. Tibbi söğorta mexanizmləri ilə səhiyyə xərclərinin həcmi ölkələrin iqtisadi inkişafından və həyata keçirilən sosial siyasətdən asılı olaraq, kəskin dəyişir. Cədvəl 1-da dövlət tərəfindən tərəfindən həyata keçirilən sosial sığorta mexanizmləri vasitəsilə səhiyyə xərcləri 191 ölkə arasında ən yüksək olan 30 ölkə və bu ölkələrdə sığorta xərclərinin həcmi verilmişdir.

Təəssüf ki, bu ölkələr arasında 2017-ci ildə Azərbaycan olmayıb. 2020-ci ildən başlayaraq, icbari tibbi sığorta mexanizmi tətbiq edildikdən sonra Azərbaycanda da səhiyyə sistemində belə xərclər müəyyən paya malik olacaq.

İcbari tibbi sığorta mexanizmi ilə səhiyyə xərclərinin cəmi səhiyyə xərclərində payı (%) (cədvəl 2) göstəricisi üzrə ölkələrin müqayisəsi deməyə əsas verir ki, heç də bütün inkişaf etmiş ölkələrdə icbari tibbi sığorta sistemindən geniş istifadə edilmir. Məsələn, 2017-ci ilin göstəricilərinə əsasən, Çilidə, Litvada, Moldovada məcburi tibbi sığorta xərclərinin cəmi səhiyyə xərclərindəki payı iqtisadi inkişaf səviyyəsi daha yüksək olan Böyük Britaniyada olduğundan yüksək olub. 2017-ci ildə əksər inkişaf etməkdə olan ölkələrdə, o cümlədən, Azərbaycanda, həmçinin bəzi inkişaf etmiş ölkələrdə, məsələn, Böyük Britaniyada məcburi tibbi sığorta sistemi tətbiq edilmirdi. Azərbaycanda belə maliyyələşmə sistemindən yalnız 2020-ci ildən başlayaraq istifadə ediləcək.

Cədvəl 2. 2017-ci il üzrə məcburi tibbi sığorta xərclərinin cəmi səhiyyə xərclərindəki payı (%) ən yüksək olan 30 ölkə

	Ölkələr	%			Ölkələr	%			Ölkələr	%
1	San Marino	79		11	Çexiya	69		21	Çili	58
2	Luxembourq	79		12	Sloveniya	69		22	Litva	58
3	Almaniya	78		13	Bosnia və Herzeqovina	68		23	Belçika	56
4	Fransa	78		14	Kolombiya	68		24	Türkiyə	56
5	Slovakiya	78		15	Estoniya	64		25	Serbiya	54
6	Xorvatiya	76		16	Makedoniya	63		26	Uruquay	50
7	Yaponiya	76		17	Rumuniya	63		27	Moldova	50
8	Niderland	75		18	Macarıstan	61		28	Suriname	50
9	Monako	74		19	Polşa	59		29	Korea	49
10	Kosta Rika	72		20	ABŞ	58		30	Israil	48

Qeyd: Dünya Səhiyyə Təşkilatının məlumatları əsasında müəllif tərəfindən tərtib edilib.

Ədəbiyyat siyahısı

1. World Economic Outlook Reports [Elektron resurs] // International Monetary Fund, - 2021. URL: https://www.imf.org/en/Publications/WEO
2. World Economic Outlook Update [Elektron resurs] // International Monetary Fund, 2020, June. URL: https://www.imf.org/en/Publications/WEO/Issues/2020/06/24/WEOUpdateJune2020
3. Wright, P.M. Rediscovering the “Human” in strategic human capital // Human Resource Management Review, - 2020, - 100781.
4. Yasmin, T., El Refae, G.A., Eletter, S. Sectoral productivity in Hungarian economy: an input-output linkages approach // Journal of Eastern European and Central Asian Research, - 2019, 6(2), p.344-355.
5. Zhou, G. Inclusive Finance, Human Capital and Regional Economic Growth in China / G. Zhou, K. Gong, S. Luo [et al] // Sustainability, - 2018. 10, 1194.
6. Zhu S, Li R. Economic complexity, human capital and economic growth: empirical research based on crosscountry panel data // -London: Taylor and Francis Group, Applied Economics, - 2017,- 49(38),- p.3815-3828.

UNİVERSİTETLƏRİN İNSAN KAPİTALININ VƏ İNNOVASİYA POTENSİALININ İNKİŞAFINDAKI ROLUNUN QİYMƏTLƏNDİRİLMƏSİ

Afaq Kərimli, Doktorant
Azərbaycan Dövlət İqtisad Universiteti
afag_karimli@unec.edu.az

Xülasə

Müasir dövrümüzdə universitet təkcə yüksək ixtisaslı mütəxəssislərin hazrılanmasını təmin edən elm, mədəniyyət, təlim, tədris mərkəzi kimi deyil, həmçinin intellektual məhsul istehsalçısı simasında bazar iqtisadiyyatının subyektinə çevrilir. Bununla əlaqədar olaraq, universitetlərdə ixtiraların bazara çıxarıla bilməsinə yönəldilmiş xüsusi infrastruktur formalaşdırılır, universitet strukturunun idarə edilməsi çətinləşir.

Universitet və biznes arasındakı ayrı-ayrı tərəfdaşlıq mexanizmlərinin seçilməsinin əsasında tərəfdaşlıq təşəbbüslərinin reallaşdırlması üsullarının xüsusiyyətləri dayanır. Əsas tərəfdaşlıq təşəbbüsləri arasında aşağıdakıları qeyd edə bilərik: universitetlərdə yaradılan texnologiya parkları (texnologiya transfer mərkəzləri, inkubatorlar və texnoparklar), ictimai administrativ institutlar (ictimai, idarəedici, qəyyumluq edən, nəzarətçi və digər şuralar), digər innovativ infrastruktur təşkilatları, məzunlar birliyi və s. İş dünyası daima universitetlər ilə əməkdaşlıq edir və əvvəllər yalnız özəl sektor sadəcə xeyriyyə, sponsorluq və ya ianə verməklə məhdudlaşırsa, bu gün təhsil müəssisələrinin inkişafında fəal rol oynayır, öz hesabına universitetin maddi bazasının daha da yaxşılaşdırılması və kadr hazırlığı sisteminə mütəxəssislərin daxil edilməsi üçün çalışır, öz mütəxəssislərini təhsil müəssisələrinin modernləşdirilməsi prosesinə cəlb etməklə, həmçinin birgə təhsil layihələrinin reallaşdırlması üçün digər xeyriyyəçilərdən vəsaitlərin cəlb olunması ilə məşğul olur. Buna nümunə kimi həm şirkətlərin özündə, həm də ali təhsil müəssisələrinin daxilində korporativ universitetlərin yaradılmasını qeyd edə bilərik.

Ölkəmizdə cəmiyyətinin sosial-iqtisadi inkişafı cari dövrün əvvəllərində insan faktorunun artan rolu ilə səciyyələnir. İnsan resursları hal-hazırda dünya iqtisadiyyatında iqtisadi artım, yəni iqtisadiyyatın inkişafının təminatında keyfiyyət parametrlərinə və rəqabətli üstünlüklərə nail olmaqda müəyyənedici rol oynayır. XXI əsrdə bu inkişafın perspektivləri bilik daşıyıcısı kimi insan kapitalı ilə birbaşa əlaqəlidir. Sürətli irəliləmə, kompüter və robotların kütləvi paylanması, telekommunikasiya və digər inqilabi texniki nailiyyətlər, təhsilə və peşəkar təlimə böyük investisiyaların əhəmiyyətliliyinə əsaslanan "insan kapitalı" konsepsiyasının meydana çıxmasına gətirib çıxarmışdır. "Kapital" anlayışı orijinal mənada sosial inkişafın hər hansı bir prosesində əsas, ən vacib, kapital mənasında işlədilir. Hər bir insan əmək hesab oluna bilər və kapital kimi qiymətləndirilə bilər. (Коротков, Э., 2010, s.325)

Müasir dövrdə insan kapitalı cəmiyyətin əsas səhmi, dəyəri kimi qəbul olunur. İnsan kapitalına investisiyalar adətən gələcəkdə daha yüksək gəlir (geridönüş) təmin edir. İnsan kapitalına investisiya qoyuluşları həcm, uzunmüddətlilik və inteqral xarakterinə əsasən iqtisadi və sosial əhəmiyyət ifadə edir. İnsanda gəlir formalaşdırmaq qabiliyyətinin ölçüsü olaraq insan kapitalı təhsil və iş fəaliyyətində əldə edilən genetik cəhətdən təyin olunmuş xüsusiyyətləri və qabiliyyətləri birləşdirir. Nəticə olaraq, ən vacib komponentlərdən biri olan bilik, təhsil səviyyəsi insan kapitalının həcminə böyük təsiri göstərməkdədir. Bundan əvvəlki zamanlardan etibarən təhsil milli məsələ olmuşdur. Yeni iqtisadiyyatda təkcə bazar mexanizmləri deyil, həmçinin dövlət siyasəti də insan kapitalının toplanmasının hərəkətverici qüvvəsi hesab edilir. Bununla yanaşı, dövlətin elmi və təhsil kapitalının inkişafına etdiyi tənzimləyici təsir xüsusi keyfiyyətə malikdir. Bu baxımdan bir sıra problemlər xüsusi əhəmiyyət kəsb edir.

1. Elm və təhsilə investisiyaların yetərsiz olması. Son 20 il müddətində ölkəmizdə mədəniyyət, təhsil və elm sahələrinə investisiyalar dünya üzrə ən aşağı səviyyədədir.

2. Təbiət elmləri tədrisinin keyfiyyətinin pisləşməsi, tələbə və magistrantların təlim səviyyəsinin aşağı düşməsinə gətirib çıxardı. Son on beş ildə təhsil müəssisələrinin və ixtisasların

sayının artması təhsilin keyfiyyətinin aşağı düşməsinə, gənclərin xaricə getməsinə və insan kapitalına sərmayələrin azalmasına gətirib çıxardı (Каверзин, И. Л., 2009, s.128).

Cədvəl 1: 2014-2018 – ci illərdə dövlət büdcəsindən təhsilə və elmə çəkilən xərclər

	2014	2015	2016	2017	2018
a) Təhsilə çəkilən xərclər, milyon manat	1278,5	1537,7	1553,2	1653,9	1705,1
ÜDM – nisbətən faizlə	2,5	2,8	2,7	2,7	3,5
Dövlət büdcəsinin xərclərinə nisbətən, faizlə	8,3	8,4	7,5	8,4	9,1
b) Elmə cəkilən xərclər, milyon manat	107,1	117,7	118,0	125,2	114,2
ÜDM nisbətən, faizlə	0,3	0,3	0,3	0,3	0,3
Dövlət büdcəsinin xərclərinə nisbətən faizlə	0,8	0,8	0,7	0,8	0,7

Mənbə: *https://www.stat.gov.az/source/education/ - ın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Müasir dövrdə ölkəmizdə əks vəziyyət müşahidə olunmaqdadır. Bir tərəfdən, əhalinin yüksək təhsilə olan tələbatının artdıqca təhsil sahəsində qiymətlər də artır. Təhsildə qiymətlərin artması bütün dünyada müşahidə olunur. Beləliklə, son 15 ildə Birləşmiş Ştatlarda təhsil xidmətlərinin qiyməti 24% (mal və xidmətlər üçün 74%) artıb. Məsələn, 2019-2020-cu tədris ilində Rusiyanın ən tanınmış Berkeley Universitetində təhsil xərcləri il ərzində 21-45 min dollar təşkil edir. Digər tərəfdən, ali təhsilin keyfiyyətində azalma, yalançı biznesin inkişafında yüksəlmə olmuşdur. Azərbaycanda təhsilə çəkilən xərcləri təhlil etsək görərik ki, son illərdə ümumiyyətlə, bu xərclər artmaqdadır. (cədvəl 1) Bu da onunla əlaqəlidir ki, dövlət beynəlxalq təhsil səviyyəsinə çatmaq üçün müxtəlif layihələr reallaşdırır.

Cədvəldən gördüyümüz kimi 2014- cü ildə Azərbaycanın Dövlət Büdcəsindən ümumilikdə elm sahəsinə çəkilən xərclər 1 mliyard 278, 5 milyon manat təşkil etnişdir. Bu dövlət büdcəsi xərclərinin 8,3 faizini Ümumi Daxili Məhsulun isə 2,5%- ni təşkil etmişdir. Bu göstəricilər müvafiq olaraq 2015- ci ildə 1 milyard 553,2 milyon manat, 8,4 faiz və 2,8%, 2016- cı ildə bir qədər yüksələrək 1 milyard 553,2 milyon manat 7,5% və 2,7%, 2017 - ci ildə 1 milyard 653,9 milyon manat, 8,4% və 2,7%, 2018- ci ildə isə 1 milyard 705,1 milyon manat, 9,1% və 3,5% təşkil etmişdir.

3. Elm və təhsilin inkişafı üçün strateji planlaşdırmanın olmaması, gələcəkdə hərəkət məqsədlərini müəyyənləşdirməyə imkan vermişdir. Şübhəsiz ki, yüksək texnologiyalı sənayelər müəyyən inkişaf prioritetləri olmalıdır. Məhz universitetlər yüksək intellektuallı mütəxəssislərin təchizatçıları kimi fəliyyət göstərərək yüksək texnologiyalı sahələrin inkişafına təsir göstərə biləcək gücə sahibdirlər. Müasir elmi və texnoloji inkişaf və dünyada yüksək texnologiyalı məhsulların istehsalı yalnız 50-55 makrotexnologiya ilə bağlıdır, onların hər biri bilik orqanı, yüzlərlə xüsusi texnologiya və istehsal imkanlarını təmsil edir. Qlobal iqtisadiyyatın gələcəyini müəyyən edən makro texnologiyalar arasında - biotexnologiyalar (biotexnologiya, gen terapiyası), informasiya və kommunikasiya texnologiyaları, müəyyən edilmiş xüsusiyyətləri olan yeni materialların texnologiyaları, enerji və füzyon texnologiyaları, alternativ enerji texnologiyaları və s. xüsusi yer tutur. Yüksək texnologiyalı mal və xidmətlərin qlobal bazarları ən yüksək dərəcələrlə inkişaf edir və daha çox təhsilli, ixtisaslı işçilər tələb edir. Yüksək texnologiya məhsulları bazarında dominant mövqeni 46 texnologiya və yüksək texnologiyalı məhsulların istehsalı və satışının 2/3 hissəsini təşkil edən G7 ölkələri tərəfindən işğal olunmuşdur (Зинов, В. Г., 2008, s.78).

Təhsil, elm və rəqabət üstünlükləri arasında olan birbaşa əlaqələri aydın şəkildə başa düşərək, bir çox ölkələr bu istiqamətdə səylərini artırmaq niyyətlərini bəyan edirlər. ABŞ statistikasına görə, 2018-ci ildə 11,5 milyon adam (gənclərin təxminən 40% -i) kollec tələbələri idi. Eyni zamanda 2016-cı ildə təhsil müəssisələrində təhsil alanların 84,9% -i tam təlim kursunu başa vurub və 2018-ci ildə başa çatdırmışdır. Universitetdə təhsilini tamamlaya bilməyənlərin sayı 2017-ci ilə nisbətən 0,9% azalmışdır (The New York Times, 2019).

Göründüyü kimi, yaxın bir müddətdə Azərbaycanda bir işçinin keyfiyyətinin təsdiqi kimi

diplomun məzmunu genişlənəcək. İqtisadiyyatın yüksək texnologiyalı məhsullara və xidmətlərə yönəldilməsi biliyə dair formal sənəd deyil, biliklərin özüdür. İnsan kapitalının nəzəriyyəsi baxımından, işçi qüvvəsinin keyfiyyəti ilə bağlı siqnallar yaxşı fərqlənir, yəni potensialı pis və yaxşı olan işçilər bir-birindən yüksək fərdi keyfiyyətlərlə fərqlənirlər.

Aşağıdakı cədvəldən göründüyü kimi, Azərbaycan üçün bu göstərici 3,46-dır. Müqayisədən aydındır ki, Azərbaycan insan kapitalının inkişafı üçün təhsilə ayırdığı maliyyənin həcmini artırmalıdır, baxmayaraq ki, bəzi ölkələri bu mənada keçə bilirik.

Ümumiyyətlə, dövlətin insan kapitalının inkişafı üçün göstərdiyi qayğı və diqqət digər dövlətlərlə müqayisədə öz təsdiqi tapa bilər. Bu baxımdan Azərbaycanla müqayisədə təhsil xərclərinin ÜDM-də payının həcminə baxa bilərik.

Dövlətin diqqətini çəkən insan kapitalına tam hüquqlu investisiya bu gün informasiya cəmiyyətinin yaradılması və milli insan kapitalının bərpasına təkan verəcəkdir. Alimlər insan kapitalı investisiyalarının fiziki sərmayələrə qoyulan investisiyalardan çox olduğunu göstərirlər. Beləliklə, Azərbaycan üçün insan potensialının aşağı səviyyədə həyata keçirilməsi və aşağı gəliri olan bir ölkə olaraq, təhsil və elm sahələrinə investisiyaların artırılması xüsusilə vacibdir.

Cədvəl 2

2018-ci il üzrə bəzi dünya ölkələri üçün təhsil xərclərinin ÜDM – də payı (faizlə)

Ölkələr	Təhsil xərclərin ÜDM – də payı, faizlə
Kuba	13.84
Norveç	8.37
Finlandiya	8.19
ABŞ	6.22
Rusiya	5.15
İran	4.06
Türkiyə	3.86
Azərbaycan	3.46
Ermənistan	3.40
Gürcüstan	2.98

Mənbə: *Beynəlxalq Valyuta Fondunun 2018 il üzrə Ölkələrin Global Göstəriciləri Hesabatı əsasında müəllif tərifindən hazırlanmıştır.*

Qloballaşma və inteqrasiya proseslərinin dərinləşməsi kontekstində yenilikçi bir iqtisadiyyatın formalaşması xüsusilə aktual, çətin, çoxplanlı və uzunmüddətli bir prosesdir, bu məsələ bir çox ölkələrin, regionların, müəssisələrin və təşkilatların, onlara işləyən çox sayda mütəxəssisin fəaliyyətini maraqlandırır. İnnovasiya iqtisadiyyatının əsas funksiyası yeniliklərin davamlı və ardıcıl yaradılması və həyata keçirilməsi, innovasiya fəaliyyətinin inkişafı, rəqabət mübarizəsində əhəmiyyətli nəticələrin əldə olunması və ölkənin və onun regionlarının sürətli sosial-iqtisadi inkişafıdır. Yenilikçi iqtisadiyyat, ilk növbədə, bilik, yenilik, yeni ideyalar, maşınlar, sistemlər və texnologiyaların qəbuluna, istehsalın və iqtisadi fəaliyyətin müxtəlif sahələrində bilik və innovasiya xüsusi rolu nəzərə alınmaqla istehsal və iqtisadiyyatın həyata keçirilməsinə hazır olmağa əsaslanan cəmiyyətin iqtisadiyyatıdır. Eyni zamanda, yarı rəqabət şəraitində innovativ fəaliyyətin artması effektiv innovativ iqtisadiyyatın formalaşması üçün ən mühüm şərtdir. İnnovativ iqtisadiyyat yenilikçi inkişaf yoluna keçid üçün şərait yaratmaq, eləcə də elmi və istehsal potensialını yeniləmək və inkişaf etdirmək üçün innovasiya subyektləri arasında motivasiyanın meydana gəlməsi və ya yaranması ilə əlaqəli iki əsas amil qrupunun təsiri altında yaradılıb, yenilikləri tətbiq etmək və mövcud olan məhdud resurslardan səmərəli istifadə etməkdir.

Qeyd etmək lazımdır ki, yenilikçi fəaliyyətin səmərəliliyi əsasən innovasiya infrastrukturu ilə müəyyənləşdirilməlidir. İnnovasiya infrastrukturu yenilikçi iqtisadiyyatın əsas vasitəsidir və mexanizmidir və xüsusi ərazi dəyişiklikləri kontekstində effektiv innovasiya üçün zəruri və kifayət qədər bir-birinə bağlı, tamamlayıcı istehsal və texniki sistemlər, təşkilatlar, korporasiyalar, firmalar və müvafiq təşkilati və idarəetmə sistemlərinin məcmusudur. İlk növbədə, innovativ iqtisadiyyatın formalaşmasının intensivləşdirilməsi ölkənin bütün bölgələrində paylanmış bir innovasiya-

mühəndislik və investisiya şəbəkəsi infrastrukturunun yaradılmasının vacibliyi ilə bağlıdır.

İnnovasiya iqtisadiyyatının formalaşması və inkişafının əsas komponentini - kadr elementini təmin edən ali təhsil sisteminin mövcud infrastrukturu innovasiya və investisiya strukturları (texnoparklar, komplekslər, institutlar, filiallar, tədqiqat və istehsal mərkəzləri və s.) ilə tamamlanmalıdır, belə ki, universitetlər təhsil-elm-innovasiya kompleks rolunu oynayırlar. Digər tərəfdən, yenilikçi iqtisadiyyata malik bir cəmiyyətdə innovativ fəaliyyətin aktiv inkişafı şəraitində, əsas məhsuldar qüvvəyə münasibət - yüksək intellektual, yüksək məhsuldar işçiyə olan tələbat tamamilə dəyişməlidir.Qeyd etmək vacibdir ki, innovasiya iqtisadiyyatında yüksək ixtisaslı mütəxəssislərin rolu çox böyükdür və daim inkişaf edəcəkdir. Buna görə innovasiya proseslərini səmərəli idarə edə bilən, innovativ layihələri inkişaf etdirən və tətbiq edən kadrların hazırlanması prioritet dövlət və regional proqram olmalıdır. Azərbaycanda innovativ inkişafın obyektiv ehtiyacını, innovativ iqtisadiyyatın yaranmasını nəzərə alaraq mövcud kadr hazırlığı konsepsiyasını dəqiqləşdirmək lazımdır. Həmin konsepsiya bu prinsiplərə əsaslanır: (The New York Times, 2019)

- təhsilin kredit texnologiyasını tətbiq etməklə dünya təhsil məkanına keçid əsasında yaradıcı insanın formalaşması, inkişafı və özünü reallaşdırması;
- yüksək ixtisaslı və yüksək səviyyəli mütəxəssislər, mühəndislər, innovasiya fəaliyyətinin sistem menecerləri təliminə yönəldilmişdir;
- istehsal prosesinin tərkib hissəsi kimi təhsil və təlimin nəzərdən keçirilməsi və təlimlərin dəyəri işçilərin xərcləri kimi deyil, müəssisələrin, təşkilatların, sənaye və regionların rifahı üçün zəruri olan uzunmüddətli investisiyalar kimi qiymətləndirilməlidir;
- yüksək texnologiyalı yeniliklər, nano texnologiyaları yaratmaq proseslərinin sosial və psixoloji aspektlərinin idarə edilməsində təlimlər, yenilikçi inkişafların tətbiqinə geniş miqyaslı tətbiqi sürətləndirmək üçün işçilərin yaradıcı potensialından istifadə etmək;
- yenilikçi məhsulların, malların və xidmətlərin istehsalı sisteminə inteqrasiya olunmuş kadrların davamlı təhsili və inkişafı sisteminin yaradılması və s.

Təcrübə göstərir ki, Azərbaycan Respublikasının ali məktəbləri təmin edir: (Иванова, 2002, s.119).

- elmi əsaslandırılmış bir dövrünün yaradılması, iqtisadiyyatın əsas sektorlarında və xidmət sektorunda nəticələrini həyata keçirmək üçün elmi tədqiqatların aparılması;
- yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasında innovasiya fəaliyyətinin nəticələrindən sistemli istifadə;
- büdcədən kənar mənbələrdən maliyyələşdirilən yenilikçi layihələrin, habelə xarici qrantlar vasitəsilə inkişaf etdirilməsi və həyata keçirilməsi;
- universitet və regionda yenilikçi infrastrukturların yaradılması məqsədilə innovativ fəaliyyətlərə investisiya qoymaq. Eyni zamanda, biz müəssisələrin və təşkilatlar tərəfindən universitetlərin potensialının azaldıldığını gördük:
- yeni məhsullar, istehsal, texnologiyalar və xidmətlər yaratmaq üçün tədqiqatların nəticələri kifayət qədər istifadə edilmir;
- alimlər və tədqiqatçılar rəhbərlik və marketinqin rolunu qiymətləndirməzlər;
- elm adamları tədqiqat və inkişafın ticarətləşdirilməsiylə məşğul olurlar, çünki bu sahə elmi fəaliyyətdən fərqlidir və yüksək peşəkar səviyyədə təşkil olunmalıdır.

Azərbaycan Respublikasında intellektual mülkiyyətin qorunması sahəsində hüquqi bazanın təkmilləşdirilməsi, belə bir inkişafın reklamı ilə bağlı motivasiyanın artması və xaricdəki bu cür inkişaflara tələbatın və orada satışın mümkün olması səbəbindən də tələb olunur. Eyni zamanda, Azərbaycanda universitetlərin maliyyə dəstəyi üçün xarici fondların böyük marağına səbəb olması məlumdur. Təcrübə göstərir ki, ali məktəbdə tədqiqat fəaliyyəti öz xüsusiyyətlərinə malikdir və bu, universitetin əsas fəaliyyəti - təhsildir. Eyni zamanda universitetin yenilikçi fəaliyyəti də təhsil komponentləri ilə bağlı öz xüsusiyyətlərinə malikdir. Buna görə də, komponent təhsil fəaliyyəti kimi daxil olan elementlərin birləşməsində, innovasiya fəaliyyətində ali təhsilin rəqabət üstünlüyünün təmin edilməsi üçün təbii imkanlar görünür. Beləliklə, yenilikçi bir iqtisadiyyat formalaşdırarkən, universitetlərin ölkənin elmi və texnoloji inkişafına təsir göstərməsi, innovasiya

sahəsində azad yer tutması, yüksək ixtisaslı kadrların hazırlanması və yenidən qurulması problemini həll etmək və sosial-iqtisadi siyasətin həyata keçirilməsinə töhfə verə biləcək nəticələr formalaşdırmaq Azərbaycan Respublikası və əhalisinin həyat səviyyəsini artırır.

Nəticə

Tədqiqat zamanı aşağıdakı nəticələrə gəlinmişdir:

- "Sahibkarlıq universiteti" yalnız innovativ iqtisadiyyatın hərəkətverici qüvvəsi deyil, insanların "fürsəti yaxalamaq " və "biznes + potensial" ideyalarını həyata keçirməyin üsullarının öyrədildiyi bir yerdir. "Pis" və "yaxşı" universitet arasındakı fərq, "xarici" texnoparklarda və inkubatorlarda deyil, "korporativ etikası" və "sahibkarlıq mədəniyyəti"nin kök saldığı dərs proqramındadır.
- Hər hansı bir ölkənin ali təhsil sisteminin xarakterik xüsusiyyəti bu sahədə səlahiyyətli qərarlarının qəbul edilməsi prosesinə təsir göstərən çox sayda qurumun olmasıdır. Bu, ali təhsil sisteminin şəbəkə əsasında qurulması ilə əlaqədardır, iqti-sadiyyatın irəliləyişi yalnız universitetlərin deyil, həm də biznes ictimaiyyətinin, dövlət qurumlarının, bank sisteminin və kütləvi informasiya vasitələrinin səylərini tələb edir.
- Biznes və universitet arasında əməkdaşlıqda daha aktiv fəaliyyət göstərən istiqamət Universitet Məzunları Dərnəkləridir (Alumni) - bunlar könüllük prinsipi əsasında fəaliyyət göstərən ictimai təşkilatlardır. Bu təşkilatlar çərçivəsində mə-zunlar öz universitetlərini müxtəlif istiqamətlərdə dəstəkləyirlər, çünki onlar oxu-duqları universitetlərinin uğurunun onların diplomlarının rəqabət qabiliyyətini ar-tırdığını başa düşürlər.
- Təhsildə ən yaxşı performansı göstərən ölkələr öz sistemlərini yaratmaq üçün əhəmiyyətli bir qərar verməyi bacarmışdır. Keçmişdə yalnız elita tələbələri-nin sahib olduğu təhsil standartlarını hər kəsə təqdim etdilər. Buralarda dövlət siya-sətinə istiqamət verənlər artıq bir məqamı anladı: imkansız uşaqların yüksək səviyyədə uğur əldə edə bilməsi üçün güzəştlərə görə daha çox sərvətə nail olmaları lazımdır.

Ədəbiyyat siyahısı

1. Muradov Ə., (2019). Heydər Əliyev və müasir universitet modeli. Azərbaycan” qəzeti. 09 may. s. 12.
2. Yalçınkaya, Ö., Kaya, V. (2016). Eğitimin Ekonomik Büyüme Yönünde Etkisi: Düşük, Orta ve Yüksek Karlı Orta Deneyim (1990-2011), AIBU Sosyal ve Ekonomik Bilimler Enstitüsü Dergisi, 16/3, s. 27-60.
3. The New York Times. 29.10.2010.http: www.smysl-project.ru/news/ item/2119
4. Wissema J., (2009) Advancement in the 3rd Generation University areas: At the same time, balancing the administration of universities. Northampton, MA: Edward Elgar, 478 p.
5. Arbo P., Benneworth P.S. (2007). Understanding the Regional The impact of universities: Literature Assessment // OECD Education Workers' Newspaper 2007/09. Paris: OECD, s.150.
6. Карпов А. (2017) Новые учебные направления как центр экономического развития: методология и работа, которую предстоит выполнить. Экономические и социальные проблемы. № 3. С. 57-76.
7. Коротков, Э., (2010) М. Менеджмент. М. : Изд-во «Юрайт», 610с.
8. Каверзин, И. Л..(2015) Стратегическое управление вузом в условиях новой экономики: «Принцип корпорации». http://journal.vlsu.ru/index.php?id=288.
9. http://anl.az/down/meqale/az_muellimi/2010/noyabr/141780.htm

İNSAN KAPİTALININ DAVAMLI İQTİSADİ İNKİŞAFA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Məmmədova Səidə Rəhim qızı, Baş müəllim
Sumqayıt Dövlət Universiteti
seidememmedova@mail.ru

Xülasə

Məqalədə ölkənin davamlı üçün sosial-iqtisadi şərtlər aşıqlanmışdır. İnsan kapitalının inkişafının davamlı iqtisadi artıma təsiri qiymətləndirilmişdir. İnsan kapitalının formalaşması amilləri və ona təhlükə yaradan risk amilləri tədqiq edilmişdir. İnsan kapitalının təbii və fiziki kapitala qarşılıqlı təsiri nəzərdən keçirilmişdir. Milli təhlükəsizliyin möhkəmləndirilməsi kontekstində ölkədə təhlükələri təsirsiz hala gətirmək və insan kapitalının toplanmasını sürətləndirmək üçün tövsiyə xarakterli təkliflər irəli sürülmüşdür. İnsan kapitalının davamlı inkişafını, habelə səmərəli istifadəsini təmin edən ən vacib amillər müəyyənləşdirilmişdir.

Müasir şəraitdə dünyanın bütün ölkələrinin üzləşdiyi ən aktual problemlərdən biri davamlı iqtisadi inkişafa nail olmaqdır. Davamlı inkişafa nail olmaqda məqsəd gələcək nəsillərin maraqlarını nəzərə alaraq iqtisadi canlanmanı təmin etmək və eyni zamanda resurs bazasını və ətraf mühiti qorumaqdır. Davamlı iqtisadi inkişaf milli iqtisadiyyatın sosial-iqtisadi göstəricilərinin sabitliyinin qorunub saxlanıldığı və daim yaxşılaşdığı bir vəziyyətdir.

Ölkənin davamlı iqtisadi inkişafının gücləndirilməsi üçün sosial-iqtisadi şərtlər aşağıdakılardır:

1. Sabit iqtisadiyyatın mövcudluğu.
2. Sosial-iqtisadi sahənin rəqabət qabiliyyəti.
3. İnsan kapitalının inkişafı.

Ölkəmizdə baş verən sosial-iqtisadi dəyişikliklər milli iqtisadiyyatın davamlı inkişafının təmin olunmasının şərtlərindən biri kimi insan kapitalının formalaşması problemlərinə diqqətini tələb edir. Müasir iqtisadiyyatda məhsuldar amil kimi insan kapitalı çıxış edir. İnsan kapitalı ölkənin iqtisadi artımının ən vacib amilinə, davamlı iqtisadi inkişafın təməlinə çevrilir. İnsan kapitalının yenilənməsi ölkənin davamlı inkişafı üçün əsasdır.

Müasir cəmiyyətin inkişafı insanın rolunun artması, yeni tipli istehsal-iqtisadi və sosial-mədəni münasibətlərin formalaşması ilə xarakterizə olunur. Milli iqtisadiyyatın normal fəaliyyəti üçün əqli, əxlaqi və fiziki baxımdan yüksək səviyyədə inkişaf etmiş insanlar tələb olunur. Milli iqtisadiyyatın əsas strateji mənbəyi maddi və təbii resurslar deyil, istehsal prosesində iştirak edən insanların yaradıcılıq potensialıdır [1].

İnsan kapitalının formalaşması mürəkkəb bir prosesdir. İnsan kapitalının quruluşu bir çox amillərin təsiri altında formalaşır. İnsan kapitalının formalaşması aşağıdakı amillərə əsaslanır:

1. Ailənin sosiallaşması. Təhsilli ailədə insan kapitalının formalaşması onun üzvlərinə lazımi qabiliyyətləri inkişaf etdirməyə, müvafiq tədris və tərbiyə vasitələri ilə ona lazımi bilik və bacarıqları ötürməyə imkan verir. Ailə təhsilinin müəyyən bir səviyyəsi əldə edilən bilik və informasiya əsasında formalaşır. Fərdi insan kapitalının formalaşması və uşağın ailədəki inkişafı bu valideynlərdə mövcud olan risk amillərindən də asılıdır.

2. İnsanın özünütəşkiletmə səviyyəsi. İnsan kapitalının formalaşmasında və inkişafında həlledici rol şəxsiyyətin özünə aiddir. Onun işi özünü inkişaf etdirməkdir. Fərdin səyi olmadan həm özünün, həm də millətin məcmu insan kapitalının inkişafı mümkün deyil. Bununla birlikdə, istedad və inkişaf qabiliyyətləri əmək fəaliyyəti müddətində yarana bilməz. İnsan kapitalının dəyəri ona qoyulan investisiyanın səmərəliliyi ilə artır. İnsanın qabiliyyətlərinin inkişafı yalnız onun bioloji təbiəti ilə deyil, həm də həyatın sosial şərtləri ilə əlaqəlidir. Bir insanın həyata keçirdiyi fəaliyyət qabiliyyətlərinə uyğun gəlsə, mütləq inkişaf edəcəklər.

3. Rəqabət mühitində fəaliyyət göstərmək. Rəqabət mühiti məhsul çeşidlərinə və keyfiyyətinə olan tələbdəki dəyişikliklərə həssasdır. Buna görə də işçi qüvvəsinin, onun bilik və bacarıqlarının yenilənməsi zəruridir.

4. Cəmiyyətin iqtisadi inkişafı. Cəmiyyətdə müəyyən istehsal-texnoloji və sosial-iqtisadi mühit formalaşanda müəyyən inkişaf mərhələsinə çatır [2].

Məlumdur ki, sosial-iqtisadi sahənin davamlı inkişafı milli təhlükəsizliyin təmin edilməsi üçün ən vacib şərtdir. Təhlükə cəmiyyətin insan kapitalının qorunub saxlanmasına, inkişafına və həyata keçirilməsinə mane olan şərtlər, proseslər və amillər məcmusudur. Təhlükəsizlik fərdin, cəmiyyətin və dövlətin əhəmiyyətli dərəcədə zərər verə biləcək xarici və daxili təhdidlərdən qorunma vəziyyətidir. Cəmiyyət həyatının müxtəlif cəhətləri milli təhlükəsizliyə hərtərəfli xarakter verir və onun bir sıra növlərini (iqtisadi, sosial, ekoloji, demoqrafik, ərzaq, nəqliyyat, informasiya, siyasi və s.) ayırmağa imkan verir. İqtisadi təhlükəsizlik milli təhlükəsizliyin maddi əsasını təşkil edir, ölkənin davamlı, sabit inkişafının, iqtisadi və siyasi müstəqilliyinin qarantı kimi çıxış edir. İqtisadi təhlükəsizlik, cəmiyyətin mütərəqqi inkişafını, iqtisadi, ictimai-siyasi sabitliyini, əlverişsiz xarici və daxili amillərin təsiri altında yüksək müdafiə qabiliyyətini, səmərəli idarə olunmasını və iqtisadi maraqların qorunmasını təmin edə biləcəyi milli iqtisadiyyatın vəziyyətidir.

Hazırda dövlətin iqtisadi təhlükəsizliyi üçün təhlükələri aradan qaldırmağa qadir olan əsas mexanizmlərdən biri insan kapitalının inkişafı və gücləndirilməsidir. İqtisadi təhlükəsizlik böyük ölçüdə insan kapitalının inkişaf səviyyəsi, fərdin və cəmiyyətin ehtiyaclarının yerinə yetirilməsi və inkişaf etmiş informasiya infrastrukturunun mövcudluğu ilə xarakterizə olunur. İqtisadi təhlükəsizlik problemlərinin aktuallığı inkişafın böhran mərhələsi şəraitində nəzərəçarpacaq dərəcədə artır. Ölkənin milli iqtisadi təhlükəsizliyinin gücləndirilməsi zəruri sosial-iqtisadi şərtlərin - sabit iqtisadiyyatın, inkişaf etmiş sosial-iqtisadi sahənin, insan kapitalının genişləndirilmiş təkrar istehsalının təmin edilməsini tələb edir.

Milli insan kapitalı davamlı və uzunmüddətli iqtisadi artım və milli təhlükəsizliyin gücləndirilməsi mənbəyi kimi çıxış edə bilər.

Bütün dünyada təhlükəsizlik üçün əsas mənbə iqtisadiyyatın və insan imkanlarının davamlı inkişafıdır. Bu sahədə dövlətin rolu aşağıdakılarla müəyyən edilməlidir:

- milli və regional səviyyədə insan kapitalının təkrar istehsalı sahəsində dövlət siyasətinin hazırlanması;
- qeyri-dövlət müəssisə və təşkilatların insan kapitalının təkrar istehsalı sahəsinə cəlb edilməsi, onlar üçün əlverişli şəraitin yaradılması;
- müvafiq sahələrdə dövlət tənzimləməsinin həyata keçirilməsi;
- insan kapitalının təkrar istehsalının maliyyələşdirilməsi üçün effektiv mexanizmlərin yaradılması.

Milli iqtisadi təhlükəsizlik inkişaf qabiliyyətinə malik olan və mənfi təsirlərdən qorunan insan kapitalı ilə təmin olunur. İqtisadi təhlükəsizlik üçün təhlükə, müəyyən bir müddət ərzində milli insan kapitalının keyfiyyət və kəmiyyət xüsusiyyətlərinin azalması nəticəsində yaranan real və ya potensial zərər kimi müəyyən edilə bilər.

İnsan kapitalının davamlı inkişafına təsir göstərən və milli iqtisadi təhlükəsizliyə təhlükə yaradan bir sıra risk amilləri mövcuddur ki, bunlara da aşağıdakılar daxildir:

- gələcək nəsillərin insan kapitalının formalaşmasının vacib sahəsi kimi ev təsərrüfatlarının vəziyyətinin pisləşməsi;
- əlverişsiz sağlamlıq vəziyyət və ömür uzunluğunun azalması, sosial xəstəliklərinin artması (cinayətlərin artması, intihar və s.);
- təhsilə qoyulan investisiya həcmində azalma;
- alimlərin ixtiraçılıq fəaliyyətində azalma.

Bu amillərin hamısının mövcudluğunu ölkənin iqtisadi və milli təhlükəsizliyinə birbaşa təhdid kimi qəbul etmək olar.

İnsan kapitalının inkişafı daha çox təhsil, elm və sağlamlıq sahəsində təmin edilir. Çünki bu sahələrdə işçinin keyfiyyət və kəmiyyət parametrləri formalaşır, insan kapitalından səmərəli istifadə və yaxşılaşdırma baş verir. Bunlar olmadan iqtisadiyyatın inkişafı mümkün deyil. Bu sahələrin inkişafı dövlətin həmin məqsədlər üçün yönəltdiyi investisiyalardan asılıdır. İnsan kapitalının inkişafı probleminin həlli məhz ona yönəldilən investisiyaların artması ola bilər [4]. Bu sahədə investisiyanın iki prioritet istiqaməti müəyyənləşdirilməlidir:

- birincisi, insan kapitalının normal artımı üçün şərait yaratmaq və onu sosial cəhətdən zəruri səviyyədə saxlamaq (insan kapitalının fiziki və mənəvi cəhətdən pisləşməsinin qarşısını almaq, işsizliyi azaltmaq və s.);

- ikincisi, daha səmərəli istifadəsi üçün ehtiyatları müəyyənləşdirərək işləyən insan kapitalının strukturunu yaxşılaşdırmaq (gələcək dövrlər üçün insan kapitalının formalaşdırılmasına investisiyalar yönəltməklə onların təhsil və peşə xüsusiyyətlərini yaxşılaşdırmaq, xəstəliklərin qarşısını almaq və s.).

Sağlamlığın pisləşməsi insan kapitalının formalaşması və səmərəli istifadəsinin bir çox cəhətlərinə mənfi təsir göstərir: sağlam həyat müddətini və ümumi uzunömürlülük səviyyəsini, insan kapitalına yatırım imkanlarını, əmək qabiliyyətli əhalinin sayını azaldır, ev təsərrüfatlarının tibbi ehtiyacları üçün xərcləri, səhiyyə və ümumiyyətlə sosial sahədəki yükü artırır, insanların bir sıra əsas ehtiyaclarının ödənilməsinə mane olur. Ona görə də səhiyyə xidmətinin gücləndirilməsi və inkişafı üçün dövlət və yerli hakimiyyət orqanlarının birgə səyləri tələb olunur.

Ölkənin davamlı inkişafını təmin etmək üçün sosial-iqtisadi şərtlərə sağlamlıq ilə yanaşı, təhsil və elm sahəsi də daxildir. İnsan kapitalının təkrar istehsal sistemində təhsil və elm sahəsi xüsusi yer tutur. Təhsil cəmiyyətdəki haqsızlığı və bərabərsizliyi aradan qaldırmaq üçün bir vasitədir, keyfiyyətin vacib elementidir.

Qeyd edək ki, Azərbaycanda təhsilin müxtəlif iqtisadi subyektlər - dövlət, firmalar və ev təsərrüfatları tərəfindən aktiv şəkildə maliyyələşdirilməsi mövcuddur. Müxtəlif sosial təbəqələr üçün təhsildən istifadədə bərabərlik cəmiyyətdə sosial sabitliyin təmin edilməsi üçün əsas ola bilər.

Dövlət ilkin insan kapitalının pulsuz əldə edilməsinə zəmanət verməlidir. Əlbəttə ki, təhsil xidmətləri tamamilə pulsuz ola bilməz: insan kapitalının formalaşması elm və texnikanın son nailiyyətlərinə əsaslanan ümumi və xüsusi təhsilin dinamik inkişafını nəzərdə tutur və bu, büdcə və büdcədənkənar maliyyələşdirməni tələb edir. Qeyd edək ki, dövlət təhsilinin dağılması dayanıqlı inkişaf üçün əhəmiyyətli bir təhdid olduğundan bu sahənin daimi olaraq qanunvericilik və inzibati tənzimləməsinin həyata keçirilməsi son dərəcə vacibdir. Çünki ölkələrin iqtisadi uğuru insan kapitalının təhsil səviyyəsi ilə müəyyən edilir.

Təhsilin dövlət tərəfindən aşağıdakı istiqamətlərdə düzgün qiymətləndirilməsi ölkənin davamlı inkişafına təsir göstərər:

1. Təhsil sisteminin kifayət qədər maliyyələşdirilməsi.
2. Ölkədəki təhsil sisteminin əhali üçün bərabər əlçatanlığın təmin edilməsi.

Ona görə də təhsil və elm sahəsindəki dövlət siyasəti aşağıdakı məqsədlərə uyğun olmalıdır:

1. Ölkə iqtisadiyyatının ehtiyaclarına uyğun insan kapitalının təkrar istehsalını təmin edilməsi.
2. Fərdin mədəniyyətinə və sosiallaşma mərhələlərinə əsaslanan təhsil ehtiyaclarının ödənilməsi.
3. Milli mədəniyyətin inkişafının təmin edilməsi.
4. Dövlətin dünya bazarında yerinin gücləndirilməsi.

Milli iqtisadiyyatın davamlı inkişafının elementlərindən biri kimi insan kapitalının keyfiyyətinin gücləndirilməsi daim diqqət mərkəzində olmalıdır. İnsan kapitalının keyfiyyəti müəyyən dərəcədə demoqrafik inkişafının tərkib hissələrindən biri kimi qəbul edilə bilər.

Azərbaycanın bütün sahələrdə davamlı inkişafı insan kapitalının keyfiyyətində əhəmiyyətli bir artım olmadan təmin etmək mümkün deyil. Bütün sahələrdə insan kapitalının keyfiyyətini artırmadan ölkənin davamlı inkişafın təmin etmək mümkün deyil. Ona görə də davamlı inkişafın təmin edilməsi üçün ilkin şərt kimi insan kapitalının keyfiyyət və kəmiyyət parametrlərini yaxşılaşdırmaq lazımdır.

Göründüyü kimi, insan kapitalı təbii və fiziki kapital növləri ilə əlaqəlidir. İnsan kapitalının təbii kapitala bəzi müsbət və mənfi təsirlərini nəzərdən keçirək:

• yüksək bilik və bacarıqlara malik insanlar yeni texnologiyalarla mövcud resurs bazasından daha səmərəli istifadə edərək, əlavə mənbələr axtararaq və az tapılan resursların əvəzedicilərini inkişaf etdirərək təbii kapital növlərini genişləndirə bilər;

• yüksək bilik və bacarıqlara sahib insanlar dünyanın ekosistemlərini təhdid edən ekoloji problemlərin həlli üçün texnologiyalar inkişaf etdirmək imkanına sahibdirlər.

• dolayısı ilə insan kapitalının yığılması bir çox hallarda mövcud texnologiyalarla ekoloji problemləri həll edə bilir və milli gəliri artırır.

Əhali artarsa, daha çox bərpa olunmayan təbii ehtiyatlar istehlak edəcək və nəticədə mövcud ehtiyatların tükənməsinə səbəb olacaqdır. Havanın, suyun və torpağın çirklənməsi nəticəsində və bitki və heyvan növlərinin məhv olması səbəbindən ətraf mühitə təzyiqi artırmaq da mümkündür. Təbii kapital insan kapitalının artımı üçün vacibdir. Məsələn, təbii ehtiyatlar əhalinin dolanışığı və yaşayış yeri üçün lazımdır. Ekosistemlər planetdəki həyatın qorunması və insan sağlamlığı üçün vacibdir.

İnsan kapitalı ilə fiziki kapital arasında da sıx qarşılıqlı əlaqə mövcuddur. İnsan kapitalının fiziki kapitala təsirini nəzərdən keçirək:

• yüksək səviyyəli bilik və bacarıqlara sahib bir əhalinin əsas malların keyfiyyətini artırmaq üçün texnologiyalar inkişaf etdirmək imkanı var;

• insan kapitalının yığılması milli gəliri artırır və bu da investisiya mallarına tələbatı artırır;

• sağlam əhali artarsa daha çox məhsul istehsal edə bilər [3].

Bütün bu cəhətlər insan kapitalının toplanmasının sosial-iqtisadi əhəmiyyətini göstərir. Milli iqtisadiyyatın davamlı inkişafının təmin edilməsi və möhkəmləndirilməsi kontekstində insan kapitalının toplanmasını sürətləndirmək üçün aşağıdakı istiqamətlərdə tədbirlər görmək lazımdır:

1. Sağlamlıq sahəsində:

- dövlətin adekvat sosial siyasəti ilə təşkilati strukturların təkmilləşdirilməsi, sağlam nəslin formalaşmasının maddi bazasının gücləndirilməsi, əhaliyə tibbi yardımın gücləndirilməsinə və ölkədə sabit sosial-demoqrafik vəziyyətin yaranmasına imkan verəcək maliyyə vəsaitlərinin ayrılması;

- xəstəliklərin qarşısının alınması, tibbi xidmətin keyfiyyətinin yüksəldilməsi, əhalinin yaşayış şəraitinin və qidalanmasının yaxşılaşdırılması yolu ilə ölkədəki səhiyyə sisteminin yaxşılaş-dırılması;

- müxtəlif mənbələr (büdcə və sığorta haqları) nəzərə alınmaqla səhiyyənin maliyyələşdirilməsi üçün dövlət prioritetləri sisteminin formalaşdırılması;

- dövlət, bələdiyyə və özəl səhiyyə alt sistemlərini birləşdirmə prinsipinə əsaslanan milli səhiyyə sisteminin yeni siyasi, iqtisadi və hüquqi şərtlər nəzərə alınmaqla modernləşdirilməsi və s.

2. Təhsil və elm sahəsində:

- təhsil sahəsindəki maliyyə siyasətinin təkmilləşdirilməsi;

- aztəminatlı ailələrdən olan şagird və tələbələrə ünvanlı dəstəyin, müxtəlif sosial təbəqələr üçün təhsildə bərabərliyin təmin edilməsi;

- elm və texnikanın inkişafındakı mütərəqqi meyillər əsasında ümumi və xüsusi təhsilin dövlət tənzimlənməsinin həyata keçirilməsi;

- təhsil müəssisələrinin bizneslə uzunmüddətli əlaqələr qurmaqda, təhsil xidmətləri bazarında tələb və təklifi müəyyənləşdirməkdə stimullaşdırılması və s.

İnsan kapitalının formalaşdırılması sahəsində dövlət siyasəti regional səviyyədə də həyata keçirilməlidir. İnsan kapitalının qorunub saxlanmasına və inkişafına yönəlmiş regional siyasəti həyata keçirmək üçün kiçik bir innovasiya müəssisəsi yaratmaqla innovativ inkişafı təmin etmək lazımdır. Bunun üçün aşağıdakılara diqqət yetirmək tələb olunur:

- regional innovativ inkişafın stimullaşdırılmasına yönəlmiş vergi güzəştlərinin tətbiqi;

- kiçik innovativ sahibkarlığın inkişafında bələdiyyələrin rolunun gücləndirilməsi;

- kiçik innovativ müəssisələrə kredit vermək üçün əlverişli şəraitin yaradılması;

- kommersiya strukturlarının elmə və innovasiyaya investisiya qoymalarının stimullaşdı-rılması;

- elmi, texniki və innovasiya fəaliyyətinin regionlararası koordinasiyasının təmin edilməsi.

Regionlarda davamlı inkişafın təmin edilməsi investisiya və innovasiya proseslərinin aktivləşdirilməsi, mütərəqqi informasiya və texnoloji dəyişikliklərin dəstəklənməsi, elm və təhsilin inkişafı, insanların yaradıcı və təşəbbüskar fəaliyyəti ilə mümkündür.

Nəticə

Nəticə olaraq deyə bilərik ki, milli iqtisadiyyatın davamlı inkişafı üçün əsas şərt insan kapitalının hərtərəfli inkişafı və səmərəli istifadəsi ola bilər. Yalnız insan kapitalının davamlı təkrar istehsalı milli iqtisadi təhlükəsizliyi və ölkənin gələcək inkişafını təmin edə bilər. Ona görə də insan kapitalının davamlı inkişafını, habelə səmərəli istifadəsini təmin edən ən vacib amilləri müəyyənləşdirmək lazımdır. Həmin amillərə aşağıdakıları aid edə bilərik:

• cəmiyyətin sosial-iqtisadi inkişafında insan kapitalının aparıcı rolunun tanınması;

• iqtisadi və sosial proseslərin dövri inkişafı nəzərə alınmaqla ölkənin və regionların davamlı sosial-iqtisadi inkişafı;

• insan kapitalının inkişafı üzrə dövlət siyasətinin iqtisadi və sosial inkişafın dövlət tənzimlənməsinin digər sahələri ilə əlaqələndirilməsi;

• insanın sistemli inkişafına, insan kapitalının innovativ xüsusiyyətlərinin formalaşmasına töhfə verən institusional mühitin yaxşılaşdırılması;

• əhalinin həyat səviyyəsinin keyfiyyətinin yaxşılaşdırılması;

• ekoloji təhlükəsizliyin təmin edilməsi, insanların yaşayış yerlərinin sanitar vəziyyətinin yaxşılaşdırılması.

Bütün bu amillər insan kapitalının inkişafına təsir göstərməklə davamlı iqtisadi artımın təmin edilməsində mühüm rol oynaya bilər.

Ədəbiyyat

1. Волкова С.А., Дёмина А.И. Стратегия управления человеческим капиталом в системе обеспечения экономической безопасности предприятия. ЭКОНОМИНФО, № 3, 2017, с.38-42

2. Макаров И.Н, Почепаев И.А.Роль человеческого капитала в системе экономической безопасности региона. Российское предпринимательство, Том 19, № 12, 2018, с.3737-3747

3. Марыганова Е.А., Дмитриевская Н.А. Человеческим капитал как фактор устойчивого развития. Статистика и экономика, 2013, № 6, с.73-78

4. Петко О.В. Инвестиции в человеческий капитал как фактор экономической безопасности страны. Креативная экономика, № 5, 2012, с.46-49

ISSUES OF INCREASING THE EFFICIENCY OF HUMAN CAPITAL USE IN ACCORDANCE WITH STRATEGIC ROADMAPS

Mammadova Elnara Shamsi, Senior Lecturer
Sumgait State University
mamedovaelnara80@gmail.com

Miqrantlar adətən uzun məsafələri yalnız o zaman qət edirlər ki, iqtisadi cəhətdən daha inkişaf etmiş regionlara və ya böyük şəhərlərə gəlsinlər. İnkişaf etmiş regionlarda miqrasiya etməklə insanlar öz iqtisadi vəziyyətlərini yaxşılaşdırmaq məqsədi daşıyırlar. Şübhəsiz ki, bütün dövrlərdə böyük şəhərlərin daha geniş imkanlar yaratması stereotipi indi də mövcuddur. Böyük şəhərərdə işlə təminat imkanı daha realdır.

Ravenşteyn qanunlarına əsasən, şəhər əhalisinin miqrasiya etmək arzusu, kənd əhalisinə nisbətən daha azdır. Heç bir zorakılıq halları, məsələn, müharibə və terror təhlükəsiz olmadığı hallarda şəhər əhalisinin kəndlərə koç etməsi demək olar ki, baş vermir. Əksinə kənd əhalisinin şəhərlərə axını demək olar ki, bütün ölkələrdə arasıksilmədən baş verən hadisədir. Eyni ilə də inkişaf etməkdə olan, az gəlirli ölkələrdən daha yüksək gəlirli ölkələrə, siyasi cəhətdən gərgin ölkələrdən daha sabit siyasi sistemi olan ölkələrə əhalinin yerdəyişməsi baş verir.

Ravenşteyn qanununa əsasən, böyük şəhərlər məhz miqrasiya nəticəsində böyüyürlər. Belə böyümə öz növbəsində yeni miqrasiya axınını cəlb edir. Çünki şəhər böyüdükcə onun iqtisadi imkanları da genişlənir, ora daha çox kapital yönəlir və sənaye inkişaf edir. Sənaye inkişaf etdikcə xidmət sektoru da genişlənir və sair.

Ravenşteyn qanunlarına əsasən miqrasiyanın əsasında regionlararası, ölkələrarası iqtisadi inkişaf fərqləri dayanır. Hətta bəzən miqrasiya üçün ciddi əsas olan digər hadisələrin də, məsələn, müharibə və terror hadisələrindən də əsasında, dolayısı ilə, iqtisadi səbəblər dayanır.

Beləliklə, Miqrasiyanın Ravenşteyn qanunlarını qısa olaraq belə ifadə etmək olar: 1) Miqrasiya əsasən qısa məsafələrdə baş verir; 2) miqrasiya mərhələlərlə baş verir; 3)uzunmüddətli miqrasiya şəhərlərə yönəlir; 4) Hər bir miqrasiyanın əks istiqamətli nəticələri olur; 5) kənd əhalisi şəhər əhalisinə nisbətən daha çox miqrasiya edir; 6) ölkədaxili miqrasiyada qadınlar daha üstünlük

təşkil edirlər; 7) miqrantların əsas hissəsi yaşlı əhalidir; 8) böyük yaşayış məskənləri təbii artıma nisbətən daha çox miqrasiyanın hesabına böyüyürlər; 9) Miqrasiya iqtisadi inkişafla bağlı olaraq artır; 10) əsas miqrasiya axını kəndlərdən şəhərə yönəlib; 11) miqrasiyanın əsasən iqtisadi səbəblərlə bağlıdır.

Miqrasiyanın Ravenşteyn qanunlarını əsas götürərək miqrasiyanın əsas determinantları kimi 1) ölkələrarası məsafəni; 2) kənd əhalisinin orta gəlirləri ilə şəhər əhalisinin orta gəlirləri arasındakı fərqi; 3)ölkələrarası həyat keyfiyyəti arasındakı fərqləri; 4) ölkələrarası minimum əmək haqqı səviyyəsini; 5) təhsil və səhiyyə xərcləri arasındakı fərqləri; 6) təhsil və səhiyyə xidmətləri arasındakı fərqləri; 7) adambaşına ÜDM fərqlərini və sair götürmək olar.

Ravenşteyn qanunlarında miqrasiya üçün ölkələrarası məsafə deyiləndə yalnız fiziki məsafə nəzərdə tutulurdu. Lakin miqrasiya üçün hazırda "məsafə" anlayışı hazırda xeyli dəyişib. Burada ölkələrarası dil fərqləri, dini fərqlər, mədəniyyət fərqləri də müəyyən "məsafə" yaradır. Belə ki, iqtisadi amillərlə yanaşı dil, din və mədəniyyət yaxınlığı miqrasiya prosesinə ciddi təkan verə bilər. Müasir şəraitdə insanlar az hallarda yalnız fiziki və bioloji varlıqlarını qoruyub saxlamaq, təhlükəsiz mühitdə yaşamaq məqsədilə miqrasiya edirlər. Bu hallar yalnız müharibədən, terrordan qorunmaq və ya zorən ölkələrindən qovulan insanlara aiddir. Məsələn, 1989-cu ildə yüz minlərlə Azərbaycanlı əhalinin Ermənistandan zorla qovulması, 2003-cü il müharibəsi zamanı minlərlə insanın İraqdan, 2011-ci ildən sonra yüz minlərlə Suriyalının Türkiyəyə miqrasiyası iqtisadi amillərlə şərtlənmirdi və belə miqrasiya halları zamalı əsas məqsəd fiziki təhlükəsizliyin qorunmasıdır. Lakin "azad miqrasiya" zamanı miqrantlar daha çox iqtisadi amilləri əsas götürürlər və bu zaman getdikləri ölkədə cəmiyyətə inteqrasiya məsələləri mühüm əhəmiyyət daşıyır.

Miqrasiya proseslərinin determianatlarına əsaslanaraq ədəbiyyatda miqrasiyanın müxtəlif növlərini fərqləndirirlər [2]: 1)Əmək miqrasiyası (labour migration); 2) geri qayıtma ilə bağlı miqrasiya (return migration); 3) zəncirvari miqrasiya (chain migration); 4) qaçqınlıqla bağlı miqrasiya (Asylum migration). Yuxarıda qeyd etdiyimiz kimi əmək miqrasiyası bir ölkədən bigər ölkəyə iş axtarmaq məqsədilə insanların axınıdır. Adətən belə miqrantlar arasında aşağı ixtisaslı işçilər üstünlük təşkil edir. Lakin bu qrupa yüksək ixtisaslı kadrları da əlavə edə bilərik. Belə miqrasiya "zəka axını" kimi qiymətləndirilə bilər. Əgər miqrant öz ölkəsinə qayıdaraq orada heç olmazsa bir il yaşayırsa, belə miqrasiya "geri qayıtma ilə bağlı miqrasiya" hesab olunur. Əgər miqrant ailə qurmaq məqsədilə bir ölkədən digərinə gedirsə və orada ailə qurursa, belə miqrasiya zəncirvari miqrasiya adlanır. Öz ölkəsindən müxtəlif səbəblərə görə qaçaraq digər ölkədə sığınacaq almaqla bağlı miqrasiya "qaçqınlıqla bağlı miqrasiya" adlanır. Bu dörd növ miqrasiyanın hər biri müxtəlif determinantlarla xarakterizə olunur və onların dövlət tənzimlənməsi mexanizmləri də fərqlidir.

Nəticə

Miqrasiyanın neoklassik nəzəriyyəsinə əsasən, əsas determinantlar kimi miqrantların sayı, minimum əmək haqqı ilə bağlı qanunvericiliyin tələbləri, həmçinin ölkələrdə əmək miqrasiyası ilə bağlı qanunvericiliyin tələbləri götürülə bilər . Əmək miqrasiyasının yeni iqtisadi nəzəriyyəsində əmək haqqı səviyyələri arasındakı fərq mümüh determinant kimi götürülə bilər.

Ədəbiyyat

1. Ravenstein E.G. The Laws of Migration // Journal of the Statistical Society of London, Vol. 48, No. 2. (June, 1885), pp. 167–235
2. Jennissen, R. P. W. (2004). Macro-economic determinants of international migrat Hammar, T., Brochmann, G., Tamas, K., & Faist, T. (1997). International Migration Immobility and Development: Multidisciplinary Perspectives. London: Bloomsbury Academic
3. Faist, T., & Faist, T. (2000). The volume and dynamics of international migration and transnational social spaces. Oxford: Oxford University Press
4. Lewis, W. A. (1954). Economic Development with Unlimited Supplies of Labour. Retrieved from http://www.globelicsacademy.net/2008/2008_lectures/lewis%20unlimited%20 labor%20supply%201954.pdf

5. Harris, J. R., & Todaro, M. P. (1970). Migration, unemployment and development: a two-sector analysis. The American economic review, pp. 126-142ion in Europe. Amsterdam: Rozenberg Publishers

ALİ TƏHSİL SFERASINDA İQTİSADİ SƏMƏRƏLİLİYİN TƏMİN OLUNMASINDA UNİVERSİTET-SƏNAYE ƏLAQƏLƏRİNİN ROLU

Ağayeva Aytən, doktorant
AMEA İqtisadiyyat İnstitutu
ayten.agayeva91@mail.ru

Xülasə

Məqalədə sənayeləşmənin əsas inkişaf amilləri elm və texnologiyaya diqqət yetirilmişdir. Müasir texnologiyaların elmi biliklərə və davamlı innovativ yanaşmaya əsaslandığı qeyd olunmuşdur. Yenilikçi elmin universirtetlərin, yeni texnologiyaların isə sənayenin istehsalçılarıdır. Bu vəziyyətdə dövlət elmi araşdırmalara maliyyə dəstəyinin göstərilməsi sahəsində müvafiq mexanizmlər işləməlidir.

Universitet-sənaye əməkdaşlığında əlaqədar elmi araşdırmalar aparılmalı,əsas elmlər inkişaf etdirilməlidir. Bu istiqamətdə iqtisadi inkişafa əməkdaşlığın rolunun qiymətləndirilməsinə çalışılmışdır.

Açar sözlər : universitet, sənaye, texnologiya, iqtisadi, səmərəlilik, innovativ inkişaf

Giriş

Hazırda iqtisadi inkişafa ən çox təsir edən elmlər tərəfindən gündəmə gətirilən yüksək texnologiyaların işləməsi və tətbiqidir. Texnoparkların inkişafına təkan verən amillərdən biridə dünyanın qabaqcıl universitetləri və bu universitetlərdə təşkil olunan laboratoriyalar, texnoparklardır. Sənayeləşmiş və sənayeləşən ölkələrin əksər universitetləri iqtisadi, texnoloji və iş mühitlərini dəyişməkdədirlər. Universitet-sənaye əlaqələri təhsilə böyük diqqət tələb edir. Təbiiki bu prossesdə bir sıra çatışmazlıqlar və itkilərin də olması mümkün faktorlardandır. Daha təşəbbüskar universitetlər ixtiraları patentləşdirir və lisenziya, qonorar ödəyirlər. Tələb olunan texnologiya lisenziyalaşdırma büroları quraraq təşviq etməyə və bundan faydalanmağa çalışırlar.Universitet – sənaye əlaqələri çox vacibdir. Bu əlaqələr həm də ali təhsilin iqtisadi aspektdən araşdırılmasına əsas verir.

Universitetlər ümumilikdə götürdükdə tarixi dövlər ərzində formalaşan, dəqiq elmi araşdırmalar edərək, bu ararşdırmalara dəyər qazandıran, orjinal fikirlər çərçivəsində fərqlilikləri özündə birləşdirir. Universitetlər təhsil, təlim və tədqiqat fəaliyyətini həyata keçirən eyni zamanda, ümumdünya xüsusiyyətlərə sahib olan təşkilatlardır. Universitetlərin fəaliyyət istiqaməti onları müasir dövrün tələbləri ilə ayaqlaşmağa çağırır.

Universitet - sənaye əməkdaşlığının aspektləri

Məlum olduğu kimi, universitetlər tarixi və ictimai baxımdan bilik istehsalında çox əhəmiyyətli bir rol oynayır. Əsas məlumat mənbəyi olan universitetlər biliklərin cəmiyyətə yayılmasında böyük əhəmiyyətə malikdir.

İlk dəfə universitet-sənayə əməkdaşlığının yarandığı ABŞ-da bu əlaqələr daha müvəffəqiyyətli olmuşdur. ABŞ-ın bu günə gəldiyi texnoloji inkişafda keçmişdə universitet-sənaye əməkdaşlığının əhəmiyyətini kəşf etməsi və həm təcrübələri, həm də hüquqi tənzimləmələri ilə əməkdaşlıq proseslərini daim təkmilləşdirməsinin böyük təsiri var. Bu əməkdaşlığın nəticələrindən irəli gələn yenilikçi və yaradıcı proseslər iqtisadi inkişafın açarına çevrilmişdir.

Dünya universitet-sənaye birliyinin tarixi başlanğıcı olaraq ilk dəfə 1853-cü ildə ABŞ Konqresinə təqdim edildi. 1857-ci ildə oraya ikinci bir qanun layihəsi təqdim edilmişdi. Bu qanun layihələrində, klassik təhsildən başqa, sənaye və kənd təsərrüfatı mənşəli bəzi iş sahiblərinə kənd təsərrüfatı və mexaniki tətbiqlər üçün praktiki dərslərin veriləcəyi və bunu təmin etmək üçün

ictimai torpaqların bu məktəblərə hədiyyə ediləcəyi nəzərdə tutulmuşdu. Bu tövsiyə konqresdən keçməsinə baxmayaraq, o vaxtkı prezident Buchanan tərəfindən qəbul olunmasına qadağa qoyuldu. Yenilənmiş Qanun layihəsi 1862 -ci ildə yeni prezident Abraham Linkoln tərəfindən təsdiqləndi və bu təklifi irəli sürən şəxsin adıyla "Morill Qanunu" adlandırıldı. **[3;19]**

1914-cü ildə qəbul edilən yeni "Smith-Lever Qanunu" ilə həmin qanuna daha fərqli peşə qrupları əlavə edildi və kənd təsərrüfatı və baytarlıq sahələrində fərqli kateqoriyalarda tətbiqli araşdırma və əməkdaşlıq işləri "təcrübə stansiyaları" olaraq dəstəklənməyə başladı. **[3;20]**

İkinci dünya müharibəsi sənaye və universitetlərin yaxınlaşmasında bir dönüş nöqtəsi oldu. Həmin vaxtdan sonra təkcə universitetlərdə deyil, böyük şirkətlərin tədqiqat laboratoriya investisiyalarına da, elmi -texniki tədqiqat və inkişafa ayırdıqları mənbələrdə əhəmiyyətli artımlar olub. Lakin, bu dövrlərdə elmi araştırmaların nəticələri hərbiyə tətbiqlə məhdudlaşırdı.

Universitet-sənaye əməkdaşlığının zəruriliyi və problemləri

Universitetlə sənaye əməkdaşlığının zəruriliyini belə izah etmək olar ki, dünya ilə əlaqə quran ölkədə fəaliyyət göstərən şirkət, universitetlərlə əməkdaşlıq etməyə məcburdur. Bunun 4 əsas səbəbi var. İlkin səbəbi müasir texnologiyanın sürətli inkişafı səbəbindən rəqabətin artmasıdır. Belə ki, bir ərazidə fəaliyyət göstərərək rəqiblərinizlə ayaqlaşa bilmirsinizsə bu bir çox sahədə patentlərinizin itirilməsinə gətirb çıxaracaqdır. Bu da bir neçə il ərzində rəqabət qabliyətininizin yox olması deməkdir. Belə bir sonluqla qarşılaşmamaq üçün bütün şirkətlər universitetlərin texnoloji istehsal potensialından istifadə etməlidirlər. Misal üçün NOKIA telefonlarının rəqabətdə uduzmağının səbəbi, digər şirkətlərin smartfonlara tətbiq etdiyi yeniliklərdən istifadə edə bilməməsidir. Digər vacib səbəb isə puldur. Heç bir şirkət artıq əsas elmlər üzrə tədqiqat aparmır. Fizika və kimya kimi elmlərdə sürətli inkişaf və bu mövzularda araşdırma aparmaq, laboratoriyalara investisiya qoymaq bir şirkət üçün böyük xərclər tələb edir. Nəticə olaraq tələbələr universitetlərdən yalnız nəzəri biliklər əldə etməklə məzun olmaq istəmirlər. İş dünyasına yaxınlaşmaq araşdırmalarının nəticələrini daha tez əldə etmək, cəmiyyətdə yaratdıqlarını və dəyişiklikləri görə bilmək istəyirlər. **[4;2]**

Ali təhsil müəssisələri ilə universitetlər arasında əlaqəni inkişaf etdirmək üçün ilk növbədə bu əlqələrin inkişafı istiqamətində işlər görmək lazımdır. Bununla əlaqədar konfrasların və texniki səfərlərin təşkili, staj və təcrübə müddətlərinin artırılması, əməkdaşlıqda tirarət birliklərinə daha çox önəm vermək, ali təhsil müəssisələrində oxuyan tələbələr üçün onları sənayeyə yönəldəcək layihələr vermək önəmlidir.**[1;25]**

Maraqlıdır ki, iqtisadi cəhətdən səmərəliliyi yüksəldən bu model hansı səbəbdən bu günə qədər inkişaf etdirilməmişdir. Başlıca səbəblərdən biri universitet strukturlarıdır. Universitet tədqiqatları nəzəri səviyyədə qalır və müvafiq qurumların ehtiyacları nəzərə alınmadan aparılır. Bu problemin aradan qaldırılması üçün universitetlər nəzəri yönümlü biliklərə üstünlük verməməlidirlər. Onlar sənaye ilə sıx əməkdaşlıq quraraq yeni bilikləri sənayeyə tətbiq edib burada yeni məhsul yaratmalıdırlar.

Ali təhsil müəssisələrinin sənaye ilə əməkdaşlığının ümumi səbəbləri aşağıdakılardır:

1. İxtisaslı insan yetişdirmək öhdəliyi;
2. Universitetin sənayedə mövcud və potensial imkanlarından istifadə;
3. Sənaye sektoru imkanları universitetlər tərəfindən təmin edilməsi və qiymətləndirilməsi
4. Sinerji effekti yaratmaq **[7]**

Universitet sənaye-əməkdaşlığı elə bir anlayışdır ki, bu təkcə sosial effektlər deyil, həm də iqtisadi effektlərlərdir. Yəni cəmiyyətə həm sosial, həm də iqtisadi baxımdan öz təsirini göstərir. Bu əməkdaşlıqda həm təhsil, həm tədqiqat, həm də inkişaf və digər fəaliyyətlərin yəni, bilik, kadr, maliyyə gücünün və s. kimi faktorların birlikdə həyata keçirilməsini nəzərdə tutur.

Dooley və Kirk universitet-sənaye əməkdaşlığının üçlü sarmal modelini hazırladılar. Bu quruluş universitet, sənaye və idarəçilər arasında əməkdaşlığı nəzərdə tutur. (Şəkil 1).



Şəkil 1. Üçlü model [2; 2272]

Universitet-sənaye əməkdaşlığının həm sənaye, həm də təhsil səmərəliliyini artıracağı gözlənilir. Bu əməkdaşlıqdan hər bir strukturun gözləntiləri vardır.

Universitet- akademik təlimlərin keçirildiyi özünəməxsus missiyası ilə, sənaye üçün bilik və insan resursları istehsal edən institusional bir quruluşa malikdir. Universitetlərin bu modeldən gözləntiləri - istehsal olunan bilik və üsulların tətbiqi, tədqiqat fondları ilə texnologiya yaradılması, informasiya resurslarından və texnologiya mərkəzlərindən ibarət labaratoriyaların yaradılması, təhsil və tədqiqat işlərinə maliyyə dəstəyi vermək, ictimai maraqlara xidmət etmək missiyasını yerinə yetirmək və s.

Sənayenin bu modeldən gözləntiləri təlim keçmiş insan gücündən yararlanmaq, bazar araşdırması, təhsil, universitet tədqiqat infrastrukturuna çıxış, laboratoriya təcrübəsinə giriş, texnologiya və yeniliklərə imkan vermək, rəqabət öncəsi tədqiqat imkanlarını təmin etmək, tədqiqat qabiliyyətini artırmaq və.s **[6; 392]**

Dövlət isə bu modeldə universitet və sənaye arasında körpü rolunu oynayır: tərəflər arasında əməkdaşlığın səviyyəsinin artırmaq, maliyyə hüquqi problemləri həll etmək və s.

Bu əlaqəni möhkəmləndirmək üçün universitetlərdəki biliklər sənayeyə, sənayedəki texnologiya isə universitetlərə köçürülür. Universitetlərdə proqramlar sənayeninin proseslərinə uyğunlaşdırılır. Universitet tələbələrinin gününün bir hissəsinin sənayedə keçirilməsinə həm universitet, həm də sənaye müəssisələri tərəfindən imkan yaradılmalıdır. Tələbələrin buraxılış işləri ən sonda sənayedə hər hansı tapşrığın yerinə yetirilməsi mövzusunda olması daha məqsədə uyğun hesab edilir.

Bu əməkdaşlığın qurulmasında bir sıra problemlər vardır. Başlıca problemlərdən biri hər bir universitetin sənaye sektorunu kifayət qədər bilməməyidir. Həm də real olaraq, təəsüflər olsun ki, universitetlərdə istehsal olunan elm asanlıqa texnologiyaya çevrilə bilmir. Eyni zamanda, sənaye sektorunun böyük bir hissəsi universitetlərdə hansı proqramlardan, layihələrdən istifadə edildiyi haqqında məlumatları yoxdur. **[5; 222]**

Universitet sənaye əməkdaşlığın qurulması Türkiyə və Azərbaycan universitetləri nümunəsində.

Universitet sənayə əməkdaşlığını qonşu ölkəmiz Türkiyənin bir neçə universitetində müşayət etmək mümkündür.

Koç Holding, Türkiyədəki araşdırma və inkişaf (AR-GE) araşdırmalarına töhfə vermək və böyümə hədəfləri üçün diqqət etdiyi enerji sahəsində universitet-sənaye əməkdaşlığını inkişaf etdirmək üçün yeni bir model yaratdı. Koç Universiteti ilə araştırma və inkişaf (Ar –Ge) mövzusunda əməkdaşlıq müqaviləsi imzalayan Koç Holding Enerji Grubu, bu müqavilənin qlobal rəqabətə uyğunlaşma baxımından məqsədlərinin, hər ikisinin gücünü bir araya gətirərək həm enerji sektoru, həm də Türkiyə iqtisadiyyatı üçün əlavə dəyər yaratmaq olduğunu bildirdi. **[8]** Onların bu əməkdaşlığı qurmaqlarında məqsədləri universitetlə birlikdə bu şirkətin araşdırmalarının və tətbiqinin hər iki tərəf üçün perspektiv və müvəffəqiyyətli ola bilinəciyidir.

Türkiyənin Gedik universitetinin tərkibində olan Geding Holdingin labaratoriyalarında nəzəri olaraq əldə edilən biliklər nəzəri olaraq qalmır. Onlar bu labaratoriyalarda tətbiq olunurlar. Bu çərçivədə, İstanbul Gedik Universiteti, təcrübəli və yaxşı təchiz olunmuş akademik heyəti ilə

təcrübə sahələrində ən yaxşı təhsili təqdim edir. Gedik Holdinqin 56 illik sənaye təcrübəsi ilə elmi biliklərini və yetişdirdiyi gələcəyin elm adamlarını bir araya gətirir və iqtisadiyyata töhfə verəcək şəkildə dəyərə çevirir. **[9]**

Bu universitetdə işləyən tələbələr həm təcrübəyə yiyələnir, həm də işlə təmin olunma imkanı əldə edirlər.

Türkiyənin Yaşar Universiteti və Yaşar Holding arasında əməkdaşlıq qurulmuşdur. Bu əməkdaşlığın məqsədi layihə isthehsal mərkəzi, səmərəli sənaye universitet əməkdaşlığını qurmaqdır. Bu əməkdaşlıqda tədris, xidmət ,tədqiqat, elmi məqsədli layihələr ,sənaye tətbiqi layihələr öz əksini tapır.

Layihə əməkdaşlığının mövzularına aşağıdakılar daxildir:

- İstehsal və İdarəetmə Layihələri
- Təchizat Zənciri İdarəetmə Layihələri
- Müəssisə Resurs Planlaşdırma (ERP) Layihələri
- Keyfiyyət İdarəetmə Layihələri
- Elektrik və Maşın Nəzarət Sistemləri Layihələri
- İnformasiya Sistemləri Layihələri
- Marketinq İdarəetmə Layihələri
- Dizayn Layihələri
- Ətraf Mühit Layihələri
- Qida Texnologiyaları Layihələri
- Müştəri Məmnuniyyəti Layihələri
- Statistik Modelləşdirmə Layihələri
- Sosial Şəbəkə Modelləşdirmə Layihələri **[10]**

Bu əməkdaşlıqlar həm universitetə həm də sənayeyə bir sıra üstünlüklər gətirir. Artıq tələbə unuiversiteti seçəndə tədris prossesinə daha ciddi yanaşır. Çünki tədrisini başa vurduqdan sonra iş yerinin olacağını bilir. Universitet-sənaye əməkdaşlığı ölkədən beyin axınının qarşısının alınmasında da ideal siyasət hesab oluna bilər. Bu əməkdaşlıq nəticəsində hazırlanan yeni məhsullarla ölkə dünya bazarına çıxır. Bu həm də ölkənin iqtisadi artımına müsbət təsir bağışlayır.

Respublikamızda Bakı Ali Neft məktəbinda (BANM) bir sıra şirkətlərlə sənaye əməkdaşlığı qurmuşdur. Bu şirkətlər:

"Emerson Process Management"- bu şirkətlə əməkdaşlıq haqqında razılaşma imzalanmışdır. Müqavilə ilə Emerson aşağıdakı əməkdaşlıq sahələri üzrə əlaqələrin qurulmasında liderlik təşəbbüsünü öhdəliyinə almışdır:

- Emerson ekspertləri tərəfindən tələbələrə mühazirə və seminarların verilməsi,
- Tələbələr üçün praktikaların təşkili,
- Fərqlənən tələbələrə Emerson tərəfindən mükafatlar (qrantlar, təqaüdlər),
- Emerson sponsorları tərəfindən xüsusi təlim laboratoriyasının yaradılması. **[11]**

"Microsoft"- 2014-2015-ci tədris ilində BANM-in "Kompüter və İKT" kafedrasının nəzdində Microsoft Akademiyası və Sertifikatlaşdırma mərkəzi yaradılıb **[8]** Bu proqramın qəbulunda məqsəd yüksək ixtisaslı kadrların hazırlanmasıdır. Eyni zamanda, tədris prosesində istifadə olunan materialların dəyişdirilməsi, modernləşdirilməsi və dünya universitetləri ilə ayaqlaşa bilməkdir. Tələbələrin Essential (Baza kursu) və Advanced (peşəkarlar üçün kurs) səviyyələrinin seçmə imkanları vardır.

ABB- elektroenergetika və avtomatika sahəsində tanınmış şirkətdir. BANM və ABB şirkəti arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb. ANM-in tikilməkdə olan yeni kampusunda Azərbaycanın ali məktəbləri arasında ilk dəfə BANM-in tədris prosesində tətbiq olunacaq böyük simulyasiya mərkəzinin yaradılmasına nail olub. Hal-hazırda simulyasiya mərkəzinin qurulması istiqamətində işlər aparılır. Bu mərkəz tam qurulduqdan sonra nəinki Azərbaycanın eləcədə, bütün regionun ən böyük simulyasiya mərkəzinə çevriləcək. Tələbələrin və SOCAR-ın əməkdaşların istifadəsinə veriləcək mərkəz proseslərin idarə edilməsi, verilənlərdən məlumatların alınması, serverdə saxlanılması, onların analiz edilməsi, proseslərin simulyasiya

edilməsi, proqnozlaşdırılması və digər əməliyyatların aparılması üçün müxtəlif simulyatorlarla təchiz olunur. **[11]**

"Avandsis Group" şirkəti – yüksək ixtisaslı mütəxəssislərin hazırlanması üçün şirkət özündə tələbələri təcrübə proqramı ilə təmin etmişdir. Bakı Ali Neft Məktəbi və "Avandsis Group" şirkəti arasında əməkdaşlıq haqqında razılaşma əldə olunub. **[11]**

Şirkət yüksək ixtisaslı mütəxəssilərin hazırlanması üçün maddi texniki baza və elmi metodiki dəstəyin verilməsinə şərait yaradır.

"Atendau" şirkəti – smart texnologiya şirkətidir. Tələbələrin bu şirkətdə təcrübə ilə təmin olunması nəticəsində tələbələr evlərin intellektual idarəedilməsində istifadə olunan proqram təminatı vasitəsilə müxtəlif obyektlər üçün tətbiqi proqramlar yazıblar.

"İBM şirkəri- Bu şirkətlə BANM arasında imzalanan razılaşmaya əsaslananaraq, ilk dəfə olaraq universitet-sənaye əməkdaşlığı əsasında birgə magistr proqramı hazırlanmışdır.

Schneider Electric şirkəti ilə əməkdaşlıq haqqında razılaşma 6 may 2015-ci ildə əldə olunub. Razılaşmanın məqsədi gələcəkdə yeni kampus və labaratoriyaların qurulmasıdır. **[11]**

Nəzarət Ölçü Cihazları və Avtomatika (NÖC) idarəsi-SOCAR-ın bir sıra sifarişlərini yeinə yetirir. NÖC BANM-da yeni kampusların qurulmasını hədəfləmişdir.

Nəticə:

Universitet-sənaye əməkdaşlığı müasir dövrdə ölkələrin rəqabət qabliyyətliliyinin artırılması üçün nəzərdə tutulan təhsil və əməkdaşlıq modelidir. Bu modelin tətbiqi ölkədən beyin axınının qarşısını ala biləcək perspektivə malikdir. Modelin qurulmasında yaranan problemlər ölkənin köhnə təhsil sisteminin qalıqlarından qurtula bilməməsidir. Məqsəd əmək bazarına ixtsaslı kadrlar yetişdirməkdən ibarətsə, onda bu təbii ki, yalnız nəzəri biliklərin verilməsi ilə qeyri mümkündür. Universitet sənaye əməkdaşlığında uğurlu iqtisadi səmərə əldə etmək üçün hər iki tərəf öhdəliklərini düzgün şəkildə yerinə yetirməlidir.

Bu əməkdaşlıq universitet tələbələri üçün sənaye təcrübə sahələri açmaq imkanına, həmçinin regional iqtisadi inkişafa nail olmağa, məzunlar üçün iş imkanlarının yaranmasına gətirib çıxarır. Bu da əmək bazarında məşğulluq problemlərinin həll olunmasına, işsizlər ordusunun azalmasına, əhalinin rifah halının yüksəldilməsinə əvəzsiz tövhələr verir. Bundan əlavə məzun olan tələbələrin məzun olduqları ixtisasları üzrə mütəxəssislərə çevrilməsində əvəzsiz rol oynayır.

Sənaye bu əməkdaşlıqda öz şirkətinin imicini,nüfuzunu yüksəldir, davamlı təhsil fəaliyyətindən faydalanır. Bundan əlavə gələcək işçiləri seçə bilir, tədqiqat qabliyyətini artırır və ölkəyə qarşı sosial məsuliyyət borcunu yerinə yetirə bilir.

Bununla yanaşı olaraq qeyd olunmalıdır ki, ümumiyyətlə universitet-sənaye əməkdaşlığının uğurlu həll variantlarının tapılması nəticə etibarı ilə universitet təhsilinin iqtisadi səmərəliliyinin yüksəldilməsi yollarından biridir. Bu istiqamət müntəzəm olaraq təkmilləşdirilməli və inkişaf etdirilməlidir.

Ədəbiyyat siyahısı:

1. Anca Draghici, Calin-Florin Baban, Maria-Luminita Gogan, Larisa-Victoria Ivascu " A Knowledge Management Approach for The University-Industry Collaboration in Open Innovation. 2nd Global Conference On Business, Economics, Management And Tourism, 30-31 October 2014, Prague, Czech RepublicProcedia Economics and Finance 23 (2015) 23 – 32"
2. Çetin Bektaş, Gulzhanat Tayauova "A Model Suggestion for Improving the Efficiency of Higher Education: University–Industry Cooperation Procedia - Social and Behavioral Sciences 2270-2274"
3. Mahmut Kiper "Dünyada ve Türkiye'de Üniversite-Sanayi İşbirliği ve Bu Kapsamda Üniversite-Sanayi Ortak Araştırma Merkezleri Programı (ÜSAMP)- s161 https://www.ttgv.org.tr/eng/images/publications/6005bd04eec7d.pdf
4. Mehmet Cengiz Kayacan" Üniversite Sanayi İşbirliği ve Fen Bilimleri Enstitüleri., Journal of Natural and Applied Science 17(1), Özel Sayı 1-7, 2013-2"
5. Robert Rybnicek, Roland Königsgruber " What makes industry–university collaboration succeed? A systematic review of the literature. Journal of Business Economics (2019) 89:221–250

6. Samuel Ankrah, Omar AL-Tabbaa " Universities-industry collaboration: A systematic review. Scandinavian Journal of Management (2015) 31, 387-408"
7. Sevim, Ş., Karamete, F., "Meslek Yüksekokullarında Üniversite-Sanayi İşbirliği, Yöresel Kalkınmaya Etkisi ve Yerel Bazda Uygulama Örneği, Dumlupınar Üniversitesi Sosyal Bilimler Dergisi, (2003). 8, 1-18"
8. https://www.hurriyet.com.tr/ekonomi/koc-holding-ile-koc-universitesi-isbirligi-14267961)5
9. http://akademikbakis.info/istanbul-gedik-universitesi-uygulamali-egitim-sanayi-ve-sektor-isbirligi/
10. https://docplayer.biz.tr/627117-Yasar-holding-ve-yasar-universitesi-isbirligi-olanaklari.html
11. https://www.bhos.edu.az/az/page/85-sanaye-sirkatlari-ila-amakdasliq

ZƏRBAYCANIN ƏMƏK RESURSLARININ BEYNƏLXALQ HƏRƏKƏTİNİN İQTİSADIYYATA TƏSİRİ

Hüseynova Elnurə İlqar qızı. doktorant
İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun
elnuraziyali@gmail.com

Xülasə

Əmək resurslarının beynəlxalq mobilliyi prosesindən udan və uduzan tərəflərin olması halı ölkə səviyyəsində bu problemə daha həssas yanaşmanı tələb edir. Əmək resurslarının beynəlxalq mobilliyinin tədqiqi metodologiyasına bir sıra nəzəriyyələr təsir etmiş, tədqiqatlarda ayrı-ayrı ölkələrin meylləri əsas yer almışdır.

Məqalənin məqsədi əmək resurslarının beynəlxalq hərəkətinin Azərbaycan iqtisadiyyatına təsirini təhlil edib, bu sahədə istifadə edilən mexanizmləri dəqiqləşdirməkdir.

Məqalədə təhlil, qruplaşdırma, ekonometrik metodlardan istifadə olunmuş, ekstrapolyasiyalaşdırılma üsulu tətbiq edilmiş, modellər qurulmuşdur. Həmçinin əmək resurslarının beynəlxalq mobilliyinin qiymətləndirilməsi göstəriciləri müəyyən edilmiş, əmək resurslarının beynəlxalq mobilliyinin qiymətləndirilməsi göstəricilərinin xüsusiyyətləri şərh edilmişdir.

Tədqiqatın məhdudiyyətləri daha geniş statistik informasiya tələb etməsi, bir sıra statustik məlumatların mövcud olmamasıdır.

Tədqiqat nəticəsində əmək resurslarının beynəlxalq mobilliyinin iqtisadiyyata təsirinə qiymət verilmirdir və əməkqabiliyyətli yaşda olan əmək resurslarının sayındakı mobilliyin ÜDM-ə təsirində korrelyasiya əlaqəsinin olub-olmaması müəyyən edilmişdir.

Tədqiqatın elmi yeniliyi və praktiki əhəmiyyəti əmək resurslarının beynəlxalq hərəkətinin iqtisadiyyata təsirinin qiymətləndirilməsi göstəricilərinin sistemləşdirilməsi və göstəricilərin istifadə imkanlarının göstərilməsindən ibarətdir.

Açar sözlər: əmək ehtiyatı, əmək resurslarının mobilliyi, miqrasiya, model,məşğulluq

Problem və məqsəd

Əmək resurslarının mobilliyi ölkələrin iqtisadi, siyasi, sosial, demoqrafik və mədəni inkişafının aparıcı amilinə çevrilir. Dünya səviyyəsində nəinki konkret ölkələr, hətta regionlar iş yerlərinin, "ağılların" əldə edilməsi üçün beynəlxalq rəqabətə qoşulmaqla bu prosesi strateji hədəfə çevirib. Xarici işçi qüvvəsi ölkənin əmək qabiliyyətli əhalisinin tərkibində çəkisinin həddinin təyini, yerli işçi qüvvəsinin xaricə axınının həcmi və digər amillər bu prosesin milli iqtisadiyyata təsirinin qiymətləndirilməsini zəruri edir. Bu həm əmək resurslarının beynəlxalq hərəkəti ilə bağlı qərarın qəbulu, bu sahədə selektiv seçimin mövcudluğu, həm də iqtisadi səmərənin əldə edilməsi, əməyin məhsuldarlığının yüksəldilməsi baxımından mühüm rol oynayır. Bu səbəbdən əmək resurslarının

beynəlxalq hərəkətinin iqtisadiyyata təsirini təhlil edib, bu sahədə istifadə edilən mexanizmləri dəqiqləşdirmək tədqiqatın məqsədi olaraq qəbul edilmişdir.

Metodologiya

Əmək resurslarının beynəlxalq mobilliyinin tədqiqat metodologiyasına bir sıra nəzəriyyələr böyük təsir etmişdir. Belə ki, ingilis alimi Ernst Georg Ravenşteynin əmək resurslarının miqrasiyası ilə bağlı təklif etdiyi 11 qanun, əhəmiyyətli həcmli əmək resurslarının axınlarının hərəkəti və uyğunlaşmasını anlamaq və sistemləşdirmək üçün klassik nəzəriyyədə ilk cəhd idi. Miqrasiyanı qlobal miqyasda təhlil edən V. Zelinskiy, tədqiqatlarını ayrı-ayrı ölkələrin meylləri əsasında qurur. Onun "mobil keçid konsepsiyası", tarixi yanaşma ilə yanaşı, ərazi mobilliyi ilə əlaqələndirilən demoqrafik, sosial-iqtisadi amilləri də əhatə edir. Üstəlik, onun yanaşmasında qloballaşma proseslərinə daha çox diqqət yetirilir. Lakin bu tədqiqatda son onilliklərdə son dərəcə güclənən qloballaşma proseslərinin miqrasiya axınlarının dinamikasına yüksək təsiri təhlil edilmir. Miqrasiyanı makroiqtisadi asılılıqlar və beynəlxalq səviyyə baxımından izah edən ilk nəzəriyyələrdən biri də M. Piore tərəfindən verilir və bu seqmentləşdirilmiş (ikiqat) əmək bazarı nəzəriyyəsidir. Bu yanaşmanın mahiyyəti ondan ibarətdir ki, işçilərə olan tələb müasir dörd fundamental xüsusiyyət (struktur inflyasiya, motivasiya problemləri, iqtisadi dualizm və işçi qüvvəsi demoqrafiyası) ilə əlaqəli olub, inkişaf etmiş sənayeləşmiş ölkələrin ehtiyacları ilə müəyyən edilir. Lakin düşünürük ki, əmək miqrasiyasının ölkənin iqtisadi inkişafına təsirinin qiymətləndirilməsinin əsas göstəriciləri olan daxili bazarına təsiri, insan kapitalının inkişaf səviyyəsinə təsiri, pul köçürmələrinin donor ölkələrin iqtisadi inkişafına təsiri, dövlət büdcəsinin xərc və gəlirlərinə təsiri göstəricilərlə yanaşı əmək resurslarının donor və qəbul edənölkələrdə əmək məhsuldarlığının artmasına təsir edən amillərin nəzərə alınması və onların qiymətləndirilməsi də vacibdir.

Bizim tərəfimizdən əhalinin beynəlxalq mobilliyinin iqtisadiyyata təsirinin qiymətləndirilməsi aşağıdakı istiqamətlədə aparılmışdır:

- əmək resurslarının beynəlxalq mobilliyinin ümumi daxili məhsula təsirinin qiymətləndirilməsi;
- əmək resurslarının beynəlxalq mobilliyinin əhalinin məşğulluğuna təsirinin qiymətləndirilməsi;
- əmək resurslarının beynəlxalq mobilliyinin tədiyyə balansına təsirinin qiymətləndirilməsi.

Qiymətləndirmə aparılmazadan əvvəl geniş məlumat bazası formalaşdırılmışdır. Əhalinin beynəlxalq mobilliyinin iqtisadiyyata təsirinin qiymətləndirilməsi üçün Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti və Azərbaycan Dövlət Statistika komitəsinin rəsmi məlumatlarından istifadə edilmişdir. Tədqiqatda təhlil, qruplaşdırma, ekonometrik metodlardan istifadə olunmuş, ekstrapolyasiyalaşdırılma üsulunun, modellərin tətbiq edilməsi, həmçinin, əmək resurslarının beynəlxalq mobilliyinin qiymətləndirilməsi göstəriciləri müəyyən edilmiş, əmək resurslarının beynəlxalq mobilliyinin qiymətləndirilməsi göstəricilərinin xüsusiyyətləri şərh edilməsi nəzərdə tutulmuşdur. Məlumat bazasını xarakterizə edən göstəricilər aşağıdakı kimi sistemləşdirilmişdir:

- Makroiqtisadi göstəricilər (ÜDM, əmək məhsuldarlığı, əhalinin məşğulluğu və tədiyyə balansının göstəriciləri)

Makroiqtisadi göstəricilər Dövlət Statistika Komitəsinin ÜDM-in istehsalının və istifadəsinin daimi qiymətlərlə hesablanmasına dair metodoloji yanaşmasına müvafiq ölkə üzrə tətbiq olunan Milli Hesablar Sisteminin göstəricilərinə müvafiq toplanmış və tədqiqat üçün emal edilmişdir. Bu məqsədlə cari qiymətlərdə baza ilinin məlumatlarının müvafiq fiziki həcm indeksləri vasitəsilə ekstrapolyasiyalaşdırılması tətbiq edilmişdir.

Ekstrapolyasiyalaşdırılma üsulu ilə baza dövründə mal və xidmətlərin dəyərlərinin cari dövrdə, baza dövrü ilə müqayisədə, həmin mal və xidmətlərin məcmusunun (və ya həmin məcmunu təmsil edən malların) fiziki həcminin dəyişməsini əks etdirən indeksə vurulmasından ibarətdir.

$$\sum q_0 p_0 . I_{q_{t/0}} = \sum q_t p_0$$

Burada, q_0 - baza dovründə malların (xidmətlərin) miqdarı;

$\sum q_0 p_0$ - baza dövrünə dəyəri;

$I_{q_t/0}$ - cari dövrdə baza dövrü ilə müqayisədə malların (xidmətlərin) fiziki həcm indeksi.

Ekstrapolyasiyalaşdırılma üsulu tətbiq edildikdən sonra 2010-cu baza dövrü qiymətlərilə cari dövrlərin ÜDM-nin dəyəri tapılmışdır. Belə yanaşma əmək məhsuldarlığının baza dövrü ilə müqayisədə real artımını müəyyən etməyə imkan vermişdir.

Cədvəl 1. Azərbaycan iqtisadiyyatının bəzi inkişaf göstəriciləri

İllər	ÜDM cari qiymətlərlə	ÜDM-in fiziki həcm indeksi əvvəlki ilə nisbətən (faizlə)	Baza dövrü ilə müqayisədə ÜDM-in fiziki həcm indeksi. 2010=100	Baza dövrü qiymətlərilə cari dövrün ÜDM-n dəyəri 2010=100	Əmək məhsuldarlığı
1995	2133,8	88,2	17,66	7500	2,076
1996	2732,6	101,3	17,89	7597	2,061
1997	3158,3	105,8	18,93	8038	2,176
1998	3440,6	110	20,82	8842	2,389
1999	3775,1	107,4	22,36	9496	2,510
2000	4718,1	111,1	24,84	10550	2,736
2001	5315,6	109,9	27,30	11595	2,980
2002	6062,5	110,6	30,20	12824	3,262
2003	7146,5	111,2	33,58	14260	3,590
2004	8530,2	110,2	37,01	15715	3,912
2005	12522,5	126,4	46,78	19863	4,890
2006	18746,2	134,5	62,91	26716	6,499
2007	28360,5	125	78,64	33395	8,023
2008	40137,2	110,8	87,13	37002	8,778
2009	35601,5	109,3	95,24	40443	9,468
2010	42465	105,000	100,00	42465	9,809
2011	52082	100,100	100,10	42507	9,716
2012	54743,7	102,200	102,30	43443	9,773
2013	58182	105,800	108,24	45962	10,166
2014	59014,1	102,800	111,27	47249	10,265
2015	54380	101,100	112,49	47769	10,225
2016	60425,2	96,9	109,00	46288	9,725
2017	70135,1	100,1	109,11	46334	9,609

Mənbə: Müəllif tərəfindən https://www.stat.gov.az/source/demoqraphy/ məlumatları əsasında tərtib edilmişdir.

Təhlilin daha aydın müşahidə edilməsi üçün cədvəl 1-in məlumatları əsasında qrafik 1-i təqdim edirik.



Mənbə: Müəllif tərəfindən https://www.stat.gov.az/source/demoqraphy/ məlumatları əsasında tərtib edilmişdir.

Təhlildən aydın olur ki, 1995-2017-illərdə ÜDM və Əmək məhsuldarlığının dinamikasına diqqət yetirdikdə məlum olur ki, nəzərdən keçirilən dövr hər iki göstəricinin ümumi artımı ilə müşayiət olunur. Amma 2004-cü ildən 2015-ci ilədək olan dövrdə hər iki göstərici daha sürətlə artmışdır. Bu artım 1994-2004-cü ullərdə ölkə üzrə həyata keçirilən böyük investisiya qoyuluşlarının sonrakı dövrdəki effektləri nəticəsində baş vermişdir. 2015-ci ildən sonrakı dövrdə isə bu göstəricilərdə nisbi azalma müşayiət olunmuşdur. Azalma manatın devalvasiyası və dünya bazarında neftin qiymətində baş verən kəskin dəyişikliklərlə bağlı olmuşdur. Təhlili daha aydın görmək üçün aşağıdakı qrafik 2. və qrafik 3. təqdim edirik.

Əmək resurslarının beynəlxalq mobilliyini xarakterizə edən göstəricilərin 1995-2017-ci illərdəki dinamikası nəzərdən keçirilərkən daimi yaşayış üçün ölkəyə gələnlərin 2005-ci ilədək daha sürətlə azalmasını və sonra da nisbətən daha az sürətlə artmasını müşahidə edirik. Eyni vəziyyət ölkədən gedənlərin sayında da müşahidə olunur. Miqrasiya artımı (azalması) əmsalı) göstəricisinə gəlincə isə burada maraqlı bir hadisə ilə rastlaşırıq. 1995-2008-ci illərədək miqrasiya əmsalı mənfi, 2008-ci ildən sonra isə müsbət olmuşdur. Göstəricinin zamana görə meyli proqnozlaşdırıldıqda isə 2022-ci ildən sonra əmsalın yenə mənfi olması qənaətinə gəlmək olur. R^2 -nın 0,95 olması prosesin zamanla izahını daha inandırıcı edir.



Mənbə: Müəllif tərəfindən https://www.stat.gov.az/source/demoqraphy/ məlumatları əsasında tərtib edilmişdir.

Prosesin belə dalğavari baş verməsinin əsas səbəbi 2008-ci ilədək ölkədən ixtisassız kadrların (məcburi köçkün və qaçğınların, dolanışıq üçün qastarbaytlıq edənlərin) xaricə axını ilə izah edilə bilər. 2008-ci ildən sonra isə ixtisalı kadrların ölkəni tərk etməsi ilə izah oluna bilər. Bu ölkəmizdə və xaricdə yüksək təhsil alanların ölkə daxili əmək bazarında öz ixtisaslarına uyğun iş tapmaması və

digər amillərlə bağlı ola bilər. Qeyd etmək lazımdır ki, ölkəni tərk etmə səbəbləri üzrə xüsusi bir statistikanın olmaması bu sahədə problemləri öyrənməyə çətinliklər yaradır. Amma mövcud statistika nəticəsində belə qənaətə gəlmək olur ki, ölkəni tərk edənlər ölkəyə gələnlərin sayını üstələməkdədir.



Mənbə: Müəllif tərəfindən https://www.stat.gov.az/source/demoqraphy/ məlumatları əsasında tərtib edilmişdir.

Ümumiyyətlə miqrasiya göstəriciləri ilə iqtisadi inkişafın əsas göstəricisi olan ÜDM arasında münasibətlərin ümumi trendi onu deməyə imkan verir ki, ölkəmizdə miqrasiya əmsalının azalması hələ ki, ÜDM-in dinamik artımı ilə müşayiət olunur. Qiymətləndirmə zamanı ekonometrik metodlardan istifadə edilmişdir. Qiymətləndirmə üçün izah edici dəyişən kimi ölkəyə gələnlər və ölkədən gedənlərin sayı götürülmüşdür. Nəticə göstəricisi kimi isə ÜDM götürülmüşdür. Qiymətləndirmə Excell proqram paketinin məlumatların təhlili paketindəki reqressiya menyusu ilə aparılmışdır. Qimətləndirmə nəticəsində aşağıdakı çoxluq reqressiya tənliyi alınmışdır:

$$Y=10,55 + 0,01X_1 - 0,55\ X_2$$

Burada,Y - ÜDM-in natural loqorifmi, X_1 - Ölkəyə gələnlərin sayının natiral loqorifmi,

X_2 - Ölkədən gedənlərin sayı natural loqorifmi

Qurulmuş ekonometrik modellərdə asılı dəyişənin izahedici dəyişəndən asılılığına baxılmışdır. Sabit əmsallar izahedici dəyişənin sıfır qiymətində asılı dəyişənin sabitin özünə bərabər olması deməkdir. İzahedici dəyişənin asılı dəyişənə təsir əmsalı onu göstərir ki, digər şərtlər sabit qaldıqda, izahedici dəyişənin 1% artması asılı dəyişənin neçə % artmasına səbəb olar.

Modeldə həm sabit, həm də meyillilik əmsallara diqqət yetirdikdə onlardan yalnız ölkədən gedənlərin sayının statistik əhəmiyyətli olduğu görenür. Əmsalların statistik əhəmiyyətli olub-olmamasını onların t-statistikasının ehtimal qiymətlərindən də görmək mümküdür. Belə ki, ehtimal qiymətləri 0,05-dən yaxud 5%-dən kiçik olanlar üçün H_0 hipotezi olan əmsallar sifıra bərabərdir fərziyyəsini rədd etmək və beləliklə də alternativ hipotez olan əmsallar həqiqətən ana kütlədəki əmsallara bərabərdir fərziyyəsini qəbul etmək olar. Bu baxımdan ölkədən gedənlərin sayının ÜDM-yə təsirini qəbul etmək olar. Yəni ölkədən gedənlərin sayının 1% artımı ÜDM-in 0.55% azalmasına səbəb olur.

R^2 göstərir ki, izahedici dəyişənlərin dəyişməsi asılı dəyişənin dəyişməsinin neçə faizini izah edir. Bu statistikanın vahidə yaxın olması modelin movcud reallığı (asılı dəyişənin zaman ərzində dəyişməsini) daha dolğun approksimasiya etməsini, əksinə sıfıra yaxın olması isə bu aproksimasiyanın zəif olmasını göstərir. Qiymətləndirilmiş modeldəki R^2-na görə izahedici dəyişənin dəyişməsi asılı dəyişməsinin yüksək ehtimal faizi ilə izah edir. Hər iki göstərici arasındakı əlaqənin reqressiya təhlili göstərir ki, onlar arasında sıx korrelyasiya əlaqəsi vardır (R^2=0,79). Reqresiya tənliyinin standard səhvi onu göstərir ki, qurulmuş model reallığı əks etdirməkdə az səhvə yol veir. F-statistika izahedici dəyişənləri asılı dəyişənə birgə təsirinin statistik əhəmiyyətli olub-olmamasını yoxlayır. Əgər statistikanın alınmış qiyməti F-statistikanın kritik qiymətindən böyükdürsə onda izahedici dəyişənlərin asılı dəyişənə birgə təsirləri statistik əhəmiyyətlidir. Bu halı F-statistikanın ehtimal qiyməti əsasında da müəyyən etmək olar. Belə ki, ehtimal qiyməti 0,05 yaxud 5%-dən kiçikdirsə, onda birgə təsir statistik əhəmiyyətlidir, əks halda

isə statistik əhəmiyyətli deyildir. Əhalinin miqrasiya mobilliyinin ÜDM-ə təsiri modelinin xüsusiyyətlərini Excell proqram paketindən çıxan nəticələr əsasında daha aydın müşahidə etmək olar.

Əhalinin miqrasiyasının tədiyyə balansının göstəricilərinə təsiri də mühüm məsələlərdən ibarətdir. Bu məqsədlə tədqiqat çərçivəsində tədiyyə balansının cari hesab bölməsinin təkrar gəlirlər alt bölməsindəki fiziki şəxslərin pul baratlarının daxil olması və ödənişləri ilə əhalinin mobillik göstəriciləri də müqaysə olunmuşdur. Nəzəri olaraq belə bir müddəanın doğruluğu yoxlanmışdır: Əgər ölkədən gedənlərin sayı artırsa, daxil olan pul baratları artmalı, gələnlərin sayı artırsa ödənişlərin sayı artmalıdır. Müddəanı yoxlamaq üçün aşağıdakı cədvəl 3–ün statistik məlumatlardan istifadə edilmişdir:

Cədvəl 3. Fiziki şəxslərin pul baratlarının daxil olması və ödənişləri

İllər	Fiziki şəxslərin pul baratları	Daxilolmalar	Ödənişlər
1995	23	35	-12
1996	-21	20	-40
1997	-16	30	-46
1998	-1	75	-76
1999	9	54	-45
2000	4	57	-54
2001	10	44	-35
2002	14	163	-148
2003	77	154	-78
2004	127	191	-65
2005	364	491	-127
2006	513	663	-150
2007	918	1191	-274
2008	1016	1416	-399
2009	660	1182	-522
2010	498	1338	-840
2011	633	1771	-1138
2012	-40	1852	-1892
2013	1	1580	-1579
2014	186	1708	-1522
2015	240	1182	-942
2016	74	564	-490
2017	677	1020	-343

Mənbə: Müəllif tərəfindən https://www.stat.gov.az/source/demoqraphy/ məlumatları əsasında tərtib edilmişdir.

Təhlili daha aydın müşahidə etmək üçün aşağıdakı qrafik 4 təqdim edilir.

Tədiyyə balansının cari hesab bölməsinin təkrar gəlirlər alt bölməsindəki fiziki şəxslərin pul baratlarının daxil olması və ödənişləri barədə məlumatların əhalinin miqrasiya göstəriciləri ilə aparılmış müqayisə nəticələri göstərir ki, həqiqətən ölkədən gedənlərin sayı artdıqca ölkəyə daxil olan pul baratlarının sayı artır. əksinə ölkəyə gələnlərin sayı artdıqca isə ödənişlərin sayı artır. Müqayisə aşağıdakı diaqramda verilmişdir.



Mənbə: Müəllif tərəfindən https://www.stat.gov.az/source/demoqraphy/ məlumatları əsasında tərtib edilmişdir.

Azərbaycana daimi yaşamaq üçün xarici ölkələrdən gələn və Azərbaycandan daimi yaşamaq üçün gedənlərin ölkələr üzrə və miqrantların cins və yaş qrupları üzrə məlumatları da əhatə edir. Azərbaycan Respublikası ilə xarici dövlətlər arasında Əmək resurslarının beynəlxalq mobilliyini xarakterizə edən göstəricilər əhalinin daimi yaşayış yerinə görə qeydiyyatı zamanı Daxili İşlər Nazirliyinin Baş Pasport, Qeydiyyat İdarəsi tərəfindən tərtib olunan gəlmə (getmə) miqrantların statistik qeydiyyat vərəqəsinə qoşulan kəsmə talonlarda və Dövlət Miqrasiya Xidməti tərəfindən təqdim olunan "Azərbaycan Respublikasında olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında" 1-№-li (Miqrasiya) rüblük (illik) rəsmi statistika hesabatı formasında olan məlumatların statistik işlənməsi nəticəsində əldə edilir. Həmin hesabatlardan yaş qrupları üzrə əldə etdiyimiz məlumatları yenidən işləməklə ölkəyə gələn və gedən əmək qabiliyyətli yaşda olanların sayı barədə mləumatlar formalaşdırılmışdır. Bu məlumatlar sırf əmək resurslarının beynəlxalq mobilliyi barədə təsəvvür yarada bilir.

Cədvəl 4. Ölkəyə gələn və gedən əmək qabiliyyətli yaşda olanların sayı nəfərlə

	2009	2010	2011	2012	2013	2014	2015	2016	2017	2018	2019
Ölkəyə daimi yaşamaq üçün gələnlər	2068	2099	2020	1981	2776	1630	2328	2829	2693	2834	1744
Ölkədən daimi yaşamaq üçün gedənlər	1124	660	414	171	665	684	1431	1577	1753	1511	1583

Mənbə: Müəllif tərəfindən https://www.stat.gov.az/source/demoqraphy/ məlumatları əsasında tərtib edilmişdir.

Qeyd etmək lazımdır ki, belə məlumatlar ölkə üzrə yalnız 2009-cu ildən etibarən formalaşdırılmışdır. Qiymətləndirmə zamanı əvvəlki paraqrafdakı kimi əhalinin deyil yalnız əmək qabiliyyətli yaşda olanların miqrasiyasının ÜDM-ə təsiri aparılmışdır. Ölkəyə gələn və gedən əmək qabiliyyətli yaşda olanların sayının dinamikası göstərir ki, ölkəyə əmək qabiliyyətli yaşda olanların gəlişinin sayı ölkəyə əmək qabiliyyətli yaşda olanların gedişinin sayını üstələyir. Maraqlı cəhət budur ki, əhalinin miqrasiyasından fərqli olaraq, burada biz tam başqa mənzərənin şahidi oluruq. Belə ki, 2009-cu ildən 2012-ci ilədək ölkədən gedən əmək qabiliyyətli yaşda olanların sayı azalmış, 2012-ci ildən sonra isə artmağa başlamışdır. Bu onunla izah olunur ki, həmin dövrdə ölkədə baş verən böyük tikinti bumu və qeyri neft sektorunun inkişafı əmək qabiliyyətli yaşda olanların işlə təminatında böyük rol oynamışdır. 2012-ci ildən sonra isə ölkədən gedən əmək qabiliyyətli yaşda

olanların sayı artmağa başlamışdır. Artım iki səbəbdən baş vermişdir. Birincisi əhalinin sürətli artımı nəticəsində əmək qabiliyyətli yaşda olanların sayı sürətlə artmış və inkişaf edən iqtisadiyyat onları işlə təmin etmək iqtidarında olmamışdır. İkincisi bu dövrdə ixtisaslı kadrların sayı artmış və onlar öz ixtisaslarına görə iş tapa bilməmişlər.



Mənbə: Müəllif tərəfindən https://www.stat.gov.az/source/demoqraphy/ məlumatları əsasında tərtib edilmişdir.



Mənbə: Müəllif tərəfindən https://www.stat.gov.az/source/demoqraphy/ məlumatları əsasında tərtib edilmişdir.

Ölkəyə gələn əmək qabiliyyətli yaşda olanların sayının artmasındakı dinamik artım isə ölkəyə cəlb edilmiş xarici investisiyaları həcminin artımı ilə əlaqədardır. Əlbətdə ki, hər bir xarici investor investisiya layihəsini həyata keçirərkən öz yüksək ixtisaslı kadrlarını ölkəyə gətirir.

Verilən məlumatlardan istifadə edərək qiymətləndirməni həyata keçirək.

Qiymətləndirmə zamanı ekonometrik metodlardan istifadə edilmişdir. Qiymətləndirmə üçün izah edici dəyişən kimi əmək qabiliyyətli yaşda olan ölkəyə daimi yaşamaq üçün gələnlər və əmək qabiliyyətli yaşda ölkədən daimi yaşamaq üçün gedənlər sayı götürülmüşdür. Nəticə göstəricisi kimi isə ÜDM götürülmüşdür. Qiymətləndirmə Excell proqram paketinin məlumatların təhlili paketindəki reqressiya menyusu ilə aparılmışdır. Qimətləndirmə nəticəsində aşağıdakı çoxluq reqressiya tənliyi alınmışdır:

$$Y=10,68 + 0,04X_1 - 0,02\ X_2$$

Burada:

Y - ÜDM-in natural loqorifmi

X_1 - əmək qabiliyyətli yaşda olan ölkəyə daimi yaşamaq üçün gələnlərin sayının natiral loqorifmi

X_2 - əmək qabiliyyətli yaşda ölkədən daimi yaşamaq üçün gedənlər sayının natural loqorifmi

Modeldə həm sabit, həm də meyillilik əmsallara diqqət yetirdikdə hər iki izahedici dəyişənin statistik əhəmiyyətli olmadığı görünür. Hər iki göstərici arasındakı əlaqənin reqressiya təhlili göstərir ki, onlar arasında sıx korrelyasiya əlaqəsi yoxdur (R^2=0,16). Reqresiya tənliyinin standard səhvi onu göstərir ki, qurulmuş model reallığı əks etdirmir. Alınmış modeldə F-statistikanın ehtimal qiyməti (0,6) izahedici dəyişənlərin asılı dəyişənə birgə təsirinin statistik əhəmiyyətli olmadığın göstərir. Modelin iqtisadi təfsirindən belə bir nəticəyə gəlmək mümkündür ki, əməkqabiliyyətli yaşda olan əmək resurslarının sayındakı mobilliyin ÜDM-ə təsirində hər hansı korrelyasiya əlaqəsi yoxdur.

Əmək resurslarının beynəlxalq mobilliyinin dövlət maliyyəsinə təsiri də iki cür qiymətləndirilir. Bir tərəfdən immiqrantlar, qəbul edən dövlətin dövlət xəzinəsini dolduran vergi ödəyiciləridir. Digər tərəfdən, onlar dövlətdən sosial müavinət və zəmanət tələb edirlər. Emiqrantlar olan ölkələrdə, əksinə, işçilərin ödəmələri dayandığından büdcə onların vergilər şəklində ödəmələrini əldə etmir. Dövlət gəlir və xərclərinin balansı işçilərin miqrasiyası nəticəsində ümumiyyətlə, birmənalı olmur.

Qrafik 7. Əhalinin məşğulluq göstəriciləri



Mənbə: Müəllif tərəfindən https://www.stat.gov.az/source/demoqraphy/ məlumatları əsasında tərtib edilmişdir.

Ölkəyə gələn və gedən əmək qabiliyyətli yaşda olanların mobilliyinin əhalinin məşğulluq göstəricilərinə təsirinin tədqiqində də əhəmiyyitli korrelyasiya əlaqələri müşahidə olunmamışdır. Əhalinin məşğulluq göstəricilərinin zamana görə meylinnin xətti reqresiyya tənliklərinə diqqət yetirdikdə görmək olur ki, məşğul əhalinin sayının artımı (R2=0.98), iqtisadi fəal əhalinin isə sayının atımı (R2=0.98) 90%-dək zaman amili ilə izah oluna bilir. Məşğulluq göstəricilərinin artımının əsas hərəkətverici qüvvəsi zaman amili isə özündə əhalinin artımını ehtiva edir. Sual oluna bilər əhalinin məşğulluqunun artımı iqtisadi artıma necə təsir edir. İqtisadi islahatlar elmi tədqiqat institutunda aparılmış tədqiqatlara istinad etsək məlum olur ki, 2016-cı ildə kapitalın məhsuldarlığı **0,46** təşkil etmişdir. Yəni hər milyon manat kapitala 2.16 milyon manat məhsul istehsal edilir. 2016-cı ildə iş qüvvəsinin məhsuldarlığı yuxarıdakı qaydada hesablanmış və **2,9** təşkil etmişdir. Yəni hər min nəfər işçi qüvvəsinə 2,9 milyon manat məhsul istehsal edilir. İstehsal faktorlarının orta məhsuldarlığı (verimliliyi) onların hər vahidinə düşən ÜDM-in miqdarını göstərir.

Lakin bu göstəricilər müxtəlif ölçü vahidlərində olduğundan onların müqayisəsisi mümkün deyildir. İstehsal faktorlarının son həddverimliliyinə gəlincə isə bu kapital üzrə 0.266, əmək üzrə isə 1,295 təşkil edir. İstehsal faktorlarının son hədd verimliliyi istehsalda istifadə olunan faktorların hər vahid artımına düşən məhsul miqdarının artımını göstərir. Artım sürətlərini müqayisə etmək mümkün olduğundan deyə bilərik ki, iş qüvvəsinin əlavə artımı məhsul istehsalını artırmır. Deməli, məşğulluq göstəricilərində baş verən dəyişikliklər ÜDM-də baş verən dəyişikliklərdə adekvat olaraq öz təsirini verə bilməz. Qiymətləndirmə zamanı ekonometrik metodlardan istifadə edilmişdir. Qiymətləndirmə üçün izah edici dəyişən kimi əmək qabiliyyətli yaşda olan ölkəyə daimi yaşamaq üçün gələn və gedənlərin miqrasiya azalması artması götürülmüşdür. Nəticə göstəricisi kimi isə məşğulluq göstəriciləri götürülmüşdür. Qiymətləndirmə Excell proqram paketinin məlumatların

təhlili paketindəki reqressiya menyusu ilə aparılmışdır. Qimətləndirmə nəticəsində aşağıdakı çoxluq reqressiya tənliyi alınmışdır:

$$Y=8,37 + 0,07X_1 - 0,02 X_2$$

Burada:Y - LN Məşğul əhalinin sayının loqorifmi, X_1 - əmək qabiliyyətli yaşda olan ölkəyə daimi yaşamaq üçün gələnlərin sayının natiral loqorifmi, X_2 - əmək qabiliyyətli yaşda ölkədən daimi yaşamaq üçün gedənlər sayının natural loqorifmi

Əmək qabiliyyətli yaşda olan əmək resurslarının mobilliyinin məğulluğa təsiri modelinin spesifikasiyası Excell proqram paketindən çıxan nəticələrdən daha aydın görünür. Modeldə həm sabit, həm də meyillilik əmsallara diqqət yetirdikdə hər iki izahedici dəyişənin statistik əhəmiyyətli olmadığı görünür. Hər iki göstərici arasındakı əlaqənin reqressiya təhlili göstərir ki, onlar arasında sıx korrelyasiya əlaqəsi yoxdur (R^2=0,37). Reqresiya tənliyinin standard səhvi onu göstərir ki, qurulmuş model reallığı əks etdirmir. Alınmış modeldə F-statistikanın ehtimal qiyməti (0,25) izahedici dəyişənlərin asılı dəyişənə birgə təsirinin statistik əhəmiyyətli olmadığın göstərir. Modelin iqtisadi təfsirindən belə bir nəticəyə gəlmək mümkündür ki, əməkqabiliyyətli yaşda olan əmək resurslarının sayındakı mobilliyin ÜDM-ə təsirində hər hansı korrelyasiya əlaqəsi yoxdur. Modelin təfsiri göstərir ki, ölkəmizdə əmək resurslarının mobilliyinin əhalinin məşğulluğuna əhəmiyyətli təsiri statistik əhəmiyyətli deyildir.

Nəticə

28 illik müddətdə hər iki istiqamətdə (Azərbaycandan gedən və bura gələnlərin) yekun göstəricilərində azalma var. 3 inkişaf etmiş ölkədən (ABŞ,Almaniya və Turkiyadən) Respublikamıza 1990-cı ilə nisbətən 2018-ci ildə gələnlərin olduğunu görürük. Azərbaycandan MDB dövlətlərinə gedənlərin sayı 2018-ci ildə 1990-cı ilə nisbətən 71,3 dəfə, digər xarici dövlətlərə isə 189,6 dəfə azalmışdır. Bunun səbəbi kimi xarici ölkələrə gedənlər arasından geri qayıdanların olması, digər tərəfdən xarici ölkə vətəndaşları tərəfindən Respublikanın sosial-iqtisadi inkişaf vəziyyətinin müsbət qiymətləndirilməsi ola bilər. Təhlil zamanı müəyyən etdik ki, 2018-ci ildə ölkə üzrə işsizlərin sayı 1999-cu illə müqayisədə 2,2 dəfə, məşğulluq xidməti orqanlarında rəsmi işsiz statusu alanların sayında 2,3 dəfə, işsizliyə görə müavinət alanların sayında isə 2,1 dəfə azalma baş verib. Nəzərə alsaq ki, müqayisə edilən dövr ərzində əhalinin sayı demək olar ki, 2 dəfədən çox artıb, onda bu göstəricilər daha yüksək nəticəni ifadə edir. Lakin 2018-ci ildə 10 milyona yaxın əhalisi olan bir ölkədə 253,8 min nəfər işsizin olması bir işçiz ordusunun xaricə axını ilə nəticələnə bilir. Bu baxımdan ölkədə mövcud olan işsizlik səviyyəsi 4-5% keçməsə də əmək resurslarının miqrasiya etməsinə əsas səbəblərdən ola bilir. Təhlil bir mənalı olaraq gedənlər arasında cavanların və orta yaş qrupunun üstünlük təşkil etdiyini göstərir. Bunların arasında 20-49 yaş qrupuna daxil olanlar 8499 nəfər təşkil edir ki, bu da cəmi gələnlərin 75,8% təşkil edir. Əslində bu müddət ərzində ölkəyə 20-49 yaş qrupu üzrə gələnlər gedənlərdən 2,2 dəfə çoxdur. Bunu nəzərə alsaq vəziyyət o qədər pis deyil.

Qənaətlər

Əmək qabiliyyətli yaşda olan əmək resurslarının mobilliyinin ÜDM-ə təsirinin qiymətləndirilməsi zamanı ekonometrik metodlardan istifadə edilərək tərtib edilmiş modelin iqtisadi təfsirindən belə bir nəticəyə gəlmək mümkündür ki, əməkqabiliyyətli yaşda olan əmək resurslarının sayındakı mobilliyin ÜDM-ə təsirində hər hansı korrelyasiya əlaqəsi yoxdur. Əhalinin miqrasiya mobilliyinin ÜDM-ə təsiri modelinin iqtisadi təfsirindən belə bir nəticəyə gəlmək mümkündür ki, ölkədən gedənlərin sayının 1% artımı ÜDM-in 0.55% azalmasına səbəb olur.Əhalinin miqrasiyasının tədiyyə balansının göstəricilərinə təsiri də mühüm məsələlərdən ibarətdir. Bu məqsədlə tədqiqat çərçivəsində tədiyyə balansının cari hesab bölməsinin təkrar gəlirlər alt bölməsindəki fiziki şəxslərin pul baratlarının daxil olması və ödənişləri ilə əhalinin mobillik göstəriciləri də müqaysə olunmuşdur. aparılmış müqayisə nəticələri göstərir ki, həqiqətən ölkədən gedənlərin sayı artdıqca ölkəyə daxil olan pul baratlarının sayı artır. Əksinə ölkəyə gələnlərin sayı artdıqca isə ödənişlərin sayı artır.Əmək qabiliyyətli yaşda olan əmək resurslarının mobilliyinin ÜDM-ə təsiri modelinin iqtisadi təfsirindən belə bir nəticəyə gəlmək mümkündür ki, əməkqabiliyyətli yaşda olan əmək resurslarının sayındakı mobilliyin ÜDM-ə təsirində hər hansı korrelyasiya əlaqəsi yoxdur.

Ədəbiyyat

1. Alıyev İ.H., Məmmədov Y.Ə. “Azərbaycan 2020: Gələcəyə baxış” inkişaf konsepsiyasının nəzəri-metodoloji əsasları”. Bakı. “AVROPA” 2012, s.90, səh.16-17.
2. Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları, https://www.stat.gov.az/source.
3. Azərbaycan iqtisadiyyatında istehsal faktorlarının məhsuldarlığı. Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları, https://www.stat.gov.az.
4. Адедиран А.М. Ключевые вехи становления современной теории миграции в работах западных ученых XX в. Вестник РУДН, серия Социология, 2015, № 1.
5. Harris, John R., Todaro, Michael P. (1970), «Migration, Unemployment and Development: A Two-Sector Analysis»//American Economic Review 60 (1):126–142.
6. Lee E. A Theory of Migration // Demography (1966), 3. P. 47–57.
7. Piore M. Birds of passage. Migrant labour and industrial societies. New York: Cambridge University Press. 1979.p.12.
8. Zelinsky W. The Hypothesis of the Mobility Transition // Geographical Review. 1971. 61. P. 219–249.

Влияние международного трудового движения азербайджана на экономику.

Эльнура Ильгар Гусейнова, Докторант
Научно-Исследовательский Институт Экономических Реформ

Резюме

Наличие победителей и проигравших в процессе международной мобильности рабочей силы требует более чуткого подхода к этой проблеме на национальном уровне. Ряд теорий повлиял на методологию исследования международной мобильности рабочей силы, и тенденции разных стран были в центре внимания исследования.

Цель исследования *- проанализировать влияние международного рабочего движения на экономику Азербайджана и уточнить механизмы, используемые в этой сфере.*

В исследовании используются *использовались методы анализа, группировки, эконометрические,применялся метод экстраполяции, строились модели.Также определены индикаторы оценки международной мобильности трудовых ресурсов, прокомментированы особенности индикаторов оценки международной мобильности трудовых ресурсов.*

Ограничениями исследования *являются потребность в дополнительной статистической информации и отсутствие ряда статистических данных.*

Оригинальность и научная инновация *научная новизна и практическая значимость исследования заключается в систематизации индикаторов для оценки влияния международного рабочего движения на экономику и демонстрации возможности использования индикаторов.*

В исследован*ии оценивалось влияние международной мобильности рабочей силы на экономику и определялось, существует ли корреляция между количеством мобильности рабочей силы трудоспособного возраста и ВВП.*

Ключевые слова: *рабочая сила, мобильность рабочей силы, миграция, модель, занятость.*

Huseynova Elnura Ilgar Doctoral student of the Economic Reforms Research Institute

The Impact Of The International Movement Of Labor Resources Of Azerbaijan On The Economy

Abstract

The presence of winners and losers in the process of international labor mobility requires a more sensitive approach to this problem at the national level. A number of theories have influenced the methodology of research on international labor mobility, and trends across countries have been the focus of the study.

The purpose of the research *is to analyze the impact of the international labor movement on the economy of Azerbaijan and to clarify the mechanisms used in this sphere.*

The methodology of the research *consists of analysis, grouping, econometric, applied the extrapolation method, built models. Indicators for assessing the international mobility of labor resources were also identified, and the features of indicators for assessing the international mobility of labor resources were commented.*

The limitations of research *of the study are the need for additional statistical information and the lack of a number of statistical data.*

As a result of the research *assessed the impact of international labor force mobility on the economy and determined whether there is a correlation between the amount of labor force mobility of the working age and GDP.*

The originality and scientific novelty of the research *the scientific novelty and practical significance of the study lies in the systematization of indicators to assess the impact of the international labor movement on the economy and to demonstrate the possibility of using indicators.*

Keywords: *labor force, labor force mobility, migration, model, employment.*

AZƏRBAYCAN RESPUBLİKASINDA MÜALİCƏVİ-SAĞLAMLIQ KOMPLEKSİNİN İNKİŞAFININ TƏNZİMLƏNMƏSİNİN MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ

Gülnar Xanlar qızı Səmədova, i.f.d. dos.
AMEA İqtisadiyyat İnstitutu
gulnar.samadova@gmail.com

Xülasə

Dünyada gedən urbanizasiya prosesi insanların orqanizmində funksional imkanlarının azalmasına və həyat təminatı sistemlərinin pisləşməsinə səbəb olur. Məhz bu baxımdan, insan sağlamlığını ön plana çəkərək, bu sahədə yaranan problemlərin aradan aldırılması tələb olunur. Eyni zamanda, dünya miqyaslı epidemiyaların yaranmasında və yerli əhali arasında xəstələrin sayında, təhlükəli xəstəliklərin yaranması, dünyada sağlam həyat tərzinin əhəmiyyətini daha da artırır ki, bu da turizm sektorunun yeni müstəvidə inkişafını zəruri edir.

Mövzunun aktuallığını nəzərə alaraq, məqalədə müəllif iqtisadi sahələrdə xidmət sektorunun formalaşması Azərbaycan Respublikasında müalicəvi-sağlamlıq kompleksinin inkişafının tənzimlənməsinin müasir vəziyyətini geniş təhlil etmişdir. Son dövrün statistik məlumatlarına əsaslanaraq, yaranmış mövzuları analitik təhlil edərək, müasir iqtisadi artım üçün, xidmət sahəsi müəssisələrinin, xüsusi ilə də turizm sektorunun səmərəli təşkili və idarə edilməsinin əhəmiyyətini göstərmişdir.

Məqalədə müəllif, müalicəvi-sağlamlıq kompleksinin inkişafının beynəlxalq rəqabət üçün həm yerli istehlakçılara, həm də xarici bazarlarda daha geniş xidmət keyfiyyətinə çıxış imkanlarını açdığını göstərmişdir. Nəticədə məqalənin yaranan problemlərlə bağlı təklif və tövsiyələr irəli sürmüşdür.

Açar sözlər: müalicəvi-sağlamlıq kompleksinin, saldıq turizmin, kurortlar, palçıq kurortları, sosial və iqtisadi əlaqələr.

Giriş

Turizmin təşkili istirahət və əyləncənin fəal formalarından biri olmaqla yanaşı, həm də bir çox sosial-iqtisadi, mədəni-siyasi və kulturoloji funksiyaların həyata keçirilməsinin əhəmiyyəti aktual mövzulardan hesab olunur. Məhz bu baxımdandır ki, turizm sosial və iqtisadi əlaqələrini tənzimləyən, müxtəlif ölkələr və xalqlar arasında qarşılıqlı münasibətlər yaradan, biznes

maraqlarının əhatə dairəsini genişləndirən sahə olmaqla, müasir dünyada qlobal əhəmiyyətə malikdir. Sağlamlıq turizmin inkişaf etməsi, bir çox başqa sahələrin də inkişaf etməsində həlledici rol oynayır.

İnkişaf etmiş dövlətlərin təcrübəsinə nəzər saldıqda, turizmin inkişafına dövlətlər və sivilizasiyalar səviyyəsində böyük maraq göstərildiyini, beynəlxalq maliyyə qurumları və təşkilatları turizmin inkişafına öz maraq və diqqətlərini artırdıqlarını görürük. Aparılan sosialoji tədqiqatlardan məlumdur ki, hələ keçən yüzilliyin sonlarında turizm sahəsindən, dünyada əldə olunan gəlirin həcmi 450 milyardı ABŞ dollarını ötüb keçmiş, turizmin inkişafının orta illik artım faizi isə 4.3 faizdən çox olmuşdur.

Təbiətinin böyük rəngarəngliyi ilə fərqlənən və strateji mövqedə yerləşən Azərbaycan Respublikası qədim İpək Yolunun bir hissəsi olmaqla yanaşı, ərazisində 8400 iri və xırda çay və göl var. Azərbaycan ərazisinin yarıdan çoxunu, Kiçik Qafqaz və Böyük Qafqaz dağları tutur. Ölkə ərazisində müalicəvi keyfiyyətlərinə görə dünyada qəbul olunmuş səkkiz qrupa bölünmüş mineral suların hər bir tipi mövcuddur. Respublikada 8 milli park, 11 qoruq və 24 yaşıllıq, mineral və termal su mənbələrinə görə ən zəngin ölkələrdən biridir. Eyni zamanda Azərbaycan florasında 1500-dən çox növdə dərman bitkiləri, 344 palçıq vulkanı var. Bu sahədə, müalicə resurslarına görə, Azərbaycan kurortların iqlim, balneoloji, Naftalan nefti və müalicə xarakterli palçıq kurortları kimi növləri ilə fərqlənir.

Tarixi araşdırmalar göstərir ki, hələ qədim dövrlərdə Azərbaycanda müalicə və profilaktik məqsədlərlə təbii şəfaverici təsirləri olan bulaq sularından, xüsusi növ neft və vulkan palçıqlarından geniş istifadə edilmiş, münasib iqlim şərtləri, faydalı mineral sular, müalicəvi keyfiyyəti olan palçıq və neft resurslarından asılı olaraq, ölkənin ayrı-ayrı iqlim zolaqlarında yerləşən müxtəlif müalicəvi önəm daşıyan kurortların təsnifatı müəyyən edilmiş və onların xarakterinə uyğun olan infrastrukturlar yaradılmışdır.

Kurortlar şəbəkəsinin formalaşması XX yüzilliyin ikinci yarısında təsadüf edir. 1970-ci ildə Abşeron yarımadasındakı kurortlar, İstisu, Qalaaltı və Naftalan kurortları ümumittifaq səviyyəli kurortlar siyahısına salınmışdır. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra, kurort işinin inkişaf etdirilməsinə daha böyük diqqət ayrılmışdır. Buna misal 2007-ci il fevralın 27-də AR Prezidenti İlham Əliyev tərəfindən imzalanmış "Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncamını göstərə bilərik. Belə ki, bu qanunda Sağlamlıq-Müalicə turizminin inkişaf etdirilməsində mühüm mərhələlərdən biri kimi öz təsdiqini tapmışdır.

Məhz bu səbəbdəndir ki, ölkəmizdə bu sahədə bir sıra təxirəsalınmaz tədbirlər görülməkdədir. Belə ki, sağlamlaşdırıcı turizm, 6 dekabr 2016-cı ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən təsdiq edilən, Azərbaycan Respublikasında xüsusiləşdirilmiş turizm sənayesinin inkişafı üzrə Strateji Yol Xəritəsində, Azərbaycanda sağlamlıq-müalicə turizm müəssisələrinin idarə edilməsinin təkmilləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Beləliklə, turizminin əsas əhəmiyyəti insan sağlamlığı təşkil edir. Məhz bu səbəbdəndir ki, turizmin formalaşması üçün Azərbaycan Respublikasında fəaliyyət göstərən turizm müəssisələrinin təşkilinə və idarə edilməsinin təkmilləşdirilməsi tələb olunur. Ümumilikdə, respublikada turizm sahəsinə innovativ xidmətlərin tətbiqi, bütövlükdə Azərbaycanda turizmin inkişafına təkan verməklə yanaşı, ölkənin müasir turizm bazarında güclənən rəqabətə davamlı turizm müəssisələrinin yaranmasına, innovasiyalı məhsulların və xidmətlərin formalaşmasına imkan yaradacaqdır.

Azərbaycan Respublikasında müalicəvi-sağlamlıq kompleksinin tənzimlənməsi

Azərbaycan Respublikasında müalicə - sağlamlıq turizm sektorunun rəqabət qabiliyyətinin yüksəldilməsini, yeniliyə malik olan və pozitiv dəyişikliklər gətirən, regionda bu sahənin dayanıqlı fəaliyyətini və inkişafını təmin edən sistemli tədbirlər kimi qəbul etmək lazımdır. Belə ki, bu sahədə böyük gəlir gətirən müalicə - sağlamlıq turizm layihələrinin yaradılması və reallaşdırılması, turizmin inkişafına təkan verə bilər, və bununla da, əlavə iş yerlərinin yaradılmasında və əhalinin gəlirlərinin artmasında əhəmiyyətli rol oynamaqla yanaşı, bu sahənin inkişafı aktual məsələlərdən hesab olunur.

Müalicə - sağlamlıq turizm sahəsində innovasiya prosesi kifayət qədər aktual olmaqla yanaşı, inkişaf etməsi olduqca səmərəlidir. Müalicə - sağlamlıq turizmi bir tərəfdən, turizm bazarı və müştəri məmnunluğu vasitəsi ilə, digər tərəfdən turizm təşkilatlarının, regionda turizmlə əlaqəli digər sahələrin inkişafı deməkdir.

Azərbaycanda vahid turizm reyestri yaradılmalıdır. 2017 ci il fevralın 25-27-də İordaniya Haşimilər Krallığının paytaxtı Amman şəhərində Kral II Abdulla ibn Hüseynin himayəsi ilə "Global Healthcare Travel Forum" (Qlobal Sağlıq Turizmi Forumu) zirvəsi keçirilib. Forumda 60-a yaxın ölkədən 500-dən artıq nümayəndə iştirak edib. Sonda "Qlobal sağlıq turizmi Amman" deklarasiyası qəbul olundu. Deklarasiyada Sağlamlıq Turizminin 8 əsas istiqaməti: spa turizmi, kulinariya turizmi, idman turizmi, 3-cü yaş qrupu turizmi - Assisted residential turizm, velnes turizm, əlçatan sosial turizm, tibbi turizm, dental turizm, müəyyən olunmuşdur. Ölkəmizə Qlobal Sağlamlıq Turizmi 4 ilə yaxındır fəaliyyət göstərir. Ölkədə fəaliyyətdə olan sağlamlıq mərkəzlərindən Naftalan, Qalaltı, Naxçıvan Qəbələ fəaliyyət göstərən sağlamlıq turizm müəssisələri assosiasiyanın üzvləridirlər. Bu onu demeyə əsas verir ki, Azərbaycanın turizm potensialını geniş müstəvidə təqdim etmək imkanı verir və ölkəyə əlavə turist axınını cəlb etmək üçün fəaliyyəti koordinasiya etmək imkanı yaradır. [10]

"Qlobal Amman" toplantıda deklarasiya qəbul edilən deklarasiyada Sağlamlıq-Müalicə turizminin 8 əsas bölməsi müəyyən edilmişdir (şəkil 1.1.1):



Şəkil 1.1.1. Sağlamlıq-Müalicə turizminin bölmələri

Bakıda keçirilən 3-cü Qlobal Sağlamlıq Turizmi Forumu, Sağlamlıq Turizmini "hər kəs üçün həyat tərzi seçimi" olaraq elan edərək, Qlobal Sağlamlıq Turizm Şurasının fəaliyyətlərini inkişaf etdirmək və canlandırmaq məqsədilə aşağıdakı öhdəlikləri müəyyən edir:

1. Real əməkdaşlıq qurmaq, bu əməkdaşlığın Qlobal Sağlamlıq Turizmi sahəsində "sağlamlıq" və "turizm" arasındakı aparıcı rolunu dəstəkləmək və əməkdaşlığın mexanizm və taktikalarını inkişaf etdirmək və mənimsəmək,
2. Sağlamlıq turizmində yeniliklər irəli sürmək, beynəlxalq standartları təyin etmək və yüksək keyfiyyətli xidmət imkanlarını mənimsəmək,
3. Sağlamlıq turizmində beynəlxalq infrastruktur tələblərini və yeni texnologiyaların tətbiqi ilə bağlı təklifləri müəyyənləşdirmək,
4. Hüquqi aspektdən ən yaxşı təcrübələri tətbiq etmək və Qlobal Sağlamlıq Turizm Şurasının üzvü ölkələrin qanuni nizamnamələrinə riayət etmək,
5. QSTŞ çərçivəsində sağlamlıq və turizm potensialının birgə fəaliyyət mexanizmi, qarşılıqlı əməkdaşlıq təşəbbüsləri və iş üslublarını inkişaf etdirmək,
6. Qlobal Sağlamlıq Turizm Şurasının marketinq və idarəetmə strategiyasını hazırlamaq və QSTŞ üzv ölkələr arasındakı sağlamlıq və turizm üzrə əməkdaşlıq sahəsində təcrübələri mübadilə etmək,

7. Bakı bəyannaməsi, Qlobal Sağlamlıq Turizm Şurasının əsaslı yeniliklərini təqdim etmək və Dünya səviyyəli sağlamlıq turizmi təşkilatları üçün "Sağlamlıq Turizmi" sahəsindəki ən yaxşı təcrübələri təsdiq etmək.

Beləliklə, müalicə - sağlamlıq turizmi sahəsində aparılan tədqiqat onu deməyə əsas verir ki, bu sahənin inkişaf proqramlarında aşağıda göstərilən problemlərin həll olunması lazımdır:

- Azərbaycan Respublikasında sağlamlıq-müalicə turizm təşkilatlarının inkişafının idarə edilməsinin təkmilləşdirməsi üçün konkret təkliflər işləyib hazırlamaq;
- sağlamlıq-müalicə turizmin metodoloji yanaşmaları araşdırmaq;
- sağlamlıq - müalicə turizm xidmətləri istehlakçılarının əsas xüsusiyyətlərini müəyyənləşdirmək;
- sağlamlıq-müalicə turizm müəssisələrinin inkişafı sahəsində beynəlxalq və yerli təcrübənin öyrənilməsi;
- ölkədə sağlamlıq-müalicə turizm xidmətlərinin artırılması mənbələrinin üzə çıxarılması;
- sağlamlıq-müalicə turizm müəssisələrində informasiya və texnoloji proseslərin formalaşmasında istifadə metodlarının öyrənilməsi;
- dövlət və regional səviyyədə sağlamlıq-müalicə turizm müəssisələrinin idarə olunmasında informasiya texnologiyalarından səmərəli istifadə olunması yolların müəyyən etmək;
- innovativ xidmətlərin respublikada sağlamlıq-müalicə turizm müəssisələrində tətbiqi istiqamətlərini aydınlaşdırmaq;
- respublikada turizm müəssisələrinin idarəetmə sisteminin təkmilləşdirilməsini müasir tələblər səviyyəsində qurulması.

Müalicə - sağlamlıq turizmin əsas göstəricilər sistemində turizmin bütün növlərinin inkişafının əsasında iqtisadi və sosial tərəqqi durur. Daha dəqiq təhlil etsək, müalicə-sağlamlıq turizminin inkişafına təsir göstərən, siyasi, iqtisadi, sosial-demoqrafik, mədəni, şəxsi-davranış, elmi-texniki amillər, müalicə - sağlamlıq sisteminin göstəricilər sistemini fərqləndirməyə imkan verir. Bu sahənin inkişafına dövlət tərəfindən edilən layihələr xüsusi əhəmiyyət kəsb edir. [1]

Müalicəvi-sağlamlıq turizm kompleksi anlayışının mahiyyəti və göstəricilər sistemi sahəsində, sağlamlıq-müalicə turizm xidmətlərinə təsir edən amillərin nəzərə alınması lazımdır. Belə ki, iqtisadi, siyasi, sosial-demoqrafik, şəxsi-davranış, mədəni, elmi-texniki amillərin nəzərə alınması və daha ətraflı təhlili, müalicəvi turizminin inkişafına təsir göstərməklə yanaşı, sosial - iqtisadi rifahın yaxşılaşmasına da təsir edəcəkdir.

Müalicəvi-sağlamlıq turizm kompleksinin idarə edilməsinin normativ hüquqi bazasını Azərbaycan Respublikasının turizm haqqında olan qanunları təşkil edir. Bu qanuna əsasən, Azərbaycan Respublikasının müalicəvi-sağlamlıq turizm kompleksinin hüquqi əsaslarının bərqərar edilməsinə yönəldilmiş dövlət siyasətinin əsas prinsipləri, turizm fəaliyyətinin əsaslarını müəyyən edir və turizm sahəsində meydana çıxan münasibətləri tənzimləyir və sosial-iqtisadi inkişafı təmin edən vasitələrdən biri kimi, turizm ehtiyatlarından səmərəli istifadə olunması qaydasını müəyyənləşdirir. Bu baxımdan, başqa iqtisadi sahələrdə olduğu kimi turizm sektorunu tənzimləyən qanunlar sistemi fəaliyyət göstərir.

Elmi – texniki tərəqqinin inkişafı, bu sahədə elektron sistemin inkişafına, o da öz növbəsində, turizm sektorunda qanuna dəyişiklərin olmasına gətirib çıxartdı. Respublikamızda 2013-cü ildə Azərbaycan Sağlamlıq və Termal Turizminə dəstək ictimai birliyi (AHTTSA) qurulmuş, bununla da ölkədə sağlamlıq müalicə turizm sahəsinin daha sürətlə inkişafı prosesinə töhfə vermək hədəfi əsas götürülmüşdür. Təşkilatın əsas fəaliyyət planı başlıca olaraq üç istiqamətə yönələn bölmədən ibarətdir: 1) Sağlamlıq-Müalicə turizminin hüquqi əsaslarının təkmilləşdirilməsi və planlaşdırılması; 2) Sağlamlıq-Müalicə turizminin təbliğ edilməsi; 3) Sağlamlıq-Müalicə turizmi üzrə maarifləndirmə işlərinin və təşviqinin aparılması

Bu sahədə ortaya çıxan problemlərin həll edilməsi məqsədilə, AHTTSA yaranmasında əsas məqsəd, ölkədə sağlamlıq və termal turizmin inkişafı, yarandığı gündən, bu təşkilat, dövlətin yürütdüyü turizm siyasətini dəstəkləyir və Azərbaycanda Sağlamlıq-Müalicə turizmi daha da inkişaf edir.

Dünya Sağlamlıq Turizmi Şurasının rəhbər heyətinin üzvü olan bu ictimai qurum, 2018 - 2019-cu illərdə Azərbaycanın Sağlamlıq-Müalicə turizmi potensialını daha da geniş formatda dünya assosiasiyaları ilə işbirliyi mövcud olan imkanlardan yararlanaraq, ölkədə mövcud təsisatları bir qurumun ətrafında birləşdirərək, xidmət səviyyəsinin yüksəldilməsi ilə bağlı treninqlər və təqdimatlar həyata keçirir. Bunun nəticəsidir ki, Naftalan kurortu "Euro SPA" beynəlxalq təşkilatının keyfiyyət sertifikatını qazana bilmişdir.

Spa turizmi bir tərəfdən terapiya məqsədli termalizmlə, digər tərəfdən vücud baxım məqsədli (Hotel Spa) vəhdətdə təqdim oluna bilər

Spa turizm özündə birləşdirə bilər:

- -Termalizm - İsti qaynaqlar (Azərbaycanda bir neçə məkan)
- Otel Spa (Azərbaycanda bir neçə məkan)
- talassoterapiya (Xəzər dənizi - gölü, Azərbaycan - 825 km)
- Spa
- -Müxtəlif mənbələrdən istifadə etməklə isti və ya soyuq halda sularla müalicə və vücud baxım məqsədli istifadə
- "Wellness" turizm - ingiliscədən well - being, (Azərbaycanca tərcümədə salamatlıq, firavanlıq, maddi təminat). Fitness (yaxşı fiziki forma, sağlamlıq) sözündən götürülmüşdür. Wellness stilində səyahəti seçməklə hər zaman gözəl fiziki və psixoloji əhval ruhiyyəni həyata keçirmək olar.
- "SPA" - fizioterapiyanın bir metoddur. Sularla müalicə anlamına gəlir. Minerallar, dəniz suları, yosunlar, duzlar, müalicə palçıqları, müalicə bitkiləri ilə şərtləndirilərək balneoterapiya və talassoterapiyanın bütün elementlərini özündə birləşdirir.

"SPA"- fizioterapiyanın bir metoddur. Sularla müalicə anlamına gəlir. Minerallar, dəniz suları, yosunlar, duzlar, müalicə palçıqları, müalicə bitkiləri ilə şərtləndirilərək balneoterapiya və talassoterapiyanın bütün elementlərini özündə birləşdirir.

Dünya ölkələrində turizmin inkişafının qabaqcıl təcrübələri

Beynəlxalq inkişafın uzunmüddətli tendensiyaları son altı onillikdə turizmin biri olmaq üçün davamlı genişlənmə və şaxələnmə yaşanmışdır və bu sahə dünyada ən böyük və sürətli böyüyən iqtisadi sektorlar sırasındadır. Təsadüfi zərbələrə baxmayaraq, beynəlxalq turizm sektoruna demək olar ki, fasiləsiz artım tempi göstərir. 1950-ci ildə 25 milyondan 277 milyonadək, 1980, 1990-cı ildə 435 milyon, 2000-ci ildə 675 milyon və nəhayət 2010-cu ildə 935 milyon turizm sektorunun payına düşür. Bu sahədə bir çox yeni istiqamətlər var. 1950-ci ildə demək olar ki beynəlxalq gəlişlərin hamısı (97%) yalnız 15 təyinat ölkəsində cəmləşmişdi. Bu pay 2009-cu ildə 56%-ə düşdü. Onların arasında, iqtisadi və sosial inkişafını stimullaşdırmaq üçün turizmin faydalarını uğurla əldə edən bir çox inkişaf etməkdə olan ölkələr vardı. **[6]**

Həm yerli, həm də xarici turistlər arasında aparılan sorğuya əsasən, aşağıdakı, nəticə maraq doğurur.

Xidmət sahəsində tətbiq olunan innovasiyalara, sağlamlıq-müalicə turizm müəssisələrinin turizm məhsulunun istehsalı, hərəkəti və istehlakı prosesinə cəlb olunan bütün şəxslərin fəaliyyətinin optimallaşdırılmasına imkan verən innovasiyalar daxildir. Bu sahədə, texnoloji innovasiyalar, müasir informasiya texnologiyaları da daxil olmaqla, turizm xidmətlərinin hazırlanması, hərəkəti yeni texnika və texnologiyalardan istifadəni nəzərdə tuturlar.



Dünya ölkələrinin təcrübəsi göstərir ki, müasir dövrdə iqtisadiyyata turizm sektoru mühüm təsir göstərir. Bu sektor, sosial-iqtisadi problemlərin həllində mühüm rol oynamaqla yanaşı, dövlət büdcəsinin formalaşmasında, əhalinin məşğulluğunun təmin olunmasında əhəmiyyətli rol oynayır.

Bu baxımdan, turizm sahəsinin inkişaf etdirilməsi prioritet məsələlərdən birinə çevrilmişdir. Turizmin inkişafı təbi ehtiyatların, mədəni, tarixi obyektlərin, beynəlxalq proqramlara uyğun inkişafını təmin edir, həmçinin regionlarda rekreasiya-turizm ehtiyatlarının qorunması və səmərəli istifadə edilməsində mühüm rol oynayır və Azərbaycan Respublikasında qeyri-neft sahələrinin inkişaf etdirilməsinə güclü təkan vermiş olur.

Nəzərə alsaq ki, ölkə ərazisində turizmin inkişafı üçün geniş imkanlar vardır. Bu baxımdan, iqtisadiyyatının qarşısında duran əsas problemlərdən biri, ölkəmizdə davamlı inkişafı təmin edən, Azərbaycanda müalicə turizmin inkişafı, respublikanın turizm sektorunun müasir vəziyyətinin öyrənilməsi, ehtiyat potensialının aşkar edilməsi və onun qiymətləndirilməsi və perspektiv inkişaf istiqamətlərinin müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir. Məhz bu baxımdandır ki, müasir dövrdə Azərbaycanın dövlət idarəetmə sistemində aparılan islahatlar davamlı olaraq turizm sahəsinin təkmilləşdirilməsini, idarəetmənin səmərəliliyinin artırılmasını aktual problem kimi qarşıya qoyur. Ölkədə turizmin maddi-texniki bazasının inkişafı, Azərbaycana gələn və xaricə gedən turistlərin sayının artması müsbət hal hesab olmaqla yanaşı, yerli əhalinin də bu sahəyə cəlb olunması əhəmiyyətli olardı.

Ölkəyə gələn turistlərin sayının artması müsbət hal hesab olunmasına baxmayaraq, yerli əhalinin bu sahəyə marağının azalması yaxşı hal kimi götürülə bilməz. Bu sahədə yaranan problemin aradan qaldırılması vacib amillərdən biri olmalıdır. Turizm çox gəlir gətirən sahə olması bu sahədə turist tələbatlarının mürəkkəbliyi və özünəməxsusluğunun nəzərə alınmasını tələb edir.

Naftalan şəhərində turizminin inkişafı üçün iqlim amilləri və kurort sərvətləri ilə zəngindir. Naftalan turizmi xidmət sektorunun təcrübəsi baxımından zənginn təcrübəyə malikdir. Naftalanda müxtəlif tipli sağlamlıq ocaqları ilə yanaşı dünya əhəmiyyətli müalicə yerləri də vardır. SSRİ dövründə Naftalan turizm sahəsinə il ərzində 70 000 turist qəbul etmişdir. 2017 – ci ildə bura dünyanın 62 ölkəsindən 7000 min turist gəlib ki, il ərzində şəhər 36 000 min turist qəbul etmişdir. Hədəf bu sayı SSRİ dövründə olduğu kimi, 70 000 - ə çatdırmaqdır. Bu məqsədlə Azərbaycanda Naftalan müalicə turizmin inkişaf etdirilməsi, bu Naftalanı turizm şəhərinə çevrilməsi olduqca aktualdır.

Nəticə və təkliflər

Tədqiqatı yekunlaşdıraraq, qeyd etmək istərdik ki, ümumilikdə ölkənin sağlamlıq-müalicə turizm sektorunda innovasiyaların tətbiqi - mərhələli şəkildə innovasiya metodikalarının yeridilməsi, onların keyfiyyətinin yaxşılaşdırılması deməkdir. Eyni zamanda, sanator - kurort müəssisələrinin özlərinin də keyfiyyətinin yaxşılaşdırılması vacibdir. Bütün bu tədbirlər Azərbaycanın beynəlxalq imicinin artmasını təmin edəcəkdir.

Yuxarıda deyilənləri ümumiləşdirərək, qeyd edək ki, sanator - kurort və turizm kompleksləri xidmətlərinin innovasiyalı inkişafının, eləcə də Azərbaycanda sağlamlıq-müalicə turizmi müəssisələrinin ümumi strategiyasının əsas prioritetləri aşağıdakılar olmalıdır:

- istifadə olunan təbii müalicə resurslarının, landşaft-iqlim şəraitinin xüsusiyyətləri nəzərə alınaraq, sanator - kurort təşkilatlarının maddi-texniki bazasının modernləşdirilməsi və yaxşılaşdırılması;

• Azərbaycanın sanator - kurort təşkilatları və müəssisələrinin bazasında yeni sağlamlıq-müalicə texnologiyalarının tətbiq edilməsi;

• innovativ proseduraların və metodikaların tətbiqi hesabına daxili və gələn turizmin səviyyəsinin, eləcə də göstərilən xidmətlərin keyfiyyətinin qaldırılması.

Kurortlar aşağıdakı tələblərə uyğun olmalıdır

1) Kurortda fəaliyyəti təmin etmək üçün müalicəvi amillərin olması

2) Kurort amillərin səmərəli istifadəsi üçün lazımi texniki avadanlıq və binaların olması (hovuz, palçıq vannaları, çimərliklər və s.);

3) Müalicə və yaşayış üçün uyğun otaqlar;

4) Xəstələr və istirahət edənləri təmin edən müalicə və profilaktik müəssisələrin mövcudluğu;

5) Səhiyyə müəssisələrinin, idman qurğuları və meydançaları mövcudluğu;

6) İctimai istifadə üçün iaşə müəssisələri, ticari və xidməti qurumlar, mədəniyyət və təhsil müəssisələrinin mövcudluğu;

7) Əlverişli nəqliyyat yolları və kommunikasiya vasitələri;

8) Yaşıllaşdırma sahəsi, mühəndis-texniki qurğular, elektrik və su təchizatı və kanalizasiya ilə təmin olunma.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikası Prezidentinin, 2016-cı il 6 dekabr tarixli, Fərmanı ilə təsdiq edilmiş, Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi, səh. 98.
2. Soltanova Həbibə, Azərbaycan Respublikasında turizm və onun inkişafı, AzTU-nun mətbəəsi, səh. 238.
3. Tourism, Charles R. Goeldner, J.R. Brent Ritchie, 2002;
4. Porter ME (1980) Competitive strategy: Techniques for analyzing industries and competitors. The Free Press: New York.
5. Hu YZ, Ritchie JRB (1993) Measuring destination attractiveness: A contextual approach. Journal of Travel Research 32:25–34.
6. http://medeniyyet.az/page/news/50968/Naftalan-seherinin-turizm-inkisaf-plani-teqdim-olunub.html
7. Ruslan Gəray oğlu Quliyevin, "Azərbaycanda sağlamlıq-müalicə turizm xidmətləri bazarının müasir vəziyyətinin təhlili", "Gənc tədqiqatçı" Elmi-praktiki jurnal, IV cild, Bakı, səh. 206-213, 2018.
8. Gülnar Xanlar qızı Səmədova, "AZƏRBAYCANDA TURİZM SEKTORUNUN İNKİŞAFININ STİMULLAŞDIRILMASI İSTİQAMƏTLƏRİ", Azərbaycan Turizm və Menecment Universiteti, "Müasir dövrdə effektiv idarəetmənin problemləri" mövzusunda 5-ci respublika elmi-praktik konfransını keçirir, 22 noyabr 2019-cu il.
9. Gülnar Xanlar qızı Səmədova, Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu, "Qloballaşma və beynəlxalq iqtisadi münasibətlər" şöbəsinin 2015-ci ildə yerinə yetirdiyi elmi-tədqiqat işi haqqında hesabat, "Xarici iqtisadi əlaqələrdə turizm sahəsinin təhlili və qiymətləndirilməsi", səh. 161-191.
10. www.anl.az/down/meqale/bizim_yol/2017/aprel/539281.htm

DÖVLƏT MÜƏSSİSƏLƏRİNDƏ KADR SİYASƏTİNİN FORMALAŞDIRILMASI AMİLLƏRİ

Məmmədov Ə.İ., i.e. n. (ADİU)
alirza.mammadov@unec.edu.az
Bayramov Q.S., **i.e.n.,** (ADİU)
qehreman.bayramli@bk.ru
Əliyeva N.Ə.), müəllim(ADİU).
qarabagli.111@mail.ru

Xülasə

Məqalədə müasir şəraitdə heyətin idarə edilməsinə konseptual yanaşma nəzərdən keçirilmiş, müəssisənin kadr siyasəti, onun məqsəd və növləri dəqiqləşdirilmişdir. Məqalədə SOCAR-da kadr siyasətinın aparılması xüsusiyyətləri öyrənilmiş və işçilərin qiymətləndirməsi təşkilatın kadr siyasətinin zəruri elementi kimi müəyyənləşdirilmişdir.

Açar sözlər: kadr siyasəti, müəssisə, insan resurslarının idarə edilməsi, SOCAR.

Müasir şəraitdə heyətin idarəetməsi üzrə səmərəli fəaliyyətin əsasında təşkilatın kadr siyasəti durur. Əvvəlcə "siyasət" termini dövlət səviyyəsindəki fəaliyyətlə (idarəetmə) - "dövlət siyasəti" ilə bağlı olmuşdur. 20-ci əsrin əvvəllərində bu konsepsiya ictimai fəaliyyətə keçdi. Bu tendensiya, sosial-iqtisadi yanaşmalar nəzərə alınmaqla idarəetmə fəaliyyətinin səmərəliliyinin artırılması, təşkilati məqsədlərin müəyyənləşdirilməsi, habelə qarşıya qoyulan hədəflərə çatmaq üçün metodların işlənib hazırlanması zərurətinin başa düşülməsi ilə şərtlənmişdir.

J.-M.Le Gall, fransız sosioloqu və idarəetmə sahəsi üzrə mütəxəssis kadr siyasətini "muzdlu işçilərin mövcudluğu və onlara olan ehtiyacları arasında say və ixtisas baxımından səmərəli və davamlı balansı təmin etməyə yönəlmiş funksiya" olaraq təyin edir. İdarəetmənin vəzifəsi kadr səlahiyyətlərini təşkilatın strategiyasının maraqlarına uyğunlaşdırmaqdır." Buna görə kadr siyasəti müasir idarəetmə texnologiyalarına əsaslanır, müasir menecmentin tələblərinə cavab verir, təşkilatın kadr potensialından səmərəli istifadə edilməsinə yönəldilmişdir.

A.Y.Kibanov kadr siyasətini heyətin işinin ümumi istiqaməti, prinsiplərin, metodların, formaların məcmusu, kadr potensialının qorunub saxlanılması, gücləndirilməsi və inkişaf etdirilməsi, təşkilatın inkişaf strategiyası nəzərə alınmaqla daim dəyişən bazar tələblərinə vaxtında cavab verə bilən ixtisaslı və yüksək məhsuldar, vahid komanda yaratmaq məqsədi və vəzifələrinin inkişaf etdirilməsi üzrə təşkilati mexanizm kimi müəyyənləşdirir[1].

M.Y.Veprikova vurğulayır: "Müasir bazar şəraitində müəssisənin kadr siyasətinin əhəmiyyəti xeyli artmışdır, çünki əmək resursları müəssisənin səmərəli fəaliyyətinə kömək edən əsas elementdir. Belə ki, müəssisələrin əhəmiyyətli hissəsi təcrübəsiz və səriştəsiz menecerlərin məhz daxili və xarici mühit amillərinin təsirini və dəyişməsini nəzərə ala bilməmələri səbəbindən iflasa uğrayır"[2, s.1234].

O hesab edir ki, "kadr siyasəti müəssisənin fəaliyyətinə və inkişafına təsir edən bütün şərtlərin, yəni maliyyə, texniki, kommersiya və innovativ fəaliyyətlərin qarşılıqlı əlaqəsini özündə birləşdirməlidir" [3, s.1008].

Tədqiqatçı alim A.P.Egorşin qeyd edir ki, insanları idarə etmək hər bir istehsal prosesinin ən mürəkkəb və zəruri alt sistemlərindən biridir. Kadrlar istehsalın əsas amilidir, cəmiyyətin ilk məhsuldar qüvvəsidir. Həqiqətən istehsalın səmərəliliyi işçilərin ixtisaslaşmasından, onların işgüzar keyfiyyətlərindən və peşə hazırlığından asılıdır [4, s.560].

E.Parximçik kadr siyasətini müəssisə daxilində nəzəri biliklərin, baxışların, prinsiplərin, ideyaların, münasibətlərin və təşkilati xarakter daşıyan əməli tədbirlərin qarşılıqlı əlaqəsi kimi təqdim edir [5, s. 56].

Tədqiqatçı V.I.Maslovun fikrincə, kadr siyasəti qaydalar və normalar, təqdimatlar və məqsədlər sistemidir. Məhz onlar kadrlar ilə işin istiqamətini və məzmununu formalaşdırırlar [6, s.130].

Kadrlar üzrə mütəxəssis O.E.Alexina kadr siyasətini müəssisədə işçilərin idarə edilməsinin

əsası kimi izah edir. Öz növbəsində şirkət işçilərin seçilməsini, operativ uyğunlaşma üçün şəraitin təmin edilməsi bir sıra prinsip və qaydalara əsaslanaraq əmək məhsuldarlığının obyektiv qiymətləndirilməsini həyata keçirir [7].

Bu elementlər qarşılıqlı əlaqədə kadr siyasətini təşkil edir. Bu baxımdan Y.G.Odegov iddia edir ki, müəssisənin kadr siyasəti yalnız ali təhsilli insanları işə qəbul etmək qərarını müəyyənləşdirir. Bu, konkret kadr məsələsinin həllində müəyyən dəlil kimi istifadə edilə bilər.

Kadr siyasətinin aşağıdakı məqsədləri vurğulanır:

1) insan resurslarının inkişafı və qorunması;

2) effektiv komandanın formalaşdırılması;

3) əmək şəraitinin formalaşması;

4) kadrlar şöbəsinin əsas iş sahələrində müəssisənin mövqeyinin təsdiqlənməsi [8, s.230].

Azərbaycanlı professor R.Ə.İsgəndərovun fikrincə, kadr siyasətində başlıca məqsəd işə qəbuletmənin prisiplərini müəyyən etmək, işçilərin vəzifə borclarına uyğun olaraq daha mütərəqqi idarəetmə üsullarını keyfiyyətlə tətbiq etmək, şəxslərin peşəkarlıq inkişafını möhkəmləndirməkdir. Alim hesab edir ki, kadr seçimi idarəetmənin alt funksiyası olub, müəssisə fəaliyyətində şəxsə münasibətdə reallaşdırılır[9, s. 89]

M.Əliyev və H.Həmidov 2013-cü ildə birgə ərsəyə gətirdikləri dərslikdə kadr siyasətini müəssisədə məhsuldar, vahid və yüksək məhsuldarlığa malik işçi kollektivinin formalaşmasına yönəlik iş sistemi kimi təqdim edirlər [10, s.102]. Alimlərin fikrincə, müəssisədə kadr siyasətini formalaşdırmaq üçün zəruri olan əsas şərtlərin aşağıdakılardan ibarət olduğunu vurğulayırlar:

• kadr siyasəti dövlətin sosial-iqtisadi siyasəti, hüquqi və ictimai normalar ilə uyğunlaşdırılmalıdır;

• kadr siyasətində strateji və cari məqsədlər nəzərə alınaraq, onların reallaşdırılma vasitələri düzgün əlaqələndirilməlidir;

• kadr siyasətində demokratiklik, aşkarlıq və dinamiklik təmin edilməlidir;

• kadr siyasətində işçilərin karyerası və məsuliyyəti yönümündə stimulun formalaşması üzrə tarazlıq gözlənilməlidir[10 , s.102-103].

Kadrların qiymətləndirilməsində aşağıdakı məqsədlər var:

- motivasiya (qiymətləndirmə işçinin həvəsləndirilməsi üsuludur, çünki düzgün qiymətləndirilmiş işçilərin özü gələcəkdə əmək məhsuldarlığının artımını təmin edəcəklər);

- inzibati (vəzifəyə keçməsi, başqa bir şöbəyə köçürülməsi, qabaqcıl təlimə və ya yenidən hazırlanmaya yönləndirmə və s.);

- məlumatlı (heyətin şirkətin fəaliyyəti haqqında məlumat almaq imkanı var, bu daha da yaxşılaşdırılması və ya qərar qəbul etməsi üçün vacib ola bilər).

Təşkilatın kadr qiymətləndirməsi hansı vəzifələri həll edir?

- İşçilərin auditi, bu, təşkilatın işçilərinin idarə edilməsi və sosial-əmək münasibətlərinin tənzimlənməsi üzrə fəaliyyət effektivliyinin məsləhətçi dəstəyi, analitik qiymətləndirmə və müstəqil ekspertizası sistemidir. [10, s. 3]

Dövri aparılmalı olan bu təhlil, təşkilat işçilərinin kəmiyyət və keyfiyyət tərkibində nizamın bərpasına yönəldilmişdir. Bununla yanaşı, təşkilatın kadr potensialının məqsədlərinə və inkişaf strategiyalarına uyğunluğunu, işçilərin idarəetmə sisteminin effektivliyini qiymətləndirməyə, əmək haqqının verilməsini nəzərdən keçirməyə, kadr dəyişikliyini keçirməyə və qabaqcıl təlim kurslarına, yenidən hazırlığa və s. keçməli olan kadrları müəyyən etməyə imkan verir.

- Heyətin motivasiyası. İşçilərin cəlb edilməsi, onun motivasiyası şirkətin fəaliyyətinin son nəticələrinə birbaşa təsir göstərir. Ancaq çox vaxt işçilər özlərinə diqqət yetirmirlər, məlumatlandırılmır, əks əlaqə almırlar və bəziləri bu qurumda karyera perspektivlərini görə bilmirlər. Buna görə təşkilat rəhbərliyi öz bütün istəklərini nəzərə alaraq işçilərin motivasiya sistemini səriştəli şəkildə təşkil etməlidir.

- Kadrlar ehtiyatının yaradılması və inkişafı. Bildiyimizə görə, hazırda Azərbaycan əmək bazarında kadr çatışmazlığı var. Buna görə təşkilat rəhbərliyi öz kadrlarında potensialı müəyyən etməli və onları yan tərəfdən axtarmamalıdır - xarici mühitdə mütəxəssis axtarmaqdan daha çox öz işçinizi böyütmək daha səmərəli və daha az məsrəfli olacaq.

- İşçilərin təlim ehtiyaclarının müəyyənləşdirilməsi. İnformasiya və istehsal texnologiyaları əsrində şirkətlər getdikcə ixtisaslı, asanlıqla hazırlanan və əsasən gənc mütəxəssislərə ehtiyac duyurlar. Bacarıqlı kadrlar varsa, menecerlər müxtəlif təlim kursları vasitəsilə onların ixtisaslarını artırmaqda maraqlıdırlar. Bu vəziyyətdə qarşıda duran vəzifə işçilərin dəyişikliklərə, yeni biliklərin, texnologiyaların mənimsənilməsinə, verilən şərtlərdə yeni problemləri həll etməyə nə qədər hazır olduqlarını qiymətləndirməkdir.

- Şirkət heyətinin ixtisarı. Təşkilat zaman-zaman "əlavə" işçilərdən azad edilməlidir. Çox vaxt bu, böhran, rəhbərliyin dəyişdirilməsi və ya müəssisədə dəyişiklik səbəbindən olur. Buna əsaslanaraq işçilərin işdən çıxarılmasının əsas meyarı seçimdə səhv etməməkdir. Heç də həmişə şirkətlər yalnız "pis" və səmərəsiz işçiləri işdən azad etmirlər.

Kadr siyasətinin əsas növlərini də öyrənmək lazımdır, bunlar müəssisədəki vəziyyətdən asılı olaraq iş planını kadrlarla tənzimləməyə imkan verəcəkdir. N.I. Makovskaya, kadr siyasətinin aşağıdakı növlərini müəyyənləşdirir: passiv, reaktiv, profilaktik və aktiv. Təşkilatın rəhbərliyində işçilərlə işləmək üçün müfəssəl fəaliyyət proqramı olmadıqda, kadrlarla iş, kadr vəziyyətini müayinə etmək və bütövlükdə işçi heyətini qiymətləndirməklə mənfi nəticələrin aradan qaldırılması üçün passiv kadr siyasəti həyata keçirilir.

Reaktiv kadr siyasəti təşkilat rəhbərliyi işçilərlə işləməkdə mənfi halın simptomları, münaqişə vəziyyətlərinin elementləri üzərində nəzarətin həyata keçirildiyi, yüksək səmərəli iş üçün motivasiyanın olmadığı və böhranın inkişafı vəziyyətinə sahib olduğu hallarda həyata keçirilir [11, s. 83].

Profilaktik kadr siyasəti rəhbərliyin vəziyyətin inkişafı ilə bağlı proqnozları olduqda həyata keçirilir. Bu proqnozlar mütləq əsaslandırılmalı və statistik məlumatlarla təsdiqlənməlidir.

Fəal kadr siyasətinin həyata keçirilməsində rəhbərliyin nəinki proqnozu, həm də vəziyyətə təsir edən vasitəsi var. Qeyd etmək lazımdır ki, bu vəziyyətdə heyətin xidmətinə dair məqsədli antiböhran proqramlar hazırlamaq, habelə vəziyyətə operativ nəzarət etmək və xarici və daxili mühit amillərinin təsirini nəzərə alaraq proqramların icrasında dəyişikliklər etmək tövsiyə olunur.

Beləliklə, təşkilatın kadr siyasəti, təşkilatın "həyat dövrü" mərhələlərini nəzərə alaraq hazırlanmış strategiyaya uyğun idarəetmə prosedurlarını müəyyən edir. Kadr siyasətinə dövlət siyasətində dəyişiklik, təşkilatın fəaliyyətində yeni istehsal texnologiyalarının tətbiqi və s. təsir göstərir.

Təşkilatın kadr siyasəti təşkilatın ümumi inkişaf strategiyasına əsaslanan, kadrların idarə edilməsi sahəsində qarşılıqlı əlaqəli məqsədlər sistemi olmalıdır. Həm də təşkilatın funksional alt sistemlərinə uyğun olaraq nəticələrin əldə edilməsini qiymətləndirmək üçün prinsiplər, metodlar daxildir. Kadr siyasəti, təşkilatın mövcud fəaliyyətlərini xarici və daxili mühitdəki dəyişikliklərə uyğun olaraq ümumi inkişaf strategiyası ilə uyğunlaşdırır.

Kadrlar siyasətinə aşağıdakılar daxildir:

- səlahiyyətli işçilərin cəlb edilməsi;
- heyətin sədaqətinin inkişafı və artırılması üçün şəraitin yaradılması;
- heyətin idarəetmə sisteminin təkmilləşdirilməsi.

Kadr siyasətinin məqsədi hüquqi, marketinq və digər amillərə uyğun olaraq mövcud təşkilat strategiyası əsasında kadr potensialının formalaşdırılması və istifadəsidir. Kadr siyasətinin vəzifəsi, təşkilatın strateji hədəflərinə çatmaq üçün işçinin və işəgötürənin maraqları balansını yaratmaqdır.

2013-cü ilin 22 aprelində SOCAR tərəfindən təsdiqlənmiş 57 saylı əmrə əsasən şirkətin kadr siyasəti kadrların ehtiyat bazasını formalaşdırmaq, kadr potensialını müəyyənləşdirmək, əmək məhsuldarlığının yüksəldiməsi məqsədilə tələb edilən ixtisas və peşələr üzrə peşəkar kadrları mütərəqqi üsullarla işə cəlb etmək, kadrların inkişafı üçün lazımi şərait yaratmaq və insan resurslarını daha səmərəli idarə etmək məqsədilə reallaşdırılması nəzərdə tutulan kompleks tədbirlər toplusundan ibarətdir.

Kadr siyasətinin "*İnsan resurslarının seçilməsi*" istiqaməti üzrə 2011-ci ildən etibarən SOCAR-da 11 minə yaxın vakansiya elan olunmuş, həmin vakansiyalar üzrə 500 mindən artıq vətəndaş iştirak etmişdir. İlkin seçimdən sonra müraciətçilərin təqribən 44%-i vakansiyalar üzrə göstərilən təhsil, iş stajı və s. bu kimi tələblərə uyğun gəldikləri üçün növbəti müsabiqə prosesində iştirak etmişlər. 2011-2019-cu illər ərzində 6,6 mindən çox vakansiya üzrə 178,3 min nəfərə yaxın iddiaçı arasında test imtahanı aparılmışdır. Ötən 9 il ərzində SOCAR-da keçirilmiş yekun müsahibə

və peşə sınaq imtahanlarının nəticəsində müsabiqə yolu ilə 9 minə yaxın insan işlə təmin olunmuşdur. Təkcə 2019-cu il ərzində keçirilən müsabiqə prosesləri nəticəsində işə qəbul olunan vətəndaşların sayı 1500 nəfərə yaxın olmuşdur[12].

Bir qayda olaraq SOCAR üzrə təşkil olunan bütün test imtahanları mərkəzləşdirilmiş qaydada kompyuterlərdən istifadə etməklə aparılır. 2011-2019-cu illər ərzində şirkətdə müxtəlif istiqamətlər üzrə aparılmış test imtahanlarının əhatə olunduğu iddiaçıların sayı baxımından "İşə qəbul" üzrə istiqamət öndədir.

Kadr siyasətinin "*Davamlı inkişaf" istiqamətinə gəlincə, demək lazımdır ki,* SOCAR-ın qarşısında duran əsas hədəflərdən biri təlim-tədrisin beynəlxalq standartların tələbləri səviyyəsində qurmaqdır. 2012-ci ildən indiyə qədər SOCAR-ın müvafiq mərkəzlərində 85 mindən çox dinləyici şirkətdə aparılmış daxili təlimlərin iştirakçısı olmuşdur. Bütövlükdə, 2019-cu il ərzində 7,4 minə yaxın iştirakçı təlim almışdır. Elə istiqamətlər də olub ki, SOCAR daxilində müvafiq peşəkar mütəxəssislər olmadığından işçilər üçün zəruri olan bilik və bacarıqlar şirkət xaricindəki təlimlərdə alınır. SOCAR-dan kənarda təşkil edilən təlim provayderləri tərəfindən müxtəlif növ təlimlərə cəlb olunmuş dinləyicilərin sayı 2012-2019-cu illər ərzində 5 minə yaxın olmuşdur[12].

Son illər ərzində SOCAR-dan kənardakı təlimlərdə iştirak edən işçilərin sayı xeyli artmışdır. Belə ki, 2012-2018-ci illərdə orta statistik göstərici 420 nəfər, maksimal həddisə 824 nəfər (2018-ci il) olmuşsa, təkcə 2019-cu ildə 2335 nəfər, yəni 2018-ci ilin göstəricisinə nisbətən 2,8 dəfədən çox işçi kənar təlimlərə cəlb olunmuşdur[12].

Kadr siyasətinin ən vacib fəaliyyət istiqamətlərindən biri də *karyera yüksəlişinin planlaşdırılması* və işçilərin inkişafının təmin olunmasıdır. Bu istiqamətdə mühüm olan fəaliyyət sahələrindən biri də işçilərin əməyin ödənilməsi dərəcələrinin (ƏÖD-nin) artırılmasıdır. 2011-2019-cu illər ərzində SOCAR-ın müəssisələrində bütövlükdə keçirilmiş Tarif-İxtisas Komissiyalarının 610-dan çox iclaslarında İRD-nin nümayəndəsinin iştirakı ilə 11,2 min nəfərdən artıq işçinin ƏÖD-nin artırılması məsələsinə baxılmış, onlardan 8,9 min nəfərinin (80%) iddiası qarşılanmışdır. Bununla yanaşı, SOCAR-ın birbaşa tabeliyində olan struktur bölmələrində reallaşdırılan 108 mindən artıq yenidən işə qəbul, başqa işə keçirmə və müvəqqəti əvəzetmə əməliyyatları icra edilmişdir. Kadr axıcılığına təsir edən amilləri aşkarlamaq məqsədilə SOCAR-ın struktur bölmələrində çalışmış və öz təşəbbüsü ilə işdən uzaqlaşmış işçilər arasında 2016-cı ildən başlayaraq sorğu aparılmışdır. 1000 nəfərə yaxın sabiq işçi arasında telefon vasitəsilə aparılmış sorğu iştirakçılarının cavablarına istinadən müvafiq statistik məlumatlar işlənmiş və əldə olunmuş cavablar müqayisə edilərək təhlil olunmuşdur[12].

Motivasiyanın idarə edilməsi kadr siyasətinin ən vacib fəaliyyət istiqamətlərindəndir. Mövcud işçilərin tanınması, əməyinin qiymətləndirilməsi onların motivasiya növlərindən biri kimi çıxış edir. Bununla əlaqədar olaraq 2011-2019-cu illər ərzində 1485 işçi "Əmək veteranı" adına layiq görülmüşdür. 20 sentyabr neftçilərin peşə bayramı, "Əsrin müqaviləsi"nin 20, 25 illiyi, "Neft Daşları"nın 65, 70 illikləri ilə bağlı ölkənin neft sənayesinin inkişafındakı xidmətlərinə görə 18 nəfər "Şöhrət" ordeni, 528 nəfər "Tərəqqi" medalı ilə təltif olunmuş, 60 nəfər "Əməkdar mühəndis", 2 nəfər "Əməkdar müəllim", 3 nəfər "Əməkdar hüquqşunas" fəxri adına, 6 nəfərə "Dostluq" ordeni və 34 nəfər qocaman neftçiyə ölkə Prezidentinin fərdi təqaüdü təqdim edilmişdir. Təhlil edilən dövrdə SOCAR üzrə 1346 nəfər işçi Şirkətin Fəxri fərmanına və 264 nəfər isə Fəxri Döş nişanına layiq görülüb[12].

Nəticə

Elmi tədqiqatların nəticələrini yekunlaşdıraraq qeyd edək ki, kadr siyasətinin elementlərinin öyrənilməsinə sistemli yanaşma kadr dəyişikliyinin və qarşıdurmaların azaldılmasına, mənəvi-psixoloji iqlimin yaxşılaşdırılmasına kömək edəcək tədbirlər toplusunu müəyyənləşdirməyə kömək edir. Onu da qeyd etmək lazımdır ki, tədqiq olunan nəzəri-metodoloji aspektlər əsasında aşağıdakılar aşkar edildi: kadr siyasətinin təkmilləşdirilməsi müəssisələrin rəqabət qabiliyyətinə təsir edən aşağıdakı amilləri əhatə edir ki, bu da fəaliyyət səmərəliliyini əhəmiyyətli dərəcədə artırır:

1) istehsalda fasiləsiz işin təmin edilməsi üçün işçilər ştatının formalaşdırılması;

2) müəssisə kollektivinin müəyyən əmək potensialının yaradılması xərclərinin minimuma endirilməsi;

3) işçilərin maraqlarının nəzərə alınması, korporativ güzəştlərin əldə edilməsi və peşəkarlığın artması - komandanın bu sabitləşməsi səbəbindən;

4) motivasiya sisteminin yaradılması;

5) müəssisənin uzunmüddətli planlarının həyata keçirilməsində işçilərin bilik və təcrübələrindən tam istifadə.

Beləliklə, kadr siyasəti təşkilat tərəfindən iqtisadi fəaliyyətin xüsusiyyətlərinə, idarəetmənin təşkilati quruluşuna, ünsiyyət sisteminə, təşkilati mədəniyyətə, motivasiya və stimullaşdırma sisteminə, dəyişən şərtlərə uyğunlaşma və s. uyğun olaraq formalaşır.

Bundan əlavə, təşkilatın kadr siyasəti işçilərin heyətin idarəetmə texnologiyalarının tətbiqi sahəsindəki səlahiyyətlərinin qiymətləndirilməsinə əsaslanır:

- kadr seçimində vəzifəyə görə iddiaçının qiymətləndirməsi daha qənaətcil işçi əldə etməyə imkan verir;
- kadrların qiymətləndirilməsi effektiv kadr inkişafı sisteminin hazırlanmasında, təlim proqramlarının tərtib olunması və kadrların ixtisasının artırılmasında əvvəldir;
- qiymətləndirmə əsasında təşkilatın işçiləri üçün motivasiya və stimullaşdırma sistemləri formalaşır və s.

Yuxarıda göstərilənlərə əsasən belə bir nəticəyə gələ bilərik ki, müəyyən məqsədlərə çatmaq üçün təşkilatlar mövcuddur, onların əsas xarakterinin həyata keçirilməsində isə təşkilatın işçiləri əsasdır. Bu hədəflərin həyata keçirilmə dərəcəsi şirkətin səmərəliliyini, yəni mövcud resurslardan səriştəli istifadəsini göstərir. Beləliklə, şirkətdə kadr qiymətləndirməsi müəssisənin səmərəliliyinə birbaşa təsir edən əsas prosedur olmalıdır, çünki bu, təkcə işçinin vəzifəyə uyğunluğunu aşkar etmir, həm də onun potensialını və karyera artımının perspektivlərini qiymətləndirməyə imkan verir.

Ədəbiyyat siyahısı

1. Кибанов А.Я. Основы управления персоналом: учебник для высших учебных заведений / Москва: ИНФРА-М, 2014. - 447 с.
2. Веприкова М. Я. Исследование внутренней среды организации в период нестабильной экономической ситуации // Научно-методический электронный журнал «Концепт». - 2016. - Т. 15. - С. 1231-1235. - URL: http : //e-koncept.ru/2016/96163. htm.
3. Веприкова М.Я. Кадровая политика, как инструмент повышения эффективности муниципальной службы // Экономика и предпринимательство.- № 9 (ч.1), 2017 г., С. 1008-1013.
4. Егоршин А. П. Управление персоналом: учеб. пособие / А. П. Егоршин. - Н. Новгород: Нижегор. ин-т менеджмента и бизнеса.- 2016. - 624 с.
5. Пархимчик Е.П. Кадровая политика организации: учеб. пособие / Е.П. Пархимчик. - Минск:, ГИУСТ БГУ,2016.-128 с.
6. Маслов В.И. Стратегическое управление персоналом в условиях эффективной организационной культуры: Учебное пособие - М.:Издательство «Финпресс».-2015 .- 288с.
7. Алехина О.Е. Индикаторы эффективности кадровой политики [Электронный ресурс] // Справочник кадровика-01 мая 2015.- Режим доступа: http: //www.pro-personal (дата обращения 25.12.2019)
8. Одегов, Ю. Г. Управление персоналом в структурно-логических схемах: Учебник — М.: Академический Проект, 2016. - С.352.
9. İsgəndərov R. Ə. «Heyətin idarə edilməsi». Bakı: - 2003,- 404 s.
10. Əliyev M., Həmidov H. Biznesdə insan resurslarının idarə edilməsi (dərslik). Bakı: “İqtisad Universiteti” Nəşriyyatı, 2013. - 532 s.
11. Митрофанова, Е. А. Управление персоналом: теория и практика. Аудит, контроллинг и оценка расходов на персонал: учебно-практическое пособие - М.: Проспект, 2013. — 77 с.
12. Маковская, Н. Анализ человеческих ресурсов в системе управления персоналом // Управление персоналом. - 2011. - № 3. - С. 82-86.

Mammadov A.I. (ASUE), Bayramov G.S. (ASUE), Aliyeva N.A. (ASUE)

Factors for personnel policy Formation in state enterprises

Summary

The article considers the conceptual approach to personnel management in modern conditions, clarifies the personnel policy of the enterprise, its goals and types. The article examines the specifics of personnel policy in SOCAR and identifies employee evaluation as a necessary element of the organization's personnel policy.

Keywords: personnel policy, enterprise, human resource management, SOCAR.

Мамедов А.И. (АГЭУ), Байрамов Г.С. (АГЭУ), Алиева Н.А. (АГЭУ)

Факторы формирования кадровой политики на государственных предприятиях

Резюме

В статье рассматривается концептуальный подход к управлению персоналом в современных условиях, уточняется кадровая политика предприятия, ее цели и виды. В статье исследуется специфика кадровой политики в SOCAR и определяется оценка сотрудников как необходимый элемент кадровой политики организации.

Ключевые слова: кадровая политика, предприятие, управление персоналом, SOCAR.

QADIN SAHİBKARLIQ MƏŞĞULLUQUN XÜSUSİ NÖVÜ KİMİ

Bağırova Aytəkin Məhərrəm gızı doktorant
Azərbaycan Texnologiya Universiteti
aytekinb@mail.ru

XX əsrin sonlarında sənaye cəhətdən inkişaf etmiş ölkələrdə qadın məşğulluğu ciddi dəyişikliklərə uğradı. Bu dəyişikliyi bəzən sakit inqilab, bəzən də özünə məxsus xüsusiyyətləri olan təkamül prosesi kimi xarakterizə edirlər . Sözügedən təkamül prosesinin başlıca xüsusiyyətləri kimi aşağədakılar qeyd olunur:

- Qadınların əksəriyyətnin ictimai təşkil olunmuş əməyə cəlb olunması;
- İxtisalı əməyin prioritetliyinin artması;
- Qadın əməyinin yeni məşğulluq strukturunun formalaşması;
- ABŞ məşğulluq modelini çalışan, işləyən ana modeli əvəz etməyə başlamışdır [1].

Qadın sahibkarlığından bəhs etmədən öncə sahibkalıq anlayışının məzmun və mahiyyətinə xüsusi diqqət yetirilməsi yerinə düşərdi.

Sahibkarlıq fəaliyyəti –iqtisadi fəaliyyətin xüsusi növüdür. Yəni burada söhbət mənfəət əldə edilməsinə yönəldilmiş xüsusi iqtisadi fəaliyyət növündən gedir. Sözügedən fəaliyyət növü müstəqil təşəbbüsə, məsuliyyətə, innovasiyalı ideyalara əsaslanır. Sahibkar fəallığı və fəaliyyətinin əsas subyekti sahibkardır. İdeynın qəbul edilməsi və reallaşdırılması bir sıra mərhələlər üzrə həyata keçirilir;

1) biznes planlşdırma;
2) borc vəsaitlərinin və tərəfdaşların biznesə cəlb edilməsi;
3) Şirkətin dövlət qeydiyyatına alınması (əgər şirkət yeni yaradılmışdırsa);
4) Şirkətin əmtəə istehsalı və xidmətlərə təşkilatı-texniki cəhətdən hazırlanması;
5) Fəaliyyət göstərən şirkətin əmtəə istehsalının və xidmətlər göstərlməsinin təşkili və idarə edilməsi [2].

Sahibkar - yəni, “anterprener” fransız dilində “vasitəçi” anlamını daşıyır. Burada paradların, musiqi tamaşaların təşkilatçılarından söhbət gedir. Yəni iri həcmli ti-kinti-quruculuq işləri yerinə yetirən şəxslərə orta əsrlərdə anterprener deyilirdi [3]

Qeyd etmək lazımdır ki, iqtisadiyyatda sahibkarlıq xüsusi fəaliyyət növü kimi əsrlər boyu uzun inkişaf yolu keçmişdir. Mənfəət əldə edilməsi məqsədi ilə hansısa müəssisənin yaradılması və

fəaliyyət göstərməsinə xidmət edir. Sahibkarlıq fəaliyyətinin üç əsas forması diqqəti cəlb edir: tək təsərrüfatçılıq, təsərrüfat cəmiyyətlələri, yxud şirkətlər, cəmiyyətlər. Bütün bunlara baxmayaq Veberin sözləri ilə desək ancaq gerçək sahibkarlara bu ad məxsusdur**. Sahibkar "yenilik" və "yaradıcılıq" anlayışlarını özündə birləşdirən şəxsdir. Eyni zamanda sahibkarlıq fəaliyyti maliyyə, fiziki və sosial riskləri olan kifayət qədər səy və vaxt sərf edərək yeni dəyər yaradılmasını əhatə edən fəaliyyət növü kimi də diqqəti cəlb edir. Bu** fəaliyyət növündə qadınların fəllığı artan dinamika ilə inkişaf edir. Heç də təsadüfi deyildir ki, Qadınların iqtisadiyyatda rolunun artırılması həm də BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin 17 hədəfindən biridir [4].

Xatırlatmaq yerinə düşərdi ki, prinsip etibarı ilə belə bir anlamda sahibkarlıq anlayişi hələ feodalizm dövrün də meydana çıxmışdır. İlk olaraq sahibkar dedikdə hansisa kustar müəssisənin yaradanlar başa düşülürdü. Burada söhbət kustar istehsaldan və manufakturalardan gedirdi. Müasir sahibkarlıq ticarət və bank kapitalının daha erkən formaları ilə bilavasitə bağlıdır. Bütün bunlarla yanaşı, Sahibkar və sahibkarlıq anlayişini ilk dəfə müasir anlamda XVII əsrin sonları və XVIII əsrin əvvəllərində iqtisadçı Riçard Kantilyon işlətmişdir. Onun fikirləri "Ticarətin təbiəti Esesində" işlədilmişdir. Kantilyon kitabının XVIII fəsilində 5-6 səhifədə sahibkarlıq və sahibkar məsələsinə yer vermişdir. O, iqtisadi sərvətlərin mənbəyini torpaq və əməyi hesab edərək sahibkarlara tacir, sənətkar və fermerləri aid edirdi. R. Kantilyon yazırdı ki, sahibkar nə isə itehsal etməli deyil, sahibkar iqtisadiyyatın inkişafında birinci dərəcəli rol oynayır. O, kapitalist və sahibkarları bir-birindən fərqləndirirdi. Karl Marks sahibkarla kapitalist anlayışlarını öz məzmun və mahiyyətlərinə görə eynləşdirirdi.

XVIII əsrin sonları XIX əsrdə sahibkar dedikdə əsasən fabrikantlar başa düşülürdü. Yəni bu zaman sahibkar dedikdə iri müəssisələrin yaradılmasına vəsait ayıran şəsxlər başa düşülürdü. Göründüyü kimi, olduqca uzun inkşaf yolu keçməsinə baxmayaraq iqtisadi nəzəriyyədə onun məzmunu ilə bağlı dəqiq tərif hələ də yoxdur. Sahibkarlıq fəaliyyəti hansısa fəaliyyət növüdür. Burada hər hansı insan tipindən söhbət getmir. Sahibkarlıq fəaliyyəti qanunlar çərçivəsində mənfəət əldə edilməsi üçün biznes fəaliyyətinin xüsusi bir növüdür. Sahibkar qismində ölkə vətəndaşları, xarici ölkələrin vətəndaşları və yaxud vətəndaşlığı olmayan xarici ölkələrin vətəndaşları çıxış edə bilər. Göründüyü kimi, üç sosial qrup ölkə sahibkkarlarının əsas bazasını təşkil edir. İdarəetmədə iştirak edənlər müasir sahibkar qrupunda əsas, nüfuzlu qrup hesab olunur. Sahibkarlılığın strukturanda aşağıdakı sosial qruplar diqqəti cəlb edir. Bunlar aşağıdakılardır: İri, orta və kiçik sahibkar təbəqələri. Bu təbəqənin üzvələri muzdlu əməkdən istifadə edərək idarəetməni həyata keçirirlər. Kiçik sahibkarlar, mülkiyyət sahibləri, şirkət rəhbərləri, muzdlu əməkdən minimal səviyyədə istifadə edirlər. Sahibkarlıq fəaliyyətindəki rəngarəngliyi və bir çox əlamətlərinə görə təsnifləşdirilə bilər: Fəaliyyət növünə əsasən; mülkiyyət formasına görə; mülkiyyətçilərin sayına əsasən; təşkilati-hüquqi formasına əsasən; muzdlu işçilərin sayına əsasən və s. Təyinatı məqsədlərinə görə sahibkarlıq fəaliyyətini aşağıdakı kimi qruplaşdırmaq olar: istehsal; kommersiya; maliyyə; konsultasiya; mühəndis. İnkişaf etmiş bazar iqtisadiyyatı ölkələrində sahibkarlar aşağıdakı funksiyaları yerinə yetirirlər: resurs, sosial, ümumiqtisadi, təşkilati-yaradıcı-innovativ.

Nəticə

Hesab edirik ki, qadın shibkarlığının özünün xüsusi strukturu vardır. Burada qadın sahibkar motivasiyaları kişi sahibkar motivasiyasından seçilir. Hər şeydən öncə burada gender fərqlərindən söhbət gedir. Bu isə belə deməyə əsas verir ki, qadın sahibkarlığı sahibkarlıq fəaliyyətinin xüsusi növü kimi qavranılsın:

- Birincisi, qadınlarda bir qədər fərqli dərəcələr ierarxiyası mövcuddur. Burada ön plana sosial özünü rellaşdırma istəyi çıxır. Müstəqil mövqe qazanılmsına cəhdlər özünü büruzə verir.
- İkincisi, qadınlar biznesin elə sferalarını seçirlər ki, bu sahə onların davranış komplekslərinə uyğun gəlir. Bu səbəbdən də qadınlar ticarət , xidmət, gözəllik kimi sahələrdə uğur qazanırlar.
- Üçüncüsü, bizim ölkəmizdə bir sıra proqramlar həyata keçirilərkən qadınlarln başlanğıc mövqeləri nisbətən əlverişsiz idi.

- Dördüncüsü, mühüm məsələ odur ki, qadınlar sahibkarlıq fəaliyyətini reallaşdırarkən bunun ənənəvi sosial funksiyalarla uzlaşdırılması tələb olunur. Qadınlar hər şeydən öncə özlərinin gender geriliyini aradan qaldırmaq istəyirlər.

Ədəbiyyət

1. Козлова Ольга Анатольевна Женская занятость: проблемы, тенденции и перспективы развития//Экономика региона. 2005. №2. URL: https://cyberleninka.ru/article/n/zhenskaya-zanyatost-problemy-tendentsii-i-perspektivy-razvitiya (дата обращения: 11.06.2021).
2. Справочно-информационный портал - https://studall.org/all4-47409.html (дата обращения: 11.06.2021).
3. Бокотаева Ж.К., Женская предпринимательство: особенности и перспективы развития//http://nbisu.moy.su/_ld/3/380_Bokontaeva_ISU.pdf (дата обращения: 11.06.2021).
4. Azərbaycan Televiziya və Radio verişləri" QSC-nin rəsmi saytı - http://www.aztv.az/az/news/5154/azerbaycanda-qadin-sahibkarligi-ne-qeder-inkisaf-edib (дата обращения: 11.06.2021).

İNSAN KAPİTALININ DAVAMLI İQTİSADİ İNKİŞAFA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Məmmədova Səidə Rəhim qızı, Baş müəllim
Sumqayıt Dövlət Universiteti
seidememmedova@mail.ru

Xülasə

Məqalədə ölkənin davamlı üçün sosial-iqtisadi şərtlər aşıqlanmışdır. İnsan kapitalının inkişafının davamlı iqtisadi artıma təsiri qiymətləndirilmişdir. İnsan kapitalının formalaşması amilləri və ona təhlükə yaradan risk amilləri tədqiq edilmişdir. İnsan kapitalının təbii və fiziki kapitala qarşılıqlı təsiri nəzərdən keçirilmişdir. Milli təhlükəsizliyin möhkəmləndirilməsi kontekstində ölkədə təhlükələri təsirsiz hala gətirmək və insan kapitalının toplanmasını sürətləndirmək üçün tövsiyə xarakterli təkliflər irəli sürülmüşdür. İnsan kapitalının davamlı inkişafını, habelə səmərəli istifadəsini təmin edən ən vacib amillər müəyyənləşdirilmişdir.

Müasir şəraitdə dünyanın bütün ölkələrinin üzləşdiyi ən aktual problemlərdən biri davamlı iqtisadi inkişafa nail olmaqdır. Davamlı inkişafa nail olmaqda məqsəd gələcək nəsillərin maraqlarını nəzərə alaraq iqtisadi canlanmanı təmin etmək və eyni zamanda resurs bazasını və ətraf mühiti qorumaqdır. Davamlı iqtisadi inkişaf milli iqtisadiyyatın sosial-iqtisadi göstəricilərinin sabitliyinin qorunub saxlanıldığı və daim yaxşılaşdığı bir vəziyyətdir.

Ölkənin davamlı iqtisadi inkişafının gücləndirilməsi üçün sosial-iqtisadi şərtlər aşağıdakılardır:

1. Sabit iqtisadiyyatın mövcudluğu.
2. Sosial-iqtisadi sahənin rəqabət qabiliyyəti.
3. İnsan kapitalının inkişafı.

Ölkəmizdə baş verən sosial-iqtisadi dəyişikliklər milli iqtisadiyyatın davamlı inkişafının təmin olunmasının şərtlərindən biri kimi insan kapitalının formalaşması problemlərinə diqqətini tələb edir. Müasir iqtisadiyyatda məhsuldar amil kimi insan kapitalı çıxış edir. İnsan kapitalı ölkənin iqtisadi artımının ən vacib amilinə, davamlı iqtisadi inkişafın təməlinə çevrilir. İnsan kapitalının yenilənməsi ölkənin davamlı inkişafı üçün əsasdır.

Müasir cəmiyyətin inkişafı insanın rolunun artması, yeni tipli istehsal-iqtisadi və sosial-mədəni münasibətlərin formalaşması ilə xarakterizə olunur. Milli iqtisadiyyatın normal fəaliyyəti üçün əqli, əxlaqi və fiziki baxımdan yüksək səviyyədə inkişaf etmiş insanlar tələb olunur. Milli

iqtisadiyyatın əsas strateji mənbəyi maddi və təbii resurslar deyil, istehsal prosesində iştirak edən insanların yaradıcılıq potensialıdır [1].

İnsan kapitalının formalaşması mürəkkəb bir prosesdir. İnsan kapitalının quruluşu bir çox amillərin təsiri altında formalaşır. İnsan kapitalının formalaşması aşağıdakı amillərə əsaslanır:

1. Ailənin sosiallaşması. Təhsilli ailədə insan kapitalının formalaşması onun üzvlərinə lazımi qabiliyyətləri inkişaf etdirməyə, müvafiq tədris və tərbiyə vasitələri ilə ona lazımi bilik və bacarıqları ötürməyə imkan verir. Ailə təhsilinin müəyyən bir səviyyəsi əldə edilən bilik və informasiya əsasında formalaşır. Fərdi insan kapitalının formalaşması və uşağın ailədəki inkişafı bu valideynlərdə mövcud olan risk amillərindən də asılıdır.

2. İnsanın özünütəşkiletmə səviyyəsi. İnsan kapitalının formalaşmasında və inkişafında həlledici rol şəxsiyyətin özünə aiddir. Onun işi özünü inkişaf etdirməkdir. Fərdin səyi olmadan həm özünün, həm də millətin məcmu insan kapitalının inkişafı mümkün deyil. Bununla birlikdə, istedad və inkişaf qabiliyyətləri əmək fəaliyyəti müddətində yarana bilməz. İnsan kapitalının dəyəri ona qoyulan investisiyanın səmərəliliyi ilə artır. İnsanın qabiliyyətlərinin inkişafı yalnız onun bioloji təbiəti ilə deyil, həm də həyatın sosial şərtləri ilə əlaqəlidir. Bir insanın həyata keçirdiyi fəaliyyət qabiliyyətlərinə uyğun gəlsə, mütləq inkişaf edəcəklər.

3. Rəqabət mühitində fəaliyyət göstərmək. Rəqabət mühiti məhsul çeşidlərinə və keyfiyyətinə olan tələbdəki dəyişikliklərə həssasdır. Buna görə də işçi qüvvəsinin, onun bilik və bacarıqlarının yenilənməsi zəruridir.

4. Cəmiyyətin iqtisadi inkişafı. Cəmiyyətdə müəyyən istehsal-texnoloji və sosial-iqtisadi mühit formalaşanda müəyyən inkişaf mərhələsinə çatır [2].

Məlumdur ki, sosial-iqtisadi sahənin davamlı inkişafı milli təhlükəsizliyin təmin edilməsi üçün ən vacib şərtdir. Təhlükə cəmiyyətin insan kapitalının qorunub saxlanmasına, inkişafına və həyata keçirilməsinə mane olan şərtlər, proseslər və amillər məcmusudur. Təhlükəsizlik fərdin, cəmiyyətin və dövlətin əhəmiyyətli dərəcədə zərər verə biləcək xarici və daxili təhdidlərdən qorunma vəziyyətidir. Cəmiyyət həyatının müxtəlif cəhətləri milli təhlükəsizliyə hərtərəfli xarakter verir və onun bir sıra növlərini (iqtisadi, sosial, ekoloji, demoqrafik, ərzaq, nəqliyyat, informasiya, siyasi və s.) ayırmağa imkan verir. İqtisadi təhlükəsizlik milli təhlükəsizliyin maddi əsasını təşkil edir, ölkənin davamlı, sabit inkişafının, iqtisadi və siyasi müstəqilliyinin qarantı kimi çıxış edir. İqtisadi təhlükəsizlik, cəmiyyətin mütərəqqi inkişafını, iqtisadi, ictimai-siyasi sabitliyini, əlverişsiz xarici və daxili amillərin təsiri altında yüksək müdafiə qabiliyyətini, səmərəli idarə olunmasını və iqtisadi maraqların qorunmasını təmin edə biləcəyi milli iqtisadiyyatın vəziyyətidir.

Hazırda dövlətin iqtisadi təhlükəsizliyi üçün təhlükələri aradan qaldırmağa qadir olan əsas mexanizmlərdən biri insan kapitalının inkişafı və gücləndirilməsidir. İqtisadi təhlükəsizlik böyük ölçüdə insan kapitalının inkişaf səviyyəsi, fərdin və cəmiyyətin ehtiyaclarının yerinə yetirilməsi və inkişaf etmiş informasiya infrastrukturunun mövcudluğu ilə xarakterizə olunur. İqtisadi təhlükəsizlik problemlərinin aktuallığı inkişafın böhran mərhələsi şəraitində nəzərəçarpacaq dərəcədə artır. Ölkənin milli iqtisadi təhlükəsizliyinin gücləndirilməsi zəruri sosial-iqtisadi şərtlərin - sabit iqtisadiyyatın, inkişaf etmiş sosial-iqtisadi sahənin, insan kapitalının genişləndirilmiş təkrar istehsalının təmin edilməsini tələb edir.

Milli insan kapitalı davamlı və uzunmüddətli iqtisadi artım və milli təhlükəsizliyin gücləndirilməsi mənbəyi kimi çıxış edə bilər.

Bütün dünyada təhlükəsizlik üçün əsas mənbə iqtisadiyyatın və insan imkanlarının davamlı inkişafıdır. Bu sahədə dövlətin rolu aşağıdakılarla müəyyən edilməlidir:

- milli və regional səviyyədə insan kapitalının təkrar istehsalı sahəsində dövlət siyasətinin hazırlanması;
- qeyri-dövlət müəssisə və təşkilatların insan kapitalının təkrar istehsalı sahəsinə cəlb edilməsi, onlar üçün əlverişli şəraitin yaradılması;
- müvafiq sahələrdə dövlət tənzimləməsinin həyata keçirilməsi;
- insan kapitalının təkrar istehsalının maliyyələşdirilməsi üçün effektiv mexanizmlərin yaradılması.

Milli iqtisadi təhlükəsizlik inkişaf qabiliyyətinə malik olan və mənfi təsirlərdən qorunan insan kapitalı ilə təmin olunur. İqtisadi təhlükəsizlik üçün təhlükə, müəyyən bir müddət ərzində milli insan kapitalının keyfiyyət və kəmiyyət xüsusiyyətlərinin azalması nəticəsində yaranan real və ya potensial zərər kimi müəyyən edilə bilər.

İnsan kapitalının davamlı inkişafına təsir göstərən və milli iqtisadi təhlükəsizliyə təhlükə yaradan bir sıra risk amilləri mövcuddur ki, bunlara da aşağıdakılar daxildir:

- gələcək nəsillərin insan kapitalının formalaşmasının vacib sahəsi kimi ev təsərrüfatlarının vəziyyətinin pisləşməsi;
- əlverişsiz sağlamlıq vəziyyət və ömür uzunluğunun azalması, sosial xəstəliklərinin artması (cinayətlərin artması, intihar və s.);
- təhsilə qoyulan investisiya həcmində azalma;
- alimlərin ixtiraçılıq fəaliyyətində azalma.

Bu amillərin hamısının mövcudluğunu ölkənin iqtisadi və milli təhlükəsizliyinə birbaşa təhdid kimi qəbul etmək olar.

İnsan kapitalının inkişafı daha çox təhsil, elm və sağlamlıq sahəsində təmin edilir. Çünki bu sahələrdə işçinin keyfiyyət və kəmiyyət parametrləri formalaşır, insan kapitalından səmərəli istifadə və yaxşılaşdırma baş verir. Bunlar olmadan iqtisadiyyatın inkişafı mümkün deyil. Bu sahələrin inkişafı dövlətin həmin məqsədlər üçün yönəltdiyi investisiyalardan asılıdır. İnsan kapitalının inkişafı probleminin həlli məhz ona yönəldilən investisiyaların artması ola bilər [4]. Bu sahədə investisiyanın iki prioritet istiqaməti müəyyənləşdirilməlidir:

- birincisi, insan kapitalının normal artımı üçün şərait yaratmaq və onu sosial cəhətdən zəruri səviyyədə saxlamaq (insan kapitalının fiziki və mənəvi cəhətdən pisləşməsinin qarşısını almaq, işsizliyi azaltmaq və s.);
- ikincisi, daha səmərəli istifadəsi üçün ehtiyatları müəyyənləşdirərək işləyən insan kapitalının strukturunu yaxşılaşdırmaq (gələcək dövrlər üçün insan kapitalının formalaşdırılmasına investisiyalar yönəltməklə onların təhsil və peşə xüsusiyyətlərini yaxşılaşdırmaq, xəstəliklərin qarşısını almaq və s.).

Sağlamlığın pisləşməsi insan kapitalının formalaşması və səmərəli istifadəsinin bir çox cəhətlərinə mənfi təsir göstərir: sağlam həyat müddətini və ümumi uzunömürlülük səviyyəsini, insan kapitalına yatırım imkanlarını, əmək qabiliyyətli əhalinin sayını azaldır, ev təsərrüfatlarının tibbi ehtiyacları üçün xərcləri, səhiyyə və ümumiyyətlə sosial sahədəki yükü artırır, insanların bir sıra əsas ehtiyaclarının ödənilməsinə mane olur. Ona görə də səhiyyə xidmətinin gücləndirilməsi və inkişafı üçün dövlət və yerli hakimiyyət orqanlarının birgə səyləri tələb olunur.

Ölkənin davamlı inkişafını təmin etmək üçün sosial-iqtisadi şərtlərə sağlamlıq ilə yanaşı, təhsil və elm sahəsi də daxildir. İnsan kapitalının təkrar istehsal sistemində təhsil və elm sahəsi xüsusi yer tutur. Təhsil cəmiyyətdəki haqsızlığı və bərabərsizliyi aradan qaldırmaq üçün bir vasitədir, keyfiyyətin vacib elementidir.

Qeyd edək ki, Azərbaycanda təhsilin müxtəlif iqtisadi subyektlər - dövlət, firmalar və ev təsərrüfatları tərəfindən aktiv şəkildə maliyyələşdirilməsi mövcuddur. Müxtəlif sosial təbəqələr üçün təhsildən istifadədə bərabərlik cəmiyyətdə sosial sabitliyin təmin edilməsi üçün əsas ola bilər.

Dövlət ilkin insan kapitalının pulsuz əldə edilməsinə zəmanət verməlidir. Əlbəttə ki, təhsil xidmətləri tamamilə pulsuz ola bilməz: insan kapitalının formalaşması elm və texnikanın son nailiyyətlərinə əsaslanan ümumi və xüsusi təhsilin dinamik inkişafını nəzərdə tutur və bu, büdcə və büdcədənkənar maliyyələşdirməni tələb edir. Qeyd edək ki, dövlət təhsilinin dağılması dayanıqlı inkişaf üçün əhəmiyyətli bir təhdid olduğundan bu sahənin daimi olaraq qanunvericilik və inzibati tənzimləməsinin həyata keçirilməsi son dərəcə vacibdir. Çünki ölkələrin iqtisadi uğuru insan kapitalının təhsil səviyyəsi ilə müəyyən edilir.

Təhsilin dövlət tərəfindən aşağıdakı istiqamətlərdə düzgün qiymətləndirilməsi ölkənin davamlı inkişafına təsir göstərər:

1. Təhsil sisteminin kifayət qədər maliyyələşdirilməsi.
2. Ölkədəki təhsil sisteminin əhali üçün bərabər əlçatanlığın təmin edilməsi.

Ona görə də təhsil və elm sahəsindəki dövlət siyasəti aşağıdakı məqsədlərə uyğun olmalıdır:

1. Ölkə iqtisadiyyatının ehtiyaclarına uyğun insan kapitalının təkrar istehsalını təmin edilməsi.

2. Fərdin mədəniyyətinə və sosiallaşma mərhələlərinə əsaslanan təhsil ehtiyaclarının ödənilməsi.

3. Milli mədəniyyətin inkişafının təmin edilməsi.

4. Dövlətin dünya bazarında yerinin gücləndirilməsi.

Milli iqtisadiyyatın davamlı inkişafının elementlərindən biri kimi insan kapitalının keyfiyyətinin gücləndirilməsi daim diqqət mərkəzində olmalıdır. İnsan kapitalının keyfiyyəti müəyyən dərəcədə demoqrafik inkişafının tərkib hissələrindən biri kimi qəbul edilə bilər.

Azərbaycanın bütün sahələrdə davamlı inkişafı insan kapitalının keyfiyyətində əhəmiyyətli bir artım olmadan təmin etmək mümkün deyil. Bütün sahələrdə insan kapitalının keyfiyyətini artırmadan ölkənin davamlı inkişafın təmin etmək mümkün deyil. Ona görə də davamlı inkişafın təmin edilməsi üçün ilkin şərt kimi insan kapitalının keyfiyyət və kəmiyyət parametrlərini yaxşılaşdırmaq lazımdır.

Göründüyü kimi, insan kapitalı təbii və fiziki kapital növləri ilə əlaqəlidir. İnsan kapitalının təbii kapitala bəzi müsbət və mənfi təsirlərini nəzərdən keçirək:

• yüksək bilik və bacarıqlara malik insanlar yeni texnologiyalarla mövcud resurs bazasından daha səmərəli istifadə edərək, əlavə mənbələr axtararaq və az tapılan resursların əvəzedicilərini inkişaf etdirərək təbii kapital növlərini genişləndirə bilər;

• yüksək bilik və bacarıqlara sahib insanlar dünyanın ekosistemlərini təhdid edən ekoloji problemlərin həlli üçün texnologiyalar inkişaf etdirmək imkanına sahibdirlər.

• dolayısı ilə insan kapitalının yığılması bir çox hallarda mövcud texnologiyalarla ekoloji problemləri həll edə bilir və milli gəliri artırır.

Əhali artarsa, daha çox bərpa olunmayan təbii ehtiyatlar istehlak edəcək və nəticədə mövcud ehtiyatların tükənməsinə səbəb olacaqdır. Havanın, suyun və torpağın çirklənməsi nəticəsində və bitki və heyvan növlərinin məhv olması səbəbindən ətraf mühitə təzyiqi artırmaq da mümkündür. Təbii kapital insan kapitalının artımı üçün vacibdir. Məsələn, təbii ehtiyatlar əhalinin dolanışığı və yaşayış yeri üçün lazımdır. Ekosistemlər planetdəki həyatın qorunması və insan sağlamlığı üçün vacibdir.

İnsan kapitalı ilə fiziki kapital arasında da sıx qarşılıqlı əlaqə mövcuddur. İnsan kapitalının fiziki kapitala təsirini nəzərdən keçirək:

• yüksək səviyyəli bilik və bacarıqlara sahib bir əhalinin əsas malların keyfiyyətini artırmaq üçün texnologiyalar inkişaf etdirmək imkanı var;

• insan kapitalının yığılması milli gəliri artırır və bu da investisiya mallarına tələbatı artırır;

• sağlam əhali artarsa daha çox məhsul istehsal edə bilər [3].

Bütün bu cəhətlər insan kapitalının toplanmasının sosial-iqtisadi əhəmiyyətini göstərir. Milli iqtisadiyyatın davamlı inkişafının təmin edilməsi və möhkəmləndirilməsi kontekstində insan kapitalının toplanmasını sürətləndirmək üçün aşağıdakı istiqamətlərdə tədbirlər görmək lazımdır:

1. Sağlamlıq sahəsində:

- dövlətin adekvat sosial siyasəti ilə təşkilati strukturların təkmilləşdirilməsi, sağlam nəslin formalaşmasının maddi bazasının gücləndirilməsi, əhaliyə tibbi yardımın gücləndirilməsinə və ölkədə sabit sosial-demoqrafik vəziyyətin yaranmasına imkan verəcək maliyyə vəsaitlərinin ayrılması;

- xəstəliklərin qarşısının alınması, tibbi xidmətin keyfiyyətinin yüksəldilməsi, əhalinin yaşayış şəraitinin və qidalanmasının yaxşılaşdırılması yolu ilə ölkədəki səhiyyə sisteminin yaxşılaşdırılması;

- müxtəlif mənbələr (büdcə və sığorta haqları) nəzərə alınmaqla səhiyyənin maliyyələşdirilməsi üçün dövlət prioritetləri sisteminin formalaşdırılması;

- dövlət, bələdiyyə və özəl səhiyyə alt sistemlərini birləşdirmə prinsipinə əsaslanan milli səhiyyə sisteminin yeni siyasi, iqtisadi və hüquqi şərtlər nəzərə alınmaqla modernləşdirilməsi və s.

2. Təhsil və elm sahəsində:

- təhsil sahəsindəki maliyyə siyasətinin təkmilləşdirilməsi;

- aztəminatlı ailələrdən olan şagird və tələbələrə ünvanlı dəstəyin, müxtəlif sosial təbəqələr üçün təhsildə bərabərliyin təmin edilməsi;

- elm və texnikanın inkişafındakı mütərəqqi meyillər əsasında ümumi və xüsusi təhsilin dövlət tənzimlənməsinin həyata keçirilməsi;

- təhsil müəssisələrinin bizneslə uzunmüddətli əlaqələr qurmaqda, təhsil xidmətləri bazarında tələb və təklifi müəyyənləşdirməkdə stimullaşdırılması və s.

İnsan kapitalının formalaşdırılması sahəsində dövlət siyasəti regional səviyyədə də həyata keçirilməlidir. İnsan kapitalının qorunub saxlanmasına və inkişafına yönəlmiş regional siyasəti həyata keçirmək üçün kiçik bir innovasiya müəssisəsi yaratmaqla innovativ inkişafı təmin etmək lazımdır. Bunun üçün aşağıdakılara diqqət yetirmək tələb olunur:

- regional innovativ inkişafın stimullaşdırılmasına yönəlmiş vergi güzəştlərinin tətbiqi;

- kiçik innovativ sahibkarlığın inkişafında bələdiyyələrin rolunun gücləndirilməsi;

- kiçik innovativ müəssisələrə kredit vermək üçün əlverişli şəraitin yaradılması;

- kommersiya strukturlarının elmə və innovasiyaya investisiya qoymalarının stimullaşdırılması;

- elmi, texniki və innovasiya fəaliyyətinin regionlararası koordinasiyasının təmin edilməsi.

Regionlarda davamlı inkişafın təmin edilməsi investisiya və innovasiya proseslərinin aktivləşdirilməsi, mütərəqqi informasiya və texnoloji dəyişikliklərin dəstəklənməsi, elm və təhsilin inkişafı, insanların yaradıcı və təşəbbüskar fəaliyyəti ilə mümkündür.

Nəticə

Nəticə olaraq deyə bilərik ki, milli iqtisadiyyatın davamlı inkişafı üçün əsas şərt insan kapitalının hərtərəfli inkişafı və səmərəli istifadəsi ola bilər. Yalnız insan kapitalının davamlı təkrar istehsalı milli iqtisadi təhlükəsizliyi və ölkənin gələcək inkişafını təmin edə bilər. Ona görə də insan kapitalının davamlı inkişafını, habelə səmərəli istifadəsini təmin edən ən vacib amilləri müəyyənləşdirmək lazımdır. Həmin amillərə aşağıdakıları aid edə bilərik:

• cəmiyyətin sosial-iqtisadi inkişafında insan kapitalının aparıcı rolunun tanınması;

• iqtisadi və sosial proseslərin dövri inkişafı nəzərə alınmaqla ölkənin və regionların davamlı sosial-iqtisadi inkişafı;

• insan kapitalının inkişafı üzrə dövlət siyasətinin iqtisadi və sosial inkişafın dövlət tənzimlənməsinin digər sahələri ilə əlaqələndirilməsi;

• insanın sistemli inkişafına, insan kapitalının innovativ xüsusiyyətlərinin formalaşmasına töhfə verən institusional mühitin yaxşılaşdırılması;

• əhalinin həyat səviyyəsinin keyfiyyətinin yaxşılaşdırılması;

• ekoloji təhlükəsizliyin təmin edilməsi, insanların yaşayış yerlərinin sanitar vəziyyətinin yaxşılaşdırılması.

Bütün bu amillər insan kapitalının inkişafına təsir göstərməklə davamlı iqtisadi artımın təmin edilməsində mühüm rol oynaya bilər.

Ədəbiyyat

1. Волкова С.А., Дёмина А.И. Стратегия управления человеческим капиталом в системе обеспечения экономической безопасности предприятия. ЭКОНОМИНФО, № 3, 2017, с.38-42

2. Макаров И.Н, Почепаев И.А.Роль человеческого капитала в системе экономической безопасности региона. Российское предпринимательство, Том 19, № 12, 2018, с.3737-3747

3. Марыганова Е.А., Дмитриевская Н.А. Человеческим капитал как фактор устойчивого развития. Статистика и экономика, 2013, № 6, с.73-78

4. Петко О.В. Инвестиции в человеческий капитал как фактор экономической безопасности страны. Креативная экономика, № 5, 2012, с.46-49

BİZNES TƏHSİLİ VƏ ONUN AKTUAL PROBLEMLƏRİ

Məmmədova Səxavət Tofiq qızı, baş müəllim
Sumqayıt Dövlət Universiteti
vuqar.memmedov.7272@mail.ru

Xülasə

İqtisadi inkişaf istiqamətlərinin müəyyən edilməsi, rəqabətqabiliyyətli iqtisadiyyatın qurulması müasir dövrdə insan kapitalı və onu formalaşdıran amillər əsasında mümkündür. Bu amillər içərsində biznes təhsili ən əsas hədəflərdən biri kimi xüsusi əhəmiyyət daşıyır. Təqdim edilən məqalədə biznes təhsili prosesində yaranan problemlərin həlli istiqamətləri tədqiq edilmişdir.

Açar sözlər: təhsil, biznes təhsili, insan kapitalı, biznes mühit, universitet.

Müasir dövrdə tez-tez baş verən iqtisadi böhranlar və onlardan çıxış yollarının müəyyən edilməsi məsələləri bir sıra yeni tədqiqat sahələrinin meydana gəlməsinə səbəb olmuşdur. Biznes təhsilini də belə sahələrə aid etmək olar. İqtisadi proseslərin qloballaşması, yeni çatarlılıq, dəyəlilik meyarlarının meydana gəlməsi, hər bir sahədə innovativ ideyalar, məhsullar, texnika və texnologiyaların tətbiqini ön plana çəkməklə yanaşı onları hərəkətə gətirə biləcək mütəxəssislərin də formalaşdırılmasını tələb edir. Bunu nəzərə alaraq inamla deyə bilərik ki, indiki mərhələdə zamanın əsas tələbi ətraf mühitdəki dəyişikliklərə tez cavab verən mütəxəssislərin hazırlanmasıdır [3]. Bu baxımdan biznes təhsili ən əsas və əvəzedilməz alətlərdən biri hesab edilməlidir. Eyni zamanda işğaldan azad edilmiş ərazilərimizdə bərpa işlərinin aparılmasında da səmərəli biznes təhsili əsas sahələrdən biri kimi diqqət mərkəzində saxlanılmalıdır. Çünki, biznes təhsili insan kapitalının həcmini atrtırır, əmək məhsuldarlığının yüksəlməsinə gətirib çıxarır, yeni texnologiyaların uğurlu tətbiqinə kömək edir. Biznes təhsili ölkənin biznes mühitinin infrastrukturudur, innovativ potensialın formalaşdırılmasında ən presktivli vasitədir. Təhsil, elm, təhsilin insan həyatında rolu ta qədimdən bir sıra alimlər və mütəxəssislər tərəfindən araşdırılmış, təhsil insan kapitalının ən əsas elementi kimi qəbul edilmişdir [2].

İnsan kapitalının tədqiqatçısı H.Bekker- "İnsan kapitalı" əsərində yazmışdır: İnsan kapitalı təhsil və yenidən təhsil prosesidir (məktəbdə və istehsalda) [1, səh.74].

Biznes təhsilinin iqtisadi proseslərin inkişafına təsir mexanizmini müəyyən etmək baxımından aşağıdakı istiqamətlər araşdırılmalıdır:

- Daim dəyişən tələblər necə ödənilməlidir?
- Dəyişən dünyada hansı liderlərə ehtiyacımız var?
- Liderlərin hansı təhsilə ehtiyacı var?
- Biznes təhsilinin hansı məqsədləri var?
- Biznes təhsilində mühit nə kimi rola malikdir?
- Biznes subyektlərini təhsilə cəlb etmək üçün daha çox hansı məqamlara önəm vermək lazımdır?
- Biznes təhsili necə tədris edilməlidir?
- Hansı biznes təhsili modeli ölkəmiz üçün xarakterik ola bilər?

Hər ölkənin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində rəqabətqabiliyyətli biznes mühitinin yaradılması bir başa müasir biznes təfəkkürünə və biliyinə malik olan mütəxəsislərdən asılı olduğuna görə onların yetişdirilməsi strateji məqsədlərdən birinə çevrilməlidir. Biznes sahəsi üzrə mütəxəsisslərin yetişdirilməsi və onların müasir dövrdə baş verən böhranlar şəraitində fəaliyyət göstərməsi üçün biznes təhsili müəssisələri bir sıra problemlərin həllində aşağıdakı suallar ətrafında tədqiqatlara üstünlük verməlidirlər:

- Biliklərin sürətlə köhnəlməsi və xarici mühitdəki fenomenal dəyişiliklərin sürəti şəraitində mütəxəssisləri necə yetişdirməlidir?
- Əvvəlki dövr üçün hazırlanmış biznes model indi işləyirmi və yenilərini necə tətbiq edilməlidir?
- Biznes təhsili sahəsində kadr çatışmazlığını necə həll edilməlidir?

- Fasiləsiz təhsil üçün insan psixologiyası necə formalaşdırılmalıdır?

Hər zaman, istər böhran vaxtı, istərsədə böhrandan əvvəl və sonra biznes təhsilinin əsas məqsədi bu istiqamətdə olan bütün bilik və bacarıqları işgüzar kütləyə, yəni menecerlərə,top menecerlərə və sahibkarlara çatdırmaqdır. Bu baxımdan biznes təhsili bazarının əsas iştirakçıları ali məktəblər, korporativ universitetlər, biznes məktəbləri, qısamüddətli proqram təminatçıları, biznes ədəbiyyatı naşirləri hesab edilir. Onların hər birinin özünəməxsus üstün və çatışmayan cəhətləri vardır.

Biznes təhsili və biznes mühit amillərinin effektiv uyğunlaşdırılması məsələlərinin düzgün reallaşdırılması əsas problemlərdən biri kimi nəzərə alınmalıdır. Bu problemin həllində isə aşağıdakı istiqamətlərdə tədqiqatlar aparılmasını məqsədəuyğun hesab etmək olar:

- Müasir biznes təhsili Azərbaycan biznes mühitinə uyğundurmu?
- Xarici ölkələrdə biznes təhsili almış mütəxəssislər nə üçün ölkəmizin biznes mühitinə uyğun gəlmir?
- İnkişaf etmiş ölkələrdə şöhrət qazanmış biznes təhsili modellərinin ölkəmizdə tətbiqini nə dərəcədə qənaətbəxş etmək olar?

Fikrimizcə, ilk öncə biznes təhsili biznes mühitini nəzərə almalı və hüquqi, iqtisadi, informasiya, texniki, texnoloji, ekoloji və s. mühit amillərinin qarşılıqlı təsir məqamlarına önəm verməlidir. Biznes təhsili istehsal, kommersiya, maliyyə və intellektual biznes sahələri üzrə təsnifləşdirilməli, onların hər biri üçün ayrı-ayrı istiqamətlər müəyyənləşdirilməlidir.

Eyni zamanda biznes sahəsindən asılı olmayaraq biznes təhsilinin ümumi prinsipləri də mövcuddur və onlar aşağıdakı kimi təsnifləşdirilə bilər:

- Məzmun (aktiv təlim formalarından istifadə etməklə biznesin inkişaf tempini təmin etməli);
- Təşkil (təlim, layihələr üzərində işləmə, təhsil proqramı)
- Təhsil prosesinin iştirakçıları (aktiv iştirakçılar)

Bundan başqa, biznes təhsilində maraqlı tərəflər (dövlət, sahibkarlar, biznes təhsili müəssisələri, biznes təhsili alanlar) arasında sosial tərəfdaşlıq olmalıdır:

- İş dünyası ilə universitetlərin qarşılıqlı əlaqəsi nəticəsində universitet bir sıra üstünlüklər əldə edəcəkdir;
- Məzunların məşğulluğunun müsbət dinamikası və onların əmək bazarındakı tələbi;
- Təhsil xidmətləri bazarında universitetin rəqabət qabiliyyətinin artırılması;
- Təhsil xidmətlərinin şaxələndirilməsi yolu ilə büdcədənkənar maliyyənin artırılması;
- Birgə kommersiya layihələrinin həyata keçirilməsi; tələbələr üçün stajların və müəssisələrdə müəllimlər üçün stajların təşkili;
- Yeni bir təlim profilini seçmək üçün əmək bazarı haqqında daha asan məlumat əldə etmək.

Biznes təhsili prosesinin idarə edilməsi məsələlərində də bəzi məqamlara xüsusi önəm verilməlidir:

- Universitetin bazarın tələblərinə və konkret istehlakçıların tələblərinə yönəldilməsi;
- Proqnozlaşdırılan mənfəət əldə etməyə imkan verəcək bu cür təhsil xidmətlərinin göstərilməsinin təşkili;
- Təhsil fəaliyyətinin səmərəliliyini artırmaq, ən az xərclə istənilən nəticəni əldə etmək üçün daima səy göstərmək;
- Universitetin fəaliyyətinin son nəticəsindən məsul şəxslərə qərar vermə azadlığını təmin edən iqtisadi müstəqillik;
- Universitetin fəaliyyətinin son nəticəsinin müəyyənləşdirilməsi;
- Optimal qərarlar qəbul edərkən müasir bir məlumat bazasının hərtərəfli istifadəsi.

Biznes təhsili sahəsində əsas problemlərdən biri də ixtisaslı müəllim çatışmazlığıdır. Bir biznes təhsili müəlliminin ideal olaraq xüsusi bir biliyi, iş təcrübəsi, pedaqoji bacarıqlara malik təməl təhsili olmalıdır. Bu cür kontingentin formalaşması mexanizmi hələ yaradılmamışdır. Biznes təhsili akademik elm və təcrübənin ortasındadır, çünki, yaxşı təcrübəçi həmişə yaxşı müəllim deyil və ya əksinə. Bu məsələlərlə bağlı dövlət səviyyəsində iş aparılmalı, müəyyən normativ hüquqi baza yaradılmalı, qanunlar və mexanizmlər işlənib hazırlanmalıdır.

Ədəbiyyat siyahısı

1. Becker, G.S. Human Capital. A Theoretical and Empirical Analysis with Special Reference tu Education./ G.S. Becker, - Chicago-London,- 1993, -212 p.

2. Məmmədova, S.T. Fasiləsiz təhsil və insan kapitali biznesin əsas inkişaf amilidir // "Regional iqtisadiyyat: müasir aspektlər və aktual məsələlər" respublika elmi konfransı, Sumqayıt Dövlət Universiteti, 22-23 aprel,- 2021, - səh.77-80

3. Мамедова, С.Т. Оценка эффективности использования персонала предприятия // С.Т. Мамедова, Челябинск: ЧГУ «Общество, экономика, управление » информационно-аналитический журнал, 2020, - № 2, с. 53-61

Abstract

Nowadays, determining the directions of economic development, building a competitive economy is possible on the basis of human capital and the factors that shape it. Among these factors, business education is of special importance as one of the main goals. The presented article examines the directions for solving problems arising in the process of business education.

Keywords: education, business education, human capital, business environment, university.

ETKİN SULAMA SİSTEMİ BİR GIDA GÜVENLİĞİ SAĞLANMASIDIR

Kemale Azizova Vaqif kızı
Sumgayit Devlet Üniversitesi
kamalaazizova.74@mail.ru

Tarım, insan varlığının tüm aşamalarında ana besin kaynağı olmuştur ve olmaya devam etmektedir. Tarımın yoğunlaştırılmasında kilit faktörlerden biri olan gıda güvenliği, herhangi bir ulusal gıda tedarik sisteminin idealleştirilmesini şekillendiriyor. Gıda ve Tarım Örgütü'ne (FAO) göre, önümüzdeki yüz yılda dünyanın gıda arzını dört faktör tehdit edebilir: bozulan iklim, su ve mineral kaynaklarının tükenmesi, toprak erozyonu ve ekonomik liberalizm.

Azerbaycan dünyanın en eski tarım bölgelerinden ve insan yerleşim yerlerinden biridir. Ülkenin toplam arazi fonu 8641.5 bin hektar olup, bunun 4756.5 bin hektarı veya %55'i tarıma elverişlidir. Toplam alanın 1432.7 bin hektarı sulanan arazidir. 3.200.000 hektar sulanabilir. Sulanan araziler ülkenin tarım arazilerinin üçte birini oluşturmasına rağmen, ülkenin tarımsal üretiminin %90-95'i bu topraklardan gelmektedir.Azerbaycan dünyanın en eski tarım bölgelerinden ve insan yerleşim yerlerinden biridir. Ülkenin toplam arazi fonu 8641.5 bin hektar olup, bunun 4756.5 bin hektarı veya %55'i tarıma elverişlidir. Toplam alanın 1432.7 bin hektarı sulanan arazidir. 3.200.000 hektar sulanabilir. Sulanan araziler ülkenin tarım arazilerinin üçte birini oluşturmasına rağmen, ülkenin tarımsal üretiminin %90-95'i bu topraklardan gelmektedir. Azerbaycan'da sulanan araziler ağırlıklı olarak Kura ve Araz nehirleri civarındadır. Bu bölge üç sıraya bölünmüştür: 1. Doğuda, Mingeçevir'in altında Şirvan, Karabağ, Mil-Mugan ve Salyan steplerinden oluşan Kür-Araz ovası; 2. Mingeçevir'in üst kısmında yer alan Gence-Gazakh masifi; 3. Araz nehri havzasında yer alan Nahçıvan ovası;

Tarımda temel üretim aracı olan toprak, yeri doldurulamaz ve sınırlıdır. Toprak verimliliğini ve bitki verimliliğini artırmak için toprak rejimleri (sıcaklık, su-hava, gıda, tuz, fizikokimyasal, biyokimyasal ve oksidasyon-redüksiyon) gereksinimlerine göre düzenlenmelidir. Toprağın ana özelliği ve kalitesi doğurganlığıdır. Toprağın yaşamında, varlığını ve ihtiyaçlarını karşılamada büyük rol oynayan faktörler su ve besindir. Toprakta çok su olduğunda, yeraltı suyu seviyesi yükselir, bataklığa dönüşür, toprakta havalandırma işlemi bozulur, tuzlanma, ekime uygun olmaz, toprağın ıslah durumu bozulur. Ekilebilir alanların genişlemesi ve verimliliğin daha da artması nedeniyle sulamaya olan talep her geçen gün artmaktadır. Bunun için suyun verimli kullanılması, sulama sistemleri, su kaynakları, uygun su dağıtımı ve raporlaması gerekir. Sulama sistemlerinin

temel amacı, sulama kaynağından yeterli miktarda su almak, suyu az miktarda kayıpla tarlalara ulaştırmak ve sulama alanları arasında suyun doğru ve doğru dağılımını sağlamaktır.

Analiz, Azerbaycan'da arazi ıslahı ve sulamanın geçen yüzyılın başında başlamasına rağmen, daha geniş gelişiminin Büyük Önder Haydar Aliyev'in cumhuriyeti yönettiği döneme denk geldiğini göstermektedir. O tarihten itibaren ülke tarımında, sanayisinde ve genel olarak ekonominin tüm sektörlerinde özel bir büyüme dönemi başlamıştır. O yıllarda, yıllık su dengesinin yüzde 30'unun topraklarımızda, kalan yüzde 70'inin ise transit nitelikte olması, yeni sulanan alanların sirkülasyonu için sulama kaynaklarının oluşturulması sorununu ortaya çıkarıyordu. Haydar Aliyev'in öngörüsü sayesinde, tarım ürünlerinin su teminini iyileştirmek için dağlık alanlara küçük sulama tesisleri inşa edildi. Ulu Önder'in 1993 yılında cumhuriyet önderliğine ikinci ziyareti ile ıslah ve su ekonomisi alanında daha önce gösterilen özen ve devlet özeni yeniden tesis edilmiş ve alanın gelecekteki gelişim yönleri belirlenmiştir. Bu amaçla, en önemlileri 1996 yılında imzalanan İyileştirme ve Sulama Kanunu olmak üzere 40'tan fazla normatif-hukuki belge hazırlanmıştır. iyileştirme ve sulama tesislerinin hakları. İyileştirme ve Sulama Kanunu uyarınca 1 Ocak 1997 tarihinde ülke kademeli olarak ücretli su kullanımına geçişe başlamıştır. Tarımda su verimliliğinin artırılması yatırım gerektirdiğinden, önümüzdeki yıllarda yatırım yapmayı önceden planlamak çok önemlidir.[4, s.42]

Azerbaycan İyileştirme ve Su Kaynakları Açık Anonim Şirketi, ıslah ve sulama sistemlerinin normal işleyişini organize etmekte, gerekli hacimlerde onarım ve restorasyon çalışmalarını yapmakta, su teminini ve sulanan arazilerin ıslahını iyileştirmek, devam eden sel ve diğer önemli önlemleri almaktadır. gerçekleştirillen. Bugün OJSC, toplam 22 milyar metreküp kapasiteli 138 rezervuar, 19 hidro bağlantı, 51693 km sulama kanalı, 31958 km kollektör-drenaj ağı, 1066 pompa istasyonu, 138,3 bin farklı hidrolik yapı, 8282 subartezyen kuyusu, 2073 kullanıyor. km. 400.000 hektardan fazla kış meraları ve diğer önemli devlet su tedarik sistemleri ve tesisleri çalışıyor. Ülkenin büyük bir bölümünün kurak iklimi, su kaynaklarının mevsimsel ve düzensiz dağılımı ve bunun yanı sıra elverişsiz dağılımı nedeniyle bu bölgelerdeki tarımsal ürünlerin su ihtiyacının karşılanması ve sulu tarımın yaygınlaştırılması için sulama sistemlerinin güçlendirilmesi gerekmektedir. [1, s.20]. Sulama sistemleri - Sulama alanları, su kaynakları ve hidrolik yapılar, yollar, üretim binaları ve iletişim sistemleri, toprak ve su kaynaklarının daha verimli kullanımı ile yüksek ve sürdürülebilir tarımsal üretim sağlamak için toprak verimliliğini artırmak ve iyileştirmek için tasarlanmıştır. Sulama sistemlerinde bakım çalışmalarının uygun şekilde düzenlenmesi, kalitesi ve zamanında olması ana koşullardır [2]. Bunun için öncelikle sulama şebekesi ve tesislerinin teknik durumu incelenmeli ve değerlendirilmeli, bakım çalışmalarının performansı ve kalitesi kontrol edilmelidir.

Tüm sulama sistemleri, tasarımlarına göre, her biri sulanan alana tüm büyüme mevsimi boyunca gerekli miktarda ve kalitede sulama suyu sağlayan bileşenlere bölünmüş birkaç gruba ayrılır [3]. Bu açıdan sulama sistemleri yapılarına göre açık, kapalı ve ortak sulama sistemleri olarak ikiye ayrılmaktadır. Cumhurbaşkanı İlham Aliyev'in 27 Temmuz 2020 tarihli kararnamesi ile onaylanan Eylem Planı'nda yer alan 8 sulama kanalı için fizibilite çalışmalarının ve tasarım belgelerinin tamamlanması planlandı. Aynı zamanda kanalın yeniden inşasına başlanması planlandı. Sugovushan hidro kavşağından bu yıl tarlalara su sağlamak için kurtarılan Tartarçay Sol Yaka kanalının ilk kısmı. Aynı zamanda, "Su kaynaklarının verimli kullanılmasını sağlamaya yönelik 2020-2022 Eylem Planı" onaylandı. Kurtarılmış bölgelerde çeşitli tarım sektörlerinin gelişmesi için beklentilerin oldukça geniş olduğu da eklenmelidir. Uzmanlar, bu alanlara yeni sulanan arazilerin getirilmesinin gıda güvenliği üzerinde olumlu bir etkisi olacağını ve ülkedeki GSYİH'yi artıracağını söylüyor. Kadim ve yerli topraklarımız olan Karabağ'ın kurtuluşu, Azerbaycan tarihinin son 200 yılının en şanlı sayfasıdır.

KAYNAKLAR

1. Данильченко, Д.А. Способы и результаты определения влагопроводности почвы при напорном и безнапорном впитывании / Д.А.Данильченко. Мелиорация и водное хозяйство, – 2013. №2, – с.19-21.

2.Verdiyev, R.H. Su ehtiyatları üzrə ekspert. Azərbaycan Respublikası Milli Su Strategiyası // Bakı, Aİ Sİ çərçivəsində SEİİE üzrə MSD–a dair seminar 7-8 İyun – 2012. – s.41.

3.Aslanov, H.Q. Torpaqların meliorasiyası / H.Q.Aslanov – Bakı: Elm, – 2004, –354 s.

4.Su təchizatı və tələbatın idarə olunması.Transsərhəd yeraltı və səth su ehtiyatlarının idarə edilməsi üçün texniki təlimat. BMT-nin İnkişaf Proqramı. Aprel 2020,-54s

5.Danilchenko, D.A. Zorla ve zorlamasız emmede toprağın nem içeriğini belirleme yöntemleri ve sonuçları / DA Danilchenko. Arazi Islahı ve Su Yönetimi, - 2013. №2, - s.19-21.

6.Verdiyev, R.H. Su kaynakları uzmanı. Azerbaycan Cumhuriyeti Ulusal Su Stratejisi // Bakü, AB SI bünyesinde SEIIE üzerine MSD Semineri 7-8 Haziran - 2012. - s.41.

7..Aslanov, H.Q. Arazi ıslahı / H.Q.Aslanov - Bakü: Bilim, - 2004, –354 s.

8.Su arzı ve talebi yönetimi Sınıraşan yeraltı ve yüzey suyu kaynaklarının yönetimi için teknik talimatlar. Birleşmiş Milletler Kalkınma Programı. Nisan 2020, -54s

HOUSING MARKET DEVELOPMENT PRIORITIES IN AZERBAIJAN: ANALYSIS AND RESULTS

I.G.Guliyev PhD in economics
Azerbaijan State University of Economics
i.quliyev68@mail.ru
A.T.Zeynalova Senior lecturer
of Azerbaijan State University of Economics
ayn.zeynalova @gmail.com

Summary

In every country, the housing market is part of the national real estate. From this standpoint, the features of the real estate market as a whole and the factors of its development are also typical for the housing market. Although different researchers have different views on the nature of the real estate market, some generalizations can be made. Thus, the real estate market is essentially a set of mechanisms that ensure the creation of real estate, proprietary rights, the supply-demand ratios in the market, the price system, the distribution between options, as well as sources of investment and financing. The broad structure of the real estate market makes it difficult to analyze. The conjunctural situation of the residential real estate, including the housing market, is formed on the basis of special tendencies in addition to general market factors. A real image of the country's housing market can be given mainly on the basis of an analysis of the capital and major cities. Among the characteristics of Azerbaijan are the desire of every family to have an individual and privatized housing, orientation to large cities, preference for urban centers, a tendency to urban areas inhabited by officials and wealthy people. In fact, this indicates that the psychological aspects of the Soviet era have intrenched in the minds of people and that the social housing project in the country is underdeveloped. Besides, the level of improvement of the mortgage project, which has been in place for about fifteen years, must be taken into account. At present, it can be said that the conditions for mortgage lending in Azerbaijan are still unattainable. This is evidenced by the fact that mortgage interest rates are close to the interest rates of commercial loans in some countries. Besides, we must not forget the impact of changes in income in the pandemic on the activity of the housing market. In every case, the presence of the listed factors and stereotypes leads to price hike in the housing market of Azerbaijan. Research shows that prices in the housing market of our country are much higher than in neighboring countries. Therefore, overall analysis must be made to conduct a comprehensive analysis of the factors determining the conjuncture of the housing market. This result should also reflect national traditions, the basics of the country's housing policy, as well as common market behavior.

Keywords: real estate, market, demand and supply, price, housing, conjuncture, mortgage.

The development of the residential real estate market determines the level of housing guarantee in the country or region, the demand for housing and the main priorities of housing policy. The development of this market depends not only on traditional economic and social factors, but also on regional and psychological factors. The specific features of the housing market in Azerbaijan are the tendency of citizens to live in large cities and the urban population in the center. Those who want to buy garden house prefer to be the "territorial neighbor" of the most influential people, as well as officials, well-known collectives working in sphere of show business and businessmen. This is the result of long-term observations and the initial basis for research in the housing market. It should be noted that the limited housing statistics in Azerbaijan make it difficult to conduct relevant research. Therefore, most author's research focuses on the analysis of price changes in apartments and garden house. In the current situation, this can be justified, because researchers determine the state of development and priorities of the housing market by analyzing the factors that cause price changes. At the same time, the main priorities of the state housing policy are taken into account.In this regard, the goals set in the Strategic Roadmap for the Development of Affordable Housing in the Republic of Azerbaijan, adopted on December 6, 2016, and ways to achieve them should be investigated.We think that it is expedient to search the development trends of the country's housing market on the example of large cities, especially Baku. This can be linked with the relative passivity of the housing market in other cities and regions, limited access to mortgage lending.

Aqrobiznes mühitinin dəstəklənməsinə yönəlmiş tədbirlər, kənd təsərrüfatında istehsal və xidmət fəaliyyətlərinin şaxələndirilməsi özünüməşğulluq üçün fəaliyyət dairəsini genişləndirir. Təsadüfi deyildir ki, qərbin elmi mərkəzlərində özünüməşğulluğun və fərdi sahibkarlığın 400-dən artıq növü tövsiyə olunur (2). Şaxələndirmə imkanlarından istifadə səmərəliliyi, milli aqrar sektorda özünüməşğulluğun inkişaf perspektivlərinin müəyyənləşdirilməsi zamanı hərtərəfli əsaslandırma tələb edir. Aqrar sektorda və ümumilikdə kənd yerlərində özünüməşğulluğun inkişafının tempi və proporsiyalarının optimallaşdırılması, qabaqcıl təcrübədən göründüyü kimi olduqca perspektivli istiqamət olmaqla yanaşı, eyni zamanda çox sayda və müxtəlif amillərin təsirlərinin nəzərə alınmasını tələb edir. Kənd əhalisinin demoqrafik davranışı, araşdırmalardan və təcrübədən göründüyü kimi aqrar regionlarda əmək bazarının konyunkturuna ciddi surətdə təsir göstərir. Özünüməşğulluq potensialının formalaşması və fəallaşdırılmasına gəldikdə isə, burada əhali qruplarının gəlir, təhsil, karyera motivləri və bir sıra digər əlamətlər üzrə təsnifatda öyrənilməsi zərurəti meydana çıxır.

Özünüməşğulluğun inkişafını şərtləndirən əsas amillər qismində əhalinin artım tempində, əmək ehtiyatlarının keyfiyyətində və kəmiyyətində baş verən dəyişikliklər, habelə milli təhsil

sisteminin kəndin və kənd təsərrüfatının ehtiyaclarına uyğun kadr hazırlaması imkanları qeyd edilməlidir. Bu baxımdan, aşağıdakı məlumat zənnimizcə, diqqətə layiqdir. "BMT-nin orta ssenari proqnozuna əsasən, Azərbaycan əhalisinin ümumi artımı növbəti illərdə davam edəcək və 2030-cu ildə 10,7 milyon nəfərə çatacaqdır. Əmək bazarına daxil olan 15–24 yaş arasında şəxslərin sayında azalma meylinin 2025-ci ilədək davam edəcəyi, ondan sonrakı beş ildə isə artacağı proqnozlaşdırılır. 2017-ci ildə Azərbaycanda 15–24 yaş arasında şəxslərin sayı 1,5 milyon nəfərə yaxın olmuşdursa, 2025-ci ildə bunun hazırkı saydan 17 faiz az olacağı, sonrakı illərdə isə artaraq 2030-cu ildə 2015-ci ilin səviyyəsinə (1,6 milyon nəfər) çatacağı proqnozlaşdırılır" (3,2.1 alt bölməsi).

Hesab edirik ki, Azərbaycanın əmək bazarına daxil olan 15–24 yaş arasında şəxslərin dinamikasında gözlənilən güclü tərəddüdlər, kənd təsərrüfatı əməyinin nüfuzunun yüksəldiləcəyi halda ciddi fəsad törətməyə bilər. Layiqli əmək şəraiti yaradılmış aqrar və aqrar-sənaye müəssisələrinin təcrübəsi göstərir ki, belə iş yerləri gənclərin və fəaliyyət sahəsini müəyyənləşdirən yeniyetmələr üçün cəlbedicidir. Kənd yerlərinin inkişafına və aqrar sahəyə himyəçilik baxımından dövlətin mövqeyi, yaxın perspektivdə aqrar sektorun əksər qurumlarında layiqli əmək şəraiti yaratmağa imkan verir. Əlbəttə, bu proses öz-özünə baş verməyəcəkdir. Rəqabət qabiliyyətli aqrar fəaliyyətin müasir dövrdə həlledici amil olduğunu dərk edən hər bir sahibkar və özünüməşğul subyekt, dövlətin yaratdığı əlverişli içgüzarlıq mühitindən fayda götürməyə çalışacaqdır.

Hazırda Azərbaycanın kənd yaşayış məntəqələrinin dayanıqlı inkişafı perspektivləri əhali, mentalitet, ekoloji böhran və onun şəhərlərdə özünü daha kəskin şəkildə göstərməsi, urbanizasiyanın arzuolunmaz əlamətlərinin güclənməsi, Covid 19 pandemiyası kimi amillərin təsiri altında formalaşmaqdadır. Kənd təsərrüfatının aşağı gəlirliyi və dünyada mövcud olan "fermer problemi" kimi amillərin neqativ təsirinin məhz yuxarıda qeyd olunan amillərin təsiri nəticəsində zəifləyəcəyi gözlənilir. Bununla belə, unutmaq olmaz ki, kənd təsərrüfatında əmək məhsuldarlığının faktiki səviyyəsi, burada vəziyyətin az zamanda yaxşılaşacağı barədə xüsusi nikbinliyə əsas vermir. Məsələ ondadır ki, "2016-cı ildə mədənçıxarma sənayesi üzrə əmək məhsuldarlığı göstəricisi cari qiymətlərlə 257,7 manat (161,4 ABŞ dolları) olduğu halda, kənd təsərrüfatı üzrə bu göstərici 1,03 manata (0,6 ABŞ dolları), emal sənayesi üzrə 6,3 manata (3,9 ABŞ dolları), tikinti sahəsi üzrə isə 9,4 manata (5,8 ABŞ dollarına) bərabər olmuşdur" (3, 2.2 alt bölməsi). Bir sözlə, aqrar sektorda özünüməşğulluğun inkişaf perspektivləri, sahədə əmək məhsuldarlığının səviyyəsi və dinamikası ilə əlaqədardır. Aqrar sektorda əmək məhsuldarlığının yüksəldilməsi perspektivlərinə gəldikdə isə onun proqnozları, yaxın və orta perspektivdə kifayət qədər ciddi irəliləyişlərin olacağından xəbər verir. Gözlənilən müsbət dinamika:

- adambaşına məhsul istehsalının həcminin artmasında;
- məhsul vahidinə xərclərin azalmasında;
- məhsul son istehlakçıya çatdırılana qədər yol verilən itkilərin minimuma endirilməsində və s. ifadə olunacaqdır.

Aqrar sektorda haqqında danışılan hədəflərə nail olunmasına yönəlmiş fəaliyyətlərdə aşağıdakı istiqamətlər prioritet olmalıdır:

- kənd yerlərində məşğulluğun bütün əsas növlərində, habelə özünüməşğulluqda innovasiyalı fəaliyyətin və innovasiyaya açıqlığın təşviq edilməsi;
- aqrar regionların investisiya cəlbediciliyinin yüksəldilməsi;
- özünüməşğul subyektlərlə (mikrosahibkarlarla) ərazidə fəaliyyət göstərən iri müəssisələrin əlaqələrinin yaradılmasına dəstək verilməsi;
- klasterial təşəbbüslər, aqrar fəaliyyətin şaxəıləndirilməsi və digər səbəblərdən yaranan yeni fəaliyyət imkanları barədə məlumatlandırmanın rəqəmsal texnologiyaların tətbiqi ilə səmərəli təşkili;
- maliyyəyə çıxışın asanlaşdırılması, o cümlədən kreditlərin əlyetənliyinin və aqrar sığorta sisteminin təkmilləşdirilməsinin dəstəklənməsi;
- yaşıl aqrar iqtisadiyyatın, o cümlədən aqroturizmin inkişafının dəstəklənməsi.

Məlumatlandırma mərhələsi səmərəli özünüməşğulluğun formalaşmasının ilkin addımlarından biri hesab olunur (4, s.9). Bir məsələni xüsusilə qeyd etməyi zəruri sayırıq. Urbanizasiyanın,

onilliklər ərzində davam edən arzuolunmaz yüksək tempi aqrar sektora bir çox aspektlərdə problemlər yaratmışdır. Aqrar məşğulluğun və özünüməşğulluğun urbanizasiya proseslərinin arzuolunmaz tempi nəticəsində məruz qaldığı neqativ təsirlər, bu baxımdan xüsusi qeyd edilməlidir. Son dövrlərdə urbanizasiya proseslərinin sürətini azaldan ilkin meyillər müşahidə olunur. Belə ki, pandemiyanın davamlılığı və ekoloji böhranın davamlılığı və xüsusilə urbanizasiya zonalarında kəskinləşməsi, su qıtlığı və bu kimi bir sıra amillərin böyük şəhərlərdə və sənaye mərkəzlərində məskunlaşmanı ləngidəcəyi gözlənilir. Əlbəttə, böyük şəhərlərdə və sənaye mərkəzlərində məskunlaşmanı ləngidən amillər aqrar faəliyyətə potensial marağı, nəzərəçarpacaq dərəcədə artırsa da, bu meyil heç də aqrar istehsalın rentabelliyini yüksəltmək iqtidarında deyildir. Bununla belə həmin amillər, tədricən müasir kənd həyat təzinin üstünlüklərini və burada iqtisadi fəallığın alternativsizliyi faktını əyaniləşdirəcəkdir.

Ölkənin torpaq resurslarından istifadə vəziyyəti yaxşılaşacaqdır. Belə ki, şoran torpaqların yuyulması prosesinin əhatə dairəsi tədricən genişlənəcək, müasir irriqasiya sistemi qurulacaqdır. Məhdud imkanlardan səmərəli istifadə hesabına su təchizatı yaxşılaşacaq və sudan istifadə səmərəliliyi yüksəldiləcəkdir. Bu əsassız optimizm deyildir, alternativsizliyin qəbul edilməsi və bu istiqamətdə dövlətin başladığı sistemli tədbirlərin ilkin nəticələrindən bəhrələnən fikirlərdir. Aqrar sektorun inteqrasiya potensialı autsorsinq imkanlarını genişləndirə bilir. Əlbəttə bu meyil, bilavasitə kənddə özünüməşğulluğa təsir etməyəcəkdir. Bununla belə, autsorsinq kənd yerlərində əmək bazarına da təsirsiz qalmayacaqdır.

Milli aqrar sektorda özünüməşğulluğun inkişaf perspektivlərinə təsir edən mühüm amillərdən biri kənd icmalarının formalaşma səviyyəsidir. Xüsusilə icma daxili əmək bölgüsünün kollegial əsasda həyata keçirilməsi, kənd yerlərində işaxtaranlara bacarıq və vərdiş amilləri əsasında üstünlük verilməsini təmin edə bilər. Başqa sözlə, emalaqədərki işlər, ilkin emal, resurslarla təminata xidmət, yabanı bitkilərin toplanması və qurudulması, torpaq analizi prosesində yardımçı işlər və bir sıra digər fəaliyyət sahələrində özünüməşğulluq dairəsinin arzuedilməz dərəcədə xırdalanmasının qarşısı məhz icmadaxili koordinasiya sayəsində alına bilər.

İnformasiya cəmiyyətinin formalaşması və inkişafı, orta perspektivə rəqəmsal iqtisadiyyatın kənd yerlərində inkişaf tempini yüksəldəcəyi gözlənilir. Rəqəmsal texnologiyalardan istifadə idxalın əvəzlənməsi və ixracın təşviqi imkanlarını üzə çıxaracaqdır. Onların reallaşdırılması kənd əhalisinin işgüzar fəallığından və rəqəmsal texnologiyaların tətbiqi üçün onlara göstərilən dəstəkdən asılı olacaqdır. Bu baxımdan, özünüməşğullara kömək məqsədi ilə Rusiya Federasiyasında, ölkəni əhatə edən elektron ödəniş sistemləri və xüsusilə öyrədici veb-resursların hazırlanması istiqamətində atılan addımlar diqqətə layiqdir. Belə ki, ölkənin "ən böyük maliyyə qurumu, özünüməşğullara kömək etmək üçün bir sıra vasitələr hazırlamışdır. Əsasən, bunlar özünüməşğullara, Sberbank Online vasitəsilə bütün ölkə miqyasında əməliyyatlar aparmağa kömək edən onlayn xidmətlərdir. Xüsusilə, çek vermə üçün avtomatik prosedur, pulsuz onlayn təqvim və s. Bundan əlavə, veb-resurslarda özünüməşğulların öyrədilməsi üçün ayrıca bir bölmə hazırlanmışdır" (5). Haqqında danışılan yanaşmalar ilkin addımlar olsa da, zənnimizcə perspektivli sayılmalıdır.

Qazaxstanda 2017-ci ildə qəbul edilmiş "Rəqəmsal Qazaxstan" Dövlət Proqramında öznüməşğulluun "müştərək istehlak iqtisadiyyatı" ilə əlaqəli inkişafı, o cümlədən rəqəmsal mühitdə onların iqtisadi fəallığının dəstəklənməsi imkanlarının reallaşdırılması nəzərdə tutulur (6). Göründüyü kimi, burada daha irəli gedərək fərdi xərcləri azaltmağa yönəlmiş yeni çağırışlara vahid rakursda yanaşma variantına üstünlük verilmişdir.

Qabaqcıl xarici təcrübədə ölkələr özünüməşğulluğun inkişafı və dəstəklənməsi üzrə milli proqramları öz sosial-iqtisadi şəraitləri daxilində daim təkmilləşdirirlər (7, s.179-181). Həmin proqramların tərtibi və icrası sürətlə dəyişən iqtisadi və institusional mühitin tələblərini nəzərə almalıdır.

Digər postsovet məkanı ölkələrində olduğu kimi, Azərbaycanda da aqrar sektorda özünüməşğulluğun inkişafının perspektiv parametrlərinin müəyyən edilməsi, xüsusilə etibarlı proqnozların hazırlanması prosesində qarşıya ciddi çətinliklər çıxır. İlk növbədə, onu qeyd edək ki, proqnozlaşdırma üçün zəruri olan verilənlər bazası yox dərəcəsindədir. Digər problem qismində kənd yerlərində qeyri-formal məşğulluğun leqallaşdırılması proseslərindəki nəzərəçarpacaq

ləngimələr qeyd edilə bilər. Bununla belə, ölkəmizdə özünüməşğulluğun inkişafının bəzi perspektiv meyillərini aşkar etmək və yüksək ehtimalla onların davamlı olacağını güman etmək olar.

Birinci meyil, zənnimizcə, kənd yerlərində özünüməşğulluğun bilavasitə dövlətin himayəsindən asılı olmasıdır. 2017-2020-ci illərin ilkin statistikası bunu söyləməyə əsas verir. Təqdim olunan işin ikinci fəslinin birinci paraqrafında göstərildiyi kimi aqrar sektorda özünüməşğulluğa 2016-2017-ci illərdə cəmi 1281 nəfər cəlb olunmuşdursa, 2018-ci il bu rəqəm 7267 nəfər, 2019-cu ildə isə 10352 nəfər təşkil etmişdir. Əldə edilən nəticələr, bilavasitə özünüməşğulluq proqramının icrasının nəticələridir.

Azərbaycan Respublikası Prezidentinin ölkənin həssas əhali qruplarının, o cümlədən onların kənd yerlərində özünüməşğulluğuna bankların kömək etməsini nəzərdə tutan sosial məsuliyyətin bölüşdürülməsi barədə humanist təşəbbüsü, artıq öz ilkin müsbət nəticələrini göstərməkdədir. Haqqında danışılan bu mühüm təşəbbüsün reallaşdırılması məqsədi ilə görülən tədbirlər sırasında aşağıdakı tədbir xüsusi olaraq qeyd edilməlidir. "Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Mərkəzi Bankı və ABA arasında əməkdaşlığa dair imzalanan memorandumun icrası istiqamətində fəal iş aparılır. İndiyə qədər proqramın icrasına **21** yerli bank qoşulub. Bu günə qədər banklar **300**-ə yaxın şəxs seçərək onlardan **102** -nə sahibkarlıqla məşğul olmaq üçün avadanlıq verib" (8).

Burada bir məqamı da qeyd etməliyik. İnsanların birbaşa dövlət yardımı olmadan (dövlətdən müvafiq aktivlər almadan) qeyri-formal məşğulluğu leqallaşdırmasının kütləviliyini gözləmək çətindir. Yüksək ehtimalla demək olar ki, aqrar sektorda özünüməşğulluğun inkişaf perspektivləri həlledici dərəcədə özünüməşğulluq proqramının yerinə yetirilməsi nəticələri ilə şərtlənəcəkdir. Milli aqrar sektorda özünüməşğulluğun inkişaf perspektivləri nəzərdən keçirilərkən bu məqam diqqətdən kənarda qalmamlıdır.

NƏTİCƏ

İnkişaf etmiş və inkişaf edən ölkələrin, habelə postsovet məkanı ölkələrinin təcrübəsinin təhlili və müqayisəli qiymətləndirilməsi özünüməşğulluğa çoxsaylı və müxtəlif xarakterli amillərin təsiri nəzərə alınmaqla münasibət bildirməyə imkan verir. İnkişaf etmiş ölkələrin təcrübəsinin təhlili bunu deməyə əsas verir ki, özünüməşğulluğun dövlət tərəfindən dəstəklənməsi üzrə proqramların icrası mühüm müsbət nəticələr verir. Məhz özünüməşğulluğun inkişafının dəstəklənməsi məşğulluq siyasətinin prioriteti hesab edildikdə, həmin proqramların icrası sayəsində özünüməşğulluğun məqbul gəlirlilik səviyyəsini dəstəkləmək, fiziki imkanları məhdud olan insanları daha fəal cəlb etmək mümkün olur. Bu zaman özünüməşğulluğun inkişafının dəstəklənməsi proqramları üzrə yardım almaq hüququ olan əhali qruplarının seçilməsi məsələsi, hər bir ölkədə xüsusi olaraq həll edilməlidir. Digər mühüm məsələ, sosial müdafiə proqramlarının özünüməşğul subyektləri əhatə etməsinin təmin olunmasıdır.

İstifadə edilmiş ədəbiyyat:

1. Self-Employed Persons Program. http://www.russiantoronto. com/ immigration/ imminfo-sempl.asp
2. The "Salary & Conditions" 2017. www.prospects.ac.uk/ links/ Occupations
3. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş 2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası.
4. New Enterprise Allowance. Briefing paper. Number 05878, 9 June 2017. 11 p.
5. Эксперимент для самозанятых: современность и перспективы//https:// xn90 aifddrld7a.xn--p1ai/novosti/ news
6. Государственная Программа "Цифровой Казахстан".Утверждена постановлением Правительства Республики Казахстанот 12 декабря 2017 года № 827
7. "The Partial Renaissance of the Self-Employed", OECD Employment Outlook, Chapter 5, OECD (2000), Paris, Table 5.15. pp.179-181
8. Azərbaycanda özünüməşğulluq layihəsinə - 21 Bank qoşulub https://fed.az/ az/bank/ 82814. 22.062020

Гулиев Ализамин Али оглы
Докторант кафедры «Экономика и статистика»,
Азербайджанский Технический Университет

Перспективы развития самозанятости в аграрном секторе

Резюме

Определение перспектив развития самозанятости в сельскохозяйственном секторе предполагает характеристику множества различных факторов. В представленной статье рассматриваются вопросы оценки возможностей самозанятости с точки зрения поддержки положительных тенденций в структуре занятости и уровнень занятости сельской местности. Исследовано влияние приоритетов государственной политики занятости на перспективные параметры развития самозанятости в аграрном секторе. Изучены место и роль мер стимулирования самозанятости в системе экономического регулирования. Прослежены процессы, происходящие в характеристиках самозанятости в сельской местности в контексте применения цифровых технологий. Был сделан вывод, что реализация преимуществ цифровой среды, скорее всего, положительно повлияет на эффективность самозанятости в аграрном секторе. Высказано отношение к перспективам развития самозанятости в аграрном секторе в случае реализации потенциальных возможностей и реализации запланированных мероприятий.

Ключевые слова: самозанятость, аграрный сектор, сельская местность, занятость, возможности, перспективы, инновации, цифровые технологии.

Guliyev Alizamin Ali oglu
Doctoral student of the Department of Economics and Statistics,
Azerbaijan Technical University

Prospects For The Development Of Self-Employment In The Agricultural Sector

Summary

Determining the prospects for the development of self-employment in the agricultural sector involves the characterization of many different factors. The presented article examines the issues of assessing self-employment opportunities from the point of view of supporting positive trends in the structure of employment and the level of employment in rural areas. The influence of the priorities of the state employment policy on the promising parameters of the development of self-employment in the agricultural sector has been investigated. The place and role of measures to stimulate self-employment in the system of economic regulation have been studied. The processes occurring in the characteristics of self-employment in rural areas in the context of the use of digital technologies are traced. It was concluded that realizing the benefits of the digital environment is likely to have a positive effect on the efficiency of self-employment in the agricultural sector. The attitude to the prospects for the development of self-employment in the agricultural sector is expressed in the event of the realization of potential opportunities and the implementation of planned activities.

Key words: self-employment, agricultural sector, countryside, employment, opportunities, prospects, innovation, digital technologies.

TƏHLÜKƏSİZ ƏMƏK ŞƏRAİTİNİN İQTİSADİ ASPEKTLƏRİ

Ağayev Emin Məhi oğlu, Dissertant
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

Xülasə

Məqalədə iş yerlərində əməyin təhlükəsizliyi və sağlamlıq problemlərinin iqtisadi aspektləri ilə bağlı müxtəlif yanaşmalar müqayisəli təhlil edilib. Müəllif belə nəticəyə gəlir ki, bu problemə müəssisələrin gəlir və xərci, həmçinin əmək məhsuldarlığı kontekstindən yanaşılmalıdır.

Açar sözlər: **əməyin təhlükəsizliyi, əmək məhsuldarlığı, gəlir, xərc, sağlamlıq**

İş yerlərində bədbəxt hadisələrin baş verməsi, ölüm hadisələri, müxtəlif dərəcəli travmalar və xəstəliklər yalnız işçinin deyil, həm də onun ailəsinin faciələrlə üzləşməsi deməkdir. Bu, həm də milyonlarla insanın və ailənin davamlı gəlirdən məhrum olması, yoxsulluğun artması, məktəb yaşlı uşaqların təhsildən yayınması və sair yeni problemlərin yaranması deməkdir. BƏT-nın hesablamalarına əsasən aqrar sektorda 1.3 milyard insan məşğuldur. Bu sektor tikinti və dağ-mədən sektorundan sonra əməyin təhlükəsizliyi nöqteyi-nəzərindən ən riskli sektordur. Aqrar sektorda geniş həcmdə zərərli maddələrdən istifadə, iş saatlarının uzunluğu sağlamlığa ciddi rikslər yaradır. Aqrar sektorda kimyəvi maddələrdən istifadənin həcminin artması regionlarda içməli suyun və havanın çiklənməsinə, beləliklə, əhalinin sağlamlığına ciddi təsir göstərir.

Əməyin mühafizəsi və sağlamlığın qorunması müxtəlif elm sahələrinin, o cümlədən, iqtisad elminin predmetidir. Çünki bu problem bütünlükdə cəmiyyətə və iqtisadiyyata, xüsusi halda isə hər bir fərqin və ailənin həyatına aid olan problemdir. Ona görə də bu problemlə elm sahələrindən tibb elmi, ekologiya, psixologiya, texnika, iqtisad elmi və sair digər elmlər məşğul olur. Bu problemin iqtisadi və sosial-iqtisadi aspektlərinin tədqiq edilməsinin mahiyyətində insan kapitalı ilə iqtisadi artım və rifah səviyyəsi arasındakı əlaqə durur. İşçilərin sağlamlığının qorunması əmək məhsuldarlığının əsas amillərindəndir. Sağlamlıq insan kapitalının təhsillə yanaşı əsas amilidir. Bu, əmək bazarında işçinin mühüm göstəricisidir. Hər bir müəssisə çalışır ki, onun işçisi sağlam və cavan olsun. Sağlamlıq əmək məhsuldarlığının artması, müəssisənin sağlamlığa görə daha az əlavə xərclərlə üzləşməsi deməkdir. Elə bu xərclərin olması sağlamlığı zəif işçilərin, yaşlı mütəxəs-sislərin, potensial hamilə qadınların və sair işlə təminatında diskriminasiyalarla üzləşməsinə səbəb olur. Dünyanın əksər ölkəsində müvəqqəti iş qabiliyyətini itirmiş işçilərə müəssisə tərəfindən ödəmələrlə bağlı qanunvericiliyin olması bəzi ölkələrdə kiçik müəssisələri məcbur edir ki, onlar belə ödəmələrdən yayınsınlar.

Əməyin mühafizəsinin və iş yerlərində sağlamlığın qorunmasının iqtisadi inkişafda və rifah səviyyəsinin yüksəlməsində əhəmiyyətini nəzərə alaraq, onun iqtisadi və sosial-iqtisadi aspektlərinin tədqiq edilməsi vacibdir. Bu problem əmək bazarına, əməyin məhsuldarlığına, ev təsərrüfatlarının gəlirlərinə, sosial müdafiə sisteminə, beynəlxalq ticarətə və ətraf mühitə təsir kanalları ilə makroiqtisadi və sosial-iqtisadi göstəricilərə təsir göstərirlər.

İstehsalat zədələnmələri təsadüfi baş verən hadisə olsa da bu hadisəyə münasibət üç tərəfli olur. İşçinin, müəssisənin və dövlətin münasibəti. Müəssisə işçi ilə əməyin mühafizəsi sahəsində müəyyən razılığa gələ bilər. lakin bu razılığın elə bir minimum səviyyəsi var ki, bu səviyyə dövlət tərəfindən müəyyən olunur. Müəssisə yerli qanunvericiliyə əməl edərək, ən azı bu səviyyədə əməyin mühafizəsini təşkil etməli və istehsalat zədələnmələrinin müqabilində işçiyə zəruri kompensasiya ödəməlidir. Lakin belə minimum səviyyədən əlavə olaraq, müəssisə işçi ilə razılığa əsasən əlavə ödənişlər edə bilər. Əksər hallarda belə ödənişlər əməyin stimullaşdırılması mahiyyətli olur. Əməyin stimullaşdırılmasının və onun nəticələrinin analizi əməyin mühafizəsi iqtisadiyyatının əsasını təşkil edir.

İqtisadi ədəbiyyatda əməyin mühafizəsi və gigiyenası ilə bağlı elə amillər müzakirə edilir ki, bu amillər işçinin belə təhlükəli işi seçmək lə bağlı qərarına təsir edir. Bu amillər arasında əmək haqqının miqdarı, əməyin risk səviyyəsinə görə, həmçinin baş vermiş travmalara görə əlavə ödənişlər və mükafatlar əsas rol oynayır. Müəssisələrdə əməyin mühafizəsi və gigiyenası ilə bağlı qərarların qəbuluna təsir edən amillər isə əsasən müəssisənin xərcləri ilə bağlıdır. Müəssisə əmək bazarından işçilərin qəbulu zamanı riskli işlərə görə nisbətən yüksək əmək haqqı ilə yanaşı, həm də əlavə mükafatlar verməli olur. İstehsalat zamanı travma alan işçilərə əlavə ödənişlər, o cümlədən, sığorta ödəmələri, xəstəliyə görə məzuniyyət üçün ödəmələr, kompensasiyalar və sair işçiyə yönələn ödəmələri etməli olur. Lakin müəssisənin bu problemlə bağlı xərcləri bununla bitmir. Müəssisə, əksər hallarda, dövlətə də texniki təhlükəsizlik qaydalarının pozulmasına və belə halların travmalarla və ya ölümlə nəticələnməsinə görə cərimələr ödəməli olur.

Bazar münasibətlərinin qərarlaşdığı şəraitdə hər bir şirkət çalışır ki, onun işçiləri iş şəraitindən razı olsunlar və nə qədər mümkünsə, məhsuldarlığın artmasına çalışsınlar. Çünki belə işçilər müəssisənin imicinin yüksəlməsinə dəstək olurlar. İş şəraitindən, o cümlədən, əmək haqqından,

müəssisədə əməyin təhlükəsizliyindən və sair narahat olan işçilər isə adətən əməyin keyfiyyətində maraqlı olmurlar və müəssisənin imicinin yüksəlməsinə səy göstərmirlər [1].

Qeyd edək ki, əməyin təhlükəsizliyinə və iş şəraitinin əlverişliliyinə nail olmaq müəssisə üçün əlavə xərclər yaradır. Lakin belə xərclər əməyin məhsuldarlığını artıraraq, həm müəssisənin əlavə xərclərini örtür, həm də müəssisəyə əlavə gəlir gətirir. Lakin kiçik ölçülü və bazarda özünə yer tuta bilməyən müəssisələr belə xərclərdən adətən çəkinirlər. Əməyin təhlükəsizliyi və sağlamlığın iqtisadiyyatı hər şeydən əvvəl müəssisədə əmək məhsuldarlığını əhatə edir. İqtisadi ədəbiyyatda iş şəraiti ilə əmək məhsuldarlığı arasındakı əlaqəyə həsr edilən kifayət qədər tədqiqatlara rast gəlmək olar. Belə tədqiqatlar hələ keçən əsrin axırlarından diqqəti cəlb edirdi. İqtisadi ədəbiyyatda bu problem insan resurslarının idarəedilməsi kimi mühüm problemin tərkib hissəsi kimi inkişaf edib. Belə tədqiqatların əsas nəticəsi ondan ibarət idi ki, iş sisteminə işçinin bilik və bacarığı ilə yanaşı, onun rifah səviyyəsi, iş prosesində onu əhatə edən iş şəraiti də təsir edir. İş şəraiti işçinin sağlamlığına, həyatdan zövq almasına, hətta ömürünün uzunluğuna təsir edir. Məhz iş şəraitinin əlverişli olması onun əmək məhsuldarlığına təsir edir [2]. Sehgal S. (2012) [3] öz tədqiqatında iddia edir ki, ofis işçilərinin əmək məhsuldarlığı ofisdə iş şəraitinin nə dərəcədə əlverişli olmasından asılıdır. Mebellərin mövcudluğu və yerləşdirilməsi, işıqlandırma səviyyəsi, səs-küyün səviyyəsi, temperatur və rütubət əmək məhsuldarlığına ciddi təsir edir. Taivo (2020) [4] tərəfindən aparılan tədqiqatda da iddia edilir ki, əmək məhsuldarlığı təkcə işçinin bilik və bacarığından deyil, həm də bu işçi üçün yaradılan iş şəraitindən asılıdır. Hətta əmək məhsuldarlığının 86%-nin iş şəraitindən asılı olması iddia olunur. Taivo (2020) öz tədqiqatında məhsuldarlığın asılı olduğu amilləri daxili və xarici amillər kimi iki qrupa ayırır. Xarici amillər iqlimlə, resursların coğrafi ərazilər üzrə paylanma səviyyəsi ilə, ölkədə fiskal və kredit siyasətlə, infrastrukturun inkişaf səviyyəsi ilə bağlıdır. Müəssisə bu amillərə təsir göstərə bilmir. Lakin elə müəssisədaxili amillər var ki, onların inkişafı və idarəedilməsi müəssisələrin menecmentindən asılıdır. Belə amillər təçkilati və texniki amillərdir. Məsələn, müəssisənin digər müəssisələrlə inteqrasiya səviyyəsi, istehsalın ölçüsü və sair. Müəssisələrin idarəedilməsindən asılı olan amillər sırasına həmçinin insan amillər də daxildir. Belə ki, işçilərlə münasibətlər, iş şəraiti, həmkarlar təşkilatının fəaliyyəti və sair.

Əməyin təhlükəsizliyi və iş yerində sağlamlıq deyəndə biz təkçə fiziki travmaları, ölüm hallarını, zədələnmələri deyil, həm də psixoloji şəraiti nəzərə almalıyıq. Çünki iş yerlərində bədbəxt hadisələrin, demək olar ki, hamısı təsadüfən baş verir və onların qarşısının alınmasında və ya azaldılmasında psixoloji əlverişli iş şəraitinin mühüm əhəmiyyəti var. Əgər müəssisədə işçilər arasında və işçilərlə menecerlər arasında normal psixoloji münasibət varsa, bədbəxt hadisəyə səbəb ola bilən hər bir addım əvvəlcədən diqqətlə izlənilir və mümkün olan səviyyədə aradan qaldırılır. Lakin buna baxmayaraq, belə halların baş verməsini tamamilə aradan qaldırmaq mümkün olmur. Bütün hallarda işəgötürən çalışmalıdır ki, iş şəraiti elə olsun ki, işçinin təhlükəsizliyi və sağlamlığı qorunsun. Belə təhlükəsiz iş şəraitinin yaradılması ilə bağlı tədqiqatlarda müxtəlif təkliflər elmi cəhətdən əsaslandırılır. Məsələn, Akbari və digərləri (2013) [5], həmçinin Ismail və digərləri[6] iş yerlərində fiziki amillərin, o cümlədən, işıqlandırmanın və səs-küyün optimallaşdırılmasını vacib hesab edirlər. Tompa və digərləri (2010) [7], Beevis və Slade (2003) [8], Goggins (2008) [9] və başqaları erqonomik iş şəraitinin yaradılmasını və inkişaf etdirilməsini təklif edirlər. Ajila və Abiola (2004) [10] iş yerlərində təhlükəsizliyin və adekvat əmək haqının təmin edilməsini vacib hesab edir. İş yerlərində mükafatlandırma sisteminin, xüsusilə, karyera qurulmasına imkan verilməsini vacib hesab edən tədiqqatlar da var. Məsələn, van Vegchel və digərləri (2002) [11] mükafatlandırma sistemi ilə işçilərin sağlamlığının qorunması arasındakı disbalansı tədqiq edərək belə nəticəyə gəlirlər ki, iş şəraitindən asılı olaraq, müxtəlif səviyyəli mükafatlar təyin edilməlidir.

Əməyin təhlükəsizliyi və sağlamlığın qorunması məsələsi digər aspektlərlə yanaşı, həm də iqtisadi aspektə malikdir. Baxmayaraq ki, bu problem ilk baxışda iqtisadiyyatdan uzaqdır. Belə ki, işçi ilə işə götürən arasında bağlanan müqavilədə bu problemin iqtisadi tərəfləri o qədər də aydın hiss edilmir. Lakin əməyin təhlükəsizliyi məsələsi birbaşa işçinin sağlamlığı və iş qabiliyyətinin bərpası ilə bağlı olsa da müəssisənin xərcləri və əmək məhsuldarlığı məsələlərinə də müəyyən dərəcədə aidiyyəti var. Digər tərəfdən, işçi qüvvəsinin sağlamlığının təmin edilməsi bütünlükdə iqtisadiyyatın inkişafı üçün zəmindir. Beləliklə, əməyin mühavizəsi və iş yerlərində sağlamlığın

qorunması həm də iqtisadiyyatın predmetidir və bu problemin həllində iqtisad elminin rolunun öyrənilməsi mühüm əhəmiyyətə malikdir.

Müəssisələrdə əməyin təhlükəsizliyi və sağlamlıq problemlərinin iqtisadi aspektdən qiymətləndirilməsi zamanı müxtəlif metodlar tətbiq edilir. Drummond (1997) [12] belə hesab edir ki, belə qiymətləndirmələr edilərkən onları 1) xərclərə; 2) məhsul buraxılışı həcminə; 3) hər iki metodun birgə tətbiqinə uyğun olaraq fərqləndirmək lazımdır. Xərclərlə bağlı metod tətbiq edilən zaman həm xəstəliklərə görə ödəmələr, həm də xəstəliklərlə bağlı, lakin dolayısı ilə olan xərclər nəzərə alınmalıdır. Belə qiymətləndirmələr imkan verir ki, müəssisələrdə bədbəxt hadisələr səbəbindən müəssisənin üzləşdiyi xərclərin pulla ifadəsini müəyyən etmək mümkün olsun. Tompa və digərləri (2006) [13] iş yerlərində təhlükəsiz əmək və sağlamlıqla bağlı 23 tədqiqatı müqayisəli təhlil edərək belə nəticəyə gəliblər ki, bu problemin iqtisadi aspektlərinə az diqqət yetirilir. Digər tərəfdən, belə tədqiqatlar üçün metodoloji baza hələ kifayət qədər təkmil deyil.

Təhlükəsiz əmək şəraitinin iqtisadi aspektləri rentabelliyin analizinin də aparılmasını zəruri edir. Rentabellik və iqtisadi səmərəliliyin hesablanması zamanı əksər hallarda natural vahidlərdən, məsələn, iş yerində nə qədər bədbəxt hadisələr baş verib, ölüm halları nə qədər olub və sair. Belə göstəricilərin maliyyə hesabına gətirilməsi çətindir. Bu problemin iqtisadi aspektinin əsasında xərclər və gəlirlər dayanır. Bu isə problemin toxunduğu tərəflərdən yalnız birinin-iş verənin maraqları ilə bağlıdır. Lakin iş yerində əməyin təhlükəsizliyi və sağlamlıq problemləri birbaşa işçinin və onun ailəsinin rifahına, həmçinin dolayısı ilə cəmiyyətin inkişaf səviyyəsinə təsir edir.

Əməyin təhlükəsizliyinin və iş yerlərində sağlamlığın qorunması ilə bağlı iqtisadi kateqoriyalardan biri də itirilmiş istehsalın dəyəridir. Belə ki, müəssisədə baş vermiş hər hansı bədbəxt hadisə, istehsalat travması müəssisədə bir və ya bir neçə işçinin iş qabiliyyətinin müvəqqəti və ya daimi itirilməsi deməkdir. Bu həmçinin həmin işçinin müvəqqəti olaraq, digərləri ilə əvəz edilmədiyi halda müəyyən həcmdə dəyərin itirilməsidir. Bütünlükdə isə travma alan işçinin ölkənin əmək resurslarından kənarda qalması və müəyyən həcmdə istehsal dəyərinin itkisi baş verir. Belə hallarda itkinin hesablanması üçün insan kapitalı metodundan istifadə edilir və sağlamlığına görə işləməyən işçinin bir saata və ya bir gündə yaratdığı əlavə dəyər onun olmadığı saatlara və ya günlərə vurularaq cəmi itki hesablanır. Məsələn, van Tulder və digərləri (1995) [14] və Hawkins və digərləri (2007) [15] bu metoddan xəstəliklərin makroiqtisadi xərclərinin hesablanmasında istifadə ediblər. van Tulder və digərləri (1995) Niderlandda bel ağrıları səbəbindən işdən yayınmanın iqtisadiyyata verdiyi zərər hesablanıb. Əlbəttə belə ağrıların səbəbi bütün hallarda iş yerlərində əməyin təhlükəsizliyi ilə bağlı deyil. Lakin əksər ölkələrdə, xüsusilə, inkişaf etmiş ölkələrdə, hər hansı müəssisədə çalışan işçinin belə problemləri çıxarsa və onlar müvəqqəti olaraq, işləmək imkanında olmazlarsa, onda müəssisə onların əmək haqqının müəyyən hissəsini ödəməyə borcludur. Məsələn, Niderlandda hələ keçən əsrin 90-cı illərində belə ödəmələrin həcmi ÜDM həcminin 1.7%-ni təşkil edirdi. Yalnız bir xəstəliyə-bel sütunu ilə bağlı xəstəliyə görə bu qədər məbləğin ödənilməsi iqtisadiyyata ciddi təsir edir. Nəzərə alınsa ki, bu ölkədə hərəkətlə bağlı xəstəliklər öz xərcinə əsasən beşinci yerdədir, onda digər xəstəliklərin də iqtisadi nəticələrinin cəminin xeyli yüksək olduğunu iddia etmək olar. Hətta Niderland üzrə bel sütunu ağrısının iqtisadiyyata vurduğu zərər 1991-ci ildə 4.6 milyard dollardan çox olub. Buna görə də əmək qabiliyyətli insanların xəstələnməsi və iş yerlərini müvəqqəti və ya daimi tərk etməsi nəinki ciddi tibbi problemdir, həm də ciddi iqtisadi problemdir.

İş yerlərində əməyin təhlükəsizliyi və sağlamlığın iqtisadi aspektləri, məsələn, müəssisənin istehsal həcminin və gəlirlərinin hesablanması zamanı hər hansı səbəbdən iş yerini tərk etmiş işçinin dərhal və ya bir müddətdən sonra əvəz edilməsi halları nəzərə alınmalıdır. Belə ki, belə işçilər üçün müalicə müddətində kompensasiyanın verilməsi və ya əməyin təhlükəsizliyinə əməl edilmədiyinə görə müvafiq dövlət orqanlarına cərimələrin ödənilməsi xərcləri təşkil etdiyi kimi gəlirlərin də bərpası nəzərə alınmalıdır. Əgər əmək bazarında işsizlik səviyyəsi yüksəkdirsə, yeni işçilərin işə qəbulu tez baş verə bilər. Lakin elə ola bilər ki, müvafiq ixtisasda işçilərin işə qəbulu ciddi problem yarada bilər. Çünki əmək bazarında ixtisaslı işçilərin təklifinin az olması səbəbindən, onlarla yeni və ciddi güzəştlərlə müqavilə bağlamaq zərurəti yarana bilər. Digər tərəfdən, yeni işçilərlə təlimlərin keçirilməsi də əlavə xərclər yaradır.

Koopmanschap və digərləri (1995) [16] tərəfindən aparılan tədqiqatda xəstəliklərin yaratdığı dolayı xərclərin hesablanması metodu təklif edilir. Belə xərclər friksion xərclərə daxildir. Friksion xərclər maliyyə transaksiya əməliyyatlarının həyata keçirilməsi ilə bağlı olan xərclərdir. Müəssisədə baş verən bədbəxt hadisələrə görə və ya digər səbəbləırdən müvəqqəti olaraq işləmək qabiliyyətini itirmiş işçinin əvəzinə yeni işçinin dəvət olunması müddəti müxtəlif amillərdən asılı olur. Belə amillər sırasında əmək bazarının vəziyyəti xüsusi rol oynayır. Əgər əvəz edilməsi zəruri olan işçi yüksək ixtisaslıdırsa, əvəzedicinin dəvət edilməsi müddəti daha uzun ola bilər. Koopmanschap və digərlərinin (1995) hesablamalarına əsasən, müəssisənin üzləşdiyi itkilərin friksion xərc metodu ilə hesablanması belə itkilərin insan kapitalı metoduna əsasən hesablanan həcmindən az olur.

Əməyin təhlükəsizliyi və sağlamlığın qorunması üzrə tənzimləmə və zəruri hallarda stimullaşdırma məsələləri Torén və Sterner (2003) [17] tərəfindən aparılan tədqiqatda öz əksini tapıb. Onlar əmək haqqına mükafatlandırıcı əlavələrin edilməsini təklif edirlər. Onlar belə hesab edirlər ki, iş yerlərində təhlükəsiz əməyin və sağlamlığın təmin edilməsi üçün hüquqi normalar zəruridir, lakin kafi deyil. Hüquqi normalara iş yerlərindəki bəzi qadağalar, vergilər və sair aiddir. Vergilər dövlət tərəfindən, yəni hüquqi norma olaraq qəbul edilsə də, iqtisadi stimul kimi də qəbul edilə bilər. lakin əsas iqtisadi stimul olaraq, sığorta sisteminin inkişaf etdirilməsinə ehtiyac var. Belə sığortalama həm işçilər, həm də işə götürənlər oluna bilər. Sığorta sistemi əməyin təhlükəsizliyinə və sağlamlığa görə profilaktik tədbirlərin vaxtında görülməsinə imkan verə bilər.



Şəkil. Əməyin təhlükəsizliyinin təmin edilməsi üçün hüquqi tənzimləmə və iqtisadi stimullaşdırma. Mənbə: Torén və Sterner (2003)

Dorman (2007) [18] tərəfindən aparılan tədqiqatın nəticələrinə əsasən, Müəsisələrin friksion xərclərlə bağlı rastlaşdığı problemlərin mühüm hissəsi xarici təsirlərlə bağlı olur. Müəssisənin öz daxilində təhlükəsizliyin təmin edilməməsi səbəbindən baş verən bədbəxt hadisələrə görə xərclər friksion xərclərin yalnız müəyyən hissəsini təşkil edir. İnkişaf etmiş ölkələrdə müəssisələrdə baş verən bədbəxt hadisələrə və işçilərin digər xəstəlik hallarına görə ödəmələr birləşdirilir və müəssisə ilə birlikdə dövlət tərəfindən ödənilir. İnkişaf etməkdə olan ölkələrdə isə belə xərclərin mühüm hissəsini fərdlər və ailələr ödəməli olurlar. Buna görə də əməyin təhlükəsizliyi və iş yerlərində sağlamlığın qorunması problemləri üzrə dövlətin iqtisadi subyektlərin fəaliyyətinə müdaxilə etməsi nəinki mümkündür, hətta zəruridir.

Nəticə

İş yerlərində əməyin təhlükəsizliyi ilə bağlı problemlərin iqtisadi aspektlərinin analizi zamanı mühüm əhəmiyyət daşıyan amillər sırasına əmək qabiliyyətini itirmiş işçinin işdə olmaması müddətini və ya təhlükəsizliklə bağlı erqonomik tədbirlərin həyata keçirilməsi üçün tələb olunan zaman, təhlükəsizlik əmək şəraiti ilə bağlı yaranan xərclərin və ya gəlirlərin həcmi, həmçinin əlavə xərclər daxil edilə bilər. Müəssisə təhlükəsiz əmək şəraiti yaratmaq üçün istehsal sexlərində və ya ofisdə zəruri tədbirləri görməli olur. Bu tədbirlərin həyata keçirilməsi müəyyən zaman tələb edir. Digər tərəfdən, erqonomik tədbirlərin görülməsi təkcə zaman deyil, həm də əlavə xərclər tələb edir. Lakin bu xərclər iş şəraitini yaxşılaşdırmaqla gələcəkdə məhsuldarlığı artıra və müəssisəyə əlavə

gəlir gətirə bilər. Ona görə də erqonomik tədbirlər üçün xərclərin hesablanması ilə yanaşı, həm də potensial gəlirlərin də hesablanmasına ehtiyac var. Erqonomik xərclər, yaxud əməyin təhlükəsizliyinə əməl edilmədiyinə görə yaranan xərclər əlavə xərclər kimi də hesablanmalıdır.

Istifadə edilmiş ədəbiyyat:

1. Rezagholi M, Bantekas A. Making economic social decisions for improving occupational health – a predictive cost-benefit analysis. Occup Med Health Aff. 2015;3:6. https://doi.org/10.4172/2329-6879.1000225.
2. Akinyele ST (2007). A Critical Assessment of Environmental Impact on Workers Productivity in Nigeria. Res. J. Bus. Manage. 1(1): 50-61
3. Sehgal S. Relationship between work environment and productivity. Int J Eng Res Appl. 2012;2:1992–5.
4. Taiwo AS. The influence of work environment on workers' productivity: a case of selected oil and gas industry in Lagos, Nigeria. Afr. J Bus Manag. 2010;4:299–307.
5. Akbari J, Dehghan H, Azmoon H, Forouharmajd F. Relationship between lighting and noise levels and productivity of the occupants in automotive assembly industry. J Environ Public Health. 2013;2013:527078. https://doi.org/10.1155/2013/527078.
6. Ismail AR, MRA R, Makhbul ZM, Meier C. Optimization of environmental factors: a study at Malaysian automotive industry. Eur J Sci Res. 2009;27:500–9.
7. Tompa E, Dolinschi R, Oliveira C, Amick BC 3rd, Irvin E. A systematic review of workplace ergonomic interventions with economic analyses. J Occup Rehabil 2010;20:220–234.
8. Beevis D, Slade IM. Ergonomics – costs and benefits. Appl Ergon. 2003;34:413–8.
9. Goggins RW, Spielholz P, Nothstein GL. Estimating the effectiveness of ergonomics interventions through case studies: implications for predictive cost-benefit analysis. J Saf Res. 2008;39:339–44.
10. Ajila C, Abiola A. Influence Of rewards on workers performance in an organisation. J Soc Sci. 2004;8:7–12.
11. van Vegchel N, de Jonge J, Bakker AB, Schaufeli WB. Testing global and specific indicators of rewards in the effort – reward imbalance model: does it make any difference? European Journal of Work and Organizational Psychology. 2002;11:403–21.
12. Drummond MF, editor. Methods for the economic evaluation of health care programmes. 2nd ed. Oxford: Oxford University Press; 1997.
13. Tompa E, Dolinschi R, de Oliveira C. Practice and potential of economic evaluation of workplace-based interventions for occupational health and safety. J Occup Rehabil. 2006;16(3):367–92.
14. van Tulder M, Koes B, Bouter L. A cost-of-illness study of back pain in The Netherlands. Pain. 1995;62(2):233–40.
15. Hawkins K, Wang S, Rupnow MFT. Indirect cost burden of migraine in the United States. J Occup Environ Med. 2007;49(4):368–74.
16. Koopmanschap M, Rutten FH, van Ineveld BM, van Roijen L. The friction cost method for measuring indirect costs of disease. J Health Econ. 1995;14(2):171–89.
17. Torén K, Sterner T. How to promote prevention—economic incentives or legal regulations or both? Scand J Work Environ Health. 2003;29(3):239–45.
18. Dorman P. The economics of safety, health and well-being at work: an overview. Geneva: International Labour Organisation (ILO); 2000 [cited 4 September 2007]. Available from:http://www.ilo.org/public/english/protection/safework/papers/ecoanal

Agayev Emin
Doctoral Candidate of Azerbaijan State University of Oil and Industry

Economic aspects of occupational safety

Summary

The article compares different approaches to the economic aspects of occupational safety and health problems in the workplace. The author concludes that this problem should be approached in the context of income and cost of enterprises, as well as labour productivity.

Keywords: *occupational safety, labour productivity, income, expenses, health*

Агаев Эмин
Докторант, Азербайджанский Государственный Университет нефти и промышленности

Экономические аспекты охраны труда

Резюме

В статье сравниваются различные подходы к экономическим аспектам проблем безопасности и гигиены труда на рабочем месте. Автор приходит к выводу, что к данной проблеме следует подходить в контексте доходов и затрат предприятий, а также производительности труда.

Ключевые слова: охрана труда, производительность труда, доходы, расходы, здоровье.

KADRLARIN İDARƏ EDİLMƏSİ STRATEGİYASININ TƏKMİLLƏŞDİRİLMƏSİ

Əliyeva Xəyalla Həsən qızı, baş müəlim, dissertant
Azərbaycan Texniki Universiteti,
xayalla_aliyeva@mail.ru

Xülasə

Müasir dövrdə təşkilatların fəaliyyətində kadrların artan rolu insan faktorunun, onun intellektual və yaradıcılıq funksiyasının vacibiyyatı ilə əlaqədardır. Kadrların idarə edilməsi iqtisadi, sosial, hüquqi, təşkilati və psixoloji məsələləri əhatə edir. Bu baxımdan kadrların idarə edilməsinə insan resurslarıdan səmərəli istifadəni, işçilərin qabiliyyətinin üzə çıxarılması, motivasiyası və stimullaşdırılması, kadr fəaliyyətinin iqtisadi göstəricilər və təşkilatların nəticələri ilə əlaqələndirilməsi və s. istiqamətləri aid etmək olar:

Açar sözlər: kadr, menecer, təkmilləşdirmə, idarəetmə strategiyası.

İdarəetmə ilk növbədə insanların, daha dəqiq desək, işçilərin fəaliyyətinin koordinasiyası və təşkilidir. Bu, insan faktoru, sosial inkişaf, əməyin təşkili, təşkilati münasibətlər nəzərə alınmaqla insan resurslarından sözün geniş mənasında səmərəli istifadə deməkdir.

Kadrların idarə edilməsnin təkmilləşdirilməsində demoqrafik dəyişikliklər əsas yer tutur. Demoqrafik proseslərin əsasını kadr və əmək potensialının formalaşması və təkmilləşməsi prossesləri təşkil edir. Müəyyən bilik-bacarıqlara və əmək potensialına sahib olan, fiziki və əqli cəhətdən inkişaf etmiş insanların mövcudluğu ictimai istehsal prosesinin bütün sosial-iqtisadi quruluşlarda baş verməsi, eyni zamanda dayanıqlı və səmərəli davam etməsi üçün bir şərtdir.

Araşdırmalara əsasən məlum olmuşdur ki, potensial kadrların inkişafı demoqrafik prosseslərə əsaslanan əhalinin doğum və ya artım səviyyəsinə təsir göstərən milli adətlərə nisbətən daha sürətlə dəyişir. Məşğulluq siyasəti əmək potensialından tam istifadəyə və əmək qabiliyyətli əhalinin işgüzar fəallığına şəraitin təmin edilməsi istiqamətinə yönəlməlidir. Məhz bu vəziyyət əhalinin yoxsullaşmasının və kütləvi işsizliyin qarşısını alır, rəqabət şəraitində vətəndaşların məhsuldar davranışını stimullaşdırır.

Kadrların idarə edilməsi iqtisadi, sosial, hüquqi, təşkilati və psixoloji məsələləri əhatə edir. Buna görə kadrların idarə edilməsinə aşağıdakı aspektləri və istiqamətləri aid etmək olar:

- insan resurslarının səmərəli istifadə;
- işçilərin qabiliyyətinin üzə çıxarılması, fəaliyyətinin motivasiyası və stimullaşdırılması;

- kadr fəaliyyətinin iqtisadi göstəricilər və təşkilatların nəticələri ilə əlaqələndirilməsi;
- insanın fəaliyyətinə iqtisadi, sosial, demoqrafik, mədəni, bioloji, mənəvi dəyər sistemi baxımından yanaşma.

Təşkilatın sosial obyekt kimi idarə olunması iki hissəyə bölünə bilər:

- Təşkilatı xarici mühitlə əlaqəli şəkildə idarə etmək
- Təşkilatın heyət rəhbərliyi

Birinci növü arxa planda qalsa, insan idarəçiliyi probleminin daha aktual olacağı aydındır. Heyət rəhbərliyinin aktual məsələyə çevrilməsinin səbəbi, müasir dövrdə təşkilatın rəqabət qabiliyyətli olması üçün insan amilinin artan roludur. Bəzi təşkilatlar kadr idarəçiliyi probleminə əhəmiyyət vermirlər və nəticədə ümumi strateji idarəetmə kontekstində təşkilatın uğursuzluğunun səbəblərini müəyyənləşdirə bilmirlər. Buna görə məqsədlə nəticə arasında əlaqə yaradan bir vasitə axtarmaq, həm rəhbərliyin, həm də işçilərin motivasiyasına diqqət yetirmək lazımdır. Əldə olunan nəticələrə əsasən təşkilat heyətin idarəetmə strategiyasını yaxşılaşdırma yollarını axtarır. Hər bir təşkilatda uyğun bir qiymətləndirmə sisteminə sahib olmaq işçilərin idarəetmə strategiyalarının təkmilləşdirilməsində mühüm rol oynaya bilər. Məsələn: İdarə heyətinin peşəkar inkişafı: Peşəkar inkişaf, işçilərin işlərini daha səmərəli yerinə yetirmələri üçün lazımi şəraitin yaradılmasına və nəzarətə xidmət edən menecerlərin idarəetmə bacarıqlarının inkişafı ilə əlaqədardır. Hər şeydən əvvəl təşkilat işçilərin işini qiymətləndirməklə həm də menecerlərinin işinin qiymətləndirilməsinə nail olur. Bu qiymətləndirmə vasitəsi ilə rəhbərlik təşkilatın bütün xətt və qərargah vəzifələrində bütün hədəflərə çatmaq üçün hansı bacarıqlara ehtiyac olduğunu müəyyənləşdirir.

Kadr idarəetmə strategiyasının təkmilləşdirilməsi prosesi motivasiya ilə sıx əlaqəlidir. Menecerlərin peşəkar inkişafı ilk növbədə təşkilatın hədəflərinə çatmasına kömək edəcək menecerlərin bilik və bacarıqlarını əldə etməyi hədəfləyir.

Təəssüf ki, bütün təşkilatlar menecerlərin bilik ehtiyaclarını ödəmələri üçün şərait yaratmırlar. İşçilərin işə başladıqdakı gözləntiləri ilə onlara verilən imkanlar uyğun gəlmir. Bu vəziyyətdə işçinin motivasiyası zəifləyir, bilik əldə etmək üçün bir təşviqi olmur. Buna görə də rəhbərlik işçilərin peşə inkişafı sahəsində əlavə bilik və bacarıqlara yiyələnməsi üçün stimul yaratmağı ciddi şəkildə fikirləşməlidir. Bu işçilərin idarə edilməsi strategiyasının təkmilləşdirilməsi və daha da inkişafı üçün çox vacibdir.

Menecerin idarəetmənin bir səviyyəsindən digərinə keçməsi ona təşkilatın müxtəlif şöbələri ilə tanış olmağa imkan verir. Menecer ayrı-ayrı şöbələrin problemləri ilə tanış olur, təşkilatının vacibliyini dərk edir, qeyri-rəsmi qruplarla tanış olur və s. Bunların hamısı həm yüksək, həm də aşağı idarəetmə səviyyələrində səmərəliliyə nail olmağa imkan verir.

Digər vacib vasitə iş prosesində idarəetmə performansını yaxşılaşdırmaqdır. Bəzi təşkilatlar yeni menecerlərə elə sadə tapşırıqlar verirlər ki, təəccüblənirlər. Bir araşdırmaya əsasən yeni menecerə verilən məsələnin çətinliyi ilə gələcək karyerasının uğuru arasında bir əlaqə tapılmışdı. Daha çətin tapşırıqlarla qarşılaşan menecerlər, daha asan tapşırıqlarla qarşılaşanlardan daha yüksək standartlar əldə etmişdilər. Həmçinin onların karyeraları da sürətlə irəliləmişdir.

Kadrların idarəetmə strategiyasını təkmilləşdirməyə yönəldilmiş layihənin həyata keçirilməsi üçün müəyyən xərclər var. Yəni bu proses müəyyən bir xərclə əlaqəli şəkildə həyata keçirilir. Şəxsi idarəetmə strategiyasının təkmilləşdirilməsi ilə bağlı xərclər 2 hissəyə bölünür: birdəfəlik və cari xərclər. Bu xərclərin böyüklüyünə görə, kadr idarəetmə strategiyalarının təkmilləşdirilməsinin effektivliyini qiymətləndirərkən bunları nəzərə almaq daha məqsədəuyğundur.

İdarəetməni təkmilləşdirmək üçün birdəfəlik xərclər aşağıdakı kimi hesablanır:

$$\mathbf{X_b = X_{ist} + K_{qər} + K_{ist} + K_{son}}$$

Burada, X_b – birdəfəlik xərclər; X_{ist} – istehsaldan əvvəlki xərclər; $K_{qər}$ – idarəetmə qərarları ilə bağlı olan kapital qoyuluşu; K_{ist} – istehsalla bağlı olan kapital qouyuluşları; K_{son} – idarəetmə qərarlarının qəbulu mərhələsindən sonrakı istehsal edilmiş kapital qoyuluşları.

İstehsaldan əvvəlki xərclərə tədqiqat xərcləri və heyət rəhbərliyini yaxşılaşdırmaq üçün idarəetmə qərarlarının icrası daxildir. Bu xərclərin məbləği bu işlərin təxmini dəyəri ilə müəyyən edilir. İstehsaldan əvvəlki xərclər təşkilati layihənin həyata keçirilməsinin hər mərhələsinə bölünə bilər:

- texniki-iqtisadi layihələrin hazırlanması
- təşkilati layihə işinin hazırlanması
- ümumi dizaynın hazırlanması
- təşkilati iş layihənin inkişafı

Kadrların idarə olunması strategiyasının təkmilləşdirilməsi üçün xərclərin strukturunu aşağıdakı cədvəl üzrə qruplaşdırmaq olar:

Cədvəl 1. Kadrların idarə edilməsi sisteminin lahiyələndirilməsi üçün xərclərinin strukturu

Təşkilati layihənin işlənib hazırlanması mərhələləri	**Həcmi (%-lə)**
Texniki-iqtisadi layihənin işlənib hazırlanması	10
Əsaslandırma	15
Təşkilati layihələndirmə işinin işlənib hazırlanması	20
ümumi layihənin işlənib hazırlanması	60
təşkilati işçi layihənin işlənib hazırlanması	25
Bütün təşkilati layihə	100

Kadrların idarə edilməsi strategiyasının təkmilləşdirilməsindəki digər bir məsələ işçilərin təhlükəsizliyidir. Təşkilatın rəhbər heyəti icraçılar üçün səliqəli, təmiz və təhlükəsiz iş şəraiti yaratmağa borcludur. Bu zəruri şərtləri yaradan menecer işçilərdən maksimum səmərəliliyi tələb edə bilər. Belə bir mühitin yaradılması işçilərdə motivasiya problemini də həll edir. Bu şərtləri görən işçi daha sürətli motivasiya olunur.

Sosial ziddiyyətlərin həlli də kadrların idarə olunması strategiyasının təkmilləşdirilməsi prosesində katalitik rol oynaya bilər. Şəxsi idarəetmə strategiyasının tərkib hissələrindən biri bu ziddiyyətləri minimuma endirmək, münaqişə və stressləri idarə etmək olmalıdır. Menecer hər bir işçidən bərabər məsafədə dayanmalı, aralarında razılığın və qarşılıqlı anlaşmanın olmasını təmin etməlidir.

Kadrların idarə edilməsi strategiyasının ən vacib elementlərindən biri də təşkilatdakı peşə uyğunlaşması və istiqamətləndirmənin təlim sisteminin vacib bir elementi olmasıdır. Onların işi, gəlirliliyi və rəqabət qabiliyyətini artırmaq üçün quruma lazımi miqdarda işçi qüvvəsi təmin etməyə kömək etməkdir. Menecerlər heyətə yeni kadrlar cəlb edərkən onların peşəkar uyğunlaşmalarına və istiqamətləndirilmələrinə çox diqqət yetirirlər. Hər bir işçinin işinə nə dərəcədə uyğunlaşdığı bir sorğu yolu ilə müəyyən edilir. Bu sistemin idarə edilməsinin təkmilləşdirilməsi və sistemin daha inkişaf etmiş bir versiyasının hazırlanması, ümumiyyətlə kadr idarəetmə strategiyasının inkişafına zəmin yaradır.

Kadr idarə edilməsi strategiyası təşkilatın ümumi strategiyası ilə sıx əlaqəlidir. Belə ki, kadr idarəetmə strategiyası təşkilatın ümumi strategiyasına uyğun olaraq dəyişdirilə bilər. Deməli, təşkilatdakı kadr idarəetmə strategiyasının təkmilləşdirilməsi təşkilatın ümumi strategiyasının təkmilləşdirilməsi ilə əlaqədardır.

Təşkilatda kadr idarəetmə strategiyasının təkmilləşdirilməsində ən vacib məsələlərdən biri də işçilərin peşəkar vəzifələrə gətirilməsinin idarə edilməsidir. Beləliklə, xidmət və peşəkar vəzifələrdə yüksəliş bir neçə mərhələdən keçir. Həmin prosesin hər mərhələsinin icrasına nəzarət sisteminin formalaşdırılması təkmilləşdirilir. Bu, heyətdə liderə və quruma qarşı əlavə inam və motivasiya yaradır. Bu vəziyyətdə kadrların idarə edilməsi prosesi asan baş verir.

Nəticə

Təşkilatın idarəetmə strategiyasının təkmilləşdirilməsi məsələlərinə kadr və idarəetmə işçilərinin sayının artırılması, fəaliyyətin düzgün qiymətləndirmə sisteminin təkmilləşdirilməsi, peşəkar inkişaf xərclərinin optimallaşdırılması, işçilərin təhlükəsizliyi və əmək təhlükəsizliyi, istehsalın həlli və s. daxildir. Bütün bunların həlli təşkilatın kadr idarə olunması strategiyasının təkmilləşdirilməsində əsas rol oynaya bilər.

Ədəbiyyat siyahısı

1. İslamzadə Ə.A. "İnsan resurslarının idarə edilməsi və sosial inkişaf" BAKI-2012 .471s.
2. Ehnert Inna Harry. "Sustainability and Human Resources Management". 2013
3. Mick Marchington. "Human Resources Management at Work" 2016
4. S.Simon. "Personnel and Human Resources Management". 2001
5. www.stat.gov.az – Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi
6. http://www.humanresources.org/

Aliyeva Khayalla Hasan,
Azerbaijan Technical University, Senior Lecturer, PhD student

Improving Personnel Management Strategy

Summary

The growing role of personnel in the activities of organizations in modern times is due to the importance of the human factor, its intellectual and creative function. Personnel management covers economic, social, legal, organizational and psychological issues. In this regard personnel management includes the effective use of human resources, identification, motivation and stimulation of employees, linking personnel activities with economic indicators and the results of organizations, etc. directions can be attributed to:

Keywords: personnel, manager, improvement, management strategy.

Алиева Хаялла Гасан,
Азербайджанский Технический Университет, старш. преподаватель, диссертант

Совершенствование стратегии управление кадрами

Резюме

В современное время возрастающая роль кадров в деятельности организаций связана важностью человеческого фактора, его интеллектуальной и творческой функции. Управление кадрами охватывает экономические, социальные, правовые, организационные и психологические вопросы (проблемы). С этой точки зрения к управлению кадрами можно отнести эффективное использование человеческих ресурсов, выявление способностей работников, их мотивацию и стимулирование, координацию экономических показателей деятельности кадров и результатов организаций и другие направления:

Ключевые слова: кадр, менеджер, совершенствование, стратегия управления.

ÖLKƏ İQTİSADİYYATININ İNKİŞAFINDA UNİVERSİTET-SƏNAYE-DÖVLƏT ƏMƏKDAŞLIĞI.

Səfər HÜSEYNOV
Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi Elmi Tədqiqat İnstitutu
e-mail: safarguseynov96@mail.ru

Xülasə: Müasir dövrdə rəqabət qabiliyyətinin ən mühüm elementi, şübhəsiz ki, yeni texnologiyalar istehsal edə bilməkdir. Bu gün texnologiyanı inkişaf etdirməyin yolu universitetlərdə və şirkətlərdə aparılan araşdırmalarla bilik istehsal etmək, sonra isə istehsal olunan bilikləri praktikada tətbiq etmək olarsa texnologiyaya çevirməkdir. Bu əməkdaşlıq yalnız ictimai miqyasda bəzi interfeyslərin işlənib hazırlanması və lazımi təşviqedici hüquqi tənzimləmələrin yaradılması ilə səmərəli şəkildə təmin edilə bilər. Ona görə də dövlətin universitet-sənaye əməkdaşlığında asanlaşdırıcı və həvəsləndirici rol oynaması mühüm şərtdir.

Açar sözlər: iqtisadi inkişaf, sənaye, texnopark, əməkdaşlıq, innovasiya

Son illərdə sənayeçilərin ən böyük problemlərindən biri də Uzaq Şərqin, xüsusilə Çin mallarının dünya bazarında yaratdığı haqsız rəqabətdir. İstehsalçılar haqsız rəqabət dedikdə Çin

mallarının dünya bazarında keyfiyyəti aşağı olsa da ucuz qiymətə satışa çıxarılır. İstehsalçılar tərəfindən bu şəkildə ümumiləşdirilən problem əslində sənaye ölkələrinin rəqabət qabiliyyətinin müəyyənedicisi kimi qəbul edilməlidir. Açıqca qeyd etmək olar ki; Türkiyə, Rusiya, Azərbaycan və ya oxşar şərtləri olan heç bir ölkə idxal texnologiyası ilə əvvəllər istehsal edilmiş məhsul/xidmət istehsal etməklə dünya rəqabətqabiliyyətlilik indeksində yüksək yer tuta bilməyəcək. Belə olan halda heç bir ölkə nə inkişaf etməkdə olan ölkə kateqoriyasından inkişaf etmiş ölkə kateqoriyasına keçə, nə də adambaşına düşən ümumi milli məhsulunu müəyyən həddən yuxarı qaldıra bilməyəcəkdir.

Porter "cəmiyyətin rifahının yüksəldilməsi" çərçivəsində "rəqabət qabiliyyəti" anlayışını təhlil etmiş və konsepsiyanı məhsuldarlığı artırmaq qabiliyyəti kimi müəyyən etmişdir [1]. Porter dünyada rəqabət yarışının tamamilə yenilikçi şirkətlər arasında olduğunu, bu şirkətlərdə texnoloji yenilik yaratmaq bacarığının səmərəliliyi artırdığını və beynəlxalq bazarda rəqabət üstünlüyü təmin etdiyini ifadə edir.

Buna görə də, yeni məhsullar və yeni texnologiyaların yaradılması və iqtisadi artıma töhfə vermənin ilk addımı elm adamları (tədqiqatçılar) və texnologiya adamları (mühəndislər) əməkdaşlığını təmin etmək, ikinci addım isə nəticəni iqtisadi dəyərə çevirəcək sahibkarlıq strukturunu həyata keçirməkdir.

Aydındır ki, milli miqyasda innovasiya və sahibkarlığın qurulması və təşviqi üçün üçlü sütun lazımdır. Biliyin istehsal olunduğu və cəmiyyətə yayıldığı qurumlar əsasən universitetlərdir. Cəmiyyətdə əlavə dəyər və zənginlik də şirkətlər vasitəsilə istehsal olunur. Universitet və iş dünyası arasında dialoq mühitini təmin edəcək və təşviq edəcək üst quruluş şübhəsiz ki, dövlətdir.

Bu üç elementin iqtisadi inkişafı təmin etmək üçün qurduqları əlaqələr bu məqalənin də mövzusu olan qruplaşmaya səbəb olmuşdur. Universitetlər, böyük şirkətlər, start-up texnologiya şirkətləri və onları birləşdirən ekosistem; Həvəsləndirici qanunvericilik, təchizatçılar, insan resursları infrastrukturu və maliyyələşdirmədən ibarət olan bu klaster modeli dünyada bir çox texnoloji yeniliklərə və sürətlə parlayan şirkətlərə ev sahibliyi etmişdir.

Texnoparklar universitetlərdə istehsal olunan elmin iqtisadiyyatda istifadə oluna biləcək texnologiyaya çevrilməsinə imkan yaradır, həmçinin inkubasiya, vençur kapitalı fondları və s. kimi alətlərlə sahibkarlığı dəstəkləyən strukturlardır.

Ənənəvi cəmiyyətlərdə kənd təsərrüfatının ön planda olduğu və iqtisadi rifahın əzələ gücünə əsaslandığı quruluşdan torpağı daha yaxşı emal edə bilən, daha çox heyvan ovlaya bilən, daha çox meyvə-tərəvəz toplaya bilən cəmiyyətlərə keçid keçidin ilk mərhələsi kimi qəbul edilir. Bəşəriyyətin tarixi prosesdə inkişafı sənaye inqilabına səbəb oldu və əzələ gücü yerinə beyin gücünə əsaslanan iqtisadiyyata keçid prosesini başladı [2]. Bu illərdə daha çox maliyyə, daha az xərclə və yüksək keyfiyyətlə istehsal edə bilən cəmiyyətlər fabrik istehsalına keçərək digərlərindən üstünlük qazanmağa başladılar [3].

İnnovasiyanı təmin edən strukturun ən mühüm elementləri elmin istehsal olunduğu universitetlər, istehsal olunan məlumatların məhsula (texnologiyaya) çevrilərək bazara çıxarıldığı şirkətlər və bu sistem üçün mühiti hazırlayan idarəetmə (dövlət) mexanizmidir. Bu üçlük nə qədər ahəngdar və səmərəli işləsə, onların iqtisadi sistemə töhfələri bir o qədər çox olacaq. Çünki universitetdə istehsal olunan biliklər birbaşa sənayedə istifadə oluna bilməz. Eyni şəkildə, çox az sənaye müəssisəsi yeni məhsullar hazırlamaq və ya məhsullarını texnoloji cəhətdən üstün etmək üçün infrastruktura malikdir. Bu problemi həll etmək və hər iki tərəfi bir-biri ilə danışdırmaq üçün bəzi interfeyslərə ehtiyac var [4]. Bu interfeysi təşkil edənlər isə texnoparklar, araşdırma inkişaf mərkəzləri, texnologiya transferi ofisləri, inkubatorlar və s. strukturlardır. Bu interfeys institutlarının yaradılması və düzgün işləməsi üçün hökumətin rəhbərliyi və dəstəyi vacibdir.

İnkişaf etməkdə olan ölkələrin ən böyük problemi texnologiyanı inkişaf etdirə bilmədiklərinə görə almaq məcburiyyətində qalmalarıdır. Satınalma açar təslim obyektin alınması, know-how alışı, lisenziya müqaviləsi, məsləhət xidmətlərinin satın alınması kimi müxtəlif formalarda ola bilər. Burada problem ondan ibarətdir ki, ötürülən texnologiya bir sıra elementlərə daxil edilib və köçürən tərəfə bu texnologiyanı tam mənimsəməyə imkan vermir. Alıcının işi sadəcə düyməni basıb maşını işə salmaqdır. Bu kontekstdə satın alınan texnologiyanı daha da inkişaf etdirmək imkanı yoxdur.

Buna görə də, daimi xarici asılılıq və texnologiya tərtibatçısının verməyə hazır olduqları ilə kifayətlənmək vəziyyəti var. Bu, bir addım geridə qalmaq və həmişə əlverişsiz vəziyyətdə olmaq deməkdir.

Buna görə də qlobal miqyasda rəqabət qabiliyyətinin birinci şərti yeni texnologiyaların inkişafıdır [5]. Yeni texnologiyaların inkişaf etdirilməsi üçün bu texnologiyanın əsasını təşkil edən məlumatları istehsal edən strukturlar və bu məlumatı texnologiyaya çevirəcək və bazara çıxaracaq strukturlar, yəni şirkətlər sağlam ünsiyyətdədirlər.

Universitet texnoparklarının əməkdaşlıq və tətbiqləri interfeysləri: Texnologiyanın inkişafı və bu inkişafdan asılı olaraq iqtisadi artım bir çox tədqiqatların mövzusu olmuşdur. Universitet - Sənaye - Dövlətin birgə yaşayışı və kəsişmə sahələri də Etzkowitz tərəfindən bir model kimi izah edilir. Triple Helix adlanan bu model sonradan Leydesdorff tərəfindən hazırlanmışdır [6]. Bu model ven diaqramı ilə dövlət, özəl sektor və akademik dünya arasında innovasiya üçün institusional əlaqələri təmsil edir və sözügedən strukturun müxtəlif səviyyələrində bu əlaqələri qurmaqla biliyin kapital kimi istifadəsini izah etməyə çalışır. Təcrübədə bu model üçün uyğun olan bir çox proqramlar hazırlanmışdır [4].



Qrafik 1: Triple Helix modeli

Etzkowitz, H. and Leydesdorff, L., "The Dynamics of Innovation From National Systemsand "Mode 2" To A Triple Helix Of University-Industry-Government Relations", Research Policy, Vol. 29 No. 2, 2000, s.111.

Texnoparkların əsas məqsədi universitetlərdə və tədqiqat mərkəzlərində akademik bilik və tədqiqat potensialını texnoloji məhsullara çevirərək kommersiyalaşdırmaqdır [7]. Beynəlxalq Elm Parkları Assossasiyasına (IASP) görə texnopark;

- Bir və ya bir neçə universitet və tədqiqat mərkəzi ilə əlaqəli olan,
- İnformasiya və qabaqcıl texnologiyaya əsaslanan şirkətlərin yaradılmasını və inkişafını təşviq etmək üçün nəzərdə tutulan,
- Texnologiya transferi və biznesin idarə edilməsində şirkətlərinə dəstək olmaq üçün idarəetmə funksiyasına malik həvəsləndirici və mülkiyyətə əsaslanan müəssisədir.

Texnologiyaya əsaslanan startapları dəstəkləmək üçün digər mühüm vasitələrdən biri də "biznes inkubatorları"dır. Bu mexanizm texnologiya yönümlü ideyaların kommersiyalaşdırılması istiqamətində yeni şirkətlərin inkişafı üçün uyğun mühit yaratmaq məqsədi daşıyır.

Biznes inkubatorları [8];

- Çap aparatları, telefonlar, kompüterlər və internetə çıxış kimi avadanlıqların birgə istifadəsi
- Ortaq konfrans zalları və iclas otaqları və digər inkubatorlarla qeyri-rəsmi qarşılıqlı əlaqə
- Kargüzarlıq, mühasibatlıq, marketinq və hüquqi dəstək kimi yeni başlayanlar üçün ortaq xidmətlər
- Marketinq planı, biznes planı, maliyyə sistemi və mühasibat uçotunda texniki yardım
- Təchizatçılara birgə alış və dəyər zəncirində yuxarı və aşağı əməliyyat amillərinə nisbətən inkubasiya edilmiş startaplar arasında əlaqələr
- Başlanğıc mərhələsində maliyyə vəsaitinin əldə edilməsinə köməklik göstərilən birgə müəssisələrdir.

Texnoparklar və inkubasiya mərkəzləri birgə işləyir. İnkubasiya mərkəzləri startapları, texnoparklar isə inkişaf edən şirkətləri dəstəkləyən mühitlər yaradır. Yəni şirkətlər inkubasiya mərkəzi sayəsində inkişaf edə, texnopark daxilində özünü təmin edən şirkətə çevrilə bilər.

Universitet-Sənaye Əməkdaşlıq Mərkəzləri universitet-sənaye əməkdaşlığını təmin etmək və birgə səylərin müvəffəqiyyəti ilə effektivliyini nümayiş etdirmək üçün universitetlər daxilində yaradılmış strukturlardır [9]. Bu mərkəzlər dövlət tərəfindən təşviq, insan resursları, təhsil - məsləhət xidmətləri, elmi tədqiqatlar, layihələrin idarə edilməsi və s. sahələrində özəl sektora və tələbələrə töhfə verməyi hədəfləyirlər.

Texnologiya Transfer Mərkəzləri universitet tədqiqatlarının nəticələrini kommersiyalaşdıran və bu prosesi peşəkar yanaşma ilə idarə edən bir və ya bir neçə universitet və tədqiqat institutu ilə birbaşa və ya dolayısı ilə əlaqəli olan institusional mexanizmlər kimi müəyyən edilir [10].

Dövlət həm ekosistemlərin formalaşmasında, həm də bu interfeyslərin maliyyələşdirilməsində mühüm rola malikdir. Bununla belə, müasir yanaşma dövlətə yalnız tənzimləyici və həvəsləndirici rol verir və maliyyələşdirmənin özəl sektor, xüsusilə də inkubasiya mərkəzləri tərəfindən təmin edilməli olduğunu müdafiə edir.

Nəticə

Ölkəmizin inkişaf etməkdə olan ölkələr kateqoriyasından inkişaf etmiş ölkə kateqoriyasına yüksəlməsi yalnız öz texnologiyasını inkişaf etdirmək, yüksək əlavə dəyərli məhsullar istehsal etmək və bütün dünyada satışa çıxarmaqla mümkün olacaq. Yuxarıda qeyd edildiyi kimi, bunun üçün edilməli olan, universitetlərdə istehsal olunan elmi texnologiyaya çevirəcək və bazara çıxaracaq ekosistemin qurulması və işlədilməsidir.

Ədəbiyyat

[1] M. E. PORTER, "The Competitive Advantage of Nations," Harward Business Review, pp. 73-93, March – April 1990.

[2] W. MCNEIL, "Dünya Tarihi," İmge Kitabevi. Ankara., 1994.

[3] H. N. BAYRAÇ, "Yeni Ekonomi'nin Toplumsal. Ekonomik ve Teknolojik Boyutları," Osmangazi Üniversitesi Sosyal Bilimler Dergisi, vol. 4, no. 1, pp. 41-62, 2013.

[4] M. KİPER, "Dünyada ve Türkiye'de Üniversite-Sanayi İşbirliği ve Bu Kapsamda Üniversiey-Ьlanayi Ortak Araştırma Merkezleri Programı (ÜSAMP).," Türkiye Teknoloji Geliştirme Vakfı, 2010.

[5] Y. v. R. D. O. BÜLBÜL, "Teknoparklar Teknolojik Bilginin Ticarileşmesi.," İTO., 2011.

[6] H. a. L. L. ETZKOWITZ, "The Dynamics of Innovation From National Systemsand "Mode 2" To A Triple Helix Of University-Industry-Government Relations," Research Policy, vol. 29 №2, 2000.

[7] M. ROERSEN, "Internationalizing Technopark," Universiteit Twente Y.L., 2018.

[8] S. M. Hüseynov, "Biznes İnkubatorlar və İqtisadi inkişaf," Uluslararası Marmara Bilimsel Araştırmalar ve İnnovasyon Kongresi, 2022.

[9] K. K. Y. E. KAYMAZ, "Determining Factors Hindering University Industry CollaborationAn Analysis from the Perspective of Academicians in the Context of Entrepreneurial Science Paradigm," International Journal of Social Inquiry, vol. 4 № 1, pp. 185-213, 2011.

[10] WORLD INTELLECTUAL PROPERTY ORGANIZATION, "Technology Transfer. Intellectual Property And Effective University-Industry Partnerships: The Experience of China. India, Japan, Philippines, The Republic of Korea, Singapore and Thailand.," 2007.

Unıversıty-ındustry-state cooperatıon ın the development of the country's economy.

Safar puseynov

Economic Scientific Research Institute under the Ministry of Economy of Azerbaijan Republic

Abstract: Undoubtedly, the most important element of competitiveness in modern times is the ability to produce new technologies. Today, the way to develop technology is to produce knowledge through research in universities and companies, and then to turn the knowledge produced into technology if it can be applied in practice. This cooperation can only be effectively ensured through the development of some interfaces at the public level and the creation of the necessary incentive legal arrangements. Therefore, it is important for the state to play a facilitating and encouraging role in university-industry cooperation.

Key words: economic development, industry, technopark, collaboration, innovation

ВУЗ-промышленно-государственное сотрудничество
в развитии экономики страны.

Сафар Гусейнов
Экономический Научно-Исследовательский Институт при Министерстве Экономики Азербайджанской Республики

Резюме: Важнейшим элементом конкурентоспособности в наше время, несомненно, является способность производить новые технологии. Сегодня путь развития технологий заключается в том, чтобы производить знания посредством исследований в университетах и компаниях, а затем превращать полученные знания в технологии, если их можно применить на практике. Это сотрудничество может быть эффективно обеспечено только путем развития некоторых интерфейсов на публичном уровне и создания необходимых стимулирующих правовых механизмов. Поэтому важно, чтобы государство играло облегчающую и поощряющую роль в сотрудничестве между университетами и промышленностью.

Ключевые слова: экономическое развитие, промышленность, технопарк, сотрудничество, инновации.

РЕЗУЛЬТАТИВНАЯ И ЭФФЕКТИВНАЯ СИСТЕМА УПРАВЛЕНИЯ ОХРАНОЙ ТРУДА – КАК ОДИН ИЗ ФАКТОРОВ РАЗВИТИЯ ЭКОНОМИКИ АЗЕРБАЙДЖАНА

Рза Абдулазизов Салех оглу, докторант
Азербайджанского Государственного Университета
Нефти и Промышленности
e-mail: rza.abdulazizov.sa@asoiu.edu.az

ВВЕДЕНИЕ

В 2021 году в Азербайджане официально (01.05.2021) вступил в силу стандарт AZS ISO 45001:2021 «Системы менеджмента охраны здоровья и безопасности труда – Требования и рекомендации по применению» [4]. Она заменила собой предыдущий стандарт AZS STB 18001:2008 «Системы менеджмента безопасности труда и охраны здоровья». Данные стандарты заключают в себе основные подходы и рекомендации Международной организации труда (Руководство по системам управления охраной труда. МОТ–СУОТ 2001), и основываются на применении концепции цикла Plan-Do-Check-Act (PDCA) [2]. Приоритет в данной концепции отдается превентивным мерам при создании дееспособной системы управления охраной труда (СУОТ, русский аналог «occupational health and safety management system»), а также эффективным постсобытийным мерам, которые должны существовать в компании в «отработанном» виде и гармонично интегрированы в единую систему управления организацией. Ознакомившись с этим документом можно прийти к выводу, что для претворения в жизнь всех элементов системы, и наконец перенести сам дух вышеизложенных подходов, а именно, для эффективного планирования, обеспечения и

функционирования, оценки результатов деятельности, и наконец постоянного улучшения системы необходимо располагать обширной, достоверной и адекватной информацией, то бишь исходными данными, искаженность и недостоверность которых непосредственно влияют на эффективность и результативность функционирования внедряемой СУОТ. Расположение неточными и не соответствующими положению дел «на месте» данными негативно, а порой и фатально сказывается на управленческих (стратегических) решениях менеджмента любого ранга [1,3].

Ключевые слова: *результативность, эффективность, несчастные случаи на производстве, профессиональные заболевания, система управления охраной труда.*

Никому не секрет, что эффективные мероприятия по охране труда рано или поздно сказываются в таких показателях как производительность труда, уровень смертности от внешних причин (травм, отравлений и др.), эффективность и конкурентоспособность предприятия и самой экономики в целом, так и на др. немаловажных показателях. Так, одной из национальных приоритетов государственной политики в области демографии, согласно принятой «*Концепции демографического развития Азербайджанской Республики*» от 09.12.1999 г., являлась «увеличение продолжительности жизни по полу и возрасту путем последовательного снижения уровня смертности населения, в частности матерей и детей, а также лиц в трудоспособном возрасте». Кроме того, согласно распоряжению президента АР «*Об утверждении Государственной Программы в области демографии и развитию народонаселения в Азербайджанской Республике*» от 11.11.2004 г. «в целях укрепления здоровья населения и продления жизни предусмотрены конкретные меры по …снижению инвалидности и смертности в результате несчастных случаев, отравлений и травм, меры по улучшению условий и охраны труда». В целях обеспечения занятости за счет более эффективного использования трудовых ресурсов Указом Президента АР от 26 октября 2005 года была утверждена «*Стратегия занятости Азербайджанской Республики (2006-2015 годы)*». В целях обеспечения реализации Стратегии занятости в два взаимодополняющих этапа были изданы указы от 15 мая 2007 года от 15 ноября 2011 года на 2007-2010 и 2011-2015 годы соответственно. Одной из приоритетов принятой «*Государственной программы по реализации стратегии занятости Азербайджанской Республики (2007-2010 годы)*» декларировалось «достижение устойчивого развития, направленного на обеспечение достойного труда». В 2011 г. была принята «*Государственная Программа по реализации Стратегии занятости Азербайджанской Республики (2011-2015 гг.)*», которая также одной из своих целей ставила «создание рабочих мест, отвечающих современным требованиям к условиям труда» и распределила вытекающие из этого задачи среди различных исполнительных органов власти (с привлечением Конфедерации профсоюзов Азербайджана) [1].

В ходе реализации Стратегии занятости уровень безработицы снизился с 7,3% до 5%, уровень бедности снизился с 29,3% до 4,9%, доходы населения увеличились в 5,2 раза, минимальная заработная плата в 3,5 раза, среднемесячная номинальная заработная плата в 3,8 раза. Таким образом, в результате принятых госпрограмм и реализованных мероприятий, производительность труда (1 человеко-час) увеличилась с 2,35 маната (2,6 доллара США) в текущих ценах в 2006 году до 7,59 маната (4,4 доллара США) в 2017 году. Так, в 2016 году производительность труда в добывающей промышленности составила 257,7 маната (161,4 доллара США) в текущих ценах, в сельском хозяйстве - 1,03 маната (0,6 доллара США), в

обрабатывающей промышленности - 6 манатов, 3 маната (3,9 доллара США). долларов) и 9,4 маната (5,8 доллара США) в сфере строительства. Низкий уровень производительности труда в сельском хозяйстве объясняется неэффективным использованием интенсивных методов, инноваций и консультационных услуг в этой области, а также тем, что большая часть рабочей силы не квалифицирована. С другой стороны, необходимо усовершенствовать систему учета производительности труда, чтобы проводить регулярные расчеты по этим направлениям. За последние 7 лет ВВП Азербайджана увеличился вдвое, промышленное производство в 2,8 раза, доходы госбюджета в 9,3 раза, инвестиции в основной капитал в 2,9 раза, внешнеторговый оборот в 5,4 раза, в том числе экспорт в 8,2 раза [1].

К более последним и значимым документам можно отнести принятую «*Стратегию занятости Азербайджанской Республики на 2019-2030 годы*», в которой также одним из приоритетов объявлена «усиление контроля за обеспечением минимальных норм (требований) труда на рабочем месте; усиление условий труда на рабочих местах, усиление государственного контроля за соблюдением требований охраны труда», а также соответствующие задачи, вытекающие из этих приоритетов. В целях поэтапной реализации намеченных приоритетов и задач был принят «*План мероприятий по реализации Стратегии занятости на 2020-2025 годы*», в которых расписаны мероприятия и их исполнители в лице соответствующих органов исполнительной власти (с привлечением Конфедерации профсоюзов Азербайджана) [1].

Наиболее значимым документом, свидетельствующим о намерении правительства в сфере охраны труда можно отнести Постановление о заключении Генерального коллективного договора на 2018-2019 годы между Кабинетом Министров Азербайджанской Республики, Конфедерацией профсоюзов Азербайджана и Национальной конфедерацией предпринимателей (работодателей) Азербайджанской Республики. Согласно Коллективному Договору, а именно ее главе 5 «Защита трудовых прав, охрана труда, техническая и экологическая безопасность» предусматривается реализация 20-ти мероприятий связанных с охраной труда и здоровьем рабочего населения [1].

Таким образом, согласно запланированным мероприятиям ожидается улучшение уловий труда трудящихся, увеличение конкурентоспособности производимой национальной продукции, улучшение здаровья и благосостояния населения и в конечном итоге – увеличение ВВП страны. Так, в «*Стратегии занятости Азербайджанской Республики на 2019-2030 годы*», п.п. 3.3.4. посталена цель «достичь более высокого уровня экономической производительности, сосредоточив внимание на областях с высокой добавленной стоимостью и трудоемких областях, и ***удвоить*** производительность труда к 2030 году». Кроме того, согласно заявленным целям Стратегии, выполнив все поставленные задачи по ссответствующим госпрограммам и прочее, до 2030 г. ***возможно будет***: достичь значительного увеличения в количестве наемных работников (до 80%, в не сельскохозяйственных отраслях); снизить уровень безработицы (4%), в том числе до минимума среди молодежи и женщин; снизить долю молодых людей (15-24 лет), не охваченных рынком труда или образованием, на 15 процентов; достигнуть эффективной занятости и достойной работы для всех групп населения к 2025 году; увеличить соотношение средств, выделяемых на активные программы на рынке труда, к ВВП на 0,1%; повысить до 70% уровень занятости граждан, обратившихся в государственную службу занятости; достичь привлеченности не менее 20% граждан, обратившихся в органы государственной службы занятости для прохождения профессионального обучения; достичь увеличения

количества региональных центров профессионального образования до 10; увеличить охват программой самозанятости до 6 раз; разработать профессиональные стандарты для всех приоритетных профессий на рынке труда, созданы механизмы их регулярного обновления и будут разработаны все учебные программы в профессиональном образовании на основе профессиональных стандартов и пр. Более того, согласно недавним заявленным планам правительства АР, планируется новый десятилетний план развития, который предусматривает рост ВВП Азербайджана в среднем на 7% в год, и потребует значительных усилий для достижения цели ***удвоения*** экономики страны к 2030 году. Также отмечается, что двойной рост будет осуществлен за счет развития ненефтяного сектора, при котором доля последнего в ВВП достигнет 80%. Согласно среднему сценарному прогнозу ООН, общий прирост населения в Азербайджане продолжится в ближайшие годы и достигнет 10,7 миллиона человек в 2030 году [1].

ВЫВОДЫ

Не трудно догадаться, что достижение поставленных выше целей будет возможным не только многомиллиардными вливаниями в виде инвестиций в основные средства производства, инфараструктурные проекты, но также *посредством глубокого реформирования, совершенствования и постоянного поддержания на должном уровне национальных основ систем управления охраной труда*. К последнему можно отнести требования Руководства МОТ по СУОТ, национальное Руководство по СУОТ, специальные Руководства по СУОТ и СУОТ по организациям. Так, согласно «*Руководству по системам управления охраной труда*» (МОТ–СУОТ 2001), каждая страна посредством компетентного учреждения должна осуществлять и периодически пересматривать согласованную национальную политику по созданию и содействию развитию систем управления охраной труда в организациях с учетом консультаций с наиболее представительными организациями работодателей и работников и, при необходимости, с другими органами. Также подготавливаются и должным образом подтверждаются специальные Руководства, которые отражают общие цели Руководства МОТ, включающие базисные элементы национального Руководства и отражающие специфические условия и нужды организаций или групп организаций (например, специальные требования по организации СУОТ для предприятий в нефтеперерабатывающей, химической, горнодобывающей отраслях, в с/х и прочее). Каждое предприятие в соответствии с требованиями охраны труда, установленным национальными законами и правилами, а также международными практиками и подходами, организует и поддерживает на должном уровне дееспособную и эффективную систему управления охраной труда. Таким образом, выстраивается гармонично работающая система, включающая в себя и учитывающая как международные практики и подходы (МОТ, ИСО и пр.), но также и национальные основы СУОТ, руководство (также и специальные) по СУОТ, соответствующее законодательство и наконец, подготовленные и подтвержденные локальные нормативно-правовые акты отрганизаций.

СПИСОК ИСПОЛЬЗОВАННОЙ ЛИТЕРАТУРЫ

1. Единая электронная база данных правовых актов Министерства юстиции Азербайджанской Республики http://www.e-qanun.az/

2. Руководство по системам управления охраной труда (МОТ-СУОТ 2001 / ILO-OSH 2001). – Женева: МОТ, 2003. -28с.

3. ССБТ. Системы управления охраной труда. Общие требования. ГОСТ 12.0.230-2007 Принят Межгосударственным советом по стандартизации, метрологии и сертификации (протокол N 28 от 27 марта 2007 г. по переписке, Азстандарт), https://docs.cntd.ru/document/1200052851

4. «Система управления охраной труда и техникой безопасности. Пояснительные требования к использованию» AZS ISO 45001:2021 (Приказ №212323400029 от 31 марта 2021 г.) http://azstand.gov.az/az/news/123 (апрель 2021 г.)

POST-NEFT İQTİSADİYYATININ İNKİŞAF İSTİQAMƏTLƏRİ

AZƏRBAYCAN İQTİSADİYYATININ İNKİŞAF MEYLLƏRİ VƏ DİVERSİFİKASİYALAŞDIRILMASI PROBLEMLƏRİ

Arif Şəkərəliyev
Əməkdar elm xadimi, i.e.d.professor (Az.DİU - UNEC)
arifshakaraliyev@1949mail.ru

Xülasə

Respublikamızın iqtisadi prioritetlərinin milli iqtisadi maraqlar əsasında formalaşdırılması prosesləri iyirmi birinci əsrin əvvəllərindən başlayaraq xeyli intensivləşmişdir.

Belə ki, ölkəyə neft gəlirlərinin axını ilə əlaqədar olaraq, milli iqtisadiyyatın infrastrukturunun yenilənməsi, ayrı-ayrı sahələrin modernizasiyası prosesləri intensivləşmişdir. Azərbaycanda iqtisadi siyasətin daha iri miqyaslı hədəfləri özündə birləşdirən modeli işlənib hazırlanmış, ölkənin xarici ticarət siyasəti əhəmiyyətli səviyyədə güclənmişdir.

Ölkə iqtisadiyyatının inkişafında ən mühüm meyllərdən biri regionların iqtisadi fəallığının artması, onların dünya iqtisadi proseslərinə inteqrasiyasının təşkili və ixrac potensialının formalaşmasıdır. Qloballaşma şəraitində rəqabət qabiliyyətinin artması diqqəti cəlb edən əsas məsələdir.

Müstəqillik əldə etdikdən sonra Azərbaycan iqtisadiyyatı bir çox ciddi problemlərlə üzləşmişdir. Ölkə iqtisadiyyatının müxtəlif sektorları iflic halına qədər proseslər yaşamışdır. 1994-cü ildən başlayaraq, Azərbaycanda milli karbohidrogen ehtiyatlarından səmərəli istifadənin təşkili istiqamətində, yəni neft strategiyasının reallaşdırılması sahəsində aparılan tarixi işlər ölkə iqtisadiyyatının dirçəldilməsi tədbirlərinin genişləndirilməsinə əlavə stimullar vermişdir. Artıq 2000-ci ilə qədər olan dövrdə Azərbaycan iqtisadiyatının müxtəlif sektorlarında islahatlar dərinləşdirilmiş, qanunvericilik bazası formalaşdırılmış, bir çox istiqamətlər üzrə strateji iqtisadi hədəflər müəyyənləşdirilmiş və milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması məqsədilə ilk addımlar atılmışdır.

Ölkənin iqtisadi prioritetlərinin milli iqtisadi maraqlar əsasında formalaşdırılması prosesləri iyirmi birinci əsrin əvvəllərindən başlayaraq, xeyli intensivləşmişdir. Azərbaycan bu dövrdə özünün iqtisadi inkişaf modelini formalaşdıra bilmiş, iri regional layihələrin təşəbbüskarı və həlledici tərəfdaşı kimi çıxış etməyə başlamışdır. Respublikaya neft gəlirlərinin axını ilə əlaqədar olaraq, milli iqtisadiyyatın infrastrukturunun yenilənməsi, ayrı-ayrı sahələrin modernizasiyası prosesləri intensivləşdirilmiş, neft sektorunun inkişafı onu ölkə iqtisadiyyatının lokomotivinə çevirmiş və bu imkandan bəhrələnməklə, Azərbaycanda iqtisadi siyasətin daha iri miqyaslı hədəfləri özündə birləşdirən modeli işlənib hazırlanmış, ölkənin xarici ticarət siyasəti əhəmiyyətli səviyyədə güclənmişdir.

Azərbaycanda son 15 ildə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi üçün geniş həcmli tədbirlər görülmüş, dövlətin bu sahədə iqtisadi siyasəti gücləndirilmiş, çoxlu sayda Prezident Fərmanları və Sərəncamları verilmiş, Dövlət Proqramları, Strategiyalar və Konsepsiyalar qəbul edilərək reallaşdırılmışdır. İqtisadi islahatlara sistemli yanaşmanı təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli 1897 nömrəli sərəncamı ilə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" təsdiq edilib. Habelə həmin istiqamətlər müvafiq olaraq inkişaf planlarının işlənməsini təmin etmək üçün ardıcıl olaraq milli iqtisadiyyat və iqtisadiyyatın on bir əsas sektoru üzrə strateji yol xəritələrinin layihələri hazırlanıb.

Azərbaycanın beynəlxalq miqyaslı ən mühüm və strateji vəzifələrindən biri də xarici ticarət dövriyyəsinin diversifikasiyalaşdırılmasıdır. Ölkə ixracının quruluşunda rəqabətqabiliyyətli ixrac məhsullarının çeşidinin məhdudluğu ciddi problem olaraq qalmaqdadır. Bir çox ənənəvi sənaye sahələrinin ixrac potensialından (kimya, neft və neftkimya maşınqayırması, metallurgiya və s.) zəif istifadə davam edilir. Güclü ixrac potensialına və bu sahədə beynəlxalq müqayisəli üstünlük komponentlərinə malik olan bir sıra kənd təsərrüfatı və aqrosektor məhsullarının ixrac potensialının cüzi bir hissəsi dövriyyədədir (təzə tərəvəz və meyvələr, üzüm şərabı, bitki yağları və s). Ölkənin

qeyri-neft sektorunun ixrac potensialının ümumi vəziyyəti ilə onun mövcud potensialı arasında xeyli fərq qalmaqdadır. Bu sahənin inkişafının sürətləndirilməsi, ixracın tənzimlənməsi, stimullaşdırılması tədbirlərinin, dövlət dəstəyi mexanizmlərinin mövcudluğuna baxmayaraq, bu işlərin səmərəliliyi aşağıdır və s.

Qeyri-neft sektorunun ixrac potensialının artırılması üçün ilk növbədə milli iqtisadiyyatın özünün diversifikasiyalaşdırılması və modernləşdirilməsi prosesləri başa çatdırılmalı, innovasiyalaşdırılması sürətləndirilməlidir. Bundan əlavə, qeyri-neft sektorunun ölkənin təbii resursları və iqtisadi amilləri nəzərə alınmaqla, dərindən tədqiq edilməsi, onun potensialının obyektiv qiymətləndirilməsi zərurəti diqqəti cəlb edir.

1990-cı illərin ortalarından balayaraq Azərbaycan iqtisadiyyatının inkişaf prosesləri sabitləşmiş, milli iqtisadi prioritetlər əsasən müəyyənləşdirilmiş, ölkənin neft sektoru ilə yanaşı qeyri-neft sektoru sahələrinin inkişafı üçün islahatlar aparılmış, özəlləşdirmə prosesləri gücləndirilmiş, sənaye və emal potensialından daha səmərəli istifadəyə başlanılmışdır. Azərbaycanın regionlarında torpaq sahələrinin ev və fermer təsərrüfatlarına verilməsi prosesləri əsasən başa çatdırılmış, regionlarda zəruri infrastruktur şəbəkəsi yaradılmış, sahibkarlığın inkişafına dövlət dəstəyi gücləndirilmişdir. 25 oktyabr 2007-ci ildə ölkə Prezidenti tərəfindən "Sahibkarlıq fəaliyyəti subyektlərinin "bir pəncərə" prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında" Sərəncam imzalanmışdır. Bu Sərəncamla Sahibkarlığın inkişafına yeni töhfələr verilməklə yanaşı, müasir şəraitdə daha effektivli və səmərəli dövlət tənzimlənməsi mexanizmlərinin reallaşdırılması prosesləri intensivləşdirilmişdir.

Azərbaycan iqtisadiyyatının inkişafında ən mühüm meyllərdən biri regionların iqtisadi fəallığının artırılması, onların dünya iqtisadi proseslərinə inteqrasiyasının təşkili və ixrac potensialının formalaşdırılmasıdır. Bu sahədə sabit və davamlı dövlət siyasətinin yürüdülməsi, diqqəti cəlb edir. Son 15 ildə xüsusilə geniş miqyaslı tədbirlər həyata keçirilmiş, Dövlət proqramları reallaşdırılmışdır. Bu sahədə ilk dövlət proqramı çərçivəsində regionlarda infrastruktur obyektlərinin geniş şəbəkəsinin qurulmasına başlanılmışdır. II Dövlət Proqramında isə regionların ənənəvi iqtisadiyyat sahələrinin dirçəldilməsi və müasir, modern müəssisələr şəbəkəsinin formalaşdırıması prioritetləri daha çox diqqət məkəzində olmuşdur. Nəhayət, ölkə regionlarının iqtisadi inkişaf prioritetlərini özündə cəmləşdirən hazırki III Dövlət Proqramında mühüm prioritetlərə regionların sənaye potensialının güclndirilməsi, iri fermer təsərrüfatlarının yaradılması, rəqabətqabiliyyətli məhsulların istehsalının təşkili və sairlər aiddirlər.Bu Dövlət Proqramlarının əsas mahiyyəti regionun güclü iqtisadi subyektə çevrilməsi aqrar və sənaye sahələrinin müasir subyektləri kimi çıxış etməsi, ölkə iqtisadiyyatının rəqabətqabiliyyətinin artırılması və ixrac potensialının gücləndirilməsi, sosial-iqtisadi inkişafın yeni keyfiyyət mərhələsinə qaldırılması ilə bilavasitə bağlıdır.[3]

Qeyd etmek lazımdır ki, Azərbaycanın böyük resurs gəlirləri qazanmasının tarixi çox qısa (15 ildən bir az çox) olsa da, bu zaman kəsiyi iqtisadiyyatın “resurs lənəti” riski ilə üzləşməsinə kifayət elədi: qısa müddətdə resurs iqtisadiyyatının büdcədə payı 70%-dək, ixracatda xüsusi çəkisi 90%-dək yüksəldi, təbii resursların 98%-dən çoxunun təmərküzləşdiyi Bakı şəhəri və onun ətrafının iqtisadiyyatda payı 80%-i ötdü. Belə ki,2014-cü ilin sonlarından başlayaraq dünya bazarlarında xam neftin sürətlə ucuzlaşması, 2015-2016-cı illərdə Azərbaycanın əvvəlki 5 illə müqayisədə resurs gəlirlərini orta hesabla 3-4 dəfə itirməsi böhrandan dərs çıxarmaq üçün bir siqnal oldu. Buna görə də Azərbaycan ixracatının diversifikasiyası, qeyri-resurs valyuta gəlirlərinin artırılması son dərəcə 2015-ci ildə Azərbaycan manatının qısa müddətdə dəyərini 2 dəfədən çox itirməsi göstərdi ki, milli valyutanın məzənnəsini təbii resurs gəlirlərinin asılılığından qurtarmadıqca iqtisadiyyatda uzun-müddətli dayanıqlı inkişafı, həmçinin makroiqtisadi sabiltliyi təmin etmək mümkün olmayacaq.

Belə ki, 4 ildə Azərbaycanın ixrac potensialında hansı dəyişikliklər baş verib! Bunu araşdırmaq üçün mövcud predmetlər surrəti cəlb edir. Bu predmetlərdən biri çeşid məhdudluğudur.

Belə ki, xarici ticarət statistikasını nəzərdən keçirdikdə ixrac olunan məhsulların çeşid sayı ilk baxışda çox görünür: 2017-ci ildə 6 ticarət kodu bazasında ölkədən xaricə 13.812 mlrd. dollar dəyərində 1180 adda məhsul ixrac edilib (hesablamaya yalnız ixrac dəyəri 1000 dollardan çox olan məhsullar salınıb). Lakin həmin il üzrə ixracın ümumi həcminin 96.5%-i və ya 13.334 mlrd. dolları

30 adda məhsulun payına düşüb. Həmin məhsulların 5-i neft, 25-i isə qeyri-neft sektoru ilə bağlıdır. Başqa sözlə, ixrac səbətinə daxil olan 2.6% növdə məhsul az qala bütün ixracın 97%-ni təmin edir.

Bu faktlar ölkəmizin ixracatının əmtəə çeşidi baxımından diversifikasiya potensialının hələlik son dərəcə məhdud olduğunu təsdiq edir.

Bu problemlərlə yanaşı həcm məhdudluğu problemi diqqəti cəlb edir. Belə ki,2017-ci ildə Azərbaycanın qeyri-neft ixracının həcmi 1.538 mlrd. dollar təşkil edib ki, bu da ölkənin ümumi ixracatının vur-tut 11%-nə bərabərdir. Qeyd etmək lazımdır ki, 2014-2017-ci illərdə qeyri-neft ixracının ümumi ixracatdakı payında əhəmiyyətli dəyişiklik baş verməyib. Əgər 2014-cü ildə neft-qaz sektorundan kənar sahələrə aid məhsulların məcmu ixracda payı 10% idisə, 2017-ci ildə həmin göstərici 11% təşkil etmişdir.

Qeyd etmək lazımdır ki, respublikada qeyri-neft ixracatında ən yüksək paya malik 10 məhsul (təzə pomidor, qızıl, fındıq, xurma, ilkin formalı polietilen, elektrik enerjisi, metanol spirti, şəkər, qatran yağı, alüminium plitələr) sektor üzrə ixracatın 51%-ni təmin edib (781.7 mln. dollar).

Qeyri-neft ixracını formalaşdıran məhsulların təxminən 95%-i (1100-dən bir qədər artıq məhsul növü) üzrə ixracın orta dəyəri 500 min dollar və ya daha az olub.

Qeyd etmək lazımdır ki, ölkənini ixrac potensialının artırılmasında coğrafi məhdudluq problemi hal-hazırda özünü biruzə verir.

Azərbaycan üçün qeyri-resurs məhsul üzrə ixracın təkcə həcminin artırılması deyil, ixrac coğrafiyasının şaxələndirilməsi də strateji əhəmiyyətə malikdir. Ölkələr böhran və fəlakətlərdən sığortalanmayıb. Bu baxımdan ixracatın daha geniş coğrafiyaya paylanması ixracatçı ölkəni idxalatçı ölkənin üzləşə biləcəyi potensial risk və təhlükələrdən sığortalayır.

2017-ci ildə Azərbaycanın 187 ölkə ilə xarici ticarət əlaqələri olub, lakin ölkənin qeyri-neft ixracının təxminən 77%-i 5 ölkə – Rusiya, Türkiyə, Gürcüstan, İsveçrə və İtaliya hesabına təmin edilib.Azərbaycanın qeyri-neft ixracatının bir ölkədən (Rusiya) asılılıq səviyyəsi 35%-ə, üç ölkədən (Rusiya, Türkiyə və İsveçrə) asılılıq səviyyəsi 65%-ə yaxındır ki, bunlar da kifayət qədər yüksək (diversifikasiya baxımından yüksək riskli) göstəricilərdir.[5]İxrac potensialının artırılmasında mövcud problemlərdən biri texnoloji məhdudluq problemidir.

Tədqiqatlar göstərir ki, beynəlxalq təcrübədə məhsulların texnoloji səviyyəsinə və mürəkkəbliyinə görə tətbiq olunan təsnifat (aşağı, orta aşağı, orta yüksək və yüksək texnoloji səviyyə) nəzərə alınsa, Azərbaycanın ümumi ixracatının (neft-qaz məhsulları da daxil), demək olar, hamısı 3-cü və 4-cü səviyyəli (aşağı və orta aşağı) texnoloji qrupa aiddir. Bu təsnifata əsasən, aşağı texnoloji səviyyəyə qida məhsullarının (içkilər də daxil), tütün məmulatlarının, toxuculuq sənayesinin, geyim əşyalarının, dəri və dəri məmulatlarının, kağız və kağız məmulatlarının, mebelin, emal mərhələsindən keçməyən hər cür xammalın istehsalı daxildir. Xarici ticarət statistikası əsasında aparılan tədqiqatlar göstərir ki, 2017-ci ildə Azərbaycanın ümumi ixracatının orta hesabla 94-95%-i, qeyri-neft ixracatının isə 50-55%-i məhz aşağı texnoloji qrupa aid məhsullardan ibarət olub. Belə ki, orta aşağı texnoloji səviyyəyə emal olunmuş neft məhsulları, kauçuk və plastik məmulatları, metallurgiya sənayesi məhsulları daxildir. Bu səviyyəli məhsulların Azərbaycanın ümumi ixracatında payı 4-5%-dən, qeyri-neft ixracatında isə 35-40-%-dən çox deyil.

Hal-hazırda respublikamızda mövcud problemlərdən biri ixracatçı məhdudluğu problemidir.

Statistik məlumatlara əsasən 2017-ci ildə ölkənin bütün qeyri-neft ixracının 54%-ə yaxını (822 mln. dollar) 20 şirkət tərəfindən formalaşdırılıb. Üstəlik, ilk 10 şirkətin ümumi ixracda payı 30%-dən bir qədər çox olub. Bu vəziyyət ixrac gəlirlərindən çox az sayda biznes subyektinin bəhrələndiyini, bu gəlirlərin sahibkarlar arasında qeyri-bərabər bölündüyünü göstərir.

Mövcud problemərdən biri də özəl sektorun məhdud potensiala malik olmasıdır.

Bildiyimiz kimi Azərbaycanın neft-qaz sektorunun ixrac gəlirləri dövlətin tam inhisarındadır. Bundan əlavə kiçik olan qeyri-neft ixracatında da dövlət sektorunun xeyli payı var. Məsələn, 2017-ci ildə ümumi qeyri-neft ixracatının təxminən üçdə biri (500 mln. dollara yaxın) dövlət sektoruna məxsus olub. Özəl sektorun burada payı təqribən 65% ətrafında (1 mlrd. dollardan bir qədər çox) dövr eləyib. Belə ki, özəl sektora aid qeyri-neft ixracının 33%-i (353 mln. dollar) ixrac dövriyyəsinə görə ilk onluqdakı şirkətlərin payına düşüb.

Azərbaycan iqtisadiyyatının digər mühüm meyllərindən biri də turizm sektorunun inkişafı ilə bağlıdır. Son illərdə ölkədə yüzlərlə turizm obyektləri, müasir otellər, istirahət mərkəzləri, turizm-rekreasiya kompleksləri tikilib istismara verilmişdir. Bakıda və regionlarda (Quba, Qusar, Qəbələ, Şəki, Şəmkir, Gəncə və s.) dünya şöhrətli-brend otellərin analoqu istifadəyə verilmiş, idman turizm kompleksləri yaradılmışdır. Turizmin inkişafı üzrə qanunvericilik bazası gücləndirilmiş və bu sahənin inkişafı ilə bağlı Dövlət Proqramı hazırda icra olunmaqdadır. Ölkə iqtisadiyyatının inkişafı proseslərində ortaya çıxan ciddi problemlərdən biri də qeyri-neft sənaye sahələrinin inkişafı məsələləridir.

Azərbaycan iqtisadiyyatının müasir iqtisadi inkişaf meyllərindən biri də ölkədə İnformasiya-kommunikasiya texnologiyaları (İKT) sektorunun inkişafını təmin etməkdir. Artıq bu istiqamətdə ilk Milli Strategiyanın icrası 2012-ci ildə başa çatdırılmışdır.Ölkədə müasir İKT infrastrukturunun formalaşdırılması genişləndirilib, bu sahədə məhsulların çeşidi çoxalıb, xidmətlər diversifikasiya-laşdırılıb, innovasiya funksiyalarının tətbiqi intensivləşib və s. Hazırda bu iqtisadiyyat sektorunun neft-qaz sektorundan sonra əsas prioritet qeyri-neft sektoruna çevrilməsi üçün ciddi tədbirlər müəyyənləşdirilib və strateji vəzifələr qarşıya qoyulmuşdur**.**

Qeyri-neft sahəsindəyüksək artım sürətinə nail olunması və bu sektor hesabına adambaşına ÜDM-in artırılması, ÜDM-in strukturunda qeyri-neft sektoru payının əhəmiyyətli dərəcədə yüksəldilməsi, adambaşına qeyri-neft ixracının artımının təmin edilməsi kimi hədəflər müəyyənləş-dirilmişdir. Bu hədəflərə çatmaq üçün iki istiqamətdə-iqtisadiyyatın rəqabətqabiliyyətinin artırılmasıı və strukturunun təkmilləşdirilməsi istiqamətində tədbirlər görülməsi təklif olunur. Eyni zamanda, xarici ticarət və investisiya siyasətinin təkmilləşdirilməsi , enerji, nəqliyyat, tranzit və logistika infrastrukturunun inkişaf etdirilməsi, İKT və Rabitə xidmətlərindən istifadə imkanlarının genişləndirilməsi də əsas prioritetlərdəndir. Iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi isə neft-qaz sektoru və neft-kimya sənayesinin modernləşdirilməsi, qeyri-neft sənayesinin şaxələndirilməsi və inkişaf etdirilməsi, alternativ və bərpa olunan enerji mənbələrindən istifadə imkanlarının genişləndirilməsi yaxın onilliyin başlıca meyarlarından ibarətdir. [6]

Qeyd etmək lazımdır ki, ölkə iqtisadiyyatının inkişaf meyli proseslərində strateji vəzifələrdən mühümlüyü ilə fərqlənən – milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artrılması problemidir. Bu sahədə dövlət mexanizmlərinin iri bir blokunun artıq reallaşdırılması müsbət nəticələr verməkdədir.

Qeyri-neft sektorunun sürətli inkişafının təminatından biri də, onun milli iqtisadiyyatın sərhədləri daxilində məhdudlaşmadığını və beynəlxalq inteqrasiya məkanına, dünya bazarlarına effektivli çıxa bilmək potensialını ortaya qoya bilməsidir. Bu halda sektorun çoxlu sayda sahələrinin ixrac potensialı reallaşma imkanı əldə edir, ölkənin dünya bazarlarına çıxardığı rəqabət qabiliyyyətli məhsulların, milli brendlərin siyahısı genişlənir, bütövlükdə milli iqtisadiyyatın diversifikasiyalaşdırılması mənbələrinin əhatəsi genişlənir. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının uzunömürlülüyü qlobal təmayüllərə adekvat olan məqsədyönlü sistemli iqtisadi islahatların aparılmasından, onun dünya təsərrüfat sisteminə inteqrasiyasının sürətləndirilməsinə xidmət edən səmərəli xarici iqtisadi əlaqələrin qurulmasından, xarici ölkələr və beynəlxalq iqtisadi təşkilatlarla ölkənin milli maraqlarına uyğun əlverişli ticarət-iqtisadi əlaqələrinin genişləndirilmə-sindən asılıdır. Respublikamız, 190-dan çox dövlətlər xarici-iqtisadi əlaqələrə malikdir. Bununla belə, bu əlaqələrin, xüsusilə ixrac əlaqələrinin əksəriyyəti əvvəllərdə bildirdiyimiz kimi, neft ya qazla və yaxud neft məhsulları ilə bağlıdır. Buradan belə bir nəticəyə gəlmək mümkündür ki, ölkənin qeyri-neft sektorunun ixrac potensialının heç də az olmayan sahələri vardır və onların dərindən araşdırılması, obyektiv qiymətləndirilməsi, bunlara adekvat tədbirlərin müəyyənləşdiril-məsi zəruriliyi ilə xeyli aktual görünür. Neft gəlirləri hesabına qeyri-neft sektorunun potensialının gücləndirilməsi, ixrac strukturunun genişləndirilməsi istiqamətində dövlət dəstəyi mexanizmləri fəaliyyət göstərir, dövlət siyasəti müasir iqtisadi proseslərə adekvat olaraq təkmilləşdirilir, regionların qeyri-neft potensialının reallaşdırılması üçün tarixi işlər həyata keçirilir.

NƏTİCƏ

Ölkəmizdə diversifikasiya siyasəti üçün müvafiq fiskal və monetar siyasətin aparılması əldə edilə biləcək uğurun tərkib hissəsidir.Burada vergi siyasəti və büdcə gəlirlərinin qeyri neft emal və digər sənaye sahələri üçün əlverişli olması ilə uzlaşmalıdır.Fiskal problemlərin yaşandığı hazırkı

mərhələdə istənilən vasitə ilə büdcəyə vəsaitin cəlb edilməsinə yönələn əhval-ruhiyyə iqtisadi diversifikasiya yolunda işləri heçə endirə bilər.

İqtisadi diversifikasiyanın reallaşması üçün ölkə prezidenti İlham Əliyev cənabları insan kapitalına böyük önəm verir. Malayziya, İndoneziya və bir neçə digər nisbətən uğurlu nümunələr bunu xüsusi olaraq təsdiqlədi.Resursla zəngin ölkələrin bir özəlliyi də ondadır ki, bu ölkələrdə iqtisadi artım, konkret olaraq ÜDM artımı daha çox əlavə dəyər hesabına yox, renta hesabına əmələ gəlir.Adambaşına düşən əlavə dəyər bu səbəbdən adı çəkilən ölkələrdə çox aşağı olur.

Bu yönümdə daha önəmli məsələ işçi qüvvəsinin sektoral kəmiyyət disproporsiyası yox, mövcud keyfiyyət problemidir. İnsan kapitalını xarakterizə edən əsas amillər – təhsil, elm, tədqiat və inkişaf və s. bu kimi göstəricilər inkişaf etmiş ölkələrlə müqayisədə olduqca aşağı səviyyədədir.

Müəyyən mənada insan kapitalı sahəsində ölkədə mövcud olan bu arzuolunmaz mənzərəni yumşaldan amil, böyük miqdarda ucuz və xüsusi təhsilsiz işçi qüvvəsinin qonşu Rusiyada və digər MDB ölkələrində fəaliyyət göstərməsidir.Bu fakt həm social gərginliyi, həm də işsizliyi yumşaltmağa şərait yaradır.Amma başqa tərəfdən ölkə iqtisadiyyatının əlavə dəyər yaratmaq imkanlarını təsirli sürətdə azaldır. İqtisadi diversifikasiya yolunda bu amilin nəzər alınması olduqcavacibdir. Digər ölkələrə ixrac edilən işçi qüvvəsinin bir hissəsinin ölkə hüdudları çərçivəsində iqtisadi fəaliyyətə cəlb edirməsi son anda ixrac dıversifikasiyası üçün potensial imkan kimi qiymətləndirilməlidir.Əlbəttə bunun üçün həm insan kapitalının keyfiyyət göstəriciləri artırılmalı, həm də sahibkarlıq təsirli dərəcədə yaxşılaşdırılmalıdır.

Ədəbiyyat

1.Azərbaycan Respublikasının “Elektron ticarət haqqında”qanunu.10 may 2005- ci il

2.Azərbaycanda biznes mühiti: yeni vergi və fiskal siyasətin iqtisadi aktivliyə təsirlərinin qiymətləndirilməsi. B, 2019

3.2018 2020 ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı. 26 sentyabr 2018 -ci il

4. Qənbərov F.Ə.Qloballaşma şəraitində Azərbaycanda iqtisadi artımın təmin edilməsinin xarici iqtisadi amilləri B, 2014

5.Qasımlı B.Ə.Azərbaycanın ixrac strategiyasının konseptual əsasları. Strateji təhlil №1(2)Bakı 2011 s.223

6.A.Ş.Şəkərəliyev Azərbaycan iqtisadiyyatı : reallıqlar və perspektivlər. B, 2016

AZƏRBAYCANDA TULLANTILARDAN İSTİFADƏNİN SİNERJİ EFFEKTİ

Tərbiz Əliyev, i.e.d., professor,
AMEA iqtisadiyyat İnstitutu, şöbə müdiri
tarbiz.aliyev@bk.ru
Bəxtiyar İsmayılov, i.f.d., dosent
ADNSU

Xülasə

Məqalədə tullantıların toplanması, emalı və istifadəsi vəziyyəti çoxillik statistik məlumatlar əsasında təhlil edilmiş, həmin istiqamətlər üzrə Azərbaycanda həyata keçirilən iqtisadi və ekoloji təhlükəsizlik siyasətinin əhəmiyyəti qeyd edilmiş, tullantıların dövr edən iqtisadiyyatda yeri, onların idarə edilməsinin sinerji effektinin dəyişənlərinin əhatə dairəsinin prinsipial sxemi işlənilmiş, tullantılardan səmərəli istifadə üzrə təşkilati – iqtisadi, normativ-hüquqi və sosial xarakterli tövsiyələr irəli sürülmüşdür.

Açar sözlər: tullantılar, sənaye, sinerji effekti, idarəetmə, məqsədli layihələr.

Azərbaycan öz müstəqilliyini yenidən bərqərar etdikdən sonra həyata keçirilən məqsədyönlü sosial-iqtisadi islahatlar milli iqtisadiyyatın dinamik inkişafına təminat yaratmış, müasir

infrastruktur formalaşmış, pozitiv demoqrafik artım şəraitində yoxsulluğun səviyyəsi əhəmiyyətli dərəcədə azalmış və ölkə yuxarı orta gəlirli dövlətlər sırasında öz yerini möhkəmlətmişdir. Aparılan islahatların önəmli prioritetləri sırasında ətraf mühitin mühafizəsi və ekoloji tarazlığın qorunması məsələləri mühüm əhəmiyyət kəsb edir. İnsanların sağlamlığının təmin edilməsi üçün ölkədə kommunal xidmətlərinin yaxşılaşdırılmasına, xüsusilə məişət tullantılarının idarə edilməsi sisteminin müasir dövrün tələblərinə uyğun yenidən qurulmasına xüsusi diqqət yetirilir.

Beynəlxalq təcrübədə birmənalı şəkildə sübut edilmişdir ki, məişət tullantılarının idarə olunması sisteminin vacib komponentləri olan – tullantıların yığılması, çeşidlənməsi, daşınması, yerləşdirilməsi, istifadəsi, utilləşdirilməsi, zərərsizləşdirilməsi, emalı və basdırılması ilə bağlı əməliyyatlar düzgün və sistemli həyata keçirilərsə, bu sistemin səmərəli fəaliyyətini təmin etmək sahəsində aparılan islahatlar özünü doğruldar və yüksək sinerji effekti əldə etməyə imkan verir. Odur ki, ölkənin iri şəhərlərində məişət tullantılarının yığılması, daşınması və zərərsizləşdirilməsi sisteminin müasir standartlara cavab verən tərzdə qurulması və idarə edilməsi, bu prosesin mütəşəkkil qaydada həyata keçirilməsi, şəhərlərin ekoloji vəziyyətinin yaxşılaşdırılması məqsədi ilə təkcə son 10 il ərzində bir sıra normativ-hüquqi aktlar qəbul edilmiş **[1;2;3;4;5]**, 60 yaxın milli və beynəlxalq standartların tətbiqinə nail olunmuş, Azərbaycan ekologiya sahəsində bir sıra beynəlxalq konvensiyalara qoşulmuş, ayrı-ayrı ölkələrlə ikitərəfli sazişlər və anlaşma memorandumu imzalanmışdır. Əldə edilən uğurları yüksək qiymətləndirərkən, onu da qeyd etmək lazım gəlir ki, ölkə əhalisinin hər nəfərinə düşən istehsal, istehlsk və təhlükəli tullantılarının dinamik xarakter alması onun idarə edilməsi istiqamətində daha təsirlitexniki-texnoloji tədbirlərin həyata keçirilməsi zərurətini ön plana çəkir. Görünür elə buna görə də "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"-də qeyd edilir ki, iqtisadiyyatın texnoloji tutumluğu artırılmalı, elmtutumlu və yüksək gəlir yaradan sahələrin inkişafı təmin edilməlidir **[5; s.4].** Buna nail olmaq üçün sənaye müəssisələrində emal dərinliyi artırılmalı, məişət tullantılarının səmərəli idarə edilməsi hesabına yüksək sinerji effektinin yaradılması istiqamətində kompleks xarakterli təklif və tövsiyələrin işlənilməsinə onların tam məzmunda həyata keçirilməsinə nail olmaq lazımdır.

Əvvəlcə qeyd etmək lazımdır ki, tullantılar insan sağlamlığına və ətraf mühitə mənfi təsir edən potensial təhlükədir.Azərbaycan Respublikasının qüvvədə olan qanununda **[2]** tullantılar - istehsalat, məişət, təhlükəli və təhlükəsiz adı altında təsnifləşdirilmişdir. Onlar dövr edən iqtisadiyyatda özünəməxsus yer tutur və son mərhələdə təkrar dövriyyəyə cəlb edilirlər. Bu baxımdan Y.V.Nikuliçevin yanaşmasını uğurlu hesab etmək olar (şəkil 1).



Şəkil 1. Tullantıların dövr edən iqtisadiyyatda ümumi sayı [9, s.32].

Qeyd edilən təsnifatdakı hər növ tullantılar nəticə etibarı ilə istehsal prosesinə cəlb edilərək yenidən emal olunduqdan sonra təkrar istehsala qaytarılması bir tərəfdən ətraf mühitin mühafizəsinə

xidmət edirsə, digər tərəfdən – təbii ehtiyatlardan səmərəli istifadə olunması üçün zəmin yaradır və sinerji effektini formalaşdırır.

Ölkənin iqtisadi fəaliyyət sahələrində bütün məqsədli sinerji effektini üç dəyişənlərin nəticəsi əsasında formalaşdırmaq olar. Həmin dəyişənlərə: istehsal və təkrar emal prosesində əldə ediləcək mənfəətin artmasını, bütün növ cari xərclərin azaldılmasını, eləcə də həmin proseslər üçün tələb olunan birbaşa investisiyaya olan tələbatın azalmasını aid etmək olar. Müasir şəraitdə sinerji effektini iqtisadiyyatın şaquli və üfiqi səviyyələrində əldə etmək mümkündür. Bütünlükdə, sinerji effekti "kollektiv düşüncənin" nəticəsində formalaşaraq aşağıdakı üç əsas prosesi əhatə edir: adekvat planlaşdırma: işçilər arasında cari informasiyanın və biliklərin səmərəli bölüşdürülməsi, eləcə də cari işlərin düzgün koordinasiyası **[8.s.583].**

Həmin metodiki yanaşmaları rəhbər tutaraq tərəfimizdən tullantıların idarə edilməsinin sinerji effektinin əhatə dairəsinin prinsipal sxemi işlənilmişdir (şəkil 2).



Şəkil 2.Tullantıların idarə edilməsinin sinerji effektinin dəyişənləri və onların əhatə dairəsinin prinsipial sxemi.

Cədvəl 1Azərbaycanın sənaye sektorunda yaranan istehsalat tullantıları və onlardan istifadə edilməsi səviyyəsi, min ton

S A H Ə L Ə R	İ L L Ə R				2010-2019-cu illərdə artım tempi faizlə
	2010	2015	2017	2019	
Sənayedə yaradılan tullantılar	663,2	778	903,4	979,3	147,7
O cümlədən: emal sənayesində	414,6	576,6	710,6	765,4	184,6
Emal sənayesində yaranan tullantıların xüsusi çəkisi, faizlə	62,6	74,2	78,7	78,2	+15,4
Emal sənayesində tullantılardan istifadə edilməsi	387,5	484,5	608,0	615,3	158,8
Emal sənayesində istifadə olunan tullantıların xüsusi çəkisi, faizlə	93,4	84,0	85,6	80,4	-13,0
Mənbə: cədvəl "Azərbaycanda ətraf mühit" statistik məcmuəsinin məlumatları əsasında tərtib edilib hesablanmışdır. Bakı, "DSK", 2020, s.84-85					

Araşdırmalar göstərir ki, son illər Azərbaycanda həyata keçirilən kompleks təşkilati-iqtisadi, hüquqi islahatlara baxmayaraq tullantıların miqdarı dinamik xarakter daşıyır. Belə ki, təkcə 2010-

2019-cu illərdə ölkənin sənaye sektorunda yaranan istehsalat tullantılarının həcmi 147,7%, o cümlədən emal sənayesində 184,6%, artmış və onun xüsusi çəkisi 15,4 punkt çoxalmışdır. Onu da qeyd etmək lazımdır ki, emal sənayesində qeyd edilən illər ərzində istifadə edilən tullantıların natural forması artsa da,onların xüsusi çəkisi azalan xəttlə dəyişmişdir (cədvəl 1).

Təhlilin əhatə etdiyi dövrdə Azərbaycanın iqtisadi fəaliyyət sahələrində təhlükəli tullantıların miqdarı 2,3 dəfə, zərərsizləşdirilmiş təhlükəli tullantıların miqdarı 113,4% artsa da, onların bütün təhlükəli tullantıların tərkibindəki xüsusi çəkisi 20,9 punkt azalmışdır (cədvəl 2).

Cədvəl 2 Azərbaycanın iqtisadi fəaliyyət sahələrində təhlükəli istehsalat tullantılarının yaranması, istifadə edilməsi və zərərsizləşdirilməsi, min ton

Tullantıların təsnifatı	İ L L Ə R				2010-2019-cu illərdə artım tempi faizlə
	2010	2015	2017	2019	
Yaranmış təhlükəli tullantıların miqdarı	140	262,6	266,0	317,4	2,3
Istifadə edilmiş təhlükəli tullantıların miqdarı	5,5	5,2	5,4	13,4	2,4
Onların bütün təhlükəli tullantıların tərkibindəki xüsusi çəkisi, faizlə	3,9	2,0	2,0	4,2	+0,3
Zərərsizləşdirilmiş təhlükəli tullantıların miqdarı	58,4	210,9	35,8	66,2	113,4
Zərərsizləşdirilmiş təhlükəli tullantıların bütün tullantıların tərkibindəki xüsusi çəkisi, faizlə	41,7	80,2	13,5	20,8	-20,9
Mənbə: Cədvəl "Azərbaycanda ətraf mühit" statistik məcmuəsinin məlumatları əsasında tərtib edilib hesablanmışdır. Bakı, "DSK", 2020, s.85					

Həmin faktlar onu göstərir ki, ölkə ərazisində təhlükəli tullantıların zərərsizləşdirilməsi və idarə olunması istiqamətində daha təsirli təşkilati və texniki-texnoloji tədbirlərin işlənilməsi və həyata keşirilməsinə zəruri ehtiyac duyulur.

Azərbaycanda bütün növ tullantıların miqdarının artması bütünlükdə əhalinin hər nəfərinə düşən tullantıların da dinamikliyinə şərait yaratmışdır. Əgər 2010-cu ildə ölkə əhalisinin hər nəfərinə 255 kq istehsal və istehlak, eləcə də 15,5 kq təhlükəli tullantı düşmüşdürsə, 2019-cu ildə onların miqdarı uyğun olaraq: 331 kq və 31,7 kq təşkil etmiş və yaxud 5 il ərzində 130% və 2,1 dəfə artmışdır (diaqram 1.).



Diaqram 1. Azərbaycanda əhalinin hər nəfərinə düşən istehsal istehlak və təhlükəli tullantılar (6;9;84;85)

Onu da qeyd etmək lazımdır ki, dünya ölkələrində adambaşına düşən tullantıların miqdarına görə Azərbaycanın mövqeyi qənaətedici səviyyədədir. Beynəlxalq təcrübədə hər şəhər sakini üçün ildə təxminən 500-800 kq tullantı formalaşır. Sayı hər zaman artan tullantının miqdarı hətta bəzi ölkələrdə 1000 kq çatır **[9].** Əlbəttə, bu fakt bizi arxayınlaşdıra bilməz. Ölkəmizdə təsərrüfat subyektlərin və əhalinin sayı artdıqca, məişət və istehsalat tullantılarının miqdarının da artması

qaçılmazdır. Bu isə qabaqlayıcı tədbirlərin uğurlu icrasını şərtləşdirir. “Təmiz şəhər” ASC-nin yaradılması və paytaxt ərazisində əmələ gələn bütün növ bərk məişət tullantılarının həmin cəmiyyətin strukturuna daxil olan məişət tullantılarının yandırılması və emalı zavodunun verilməsi və son illər bu müəssisənin uğurlu fəaliyyəti nəticəsində 15%-zi zavodun daxili tələbatına sərf edilməklə ildə təxminən 14 milyon manatlıq 230 meqaval alternativ elektrik enerjisi əldə olunur. Bu zaman illik xərc 6,0 milyon manat təşkil edir. Tullantıların emalı üzrə “energetik balans” konsepsiyasının tətbiqi nəticəsində alınmış enerji tullantının emalına sərf edilir və istehlak edilən enerji xərcləri ödənilir. Zavodda quraşdırılan zibilyandıran qurğunun bir üstünlüyü ondan ibarətdir ki, orada tullantıların yandırılmasından alınan istilik enerjisi ətraf mühitə atılmadan sinerji effekti yaratmaqla elektrik enerjisinə çevrilir və həmin qurğu istehsal etdiyi enerji ilə qidalanır.

Balaxanı Sənaye Parkında illik istehsal gücü 500 min ton olan zibil emalı zavodunun istismara verilməsi yeni zibilliklərin yaranması və münbit torpaq ərazilərinin zibilliklər altında itirilməsi zərurətini aradan qaldırmış, Bakı şəhərinin ərazisində tullantı poliqonlarının ləğv edilməsinə, təkrar emal nəticəsində çoxsaylı texniki təyinatlı, idxalı əvəz edən, yüksək sinerji effekti əldə etməyə imkan verən məhsul istehsalına təminat yaratmış, şəhərin ekoloji durumu xeyli dərəcədə yaxşılaşmışdır. Artıq adı çəkilən zavodda zibillərin yandırılmasından əldə edilən kül yol inşaatı işlərində geniş istifadə edilir. Araşdırmalar göstərir ki, tullantılardan istifadənin vəziyyəti ölkəmizin ayrı-ayrı iqtisadi rayonlarında qənaətbəxş deyildir. Orada məişət tullantıları əksər hallarda yandırılır və yaxud yaşayış məntəqələrindən kənarda torpqağa basdırılır. Yerli bələdiyyələrdə zibil konteynerlərinin və daşıyıcı maşınların az sayda olması və mövcud olanların köhnəlməsi tullantıların idarə edilməsi prosesinə mənfi təsir göstərir.

Nəticə

Ölkə ərazisində bütün növ tullantılardan səmərəli istifadə edilməsi və bu sahədə mövcud idarəetmə sisteminin təkmilləşdirilməsi üçün beynəlxalq təcrübəni özündə əks etdirən təşkilati-iqtisadi, texniki-texnoloji, ekoloji, motivləşdirici və maarifləndirmə istiqamətində təsirli tədbirlərin həyata keçirilməsinə ehtiyac duyulur. Bizim fikrimizcə, tullantıların səmərəli idarə edilməsi və istifadə olunması üçün ilk növbədə mövcud normativ-hüquqi baza təkmilləşdirilməlidir. Bu məqsədlə “Tullantıların idarə edilməsi haqqında kodeksin” işlənilməsi və tətbiqinə ehtiyac duyulur. Hesab edirik ki, ölkə ərazisində tullantıların səmərəli idarə edilməsi məqsədilə dövlət – özəl tərəfdaşlığın genişləndirilməsi, həmin fəaliyyət üzrə müştərək müəssisələrin yaradılması, həmin vacib işə daha çox xarici investisiyaların cəlb edilməsi məqsədəuyğun olardı.

Azərbaycanın respublika tabeli şəhərlərində tullantıların təkrar emalı üzrə məqsədli investisiya – innovasiya layihələrinin həyata keçirilməsi orada ekoloji təhlükəsizliyi təmin etməklə yanaşı yüksək sinerji effekti əldə etməyə imkan verəcəkdir. Bizim fikrimizcə, ölkəmizdə tullantıların daşınmasının çoxmərhələli sistemi geniş tətbiq olunmalıdır. Tullantılardan istifadə üzrə həvəsləndirici vergi, kredit və amortizasiya siyasətinin həyata keçirilməsinə ehtiyac duyulur.

Təhlükəli tullantı qismində elektron avadanlıqların toplanması və istifadəsi üzrə stimullaşdırıcı mexanizmin işlənilməsi və icrasına da ehtiyac duyulur.

Təhlükəli tullantı qismində elektron avadanlıqların toplanması və istifadəsi üzrə stimullaşdırıcı mexanizmin işlənilməsi və icrasına da ehtiyac duyulur. Qarşıda duran digər başlıca vəzifə sənaye müəssisələrinin texniki-texnoloji durumunu yaxşılaşdırmaqla tullantıların miqdarının minimuma endirilməsidir.

Azərbaycanın ali və orta ixtisas ocaqlarında tullantıların idarə edilməsi ixtisası üzrə kadr hazırlığı vaxtı çatmışdır. Bütün bunlarla yanaşı məişət və təhlükəli tullantıların toplanması, onların işarəli zibil konteynerlərinə atılması üzrə əhali arasında fasiləsiz maarifləndirmə tədbirlərinin icrası da vacibdir.

Ədəbiyyat

1. "Ekoloji təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanunu. Biznesmenin bülleteni №46, Bakı, 2000. 12 s. (sonrakıı llərin əlavələri və dəyişiklikləri ilə).

2. "İstehsalat və məişət tullantıları haqqında " Azərbaycan Respublikasının qanunu. Bakı, 1998,14 s. (sonrakı illər əlavə və dəyişiklikləri ilə)

3. "Balaxanı Sənaye Parkının yaradılması haqqında " Azərbaycan Respublika Prezidentinin 28 dekabr 2011-ci il tarixl i" Respublika" qəzeti, 29 dekabr 2011-ci il.
4. Azərbaycan Respublikası bərk məişət tullantılarının idarə edilməsinin təkmilləşdirilməsinə dair 2018-2022 ci illər üçün Milli Strategiya, Bakı, "Xalq" qəzeti, 02 noyabr 2018-ci il.
5. Azərbaycan-2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər "Bakı, Xalq" qəzeti, 03 fevral 2001-ci il
6. Azərbaycanda ətraf mühit. Statistik məcmuə. Bakı, DSK, 2020, 140s.
7. Алиев Т.Н., Исмайлов Б.В. Инновационные механизмы твердыми бытовыми отходами в Азербайджане. //The scientific heritage №49. Vol 5. Будапешт, 2020. С. 9-21
8. Абдокова Л.З. Синергетический эффект как результат еффективного управления //фундаментальные исследования, №10, М, 2016, с. 581-584.
9. Никуличев Ю.В. Управление отходами. Опыт Европейского Союза. Аналитический обзор. М, РАН, 2017, 54 с.

POSTNEFT MƏRHƏLƏSİNDƏ MAKROİQTİSADİ SİYASƏT ƏMƏKDAŞLIĞININ ƏHƏMİYYƏTİ VƏ MƏHDUDİYYƏTLƏRİ

Azər R. Həsənli, dissertant
Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin
İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu,
azarhasanli@outlook.com

Müasir qlobal iqtisadi sistem dəyişikliklərinin və maliyyə qloballaşmasının fonunda milli səviyyələrdə inkişafın dayanıqlığının təmin edilməsi yeni çağırışlarla müşahidə olunur. Qlobal iqtisadi və texnoloji inqilabların doğurduğu yeni iqtisadi reallıqlar, habelə son onilliklər ərzində beynəlxalq ticarət və investisiya axınlarının hərəkət istiqamətlərində və strukturunda baş verən dəyişikliklər makrosəviyyədə siyasət əməkdaşlığının yeni institusional çərçivələrinin formalaşdırılması zərurətini doğurur. Digər tərəfdən iqtisadi və maliyyə inteqrasiyasının genişlənməsi və bilavasitə iqtisadi sistem dəyişiklikləri artıq siyasət qurumlarının ənənəvi mandatlarından kənar öhdəliklər çərçivəsində fəaliyyət göstərməsi ehtiyacını nümayiş etdirir.

Bu xüsusda Azərbaycan iqtisadiyyatı üçün müasir postneft mərhələsində makroiqtisadi siyasət quruculuğunda yeni institusional və funksional çərçivələrin tətbiq edilməsi, ələlxüsus iqtisadi siyasət əməkdaşlığının monetar, fiskal və struktur səviyyələrdə təmin edilməsi orta və uzunmüddətli dövrlərdə iqtisadi inkişafın dayanıqlığının təmin edilməsi baxımından zəruridir.

İqtisadi ədəbiyyatlarda makroiqtisadi siyasət əməkdaşlığının təmin edilməsi resursların optimal bölgüsü, habelə müxtəlif dövrləri əhatə edən pul və fiskal siyasət hədəflərinin uyğunlaşdırılması kimi xarakterizə edilir. Əməkdaşlığın mövcud olmaması zamanı iqtisadiyyat yüksək kəsir və inflyasiya təzyiqləri ilə üzləşir [1]. Milli iqtisadiyyatların xüsusiyyətlərindən, məsələn məzənnə rejimi, iqtisadiyyatın strukturu, iqtisadi və siyasi institutların çəkisi və s. kimi amillərdən asılı olaraq müxtəlif ölkələrdə monetar və ya fiskal dominantlıq müşahidə edilir.

Müstəqillik illərində Azərbaycan iqtisadiyyatı müxtəlif inkişaf fazalarından keçmişdir. Neft bumu kimi xarakterizə edilən 2004-2014-cü illərdə iqtisadi siyasət quruculuğunda fiskal dominantlıq ön plana çıxmış, pul siyasəti isə daha çox ikinci planda olmuşdur ki, bu da aşağıdakı amillərlə izah edilə bilər:

- Milli iqtisadiyyatın struktur çağırışları, xüsusilə bazar mexanizminin təkmil olmaması və iqtisadi tranzitivlik fonunda dövlətin iqtisadi aktor kimi funksionallığı ən yüksək səviyyəyə çatmışdır. Bu səbəbdən də fiskal sektor iqtisadi artımın əsas drayverinə və yönəldicisinə çevrilmişdir;
- Maliyyə sisteminin zəif inkişafı və özəl sektorun məhdud iştirakçılığı kontekstində neft sektorundakı sürətli inkişaf hesabına büdcə gəlirlərinin artması fiskal müdaxilə imkanlarının (dövlət

şirkətlərinin iqtisadi aktivliyi və müxtəlif kanallarla (investisiya, satınalma, subsidiya və s.) real sektora büdcə vəsaitlərinin yönəldilməsi) genişləndirilməsini şərtləndirmişdir;

- Resursla zəngin digər ölkələrdə olduğu kimi, təbii resurs asılılığının doğurduğu monetar məhdudiyyətlər milli valyutanın məzənnəsinin bahalaşmasına, pul siyasətinin transmissiyası mexanizminin məhdud funksionallığına (makrosəviyyəli digər struktur çətinliklər fonunda), habelə pul siyasətinin mandatının əsasən artan idxalın maliyyələşdirilməsi ehtiyacını ödəmək, inflyasiya təzyiqlərini və valyuta bazarı səbatsızlıqlarının "neytrallaşdırmaq" ətrafında çərçivələnməsinə yol açmışdır.

Bu amillərin təsiri altında neft bumu mərhələsində Azərbaycanda pul siyasəti daha çox fiskal dominantlıq altında protsiklik mahiyyət daşımışdır. Prinsip etibarilə bu dövr üçün başlıca məhdudiyyət makroiqtisadi əməkdaşlığın hər iki siyasət blokunun funksional və institusional müstəqilliyi əsasında deyil, birinin (fiskal blok) digəri (monetar blok) üzərində dominantlığı əsasında təmin edilməsi olmuşdur. Dövlət kapitalizmi mahiyyəti kəsb edən siyasət yanaşmasının dominantlığı fiskal siyasətin əsas makroiqtisadi dominanta çevrilməsinə yol açmışdır [3]. Digər tərəfdən isə neft sektorunun iqtisadi artımın əsas daşıyıcı olması qeyri-neft sektorunun inkişafı üçün məhdudlaşdırıcı təsir göstərmiş, nəticədə bu sektorun iqtisadi artımda rolunun artırılması yenidən məhz aktiv fiskal siyasətin tətbiqini şərtləndirmişdir. Neft sektorunun sürətli inkişafı əhəmiyyətli iqtisadi artıma yol açmışdır ki, bu da makroiqtisadi siyasəti daha çox mövcud status kvonun qorunmasına istiqamətləndirmişdir. Makroiqtisadi siyasətin bu xarakteri və ümumilikdə protsiklik siyasət yanaşması həm real, həm də maliyyə sektorlarında neft bumu dövründə zəruri struktur transformasiyanı gecikdirmişdir.

Buna görə də 2016-cı ildən başlanan iqtisadi islahatların yeni keyfiyyət mərhələsində siyasət quruculuğunda əsas dəyişikliklərdən biri təkcə funksional siyasət çərçivələrinin təkmilləşdirilməsi deyil, həmçinin institusional əməkdaşlıq mexanizmlərinin tətbiqinin genişləndirilməsi olmuşdur. Makroiqtisadi və maliyyə sabitliyin təmin edilməsi məqsədilə ayrı-ayrı qurumların mandatı çərçivəsində spontan fəaliyyətlərin icrası təcrübəsinin aidiyyəti qurumlar arasında siyasət koordinasiyası ilə əvəzlənməsi məqsədilə əvvəlcə 2016-cı ildə Maliyyə Sabitliyi Şurası yaradılmış, 2020-ci ildə isə bu format daha geniş səlahiyyətlərlə əhatə edilmiş İqtisadi Şura ilə əvəz olunmuşdur.

Milli iqtisadiyyatın müasir inkişaf çağırışları kontekstində optimal monetar, fiskal və maliyyə sabitliyi çərçivələrinin formalaşdırılması üçün makroiqtisadi siyasət əməkdaşlığında mövcud olan məhdudiyyətlərin aradan qaldırılması üçün bir sıra islahatların keçirilməsi zəruridir:

- **Siyasət qurumlarının funksional səlahiyyət sərhədlərinin dəqiqləşdirilməsi, eləcə də onların institusional müstəqilliklərinin təmin edilməsi** – bu çərçivədə xüsusilə Mərkəzi Bankın institusional və siyasət müstəqilliyinin təmin edilməsi həm dayanıqlı pul siyasəti çərçivəsinin formalaşdırılması, həm də iqtisadi subyektlərin gözləntilərinin effektiv idarəedilməsi mexanizmlərinin tətbiqi baxımdan əhəmiyyətlidir. Eyni zamanda siyasət qurumlarının müstəqilliklərinin təmin edilməsi siyasət intizamının gücləndirilməsi baxımından əhəmiyyətlidir;
- **İqtisadi şaxələndirməyə istiqamətlənən əlaqələndirilmiş siyasət mexanizmlərinin tətbiqi** – milli iqtisadiyyatın struktur məhdudiyyətləri, xüsusilə neft sektoru dominantlığının yaratdığı fiskal mühit makroiqtisadi siyasət blokları arasında koordinasiyaya mənfi təsir göstərir. Bu baxımdan iqtisadi şaxələndirməyə töfhə verəcək əlaqələndirilmiş monetar, fiskal və struktur islahatların həyata keçirilməsi təkcə formal deyil, əksinə effektiv funksional koordinasiya tələb edir;
- **Pul siyasətinin transmissiyası çərçivələrinin təkmilləşdirilməsi** – bu istiqamətdə islahatların həyata keçirilməsi həmçinin maliyyə bazarlarında və bank sistemində struktur islahatları zərurətə çevirir. Bu xüsusda məzənnə siyasətinin ora və uzunmüddətli dayanıqlığı təmin edəcək formada həyata keçirilməsi, faiz dərəcəsi kanalının işləkliyinin artırılması, bank sektorunun dayanıqlığının təmin edilməsi vacibdir;
- **Makrofiskal intizamın qorunması, habelə dövlətin iqtisadi aktor kimi funksionallığının yenidən dizaynı** – bu istiqamətdə dövlət investisiyalarının və dövlət şirkətlərinin iqtisadi səmərəliliyinin yüksəldilməsi [2], habelə dövlətin izafi fskal yükünün azaldılması üçün, xüsusilə qeyri-neft sektorunda özəl bölmənin iştirakçılığın artırılması zəruridir. Dövlətin iqtisadi aktor kimi

izafi funksionallığı siyasət quruculuğunda fiskal dominantlığı şərtləndirməklə tədricən pul siyasəti quruculuğunun köməkçi rol daşımasına, özəl sektorun sıxışdırılmasına və daha çox protsiklik siyasətin tətbiqinə yol açır. Bu şərtlər altında makroiqtisadi siyasət əməkdaşlığı daha çox fiskal hədəflərin realizasiyasına yönələn formal çərçivələri əhatə edir.

Beləliklə, müasit postneft mərhələsində Azərbaycanda dayanıqlı iqtisadi inkişafın təmin edilməsi üçün siyasət çərçivələrinin funksionallığının artırılması ilə yanaşı, effektiv makroiqtisadi siyasət əməkdaşlığının tətbiq edilməsinə ehtiyac var. Bu effektiv əməkdaşlıq mexanizmləri həm mövcud struktur çatışmazlıqların aradan qaldrıılması, həm də qısa, orta və uzunmüddətli inkişaf hədəflərinin realizasiyası baxımından zəruridir.

Ədəbiyyat:

1. Abdullayev X. Oyun nəzəriyyəsi: monetar və fiskal siyasətlərin davranış modelləri // Mərkəzi Bank və iqtisadiyyat jurnalı – 2013. №1, – s. 30-44.
2. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər, Fevral 2021
3. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi, Dekabr 2016

MİLLİ TƏHLÜKƏSİZLİYİN QORUNMASINDA METALLURGİYA SƏNAYESİNİN ƏHƏMİYYƏTİ

Əmirov İmran Balamirzə oğlu, *Baş müəllim*
Sumqayıt Dövlət Universiteti
imran_amirov@mail.ru

Xülasə

Açar sözlər: iqtisadi təhlükəsizlik, rəqabət qabiliyyəti, indikator, metallurgiya sənayesi, dəmir filizi, polad istehsalı, armatur istehsalı

Azərbaycanda iqtisadiyyatın davamlı inkişafının təmin olunması birbaşa olaraq milli və iqtisadi təhlükəsizliyin gücləndirilməsi məsələləri ilə əlaqədardır. İqtisadi inteqrasiyanın genişlənməsi, ölkə iqtisadiyyatının açıq bir sistem kimi fəaliyyət göstərməsi və rəqabət qabiliyyətinin yüksəldilməsi iqtisadi təhlükəsizlik probleminin həll edilməsini daha da aktuallaşdırır.

Ölkəmizdə iqtisadi təhlükəsizlik məsələlərinə bir aydınlıq gətirilməsi, onu səciyyələndirən göstəricilər sisteminin və indikatorlarının tədqiq olunması hazırlanan məqalədə məqsəd kimi qarşıya qoyulmuşdur. Burada həmçinin iqtisadi təhlükəsizliyin və davamlı iqtisadi inkişafın gücləndirilməsində qeyri-neft sektorunun strateji sahələrindən biri olan metallurgiya sənayesinin roluna xüsusi önəm verilməsi nəzərdən keçirilmişdir.

Milli iqtisadiyyatımızın inkişaf etdirilməsi ilk növbədə təhlükəsizlik məsələlərini ön plana çəkir. Bu da ölkəmizin milli təhlükəsizliyinin qorunmasını və bununla əlaqədar kompleks tədbirlərin həyata keçirilməsini tələb edir. Milli təhlükəsizliyi gücləndirən və ölkəmizin davamlı inkişafına zəmin yaradan amillərdən biri də iqtisadi təhlükəsizliyin qorunmasıdır.

İnkişaf etmiş dövlətlərin əksəriyyəti müstəqillik əldə edən ölkələri öz nüfuz dairələrinə cəlb etməyə çalışırlar. Ona görə də yeni yaranan dövlətlər milli təhlükəsizliklərinin təmin edilməsini özlərinin mühüm vəzifələrindən biri hesab etməlidirlər. Milli müstəqilliyin mühüm atributu olan iqtisadi təhlükəsizlik dünya təsərrüfatına qoşulmağın başlıca meyarlarından biri kimi çıxış edir. İqtisadi təhlükəsizlik nəzərə alınmadan inteqrasiya məqsədə çevrilərsə bu arzuolunmaz nəticələrə gətirib çıxarar. Bütün digər şərtlər nəzərə alınmaqla dünya iqtisadiyyatına inteqrasiyada qarşılıqlı faydalanma prinsipləri əsas olmalıdır [1, 120 s.].

Qeyd etmək lazımdır ki, ümumən ölkəmizdə həyata keçirilən iqtisadi siyasətin özəyini milli iqtisadiyyatın təhlükəsizliyinin təmin olunmasıdır. Bu da Azərbaycanın maraq və mənafelərinə, yeridilən siyasətin sosial yönümlülüyünə, dövlətin müdafiə qabiliyyətinin mütəmadi yüksəldilməsinə imkan yaratmalıdır. İqtisadi təhlükəsizlik məsələlərinə dövlətin özünün inkişaf strategiyalarının meyarlarından biri kimi baxılmalıdır.

Beləliklə, iqtisadi təhlükəsizlik öncə milli iqtisadiyyatın müstəqilliyi, onun sabitliyi və daima yenilənməyə olan qabiliyyətini müəyyən edən amil və şəraitlərin məcmusu kimi başa düşülməlidir. İqtisadi təhlükəsizlik mühüm bir iqtisadi kateqoriya olmaqla kifayət qədər mürəkkəb daxili tərkibə malikdir. Bu anlayışla bağlı dünya təcrübəsinin, MDB ölkələrinin, eləcə də Azərbaycanın təcrübəsinin öyrənilməsi və mövcud vəziyyətin təhlili yeni iqtisadi münasibətlər əsasında formalaşan milli iqtisadiyyatda onun aşağıdakı başlıca ünsürlərini müəyyən etməy imkan vermişdir.

1) İqtisadi müstəqillik müasir dünya təsərrüfatı şəraitində qətiyyən mütləq xarakter daşımır. Çünki, bir tərəfdən qloballaşma prosesi, digər tərəfdən beynəlxalq əmək bölgüsü milli iqtisadiyyatları bir-birindən qarşılıqlı asılı edir. Belə bir şəraitdə, iqtisadi müstəqillik ölkənin resursları üzərində nəzarət, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin təmin edilməsi, elm-texnika sahəsində kooperativ əlaqələri formalaşdırmaqdan ibarətdir.

2) Milli iqtisadiyyatın sabitliyinin təmin edilməsi bütün mülkiyyət formaları üzrə biznes fəaliyyətinin daha da genişləndirilməsinə şərait yaradılmasını, iqtisadiyyatda kriminal hallara, sosial sarsıntılara qarşı mübarizə aparılmasını tələb edir.

3) İnkişaf edən müasir dünyada iqtisadi təhlükəsizliyin gözlənilməsində milli iqtisadiyyatın öz inkişafını və tərəqqisini təmin etmək qabiliyyəti mühüm əhəmiyyət kəsb edir. Bu öncə ölkədə müvafiq investisiya və innovasiya mühitinin yaradılmasını, işçilərin mədəni-texniki səviyyəsinin yüksəldilməsini tələb edir.

Təsərrüfatçılıq fəaliyyətində iqtisadi təhlükəsizlik bir qrup göstəricilər sistemi ilə xarakterizə olunur. Onlar ümumən cəmiyyətin iqtisadi, sosial, ekoloji potensialın mövcud səviyyəsini, eləcə də milli iqtisadiyyatın, cəmiyyətin qeyri-sabitliyinə gətirən amilləri, mümkün olan itkiləri qiymətləndirir. İqtisadi təhlükəsizlik indikatorlarına gəldikdə isə onlar çoxsaylı olmaqla özündə əsasən: əsas kapitala investisiyalar, ÜDM-ə görə 25 %; müdafiə xərcləri, ÜDM-ə görə 3 %; vətəndaşların elminə xərclərin xüsusi çəkisi, ÜDM-ə görə 1,5 %; innovasiya məhsullarının bütün sənaye məhsullarına görə xüsusi çəkisi 15 %; sənaye istehsalında maşınqayırma və metal emalı sahələrinin xüsusi çəkisi 25 %; pul gəlirləri yaşayış minimumundan aşağı olan əhalinin xüsusi çəkisi, bütün əhaliyə görə 7-10 %; 10 % ən yuxarı və 10 % ən aşağı təminatı olan əhalinin gəlirlərinin nisbəti 8 dəfə; beynəlxalq əmək təşkilatının metodologiyasına görə işsizliyin səviyyəsi, iqtisadi aktiv əhaliyə görə 5-8 %; monetarlaşmanın səviyyəsi (ilin sonuna M2-nin ÜDM görə) 50 %; xarici borc, ÜDM görə 30 %; inflyasiyanın səviyyəsi, 125 %; daxili borc, ÜDM-ə görə 30 %; dövlət borcunun ödənilməsi üzrə xərclərin xüsusi çəkisi, dövlət büdcəsinin xərclərinin ümumi cəminə görə 20 %; dövlət büdcəsinin kəsiri, ÜDM-ə görə 3 % və s. cəmləşdirir:

Beləliklə, iqtisadi təhlükəsizliyin dövlət tənzimlənməsi milli iqtisadiyyatın ümummilli mənafelərinin təmin olunmasının mühüm şərtidir. Ölkənin iqtisadi və milli təhlükəsizliyinin dayanıqlılığı dövlət büdcəsi, qızıl-valyuta ehtiyatları, qiymətlərin stabilliyi, tədiyyə balansı, vergi yükü və s. ilə əlaqədar olaraq müəyyən səviyyələrdə də gözlənilməlidir [2, 187 s.].

Cədvəl 1. AR-da metallurgiya sənayesi üzrə istehsal göstəriciləri

№	*Göstəricilər*	*2015*	*2016*	*2017*	*2018*	*2019*
1	***2***	***3***	***4***	***5***	***6***	***7***
1	Fəaliyyətdə olan müəssisələr: dövlət/qeyri-dövlət	4 2/2	5 2/3	5 2/3	6 2/4	6 2/4
2	Sənaye fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış fərdi sahibkarlar	8	8	7	8	41
3	Sənaye məhsulunun (işlərin, xidmətlərin) dəyəri, müvafiq illərin cari qiymətlərilə, mln. man.	87,4	127,6	262,1	249,1	314,1
4	Ölkədə istehsal olunmuş sənaye məhsulunun ümumi dəyərində sahənin payı, %	0,4	0,4	0,7	0,5	0,7

5	Ölkə sənayesinin qeyri-dövlət sektorunda sahənin qeyri-dövlət sektorunun payı, %	0,4	0,5	0,8	0,6	0,8
6	**Əsas məhsul növlərinin istehsalı**: qızıl (kq)	2229,2	1895,3	3667,1	3475,7	3711,5
7	gümüş (kq)	132,5	320,1	3428,6	3229,4	3819,7
8	mis filizləri və konsentratları, t	969,2	1946,7	2062,5	1649,8	2212,9
9	dəmir filizi, min t.	127,6	25,5	-	-	-
10	Çuqun tökmə, t.	1150	2533,4	321,3	12,7	702
11	Polad tökmə, min t. ondan əmtəəlik	286,1 -	306,5 129,1	324,1 324,1	302 301,9	345,3 345,3
12	Tikişsiz polad borular, min t.	1,3	36,5	35,9	29,8	53,8
13	Armatur, min t.	314,8	131,4	251,5	223,2	235

Mənbə: Azərbaycanın Sənayesi Rəsmi nəşr Statistik məcmuə
Bakı 2020 AR Dövlət Statistika Komitəsi [4, 34 s.]

İqtisadi təhlükəsizlik indikatorlarının sırasında sənaye istehsalında maşınqayırma və metal emalı sahələrinin inkişaf etdirilməsi istiqamətində təsərrüfatçılığın gücləndirilməsinə xüsusilə önəm verilməlidir. Belə ki, qeyri-neft sektorunun inkişafında mühüm rol oynayan sənaye sahələrindən biri də ***metallurgiya sənayesidir***. Məhz, bu sənaye sahəsinin inkişafı qeyri-neft sektorunun maşınqayırma, gəmiqayırma, nəqliyyat, neft-kimya, kənd təsərrüfatı, elektroenergetika, tikinti və digər sahələrinin inkişafına zəmin yaradır. Bu səbəbdən də metallurgiya sənayesinin inkişaf etdirilməsi ölkəmizin maraqlarına uyğun olmaqla yanaşı daima diqqət mərkəzində olmalıdır. Zaqafqaziyada metallurgiya məhsulları istehsalında ən iri müəssisələrdən birinin yaradılması Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir.

Azərbaycan Respublikasında (AR-da) metallurgiya sənayesində istehsal olunan məhsulların dinamikasına nəzər saldıqda burada da artımın müşahidə olunduğunu görürük. Metallurgiya məhsulu üzrə 9-cu göstərici istisna olmaqla fəaliyyətdə olan 6 müəssisədə polad tökmə, tikişsiz polad borular və armatur istehsalı və digər məmulatlar davamlı olaraq artıma meyllidir (cədvəl 1).

AR-da metallurgiya sənayesi özünün ənənələri ilə fərqlənməklə bu sahənin inkişaf etdirilməsi istiqamətində önəmli işlər görülməkdədir. Ölkədə müasir tələblərə cavab verən yeni istehsal sahələri açılır, müasir təyinatlı texnoparklar yaradılır, infrastruktur layihələr həyata keçirilir. Mövcud təbii-iqtisadi potensialdan daha səmərəli istifadə edilməsi, ölkə iqtisadiyyatının metal məmulatlara olan tələbatının dolğun ödənilməsi və metallurgiyanın özünün ixracyönümlü sahəyə çevrilməsi məqsədlərindən irəli gələrək AR-da prezidentin sərəncamı ilə dəmir filizi hasilatından polad istehsalına qədər bütün tsiklləri əhatə edən və səhmləri dövlətə məxsus "Azərbaycan Polad İstehsalı Kompleksi" Qapalı Səhmdar Cəmiyyəti yaradılmışdır. Bu strateji layihənin əsasında ölkədə orta hesabla 350 mln. t.-dan artıq ehtiyatları olan dəmir filizindən yüksək keyfiyyətli polad istehsalını təşkil edərək daxili və xarici bazara rəqabət qabiliyyətli polad məmulatları təklif etmək missiyası dayanır. Bu vəzifələrə həmçinin ölkədə polad istehsalında yeni texnologiyaların tətbiqi, müvafiq sahənin maddi-texniki bazanın gücləndirilməsi, müasirləşdirilməsi və səmərəli idarə edilməsi kimi prioritetlər də daxil edilir [3, 437 s.].

Ölkəmizdə metallurgiya sənayesinin inkişafında mühüm yer tutan "Baku Steel Company" (BSC) şirkəti qısa zamanda metal qırıntıları əsasında ist1ehsal gücü, ildə 350,0 min t. olan müasir poladəritmə kompleksi yaratmışdır. Müəssisə müstəqillik dövründə inşa edilmiş ilk müasir və yüksək istehsal gücünə malik poladəritmə kompleksidir. 2001-ci ildə Ümummilli lider H.Əliyevin dəstəyi ilə işə başlayan müəssisə bu illər ərzində 2 mln. t.-dan artıq inşaat armaturu istehsal etmişdir. Şirkətin istehsal etdiyi polad məhsullar (inşaat armaturu və polad pəstahlar) daxili bazarla yanaşı Gürcüstan, İran, Qazaxıstan, Rusiya Federasiyası və digər regionlarda satılmış və inşaatçılar tərəfindən yüksək qiymətləndirilmişdir.

Nəticə

Aparılan elmi tədqiqatlar onu təsdiqləyir ki, metallurgiya sənayesinin inkişaf etdirilməsi ölkəmizdə yaradılan ümumi daxili məhsulun yüksəldilməsinə səbəb olur. Ona görə də yaxın gələcəkdə sənayenin bu sahəsinə sərmayə qoyuluşları artırılmalı və müxtəlif çeşiddə metal məmulatlarının istehsalı çoxaldılmalıdır.

Qeyd olunmalıdır ki, ötən əsrin sonlarından başlayaraq, Avropada yayma prosesində termomexaniki üsulla möhkəmləndirilmiş azkarbonlu polad armaturların geniş tətbiqi ilə əlaqədar Almaniyanın, Moldovanın, Türkiyənin, RF-nın və yerli mütəxəssislərin səyi ilə şirkətdə müasir istehsal sahəsi yaradılmış və burada termomexaniki üsulla azkarbonlu poladdan yüksək keyfiyyətli inşaat armaturları istehsal edilir [5, 311 s.]. Bakıda və regionlarında çoxmərtəbəli binaların, mədəniyyət və idman mərkəzlərinin, körpülərin, yolların və s. infrastruktur obyektlərinin tikintisi layihələrinin böyük sürətlə həyata keçirilməsi inşaat materialları və inşaatyönlü polad məhsullar istehsal edən müəssisələrin qarşısında qabaqcıl beynəlxalq texnologiyaları tətbiq etmək, məhsulun keyfiyyətini daha da yüksək standartlara çatdırmaq kimi vacib vəzifələr qoymuşdur. Bununla bağlı BSC şirkətində əsaslı yenidənqurma işləri aparılaraq müəssisənin istehsal gücü, ildə 770 min t. çatdırılmışdır. Polad məhsullarına daxili və xarici bazarın tələbatını nəzərə alaraq, müəssisədə məhsulun çeşidi genişləndirilmiş, inşaat armaturları ilə yanaşı künclük, şveller, ikitavr, katanka, naqil istehsalı nəzərdə tutulur.

Beləliklə, iqtisadi və milli təhlükəsizliyin təmin edilməsində qeyri-neft sektorunun aparıcı sahələrindən biri olan metallurgiya sənayesinin inkişafı yaxın perspektivdə diqqət mərkəzində olmalıdır. Bu da ölkənin iqtisadi potensialını gücləndirməklə onun təhlükəsizliyinin təmin edilməsində uzunmüddətli və strateji bir problemin həllinin gerçəkləşdirilməsinə gətirib çıxaracaqdır.

Ədəbiyyat

1. Ü.Q.Əliyev İqtisad elminin aktual problemləri, Bakı: “İqtisad Universiteti” nəşriyyatı, 2013-152 səh.

2. Əhmədov M.A., Hüseyn A.C. Dövlətin iqtisadi siyasəti Bakı: “İqtisad Universiteti” nəşriyyatı, 2011-220 s.

3. Azərbaycanın Statistik Göstəriciləri 2018, Statistical Yearbook of Azerbaijan, Bakı 2018, Mətbəə: 9 №-li kiçik müəssisə, AR Dövlət Statistika Komitəsi- səh.808.

4. Azərbaycanın Sənayesi Rəsmi nəşr Statistik məcmuə Bakı 2020 AR Dövlət Statistika Komitəsi -166 səh.

5. A.H.Tağıyev, İ.B.Əmirov //Heydər Əliyev müasir Azərbaycanın qurucusu kimi/ Haydar Aliyev: Çok Kültürlülük və Hoşgörü İdeolojisi Çerçivesinde “Azerbaycanın Kurucusu Haydar Aliyevin Doğumunun 95 Yili Anısında Haydar Aliyev və Türk Dünyası” Uluslararası Sempozyum 13-14 Nisan Erzurum/TÜRKİYE 2018, -309/365səh.

İn protection of national security The importance of the metallurgical industryAmirov İmran Balamirza

Summary

Keywords: economic security, competitiveness, indicator, metallurgy industry, iron ore, steel production, fittings production.

Ensuring sustainable economic development in Azerbaijan is directly related to issues of strengthening national and economic security. Expansion of economic integration, functioning of the country economy as an open system and increasing competitiveness make the problem of economic security more relevant.

The purpose of the article is to clarify economic security issues in our country and to study the indicators and indicators that characterize it. It also examines the role of the metallurgical industry, which is one of the strategic sectors of the non-oil sector in strengthening economic security and sustainable economic development.

Значение металлургической промышленности в защите национальной безопасности

Амиров Имран Баламирза о.

Резюме

Ключевые слова: экономическая безопасность, конкурентоспособность, индикатор, металлургическая промышленность, железная руда, производство стали, производство арматуры

Обеспечение устойчивого развития экономики в Азербайджане напрямую связано с вопросами укрепления национальной и экономической безопасности. Расширение экономической интеграции, функционирование экономики страны как открытой системы и повышение конкурентоспособности делают проблему экономической безопасности более актуальной.

Цель статьи - прояснить проблемы экономической безопасности в нашей стране и изучить ее характеризующие показатели. В нем также рассматривается роль металлургической промышленности, которая является одним из стратегических секторов ненефтяного сектора в укреплении экономической безопасности и устойчивого экономического развития.

MÜASİR DÖVRDƏ AZƏRBAYCANIN QİDA SƏNAYESİ MÜƏSSİSƏLƏRİNDƏ RƏQABƏTQABİLİYYƏTİNİN TƏMİN OLUNMASI QİYMƏT STRATEGİYASININ TƏKMİLLƏŞDİRİLMƏSİNİN PRİORİTETLƏRİ

Fidan Səfərova b/müəl.
Azərbaycan Dövlət İqtisad Universiteti(UNEC)
e-mail: ehmedovafidan@mail.ru

Xülasə

Azərbaycan hazır məhsulların, ilk növbədə, ərzaq ixracının payını artıra bilmir. Ölkədə xammal yönümlü ixrac modeli yaradılmışdır. Bərpa olunmayan resursların satışı ilə bağlı danışıqlara baxmayaraq, karbohidrogenlərin ixracı xarici ticarət dövriyyəsinin əsas mənbəyi olaraq qalır və idxalın artmasına səbəb olur. Eyni zamanda, məhdud daxili bazar şəraitində, daha çox müəssisə xarici iqtisadi fəaliyyətə keçməyə məcburdur. Təcrübə göstərir ki, Azərbaycan müəssisələrinin əksəriyyəti aktiv rəqabət mübarizəsi aparmağa hazır deyil. Nəticədə, sənaye belə çətin bir vəziyyətdə qalıb ki, müəssisələrin rəqabət mövqeyini gücləndirməklə bağlı hər hansı ciddi yeniliklər baş verməyib. Bununla belə, çətin iqtisadi vəziyyətdən çıxış yolu yalnız istehlakçıların ehtiyaclarına yönəldilmiş rəqabətqabiliyyətli istehsalın yaradılmasında ola bilər. Bu mənada rəqabət qabiliyyəti yerli müəssisələrin salamatlığının mühüm şərtidir.

Azərbaycan müəssisələrinin rəqabət qabiliyyətinin qiymətləndirilməsi və idarə olunması problemi istehsalın ümumi azalması, rəqabətə davamlı müəssisələrin yüksək səviyyədə salamatlığı, maliyyə xərclərinin aradan qaldırılması, bir çox müəssisə üçün iflas proseduru problemidir. Bu kontekstdə müəssisənin rəqabət qabiliyyətinin bütün amillərini təhlil etmək qabiliyyətini artırmaq, digər tərəfdən müəssisənin rəqabət qabiliyyətini çox yüksək səviyyədə qiymətləndirmək üçün onu artırmaq lazımdır, bu olmadan gələcək inkişaf strategiyası hazırlamaq mümkün deyil. Bu baxımdan rəqabətə davamlı idarəetmə sisteminin formalaşdırılması müəssisələrin davamlı mövcudluğunun ən vacib şərtidir. Məhz bu aspektdən yanaşdıqda, hesab edirik ki, Azərbaycanın qida sektorunda rəqabətqabiliyyətli qiymət strategiyalarının həyata keçirilmə səviyyəsini aşkar etmək məqsədilə bu sistem və strategiyaların təhlil edilərək araşdırılmasına ehtiyac vardır. Araşdırma zamanı qida sektorunda fəaliyyət göstərən şirkətlərdə rəqabətqabiliyyətli qiymət strategiyalarını, bu aspektlərdəki araşdırmaların nə dərəcədə səmərəli olduğunu, strategiyaları tətbiq edərkən hansı problemlərlə qarşılaşdığını və bu problemlərin qarşısını almaq üçün nə edildiyini üzə çıxarmaq mümkündür. Məqalədə araşdırma metodu olaraq təhlil, müqayisə və ümumiləşdirmə metodlarından

istifadə edilməsişdir. Hazırkı tədqiqat çərçivəsində Azərbaycanın qida sektorunda fəaliyyət göstərən şirkətlərin mövcud rəqabət şəraitində davranışları, praktikada yeni rəqabətqabiliyyətli qiymət strategiyaları ilə bağlı əməliyyatların səviyyəsi və bu aspektdə aparılan araşdırmalar zamanı hansı problemlərlə qarşılaşdıqları üzə çıxarılıb.

Açar sözlər: müəssisə, rəqabət,qiymət strategiyası, qida sektoru.

Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliyi birbaşa qeyri-neft sektorunun inkişafı ilə bağlıdır və bu istiqamətdə həyata keçirilən müəyyən uğurlu iqtisadi islahatlar öz nəticələrini uzunmüddətli və dayanıqlı inkişafa nail olunmasında, neft-qaz gəlirləri bazasında iqtisadiyyatının rəqabətqabiliyyətliyinin yaradılmasında verir. Sosial-iqtisadi proseslərin intensivləşdirilməsi, son illərdə qeyri-neft sektorunda dayanıqlı inkişafın nəticəsində qeyri-neft sənayesində 2019-cu ildə 3,5 faiz illik artım əldə edilmişdir[1, s.11].

Lakin ölkədə emal sənayesinin gələcək inkişaf prosesi xeyli dərəcədə daxili bazarda qiymət rəqabətqabiliyyətliyinin səviyyəsinin yüksəldilməsindən asılıdır.

Mal və xidmətlər bazarında tələb və təklifə uyğun şəkildə qiymət və tariflərin öz-özünü tənzimləməsində, eləcə də tələbin həcmi ilə qiymətin arasında tarazlığa nail olunmasında əsas şərtlərdən biri rəqabətdir. Çünki,bazar şəraitində azad rəqabət mühitinin təmin olunduğu halda istənilən bazar subyektinin mal və ya xidmətlərin qiymətini artırmaq istehlakçıları digər variantlar dalınca qaçmağa vadar edir. Eynicinsli məhsulun alternativ rəqib bazar subyektləri tərəfindən daha aşağı qiymətlə təklif olunması bu bazar subyektini qiymətləri bazar tələbinə uyğunlaşdırmaqla ucuz satmağa məcbur edir. Rəqabətin nəticəsi olaraq həmcins məhsullara ümumi qiymətin formalaşması baş verir və qiymətəmələgəlmənin bazar mexanizmi işə düşür.

Məhz bu baxımdan və Strateji Yol Xəritəsində göstərilən tədbirlər aspektindən yanaşmaqla, bu məqalədədə qida məhsulları istehsalı sahələrində rəqabətqabiliyyətliliyinin təmin olunmasının qiymət mexanizmi nəzərdən keçirilir və onun təkmilləşdirilməsi yolları araşdırılır

Qəbul edilmiş islahatlar modeli və Azərbaycanda makroiqtisadi siyasətin xüsusiyyətləri iqtisadiyyatın real, ticarət və vasitəçi və maliyyə sektorlarının tam yeni proporsiyalarını müəyyən edir. Bu gün bazar sektorları arasındakı dövlət resursları və gəlirləri üçün sərt rəqabət, maliyyə kapitalından istehsal kapitalının azalmasına və ticarət xidmətlərinə kapital axınına səbəb olur.

Real pul sektorunda qiymətlərin və xarici ticarətin liberallaşdırılması, daxili və dünya qiymətlərinin uyğunlaşdırılması və sərt pul siyasəti kontekstində yerli istehsalçıların xammal bazasından ayrılması xammal sektorunda daha əlverişli rəqabət mövqelərini ortaya qoydu. Azərbaycan istehsalçılarının və xüsusən də qida sənayesinin fəaliyyət göstərdiyi daxili makro-iqtisadi şərtlər xarici ixracatçıların xarici bazarlara güclü təzyiqi səbəbindən yerli müəssisələrin ölkənin daxili bazarlarındakı mövqelərini pozur.

Rəqabətədavamlı iqtisadiyyat qurmağın əsasını innovasiyaların geniş tətbiqi, ölkəmizin beynəlxalq əmək bölgüsündə iştirakı təşkil edir. Azərbaycan rəqabətə davamlı iqtisadiyyatın inkişafında fəal iştirak edir. Respublika hökuməti islahatları dərinləşdirmək və sosial yönümlü bir cəmiyyət formalaşdırmaq üçün davamlı tədbirlər həyata keçirməklə bazar iqtisadiyyatının rəqabət-qabiliyyətli olmasına əsaslanır. Azərbaycan iqtisadiyyatının uğurlu gələcəyi özünü sənayenin innovativ inkişafında və dünya iqtisadiyyatına inteqrasiyasında büruzə verir. Respublika çoxtərəfli beynəlxalq əməkdaşlıq layihələrində aktiv fəaliyyət göstərir və milli iqtisadiyyatda effektiv innovasia siyasəti aparmaqdadır.

Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev 2017-2019-cu ilin sosial-iqtisadi inkişafına dair yekun hesabatlarında bu istiqamətləri prioritet hesab edir. İqtisadiyyatımızın rəqabət qabiliyyətliliyi enerji xərclərinin azaldılmasını təmin edən səmərəli texnologiyalara əsaslanmalıdır. Azərbaycan qlobal tendensiyalara uyğun inkişaf etməli, dünyadakı yeni və mütərəqqi olan hər şeyi seçməlidir. Azərbaycan qlobal iqtisadiyyata inteqrasiyanı təmin edən, o cümlədən əlverişli iqtisadi-coğrafi mövqeyimizə və mövcud təbii ehtiyatlara əsaslanan çoxtərəfli beynəlxalq layihələrdə fəal iştirak etməlidir.

Rəqabətliliyi inkişaf etdirmək üçün hazırda zəruri institusional qurumlar yaradılmışdır. Qəbul edilmiş qanun və normativ aktlar, hökumət qərarları rəqabət qabiliyyətinin inkişafı üçün hüquqi

əsaslar yaratmışdır. Onlar investorların fəaliyyətinə hüquqi zəmanət yaratmağa imkan vermişdir. Birgə müəssisənin yaradılması, iştirakçıları xarici iqtisadi fəaliyyətlərdə qeydiyyatdan keçmək və ixrac olunan məhsulların lisenziyalaşdırılması qaydası əhəmiyyətli dərəcədə sadələşdirilmişdir. Bütün bunlar ixrac və idxalın strukturunda bəzi yaxşılaşmalara müsbət təsir göstərmişdir.

Bununla belə, respublika hazır məhsulların, ilk növbədə, ərzaq ixracının payını artıra bilmir. Azərbaycanda xammal yönümlü ixrac modeli yaradılmışdır. Bərpa olunmayan resursların satışı ilə bağlı danışıqlara baxmayaraq, karbohidrogenlərin ixracı xarici ticarət dövriyyəsinin əsas mənbəyi olaraq qalır və idxalın artmasına səbəb olur. Eyni zamanda, məhdud daxili bazar şəraitində, daha çox müəssisə xarici iqtisadi fəaliyyətə keçməyə məcburdur.

Təcrübə göstərir ki, Azərbaycan müəssisələrinin əksəriyyəti aktiv rəqabət mübarizəsi aparmağa hazır deyil. Nəticədə, sənaye müəssisələri belə çətin bir vəziyyətə düşüb ki, onların rəqabət mövqeyini gücləndirməklə bağlı hər hansı ciddi yeniliklər baş verməyib. Bununla belə, çətin iqtisadi vəziyyətdən çıxış yolu yalnız istehlakçıların ehtiyaclarına yönəldilmiş rəqabətqabiliyyətli istehsalın yaradılmasında ola bilər. Bu mənada rəqabət qabiliyyəti yerli müəssisələrin salamatlığının mühüm şərtidir.

Qida təhlükəsizliyinin təmin edilməsi metodlarının, ixracatçılara milli dəstəyin və idxaləvəzləyici istehsalın təkmilləşdirilməsinə ehtiyac vardır. Ölkənin xarici siyasətinin prioritetlərindən biri də Ümumdünya Ticarət Təşkilatına üzv olan ölkələrlə hərtərəfli əlaqələrin inkişafıdır.

Hazırkı tədqiqat çərçivəsində Azərbaycanın qida sektorunda fəaliyyət göstərən müəyyən 3 ssenari üzrə ümumiləşdirilmiş şirkətlərin marketinq fəaliyyətləri, mövcud rəqabət şəraitində davranışları, praktikada yeni rəqabətqabiliyyətli qiymət strategiyaları ilə bağlı əməliyyatların səviyyəsi və bu aspektdə aparılan araşdırmalar zamanı hansı problemlərlə qarşılaşdıqları üzə çıxarılıb.

Birinci ssenari üzrə şirkətin bəlli ildə fəaliyyətə başlaması yerli istehsal, qənnadı məmulatları və qida sənayesinə yeni keyfiyyət və yeni ləzzət gətirmiş, müxtəlif fəaliyyət növləri ilə yerli və Orta Asiyada, Rusiyada, Gürcüstanda böyük nüfuz qazanmışdır. Şirkət inkişafındakı dinamikliyi gücləndirmək və ixrac sahəsini genişləndirmək üçün beynəlxalq standartların tələblərinə uyğun inkişaf siyasəti həyata keçirir. Aparılan araşdırmalar göstərir ki, şirkət istehsalın ilk illərində daha çox satış yönümlü hərəkətlər etmiş, tədricən istehsal və rəqabət şərtlərindəki artım keyfiyyət anlayışını ortaya qoymuşdur. Keyfiyyəti artırmaq və istehlakçını istehsal olunan keyfiyyətli məhsullardan xəbərdar etmək üçün şirkətdəki marketinq fəaliyyətləri daha çox dəyər qazanmış və burada marketinq şöbəsi yaradılmışdır. Hazırda şirkət kommersiya marketinqi üzərində işləməklə, burada satış proqnozu və təhlili, bazar araşdırması və istehlakçı araşdırması kimi sektorlar yaradılmışdır.

Şirkətin rəqabətli vəziyyətinə gəldikdə, bu gün şirkət sıx rəqabətlə üzləşir. Rəqabət etmək üçün şirkət öz metod və strategiyalarından istifadə edir, hər il bazar araşdırması aparır və nəticələrini daha dəqiq və aydınlaşdırmaq üçün xarici şirkətlərlə müqavilələr bağlayır. Üstəlik şirkət satış nümayəndələrinin məlumatları ilə bazarı daha obyektiv qiymətləndirir. Güclü rəqabət halında şirkətin satış nümayəndələri bazarda rəqiblərin satışları barədə məlumat əldə edir və müştərilərin bazarda olan məhsullarla bağlı fikirlərini tez-tez sorğular, müşahidələr və müsahibələr yolu ilə öyrənirlər.

Şirkət, bazarda çəki ilə satılan şokolad konfetlərinin filialında satdığı üçün, çəki ilə satan digər markaları rəqib görür, Roşen və Mars milli markaları ən böyük rəqib sayırlar. Şirkətin rəqiblərinin qiymətləri çox elastikdir, çünki əksəriyyəti milli firmalardır və sadiq müştəriləri çoxdur ki, bu da şirkətin rəqabət vəziyyətinə təsir göstərən ən vacib dəyərlərdir. İllik təhlil araşdırmalarında rəqiblər haqqında konkret tapıntılar əldə edilir və bu nəticələr şirkətə rəqabət edərkən üstünlük verəcək şəkildə qiymətləndirməyə yönəldilir.

Şirkətin qiymətqoyma strategiyalarına gəldikdə, aparılan araşdırmalara görə, şirkətin marketinq fəaliyyətində ən vacib 4P marketinq komponenti qiymətdir. İstehsal olunan məhsulun qiymətini təyin edərkən şirkət qiymətə çatmaq nöqtəsində buna nail olmağa çalışır. Şirkət istehsal olunan məhsulun qiymətini xərc yönümlü qiymət yanaşmasına uyğun olaraq təyin edir. Şirkət öz məhsulunu müəyyənləşdirdiyi qiymətə satarkən, monitorinq fəaliyyəti də aparır. Bazarda malın qiyməti hər zaman izlənilir, təhlil edilir və satış qabiliyyəti qiymətləndirilir. Problemlərlə

qarşılaşdıqda səbəblər araşdırıldıqdan sonra həll yolları hazırlanır və rəhbərliyə təqdim olunur. Qiyməti təyin edərkən şirkət optimal qiyməti müəyyənləşdirməyi və real bazarda satmağı hədəfləyir. Şirkət qiymət strategiyasını tətbiq edərkən, şirkətin dəyərlərini və missiyasını prioritetləşdirir.

İkinci ssenaridə şirkət istehsal sektorunda istehsal etdiyi məhsulları və paylaşdığı şirkətlərin məhsullarını bazara və istehlakçılara çatdırmaqla, qısa müddətdə müasir texnologiyalarla təchiz olunmuş geniş bir ticarət şəbəkəsi qurub. Şirkət yarandığı gündən bəri dünyanın müxtəlif şirkətləri ilə əməkdaşlıq edir. Bu illər ərzində çalışdığı hər bir şirkətə hörmətlə yanaşmış və məhsulların çatdırılmasında böyük ustalıq göstərmişdir. Bu səbəbdən ötən illər ərzində şirkət, yüksək keyfiyyəti və bacarıqlı biznesi sayəsində çalışdığı şirkətlər tərəfindən müxtəlif sertifikat və diplomlarla təltif edilmişdir. Şirkət Gürcüstanda öz filialını açıb. Filial biznes üçün mövcud və yeni bazarları araşdırmaq, təklif verməklə yanaşı, bazar araşdırmaları aparır, təklif paketi hazırlayır və sifariş əsasında Azərbaycan bazarında fəaliyyət göstərən müəssisələr üçün təqdimatlar edir.

Şirkət öz marketinq fəaliyyətini marketinq departamentinin işçiləri və şirkət xaricindəki satış nümayəndələri ilə həyata keçirir. Şirkət xaricində çalışan satış təmsilçiləri şirkətə bazar, bazardakı rəqiblərin hərəkətləri və bazar lideri məhsullar haqqında məlumat verirlər. Hansı məhsul nə qədər, hansı qiymətə, hansı istehlakçıya satılır? Səbəbləri nədir? Rəqiblər bazarda hansı qiymətlərə satırlar? İstehlakçıların rəqabətə davamlı məhsullara üstünlük verməsi və bunun səbəbləri nədir? Şirkətin marketinq şöbəsi satışlarını artırmaq üçün əlindən gələni edir. Hər ilin sonunda növbəti il üçün marketinq planları və strategiyaları hazırlanır və rəhbərliyə təqdim olunur.

Şirkətin rəqabət vəziyyətinə gəldikdə, aparılan araşdırmalara görə şirkət sıx rəqabətlə üzləşir. O, Azərbaycan bazarına qida məhsulları təklif edir və bu səbəbdən bazarda rəqib şirkətlərlə qarşılaşdığına görə rəqabət qaçınılmaz olur. Şirkət marketinq tədqiqatında da rəqib araşdırmasını irəli sürür. Şirkətin rəqibləri yerli və xarici qida istehsal edən şirkətlərdir. Bu gün qida sektorunda istehlakçıların yerli qida məhsullarına üstünlük verməsi qida növlərinə görə dəyişir. Bu şərtlər rəqabət zamanı şirkətə bəzən üstünlüklər, bəzən çatışmazlıqlar verir. Şirkət rəqabət edərkən rəqiblərin öhdəsindən gəlmək üçün istehlakçı kampaniyaları, reklamlar, təşviq səyləri, strategiya və siyasətləri həyata keçirir və rəqibləri təhlil edir. Şirkət rəqibləri haqqında hər cür məlumat əldə etməyə çalışır. Şirkət rəqib məhsullar, qiymət indeksləri və satış rəqəmləri barədə məlumat və yeniliklərdən, əsasən şirkət xaricində işləyən satış nümayəndələri və nəzarətçilər vasitəsi ilə xəbərdar olur. Şirkət mövcud rəqabət şəraitində rəqibləri ilə rəqabət aparır və rəqabət etmək üçün marketinq fəaliyyətini bu istiqamətdə inkişaf etdirir.

Şirkətin qiymətqoyma strategiyalarına gəldikdə, araşdırmalara görə şirkət istehsal olunan məhsulların qiymətinin istənilən səviyyədə satış üçün ən vacib amil olduğunu düşünür. İstehsal etdiyi məhsulun qiymətini təyin edərkən şirkət əvvəlcə məhsulun maya dəyərini, daha sonra rəqiblərin qiymətlərini və sonra tələb olunan qiyməti nəzərə alır. Qiyməti təyin edərkən şirkət istehlakçıların gözləntilərini, gəlirlərini və real bazardakı zərər nöqtəsini də nəzərə alır. Qiyməti təyin edərkən şirkətin marketinq qrupu lazımi tədqiqatları apardıqdan sonra bu tədqiqatların nəticələrinə yönəlmiş təkliflər paketi hazırlayır və ümumi rəhbərliyə və istehsal rəhbərliyinə təqdim edir və şirkətin son meneceri qiyməti təsdiqləyir. Şirkət üçün optimal qiymət, məhsulun maya dəyərindən, rəqib məhsulların qiymətlərindən və tələb olunan orta qiymətdən alınan rəqəmdir. Şirkət qiymət strategiyasını təyin edərkən ilk növbədə rəqib analizini aparır, öz strateji hədəflərini müəyyənləşdirir və bu hədəflərə çatmaq üçün qısa və orta müddətli strategiyaları həyata keçirir. Şirkət həmişə mövcud strategiyalarını izləyir və yoxlayır. Uğurlu strategiyalar və düzgün təyin olunmuş qiymət şirkət üçün istənilən nəticələrdir.

Üçüncü ssenaridə şirkət süd məhsullarının topdan və pərakəndə satışı ilə məşğul olan müəssisələr arasında liderdir və bu gün Azərbaycanın bütün bölgələrində satış kanallarını inkişaf etdirmişdir. Şirkətin marketinq siyasətinin əsas məqsədi satış bazarını genişləndirmək, distribyutor şəbəkəsini genişləndirmək və məhsulu istehlakçıya maksimum səviyyədə saxlamaqdır.

Şirkətin marketinq fəaliyyətinə gəldikdə, araşdırmalara görə, o, geniş marketinq fəaliyyətində iştirak edir. Marketinq fəaliyyətləri olaraq şirkət bazar, istehlakçı, rəqib və məhsul araşdırmaları aparır, marketinq planlarını və hədəflərini müəyyənləşdirir, bunlar üçün lazımi məlumatları toplayır, istifadə edir və vacib marketinq qərarlarını qəbul edir. Marketinq qərarları vermək üçün

şirkət hər zaman daxili və xarici qiymətləndirmələr, biznes təhlili, əsas bazar təhlili, rəqib analizi, satış təhlili aparır.

Şirkətin rəqabətli durumuna gəldikdə, demək lazımdır ki, firma bazarda sıx rəqabətlə qarşılaşır. Rəqibləri ilə rəqabət etmək üçün firma hər zaman rəqib analizi aparır və rəqiblər haqqında hər cür nəticələr əldə etməyə çalışır. Bəzən firma bunun üçün partizan marketinqi həyata keçirir. Şirkət həmişə rəqiblərin satış həcmlərini, qiymət indekslərini və marketinq fəaliyyətini izləyir. Marketinq qərarlarında rəqib davranışı nəzərə alınır.

Şirkətin qiymətqoyma strategiyalarına gəldikdə, araşdırmalara görə, şirkət istehsal olunan məhsulun qiymətini təyin edərkən maliyə yönümlü qiymət yanaşmasına uyğun hərəkət edir, lakin bəzi hallarda şirkət psixoloji qiymət metodlarından da istifadə edir. Qiyməti təyin edərkən firma bazar, istehlakçılar, rəqiblər və şirkət dəyərləri ilə əlaqəli bəzi vacib amilləri nəzərə alır. Qiyməti təyin edərkən rəqəmlər marketinq şöbəsi deyil, iqtisadi planlaşdırma şöbəsi tərəfindən təsdiqlənir. Marketinq şöbəsi təklifləri yalnız araşdırma əsasında hazırlayır. Şirkətin qiymət strategiyalarını təyin edərkən şirkətin hədəfləri və dəyərləri, subyektiv və obyektiv səbəbləri ön plana çıxır. Mövcud strategiyalar orta müddətlidir və hər ilin sonunda qiymətləndirmə üçün təqdim olunur.

Beləliklə, bu gün Azərbaycanın qida sektorunda bir çox şirkətlərin olması şiddətli rəqabət yaradır. Qida sektorunda istehsal və satış həyata keçirən hər bir şirkət, rəqiblərindən geri qalmamaq və onlarla ayaqlaşmaq üçün sıx marketinq fəaliyyətləri, rəqabət və qiymət strategiyaları tətbiq edir. Dəyişən texnologiya, yeni müştərilər, yeni ixtiralar, dəyişən istehlakçılar, qida məhsullarının qalıcılığı, tələbin elastikliyi səbəbindən güclü bir rəqabət var. Firmalar bir-biri ilə şiddətli bir rəqabət içindədirlər. Azərbaycan qida sektorundakı marketinq sisteminin təhlilini və bu sektorda fəaliyyət göstərən şirkətlərdə rəqabətli qiymət strategiyaları ilə bağlı əməliyyatların necə tətbiq olunduğunu, bu tədqiqatların şirkətə verdiyi töhfələri, hansı problemlərlə qarşılaşdığını aşkar etmək üçün aparılan araşdırmalar bu müddətdə hansı həll yolları axtarılır.

Tədqiqat nəticəsində araşdırmanın aparıldığı 2-ci və 3-cüssenari üzrə şirkətlərdə marketinq fəaliyyətinin orta səviyyədə aparıldığı, şirkətlərin daha çox satışa yönəlmiş marketinq səyləri göstərdikləri, rəqib analizlərini, rəqib satış rəqəmlərini tətbiq etdikləri və rəqiblərindən geri qalmamaq və onlarla ayaqlaşmaq üçün strateji və siyasi qərarlar verildiyi müəyyən edilib.

2-ci və 3-cü ssenari üzrə şirkətlərdə 1-ci ssenari şirkəti ilə mövcud rəqabətə davam gətirmək və tətbiq olunmadan əvvəl və sonra bu strategiyalar nəticəsində alınan strateji qərarları təhlil etmək üçün rəqabət və qiymət strategiyaları tətbiq edirlər. Qəbul edilmiş qərarların və tətbiq olunan strategiyaların uğuru ölçülür. Rəqabət üstünlüklərinə nail olmaq üçün şirkət daim bazar araşdırmaları aparır və rəqiblərinin məhsulları, xidmətləri, kampaniyaları və təşviqlərini daima nəzərə alır.

Araşdırmanın nəticələrindən göründüyü kimi, 2-ci və 3-cü ssenari üzrə şirkətlər 1-ci ssenari şirkəti ilə rəqabətdən xəbərdardır və ona uyğun olmaq üçün rəqabət və qiymət strategiyaları tətbiq edirlər. Lakin bu strategiyalarda zəifliklər, çatışmazlıqlar və uğursuzluqlar yarana bilər. Odur ki, şirkətlərin rəqibləri ilə səmərəli rəqabət etmələri üçün;

- düzgün qiymət strategiyaları tətbiq ediməli,
- bu strategiyaları tətbiq edərkən bazara çıxardıqları məhsula olan tələb nəzərə alınmalı,
- tələb proqnozları dəqiqləşdirilməli,
- məhsul üzərində kifayət qədər araşdırma aparılmalı,
- məhsul əsaslı 4P tətbiq olunmalı,
- məhsula indeksləşdirilmiş qiymətlər rəqiblərin qiymətlərinə görə təyin edilməli,
- müştəri təmsilçilərinə adekvat öhdəsindən gələ biləcəkləri məhsul növü verilməlidir.

Ölkədə rəqabət mühitinin yaxşılaşdırılması, fərdi sahibkarlar üçün əlverişli mühitin yaradılması nəticəsində 2019-cu ildə 2003-cü illə müqayisədə ət istehsalı (quş əti də daxil olmaqla) 1,8 dəfə, kərə yağı istehsalı 1,8 dəfə, bitki yağları istehsalı 1,4 dəfə, pendir və kəsmik istehsalı 1,6 dəfə, marqarin istehsalı 5,4 dəfə, qənnadı məmulatları istehsalı 1,6 dəfə, yodlaşdırılmış duz istehsalı 28,7 dəfə, yumurta istehsalı 2,7 dəfə, makaron məmulatları istehsalı 5,3 dəfə, meyvə-tərəvəz konservlərinin istehsalı 7,6 dəfə, üzüm şərabı və pivə istehsalı müvafiq olaraq 1,9 və 3,8 dəfə, alkoqolsuz içkilərin istehsalı 4,2 dəfə artmışdır [2].

Əksər qida məhsullarının istehsalı həcminin 2003-2019-cu illər ərzində müşahidə olunan sürətli artım dinamikası həmin məhsullar istehsalının bütövlükdə rəqabətqabiliyyətli olmasını səciyyələndirməklə, müvafiq istehsal həcmini daxili bazar, habelə ixrac bazarlarının tələbatına əsasən artırmaq imkanlarının olmasından xəbər verir.

Bununla yanaşı, daxili bazarda istehlak tələbatının, eləcədə emal sənayesinin xammala tələbatını ödəmək məqsədilə bir sıra məhsulların idxal həcmi bu məhsullar üzrə yerli istehsal həcmi ilə müqayisədə kifayət qədər yüksək olmuşdur.

Ölkənin ərzaq təhlükəsizliyini gücləndirmək istiqamətində reallaşdırılan məqsədyönlü tədbirlər sayəsində son illər ərzində əsas ərzaq malları ilə özünütəminetmə səviyyəsi yüksəlmib. Belə ki, 2019-cu ildə bir sıra qida məhsulları ilə özünütəminetmə səviyyəsi artaraq mal əti üzrə 86,1 faiz, qoyun əti - 97,6 faiz, quş əti - 74,6 faiz, yumurta - 101,8 faiz, süd və süd məhsulları - 86,3 faiz, kartof - 87,8faiz, bostan məhsulları - 100,8 faiz, meyvə və giləmeyvə - 123,1 faiz, tərəvəz -112 faiz, meyvə-tərəvəz şirələri - 126,7 faiz, duz - 111,4 faiz, şəkər - 75 faiz, bitki yağları - 33,6 faiz, marqarin - 98,2 faiz, kərə yağı - 69,5 faiz təşkil edib (Cədvəl).

Cədvəl. -Sənaye emalından keçmişəsas növ ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi, faiz

	2010	**2014**	**2015**	**2016**	**2017**	**2018**	**2019**
Təmizlənmiş düyü	13,0	8,3	9,6	10,1	23,8	19,4	18,5
Un (bütün növləri)	95,1	94,8	95,1	96,1	96,0	95,9	95,6
Yarmalar (bütün növləri)	11,3	18,2	17,9	17,6	29,0	26,2	24,7
Makaron məmulatı	72,7	58,0	53,2	51,0	48,0	28,7	24,7
Bitki yağları	74,3	67,0	60,5	36,9	37,1	34,3	33,6
Marqarin	108,2	99,3	292,2	105,7	101,5	98,8	98,2
Meyvə və tərəvəzşirələri	140,3	112,4	114,1	110,0	149,4	117,9	126,7
Meyvə və tərəvəz konservləri	91,8	91,4	87,6	92,9	92,5	90,4	90,4
Kərə yağı	50,0	51,9	69,2	75,6	71,0	71,3	69,5
Bütün növ pendirlər	85,7	80,4	84,2	88,3	89,8	87,9	87,7
Şəkər	155,6	170,6	192,9	114.4	60,6	81,7	75,0
Çay	63,2	50,7	40,2	44,9	47,7	44,6	43,7
Duz	25,4	77,5	76,9	100,3	105,8	103,1	111,4

Mənbə: Azərbaycanın ərzaq balansları. 2016. Bakı, 2016, s. 76; Azərbaycanın ərzaq balansları. 2020. Bakı, 2020, s. 77.

AR DSK-nın məlumatlarından görünür ki, son illər ərzində respublikanın qida məhsulları sahəsində istehsal həcmi baxımından müəyyən qədər artım müşahidə olunsa da, ayrı-ayrı mühüm əhəmiyyətə malik sahələrdə azalma baş verib. Ölkədə istehsal bölməsinin bir sıra digər sahələri ilə müqayisədə burada azalmanın daha az olduğunun şahidi oluruq. İstehsalın azalmasını müəyyən edən şərtlərə aşağıdakıları aid etmək olar:

- əhalinin istehlak tələbində sıxılmanın baş verməsi;
- dövriyyə aktivlərinin həcmində çatışmazlıq;
- kredit resurslarının cəlb olunması imkanlarının məhdudluğu;
- ayrı-ayrı qida məhsulları üzrə qiymət rəqabəti üstünlüklərinin yoxa çıxması.

Azərbaycanın süd sənayesində əsas problem onunla əlaqədardır ki, respublikada süd emalı müəssisələrinin sayının az olması ilə yanaşı, sənaye tələbatını ödəmək məqsədilə zəruri təbii süd xammalı üzrə istehsaln həcmi də yetərli qədər deyil. Ona görə də respublikanın kənardan xeyli həcmdə süd məhsulları idxal etməsi labüddür. Odur ki, ölkənin mövcud emal müəssisələrinin əhatə dairəsini genişləndirmək və fəaliyyətini gücləndirmək, habelə təbii süd xammalının istehsal

potensialını artırmaq ehtiyacının yaranması кeyfiyyətli və bazarın tələblərinə uyğun süd məhsullarının istehsalını yükseltmək imkanlarının reallaşdırılmasına xidmət edir. Statistika da göstərir ki, 2016-2019-cu illər ərzində süd məhsullarının istehsalında lazımi dinamikanı müşahidə etmirik. Respublikanın bəzi bölgələrində əksər süd emalı müəssisələrində süd məhsulunun rentabelliyi 2-5% səviyyəsində xeyli dərəcədə azalıb və emal üçün lazımi maddi-texniki baza yoxdur. Bütövlükdə bu sahədəki mövcud avadanlıqların 70%-i mənəvi və fiziki cəhətdən köhnəlmiş avadanlıqlardır (10 ildən çox xidmət dövrü ilə). Bundan əlavə, xüsusən kiçik müəssisələr üzrə avadanlıqların təzələnməsi mümkünsüzdür, bu səbəbdən də qiymət artmaqda davam edir.

Statistik məlumatlardan və aparılan bazar təhlillərindən aydın olur ki, hazırda ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsində bəzi məhsullar üzrə daha da artım, istər mövcud, istərsə də gələcək tələbat baxımından aktuallıq kəsb edir.

Respublikanın xalis ticarət balansının təhlili göstərir ki, şəkər və şəkər məhsulları, habelə günəbaxan yağı kimi məhsulların ixracını artırmaq üçün geniş imkanlar vardır.

Strateji Yol Xəritəsində ölkəmizdə mühüm potensial imkanların mövcud olduğu digər sahələr aşağıdakılardır: üzüm şərabından spirt alınması, yabanı meyvə və giləmeyvələrdən çaytikanı yağının, soyuq sıxılmış qoz yağının, biyan kökünün, zəfəranın və s. istehsalı, marqarin, tütünçülük, meyvə şirəsi istehsalı, süd və süd məhsulları,ət və ət məhsulları istehsalı və baramaçılıq [3, s. 61].

Bununla yanaşı, meyvə-tərəvəz məhsulları üzrə emal potensialını gücləndirmək kimi məsələ də özünün aktuallığı ilə diqqəti cəlb edir. Mal və xidmətlər istehsalının dəyər zənciri üzrə dərinləş-dirilməsi, nəticə etibarilə, formalaşan əlavə dəyərin yüksəlməsinə gətirib çıxarır. Ölkədə istehsal edilən əsas mallardan bir qismi üzrə həyata keçirilən hesablamalar bunu təsdiq edir. Strateji Yol Xəritəsində göstərildiyi kimi, pomidor istehsalını dəyər zəncirinə əsasən inkişaf etdirməklə, ketçup istehsal olunması açıq sahənin istehsalından 4 dəfəyə yaxın artıq əlavə dəyər yaratmağa səbəb olur. Kartof məhsulundan çipsin istehsal edilməsi açıq sahə istehsalından 13 dəfəyə yaxın, xiyar istehsalı sahəsində konservləşdirmənin aparılması 5 dəfə artıq əlavə dəyər yaratmağa imkan verir[3, s. 64].

Buradan aydın olur ki, mal istehsalını dəyər zənciri boyudərinləşdirmək nəticəsində formalaşan əlavə dəyər bir neçə dəfə arta bilər. Məhz buna görədir ki, aqrar-ərzaq malları istehsalının təşkil edilməsinə region-məhsul-dəyər zənciri üçlüyünü özündə ehtiva edən üçölçülü məkan prizmasından yanaşmaq daha məqsədəuyğundur.

Yuxarıda göstərilən məhsullar, əsasən ölkənin aqrar sektorunda daha yüksək rəqabət qabiliyyətinə malik məhsullar hesab olunur və onların regionun başqa bazarlarına da ixrac imkanları böyük ola bilər. Strateji Yol Xəritəsi üzrə altıncı hədəfdə həmin məhsulları daxili bazarlarda reallaşdırmaq və ixracını təşkil etmək mexanizmləri müəyyən olunmuşdur. Qarşıdakı illərdə həmçinin daha dərin müayinə təhlillərin aparılması, qlobal və bölgə səviyyələrində sosial, iqtisadi və geosiyasi mühitdə baş verən dəyişikliкləri nəzərə almaqla, məhsulların dəyər zənciri üzrə istehsalını stimullaşdırmaq üçün prioritet məhsul çeşidləri ilə bağlı ayrıca proqramların, plan və ya strategiyaların hazırlanması nəzərdə tutulur.

ASK-nın inkişafı müasir sənayeləşmə proqramının başlıca sahələrini əhatə edir. ASK-nın sənayeləşdirilməsi problemlərinin həllinə dövləttərəfindən böyük diqqət yetirilir. Azərbaycanın aqrar sahə məhsullarının ixracı potensialını artırmağa kömək edən sahənin sənayeləşməsi vəzifələri sırasında dərin elmi tədqiqat işləri və insan resurslarının məşğulluğu sayəsində innovativ texnologiyaların tətbiqi daha çox diqqət çəkən məqamlardır. Dövlət tərəfindən suya qənaət texnologiyalarından istifadə, emal, seleksiya işləri və əməkdaşlığın inkişafı dəstəklənir. Strateji Yol Xəritəsində ASK-nın 65 sektorundan və alt sahələrdən daha prioritet məhsulların, o cümlədən təzə meyvələrin, fındıq və bütün növ tərəvəzlərin ixracı üzrə yetərli qədər yüksək göstəricilərin əldə edilməsi ilə bərabər, şəkər və şəkər məhsulları,kornişon, pomidor, təzə meyvə (xurma, alma,şaftalı, nar, gilas), günəbaxan yağı və tumu, yaşıl çay yarpağı kimi məhsulların ixracını təmin etmək nəzərdə tutulur. Bundan savayı, üzüm şərabından spirtin əldə edilməsi, marqarin, meyvə şirəsi istehsalı, fındıqçılıq, yabanı meyvə və giləmeyvələrdən əldə edilən məhsulların (çaytikanı yağı, biyan kökü, zəfəran, soyuq sıxılmış qoz yağı və s.) istehsalı, üzüm, tütün, pambıq istehsalı, ət və ət məhsulları, süd və süd məhsulları istehsalı və baramaçılıq kimi sahələri də dəstəkləmək mühüm əhəmiyyətə malikdir.

Həmçinin yaxın perspektivdə baramaçılıqda, o cümlədən baramanın emalı sahəsində istehsal həcmini ən azı 1000 dəfə artırmaq, ət-süd məhsullarının emalında məhsul istehsalını 25 faiz və i.a. bu kimi hədəflərə çatması nəzərdə tutulub.

Aqrar-sənaye komplesində 650-yə qədər müəssisə fəaliyyət göstərir və bu müəssisələrdə 24 minə yaxın adam işləyir. Yaxın perspektivdə aqrar-sənaye kompleksinin əsas vəzifələri sırasına "Aqrolizinq" ASC-nin kənd təsərrüfatı və aqrar sənaye məhsullarının çeşidinin və istehsalının genişləndirilməsində rolunun daha da artırılmasını, yeni yaradılmış qurumların - "ABAD" publik hüquqi şəxsin və "Ərzaq məhsullarının tədarüki və təchizatı" ASC-nin fəaliyyətinin tədricən genişləndirilməsini aid etmək lazımdır[4, s. 30].

Ölkəmizin uyğun iqtisadi zonalarında son illərdə ASK-nın müasir standartlara cavab verən infrastrukturunu və logistika bazasını formalaşdırmaq üçünaqroparklar qurulur. Həmin parklarda başlıca fəaliyyət sahələrinə aqrar sahə məhsullarının mütərəqqi texnologiyalar əsasında istehsalın təşkilini, habelə hazır məhsulların daşınması, saxlanması və satışı proseslərinin maksimal dərəcədə səmərəli həyata keçirilməsini aid etmək olar. Aqroparklarda beynəlxalq standartlara uyğun logistik mərkəzlərin yaradılmasına başlanıb. Artıq 543 hektar əraziyə malik "Şəmkir Aqropark"da müxtəlif təyinatlı infrastuktur obyektləri, intensiv təsərrüfat subyektləri, emal zavodları, fabrikləri, logistik mərkəz, o cümlədən satış mərkəzi kimi müxtəlif mərkəzlər, soyuducu anbar yaradılmışdır.

İqtisadi inkişafın hazırkı mərhələsində ASK-nın əsas strateji vəzifələri sırasında aşağıdakıları qeyd etmək lazımdır:

- müasir beynəlxalq standartlara uyğun aqrar-ərzaq məhsulları istehsalına nail olmaq;
- ölkə üzrə yüksək keyfiyyətə malik ərzaq və qida məhsullarına olan ehtiyacları ödəmək;
- ixrac potensiallı məhsulların beynəlxalq bazarlara çıxarılmasını təmin etmək;
- yüksək rəqabət qabiliyyətinə malik "Made in Azerbaijan" markalı aqrar sənaye məhsullarının ixracını genişləndirmək və i.a.

NƏTİCƏ

1. Firmalar marketinq strategiyalarını daha çox məhsul kompleksləri üzərində qururlar. Buna görə məhsul üçün intensivləşdirilmiş strategiyalar müəyyənləşdirilməli və bazar araşdırmaları daha peşəkar şəkildə aparılmalıdır. Şirkətlər uğurlarını qorumaq və təsirli rəqabəti təmin etmək üçün həqiqi rəqabətlərini müəyyənləşdirməli və hədəf bazar üçün qiymət tətbiqetməsini inkişaf etdirməlidirlər.

2. Dəyər zəncirindəki malların istehsalını dərinləşdirməklə yaranan əlavə dəyər bir neçə dəfə artır. Buna görə də kənd təsərrüfatı istehsalının təşkilinə bölgə-əlavə məhsul zəncirinin tərkib hissələrini əhatə edən üç ölçülü bir məkan prizmasından yanaşmaq məsləhətdir. Tütün və barama istehsalında da müqayisəli üstünlüklər mövcuddur və nəticədə bu məhsulların istehsalı artmışdır.

3. Azərbaycanda az sayda süd emalı müəssisəsi ilə yanaşı, sənaye ehtiyacları üçün təbii süd xammalının istehsal həcminin qeyri-kafi olması səbəbindən ölkəmizə çox miqdarda süd məhsulları idxal olunur. Ölkədə fəaliyyət göstərən süd emalı müəssisələrinin həcmini genişləndirmək və işlərini gücləndirməklə yanaşı, təbii süd xammalı istehsalı üçün istehsal güclərini artırmaqla yüksək keyfiyyətli və bazarın tələblərinə uyğun süd məhsullarının istehsalını artırmaq mümkün olacaq.

4. Respublikamızdan, əsasən, emal edilmiş və konservləşdirilmiş ət məhsulları ixraca gedir. Ölkəmizdə mövcud emal müəssisələrinin innovativ texnologiyalar və əmək məhsuldarlığı nöqteyi-nəzərdən lazımi tələblərə cavab verdiyini nəzərdə tutsaq, onların əhatə dairəsinin genişləndirilməsi və fəaliyyətinin gücləndirilməsi yolu ilə tələb olunan ət məhsullarının istehsalını yetərli artımına nail olmaq mümkündür.

5. Ölkəmizə idxal olunan aqrar sahə məhsullarının quruluşunda emal edilmiş məhsulların xüsusi çəkisi daha yüksəkdir. Odur ki, fikrimizcə, ölkəmizin aqrar sahə məhsullarının emal müəssisələrini yaratmaqla bir çox məhsulların, xüsusən də, tütün, unvə süd məhsullarının idxalından asılılığını azaltmağa və ticarət kəsirini bir qədər aradan qaldırmağa nail olmaq olar.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu ildə fəaliyyəti haqqında hesabat. Bakı: 2020, 420 s.
2. www.azstat.org – Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi web ünvanı.

3. “AzərbaycanRespublıkasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair StratejiYolXəritəsi” Azərbaycan Respublıkası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanıilə təsdiq edilmişdir. Bakı, 2016, 177 s.
4. Əliyev, Ş.T. Azərbaycanda kənd təsərrüfatının və aqrar-sənaye komplekسinin inkişafının strateji aspektləri.//İPƏK YOLU, No.2, – 2018, –səh.23-32

MAL-MATERİAL EHTIYATLARININ MAYA DƏYƏRİNİN QIYMƏTLƏNDIRILIMƏSI.

Cavadzadə Simuzər Bahadur qızı
Azərbaycan Kooperasiya Universiteti
Email: sima.cavadzade@mail.ru

Xülasə

Məqalədə mal-material ehtiyatlarının maya dəyərinin hesablanması metodları, həmçinin maya dəyərinin düzgün hesablanmasının mahiyyəti əks olunmuşdur. Azərbaycan Respublikası ərazisində fealiyyət göstərən bütün təsərrüfat tipli müəssisələrdə maya dəyərinin hesablanması təhlil edilmişdir. Nəticədə mal-material ehtiyatlarının maya dəyərinin uçotunun müəssisə üçün səmərəli olmasına dair təkliflər verilmişdir.

Açar sözlər: Material ehtiyatları, maya dəyəri, istehsal, metodlar, müəssisə, xərc, məhsul

Ehtiyatlar - satış üçün nəzərdə tutulmuş məhsulların istehsalında xammal kimi istifadə olunan, birbaşa satış üçün alınan, eyni zamanda müəssisənin idarəetmə ehtiyacları üçün istifadə olunan aktivlərdir. Onlar hər istehsal dövründə istifadə olunur və dəyərlərini istehsal olunan məhsulların dəyərinə tamamilə köçürürlər.

Müxtəlif təsərrüfat ehtiyatları istehsal prosesində oynadığı roldan asılı olaraq bir neçə qruplara bölünə bilər.

Xammal və əsas materiallar;
Köməkçi materiallar;
Satın alınan yarımfabrikatlar;
Tullantı, yanacaq;
Tara və tara materialları, ehtiyat hissələri;
İnventar və ləvazimatlar.

Məlumdur ki ehtiyatlar müəssisənin cari aktivləri olur və üç qrupa ayrılır. Bunlar ticarət malları, istehsal ehtiyatları və hazır məhsuldu. Ehtiyatlar üzrə mühasibat uçotunun əsas məqsədlərindən biri malların ilkin dəyərinin müəyyən edilməsidir. Ehtiyatların ilkin dəyərinə nələri aid etmək olar onlara nəzər salaq. Bura alış dəyəri, daşıma və anbara boşaldma xərci, gömrük rüsumları, əvəzləşdirilməyə vergilər, eləcədə malların və xammal-materialların əldə edilməsinə birbaşa bağlı olan məsrəflər aid etmək olar.

Maya-dəyəri anlayışı dinamik, geniş bir təsnifatı və müxtəlif tərəfləri olan bir iqtisadi kateqoriyadır. O, bir müəssənin istehsal və satış prossesində nə gədər effektiv olduğunun göstəricisidir. Maya dəyəri nə gədər az olarsa, mənfəət və rentabillik o gədər yüksək olar.

Müəssisənin mal-material maya dəyərinin hesablanmasının düzgün qiymətləndirilməsi zəruridir. O müəyyən plan üzrə istehsalın dinamikasına, istehsalın və məhsul növlərinin gəlirliyininin müəyyənləşdirilməsinə, maya dəyərinin azaldılması üçün ehtiyat rezervi yaradılmasına, məhsulun qiymətinin müəyyinləşdirilməsinə, yeni növ məhsulların istehsalına və köhnə məhsulların istehsaldan çıxarılması barədə gərarları əsaslandırmağa böyük təsir göstərir. Maya dəyəri anlayışını üç qrupa bölmək olar:

Kalkulasiya (maya dəyərinin hesablanması)- məhsul vahidi istehsalı və ya müəyyən istehsal növləri üçün pul şəklində xərclərin ifadəsidir. Bir məhsulun və ya əşyanın faktiki və ya

planlaşdırılmış maya dəyərini təyin etməyə imkan verir və onların qiymətlərini təyin etmək üçün əsasdır.

Planlaşdırılmış maya dəyəri - planlaşdırılan dövr (il, rüb) üçün məhsulların təxmini orta qiymətidir. Xammal, material, yanacaq, enerji, əmək xərcləri, avadanlıqların istifadəsi və istehsal xidmətlərinin təşkili üçün xərc dərəcələrindən ibarətdir. Bu nisbətlər planlama dövrü üçün ortadır. Fərdi (individual) məhsul üçün tərtib edilir.

Faktiki maya dəyəri - faktiki istehsal xərclərinə əsasən hesablanır.

Maya dəyəri müəssisənin fəaliyyətindən asılı olan və olmayan, istehsal prossesindən irəli gələn və onunla birbaşa əlaqəli olmayan müxtəlif növ xərcləri əhatə edir. Ümumiyətlə xərc nədir?

Xərclər - məhsul, iş və xidmətlərin istehsalında istifadə olunan resurların alınması üçün çəkilən xərclərin pul formasında əks etdrilməsidir. Xərclər, mənfəətin alınması ilə əlaqədar çəkilən məsrəflərin yalnız bir hissəsidir və Beynəlxalq Mühasibat Uçotu Standartlarına uyğun olaraq, xərclərə müəssisənin əsas fəaliyyəti zamanı yaranan zərər də daxildir. Müəssisə xərcləri konsepsiyası üç vacib məqama əsaslanır.

1. Xərclər müəyyən bir müddət üçün məhsul istehsalı və satışında nə qədər və hansı mənbələrin xərcləndiyini əks etdirən mənbələrdən istifadə ilə müəyyən edilir.
2. İstifadə olunan materialların həcmi təbii və pul vahidlərində təqdim oluna bilər, lakin iqtisadi hesablamalarda xərclərin pul ifadəsinə müraciət edilir.
3. Xərcələrin müəyyənləşdirilməsi hər zaman konkret hədəflər ilə əlaqələndirilir, yəni pul şəklində istifadə olunan resursların miqdarı istehsalın və onun bütövlükdə müəssisə və ya müəssisənin istehsal vahidləri üçün satışının əsas funksiyalarına uyğun olaraq hesablanır.

Xərclər malların, materialların, məhsulların maya dəyərinin formalaşmasında tamamilə fərqli bir rol oynayır.

Əlavə xərclər - hazır məhsul istehsalının əsas prosesi ilə əlaqəli, lakin bir növ hazır məhsula aid edilə bilməyən əlavə xərclərdir. Əlavə xərclərə kommunal xərclər, rabitə xidmətləri və digər xərclər daxildir.

Maya dəyərinin formalaşmasına dair xərclər – ***Birbaşa***, ***Əlavə*** və ***Ümumi təsərrüfat*** xərclərinə bölünür.[1]

Birbaşa xərclər	*Əlavə xərclər*	*Ümumi təsərrüfat xərcləri*
Birbaşa xərclər – hazır məhsulun istehsalı prosesi ilə birbaşa əlaqəli olan əsas xərclərdir. Bu cür xərclərə xüsusən də işçilərin əmək haqqı xərcləri, ehtiyatların (xammal) əldə edilməsinə dair xərclərdə daxildir. [1]	Əlavə xərclər - hazır məhsul istehsalının əsas prosesi ilə əlaqəli, lakin bir növ hazır məhsula aid edilə bilməyən əlavə xərclərdir. Əlavə xərclərə kommunal xərclər, rabitə xidmətləri və digər xərclər daxildir. [1]	Ümumi təsərrüfat xərcləri– müəssisənin əsas və ya digər fəaliyyət növləri çərçivəsində göstərilən xidmətlər ilə birbaşa əlaqəli olmayan, bütöv bir iqtisadi qurum kimi müəssisənin fəaliyyətini təmin edən xərclər. Bunlara idarəetmə və ümumi təsərrüfat məqsədlər üçün əmlakın saxlanılması ilə yanaşı inzibati və idarəetmə işçilərinin xərcləri də daxil ola bilər. [1]

Ümumi təsərrüfat – müəssisənin əsas və ya digər fəaliyyət növləri çərçivəsində göstərilən xidmətlər ilə birbaşa əlaqəli olmayan, bütöv bir iqtisadi qurum kimi müəssisənin fəaliyyətini təmin edən xərclər. Bunlara idarəetmə və ümumi təsərrüfat məqsədlər üçün əmlakın saxlanılması ilə yanaşı inzibati və idarəetmə işçilərinin xərcləri də daxil ola bilər.

Beləliklə, xərclərin maya dəyərinə daxil edilmə qaydasını təyin edək. Belədiki tək növ hazır məhsulun istehsalında hazır məhsul istehsalı ilə bilavasitə bağlı olan bütün xərclər birbaşa xərclərə istinad edilir. Bunlar hazır məhsulun bir ədədinin istehsalının maya dəyərinə daxildir.

Əlavə xərclər hazır məhsul növləri arasında bölüşdürülməklə maya dəyərinə bu nisbətdə daxil edilir: birbaşa əmək xərcləri, maddi xərclər, digər birbaşa xərclər, məhsulların satışından əldə olunan gəlirlərin həcmi, müəssisənin fəaliyyətinin nəticələrini xarakterizə edən başqa bir göstərici.Müəssisə əlavə xərclərin bölgüsü üçün əsasları müstəqil olaraq seçir və maliyyə siyasətində göstərir. Ümumi təsərrüfat xərcləri hesabat dövründə çəkilən xərcləri, müəssisə

tərəfindən təsdiqlənmiş maliyyə siyasətinə uyğun olaraq satılmış bitmiş məhsulların maya dəyəri ilə cari ilin bölüşdürülməmiş xərclərinə aid edilir.

Eləcə də, Dövlət maya dəyərinin formalaşmasına təsir göstərə bilər. O bu kimi hallarda baş verir: müəssisə xərclərinin cari istehsal xərclərinə və uzunmüddətli investisiyalara bölünməsi; istehsal xərclərinə aid edilən və digər maliyyələşdirmə mənbələrindən (maliyyə nəticələri, xüsusi fondlar, məqsədli maliyyələşdirmə və məqsədli daxilolmalar və s.) ödənilən müəssisələr üçün xərclərin fərqləndirilməsi; əsas fondların amortizasiya dərəcələrinin, sosial ehtiyaclar üçün ayırmaların dərəcələrinin, müxtəlif vergi məbləğinin müəyyənləşdirilməsi. Ehtiyatların maya dəyərinin hesablanmasının dörd metodu var:[2]

1. Spesifik identifikasiya metodu (Spesifik idetification)
2. Vaxta görə birinci alınanların maya dəyəri metodu FİFO (First-in, First-out)
3. Vaxta görə axırıncı alınanların maya dəyəri metodu LİFO (Last-in, Last-out)
4. Orta maya dəyəri metodu (AVCO – Average Cost Method)

1.Spesifik identifikasiya metodu (Spesifik idetification). Bu metodun mahiyyəti ondan ibarətdir ki, satış zamanı satılan malların hər birinə fərdi yanaşma edilir.Yəni hər bir malın alış qiymətinə ayrıca baxılaraq hesablama aparılır.Bu metod əsasən sifarişlə istehsal olunan məhsulların maya dəyərini hesablayan zaman uğurla tətbiq olunur. [2]

2.FİFO metodu. Bu metod vaxta görə birinci alınan malların qiymətinin nəzərə alınmasına əsaslanır.Burada satışın maya dəyəri birinci daxil olanların qiyməti ilə hesablanır.Yəni hər bir satışda satılan malların dəyəri anbara birinci daxil olan, yaxud dövrün əvvələrinə qalıq malların alış qiymətindən başlayaraq hesablanacaqdır.Mal-material ehtiyatlarının maya dəyərinin hesablanmasının FİFO metodunun mahiyyəti ondan ibarətdir ki, bu zaman ilkin əldə olunmuş materialların dəyəri satılmış malların maya dəyəri kimi birinci tanınmalıdır.By üsul vasitəsilə həmçinin material ehtiyatları (xammal) istehsala sərf olunma ardıcıllığı ilə silinir.Bu metod Avropa və Amerikada geniş tətbiq olunur. [2]

3.LİFO metodu. Bu metod FİFO metodunun əksidir. Burada sonuncu alınan malların birinci satılması nəzərdə tutulur. Yəni hər bir satışın maya dəyəri anbara sonuncu daxil olan malın dəyəri ilə hesablanır. Bu metodun tətbiqi son zamanlarda MHBS Şurası tərəfindən qadağan olunub. Bunun səbəbi odur ki adətən ticarətçi sonuncu malı bir qədər baha aldığı zaman, həmin andan satış qiymətini qaldıraraq bunu bütün mallara şamil edir. Bu metod alınmış malların dəyərini hesablayan zaman sonuncu alınmış malın dəyəri birinci, ilk alınmış malın dəyəri isə sonuncu tanınır. [2]

4.Orta maya dəyəri metodu. Orta maya dəyəri metodu ilə satılan malların maya dəyərinin tapılması alışların orta çəki qiymətinin tapılması yolu ilə hesablanır.Orta qiymətin təyin olunması alışların cəmi məbləğini alınan malların sayına bölməklə tapılır. Orta maya dəyəri metodu FİFO və LİFO qiymətləri arasında orta qiymət formalaşdırsa da, çox hesablamalar tələb edir. Orta maya dəyəri metodu ilə materialların maya dəyərinin hesablanması alışların hər vahidinin müəssisəyə başa gəlmə qiymətinin tanılması yolu ilə müəyyən edilir.Orta maya dəyəri metodunun tətbiqi 2 mərhələdən keçir: [2]

1-ci mərhələ: Alışların orta dəyərinin (vahidin başagəlmə qiymətinin) tapılması:

$$\boldsymbol{Orta\ dəyər} = \frac{\boldsymbol{Satı}\text{ş üçü}\boldsymbol{n\ olan\ malların}\ (\text{İ}\boldsymbol{lkin\ qalıq + alışlar})\text{ü}\boldsymbol{mumi\ dəyəri}}{\boldsymbol{Satı}\text{ş üçü}\boldsymbol{n\ malların}\ \text{ü}\boldsymbol{mumi\ miqdarı}}$$

2-ci mərhələ: Satışın dəyərinin müəyyən edilməsi:

Satılmış malların maya dəyəri = Orta x Satışın miqdarı

Bu metodla günün sonuna olan qalığı hesablamaq üçün sonuncu alışdan sonra hesabladığımız orta dəyəri qalıq malların miqdarına vurmaq lazımdı.

Qalıq ehtiyatların dəyəri = Orta dəyər x Qalıq ehtiyatların miqdarı

İndi isə bəzi hallarda hansı metodun tətbiqi daha sərfəli ola bilər onlara nəzər salaq.

İnflasiya şəraitində FİFO metodu tətbiq olunarsa maya dəyəri az, mənfəətin kəmiyyəti çox və mənfəət vergisidə artıq ödənmiş olacaqdır.Buda maliyyə baxımından müəssisə üçün səmərəli hesab olunur.

Əgər qiymətlərin kütləvi şəkildə qalxması zamanı LİFO metodu tətbiq olunarsa, hər zaman maya dəyəri yüksək, mənfəət isə az görsənmiş olacaqdır. Bu zaman bazarla ayaqlaşmaq üçün sahibkar qiymətləri qaldırmağa çalışacaqdır buda müəssisə üçün heç də uğurlu olmayacaq. Hər iki metodun tətbiqi nəticəsində bir birinə əks nəticələr alınır. Ona görədə bu hallarda orta maya dəyəri metodu tətbiq etmək daha sərfəlidir çünkü bu metod digər iki metodun orta məxrəcidir.

Yuxarıda qeyd etdiyimiz kimi maya dəyəri nə gədər az olarsa, mənfəət və rentabillik o gədər yüksək olar. Müəssisə maya dəyərini azaldaraq məhsulun qiymətinidə azaldır buda onu bazarda rəqabətçi və cəlbedici bir müəssisə halıda gətirir. Bəs maya dəyərini azaldmaq üçün müəssisə nə edə bilər onlara nəzər salaq.

Məhsulun istehsalını coxalda bilər. Bu kirayə kimi sabit xərci daha cox məhsula yayır, Avadanlıqdan istifadənin səmərəliliyinin artırılması.

Digər müəssələrin xidmətlərdən istifadənin azalması. Bir müəssisə digər müəssisələrin xidmətlərindən istifadəni minimuma qədər endirərsə və əksinə bütün funksiyaları təkbaşına yerinə yetirirsə, xərclər azala bilər. Məsələn daşınma, çatdırılma, quraşdırılma kimi xərclər. Kadrların ixtisarı, vəzifələrin birləşməsi. Xoş olmayan, lakin xərcləri azaltmaq üçün ən təsirli yollardan biridir.

Təchizatçılarla münasibətlər. Məsələn, mallarının tədarükçülərinə alınması ilə əlaqədar endirim etməklə onlarla ticarət əlaqələri qurmaq və xammal, materialları daha ucuz bir qiymətə almaq olar.

Maya dəyərinin intensivləşdirilməsi. Yəni, yeni texnologiyaların istehsalata tətbiqi və həcminin artması gəlirə müsbət təsir göstərir, istehsal fəaliyyətləri daha sürətli aparılır, buna görə vaxta gənaətlə daha çox məhsul istehsal olunur.

Satınalmaların optimallaşdırılması, tenderlərin keçirilməsi.

Nəticədə bütün bu amillər materialların maya dəyərini azaldaraq, müəssisənin mənfəətini və səmərəli olmasını artırar.

Ədəbiyyat siyahısı:

1. İnternet resursu
2. “Beynalxalq Muhasibat Uçotunun Əsasları”. İqtisadi araşdırmalar və Tədris mərkəzi. Bakı-2019

Джавадзаде Симузар Бахадур
Азербайджанский Университет Кооперации

Резюме

В статье описаны методы расчета стоимости товарно-материальных запасов, а также суть правильного расчета себестоимости. Проанализирован расчет себестоимости всех типов производственных предприятий, действующих на территории Азербайджанской Республики. В результате были высказаны предложения по учету себестоимости товарно-материальных запасов для повышения рентабельности предприятия.

Ключевые слова: материальные ресурсы, себестоимость, производство, методы, предприятие, затраты, продукт.

Javadzade Simuzar Bahadur
Azerbaijan Cooperation University

Summary

The article describes the methods of calculating the cost of inventories, as well as the essence of calculating the cost correctly. The cost calculation of the enterprise has been analyzed in all farm-type enterprises operating in the territory of the Azerbaijan Respublic. As a result, suggestions are made for the accounting of inventories to be effective for the business.

Keywords: Material resources, cost, production, methods, enterprise, expenses, product.

İQTİSADİYYATDA KLASTER YANAŞMASINA DAİR BƏZİ MƏSƏLƏLƏR

Cəfərova Vəfa Piri qızı, aparıcı elmi işç
İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu
faithfulness_88@mail.ru

Klaster dedikdə, müəyyən bir sahədə fəaliyyət göstərən, qarşılıqlı əlaqədə olan bir qrup coğrafi cəmlənmiş qarşılıqlı asılı şirkət və qurumları başa düşmək olar. Klaster yanaşması 1998-ci ildən sonra dünyada sürətlə yayıldı və firmaların xarici mənbələri hesabına rəqabət üstünlüyü qazanması üçün lazımi infrastrukturu təmin etdi. Michael Porter klaster konsepsiyasını ilk dəfə təqdim edən alimdir və bu anlayışın istifadə olunduğu hər yerdə onun adı mütləq çəkilir. Porterə görə, klasteri milli iqtisadiyyatda oxşar iqtisadi fəaliyyət göstərən şirkətlər qrupudur. [4]. Klasterləşmə çox yeni bir konsepsiya olduğu üçün dünyanın diqqətini çəkmişdir. Klasterlər, ilk növbədə kiçik və orta şirkətlər üçün faydalıdır. Çünki əməkdaşlıq imkanlarını genişləndirmək, vahid infrastrukturdan istifadə etmək və yerli tədqiqat təşkilatları ilə qarşılıqlı əlaqə yaratmaq bu şirkətlərin rəqabət qabiliyyətini artırır. Klasterin formalaşması regionun sahibkarlar, ixtisaslı işçilər və tədqiqatçılar üçün cəlbediciliyini artırır. Buna görə klaster siyasəti Avropa Birliyində ən çox istifadə olunan regional siyasət alətlərindən birinə çevrilmişdir. [2]. Klasterlərin yaradılması keçid dövrü yaşayan ölkələrdə iqtisadi inkişafın stimullaşdırılması üçün vacib vasitədir.Buna görə də klasterlərin innovasiya yönümlü, sənaye klasterləri, risk klasterləri kimi bir neçə növü ayırd edilmişdir.

Innovasiya yönümlü klasterlər geniş mənada yeni fikirlərin ticarətləşdirilməsi, biliyin iqtisadi faydaya çevrilərək dəyər yaratmasıdır. Müəssisələrin innovasiya fəaliyyəti müəssisə üçün yeni məhsulu istehsal edilməsidir.[4] Yenilik, elm və texnologiya əsaslı fəaliyyətlərin təşkil edilməsindən, görülən işlərə dair yeni yollar axtarılmasına qədər yeni və yaxud yaxşılaşdırılmış məhsul və xidmətlərin həcmidir. Elm yönümlü innovativ klasterlər məkan olaraq hüdudlandırılmış, ancaq daha çox yenilik və texnoloji sahələrdə mərkəzləşmişdir. Hər bir klaster elmi, texnologiya əsaslı və innovativ ola bilər. Məsələn, Şimali Avropanın aşağı texnoloji iqtisadiyyatı olan Danimarka və Norveç ölkələrində ənənəvi sektorlara yeni texnologiyaları tətbiq etməklə ənənəvi sahələri innovativ istehsal sahələrinə çevirə bilmişlər. Bunun əksinə, İsveç və Finlandiyada beynəlxalq müəssisələrin inkişafı tədqiqat-inkişaf (AR-GE) investisiyaları ilə formalaşmışdır.

Sənaye klasterinin yaradılmasında məqsəd istehsal funksiyasına fokuslanan rəqabətyönümlü məhsul istehsalıdır, innovativ klasterlərdə məqsəd çox növlü istehsal fəaliyyətindən əlavə innovasiya sahəsinin formalaşmasıdır. Bu da yeni məhsul və xidmətlərin yaranması və bu məhsul və xidmətlərdən istifadə edən yeni sənaye sahələrinin meydana gəlməsinə səbəb olur. ABŞ-da innovasiya yönümlü klasterlərdə fəaliyyət göstərən müəssisələrdə xidmət və məhsulun keyfiyyəti, məhsul istehsal texnologiyası, bazar araşdırmaları, digər sahələrlə əlaqələri, marka və patent almaqda, digər müəssisələrə görə irəlidə olduqları müəyyən olunmuşdur.

Risk klasterlərində məqsəd yeni firmaların qurulmasıdır. Risk klasterlərində yaradılan firmalar regional canlanma və inkişafın təmin edilməsi baxımından təsirli rol oynamaqdadır. Risk klasterlərində müəssisələrə məlumat verilmək yanaşı, maddi və mənəvi dəstək göstərilir. Klasterin məlumat mənbələrini universitetlər, tədqiqat- araşdırma institutları və özəl araşdırma mərkəzləri təşkil etməkdədir. Burada göstərilən maddi dəstəyə maliyyə dəstəyi, məkan və yer seçimi formasında göstərilən dəstəklər aiddir. Qeyri-maddi dəstəklərə isə iş planın hazırlanması, potensial kadr hazırlama, bazara çıxış imkanları, maliyyə mənbələri, hüquq məsləhətçisi, vergi məsləhətçisi və mühasibatlıq dəstəyi aiddir.

Hər bir klaster növünün iştirakçıları bir- birindən fərqlidir. Məsələn, sənaye klasterinin iştirakçısı emal müəssisəsi, əlaqəli sənaye təşkilatları və sənayeyə dəstək olan qurumlardırsa, innovasiya yönümlü klasterlərdə isə universitetlər, ictimai araşdırma mərkəzləri, şirkət laboratoriyaları, texnologiya əsaslı təşkilatlardır. Risk klasterlərinin iştirakçıları isə yeni ideaları dəstəkləmək gücünə sahib olan şirkətlər və insanlardır. Dünyada klasterlərin çox böyük hissəsi

sənaye sektorunda olub, bu sektorda fəaliyyət göstərən kiçik, böyük müəssisələrin və digər iştirakçıların birlikdə işləmələrinə şərait yaratmışdır.

Klasterin obyekti şirkətləri, universitetləri, AR-GE müəssisələrini, dövlət qurumlarını və digər dəstək təşkilatlarını vahid bir hədəf altında toplamaqdır. Klasterin məqsədi şirkətlərin bazara sürətlə daxil olması, məlumatları tez bir zamanda əldə etməsi, maliyyə əldə etməsi, AR-GE, istehsal və marketinq tərəfdaşlığı qurması, riskin paylanması, ixracatlarını artırmaq üçün bir-birləri və digər təşkilatlarla sistematik əməkdaşlıq etməsidir. [1].

Klasterdə əsas olan beynəlxalq əlaqələrin olmasıdır. Bu təkcə klasterlərdə deyil, ümumilikdə sənaye siyasətinin əsasını təşkil edir. Bazar qanunlarına uyğun olaraq ticarətdəki maneələrin aradan qaldırılması, çatdırılma və əlaqə sistemlərinin gücləndirilməsi beynəlxalq sərhədlər boyunca ixtisaslaşmanı artırır. Klasterlər tək- tək müəssisələri deyil, bütün klasterə daxil olan halqaları dəstəkləyir. Bu bir mənada böyük müəssisələri, KOS-ları, araşdırma mərkəzləri və dövlət qurumlarını bir-birinə bağlayan dəyər zənciridir. Klasterlər dövlət sektoru tərəfindən yaradılsa da, burada özəl sektorun rolu daha çoxdur. Klaster yaradıcıları klaster strategiyalarını və hədəflərini müəyyən edər, maliyyələşdirər və klaster siyasətinin tətbiq olunmasını həyata keçirər. Klasterlərin başqa bir xüsusiyyəti klaster daxilində öyrənmənin və innovativ inkişafın hədəfləməsidir. Klasterlərin inkişafini gücləndirən ən əhəmiyyətli səbəblərdən biri də araşdırmaların maliyyələşdirilməsi və təhsilli kadrların iş fəaliyyətinə cəlb edilməsidir.

Klasterlərin tətbiqində hər bir ölkənin və bölgənin özünəməxsus klasterləşmənin tətbiq üsulu vardır. Bu fərqliliklərə baxmayaraq ümumi inkişafa təsir edən amillər eynidir. Klasterlərin inkişafına təsir edən amillər ölkənin sosial sərmayəsi, iş mühiti, klasterlərin kiçik və orta sahibkarlıqla birlikdə hərəkəti, beynəlxalq əlaqələrə sahib olması, dövlətin dəstək və xidmət təmin etməsi kimi sıralana bilər. Uğurlu klaster modelləri əksəriyyəti müəssisələrin bir-birini tamamlayan əlaqələrindən əmələ gəlməkdədir. Bazar şəraitində texnologiyada lider olan böyük şirkətlər ilə tədarükçülər və ya tamamlayıcı müəssisələrin ixtisaslı mütəxəssislər tərəfindən idarə edilməsi klasterlərin daha uğurlu olmağına səbəb olmuşdur. Ümumilikdə iqtisadiyyatda uğur, bazarlara asan çıxmaq , müəssisələrin innovasiya və araşdırma qabiliyyəti, gözləntilərin açıqca bilinməsi və müəssiələrin bir-birinə inamıdır

Klasterləşdirmə baxımından üç əsas xüsusiyyət ön plana çıxır. Birincisi, klaster istehsal sistemi daxilində (məhsullar, xidmətlər, innovasiya və texnologiya kimi sahələrdə) bir-biri ilə üfüqi və şaquli əlaqədə olan firmalardan ibarətdir. İkincisi, klaster eyni coğrafiyada (yerli) qurulmuş şirkətlərdən ibarətdir. Yerli səviyyədə şirkətlərin bir-birinə yaxın olması qarşılıqlı məlumat axınını asanlaşdırır və yeniliyə həvəsləndirici təsir göstərir. Üçüncüsü, firmaların coğrafi olaraq bir-birinə yaxın olması onların bir klaster olduğu mənasına gəlmir. Klasterin meydana gəlməsi üçün firmalar klasterin faydalarından (yenilik, məhsuldarlıq və s.) faydalanmalıdırlar [3]. Beynəlxalq rəqabət qabiliyyətinə çatmaq üçün klaster üsulu istifadə olunur. Rəqabət qabiliyyətinin əsasında səmərəlilik və innovasiya dayanır. Makro səviyyədə qiymətləndirildikdə, rəqabətçi sektorlar klasterləşdirmə ilə inkişaf etdirilir və bununla regional və milli rəqabət qabiliyyətini təmin edir/

Ədəbiyyat

1. ÇİL, Bülent (2008), “İşbirliği, Güçbirliği ve Kümelenme”, s.1, (E.T: 19.03.2009).
2. KUAH, Adrian T. H. (2002), “Cluster Theory and Practice: Advantages for the Small Business Locating in Vibrant Cluster”, Journal of Research in Marketing and Entrepreneurship, Vol. 4, Issue. 3, səh.206-228.
3. Nelson, R. and Rosenberg, N. (1993), “Technical Innovation and National Systems”, in Nelson, R. (ed.), National Innovation Systems: A Comparatrive Analysis, Oksford .
4. Porter, Michael E., (1998)“Clusters and the New Economics of Competition”, Harvars Business Review, Noyabr-Dekabr.

Гумбаталиева Саадат Аскар, Рустамова Гульбас Расул

Роль цифрового маркетинга в разработке бизнес-концепций предприятий в современных условиях

Резюме

Цифровой маркетинг имеет важное значение с точки зрения возможности продавать товары и услуги в интернете целевой аудитории и применять маркетинговые тактики. В статье исследуются сущность, основные инструменты, виды и каналы цифрового маркетинга. Проанализированы рабочие и бизнес-процессы с использованием интернета, мобильного вещания, локальных сетей и различных цифровых устройств в офлайн и онлайн пространствах.

Ключевые слова: *маркетинг, цифровой маркетинг, интернет маркетинг, виды цифрового маркетинга, каналы цифрового маркетинга*

Humbataliyeva Saadat Asgar, Rustamova Gulbas Rasul

The role of digital marketing in the development of business concepts of enterprises in modern conditions

Summary

Digital marketing is essential in terms of being able to sell products and services online to the target audience and implement marketing tactics. The article explores the essence, main tools, types and channels of digital marketing. Work and business processes with the use of the internet, mobile broadcasting, local networks and various digital devices in offline and online spaces were analyzed.

Key words: *marketing, digital marketing, internet marketing, types of digital marketing, channels of digital marketing*

İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASI PROBLEMLƏRİ

Lalə Vəliyeva, i.f.d., dosent
Sumqayıt Dövlət Universiteti
lale-sdu@mail.ru

Məqalədə potensial təhlükələr nəzərə alınaraq milli iqtisadiyyatın iqtisadi təhlükəsizliyinin təmin olunması problemləri və əsas istiqamətləri müəyyənləşdirilmişdir.

İqtisadi təhlükəsizlik hər bir ölkənin milli təhlükəsizliyinin əsas elementidir. Eyni zamanda iqtisadi təhlükəsizlik, iqtisadiyyatın vəziyyətinin öyrənildiyi, kifayət qədər yüksək və sabit iqtisadi göstəricilərin təmin olunduğu elmi bilik sahəsidir.

Təcrübə göstərir ki, yalnız iqtisadi təhlükəsizliyin təmin edilməsi üçün etibarlı, effektiv bir sistem ölkənin suverenliyi və müstəqilliyinin, sabit və davamlı sosial-iqtisadi inkişafının qarantı ola bilər.

Xarici ədəbiyyatda iqtisadi təhlükəsizlik problemi, göründüyü kimi uzun müddətdir düşünülür. Ölkələrin iqtisadi təhlükəsizliyini təmin etmək problemləri siyasətçilərin, alimlərin və əhalinin geniş təbəqələrinin getdikcə daha çox diqqətini çəkir. Bu diqqət heç bir halda təsadüfi deyil. Təhlükələrin miqyası və hətta ölkənin iqtisadi təhlükəsizliyinə dəyən real zərər bu problemləri ictimai həyatda ön plana çəkir.

Bu baxımdan daxili iqtisadi fəaliyyətdə ölkələrin milli təhlükəsizliyinin təmin edilməsinin əsas istiqamətləri nəzərə alınmalıdır:

-islahatların hüquqi dəstəyi və ölkə qanunvericiliyinə riayət olunmasına nəzarət üçün təsirli bir mexanizmin yaradılması;

-iqtisadiyyatda dövlət tənzimlənməsinin gücləndirilməsi;

-iqtisadi böhranın nəticələrini aradan qaldırmaq üçün lazımi tədbirlərin görülməsi;

-elmi-texniki, texnoloji və istehsal potensialının qorunub saxlanılması və inkişafı;

-yerli sənaye məhsullarının rəqabət qabiliyyətinin artırılması;

-əhalinin rifahının yüksəldilməsi və s.

Yüksək səmərəli və sosial yönümlü bazar iqtisadiyyatına keçid cəmiyyətin və hər bir vətəndaşın rifahının maksimum dərəcədə artması üçün mal və xidmətlərin istehsalının və paylanmasının təşkili üçün optimal mexanizmlərin tədricən formalaşdırılması yolu ilə həyata keçirilməlidir.

İnvestisiya və innovasiya fəaliyyətinə dövlət dəstəyinin gücləndirilməsi, real iqtisadiyyatın mənafeyinə cavab verən sabit bir bank sistemi yaratmaq üçün tədbirlər görmək, kapital qoyuluşlarının maliyyələşdirilməsi üçün uzunmüddətli kreditlərə müəssisələrin girişinin asanlaşdırılması, həqiqi dövlət köməyi, sənayenin yenidən qurulması üçün məqsədyönlü proqramların həyata keçirilməsi vacibdir. Ən prioritet vəzifələr rəqabətqabiliyyətli sahələrin və sənaye sahələrinin prioritet inkişafı və elmi intensiv məhsullar bazarının genişləndirilməsidir.

Bir çox ölkənin öz rəqabətçi elmi və texnoloji potensialı yoxdur və inkişaf etmiş ölkələrin texnologiyalarından tamamilə asılıdırlar. Bunu nəzərə alaraq, yeni texnologiyaların istehsalata köçürülməsini stimullaşdırmaq üçün tədbirlər görülməli, dünya bazarında ölkələrin müəssisələrinin rəqabət qabiliyyətini artıran qabaqcıl texnologiyaların müəyyənləşdirilməsi və inkişafı mexanizmi tətbiq edilməlidir.

Maliyyə və maddi resursları elm və texnologiyanın prioritet sahələrində cəmləşdirmək, aparıcı elmi məktəblərə dəstək vermək, elmi-texniki ehtiyatın və milli texnoloji bazanın formalaşmasını sürətləndirmək, bu məqsədlər üçün özəl kapital cəlb etmək, o cümlədən ictimai rifahın inkişafına, elm və təhsilin inkişafına, cəmiyyət üzvlərinin mənəvi inkişafına, istehlakçıların hüquqlarının qorunmasına töhfə verdiyi bütün sahələrdə özəl sahibkarlığın təşviq edilməsi vacibdir.

İqtisadiyyatın böhran vəziyyəti özünü istehsalın əhəmiyyətli dərəcədə azalması, investisiya fəallığının azalması, elmi-texniki potensialın məhvi, aqrar sektorun durğunluğu, büdcənin gəlir hissəsində azalma və s. ilə göstərir. Beləliklə, iqtisadi təhlükəsizlik dövlətin möhkəmləndirilməsində, sosial təminatların həqiqi təmin edilməsində, kollektiv məsuliyyət, demokratik, sosial tərəfdaşlıq mexanizmlərinin inkişafında əsaslı bir məqamdır.

İqtisadi təhlükəsizlik, daxili, xarici iqtisadi, sosial, texnoloji və informasiya təhdidlərindən qorunan milli iqtisadiyyatın vəziyyətidir, eyni zamanda beynəlxalq əmək bölgüsünün dərinləşməsi və dünya iqtisadiyyatının qloballaşması, müstəqilliyinin qorunub saxlanılması və ölkənin, cəmiyyətin, fərdin davamlı inkişafının şərtləri ilə özünü göstərir. İqtisadi təhlükəsizliyi təmin etmək üçün dövlət siyasətinin məqsədi davamlı inkişaf və böyüməni təmin etməkdir.

Ölkənin iqtisadi təhlükəsizliyini təmin edən problemləri müəyyən edən amillər təhlil olunur, bunlar arasında:

-dünyanın aparıcı ölkələrinə nisbətən milli iqtisadiyyatın inkişaf səviyyəsinin aşağı olması;

-dünya iqtisadiyyatının liderlərindən daha da geri qalmasına səbəb olan xammal bazasına görə milli iqtisadiyyatın nisbətən aşağı dərəcəsi;

-Qərb ölkələrinin daim artan iqtisadi sanksiyaları;

-iqtisadi təhlükəsizlik səviyyəsində cəmiyyətin yüksək təbəqələşmə səviyyəsi;

-ölkədən maliyyə və insan kapitalının əhəmiyyətli dərəcədə axınının davam edən tendensiyası;

-bölgələrin iqtisadi vəziyyətinin həm gəlir və xərc səviyyələri, həm də gəlir və xərc nisbəti baxımından ən yüksək bərabərsizlik səviyyəsi;

-problemli bölgələrin büdcəsindəki borcların artması səbəbindən büdcədə artan yük;

- ölkənin bölgələrinin təkcə gəlir və xərclər baxımından deyil, həm də bölgələrdəki gəlir və xərc -nisbətinə görə qeyri-bərabər inkişafının ən yüksək səviyyəsi;

-iqtisadiyyatın real sektorunun idxaldan yüksək texnoloji asılılığı;

-yerli maliyyə sektorunun olduqca yüksək xarici asılılığı;

-məhsul (mal, iş, xidmət) istehsalçıları üzərində maliyyə yükünün artması;

-əhali üzərində vergi yükünün artması (birbaşa və dolayı vergilər şəklində);

-pensiya yaşında gözlənilən artım və bununla əlaqəli əlavə sosial-iqtisadi problemləri qeyd etmək olar.

İqtisadi təhlükəsizlik, iqtisadi subyektlərin əhali üçün normal yaşayış şəraitinin qorunub saxlanılmasının, gələcək inkişafın faydaları və mənbələri ilə davamlı təmin edilməsinin mümkünlü-

yünü müəyyən edən ən vacib keyfiyyət xarakteristikası kimi çıxış edir, eyni zamanda ölkənin və vətəndaşlarının iqtisadi sahədə mənafelərini endogen və ekzogen təhdidlərdən qorumaq üçün etibarlı və bütün zəruri vasitələrlə, metodlarla və hüquq-mühafizə və maliyyə qurumları ilə təchiz olunması deməkdir.

Bir sıra ümumi şərtlər və amillər iqtisadi təhlükəsizlik konsepsiyasını cəmiyyətin və dövlətin müasir həyatına sistemli bir baxış təşkil edən müxtəlif anlayışları irəli sürdü:

1. Milli maraqlardakı fərqlər, inteqrasiya proseslərinin inkişafına baxmayaraq ortaq maraqlarının daha tam ayrılmasına çalışmaq, uyğun bir strategiyanın hazırlanmasını tələb edir.

2. Müxtəlif dərəcələrdə məhdud təbii ehtiyatlar, bunların ayrı-ayrı ölkələrə təqdim edilməsi, bu mənbələrin istifadəsi üçün iqtisadi və siyasi mübarizəni gücləndirmək üçün potensial bir fürsət ehtiva edir.

Bunları nəzərə alaraq, dövlətin iqtisadi təhlükəsizlik strategiyası çərçivəsində bölgənin iqtisadi təhlükəsizlik səviyyəsini artırmaq üçün aşağıdakılar təklif edilmişdir:

- bölgənin iqtisadi təhlükəsizliyinə təhdidlərin qiymətləndirilməsi metodologiyası;
- bölgənin iqtisadi təhlükəsizliyi üçün meyarların siyahısı;
- iqtisadi təhlükəsizliyin təhlili üçün iqtisadiyyatın vəziyyətinin göstəricilərinin siyahısı;
- iqtisadi təhlükəsizlik göstəricilərinin həddparametrləri;
- iqtisadi təhlükəsizlik üçün ictimai-siyasi risk amillərinin siyahısı.

Ancaq iqtisadi təhlükəsizliyin təmin edilməsi problemləri öz-özünə mövcud deyil. Bu, cəmiyyətin fəaliyyətinin hər mərhələsində iqtisadi inkişaf vəzifələrinin törəmələri olduqları ilə əsaslandırılır. Bu, ilk növbədə, iqtisadi sistemin sabit vəziyyətdə qalmasına yönəlmiş dövlət siyasətinin formalaşmasında ifadə olunur. Lakin mənfi amillərin milli iqtisadiyyatın vəziyyətinə təsiri onun sistem əlaqələrini poza bilər və böhran hadisələrinə səbəb ola bilər. Bu baxımdan iqtisadi təhlükəsizlik davamlı inkişaf konsepsiyası ilə sıx bağlı olduğu üçün yaranmış hər bir təhlükələrin qarşısı əvvəlcədən alınmalı və bununla əlaqədar olan dövlət siyasəti həyata keçirilməlidir.

POST-NEFT MƏRHƏLƏSİNDƏ AZƏRBAYCANDA İQTİSADİ İNKİŞAFIN YÜKSƏLDİLMƏSİ VƏ TƏHLÜKƏSIZLİYİNİN TƏMİN EDİLMƏSİ

A.U.Allahverdiyeva, b.e.i.
AMEA İqtisadiyyat İnsititutu
allahverdiyevaamaliya@gmail.com

Xülasə: *Artıq diversifikasiya olunmuş Azərbaycan iqtisadiyatının şaxələnmədən ixtisaslaşmaya, sector əsaslı yanaşmadan məhsul əsaslı yanaşmaya keçidi mütləq bir prosesə çevrilib. Azərbaycan iqtisadiyatının yeni inkişaf mərhələsinə qədəm qoyması yeni iqtisadi inkişaf strategiyasının ərsəyə gəlməsini zəruri edir.İqtisadiyatın neftdən asılılığının azaldılması və rəqabətqabiliyyətli milli iqtisadiyatın qurulmasını, biznes və investisiya mühitinin daha da təkmilləşdirilməsini qarşıdakı illərdə strateji hədəflərdən biri olaraq müəyyən edilmişdir. Hazırda qeyri-neft sənayesi və kənd təsərrüfatı sahələrində qazanılan nailiyyətlər sahibkarlara biznes fəaliyyətini böyütməsi üçün əlavə stimul yaradır. Milli iqtisadiyyatın dayanıqlı inkişafında sahibkarlıq mühüm rol oynayır.*

Açar sözlər: *diversifikasiya, qeyri-neft sektoru, aqrar sahə,xidmət sektoru, iqtisadiyyatın strukturu və rəqabət qabiliyyətliliyi, ÜDM, post-neft mərhələ.*

Ключевые слова: *диверсификация, ненефтяной сектор, аграрный сектор, сфера услуг, экономическая безопасность, структура экономики и конкурентоспособность, ВВП, постнефтяной этап.*

Post-neft dövrü elan edilən vaxtdan- yəni 2015-ci ilin sonlarından bu günə qədər hazırlanmış vacib addımlar atılır.

Azərbaycan iqtisadiyyatının qeyri-neft sahəsinin aparıcı həlqəsi sənayedir. Ölkə rəhbərliyinin düşünülmüş neft-qaz strategiyasının reallaşdırılması nəticəsində formalaşan dayanıqlı maliyyə resursları mövcud sənaye imkanlarından səmərəli istifadə yollarını kifayət qədər genişləndirdi. Hazırda regionlarda sürətlə yaradılan sənaye zonaları və sənaye müəssisələri çəçivəsində ölkənin müxtəlif regionlarında onlarla yeni müəsisələr formalaşıb istifadəyə verilir. Yaradılan müəssisələr artıq iqtisadiyyatın inkişafında öz sözünü deyir.

Hal-hazırda Azərbaycanda Sumqayıt Kimya-Sənaye Parkı, Balaxanı, Qaradağ,Mingəçevir və Pirallahı sənaye parkları, Neftçala, Masallı, Hacıqabul və Sabirabad sənaye məhəllələri fəaliyyət göstərir. Yaxın gələcəkdə ölkənin digər bölgələrində də belə sənaye zonaları açılacaqdır.Hazırda İqtisadiyyat Nazirliyində xüsusi tədqiqatlar aparılır.Ölkə iqtisadiyyatının inkişafını nəzərdə tutan dövlət proqramlarının işlənib hazırlanmasında və onların həyata keçirilməsində nazirliyin fəaliyyəti xüsusi qeyd olunmalıdır.

Neftçala Sənaye Məhəlləsində istifadəyə verilmiş ən iri müəssisə “Khazar” Avtomobil zavodudur. “Azərmaş” ASC və “İran Khodro” təşlilatlarının birgə yaratdığı zavodun ümumi dəyəri 15 milyon ABŞ dollarıdır. “Khazar” avtomobil zavodunun tikintisi yalnız Azərbaycanda avtomobil zavodunun yaradılması demək deyil. Bu zavodda gələcək dövrdə bütün dünyaya “Made in Azerbaijan” brendi kimi tanıdılacaq yeni Azərbaycan avtomobili istehsal edilir. Bu istehsalın zaman keçdikcə genişləndirilməsi və onun məhsullarının dünyanın bir çox ölkələrinə ixracı nəzərdə tutulur. Bu gün zavodda istehsal olunan avtomobillərin əsas hissələri İran İslam Respublikasından gətirilsə də qarşıya hədəf qoyulur ki, yaxın gələcəkdə bu hissələrin əksər hissəsi Azərbaycanda istehsal olunsun.[1]

Azərbaycan Respublikası Prezidentinin 2016- cı il 16 mart tarixli Sərəncamı ilə “Milli iqtisadiyyat və iqtisadiyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri” nin təsdiq edilməsi və bu sərəncama uyğun olaraq, milli iqtisadiyyat və 11 sektor üzrə strateji yol xəritələrinin hazırlanaraq qəbul edilməsi ölkədə reallaşdırılan iqtisadi islahatların daha da dərinləşdirilməsinə və sistemli xarakter almasına xidmət edib.

İcbari tibbi sığortanın tətbiqi və təhsil islahatları, sosial siyasətdə yardımdan reabilitasiyaya keçid, əhalinin gəlirlərinin artması, dövlət-vətəndaş dialoqu, sosial infrastrukturun daha da yaxşılaşdırılması və insan kapitalının inkişafı baxımından yeni perspektivlər və çağırışlar ortaya qoyub.İqtisadiyyatın yeni inkişaf strategiyası artan iqtisadi imkanlar insan faktoruna xidmətə yönəldilməlidir.[2]

Ölkədə post-neft dövrü üçün iqtisadiyyatın əsas inkişaf istiqamətləri aşağıdakılardı:

1.Qeyri-neft sənayesi (polad,alüminium,ərzaq,neft-kimya,müdafiə sənayesi və s);

2.Xidmət sektoru(turizm, nəqliyyat,İTK,kosmik xidmətlər və s,);

3.Aqrar sahə (tütün, pambıq,üzüm,kartof,meyvə-tərəvəz və s);

4. Tikinti.

Post-neft dövründə iqtisadiyyatın yeni strukturunun formalaşması tamamlanır. Bundan sonrakı müddətdə iqtisadi inkişafın təmin edilməsinə sistemli yanaşmanı özündə göstərən iqtisadiyyatın yeni inkişaf strategiyasının formalaşması uyğun sayılır. Bu arada biznes mühitinin təkmilləşdirilməsi zəruridir.[2]

Ölkənin təhlükəsizliyinin təmin edilməsində valyuta münasibətlərinin düzgün formalaşmasının böyük əhəmiyyəti vardır. Çüki pul tədavülünün qaydaya salınması, qiymət siyasəti, valyuta məzənnəsi, müxtəlif valyuta prosedurlarının aparılması tarazlı iqtisadi inkişafın mühüm şərtlərindən biridir.Bu istiqamətdə baş verəcək hər hansı pozuntu halları ölkənin iqtisadi inkişafına, onun iqtisadi təhlükəsizliyinə ciddi zərər vura bilər. Bu sahədə baş verən dəyişikliklər, deformasiya halları obyektiv və subyektiv səbəblərdən olur. Həmin dəyişikliklər əsasən növbəti istiqamətlərdə və müxtəlif valyuta məzənnəsi rejimlərində özünü göstərə bilir;

-Məsələn. rəsmi qeydə alınmış valyuta məzənnəsi şəraitində xammalın qiymətinin aşağı düşməsi ixrac edənlərin gəlirlərinin aşağı düşməsinə və beləliklə də, ticarət balansının aktiv saldosunun azalmasına gətirib çıxara bilir.[3]

Gələcək dövrlərdə idxaldan asılılığı minimuma endirmək və yerli məhsullarla özünü təminetmə səviyyəsini daha da yüksəltmək məqsədilə rəqabətqabiliyyətli qeyri-neft məhsullarının

istehsalı və ixracının təşviqi sahəsində Azərbaycan hökuməti qanunvericilik bazasında bir sıra mühüm dəyişiklik həyata keçirmişdir.

"Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında"Azərbaycan Respublikası Prezidentinin 18 yanvar 2016-cı il tarixli 1713 nömrəli Sərəncamı və "Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" 1 mart 2016-cı il tarixli 811 nömrəli Fərmanı ölkənin ixracının şaxələndirilməsi və rəqabət qabiliyyətinin artırılmasına təkan verəcəkdir.

İqtisadi siyasətin daha da təkmilləşdirilməsinə ehtiyac vardır. Bunun üçün aşağıdakı islahatlar tələb olunur:

a)Fiskal siyasətin səmərəlliyinin artırılması. Region ölkələri və əsas ticarət tərəfdaşları ilə müqayisədə rəqabətqabiliyyətli qeyri-neft sahəsinin şaxələndirilməsi büdcənin vergitutma bazasının da genişləndirilməsini dəstəkləyə bilər.Digər tərəfdən, fiskal idarəetmənin təkmilləşdirilməsi baxımından, şəffaflıq və hesabatlılığın, dövlətinvestisiyalarının idarə edilməsinin keyfiyyətinin daha da artırılması əsas üstünlüklərdəndir.

b)Pul-məzənnə siyasətinin səmərəlliyinin artırılması. Bu istiqamətdə banklararası pul bazarının qurulması, pul siyasətinə etimadın yüksəldilməsi ilə dollarlaşmanın aşağı səviyyəyə enməsi, iqtisadi gözləntilərin adekvat idarəetmə çərçivəsində qurulması, maliyyə sabitliyi siyasəti ilə koordinasiyanın daha da gücləndirilməsi tələb edilir.

c) Proqnozlaşdırılan iqtisadi siyasət modeli. İqtisadi siyasətin iqtisadi subyektlər tərəfindən proqnozlaşdırıla bilməsi adekvat gözləntilərin formalaşmasına və bu əsasda rasional qərarların qəbul edilməsinə imkan verir.Bunun üçün iqtisadi siyasət orqanlarının gözləntilərin formalaşdırılması mexanizmlərini təkmilləşdirmək,ictimayyətə ötürülən informasiya və analizlərin təsirini əvvəlcədən nəzərə almaq, hökumət daxilində ictimaiyyətlə əlaqələrə koordinasiya olunmuş qaydada və yüksək diqqətlə yanaşılmasını yəmin etmək zəruridir.

d) Yüksəksəviyyəli koordinasiyanın təmini. Makroiqtisadi, struktur siyasətinin formalaşdırılması və icrası zamanı qurumlar arasında koordinasiya insititutunun möhkəmləndirilməsinə, effektivliyin daha da yüksəldilməasinə ehtiyac yaranır. Bu istiqamətdə Azərbaycan Respublikası Prezidentinin 15 iyul 2016-cı il tarixli Fərmanı ilə Maliyyə Sabitliyi Şurası yaradılmışdır. Şuranın fəaliyyətinin daha da dərinləşməsi iqtisadi siyasətin səmərəlliyinin yüksəldilməsinə imkan verəcəkdir.[4]

"2016-2017-ci illərdə Azərbaycan iqtisadiyyatı xarici şokların mənfi təsirindən çıxdı və sabitləşdi; 2017-ci ilin sonundan başlayaraq və 2018-ci ildə şaxələnmə və yeni hərəkətverici qüvvələr hesabına inkişaf xətti bərpa edildi; 2019-2020-ci illər iqtisadi artım daha yüksək pilləyə çıxması ilə,rəqabət qabiliyyətinin artırılması və dünya iqtisadiyyatına səmərəli inteqrasiyasının daha da dərinləşməsi dövrü sayılır. 2019-cu ildən başlayaraq Azərbaycan iqtisadiyyatı yeni tarazlıq vəziyyətində növbəti inkişaf mərhələsinə qədəm qoydu. Bu da yeni inkişaf strategiyasının zəruriliyini şərtləndirir."[5]

Azərbaycanda 2019-cu ildən başlayaraq qısamüddətli və orta müddətli büdcə xərclərinin idarə olunması üçün yeni qaydalar tətbiq edilmişdir.Maliyyə Nazirliyindən alınan məlumata əsasən, yeni qaydalar dövlət başçısı tərəfindən təsdiq edilmiş "Büdcə sistemi haqqında" qanuna edilən dəyişikliklərə müvafiq olaraq tətbiq olunacaq. Dəyişikliklər neft gəlirlərindən asılılığını azaldacaq və büdcə intizamını əhəmiyyətli dərəcədə yüksəldəcək. Yeni düzəlişlərin tətbiqinə əsas məqsədlərdən biri, büdcə xərclərinin kəskin artımının qarşısını almaqdır.

Beləliklə, büdcə siyasətinin təmin edilməsi planlaşdırılır ki, bu da ölkənin post-neft iqtisadiyyatı üçün vacibdir.[6]

Post-neft dövrü olduğu üçün müxtəlif sahələr inkişaf etdirilir.Daxili tələbatı ödəmək və idxalı aradan qaldırmağa ehtiyac vardır. Uzun müddət Azərbaycan aqrar məhsulların əhəmiyyətli hissəsini xaricdən idxal edirdi. Bunun nəticəsi olaraq valyuta ölkədən kənara gedirdi. İdxaldan asılılığın azaldılması və kənd təsərrüfatına olan tələbin daxildə yeni istehsalın hesabına ödənilməsi aqrar sektoru daha da cəlbedici edir.

Nəticədə Azərbaycan neft dövründə o sektora investisiya yatırmalıdır ki, həmin sektorlarda müqayisəli prioritetlər olsun.Məsələn, informasiya texnologiyası mühümdür, ancaq informasiya

texnologiyasında Azərbaycan müqayisəli üstünlüyə malik deyil.İnformasiya texnologiyası ölkə üçün prioritet istiqamət ola bilməz. Məsələn, əgər dövlət bu gün meyvə-tərəvəz istehsal edib, onu ixrac etmək imkanına sahibdirsə, bunu etməlidir.

Azərbaycan müxtəlif sektorlarda bir çox sahələrdə üstünlüyə malikdir. Müqayisəli üstünlük odur ki, Azərbaycan məhsulunun bazarı var.Bu təkcə daxili bazarda deyil, həm də xarici bazardadır. Azərbaycanda istehsal olunan tərəvəzlərə Rusiya bazarlarında həmişə tələbat vardır. Rusiyaya başqa ölkələrdən də tərəvəz gətrilir, ancaq Azərbaycanın istehsal etdiyi tərəvəzlə digərlərinə nisbətdə daha bahalı və keyfiyyətlidir.Bu sahədə müqayisəli üstünlük vardir və bu məhsullar brendə çevrilib. Ona görə də, bu malların bazara çıxarılmasına və satışına nail olmaq üçün işlər görülməlidir. Aqrar sektorda, istər meyvəçilik, istər tərəvəzçiliklə müqayisəli prioritetlər var. Aqrar sektorun daxilində əsas müqayisəli üstünlük sahələri-meyvəçilik və tərəvəzçilikdir.

Manat uzun müddət möhkəm olduğuna görə idxal ucuzlaşdı, bu da İran və Türkiyədə istehsal olunan aqrar məhsulların ucuz qiymətə Azərbaycan bazarına daxil olmasına imkan vermişdir. Manat baha olduğuna görə ixrac bahalaşdı, Azərbaycan fermerlərinin ixrac imkanları məhdudlaşdı, əvəzində idxal ucuzlaşmış oldu. Nəticədə bu ona gətirib çıxardı ki, fermerlər istehsal etdiyi məhsulu satmaq imkanına malik olmadı və böyük ziyanla üzləşdilər.

Artıq post-neft dövrüdür, manat o qədər də güclü deyil. Buna görə də, aqrar sektor sözün həqiqi mənasında prioritetə çevrilmişdir.

Ədəbiyyat

1.“Xalq qəzeti” iqtisadi elmləri doktoru, professor Fikrət Yusifov/ http//ekonomiks.az/manshet/1174-qeyri-neft -sənayesi-sürətlə inkişaf edir.html /2018.

2. “Vergilər sosial-iqtisadi online qəzeti /https:// vergilər.az/news/economy/2025 html/ 2019.

3. Bakı Universitetinin xəbərləri jurnalı /sosial-siyasi elmlər seriyası/ Dövlətin iqtisadi təhlükəsizliyi Azərbaycanın müstəqilliyinin əsas nəaliyyətidir/ H.H.Aslanov, N.İ.Əliyeva/2012

4. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi.

5. İqtisadi İslahatlasrin Təhlili və Kommunikasiya Mərkəzinin icrasçı direktoru Vüsal Qasımlı/http://interfax.az./view 764953? Lang=az.

6.http:abc.az/ru/news/16032.

Резюме.

Переход диверсифицированной экономики Азербайджана к специализированной, от отраслевого подхода к товарному подходу стал необходимостью. Введение нового этапа развития экономики Азербайджана обуславливает необходимость разработки новой стратегии экономического развития. Сокращение нефтяной зависимости от экономики и создание конкурентоспособной национальной экономики, дальнейшее улучшение делового и инвестиционного климата были определение в качестве одной из стратегический целей на ближайшие годы. Текущие достижения в не-нефтяной промышленности и сельском хозяйстве предоставляют предпринимателям дополнительные стимулы для продвижения своего бизнеса. Предпринимательство играет важную роль в устойчивом развитии национальной экономики.

Summary.

The transition of the diversified economy of Azerbaijan to a spesialized one, from a sektoral approash to a commodity approash has become a necessity. The introduction of a new stage in the development mof the Azerbaijani economy necessitates the development of a new strategy for economik development. Reducing oil dependence on the economy and creating a competitive national economy, furtheir improving the business and investment climate were identified as one of the strategic goals for the coming years. Current achievements in the non-oil industry and agriculture provide entrepreneurs with additional incentives to promote their business. Entrepreneurship plays an important role in the sustainable development of the national economy.

Keywords: *diversification, non-oil sektor, agricultural sektor, servise sektor,ekonomik security, ekonomik strukture and competitiveness, GDP, post-oil stage.*

MÜASIR DÖVRDƏ ISTEHSALIN DIVERSIFIKASIYASININ LOGISTIKA SISTEMININ GENIŞLƏNDIRILMƏSI YOLLARI

Şəkərəliyeva Zibeydə Arif qızı, i.f.d., dos.
ADİU (UNEC)
zibeydashakaraliyeva1977@gmail.com

Xülasə

Məqalədə Azərbaycanda loqistik sisteminin formalaşması, onun inkişafı məsələləri araşdırılır. Belə ki, Sosial-iqtisadi inkişafın Milli Prioritetlərinin tələbləri baxımından Respublikada loqistika sisteminin inkişafı onun diversifikasiyası məsələsinə önəm verilir. Ölkə iqtisadiyyatı hazırki dövrdə şaxələndirmə, başqa sözlə, diversifikasiyalaşdırılma dövrünü yaşayır. Burada qeyri-neft sektorunun inkişafının sürətləndirilməsində əsas element kimi sənayənin, kənd təsərrüfatının, nəqliyyatın, ticarətin, turizmin, İKT və s. Sahələrin kompleks və sürətli inkişafı, ölkə iqtisadiyyatının müxtəlif sahələrinin potensialından səmərəli istifadə olunması, ixrac yönümlü əmtəələrin çeşidinin artırılması, yeni xarici əmtəə bazarına çıxış məsələləri tədqiq edilir.

Giriş

"Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in icrasının intensivləşdiyi bir dövrdə sənaye müəssiəslərində istehsalın diversifikasiyasının logistika sisteminin genişləndirilməsi yollarının öyrənilməsi və müəyyənləşdirilməsi vacib məsələlər kimi ortaya çıxmışdır. Belə ki, bu istiqamətdə konkret hədəflər müəyyənləşdirilib, bu istiqamətdə fəaliyyət dairəsi və praktiki fəaliyyət mexanizmləri müəyyən əşdirilmişdir.

Belə ki, sənaye müəssisələrinin istehsal səviyyəsinin genişləndirilməsi, istehsalın strukturunun diversifikasiyalaşdırılması, bazar iqtisadiyyatı şəraitində və dünya bazarlarında rəqabətin gücləndiyi bir halda belə bir mühitdə tab gətirəbiləcək və möhkəmlənəcək sənaye məhsullarının istehsalının genişləndirilməsi yolları və potensialı formalaşdırılmalı, konkret fəaliyyət istiqamətləri müəyyənləşdirilməlidir. Respublikada neft-kimya, kimya, maşınqayırma, yüngül sənaye, emal, yeyinti müəssisələrində istehsalın diversifikasiyasına imkan verən xammal-təchizat zəncirinin və bazasının yaradılması, digər mühim köməkçi vasitələrin vahid fəaliyyət sistemində uzlaşdırılması və tarazlaşdırılması, o cümlədən logistika sisteminin sənaye müəssisəinin fasiləsiz xammal axını ilə təminatında rolunun artması mühüm məsələlərdəndir.

İstehsalın diversifikasiyasının loqostika sisteminin genişləndirilməsinin problemləri.

Respublikanın sənaye müəssisələrində logistika sisteminin və yaxud müstəqil olaraq sənayenin ayrı-ayrı sahələrində təyinatlı logistik mərkəzlərin yaradılması və inkişafının təmin olunması həll edilməli, əlverişli qərarlar qəbul olunmalı və fəaliyyət mexanizmləri müəyyənləşdirilməlidir. Nəhayət sonda istehsalın diversifikasiyasının logistika sisteminin genişləndirilməsi yolları göstərilməlidir. Bundan əlavə logistika sisteminin yaradılması və inkişafı məsələləri kompleks və sistemli yanaşma çərçivəsində baxılmalı və həll edilməlidir. Belə ki, logistika sisteminin hər bir elementi və komponenti bir-birini tamamlayır və üzvi surətdə bir-birilə əlaqədardırlar. Sənaye müəssisələrində logistika sisteminin əsas fəaliyyət istiqamətlərinə logistika fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi, idarəetmə sisteminin təşkili, əlverişli daşıma variantlarının seçilməsi, xidmətlərə çəkilən xərclərin aşağı salınması üçün tədbirlərin görülməsi, logistika xidmətləri üzrə qaydaların hazırlanması, daşıma proseslərinin maksimum əlverişliliyinin təmin edilməsi, daşımaların xərclərinin azaldılması, nəqliyyat vasitələrindən və avadanlıqlarından istifadənin səmərəliliyi, anbar-qablaşdırma xərclərinin təhlili, logistika xidmətlərinin göstərilməsi proseslərinin təşkili, yüklərin vaxtında və itkisiz ünvanlara çatdırılması, logistika xidmətlərinin istehsal xərclərinin aşağı salınması, logistika sisteminin mexanizmlərinin təkmilləşdirilməsi, yüklərin daşınması üzrə sənədləşdirmələrin keyfiyyətli təşkili, bütün növ logistik əməliyyatların səmərəliliyinin təmin edilməsini özündə birləşdirir. Azərbaycanda hazırda ticarət əlaqələrinin inkişaf etdiyi dövrdə sənaye müəssisələrində istehsalın diversifikasiyalaşdırılmasında logistika sisteminin roluna daha geniş mənada baxılmalıdır. Burada iqtisadi inkişaf meyilləri, qlobal iqtisadi çağırışlar, rəqabətqabiliyyətli məhsulların və əmtəələrin istehsalının əsas şərt kimi formalaşması, dünya bazarların-

dakı rəqabətin güclənməsi, milli iqtisadiyyatın kənar təsirlərdən qorunmaq sərhədlərinin nisbi olması, müstəqil və məhdud mexanizmlərlə bazar iqtisadiyyatı şəraitində uğurlu müəssisə modelinin yaradılması və inkişaf etdirilməsinin qeyri-mümkünlüyü və s. amillər nəzərə alınmalıdır.

Qeyd etmək lazımdır ki, logistika mərkəzləri və ya terminallarının formalaşdırılması, yaradılması və inkişaf etdirilməsi təklif olunan ərazilər və subyektlər əslində kimya və neftkimya sənayesinin ənənəvi inkişaf proseslərinin mərkəzləri olmuşlar və hazırda da bu sahədəki potensiallar həmin ərazilərdə toplanmışdır. Bundan başqa, Ölət qəsəbəsində iri liman kompleksinin yaradlıması kontekstindən baxsaq, burada neftkimya logistik mərkəzinin təşkilini şərtləndirən amilləri əsaslandırmaq o qədər də çətin deyildir.

Hazırki şəraitdə Azərbaycanda qeyri-neft sektorunun potensialından daha səmərəli istifadə edilməsi üçün bir qrup prioritet istiqamətlərin reallaşdırılmasının həll edilməsi zəruridir.

Azərbaycan iqtisadiyyatı hazırki dövrdə, şaxələndirmə, başqa sözlə, diversifikasiyalaşdırılma dövrünü yaşayır. Diversifikasiya sözünün müasir forması ingilis dilində işlədilən "diversification" termininə əsaslanır və əsasən məhsul çeşidinin genişləndirilməsi kimi başa düşülür. Bununla yanaşı müasir dövrdə diversifikasiya anlayışı milli iqtisadiyyatın inkişaf xüsusiyyətini və istiqamətlərini xarakterizə etməkdə, şirkət və birliklərin fəaliyyət xarakterlərinə görə qruplaşdırılmasında vacib elementlərdən biri kimi özünü biruzə verir. Məsələn, iqtisadi fəaliyyətin çoxsahəliliyi və müxtəlifliliyi, çoxprofilli şirkət və s. ölkə iqtisadiyyatının dayanıqlı inkişafının başlıca istiqamətlərindən biri iqtisadiyyatın və onun ayrı-ayrı istehsal sahələrinin diversifikasiyasıdır. Azərbaycanda emal sənayesinin müasir iqtisadi və texniki durumu diversifikasiya meylinin hər vasitə ilə güclləndirilməsini tələb edir. Bu məqsədlə beynəlxalq miqyasda qazanılmış təcrübədən istifadə etmək vacibdir. Həmin təcrübədən bəhrələnərək yaxın dövrlərdə Azərbaycanda əvvəla, inkişaf etmiş bazar infrastrukturunun yaradılması; ikincisi, iqtisadiyyatın diversifikasiyasına kömək edən dövlət maliyyə institutlarının yaradılması; üçüncüsü, qeyri-neft sektorunun iqtisadi stimullaşdırılması sisteminin işlənməsi (vergilər, tariflər və s.) və dördüncüsü, milli iqtisadiyyatın diversifikasiyası və sanayenin qeyri-neft sektorunun inkişafının dövlət indikativ planlarının (proqramlarının) qəbul edilməsidir. Prezident İlham Əliyevin sərəncamı ilə 2 fevral 2021-ci ildə təsdiq etdiyi "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də göstərilir ki, Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətliliyinin yüksəldilməsi və innovasiyalaşdırılmasında iki mühüm iqtisadi inkişaf istiqaməti-milli istehsalçıların məhsullarına olan tələbatın daxili bazarda ciddi artırılmasının təmin olunması və xarici bazarların əldə edilməsi mühüm prioritet kimi qəbul olunmalıdır. Bu baxımdan ölkənin qeyri-neft sektorunun inkişafının sürətləndirilməsində əsas element kimi sənayenin, kənd təsərrüfatının, nəqliyyatın, ticarətin, turizmin, İKT və s. sahələrin kompleks və sürətli inkişafı, ölkə iqtisadiyatının müxtəlif sahələrinin potensialından səmərəli istifadə olunması, yüksək standartlara cavab verən milli məhsulların və əmtəələrin istehsal şəbəkəsinin genişləndirilməsi, ixrac yönümlü əmtəələrin çeşidinin artırılması və qeyri-neft ixracının coğrafiyasının şaxələndirilməsi həcminin yüksəldilməsi, yeni xarici əmtəə bazarlarına çıxışın təmin olunması vacib şərtlər kimi iştirak edir.

Qeyd etmək lazımdır ki, ki, artıq iri enerji TANAP və TAP layihələrinin əksəriyyəti başa çatdırılıb və yaxud icra edilməkdədir.

Beynəlaxalq Enerji Agentliyinin "Azərbaycan 2021: Enerji Siyasəti İcmalı" hesabatında göstərilir ki, Azərbaycan neft-qaz sektoruna investisiyada sabit mühüt yaratmağa nail olaraq ehtibarlı ixracatçıya çevrilməyə nail olub. Belə ki, Azərbaycanın Cənub Qaz Dəhlizi layihəsi ilə Avropanın qaz tədarükünün şaxələndirilməsində rolunu artıqdığı, həmçinin Avropanın enerji təhlükəsizliyində əhəmiyyətli rola malik olduğu qeyd edilir. Hesabatda göstərilir ki, 2025-ci ilə gədər Avropada idxal edilən qaza olan tələbat 45 miliyard kub metrə gədər artacaq. Bu isə Azərbaycanın regional qaz mərkəzinə çevrilməsinə səbəb olacaqdır. Bununlada 2025-ci ilədək Cənub Qaz Dəhlizi vasitəsi ilə "Şahdəniz 2"dən xasil ediləcək qazın nəqlini iki dəfəyə gədər artırmaqla 16 miliard kub metr həcminə çatdırmaq olar. Qeyd etmək lazımdır ki, hal-hazırda Azərbaycan neft email və neft kimya istehsalının moderinləşdirilməsi və artırılması ilə bağlı səylərini uğurla davam etdirir. Bu isə sahənin böyük uğurlar əldə etməsini bird aha təsdiq edir.

Hazırda qeyri-neft sektorunda iri həcmli layihələr başlanılıb, ölkənin iqtisadi inkişafının neftdən asılılığının azaldılması istiqamətində işlər həyata keçirilir. Azərbaycan iqtisadiyyatının

diversifikasiyalaşdırılmasının, ÜDM-də özəl sektorun və xidmət sahəsinin payının artırılmasının, sənaye sahələrində, o cümlədən neftqaz maşınqayırması, neftkimya, metallurgiya, cihazqayırma, tikinti materialları istehsalı, emal sənayəsi və kənd təsərrüfatı məhsulları istehsalı sahələrində inkişafın sürətləndirilməsinin, yeni iqtisadiyyat sahələrinin – İKT, turizm və kosmik sənayesinin rolunun gücləndirilməsinin, xarici ticarət dövriyyəsi strukturunun diversifikasiyalaşdırılması prosesi davam edir.

Hazırki şəraitdə kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları, emal sənayesi Azərbaycanda qeyri-neft sektorunun inkişafında əsas prioritet sahələr hesab edilir. Beynəlxalq maliyyə institutları bu sahələr arasında kənd təsərrüfatı və turizmin əhəmiyyətini xüsusi qeyd edirlər. Belə ki, ölkənin məşğul əhalisinin 44 faizə yaxını məhz kənd təsərrüfatında çalışır. Bu səbəbdən ölkədə kənd təsərrüfatının inkişafına yönələn ardıcıl dövlət proqramları, islahatlar və yeni texnologiyaların cəlb edilməsi həyata keçirilməkdədir.

Hazırda Azərbaycanda istehsal edilən qeyri-neft məhsulları, o cümlədən elektrik maşınları və avadanlıqları, onların hissələri, kimya sənayesi məhsulları, tikinti materialları, hazır toxuculuq məmulatları və s. müxtəlif bölgələrə ixrac edilir. İqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafına zəmin yaratmaq üçün inkişaf proqramları əsasında kiçik və orta sahibkarlığın dəstəklənməsinə, bu fəaliyyətlə məşğul olanlara güzəştli dövlət kreditlərinin ayrılmasına, kənd təsərrüfatına subsidiyaların yönəldilməsinə, ölkə boyu nəqliyyat-kommunikasiya infrastrukturunun yenidən qurulmasına milyardlarla dollarlıq vəsait xərclənib. Bu xərcləmələr çox keçmədən öz bəhrəsini verməyə başlayıb və iqtisadiyyatın qeyri-neft sektorunda böyük canlanmaya səbəb olub. İqtisadiyyatın diversifikasiyası ilə bağlı nəzərdə tutulmuş tədbirlərin reallaşdırılması üçün dövlət başçısının müvafiq fərman və sərəncamları ilə "Azərbaycan Respublikası iqtisadi rayonlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" və digər proqramlar qəbul olunub. Bu proqramlar uğurla icra olunub.

Bu məqsədlə qeyri-neft sektorunda müşahidə edilən proseslərə çevik adaptasiya, habelə postneft iqtisadi inkişaf modelinin dəstəklənməsi üçün sənayenin qarşısında duran yeni çağırışlar və imkanların tətbiq ediləməsi üçün Prezident İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə Strateji Yol Xəritəsi təsdiq edilmişdir . Strateji yol xəritələri 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyasını və tədbirlər planını, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövrə hədəf baxışı özündə ehtiva edir. Bu strateji yol xəritələri Azərbaycanın gələcək inkişaf perspektivlərini dərin elmi əsaslarla müəyyənləşdirən konseptual əhəmiyyətli sənəddir.

Mühüm Dövlət əhəmiyyətli sənədlərin icrası nəticəsində sənayenin strukturu təkmilləşdirilə-cək, qeyri-neft sənayesi iqtisadi artımın əsas hərəkətverici qüvvələrindən birinə çevriləcək, ağır sənaye və maşınqayırmanın sənayedə və məşğulluqda payı artacaq, ümumi iqtisadi potensial 2020-ci ildən sonrakı dövr üçün nəzərdə tutulmuş məqsədlərin reallaşdırılması üçün hazır vəziyyətə gətiriləcək, yəni mövcud resurslardan optimal istifadəyə, habelə müəssisələrdə səmərəli istehsal metodlarının tətbiqinə başlanacaq.

Hal-hazırda uğurla həyata keçirilən dövlət proqramları və bu sahədə görülən tədbirlər qeyri-neft sektorunun davamlı inkişafına, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və iş yerlərinin yaradılmasına səbəb olmuşdur.

Iqtisadiyyatın şaxələndirilməsi siyasətinin prioritet istiqamətlərindən biri də regionların inkişafı strategiyasının həyata keçirilməsidir. Bu baxımdan qəbul edilmiş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" uğurla icra olunmuşdur. Bu proqrama əsasən digər böyük layihələrin icrası qeyri-neft sektorunun davamlı inkişafına şərait yaradacaq, ictimai xidmətlər və sosial infrastruktur daha da təkmilləşəcəkdir.

Azərbaycanın Qeyri-neft sektorunda yaradılmış əlavə dəyərin sahələr üzrə bölgüsü



Qeyri-neft sənayesi, kənd təsərrüfatı istehsalı, nəqliyyat, informasiya və rabitə xidmətləri, logistika ticarət və s. sahələr üzrə ciddi irəliləyişlər ola bilibsə, bu, o deməkdir ki, uğurlu islahatlar həyata keçirilir. Azərbaycanda aparılan iqtisadi islahatların əhəmiyyətini dünyanın iki ən böyük maliyyə institutunun - Beynəlxalq Valyuta Fondunun və Dünya Bankının rəhbərlikləri də artıq rəsmi bəyan ediblər. Bu o deməkdir ki, davamlı surətdə həyata keçirilən sosial-iqtisadi islahatlar nəticəsində qısa müddət ərzində neft sənayesindən asılılıq minimuma enəcəkdir. Hal - hazırda Azərbaycan bu yolda daha inamla irəliləmək və postneft dövrünün islahatlarını maksimum qısa zaman kəsiyində başa vurmağı hədəfləyir. Hazırda islahatların əsas hədəfi bir neçə il ərzində dövlət büdcəmizin gəlirlərini qeyri-neft sektoru hesabına təmin etməkdən ibarətdir. Bu baş verdikdən sonra isə dünya bazarlarında neftin qiymətlərinin dəyişməsinin heç bir əhəmiyyəti olmayacaq.

2017-ci ilin yanvar-sentyabr ayları ərzində iqtisadiyyatın qeyri-neft sektorunda 31327.2 milyon manatlıq əlavə dəyər yaradılmış və ümumilikdə onun 56.5%-i sosial və digər xidmətlər, ticarət, nəqliyyat vasitələrinin təmiri və tikinti sahələrinin payına düşmüşdür.

2017-ci ilin yanvar-sentyabr aylarında ölkə iqtisadiyyatının qeyri-neft sektorunda yaradılan əlavə dəyər əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2.5% artmışdır. Qeyri-neft sektorunda yaradılan əlavə dəyərin ÜDM-də xüsusi çəkisi 62.6% təşkil etmişdir. Qeyri-neft sektorunun alt sahələri üzrə ÜDM-ə ən çox müsbət töhfə verən sahələr nəqliyyat və anbar təsərrüfatı, ticarət və nəqliyyat vasitələrinin təmiri sahələri olmuşdur.

Qeyri-neft sahəsində yaradılmış əlavə dəyərin artım sürəti əvvəlki ilin müvafiq dövrünə nisbətən yüksək olmuşdur. 2016-cı ilin müvafiq dövrünə nisbətən kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində 2.8%, tikinti sahəsində 1.5%, ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində 2.1%, nəqliyyat və anbar təsərrüfatı sahəsində 5.8%, turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsində 3.2%, informasiya və rabitə sahəsində 6.2%, sosial və digər xidmətlər sahəsində 1% artım qeydə alınmışdır. Son dövrdə sənaye sahəsində biznes fəaliyyətinin dəstəklənməsi və istehsal sahəsində məşğulluğun artırılması məqsədilə sənaye zonaları yaradılır, sənayenin inkişafında əhəmiyyətli olan sənaye parklarında və sənaye məhəllələrində sahibkarların səmərəli fəaliyyəti üçün zəruri infrastruktur qurulur, güzəştli rejim tətbiq olunur və sənaye zonalarına sahibkarların marağı artır.

Hazırda respublikada kimya, təkrar emal, gəmiqayırma, yüngül sənaye, əczaçılıq və digər sahələrdə ixtisaslaşmış 5 sənaye parkı və 4 sənaye məhəlləsi yaradılıb. İxracyönümlü məhsulların istehsalının dəstəklənməsi, investisiyaların cəlb edilməsinin stimullaşdırılması məqsədilə investisiya təşviqi mexanizminin tətbiqi öz töhfəsini verir. İndiyədək 251 sahibkarlıq subyektinə 283 investisiya təşviqi sənədi verilib ki, bu layihələrin reallaşması nəticəsində yerli istehsala 2,5 milyard manatdan artıq investisiyanın yatırılması və 19 minədək yeni iş yerinin açılması imkanı yaradılıb, bunlardan investisiya dəyəri 1 milyard manatdan çox olan 141 müəssisə artıq fəaliyyət göstərir.

Azərbaycanda qeyri-neft sektorunun inkişafını təmin etmək üçün lazımi struktur, institusional və mədəni əsasların təkmilləşdirilməsi, yəni əmtəə və pul bazarları inkişaf etdirilməsi, qeyri-neft sahələri üzrə zəruri ixtisaslardan olan mütəxəssislər hazırlanması və ya cəlb edilməli, sahibkarlıq təbəqəsi, səmərəli inzibati sistem və s. formalaşdırılması istiqamətində tədbirlər davam etdirilməlidir. Qeyri-neft sektorunun inkişafı sahəsində dövlət siyasətinin istiqamətlərindən biri qeyri-neft sektorunda investisiya qoyuluşlarının maliyyələşdirilməsi üçün 79 əlverişli şəraitin yaradılması ilə əlaqədardır. Müasir dövrdə qeyri-neft sektorunun inkişafına mane olan amillərdən biri ölkədə faiz dərəcələrinin yüksək olmasıdır. Gələcəkdə maliyyələşmə mənbələrinin genişləndirilməsi və faiz dərəcələrinin aşağı salınması qeyri-neft sektorunun inkişafı baxımından mühüm əhəmiyyət kəsb edəcəkdir. Ölkədə qeyri-neft sektorunun inkişafının güzəştli kreditlər hesabına maliyyələşdirilməsinin genişləndirilməsi zəruridir.

Müasir dövrdə Respublikada yüksək nəticələrin əldə edilməsi qeyri-neft iqtisadiyyat sahələrinin rəqabət qabiliyyətinin artırılması yüksək və davamlı iqtisadi artımın təmin edilməsi ilə bağlıdır. Belə ki, ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin qlobal təsirlər şəraitində arta bilməsi imkanları və yolları mövcuddur, bir şərtlə ki, ölkədə ixrac yönümlü qeyri-neft sektoru məhsullarının çeşidinin əhəmiyyətli səviyyədə davamlı artım təmin olunmalıdır. Azərbaycan ixracı əmtəələrin müstəvisinin kənar periferiyasında yerləşir və hazırkı ixrac səbətində ən yaxın əmtəələrə məsafə çox böyükdür. Bu səbəbdən də Azərbaycan iqtisadiyyatının təbii, yaxud "üzvi" diversifikasiyası çox çətindir**.** Lakin hal-hazırda Azərbaycanda “İqtisadiyyatın təbii diversifikasiyası” və yaxud “üzvi diversifikasiyası” anlayışları altında ixracın potensialının heç də az olmayan səmərəli yollarını tapmaq perspektivləri qalmaqdadır:

1. Ölkənin təbii resursları, zəngin yeraltı və yerüstü ehtiyatları, əmək və intellekt resursları və sair amilləri kifayət qədərdir;

2. Bir sıra güclü potensiala malik qeyri-neft sektoru sahələrinin potensialından səmərəli istifadə olunmalı və onların ixrac yönümlüyü daha dərindən müəyyənləşdirilməlidir (kimya və neft kimya, metallurgiya, neft və qaz maqşınqayırması, kənd təsərrüfatı və s.)

3. Respublikamızın ixrac sektorunun diversifikasiyalaşdırılma strategiyası optimallaşdırılmalı, rəqabət qlobal meyarlar nəzərə alınmalı, adekvat tədbirlər müəyyənləşdirilməli və s.

4. Respublikanın işğaldan azad edilmiş ərazilərinin güclü ixrac potensialına malik olması nəzərə alınmamalıdır və s.

Müasir dövrdə Azərbaycanda dövlətin özəl sektora, qeyri-neft sektoruna, həmçinin bank sektoruna sistemli dövlət dəstəyi mexanizmləri ilə yanaşması, nisbətən dayanıqlı iqtisadi siyasət formalaşdırlması bu qənaətə gəlməyə imkan verir ki, növbəti illərdə ölkənin kommersiya banklarının kreditləri hesabına müxtəlif real iqtisadi sektorların inkişafının sürətləndirilməsi, onların ixrac potensiallarının artırılması yollarının şaxələndirilməsi daha da intensivləşəcəkdir

1. Növbəti iri logistika mərkəzinin yenə Sumqayıt sənaye mərkəzində təklif edilməsi təsadüfi deyildir, belə ki, bu sənaye mərkəzi təkçə Azərbbaycanda yox, regionda iri sənaye mərkəzlərindən, eyni zamanda güclü kimya və neftkiyma mərkəzlərindən hesab olunur. Əvvəllərdə qeyd etdiyimiz kimi, ölkəmizdə kimya və neftkimya sənayesinin inkişafı intensiv fazaya keçmişdir, iri kimya nəhəngləri tezliklə istifadəyə veriləcəkdir (Karbamid zavodu, “Socar Polymer” zavodu və s.), bundan əlavə, Sumqayıtda, Bakıətrafı ərazilərdə özəl kimya və neftkimya müəssisələrinin inkişaf etidilməsinə maraq böyükdür, tələbat çoxdur, həm də real olaraq potensial vardır, o cümlədən xammal və kadr potensialı mövcuddur.

2.“Sumqayıt kimya sənaye parkı” nəzdində logistika mərkəzinin yaradılması nəzərdə tutulmuşdur və artıq bu proseslərə başlanılmışdır.

3.“Mingəçevir “kimya sənaye və neftkimya məhsulları” logistika mərkəzlərinin yaradılmasını şərtləndirən mühüm amillərdən biri bu regionun müxtəlif kimya və neftkimya məhsullarına tələbatının olması, həmçinin Mingəçevir şəhərində ənənəvi olaraq kimya sənaye və neftkimya müəssisələrinin fəaliyyət göstərməsi ilə bilavasitə bağlıdır. Sənaye şəhəri olan Mingəçevirdə, həmçinin yaxınlıqda yerləşən Gəncədə, bu regionlarda yerləşən digər rayonlarda emal müəssisələri şəbəkəsinin yaradılmasına ciddi zərurət vardır və bu da, ilk növbədə regionlarda sənaye

müəssisələrinin yaradılması zərurətinin artması, yeni iş yerləri yaradılması vacibliyi, əlavə dəyər yaratmaq potensialına malik müəssisələrin istismara verilməsinin prioritetliyi ilə sıx bağlıdır.

4. Ölkəmizdə logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsində neftkimya məhsullarının emal mərkəzinin yaradılması imkanlarının və regionda neft-qaz emalı və digər məqsədlər üçün yeni Bakı limanı kompleksində ümumi istifadəyə yönəldilmiş təchizat bazasının yaradılması imkanının olacağı bildirilmişdir**.** Bakı liman kompleksindəyüksək potensiala və güclü infrastruktura malik "Ələt kimya və neftkimya" logistika mərkəzinin yaradılması ölkəmizə, o cümlədən kimya və neftkimya müəssisələrinə böyük səmərə verə bilərdi. Belə ki, həmin logistika mərkəzinin İran və digər körfəz ölkələrindən, həmçinin Cənubi-Şərqi Asiya ölkələrindən geniş çeşiddə sənaye məhsullarını, xüsusilə əsas xammallarının iri həcmdə tədarükü üçün potensiallar vardır. Başqa sözlə, bu logistika mərkəzi iri həcmdə sənaye məhsullarını və xammallarını respublikamıza gətirməklə, tədarük və təchizatı təmin etməklə, emal şəbəkəsinin formalaşdırılmasına, sənaye müəssisələrinin yaradılmasına güclü stimul verə bilərdi. Bundan əlavəsənaye məhsulları yarımfabrikatlarının emal edilməsi, yaxud yenidən qablaşdırılması hesabına əlavə ixrac potensialını artırmaq olardı . Sonda isə Azərbaycanın xarici ticarət əlaqələrinin genişlənməsi və ölkənin valyuta ehtiyatlarının artmasına səbəb olacaqdır. Bu isə Azərbaycanın xarici ticarət strategiyasının formalaşması problemlərinin nəzərə alınmasını tələb edir.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, ölkənin xarici ticarət strategiyası müxtəlif istiqamətli amillər kompleksinin (iqtisadiyyatın ümumi vəziyyəti, tədiyyə balansı, rəqabətin dəyişməsi təmayülləri və s.) təsiri altında formalaşır. Belə ki, bütün bu amillərin eyni zaman intervalı daxilində təsiri nəticəsində xarici ticarətin mürəkkəb və dinamik stukturu qərarlaşır. Yəni təşəkkül tapmış vəziyyət ya xarici ticarət doktrinasını, ya da xarici ticarət iqtisadiyyatında hansısa bir iqtisadiyyatın dominatlığını ortalığa çıxarır. Xarici xarakterli dəyişiklikləri isə bir qayda olaraq mürəkkəb, çox şaxəli və çoxsaylı rəqabət sistemi kimi fəaliyyət göstərən dünya bazarının konyuktur dəyişmələrinin törəməsi formasında meydana gəlir.

Nəticə

Hazırda iqtisadi qloballaşma elm və texnologiya tutumlu məmulatların üstün mövqelərə kecməsi ilə əlaqədar olaraq rəqabət mübarizəsinin ifrat dərəcədə kəskinləşməsi xarici ticarət siyasətinin dinamikliyi və çevikliyinin obyektiv xarakter kəsb etməsinə səbəb olmuşdur. Rəqabət mübarizəsi nəticəsində daha mürəkkəb texnologiyalara yiyələnməsini, məhsul vahidinin xərc tutumunu qəti mal səviyyəsində saxlanılmasını, onun yəni məmulatın istehlak səviyyəsini amansız olaraq yaxşılaşdırmağı tələb edir. Belə ki, xarici ticarət siyasəti ümumiqtisadi siyasətin üzvi tərkib hissəsi kimi ifrat dinamizm xassəsinə malik olmalıdır.

Dünya ölkələrinin müvafiq təcrübəsinin sistemli təhlili göstərir ki, idxal tarifi ölkənin iqtisadi rifah dərəcəsini aşağı salır, istehlakçıların vergi yükünü artırır, ticarət müharibələrinə səbəb olur, məşğulluğun səviyyəsini azaldır. Bundan başqa idxal tarifi demək olar ki, əksər hallarda gəlirlərin istehlakçılardan rəqabətqabiliyyətli məhsul buraxa bilməyən yerli istehsalçılara və dövlət büdcəsinə doğru yenidən bölgüsünə səbəb olur. Belə ki, xalis itkilər istehsal effekti (resurslar aşağı keyfiyyətli məhsul istehsalına yönəldilir) və istehlak effekti (rüsumların tətbiqi ilə qiymətləri yüksəlmiş əmtəələrin alıcı həcmini azaltmaqla istehlakçıların fayda itgisi) doğurur.

Bunlardan əlavə , gömrük-tarif metodlarında elmi əsaslandırılmış formada və çevik şəkildə istifadə edilməsi dövlət büdcəsinin artımında, gənc elmtutumlu sahələrin mühafizəsində, əhali gəlirlərinin effektiv şəkildə yenidən bölgüsündə və s. müsbət rol oynaya bilər.

Ədəbiyyat

1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. 02.02 2021-ci il Azərbaycan Respublikası Prezidentinin Sərəncamları. Azərbaycan Prezidentinin Rəsmi internet səhifəsi.

2. prof. Arif Şəkərəliyev, Qoşqar Şəkərəliyev – "Azərbaycan iqtisadiyyatı reallıqlar və perspektivlər", Bakı, 2016.

3. Əliyev Ş.T. (2013). "Azad iqtisadi zonalar". Sumqayıt Dövlət Universiteti, 2013.

4. Nuriyev Ə.X. (2013). «Azərbaycanda iqtisadi inkişaf və modernləşmə siyasətinin konseptual əsasları». Bakı "Avropa" nəşriyyatı.

5. Şəkərəliyev A.Ş. «İxracın strukturunun qeyri-neft məhsulları hesabına genişləndirilməsi istiqamətləri». // Elmi Xəbərlər. Qərb Universiteti. Bakı, 2017.
6. Эмир-Илясова Э.И. Внешнеэкономические связи Азербайджанской Республики в условиях интеграции в мировую экономику. Автореферат дисс. д-ра экон. наук. Баку, 2013.

AZƏRBAYCANDA STRATEJİ PLANLAŞDIRMANIN DÖVLƏT TƏNZİMLƏNMƏSİ

B.H.Şirinov, i.ü.f.d., b.m.
Azərbaycan Memarlıq və İnşaat Universiteti
revan622@mail.ru

Xülasə

Məqalədə strateji planlaşdırmanın mahiyyəti, strateji planlaşdırma prosesində idarəetmənin əsas fəaliyyət növləri, strateji proqnozlaşdırmanın dövrləri, əhəmiyyətlilik dərəcəsindən asılı olaraq planlaşdırma növləri, Azərbaycanda strateji planlaşdırmanın dövlət tənzimlənməsi kimi məsələlər araşdırılmışdır.

Açar sözlər: Strategiya, strateji planlaşdırma, strateji proqnozlaşdırma, strateji planlaşdırma, taktika planlaşdırma, operativ planlaşdırma

Strateji planlaşdırma, məqsədlərinə çatmaq üçün xüsusi strategiyaların hazırlanmasına səbəb olan rəhbərlik tərəfindən alınan hərəkətlər və qərarlar toplusudur. Strateji planlaşdırma prosesi idarəetmə qərarlarının qəbul edilməsində köməkçi bir vasitədir [1].

Nəzəriyyə və təcrübə strateji planlaşdırma prosesində dörd əsas idarəetmə fəaliyyət növünü müəyyən etmişdir:

- resurs bölgüsü;
- xarici mühitə uyğunlaşma;
- daxili koordinasiya;
- təşkilati strateji uzaqgörənlik.

Resurs bölgüsü, vəsait, qıt idarəetmə istedadı və texnoloji təcrübə kimi məhdud təşkilati qaynaqların ayrılmasını ehtiva edir.

Xarici mühitə uyğunlaşma, müəssisənin əlaqələrini yaxşılaşdıran strateji xarakterli bütün hərəkətləri əhatə edir. Müəssisələr uyğun variantları müəyyənləşdirmək və strategiyanın ətraf mühitə təsirli şəkildə uyğunlaşdırılmasını təmin etmək üçün ətrafı ilə xarici imkanlara və təhlükələrə uyğunlaşmalıdır.

Daxili koordinasiya, təşkilatın effektiv inteqrasiyasına nail olmaq üçün güclü və zəif tərəflərini əks etdirmək üçün strateji fəaliyyətlərin əlaqələndirilməsini əhatə edir.

Təşkilati strateji uzaqgörənlik, menecerlərin düşüncəsinin sistematik inkişafını həyata keçirməyi əhatə edir.

Strateji planlaşdırma proses kimi qiymətləndirilir. Müvafiq idarəetmə subyektlərinin praktiki fəaliyyəti öz məzmununu ehtiva edir:

- mahiyyət və onun təzahürü;
- strateji proqnozların, layihələrin hazırlanması proseduru strateji proqramlar və planlar.

Əsas strateji planlaşdırma prosedurları bunlardır:

- strateji proqnozlaşdırma (proqnoz);
- strateji proqramlaşdırma (proqramlar);
- strateji dizayn (planların layihələri).

Strateji proqnozlaşdırma (proqnoz) üçün böyük səhvlərdən qaçınmaq və bazar dinamikasına, daxili və xarici bazarda rəqiblərin və tərəfdaşların davranışlarına mümkün alternativləri qiymətləndirmək lazımdır [4].

Aşağıdakı proqnoz dövrləri var:

- əməliyyat proqnozu (rüblük);
- qısamüddətli proqnoz (1 ilə qədər);
- orta müddətli proqnoz (5 ilə qədər);
- uzunmüddətli proqnoz (20 ilə qədər);
- uzunmüddətli proqnoz (20 ildən çox).

Strateji proqramlaşdırma (proqramlar), bir qayda olaraq, yaxın gələcəkdə qarşıya qoyulan məqsədə çatmağı təmin etmək üçün (3 ... 5 il) tərtib edilmiş, vaxt, resurslar və icrçılar baxımından razılaşdırılmış tədbirlər sistemini özündə cəmləşdirən, məqsədli bir direktiv sənəddir. Üstəlik, məqsədə çatmaq üçün lazım olan maddi və əmək, maliyyə və məlumat resursları xərclər toplusu olaraq başa düşülür.

Proqram, müxtəlif fəaliyyətlər kompleksinin qruplaşdırıldığı bir məqsəddir.Bazar iqtisadiyyatı daim dəyişir, proqram da daim düzəldilir və təkmilləşdirilir.

Strateji dizayn (planların layihələri), strateji planların layihələrini hazırlamağa yönəlmiş strateji planlaşdırma prosedurlarının son mərhələsidir. Strateji plan layihəsi müvafiq davranış strategiyasının həyata keçirilməsinə dair qərarların idarəetmə layihəsidir .

Müəssisənin (firmanın) fəaliyyətinin planlaşdırılması prosesində əhəmiyyətlilik dərəcəsindən asılı olaraq planlaşdırma növlərə bölünür. Bu şəraitdə müəssisənin planlaşdırılması iki əsas növə bölünür:

- strateji;
- əməliyyat.

Müəssisənin (firmanın) planlaşdırılması prosesini iki əsas mərhələyə bölmək olar:

- şirkətin strategiyasının hazırlanması (strateji planlaşdırma);
- hazırlanmış strategiyanın həyata keçirilməsi üçün taktikaların müəyyən edilməsi (əməliyyat, yəni taktiki planlaşdırma)."Strategiya" anlayışı yunan mənşəlidir. Başlanğıcda hərbi əhəmiyyətə malik idi və qələbəyə çatmağın doğru yollarını tapmaq üçün "general sənəti" mənasını verirdi. Şirkətin strategiyası, əsas məqsədlərinin və onlara çatmağın əsas yollarının toplusudur. Firmanın hərəkətləri üçün bir strategiya hazırlamaq, fəaliyyətinin əsas istiqamətlərini müəyyən etmək deməkdir.

Taktiki planlaşdırma, strateji hədəflərə çatmaq üçün firmanın qaynaqlarının bölüşdürülməsi ilə bağlı qərarlar qəbul etməkdir.

Planlaşdırma prosesi mürəkkəb və müxtəlifdir. Bölünmüş planlar sisteminin mürəkkəb mahiyyətini müəyyən edət elementlər aşağıdakılardır:

1) strateji plan - bir müəssisənin (firmanın) 5 illik ümumi planı və strateji planın davamı olaraq tərtib edilmiş ümumi planları;

2) fərdi iş bölmələrinin strateji planları müəssisənin (firmanın) quruluşuna;

3) əməliyyat planları.

Bazar şəraitində hər bir müəssisənin (firmanın) fəaliyyətinin səmərəliliyi əsasən bazar vəziyyəti ilə müəyyən edilir. Tam olaraq müəssisələrin yaşaması və inkişafı ilk növbədə ondan asılıdır.

Müəssisənin aparıcı bazar tələblərinə uyğun gəlməməsi 2 qrup səbəbdən yaranan itkilər aiddir:

- cari;
- strateji.

Cari səbəblərə istehsal olunan məhsullar (xidmətlər) bazarına istehsalın iqtisadi səmərəliliyinin azalmasına və təşviqinə təsir edən səbəblər daxildir. İlk növbədə bunlar pis reklam, istehsal imkanlarından tam istifadə edilməməsi, məhsulun keyfiyyətinin aşağı düşməsi və s. nəticəsində baş verir.

Strateji səbəblərə təşkilatın məqsədlərinə çatmasına təsir edən səbəblər daxildir. Bu səbəblərə tələbin miqdarını təyin edərkən, məhsul (xidmət) xüsusiyyətlərinin seçilməsində səhvlər, tərəfdaşların və rəqiblərin mümkün davranışına yanlış seçilmiş reaksiya və s. aiddir.

Mövcud səbəblər əməliyyat tədbirləri ilə aradan qaldırılır, müəssisənin məqsədlərində düzəliş və ya dəyişiklik, diversifikasiyanın həyata keçirilməsi və s. dəyişikliklərlə aradan qaldırıla bilər [2].

Əgər firmanın yaşaması prosesi mövcud səbəblərin vaxtında aradan qaldırılması ilə müəyyən edilə bilərsə, onda onun inkişafı prosesi bazar vəziyyətindəki dəyişikliklərin tələbləri və meylləri nəzərə alınmaqla gələcəyə doğru istiqamətləndirmə ilə müəyyən edilir. Bunun üçün mövcud vəziyyətin ətraflı təhlili tələb olunur və firmanın imkanları, rəhbərliyinin inkişaf istiqamətlərini düzgün müəyyənləşdirmək, uzunmüddətli hədəfləri (meyarlar), onlara çatmağın yollarını və metodlarını əsaslandırmaq bacarığı, strateji planlaşdırmanın mahiyyəti olan, mütərəqqi inkişafını təmin edir.

Müəssisənin fəaliyyətinin planlaşdırılması iki hissədən ibarətdir :

- strateji planlaşdırma;
- marketinq planlaşdırması

Müəssisələr (firmalar) bu fəaliyyət növünün əsasını "iş portfelinin" təhlilinə əsaslanan strateji planlaşdırma təşkil edir.

İstehsal bir neçə çeşid qrupunu, bir neçə əmtəəni, markanı və bazarı ehtiva edirsə, bu mövqelərin hər biri üçün ayrı bir plan (marketinq planı) hazırlanır. Marketinq planına daxildir:

- istehsal planı;
- məhsulun həyat dövrü ilə müəyyən edilmiş buraxılış planı;
- məhsula olan tələbatla müəyyən edilən bazar fəaliyyət planı.

Bir marketinq planı tərtib edərkən məhsulun həyat dövrünə olan ciddi maraq aşağıdakı səbəblərlə əsaslandırılır:

- bazar münasibətlərinə keçid və malların çeşidlərinin və onların modifikasiyalarının artması ilə malların ömrü qısalır;
- rəqabətin inkişafı məhsulların yenilənmə ehtiyacını əvvəlcədən müəyyənləşdirir və yeni məhsulların tətbiqi artan investisiyalar tələb edir;
- məhsulun həyat dövrü təhlili marketoloqa cəmiyyətin zövqündə dəyişikliklərin olacağını qabaqcadan görməyə imkan verir.

Beləliklə, yeni bir məhsulun buraxılması və tətbiqi aşağıdakıları nəzərdə tutur:

- onun dəyişdirilməsi;
- istehlakçının əhəmiyyətli hesab etdiyi yeniliklər.

Bildiyiniz kimi, bu problemi həll etmək üçün investisiyalar lazımdır, yəni investorların cəlb edilməsi. İnvestorları cəlb etmək üçün daimi bir sənəd olan "iş planı" hazırlanır, ona dəyişiklik edilir, həm müəssisə daxilində, həm də və xarici mühitdə dəyişikliklərlə əlaqəli əlavələr olunur.

Ümumiyyətlə, hər bir müəssisənin strateji planlaşdırılması, ətraf mühit şəraiti nəzərə alınmaqla daim dəyişən bir şəraitdə müəssisənin (firmanın) uzunmüddətli məqsədlərinə çatmasını təmin edən istehsal fəaliyyətinin əsas istiqamətlərinin, texnika və metodların seçilməsindən ibarətdir.

Müəssisənin (firmanın) strateji planlaşdırılması özündə müəssisənin (firmanın) inkişafının üstünlük verilən istiqamətlərini və traektoriyalarını təyin etmək, qurmaq kimi funksiyaları birləşdirir [5].

Başqa sözlə, təşkilat, hədəflərin inkişafına əsaslanaraq ortaya çıxan imkanlara və strateji hədəflərə uyğunlaşdırılmalıdı. Bu baxımdan, operativ planlaşdırma strateji planlaşdırmanın konkretləşdirilməsinin davamıdır və mövcud strategiyalar çərçivəsində həyata keçirilir.

Strateji planlaşdırma həyatda qalma anlayışıdır və müəyyən şərtlərdə müəssisənin (firmanın) inkişafının necə olması gələcəkdə bir müəssisə (firma) olmaq, hansı mühitdə fəaliyyət göstərmək, hansı payı və strategiyanı götürmək, hansı rəqabət üstünlüklərinə sahib olmalı və müəssisədə hansı dəyişikliklər edilməlidir barədə konkret fikir yürütməyə imkan verir.

Strateji planlaşdırma anlayışına əsaslanaraq müəssisənin potensialını və inkişaf strategiyasını müəyyənləşdirmək lazımdır. Bir təşkilatın potensialı ümumiyyətlə məhsul istehsal etmək (xidmət göstərmək) üçün sərəncamında olan istehsal amillərinin (resursları) məcmusu kimi başa düşülür.

İstehsal amillərinə aşağıdakılar daxildir:

- kapital;
- Yer;
- əmək;

- sahibkarlıq qabiliyyəti

Bir təşkilatın potensialına həm xarici, həm də potensialın ehtimal xarakterini, həm mənbələrin, həm də faktorların müxtəlif birləşmələri nəticəsində yaranan böyük dəyişkənliyini müəyyən edən daxili faktorlar daxildir. Potensial istifadə strategiyadan asılıdır. Müəssisələrin əsas prinsipi "satıla bilənləri istehsal etmək" olan bir məqsəddən ibarətdir.

Müəssisənin (firmanın) planlaşdırılması prosesinin bütün mərhələləri iki əsas mərhələyə bölünəür:

1) firmanın fəaliyyəti və ya strateji strategiyasının hazırlanması planlaşdırma;

2) hazırlanmış strategiyanın həyata keçirilməsi üçün taktikaların müəyyən edilməsi və ya taktiki planlaşdırma.

Şirkətin strategiyası bütün əsas məqsədlərə çatmaq yolları məcmusudur.

Şirkətin əsas istiqamətlərininin müəyyənləşdirməsi strategiyanın inkişafı prosesi deməkdir. Taktiki planlaşdırma, firmanın inkişafının strateji məqsədlərinə çatmaq üçün resursların ayrılmasına dair qərarlar qəbul etməkdir. Məqsədlər iyerarxiyasında mənfəət lider mövqe tutur.

Hər bir dövlət kimi Azərbaycan iqtisadiyyatının inkişafı prosesi də dövlətin müdaxiləsinə ehtiyac olduğunu göstərdi.

İqtisadiyyatın dövlət tənzimlənməsinin əsas məqsədi milli iqtisadiyyatın sabitliyini və inkişaf tempini təmin etmək üçün dövlətin məqsədyönlü fəaliyyəti kimi onun bərpası, sərbəst əmtəə istehsalçılarının normal işləməsi üçün onlara zəmanət verir.

Bildiyiniz kimi, onun əsas formaları bunlardır:

- hüquq normaları;
- fiskal qollar (mexanizmlər);
- pul alətləri;
- strateji planlaşdırma.

Nəticə

Dövlət tənzimləməsinin ən vacib vasitəsi, ilk növbədə xarici ölkələrin təcrübəsinin göstərdiyi kimi, strateji planlaşdırmadır.

Dövlət tənzimlənməsi aşağıdakılara mkan verir:

- müəyyən bir zamanda iqtisadiyyatın vəziyyəti və sosial problemlərin həll səviyyəsi haqqında təsəvvür əldə etmək;
- gələcəyə doğru inkişafın müasir tendensiyalarını layihələşdirmək iqtisadi və sosial əlaqələr;
- çatmalı olduğu strateji hədəfləri təsvir etmək, idarəetmə mövzularına can atmaq;
- qoyulan məqsədləri bütün növlərin həcmi və quruluşu ilə əlaqələndirmək mənbələri;
- vacib iqtisadi və sosial proqramların həlli üçün bütün dövlət və regional proqramları əlaqələndirmək;
- strateji məqsədlərə çatma mexanizminə fiskal və pul alətlərinin hərtərəfli, koordinasiyalı daxil edilməsini təmin etmək;
- daxili və xarici bazarlardakı vəziyyət və gələcəkdəki tendensiyalar haqqında təsəvvür əldə etmək.

Ədəbiyyat

1. Kərimov X.Z. Strateji menecment. Dərs vəsaiti. Bakı, «Təhsil» NPM, 208, 440 s.

2. İsmayılov S.F. Müəssisənin diversifikasiya strategiyası. // Azərbaycanın Vergi Xəbərləri. №6. Bakı, 2011, s. 61-72.

3. Ансофф И. Стратегическое управление: пер с англ/Научн ред.Л.И. Евенко. -М:, Экономика, 1989-519с.

4. Акмаева Р.И. Стратегическая планирование и стратегический менеджмент. Учебное пособие. М.: Финансы и статистика, 2006, 208 с.

5. Балабанов И.Т. Анализ и планирование финансов хозяйствующего субъекта. М., Финансы и статистика, 1994, 130 с.

B.H.Shirinov Ph.D., Senior Lecturer
Azerbaijan Architecture and Construction University
State Regulation Of Strategic Planning In Azerbaijan

Summary

The article examines the essence of strategic planning, the main types of management activities in the strategic planning process, periods of strategic forecasting, types of planning depending on the degree of importance, state regulation of strategic planning in Azerbaijan.

Keywords: Strategy, strategic planning, strategic forecasting, strategic planning, tactical planning, operational planning.

СОВРЕМЕННЫЕ ПРОБЛЕМЫ АЛЮМИНИЕВОЙ ПРОМЫШЛЕННОСТИ АЗЕРБАЙДЖАНА

Зейналова Нурай Сократ кызы, Диссертант
Научно-исследовательский и учебный
Центр труда и социальных проблем
zeynalova.nuray2017@yandex.ru

На сегодня проблемы алюминиевой промышленности Азербайджана связаны прежде всего с проблемами внутреннего рынка. Прежде всего - это подъем экономики страны и материального благосостояния ее граждан. Второй фактор - развитие отраслей основных потребителей алюминия как количественно, так и качественно. Внедрение новых технологий, в том числе энергосберегающих, которые обеспечат более емкое потребление алюминия на единицу продукции. Это увеличение потребления алюминия на транспорте на единицу транспортного средства, увеличение потребления отечественных алюминиевых упаковочных материалов в пищевой промышленности, медицинской, табачной. Например, в одном российском автомобиле в среднем около 40 кг алюминия, в то время как в США, Японии и ЕС - 90-70 кг [1,2]. Это создание новых производств в электротехническом машиностроении, развитие электроэнергетики и ее коммуникаций, расширение применения в строительстве алюминиевых конструкций. Исходя из этого необходимо сконцентрировать внимание на решении задач развития отрасли на национальном рынке Азербайджана.

В Азербайджане стимулирование развития алюминиевого направления предполагает решение 2 проблем.

Изначально первая проблема - это расходы на грузоперевозки. Данная статья затрат существенна для алюминиевых предприятий, и она постоянно увеличивается. При таких условиях фирмам непросто развиваться, и помочь может лишь страна. Она легко сдерживает увеличение тарифов на электроэнергию и грузоперевозки. Важно участие регулирующих органов в таком вопросе, ведь повышение тарифов «Азеренержи» способно негативно отразиться на развитии определенных направлений: алюминиевых, добывающих и прочих, а ведь они – основные доходные статьи местного бюджета Азербайджана.

Иная проблема кроется в сырье, так как залежи бокситов, выступающих основным сырьем описываемой промышленности, ограничены. В кризисные моменты стоимость алюминия опускается ниже необходимого уровня – до 1,2 тысячи долларов за тонну, тогда производители не способны покрыть расходы на электроэнергию и работают в убыток.

В такие моменты большинство компаний стараются объединиться, чтобы сократить траты на электроэнергию. Более того, часть из них переносят производство в районы добычи глинозема, а еще в государства с недорогой рабочей силой и минимальной стоимостью электроэнергии.

Из-за того, что восстановление алюминия из глинозема благодаря электролизу крайне непростой процесс, многие вертикально интегрированные фирмы нарабатывают личную

электроэнергию. Доступность и ценовую политику электроэнергии определяют, как одну из тенденций, описывающих промышленность в целом.

В 2008-2009 годах в связи с кризисом алюминиевой сферы, наиболее пострадал Азербайджан. Не считая стабильно минимальной стоимости и слабого увеличения спроса на алюминий в государстве, местные производства испытали колоссальное давление, в частности от поставщиков электроэнергии. Завышенные тарифы спровоцировали то, что уровень затрат на электроэнергию в себестоимости столь энергоемкого процесса достигает почти 35%.

Около 10 лет назад в Азербайджане стартовала реформа электроэнергетики, но она провалилась, из-за чего поднялись тарифы, особенно для промышленных потребителей, появились сложности у многих энергоемких отраслей. Ныне ценовая политика газа для промышленных потребителей в Азербайджане практически в 10 раз превосходит американские цены [3].

Еще в нашей стране малоразвит внутренний рынок использования алюминия. Практически 80% выпускаемого материала “Azeralumiy MMC” поставляет в иные государства. Если провести сравнительную параллель, представитель США – компания Alcoa, располагает колоссальной поддержкой на внутреннем рынке, там же продает большую часть собственного легкого металла и товаров, сделанных из него.

Заключение

Чтобы разрешить проблемы алюминиевой отрасли, необходимы оправданные системные меры на государственном уровне, направленные на минимизацию энергетических и автомобильных тарифов для больших промышленных потребителей. Плюс, в условиях минимальной ценовой политики алюминия и кризиса перепроизводства, важна господдержка во время закрытия, также реформирования убыточных производств. Естественно, была бы уместной поддержка страны в реструктуризации повышенной кредитной нагрузки, испытываемой разными производителями.

Как показало исследование, азербайджанская алюминиевая отрасль имеет специфические проблемы. Изначально необходимо отметить незавершенности интеграционного процесса по вертикально-технологическому принципу. Присутствует своеобразный сырьевой дефицит, ведь 60% глинозема приходится на импорт с мировых просторов. Также заметен низкий уровень задействования вторичных ресурсов материала в выпуске местных алюминиевых сплавов, разных изделий. Немаловажно, на наш взгляд, реструктурировать научно-исследовательскую работу, гарантирующую модернизацию и развитие производств в этом направлении.

Литература

1. Хиревич Э. Ю., Руйга И.Р. Роль государства в развитии алюминиевой промышленности: зарубежный опыт, отечественная практика // Научно-методический электронный журнал «Концепт». – 2015. – Т. 13. – С. 3266–3270. [Электронный ресурс].: http://e-koncept.ru/2015/85654.htm

2. Меры по регулированию рынка российского алюминия. [Электронный ресурс]: http://gossmi.ru/page/gos1_342.htm (дата обращения: 15.04.2016)

3. http://www.world-aluminium.org/statistics/#map

NEFT-QAZ RESURSLARINDAN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ

AZƏRBAYCAN İQTİSADİYYATININ FORMALAŞMASI VƏ İNKİŞAFINDA NEFT-QAZ RESURSLARININ ROLU VƏ ƏHƏMİYYƏTİ

Hacızadə Elşən Mahmud oğlu
Azərbaycan Dövlət İqtisad Universiteti "Enerji iqtisadiyyatı mərkəzi"nin rəhbəri
İqtisad elmləri doktoru, professor
elshan@hajizada.com
ORCID ID: 0000-0001-5447-9676

Xülasə

Neft-qaz resurslarının multiplikativ effektlərinin iqtisadiyyatların formalaşması, inkişafı və yeni kapitalların yaranmasında rolu və əhəmiyyəti daim yüksək olmuşdur. Həmin reallıq ənənəvi olaraq bol neft-qaz resursalarına malik Azərbaycan Respublikası üçün də eyni dəyər daşımaqdadır. Bu baxımdan da məqalədə Azərbaycan iqtisadiyyatının formalaşması və inkişafında neft-qaz resurslarının rolu və əhəmiyyəti tədqiqat predmetinə çevrilmişdir. Aparılan təhlillərlə bir daha əsaslandırılmışdır ki, əvvəllər olduğu kimi yaxın və orta perspektivdə də respublikanın neft-qaz sərvətləri onun iqtisadi və sosial həyatında mühüm əhəmiyyət kəsb edəcək və o öz investisiyalaşdırıcı rolunu uzun müddət qoruyub saxlayacaqdır.

Açar sözlər: *Azərbaycan Respublikası, neft, qaz, neft strategiyası, iqtisadi artım*

1.Giriş

Azərbaycan iqtisadiyyatının formalaşması və inkişafında neft-qaz resurslarının əhəmiyyəti daim yüksək olmuşdur. Məhz neft qaz resursları ölkənin sənaye potensialının erkən təşəkkülündə həlledici rol oynamışdır. Bu təbii sərvətlərin bolluğu və ondan istifadənin genişlənməsi ilə Azərbaycan iqtisadiyyatının aqrar xarakterliyi müəyyən qədər məhdudlaşmış və o sənayeyönümlü oriyentasiyada inkişaf yoluna qədəm qoymuşdur. Bu proses son iki əsrdə mərhələli şəkildə irəliləyiş taparaq yeni milli potensiallar yaratmış, xalqın sosial həyatında və mədəni inkişafında əsas amillərdən birinə çevrilmişdir. Hazırda da bu realıq öz möhtəşəm gücünü itirməmişdir. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu və respublika prezidenti İlham Əliyev tərəfindən reallaşdırılan milli neft strategiyası ilə neft-qaz resurslarının iqtisadiyyatın inkişafında dəyəri daha da artmışdır. Bu resursların reallaşmasından əldə edilən gəlirlər hesabına ölkədə yeni iqtisadi quruculuq işlərinə başlanılmış, proqramlar, konsepsiyalar hazırlanmış, minlərlə layihələr icra edilmiş və ölkə yeni inkişaf yoluna qədəm qoymuşdur.

Neft-qaz resurslarının multiplikativ effekti indi də tükənməmişdir. Ölkədə neft-qaz ehtiyatlarına dair bağlanmış sazişlərin həyata keçirilməsi ilə əlaqədar əldə olunan gəlirlərin toplanmasını, səmərəli idarəedilməsini, gələcək nəsillər üçün saxlanmasını təmin edən xüsusi məqsədli dövlət qurumu Azərbaycan Respublikasının Dövlət Neft Fondu - ARDNF təsis edilmişdir. Bu fond vasitəsi ilə bir sıra inkişaf proqramları davamlı olaraq maliyyələşdirilir və iqtisadi inkişaf təmin edilir. Bütün bunlardan irəli gələrək, məqalədə Azərbaycan iqtisadiyyatının formalaşmasında olduğu kimi, hazırkı və gələcək inkişafı prosesində də neft-qaz resurslarının əhəmiyyəti və rolu təhlil predmetinə çevrilir.

2.Neftdən erkən təsərrüfat həyatında istifadə: tarixi rakurs və retrospektiv təhlil

Hələ qədim zamanlardan Azərbaycan xalqının təsərrüfat və sosial həyatında karbohidrogen resurslarından istifadə mühüm rol oynamışdır. Burada min illər davam edən hasilat yalnız dünya iqtisadiyyatına deyil, həm də bütövlükdə neft təsərrüfatı salnaməsinə misilsiz töhfələr vermişdir. Belə ki, neft tarixi ilə bağlı elə bir yaranış tapmaq çətindir ki, orada Azərbaycanın adına rast gəlinməsin. Azərbaycanın "odlar yurdu" mənasını daşıyan adlanışı da, heç şübhəsiz ki, bu coğrafiyada yerin təkindən özbaşına çıxan təbii yanar qazların və enerji effektli mövcud neftli ərazilərin genişliyindən qaynaqlanmışdır. Bu ərazilərdə min illlər ərzində neftin çıxarılması və təsərrüfatda işlənməsi davam etsə də, ondan daha geniş istifadə orta əsrlərə təsadüf etmişdir. Çoxsaylı əlyazmalarda XVI əsrdə Bakı-Abşeron ərazisində 500-dən çox quyunun mövcudluğunu təsdiqləyən, hasil olunan neftin, karvanlardan savayı, hətta gəmilərlə daşınmasını diqqətə gətirən

məlumatlar vardır. Bakının Balaxanı kəndindəki mədənlərdə aşkarlanan köhnə neft quyusu ətrafındakı daş kitabədə onun dərinliyinin 64 metr olduğu və 1594-cü ildə usta Allahyar Məhəmmədnur oğlu tərəfindən inşa edildiyi göstərilir. Bu isə o demək idi ki, artıq həmin zamanlarda neft quyusunun qazılması sənətkarlıq səviyyəsinə yüksəlmiş, neftin istehlakı isə intensiv xarakter almışdı. Bu zamanlarda neft tikintidə və həmçinin də fiskal mexanizm kimi xəzinədarlıqda tətbiqini tapmışdır. XIV əsrdə inşa edilən Bakı Cümə məscidinin minarəsinin divarlarında əks olunan yazılar bu mövcudluğa aydınlığı ilə görüntü verir [3, 11, s. 57, s. 78.].

XVII əsrdən başlayaraq neft artıq özünün əhəmiyyətini və şöhrətini daha da möhkəmləndirir. O, xarici ticarət əlaqələrinin genişlənməsində mühüm əmtəəyə çevrilir. Təbii ki, həmin zamanlarda neftin qlobal və regional çevrədə topdansatış bazarı da, alternativləri olmadan Bakıda yerləşmişdi. Bu bazar öncə region ölkələrinin neftə yaranmış tələblərini ödəməkdə idi. Sonradan neft maraq dairəsini genişləndirərək, Hind-Çindən Avropanın Atlantik okean sərhədlərinə qədər ticarət zonasını əhatə etdi [26].

XIX əsrin əvvəllərində Azərbaycanı işğal edən ruslar neft sərvətləri də daxil olmaqla onun resurslarının mənimsənilməsi iqstiqamətində bir sıra çalışmalar yerinə yetirdi. İlk əvvəl rus kapitalına və yerli tacirlərin əmlakına istinad edən feodal ənənələrinə müvafiq kənd təsərrüfatı, balıqçılıq, sənətkarlıq və ticarət sərmayə obyekti seçildi. Sonradan neftin baş verən ilk sənaye inqilabının əsas generasiya mənbəyinə çevrilişi başlanan fəaliyyət istiqamətinin bu sərvətdən geniş faydalanmağa yönəlməsi ilə nəticələndi [12]. Kənd təsərrüfatına tətbiq edilməyən məhdudiyyətlər neft biznesində intişar tapdı. Torpaqlar əksərən milliləşdirildi, neftli ərazilər hasilatçılara 4 illik müddətdə icarəyə verildi. Sonradan tətbiq edilən bu iltizam sistemi artan neft tələbatını ödəməkdə başlıca iqtisadi maneəyə çevrildi və imperiya xəzinəsinə kapital axını üçün müvəffəq sayılmadı. Səbəb ondan ibarətdir ki, qısamüddətli kirayəçilik qazma və hasilat işində sərmayə qoyuluşuna, texniki təkmilləşməyə əngəllər törədirdi. Şərhi verilən bu tarixi hadisələr vurğulandığı kimi XIX yüzilliyin ilk onilliklərinin bitməsi ərəfəsində Avroatlantik məkanda sivilizasiyanın industrial simasının təşəkkül tapma zamanlarına təsadüf etmişdir. Sənaye inqilabı 1846-cı ildə Azərbaycanda dünyanın ilk mexaniki üsulla neft quyusunun qazılmasına rəvac verdi. Bununla yanaşı, hasilatda dərinlik nasoslarının tətbiqinə başlanıldı. 1859-cu ildə Bakıda ilk neftayırma zavodu tikildi, 1871-ci ildə isə ilk dəfə yatağın sənaye üsulu ilə işlənməsinə (*Balaxanı-Sabunçu-Ramanı*) başlanıldı. 1878-ci ildə Balaxanı yatağı ilə Bakı neftayırma zavodu arasında 12 km uzunluqda ilk neft kəməri inşa olundu [9, 11, s 79, 26].

XIX əsrin ikinci yarısında Rusiya iqtisadiyyatında artıq yüksək inkişaf templəri sürət alırdı. Statistik məlumatlara əsasən, 1860-1900-cu illər ərzində burada sənaye mallarının istehsalı 7 dəfə artmışdır. Analoji artım müvafiq olaraq Almaniyada 5, İngiltərədə isə 2 dəfədən bir qədər çox olmuşdur. Canlanma və tərəqqi ölkə iqtisadiyyatının digər sahələrində də özünü biruzə vermişdir. Elə bu çağlarda Rusiya imperatorluğuna qatılmış ucqar Bakı regionunda neft fontanları yeni gerçəkliklər və sarsıntılar yaratmaqda idi. Neft kapitallaşaraq yeni maraqlar və tələblər doğurmuşdu. Getdikcə strateji əhəmiyyət kəsb edən neftə tələbin durmadan artması Rusiyada bu sahədə əsaslı islahatların aparılmasını gündəmə gətirdi. Rusiya hökuməti neft sənayesində sərmayə axınını gücləndirən, dirçəlişi təmin edən ardıcıl iqtisadi siyasi kurs qəbul etdi. Əsas strateji xətt kimi neft mədənlərinin özəlləşdirilməsi müəyyən olundu. 1872-ci ildə bu işdə məhdudlaşdırıcı amilə çevrilmiş iltizam sisteminin ləğvi ilə nəticələndi. Həmin ilin son günündə keçirilən hərraclarda neftli torpaq sahələri özəl əllərə verildi və neft işinə güclü investisiya axını, xüsusən də, xarici kapitalın cəlb edilməsi prosesi başlandı [18, 18, 26].

Belə bir fakt maraq doğurmaya bilməz ki, 1872-ci ildə Rusiyada hasil olunan 27 min ton neftin 26 min tonunu Bakı, qalan hissəsini isə Qroznı və Krasnodar yataqları vermişdi. Çar hökuməti dağ-mədən sənayesində təhkimçi əməyinin tətbiqini qadağan etdikdən sonra XIX əsrin 70-90-cı illərində Bakıda neft hasilatında ciddi yüksəlişlər əldə olundu və Bakıda neft bumu dairəsini daha da genişləndirdi. İnkişaf o qədər sürətlə gedirdi ki, artıq 1879-cu ildə Abşeronda əl ilə quyu qazılması tətbiq olunmurdu. Yeni iqtisadi imkanlar Azərbaycanda quyuların sayının 1872-1901-ci illərdə 1740-a çatmasına, orta quyu dərinliyinin yüzmetrləri aşan silsiləyə, hasilatın 62,3 mindən 10,7 milyon tona qədər yüksəlməsinə təkan vermişdir. Bu zaman kəşfiyyat-axtarış, işləmə

və hasilat sferasında artıq spesifik şirkətlər - “H.Z.Tağıyev”, “Nobel qardaşları” və sair təşəkkül tapmış, ilk dəfə olaraq azərbaycanlı sahibkarlar kapital dünyasında avtoritet zirvəyə yüksələrək xaricdə böyük daşınmaz əmlaka, dünya banklarında yetərli hesablara malik olan neftxudalara - iri neft boslarına çevrilmişlər.

Artıq XIX əsrin 80-ci illərində neftə olan ehtiyac daha da artmış, 1873-cü ildə fəaliyyət göstərən daxili və xarici şirkətlərin sayı 1913-cü ildə 12-dən 182-yə yüksəlmişdir. Bu dövrlər həm də Bakı neftinin istismarı sahəsində əlverişli şərait yaranışı ilə də fərqlənmişdir. Belə ki, burada hər qazılan quyu fontanla nəticələnirdi. İşçi qüvvəsi də olduqca ucuz idi. Mövcud iqtisadi əlverişli mühit bir çox xarici şirkətlərin və sahibkarların sürətlə varlanmasına səbəb olumuşdur [4].

Xüsusi ilə vurğulamaq lazımdır ki, neft sənayesi və onunla əlaqədar sahələrin inkişafı Bakının özünün güclü inkişafına səbəb olmuşdur. XIX və XX əsrlərin qovşağında Bakı Avropanın neft industriyasının mərkəzi şəhərinə çevrilmişdi. Əhalinin artım sürətinə görə Bakı o dövrdə dünya şəhərləri içərisində birinci yeri tuturdu. Bolşeviklərin rəhbəri Vladimir Leninin “Neftin demək olar ki, hamısı Bakı quberniyasında hasil edilir, buna görə də Bakı şəhəri əhəmiyyətsiz bir şəhər ikən dönüb Rusiyada 112 min əhalisi olan birinci dərəcəli sənaye mərkəzinə çevrilmişdir” söyləməsi sürətli yüksəlişi təsdiq edən yetərli ifadədir [3, 11, 14].

Neft və qaz hasilatının artmasına iqtisadi münasibətlərin təkmilləşməsi də böyük təsir etmişdi. Artıq bu illərdə neft sənayesinin infrastrukturunun tam formalaşması reallaşmaqda idi. Bu zaman Bakıda çoxsaylı cəmiyyətlər, ittifaqlar, sindikatlar, müxtəlif zavodlar meydana gəlmişdi. Neft Bakını “Böyük İpək yolu”nun tranzit məkanlığı statusundan çıxararaq onun avtonom logistik imkanlarını qaynaqlandırmışdı. Neft sənayesinin sürətli inkişafı neft və ondan alınan məhsulları istehlak yerlərinə çatdırmaq üçün dəniz nəqliyyatını inkişaf etdirmək zərurəti yaratmışdı və Bakının neft daşınmasında əhəmiyyəti artmışdı. Belə ki, 1859-cu ildə Bakı limanının inşası dəniz nəqliyyatında, xüsusən, neftdaşımada yeni perspektivlər açmışdı [9, s. 25].

XIX əsrin sonunda Azərbaycanın neft potensialı daha da genişləndi. Bakıdan Rusiyadakı əsas istehlakçılar - Moskva, Sankt-Peterburqla yanaşı, Hindistan, Türkiyə, Misir, Çin, Yaponiya və hətta daha uzaqlara - Avstraliyaya da ixrac məhsulları göndərilməyə başlandı. Artıq 1894-cü ildə Azərbaycanda çıxarılan neftin miqdarı ABŞ-dakı səviyyəyə bərabər idi. 1901-ci ildə isə hasilatın həcminə görə Bakı Neft Rayonu liderliyi ələ alaraq dünyada birinci yerə çıxmışdı. Həmin ildə dünyada 20 milyon tondan bir qədər çox neft çıxarılmışdır ki, bunun da yarıdan çoxu Azərbaycanda, Abşeron yarımadasında hasil edilmişdir [2, 20].

XIX əsrin əsrin axırlarında neft sənayesinin güclü inkişafı vaxtı Avropa və Rusiyada sənaye böhranı baş verdi. Baş verən böhran nəticəsində neft bazarının imkanları məhdudlaşdı. Bu da müəyyən qədər hasilatın azalmasına səbəb oldu. Yüksək mənfəət götürmək ehtirası neft yataqlarının vəhşicəsinə istismarı ilə nəticələndi. 1904-cü ildə İngiltərənin ağ neft tələbatının 71,1%-ni Bakı reallaşdırırdı. 1881-ci ildə Bakıda 9,2 milyon, 1900-cu ildə isə 87,9 milyon manatlıq məhsul istehsal olunmuşdu ki, bu da bütün Qafqaz sənaye məhsulu dəyərinin 30%-dən çoxunu təşkil edirdi. Lakin bütün bu keyfiyyətlər qeyd olunan 1900-1903-cü illər dünya iqtisadi böhranı ilə dəyişikliklərə uğradı. Böhranın ilk çağlarında Azərbaycan nefti bir neçə il əvvəl əldə etdiyi dünya neft hasilat birinciliyini yenidən ABŞ-a verdi. Bu proses əksər parametrlərdə düz 75 il ABŞ-ın dünya neft industriyasında ön cəbhədə duruşu mərhələsi ilə müşayiət olundu. O da qaçılmaz faktdır ki, XIX əsrin ortalarından II Dünya Müharibəsinin bitməsinə qədər dünya neft sənayesi ABŞ və Bakı nefti əsasında ikimərkəzli qütbdə inkişaf etmişdir [1, 6].

XIX əsrin əvvələrində artıq Bakı quberniyasında adambaşına sənaye məhsulunun həcmi Tbilisi ilə müqayisədə 30 dəfə, İrəvan quberniyasına nisbətən isə 217 dəfə yüksəkdə idi. Bakının hər 10 min sakinindən 530 nəfər, Tiflisdə 60 nəfər, İrəvanda isə cəmi 5 nəfər iri sənayedə işləyirdi. Bakını daxil etmədən belə, 1908-ci ildə Azərbaycanda 2450 fabrik-zavod müəssisəsində 22943 fəhlə çalışırdı. Tbilisi ilə birgə bütün Gürcüstanda isə 5304 fabrik-zavod müəssisəsi var idi və onlarda 17556 fəhlə işləyirdi. Həmin illərdə Bakıda bank kapitalı ilə neft kapitalının qovuşması prosesi gedirdi və 1913-cü ildə şəhərdə 15 iri bank fəaliyyət göstərirdi [4, s. 36, 6, 26].

1910-1914-cü illərdə Azərbaycanın neft yataqlarını bölgüsü uğrunda ingilis, fransız və alman inhisarçıları arasında mübarizə daha da kəskinləşirdi. İngilis şirkəti “Oyl” “Nobel qardaşları”

şirkətinin çoxlu səhmlərini alaraq onun payını bu bölgüdə azaltmağa cəhd edirdi. I Dünya Müharibəsi ərəfəsində Bakıda 112,6 milyonluq xarici səhmdar kapitalının 48,2%-i ingilislərin, 42,9%-i fransızların, 8,9%-i almanların əlində olmuşdur. O illərin statistikası göstərir ki, 1912-ci ildə Zaqafqaziya fabrik-sənaye məhsulunun 68,5%-i, 1915-ci ildə isə 88,6%-i təkcə Bakının payına düşmüşdür. Elə bu səbəblərlə də o zaman çar Rusiyasının baş naziri Sergey Vitte (*1849-1915*) öncə maliyyə naziri olandan ölkə büdcəsini neft hesabına doldurmağa başlamışdı [11, s. 82].

XX əsrin ilk illərində iqtisadi gərginliklərlə də müşayiət olunan siyasi hadisələrin Azərbaycanın neft sənayesində əksi 1918-ci ildə apogeyə çataraq 1921-ci ilə qədər davam etmişdir. Əsasən, Azərbaycan Xalq Cumhuriyyəti dövrünü əhətə edən bu tarixi mərhələ dünyəvi hadisələrin mühüm tərkib hissəsi kimi, siyasi çaxnaşmalar, iqtisadi təzadlarla müşayiət olunmuşdur. Həmin qısa zaman ərzində ölkə rəhbərliyi iqtisadiyyatda, o cümlədən, neft hasilatında mühüm irəliləyişləri tam təmin etməyə müvəffəq olmamışdır. Bu dövr ərzində vətənsevər insanların tənəzzülə uğramış neft sənayesini dirçəltməyə yönəlmiş cəhdləri də səmərə verməmiş və milli sahibkarlar bolşevizm təzyiqlərindən çəkinərək müəyyən dərəcədə öz konsessiyalarından vaz keçmək məcburiyyətində qalmışlar. Nəhayət, rus-bolşevik qoşunlarının Bakını işğal edərək, Azərbaycanın müstəqil dövlətçiliyini süquta uğratması respublikanın həm siyasi, həm iqtisadi həyatında yeni, uzun bir mərhələnin əsasını qoymuşdur [16, 24, 26].

Sənayeləşmə erasından başlayaraq bolşevik istilalarını əhatə edən tarixi dövr ərzində Azərbaycanda neft hasilatının həcmini mümkün dəqiqliklə ifadə etmək çətindir. Bu tarixi dövr ilk mexaniki üsullu quyunun qazılmasından ADR-in süqutuna qədər 73 illik bir zamanı əhatə edir. Bu tarixin ilk 25 ili, yəni neft statistikasının nisbətən mükəmməlləşdiyi 1872-ci ilə qədərki dövrü ərzində hasilatın dəqiqləşməsi müəyyən hesablamalar tələb edir. Bir sıra tarixi mənbələrdə hasilatla bağlı göstəriciləri təhlil etdikdə bu dövrü əhatə edən hasilat həcminin 200-250 min ton arası tərəddüd etdiyini yəqinləşdirmək olar. Lakin 1872-1920-ci illər tarixi götürüldükdə həmin dövr ərzində Rusiyada hasil olunmuş 282,6 milyon ton neftin 84,0%-nin Azərbaycanda çıxarıldığını müəyyən etmiş olarıq. Bu hesablama Cədvəl 1-in məlumatlarına əsaslanır:

***Cədvəl 1*Azərbaycanda 1872-1920-ci illərdə neft hasilatı** [26]

İllər	**Hasilat** (*min ton*)	**İllər**	**Hasilat** (*min ton*)	**İllər**	**Hasilat** (*min ton*)
1872	26	**1902**	10504	**1918**	3435
1880	343	**1910**	8232	**1919**	3739
1900	9866	**1913**	7669	**1920**	2915
1901	10979	**1917**	6646	**Cəmi**	237 358

Rusiyada "Oktyabr çevrilişi" baş verdikdən və Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra respublikanın neft və qaz sənayesində də yeni mərhələnin başlanğıcı oldu. Azərbaycan İnqilab Komitəsi 1920-ci ilin 24 mayında neft sənayesini milliləşdirmək barədə dekret qəbul etdi. Sovet hakimiyyətinin ilk dövrlərində geoloji-kəşfiyyat və axtarış işləri geniş vüsət aldı, yeni neft yataqları kəşf edildi, yeni "neftçi" şəhər və qəsəbələri salındı, neft sənayesi zavodlarının və yardımçı istehsal sahələrinin geniş infrastrukturu yaradıldı. Bunun nəticəsi idi ki, 1940-cı ildə SSRİ-də neft hasilatının ¾ hissəsi Azərbaycanın payına düşürdü. II Dünya Müharibəsində - 1941-ci ildə Azərbaycanda quruda zirvə nailiyyət - 23451 min ton neft hasil edildi. Ümumilikdə isə II Dünya Müharibəsində Azərbaycan neftinin hasilat həcmi 75 milyon tona bərabər olmuşdur. Bu o zaman SSRİ-də çıxarılan neftin 73,4%-ni təşkil edirdi [2, 6, 15, 23].

Müharibədən sonrakı illərdə keçmiş SSRİ məkanında - Volqaboyunda, Uralda, Sibirdə nəhəng neft və qaz yataqlarının kəşfi, respublikada neftə olan tələbatı azaltdı, Azərbaycanı xüsusi diqqət sferasından çıxartdı. Xəzər dənizində kəşf edilən perspektivli neft-qaz yataqları hasilat balansını dənizin xeyrinə dəyişərək, quruda neftqazçıxarma sənayesinin problemlərini daha da dərinləşdirdi. 1950-1960-cı illərdə dənizdə sürətlə artan hasilat 1964-cü ildən quru sahələrindəki hasilatı arxada

qoydu. 1950-ci illərdə Şirvan şəhərində və Siyəzəndə neft yataqlarının kəşfi quruda hasilatın müəyyən müddət enməsinin qarşısının alınmasına səbəb oldu. 1970-ci ildə dəniz akvatoriyasında geoloji-kəşfiyyat, qazma, istismar işlərinin aparılmasını həyata keçirən "Xəzərdənizneft" İstehsalat Birliyi yaradıldı. Bu işlərin davamı olaraq 1970-1980-ci illərdə Azərbaycana 75 növdə və 400-dən çox ağır yükqaldıran kran gəmisi, boruçəkən, seysmik və digər növ gəmilər gətirildi və nəticədə, 1975-ci ildə neft və qazın ümumi hasilatı şərti yanacaq ekvivalentində 27,1 milyon tona yüksəldi. 1980-ci illərdə respublikaya gətirilən üzən qazma qurğularının sayı 11-ə çatdırıldı, Bakıda nəhəng Dərin Özüllər Zavodu (*indiki Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodu*) inşa olundu. Bütün bunlar isə öz növbəsində dənizin daha dərin sahələrində neft və qazla zəngin olan Azəri, Çıraq, Günəşli və s. kimi yataqların kəşfinə zəmin yaratdı [6, 26].

Azərbaycanın yanacaq sənayesinin tarixindən bəhs edərkən ayrıca onun qaz sənayesinin inkişaf tarixinə diqqət yetirmək lazımdır. Azərbaycanın ərazisində min illər öncə qazın çıxması hadisəsi müşahidə olunmuşdur. Atəşpərəstlərin qədim məskənlərindən birinin də Azərbaycan ərazisi olduğu artıq tarixi faktlarla sübut olunmuşdur və şübhə doğurmur. Orta əsrlərdə Azərbaycana gələn hindistanlı tacirlər Suraxanıda təbii qaz çıxan yanar ərazidə atəşpərəstlik məbədi yaratmışlar ki, bu məbəd sonradan digər atəşpərəst zəvvarların müqəddəs ziyarət yerinə çevrilmişdir. Abşeronda Bibiheybət ərazisində XIX əsrin axırı - XX əsrin əvvəllərində uzun illər dəniz səthində təbii qazın çıxması ilə əlaqədar alışma, yanma hadisəsi müşahidə olunmuşdur. Abşeronda Məhəmmədli kəndinin ərazisində daim yanmaqda davam edən məhşur "Yanar dağ" səthi mövcuddur. Əvvəlki dövrlərdə bu yanacaq, enerji mənbəyinin əhəmiyyəti dərk edilməsə də, artıq XIX əsrin ortalarından təbii qazdan sənayedə, məişətdə istifadə olunmasına başlanmışdır. 1859-cu ildə Suraxanıda kiçik olmayan zavodda buxar əldə etmək üçün təbii qazdan yanacaq kimi istifadə olunmuşdur. 1902-ci ildə Suraxanıda qazılan quyu qaz fontanı yaratmış, sutkalıq debiti 57 min m^3 olan bu quyu ilk qaz nəqletmə sisteminin yaranmasına səbəb olmuşdur. 1920-1921-ci illərdə hasilatın artması ilə əlaqədar Azərbaycanda 34 milyon m^3 qaz hasil edilmişdi. 1931-ci ildə artıq yaşayış massivlərinin 90-95%-i Bakı şəhərində qaz ilə qızdırılırdı. Qaz sənayesinin sürətli inkişafı ilə əlaqədar artıq 1950-60-cı illərdə respublikanın, əsasən, sənaye, kommunal təsərrüfatı, elektrik stansiyaları bu enerji növündən istifadə sisteminə keçmiş və bu, iqtisadiyyatın bütün digər sahələrinin inkişafına öz təsirini göstərmişdir. 1969-cu ildə quruda rekord miqdarda - 12,9 milyard m^3 qaz hasil olunmuşdur [11, s. 85., 26].

3.Milli neft strategiyası - Yeni epoxial mərhələ

Bir geçəklikdir ki, Azərbaycanda dövlət müstəqilliyi bərpa edildikdən sonra keçid dövrünün tələblərinə ən davamlı sahə kimi məhz neft-qaz sektoru fərqlənmişdir. Bu, həm də ondan irəli gəlmişdir ki, bütün tarix ərzində ilk dəfə olaraq neft-qaz sərvətlərinin xalqa məxsusluğu təmin olunmuş və neft-qaz sənayesini milli dövlət mənafeləri baxımından inkişaf etdirilməsi üçün real əlverişli şərait yaranmışdır. Bununla yanaşı, yeni geosiyasi situasiya Azərbaycanın Xəzər sektorunda XX əsrin son onilliklərində aşkarlanmış nəhəng karbohidrogen yataqlarının beynəlxalq əməkdaşlıq çərçivəsində aktiv işlənməsinə də əsaslı zəmin olmuşdur. Bütün bu gerçəkliklər fonunda ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında ölkənin milli neft strategiyası formalaşdırılmışdır. Praktiki müstəvidə "Əsrin müqaviləsi"ndən start götürən milli neft strategiyası multiplikativ effektdə Prezident İlham Əliyevin əzmkar fəaliyyəti ilə aparılan miqyaslı islahatlarla daha təkmil məcraya yönəlmiş, çoxsaylı beynəlxalq neft kontraktının bağlanışı ilə respublikaya nəhəng investisiya axınının gətirilməsini, transmilli neft-qaz ixrac boru kəmərlərinin inşasını, yeni yanacaq-enerji infrastrukturu quruculuğunun, sosial-iqtisadi inkişafa əlavə stimullar verən milli neft fondunun yaradılmasını təmin etmişdir. İndi bu sərvətlərdən daha səmərəli istifadə ümumi milli inkişaf strategiyasının ən mühüm prioritetlərindən birini təşkil edir [7, 17, 22, 25].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Yeni Əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciət"ində demişdir: "Azərbaycan xalqının da azadlıq və müstəqillik uğrunda mübarizəsində öz təbii sərvətlərinin sahibi olmaq arzusu əsas məqsədlərdən biri idi. Bu gün iftixar hissi ilə deyə bilərik ki, Azərbaycan xalqı uzun illər boyu ürəyində gəzdirdiyi arzusuna çatmışdır və öz təbii sərvətlərinin, o cümlədən neftinin tam sahibidir və ondan necə istifadə olunmasını sərbəst surətdə müəyyən edir. Müstəqil Azərbaycanın neft strategiyasını ardıcıl həyata

keçirərək biz böyük uğurlara nail olmuşuq. Gələcəkdə isə bu uğurlar daha da artacaqdır" [25, 26].

Azərbaycan ərazisinin $^{2}/_{3}$ hissəsi neft və qaz yataqları ilə zəngindir. Ən çox neft və qaz yataqları Abşeron yarımadasında, Xəzər dənizinin şelf zonasında, Bakı və Abşeron arxipelaqlarında yerləşir. Bundan başqa, cənub-şərqi Şirvan, Mərkəzi Aran, Qobustan, Ceyrançöl, Acınohur, Siyəzən zonası da neftlə zəngindir. Hazırda ölkə ərazisində 8 neftli-qazlı və 2 perspektivli rayon mövcuddur. Azərbaycan ərazisində 81 neft-qaz yatağı aşkar edilmişdir ki, onların da 61-dən karbohidrogen hasil olunur. Ölkənin hazırda təsdiq edilmiş, dəqiqləşdirilmiş neft ehtiyatları 1,5 milyard ton, proqnoz 2 milyard tondur. Qaz ehtiyatları 2,6 trilyon m^3, proqnoz ehtiyatlar təqribən 3-4 trilyon m^3-ə bərabərdir. Azərbaycan qaz ehtiyatları ilə azı bir əsr özünün və regionun ehtiyaclarını ödəmək iqtidarındadır. Kəşf olunmuş neftin 24%-i, təbii qazın isə 15%-i qurunun payına düşür. Dənizdə karbohidrogen yataqlarının güman edilən sahəsi 21,4 min km^2, quru ərazilərində isə 43-45 min km^2-dir [27].

Statistik mənbələrdə neft sənayesinin təşəkkül tapdığı illərdən indiyədək Azərbaycanda 42 min quyunun qazıldığı göstərilir. Həmin quyulardan bu müddət ərzində 70%-dən çoxu, təqribən 30 mini ləğv edilmişdir. "Əsrin müqaviləsi" həyata vəsiqə qazandıqdan sonra görülmüş möhtəşəm tədbirlər nəticəsində respublikada neft hasilatı ilə yanaşı qaz hasilatı da dinamik şəkildə yüksəlmiş, 2004-cü ildəki 5,0 milyard m^3-dən 2018-ci ildə 29,5 milyard m^3-ə çatmışdır. Hazırda bu hasilat əsasən 3 mənbədən - AÇG yataqlar blokundan hasil olunan səmt qazı, "Şahdəniz" yatağından hasil olunan qaz və SOCAR-ın müstəqil işlədiyi yataqlardan təmin olunur. 2020-ci ildə Azərbaycanda 34,6 milyon ton neft və 36,7 milyard m^3 qaz çıxarılmışdır. Vurğulanmalıdır ki, 2017-ci ilin 8 noyabrında Azərbaycanda 2-ci milyard ton neft hasil olunmuşdur. 2018-ci ilin əvvəlinə isə respublika üzrə istismarda olmuş yataqlardan işlənmənin əvvəlindən 2,01 milyard ton, o cümlədən dəniz yataqlarından 1,03 milyard ton neft-kondensat çıxarılmışdır [5, 8, 13, 21, 27, 29].

Müstəqillik illərində ölkə yataqlarından ümumilikdə 800 milyon tona yaxın neft və 900 milyard m^3-dən çox qaz hasil edilmişdir. Hesablamalara görə, dünya neft erasının bitməməsi fonunda Azərbaycanda 3-cü milyard ton neftin hasilatı 2060-cı illərə təsadüf edə bilər. 2 trilyon m^3 qazın isə daha tez - 2055-ci ildə hasilatı gözlənilən dir [26].

Qeyd olunmalıdır ki, hazırda Azərbaycan təbii qaz idxal edən ölkədən beynəlxalq miqyasda mühüm qaz ixracatçısına çevrilmişdir. Belə ki, Xəzər dənizinin Azərbaycan sektorunda hasil edilən təbii qaz Gürcüstan, Türkiyə, Rusiya, İran və Yunanıstana ixrac edilməkdədir.

Aşağıda Azərbaycanda 1991-2020-ci illərdə neft-qaz hasilatını əks etdirən cədvəl verilmişdir:

Cədvəl 2 **Azərbaycanda 1991-2020-ci illərdə neft-qaz hasilatı** [26, 27, 29]

İllər	**Neft hasilatı** (*min ton*)	**Qaz hasilatı** (*milyon m^3*)	***İllər***	**Neft hasilatı** (*min ton*)	**Qaz hasilatı** (*milyon m^3*)
1991	11 742	8 621	***2010***	50 838	26 312
1995	9 161	6 644	***2015***	41 628	29 175
2000	14 017	5 642	***2020***	34 600	36 700
2005	22 214	5 732			

Azərbaycanın neft sektorunda aparıcı funksiyanı Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti - SOCAR yerinə yetirir. Dünyanın ən böyük neft şirkətlərindən biri olaraq SOCAR-ın Azərbaycanda transmilliləşməni təmin edən şirkət kimi də potensialı daim artır. Şaquli inteqrasiya olunan holdinq təyinatlı dövlət qurumu kimi SOCAR Azərbaycan Respublikasında bütövlüklə neft sənayesini axtarış-kəşfiyyat işindən başlayaraq, hasilat, emal, nəql, təchizat, satış və digər texnoloji proseslər də əhatə olunmaqla, məhsulun son istehlakçıya çatdırılmasına qədər istehsal-xidmət mərhələlərində idarəetməsini təmin edir. Onun təsərrüfat kompleksi də bir sıra iri təşkilatları özündə birləşdirir. Bu sırada "Azneft" İstehsalat Birliyi, "Azərikimya" İstehsalat Birliyi, "Azəriqaz" İstehsalat Birliyi, Heydər Əliyev adına Bakı Neft Emalı Zavodu, Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodu, Bakı Gəmiqayırma Zavodu, Qaz Emalı Zavodu, Karbamid Zavodu, Metanol Zavodu, SOCAR Polimer zavodu və sair irili-xırdalı çoxsaylı müəssisələr, o cümlədən 37 birgə müəssisə, 7 alyans daxildir. Şirkət Gürcüstan və Türkiyədə daha geniş aktivlərə malikdir. Belə ki,

şirkət Gürcüstanın neft məhsullarının pərakəndə satış bazarının təqribən 25%-nə nəzarəti həyata keçirir. Hazırda burada "SOCAR" brendi ilə yüzdən çox yanacaqdoldurma məntəqəsi fəaliyyət göstərir. Gürcüstanın Qara dəniz sahilində yerləşən Kulevi terminalında çalışmalar SOCAR tərəfindən həyata keçirilir. İldə 10 milyon ton həcmində neftin və neft məhsullarının qəbulu, saxlanması və tankerlərə yüklənməsinə imkan verən bu terminal hazırda Azərbaycan və Mərkəzi Asiya ölkələrindən xam neft və neft məhsullarının dünya bazarına nəql edilməsində əhəmiyyətli rol oynayır. Ölkədə fəaliyyət göstərən "SOCAR Georgia Petroleum" MMC azərbaycanlıların kompakt yaşadığı bölgələrdə irihəcmli sosial layihələr reallaşdırır. Hazırda Gürcüstanın 30 regional qaz distribusiya şirkəti "SOCAR Georgia Gas" MMC tərəfindən idarə olunur [26, 27].

SOCAR-ın Türkiyədəki fəaliyyəti də tutumludur. Belə ki, SOCAR Türkiyədə ən böyük xarici investorlardan biridir. Onun vasitəsi ilə Türkiyə iqtisadiyyatına 15 milyard ABŞ dolları həcmində sərmayə yatırılıb və həmin rəqəmin 20 milyard ABŞ dollarına çatdırılması planlaşdırılır. Bu ölkədə SOCAR həmçinin Petkim neft-kimya kompleksi, STAR neft emalı zavodu, külək enerji stansiyası, Egey dənizinin ən böyük limanı olan SOCAR Konteyner Terminalı, milyonlarla istehlakçıya xidmət göstərən qazpaylayıcı şəbəkələr, fiberoptik xətlər kimi böyük aktivlərə sahibdir.

Bu reallıq indi də bəhrəsini verməkdədir. "Əsrin müqaviləsi"indən 23 il keçdikdən və o yekunlaşmadan sonra, 2017-ci ilin sentyabrında "Azəri", "Çıraq" və "Günəşli" - AÇG yataqlarının 2049-cu ilin sonuna qədər birgə işlənməsinə dair yeni saziş imzalanmışdır. Növbəti 32 il ərzində AÇG-nin Azərbaycana gətirdiyi iqtisadi mənfəət maksimuma çatdırılacaqdır. Həmin illər ərzində yatağa 40 milyard ABŞ dollarından artıq sərmayənin qoyulması potensialı var. İmzalanma mərasimində çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev söyləmişdir: "Müqavilənin ölkəmiz üçün böyük əhəmiyyəti var. Bu yataqların işlənməsi 2050-ci ilə qədər uzadılır. Bu kontrakt Azərbaycan üçün daha əlverişli, daha yaxşı şərtlərlə imzalanır. Kontrakt imzalanandan sonra ölkəmizə xarici investorlar tərəfindən 3,6 milyard dollar bonus ödəniləcək. SOCAR-ın payı 11%-dən 25%-ə qaldırılır. Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi 75% təşkil edəcəkdir [25]. Bununla yanaşı, ölkədə meqa infrastruktur layihə, 3500 kilometr uzunluğunda və dəyəri 40 milyard ABŞ dollarına bərabər olan Cənub Qaz Dəhlizi özünün dörd seqmenti - "Şahdəniz-2", Cənubi Qafqaz Boru kəmərinin genişləndirilməsi, Trans Anadolu Boru Kəməri - TANAP və Trans-Adriatik Boru Kəməri - TAP kəmərlərinin tikintisi ilə tam bir reallığa çevrilmişdir. Beləliklə də, Azərbaycan qazı tarixdə ilk dəfə olaraq Avropaya çatdırılmış və onun enerji təhlükəsizliyində strateji amilə çevrilmişdir [26].

Bir xüsusi məqam da qeyd edilməlidir ki, karbohidrogen resurslarının dəniz akvatoriyasından hasilatı üçün Azərbaycan əlverişli infrastruktura malikdir. Xəzərdə ən böyük donanma Azərbaycana məxsusdur. Burada 200-dən çox gəmi vardır.

Hazırda Azərbaycan nefti dünya bazarlarına üç istiqamətlə nəql olunur. Neftin nəqli üçün hər birinin ötürücülük gücü ildə 6 milyon ton təşkil edən Rusiya istiqamətində Bakı-Novorossiysk, Gürcüstan istiqamətində Bakı-Supsa və nəhayət ən mühümü Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməridir. Azərbaycan həmçinin ölkə xaricinə çıxacaq diversifikasiya olunmuş qaz kəmərləri şəbəkəsinə də malikdir. Konkret Azərbaycan qazı dörd istiqamətdə dünya bazarlarına çıxarılır. Bu kəmərlər sırasına, başlıca olaraq, müasir zamanda inşa edilmiş Cənub Qafqaz Boru Kəməri - CQBK və əvvəllər mövcud olmuş şimal, cənub və qərb istiqamətlərinə yönəlmiş magistral xətlər daxildir.

Azərbaycanın enerji sektorunda baş verən və ölkə iqtisadiyyatının inkişafını qaynaqlandıran bütün bu sosial-iqtisadi effektlərin əsasında ulu öndər Heydər Əliyevin müəllifi olduğu, müasir dünya enerji təhlükəsizliyi sistemində çox mühüm əhəmiyyət daşıyan "Əsrin müqaviləsi" ilə başlanan uğurlu neft strategiyası dayanır. Ötən illər ərzində "Əsrin müqaviləsi" və digər kontrakt sahələrində dünya standartlarına uyğun ən yüksək texnika və texnologiyanın tətbiq olunması neft sənayesinin modernləşdirilməsi baxımından çox mühüm əhəmiyyət kəsb etmişdir. Artıq 20 ildən çoxdur ki, Azərbaycan mənfəət neftindən gəlir əldə edir. 1999-cu ilədək neftin satışından əldə edilən gəlir sərmayə qoyuluşunun ödənilməsinə sərf edilirdisə, həmin ilin dekabrından Azərbaycanın mənfəət nefti xarici bazarlara çıxarılır. Bir xüsusi məqam da neft gəlirlərinin akkumlyasiyası və istifadəsi ilə bağlıdır. Belə ki, Azərbaycan Respublikasının neft-qaz ehtiyatlarına

dair sazişlərin həyata keçirilməsi ilə əlaqədar əldə olunan gəlirlərinin toplanmasını, səmərəli idarəedilməsini, gələcək nəsillər üçün saxlanmasını təmin edən xüsusi məqsədli dövlət qurumu ARDNF təsis edilmişdir. Konkret olaraq ARDNF-in daxilolmalarını neft-qaz sazişləri üzrə əsas gəlirlər - dövlətin payına düşən mənfəət nefti, bonuslar, akrhesabı ödənişlər, tranzit tarifləri üzrə ödənişlər, icarə ödənişləri və s. təşkil edir [25, 26].

Azərbaycan Prezidenti İlham Əliyev demişdir: "İndi Azərbaycan öz hesabına yaşayan ölkələrdəndir. Ölkəmizin gələcək inkişafı üçün siyasi, iqtisadi və ya başqa maneə yoxdur. Ölkəmiz bundan sonra uğurla inkişaf edəcək. Bu potensialın formalaşmasında "Əsrin müqaviləsi"nin böyük rolu var. Biz müstəqil siyasət aparan, heç kimdən asılı olmayan ölkəyik. Bu, iqtisadi imkanlarımızdan qaynaqlanır. Bu imkanı da bizə "Əsrin müqaviləsi" yaratdı" [25].

Hazırda ölkənin neft və qaz sektorunun perspektiv inkişafı "Azərbaycan Respublikasında neft və qaz sənayesinin (*kimya məhsulları daxil olmaqla*) inkişafına dair Strateji Yol Xəritəsi"nin prioritet hədəfləri, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və digər mühüm konseptual dövlət sənədləri əsasında aparılır. Ölkənin neft-qaz sektorunda inkişaf davam edir. Milli neft-qaz sərvətlərinə maliklik ölkədə mühüm yanacaq-sənaye kompleksinin qurulmasını təmin etmişdir. Hər növ yanacağa, o cümlədən istilik elektrik stansiyalarına, avtomobillərə və məişətdə olan tələblər milli resurslar hesabına təmin edilir. Ölkədə qazlaşdırma səviyyəsi 96%-i ötmüşdür. Bu göstərici ilə Azərbayacan bir sıra Avropa İttifaqı ölkələrindən, Müstəqil Dövlətlər Birliyi - MDB dövlətlərindən, həmçinin qaz ehtiyatları ilə dünya birincisi olan Rusiyadan irəlidə gedir. Azərbaycanın artan qaz potensialı onun ixracı ilə yanaşı, bu xammala əsaslanan müəssisələr silsiləsinin yaranmasını da şərtləndirmişdir. Bu müsbət trend qaz emalı və kimyası sənayesinin inkişafına zəmin olmuş və ölkəni bir sıra müvafiq idxal məhsullarından azad etmişdir. Bu silsilədə azot gübrələri istehsal edən "SOCAR Karbamid", polipropilen və yüksək sıxlıqlı polietilen istehsalını həyata keçirən "SOCAR Polymer" və metanol istehsalını təmin edən "SOCAR Metanol" zavodları xüsusi əhmiyyət daşıyır. Bu işlərin davamı olaraq, ölkədə illik emal gücü 10 milyard m^3 olacaq yeni Qaz emalı zavodunun layihələndirilməsi işlərinə başlanılmışdır [26, 27].

Ölkədə həmçinin yüksək Avropa standartları səviyyəsində məhsullar istehsal etmək məqsədi ilə Heydər Əliyev adına Neft Emalı Zavodunda və "Azərikimya" İstehsalat Birliyində yenidən-qurma və modernizasiya prosesləri uğurla davam etdirilir. Layihələr yerinə yetirildikdən sonra neft və kimya məhsullarının istehsal həcmlərinin və ixrac potensialının artırılması, istismar xərclərinin azaldılması, benzin və dizel yanacağının Avro-5 standartlarına çatdırılması, müəssisələrin təhlükəsizlik şəraitinin və ekoloji vəziyyətinin yaxşılaşdırılması kimi effektlər əldə olunacaqdır.

Nəticə

Aparılan təhlil və araşdırmalar bir daha yəqinlik verir ki, Azərbaycan iqtisadiyyatının formalaşması və inkişafında neft-qaz resurslarının rolu və əhəmiyyəti daim yüksək olmuşdur. Bu baxımdan qlobal çağırışları da nəzərə alaraq, ölkədə aparılan enerji siyasəti daim təkmilləşdirilir, milli neft strategiyası yeni-yeni hədəflərinə qovuşur. Görünən reallıq budur ki, Azərbaycanın neft-qaz sərvətləri özünün istehsal zonasında illərcə müvafiq infrastruktur yaratdığı kimi, bütövlükdə də milli iqtasdiyyatı formalaşdıran infrastruktur və müvafiq istehsalların yaranmasında əsas rol oynamışdır. Neft-qaz resurslarına məxsus şəhəryaradıcı effektlərlə respublikada bütün Bakı və Abşeron zonası, habelə Siyəzən, Şirvan, Neftçala, Salyan, İmişli və sair kimi rayonların və rayon mərkəzlərinin birbaşa təməlli yaranışı və inkişafı stimullaşdırılmış, Mingəçevir və digər şəhər və qəsəbələrin yeni strateji əsasda inkişafı təmin olunmuşdur. Uzun illər Bakı şəhərinin və bir sıra müvafiq şəhər və rayonların yaşayış massivləri, avtomobil yolları, xəstəxanaları, idman kompleksləri, stadionları, kommunal təsərrüfatları, sənaye, nəqliyyat, tikinti, energetika və aqrar sahələri, habelə yanacaq-enerji, mədəniyyət, ticarət, ictimai iaşə, məktəbəqədər, habelə digər təhsil müəssisələri və başqa bu kimi həyat əhimiyyətli obyektləri neft-qaz hasilatçları subyektlərinin balansında olaraq fəaliyyət göstərmişlər. Neft-qaz resursları hesabına ötən bir əsr ərzində yüzlərlə fabrik və zavodlar inşa edilmiş, onun gəlirləri hesabına geniş bir sosial infrastruktur baza formalaşdırılmışdır. Bu stimullaşma yenə də davam edir. Hazırda neft-qaz resursları ilə bağlı sahələr ölkə ÜDM-nin yarıdan çoxunu verir.

Vurğulanmalıdır ki, "Əsrin müqaviləsi"ndən ötən 27 il ərzində neft-qaz sektoruna 100 milyard

ABŞ dollarından çox (*ölkə iqtisadiyyatına yatırılan investisiyaların 40%-nə qədər*) investisiyalar yatırılmışdır. Bu investisiyalar isə yeni dövrdə yeni multiplikativ effektlər yaradaraq, ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynamışdır. Digər tərəfdən təxmini hesablamalara görə təkcə neftin qiymətin dünya bazarında 1 ABŞ dollar artması ölkə xəzinəsinə əlavə olaraq 350-400 min ABŞ dollar həcmində gündəlik gəlir gətirir. Buraya ixrac edilən qaz sərvətlərindən əldə edilən dividentləri də qatdıqda böyük bir milli kapital resurs yaranır. Bütün bunlar isə ardıcıl olaraq ölkə iqtisadiyyatının şaxələndirilməsinə, xüsusən də qeyri-neft sektorunun inkişafına yönəldilir. Bir sıra inkişaf proqramları indi də davamlı olaraq ARDNF tərəfindən maliyyələşdirilir. Belə ki, onun xətti ilə də miqyaslı investisiya qoyuluşları, mühüm infrastruktur layihələri reallaşdırılır, mühüm sosial-iqtisadi effektlərə nail olunur. Əvvəllər olduğu kimi, hazırda da milli neft strategiyasının davamlı reallaşması nəticəsində neft-qaz sərvətlərinin insan kapitalına çevrilməsi prosesi davam edir. Çağdaş zamanda bu daha vüsətli xarakter alır, iqtisadi artımı təmin edir və davamlı yeni sosial effektlər yaradaraq hər bir vətəndaşın rifahının yüksəlişinə öz təsirini göstərir.

Ədəbiyyat

1.Akademik Ziyad Səmədzadənin 70 illik yubiyeyinə həsr edilmiş "Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Respublika elmi-praktiki konfransının materialları Milli inkişaf modelinin formalaşması problemləri". elmi konfransının materialları. Bakı: "Şərq-Qərb", 2010, 982 s

2.Akademik Ziyad Səmədzadənin 75 illik yubiyeyinə həsr edilmiş "Azərbaycan iqtisadiyyatı qlobal dünya iqtisadiyyatında dəyişikliklər dövründə" mövzusunda respublika elmi konfransının materialları. Bakı: Elm, 2019, 743 s.

3.Aşurbəyli S.B. Bakı şəhərinin tarixi. Bakı. Azərnəşr, 1998, 356 s.

4.Axundov B.Y. İnqilabdan əvvəlki Bakı neft sənayesində inhisarçı kapitalizm. Bakı: Elm, 1959, 295 s.

5.Azərbaycanın statistik göstəriciləri 2020. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı: "9 №-li kiçik müəssisə", 2020, 772 s.

6."Böyük İqtisadi Ensiklopediya". VII cilddə. / akademik Ziyad Səmədzadənin baş redaktorluğu ilə. Bakı: "Letterpres" nəşriyat evi, 2012-2015.

7.Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir, I-XXI cildlər Bakı: Azərnəşr. 1997-2008.

8.Hacızadə E.M. Energetik kompleks yeni islahatlar ərəfəsində, Bakı: Elm, 2000, 257 s.

9. Hacızadə E.M. Neftqazçıxarma kompleksinin iqtisadi inkişaf modeli. Bakı: Elm, 2002, 472 s.

10.Hacızadə E.M., Bağırzadə E.R. Azərbaycan iqtisadiyyatının dünyadakı reytinqi. Bakı: Elm, 2011, 128 s.

11.Hacızadə E.M. Dünya iqtisadiyyatı və Azərbaycan. Bakı: "Letterpess" 2018, 912 s.

12.Klaus Şvab. Dördüncü sənaye inqilabı. Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2020, 200 s.

13.Qasımlı V.Ə. İqtisadi artım. Bakı: "AzPrint MMC" Nəşriyyatı, 2021, 234 s.

14.Lenin V.İ. Əsərlərin tam külliyyatı. 55 cilddə. Bakı: 1976-1988.

15.Nadirov A.A. Müasir Azərbaycan iqtisadiyyatının inkişaf mərhələləri, Bakı: Elm, 2001, 452 s.

16.Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: 1990, 113 s.

17.Алиев И. Каспийская нефть Азербайджана. М.: Известия, 2003, 798 с.

18.Ализаде А.А. Нефть и ее происхождение. Баку: Элм, 1957, 44 с.

19.Алиханов Э.Н. Нефтегазоность Каспийского моря. М.: Недра, 1977, 270 с.

20.Алияров С.С. Нефтяные монополии в Азербайджане в период I Мировой войны. Баку, 1974, 229 с.

21.Бекаев Л.С., Марченко С.В., Пинегин С.П. и другие. Мировая энергетика и переход к устойчивому развитию, Новосибирск: Наука, 2000 433 с.

22.Гаджизаде Э.М. Императивы нефтяной стратегии Азербайджана. "Стратегия развития минерально-сырьевого комплекса в XXI веке". Международная конференция: Федеральное Агентство по Образованию, Российский Университет Дружбы Народов, Российская Академия Наук, Российская Академия Государственных Служащих при

Президенте РФ. М.: 2004, с 214-218.
23.Самедзаде З.А “Этапы большого пути - Экономика Азербайджана за полвека, её новые реалии и перспетивы”. Баку: Издтельско-Полиграфический Центр “НУРЛАР”, 2004, 936 с.
24.Юзбашиева Г.З. Влияние Азербайджанского менталитета на экономическое развитие страны. Баку: “Авропа”, 2010, 478 с.
25.www.president.az - Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı.
26.www.hajizada.com - prof. Elşən Hacızadənin saytı.
27.www.socar.com – SOCAR.
28.http://www.petroleum-economist.com - neft iqtisadiyyatı.
29.www.azstat.org. - Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.

Гаджизаде Эльшан Махмуд оглы
Д.э.н., проф., Азербайджанский Государственный Экономический Университет
Руководитель Центра экономики энергетики

Роль и значение нефтегазовых ресурсов
в формировании и развитии экономики Азербайджана

Аннотация

Роль и значение мультипликативного эффекта нефтегазовых ресурсов в формировании, развитии и создании нового капитала всегда были высоки. Эта реальность имеет такое же значение для Азербайджанской Республики, которая традиционно обладает богатыми нефтегазовыми ресурсами. С этой точки зрения в статье роль и значение нефтегазовых ресурсов в формировании и развитии экономики Азербайджана стали предметом исследования. Проведенными анализами еще раз обосновано, что, как и прежде, в ближайшей и среднесрочной перспективе нефтегазовые богатства республики будут иметь важное значение в ее экономической и социальной жизни и надолго сохранят свою инвестиционную роль.

Ключевые слова: *Азербайджанская Республика, нефть, газ, нефтяная стратегия, экономический рост.*

Hajizadeh Elshan Makhmud oglu
Prof. Dr., Azerbaijan State University of Economics
Head of the Center for Energy Economics

The role and importance of oil and gas resources
in the formation and development of the Azerbaijani economy

Abstract

The role and importance of the multiplier effects of oil and gas resources in the formation, development and creation of new capital has always been high. This reality has the same value for the Republic of Azerbaijan, which traditionally has abundant oil and gas resources. From this point of view, the role and importance of oil and gas resources in the formation and development of the economy of Azerbaijan has become the subject of research in the article. The analysis once again proves that in the near and medium term, as before, the oil and gas resources of the republic will be important in its economic and social life, and it will maintain its investment role for a long time.

Keywords: *Republic of Azerbaijan, oil, gas, oil strategy, economic growth*

NEFT-QAZ SƏNAYESİNDƏ İNNOVASİYALI İNKİŞAF MEYLLƏRİ

i.e.d., prof. A.G.Hüseynov
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
email: ahuseynov@azfen.com
doktorant E.A.Hüseynov
Neftqazelmitədqiqatlayihə İnstitutu, SOCAR
email: emilhuseynoff@gmail.com

Giriş: Artıq uzun illərdir ki, dinamik inkişaf yoluna qədəm qoymuş Azərbaycanın sosial-iqtisadi inkişafının sürətlənməsində, beynəlxalq aləmdə nüfuzunun artmasında neft-qaz sənayesi əhəmiyyətli rol oynayır. Neft və qaz yataqlarının istismarı prosesində quyudibinin sulaşması və mürəkkəb geoloji şəraitin təsiri nəticəsində hasilat daima aşağı düşür. Bununla əlaqədar neftqazçıxarma müəssisələrinin, sahə elmi-tədqiqat və layihə-konstruktor təşkilatların mütəxəssisləri hər il böyük sayda və müxtəlif məzmunda geoloji-texniki və təşkilati xarakterli tədbirlər kompleksi işləyib hazırlayır və həyata keçirirlər. 2018-ci ildə "Azneft" İB-nin istismar etdiyi yataqlarda 160,2 min metr istismar qazması aparılmış, 77 quyu (o cümlədən 12 qazvurma quyusu) istismara daxil olunmuş və bu quyulardan 265,1 min ton neft, 32,6 min kubmetr qaz hasil edilmişdir. 2018-ci ildə "Azneft" İB-nin NQÇİ üzrə keçirilmiş 674 geoloji tədbirlərin nəticəsində 422,2 min tön əlavə neft hasil edilmişdir

Araşdırmalar göstərir ki, uzun müddət istismarda olan neft-mədən sahəsində texnoloji innovasiyalara çəkilən xərclər azalan xətlə dəyişməkdədir. Bunu faktlar da sübut edir. Belə ki, əgər 2014-cü ildə bütövlikdə neftqazçıxarma sənayesində texnoloji innovasiyalara 4133,5 min. man. vəsait xərclənmişdirsə, sonrakı illərdə həmin vəsait kəskin azalmış, 2015-ci ildə 2671,5 min man. enmiş, 2016-ci ildə 179,6 min man, 2017-ci ildə 31,7 min man. qədər azalsa da, 2018-ci ildən artaraq 1386,0 min man. təşkil etmişdir.

Sahədə texnoloji innovasiyalara çəkilən xərclərin istifadə istiqamətlərini araşdırarkən aydın olur ki, 2018-ci ildə bütün vəsaitlərin 49,0%-i texnoloji innovasiyalarla əlaqədar maşın və avadanlıqların alınmasına, 40,0% isə proqram vasitələrinin alınmasına, 10,9%-i birgə müəssisələrin təşkili vasitəsi ilə texnologiyaların alınmasına, qalan cüzi məbləği isə texnoloji innovasiyalara çəkilən digər xərclərə sərf edilmişdir [3].

Bütün ölkələrin milli innovasiya sistemlərinə həm də regional inkişafın əsas alətlərindən biri kimi baxmaq lazımdır. Dünya təcrübəsi göstərir ki, bu sistemlərin uğurlu təşəkkülü üçün həm tədqiqat və işlənmələr sahəsinə stabil dövlət idarəetmə sistemi, dəqiq vəzifə və tapşırıqlar, əsaslandırılmış dövlət innovasiya siyasəti və onun həyata keçirilməsi üçün müvafiq normativ-hüquqi və resurs təminatı, həm də innovasiya siyasətinin həyata keçirilməsi üçün mərkəzi və regional hakimiyyət orqanlarının səmərəli qarşılıqlı əlaqələri, eləcə də elm, sənaye və biznes təşkilatlarının bərabər iştirakı tələb olunur. Xarici təcrübənin təhlili göstərir ki, milli (dövlət) innovasiya sistemi, ərazisində yaradılıb fəaliyyət göstərdiyi ölkələrin ictimai-iqtisadi əlaqələrinin xarakterinə və istehsaledici qüvvələrinin inkişaf səviyyəsinə uyğun olmalıdır. Nəticədə bu sistem ölkənin fərdi xüsusiyyətlərini mənimsəyir. Lakin onun təşkilində və inkişafında başqa ölkələrin belə sistemlərin işinə özünü müsbət tərəfdən göstərmiş yanaşmaları istifadə edilə bilər və edilməlidir.

İnnovasiya-investisiya fəaliyyətində dövlət tənzimlənmsəi: İnnovasiya fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsinin məqsədi iqtisadiyyatın inkişafı və ölkə əhalisinin yaşayış səviyyəsinin yaxşılaşdırılması naminə müasir, ekoloji cəhətdən təmiz, təhlükəsiz, enerjiyə və ehtiyatlara qənaət edən texnologiyalar əsasında yeni və rəqabətədavamlı məhsullar istehsal edən müəssisələrin sürətli yaradılmasını təmin edən hüquqi, iqtisadi, sosial, təşkilati və digər şəraitlərin yaradılmasıdır.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq, innovasiya fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsinin əsas prinsipləri aşağıdakılar olmalıdır:

- dövlətin innovasiya inkişaf yoluna strateji meyl etməsi;
- innovasiya-investisiya fəaliyyətinin və sahibkarlığın aktivləşdirilməsi ilə yanaşı bazar mexanizmlərinin və dövlət tərəfindən tənzimlənmənin optimal əlaqələndirilməsi;

• toplanmış elmi-texniki potensialdan səmərəli istifadə;

• innovasiya fəaliyyətinin sosial-iqtisadi prioritetlərə, daxili bazarın tələbatının maksimal dərəcədə ödənilməsinə, idxalın əvəz edilməsinə, dünya bazarında yeni bazarlarən axtarışına yönəldilməsi;

• innovasiya-investisiya fəaliyyətinin tənzimlənməsi zamanı qısa, orta və uzunmüddətli fəallığın nəticələrinin istifadə edilməsi;

• kredit siyasəti, vergi kreditləri, vergi və gömrük güzəştləri və digər üstünlüklər vasitəsilə milli (yerli) istehsalçıların dəstəklənməsi;

• təşkilati-hüquqi və mülkiyyət formalarının xüsusiyyətlərini nəzərə almaqla, innovasiya fəaliyyətinin bütün subyektləri üçün optimal şəraitlərin yaradılması;

• innovasiya-investisiya fəaliyyətinin son nəticəyə yönəlmiş qapalı idarəetmə sistemlərinin təşkil edilməsi;

• kompleks, bazis və təkmilləşdirici innovasiyaların tətbiqi üçün zəruri olan infrastrukturların məqsədli inkişaf etdirilməsi;

• ictimai və dövlət maraqlarına, humanizm və əxlaq prinsiplərinə zidd olan, iqtisadi, ekoloji və sanitar-epidemioloji təhlükəsizliyi, insan hüquqlarını və ölkə vətəndaşlarının qanunla qorunan maraqlarını təhlükə altına qoyan innovasiyaların qadağan edilməsi.

Ümumilikdə, innovasiya-investisiya fəaliyyəti inkişaf edən ölkələrin bazar iqtisadiyyatı şəraitində öz-özünü tənzimləyən proses ola bilməz. Bütün cəmiyyəti təmsil edən və iqtisadi əlaqələrə qeyri-iqtisadi müdaxilə hüququna malik olan dövlət, bir institut olaraq, özü bir tənzimləyici mərkəzdir. Əsas məsələ, innovasiya-investisiya fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsinin optimal ölçüsünü və ən səmərəli formalarını tapmaqdır. Buna görə də innovasiya prosesinin dövlət tərəfindən tənzimlənməsi innovasiya-investisiya fəallığını və bunun əsasında ölkə iqtisadiyyatının inkişafını stimullaşdırmaq üçün səlahiyyətli dövlət idarələrinin həyata keçirdiyi qanunvericilik, icraiyyə və nəzarət xarakterli tədbirlər sistemi olacaq. Bununla yanaşı, bazar təsərrüfatı prinsipləri və mexanizmləri ləğv edilib direktiv idarəçiliklə əvəz edilməməlidir, əksinə, bazar mexanizmi əsasında təsərrüfat subyektlərinin innovasiya-investisiya fəaliyyətinin canlandırılması üçün münbit şərait yaranmalıdır.

Fikrimizcə, innovasiya fəaliyyətinin həyata keçirilməsinin təşkilati-iqtisadi mexanizmləri aşağıdakıları əhatə etməlidir [5]:

• normativ sənədlər (buların əsasında innovasiya-investisiya layihəsinin iştirakçıları qarşılıqlı əlaqələr yaradırlar);

• öhdəliklər (innovasiya-investisiya layihəsinin həyata keçirilməsi ilə əlaqədar onun iştirakçıları tərəfindən qəbul edilir, eləcə də həmin öhdəliklərə zəmanət və onların pozulmasına görə sanksiyalar);

• kredit maliyyələşdirmənin və vermənin şərtləri (kredit müddəti, faiz dərəcəsi, faiz ödəmələrinin dövriliyi və krediti ödəmə);

• idarəetmə sistemi (layihənin ayrı-ayrı iştirakçılarının fəaliyyətini sinxronlaşdırır, onların hər birinin maraqlarını qoruyur, layihənin uğurla başa çatdırılması məqsədilə sonrakı hərəkətlərin vaxtında tənzimlənməsini və təshih edilməsini, eləcə də investisiya qoyuluşlarının, xərclərin və nəticələrin planlaşdırılmasının, uçotunun, təhlilinin və nəzarətinin təşkilini təmin edir);

• layihənin maliyyə cəhətdən reallaşdırılmasını təmin etmək məqsədilə, qarşılıqlı maliyyə dəstəyi tədbirləri.

Neftqazçıxarmada innovasiya fəaliyyətinin tənzimlənməsində idarəetmə prosesləri. İnnovasiya fəaliyyətinin tənzimlənməsinin bazar mexanizmi ilk növbədə, investisiya resurslarına olan tələb və təklifi araşdırma mexanizmi deməkdir. Bununla yanaşı investisiya qoyuluşu obyektlərini seçərkən, investorların seçiminə, vəsaitlərin investisiya riskləri və əldə edilən gəlir nisbəti əsas təsir göstərir. Təcrübə göstərir ki, innovasiya layihələrinin həyata keçirilməsindən əldə edilən faktiki gəlir çox nadir hallarda proqnozlaşdırılan gəlirlə üst-üstə düşür. Qeyd etmək lazımdır ki, Azərbaycanın neft-qaz sənayesinə vəsait yatırarkən investorlar siyasi risklərin qiymətləndirilməsinə xüsusi diqqət yetirirlər.

İnnovasiya layihələrinin həyata keçirilməsində idarəetmə proseslərinin canlandırılması üzrə vəzifələr aşağıdakılardır:

a)ən səmərəli innovasiya layihələrinin seçilməsi və həyata keçirilməsi;

b) maliyyə mənbələrinin axtarışı;

c)həyata keçirmədən maksimal fayda;

ç)həyata keçirmə zamanı rikslərin minimallaşdırılması;

d) maliyyə sabitliyi və həyata keçirilmə mümkünlüyü;

e)vaxt və infliyasiya faktorunun nəzərə alınması və s.

Beləliklə, yuxarıda qeyd edilənlərdən görünür ki, innovasiya fəaliyyətinin səmərəliyi əhəmiyyətli dərəcədə innovasiya-investisiya layihələrinin idarəetmə proseslərinin mükəmməl və məzmunlu olmasından asılıdır.

Müasir şəraitdə Azərbaycan hökuməti, onun Prezidenti, innovasiya fəaliyyətini tənzimləyərkən, birinci növbədə, əsassız dotasiyaların, subsidiyaların, güzəştli kreditlərin azaldılmasını, onların daha səmərəli layihələrə investisiyalarla əvəz edilməsini; fərdi investorların iştirakı ilə innovasiya-investisiya lahihələrinin həyata keçiriləməsinə artan dövlət investisiyalarının həcmini yenidən paylaşdırılmasını; müxtəlif institusional investorların, o cümlədən, investisiya fondlarının və banklarının, pensiya fondlarının, sığorta şirkətlərinin və depozit institutlarının vasitəsilə orta kiçik payçıların vəsaitlərinin birləşdirilməsini nəzərə alır.

Məlumdur ki, uzun illər ərzində Azərbaycanın ixracında neft-qaz və neft məhsullarının xüsusi çəkisi 80 %-dən çoxdur. "Əsrin müqaviləsi" çərçivəsində neft-qaz sənayesinə yönəldilən investisiyaların hesabına sahədə əsas istehsal fondlarının (ƏİF) aşınma dərəcəsi xeyli aşağı enmişdir. Lakin "Azneft" İB-nin tabeliyində olan NQÇİ-lərdə ƏİF–in aşınma dərəcəsi yüksək olaraq qalır. Burada beynəlxalq standartlara tam cavab verməyən maşın və avadanlıqlar, qurğular, nasoslar, dəzgahlar, və s. istismar edilir. Adı çəkilən İB üzrə hər il həyata keşirilən böyük sayda geoloji, texnoloji və texniki tədbirlərə baxmayaraq, hasilatın həcmi ildən-ilə aşağı düşür. Bununla belə neft və qaz verən quyuların sayı, o cümlədən istismar fondu da ildən-ilə azalır. ARDNŞ-in tərkibində olan digər emal, qazıma, nəql müəssisələrinin də texniki-texnoloji səviyyəsi beynəlxalq standartların tələblərinə tam cavab vermir. Neftqazçıxarma sənayesində hələ 1998-ci ildən qəbul edilən İSO-1400-1412 tipli ƏMM-in idarə edilməsi ilə əlaqədar beynəlxalq standartlardan tam istifadə olunmur. Qeyd etmək lazımdır ki, respublikamızda innovasiya fəaliyyətinin təşkili və inkişafı səviyyəsi bir çox ölkələrin eyni adlı səviyyəsindən əsaslı şəkildə aşağıdır. Məsələn, qonşu Rusiya Federasiyasında 8-10 % innovasiya ideyalarından və layihələrindən istifadə edilir, hansı ki, bu göstərici ABŞ-da 60 %; Yaponiyada isə 95 %-dir. Azərbaycanda innovasiya məhsulunun ÜDM-dəki xüsusi çəkisi minimum səviyyədədir. Son illər dövlət büdcəsindən elmin inkişafına ayrılan vəsaitin məbləği xeyli dərəcədə artsa da, onun ÜDM-dəki payı 0,2% təşkil edir ki, bu da inkişaf etmiş ölkələrin eyni adlı göstəricilərindən 10 dəfə aşağıdır [6].

Sənaye-innovasiya strategiyasının inkişafı iki mərhələyə bölünə bilər. Birinci mərhələdə iqtisadi inkişafın əsasını neft-qaz sektoru təşkil edəcək. Buna görə də məqsəd, neft hasilatının artırılması, mövcud itsehsal obyektlərinin və yeni boru kəmərlərinin tikintisi hesabına neft-qaz sektorunun ixrac imkanlarını genişləndirərək hazır məhsul istehsal edən neft emalı və neft-kimya müəssisələrinin tikintisidir. İkinci mərhələdə iqtisadi inkişaf əmək məhsuldarlığının artırılması və iqtisadiyyatın qeyri-xammal sahələrinin genişləndirilməsi hesabına baş verməlidir. Bu isə gəlirlərin artırılmasını və cəmiyyətin sosial inkişafında keyfiyyət dəyişiklikləri təmin edəcəkdir. Şübhəsiz ki, strateji planlaşdırma əsasında neft-qaz sənayesi sahəsində innovasiya fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi qəti sürətdə müəyyən edilmiş ardıcıllıqla-dövlətin sosial-iqtisadi inkişafın uzunmüddətli strategiyasından neft-qaz sahəsinin inkişaf strategiyası və konkret məqsədli proqramınadək-həyata keçirilməlidir.

Tədqiqatlarımızla müəyyən edilmişdir ki, "Əsrin müqaviləsi" çərçivəsində həyata keşirilən dəniz neft layihələri üçün təqdim edilmiş bir çox bəndlərdə yerli istehsalın olmaması səbəbindən indiyədək neft təyinatlı borular, bir çox quyu avadanlıqları, xüsusi qızdırıcı sobalar, qızdırıcılar, soyuducular, dehidratorlar (susuzlaşdırıcılar) və duzsuzlaşdırıcı qurğular, qazın kondensasiyasına nəzarət və onun stabilləşdirilməsi üçün avadanlıqlar, kompressorlar, suvurma avadanlıqları və s.

xarici ölkələrdən baha qiymətə idxal edilir, hansı ki, kifayət qədər yüksəkixtisaslı kadrlara malik və istehsal sahəsi olan ölkəmizdə həmin avadanlıqların istehsalını çoxdan bərpa etmək olardı. Bir çox neft-mədən avadanlığı istehsal edən müəssisələr ləğv edilmiş, mövcud müəssisələrdə ƏİF-in aktiv hissəsinin mənəvi və fiziki aşınma səviyyəsi 60-75%-dir ki, bu da yüksək keyfiyyətli məhsul istehsal etməyə imkan vermir. Uzun illərdir ki, ölkə idxalının tərkibində maşın, mexanizm və elektrik avadanlıqlarının xüsusi çəkisi 29-35% arasında dəyişir [2]. Hazırda respublikanın neft-qaz kompleksi üçün istehsal edilən bir çox vacib növ neft-mədən avadanlığı, qazma baltaları, quyular üçün texnoloji ləvazimatlar və s. istehsalı kəskin azalmış, bir çoxu isə mənəvi cəhətdən köhnəlmişdir. Araşdırmalar göstərir ki, xarici ölkələrdə innovasiya texnologiyaları əsasında istehsal edilən ştanqlı quyu nasoslarının son işləmə müddəti 700 gün təşkil edir, yerli nasoslarda isə həmin göstərici 300-400 gündür. Xaricdə istehsal olunan fırlanan baltalar yerli baltalardan 3-4 dəfə baha olsa da, onların qazma zamanı keçmə intervalı 5-10 dəfə yüksəkdir. Odur ki, neft-mədən avadanlıqları istehsalı üzrə texnoparkların yaradılması və idarə edilməsində dövlətin rolunun artırılmasına ehtiyac duyulur. Nəticədə müvafiq təsərrüfat subyektlərinin idarə edilməsində dövlətin bazar mexanizmlərinin sahədə tətbiq etmək təcrübəsinin genişləndirilməsinə və təkmilləşməsinə, eləcə də texnoparkların səmərəli modelini formalaşdırmağa imkan yaranacaqdır.

Neft-qaz sənayesində innovasiya meylləri. Uzun illərdir ki, neft-qaz sənayesi Azərbaycan iqtisadiyyatının yüksəlişinə, qarşıya qoyulmuş strateji məqsədlərin həyata keçirilməsində mühüm rol oynayır. Lakin ölkənin enerji kompleksinin gələcəyi yalnız neftin və qazın dünya qiymətləri səviyyəsi ilə deyil, həm də yerli sərvətlərdən səmərəli istifadə və sənaye sahəsinin resurs bazasının genişləndirilməsi məsələlərinin həllində, neft-qaz sferası strukturunun təkmilləşdirilməsi, daxili bazarın demonopoliyası, investorların sayının artması, yeni layihələrin reallaşdırılması kimi problemlərin həlli ilə müəyyən edilməlidir. Dünyanın aparıcı şirkətlərinin innovasiya meylli nəticələri göstərir ki, hələ də neft sənayesinin ümumi fəaliyyət göstəricilərinin səviyyəsi aşağıdır. Məlum olduğu kimi, karbohidrogen ehtiyatlarının mənimsənilməsi nöqteyi-nəzərindən yekun göstərici neft hasilatı əmsalıdır. Bu gün yataqların işlənməsi və istismarı texnikası və texnologi-yasının ötən onilliklərlə müqayisədə xeyli irəlilədiyi bir vaxtda hasilat əmsalı hələ də 0,35-0,50 səviyyəsində qalır, başqa sözlə, neftin 50-65%-i hələ də yerin təkində qalmaqdadır. Azərbaycanın bəzi neft yataqları üzrə quyuların neftverimi əmsalı 0,49-0,52 arasında dəyişir ki, bu da dünya təcrübəsində layihə göstəricisinə yaxındır. Lakin ölkənin bəzi neft yataqlarında həmin göstərici aşağıdır və neftin hasilatı üçün laya təsir üsullarından istifadə edilir. Laya fiziki-kimyəvi təsir nəticəsində quyudibinə böyük miqdarda su və qazla yanaşı, səthi-aktiv kimyəvi maddələr də vurulur. Hasilat zamanı həmin zərərli maddələrin bir hissəsi neftlə birlikdə çıxarılır və təmizləmə prosesi nəticəsində ətraf mühitə atılır ki, bu da ekoloji gərginlik yaradır. Odur ki, həmin kimyəvi maddələri və üsulu əvəz edən innovasiya meyilli tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsinə zərurət yaranır [7].

Azərbaycanda istismarda olan neft və qaz yataqları öz geoloji quruluşuna görə mürəkkəb və çoxşaxəlidir. Elə buna görə də yataqlara nəzarət edən, qazma və istismar işləri ilə məşğul olan idarələrin innovasiyaya yönəldilmiş fəaliyyəti bir-birindən fərqlənir.Sahə üzrə yerinə yetrilən elmi-tədqiqat işlərində təklif edilən hasilatın artırılması metodları adətən yüksək debitli quyularda tətbiq olunur. Nəticədə boş dayanan və istismar olunmayan quyuların sayının artması neft hasilatının səmərəliyinə və ekoloji təhlükəsizliyinə mənfi təsir göstərir.

Neft və qaz sənayesinin inkişafında informasiya texnologiyalarının (İT) da rolunu unutmaq olmaz. Onlar bu sahədə mühüm dəyişikliklər yaratmağa qadirdirlər. Onların tətbiqi ilə neft və qaz axtarışı zamanı qeofiziki tədqiqatların aparılması, layların geoloji və hidrodinamik modelləşdirilməsi, neft hasilatı ilə bağlı faəaliyyət sahələrinə aid məlumat bankının yaradılması imkanları genişlənəcək. Bundan başqa, İT üfqi və çoxşaxəli üfqi quyuların qazılması ilə müəyyən ediləcək neft hasilatının yüksəldilməsində də kifayət qədər böyuk rol oynayır. Üfqi qazma prosesinin texnoloji müşayəti çox perspekiv istiqamətdir və mütəxəssislərin hesablamasına görə, yaxın gələcəkdə dünyada neftin təqribən 20%-i həmin istiqamətdə qazılmış quyulardan hasil olunacaq. Son illərdə ARDNŞ-də qazma işlərinin inkişafına dair texniki vasitələrin müasirləşdirilməsi, yeni və müasir texnologiyalardan istifadə edilməsi istiqamətində müəyyən işlər görülmüşdür [4].

Qeyd olunmalıdır ki, artıq bu gün məlumatların modelləşdirilməsi, vizuallaşdırılması, mobil texnologiyalar neft və qaz sənayesi sahəsində fəaliyyət göstərən hər hansı şirkətin yataqların kəşfiyyatı və işlənməsinin bütün dövrü ərzində əməkdaşların birgə işinin və qarşılıqlı əlaqələrinin gücləndirilməsi hesabına rəqabətə davamlılıq üstünlüklərini təmin etmək imkanı verir.

Nəticə: Azərbaycan iqtisadiyyatının sürətli inkişafı sənaye-innovasiya yolu ilə irəliləmək üçün geniş üfüqlər açmışdır. Neft və qaz hasilatının intensivləşməsi, ölkədə böyük həcmdə karbohidrogen ehtiyatlarının mövcudluğu respublikada texnologiyalar və innovasiyaların əhəmiyyəti bir daha şərtləndirməlidir.

Bizim fikrimizcə, qeyd edilən şərtlərlə yanaşı Respublikanın neft və qaz sənayesinin innovasiya sektorunun uğurlu inkişafı üçün innovasiya infrastrukturunun bütün elementlərinə, modernləşdirilməsinə xüsusi diqqət yetirilməlidir. Bundan başqa Azərbaycanda innovasiya texnologiyalarının, xarici texnologiyalardan üstün ola bilməsi üçün ümumi qiymətləndirilməsi prinsipinin formalaşdırılması zəruridir. Həmçinin, respublikanın neft və qaz sahəsinin uğurlu inkişfının ən mühüm şərti, onun idarəetmə strukturunun daim təkmilləşdirilməsindən ibarətdir. Fikrimizcə, sistemdə struktur dəyişiklikləri və sahənin gələcək inkişafı, neft və qaz cənayesinin idarə olunması konsepsiyası aşağıdakı prinsiplər əsasında həyata keçirilməlidir:

- vahid texnoloji-istehsal komplekslərinin qorunub saxlanması;
- dövlətin birbaşa iştirakından və normativ tənzimləmə mexanizmindən istifadə edərək, kompleksin baza müəssisələrinə dövlət nəzarətinin keçid dövrünə qorunub saxlanması;
- istehsalın maliyyələşdirilməsinə, mövcud istehsalat obyektlərinin bərpasına və yenilərinin yaradılmasına investisiyaların cəlb olunması;
- enerji resurslarının daxili və xarici bazarlarda rəqabətli, maliyyə baxımından davamlı təşkilati strukturların yaradılması;
- Azərbaycanın və digər MDB ölkələrinin təsərrüfat subyektlərinin, transmilli strukturların yaradılması daxil olmaqla, inteqrasiyası;
- neft-qaz əməliyyatlarının həyata keçirilməsi və iqtisadiyyat sahələrinin bazar münasivbətlərinə keçməsi üçün hüquq bazasının beynəlxalq təcrübəyə uyğunlaşdırılması.

Butün bunlar Azərbaycanın neft və qaz kompleksinin inkişafı ilə bağlı innovasiya fəaliyyətinin düzgün tənzimlənməsi, onun xüsusiyyətlərinin daim təhlil edilməsi, innovasiya-investisiya proseslərinin aktivləşdirilməsi üzrə tədbilər kompleksini elmi əsaslarla yaratmaq, investisiya qoyuluşunu yüksəltmək, ölkənin iqtisadi inkişafının müasir şəraitində enerji sənayesinin bu sahəsinin innovasiya siyasətinin optimal istiqamətlərini seçmək imkanı verir.

Respublkamızın neft və qaz sənayesinin gələcəyi yalnız karbohidrogen xammalının dünya bazarı qiymətləri səviyysi ilə deyil, yeraltı sərvətlərdən istifadə, bu sahənin resirs bazasının genişləndirilməsi, sahə strukturunun yaxşılaşdırılması, investisiyaların artması və innovasiya layihələrinin reallaşdırılması məsələlərinin qəti həlli ilə də müəyyən ediləcəkdir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının "Ətraf mühitin mühafizəsi haqqında" qanunu. BB, №40, 2000, s.40
2. Azərbaycanın sənayesi. Statistik məcmuə. Bakı: DSK, 2020, 276 s.
3. SOCAR-ın 2015-2019-cu illər üzrə illik hesabtları.
4. SOCAR-ın 2015-2019-cu illər üzrə əsas texniki iqtisadi göstəricilər topluları.
5. A.G.Hüseynov. Neft və ekoloji təhlükəsizlik:reallıqlar və perspektivlər, Bakı, 2021, 434 səh.
6. M.Əliyev, A. Huseynov və b, Neft-qaz sənayesinin iqtisadiyyatı və idarə edilməsi, Bakı, 2016, 553 səh.
7. Q.Ə.Səfərov, M.B.Məmmədova, Neftqazçıxarmada istehsal səmərəliliyinin yüksəldilməsi ehtiyatları, Bakı, 2014. 384 səh.
8. G.Gənciyev bə b. Transmilli korporasiyalar, Bakı,2007, 192 səh.

AZƏRBAYCANIN NEFT-QAZ RESURSLARINDAN SƏMƏRƏLİ İSTİFADƏNİN BƏZİ MƏSƏLƏLƏRİ

Nəsimi Əhmədov, i.f.d., dosent, a.e.i,
AMEA İqtisadiyyat İnstitutu
nasimi_akhmedov@yahoo.com

2020-ci ilin əvvəllərində koronavirus epidemiyasının bütün dünyaya yayılaraq pandemiyaya çevrilməsi, eləcə də dünya bazarlarında neftin qiymətinin kəskin şəkildə ucuzlaşması Azərbaycan iqtisadiyyatına, sosial-iqtisadi vəziyyətə mənfi təsirlərin yaranmasına səbəb olmuşdur. Koronavirus pandemiyası qlobal problemdir və onun həlli yalnız bütün bəşəriyyətin birgə səyləri nəticəsində mümkündür. Dünya iqtisadiyyatında qloballaşmanın geniş vüsət almasında neft-qaz resursları mühüm rol oynayır, lakin koronavirus pandemiyası həm dünya neft sənayesinə, həm də qloballaşma proseslərinə ciddi ziyan vurmaqdadır. Neft ixrac edən ölkələr (həm OPEK, həm də qeyri-OPEK) fəaliyyətlərini dünyadakı ümumi iqtisadi konyunkturanı və ortamüddətli perspektivdə iqtisadi inkişaf templərindəki azalma ehtimalını nəzərə almaqla daha yüksək mənfəət əldə edilməsinə şərait yaradan qiymət səviyyəsini təmin etməyə yönəltməlidirlər. Lakin hazırkı şəraitdə karbohidrogen hasil edilən müxtəlif ölkələrdə hasilat texnologiyalarının, resursların mənimsənilmə və keyfiyyət xüsusiyyətlərinin, istehsal xərclərinin fərqlənməsi ortaq məxrəcə gəlməyə imkan vermir.

Azərbaycan ərazisinin müxtəlif hissələrində geniş yayılmış hər cür zəngin təbii sərvətlər içərisində neft və qaz ehtiyatları ölkənin inkişafı baxımından hər zaman müstəsna əhəmiyyətə malik olmuşdur. Ölkənin inkişafı və tərəqqisinə, xalqın rifahının yüksəldilməsinə xidmət edən neft və qaz ehtiyatlarından səmərəli istifadə dövlət müstəqilliyinin bərpasından sonra daha mühüm əhəmiyyət kəsb etmişdir. Müstəqillik illərində ölkədə dayanıqlı və rəqabətqabiliyyətli iqtisadiyyatın inkişafı, sosial-iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsi, regionların tarazlı inkişafı üçün geniş imkanlar yaranmışdır. Ölkədə qəbul olunmuş və artıq həyata keçirilməsinə başlanılan milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji yol Xəritələrində orta və uzunmüddətli perspektivdə Azərbaycan iqtisadiyyatının inkişafına təsir edəcək qlobal meyllərdən biri kimi neft-qaz amili və qiymətləri göstərilir, həmçinin əldə edilmiş makroiqtisadi sabitlik və rifah üzərində neft amilinin mühüm təsirə malik olduğu qeyd olunur. Əvvəlki dövrlərdə Azərbaycanın zəngin neft-qaz sərvətlərindən milli mənafelər naminə istifadə edilməməsi, böyük həcmdə hasil edilmiş xam neftin yüksək gəlir gətirən emalının əsasən ölkədən kənarda aparılması ölkədə məhsuldar qüvvələrin qeyri-bərabər inkişafına, sosial-iqtisadi inkişaf səviyyəsində böyük fərqlərin yaranmasına və daha da dərinləşməsinə səbəb olmuşdur.

2000-2014-cü illər ərzində neft gəlirlərinin hesabına reallaşdırılmış aktiv şəkildə əsas kapitala investisiya qoyuluşu xarakterli iqtisadi artım modeli 2014-cü ilin sonlarından dünya bazarında neftin qiymətlərinin kəskin şəkildə ucuzlaşması ilə məhdud maliyyə imkanları ilə üzləşmiş, bu isə tədiyyə balansına, iqtisadi aktivliyə mənfi təsir etmiş, milli valyuta iki dəfə devalvasiyaya uğramış, maliyyə və fiskal risklər yaranmışdır. Bütün bunlar kapital əsaslı modeldən məhsuldarlıq-səmərəlilik əsaslı artım modelinə transformasiyanın zəruri olduğunu göstərir. 2025-ci ildə isə ölkənin səmərəlilik əsaslı modeldən innovasiya əsaslı modelə keçməsi nəzərdə tutulur. Bu isə neft-qaz sərvətlərindən milli iqtisadiyyatın davamlı və inklüziv inkişafını təmin edəcək istiqamətdə səmərəli və optimal istifadə edilməsini tələb edir. Bununla yanaşı, dünya bazarında neft qiymətlərinin tərəddüdlü xarakteri, hasilat göstəricilərinin dəyişməsi əldə edilən gəlirlərin qeyri-sabit olmasına səbəb olur və beləliklə də ölkədə ÜDM-in həcminin formalaşması sənayenin əsas hissəsini təşkil edən neft sektorunun təsir dairəsindən çıxa bilmir. Xam neft və təbii qaz hasilatı ÜDM-in formalaşmasında yüksək xüsusi çəkiyə malik olan sənayenin əsas hissəsini təşkil edir. Sənayedə yaradılmış əlavə dəyərin 2010-cu ildə 92,2%-i, 2016-cı ildə 83,7%-i, 2017-ci ildə 84,2%-i, 2018-ci ildə 86,9%-i və 2019-cu ildə isə 85,3%-i neft sektorunun payına düşmüşdür. Xam neft və təbii qaz hasilatı məhsullarının dəyərinin artması bu göstəricilərin yüksəlməsinə təsir göstərir. Sənaye istehsalının 2009-cu ildə 80,9%-i, 2015-ci ildə 70,9%-i, 2016-cı ildə 72,8%-i, 2017-ci ildə 75,9%-i, 2018-ci ildə 78,6%-i, 2019-cu ildə isə 75,3%-i neft sektorunun payına düşmüşdür.

Son dövrdə xam neft və təbii qaz hasilatında kapital qoyuluşlarının gətirdiyi gəlir 2010-2011-ci illərlə müqayisədə aşağı düşmüşdür. Əsas kapitala investsiyaların həcmi yüksəlmişdir ki, bu da əsasən xarici investisiyaların hesabına baş vermiş, daxili investisiyaların payı isə azalmışdır. ARDNŞ üzrə neft quyularının işlək fondunda quyuların 60%-ə qədəri kiçik debitli və çox böyük sulaşma dərəcəsinə malik olduğuna görə son işlənmə mərhələsindədir. Neft məhsullarının maya dəyərində xam neftin əldə edilməsinə çəkilən xərclərin xüsusi çəkisi 85-90% təşkil etdiyinə görə, maya dəyərinin azaldılması ehtiyatlardan səmərəli istifadə etməyə imkan verəcəkdir. Köhnə yataqlarda hasilat göstəricilərinin yaxşılaşdırılması üçün xarici investisiyalarla yanaşı, milli investisiyalar da yönəldilməli, kiçik sahibkarlar güzəştli şərtlərlə istismara cəlb edilməli, neftqazçıxarma müəssisələri yenidən təşkil edilməklə səhmdar əməkdaşlıq qurulmalı və neftin emalına daxili və xarici investisiyaların artırılması təşviq edilməlidir. Uzunmüddətli istismar dövrü keçmiş neft yataqlarının işlənilməsi təkmilləşdirilməli, ehtiyatları yenidən hesablanmalı, maddi, əmək, material ehtiyatlarından, əsas fondlardan istifadənin səmərəliliyi artırılmalı, əmək haqqı və amortizasiya xərcləri optimallaşdırılmalı, xammal itkilərinin qarşısı alınmalıdır. Sahibkarlıq mənfəətinin normativ kəmiyyətinin məcmu gəlirlərdə müəyyən edilməməsi müasir sahibkarlar üçün mənfəətin normativ kəmiyyətinə tərəf meyl etməyə şərait yaradır ki, bu da rentanın miqdarının (mütləq və differensial) düzgün müəyyən olunmasına imkan vermir.

Emal sənayesində xüsusi çəkisinə görə ikinci yeri tutan neft məhsullarının istehsalı 2019-cu ildə əvvəlki ilə nisbətən 3,1% artaraq 2,918 mlrd manat təşkil etmişdir. Son dövrdə neft məhsullarının istehsalına yönəldilmiş investisiyalar azalmağa doğru meyl edir və yalnız daxili investisiyalardır. Neft emalı sənayesində kapital qoyuluşlarının gətirdiyi gəlir 2010-cu ilə nisbətən 2011-2012-ci illərdə azalsa da, 2013-2014-cü illərdə yüksəlmiş, lakin son dövrdə yenə də azalmaqdadır. Neft və qaz xammalının onun istifadə ediləcəyi sahələr, yəni neft məhsulları və neft-kimya məhsulları istehsalı arasında dəqiq və məqsədəuyğun bölüşdürülməsi zəruridir. Emal zavodlarının modernləşdirilməsi başa çatdırılmayana qədər ARDNŞ-nin hasil etdiyi neftin xeyli hissəsinin emal olunmaq üçün onlara verilməsi məqsədəuyğun deyildir. Emal kompleksində texnoloji qurğuların xammal ilə proqnoza görə faktiki orta yüklənməsi 2016-cı ildə 2010-cu ilə nisbətən emal kompleksində 14,5%, H.Əliyev ad. BNEZ-də 12,0%, "Azərneftyağ" NEZ-də isə 18,3% aşağı düşmüşdür ki, bu da xam neftin emal potensialından istifadənin səmərəliliyini azaldır. Son illərdə neftin emal dərinliyi yüksəlsə də, açıq rəngli neft məhsullarının çıxım faizi azalmışdır. Hətta xam neftin yüksək qiymətlərində yüksək marja əldə edən, açıq rəngli məhsulların çıxımı Avropa normalarından yuxarı, emal dərinliyi daha yüksək olan, mürəkkəb sxemli və böyük kapital qoyuluşlu ABŞ emal zavodlarının texnoloji layihələrinin Azərbaycanda tətbiqi məqsədəuyğundur. Beləliklə, texnoloji proseslərin səviyyəsinin yüksəldilməsi ilə neft-qaz emalı və neft-kimya məhsullarının çeşidinin artırılması, keyfiyyətinin yüksəldilməsi və dünya standartlarına çatdırılması, təbii və səmt qazlarının emal səviyyəsinin yüksəldilməsi təmin ediləcəkdir.

Aşağı karbonlu enerji sisteminə və iqtisadiyyata keçid hələ də yerin təkindən hasil edilən yanacağa əsaslanan sənaye sahələrindən və ya mineral yanacağın özündən hələ də əhəmiyyətli şəkildə asılı olan ölkələr üçün problemlər yaradır. Aşağı karbon enerjisi həm ənənəvi enerjiyə və həm də nüvə, hidro, külək, günəş, geotermal və digər bərpa olunan enerjilərin daxil olduğu aşağı karbon tərkibli alternativ enerjiyə qənaəti ehtiva edir. Bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi, onların texnologiyası və səmərəlilikdəki nailiyyətlərlə xərclərin azaldılması mühüm əhəmiyyət kəsb edir. Bu mənbələrdən istifadənin genişləndirilməsi fikrinin əsasında dayanan başlıca səbəblərdən biri qlobal iqlim dəyişikliyinin azaldılmasıdır. 2015-ci il Paris müqaviləsi aşağı karbon innovasiyalarına sərmayə yatırmaq üçün aydın və iddialı bir istiqamət müəyyən etmişdir. Təhlükəsizliyi, yüksək səmərəliliyi və təmizliyi əsas götürməklə aşağı karbon tərkibli enerjinin inkişaf etdirilməsi qlobal iqlim dəyişikliyini və mineral enerjinin tükənməsini azaltmaq üçün əsas seçimdir. Qısa müddətdə neftin aşağı qiymətinin dəyişməyəcəyinə dair əsaslar olsa da, əsaslı enerji dəyişikliyinin təşviq edilməsi neftin qiymətinin artması ilə deyil, təmiz enerjinin iqtisadi cəhətdən daha sərfəli olmasını təmin edən innovasiya və texnoloji inkişaf mexanizmi sayəsində olmalıdır. Əsaslı enerji dəyişikliyinin həyata keçirilməsi bərpa olunan enerji mənbələrindən geniş istifadəni tələb edir.

Koronavirusun yaratdığı qlobal böhran dünya iqtisadiyyatına mənfi təsir göstərməkdədir. Ölkədə effektiv borc idarəçiliyi yaratmaqla etibarlılığı artırmaq, maliyyə bazarında rəqabət səviyyəsini yüksəltmək, dövlət və özəl istiqrazların gəlir əyrisini formalaşdırmaq, təkrar istiqraz bazarını inkişaf etdirmək, pensiya və sığorta fondlarından investor kimi istifadə edərək koronabondlar buraxmaqla səhiyyə sistemini və digər sosial sahələri maliyyələşdirmək məqsədəuyğundur.

AZƏRBAYCANDA QAZ TƏSƏRRÜFATI İNFRASTRUKTURUNUN MÜASİR VƏZİYYƏTİ VƏ PRESPEKTİV İNKİŞAFININ TƏŞKİLİ VƏ İDARƏ EDİLMƏSİ

M.A.Məmmədov, i.e.d., professor AzMİU
ORCİD İD: 0000-0002-0062-840X
m.m.asirli @ mail.ru
M.M.Bədəlov, doktorant AzMİU
mayis. badalov@gmail.com

Xülasə

Məqalədə ölkənin qaz təchizatı infrastrukturunun formalaşması, yenidənqurulması, inkişaf mərhələri,qazın nəqlinin vəziyyəti və ölkənin iqtisadi rayonları üzrə qaz itkiləri təhlil edilmiş və itkilərin səbəbləri müəyyənləşdirilmişdir. Eyni zamanda milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə kommunal xidmətlər - qaz təsərrüfatının Strateji Yol Xəritəsində nəzərdə tutulan prioritetləri üzrə və regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarında tədqiq olunan sahə ətraflı araşdırılmışdır. Yəni bu sahənin infrastrukturunun yenidənqurulması, modernləşdirilməsi, yeni qazpaylama lahiyələrinin həyata keçirilməsi və qaz itkilərinin azaldılması və istehlakçıların qaz təminatı istiqamətində "Azəriqaz" İB tərəfindən aparılan tədbirlərin icra vəziyyətinə baxılmış və nəticələri dəyərləndirilmişdir.

Açar sözlər: infrastruktur, qaz, istehlakçılar, qeyri-neft sektoru, strateji hədəf

Ölkənin iqtisadi siyasətində qeyri-neft sektorunun rəqabətqabiliyyətli inkişafı prioritet istiqamət kimi "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas istiqamətləri üzrə Strateji Yol xəritəsin"nin müvafiq tədbirlərində nəzərdə tutulmuşdur. Bu tədbirlər ölkədə həyata keçrilən inkişaf xarakterli islahatlar çərçivəsində müasir tələblərə uyğun dahada təkmilləşdirilmişdir.Bu islahatların davamlılığını təmin etmək üçün yeni iqtisadi inkişaf inkişaf strategiyasını hazırlamaq məqsədi ilə 2016-cı ildə prezidentin səramcamı ilə yuxarıda qeyd olunan "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" təsdiq edilmiş və bu strategiyaya uyğun olaraq nəzərdə tutulmuş istiqamətlərin inkişafını təmin edən inkişaf planları hazırlanmışdır. Bu inkişaf planlarında qaz təchizatı infrastrukturunun yenidən qurulması və prespektiv inkişaf sahəsidə nəzərdə tutulmuşdur. Yəni Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi ,su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi 2016 – cı ilin dekabr ayında təsdiq edilmiş və "Azəriqaz" İB və SOCAR-ın müvafiq müəssisələri və digər müvafiq müəssisə təşkilatlar tərəfində müəyyən edilmiş icra müddətində tədbirlər həyata keçrilir.

Təbii qazın nəqli və istehlakçılara paylanmasının vəziyyətinin təhlili göstərir ki, ölkədə mövcud olan qaz təchizatı sisteminin müəyyən hissəsi hələ 1960-1980 cı illərdə qurulmuş səbəkələrdən ibarət olduğu üçün qaz itkilərinin həcmi böyük olmuşdur.Bunun nəticəsində yalnız 2015- ci ildə təbii qazın paylanmasızamanı ümumi itkinin həcmi 1,07 milyard m3 təşkil etmişdir. Onuda qeyd etmək lazımdır ki, Strateji Yol Xəritəsi qəbul edilənə qədər ölkədə təbii qaz üzrə itkilər ən çox Bakı şəhəri üzrə baş vermişdir.Yəni , bu göstərici Bakı şəhəri üzrə 2016 –cı ildə 68,4 % -ni ,digər regionlarda isə ümumu itkilərin 31,6%-ni təşkil etmişdir. Bu məqsədlə qaz itkilərini azaltmaq və mərhələlərlə tam tənzimləmək üçün SYX-də ilk öncə mövcud şəbəkənin ,o cümlədən qazpaylama xətlərinin qiymətləndirilməsinin həyata keçirilməsi , bu qiymətləndirmənin nəticələrinə əsasən sahənin infrastruktur sahələrunin yenidən qurulması və modernləşməsinin müəssisələr üzrə

inkişaf planları hazırlanmış və bu plana müvafir qaz təchizatı sisteminin yenidən qurulması Bakı şəhəri və ılkənin regionları üzrə icra müddətinə müvafiq həyata keçrilir.

Bununla yanaşı qeyd olunan yol xəritəsində nəql olunan təbii qazın keyfiyyət göstəricilərinin dünya standartlarının tələblərinə uyğunlaşdırmaqü məqsədi ilə qazpaylayıcı sistemin texniki vəziyyətinin yaxşılaşdırılması və isteklakçıların tələabatlarını ödənilməsi və məmuniyyətinin artırılması istiqamətlərində tədbirlər həyata keçrilir .

Strateji Yol Xəritəsinin 7.4. Strateji hədəf "Səmərəli və effektiv qazpaylama infrastrukturunun yaradılması" pioritet üzrə "Azəriqaz"İB –də həyata keçrilən tədbirlərin icrasının təhlili göstərir ki, təbii qazın paylaşması ilə bağlı bütün növ itkilərin minumuma endirilməsi müəssisələr qaşısında hədəf kimi qoyulmuş və bunun təmin edilməsi üçün müəyyən edilmiş prioritetlərin həyata keçirilməsi ölkə əhalisinin fasiləsiz və təhlükəsiz təbii qazla təchiz edilməsini təmin edilməsində mühüm əhəmiyyətə malikdir. Belə ki, mövcud qaz təchizatı sisteminin yuxarıda qeyd edildiyi kimi xeyli hissəsi keçmiş sovet ittifaqınla mövcud olan standartlar əsasında qurulmuş şəbəkələrdən ibarət olduğu üçün ,qaz itkilərinin həcmi böyükdür, bu isə mövcud şəbəkənin gücünün artan tələbata uyğun olmaması nəticəsində qaz təchizatı rejimlərinin tənzimlənməsində böyük çətinliklərin yaranmasına kommunikasiyaların sıradan çıxmasına və təbii qaz itkilərinin artmasına səbəb olmuşdur. Beləki , qeyd edildiyi kimi aparılan araşdırma göstərir ki, ümumi itkinin səviyyəsinin əvvəlki illərə nisbətən azalmasına baxmayaraq , 2015-ci ildə "Azeriqaz İB" tərəfindən satın alınan təbii qaz həcminin 18.6%-i təşkil etmiş , 2016-cı ildə isə 12.7% təşkil etmişdir.

Ölkənin daxili qaz paylayıcı şəbəkələrinin 2010-2016-cı illəri əhatə edən dövründə qazın qəbulunun vəziyyətinin araşdırılması qaz paylayıcı səbəkənin bu dövründəki vəziyyətini dəyərləndirməyə və bütün növ itkilərin azaldlmsı istiqamətində konkret və real tədbirlərin müəyyən edilməsinə imkan verir. Bu araşdırmanın nəticələri aşağıdakı diaqramda verilmişdir:



Bu dövrdə Azərbaycanda təbii qaz itkisinin faiz göstəriciləri: 2010-cu il- 41.2%, 2011cı il - 31.7% , 2012-ci il 24.4%, 2013 – cü il 19.9% , 2014-cü il- 19.1% , 2015- cı il 18.6 % və 2016 -cıil 12.7% . Bunlar ilə yanaşı, SOCAR –ın illik hesabatının təhlili göstərir ki, şirkət üzrə ümumi qaz itkisi 2010-cu ildə 16.7% , 2015-ci ildə 8.1% , 2016-cı ildə 5.5% olmuşdur. Respublikada təbii qaz üzrə itkilərin böyük əksəriyyəti Bakı şəhərində baş verir. Belə ki, 2016-cı ilin birinci yarısında ölkənin ümumi təbii qaz istehlakının 49.7% -i, eləcə də qaz təchizatı zamanı baş vermiş itkilərin 68.4%-i Bakı şəhərinin payına düşür. Təhlil göstərir ki, texniki itkilər əsasən Zaqatala, Tərtər, Salyan, Şəmkir, Xaçmaz, Ağsu, Sumqayıt rayonları, Gəncə regionu, Lənkəran regionu, Bakı regionlarında baş verir. Belə ki, 2016-cı ildə ümumi qaz sərfiyyatında Bakı regionu 49.7% , digər regionlar 50.3%, ümumi qaz itkilərində Bakı regionu üzrə 68.4% və digər regionlarda isə 31.6 % olmuşdur. Bunların əsas səbəblərindən biri texniki problemlərlə, əsasəndə infrastrukturun köhnə olması ilə əlaqədardır. Yəni, Bakı və Abşeron regionunda təbii qaz təchizatı 40 ildən artıq müddətdə istismar olunan qaz boruları vasitəsi ilə həyata keçirilir, bu da 2015-ci ildə bu regionda sızmalar ilə müşahidə olunan 1.1 milyard kubmetrdən artıq qaz itkisinə səbəb olmuşdur. Xüsusilə, Bakı və ətraf kənd qəsəbələrdə texniki itkilərin azaldılması məqsədi ilə köhnə və mürəkkəb infrastrukturun

modernləşdirilməsinə, təzyiq səviyyəsinin səmərəsizliyinin aradan qaldırılmasına əsaslı investisiya qoyuluşu cəlb edilməsi yuxarıda qeyd olunan dövrdə ən prioritet hədəf olaraq həyata keçirilməsi məqsədəuyğun olub və bu istiqamətdə tədbirlər Strateji Yol Xəritəsində və regionların sosial-iqtisadi inkişafı üzrə 2004-2023-cü illəri əhatə edən dövlət proqramlarında nəzəddə tutulan tədbirlərin icra müddətinə müvafiq həyata keçirilməsi təmin edilir.

Strateji Yol Xəritəsində ölkə daxili magistral və paylayıcı qaz şəbəkələrində təbii qazın qəbulu və itkisi təhlil edilmiş və aşağıdakı diaqramda verilmişdir.



Yuxarıda tərtib olunmuş diaqramdakı göstəricilərin təhlili göstərir ki, Azərbaycanda magistral və paylayıcı qaz şəbəkələrində təbii qazın itkisi faiz ilə 2010-cu ildə-16.7% , 2011-ci ildə - 11.9%, 2012-ci ildə 8.7%, 2013-cü ildə - 7.2%, 2014-cü ildə - 7.7% , 2015-ci ildə - 8.1% və 2016-cə ildə isə - 5.5% olmuşdur.

Strateji Yol Xəritəsində SOCAR-ın "Azeriqaz" İB tərəfindən həyata keçiriləcək işlər "Mövcud şəbəkələrin hərtərəfli qiymətləndirilməsi və inkişaf planın hazırlanması" tədbirində prioritet hədəf kimi nəzərdə tutulmuşdur. Aparılan təhlil göstərir ki, "Azəriqaz" İB-nin "Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dairStrateji Yol Xəritəsi"- ində qaz təchizatı ,qazpaylama infrastrukturları və qaz itkisi üzrə nəzərdə tutulan tədbirlər həyata keçirilir və hal-hazırda bu istiqamətdə işlər davam etdirilir. Eyni zamanda ,SYX-nə müvafiq təqazpaylama infrastrukturu olmayan ərazilərdə qazpaylama şəbəkəsinin yaradılması və modernləşdirilməsi üçün baş plan hazırlanmış və yeni qazpaylama layihələri həyata keçirilir.

Bunlar ilə yanaşı, ölkənin qazpaylayan sisteminə nəql olunan təbii qazın keyfiyyət göstəricilərinin Beynəlxalq standartların tələblərinə müvafiq tam uyğunlaşdırılması, qazpaylacı sistemin texniki vəziyyətinə mənfi təsirlərin azaldılması və şəbəkəyə ötürülən təbii qazın tənzimlənməsi istiqamətində də müvafiq tədbirlərin hazırlanması və həyata keçirilməsi istehlakçıların məmnuniyyətinin artırılmasında mühüm əhəmiyyətə malikdir. Yuxarıda qeyd olunan priritetlər istiqamətində

Eyni zamanda qeyd olunan tədqiq edilən sahədə aşağıdakı tədbirlərin həyata keçirilməsi Strateji n Yol Xəritəsinin əsas hədəf və istiqamətləri kimi nəzərdə tutulmuşdur: Bu hədəflərə və istiqamətlərə Qazpaylama xəttlərinin tikintisi üçün tenderlərin elan edilməsi; Tikinti fəaliyyəti ilə bağlı əsas icra göstəricilərinin (ƏİG) müəyyənləşdirilməsi; Yığım səviyyəsinin maksimuma çatdırılması və təbii qazdan qanunsuz istifadəyə qarşı cərimələrin tətbiqinin nəzərdən keçirilməsi; Texniki iqtisadi cəhətdən qazlaşdırılması səmərəli olmayan ucqar yaşayış məntəqələrin alternativ mənbələrlə təminatının həyata keçirilməsi aid edilmiş və bunlara müvafiq işlər aparilir.

Bu tədbirlərin həyata keçirilməsindən gözlənilən nəticə və nəticə indikatorların tərkib hissəsi kimi ölkədə təbii qazın paylaşmasında baş verən itkilərin azaldılması yuxarıda qeyd edildiyi kimi 8%-dək ,təbii qaz təchizatı sisteminin Beynəlxalq standartların tələblərinə uyğun olaraq modernləşdirərək təkmilləşdirilməsi; istehlakçıların təbii qaza dinamik artan tələbatının etibarlı şəkildə təmin edilməsi , təbii qaz isttehlakının proqnozlaşdırılmasının asanlaşdırılması və şəbəkədə ehtimal olunan itkinin qısa zamanda aşkarlanması; təbii qaz təchizatı sahəsində mövcud olan ciddi texniki problemlərin aradan qaldırılması və istehlaka səmərəliliyin artım hesabına qənaət edilmiş

təbii qazın TAP/TANAP layihəsi vasitəsi ilə Avropaya ixracı nəzərdə tutulur. Qeyd olunan istiqamətlərin tərkib hissəsi kimi köhnə boru xətlərinin modernləşdirilməsi və ya tikintisi üçün 1 milyard 515 milyon manat investisiya qoyuluşu proqnozlaşdırılır.

Qeyd etmək lazımdır ki, SOCAR-ın "Azeriqaz" İB tərəfindən təbii qazın paylanmasında əlavə nəticələrin əldə edilməsi məqsədi ilə yeni investisiya layihəsi hazırlanmışdır. Strateji Planda qeyd olunduğu kimi bu tədbirlərin yerinə yetirilməsində bir sırs risklərin, o cümlədən tikinti-quraşdırma işləri üçün tələb olunacaq investisiyalar üzrə maliyyə problemləri, tədbirlərin icrası zamanı yarana biləcək çətinliklər və istehlakda səmərəliliyin artırlması hesabına qənaət edilmiş təbii qazın ixrac qiymətinin kəskin azalmasının gözlənilməsi ehtimal olunur.

Beləliklə, Strateji Yol Xəritəsi çərçivəsində 2025-ci il və ondan sonrakı dövrdə və regionların sosial iqtisadi inkişafı üzrə 2009-2023-cü illəri əhatə edən dördüncü dövlət proqramı çərçivəsində Bakı şəhərində qaz təchizatında itkilərin azaldılaraq Avropanın qaz paylamadakı müqayisəli itki səviyyələrinə çatdırılması nəzərdə tutulur. Qeyd etmək lazımdır ki, qazın paylanması zamanı baş verən itkiləri aşkar edərək ,tənzimlənmənin aparılması üşün əlavə mövcud qaz-paylama sistemində bütün istifadəçilərin sayğaclarından istifadə edilməsi istiqamətində səmərəli fəaliyyəti təmin edilməlidir. Bu isə qaz təsərrüfatının məlumat bazasının daha mükəmməl olmasına və nəticədə şəbəkəyə səmərəli nəzarət etmək, eyni zamanda yığımın səviyyələrinin artırılmasına nail olmaq imkanı verəcəkdir.Strateji Yol Xəritəsində qaz təsərrüfatı sahəsi üzrə bu dövrdə hədəf indikatorundan müəyyən edilmişdir.

Ədəbiyyat

1. "Azərbaycan Respublikasının regionlarının sosial – iqtisadi inkişafı üzrə 2009-2023-cü illər üzrə dövlət proqramı" hesabat Bakı 2021.

2. "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsi", Bakı, 2016 -il

3 ".Azərbaycan Respublikası kommunal xidmətlər – qaz təsərrüfatı" Azəriqaz İB, hesabat, Bakı 2020-ci il.

M.A.Mamedov

Doctor of Economics, Professor of Azerbaijan University of Architecture and Construction

M.M.Badalov

doctoral student, Azerbaijan University of Architecture and Construction

The current state of the infrastructure of the gas industry and the organization and management of its prospective development in Azerbaijan

Summary

The article analyzes the formation, reconstruction, stages of development of the country's gas supply infrastructure, the state of gas transportation and gas losses in the country's economic regions, identifies the causes of losses. At the same time, utilities were studied in detail in the national economy and key sectors of the economy - an area studied in the priorities of the Strategic Roadmap for the gas industry and state programs for the socio-economic development of regions. In other words, the implementation of the activities of the Azerigaz PA on the reconstruction and modernization of the infrastructure of this sector, the implementation of new gas distribution projects, the reduction of gas losses and the supply of gas to consumers was considered, the results were assessed.

Keywords: infrastructure, gas, consumers, non-oil sector, strategic target

М.А.Мамедов
д.э.н., профессор АзАСУ
М.М.Бадалов
докторант АзАСУ

Современное состояние инфраструктуры газового хозяйства и организация и управление её перспективным развитием в Азербайджане

Резюме

В статье анализируется формирование, реконструкция, этапы развития инфраструктуры газоснабжения страны, состояние транспортировки газа и потери газа в экономических регионах страны, выявляются причины потерь. В то же время детально изучены коммунальные услуги по национальной экономике и ключевым секторам экономики - направлению, изучаемому в приоритетах Стратегической дорожной карты газовой отрасли и государственных программ социально-экономического развития регионов. Иными словами, была рассмотрена реализация мероприятий ПО «Азеригаз» по реконструкции и модернизации инфраструктуры этого сектора, реализации новых газораспределительных проектов, сокращению потерь газа и поставке газа потребителям, оценены результаты.

Ключевые слова: инфраструктура, газ, потребители, ненефтяной сектор, стратегическая цель.

TEXNİKİ TƏNZİMLƏNMƏNİN TƏTBİQİNİN NEFT-QAZ SEKTORUNDA GENİŞLƏNDİRİLMƏSİ PERSPEKTİVLƏRİ

Hacızadə Nurlan Elşən oğlu
Dissertant, İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu
"Azərbaycan Standartlaşdırma İnstitutu", şöbə müdiri
ORCID ID: 0000-0003-2158-5362
E-mail: hajizadeeh@mail.ru

Xülasə

Müasir dünyada iqtisadi inkişafın mühüm vektorlarından biri kimi insanın təsərrüfat və digər fəaliyyətlərinin neqativ nəticələrinin minimuma endirilməsi çıxış edir. Bundan irəli gələrək, yüksək inkişaf etmiş ölkələr məhsulların hazırlanmasına məcburi və könüllü tələblər qoyur və silsilə tədbirlər həyata keçirirlər. Bu istiqamətdə dövlətin zəruri tənzimləyici fəaliyyəti məcburi tələblərin müəyyənləşdirilməsi, onların düzgün yerinə yetirilməsi və sanksiyaların tətbiqi kimi vəzifələri əhatə edir. Bütün bu proseslər isə texniki tənzimləmə vasitəsi ilə həyata keçirilir. Texniki tənzimləmə prosesləri neft-qaz sektorunda da özünəməxsus rol oynayır. Bu baxımdan tədqiqat işləməsində neft-qaz sektorunda texniki tənzimlənmənin tətbiqinin genişləndirilməsi perspektivlərinin müəyyən edilməsi ön plana çıxarılır.

Açar sözlər: *neft-qaz sektoru, texniki tənzimləmə, standartlaşma, uyğunluğun qiymətləndirilməsi.*

Texniki tənzimləmə institutunun rolu və əhəmiyyəti müasir dünyada damalı olaraq yüksəlməkdədir. Texniki tənzimləmə məhsul istehsalının keyfiyyətini və təhlükəsizliyini təmin etməklə yanaşı, iqtisadi artımı da davamlı stimullaşdırmaq gücündədir. İqtisadiyyatın bütün sahələrində olduğu kimi, neft-qaz sektorunda da texniki tənzimləmə təsirini genişləndirməkdədir. Bu baxımdan tədqiqat işləməsində neft-qaz sektorunda texniki tənzimlənmənin tətbiqinin genişləndirilməsi inkişaf perspektivləri ön plana çıxarılır. Statistika göstərir ki, təhlükəli məhsulların istifadəsi zamanı sağlamlığa ciddi ziyan vurulması hallarının sayı hələ də kifayət qədər böyük olaraq qalır. Avropa İttifaqında fəaliyyət göstərən "Təhlükəli qeyri-ərzaq malları haqqında sürətli bildiriş sistemi"nin (*The rapid alert system for dangerous non-food products*) məlumatına görə, Avropa Komissiyası hər gün özünün milli orqanlarından bazarlarda aşkar edilmiş təhlükəli məhsullar haqqında xəbərdarlıqlar alır. Texniki tənzimləmə məsələləri dünya ictimaiyyəti üçün bir prinsip olaraq Dünya Ticarət Təşkilatının da ən mühüm sənədləri sırasında yer alır. Onun bu məqsədləri tənzimləyən "Ticarətdə Texniki Maneələrə dair Saziş"ində ("*TBT Sazişi*") beynəlxalq ticarətdə artıq maneələrin yaradılmasının yolverilməzliyi şərti qoyulmuş və "technical regulation" (*texniki tənzimləmə*) termini tətbiq edilmişdir. Texniki tənzimləmə məsələləri bir sıra digər ölkələrin normativ-huquqi aktlarında, o cümlədən Azərbaycan qanunvericiliyində də geniş əksini tapır. Bu istiqamətdə bütün məsələlər 2019-cu ildə qəbul

olunmuş "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikası Qanunundan başlanğıc alır.

Vurğulanmalıdır ki, texniki tənzimləmə dövlətin sosial-iqtisadi siyasətinin həyata keçirilməsi üçün hüquqi alətlərdən istifadəni nəzərdə tutan idarəetmənin bir növüdür. Onun aksioloji əsasları milli bazarın dünya iqtisadi sisteminə maksimum inteqrasiyasına və məhsullar üçün məcburi tələblərin beynəlxalq norma və qaydalara uyğunlaşdırılmasının təmin edilməsinə yönəldilmişdir. Bu isə nəticəvi olaraq dövlətin iqtisadi böyüməsini nəzərdə tutur. İqtisadiyyat çevrəsində texniki tənzimləməyə həmçinin informasiya asimmetriyası kimi və eyni zamanda, xarici təsirlərlə bağlı klassik bazar uğursuzluqlarına bir reaksiya kimi də baxılır.

Texniki tənzimləmə geniş aspektdə məhsula olan tələblərin məcburi və könüllülük əsasında tətbiqinin müəyyən edilməsi və uyğunluğun qiymətləndirilməsi sahəsində hüquqi münasibətləri ehtiva edir. Bu elementlərin birincisi məhsullar üçün texniki reqlamentlərin qəbulu və tətbiqi ilə həyata keçirilir. İkincisi standartlaşdırmanı əhatə edir. Üçüncü isə sertifikatlaşdırma və uyğunluq bəyannaməsi yolu ilə həyata keçirilir. Texniki tənzimləmə eyni zamanda, daxili bazarın tənzimlənməsi və xarici ticarətin inkişafı üçün əlverişli şəraitin yaradılması kimi iki kompleks məsələnin həlli üçün də bir əsasdır.

Son bir neçə onillik ərzində texniki tənzimləmənin neft-qaz sektorunda da kəskin yüksəlişi nəzərə çarpır. Materialların təhlili göstərir ki, ümumi kontekstdə neft-qaz sektorunda texniki tənzimləmə siyasəti texniki, texnoloji və ekoloji təhlükəsizliyi əhatə etməlidir. O, bütün adekvat sahələrdə texniki tənzimləmə üzrə vahid mexanizmin formalaşdırılmasını, təsərrüfat subyektlərinin fəaliyyətinin müxtəlif seqmentlərinin qarşılıqlı əlaqəsinin və təşkilatların təhlükəsiz işini təmin edən ümumi və məxsusi prinsiplərini birləşdirməlidir. Bütün bunların hüquqi təminatları və iqtisadi istiqamətləri vahid konseptual sənəddə öz əksini tapmalıdır. Belə bir konsepsiya hazırlanarkən sistemin işləməsi və davamlı inkişafı üçün aşağıdakı müvafiq şərtlər müəyyənləşdirilmişdir:

- mövcud texnoloji və obyekt bölgüsünü, o cümlədən fasiləsizliyi təmin etmək üçün tam və dəqiq səciyyələndirmə;
- texniki tənzimləmə sisteminin elementlərinin seçilməsi, obyektlərin təhlükə dərəcələri və habelə onların milli, regional və ya korporativ səviyyədə texnoloji komplekslərə inteqrasiyasına uyğunluğu;
- tarazlığın qorunub saxlanılmasında sənayenin aktual problemləri ilə texniki tənzimləmənin əlaqəli olması;
- karbohidrogen ehtiyatlarının səmərəli istifadəsinə və resurs qənaətinə yönəlmiş mexanizmlərin stimullaşdırılması;
- tikinti, mədən və nəqliyyat şəraitinin mürəkkəbləşməsində meyllərin, habelə geoloji və iqlim şəraitinin müxtəlifliyinin və bölgələrin iqtisadi inkişaf səviyyəsinin nəzərə alınması;
- investorların (*xarici ölkələr də daxil olmaqla*), fəaliyyət göstərən təşkilatların və ərazilərin (*sosial və iqtisadi inkişaf, sənaye və ekoloji təhlükəsizlik*) şəffaf əlaqələrinin və maraqlar balansının təmin edilməsi;
- yataqların ömrünün müxtəlif dövrlərində təhlükə və risklərin təbiətindəki dəyişikliklərin, "obyektlərin texniki vəziyyətinə görə istismarına" keçmə ehtimalının və məqsədəuyğunluğunun nəzərə alınması.

Reallıq belədir ki, ölkə oriyentasiyasından asılı olmayaraq neft-qaz sektorunda texniki tənzimləmə sistemi beynəlxalq təcrübəni nəzərə almaqla, mövcud normativ-hüquqi və texniki təminat bazası əsasında formalaşmalıdır. Burada Beynəlxalq Standartlaşdırma Təşkilatı - ISO başda olmaqla, dünyəvi və qabaqcıl standartların, həmçinin Amerika milli institutları API və ANSI-nin tələb və təcrübəsi nəzərə alınmalıdır. Bununla belə, həmçinin geniş spektrdə neft-qaz sektorunda texniki tənzimləmə sisteminin dövlət orqanlarının və şirkətlərin maraq balansı və tərəfdaşlığı üzərində qurulmasını nəzərə alaraq, həmin balansa nəzarət edən və onu dəstəkləyən daim fəaliyyət göstərən mexanizmlər işlənməli və konkret olaraq müvafiq işçi şura yaradılmalıdır. Belə bir şura isə öz növbəsində maraqlar balansının dəstəklənməsinə yönəlmiş müstəqil ekspertizaların və təhlili işləmələrin sifarişçisi kimi çıxış etmək imkanına malik olmalıdır. Onun fəaliyyətinin mühüm hissəsini isə bütün qeyd olunanlarla yanaşı, texniki tənzimlənmə sahəsində aparılacaq dərin islahatın və işlənəcək müvafiq konsepsiyanın hazırlanması təşkil etməlidir.

Ədəbiyyat

1."Böyük İqtisadi Ensiklopediya". VII cilddə. / akademik Ziyad Səmədzadənin baş redaktorluğu ilə. Bakı: "Letterpres" nəşriyat evi, 2012-2015.

2.Версана В.Г., Элькина Г.И. 2008. *Техническое регулирование.* Москва: Экономика, 678 с.

3.Матушкина И.Ю., Онищенко Л.А. 2018. *Техническое регулирование: технические регламенты и стандартизация.* Екатеринбург: Издательство Уралского Университета, 208 с.

4.Назаров В.Н., Карабегов М.А., Мамедов Р.К. 2008. Основы метрологии и технического регулирования. Санкт-Петербург: СПбГУ ИТМО, 110 с.

5.Наторова. Ю.В. 2019. Техническое регулирование в заруженых странах: основы и принципы. URL: https://www.smolnews.ru/news/425791.

6.Цапко Е.А. 2013. Основы технического регулирования. Томск: Изд-во Томского политехнического университета, 287 с.

7.www.elshanhajizadeh.com - prof. Elşən Hacızadənin saytı.

8.www.europa.eu.int - EU - Avropa İttifaqı.

9. www.wto.org. - Ümumdünya Ticarət Təşkilatı

10. www.e-qanun.az. - Azərbaycan Respublikasının qanunvericilik aktları.

11.http://www.iea.org - Beynəlxalaq Enerji Agentliyi.

Гаджизаде Нурлан Эльшан оглы
Диссертант, Научно-Исследовательский Институт Экономических Реформ
Азербайджанский Институт Стандартизации, заведующий отделом

Перспективы расширения применения технического регулирования в нефтегазовом секторе

Аннотация

Одним из важных векторов экономического развития в современном мире является минимизация негативных последствий хозяйственной и иной деятельности человека. Поэтому высокоразвитые страны вводят обязательные и добровольные требования к разработке продуктов и осуществляют ряд мер. Необходимая регулирующая деятельность государства в этом направлении включает определение обязательных требований, их надлежащее выполнение и применение санкций. Все эти процессы проходят через технический регламент. Процессы технического регулирования также играют особую роль в нефтегазовым секторе. В связи с этим основное внимание в исследованиях уделяется выявлению перспектив расширения технического регулирования в нефтегазовом секторе.

Ключевые слова: *нефтегазовый сектор, техническое регулирование, стандартизация, оценка соответствия.*

Hajizadeh Nurlan Elshan oglu
Dissertant, Institute for Scientific Research on Economic Reforms.
“Azerbaijan Institute of Standardization”, head of departament

Prospects for expanding the application of technical regulation in the oil and gas sector

Abstract

One of the important vectors of economic development in the modern world is the minimization of the negative consequences of human economic and other activities. Therefore, highly developed countries impose mandatory and voluntary requirements on the development of products and implement a series of measures. Necessary regulatory activities of the state in this direction include the definition of mandatory requirements, their proper implementation and the application of sanctions. All these processes are carried out through technical regulation. Technical regulation processes also play a special role in the oil and gas sector. In this regard, the research focuses on identifying prospects for expanding technical regulation in the oil and gas sector.

Key words: *oil and gas sector, technical regulation, standardization, conformity assessment.*

NEFTQAZÇIXARMA SƏNAYESİNDƏ RİSKLƏRİN İDARƏ EDİLMƏSİNİN METODOLOJİ ƏSASLARI

Məmmədəli Kərimli – doktorant
SOCAR-ın "Neftqazelmitədqiqatlayihə" İnstitutu
Mammadali.karimli@yahoo.com

Xülasə

Məqalədə beynəlxalq neft şirkətinin iş təcrübəsi nəzərə alınmaqla Neftqazçıxarma sənayesində risklərin idarə edilməsinin metodoloji aspektləri araşdırılmış və bu zaman əsas diqqət risklərin və onları şərtləşdirən amillərin təsnifləşdirilməsinə yönəlmiş, hər bir istiqamətin məzmunu açıqlanmış, tədqiq edilən sahədə risklərin azaldılması üçün təşkilati-iqtisadi xarakterli tövsiyələr irəli sürülmüşdür.

Açar sözlər : neftqazçıxarma, risk, idarə etmə, metodologiya, təsnifat

Azərbaycanın neftqazçıxarma sənayesi ölkə iqtisadiyyatının əsasını təşkil etməklə digər iqtisadi fəaliyyət sahələrinin inkişafında, dövlət büdcəsinin formalaşmasında, sosial infrastruktur layihələrinin uğurla həyata keçirilməsində, xarici-iqtisadi əlaqələrin genişləndirilməsində, enerji təhlükəsizliyinin təmin olunmasında müstəsna rol oynayır və növbəti 40-50 il ərzində iqtisadiyyata təsir mövqeyinin saxlayacaqdır. Odur ki, son illər ölkə Prezidenti tərəfindən imzalanmış mühüm sənədlərdə Azərbaycanın neftqazçıxarma sənayesində - sürətləndirilmiş və məqsədyönlü kəşfiyyat işlərinin aparılması, mövcud ehtiyatların maksimal işlənilməsi və bərpa edilməsi, onların maksimum dərəcədə monetizasiyası, hasilatın təkmilləşdirilməsi və əsas aparıcı mexanizmlərdən istifadənin vacibliyi qeyd edilmiş **[2]** və onların icrası ilə yanaşı Azərbaycanın təmiz ətraf mühit və "Yaşıl artım" ölkəsinə çevrilməsi sosial-iqtisadi inkişaf baxımından milli prioritetlər sırasındadır **[1].** Bütün bunların icrası şəraitində risklərin mövcudluğu və artması qaçılmazdır. Qloballaşan dünyada neft-qaz qiymətlərinin artıb-azalan xətlə dəyişməsi, texnologiya və avadanlıqlardan istifadəyə məhdudiyyətlər, sanksiyalar kimi səbəblər ilə əlaqədar olaraq, strategiyalarında müəyyən düzəlişlər etmək məcburiyyətində qalmışdır. Eyni zamanda, neft və qaz şirkətlərinin mürəkkəb koorporativ quruluşu, səhvlərin (risklərin) yarada biləcəyi yüksək maliyyə itkiləri və ekoloji fəlakətlər, sürətli idarəetmə qərarlarının qəbul edilməsinin zəruriliyini nəzərə alaraq, müvafiq sənaye müəssisələrində risklərin idarə edilməsi sisteminin effektivliyinin artırılması ilə bağlı problem aktuallaşdışdır.

Əvvəlcə onu qeyd etmək lazımdır ki, risklərin idarə edilməsi mümkün risklərin əvvəldən müəyyən edilməsi, onların təhlil edilərək və ölçülərək yarana bilmə ehtimalının və potensial mənfi təsirlərin, itkilərin mümkün qədər azalmasına hesablanmış müvafiq qərarların qəbulu və tətbiq edilməsi prosesidir.

Neft və qaz sənayesində əsaslı təhlili və müvafiq həll yollarının strateji səviyyədə tətbiqi uzun müddətli perspektivdə sabit inkişafı təmin edə bilər. Bu sektor üzrə yaranan risklər maliyyə, strateji, əməliyyat və tənzimləmə uyğunluğu aspektləri üzrə təhlil olunur. Onların üzvü tərkib hissəsini şərtləşdirən amillərin təsnifatı tərəfimizdən tərtib edilən 1 saylı şəkildə əks etdirilmişdir.



Şəkil 1. Neftqazçıxarma sənayesində yaranan mümkün risklərin təsnifatı və onları şərtləşdirən amillər (müəllif tərəfindən tərtib edilmişdir) [3; 6; 7]

Həmin risklərin idarə edilməsinə dair xarici şirkətlərin iş təcrübəsinə əsaslanaraq məqalədə onların qısa şərhinə metodoloji baxımdan üstünlük verilmişdir. Aparılan araşdırmalar göstərdi ki, çoxsaylı tədqiqatlar sırasında "Ernst end Yanq" şirkətinin biznes-risklər üzrə işləməsi öz mahiyyəti ilə daha sadə alətdir və 10 əsas istiqamət üzrə təsnifləşdirilmişdir. Əminliklə deyə bilərik ki, həmin istiqamətlər Azərbaycanda fəaliyyət göstərən dövlət və özəl şirkətlər, dənizdə və quruda mövcud olan yataqların axtarışı, quyuların qazılması, yataqların işlənilməsi və istismarı, karbohidrogenlərin nəqli sahədə tətbiq edilən qeyri-təkmil idarəetmə strukturunun mövcudluğu, neft və qazın hasilatı üzrə xərclərin durmadan artması konteksində risklər qaçılmazdır.

Ölkəmizdə uğurla həyata keçirilən neft strategiyası, onun beynəlxalq enerji təhlükəsizliyinə uğurlu tövhəsinin əhəmiyyətini azaltmadan onu da qeyd etmək lazım gəlir ki, risklərin idarə edilməsi kontekstində hələ də beynəlxalq səviyyədə enerji siyasəti sahəsində hökm sürən qeyri-müəyyənlik ildən ilə artmaqda davam edir. Təkcə onu qeyd etmək kifayətdir ki, 21-ci əsrin ən böyük neft dağılması kimi tarixə düşən Meksika körfəzində baş vermiş qəza və digər ekoloji fəlakətlər enerji siyasətində qərar qəbul edilməsi prosesini daha da mürəkkəbləşdirmişdir. Həmin qəzanın nəticələri hələ də dərin su qatlarında neft hasilatı məsələsində narahatlıqlar və fikir ayrılıqları yaratmaqdadır.

Enerji siyasətindəki mövcud qeyri-müəyyənlik fəaliyyətlərin planlaşdırılması, investisiya strategiyasının formalaşdırılması və tələb və təklifin həcmində dəyişikliyə qarşı davamlılığın təmin edilməsi üçün görülən tədbirlərin effektivliyinə mənfi təsir göstərir. Bu da öz növbəsində investisiya fəaliyyətini yavaşlatdığı üçün tələb və təklif arasındakı balanssızlıq ehtimalını artırır. Tədqiq edilən sənaye sferasında risklərin idarə edilməsinin digər istiqamətlərini metodoloji baxımından aşağıdakı kimi şərh etmək olar:

Ehtiyatlara çıxış – Siyasi məhdudiyyətlər və sübut olunmuş ehtiyatlar uğrunda rəqabət: Tələb olunan həcmdə karbohidrogen ehtiyatlarını məqbul xərclərlə hasil etmək hələ də sənaye iştirakçıları üçün əsas problemlərdən biri hesab olunur. Bir çox neft və qaz yataqları istismarı çətin olan coğrafi ərazilərdədir. Orada kəşfiyyat və hasilat xərclərinin əhəmiyyətli dərəcədə artması ilə yanaşı, əlavə kapital qoyuluşlarına ehtiyac ilə əlaqəli risklər artır.

Neft-qaz sənayesində fəaliyyət göstərən şirkətlər bu cür sahələrə çıxışlarını məhdudlaşdıran və ya hətta qadağan edən bir sıra sanksiyalarla qarşılaşa bilərlər. Misal olaraq, ABŞ-da elektrikli nəqliyyat vasitələrinin, bərpa olunana enerji mənbələrinin və digər alternativ yanacaqların istehsalını subsidiyalaşdırmaq üçün vergi qanunlarına və digər qaydalara dəyişikliklər edilməsi sənayenin inkişaf tempini ləngidə bilər. İnkişaf etməkdə olan ölkələrdə siyasi qeyri-sabitlik və təbii ehtiyatların milliləşdirilməsi və birbaşa dövlət tərəfindən istismarı karbohidrogen tədarükündə azalmalara və dayanmalara səbəb ola bilər.

Eyni zamanda, beynəlxalq və milli neft şirkətləri arasında yeni yataqlara çıxış üçün rəqabətin daha da güclənməsi gözlənilir. Beynəlxalq neft şirkətlərindən fərqli olaraq, milli şirkətlər bir sıra əhəmiyyətli üstünlüklərə malikdirlər: hökumət və dövlət investisiya fondlarının dəstəyi, eləcə də inkişaf etməkdə olan iqtisadiyyatları olan Asiya ölkələrinin bazarlarına coğrafi yaxınlıq. Bu məqam beynəlxalq neft şirkətləri üçün əlavə əhəmiyyətli risklər yaradacaqdır.

Artan xərclərin saxlanması: Bazarda rəqabətə davam gətirmək üçün daha az xərclə hasilatın həyata keçirilməsi sənayenin əsas problemlərindən biridir. Effektiv xərc nəzarətinin təmin edilməsi pul vəsaitlərinin hərəkətini optimallaşdırmağa imkan verir. Qlobal iqtisadiyyatda mövcud vəziyyətin fonunda bir sıra şirkətlər oxşar strategiyanı rəhbər tutaraq gəlirlilik səviyyəsini qorumağa çalışırlar.

İstifadə olunan strategiyadan asılı olmayaraq, xərclərin məhdudlaşdırılması tədbirlərinin həyata keçirilməsinin həmişə sərmayə gəlirliyinə (ROI) mənfi təsiri müəyyən dərəcədə riski ehtiva edir. Odur ki, gələcəkdə iqtisadiyyat əvvəlki durumuna qayıtdıqdan sonra şirkət rəhbərləri inflyasiya nəticəsində artan xərclərlə əlaqəli riskləri idarə etməyi düşünməlidir **[4]**.

Şirkətlərin maliyyə vəziyyətinin pisləşməsi: Qlobal iqtisadiyyatda mövcud tendensiyaların fonunda bir çox inkişaf etməkdə olan ölkələrdə dövlət gəlirləri ilə yanaşı dövlət investisiya proqramlarının həyata keçirilməsindən əldə olunan büdcə gəlirlərində kəskin azalma yaşanır. Bu baxımdan, neft və qaz şirkətlərinin daha yüksək vergi dərəcələri və digər maliyyə tədbirləri ilə qarşılaşmalarına davam etməsi gözlənilir. Bəlkə də beynəlxalq neft şirkətləri milli neft və qaz şirkətləri ilə əməkdaşlıq şərtlərini yenidən nəzərdən keçirmək məcburiyyətində qalacaq, yeni iş modellərində isə milli maraqlara yönələcək.

Sənayedə maliyyə və vergi rejimlərinin sərtləşdirilməsi riski inkişaf etmiş ölkələrdə də müşahidə olunur. İqtisadi və siyasi amillərin təsiri altında bu ölkələrin hökumətləri vergi nisbətlərinin artırlması, kəşfiyyat işləri üçün vergi güzəştlərinin azaldılması, "royalti" dərəcələrinin (məbləğ) dəyişdirilməsi və s. kimi amilləri nəzərdən keçirə bilər.

İqlimin dəyişməsi və ekoloji problemlər: İqlim dəyişikliyi, xüsusilə atmosferə istixana azlarının atılması nəticəsində baş verən qlobal istiləşmə ilə bağlı mübahisələrin bu günə qədər davam etməsinə baxmayaraq, bir sıra ölkələrin hökumətləri artıq neft və qaz sənayesi iştirakçılarının maraqlarına birbaşa təsir göstərən müəyyən tənzimləmə və qanunvericilik tədbirləri görmüşdür.

Avropa Birliyi (AB) ölkələri karbon emissiyalarının kəskin azaldılmasına dair bir sıra ekoloji hədəflər və standartlar müəyyənləşdirmişdir. AB-də fosil yanacaqlardan bərpa olunan enerji mənbələrinə keçidi təşviq etmək üçün müəyyən addımlar atılmışdır. Çin istixana qazı tullantılarını azaltmaq, nüvə və bərpa olunan enerjidən istifadəni təşviq etmək üçün bir sıra ekoloji qaydalar tətbiq etmişdir. Birləşmiş Ştatlarda neft və qaz şirkətlərinin maraqlarına bilavasitə təsir göstərən ətraf mühitin mühafizəsi üzrə qanunvericiliyə dəyişiklik edilməsi, xüsusən, təhlükəsizliyin artırılması və tələblərin sərtləşdirilməsi üçün tədbirlərin qəbul edilməsinə (mülki sanksiyalar və cərimələrin tətbiq edilməsi daxil olmaqla) dair müzakirə aparılır.

Neft qiymətlərində yüksək volatillik: Neft və qazın qiyməti hər hansı rezervin iqtisadi cəhətdən səmərəliliyini müəyyən edən əsas amildir. Hasilat prosesi zamanı mövcud olan geoloji maneələr nə qədər yüksək olursa müvafiq layihə bir o qədər qiymət riski ilə üzləşir. Bunun səbəbi odur ki, qeyri-ənənəvi hasilat standart şaquli qazmadan daha çox xərc tələb edir. Bu o demək deyil ki , neft və qaz şirkətləri qiymət enməsi səbəbindən zərərli bir layihə üzərində işlərini avtomatik olaraq dayandırır. Bu layihələr asanlıqla tez bir zamanda bağlana və sonra yenidən fəaliyyətə başlaya bilməz. Bunun əvəzinə, neft-qaz şirkətləri layihə müddətində ehtimal olunan qiymətləri

proqnozlaşdıraraq layihəyə başlayıb başlamayacağına qərar verməyə səy göstərirlər. Bir layihə başladıqdan sonra qiymət riski daim mövcud olur.

Qiymətlərin düşməsi yalnız gəlirin azalmasına gətirib çıxarmır, eyni zamanda şirkətin balansdan kənar maliyyələşdirmə qabiliyyətini də azaldır. Digər tərəfdən, xam neft qiymətlərinin artması neft emalı müəssisələrinin mənfəətinə mənfi təsir göstərməyə davam edəcəkdir.

İxtisaslı kadr çatışmazlığı: Yüksək ixtisaslı kadr çatışmazlığı problemi iqtisadi vəziyyətdən asılı olmayaraq aktual olaraq qalmaqdadır. İqtisadiyyat bərpa olunduqca, sənaye yüksək ixtisaslı mütəxəssislərə artan ehtiyac duyacaqdır, öz növbəsində mütəxəssis çatışmazlığı təhvil müddətlərinə nail olunmamasına, ləğv olunan layihələrə, aşağı məhsuldarlıq səviyyələrinə və daha yüksək əməliyyat xərclərinə səbəb ola biləcək. Müvafiq problem bir çox milli neft şirkətləri üçün istehsal fəaliyyətlərinin genişlənməsi və yeni bazarlara çıxması fonunda çox aktualdır.

İnkişaf etmiş ölkələrdə bir çox aparıcı mühəndis, rəhbər işçi və digər mütəxəssislər təqaüd yaşına yaxınlaşırlar. Bununla, birlikdə, gənc nəsillər arasında onların yerlərini tuta biləcək lazımı sayda mütəxəssisin olacağına əminlik yoxdur. Avropa və ABŞ universitetləri tərəfindən yayımlanan statistikaya görə, bu gün mühəndislik, geologiya və fizika ixtiaslarını seçən abituriyentlərin sayında azalma müşahidə olunur. İnkişaf etməkdə olan ölkələrin təhsil müəssisələri isə rekord sayda bu cür mütəxəssis hazırlayır. Bununla birlikdə, təhsil və hazırlıq səviyyələrinin 21-ci əsrdə sənayenin ehtiyaclarının qarşılaya bilməsi üçün peşə fəaliyyəti zamanı uzun illər praktiki təlimlərə, təcrübəyə ehtiyac olacağı nəzərə alınmalıdır.

Beynəlxalq neft və neft xidmətləri şirkətləri tərəfindən təklif olunan xidmətlərin qaşılıqlı təkrarlanması: Sənayenin müəyyən seqmentlərində bu risk sənayenin inkişafının ayrılmaz elementi kimi görünür. Bu gün bir sıra ölkələrin resursların müstəqil işlənməsini stimullaşdırmaq üçün proteksionist tədbirlərdən istifadə etməsi ilə əlaqədar milli neft şirkətlərinin rolu artır. Bu məqam beynəlxalq neft və neft xidmətləri şirkətlərini bir-birləri ilə milli neft şirkətləri ilə əməkdaşlıq etmək üçün rəqabətə məcbur edir.

Eyni zamanda, milli neft şirkətləri ilə əməkdaşlıq niyyəti olan beynəlxalq neft şirkətlərinin səlahiyyət dairəsi neft xidmətləri şirkətlərinin səlahiyyətləri ilə üst-üstə düşür. Deməli, beynəlxalq enerji bazarında yeni funksiyalar inkişaf etdikcə risklərlə yanaşı yeni imkanlar da yaranacaqdır.

Araşdırılmamış ərazilərdə əməliyyat çətinlikləri: Sənaye iştirakçılarının diqqəti ənənəvi sahələrdən əlavə, əlverişsiz təbii şəraitdə yerləşən yataqların işlənməsinə yönəlmişdir. Bir çox hallarda bu cür layihələrin həyata keçirilməsi üçün tamamilə yeni texniki həllərin və əməliyyat strategiyalarının tətbiqi, eyni zamanda birbaşa neft və qaz hasilatı müəssisələrində çalışan kadrlar üçün xüsusi təlimlərin təşkili və dəstək təmin edilməsi tələb olunur.

Xərclər və insanlar üçün mövcud təhlükə baxımından, bu cür yeni karbohidrogen yataqlarının işlənməsi köhnə yataqların işlənməsinin maya dəyərindən (həmçinin mənfi nəticələrin miqyasından) xeyli çoxdur, odur ki, neft və qaz şirkətlərinin üzləşdiyi risklər siyahısı daha da genişlənir **[8]**.

Nəticə:

Beləliklə, şərh edilən həmin istiqamətlər üzrə risklərin azaldılması üçün aşağıdakı təşkilati-iqtisadi tədbirlərin həyata keçirilməsi məqsədə uyğun olardı:

- Fəaliyyət sferasında diversifikasiyanın həyata keçirilməsi;
- Qeyri-ənənəvi mənbələrdən karbohidrogen xammalının hasilatının artırılması;
- Mövcud ehtiyatlardan istifadə imkanlarının genişləndirilməsi;
- Digər neft kompaniyaları ilə əlverişli strateji əməkdaşlığın gücləndirilmməsi;
- Mövcud idarəetmə sisteminin təkmilləşdirilməsi;
- Karbohidrogenlərə olan tələbatın tam həcmdə ödənilməsi;
- Sahədə innovasiyaların və nano texnologiyaların geniş tətbiq edilməsi prosesinin intensivləşdirilməsi;
- Uzunmüddətli dövrü əhatə edən ikitərəfli və çoxtərəfli əlverişli sazişlərin bağlanması və həyata keçirilməsi;
- Sahəyə yüksək ixtisaslı kadrların cəlb edilməsi işinin yaxşılaşdırılması;
- Bütün növ xərclərin səmərəli idarəetmə metodlarının tətbiqi əsasında azaldılması.

Ədəbiyyat siyahısı:

1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Bakı, "Xalq" qəzeti, 03 fevral 2021-ci il
2. Azərbaycan Respublikasında neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi, Bakı 2016, 176 s.
3. 10 основных рисков для компаний нефтегазовой отрасли. Исследование «Эрнст энд Янг» в области бизнес-рисков. https://gaap.ru/articles/desat-osnovnykh-riskov-dlya-kompanii-neftegazovoi-otrasli/
4. Qlobal neft sənayesi. "The Economist" jurnalının nəşri, 03 avqust 2013-cü il https://www.economist.com/briefing/2013/08/03/supermajordammerung
5. 2021-ci il üzrə neft və qaz sənayesinə baxış. "Deloitte" şirkətinin nəşri. 2020-ci il. https://www2.deloitte.com/content/dam/Deloitte/nl/Documents/energy-resources/deloitte-nl-eri-2021-outlook-oilandgas.pdf
6. Neft və qaz sənayesindəki ən önəmli 10 problem. "TechnologyHQ" şirkətinin nəşri. 02 fevral 2021-ci il. https://www.technologyhq.org/top-10-challenges-oil-gas-industry/
7. Немченко М.Ю. Классификация основных видов рисков нефтегазодобывающих предприятий, учитываемых в процессе совершенствования методов оценки рисков - 2009 https://ecsn.ru/files/pdf/200912/200912_162.pdf
8. Yeni risk mühitində neft və qaz sənayesinə sərmayə qoyuluşu. "BCG" şirkətinin nəşri. 10 dekabr 2020-ci il. https://www.bcg.com/publications/2020/oil-and-gas-investment-during-the-covid-era

NEFT SEKTORUNDƏ PERSONALIN İDARƏ EDİLMƏSİNDƏ XARİCİ TƏCRÜBƏ

Əfəndi Fərid Kazım oğlu
Azərbaycan Texnologiya Universiteti
dissertant

Neft sənayesində müasir kadr idarəçiliyinin aparıcı tendensiyalarından biri idarəetmənin sosial yönümünün gücləndirilməsi, insanlara yönəlməsidir. Təşkilat həyatının şirkət fəlsəfəsi, təşkilati (korporativ) mədəniyyət, sosial məsuliyyət, iş etikası kimi vacib cəhətlərinə daha çox diqqət yetirilir. İdarəetmə sistemlərinin və kadr idarəetmə metodlarının inkişafı təkcə bazar tələbləri ilə deyil, həm də biznesin və idarəetmənin inkişafının daxili məntiqi ilə diktə edillir.

Onların inkişafına aşağıdakı əsas milli amillər güclü təsir göstərir [1]:

1) ölkə iqtisadiyyatının inkişafının məzmunu və formaları, onun təbii -iqlim xüsusiyyətləri;
2) qanunvericilik və sosial şərtlər, hakimiyyət orqanlarının siyasi münasibətləri;
3) bazar şərtləri, ilk növbədə, rəqabət;
4) əhalinin xarakterinin, mentalitetinin və dəyər sisteminin milli xüsusiyyətləri;
5) xarici idarəetmə təcrübəsinin təsiri.

Bu gün fərqli ölkələrdə formalaşan kadr idarəetmə sistemlərinin sosial-iqtisadi inkişaf səviyyəsindən və zehniyyətindən asılı olmayaraq məzmun baxımından çox oxşar cəhətləri var. Bunlar, məsələn, məqsədlərin qoyulması, müəssisələrin təşkilati quruluşunun dizayn edilməsi və s. Digər tərəfdən, milli özünəməxsusluq kompleksi idarəetmə üsullarının inkişafına və seçiminə güclü təsir göstərir və hər ölkədə onlara xüsusi çalar verir.. Milli xüsusiyyətlərin təsiri altında yaranan kadr idarəetmə sisteminin yaradılması və təkmilləşdirilməsi ilə bağlı bənzərsiz anlayışlar və yanaşmalar çox mühafizəkardır və tədricən dəyişən amillərlə müəyyən edilir. Bundan əlavə, kadr idarəetmə sistemlərinin formalaşmasına dair anlayışların və yanaşmaların inkişafına menecerlərin təcrübəsi, bacarıqları, bilikləri və intuisiyası əhəmiyyətli dərəcədə təsir edir və bacarıqları inkişaf etdikcə idarəetmə sistemlərinin yaradılması ilə bağlı yeni anlayışlara keçid olur, daha mürəkkəb

yanaşmalar, müəssisənin inkişafı üçün daha yaxşı imkanlar yaradır [2]. Belə ki, ABŞ, Yaponiya və Rusiyanın xarakterik xüsusiyyətlərini kadr idarəetmə üsullarının məzmunu və formalarına təsiri baxımından müqayisə edək.

ABŞ -da:

1. Sərvətin sürətli böyüməsi həyatın ön sırasındadır: biznesdə bu, istənilən inkişafın və kadr idarəçiliyinin keyfiyyətinin artımının yeganə meyarı kimi birjada səhmlərin kursun artması. və maliyyə spekulyasiyaları səbəbindən şirkət sərvətin artırılması çıxış etmişdir.

2. Sürətli fərdi maliyyə müvəffəqiyyətinə istiqamətlənmə əhəmiyyətli rol oynayır.

3. İstehlakçı dəyərlərinə yönəlmə, yüksək həyat keyfiyyəti, həyat şəraitinə hörmətlə yanaşma.

4. Bütün sahələrdə yeniliyə yüksək dəyərin verilməsi və ona ehtiyacın olması.

5. Strukturların və idarəetmə proseslərinin tez -tez modernləşdirilməsinə, şirkətin xarici və daxili şəraitində sürətli və gözlənilməz dəyişikliklərin səbəb olduğu maliyyə nəzarətinin sərtləşdirilməsinə tələbatın olması.

6. İdarəetmə sistemlərinin inkişafı da daxil olmaqla, bütün fəaliyyət sahələrində ABŞ -ın birinci olması zərurətinə dair geniş yayılmış əminlik və s.

Yaponiyada:

1. Qısamüddətli hədəflərə və mənfəətə deyil, səhm qiymətlərinin artımına deyil, bazarın sabit müvəffəqiyyətinin əsası olaraq uzunmüddətli və əhəmiyyətli inkişaf hədəflərinə güclü vurğunun edilməsi.

2. Mövcud və potensial müştərilərin ehtiyaclarının prioriteti.

3. Bir qrupda iş çox inkişaf edir, şəxsi uğurlara deyil, komandanın uğuruna diqqət yetirilir.

4. Müəssisə həyatının bütün sahələrində kiçik dəyişikliklərin inkişaf konsepsiyası.

5. Sərt bir nəzarət sisteminin mövcudluğu, iş yerində - işçinin özü tərəfindən yerinə yetirilən əməyin keyfiyyətinə nəzarəti.

6. Rəqiblərin məhsullarını sonrakı təkmilləşdirmələri ilə istehsalı və bunu əsasında yeni məhsulların buraxılmasını təşkil edilməsi məqsədilə geniş istifadə olunan yanaşma, kadrların hazırlanması və yenidən hazırlanması, innovativ layihələrin yaradılması baxımdan Amerika və Qərbi Avropa yanaşmalarından keyfiyyətcə fərqli yanaşmanın mövcudluğu.

Bu ölkələr öz nümunələri ilə dünyaya idarəetmə sisteminin nə qədər səmərəli ola biləcəyini göstərdilər.

Rusiyada:

1. Müəssisənin dayanıqlığının əsası olaraq maksimum qazancın və tez alınmasına istiqamətləndirmə.

2. Məqsədlərə çatmaq nisbətən asan olan son dərəcə sadə idarəetmə qərarlarının istifadəsi üstünlük təşkil edir, müasir idarəetmənin inkişafı (əmək məhsuldarlığının artırılması, rəqabət qabiliyyətinin artırılması proqramları), menecerlərin və rəhbərliyin keyfiyyətinin keyfiyyətcə yüksəldilməsi anlayışları praktiki olaraq yoxdur.

Nəticə

Qeyd etmək lazımdır ki, müasir insan resurslarının idarə edilməsi təcrübəsi şirkətin daxili ünsiyyət sisteminin inkişafına xüsusi əhəmiyyət verir. Şirkətin missiyasını, vizyonunu, məqsəd və vəzifələrini idarəetmənin bütün iyerarxik səviyyələrinə və hər bir işçiyə minimum itkilərlə çatdırmaq bacarığı, işçilərin maraqlarının, istəklərinin, praktik hərəkətlərinin çox yönlü vektorlarını birləşdirməyə və əlaqələndirməyə imkan verir. Çox vaxt, bir təşkilatda məlumat axınının idarə edilməsi prosesində ardıcıllığın olmaması, həm istehsal problemlərinə, həm də təşkilat üçün birbaşa maliyyə itkiləri ilə nəticələnən sosial və əmək münaqişələrinə səbəb olur. Qeyd edək ki, neft və qaz şirkətlərinin fəaliyyəti, idarəetmə qərarlarının yüksək mürəkkəbliyi ilə xarakterizə olunur, miqyası və dəyəri əksər hallarda iqtisadiyyatın digər seqmentlərinə nisbətən xeyli yüksəkdir. Həqiqətən də, müasir Azərbaycanın resurs və xammal yönümlülüyü kontekstində, son məhsulun strukturunda ixrac komponentinin payının dəyişməsi səbəbindən Azərbaycan Respublikası Dövlət Neft Şirkətində qəbul edilən idarəetmə qərarlarının əksəriyyəti. , xammal aktivlərinin idarə edilməsi, yataqlarda quyuların qorunması, neft məhsullarının daxili və xarici bazarlarında qiymətin tənzimlənməsi, yeni istehsal müəssisələrinin istismara verilməsi və s. təkcə neft şirkətlərinin

maliyyə vəziyyətini və onların istehsal və marketinq imkanlarını müəyyən etmir, həm də bütövlükdə dövlətin maraqlarına təsir edir.

Ədəbiyyat siyahısı

1. Миловидов К.Н. Тенденции развития мирового нефтегазового бизнеса // Материалы открытого семинара «Экономические проблемы энергетического комплекса». М., 2006. С. 34
2. Управление персоналом / Под ред. А.А. Литвинюк. – М.: Юрайт, 2013. – 448 с.

QARABAĞIN İQTİSADİ DİRÇƏLİŞİ

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARI İQTİSADİYYATININ DİRÇƏLİŞ VƏ İNKİŞAF İMKANLARININ QİYMƏTLƏNDİRİLMƏSİ

Tanrıverdi Paşa
AMEA İqtisadiyyat İnstitutunun aparıcı elmi işçisi
tpasha_50@mail.ru

XÜLASƏ

Məqalədə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları iqtisadiyyatının ümumi səciyyəsi verilmiş, regionun sosial-iqtisadi inkişafına təsir göstərən xarici və daxili amillərin təhlili əsasında region iqtisadiyyatının rəqabət üstünlükləri müəyyən edilmiş, hazırda qlobal tendensiyalara və Azərbaycan Respublikasının inkişaf prioritetlərinə uyğun olaraq, işğaldan azad olunmuş Qarabağ regionunun, strateji inkişaf prioritetləri çərçivəsində region iqtisadiyyatının işğaldan əvvəlki vəziyyətinin və ərazinin bərpası və dirçəlişi ilə əlaqədar güclü və zəif tərəflərinin, inkişaf məhdudiyyətlərinin təhlili və qiymətləndirilməsi əsasında mövcud və gələcəkdə qarşılana biləcək problemlər nəzərə alınmaqla müxtəlif sahələri - insan inkişafı,iqtisadi inkişaf, məkan inkişafı, sənayedə klasterlərin yaradılması, aqrar-sənaye kompleksində investisiya və sahibkarlıq fəaliyyətininin stimullaşdırılması və s. əhatə edən tədbirlər üzrə Təklif və tövsiyyələr işlənmişdir.

Açar sözlər: rəqabət üstünlükləri, xarici və daxili amillər, iqtisadi inkişaf, insan inkişafı, klasterlər, investisiya və innovasiya fəallığı, aqrar-sənaye kompleksi

I.Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları iqtisadiyyatının ümumi səciyyəsi

Respublika Prezidentinin təsdiq etdiyi yeni İqtisadi Rayonlar bölgüsünə görə Qarabağ Şərqi Zəngəzur iqtisadi rayonları ölkə ərazisinin müvafiq olaraq 10,4 (ərazisinə görə 1-ci yerdə) və 8,6%-i (3-cü yerdə), əhalinin 8,0 (3-cü yerdə) və 3,4%-i (13-cü yerdə), muzdlu işçilərin 4,0 1,3%-i təşkil edir. Qarabağ İR 4626 (10-cu yer) hüquqi və 68409 (5-ci yer) fiziki şəxs, Zəngəzur İR 749 (14-cü yer) hüquqi və 3341 (14-cü yer) fiziki şəxs kimi təsərrüfat subyektləri qeydə alınıb ki, bu da ölkə üzrə müvafiq göstəricilərin 3,0 və 6,4; 0,5 və 0,3%-i təşkil edir. Həmin regionlarda çalışan muzdlu işçilərin sayı müvafiq olaraq 67,7 min nəfər (payı 4,0% və 6-cı yer) və 22,5 min nəfərdir (1,3% və10-cu yer).

Muzdlu işçilərin orta aylıq nominal əmək haqqı ölkə üzrə 707,7 manat, Qarabağ İR 409,9 manat (13-cü yer), Şərqi Zəngəzurda 500,3 manat (4-cü yer); əhalinin nominal gəlirləri isə ölkə üzrə 55,7 mln. manat; Qarabağ İR 1,3 mln. manat (9-cu yer); (ŞZ - hesablanmayıb) təşkil etmişdir.

Ölkə üzrə əsas sahələr üzrə məhsulun ümumi buraxılışında Qarabağ İR-nun payı 7,4%, Şərqi Zəngəzur İR 1,94%, sənaye məhsulu müvafiq olaraq: 0,31 və 0,01%; kənd təsərrüfatı məhsulu 10,1 və 1,0% (o cümlədən bitkiçilik – 9,9 və 0,2%; heyvandarlıq – 10,2 və 1,8%) olmaqla,; pərakəndə ticarət dövriyyəsi 2,4% və ... bu göstərilərin hər birinə görə regionlar arasında müvafiq olaraq 12 və 14-cü mövqedə; əsas kapitala yönəldilmiş vəsaitlər 1,1 (8-ci yer) və 0,1% (13-cü yer) təşkil etmişdir.

Burada aqrar sektorun inkişafına geniş imkanlar vardır. Kənd təsərrüfatı bitkiçilik məhsulları istehsalında - tərəvəz, dənli və dənli paxlalılar, şəkər çuğunduru, pambıq, üzüm, meyvə və giləmeyvə, kartof və bostan məhsulları üstünlük təşkil edir. Heyvandarlıq məhsulları istehsalında ət, süd, yumurta və yun məhsullarının payı böyükdür.

İşğaldan azad edilmiş hər iki regionunun əlverişli coğrafi-iqtisadi mövqeyi, bərəkətli və məhsuldar torpaqları bitkiçilik və heyvandarlıq üzrə fermer təsərrüfatlarının və aqroparkların yaradılması, sənaye məhəlləsinin formalaşdırılması, müalicəvi və idman turizminin inkişafı istiqamətində hərtərəfli inkişaf perspektivləri vəd edir. Sovet dövründə burada - üzümçülük, meyvəçilik, tərəvəzçilik, taxılçılıq, pambıqçılıq və kənd təsərrüfatının digər sahələri uğurla inkişaf edirdi, xammal bazası mövcudluğu halında isə şərabçılığı inkişaf etdirmək, meyvə-tərəvəz konservləşdirilməsi və emal sənayesinin digər sahələri üzrə istehsalı yoluna qoymaq asanlıqla mümkün olacaq. Aqrar istehsal potensialı ilə yanaşı, Qarabağ regionunda taxılın emalı, heyvandarlıq məhsullarının (süd, gön-dəri və s.) emalı müəssisələrinin qurulması üçün böyük

potensial da nəzərə alınmalıdır. Bu region üçün trend hesab edilən tərəvəzçilik sektoru üzrə emal müəssisələri, arıçılıq məhsullarının istehsalı imkanları da hesablanarsa, təmərküzləşmə və klasterial inkişafın təmin olunması əsasında burada formalaşacaq aqro-sənaye kompleksinin gələcəkdə ölkə iqtisadiyyatına sovet dövründə olduğundan qat-qat artıq töhfə verəcəyini əminliklə demək olar.

Qarabağ regionu regionda böyük ticarət mərkəzinin formalaşması üçün də unikal ərazi hesab edilir. Topdan və pərakəndə ticarət məntəqələrinin işə salınması ilə region əhalisinin geniş məşğulluğu da təmin edilə bilər. Bundan başqa, regionun təbiəti və tarixi abidələri turist cəlb etmək baxımından üstünlüyə malikdir. Bu regionda xüsusilə yay turizminin imkanları genişdir.

II. TƏHLİL VƏ QİYMƏTLƏNDİRMƏ:

2.1.Qarabağ və Şərqi Zəngəzur iqtisadi regionunlarının sosial-iqtisadi inkişafına təsir göstərən xarici və daxili amillərin təhlili əsasında aşağıdakı rəqabət üstünlükləri müəyyən edilmişdir:

İqtisadiyyat və təbii sərvətlər:

- regionun tarixən özünəməxsus iqtisadi-coğrafi mövqeyi;
- sahibkarlığın inkişafı və əhalinin yaşamı üçün əlverişli şəraitin mövcudluğu;
- kifayət qədər geniş, suvarlan və məhsuldar torpaq sahələri;
- müxtəlif təbii ehtiyatlarla, mineral xammalla zənginlik;
- su ehtiyatlarının mövcudluğu;
- meşə ehtiyatlarının yetərliliyi;
- böyük və zəngin təbii ehtiyat potensialı.

İnsan kapitalı:

- əlverişli demoqrafik artım;
- əmək ehtiyatlarının yetərliliyi;
- böyük tutumlu istehlak bazarının mövcudluğu;
- güclü bir təhsil mərkəzi olmaq imkanı;
- əhalinin yüksək səviyyədə təşəbbüskarlıq səyləri.

Nəqliyyat və lojistik potensial:

- beynəlxalq və regional nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşməsi və ya yaxınlığı;
- azad edilmiş regionlar da daxil olmaqla sərhədyanı bölgələrin inkişaf etmiş nəqliyyat infrastrukturunun mövcudluğu (Naxçıvan dəhlizinin açılması və Böyük İpək yolunun bərpası ilə bu amilin əhəmiyyəti daha da artacaqdır);
- avtomobil və dəmir yollarının mövcudluğu;

Turizm:

- əlverişli coğrafi yerləşmə, təbiətin gözəlliyi və zəngin mədəni və tarixi abidələr və irs;
- turistlərin müxtəlif istehlakçı seqmentləri üçün cazibə mərkəzlərinin olması.

2.2. Müasir xarici çağırışların və daxili zəifliklərin təhlili Qarabağ və Şərqi Zəngəzur iqtisadi regionunlarının aşağıdakı problemləri və inkişaf məhdudiyyətlərini vurğulamağa imkan verir:

İşğalın nəticələri:

- Qarabağ və Şərqi Zəngəzur iqtisadi regionunlarında əvvəllər mövcud olmuş əksər kənd və şəhərlərinin, bütün yaşayış məskənlərinin, ictimai və inzibati binaların, əvvəllər fəaliyyət göstərən hər cür iqtisadi fəliyyət sahələrinin, kənd təsərrüfatı texnikasının, ictimai iaşə obyektlərinin, məktəb binalarının, vətəndaşların fərdi evlərinin, nəqliyyat və kommunikasiya sisteminin işğal nəticəsində tamamilə dağıdılaraq sıradan çıxarılması;

İqtisadiyyat:

- regionun ölkənin digər sənaye-inkişaf mərkəzlərindən və paytaxtdan uzaq olması;
- iqtisadiyyatın real sektorunun zəif qarşılıqlı əlaqəsi;
- hasilat sektorunun üstünlüyü;
- dərin emal və innovasiya sənayesinin çox az payı;
- regionlararası əlaqələr və klasterləşmə səviyyəsinin yetərli olmaması;

- əsas istehsal fondlarının yüksək dərəcədə köhnəlməsi;
- rəqəmsallaşmanın qeyri-kafi səviyyəsi;
- ölkənin bütün digər kənd regionlarında olduğu kimi innovativ sahibkarlığın inkişaf səviyyəsinin çox aşağı olması;
- region iqtisadiyyatın indiki səmərəsiz və yüksək riskli strukturunun, həmçinin bir müddət infrastruktur məhdudiyyətlərinin qalmasına görə xarici və milli investorların sərmayə qoyuluşlarından çəkinmə ehtimalının mümkünlüyü.

Emal sənayesinin inkişafına mane olan əsas problemlər:

- sənaye müəssisələri arasında klasterləşmə və əməkdaşlıq səviyyəsinin olmaması;
- əsas kapitala çox aşağı səviyyədə investisiya qoyuluşu;
- digər regionlarla müqayisədə enerji mənbələrinə qoşulmanın çətinliyi və onlarının yüksək qiyməti;
- müəssisələrin əsas fondlarının köhnəlməsi;
- müəssisələrin innovasiya fəaliyyətinin olmaması;
- müəssisələrin kommersiya səlahiyyətlərinin kifayət qədər inkişaf etməməsi;
- avadanlıq və onun komponentlərinin təchizatında idxaldan tam asılılığı;
- dövlət dəstəyi almaq üçün prosedurların mürəkkəbliyi.

Aqrar-sənaye kompleksinin inkişafına mane olan əsas problemlər:

- innovativ texnologiyalardan istifadənin və müasir texnika və texnologiyalarla təmin olunmanın aşağı səviyyəsi;
- kənd təsərrüfatı məhsullarının saxlanılması üçün imkanların və mövcud güclərin aşağı olması;
- idxal edilən məhsullarla rəqabətin mümkünsüzlüyü və regionda istehsal olunan kənd təsərrüfatı məhsullarının satışlarının mürəkkəbliyi, o cümlədən respublika pərakəndə satış şəbəkələrini rəflərinə girmək üçün ciddi maneələr;
- region və bitişik ərazilərin kənd təsərrüfatı məhsullarının keyfiyyətinə, istehsal həcminə və iqtisadiyyatın tələbatına görə balanssız nisbəti;
- aqrosənaye kompleksi iştirakçılarının informasiya və kommunikasiya ayrılığı, sənaye sahələrinin inkişafında mövcud birlik və kooperativlərin zəif fəaliyyəti;
- elmi-tədqiqat və tətbiq işlərinin, seleksiya fəaliyyətinin qənaətbəxş olmaması;
- infrastrukturun kifayət qədər inkişaf etməməsi və enerji mənbələrinin bahalı olması səbəbindən kompleksin aşağı investisiya cəlbediciliyi;
- bəzi ərazilərdə torpağın münbitliyinin aşağı olması, əkin sahələrindən istifadənin və kənd təsərrüfatı təyinatlı torpaqlarının dövriyyəsinin aşağı olması;
- sahədə kadr təminatının aşağı səviyyəsi.

Turizm potensialından tam istifadə olunmasına mane olan əsas problemlər:

- bütövlükdə ölkədaxili turizmin inkişafına vahid yanaşmanın olmaması;
- regionlar, həmçinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi regionunları üçün turizm marketinq strategiyasının olmaması, , reklam və müvafiq marketinq tədqiqatlarının aparılmaması;
- beynəlxalq standartlara cavab verən turizm müəssisələrinin az olması səbəbindən, regionun turizm məhsullarının aşağı rəqabət qabiliyyətliliyi;
- işğal nəticəsində tarixi yerlərin və obyektlərin qənaətbəxş səviyyədə saxlanmaması, turizm mərkəzlərinin inkişaf səviyyəsinin qeyri-kafi olması;
- turizm və səyahət sahəsinə investorları cəlb etmək və bu sahəni dəstəkləmək üçün kifayət qədər iqtisadi alət və mexanizmlərin olmaması.

İnsan kapitalı:

- nisbətən yüksək ölüm əmsalı (nisbəti);
- nisbətən yüksək demoqrafik yük;
- ixtiraçılıq fəaliyyətinin aşağı səviyyəsi və texnoloji sahibkarlığın zəif inkişafı;
- yüksək ixtisaslı kadr çatışmazlığı;

- təhsilli əhalinin kənd yerlərindən respublikanın digər böyük şəhərlərinə əhəmiyyətli miqrasiyası;
- əhalinin ən iddialı və ixtisaslı hissəsinin, xüsusən də gənclərin bölgəyə qayıdışını əngəlləyən və ya geri qayıtmış olanların təkrar kənara axınına səbəb olacaq şərtlərin qalması.

Sosial xidmətlər və yaşam keyfiyyəti:

- əhalinin gəlir səviyyəsində yüksək fərqlilik;
- sosial xidmətlərə əlçatanlığın yarımçıq səviyyəsi;
- yaşam keyfiyyətinin aşağı səviyyəsi;
- sakinlərin fərdi və peşə inkişaf prosesinə cəlb olunma səviyyəsinin yetərli olmaması;
- sosial dəstək tədbirlərinin, əksər əhali kateqoriyasının ehtiyaclarının ünvanlı ödənilməsini hədəf alan meyarların tətbiqində çatışmazlıqların olması.

İnvestisiya cəlbediciliyi:

- biznesə yüksək inzibati təzyiqin olması;
- tikinti icazələrinin alınması və müəssisələrin qeydiyyatının çətinliyi;
- sənaye zonalarının kifayət qədər qazlaşdırılmaması və yüksək elektrik tarifləri.

Nəqliyyat infrastrukturu:

- aşağı yol tutumu, tənzimləyici tələblərə uyğunluğun aşağı səviyyəsi;
- dağınıq logistik mərkəzlər sistemi və vahid logistik inkişaf strategiyasının olmaması;

Məkan inkişafı, təbii sərvətlər, ekologiya:

- müəyyən ərazilərdə işğaldan qaynaqlanan yığılmış ekoloji zərərin və çətin bir ekoloji vəziyyətin olması;
- regionların inkişaf səviyyəsində əhəmiyyətli fərqlər.

İnnovativ inkişaf:

- innovativ fəaliyyətlərin maliyyələşdirilməsi üçün vəsait çatışmazlığı;
- innovasiya bazarında tələb və təklif tarazlığının pozulması
- kiçik və orta müəssisələrin fəaliyyətinin aşağı səviyyəsi;

III. NƏTİCƏ VƏ TƏKLİFLƏR

3.1. Hazırda qlobal tendensiyalara və Azərbaycan Respublikasının inkişaf prioritetlərinə uyğun olaraq, işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi regionunlarının strateji inkişaf prioritetləri çərçivəsində güclü və zəif tərəflərinə, mövcud və gələcəkdə qarşılana biləcək problemlər nəzərə alınmaqla müxtəlif sahələri əhatə edən aşağıdakı tədbirlərin görülməsini vacib sayırıq:

İnsan inkişafı:

- regionun bütün əhalisinin yüksək səviyyəli maddi rifahının formalaşdırılması;
- bərpa olunacaq yaşayış məntəqələrində xüsusi, kollektiv, birgə, kiçik sənaye və tikinti mənətəqələri, kənd təsərrüfatı məhsulları emalı və konservləşdirilməsi sexləri, kustar emalatxanalar və s. açmaqla əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi;
- iqtisadiyyatın rəqabətqabiliyyətli sahələrinin inkişafına və özünüməşğulluq da daxil olmaqla məşğulluğun təmin edilməsinə üstünlük verilməsi;
- regionda təhsil, səhiyyə və digər sosial xidmətlərin çeşidinin artırılması, keyfiyyətinin yaxşılaşdırılması və aztəminatlı insanlar üçün əlçatanlığının təmin edilməsi istiqamətində stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi;
- əhalinin kütləvi məşğulluğunu təmin edən sosial əhəmiyyətli xidmət sahələrinin inkişafı;
- regionda əhalinin əmək vərdişlərini, tarixi adət-ənənələrini nəzərə alaraq əvvəllər mövcud olmuş istehsal və məşğulluq sahələrinin, xalq yaradıcılıq-sənətkarlıq sahələrinin, (xalça, gəbə, kilim, gil qablar, misgərlik, əczaçılıq) dirçəldilməsi və inkişafına dəstək verilməsi;
- region sakinlərinin hər birinin inkişaf potensialının reallaşması və inkişafı üçün şəraitin yaradılması;
- minimum istehlak büdcəsinə müvafiq olaraq regionda minimum əməkhaqqı, pensiya təminatı və təqaüdlərin minimum məbləğinin müəyyən edilməsi və onların respublika büdcəsindən

ödənilməsinin təmin edilməsi;

- keyfiyyətli demoqrafik inkişaf üçün cəlbedici şəraitin yaradılması, doğum nisbətinin artması və ölüm nisbətinin azalması.

İqtisadi inkişaf:

- regionda iri kapitallı şirkətlərin formalaşması üçün şəraitin yaradılması;
- iqtisadiyyatın klasterli inkişafının aktivləşdirilməsi;
- regionda iqtisadiyyatın real sektorunun səmərəliliyinin və məhsuldarlığının yüksəldilməsi;
- regionda investisiya və innovasiya fəallığının artırılması üçün tədbirlərin görülməsi;
- mütərəqqi texniki avadanlıqlar və texnologiyaların tətbiqi əsasında yerli iqtisadi potensialın gücləndirilməsi və dəstəklənməsi;
- regionda iqtisadiyyatın şaxələndirilməsinin genişləndirilməsi, müqayisəli üstünlüyə malik, əlavə dəyər yaradan rəqabətqabiliyyətli məhsul istehsalı və xidmət sahələri müəssisələrinin həvəsləndirilməsi mexanizmlərinin yaradılması;
- məhsul və xidmət istehsalı, satışı və istehsal vasitələri bazarında rəqabət mühitinin daha da sağlamlaşdırılması;
- bazarlara, o cümlədən ixrac bazarlarına çıxış imkanlarının asanlaşdırılması, bu istiqamətdə geniş və əhatəli təşviq tədbirlərinin gücləndirilməsi;
- qlobal idxal-ixrac axınlarında regionun payının artırılması;
- təbii ehtiyatlardan səmərəli istifadə olunması və ekoloji təhlükəsizliyin qorunması üzərində nəzarətin gücləndirilməsi;
- bərpa olunan enerji mənbələrindən istifadənin təşviq edilməsi və dəstəklənməsi;
- regionda müstəqil elmi-tədqiqat mərkəzlərinin və ya paytaxtdakı mərkəzlərin bölmələrinin yaradılması;
- regionun sosial-iqtisadi inkişafı üzrə elmi tədqiqatların aparılması və kadr hazırlığının təmin olunması üzrə dəstək mexanizmlərin yaradılması;
- regionda təhsil, səhiyyə və digər sosial xidmətlərin inkişafı məqsədilə mütəxəssislərin regionlara cəlb olunması üçün onların mənzil (və ya fərdi yaşayış evinin tikintisi üçün torpaq sahəsi) ilə təminatı istiqamətində tədbirlərin görülməsi regionda rəqəmsal iqtisadiyyatın əsaslarının formalaşdırılması;
- səmərəli təlim və kadr hazırlığı sisteminin formalaşdırılması;
- ölkə ictimaiyyətinin regionun sosial-iqtisadi inkişafına təsir imkanlarından istifadə edilməsi;

Məkan inkişafı:

- regionlararası sosial-iqtisadi fərqliliyin azaldılması;
- aqlomerasiya proseslərinin inkişafı və onların idarə olunmasının təkmilləşdirilməsi;
- kənd və şəhər kimi məskunlaşmayan ərazilərin qorunması və davamlı inkişafı;
- regionun özünəməxsus ekosisteminin gələcək nəsillər üçün qorunması və bərpasına əməl etməklə ərazi/təbii ehtiyatların balanslaşdırılmış inkişafı;
- regionda bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi;
- regionda texniki-iqtisadi cəhətdən qazlaşdırılması səmərəli olmayan ucqar yaşayış məntəqələrinin alternativ istilik mənbələri ilə təminatı;
- kəndlərdə yol və nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi;
- rahat və təhlükəsiz mühitin formalaşdırılması;
- institusional ərazi strukturunun təkmilləşdirilməsi;
- şəhərlərin, qəsəbələrin və kənd yaşayış məntəqələrinin xüsusiyyətlərini nəzərə almaqla, onların kompleks inkişafını təmin etmək məqsədilə yerli özünüidarə orqanlarının fəaliyyətinin əlaqələndirilməsi;
- regional əmlak kompleksinin səmərəli idarə olunması.

3.2. Sənayedə klasterlərin yaradılması və inkişafı üçün görülməli işlər:

- regionun sənaye sahələrinin inkişafını təmin edəcək strateji əhəmiyyətli əsas klasterlərin müəyyənləşdirilməsi və investisiya yuvalarının aşkara çıxarılması üçün dəyər zənciri və biznes bizneslə məşğul olmağın dəyəri barədə araşdırmaların aparılması;
- klasterlərin, klaster idarəetmə şirkətlərinin, klaster inkişaf fondlarının və proqramlarının formalaşmasına və inkişafına müvafiq şərait yaradılması;
- klasterlər çərçivəsində istehsal zəncirlərinin genişləndirilməsinin təşviq edilməsi;
- elmi-tədqiqat mərkəzlərinin iştirakı ilə kiçik innovasiya klasterlərinin yaradılmasına və inkişafına yardım göstərilməsi;
- tamamlanmış infrastruktura malik dövlət və özəl sənaye meydançaları şəbəkəsinin inkişafına şərait yaradılması;
- regionda işləməyən və ya zərərlə işləyən istehsal müəssisələrinin yenidənqurulması, sağlamlaşdırılması və özəlləşdirilməsinin sürətləndirilməsi;
- klaster iştirakçıları olan müəssisələrə dövlət dəstəyi tədbirlərinin hazırlanması və həyata keçirilməsi.

3.3. Aqrar-sənaye kompleksində investisiya və sahibkarlıq fəaliyyətininin stimullaşdırılması üçün vacib tədbirlər:

- aqrar-sənaye bölgələrinin və kənd yerlərinin zəruri infrastruktur dəstəyinin formalaşdırılması və həyat səviyyəsinin və keyfiyyətinin yüksəldilməsi;
- kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, saxlanılması və bunların əsasında bəzi sənaye məhsulları istehsalının təşkili üçün lizinq xidmətinin inkişaf etdirilməsi;
- aqrar-sənaye inteqrasiyasının gücləndirilməsi, kənd təsərrüfatında istehsalın intensiv üsullarla artırılması üçün innovativ təsərrüfatçılıq formalarının yaradılması və inkişafının dəstəklənməsi mexanizmlərinin həyata keçirilməsi;
- fermer tərəfdaşlığının və kənd təsərrüfatında kooperasiyanın inkişafının təşviqi;
- sahibkarların və fermerlərin maliyyə mənbələrinə çıxış imkanlarının asanlaşdırılması;
- maliyyə və kredit təşkilatları ilə qarşılıqlı əlaqə sisteminin təkmilləşdirilməsi;
- qrant dəstəyi də daxil olmaqla kredit kooperativləri şəbəkəsinin inkişafı;
- kooperativlər üçün zəmanətli kredit və maliyyə mənbələrinin artırılmasına kömək edilməsi;
- regionda istehsal fəaliyyəti vacib olan müəssisələrin müvəqqəti də olsa, dövlət himayəsinə götürülməsi, onlara güzəştli kreditlərlə yanaşı, məhsullarının satışı üçün təminat, yaxud dövlət sifarişlərinin verilməsi;
- yeni yaradılacaq müəssisələrə uzunmüddətli əlverişli faizlə kreditlərin verilməsi;
- xırda və orta firmalara, sahibkarlıqla məşğul olan fiziki şəxslərə asanlaşdırılmış şərtlərlə güzəştli və orta müddətli kedit mexanizminin formalaşdırlmasına üstünlük verilməsi;
- hüquqi və fiziki şəxslərdən vergi tutulmasının əlverişli şərtlərinin müəyyən edilməsi;
- təyinatından və istehsal xarakterindən asılı olaraq, ilk növbədə, mikrokredit şəbəkəsinin yaradılması üçün ixtisaslaşmış regional bankların, sığorta təşkilatlarının və investisiya fondlarının təşkili;
- kənd təsərrüfatı işlərini, vençur kapitalında iştirakı, marketinqin inkişafını stimullaşdırmaq üzrə müxtəlif ixtisaslaşdırılmış agentliklər şəbəkəsinin yaradılması;
- regionda kredit təminatı fondunun (KTF) yaradılması;
- maliyyə və kredit təşkilatları ilə qarşılıqlı əlaqə sisteminin təkmilləşdirilməsi;
- qrant dəstəyi də daxil olmaqla kredit kooperativləri şəbəkəsinin inkişafı zəmanətli kredit və maliyyə mənbələrinin artırılmasına kömək edilməsi;
- xaricdə yaşayan və fəaliyyət göstərən Azərbaycan diasporunun investisiya imkanlarından istifadə edilməsi;
- azad edilmiş ərazilərə müasir texnologiyaları cəlbetmədə vençur kapitalı, kraudfandin və kraudinvestinq modelindən istifadə edilməsi;

- sahibkarlığa mövcud dəstək mərkəzləri şəbəkəsi də daxil olmaqla aqrobiznes institutunun inkişafı, konsaltinq və təhsil xidmətlərinə əlçatanlığı artıraraq aqrar-sənaye kompleksində sahibkarlıq fəaliyyətinin inkişafı;
- bütün mülkiyyət formalarındakı aqrar-sənaye istehsalçıları üçün enerji mənbələrinin (yanacaq və sürtkü yağları daxil olmaqla) əlçatanlığının artırılması üçün optimal şəraitin yaradılması;
- iqlim şəraitində ciddi dəyişikliklər və qiymət dəyişikliyi səbəbindən itki risklərini minimuma endirmək üçün təsirli vasitələrin formalaşdırılması, xüsusilə kənd təsərrüfatı sektoru üçün sığorta sisteminin inkişafı;
- əhalinin texniki yardımlarla təminatının inkişafı, orta həlqə menecerlərinin hazırlanması;
- aqrosənaye kompleksinin inkişafı üçün həmin bölgədən olan ixtisaslı kadrlardan istifadəyə üstünlük verilməsi;
- regionda ekoloji təmiz məhsul istehsalının inkişafının dəstəklənməsi;
- əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması.

3.4. Turizm və rekreasiya zonalarının inkişafı:

- regionda müxtəlif turizm növlərinin inkişafının dəstəklənməsi, o cümlədən turizm sahəsində göstərilən xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması;
- işgüzar turizminin aktiv inkişafı, konqres və sərgi (MICE - Meetings, Incentives, Conferences, Exhibitions) infrastrukturunun yaradılması;
- dini turizm klasterinin yaradılması;
- sağlamlıq imkanları məhdud insanlar da daxil olmaqla tibbi və istirahət turizm klasterlərinin yaradılması;
- istirahət mərkəzlərinin lüks seqmentinin yaradılması və inkişafı, regionda tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi;
- beynəlxalq səviyyəli əyləncə parkları və ekstrim parkların yaradılması və inkişafı:
- tarixi hadisə, o cümlədən Şanlı qələbəmizlə bağlı hadisə turizmi üçün yerlərin müəyyən edilməsi və abadlaşdırılması;
- Şuşa, Ağdam, Fizuli, Zəngilan, Cəbrayıl, Qubadlı, Laçın, Kəlbəcər şəhərlərii də daxil olmaqla regionun kənd və qəsəbələrində cazibə mərkəzlərinin yaradılması və bələdiyyələrarası turizm marşrutlarının yaradılması;
- şəhəri də daxil olmaqla regionun kənd və qəsəbələrində cazibə mərkəzlərinin yaradılması və bələdiyyələrarası turizm marşrutlarının yaradılması;
- turizm məhsulu satış sistemində rəqəmsal iqtisadiyyat texnologiyalarının tətbiqi;
- turizm marşrutları, turizm mərkəzlərinin və ərazilərin elektron xəritələri və müstəqil səyahət üçün audio bələdçi ilə platformalararası informasiya və rabitə sisteminin (mobil əlavə daxil olmaqla) işlənməsi və tətbiqi;
- turizm sahələrini və səyahət xidmətlərini tanıtmaq və əks əlaqə yaratmaq üçün rəqəmsal marketinq həllərindən istifadə edilməsi;
- xarici qonaqlara xidmət göstərmək üçün regionun turizm mərkəzlərində ödəmə-hesablaşma infrastrukturunun inkişafı və beynəlxalq ödəmə sistemlərinin mövcudluğunun təmin edilməsi;
- mədəni-təfəkkür turizmi infrastrukturunun inkişafı, o cümlədən kiçik tarixi yaşayış məntəqələrinin ərazisi və infrastrukturunun inkişafı;
- uşaq turizmi sahəsində infrastrukturun və müvafiq səriştələrin inkişafı;
- mövcud və tərk edilmiş sənaye istehsalı obyektləri əsasında sənaye turizmi klasterinin yaradılması;
- qastronomik turizmin inkişafı;
- kənd yerlərinin inkişafı üçün bir vasitə kimi ekoloji, aqroturizm klasterlərinin formalaşdırılması;
- iri çaylar və su anbarları ərazisində avarçəkmə, yay və qış idman növləri, vətənpərvərlik və s. daxil olmaqla aktiv turizmin inkişafı.

3.5. Regionda yerli istehsalçıların xalq yaradıcılıq sənəti (XYS) məhsulları üçün satış modelinin hazırlanması:

- XYS məhsullarını dövlət müəssisələri (uşaq bağçaları üçün mebel və s.) satınalması yolu ilə XYS müəssisələrinin dəstəklənməsi;
- XYS məhsulları paylama şəbəkəsinin inkişafına subsidiya verilməsi;
- XYS və tarixi mərkəzlərinə kompleks turizm marşrutlarının təşkil edilməsi;
- XYS müəssisələrinin beynəlxalq ticarət bazarlarına, o cümlədən elektron ticarət alətləri vasitəsilə daxil olmasına dəstək verilməsi;
- XYS müəssisələrinin regionda keçirilən mədəni tədbirlərdə iştirakına dəstək verilməsi;
- müstəsna markalı hədiyyə məhsulları istehsalı üçün korporativ hədiyyə fondları ilə XYS müəssisələri arasında əməkdaşlıq praktikasının tətbiqi;
- müqavilə (kontrakt) sisteminin dəyişdirilməsi - mal qrupunun "XYS müəssisələri tərəfindən istehsal olunan mallar" kateqoriyasına qədər genişləndirilməsi.

3.6. Qarabağ regionunda keyfiyyətli mədəni landşaftın yaradılması:

- tarixi və mədəni irs obyektlərinə sərmayə qoyarkən investorlar üçün əlverişli təşviq şərtlərinin hazırlanması;
- regionun və ərazilərin tarixi görünüşünü qorumaq şərti ilə özəl investisiyaların cəlb edilməsi;
- tarixi və mədəni irs obyektlərinin, yaşayış yerlərinin YUNESKO-da qeydiyyatı və müvafiq statusunun alınması;
- orijinal və bərpa edilmiş tarixi mühit əsasında turizm məhsullarının inkişafı və mədəni-maarif turizminin formalaşdırılması.

Ədəbiyyat

1. htpp//1905.az›agdam-rayonu/
2. htpp//afn.az›iqtisadiyyat/97861-adam-rayonu-byk…html
3. htpp//agdam-ih.gov.az
4. htpp//qaynarinfo.az›…adam-rayonu-byuk-iqtisadi…malikdir…
5. htpp//myaghdam.wordpress.com›2010/07/15/agdam-rayonu…
6. htpp//report.az›daxili-siyaset/azerbaycanin…rayonlari…
7. htpp//stat.gov.az›source/regions/
8. htpp//supremecourt.gov.az›static/view/300

Танриверди Паша

Ведущий научный сотрудник Института Экономики НАНА

Оценка экономических возможностей Карабахского и Dосточно-Зангезурского экономических районов

Резюме

В статье даны общий обзор экономики Карабахского и Восточно-Зангезурского экономических районов, определены конкурентных преимуществ экономики региона на основе анализа внешних и внутренних факторов, влияющих на социально-экономическое развитие региона, на основе анализа и оценки сильных и слабых сторон дооккупационного состояния и восстановления и возрождение освобожденных земель Карабахского и Восточно-Зангезурского экономических районов,. с учетом существующих и будущих вызовов, в рамках стратегий и приоритетов экономического развития, даны Предложения и рекомендация по различным направлениям экономической деятельности - человеческое развитие, экономическое развитие, пространственное развитие, создание промышленных кластеров, стимулирование инвестиционной и предпринимательской активности в агропромышленном комплексе и др.

Ключевые слова: конкурентные преимущества, внешние и внутренние факторы, экономическое развитие, человеческое развитие, кластеры, инвестиционная и инновационная деятельность, агропромышленный комплекс.

Tanriverdi Pasha
Leading Researcher at the Institute of Economics of ANAS

Assessment of the economic opportunities of the
Karabakh and East-Zangezur economic regions

Summary

The article gives a general overview of the economy of the Karabakh and East Zangezur economic regions, identifies the competitive advantages of the region's economy based on an analysis of external and internal factors affecting the socio-economic development of the region, based on an analysis and assessment of the strengths and weaknesses of the pre-occupation state and restoration and revival liberated lands of the Karabakh and East Zangezur economic regions,. taking into account existing and future challenges, within the framework of the strategies and priorities of economic development, proposals and recommendations were given in various areas of economic activity - human development, economic development, spatial development, the creation of industrial clusters, stimulation of investment and entrepreneurial activity in the agro-industrial complex, etc.

Keywords: competitive advantages, external and internal factors, economic development, human development, clusters

İŞĞALDAN AZAD EDILMIŞ ƏRAZİLƏRDƏ DAYANIQLI İNKİŞAF İSTİQAMƏTLƏRİ

İbrahimov İslam Hacı oğlu, İqtisad elmləri doktoru,
Professor. Əməkdar kənd təsərrüfatı işçisi
Qurbanov Aqil Abid oğlu, Iqtisad elmləri namizədi. .
Bakı Biznes Universiteti.
aqilqurbanov73@mail.ru

Xülasə.

Vətənimizin 44 gün ərzində ərazi bütövlüyünü təmin etməsi xalqımızın çoxəsrlik tarixində mühüm yer tutur. Dövlət sərhədlərimizi bərpa etməklə xalqımız XXI əsrin möhtəşəm zəfərini əldə etdi . İşğaldan azad edilmiş ərazilərin (İAEƏ-in) ölkəmizdə iqtisadi və sosial rifah halının yaxşılaşmasına verəcəyi töhvə artıq duyulmaqdadır. Bu ərazilərin iqtisadi fəaliyyətin əsas sahələrindən birinə çevrilməsi yüksək inkişafa səbəb olacaqdır. Bölgənin dayanıqlı inkişafı ərazidəki turizim, təbii resurs bolluğu iqtisadiyyatın daha surətli inkişafını təmin edəcək, investisiya cəlb edilməsinə şərait yaradacaqdır. İAEƏ-in təbii ehtiyatları, xüsusilə kənd təsərrüfatı potensialı ölkəmizin iqtisadi inkişafı baxımından mühüm əhəmiyyət daşıyacaqdır ki, bunun üçün də əvvəlcə həmin ərazidəki torpaqlar minalardan təmizlənməli bərpa olunmalı, meliorasiya, irriqasiya sistemləri quraşdırılmalıdır ki, ərazilər aqrar sfera üçün yararlı olsun. Bununla yanaşı torpaqların təyinatı üzrə uçotu aparılmalıdır. Bundan sonra bu ərazilərdə yaşayacaq insanlar müəyyənləş-dirilməli, torpaqların onların istifadəsinə verilməsi üçün müvafiq mexanizm əsasında islahatlar aparılmalıdır.

Açar sözlər: kənd təsərrüfatı, islahatlar, aqrar siyasət, ərzaq bazarı, innovasiya.

Kənd təsərrüfatı ölkənin iqtisadiyyatının mühüm sahəsidir. Hazırda ölkə əhalisinin təqribən yarısı kənd yerlərində yaşayır və fəal işçi qüvvəsinin 36 faizi bu sahədə çalışır. Ümumi Daxili Məhsulun 5,7 faizi kənd təsərrüfatı bölməsində istehsal olunur. Lakin respublika müstəqillik qazandıqdan sonra keçid dövrünə xarakterik olaraq aqrar bölmədə tənəzzül baş vermiş, kənd

təsərrüfatı məhsulları istehsalının həcmi 1991-ci ilə nisbətən 1996-cı ildə 50 faiz, ixrac potensialı 3 dəfə azalmışdır. 1995-ci ildən həyata keçirilən aqrar islahatlar nəticəsində bu bölmədə ciddi struktur, institutsional, sosial iqtisadi dəyişikliklər baş vermiş, bazar münasibətləri təşəkkül tapmışdır. Mövcud olmuş 1970 kolxoz və sovxozun fəaliyyətinə xitam verilmiş, onların əkinə yararlı torpaqları, əmlakı paylanmışdır. Torpaq islahatı nəticəsində 3,2 milyon nəfəri birləşdirən 828313 ailəyə 1343 min hektar sahədən daimi istifadə hüququna dair Dövlət Aktları verilmiş, digər torpaqlar isə bələdiyyələrin və dövlətin mülkiyyətində saxlanılmışdır. Orta həcmi 1,8 hektar olan 40 minə qədər fermer təssərrüfatı və istehsal kooperativi, 802 min kiçik ailə təsərrüfatları yaranmışdır. Ət, süd, çörək, pambıq, meyvə-tərəvəz, şərab, tütün, çay emal edən və kənddə texniki, kimyəvi satış və s. xidmət göstərən dövlət müəssisələri əsasən özəlləşdirilmiş və ya səhmdar cəmiyyətlərinə çevrilmişdir. İslahatlar bir çox mükəmməl Qanunlar və hüquqi-normativ sənədlər əsasında həyata keçirilmişdir ki, bu da aqrar sahənin inkişafına, bazar iqtisadiyyatının möhkəmlənməsinə və dönməzliyinə, kəndin simasının dəyişməsinə təkan vermişdir. Kənd təssərrüfatı məhsulları istehsalçıları bütün vergilərdən (torpaq vergisi istisna olunmaqla) azad edilmiş və əvvəlki vergi borcları silinmişdir. Neft məhsulları onlara aşağı qiymətə, güzəştlə satılmışdır. Qısa müddətdə sürətlə və fundamental şəkildə həyatda keçirilən keyfiyyət dəyişiklikləri nəticəsində son illər istehsalın sabitləşməsi, məhsulun və məhsuldarlığın nəzərə çarpaçaq dərəcədə yüksəlməsi, sahibkarlığın inkişafi iş yerlərinin nisbətən artımı baş vermişdir. Lakin, bütün bunlara baxmayaraq kənd təsərrüfatı sahəsində hələ də məhsul istehsalının həcmi və məhsuldarlıq aşağı səviyyədə qalır.

İAEƏ-də kənd təsərrüfatının inkişaf potensialının qiymətləndirlməsi üçün işğaldan əvvəlki vəziyyətin təhlil olunması məqsədəmüvafiq olardı. 1988-ci ildə Dağlıq Qarabağ və ətraf rayonlar yüksək kənd təsərrüfatı göstəricilərinə malik idi. Həmin vaxtlar ölkədə istehsal edilən məhsulların tərkibində işğaldan azad edilən ərazilərin statistikası aşağıda qeyd edildiyi kimi idi; Ölkə üzrə taxıl istehsalının 14,3 faizi, pambıq istehsalının 3,3 faizi, üzüm istehsalının 31,5 faizi, kartof istehsalının 6,3 faizi, ət istehsalının 14,5 faizi, süd istehsalının 17,1 faizi, yumurta istehsalının 3,6 faizi, yun istehsalının 19,3 faizi, barama istehsalının 17 faizi işğaldan azad edilən ərazilərin payına düşürdü. Həmin dövrdəki texnoloji və idarəetmə sistemi ilə əldə olunan bu nəticələrin günümüzdə prioritet istiqamətlərin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyəti var. İşğaldan əvvəlki dövrdə ölkə üzrə iribuynuzlu mal-qaranın 15,1 faizi, xırdabuynuzlu heyvanların isə 19,2 faizi həmin ərazilərin payına düşürdü. İribuynuzlu heyvandarlıq sahəsi üzrə Laçın, Ağdam və Füzuli rayonlarının, xırdabuynuzlu heyvandarlıq üzrə isə Laçın, Ağdam, Kəlbəcər, Füzuli və Cəbrayıl rayonlarının göstəriciləri yüksək olmuşdur. Qeyd olunan göstəricilərlə yanaşı, İAEƏ-n relyefi, təbii iqlim şəraiti və digər təbii imkanları nəzərə alınmaqla həmin bölgənin kənd təsərrüfatının prioritet istiqamətlərini müyyənləşdirmək mümkündür.(8)

Bitkiçilik sahəsində məhsulun həcminin və məsuldarlıq göstəricilərinin azalmasının əsas səbəbləri sahələrə lazımi aqrotexniki xidmətin göstərilməməsi, torpağa gübrələrin verilməməsi, bitki mühafizə vasitələrindən, kimyəvi maddələrdən istifadənin son dərəcə məhdudluğu, suvarma sistemlərinin bərbad vəziyyətə düşməsi, su çatışmazlığı və torpaqların şorlaşması, eroziyaya uğraması, məhsulun tədarükü, emalı, saxlama, qablaşdırma, daşınma, marketinq sistemlərinin olmamasıdır. Heyvandarlıq sahəsində isə buna yem bazasının zəifliyi onun getdikcə azalması, heyvan xəstəliklərinin artması, mühafizə vəsitələri və vaksinlərin çatışmaması, baytarlıq xidməti sisteminin zəifliyi, damazlıq-seleksiya işlərinə maliyyə vəsaiti yönəldilməsinə imkansızlıq təsir edir.

Ölkədə həyata keçiririlən aqrar siyasət məhsuldarlığın və keyfiyyətin sürətlə artırılması vasitəsilə aqrar bölmənin rəqabət qabiliyyətinin qorunub saxlanılmasına, ölkənin kənd təsərrüfatı məhsullarına olan tələbatının dolğun ödənilməsinə və əvvəlki ixrac qabiliyyətinin bərpa edilməsinə yönəldilmişdir. Lakin kənd təsərrüfatı bölməsinin intensiv inkişaf etməsi üçün istər maddi, istərsə də maliyyə resursları yaradılmalıdır.

Kənd təsərrüfatı məhsulları istehsalçılarının təsərrüfat və maliyya fəaliyyətinin təhlili göstərir ki, dövlət dəstəklənməsi həyata keçirilmədən bu sahədə əsaslı dönüş və inkişaf əldə etmək mümkün deyildir. Odur ki, işğaldan azad edilən ərazilərdə kənd təsərrüfatının perspektiv inkişafı üçün qısa, orta və uzun müddətə proqramların hazırlanması vacibdir.

1. İAEƏ-də fəaliyyət göstərəcək fermerlərdə ilkin kapital olmadığından istehsal üçün zəruri maddi-texniki resursları (toxum, yanacaq, gübrə, dərman preparatları, texnika, ehtiyat hissələri və s.) kifayət qədər ala bilmirlər. İşğaldan azad edilən ərazilər üçün xüsusi kreditin verilməsini genişləndimək faizi münasib səviyyəyə salmaq, verilmə şərtlərini sadələşdirmək və ən başlıcası bu işdə olan bürokratik əngəllərə qarşı dövlət səviyyəsində mübarizə aparmaq məqsədəuyğun olardı.

2. Ölkədə fermerin istehsal etdiyi kənd təsərrüfatı məhsullarının satış qiyməti çox ucuzdur. İAEƏ-də istehsalın ziyanla başa gəlməməsi üçün digər tədbirlərlə yanaşı həm də fermerlərə bəzən vacib məhsulların istehsalı üçün dövlət tərəfindən subsidiyaların verilməsi daha yaxşı olardı.

3. Daxildə istehsal olunan kənd təsərrüfatı məhsullarının qiymətini qaldırmaq üçün həmin növ məhsulların xaricdən gətirilməsinin qarşısını almaq məqsədilə dövlət rüsumlarının tənzimlənməsı mexanizmlərindən istifadə edilməsi məqsədəuyğun olardı.

4. İAEƏ-də xırda təsərrüfatlara uyğun texnikanın alınıb icarə və ya lizinq qaydasında verilməsi tətbiqi daha çox səmərə verə bilər.

5. 1995-ci ildə həyata keçirilən islahatda torpaq payı almış vətəndaşların böyük əksəriyyəti hüquqi şəxs yaratmadan, yəni fiziki şəxs kimi özünün kiçik pay torpağında istehsalla məşğul olurlar. Belə kiçik sahələr texnikadan və müasir texnologiyalardan tam istifadə etməyə imkanı azaldır. Nəticədə məhsuldarlıq aşağı olur və məhsul baha başa gəlir. İşğaldan azad edilən ərazilərdə islahat aparılarkən bu hallar nəzərə alınsa daha yaxşı olardı.

6. Respublikanın müxtəlif bölgələrində mal-qaranın qorxulu yoluxucu xəstəlikləri (quduzluq, dabaq, qara-yara, bruselyoz), bitkiçilik sahəsində isə qorxulu zərərvericilər (çəyirtkə, sünbülqıran) və karantin xəstəliklər vardır. Nəticədə fermerlərə ziyan dəyir. İAEƏ-də baytarlıq və karantin xidmətlərinin fəaliyyəti daha ciddi nəzarət olunması məqsədəuyğun olardı.

7. İAEƏ-də suvarılan torpaqlarda su təchizatını yaxşılaşdırmaq üçün meliorasiya və irriqasiya işlərinin aparılması daha yüksək səmərə əldə etməyə zəmin yaradardı.

8. İAEƏ-in torpaq və iqlim şəraitinə görə pambıqçılığın iqtisadi cəhətdən səmərəli hesab olunan rayonlarında bu bitkinin əvvəlki şöhrətini geri qaytarmaq üçün həm dövlət və həm də tədarükçü təşkilat olan səhmdar cəmiyyətləri tərəfindən əlavə həvəsləndirici tədbirlər həyata keçirilməlidir.

9. İAEƏ-də elektrik enerjisinin fasiləsiz verilməsi təmin olunmalıdır. Bu suvarılan ərazilərdə əkilən bitkilərin vaxtında və keyfiyyətli suvarılmasına imkan verəcəkdir, eyni zamanda elektron suvarma tətbiq ediləcəkdir.

10. Torpaqlardan düzgün istifadə edilməməsi, xüsusilə növbəli əkin sisteminin tətbiq olunmaması, torpağın münbitliyinin azalmasına, bitkiçilikdə aqrotexniki, heyvandarlıqda isə zoobaytar qaydalara tam əməl olunmaması vahid sahədən və ya bir başdan alınan məhsulun miqdarının potensial imkanlardan xeyli aşağı olmasına gətirib çıxarır. Bunun səbəbi bir tərəfdən maddi-texniki bazanın zəifliyidirsə, digər tərəfdən sahibkarlarda informasiya və məsləhət xidmətlərinin çatışmamasıdır. Bu baxımdan azad edilən ərazilərdə bu məsələlər diqqət mərkəzində olmalıdır.

İAEƏ-də topdansatiş ərzaq bazarlarının təşkil edilməsi bölgənin inkişafını daha da sürətləndirər. Topdansatiş ərzaq bazarları istehlakçıların zəruri məhsullarla təmin olunmasına imkan verən müvafiq infrastruktura malik idarə olunan və tənzimlənən mexanizm rolunu oynayar. Ərzaq bazarınının infrastrukturuna inzibati təyinatlı sığınacaqlar, dəmir yolları, anbarlar, mehmanxanalar, poçt, tibb məntəqəsi, maliyyə- hesablaşma mərkəzi (bank), informasiya-marketinq mərkəzi, keyfiyyətə nəzarət təhlükəsizlik xidməti və ticarət obyektləri daxildir. Topdansatış ərzaq bazarı iştirakçılarının qarşılarına qoyulan tələblər müəyyənləşdirilməlidir. Bu tələblər məhsulların keyfiyyətli, çeşidlənməsi, standartlaşdırılması, qablaşdırılması, təhlükəsizliyi kimi məsələləri əhatə edir. Topdansatış ərzaq bazarlarının fəaliyyətinə cavabdeh olan məsul işçilər sadalanan tələbləri bilavasitə məhsul istehsalçılarına təqdim etməlidirlər. Bazar iştirakçılarının (istehsalçıların) qarşılarına qoyulan bu tələblərlə istehlakçıların müdafiəsi və təhlükəsizliyi təmin olunur, eyni zamanda istehsalçılar bazarın tələblərinə uyğunlaşdırılır. Topdansatış ərzaq bazarlarının normal fəaliyyət göstərmələri üçün onlarda marketinq xidməti təşkil olunmalıdır. Marketinq xidmətinin vəzifələri aşağıdakılardan ibarət olmalıdır;

− ərzaq bazarının öyrənilməsi;
− istehlakçıların əlverişli qiymətlərlə yüksək keyfiyyətli qida məhsulları ilə təmin olunması;
− istehlakçıların tələbatlarının istehsalçılara çatdırılması;
− topdan ticarət iştirakçılarının maraqlarının təmin olunması.

Topdansatış ərzaq bazarlarında islehsalçı və yaxud emalçı məhsulun reallaşdırılması məsələsini özü istədiyi kimi həll edə bilər. Məhsul istehsalçı və ya emalçı tərəfindən, yaxud da topdan ticarətçinin vasitəsilə reallaşdırıla bilər. Ticarət şəbəkəsinə keyfiyyətsiz ərzaq məhsullarının daxil olunmasının qarşısını almaqla, topdansatış bazarı bir tərəfdən əhalinin ərzaq təhlükəsizliyini təmin etməli, başqa bir tərəfdən isə epidemiyaya nəzarət və ticarət müfəttişliyinin işlərinin yüngülləşdirilməsinə imkan verməlidir. Topdansatış bazarına akkreditasiya olunmuş bank ticarət iştirakçılarının qarşılıqlı münasibətlərini sadələşdirməyə imkan verməli və satıcılar arasında hesablaşmaları mümkün qədər qısa vaxt ərzində təmin etməlidir. Bazara akkreditasiya olunmuş topdan alıcılar və satıcılar bəzən infrastruktura daxil olan bankın xidmətlərindən istifadə etməlidirlər. Əks halda ticarət qaydalarını pozan topdan alıcı və yaxud satıcı bazarda yerini və həmin yerin əldə edilməsi ilə əlaqədar çəkdiyi xərcləri itirə bilər. İşğaldan azad edilmiş ərazilərdə topdansatış ərzaq bazarlarının normal və səmərəli fəaliyyəti, həmçinin onların tənzimlənməsi idarə olunması qanunvericilik bazası çərçivəsində mümkündür. Bunun üçün lazımi hüquqi baza yaradılması məqsədəuyğundur.

Gələcək dövrdə ən müasir texnoloji sahələri və innovasiyaları dəstəkləyən rəqəmsal cəmiyyət inkişafın aparıcı qüvvəsinə çevriləcəkdir. Ölkəni rəqabətdə irəli aparmaq üçün cəmiyyətin yaradıcılığını və innovativliyini stimullaşdıran ekosistem qurulmalıdır.

Yeni dövrdə qurulacaq ekosistem (müvafiq təşviqlər, inkubasiya və akselerasiya mərkəzləri, dövlət-özəl əməkdaşlığı əsasında maliyyələşmə modelləri, vençur və kraudfandinq institutları və s.) iqtisadiyyatın texnoloji tutumluluğunun artırılmasına yönləndirilməlidir. Dünyada gedən sürətli texnoloji tərəqqiyə çevik uyğunlaşmaqla texnoloji ixrac məkanına çevrilmək üçün perspektivlər yaradılmalıdır. Bu məqsədlə emal sənayesinin inkişafı dərinləşdirilməli, elmtutumlu və yüksək gəlir yaradan orta və yüksək texnoloji sahələrin inkişafı təmin edilməlidir. Nəticəyönümlü elmi tədqiqatların təşviqi üçün rəqabətli maliyyələşdirmə mexanizmləri formalaşdırılmalıdır.(1)

Ибрагимов Ислам Гаджи оглы Д.Э.Н., профессор,
Гурбанов Агиль Абид оглы К.Э.Н.
Бакинский Университет Бизнеса

Направления устойчивого развития на освобожденных от оккупации территориях

Резюме

Обеспечение территориальной целостности нашей страны на 44 дня занимает важное место в многовековой истории нашего народа. Восстановив наши государственные границы, наш народ добился великой победы XXI века. Вклад на территорий освобожденных от оккупации (ТОО) в улучшение экономического и социального благосостояния в нашей стране уже ощущается. Превращение этих территорий в одно из основных направлений экономической деятельности приведет к высокому развитию. Устойчивое развитие региона, туризм в этом районе, богатство природных ресурсов обеспечат более быстрое экономическое развитие и создадут условия для инвестиций. Природные ресурсы освобожденных территорий, особенно сельскохозяйственный потенциал, будут иметь важное значение для экономического развития нашей страны. При этом регистрацию земель следует производить по целевому назначению. После этого необходимо определить людей, которые будут проживать на этих территориях, и провести реформы на основе соответствующего механизма передачи земель в их пользование.

Ключевые слова: сельское хозяйство, реформы, аграрная политика, продовольственный рынок, инновация.

Islam Haji Ibrahimov, Doctor of Economics, Professor
Qurbanov Agil Abid, PhD in Economics.
Baku Business University,

Directions of sustainable development in the territories liberated from occupation

Summary

Making the territorial integrity of our country during 44 days has an important place in the centuries-old history of our people. By restoring our state borders, our people have achieved a great victory of the XXI century. The contribution of the liberated territories (LT) to the improvement of economic and social welfare in our country is already being felt. Turning of these areas into one of the basic areas of economic activity will lead to high development. Sustainable development of the region, tourism in the area, the abundance of natural resources will ensure faster economic development and create conditions for attracting investment. The natural resources of the LT, especially the agricultural potential, will be important for the economic development of our country so for doing this, the lands in the area must first be cleared of mines and restored, amelioration and irrigation systems must be installed so that the areas are suitable for the agricultural sector. At the same time, lands should be registered according to their destination. Then, the people who will live in these areas must be identified, and reforms must be carried out on the basis of an appropriate mechanism for the transfer of land to their use.

Keywords: agriculture, reforms, agrarian policy, food market, innovation.

Ədəbiyyat

1. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli sərəncamı.
2. Azərbaycan Respublikasi regionlarinin 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafi Dövlət proqramı, Bakı şəhəri, 29 yanvar 2019-cu il.
3. Ataşov B. X. Ərzaq təhlükəsizliyinin aktual problemləri. Bakı, 2005, 336s.
4. İbrahimov İ. H. Regionlarda sahibkarlığın inkişaf meyilləri və xüsusiyyətləri. Bakı, 2007. 296s.
5. İbrahimov İ. H. Aqrar sahənin iqtisadiyyatı. Bakı, 2016, 655s.
6. Quliyev E.A. Aqrar iqtisadiyyat. Bakı, 2015, 320 s.
7. https://www.stat.gov.az
8. https://vergiler.az

POSTKONFLİKT ƏRAZİLƏRDƏ «YAŞIL» TEXNOLOGİYALARIN TƏTBİQİ PERSPEKTİVLƏRİ

dosent Əlövsət Əliyev, i.f.d.
AMEA İnformasiya Texnologiyaları İnstitutunun şöbə müdiri,
alovsat_qaraca@mail.ru

Xülasə

Məqalədə postkonflikt ərazilərdə, xüsusən "ağıllı şəhər" və "ağıllı kənd" layihələrində "yaşıl" texnologiyaların tətbiqinin aktuallığı əsaslandırılmışdır. Həmin ərazilərdə formalaşdırılacaq iqtisadiyyatın rəqəmsallaşdırılmasının, rəqəmsal texnologiyaların tətbiqinin və İKT infrastrukturunun təkmilləşdirilməsinin əhəmiyyəti göstərilmişdir. Bu aspektdə dünya dövlətlərinin rəqəmsal iqtisadiyyatının ÜDM-də payının proqnozları verilmişdir. Postkonflikt ərazilərdə "ağıllı" şəhərlər və kəndlər, intellektual sistemlərin yaradılmasının iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsi üzrə perspektiv istiqamətlər kimi müəyyənləşdirilmişdir. Ölkənin sosial-iqtisadi inkişafına dair reallaşdırılması nəzərdə tutulmuş əsas Milli Prioritetlər izah olunmuşdur, Yaradıcı və innovativ cəmiyyətin formalaşdırılması məqsədinin yerinə yetirilməsi istiqaməti göstərilmişdir. İqtisadi

inkişafda "Ağıllı şəhər" konsepsiyasının xüsusiyyətləri müəyyənləşdirilmişdir. Ağıllı şəhər modelinin struktur elementləri təklif olunmuşdur. Ağıllı şəhərin inkişafına kömək edən seqmentlər müəyyənləşdirilmişdir. "Ağıllı" şəhər və "yaşıl" şəhər konsepsiyalarının ümumi elementləri müəyyənləşdirilmişdir. Yaşıl smart şəhər modelinin struktur elementləri təklif olunmuşdur. "Ağıllı şəhər" və "ağıllı kənd" layihələrində "yaşıl" və müasir texnologiyaların, IV Sənaye inqilabının elementləri tətbiqi xüsusiyyətləri verilmişdir. "Ağıllı şəhər" və "ağıllı kənd" layihələrində müvafiq elmi tədqiqatların aparılmasında innovativ texnologiyaların tətbiqinin nəzərə alınması qeyd olunmuşdur. "Ağıllı şəhər" və "ağıllı kənd" layihələrində "yaşıl" texnologiyaların tətbiqi üsullarının təkmilləşdirilməsinin perspektiv istiqamətləri üzrə tövsiyələr verilmişdir. Göstərilmişdir ki, "ağıllı şəhər" və "ağıllı kənd" layihələrində "yaşıl" texnologiyaların tətbiqi yeni iqtisadi idarəetmə şəraitində innovativ iqtisadiyyatın səmərəliliyinin artırılmasına və dövlətin Qarabağın dirçəldilməsi və inkişafı kursuna əlavə imkanlar yarada bilər.

Açar sözlər: "ağıllı" şəhər və kənd, intellektual sistemlər, innovativ cəmiyyət, "yaşıl artım" və texnologiya, rəqəmsal texnologiya, "yaşıl enerji", "yaşıl" iqtisadiyyat, e-tullantı, 4.0 Sənaye *inqilabı.*

Giriş. Müasir dövrdə iqtisadiyyatın innovasiya əsaslı irəliləyişinin təmin edilməsi, texnoloji innovasiyalar əsasında müasirləşdirilməsi, süni intellekt və robotlaşdırma, bio, nano, informasiya-kommunikasiya, kosmik və s. kimi yüksək texnologiyalar əsasında yeni iqtisadi sektorların formalaşması, inkişaf etdirilməsi iqtisadiyyatın daha sürətli inkişafına nail olmağın əsas yollarından hesab olunur. BMT-nin 2030-Dayanıqlı İnkişaf Məqsədlərindən [1] biri olan "Sənaye, innovasiya və infrastruktur"un inkişaf prinsiplərinin, o cümlədən təmiz su və sanitariya (Hər kəs üçün su və sanitariyanın davamlı idarəetməsini və mövcudluğunu təmin etmək), sərfəli və təmiz enerji (Hər kəs üçün əlverişli, etibarlı, dayanıqlı və müasir enerjiyə çıxışı təmin etmək), dayanıqlı şəhərlər və icmalar (Şəhərləri və digər insan yaşayış məskənlərini inklyüziv, təhlükəsiz, möhkəm və dayanıqlı etmək), iqlim dəyişikliyinə qarşı mübarizə (İqlim dəyişikliyi və onun təsirlərinə qarşı mübarizə aparmaq üçün təcili addımlar atmaq) kimi məsələlərin, eləcə də elmtutumlu yüksək texnologiya məhsullarının istehsal sahələrinin IV Sənaye inqilabının çağırışlarına [2] müvafiq olaraq formalaşdırılması dünya iqtisadiyyatının inkişafında əsas istiqamətlərdən birinə çevrilmişdir. Azərbaycanda da bu istiqamətdə həyata keçirilən iqtisadi islahatların davamlılığı və səmərəliliyi ölkə iqtisadiyyatının inkişafı üzrə Strateji Yol Xəritələrində [3], Azərbaycanın 2021-ci ildə qəbul olunan sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərində [4] təsbit olunmuşdur. İqtisadiyyatın rəqəmsallaşdırılması üçün İKT infrastrukturunun təkmilləşdirilməsi və ölkənin İKT sənayesi potensialının artırılması da bir vəzifə olaraq göstərilmişdir [5]. Azərbaycanın işğaldan azad olunmuş ərazilərində ağıllı şəhər" və "ağıllı kənd" layihələrinin yerinə yetirilməsi, onun inkişaf infrastrukturunun perspektiv istiqamətlərinin formalaşdırılması müasir dövr üçün ən əhəmiyyətli məsələlərdəndir. Işğaldan azad edilmiş ərazilərdə kompleks elmi tədqiqatların yenidən bərpa edilməsi, müasir texnologiyalar əsasında həyata keçirilməsi, burada informasiya texnologiyalarının geniş tətbiq edilməsi, həmçinin Elektron Qarabağ proqramı çərçivəsində müəyyən işlərin görülməsi respublika üçün əhəmiyyətli məsələyə çevrilmişdir. Postkonflikt ərazilərdə "ağıllı" şəhərlər və kəndlər, intellektual sistemlərin yaradılması, iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsi üçün "ağıllı şəhər" və "ağıllı kənd" layihələrində innovativ, o cümlədən "yaşıl" texnologiyaların tətbiqi və perspektiv istiqamətlərinin müəyyənləşdirilməsi ölkə qarşısında duran əsas məqsədlərdəndir.

Sosial-iqtisadi inkişafın Milli Prioritetləri. 44 günlük möhtəşəm Zəfər qələbəmizdən sonra ölkəmizin işğaldan azad edilmiş ərazilərinin yenidən dirçəlməsi, orada ən müasir sosial-mədəni, kommunikasiya və nəqliyyat infrastrukturunun yaradılması, dağıdılmış şəhər-kəndlərimizin bərpası üçün dövlət tərəfindən kompleks tədbirlər həyata keçirilmiş və inkişaf konsepsiyası hazırlanmışdır. Azərbaycan dövləti postneft, postpandemiya, postkonflikt və postmüharibə dövründə keyfiyyətcə yeni olan və 2021–2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olmaqdadır. Elə bu məqsədlə də yeni strateji dövrdə ölkə qarşısında duran məqsədlərə nail olmaq, uyğun siyasət və islahatlar çərçivəsini formalaşdırmaq üçün 2 fevral 2021-ci ildə "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"inin təsdiq edilməsi haqqında Ölkə Prezidenti Sərəncam imzalamışdır [4].

Taleyüklü bu rəsmi sənəddə növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair 1)*Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat; 2)Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət; 3)Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı; 4)Işğaldan azad olunmuş ərazilərə böyük qayıdış; 5)Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi kimi* beş Milli Prioritetin reallaşdırılması nəzərdə tutulmuşdur [4]. Elmtutumlu yüksək texnologiya, innovativ məhsullarının istehsal sahələri son illərdə meydana gələn IV Sənaye inqilabının çağırışlarına [2] müvafiq olaraq dünya iqtisadiyyatının əsas sektoruna çevrilmişdir. Hər bir ölkənin prioriteti yüksək rəqabətli insan kapitalını formalaşdırmaqdır. Bunun üçün müasir təhsil, innovasiyaları təşviq edən münbit şərait və insanların sağlamlığı əsas şərtdir. Bu prioritetin uğurla reallaşdırılması üçün 1)*XXI əsrin tələblərinə uyğun təhsil sisteminin qurulması. 2)Yaradıcı və innovativ cəmiyyətin formalaşdırılması. 3)Vətəndaşların sağlam həyat tərzinin təmini kimi* əsas məqsədlərə nail olunmalıdır. Göstərilən məqsədlər kompleks xarakterə malikdir və bir çox tədbirlərin reallaşdırılması tələb olunur [4].

Ərazilərin tezliklə bərpa edilməsi üzrə işlərin həyata keçirilməsi, müvafiq infrastrukturların yaradılması, həmin regionun Azərbaycan iqtisadiyyatına inteqrasiyasının təmin edilməsi, işğaldan azad olunan ərazilərə böyük qayıdışın təmin edilməsi üçün şəhər və kəndlərin bərpası, yenidən qurulması, həmin ərazilərdə müasir infrastrukturların yaradılması məqsədi ilə 2021-ci ilin dövlət büdcəsindən 2 milyarddan çox vəsaitin ayrılması nəzərdə tutulmuşdur. Ərazilərin bərpası və inkişafı istiqamətində dövlət tərəfindən həyata keçiriləcək tədbirlər və həmin rayonların iqtisadi potensialı ölkəyə, xüsusilə də qeyri-neft sektoruna yeni yerli və xarici investisiyaların cəlb olunmasına zəmin yaradılacaqdır.

Postkonflikt ərazilərdə iqtisadiyyatın rəqəmsallaşdırılması və rəqəmsal texnologiyaların tətbiqi xüsusiyyətləri. İqtisadiyyatın və cəmiyyətin rəqəmsal transformasiyası son illərdə ölkə qarşısında duran prioritet məsələlərdən birinə çevrilmişdir. İKT infrastrukturunun əsasını təşkil edən İnternet şəbəkəsinin inkişafı, "Hökumət buludu" (G-Cloud), "Böyükhəcmli verilənlər" (Big Data), "Ağıllı şəhər" (Smart City), "Ağıllı kənd" (Smart Village) və s. kimi perspektivli rəqəmsal layihələrin həyata keçirilməsi nəzərdə tutulur [5]. Azərbaycanın regionda rəqəmsal mərkəzə çevrilməsi istiqamətində ardıcıl islahatlar aparılır. İşğaldan azad edilmiş ərazilərdəki yaşayış məntəqələrinin də IV Sənaye inqilabının əsas trendlərindən olan "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları əsasında bərpa olunacağını Ölkə Prezidenti çıxışlarında bəyan etmişdir.

Ölkənin IV Sənaye inqilabı üzrə regional mərkəzə çevrilməsi üçün Prezident İlham Əliyevin uzaqgörən siyasətinin nəticəsi kimi 2021-ci il aprelin 19-da "Ağıllı şəhər" (Smart City) və "ağıllı kənd" (Smart Village) konsepsiyasının hazırlanması haqqında Sərəncamın [6] imzalanması onun bariz nümunəsidir. Azərbaycan Respublikasının şəhər və kəndlərində müvafiq sahə üzrə göstərilən xidmətlərin keyfiyyətinin, təhlükəsizliyinin, səmərəliliyinin artırılması, onların göstərilməsində informasiya texnologiyalarının tətbiqi, habelə həmin xidmətlər üzrə mövcud resursların effektiv istifadəsi və idarə olunmasının təmin edilməsi şəhər və kənd yerlərində dayanıqlı inkişafın əsas prioritetlərindəndir [6].

Müasir telekommunikasiya, sensor, "Böyükhəcmli məlumatlar" (Big Data) və digər rəqəmsal və süni intellekt texnologiyalarının, həmçinin innovasiya və biliklərin istifadə edilməsi sosial-iqtisadi münasibətləri daha məhsuldar və səmərəli edir, iqtisadiyyatın ümumi dəyər zəncirində yeni gəlir imkanları yaradır. Qeyd edilən texnologiyaların bir-birilə inteqrasiya olunmuş formada istifadəsi ilə rəqəmsal məlumatların formalaşdırılması, yığılması, saxlanılması, işlənilməsi və analitik təhlillər əsasında qərarvermə və idarəetmənin keyfiyyətinin yüksəldilməsi səmərəli, eləcə də keyfiyyətli xidmətlərin göstərilməsi üçün geniş imkanlar açır. Bu imkanlar şəhər və kəndlərdə göstərilən xidmətlərin növbəti inkişaf mərhələsində funksional, genişmiqyaslı "Ağıllı şəhər" və "Ağıllı kənd" xidmətlərinə keçid üçün zəmin yaradır [6]. "Ağıllı kənd" ideyası dünyada kənd yerlərində həyatın asanlaşdırılması, kəndlərin yaşayış üçün daha yararlı hala gətirilməsi yolu ilə urbanizasiyanın-şəhərləşmənin qarşısının alınması məqsədilə irəli sürülmüş layihədir ki, əsasən kəndlərdə xidmətlərin asanlaşdırılmasına yönəldilmiş bütün işlərin şəbəkə üzərindən həyata keçirilməsindən ibarətdir. Digər bir məqsəd kənddə kiçik və orta sahibkarlığın inkişafı üçün real şərait yaratmaq, insanlara kənddə pul qazanmaq imkanının yaradılmasıdır. Dövlət xidmətlərinin asanlaşdırılması, internetlə təqdim olunması kənd sakinlərini yaşadıqları əraziyə bağlayan

amillərdən birinə çevrilməsi ideyasının özəlliyi sakinlərin kiçik sahibkarlar kimi fəaliyyət göstərməsidir. Bunların əsasında "ağıllı kənd"də ağıllı infrastruktur və xidmətlər, ağıllı təsərrüfat və biznes, ağıllı dövlət idarəçiliyinin vəhdəti təmin edilir.

Rəqəmsal iqtisadiyyatın ÜDM-ə təsir aspektləri. Hazırda dünya dövlətlərinin ÜDM-nin təxminən 22% -i rəqəmsal iqtisadiyyat sayəsində formalaşaraq inkişaf edir [7-9]. Bəzi iqtisadi şirkətlərin hesablamalarına görə, iş yerlərinin avtomatlaşması hesabına dünya ÜDM-i 2030-cu ilə qədər 9 trilyon dollar arta bilər. 2030-cu ilə qədər dünya işçi qüvvəsinin təqribən 14 faizi öz peşəsini dəyişmək məcburiyyətində qalacaq. 2035-ci ildə dünya rəqəmsal iqtisadiyyatının proqnozlaşdırılan həcmi 16 trln. dollar təşkil edəcəkdir. 2025-ci ildə Çində ÜDM artımının 22 %-nə qədəri Internet texnologiyası hesabına təmin ediləcəkdir. 2025-ci ildə ABŞ-da rəqəmsal texnologiyalar hesabına yaradılan dəyərin gözlənilən artımı 1,6-2,2 trln. dollar ətrafında olacaqdır. 2018-ci ildə rəqəmsal texnologiyalardan istifadə etməklə göstərilən xidmətlərin ixracının həcmi 2,9 trln. dollar olmuşdur ki, bu da dünya üzrə xidmət ixracının 50 %- ni təşkil edir. 2025-ci ilə qədər Internet dünya iqtisadiyyatına ildə 4-11 trln. dollar gəlir gətirəcəkdir. 2025-ci ildə rəqəmsallaşma ÜDM-in artımının 19-34 %-ni təmin edəcəkdir. 2036-cı ildə iş proseslərinin 50%-ə qədəri avtomatlaşdırılacaqdır. Bu kimi pozitiv xarakterli proqnozların gözlənilən sosial-iqtisadi təsirlərinin nəticələrini öncədən postkonflikt ərazilərin bərpası konsepsiyasında nəzərə alınmalıdır.

İqtisadi inkişaf və "Ağıllı şəhər" konsepsiyası. Smart şəhər və ya ağıllı şəhər əhalinin, vətəndaşlarının həyat keyfiyyətini yaxşılaşdırmağa qadir olan sağlam, təhlükəsiz, stimullaşdırıcı və dinamik bir mühitdə mədəni, iqtisadi və sosial inkişaf üçün davamlı imkan təklif edən şəhər hesab olunur [10]. Ağıllı şəhər idarəetmə modelinin strukturunu 1-ci şəkildəki kimi vermək olar.

Ağıllı şəhər əsasən aşağıdakılara şərait yaradan, onların reallaşmasını həyata keçirən müasir struktura malik yeni texnologiya ilə təchiz olunmuş bir şəhərdir: iqtisadi rəqabət (ağıllı iqtisadiyyat), yenilik, təşəbbüskarlıq, iqtisadi imic, məhsuldarlıq, biznes bazarının çevikliyi, beynəlxalq inteqrasiya, transformasiya qabiliyyəti; ağıllı vətəndaşların, insanların təhsili və sosial qarşılıqlı əlaqəsi, ixtisas səviyyəsi, uzunmüddətli təlim, sosial və etnik çoxluq, elastiklik, yaradıcılıq, ictimai həyatda iştirak; idarəetmənin fəaliyyət göstərməsi və xidmətləri (ağıllı idarəetmə), qərar qəbuletmə proseslərində iştirak, ictimai və sosial xidmətlər, şəffaf hökumət fəaliyyəti, ictimai-siyasi, sosial-iqtisadi inkişafı strategiyaları və perspektivləri; İKT və müasir və davamlı nəqliyyat sistemləri (ağıllı hərəkətlilik), yerli əlçatanlıq, beynəlxalq əlçatanlıq, İT infrastrukturlarının mövcudluğu, davamlı, yenilikçi və təhlükəsiz nəqliyyat sistemləri; ətraf mühitin yüksək keyfiyyəti (ağıllı mühit), təbii şəraitin cəlbediciliyi, çirklənmə, ətraf mühitin qorunması, resursların davamlı idarə olunması; həyat, mədəniyyət, sağlamlıq və təhlükəsizlik keyfiyyəti (ağıllı həyat), sosial quruluşlar, sağlamlıq şərtləri, fərdi təhlükəsizlik, mənzillərin keyfiyyəti, təhsil strukturları, turistik cəlbedicilik, sosial birlik və s..



Şəkil 1. Ağıllı şəhər idarəetmə modelinin strukturu

Ağıllı şəhərin inkişafına kömək edən seqmentlər bunlardır: ağıllı şəbəkələr, administrasiyalarla məlumat mübadiləsi apara bilən və enerji axınlarını tənzimləyən ağıllı şəbəkələr; son nəsil

ictimai işıqlandırma, trafiki və şəhərdəki çirklənmə səviyyələrini izləyən LED lampalar, təhlükəsizliyi artırmaq; ağıllı hərəkətlilik, hibrid və elektrikli nəqliyyat vasitələri, ağıllı park, velosiped və avtomobil paylaşımı; iqlim dəyişikliyi ilə əlaqəli meteoroloji hadisələrin öhdəsindən gəlmək üçün şəhərdəki dayanıqlıqla əlaqəli texnologiyalar, ağıllı sistemlər; şəhər məlumatları ilə əlaqəli, ölçülən faktlara, rəqəmlərə və baxışlara çevrilən bütün məlumatlardan ibarət olan cihazlar və s. [10].

"Ağıllı şəhər" və "yaşıl" inkişaf məsələləri. "Ağıllı" şəhər və "yaşıl" şəhər konsepsiyalarının ümumi elementlərinə, yaşıl şəhər sektorlarına bərpa olunan enerji, yaşıl binalar, davamlı nəqliyyat, su idarəetməsi, tullantıların idarə olunması, torpaq idarəetməsi və s. daxil etmək olar [11]. Yaşıl şəhər konsepsiyasının tətbiqi və reallaşdırılması postkonflikt ərazilərdəki şəhərləri yaşıl şəhərlərə çevirmək kimi əsas məqsədlərdən ibarətdir. Həmin məqsədlərə təmiz hava (atmosfer tullantılarının maksimum azalması; eko nəqliyyatın istifadəsi); şəhər tullantılarının minimuma endirilməsi (tamamilə məişət və sənaye tullantılarının atılması üçün bir sistemin yaradılması); enerjinin rasional istifadəsi (enerji qənaəti və alternativ enerji mənbələrindən istifadə); şəhər meşələri (mənzil sıxlığı çərçivəsində yaşıllıqların yaradılması) və s. daxildir.

Ağıllı şəhər konsepsiyasının həyata keçirilməsində ağıllı vətəndaşların rolu. Ağıllı şəhər elementlərinə aşağıdakıları daxil etmək olar [11]*:* maliyyələşdirmə və investisiyalar, tərəfdaşlıqlar, xüsusi təşkilatlar, elektron idarəetmə, dövlət xidmətləri, qərar qəbul etmə, strateji plan, təşəbbüslər-layihələr, şəhər dizaynı, innovasiya bölgələri, yaşayış laboratoriyaları, hərəkətlilik, rahatlıq və imkanlar, ağıllı vətəndaşlar, sosial və mədəni çoxluq, qanunun aliliyi, torpaqdan istifadə, iqtisadi fəaliyyət, insan kapitalı və sahibkarlıq, tədqiqat, təhsil və texnologiya, iş birliyi məkanları, qlobal biznes şəbəkələri, beynəlmiləlləşmə və s. Yaşıl ağıllı şəhərin struktur elementlərini 2-ci şəkildəki kimi təqdim etmək olar [12].



Şəkil 2. Yaşıl ağıllı şəhərin struktur elementləri

Yaşıl şəhərin formalaşması mərhələsinin davamlı şəhər, eko şəhər, yaşıl şəhər, ağıllı yaşıl şəhər kimi əsas elementləri vardır.

"Ağıllı şəhər" və "ağıllı kənd" layihələrində "yaşıl" texnologiyaların tətbiqi. "Ağıllı şəhər"in bünövrəsini IV Sənaye inqilabının Əşyaların Interneti, bulud texnologiyaları, süni intellekt, robot, böyük verilənlər və s. elementləri olan müasir texnologiyalar təşkil edir. Ölkə Prezidentinin

“Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində “yaşıl enerji” zonasının yaradılması ilə bağlı tədbirlər haqqında” 2021-ci il 3 may tarixli Sərəncamının [13] icrası müvafiq sahədə görülən işlərə geniş şərait və imkanlar yaradır. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində “yaşıl enerji” zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyanın və baş planın hazırlanması üçün ixtisaslaşmış beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi məqsədilə müvafiq vəsaitlər ayrılmışdır. Hazırda dünyanın əksər ölkələrində iqtisadi artım ətraf mühitin deqradasiyası, çirklənmə səviyyəsinin artması, təbii resursların tükənməsi, biosferin pozulması və iqlim dəyişikliyi kimi mənfi təzahürlərlə müşahidə olunur. Sənaye, məişət və elektron tullantıların idarə edilməsi sisteminin işlənməsi və həyata keçirilməsi istənilən ölkə qarşısında duran ən mühüm və aktual məsələlərdən hesab edilir. Dünya miqyasında təkcə elektron tullantıların istehsal həcminin 2020-ci ilə qədər yüz milyonlarla tonu keçdiyi və illik artımın 4-5% arasında olduğu müşahidə olunmuşdur. Sənaye və elektron tullantıların idarə edilməsi – tullantıların yığılması (toplanması), nəqli, yerləşdirilməsi, ilkin və təkrar emalı, utilizasiyası əməliyyatlarından ibarət kompleks fəaliyyətdir. Sənaye və elektron tullantıların davamlı idarə olunması ölkənin sosial-iqtisadi siyasət istiqamətinin tərkib komponentidir. Azərbaycan Respublikası Prezidentinin “Bakı şəhərində məişət tullantıları ilə bağlı idarəetmənin təkmilləşdirilməsi haqqında” Sərəncamı və “Azərbaycan Respublikasında bərk məişət tullantılarının idarə edilməsinin təkmilləşdirilməsinə dair Milli Strategiya” sirkulyar iqtisadiyyatın inkişafında, tullantısız texnologiyaların inkişafında mühüm mərhələ olmuşdur.

Gələcək üçün təbii ehtiyatların istifadəsini azaltmaq və təkrar emal vasitəsilə tullantıların geri qaytarılmasını təmin etmək əsas məqsəddir. Hazırda davam edən iqtisadi modeldə dünya əhalisinin getdikcə artması nəticəsində insanların aclıq, susuzluq kimi problemlərlə qarşılaşacağı futuristlər və iqtisadçılar tərəfindən tez-tez təkrarlanır. Dövri (sirkulyar) iqtisadiyyat resurslardan maksimum istifadə etməyə çalışaraq tullantını azaltmağı hədəfləyir, onun məqsədi istehlak yox, təkrar emalı inkişaf etdirməkdən ibarətdir.

Bir çox şəhər təkrar emal fəaliyyətinə böyük əhəmiyyət verir və istehlakdan yaranan tullantılar üçün yeni sahələr yaradır. Enerji istehlakının yaratdığı hava və ətraf mühitin çirklənməsi üçün tədbirlər görərək, onların təsirini mümkün qədər azaldır. Dünya əhalisi artdıqca, şəhərləşmə artacaq və bu, daha çox enerji istehlakı gətirəcəkdir. Dövri iqtisadiyyatda ənənəvi olaraq 1)Dövri çatdırılma, 2)İkincili istifadə, 3)Xidmət müddətinin uzadılması, 4)Paylaşma prinsipi, 5)Xidmət istiqaməti kimi beş vacib inkişaf sahəsi ayrılır. Bəşəriyyət müasir dövrdə üzləşdiyi ekoloji, sosial və iqtisadi problemlərin həlli üçün yeni yanaşmalardan istifadə etməkdədir. Ona görə də hesab etmək olar ki, “Ağıllı şəhər” və “ağıllı kənd”-lərdə “yaşıl” əmək fəaliyyəti, “yaşıl” iqtisadiyyat, “yaşıl” istehsal, “yaşıl” təfəkkür və “yaşıl” həyat tərzi gələcək həyatımızın əsas komponentlərindən birinə çevrilməlidir.

“Ağıllı şəhər” və “ağıllı kənd”-lərdə yaşıl iqtisadiyyatın formalaşması və inkişafı konsepsiyası resursyönümlü iqtisadiyyat, ətraf mühitin iqtisadiyyatı, yaşıl texnologiyalar və s. kimi bir çox istiqamətləri özündə birləşdirir. Yaşıl iqtisadiyyat konsepsiyasına əks olan “qəhvəyi iqtisadiyyat” isə resurslardan daha çox istifadəyə, aşağı enerji səmərəliliyinə, dayanıqlı olmayan enerji mənbələrindən asılılığa və yüksək dərəcədə iqlim riskinə əsaslanır. Müşahidələr göstərir ki, yaşıl iqtisadiyyatın səmərəli formalaşma və inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi müasir informasiya texnologiyalarının tətbiqi əsasında həyata keçirilə bilər. İnformasiya cəmiyyəti quruculuğunda, “Ağıllı şəhər” və “ağıllı kənd”-lərdə “yaşıllaşdırma” istiqamətində bir çox qabaqlayıcı tədbirlərin həyata keçirilməsi labüddür. Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (United Nations Environment Programme. https://www.unep.org/) tərəfindən də yaşıl iqtisadiyyata keçidin səmərəli normativ-hüquqi əsaslarının yaradılması; iqtisadiyyatın sektorlarının yaşıllaşdırılmasını stimullaşdıran sahələrdə dövlət investisiyalarının və xərclərinin prioritetliyi; təbii kapitalı tükəndirən sahələrdə xərclərin azaldılması; yaşıl investisiyaların və innovasiyaların stimullaşdırılması üçün vergilərin və digər bazar mexanizmlərinin tətbiqi; təlim və təhsilin yüksəlməsinə investisiya qoyulması; beynəlxalq əməkdaşlığın gücləndirilməsi kimi keçid siyasəti və şərtləriylə bağlı tövsiyələr hazırlanmışdır. Bu şərtlər “Ağıllı şəhər” və “ağıllı kənd”-lərdə yaşıl

iqtisadiyyata keçid zamanı dövlətin rolunun gücləndirilməsinin və dövlət siyasətinin təkmilləşdirilməsinin zəruriliyini bir daha təsdiq edir.

Azərbaycanın "Ağıllı şəhər" və "ağıllı kənd"-lər istiqamətindəki fəaliyyəti ilk növbədə ümummilli lider Heydər Əliyev tərəfindən təsdiq edilmiş İKT strategiyasından irəli gəlirdi. Hazırda davamlı və insan potensialına əsaslanan inkişaf istiqamətində yeni tendensiyalar və yeni çağırışlar əmələ gəlmişdir. Bunlar "yaşıl iqtisadiyat", "yaşıl həyat tərzi", "yaşıl istehlak", yaxud "yaşıl davranış" kimi səciyyələndirilə bilər. "Ağıllı şəhər" və "ağıllı kənd"-lərdə yaşıl iqtisadiyat və yaşıl istehsal dedikdə, ilk növbədə, təbiətin qanunlarını nəzərə alan, ətraf mühitə heç bir mənfi təsir göstərməyən və təbii ehtiyatlardan səmərəli və yüksək qənaətlə istifadə edən insanın sənaye və kənd təsərrüfatındakı fəaliyyəti nəzərdə tutulur. Hazırda dünyanın inkişaf tendensiyalarına müvafiq olaraq sənaye iqtisadiyyatı daha çox yaşıl texnologiyalar əsasında inkişaf etdirilir.

Müasir dünyada İKT sənayesinin özünün yaşıl texnologiyalar əsasında yenilənməsinə və istehsalına ciddi önəm verilir. "Ağıllı şəhər" və "ağıllı kənd" layihələrində müvafiq elmi tədqiqatlar aparılılır, layihələr icra olunur, yaşıl texnologiyalar işlənilir. Yaşıl İKT, Yaşıl kompüter, İKT sahəsində yaşıl innovasiya, Dayanıqlı kompüter və kommunikasiyalar, Dayanıqlı inkişaf üçün İKT, Dayanıqlı İKT layihələndirilməsi, Yaşıl kompüter şəbəkələri, "Smart Şəhərlər" və yaşıl İKT sistemleri, Yaşıl Məlumat Mərkəzləri, Yaşıl e-cihazlar, Yaşıl biotibb, İdarəertmədə yaşıl İKT, Yaşıl metrika, Səhiyyə və yaşıl İKT, Qlobal Yaşıl İKT yenilənməsi, Yaşıl İKT İncəsənət və s. kimi elmi-texniki sferalarda mütərəqqi innovativ texnologiyalar işlənilməkdə və tətbiq olunmaqdadır [14, 15].

Zəfərlə başa çatan İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad edilmiş torpaqlarımızın yenidən bərpası, onun iqtisadiyyatının müxtəlif sahələrinin müasir texnologiyalar əsasında inkişafı üçün bir çox işlərə start verilib. Vurğulamaq lazımdırki həmin istiqamətlərdən biri də bərpa olunan torpaqlarda iqtisadiyyatın "yaşıllaşdırılması" onun inkişafı üçün yaşıl texnologiyaların tətbiqi Qarabağ regionunun, həmçinin ölkə iqtisadiyyatının inkişafına böyük töfhələr verməklə yanaşı, Azərbaycanın dünyanın inkişaf etmiş ölkələrinin sırasında nüfuzlu yer tutmasına şərait yaradacaqdır.

Postkonflikt ərazilərin rəqəmsal iqtisadiyyatının inkişafında IV Sənaye inqilabının tətbiqləri. İKT əsasında formalaşan rəqəmsal iqtisadiyyatı sektorlarının inkişaf səmərəliliyinin yüksəldilməsində müvafiq beynəlxalq təşkilatların tövsiyələrini, IV Sənaye inqilabının çağrışlarını nəzərə almaqla uğurlu nəticələr qazanmaq mümkündür. Müvafiq sahələrdə elmi nəşrlərin müəyyən qədər olmasına baxmayaraq, hələ də bu sahədə araşdırmalar davam etdirilir. IV Sənaye inqilabı çərçivəsində bəzi texnoloji innovasiyaların tətbiqi və əhəmiyyəti daha çox olacaqdır [2]. Blokçeyn texnologiyalarının inkişafı, yeni şəbəkə kriptovalyutalarının meydana gəlməsi beynəlxalq pul-maliyyə münasibətlərində bir çox sosial-iqtisadi dəyişmələrə səbəb olacaqdır. 3D çapı yeni istehsal, satış, marketinq, reklam texnologiyaları yaradacaqdır. Sənaye inqilabı nəticəsində enerjinin toplanması, saxlanması sahəsində və yeni alternativ enerji mənbələrinin meydana gəlməsi hesabına insan-təbiət münasibətlərində yeni tənzimlənmə mexanizmlərinə ciddi ehtiyac yaranacaqdır. Müxtəlif sahələrdə IV Sənaye inqilabına [2] əsaslanan implant texnologiyaları, yeni görmə interfeysi, daşınan İnternet (geyim İnterneti), Əşyaların İnterneti, "ağıllı" ev, "rəqəmsal" insan, cib superkompüteri, "ağıllı" şəhər, Big Data texnologiyaları, pilotsuz avtomobillər, süni intellekt, robototexnika, kriptovalyuta texnologiyaları, istehsalatda, təhsildə, tibbi sferada və kütləvi tələbat malları sahəsində 3D nəşri kimi əsas İnternet və informasiya texnologiyalarının tətbiqi genişləndirilməlidir. Tədqiqatlar göstərir ki, IV Sənaye inqilabının gətirəcəyi yeniliklər müasir dövrdə yeni inqilabların yaranması, ona keçid üçün perspektiv imkanlar yaradır. Belə ki, IV sənaye inqilabında mövcud olan innovativ texnologiyaların struktur elementlərinin bir-biri ilə qarşılıqlı əlaqədə olması, fəaliyyət göstərməsi və yaxın gələcəkdə həmin elementlər arasında əlaqələrin daha da təkmilləşdirilməsi, yeni texnologiyaların davamlı inkişafı üçün geniş imkanlar yaradır.

Nəticə. Müasir dövrdə iqtisadiyyatın texnoloji innovasiyalar əsasında modernizasiyası, həmçinin onun süni intellekt və robotlaşdırma, big data, cloud, green, kosmik və s. kimi yüksək texnologiyaya əsaslanan sektorların inkişaf etdirilməsi ölkə iqtisadiyyatının daha sürətli inkişafına nail olmağın əsas yollarından hesab olunur. Postkonflikt ərazilərdə iqtisadiyyatın rəqəmsallaşdırıl-ması, müxtəlif sahələrdə rəqəmsal texnologiyaların tətbiqi və İKT infrastrukturunun təkmilləş-

dirilməsi əhəmiyyətli məsələlərdən hesab olunur. Postkonflikt ərazilərdə formalaşmaqda olan “ağıllı şəhər” və “ağıllı kənd” layihələrində "yaşıl" texnologiyaların tətbiqi də təxirə salınmaz məsələlərdəndir. BMT-nin 2030-Dayanıqlı İnkişaf Məqsədlərində də irəli sürülmüş dünya dövlətlərinin ekologiyanın, ətraf mühitin çirklənməsinin qarşısının alınması baxılan məsələnin hazırkı dövr üçün həllini zəruri edir.

Respublikanın sosial-iqtisadi inkişafına dair reallaşdırılması nəzərdə tutulmuş əsas Milli Prioritetlərində postkonflikt ərazilərdə, xüsusən “ağıllı şəhər” və “ağıllı kənd” layihələrində "yaşıl" texnologiyaların tətbiqi ölkə regionlarının iqtisadiyyatının səmərəli inkişfına kömək etməyə şərait yaradacaqdır. “Ağıllı şəhər” konsepsiyasının xüsusiyyətlərinin, onu təşkil edəcək struktur elementlərin müəyyənləşdirilməsi “ağıllı şəhər” və “ağıllı kənd” layihələrində "yaşıl" və regional iqtisadiyyatın effektiv strukturunun formalaşmasını sürətləndirir. Aparılan araşdırmaların göstərdiyi kimi, iqtisadiyyatın rəqəmsallaşdırılması, müxtəlif sahələrdə rəqəmsal texnologiyaların tətbiqi və İKT infrastrukturunun təkmilləşdirilməsi fonunda “ağıllı şəhər” və “ağıllı kənd”lərin müasir modellərinin idarə edilməsinin təkmilləşdirilməsi vacibdir. Bu səbəbdən də postkonflikt ərazilərdə “ağıllı şəhər” və “ağıllı kənd” layihələrində "yaşıl" texnologiyaların tətbiqinin təkmilləşdirilməsinə ehtiyac vardır. Göründüyü kimi postkonflikt ərazilərdə “ağıllı şəhər” və “ağıllı kənd” layihələrində "yaşıl" texnologiyaların tətbiqi regional iqtisadiyyatın inkişafında mühüm nəticələrin alınmasına imkan yarada bilər.

Ədəbiyyat

1. The Sustainable Development Goals Report 2020, United Nations, https://unstats.un.org/sdgs/report/2020/
2. Schwab K. The Fourth Industrial Revolution. Limited, 2017, 192 p.
3. Telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi. Bakı, 6 dekabr 2016, https://president.az/articles/22382.
4. “Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” və onun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, 2 fevral 2021. https://president.az/articles/50474.
5. Rəqəmsal transformasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı, 27 aprel 2021. https://president.az/articles/51299.
6. “Ağıllı şəhər” (Smart City) və “Ağıllı kənd” (Smart Village) konsepsiyasının hazırlanması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, 19 aprel 2021. president.az
7. Батов Г.Х. Методологические аспекты формирования цифровой экономики. Цифровая экономика, 2020, №4(12), стр.11-16.
8. Digital Economy Report. 2019, 194 p.
9. Abbasov İ.M. “Rəqəmsal iqtisadiyyat və rəqəmsal təhsil”. Rəqəmsal iqtisadiyyat: Azərbaycan yeni iqtisadi inkişaf mərhələsində beynəlxalq elmi-praktiki konfrans. Bakı, 25 noyabr, 2020, səh.5-9.
10. Casini M. Green technology for Smart Cities. IOP Conference Series: Earth and Environmental Science, volume 83, 2nd International Conference on Green Energy Technology (ICGET) 18–20 July 2017, Rome, Italy, 012014.
11. Mingaleva Z., Vukovic N., Volkova I., Salimova T. Waste management in green and smart cities: A case study of Russia. Sustainability, 2020, №12, 94, pp.1-17.
12. Łaźniewska E., Janicka I., Górecki T. Green smart city as a new paradigm of local development. Problems of Sustainable Development, 2021, №2, pp.125-136.
13. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində “yaşıl enerji” zonasının yaradılması ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, 03 may 2021. https://president.az/articles/51355.
14. Əliquliyev R.M., Əliyev Ə.Q. Yaşıl iqtisadiyyatın formalaşmasında İKT-nin rolu, problemləri və perspektivləri. İnformasiya Cəmiyyəti Problemləri jurnalı, 2017, №2, səh.64-73.

15. Aliyev A.G. Applied problems and directions of decision of green technolodies in sustainable development of information economics. European Journal of Sustainable Development, 2019, 8,1, pp.264-280.

İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ AQRAR İQTİSADİYYATIN YENİDƏN QURULMASININ TƏMƏL PRİNSİPLƏRİ HAQQINDA

i.e.d.,prof., Alıyev İsa Hüseyn oğlu AMEA İqtisadiyyat institutu
i.ü.f.d., Rüstəmov Famil Vəli oğlu AMEA İqtisadiyyat institutu
Email: Familrustamov456@gmail.com

Xülasə

Təqdim edilən tezisdə işğaldan azad edilmiş ərazilərimizdə aqrar iqtisadiyyatın yenidən qurulması zamanı nəzərə alınmalı olan bir sıra başlıca məqamlar qeyd edilir, regionun iqtisadi potensialından maksimum istifadə olunması üçün hazırlanacaq inkişaf strategiyasının vacib elementləri göstərilir.

Açar sözlər: aqrar sahə, iqtisadi potensial, iqtisadi artım, elektron kənd təsərrüfatı, təkrar istehsal

Hesab edirik ki, aqrar sahənin potensiallarından, həmçinin bu regionun sosial-iqtisadi, təbii imkanlarından maksimum səviyyədə istifadə olunması üçün bu sahədə bazar tələblərinin prinsiplərinə, rəqabət şərtlərinə və iqtisadi menecment mühitinə uyğun yeni məzmunlu müasir inkişaf strategiyası ölkə prezidentinin 06 dekabr 2016-cı il tarixli "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi", "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramları"na əsalanaraq işlənib hazırlanmalıdır.

1. Bu yeni məzmunlu inkişaf strategiyasını işləyib hazırlamaq üçün aqrar sahənin idarəedilməsi davamlı inkişaf konsepsiyası baxımından elmli əsaslandırılmalıdır;
2. Regionda aqrar sahənin idarə olunmasını elmi əsaslarla aparmaq, sahibkarların və fermerlərin investisiya, maliyyə-kredit resurslarına çıxış imkanlarının asanlaşdırılması, o cümlədən yerli və xarici investorların bu sahəyə daha əlverişli şərtlərlə cəlb olunması məqsədilə regionun və inzibati rayonun ensiklopediyası və bu əsasda investisiya xəritəsinin hazırlanması və bunu elektron kənd təsərrüfatı ilə əlaqələndirilməsi zəruridir;
3. Region üzrə bütün sosial-iqtisadi, təbii inkişaf potensialını nəzərə almaqla onun davamlı inkişaf konsepsiyası işlənib hazırlanmalıdır;
4. İşğaldan azad edilmiş ərazilərdə aqrar sahənin gələcək strateji inkişaf planları işlənib hazırlanmalı (və taktiki variantları), bu regionun sosial-iqtisadi inkişaf ensiklopediyası dinamik inkişaf baxımından (burada regionun relyefi, yerləşmə mühiti, bazarlara yaxınlıq səviyyəsi, regional bazarda tutduğu yer, demoqrafik durumu, məşğulluq səviyyəsi və ən başlıcası səmərəlilik dərəcəsi və s. amillər) qarşılıqlı qiymətləndirilməsi əsasında hazırlanmalıdır;
5. Bölgədə aqrar sahənin inkişafının və ölkəmizin iqtisadi sistemi ilə vəhdətliyinin elmi məzmunu işlənilməli, mahiyyət etibarilə yeni məqsədli, müasir dövrə uyğun, mövcud situasiyaları nəzərə almaqla, çevik, taktiki inkişaf proqramları irəli sürülməlidir;
6. Bilmək lazımdır ki, bölgədə aqrar sahənin tarixi strukturu nə səviyyədə elmlidir? Bazar tələblərinə uyğundurmu? Ölkənin iqtisadi artım, dinamizm, davamlı inkişaf prinsiplərinə nə səviyyədə cavab verir?
7. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində təbii-iqlim şəraitinə, coğrafi mühitə uyğun olaraq hansı sahələr üzrə və hansı ərazilərdə ikinci və hətta üçüncü dəfə hansı məhsulları istehsal etmək olar sualına elmi cavab vermək;
8. Aqrar sahənin inkişafında qloballaşma mühütində dünya bazarı çərçivəsinə, həmçinin bu regionun öz geniş təkrar istehsalı baxımından qabaqcıl ölkələrin təcrübəsindən və mütəxəssis-

lərindən, eyni zamanda yerli elmi mütəxəssislərin potensiallarından istifadə etməklə inkişaf proqnozlarının hazırlanması zəruridir;

9. Regionun iqtisadi inkişaf perespektivlərində aqrar sahə idarəetmə obyekti kimi, həmçinin ticarət obyekti kimi hazırki şəraitdə özünü necə ifadə edəcək? Elmi cavab hazırlamaq;

10. Aqrar sahənin iqtisadi idarəetmə mexanizminin təkmilləşdirilməsi kənd təsərrüfatı məhsullarının rəqabətqabiliyyətliyinin gücləndirilməsini və bazar qiymətinin getdikcə aşağı düşməsini özündə ifadə etməsi prinsipi ilə elmli proqram hazırlanmalıdır;

11. İşğaldan azad edilmiş ərazilərdə kəndlərin kənd yeri kimi qalması üçün dünyəvi çağırışa cavab verə bilən və kənd yerlərində xidmət və infrastruktur sahələrinin mexanizminin inkişaf proqramının hazırlanması;

12. Bölgənin kənd təsərrüfatı məhsulları üzrə emal, təkrar emal və yenidən emal sxem-xəritəsini hazırlamaq;

13. Regionda aqrar sahənin texnika, yanacaq, üzvü və qeyri-üzvü gübrələr ilə təmin olunması imkanlarını araşdırmaq və inkişaf yollarını göstərmək.

14. Bölgənin aqrar əmtəə istehsalçılarının gəlirlərinin yüksəldilməsində mühüm rol oynayacaq kənd təsərrüfatı məhsullarının saxlanılması və satışının müasir infrastrukturu, həmçinin ərzaq bazarının tənzimlənməsinin elmi sistemini yaratmaq lazımdır.

Ədəbiyyat

1. Alıyev İ.H. Azərbaycan Respublikasında aqrar sahədə iqtisadi idarəetmə mexanizminin təkmilləşdirilməsi. Bakı, 2003. 315 səh

2. I. Alıyev, İ.Soltanlı "Aqrar sahənin modernləşməsi və rəqabət qabiliyyətliliyinin təmin olunması problemləri" Bakı "Avropa" nəşriyyatı 2017

3. Alıyev İ.H. Qloballaşma şəraitində aqrar sahənin dayanıqlı inkişafının təmin olunmasının sosial-iqtisadi problemləri. Bakı, Elm, 2008, 400 s.

Summary

The presented thesis outlines a number of key points to be taken into account during the reconstruction of the agrarian economy in our liberated territories, and shows important elements of the development strategy to be developed to make maximum use of the economic potential of the region.

Keywords: agrarian sector, economic potential, economic growth, e-agriculture, reproduction

ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ ОТРАСЛЕВОЙ СТРУКТУРЫ ЭКОНОМИКИ АЗЕРБАЙДЖАНА С УЧЁТОМ ОСВОБОЖДЁННЫХ ОТ ОККУПАЦИЙ ТЕРРИТОРИЙ

Абдалова Метанет Али кызы, д.ф.э. Ведущий научный сотрудник
Институт Экономики НАНА
metanet.abdalova@mail.ru

Резюме

В статье рассматриваются традиционные отрасли, характерные для экономики Карабаха в советские времена, анализируются природные ресурсы и возможности этих территорий, рассматриваются государственные мероприятия, реализуемые и планируемые реализовать в будущем для восстановления освобождённых территорий. В статье также анализируются перспективы развития и совершенствования отраслевой структуры экономики Азербайджана с учётом экономического потенциала освобождённых от оккупаций территорий.

Ключевые слова: отраслевая структура экономики, освобождённые территории, экономический потенциал, полезные ископаемые, традиционные отрасли

Введение

Освобождение Карабаха от оккупации породило множество новых, важных задач для нашего народа и государства, решение которых требует наших совместных усилий.

Необходимо осуществлять восстановление прежнего облика освобожденных районов, городов и деревень Карабаха в новом качестве, соответствующем требованиям современного периода. Наша цель - всесторонне развивать и модернизировать Карабах в соответствии с его огромным потенциалом, чтобы сделать его одним из самых богатых и экономически сильных регионов Азербайджана. Следует признать, что это непростая задача.

При определении направления развития экономики и производительных сил в регионах необходимо учитывать различные характерные черты каждого региона (исторический опыт экономического развития, современное состояние развития, почвенно-климатические условия и т. д.), и, конечно же, общие задачи стратегического характера, стоящие перед нашей республикой.

Развитие производственной и социальной инфраструктуры (вода, энергия, транспорт, здравоохранение и т.д.) создаст условия с одной стороны, для развития экономики освобожденных районов, Карабахского региона в целом, как единой региональной системы, с другой стороны, развития двусторонних отношений между приграничными с Арменией районами Карабаха и другими районами Азербайджана.

Традиционные отрасли экономики Карабаха. Известно, что экономика освобожденных территорий исторически была многоотраслевой. Богатая природа Карабаха и его выгодное географическое положение создают условия для комплексного развития здесь производства и услуг. В 80-х годах прошлого века различные отрасли промышленности здесь достигли высочайшего уровня развития. Освобожденные территории играли очень важную роль в экономике Азербайджана в виноградарстве, коконоводстве, хлопководстве, табаководстве, садоводстве, зерноводстве, животноводстве и многих других отраслях. В этих районах было развито приборостроение, производство строительных материалов, производство минеральных вод, легкая промышленность, особенно ковроткачество, производство шелка, пищевая промышленность (Таблица 1). Карабах был одним из основных регионов Азербайджана с развитым ковроткачеством. Производились такие ковры как «Карабахский» ковёр, ковёр «Челеби», а также ковры из шелка.

Территория Нагорного Карабаха развивалась имея тесную экономическую взаимосвязь с Аранской областью Карабаха, а также с иными экономическими районами Азербайдж

Таблица 1. Производство важнейших видов промышленной продукции в натуральном выражении (1980-1985 гг) в НКАО

Виды продукции	**1980**	**1981**	**1982**	**1983**	**1984**	**1985**
Электроэнергия кВт/ч	45,9	76,0	61,8	111,2	93,2	74,1
Известь строительн.,тыс.тон	6,3	7,5	8,3	8,3	9,8	10,1
Шёлк-сырец, тон	131	128	134	139	126	117
Шёлк-кручёный, тон	98	97	89	81	83	108
Шёлковые ткани суровые, тыс.пог. метров	15710	16635	16346	16914	17899	16455
Кожаная обувь, тыс.пар	4181	4377	4116	4462	4463	4514
Коньяк, тыс дал	53,8	59	67	86	62	44
Животное масло, т	885	918	935	960	948	964
Мебель, тыс.руб.	3447	3854	4708	5065	4048	4657

Источник: Таблица составлена автором на основе данных Статистического сборника Азербайджанской ССР 1986 г.

На территории НКАО большое развитие получили предприятия лёгкой промышленности: Карабахский Шёлковый Комбинат, который являлся одним из центров шелководства в Закавказье, Степанакертская Обувная Фабрика, Ковровые фабрики в Шуше и Степанакерте. Хочу отметить, что только 1/10 часть коконного сырья для получения шёлка

производилась на территории НКАО, преимущественная часть кокона доставлялась в Шёлковый Комбинат из других районов Азербайджана.

По данным Министерства Экологии и Природных Ресурсов Азербайджанской Республики, на освобождённых территориях имеется 167 различных месторождений полезных ископаемых. 5 из них - сырье для цемента и соды, 42 - облицовочные и различные виды строительных камней, 19 - гипс и глина, 14 - строительный песок, 21- отложения пемзы и вулканического пепла. Имеются большие запасы стройматериалов на месторождениях Шахбулаг, Чобандаг, Бойахмедли, мрамора в Харове. На территории Карабаха также находятся месторождения редчайших камней, таких как медно-цинковые руды в Мехмане и ртути в Агйатаге и Шорбулаге.

Таблица 2. Полезные ископаемые районов Карабаха

Районы Карабаха	Виды полезных ископаемых
Шуша	Облицовочный камень,цинк, медь, пиленый камень, глиногипс
Ходжалы	Глина, песок, гравий, облицовочный камень
Кельбаджар	Золото, пиленый камень, ртуть, глина, песочно-гравийные породы, строительные камни, перлит, облицовочные камни, цветные камни (оникс, лиственит, обсидиан)
Агдере	Свинец, золото, глиногипс, медь, цинк, пиленый камень
Ходжавенд	Строительный камень, облицовочный камень
Лачин	Облицовочный камень, глина, строительный камень, пиленый камень, ртуть, песчано-гравийная порода, вулканический пепел, пемза, нефрит, агат
Физули	Песок, глина, гравий, пиленый камень
Губадлы	Строительный камень, глина, пиленый камень, облицовочный камень, цветной камень
Джебраил	Песок, пиленый камень, глина, цемент, строительный камень, глиногипс, гипс, ангидрид, вулканический пепел, пемза, цветные камни (кальцедоний, нефрит)
Агдам	Глина, гравий, песок, цементное сырьё, пиленый камень, облцовочный камень
Зангилан	Золото,серебро, песок,гравий, известняк, глина, облицовочный камень, строительный камень

Источник: Таблица создана автором на основе материалов книги: М.А. Мусейибов “Физическая география Азербайджана”, [6; с.21-33]

Богатство полезными ископаемыми этой территории даёт возможность формированию таких отраслей как горнодобывающая промышленность, металлургическая, пищевая, лесная, а также развитие производства электроэнергии.

Мероприятия по развитию освобождённых территорий. Следует отметить, что Президент Ильхам Алиев в своих выступлениях неоднократно заявлял, что освобождённые территории станут зоной «зелёной энергии». Наличие горных рек обуславливают развитие крупных и малых станций по производству электричества, которые облегчат работу станций Мингячевира, Ширвана и Апшерона. Речь идёт о Тертеской ГЭС и ГЭС Девичья башня, а также гидроэнергетическом потенциале Худаферин. [7] Планируется строительство электростанций на реке Араз, которые будут выгодны как нам, так и Ирану. Кроме того, есть потенциал солнечной энергии в Физулинском, Джебраильском и Зангиланском районах, в горных районах Карабаха (Кяльбаджар, Лачин) существует потенциал развития ветренной энергии, а также ресурсы геотермальной энергии (Кяльбаджаре и Шуше). «Азеришыг» ОАО в рамках проекта «Карабах» начал реализовывать срочные меры по обеспечению электричеством освобождённые территории. Создаются центры современных технологий, киловольтные сети, линии электропередачи. ООО Azercell Telecom устанавливает на освобождённых территориях базовые радиостанции LTE четвёртого поколения. [8]

На территорию Карабаха привлечены инвесторы из разных уголков мира. Сюда входят компании из Турции, Израиля, Италии и т.д. 14 февраля господин президент участвовал на открытии Гюлябрдской ГЭС. Мощность станции составляет 8Мвт (можно отнести к станции среднего размера). Так как идёт строительство умных деревень и городов, то обеспечение энергией просто необходимо. Турецкой компанией планируется построение умной деревни, которая сможет удовлетворить все свои потребности за свой счёт. В построении умного города также будет участвовать компания Huawei, которая готова обеспечить проект всеми новыми технологиями. В Зангилане уже реализован первый сельский проект. Планируется построение фермы буйволов в Зангилане Израильской компанией. Животные будут оснащены датчиками, следовательно, возможно будет следить за их состоянием. Отходы будут перерабатываться в удобрение и биогаз. А Итальянская компания собирается производить из молока буйвола разные сорта сыра, в особенности «моцареллу». Итальянские компании также будут вовлечены в производство энергии, а также в другие сельскохозяйственные отрасли. Планируется восстановление всех гидроэлектростанций на территории Карабаха. Были проведены переговоры с Ираном по поводу гидростанций на реке Араз. Следовательно, не только территория Карабаха, но и весь Азербайджан будет обеспечен энергией.

Одним из главных секторов этой области считается сельское хозяйство, развитие которого улучшит состояние региона и экономики в целом. Однако заминированные территории не дают возможность развиваться этой отрасли в данный период времени. А также разрушенные предприятия, загрязнения отходами территории, незаконная эксплуатация природных ресурсов, ущерб водным ресурсам и т.д. дают понять масштаб предстоящей работы на этой территории. Следовательно, для возобновления экономики этих районов необходим комплексный подход.

Ещё одним преимуществом этих территорий является наличие таких драгоценных и цветных металлов, как золото, цинк, медь, ртуть, свинец и серебро. Ежегодно в мире потребляется примерно 800 млн т металлов, из которых 1,5 % (8−10 млн т) —приходится на долю меди, 5−6 млн т — цинка, 4−5 млн т — свинца (остальные — менее 1 млн т). Основная масса металлов производится и потребляется в таких странах, как США, Япония, Китай, Россия, Германия, Украина, Франция, Италия, Великобритания и другие.[9] Учитывая тот факт, что добывающая промышленность занимает около 70% всего объёма промышленного производства нашей страны (63% - добыча нефти и газа), и тот факт, что одним из перспективных направлений экономики является развитие обрабатывающих отраслей, то реализация этих полезных ископаемых в виде сырья считается нецелесообразным и неэффективным направлением. Наличие золота, меди, серебра, ртути и хромита в Кяльбаджарском и Зангиланском районах, а также на месторождениях Яшам и Халкидон в Джебраильском районе позволят в будущем развивать ювелирную промышленность. А также добыча этих природных ресурсов сыграет большую роль в развитии ненефтяного сектора. Производство ювелирных изделий из золота, серебра и других драгоценных камней обладает огромным экономическим значением. В данной сфере до сих пор применяется также ручной труд, что даёт возможность формировать большее количество рабочих мест, высокую добавленную стоимость этих украшений. Развитие туризма в этих регионах (наряду с местным населением) позволит реализовать значительную часть ювелирных продуктов на внутреннем рынке. Следовательно, производя золотые украшения, такие как кольца, серьги, кулоны, браслеты, брелки, золотые пуговицы и т.д., можно удовлетворить местный рынок. Здесь могут формироваться как большие, так и мелкие предприятия, которые также смогут сотрудничать с другими мировыми компаниями (например, с Итальянскими компаниями).

Насчитывается около 120 месторождений минеральных вод, которые смогут обеспечить население питьевой водой, а также рекреационной промышленности. Наличие на территории Карабаха месторождения минеральных вод, в особенности Истису в Кяльбаджаре, дает возможность развитию фармацевтической промышленности. Помимо построения курортных зон и санаторий на этих территориях, можно построить предприятия

по изготовлению лекарств, лечебной косметики, уходовую косметику и т.д.. В настоящее время косметический продукт является повседневной гигиеной. В нынешнем производстве большее внимание уделяется производству многофункциональной эффективной продукции. Особо начали выделяться продукты против морщин и замедляющие старение. [4; с.267] Спрос на этот продукт с 1998 года увеличился в два раза и в настоящее время он сохраняет свою популярность на рынке косметалогии. Карабах является родиной эфирных, ароматических, лечебных масел. Они могут использоваться как отдельно, так и внедряться в состав косметического продукта (использоваться в качестве добавочного элемента в косметические средства - крема, шампуни, масла и другие продукты). [3; с.144]

Карабах также известен своими породистыми карабахскими конями. В мировом масштабе коневодство представляет собой многомиллиардную отрасль. В Европе и на Ближнем Востоке процветает коневодство, и лошади регулярно продаются на международном уровне. Скачки существуют в большинстве стран мира и тесно связаны с курортами. Рост числа международных конных выставок стимулирует рост активности продаж лошадей во всем мире из-за престижа и заметности международных соревнований, таких как Олимпийские игры и Всемирные конные игры. Рынки коневодства существуют в большинстве стран мира. Они значительно различаются от страны к стране, но лошади вносят свой вклад в национальную экономику во многих отношениях: от значительного рабочего животного до использования в качестве развлечения и отдыха. Лошадей обычно покупают и продают на международном уровне, и это настоящий глобальный рынок. Международные соревнования связывают коневодческие рынки по всему миру и создают стимул для производства лучших лошадей на этом конкурентном рынке. Компании, поддерживающие эту отрасль, такие как производство корма, оборудования, грузовики и прицепы для лошадей, фармацевтики и специализированной одежды создают возможности для бизнеса в коневодстве. В дополнение к скачкам, конные шоу, прогулочная верховая езда и, в некоторых странах, производство мяса - все это способствует влиянию коневодства на национальную экономику (Кентукки является примером штата, в котором доходы от скачек, разведение и продажа лошадей составляют значительную часть экономики штата). Следовательно, имея благоприятные условия, можно превратить Карабах в центр развития конной промышленности Азербайджана.

Ещё одним важным вопросом при определении развития экономики и производительных сил в регионах является размещение промышленных предприятий. Прежде всего, важно определить города, которые будут играть роль культурного и экономического центра. Размещение поселений тесно связано с размещением промышленных центров. Создание и развитие межселенных центров создаст благоприятные условия для улучшения использования сельских трудовых ресурсов, сокращения перетока населения из деревень в города и относительно равномерного распределения городского образа жизни. Однако было бы неверно пытаться превратить Шушу в большой город, размещая там слишком много производственных и обслуживающих предприятий. Это может навредить её природе, её значению, как курортно-оздоровительного центра. [1; с.362-365]

К примеру, минеральная промышленность может располагаться неподалёку от источника сырья. Так как будут устраиваться курортные зоны прямо у источника, то созданная продукция в этих минеральных предприятиях может быть использована в курортных центрах. А если рассмотреть добычу золота, то здесь очень важно размещение перерабатывающего завода неподалёку от места добычи, так как золото в природе находится не в чистом виде и на перевозку добытого нечистого сырья потребуется больше усилий. Таким образом очень важно иметь выгодное местоположение предприятий.

Заключение: Создание индивидуальных, микро, средних и макропредприятий на освобождённых территориях, оснащённых современным оборудованием и технологиями, с возможностью эффективно использовать ИКТ, местное сырье, энергию и другие ресурсы могут привести к экономическому развитию, созданию рабочих мест и повышению занятости, но и также обеспечить население продовольствием. Основные мероприятия,

направленные на формирование и развитие традиционных и новых отраслей на освобождённых территориях, и которые могут привести впоследствии к совершенствованию отраслевой структуры экономики страны, следующие:

- Создание специализированных или смешанных Агро парков в 161 из 329 административных районов Карабаха.
- Создание совместных горнодобывающих предприятий и предприятий цветной металлургии в Кяльбаджарском и Зангиланском районах.
- Формирование и развитие ювелирной отрасли лёгкой промышленности
- Развитие новой для экономики Азербайджана конной промышленности
- Развитие Фармацевтической промышленности

Многоотраслевая экономика освобождённых территорий, несомненно, в будущем внесёт свои положительные изменения в отраслевую структуру экономики страны. Во-первых ожидается рост удельного веса отраслей агропромышленого комплекса (не только сельскохозяйственной, но и перерабатывающей и обслуживающей сфер), строительства и туризма в структуре ВВП. Во-вторых, ожидаются изменения в отраслевой структуре промышленности страны, особенно может вырасти удельный вес лёгкой промышленности (0,8% в 2019 году), пищевой промышленности (8,5% в 2019 году), энергетической промышленности, металлургии (1,2% в 2019 году) и т.д.[5]

Список литературы

1. А.Х.Нуриев, “Проблемы формирования и совершенствования региональной структуры страны (история и современность)” Баку-2021, стр..362-365

2. А.А.Кахро. «Экономика предприятия»: Витебск 2017, стр. 250

3.Вольфганг Стикс, Улла Вайгерштордфер «В царстве запахов. Эфирные масла и их действие» Москва, Типогр. «Наука», 1997. – 144 с.

4. Герд Кутц «Косметические кремы и эмульсии» Издат. дом «Косметика и медицина», Москва, 2004, стр 267

5. ГСКАР Промышленность Азербайджана. Статистический сборник, Баку-2020

6. М.А. Мусейибов “Физическая география Азербайджана”, Баку- 1998, стр. 21-33

7. www.president.az

8. https://helpiks.org/2-96784.html

9.https://ru.wikipedia.org/wiki/%D0%9C%D0%B5%D1%82%D0%B0%D0%BB%D0%BB%D1%83%D1%80%D0%B3%D0%B8%D1%8F

Prospects for the development of the sectoral structure of industry in Azerbaijan, taking into account the territories liberated from occupation

Summary

The article examines the traditional industries characteristic of the economy of Karabakh in Soviet times, analyzes the natural resources and opportunities of these territories, examines the state measures implemented and planned to be implemented in the future to restore the liberated territories. The article also analyzes the prospects for the development and improvement of the sectoral structure of the Azerbaijani economy, taking into account the economic potential of the territories liberated from occupation.

Key words: sectoral structure of the economy, liberated territories, economic potential, minerals, traditional industries

AZƏRBAYCANIN İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİNİN REİNTEQRASİYA PERSPEKTİVLƏRİ

Asəf Heydər oğlu Qəribov, i.ü.f.d, dosent
Bakı BiznesUniversiteti
e-mail:asafqaribzade@gmail.com
Azər Maarif oğlu Pənahov, i.ü.f.d.
BakıBiznesUniversiteti
e-mail:azer-panahov@mail.ru

Xülasə

MəqalədəAzərbaycanın işğaldan azad olunmuş ərazilərinin ölkə iqtisadiyyatına reinteqrasiya prosesləridaxil olmaqla tranzit imkanları və ixrac potensialının daha səmərəli istifadə perspektivləri təhlil edilmişdir.Eyni zamanda mütləq üstünlüyə əsaslanan sahələr uzrə dövlət tənzimlənməsinin mövcud problemləri istiqamətində əsaslı araşdırmalar aparılmış, nəqliyyat-loqistika üzrə regional iqtisadi əlaqələrin inkişafı üzrə mühüm problemlər və onların mahiyyəti açıqlanmışdır.Qeyd edilmişdir ki, hər bir ölkənin iqtisadi gücünün və siyasi çəkisinin artmasında bir çox digər amillərlə yanaşı, tranzit, nəqliyyat-logistika məsələləri də mühüm əhəmiyyət kəsb edir.Azərbaycanın Avropa və Asiyanın qovuşduğu məkanda yerləşməsi məhz bu cür əlverişli tranzit imkanlara malik olması, yüklərin və əmtəələrin daşınmasında ölkəmizə böyük üstünlüklər qazandırır.Beynəlxalq ixtisaslaşma üsulları və onların səmərəlilik məsələləri sistemli şəkildə tədqiq olunmuş və iqtisadi inkişaf, əməkdaşlıq, beynəlxalq ticarətproseslərində onların strateji əhəmiyyəti əsaslandırılmışdır.

Açar sözlər: iqtisadi inkişaf,loqistika, nəqliyyat, regional iqtisadiyyat,ticarət siyasəti.

Müasir dövrümüzdə Azərbaycan xalqı Ali Baş Komandan, ölkə Prezidenti cənab İlham Əliyevin uzaqgörən siyasəti və strateji rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu tərəfindən otuz ilə yaxın bir dövrdə həsrət qaldığımız, mənfur qonşumuz tərəfindən işğal edilmiş Qarabağdakı əraziləri düşməndən azaq edərək, bizlərə qələbə sevincli günləri bəxş etdiyi və tarixin ən yaddaqalan, şərəfli günlərini yaşamaqdadır. Belə bir dövrdə bu ərazilərin iqtisadi potensialını, coğrafi mövqeyini, tranzit imkanlarını qiymətləndirmək və ondan səmərəli istifadə edilməsi şərti ilə sahibkarlığın inkişafı, eləcə də ayrı-ayrı təsərrüfat sahələri üzrə ixtisaslaşma istiqamətlərini müəyyən etmək zərurəti yaranıb.

Məlumdur ki, bu ərazilərin Azərbaycan xalqı üçün tarixi-mədəni əhəmiyyəti hər hansı iqtisadi dəyərlərindən xeyli dərəcədə üstündür. Qeyd etmək olar ki, işğaldan azad olan ərazilər zəngin iqtisadi potensiala malikdir və bu ərazilərin bütünlükdə ölkə iqtisadiyyatına inteqrasiyası əsasında yaradılacaq yeni iqtisadi dəyər Azərbaycan dövlətinin ərazilərin bərpası üçün çəkdiyi bütün maliyyə xərclərini dəfələrlə üstələyəcəkdir. İnamla qeyd etmək olar ki, işğaldan azad edilən ərazilərdə yaradılacaq əlverişli biznes mühiti, mikro, kiçik və orta sahibkarlığın formalaşması qeyri-neft sektorunun dinamik inkişafına əsaslı təkan vermiş olacaq və nəticədə idxalı əvəz edən məhsulların yerli istehsal hesabına həcmi və çeşidi artmaqla yanaşı, ixrac yönümlü məhsulların istehsalı, kəmiyyət və keyfiyyət göstəriciləri beynəlxalq standartlara uyğun olaraq artacaqdır.

Azərbaycanın əsas üstünlüklərindən biri onun əlverişli tranzit imkanları və coğrafi mövqeyidir. Şərq və Qərb arasında əsas körpü rolu oynamaqla, Azərbaycan dünyanın əsas nəqliyyat və kommunikasiya mərkəzlərindən birinə çevrilir və bu proses hələ də davam edir. Böyük İpək Yolu, Bakı-Ceyhan neft və Bakı-Ərzurum qaz kəmərləri, TANAP və TAP layihələri Bakı-Tbilisi-Qars dəmiryolu xəttində aparıcı rola malik olması Azərbaycanın nəinki regionda, həmçinin dünyada iqtisadi-siyasi cəhətdən mövqeyini və əhəmiyyətini yüksəldir.

Müasir dövrdə beynəlxalq bazarlarda keyfiyyətli ixtisaslaşmaya üstünlük verən, istehsal texnologiyasını, innovasiya potensialını inkişaf etdirən və beləliklə, yüksək əlavə dəyər yaradan sahələri təşviq edən ölkələrin qlobal və regional səviyyədə rəqabətədavamlılığının artacağı gözlənilir.Sənayenin innovasiyalar əsasında inkişafı elm və texnologiya potensialının gücləndiril-

məsi və təhsil imkanlarının genişləndirilməsi nəticəsində mümkün olacaqdır. İnkişaf etməkdə olan ölkələrin məhsuldarlığa əsaslanan iqtisadi artıma nail olmaları və müqayisəli üstünlüyü olan yeni istehsal sahələrini formalaşdırmaları zəruridir. Belə ki, hazırkı mərhələdə qarşıda duran əsas vəzifə qeyri-neft sektorunun daha sürətli inkişafına nail olmaq, iqtisadiyyatın səmərəliliyini və rəqabət qabiliyyətini artırmaq və onun innovasiya- əsaslı irəliləyişini təmin etməkdir[2;s.35]. Bundan başqa, növbəti dövr dünya iqtisadiyyatının əsas mərkəzləri arasında tarazlığın dəyişməsi və bununla əlaqədar onun strukturca yenidən qurulması, regional iqtisadi birliklərin rolunun güclənməsi ilə səciyyələnəcəkdir.

Azərbaycan üçün bu həm xarici iqtisadi inteqrasiya baxımından yeni imkanlar açır, həm də sosial-iqtisadi inkişafın istiqamətlərində ümumdünya kontekstini üstün tutmağı, lokal regional dairə ilə məhdudlaşmamağı, müxtəlif iqtisadi məkanların təsərrüfat əlaqələrində və bazarlarında iştirakdan yararlanmağı zəruri edir. Qeyd edək ki, hər bir ölkənin iqtisadi gücünün və siyasi çəkisinin artmasında bir çox digər amillərlə yanaşı, nəqliyyat-logistika məsələləri də mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın Avropa və Asiyanın qovuşduğu məkanda yerləşməsi. məhz bu cür əlverişli tranzit imkanlara malik olması, yüklərin və əmtəələrin daşınmasında ölkəmizə böyük üstünlüklər qazandırır.

Son illər aparılan düzgün və praqmatik siyasət Azərbaycanın bu sahədə mövqelərinin möhkəmlənməsinə gətirib çıxarmışdır. Azərbaycan beynəlxalq logistik mərkəzə çevrilir və bu istiqamətdə işlər genişləndirilir .Bu gün Azərbaycanda region və dünya üçün vacib olan bir sıra transmilli layihələr icra olunur. Bunlardan biri də "Şimal-Cənub nəqliyyat dəhlizi"dir. Bu, Asiyanı Azərbaycan və Rusiya vasitəsilə Avropaya birləşdirən mühüm marşrutdur. Layihənin icrası Asiyanın bir çox ölkələrinin Avropa ilə ticarət əlaqələrini həm genişləndirəcək və həm də sürətləndirəcək. Xüsusi olaraq qeyd etmək lazımdır ki, bu layihənin təşəbbüskarı eləcə də qəbul edilən qərarların əsas icraçısı Azərbaycan Respublikasıdır.

Avropa İnkişaf Bankının (AİB) rəhbəri ilə keçirilən videokonfransdaPrezident İlham Əliyev onların diqqətini "Şimal-Cənub nəqliyyat dəhlizi"nin əhəmiyyətinə cəlb edərək demişdir: "Azərbaycan bu dəhlizə artıq böyük həcmdə sərmayə yönəltmişdir. Onun çox böyük potensialı var. Biz artıq şimaldan – Rusiyadan daxil olan, Azərbaycan ərazisindən keçən qərb və cənub istiqamətində yükləri qəbul edirik. Lakin İranla sərhəddən Rusiya ilə sərhəddə qədər dəmir yolu xətlərinin vəziyyəti yaxşı deyil. Buna görə də qatarların sürətini artırmaq üçün indi artıq bəzi vəsaiti sərmayə olaraq yatırmışıq və biz bunu etməyi planlaşdırırıq»[4; s.2].Daha sonra Prezident vurğulamışdır ki, bu gün artıq bizim Rusiya ilə sərhədlərimizdə tıxac var. Çünki Azərbaycandan, həm də İrandan artan ixrac malların artıq yük maşınları ilə gətirilməsini mümkünsüz edir. Buna görə də bizə "Şimal-Cənub dəhlizi"nin bir hissəsi olaraq, müasir dəmir yolu sistemi lazımdır. Gələcək kommunikasiya prosesində ola bilsin digər çağırışlar ortaya çıxsın. Həmin məsələlər də vaxtında və çevik şəkildə həll olunacaqdır. Bugünədək Asiya İnkişaf Bankı (AİB) ilə ölkəmiz arasında mövcud olan əməkdaşlıq deməyə əsas verir ki, "Şimal-Cənub nəqliyyat dəhlizi"nin maliyyələşdirilməsində də AİB yaxından iştirak edəcək. Çünki həmin bankın ölkəmizə olan marağı və etimadı böyükdür. Bir daha qeyd edək ki, ölkəmizdə icra edilən bu kimi nəhəng infrastruktur layihələri beynəlxalq qurumlar tərəfindən də yüksək qiymətləndirilir. Həmin qurumlar dəfələrlə Azərbaycanda görülən işlərin təkcə ölkəmiz üçün deyil, dünya üçün də böyük əhəmiyyət daşıdığını bildiriblər.

Azərbaycanda icra edilən layihələr sayəsində ölkəmiz dünyada nühüm nəqliyyat dəhlizləri – Şərq-Qərb, Şimal-Cənub marşrutlar üzrə mühüm əhəmiyyətli qovşağa çevrilib. İndi bu istiqamətdəgedən bütün yollar Azərbaycanda birləşir."Şərq-Qərb nəqliyyat dəhlizi"nin yaradılması istiqamətində dövlətimiz tərəfindən vaxtında atılan addımlar öz bəhrəsini verir. Belə ki, ötən il həmin nəqliyyat dəhlizi üzərindən yük daşınması artıb.Çünki Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi bu dəhlizə geniş imkanlar yaradır. Ən başlıcası isə Azərbaycandan keçən həmin dəhliz üzərindən yüklərin təkcə şərq istiqamətindən deyil, eyni zamanda, Rusiya üzərindən Türkiyə və Avropaya daşınması müşahidə edilir. Bir sözlə, "Şərq-Qərb nəqliyyat dəhlizi" ilə yanaşı, "Şimal-Cənub nəqliyyat dəhlizi"nin də işlək əmsalı ildən-ilə yüksəlir. Tükmənistan, Əfqanistan və digər ölkələrin də Azərbaycandan keçən nəqliyyat dəhlizindən istifadə etməsi, həm daşınmasının

həcmini, həm də bu marşrutun iqtisadi və siyasi əhəmiyyətini artıraraq, nəticədə ölkəmizin iqtisadi inkişafına və beynəlxalq aləmdə nüfuzunun artırılmasına yeni imkanlar açacaq.

Türkmənistan və Azərbaycan bu gün Əfqanistan, Gürcüstan, Türkiyə tərəfdaşları ilə birlikdə Asiya və Avropa arasında ən mühüm kontinental marşrutlara çevrilməli olan Lapis-Lazuli nəqliyyat dəhlizinin səmərəli işləməsi üzərində iş aparır. Türkmənistan və Azərbaycan həm də Xəzər dənizi – Qara dəniz nəqliyyat yolu sisteminin yaradılmasının təşəbbüskarlarından biridir. Məlum olduğu kimi, bu ilin yanvar ayının 21-də Azərbaycan və Türkmənistan arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənməsi və istismarı barədə Anlaşma Memorandumu imzalanmışdır. Bu yatağın birgə işlənməsi hər iki ölkə arasında yeni iqtisadi əlaqələrin yaranmasına imkan verəcəkdir. Bu dəhliz təkcə iki ölkəyə deyil, bütün regiona iqtisadi fayda gətirəcəkdir.

Nəqliyyat və logistika sektorunda həyata keçirilən layihələrin əhəmiyyətindən danışarkən Prezident İlham Əliyev demişdir: "Türkmənistan və Azərbaycan nəqliyyat infrastrukturunun məhz sıx qarşılıqlı əlaqəli şəkildə işləyən və bizim ərazilərimizdən keçməklə yüklərin tranzitini təmin edən, habelə Azərbaycan ilə Türkmənistan arasında əmtəə dövriyyəsinin imkanlarını artıran müasir beynəlxalq dəniz limanları yaradılması layihələrini bir növ sinxronlaşdırıblar. Əminəm ki, ölkələrimiz arasında nəqliyyat-logistika sahəsində əməkdaşlıq bizim rayonda yaranmış yeni şərait və yeni nəqliyyat yollarının açılması imkanları nəzərə alınmaqla daha yüksək səviyyəyə çatacaq. Düşünürəm ki, bu, bizim bütün tərəfdaşlarımız və qonşularımız üçün əlavə imkanlar yaradacaq"[1; s.3]. Dövlət başçısı, həmçinin qeyd etmişdir ki, Türkmənistanla nəqliyyat-logistika sahəsində əməkdaşlıq təkcə iki ölkəyə deyil, regiona, hətta regiondan uzaqda - Avrasiya məkanında yerləşən bütün ölkələrə yeni imkanlar açır.

Cənab Prezident İlham Əliyev, eyni zamanda, Türkmənistanın nəqliyyat-logistika sahəsində həyata keçirdiyi investisiya siyasətini yüksək qiymətləndirmişdir. Belə ki, Lapis-Lazuli Türkmənistanın yaratdığı investisiya sayəsində reallaşıb. Bunun nəticəsində Əfqanıstandan yüklərin Türkmənistana, Azərbaycana və digər ölkələrə çatdırılmasına imkan verən dəmir yolu layihəsinin reallaşması Türkmənistanın ayırdığı investisiya ilə həyata keçirilib. Bununla yanaşı, ölkəmizin təşəbbüsü ilə regionda bir sıra üçtərəfli tranzit layihələri gerçəkləşdirilir. Hazırda Azərbaycan, Türkmənistan və Türkiyə, həmçinin Azərbaycan, Türkmənistan və Əfqanıstan arasında üçtərəfli əməkdaşlıq formatı mövcuddur. Bu növ əməkdaşlıq region ölkələri arasında yük dövriyyəsinin həcminin ildən-ilə artmasını şərtləndirir.

İşğaldan azad olmuş ərazilərimizdə yeni nəqliyyat-logistika əməkdaşlıq formatının yaradılması respublikamızın bu sahədə önəmini daha da artıracaq. Altılıq formatda əməkdaşlıq nəzərdə tutulan bu layihədə işğalçı Ermənistanın yer alması ən çox onun özünə yarayacaq. İllərlə apardığı işğalçı siyasət nəticəsində blokada şəraitində yaşayan bu ölkənin "qəfəsdən" çıxması üçün Azərbaycanla əməkdaşlıq etməsi ən yaxşı fürsətdir. Qalan region ölkələri – Türkiyə, İran, Rusiya, Gürcüstan ilə yeni əməkdaşlıq formatına keçidlə bağlı heç bir problem yoxdur. Hazırda Naxçıvana dəhlizin açılması ilə bağlı üç dövlətin – Rusiya, Azərbaycan və Ermənistanın baş naziri müavinləri səviyyəsində işçi qrup fəaliyyət göstərir. Türkiyə və Azərbaycan arasında bu yaxınlarda energetika, mədən sənayesi və digər sahələr üzrə 11 bənddən ibarət əməkdaşlıq sazişi imzalandı[9].Yeni imzalanan sənədlərlə qardaş ölkə ilə münasibətləriniz bütün sahələrdə mükəmməl formaya qalxacaq, strateji əməkdaşlıq çərçivəsində nəqliyyat-logistika sahəsində də ciddi irəliləyişlər əldə olunacaq.Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycan tədricən beynəlxalq nəqliyyat-logistik mərkəzə çevrilməkdədir. Zaman keçdikcə bu zəncirə daxil olan dövlətlərin sayı artacaq, həmin ölkələrin xalqları sülh və barışın yaşandığı bir rifah məkanına qovuşmaqdan faydalanacaqlar.

Nəticə

Beləliklə, Azərbaycan üçün qeyd edilən istiqamətlər həm xarici iqtisadi inteqrasiya baxımından yeni imkanlar açır, həm də sosial-iqtisadi inkişafın istiqamətlərində ümumdünya kontekstini üstün tutmağı, lokal regional dairə ilə məhdudlaşmamağı, müxtəlif iqtisadi məkanların təsərrüfat əlaqələrində və bazarlarında iştirakdan yararlanmağı zəruri edir. Başqa sözlə, artıq ənənəvi iqtisadiyyatdan "bilik iqtisadiyyatına", "rəqəmsal iqtisadiyyata" keçid sürətlənməli, bunun üçün həlledici olan insan kapitalının adekvat inkişafı ön plana çəkilməlidir. Bu isə iqtisadi modelin

formalaşdırılmasında müvafiq tələblər irəli sürməklə bərabər, təhsil sisteminin də kökündən dəyişdirilməsinə, əlavə təhsil, həyat boyu təhsil kimi komponentlərin tətbiqinin əhəmiyyətinin artırılmasına gətirib çıxarır, həmçinin İKT və virtual tədrisin, kompyuter-şəbəkə biliklərinin rolunun artırılmasına təkan verir. Eyni zamanda, əsas missiyası yaradıcılığın, innovasiyaların stimullaşdırılmasına və bazarın tənzimlənməsinə dəstək olan əqli mülkiyyətin əhəmiyyəti də yüksələcəkdir. Artıq bütün dünyada iqtisadi azadlıq, kapital və əmtəələrin hərəkətinə maneələrin aradan qaldırılması, sərbəst ticarət, vətəndaşların iqtisadi və mülkiyyət hüquqlarının qorunması prosesləri çox sürətlə gedir.

Fikrimizcə, Azərbaycan milli iqtisadiyyatının dünya təsərrüfatına səmərəli inteqrasiyası və dünya iqtisadiyyatında mövqeyinin daha da gücləndirilməsi üçün müxtəlif istiqamətlərdə fəaliyyətin genişləndirilməsi zərurətə çevrilmişdir.Belə ki, iqtisadiyyatda liberallaşmanın davam etdirilməsi, biznes mühitinin yaxşılaşdırılması, xüsusi mülkiyyətin qorunması, qanunların aliliyi, vergi yükünün azaldılması və iqtisadiyyatın inzibati metodlarla tənzim edilməsindən imtina edilməsi, beynəlxalq standartlara uyğun demokratik vətəndaş cəmiyyətinin qurulması Azərbaycan hökuməti və bütünlükdə cəmiyyətin qarşısında duran prioritet vəzifələrdəndir.

Ədəbiyyat

1.Azərbaycan qəzeti. Bakı.2021. N 220, Bakı. 2021. N23

2. Abdullayev A.P. İqtisadiyyat və iqtisadi siyasət. Bakı: Asiya, 2003, 216 s.

3. Allahverdiyev H.A. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi, Bakı: ADİU, 2007, 792 s

4. Əliyev İ.H. İnkişaf məqsədimizdir. İyirmialtıncıkitab.Avqust 2007- oktyabr 2007.Bakı.2015. 400 səh.

5. Əhmədov N.H. Dövlət tənzimlənməsinin iqtisadi mexanizmləri. Bakı: Sabah, 2011, 194s.

6.Nuriyev Ə.X. Regional inkişafın dövlət tənzimlənməsinin aktual məsələləri. Bakı: Elm, 2004, 224s.

7.Ефременко Н.В., Галицын Н.И. Государственное регулирование национальной экономики: реалии и проблемы. М: Аристей, 2013, 629с.

8. www.economy.gov.az

QARABAĞ REQIONUNUN SOSIAL-IQTISADI PROBLEMLƏRI VƏ İNFRASTRUKTURUNUN BƏRPASI

Əliyeva Ruhəngiz Tofiq qızı, i.f.d., dosent
AzMİU
ruhengiz.eliyeva@azmiu.edu.az
ruhangizaliyeva@mail.ru

Bəşər tarixi bir çox münaqişələrə, işğallara və qələbələrə şahid olmuşdur. Bu qələbələrdən biri də vətənimizin şanlı tarixinə 10 noyabr Zəfər günü olaraq daxil oldu. 44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində işğalçı dövlətin 30 il ərzində qurduğu silahlı qüvvələri darmadağın edildi[1].

Azərbaycanın inkişafı hər il daha da sürətlənsə də, Qarabağ probleminin mövcudluğu hər zaman mənfi təsir göstərən amil olaraq özünü göstərirdi. Ölkənin dünya miqyasında müharibə şəraitində olan ölkə olaraq tanınması bir çox əməkdaşlıqlarda Azərbaycanın iştirakında maneə rolu oynayırdı. Qarabağ münaqişəsinin bitməsinin Azərbaycan üçün aşağıdakı müsbət nəticələri gözlənilir:

- Azərbaycan dünyada özünü bir daha güclü ölkə olaraq sübut etdi, imicini daha da yaxşılaşdırdı.
- Münaqişə səbəbi ilə illərdir büdcənin əhəmiyyətli hissəsi hərbi potensialın artırılmasına yönləndirilmişdir. 2021- ci ildən etibarən isə müdafiə potensialının yüksəldilməsi daha diqqət

mərkəzində olacaq. Büdcədən ayrılan yüksək məbləğlər daha çox regionlarımızın inkişafına yönləndiriləcək.

- Respublikamızın məhsuldarığına görə ən yüksək göstəricilərə sahib olan 17 min kv.km-lik torpaqlarının işğal altında olması kənd təsərrüfatına hər zaman öz mənfi təsirini göstərmişdir. İllər ərzində işğalçı ölkə olan Ermənistan bu torpaqlarda öz ekoloji təcavüzünü davam etdirmiş və torpaqların məhsuldarlığının azalmasına səbəb olmuşdur. Ancaq inkişaf etmiş texnologiyalar vasitəsi ilə azad olunmuş bu torpaqlarda rekultivasiya və s. tədbirlər görülərək yenidən məhsuldarlığın artırılmasına nail ola bilərik.

-Məcburi köçkünlərin əksəriyyətinin Bakı şəhərində məskunlaşması məğulluq problemlərinin kəsinləşməsinin səbəblərindəndir. İşağdan azad edilmiş ərazilərə geri qayıdacaq əhalinin işlə təmin olunması həm Yuxarı Qarabağ İqtisadi rayonounun iqtisadi göstəricilərinə həm də Bakı şəhərindəki işsizlik məsələsinə öz müsbət təsirini göstərəcək.

Əlbətdə ki, daha çox məsələ sadalaya bilərik bunlardan biri də illərdir mənəvi cəhətdən sınmış olan xalqın artan ruh yüksəkliyi ölkə üçün ən önəmli məsələdir.

Həmçinin qələbənin beynəlxalq müsbət göstəriciləri də oldu:

-İlk öncə Türkiyə Cümhuriyyətinin istehsalı olan PUA və SPUA-lar hərb sənayesində özünü sübut etdi və zirehli döyüş vasitəsi olan tankların artıq önəm kəsb etmədiyini bütün dünyaya göstərdi. Kanada müharibə zamanı PUA-lara kamera istehsalını dayandırsa da Türkiyə kameraları da istehsal edərək bu 44 gündə öz hərb sənayesinin gücünü bir daha isbatladı.

- İran İslam Respublikası ilə sərhəddə baş verən transmilli cinayətlər artıq sərhəddin Azərbaycanın nəzarətinə keçməsi ilə sonlanacaqdır.

- Ermənistanın işğal olunmuş ərazilərdə cinayətkar qrupları məskunlaşdırması Qafqaz regionu üçün böyük təhlükə mənbəyi idi.

- Ermənistanın ekoloji terroru təkcə Azərbaycan üçün deyil, bütün dünya üçün ekoloji təhlükə idi.

Qarabağın inkişafı Azərbaycan üçün tarixi əhəmiyyət kəsb edir. Azərbaycan illərdir işğal altında olan, Ermənistan tərəfindən darmadağın edilən ərazilərini dirçəldərək yeni nəfəs bəxş edəcək.

Yuxarı Qarabağ (7.33 min km²) və Kəbəcər-Laçın (6,4 min km²) iqtisadi rayonunun sərhəd olduğu Gəncə-Qazax iqtisadi rayonu (12,48 min km²) ilə müqayisə etsək görə bilərik ki, illərdir işğal altında olan ərazilərdə inkişaf qonşu iqtisadi rayonlara nisbətdə demək olar ki baş verməmişdir. Aran iqtisadi rayonu (21,43 min km²) ilə də müqayisədə çox fərqlərin olduğunu görə bilərik. Lakin ərazi sahəsi olaraq Gəncə-Qazax iqtisadi rayonuna daha yaxın olduğundan müqayisəni Gəncə-Qazax rayonuna nisbətdə davam etdirəcəm [5].

Dövlət Statistika Komitəsinin verdiyi məlumatlara əsasən 2018-ci ildə yeni iş yerlərinin sayı aşağıdakı kimi olmuşdur:

Gəncə-Qazax iqtisadi rayonu-10491 iş yeri

Yuxarı Qarabağ iqtisadi rayonu-2078 iş yeri

Kəlbəcər-Laçın iqtisadi rayonu- 538 iş yeri

Yuxarıdakı göstəricilərdən də görə bilərik ki, uzun illər işğal altında olan 2 iqtisadi rayonda toplamda 2616 iş yeri açılmışdır. Qonşu iqtisadi rayonlarda isə 4-5 dəfə daha yüksək göstəricilər qeydə alınmışdır.

Dövlət Statistika Komitəsinin verdiyi məlumatlara əsasən 2019-ci ildə su itkisi aşağıdakı kimi olmuşdur (milyon kub metr) [2]:

Gəncə-Qazax iqtisadi rayonu-345.4

Yuxarı Qarabağ iqtisadi rayonu-330.5

Verilən göstəricilərdən aydın olur ki, işğal altında olan ərazilərdə su istehlakı tamamilə nəzarətsizdir. Əhali sayında 1.88 dəfə fərq olmasına baxmayaraq su itkisinin bərabər olması ekoloji problemlərin mövcudluğunu bizə sübut edir.

Digər bütün rəsmi göstəricilərdə də bu fərqlər öz əksini tapmışdır. Hal-hazırda qarşıda duran əsas vəzifələrə Qarabağın infrastrukturunun müasir vəziyyətə uyğun qurulması, dəymiş ekoloji

zərərlərin zamanla aradan qaldırılması, əhalinin yaşaya biləcəyi tam təhlükəsiz formaya gətirilməsi və s. aiddir. Bu işlərin ən optimal yerinə yetirilməsi üçün həll yolu "Ağıllı şəhər layihəsidir".

Hədəf ərazinin "Smart Region"-a çevrilməsidir. "Smart Region"- yəni ağıllı şəhər dedik də şəhərin cihazlar vasitəsi ilə toplanan məlumatlarla idarə olunması başa düşülür. Bu cihazlar məlumat bazasını yetərincə informasiya ilə təmin edir və müvafiq orqanlar bu məlumatlar ilə şəhərin ehtiyaclarını analiz edir, nəticədə ehtiyac duyulan infrastrukturlar yaradılır. Qarabağın illərdir işğal altında olması "Smart Region"-prisnsiplərindən istifadəni zəruri edir. Çünki ərazidən illərdir istifadə etməməyimiz ərazinin mövcud vəziyətini, ehtiyaclarını yetərincə bilməməyimizə səbəb olmuşdur. Bununla yanaşı nəzərə alsaq ki, Azərbaycan Ermənistandan dəfələrlə çox inkişaf etmişdir, Qarabağdakı bir çox infrastrukturun yenilənməsi mütləqdir. Qarabağda ağıllı şəhərin tətbiqi regionu bugünün müasir tələblərinə uyğunlaşdıracaq, həmçinin növbəti illərdə azad olunmuş ərazilərdə texnopark və innovasiya mərkəzlərinin yaradılmasının fundamental əsasının qoyulması deməkdir.

Ermənistan əhalisinin Azərbaycan əhalisi ilə birgə yaşayacağı ərazilərdə ictimai təhlükəsizliyi təmin etmək üçün ağıllı şəhər prinsiplərindən istifadə əsas rol oynayacaq. Ağıllı şəhər vasitəsi ilə baş verəcək cinayətlərin paralel olaraq xəritələşdirilmək, atəş səslərinin aşkarlanmaq, proqnoz verici mühafizə qurğularının istifadə etmək mümkündür.

İllərdir su hövzələrinin Ermənistan tərəfindən çirkləndirildiyini nəzərə alsaq ağıllı şəhər vasitəsi ilə su keyfiyyətinin və istehlakının nəzarətdə saxlanması kimi tətbiqlərdən istifadə edə bilərik.Həmçinin su istehlakına qənaət, ağıllı su sistemlərinin qurulması kimi məsələlərdə də ağıllı şəhər prinsiplərindən istifadə edə bilərik.

Bu konsepsiya vasitəsi ilə Qarabağı turizm mərkəzinə çevirmək mümkündür və bunun sayəsində region özünü maliyyələşdirmək qabiliyyətinə malik olacaqdır. Şuşa şəhərinin fərqli relyefi turizm üçün cəlbedicidir. İlk olaraq Şuşa şəhərinin ağıllı şəhər olaraq qurulması turizm potensialına yüksək müsbət təsir göstərəcəkdir.

"Ağıllı şəhər"ilə yanaşı problemli zonalarda "ağıllı kənd" layihəsi də həyata keçiriləcək. Beynəlxalq təcrübədə "Smart village" dedikdə kənd əhalisinin qarşılaşdığı əsas problemlərin həlli və daha da önəmli olan kənd ərazilərində yeni iqtisadi imkanların yaradılması başa düşülür. Ağıllı kənd texnologiyası rəqəmsallaşma, kənd sərhədlərindən daha böyük düşünmə, kəndlə ətraf bölgələr arasında yeni əməkdaşlıq formatı deməkdir.İşğaldan azad olunmuş ərazilərdə "ağıllı kənd" texnologiyalarını tətbiq etməklə "azalma həlqəsinin" (circle of decline) yaranma ehtimalını da bloklaya bilərik. Həmçinin "smart-village" texnologiyaların tətbiqi həmin ərazilərə sosial innovasiyaların, start-up tipli mikro və kiçik sahibkarlığın kənd əhalisi arasında geniş yayılmasına şərait yaradacaq. [3]

Darmadağın edilmiş, infrastrukturu yararsız hala gətirilmiş ərazilərdə ilk baza infrastrukturunun bərpasından başlamalıyıq.

Ərazidə infrastrukturların yaradılması və bərpası üçün bu ərazilərin minalardan təmizlənməsi lazımdır, lakin ərazinin relyefini və işğalda qaldığı müddəti nəzərə aldıqda bu prosesin uzun müddət davam edəcəyini deyə bilərik. Bu səbəbdən planlı şəkildə "Smart Region" konsepsiyasına da uyğun olaraq ərazilər həm minalardan təmizlənməli həm də yenidənqurma işləri aparılmalıdır.

Nəqliyyat infrastrukturunun bərpa və yaradılmasında Azərbaycan və Türkiyə şirkətləri birgə iştirak edəcəklər. Hətta "Zəfər" yolu adlandırılan Fizuli-Şuşa yolunun icrasına başlanılıb və türk əməkdaşlar da iştirak edirlər. Həmçinin Fizulidə fəaliyyət göstərəcək aeroportun tikintisində də türk şirkətləri iştirak edəcəklər [4].

Nəticə

Yaşamaq üçün lazımlı şərait yaradıldıqdan sonra əhalinin köçürülməsi üçün müxtəlif həvəsləndirici və təşviq edici tədbirlər də görülməlidir. Yeni iş yerlərinin açılması, digər regionlara nisbətdə əmək haqqının yüksək olması, istehlak mallarının qiymətinin digər regionlara nisbətdə daha aşağı qiymətdə satılması və s. həvəsləndirici tədbirlərə aid edə bilərik.

Qarabağ zəfərimizin nişanı olduğu üçün hər dövrdə tariximizi əks etdirməlidir. Tikililərin daha keçmiş memarlıq üslubunda olması (qırmızı kərpiclər, şüşə şəbəkələr və s), tarixi əks etdirən

"smart" lövhələrin qurulması, təbiətin ön plana çıxarıldığı tikililərin tikilməsi turizm cəlbediciliyini artıracaqdır.

Regional inkişaf üzrə Dövlət Proqramının 4-cü mərhələsində (2019-2023 il) Yuxarı Qarabağ regionunda aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur: turizm tədbirləri və onun inkişafı; yaşayış binalarının tikilməsi, abadlıq işləri; ictimai təhlükəsizliyin təmin edilməsi, sosial müdafiənin qorunması; kommunal xidmətlərin bərpası və yaxşılaşdırılması; rabitə xidmətlərin bərpası və yaxşılaşdırılması; nəqliyyatın hərəkətinin bərpası və inkişafı; qeyri-neft sektorunun inkişafı.

Ədəbiyyat

1. 44 günlük müharibədə tarix yazan Azərbaycan https://baku.ws/politics/103067
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi www.stat.qov.az
3. Əliyeva R.T. Məmmədli N.İ. Qarabaq reqionunun iqtisadi və sosial inkişaf problemləri.Respublika Elmi-praktik konfrans.Bakı2021 s.233-236
4. "Böyük Qayıdış Proqramı" https://beta.azerforum.com/az/isaldan-azad-olunan-torpaqlarabyk-qayidis-plan-nedir
5. Qarabağın tarixi. https://portal.azertag.az/az/node/31

Summary:

The glorious army of Azerbaijan has liberated our lands from occupation. The development of Karabakh also means the development of Azerbaijan.The article covers the development of Karabakh after its liberation. The positive results of the end of the Karabakh conflict in Azerbaijan and internationally have been written. The issues of transforming the region into a smart city have been studied. A comparison was made between the Ganja-Gazakh economic region and the Yukhari Karabakh region.

Key words: Azerbaijan, Karabakh region, infrastructure, restoration, smart region

QARABAĞ IQTISADIYYATININ FORMAL MODELI VƏ İNNOVATIV REGIONAL MƏRKƏZ

Mehriban Yadulla Yadulla qızı
BDU
Abdullazadə Ülkər
BMT Ərzaq və Kənd təsərrüfatı təşkilatı

XÜLASƏ

Iqtisadi model-iqtisadi hadisənin rəsmiyyətə salınmış təsviridir ki, bunun da strukturu həm obyektiv xüsusiyyətlərlə, həm də tədqiqatın subyektiv məqsədli xarakteri ilə müəyyən olunur.

Açar sözlər: *formal model, qeyri-formal model, iqtisadiyyatın milli modelləri, istehsal imkanları əyrisi, insan resursları, Qarabağ iqtisadiyyatı, Regional innovasiya mərkəzi.*

Modelin yaradılması məlumatın müəyyən hissəsinin itirilməsi ilə bağlıdır . Bu ikinci dərəcəli hadisələrdən təcrid olunmağa, sistemin əsas elementlərinə və onların qarşılıqlı əlaqələrinə diqqəti cəmləməyə şərait yaradır. Modelə hazır halda daxil olunan məlum kəmiyyətlər *ekzogen*, qarşıya qoyulan vəzifələrin həlli zamanı model çərçivəsində alınan kəmiyyətlər isə, *endogen* adlanır. Modelin obyektiv iqtisadi həqiqətlə əlaqəsi ikilidir: bir tərəfdən, model real aləmi əks etdirir, şərti olaraq onun təcəssümüdür, digər tərəfdən isə, qarşıya qoyulan məqsədlərə uyğun olaraq, onun başqa şəklə salınmasına xidmət edir. Ona görə də, modelin qurulma prosesində onun konkretləşməsi və dəqiqləşdirmələr aparılır.

Modelin qurulma prosesi bir qayda olaraq, seçim xarakteri daşıyır. Ona görə də, birinci mərhələdə modelləşməyə məruz qalacaq prosesin müşahidələrinin seçimi baş verir. Orijinal

problemin axtarışında və təqdim olunmasındakı uğur bir sıra amillərdən asılıdır. Bunların sırasında intuisiya, tədqiqatçının şəxsi təcrübəsi, həmçinin uğur da sonuncu rolu oynamır.

Xülasə olunmuş hipoteza əvvəlcə qeyri-formal model formasında tərtib olunur. **Qeyri-formal model**-elə modeldir ki, izah edən və izah olunan dəyişənlər kifayət qədər dürüst müəyyən olunmayıb. Bu mərhələdə tədqiqatçı müxtəlif fərziyyələri nəzərdən keçirir və onlardan hansının mütləq olduğunu, hansının isə, nisbətən artıq xarakter daşıdığını anlamağa çalışır.

Formal model-elə modeldir ki, burada bütün dəyişənlər riyazi cəhətdən dürüst müəyyən olunur. O, üsulların standart yığımını nəzərdə tutur və onun mümkün xülasələri proqnoza məruz qalır. Bu proqnozun mütləq reallaşacağı demək deyil, amma tədqiqatın məqsədləri, vasitələri, alətləri artıq dəqiq müəyyən olunur. Məhz bu mərhələdə çoxsaylı səhvlər mümkündür, belə ki, qeyri-formal modelin formal modelə çevrilməsi məlumatların müəyyən hissəsinin itirilməsi və riyazi aparatda onun məzmununun qeyri-adekvat müəyyənliyi ilə bağlıdır. Riyazi aparatın özü qeyri-formal modelə qeyri-adekvat ola biləcək müəyyən fərziyyələri nəzərdə tutur (məsələn, seçicinin səmərəliliyi, onun üstünlük verdiklərinin daimiliyi və s.).

İqtisadiyyatın milli modelləri-stabil institutlar çərçivəsində inkişaf edən suveren dövlətin iqtisadiyyatıdır. Əgər müəyyən ölkə qruplarında eyni (və ya oxşar) sosial-iqtisadi institutlar istifadə olunursa, iqtisadçılar *regional iqtisadi modellərdən* danışırlar. Məsələn, nəinki İsveç, həm də Skandinaviya iqtisadi modeli haqqında danışılır, belə ki, bütün Skandinaviya ölkələrində sosial-iqtisadi inkişafın bəzi oxşar xüsusiyyətləri var (əsasən, güclü dövlət tənzimlənməsi, bu da hər şeydən əvvəl, sosial siyasətə əsaslanır).

Iqtisadiyyatın milli modelini yaradarkən dövlət, biznes və vətəndaş cəmiyyəti həmişə obyektiv olaraq malik olduğu resurslarla məhdudlaşır. Bu resurs məhdudiyyətini istehsal imkanları əyrisi modelinin köməyilə təhlil edirlər.

Istehsal imkanları əyrisi-müxtəlif iqtisadi rifahların istehsallarının potensial olaraq nail olunan ahəng çoxluğudur ki, bunları da cəmiyyət bütün mövcud olan resurslardan daha səmərəli istifadə etməklə, realizə edə bilər. Mövcud resurs məhdudiyyəti ilə cəmiyyət prinsip etibarilə, istehsal imkanları əyrisi hüdudundan çıxa bilməz. Ona görə də, cəmiyyətin inkişafının idarəolunma bacarığı:

- istehsal imkanları sərhəddini düzgün müəyyən etmək;
- bu sərhəddə potensial mümkün kombinasiyalardan ictimai rifah səviyyəsini maksimallaşdıranı seçmək (nəinki hal-hazıra, həm də uzaq perspektivdə);
- cəmiyyəti nəzərdə tutulan kombinasiyaların nail olunmasına səfərbər etmək bacarığından ibarətdir.

Istehsal imkanları əyrisi modelini sadələşdirilmiş sxemin köməyilə nümayiş etdirirlər ki, bu da ancaq təsərrüfat fəaliyyətinin iki alternativ növünün mövcudluğunu nəzərdə tutur .

Misal üçün, neft ehtiyatları ilə zəngin olan və eyni vaxtda xarici turistlərin cəlb olunması üçün böyük potensiala malik bir ölkəni nümunə götürək.Əgər resurslar qeyri-səmərəli istifadə olunursa (pis təşkil olunmuş geoloji-kəşfiyyat işləri, turistlərin ölkəyə cəlb olunması üçün təbliğat aparılmır və s), onda milli iqtisadiyyat istehsal imkanları əyrisindən aşağı olacaq. Maksimal səviyyədə bütün resurslar səfərbər olunsa belə, ölkə qısa vaxt ərzində qrafikdəki əyrinin sərhədlərini çıxa bilməyəcək. Ölkədə mövcud olan bütün resursların daha səmərəli istifadəsi ilə milli iqtisadiyyat istehsal imkanları əyrisinin istənilən nöqtəsinə uyğun gələn istehsal buraxılışını təmin edə bilər. Problem - resursların neftin hasilatı üçün cəmlənməsinin uyğun gəldiyi və ya resursların əsasən turizmin inkişafı üçün istifadə olunduğu və ya hər iki sahənin təxminən eyni səviyyədə inkişaf etdiyi kombinasiyalardan hansının millətin rifah səviyyəsini maksimallaşdırmağa imkan verə biləcəyini müəyyən edə bilmək bacarığından ibarətdir.

Qarabag iqtisadiyyatının gələcəyi necə olacaq? Bir sıra ciddi problemlər var. Suallardan biri, Qarabag iqtisadiyyatının bərpası işğaldan əvvəlkli bərpanımı nəzərdə tutur? Müstəqilllik əldə etdikdən sonra sovetlər dönəmində mövcud olmuş bütün iqtisadi sistem dağıldı. Azərbaycan həmin iqtisadi sistemdən çıxdı. Yeni iqtisadi sistemə Qarabağ daxil olmadı. Həmin dövrdıən bərpa çox ciddi problemlərlə qarşılaşacaq. Yox, əgər burada innovativ iqtisadiyyat quracayıqsa, onun

konturları nədən ibarət olacaq? İstehsal yoxsa xidmət, idxalyönüm yoxsa ixracyönüm? Hansı daha dogrudur? Bu məsələ Azərbaycan üçün çox vacibdir.

İnnovasiya biliyin iqtisadi və ictimai faydaya çevrilməsidir. Qarabag regional innovasiya mərkəzinə çevrilə bilər. Yəni, burada bilik və real sektorun vəhdəti olmalıdır. Belə bir sistemin işləməsi üçün firmalar ilə bilik yaradan və yayan qurumlar (Universitetlər, təlim mərkəzləri və s) arasında innovasiya yönümlü effektiv əməkdaşlıq olmalıdır.

Azərbaycan iqtisadiyyatının lokomotivi Abşeron iqtisadi rayonudur. Qarabağın torpaqlarının işgaldan azad olması onu Gəncə-Qazax regionuna daxil edə bilər. Bu bölgənin mövcud resurs və imkanları, hal hazırki münbit şəraiti, regionun coğrafi mövqeyi, sərhədləri əsas verir ki, bu bölgə Regional İnnovasiya mərkəzinə çevrilsin.

Bunun üçün ilk növbədə vacib olan məsələlər aşağıdadır: infrastruktur, işgüzar və investisiya mühiti, təhsil və akademik mühit, maliyyə sistemi kimi institusional amillər inkişaf etdirilməlidir.

"Qarabağ Regional İnnovasiya Mərkəzi"nin ehtimal olunan makroiqtisadi təsirləri aşağıdakılardan ibarətdir:

1. Azərbaycan üçün iqtisadi baxımdan strateji imkanlar yaranacaq.
2. Digər bölgələrin inkişafına töhfə verəcək.
3. Həm insan resurslarının, həm də fiziki resursların ölkə üzrə mobilliyi artacaq.
4. Azərbaycanın ixrac potensialı həm kəmiyyət, həm də keyfiyyət baxımından artacaqdır.

Gəncə-Qazax regionunu əlverişli iqtisadi-coğrafi mövqeyə malikdir, iqtisadi və sosial-mədəni potensialı var. Dəmir, alünit, qızıl, mis, kükürdlü kalçedan, kobalt, seolit kimi təbii resurslarla zəngindir. Azərbaycanın ikinci sənaye rayonudur. Ölkə sənayesinin 13%-ni, kənd təsərrüfatının 14-%-ni verir. Elm və təhsil infrastrukturuna malikdir. Işğaldan azad olunmuş ərazi 11,8 min kv.km-dir. Qiymətləndirmələrə görə, becərilən torpaq sahəsi 11%, meşə fondu 28%, yay otlaq sahələri 2 dəfəyə qədər artırıla bilər. Nəhəng infrastruktur layihələr reallaşdırıla bilər. Qısa və ortamüddətli dövrdə ticarət və nəqliyyat sektorları, uzunmüddətli dövrdə turizm inkişaf etdirilə bilər. "Qarabağ Regional İnnovaiya Mərkəzi" qurmaq üçün:

- Hədəf, məqsəd və institusional çərçivə müəyyən edilməli;
- İnnovasiya əsaslı sənaye və kənd təsərrüfatı siyasəti tıətbiq olunmalı;
- Maliyyələşmə mexanizmi qurulmalı;
- Biznes və investisiya mühiti təkmilləşdirilməli;
- Daxili və xarici investisiyalar məqsədyönlü cəlb edilməlidir.

Ədəbiyyat siyahısı

1. Нуреев Р.М. Экономический строй докапиталистических формаций. Душанбе: Дониш, 1989, стр.89

2. Sezilməyən lənət//Biznesin nəzəriyyə və praktikası."Vedomosti" qəzetinin və "Smart Money"jurnalının materialları əsasında ali məktəblər üçün materiallar toplusu. 2007. №1, c.9

3. Коулман Дж. Капитал социальный и человеческий //Общественные науки и современность.2001.№3.с.124

4. Коулман Дж. Капитал социальный и человеческий //Общественные науки и современность.2001.№3.с.128

5. "Qarabağ iqtisadiyyatı" adlı elmi praktiki konfrans materialları . Bakı. 2020 və s.

Формальный модел экономики Карабаха и Инновативный Региональный центр

Мехрибан Ядулла БГУ

Абдуллазаде Улькер

ООН, Продовольственная и селскохозяйственная организация

РЕЗЮМЕ

В статье рассматривается факторы, влияющиеся на формирование национальных и региональных моделей. Национальная модель экономики-это экономика суверенного госу-

дарства, которая развивается в рамках стабильных институтов. Поэтому при типологизации моделей экономики в качестве критериев рассматривается национальная специфика объективно данных ресурсов и субъективно выбранные институты.

В статье рассматривается далнейшее развитие Карабаха. Анализируется природные ресурсы и привлечение в эту территорию других экономических ресурсов. В статье также говорится о создание в этой территории Регионального Инновативного центра.

Ключевые слова:формальный модел, неформальный модел, национальные модели экономикикривая производственных возможностей, человеческие ресурсы, экономика Карабаха, Региональный Инновативный центр

Formal model of the Karabakh economy and Innovative Regional Center

Mehriban Yadulla
BSU
Abdullazade Ulker
UN, Food and Agriculture Organization

SUMMARY

This article discusses the factors affecting the formation of national and regional models. The national model of the economy is the economy of a sovereign state, which develops within the framework of stable institutions. Therefore, in the typology of models of the economy as the criteria considered national specific data objectively and subjectively selected resource institutions.

The article examines the further development of Karabakh. Natural resources and the attraction of other economic resources to this territory are analyzed. The article also talks about the creation of a Regional Innovation Center in this area.

Key words: formal model, informal model, national models of economy, curve of production opportunities, human resources, economy of Karabakh, Regional Innovation Center

RƏQƏMSAL İQTİSADİYYAT TEXNOLOGİYALARI “AĞILLI ŞƏHƏR” KONTEKSTİNDƏ

İsrafilova E.N. . tex.f.d., dosent
Mingəçevir Dövlət Universiteti
eisrafilova@mail.ru
Mustafayeva A.M. tex.f.d., baş müəllim, kafedra müdiri
Mingəçevir Dövlət Universiteti
aida.mustafayeva.1981@mail.ru

Xülasə.

Son onilliklərdə şəhər ərazilərinin inkişafı rifahın artması ilə yanaşı gizli təhlükələri özündə birləşdirən qlobal trendə çevrilib. Aydındır ki, insanların rahat və uğurlu yaşaması üçün şəhərin idarə edilməsi və təşkilində innovativ yanaşmaların tətbiqi qaçılmazdır. Geniş mənada hazırda “ağıllı şəhər” konsepsiyası istifadə olunur. “Ağıllı” dedikdə insan həyatının maksimal keyfiyyətinə nail olmağa yönəlmiş texniki həllər və təşkilati tədbirlər kompleksini tətbiq edən innovativ şəhər başa düşülür. Aparılan tədqiqatda məqsəd şəhərlərin gələcək sosial-iqtisadi inkişafının əsas istiqaməti olan “ağıllı şəhər” anlayışının, “ağıllı şəhər”lərə keçidi şərtləndirən ümumi amillərin araşdırılmasıdır.

Giriş. Hazırda dünya iqtisadiyyatı qloballaşmanın inkişafı və onun enerji resurslarının qiymətlərinin kəskin artması nəticəsində resurslara qənaət edən inkişaf tipinə keçməsi ilə bağlı keyfiyyətcə yeni xüsusiyyətləri əldə etmişdir. XX əsrin 90-cı illərində resurslara qənaət edən

iqtisadiyyatın innovativ inkişaf tipinə transformasiyası baş verdi. Bu dövrdə iqtisadi artımın mühüm amilinə çevrilmiş kompüter texnikası, rabitə vasitələri və informasiya texnologiyaları şəklində innovasiyalar geniş vüsət almışdır. Artıq XXI əsrin əvvəllərində inkişaf etmiş ölkələrdə innovativ və bilik iqtisadiyyatının inkişafı ilə bağlı həmin amil iqtisadi inkişafda prinsipial olaraq yeni əhəmiyyət kəsb etmişdir [1].

Cəmiyyətdə və təsərrüfat proseslərində informasiya əsas resurs kimi çıxış edir. İnsanın əlində informasiya biliklərə çevrilir, sosial-iqtisadi münasibətlər isə getdikcə daha çox şəbəkə mühitinə köçürülür. Bazar subyektlərinin fəaliyyətində rəqəmsal transformasiyanın əsas amilini rəqəmsal mədəniyyətin inkişaf etdirilməsi təşkil edir.

Müasir iqtisadiyyat innovasiyalarla bağlı biznesin yeni istiqamətlərinin yaradılması, yeni məhsul və texnologiyaların inkişafı baxımından çox böyük dinamikliyi ilə səciyyələnir. Elm, təhsil və iqtisadiyyatın elmtutumlu sektorlarının qarşılıqlı əlaqəsinə əsaslanan iqtisadi inkişafın yeni istiqaməti olan biliklər iqtisadiyyatı formalaşır.

Bu gün texniki qurğularla yanaşı evlərin və bütün şəhərlərin intellektual sistemlərə çevrilməsi baş verir. Rəqəmsal transformasiya müxtəlif istiqamətlərə təsir göstərir: səhiyyə, təhsil, enerji, nəqliyyat, resursların və şəhər məkanının idarə edilməsi, iqtisadi artımın azalması və büdcə vəsaitlərinin çatışmazlığı şəraitində keyfiyyətcə yeni şəhərlərin formalaşdırmasına kömək edir. Buna görə də cəmiyyətin dəyişməsinə təsir edən ağıllı texnologiyaların işlənməsi məsələləri ön plana çıxır.

Ağıllı texnologiyalar bizim dünyamızı tədricən dəyişdirir və bütün səylərin robotların yaranmasına deyil, hamı üçün geniş imkanlara malik daha ədalətli rəqəmsal cəmiyyətin yaradılmasına gətirib çıxarılması arzu olunur.

Rəqəmsal şirkətlər müasir informasiya texnologiyalarını rəqabət üstünlüyü kimi istifadə edir və uzunmüddətli inkişafa istiqamətlənir. Biznesin rəqəmsal transformasiyası yolunu keçən istənilən şirkət, bazarda artıq yeni rəqəmsal məhsullar təklif edir.

Yeni iqtisadiyyat şəraitində innovasiyaların tətbiqi prosesi ilə bağlı iqtisadi inkişaf konsepsiyası iqtisadi artım konsepsiyasını əvəz edib. Öz növbəsində innovasiya proseslərinə əsaslanan iqtisadi inkişaf forması qabaqcıl informasiya-kommunikasiya texnologiyalarını və rəqəmsal iqtisadiyyatın tətbiqi nəticəsində davamlı dəyişikliklərə məruz qalır ki, bu da tədqiqat mövzusunun aktuallığını müəyyən edir.

Problemin qoyuluşu. Hazırda sahibkarlıq strukturlarının rəqabətlilik qabiliyyətlərinin və davamlı inkişaflarının yüksəldilməsinin strateji istiqaməti yeni növ resurslardan – intellektual layihələrdən geniş istifadə olunur. Təsadüfi deyil ki, son illər dünya liderləri sırasına balanslarını qeyri-maddi aktivlər üstünlük təşkil edən şirkətlər daxil olub, dünya bazarında elmtutumlu məhsulların satış həcmi isə trilyon dolları ötüb.

Azərbaycan Respublikasının iqtisadiyyatının modernləşdirilməsinin magistral istiqaməti kimi elmtutumlu və innovativ istehsalatların inkişafı müəyyən edilmişdir. Neft istehsalının həcminə görə ölkəmiz dövlətlər arasında ilk iyirmiliyə daxildir. Lakin postneft dövründə ölkənin inkişaf istiqamətlərinə xüsusi diqqət yetirilir. Məhz bu yanaşma Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində qeyri-neft sektorunun, ilk növbədə, informasiya-kommunikasiya texnologiyaları (İKT) sahəsinin hesabına iqtisadi potensialın artırılmasını nəzərdə tutur [2].

Əslində, davamlı inkişafın üç əsas komponenti olan iqtisadi artımın, sosial inteqrasiyanın və ekoloji balansın əldə edilməsində İKT bir katalizator kimi çıxış edir. Məsələn, istixana qazları tullantılarının və enerjinin istehlakı sahəsində yaranan ekoloji problemlərin həllinə informasiya-kommunikasiya texnologiyaları monitorinq və hesabat sxemlərinin vasitəsilə güclü dəstək verməyə qadirdi. İKT həmçinin ekoloji tələbləri nəzərə alaraq layihələndirmə sahəsində mövcud prinsiplərdən və qabaqcıl təcrübədən istifadə edərək davamlı məhsulları təmin etməyə kömək edir [3].

İqtisadiyyatın rəqəmsallaşdırılması vətəndaşların həyat keyfiyyətinin yaxşılaşdırılması, yüksək keyfiyyətə malik və təhlükəsiz məhsul və xidmətlərin istehsalı, səmərəli iş yerlərinin yaradılması,

həmçinin sosial mobilliyin artırılması məqsədi ilə uyğun şərtlərin yaradılması üçün güclü bir təkan verir. Bu "ağıllı" insan kapitalının inkişafına əlverişli təsir göstərir.

Texnologiyalar yalnız ağıllı elektron köməkçilərin və ya yeni əyləncə növlərinin yaradılması üçün deyil, bəşəriyyətin ən böyük və mürəkkəb problemlərinin həllində belə istifadə edilə bilər, məsələn, bu gün superkompüterlər iqlim dəyişikliyinə nəzarət etməyə kömək edir. Bu, geniş sənaye əməkdaşlığı, hesablama resurslarının və bulud infrastrukturunun istifadəsini tələb edir.

Bu gün dünyada inkişafın davamlı olması hesab edilir. Bu, o deməkdir ki, həmin inkişaf iqtisadi imkanların genişlənməsinə, rifah səviyyəsinin yüksəlməsinə və ətraf mühitin qorunmasına kömək etməlidir. Davamlı inkişafın önündə, əlbəttə ki, şəhərlər yerləşir. Bu zaman müəyyən suallar yaranır. Şəhərlərin ağıllı və davamlı olması üçün nə etmək lazımdır? İndiki və gələcək nəsillərin tələbatının ödənilməsini necə təmin etmək olar?

Britaniya Standartlar İnstitutu ağıllı şəhəri "vətəndaşlar üçün davamlı, firavan və hərtərəfli gələcəyin təmin edilməsi məqsədilə süni şəkildə yaradılmış mühitdə fiziki, rəqəmsal və insan sistemlərinin effektiv inteqrasiyası" kimi təsvir edir [4]. Ağıllı şəhər anlayışının tərifi ekspertlər tərəfindən hələlik birmənalı verilməyib. Lakin qeyd etmək lazımdır ki, verilən təriflər bir-birinə yaxınlaşır: ağıllı şəhər verilənlərlə idarə edilir, verilənlərin idarə edilməsi isə bələdiyyə xidmətlərinə əhalinin həyat keyfiyyətini artırmaq imkanı verir.

"Ağıllı şəhər" konsepsiyası kifayət qədər geniş yayılıb. "Smart City" elementləri dünyanın 2500 şəhərində reallaşdırılıb. Bu sahənin liderləri kimi Barselona, London, Sinqapur və Tel-Əviv hesab olunur [5].

Azərbaycanda da artıq Smart City komponentlərinin istehsalı təşkil edilib. Belə ki, Azərbaycan paytaxtında artıq işə salınmış "İctimai Wi-Fi" layihəsi "ağıllı şəhər"in tətbiqinin başlanğıcı oldu. Bundan başqa, Bakıda "ağıllı" şəhər komponentlərinin ilk nümunələri – Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin İnnovasiyalar Agentliyinin tabeliyində olan Pirallahı Yüksək Texnologiyalar Parkının rezidenti olan RD SMART MMC tərəfindən işlənib hazırlanmış avtobus dayanacaqları, "ağıllı" oturacaqlar və işıqlandırma dayaqları quraşdırılıb.

Azərbaycan hökuməti işğaldan azad olunmuş Qarabağda yaşayış məntəqələrinin bərpası zamanı "Ağıllı şəhər" konsepsiyasından istifadə etmək niyyətindədir. Bununla əlaqədar olaraq Prezident İlham Əliyev 2021-ci il aprelin 19-da "Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) konsepsiyasının hazırlanması haqqında sərəncam imzalayıb. Sərəncamda deyilir: "Azərbaycan Respublikasının şəhər və kəndlərində göstərilən xidmətlərin keyfiyyətinin, təhlükəsizliyinin, səmərəliliyinin artırılması, onların göstərilməsində informasiya texnologiyalarının tətbiqi, habelə həmin xidmətlər üzrə mövcud resursların effektiv istifadəsi və idarə olunmasının təmin edilməsi şəhər və kənd yerlərində dayanıqlı inkişafın əsas prioritetlərindəndir [6].

Müasir telekommunikasiya, sensor, "Böyükhəcmli məlumatlar" (Big Data) və digər rəqəmsal və süni intellekt texnologiyalarının, həmçinin innovasiya və biliklərin istifadə edilməsi sosial-iqtisadi münasibətləri daha məhsuldar və səmərəli edir, iqtisadiyyatın ümumi dəyər zəncirində yeni gəlir imkanları yaradır. Qeyd edilən texnologiyaların bir-birilə inteqrasiya olunmuş formada istifadəsi ilə rəqəmsal məlumatların formalaşdırılması, yığılması, saxlanılması, işlənilməsi və analitik təhlillər əsasında qərarvermə və idarəetmənin keyfiyyətinin yüksəldilməsi səmərəli, eləcə də keyfiyyətli xidmətlərin göstərilməsi üçün geniş imkanlar açır. Bu imkanlar şəhər və kəndlərdə göstərilən xidmətlərin növbəti inkişaf mərhələsində funksional, genişmiqyaslı "Ağıllı şəhər" və "Ağıllı kənd" xidmətlərinə keçid üçün zəmin yaradır."

Artıq işğaldan azad edilmiş Zəngilan rayonunda Prezident İlham Əliyevin iştirakı ilə ilk "Ağıllı kənd" pilot layihəsinin təməli qoyuldu. Həmin layihə beş komponentin icrasını nəzərdə tutur: yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı", alternativ enerji [7].

"Ağıllı" dayanıqlı şəhərin perspektivli konsepsiyası vətəndaşların arzusunu, yəni həyat keyfiyyətinin yüksəldilməsini həyata keçirə bilər. "Ağıllı" davamlı şəhər artıq bir seçim deyil, bu bir zərurətdir.



Şəkil 1. "Ağıllı şəhər"in inkişaf istiqamətləri

"Ağıllı şəhər"in əsas prinsipi informasiya texnologiyalarının və IoT (Internet of Things – əşyaların interneti) obyektlərinin şəhər mühitinə tətbiq edilməsidir. Bu cür yanaşmanın dövlətin idarəetmə sistemini və cəmiyyətlə qarşılıqlı əlaqəsini təkmilləşdirəcəyi, şəhər xidmətlərinin fəaliyyətinin keyfiyyət və səmərəliliyinin artırılmasına imkan verəcəyi, bütövlükdə isə əhalinin həyatını keyfiyyətcə dəyişəcəyi gözlənilir [8].

Şəhərin əsas aktivini insanlar, proseslər və texnologiyalar təşkil edəcək.

"Ağıllı şəhər" konsepsiyasının üç əsas parametrini qeyd etmək olar:

– Texnolojilik.
– İntellektuallaşma.
– Həyat tərzinə diqqətin yetirilməsi.

"Ağıllı şəhər" ekoloji, təhlükəsiz, enerji tutumlu, geniş imkanlar açan və maksimal rahat həyat fəaliyyətini təmin edən olmalıdır.

İntellektual modernləşməyə ehtiyacı olan ilk sahələr kimi dövlət idarəçiliyini, şəhər infrastrukturunu və iqtisadiyyatı göstərmək olar. Bu sektorların əsas inkişaf istiqamətləri şəkil 1-də göstərilmişdir. Məsələn, bu istiqamətlərdə konsepsiya özünü aşağıdakı əlamətlərdə göstərə bilər. İnnovativ iqtisadiyyat öz-özünə kafi və təbii-karbon resurslarından müstəqil olmalıdır. Şəhər infrastrukturuna qənaətli və bərpa olunan enerji mənbələri tətbiq edilməlidir. Dövlət istiqamətində maliyyə, intellektual və insan kapitalının rəqabət qabiliyyətinin artırılması işləri aparılmalıdır.

"Ağıllı şəhər" konsepsiyasının realizə edilməsi bir neçə sualın cavablandırılmasını tələb edir:

1. "Ağıllı şəhər" nə üçün lazımdır?
2. "Ağıllı şəhər" konsepsiyasını necə realizə etməli?
3. "Ağıllı şəhər"in yaradılmasında maraqlı olan kimlərdir?

1. "Ağıllı şəhər" nə üçün lazımdır? İlk əvvəl şəhərlər öz əhalisini öyrənməlidir. Məqsəd olmasa uğurun əldə edilməsi mümkün deyil, buna görə vətəndaşların və biznesin ehtiyacları, maraqları, səciyyəvi xüsusiyyətləri, düşüncə tərzləri, təhsil səviyyəsi, yaş strukturu kimi əsas amillər araşdırmalıdır ki, əhali üçün "ağıllı şəhər" nə üçün lazım olduğunu, onu necə görmək istədiklərini və ətraflarında nələrin dəyişməli olduğunu başa düşmək mümkün olsun.

2. "Ağıllı şəhər" konsepsiyasını necə realizə etməli? Birinci suala cavab alındıqdan sonra, konsepsiyanın "necə" həyata keçirilməsi strategiyasının işlənməsi tələb olunur. Burada iki suala cavab verilməlidir: "Ağıllı şəhər"in təşəbbüsləri necə yayılacaq? Bu siyasətin funksiyaları və məqsədləri nədən ibarətdir?

3. "Ağıllı şəhər"in yaradılmasında maraqlı olan kimlərdir? "Ağıllı şəhər"in üstünlükləri, ilk növbədə, əhaliyə, onların həyat şəraitinin yaxşılaşdırılmasına yönəlib. Buna görə fikir vətəndaşlar tərəfindən dəstəklənməlidir. Onlar həmin ideyanın inkişafında və həyata keçirilməsində maraqlı

olmalıdırlar və onların prosesə cəlb olunmaları üzərində də işlər aparılmalıdır. Məsələn, proseslərin şəffaflığını artırmaq, Elektron hökumət sistemi vasitəsilə idarəetmə imkanlarını genişləndirmək və s.

Lakin göstərilmiş üç istiqamət üzrə işləri başlamazdan əvvəl, şəhər ictimaiyyətinin nə olduğunu anlamaq vacibdir. Yəni hazırda onun vəziyyəti, coğrafi sərhədləri, qonşu şəhər və rayonlar ilə əlaqəsi necədir kimi sualın araşdırılması lazımdır.

Bu alqoritm üzrə aparılan işlər cəmiyyətdə baş verən prosesləri öyrənməyə imkan verəcək, əhalinin tələbatını müəyyənləşdirəcək və onlara nail olmağın məqsəd və vasitələrini tərtib edəcəkdir.

"Ağıllı şəhər" konsepsiyasının məqsədi tək rəqəmsal transformasiya və proseslərin avtomatlaşdırılmasından deyil, həmçinin şəhər infrastrukturunun səmərəliliyinin kompleks şəkildə artırılmasından ibarətdir.

Bu günə qədər şəhər infrastrukturuna informasiya-kommunikasiya texnologiyalarının daxil edilməsi fraqmentar xarakter daşıyırdı. Hər bir yeni bina və ya binalar müxtəlif dövrlərdə layihələndirilib və tikilirdi.

Hazırda yeni şəhərin layihələşdirilməsinə başlayanda şəhərsalma üzrə mütəxəssislərin qarşısında bir sual yaranır: Yeni şəhər üçün İKT infrastrukturu necə planlaşdırılmalıdır ki, o həm "ağıllı", həm də "dayanıqlı" olsun [9]?

"Ağıllı dayanıqlı şəhər" – şəhərlərdə həyat səviyyəsinin, fəaliyyət və xidmətlərin səmərəliliyinin artırılması, həmçinin iqtisadi, sosial və təbiətin qorunması baxımından bu günün və gələcək nəsillərin tələbatlarının ödənilməsini təmin edərək, rəqabətlilik qabiliyyətinin artırılması üçün İKT-dən və digər vasitələrdən istifadə edən innovativ şəhərdir.

Yeni şəhərin layihələşdirilməsi zamanı İKT infrastrukturunun kompleks layihələndirilməsi və inkişaf və modernləşmə imkanlarını təmin edən geniş texniki tələblər dəstinin hazırlanması üçün unikal imkan yaranır. Planlaşdırma mərhələsi başa çatdıqdan sonra İKT sahəsi üzrə mövcud spesifikasiya və standartlar əasında müvafiq xüsusiyyətlər hazırlana bilər.

Bu zaman şəhər və ya kəndin hər hansı yerüstü və ya yeraltı strukturların olmadığı ərazidə inşa olunacağı nəzərdə tutulur. Bu yenidən quraşdırmaya çəkilən əlavə xərclərin (məsələn, internetə, və ya konkter olaraq əşyalar internetinə birbaşa qoşula bilən vericilərin və periferiya qurğularının quraşdırılması) qənaət edilməsinə gətirə bilər. Vericilər birbaşa enerji mənbəyinə, məsələn, elektrik kabelinə və ya ötürücü kabellərə qoşula bilər. Tezlik zolağının keçirtmə qabiliyyətinin yüksək olmasını tələb edən vericilər optik lifli kabel vasitəsilə birləşdirilə bilər, simsiz rabitədən istifadə edən avtonom vericilərin qidalanmasını təmin etmək üçün isə böyük həcmli batareyalar tələb olunacaq.

Proqram təminatı baxımından infrastrukturun birgə istifadəsi imkanları da ayrı-ayrı xidmətlər üzrə vəsaitlərin qənaətinə gətirə bilər. Yeni "ağıllı" dayanıqlı şəhərin sıfırdan qurulması zamanı şəhərsalma üzrə mütəxəssislər vahid platformada proqram tətbiqlərinin layihəçiləri üçün zəruri olan proqram təminatının əsas funksiyalarını öz üzərinə götürəcək xidmətin seçilməsi imkanına malikdirlər.

Kütləvi informasiya vasitələri sənayenin əksər sahələrinin bu və ya digər formada kiberhücumlara məruz qalmaları haqqında daim məlumat verir. Buna görə bu mövzu xüsusilə özəl və dövlət sektorlarının rəhbərləri üçün mühüm əhəmiyyət kəsb edir.

"Ağıllı" dayanıqlı şəhərlərin imkanları yalnız ənənəvi İKT ilə deyil, həm də əşyaların İnterneti (IoT), radiotezlik identifikasiyası (RFID), maşınlararası qarşılıqlı əlaqə (M2M), Bluetooth, bulud hesablamaları və böyük məlumatlar kimi qabaqcıl texnologiyalarla quraşdırılacaq. Hər bir yeni birləşmə kiberhücumlar üçün yeni bir "qapı açır" [10].

Şəhər rəhbərliyi xidmətin davamlılığını, eləcə də vətəndaşların və biznesin təhlükəsizliyini və rifahını təmin etmək məqsədi ilə, növbəti nəsil şəhər sistemlərinin kibertəhlükəsizlik və verilənlərin mühafizəsini nəzərə alınmaqla planlaşdırılmasına xüsusi diqqət yetirməlidirlər.

Sistem və verilənlərin mühafizəsi məqsədi ilə verilənlərin şifrələnməsini, gücləndirilmiş autentifikasiyasını və itirilməsinin qarşısını alan texniki həllər, eləcə də tətbiq olunan sistemlərin dayanıqlılığını və dəstək verdikləri xidmətlərin davamlılığını təmin etmək üçün müvafiq ehtiyat və bərpa üsulları tətbiq edilməlidir.

Digər əhəmiyyətli məqam: şəhər icra hakimiyyətində çalışan insanlar, şəhər rəhbərləri etibarlı təhlükəsizlik sistemini yaratmaqla kibertəhlükəsizlik mədəniyyətini tərbiyə etməlidirlər.

Rəqəmsal texnologiyalar kommunikasiyalara çəkilən müddəti azaldaraq bütün biznes proseslərini sürətləndirir, buna görə insan potensialının inkişafı xüsusi diqqət tələb edir. Müasir mütəxəssis yeni texnologiyalar sahəsində səriştələrə malik olmalı, öz sahəsi üzrə peşəkar olmalı, tez öyrənmə və yeni qərarları qəbul etməyə qadir olmalıdır. Uzaqlaşdırılmış iş bacarıqlarına malik olmaq da çox vacibdir. Bu bacarıqlar pandemiya dövründə özünü qabarıq şəkildə büruzə verdi. Getdikcə daha çox şirkətlər uzaqlaşdırılmış komandalarla uğurla işləyir və bu tendensiya yalnız güclənir [11].

Müasir həyatın aparıcı mövzusu – texnologiya və kommunikasiya vasitələrinin daimi və sürətli yenilənməsidir. Rəqəmsal və media məkanı davamlı olaraq genişlənir və mürəkkəbləşir. İşgüzar və gündəlik ünsiyyətin, biznesin aparılması və irəliləməsi texnologiyasının üsulları və xarakteri sürətlə dəyişir. İstehsalat, xidmət və dövlət qulluğu sahələrində çalışan işçilər mütəmadi olaraq və vaxtında yeni biliklər almalıdırlar. Ölkə vətəndaşlarının müasir biliklərlə təmin olunması dövlət və cəmiyyətin əsas vəzifələrinə çevrilir. Onlara fəaliyyətin müxtəlif sahələrində innovativ texnologiyalar sahəsində bilik və bacarıqlara malik yaxşı təlim keçmiş peşəkarlar lazımdır.

Kadr hazırlığı sahəsində aktual istiqamətlərdən biri – davamlı ictimai inkişafın potensial resursu olan gənclərlə gərgin işləməkdir. Onlar yaxın gələcəkdə ölkə iqtisadiyyatının uğurlu inkişafı yolunda daha mürəkkəb məsələləri həll edəcəklər. Bu baxımdan keyfiyyətli təhsilin verilməsi kifayət etmir. Hazırda təhsil prosesinə gələcək peşəkarların gələcək fəaliyyətlərinin real şəraitində bilik və vərdişlərin əldə edilməsinə imkan verəcək müxtəlif təcrübə növlərinin daxil edilməsi tələb olunur. Nəticədə aşağıdakılar təmin olunmalıdır: tələbələrə gələcək peşələri ilə bağlı motivasiyanın artıtılması; seçilmiş peşəyə aid nəzəri biliklərin əldə edilməsi; gələcək peşə ilə bağlı praktiki səriştələrin əldə edilməsi; gələcək karyeranın uğurlu olması üçün peşəkar kompetensiyaların genişləndirilməsi; tələbələrin sosiallaşdırılması; həyata mənəvi münasibətinin tərbiyə eilməsi.

Nəticə.

Yeni rəqəmsal iqtisadiyyatın kadr, intellektual, texnoloji üstünlüklərinin artırılması şəraitində sistemli əhəmiyyətə malik olan bir sıra istiqamətlər üzrə və ilk növbədə milli iqtisadiyyatın yüksəlişinin yeni fazasını və uzunmüddətli artımını təmin edə biləcək innovasiya fəaliyyəti sahəsində liderlik mövqelərə nail olmaq lazımdır.

Müasir dünyada informasiya-telekommunikasiya texnologiyaları sosial sahənin və sənaye istehsalının ayrılmaz hissəsi olmaqla yanaşı, nəzəri və eksperimental tədqiqatların böyük hissəsini əvəz edir. Azərbaycan bazarda qlobal rəqabət mövqeyini təmin etmək üçün dünya iqtisadiyyatında yaranmış elmi-texnoloji vəziyyətdən istifadə etməlidir. Texnoloji təkmilləşmənin mənbəyi kimi həmçinin əsasını məhz təhsil və elm təşkil edən yerli tədqiqatlar və işləmələrin aparılması təşkil etməlidir. Elmin dövlət maliyyələşməsinin perspektiv dünya standartlarına qədər artması zəruridir.

Texnologiyalar həyatı daha yaxşı, işi isə daha məhsuldar etməlidir. Onlar bütün dünya üçün aktual olan, insanların necə yaşamaları, oxumaları, işləmələri və müalicə almalarına təsir edən problemləri həll etməyə kömək etməlidir. Texnologiyalar həyatımızın bütün sahələrinə nüfuz edir, istənilən mədəniyyət və gəlir səviyyəsinə malik olan insanlara yenilikləri əlyetərli edir. Bizə isə gələcəyin texnologiyalarının real, əhəmiyyətli dəyişikliklərin həyata keçirilməsinə kömək edəcəyinə inanmaq qalır!

Ədəbiyyat

1. Бабкин А.В. Тенденции развития экономики и промышленности в условиях цифровизации. СПб.: Изд-во Политехнического ун-та, 2017, 658 с.
2. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. 06 dekabr, 2016-cı il.
3. Гусман С. Курс на «умные» устойчивые города: пособие для руководителей городов. // Новости МСЭ, 2016 г., № 2, с. 3-5
4. Сергеева Н.В., Подворная Е.Д. Тенденция формирования «умных» городов / Материалы II Международной научно-практической конференции по теме «Трансформация национальной социально-экономической системы России». Москва, 2020, с. 259-263

5. «Смарт Сити»: Баку интересуется внедрением концепции «Умного города» [Elektron resurs] // https://1news.az/news/20170921113504344
6. "Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) konsepsiyasının hazırlanması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 19 aprel 2021-ci il
7. Qarabağda birinci "Ağıllı kənd" layihəsinin təməli qoyuldu [Elektron resurs] // https://www.turk.az
8. Умный город. Концепция, стандартизация и реализация смарт сити [Elektron resurs] // http://1234g.ru/novosti/smart-city
9. Фолкнер Д. Инфраструктура для новых «умных» устойчивых городов // Новости МСЭ № 2, 2016 г., с. 6-8
10. Дюдин Т.Ю., Старостина Н.А. «Умный город» как основная составляющая инфраструктуры будущего // Вестник Московского Гуманитарно-экономического Института, 2019, с. 49-58
11. Нанни Д. Кибербезопасность: безопасность сети для «умных» устойчивых городов // Новости МСЕ, 2016 г., №2, с. 18-20

İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ RƏQABƏTLİ İNSAN KAPİTALININ İNKİŞAFI PERSPEKTİVLƏRİ

Lətif Zeynallı, müəllim, *Doktorant*
e-ünvan: latif.zeynalli@gmail.com
Gülyaz Rzayeva
email: rzaevhag@icloud.com
Səidə Hüseynzadə
email: saidahuseynzade@inbox.ru
Əli Qibləliyev
email: ali.qibo@gmail.com
Gülşən Əzimova
email: azimovagulsen@mail.ru
Xədicə Nəbiyeva
email: nebiyevaxedice06@gmail.com
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası

XÜLASƏ

Məlum olduğu kimi, Azərbaycanda iqtisadiyyatın transformasiyası insan kapitalının inkişafında fasiləzisliyin təmin edilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"-nə əsasən, insan kapitalının formalaşması və inkişafı üçün təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi və əmək məhsuldarlığının yüksəldilməsini təmin etmək üçün insan kapitalının fasiləsiz inkişafının, araşdırma və təkmilləşdirmə sahəsinə investisiya qoyuluşunun stimullaşdırılması tədbirləri həyata keçirilir. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" özündə növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair beş Milli Prioritet reallaşdırılmasını əks etdirir. Burada reallaşdırılması qarşıya qoyulan prioritetlərdən "rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı" olması bir daha göstərir ki, dövlət tərəfindən qarşıdakı 10 ildə də ölkədə insan kapitalının inkişafında mütərəqqi addımların atılması əsas hədəflərdən biri kimi götürülmüşdür. Məqalənin hazırlanmasında məqsəd, işğaldan azad olunmuş ərazilərdə rəqabətli insan kapitalının formalaşdırılması perspektivlərini araşdırmaqdan ibarətdir.

Açar sözlər: Yuxarı Qarabağ, Kəlbəcər-Laçın, insan kapitalı, innovasiya, inkişaf.

Kapital konsepsiyasının insana tətbiqi yeni bir anlayış deyildir. İnsanın və onun xüsusiyyətlərinin kapitalın bir hissəsi ola biləcəyi fikri iqtisad elmi yarandığı gündən bəri tanınmış iqtisadçılar tərəfindən araşdırılmaqdadır. (Bildirici və başqaları, 2005) İnsan kapitalı nəzəriyyəsi iqtisadi artımın əsas amili kimi insanın intellektual, yaradıcı və məhsuldar keyfiyyətlərinə diqqət yetirən dünya iqtisadi nəzəriyyəsi və ictimai istehsal şərtlərinə uyğun olaraq tədricən inkişaf etdirilmişdir. İnsan kapitalı anlayışı 1960-cı illərdə elmə daxil edilmişdir. İnsan kapitalı nəzəriyyəsinin baniləri G. Becker və T. Schultzdur (Kuzmin və başqaları, 2020).

İnsan kapitalı konsepsiyasını müəyyənləşdirərkən bu dəyərlərin asılı və müstəqil dəyişənlər şəkildə yaradılması təhsil və təlimlə sıx bağlıdır. Bundan əlavə, təcrübənin bir bilik kateqoriyası hesab edilə biləcəyini nəzərə alsaq, insan kapitalı özünü fərdlərdə cəmlənmiş biliklərin sinonimi kimi tanıya bilər (Trovato, 2020).

Bazar iqtisadiyyatı şəraitində dövlət tərəfindən həyata kecirilən iqtisadi siyasətin səmərəliliyi, cəmiyyətin movcud sosial-iqtisadi strukturundan, onun keyfiyyət xarakteristikalarından əhəmiyyətli dərəcədə asılıdır. İnsan kapitalı səviyyəsi yüksək olan ölkələrdə sosial-iqtisadi islahatlar daha uğurla həyata kecirilir. İnsan fərdi və sosial varlıq olmaqla cəmiyyətin ayrılmaz bir tərkib hissəsidir. Məhz insan kapitalının səviyyəsinin yüksək olması səbəbinə görə iqtisadiyyatı ikinci Dünya müharibəsi illərində demək olar ki, məhv edilmiş Almaniya və Yaponiya çox qısa bir müddət ərzində iqtisadiyyatının əvvəlki vəziyyətini bərpa etməklə yüksək inkişaf templərinə nail oldular. İnsan kapitalının ən mühüm tərəflərindən biri onun müstəqil olaraq inkişaf etməsidir ki, bu da fərdlərlə vəhdət təşkil edən insan kapitalının özünün daha da təkmilləşdirilməsini, formalaşmasını və yaradıcı keyfiyyətlərinin və xüsusiyyətlərinin üzə çıxarılmasını ehtiva edir. Bu, danılmaz faktdır ki, hər bir dövlətin həqiqi sərvəti onun insanlarıdır və bu baxımdan inkişafın əsas məqsədi əhalinin uzun, sağlam və yaradıcı - həyat sürməsi üçün əlverişli mühitin təmin olunmasıdır. Müasir şəraitdə dünya miqyasında qlobal inkişaf və insan kapitalının qorunub saxlanılması, onun siyasi-iqtisadi-sosial düşüncələrində cəmiyyət üzvlərinin maddi-rifahının yüksəldilməsi və inkişaf etdirilməsindən başqa heç bir ali məqsədi ola bilməz.

Ölkəmiz zəngin təbii ehtiyatlara, xüsusən də neftə və qaza malikdir. Bununla birlikdə, hökumət insan kapitalının inkişafının ölkənin neft və qaz gəlirlərindən asılılığının azaldılması və xarici təsirlərə davamlılığını gücləndirməsi üçün zəruri bir şərt kimi qəbul edir. Hökumətin əsas məqsədi iqtisadiyyatın şaxələndirilməsini sürətləndirmək, neft və qaz gəlirlərinin səviyyəsindən asılı olmayaraq qeyri-neft sektorunda sürətli böyüməni davam etdirmək, rəqabət qabiliyyətini artırmaq və inkişaf imkanlarını genişləndirməkdir. Nəzərə almaq lazımdır ki, işğaldan azad olunmuş ərazilər Azərbaycanda iqtisadi inkişafın yeni drayveri kimi çıxış edəcəkdir. Bu baxımdan, burada rəqabətli insan kapitalınının və müasir innovasiya məkanının formalaşdırılması Azərbaycanda ÜDM-in artım tempinin sürətlənməsinə səbəb olacaqdır. İlk növbədə, işğaldan azad

	2010	2015	2016	2017	2018	2019
Əhalinin ümumi sayı (ilin sonuna, min nəfər)	8997.6	9593	9705.6	9810	9898.1	9981.5
Regionda olan əhalinin sayı (ilin sonuna, min nəfər)	855.4	910	921.2	930	938.7	947.2
Təbii artım	10065	10239	9479	7478	7225	7790
Doğulanlar	14139	14674	13873	12232	11883	12331
Ölənlər	4074	4435	4394	4754	4658	4541
Regionda olan əhalinin sayının əhalinin ümumi sayında payı faizlə (%)	9.50%	9.50%	9.50%	9.50%	9.50%	9.50%

olunmuş ərazilərdə demoqrafik göstəricilərin səviyyəsinə nəzər salaq:

Cədvəl 1. İşğaldan azad olunmuş ərazilərdə demoqrafik göstəricilər

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

Şəkil 1.



Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

Cədvəldən də göründüyü kimi, işğaldan azad olunmuş ərazilərdə əhalinin sayı 2010-2019-cu illər ərzində işğaldan azad olunmuş ərazilərdə olan əhalinin sayı əhalinin ümumi sayında payı 9.5% təşkil etmişdir. 2010-2019-cu illərdə doğulanların sayı 12.7% azalmış, ölənlərin sayı isə 11.4% artmışdır. Ümumilikdə təbii artım 22.6% azalmışdır. Buna baxmayaraq, işğaldan azad olunmuş ərazilərdə olan əhalinin sayı 10.7% artmışdır.

Şəkil 2.



Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2015-2019-cu illər ərzində işğaldan azad olunmuş ərazilərdə iqtisadi fəal əhalinin və məşğul əhalinin sayı 4.5%, orta aylıq nominal əmək haqqı Yuxarı Qarabağda 46%, Kəlbəcər-Laçın iqtisadi rayonunda isə 60.6% artmışdır. Buna baxmayaraq, işsiz statusu almış şəxslərin sayı da 2860 nəfərdən 6525 nəfərə qədər artmışdır.

Şəkil 3.



	2010	2015	2016	2017	2018	2019
Yeni iş yerlərinin sayı	2688	4486	7742	15789	11053	4415

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

Şəkil 3-dən də göründüyü kimi, işğaldan azad olunmuş ərazilərdə yeni iş yerlərinin sayında 2017-ci ilə kimi artım dinamikası müşahidə olunur. Lakin nəzərə almaq lazımdır ki, artıq bu ərazilərdə yenidənqurma işləri həyata keçirilir, bu nöqteyi-nəzərdən bir çox xarici şirkətlərlə əməkdaşlıq müqavilələri bağlanmışdır. Bu isə, gələcəkdə yeni iş yerlərinin artmasına səbəb olur, həmçinin iş yerlərinin artması fonunda ixtisaslı kadr ehtiyatlarının fromalaşdırılması da zəruri hesab olunur. Qeyd etmək lazımdır ki, dövlət insan kapitalının inkişafı sahəsində bir sıra sənədlər və proqramlar qəbul etmişdir ki, bunlardan bir qisminə nəzər salaq:

1. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı
2. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi
3. "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı
4. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər

Yuxarıda qeyd etdilərimiz də göstərir ki, Azərbaycan hökuməti insan kapitalını inkişaf etdirməyi əsas prioritet kimi qarşıya qoymuşdur və vətəndaşların yeni bilik və bacarıqlarını inkişaf etdirmək ölkə gündəmindədir. Bu nöqteyi-nəzərdən əsas diqqət, təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsinə; fasiləsiz inkişafının, araşdırma və təkmilləşdirmə sahəsinə investisiya qoyuluşunun stimullaşdırılmasına; dünyanın nüfuzlu ali təhsil müəssisələri ilə Azərbaycan ali təhsil müəssisələri arasında ölkə iqtisadiyyatı üçün prioritet sahələr üzrə beynəlxalq ikili diplom proqramlarının təsis olunmasına; Azərbaycan ali təhsil müəssisələri üçün yüksək elmi-tədqiqat bacarıqlarına malik milli kadrların hazırlanması məqsədilə xaricdə doktorantura səviyyəsində təhsilin maliyyələşdirilməsinə və rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanının formalaşdırılmasına yönəldilmişdir. Yeni iş yerlərinin açılması, sosial və regional bərabərsizliklərin azaldılması kimi böyük problemlərin öhdəsindən gəlməyi bacaran yeni iqtisadi inkişaf modelinə tədricən keçid ölkədə insan kapitalında yenilənmə və düzəlişlər edilməsini tələb edir. İşğaldan azad olunmuş ərazilərdə məskunlaşacaq əhaliyə təhsil, səhiyyə, sosial və digər xidmətlərin göstərilməsi üzrə mütəxəssislərin fəaliyyətlərin stimullaşdırılması da bilavasitə regionda insan kapitalının inkişafını şərtləndirən məsələlərdəndir. Postkonflikt ölkələrinin təcrübəsinə nəzər yetirdikdə, regionda insan kapitalının formalaşdırılması və inkişafı ilə bağlı ilk olaraq daxili insan kapitalı qiymətləndirilməlidir ki, buna əsas etibarı ilə keçmiş münaqişə zonası əhalisi daxildir. Bu prosesdə məcburi köçkünlərin mərhələli şəkldə, iqtisadi və sosial məsələlər nəzərə alınmaqla öz yerlərinə qayıtması, insan kapitalının inkişafı, xarici və yerli investisiyanın cəlb olunması, iqtisadiyyatın innovativ həllər prinsiplərinə uyğun inkişaf etdirilməsi də prioritet təşkil edir.

Ədəbiyyat

1. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı http://www.e-qanun.az/framework/13001
2. "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı https://edu.gov.az/upload/file/Beynelxaql-emekdashliq/2019/11/elan-DP-PhD-18_11_2019.pdf
3. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi https://www.stat.gov.az/source/regions/
4. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi https://azertag.az/store/files/untitled%20folder/_STRATEJI%20YOL%20XERITESI_.pdf
5. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" https://president.az/articles/50474
6. Bildirici, M., Sunal, S., Aykac Alp, E., & Orcan, M. (2005). Determinants of human capital theory, growth and brain drain: An econometric analysis for 77 countries. *Applied Econometrics and International Development, 5*, 2.
7. Kuzmin, O., Bublyk, M., Shakhno, A., Korolenko, O., & Lashkun, H. (2020). Innovative development of human capital in the conditions of globalization.
8. Trovato, M. R. (2020). Human Capital Approach in the Economic Assessment of Interventions for the Reduction of Seismic Vulnerability in Historic Centres. Sustainability, 12(19), 8059.

AZƏRBAYCANIN İŞĞALDAN AZAD EDİLƏN ƏRAZİLƏRİNİN DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİNİN SOSİAL ASPEKTİNƏ UYĞUN OLARAQ DİRÇƏLDİLMƏSİ

Hüseyn Quliyev
Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
elm@amea-iqtisadiyyat.org

Xülasə

Bu məqalədə Azərbaycanın işğaldan azad edilən ərazilərinin gələcək potensialı dəyərlən-dirilmiş, Qarabağın BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin sosial aspekti üzrə prespektivləri araşdırılmış, dünya təcrübəsindən istifadə edərək bərpa planının formalaşdırılması üçün tövsiyə və təkliflər irəli sürülmüşdür.

Açar sözlər: Azərbaycan, Qarabağ, dayanıqlı inkişaf, sosial, BMT, məqsədlər

Bugün Azərbaycan xalqı şanlı tarixinin ən xoşbəxt günlərini yaşayır. Ali Baş Komandan, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən məqsədyönlü islahatlar və genişmiqyaslı tədbirlər sayəsində ölkəmizin iqtisadi və hərbi-müdafiə qüdrətini daha da güclənmiş və 44 günlük Vətən müharibəsində parlaq qələbənin qazanılmasına əvəzolunmaz rol oynamışdır. Bugün azad edilən torpaqlarımızın hər qarışında bərpa işləri görülür, xalqımızın doğma torpaqlarına tez bir zamanda qayıtması üçün genişmiqyaslı tədbirlər həyata keçirilir. İşğaldan azad edilən ərazilərin zəngin iqtisasi potensialının Azərbaycan iqtisadiyyatına inteqrasiyası nəticəsində ölkəmizin inkişafında yeni bir mərhələyə başlayacaqdır.

Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının üzvü olan dövlətlərin 2015-ci ilin 25–27 sentyabr tarixlərində keçirilən Dayanıqlı İnkişaf Sammitində 2016–2030-cu illər üçün təsdiqlənmiş Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulmuş, qarşıya qoyulmuş məqsəd və hədəflər üzrə öz öhdəliklərini qəbul etmişdir. Azərbaycan ötən illər ərzində Minilliyin İnkişaf Məqsədləri uyğun olaraq aralarında ətraf mühitin yaxşılaşdırılması, insanların sağlamlığının qorunması, yoxsulluğun

aradan qaldırılması, əhalinin təhsil səviyyəsinin yüksəldilməsi, gender bərabərliyinin təşviq və təmin olunması olmaqla bir çox hədəflərə nail olmuşdur.

Prezident cənab İlham Əliyevin 6 dekabr 2016-cı il tarixli "Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında" fərmanı ölkəmizdə Minilliyin Bəyannaməsinə verilən dəyərin isbatıdır. Bununlada, Azərbaycanın digər böyük dövlətlər kimi yalnız özünün deyil, bütün bəşəriyyətin gələcəyini düşündüyünü göstərir. Həmçinin, 2000-ci ilin sentyabrında Nyu-Yorkda BMT-nin təşkilatçılığı keçirilən Minilliyin sammitində Minilliyin Bəyannaməsini Azərbaycan Respublikası adından xalqımızın ümummilli lideri Heydər Əliyev imzalamışdır

İnsan inkişafı üçün son dərəcə əhəmiyyətli imkanların yaradılmasına, planetimizi qorumaqla qlobal inkişafın dayanıqlılığını təmin edilməsinə təkan verəcək 17 məqsəd və 169 hədəf təsdiq edilmişdir. Minilliyin Bəyannaməsinə qoşulmuş ölkəmizin Qarabağı azad etməsi 17 məqsədin dayanıqlı inkişafın iqtisadi, sosial və ekoloji aspektlərini əhatə etməklə orda tədbiq olunmasına zəmin yaratdı.

Məqsəd 1 - Yoxsulluğa son. Qlobal məqsədlərdən birincisi məhz ifrat yoxsulluq və aclıq içində yaşayan dünya əhalisinin sayının yarıyadək azaldılmasını nəzərdə tutur. Minilliyin Bəyannaməsinə qoşulan bir ölkə kimi, Azərbaycan Respublikasında da bu öhdəliyin ölkə şəraitinə uyğun şəkildə həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 20 fevral tarixli 854 nömrəli Fərmanı ilə "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı" təsdiq edilmişdir.

Həmin Dövlət Proqramının həyata keçirilməsi nəticəsində 2003-2005-ci illərdə Respublikada ümumi makroiqtisadi sabitlik qorunub saxlanılmış, dinamik iqtisadi artımın davamlılığı təmin edilmiş, inflyasiya və milli valyutanın məzənnəsi məqbul səviyyədə saxlanılmışdır. Bu isə ölkədə mövcud olan sosial problemlərin, o cümlədən yoxsulluq probleminin həlli istiqamətində təsirli tədbirlərin həyata keçirilməsinə imkan yaratmışdır. Belə ki, 2005-ci ildə yoxsulluq səviyyəsi 2001-ci ildəki 49%-dən 29,3%-ə enmişdir. [1; 9]

Əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində əldə olunan müsbət meylləri davam etdirmək məqsədilə "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" hazırlanaraq təsdiq edilmiş və uğurla icra olunmuşdur. Aparılan uzaqgörən siyasət nəticəsində 2019-cu ildə yoxsulluq səviyyəsi 4,8 faiz təşkil etmişdir. [2; 9]

2008-2015-ci illərdə icra edilən proqramın əsas doqquz strateji məqsədindən biri məhz qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması tədbirlərinin sistemli şəkildə davam etdirilməsi olmuşdur. Qaçqınlar və məcburi köçkünlər arasında ən yüksək yoxsulluq səviyyəsi kənd yerlərində müşahidə edilmişdir, şəhər yerlərində isə onların yoxsulluq səviyyəsi yerli əhalidən çox fərqlənmir. Bu da, şəhər yerlərində məşğulluq imkanlarının nisbətən çox olması ilə izah edilə bilər. Cənab Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində qaçqınlar və məcburi köçkünlər arasında yoxsulluq səviyyəsi 74 faizdən 18 faizədək azaldılmış, antisanitariya şəraitində yaşayan məcburi köçkünlərin yeni qəsəbələrə köçürülməsi və evlə təminat məsələsi istiqamətində mühüm tədbirlər görülmüş, işsizliklə bağlı problemləri həll edilmişdir. Yaxın gələcəkdə azad olunan torpaqlarda açılacaq yeni iş yerləri sayəsində yoxsulluğun minimal səviyyəyə enəcəyi gözlənilir.

Məqsəd 2 - Aclığa son. İkinci məqsəddə aclığa son qoymaq, ərzaq təhlükəsizliyini təmin etmək, qidalanmanı yaxşılaşdırmaq və kənd təsərrüfatının dayanıqlı inkişafına dəstək vermək məsələsi öz əksini tapır. 2020-ci ildə "Concern Worldwide" və "Welthungerhilfe" təşkilatları birlikdə hazırladığı Qlobal Aclıq İndeksi sırasında Azərbaycan 25-ci yeri tutub. Bu indeksin məqsədi qlobal, regional və ölkələr səviyyəsində yoxsulluğu izləmək və səviyyəsini ölçməkdir. İndeks həm də aclıqla bağlı maarifləndirməni artırmaq, onunla mübarizəni gücləndirməyə töhfə verməyi hədəfləyir. İndeksin hesablanması zamanı hər bir ölkədə pis qidalanan əhalinin sayı; 5 yaşınadək uşaqların pis qidalanma nəticəsində boyuna görə çəkisinin azlığı; 5 yaşınadək uşaqların yaşına görə çəkisinin azlığı və 5 yaşınadək uşaqlar arasında ölüm göstəriciləri öyrənilir. Bu il Azərbaycan 6 balla qiymətləndirilib. Nəzərə alsaq ki, ölkəmiz 2000-ci ildə 25; 2006-cı ildə 16;

2012-ci ildə isə 12,1 bal yığıb, bu nəticə aclıq göstəricilərinin ildən-ildən yaxşılaşdığı göstərir. Azərbaycan Qafqazda aclıq səviyyəsinin ən aşağı göstəricidə olduğu ölkədir. [6]

İşğaldan azad olunan ərazilərin təbii ehtiyatları, xüsusilə kənd təsərrüfatı potensialı ölkəmizin iqtisadi inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. İşğaldan əvvəlki dövrdə Qarabağ ərazisi yüksək kənd təsərrüfatı göstəricilərinə malikdi. Ölkədə taxıl, pambıq, üzüm, ət və süd, yun və barama istehsalının çox hissəsi həmin ərazilərin payına düşürdü. İndi regionun aqrar sahədə əvvəlki şöhrətinə qaytarılması üçün hazırlıq işləri görülməyə büşlamışdır. Məskunlaşma prosesi başlayandan sonra kənd təsərrüfatı ilə məşğul olacaq sakinlərin aqrar texnika, toxum, gübrə və digər lazımi vasitələrlə təmin edilməsinə dair planlar hazırlanmışdır. Bölgədə ixracyönümlü kənd təsərrüfatı məhsullarının istehsalı üçün böyük potensial vardır. Ümumilikdə, işğaldan azad edilən ərazilərimiz hesabına növbəti illərdə əkin balansı xeyli artırılacaq. Sözügedən ərazilərdə kənd təsərrüfatının inkişafı ilə bağlı dövlət başçısının tapşırıqlarına uyğun olaraq işlərə başlanmışdır. Bugün Kənd Təsərrüfatı Nazirliyi "Azərkosmos" ASC ilə birlikdə faktiki əkinaltı torpaqların da peyk təsvirləri əsasında xəritələşməsini aparır. Ölkədə kənd təsərrüfatının inkişafına gəlincə, ötən il bu sahə üzrə 2 faiz artım olmuş, fermerlərin kənd təsərrüfatı texnikasına tələbatını ödəmək məqsədilə 100-dən çox özəl şirkət vasitəsilə 3 min fermerə 7260 kənd təsərrüfatı texnikasının verilməsi, həmçinin, 8758 baş damazlıq heyvanın satışı maliyyələşdirilmiş, 2020-ci ildə 3400-dən çox fermerə mikrokreditlər verilmişdir. Bu da ona dəlalət verir ki, Azərbaycan yaxın gələcəkdə Dünyanın Qlobal Problemlərindən biri olan aclığa qarşı mübarizədə üzü ağ çıxacaqdır. [4]

Məqsəd 3 - Yaxşı səhiyyə və rifah. Bu məqsədin əsası yaşından asılı olmayaraq hamının sağlam yaşayış tərzini təmin etmək və rifah halını yaxşılaşdırmaqdır.

Azərbaycanda bütün sahələrlə yanaşı, səhiyyə sistemi, həkimlər də daim dövlətin diqqət və qayğısı ilə əhatə olunmuşdur. Son illərdə respublika Prezidentinin təşəbbüsü ilə ən vacib sahələr üzrə - "Qanın, qan komponentlərinin donorluğu və qan xidmətlərinin inkişafına dair Dövlət Proqramı", "Hemofiliya və talassemiya irsi qan xəstəliyi üzrə Dövlət Proqramı", "Xroniki böyrək çatışmazlığı üzrə Tədbirlər Proqramı", "Yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı", "Onkoloji xəstələrin həyati vacib şiş əleyhinə preparatlarla təminatı üzrə Tədbirlər Proqramı", "Ana və uşaqların sağlamlığının qorunması haqqında Tədbirlər Proqramı" hazırlanmış və təsdiq edilmişdir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə irimiqyaslı layihələrin, o cümlədən "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə", "Uşaq Kardiocərrahiyyə Mərkəzinin yaradılması" və başqalarının həyata keçirilməsi, ən ağrılı problemlərdən biri olan böyrək çatışmazlığından əziyyət çəkən xəstələrin pulsuz (bilavasitə fondun maddi dəstəyi və təşəbbüsü ilə) hemodializ seansları alması, habelə yeni tikilmiş və əsaslı təmirdən çıxmış, ən müasir texniki avadanlıqla təchiz edilmiş yeni xəstəxana və poliklinikaların açılması bütövlükdə tibb sahəsinə, burada çalışan insanlara göstərilən diqqətin bariz nümunələridir.

2020-ci ildə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (Agentlik) "Azərbaycan Respublikasının inzibati ərazi vahidləri üzrə tibbi ərazi bölmələri"ni yaradaraq "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi"nin (TƏBİB) tabeliyinə verilən dövlət səhiyyə sisteminə daxil olan tibb müəssisələrinin inzibati ərazi vahidləri üzrə qruplaşdırmışdır.

Yaradılan 13 tibbi ərazi bölməsindən biri Qarabağ Tibbi Ərazi bölməsidir. Tibbi müəssisələrin belə qruplaşdırılması səhiyyə sayəsində islahatların daha operativ həyata keçirilməsinə, vətəndaşlara xidmətlərin daha yaxşı göstərilməsinə şərait yaradacaqdır. Hal-hazırda Qarabağ tibbi ərazi bölməsi tabeliyində 65 tibbi müəssisə fəaliyyət göstərir. Həmin tibbi müəssisələrdə 196-sı həkim olmaqla 957 tibb işçisi vətəndaşlarımızın sağlamlığı üçün çalışır. [7]

Məqsəd 4 - Keyfiyyətli təhsil. Dördüncü məqsəd hamı üçün inklüziv və bərabər keyfiyyətli təhsili təmin etmək və ömür boyu təhsil almaq imkanlarını dəstəkləməyi özündə cəmləndirir.

Məcburi köçkünlər arasında ümumi savadlılıq səviyyəsi əhalinin digər qruplarından o qədər də fərqlənmir. Hazırda hökumət tərəfindən qaçqın və məcburi köçkün gənclərin ali təhsilə həvəsləndirilməsi və onların dəstəklənməsi məqsədilə bir sıra imtiyazlar (dövlət ali təhsil

müəssisələrinin ödənişli fakültələrində ödənişdən azad olunma, təhsil müəssisələrinin yataqxanalarından pulsuz istifadə etmə və s.) müəyyənləşdirilmişdir.

İşğaldan azad olunmuş ərazilərimizin təhsil müəssisələri işğal dövründə Azərbaycanın digər şəhər və rayonlarında öz fəaliyyətlərini davam etdiriblər. Təhsil Nazirliyinin verdiyi açıqlamaya əsasən hazırda həmin təhsil müəssisələrinin köçürülməsi məsələlərinə baxılır. Təhsil müəssisələrinin yerləşdirilməsi hazırlanan baş planlara uyğun olaraq nəzərdə tutulmuşdur. [5]

Ağdamın Baş Planına əsasən orada Qarabağ Universitedi açılacaqdır ki, həmin ali təhsil müəssisəsi regionun təhsil imkanlarını daha da artıracaqdır. Həmçinin, yaxın gələcəkdə Xankəndi və Şuşa kimi böyük şəhərlərdə başqa ali təhsil müəssisələrinində açılması planlaşdırılır.

Məqsəd 5 - Gender bərabərliyi. Bu məqsəddə gender bərabərliyinə nail olmaq, bütün qız və qadınların hüquq və imkanlarını genişləndirmək nəzərdə tutulur.

Azərbaycan tarixinə nəzər salsaq görərik ki, cəmiyyətin inkişafının bütün mərhələlərində qadınlar kişilərlə bərabər dövlət quruculuğunda, siyasi qərarların verilməsində fəal iştirak edirlər. Ölkəmizdə milli qadın siyasəti tariximizin şanlı səhifəsi olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət statusu alıb. Həmin dövrdə ilk dəfə olaraq müsəlman Şərqində qadına seçmək və seçilmək hüququnun verilməsi tarixi nailiyyət hesab olunurdu. Bununla da nəinki Şərqdə, hətta demokratiyanın beşiyi sayılan bir sıra Avropa ölkələrindən və ABŞ-dan əvvəl qadına cəmiyyət həyatında siyasi proseslərə qoşulmaq hüququ verilib. Sovet hakimiyyətinin 70 ili ərzində Azərbaycanın iqtisadi-siyasi, elmi-mədəni və ictimai həyatında qadınların yüksək intellektual zümrəsi formalaşmışdır.

Ümummilli lider Heydər Əliyev istər sovet dönəmində, istərsə də müstəqillik illərində respublikamıza rəhbərliyi dövründə Azərbaycan qadınlarının problemlərinin həllinə, onların ölkənin siyasi, sosial, iqtisadi və mədəni həyatında rolunun artırılması məsələlərinə böyük diqqət ayırırdı. Məhz onun göstərişi nəticəsində gender probleminin həll edilməsi məqsədilə Azərbaycan Respublikasında bir sıra tədbirlər həyata keçirildi. Bu gün Ümummilli lider Heydər Əliyevin göstərişi ilə Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması və səmərəli fəaliyyəti nəticəsində ölkədə bir çox gender problemi aradan qalxmışdır. [5]

Qarabağın qədim tarixi boyunca Azərbaycan qadınları öz yerini almışdır. Qarabağın görkəmli şəxsiyyətləri arasında Şuşanın məşhur Yuxarı və Aşağı Gövhər ağa məscidlərin sifarişçisi Gövhər ağa Cavanşirin, XIX əsr Azərbaycanın görkəmli şairəsi Xurşidbanu Natəvanın, Azərbaycanın ilk maarifçi qadınlarından biri Həmidə Məmmədquluzadənin, Azərbaycanın ilk qadın həkimlərindən biri Məhbubə Mahmudbəyovanın, Türkiyənin ilk qadın vəkili Sürəyya Ağaoğlunun və daha bir neçə qadının adını çəkə bilərik. Bu Qarabağda qadınlara qarşı diskriminasiyanın olmadığının əsas göstəricisidir.

Məqsəd 6 - Təmiz su və sanitariya. Altıncı məqsəd hamı üçün su və sanitariyaya əlçatanlığı və dayanıqlı idarə etməni təmin etməyə çalışır.

İşğaldan azad olunan ərazilərimizin çaylar, göllər və o cümlədən yeraltı sulardan ibarət su ehtiyatları təxminən 780 milyon kubmetrdir. Bu isə yerli su ehtiyatlarımızın 20 faizə qədərini təşkil edir. İşğal dövründə Azərbaycan Tərtərçay, Həkəriçay, Tərtərçayın qolu Levçay, Tutkunçay, Xaçınçay və digər böyük çayların su ehtiyatlarından məhrum olduğundan, əkin sahələrinin suvarılmasında, xüsusilə bitkilərin vegetasiya dövründə, çətinliklər yaranırdı.

Qarabaq çatlı vulkanik süxurların geniş yayıldığı ərazi olduğuna görə yeraltı sularla daha zəngindir və onlar nisbtətən dağətəyi ərazilərdə səthə çıxaraq bulaq şəklində çayları qidalandırır. Hidrokimyəvi xüsusiyyətlərinə - kalsium hidrokarbonatlılığına görə onların ümumi codluğu nisbətən aşağıdır və bu çayların suları Azərbaycanda demək olar ki, ən keyfiyyətli sular hesab olunur. Həm də xüsusilə yuxarı hissələrdə meyllilik və sululuq çox, axın sürəti böyük olduğundan bu çaylar hidroenerji ehtiyatları ilə də zəngindir. Onların Azərbaycanın digər sahələrindəki suvarma sistemlərinə daxil olması, eyni zamanda, ərazidəki Sərsəng, Suqovuşan, Ağdamkənd, Xaçınçay və sairə su anbarları ekoloji bərpa prosesinin sürətlənməsinə təkan verəcəkdir. [8]

İşğaldan azad olunmuş ərazilərin su ehtiyatlarının iqtisadiyyatımızın irəliləyişində dönüş yaradacaqdır. Belə ki, ehtiyatların suvarılan torpaqların artırılmasına, suya olan tələbatın

ödənilməsinə, digər su ehtiyyatlarının paylanmasına və idarə olunmasına yetərincə müsbət təsir göstərəcəkdir.

Məqsəd 7 - Sərfəli və təmiz enerji. Sosial aspektə aid olan məqsədlərin sonuncusu hamının sərfəli, etibarlı, dayanıqlı və müasir enerji mənbələrinə çıxışını təmin etməkdir.

Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində üç iri su elektrik stansiyası mövcud olmuşdur ki, bu stansiyalardan biri "Tərtər" SES 1976-cı ildə Tərtər rayonu ərazisində, Tərtərçayın üzərində Sərsəng su anbarı ilə birgə inşa edilmişdir. Stansiya hər birinin gücü 25 MVt olan 2 hidroaqreqatdan ibarətdir.

Regiondakı digər mühüm enerji obyektləri "Xudafərin" və "Qız Qalası" su elektrik stansiyalarıdır. Azərbaycanın Cəbrayıl rayonundakı Xudafərin kəndindən 1 km şimal-qərbdə yerləşən "Xudafərin" Su Elektrik Stansiyasının Azərbaycan tərəfində hər birinin gücü 50 meqavata bərabər olan 2 hidroaqreqatdan, Araz çayı üzərində tikintisi nəzərdə tutulmuş "Qız Qalası" Su Elektrik Stansiyasının isə hər biri 20 MVt olan 2 hidroaqreqatdan ibarət olması planlaşdırılır.

2020-ci ilin oktyabr ayında Cəbrayıl rayonunun işğaldan azad edilməsi, İran İslam Respublikası ilə dövlət sərhədinin tam nəzarətə götürülməsi "Xudafərin" və "Qız Qalası" hidroqovşaqları üzərində elektrik stansiyalarının inşasının başa çatdırılması baxımından da çox önəmli bir hadisədir. Bu layihələr həm işğaldan azad edilmiş ərazilərin elektrik enerjisi ilə təmin edilməsində, həm də suvarılmasında xüsusi rol oynayacaqdır. [8]

Həmçinin, Yer səthinə düşən günəş radiasiyasının miqdarına görə Qarabağın cənub düzənlik hissəsi - Füzuli, Cəbrayıl, Zəngilan rayonları Naxçıvan MR ərazisindən sonra ikinci yerdədirki, bu orada GES-in tikintisi üçün əlverişli şəraitin olduğunu göstərir. Həmçinin, İşğaldan azad olunan torpaqlardakı zəngin külək və geotermal enerji potensialınıda xüsusi qeyd etməliyik.

Nəticə

Yuxarıda yazılanlara əsasən belə bir nəticəyə gəlirik ki, ölkəmiz öz uğurlu inkişaf yolunda inamla və qətiyyətlə irəliləyir. İşğaldan azad olunan torpaqların yüksək iqtisadi potensialı ölkəmiz üçün yeni bir inkişaf mərhələsinin başlanğıcı olacaqdır. Müzəffər ordumuz sayəsində Qarabağımız mənfur düşməndən azad olunmuş, bugün isə dünya standartlarına uyğun şəkildə bərpa edilir və günü-gündən çiçəklənir.

Dayanıqlı İnkişaf Məqsədlərinin sosial aspektini əks etdirən ilk 7 məqsədə uyğun uğurlu layihələrin həyata keçirilməsi Minilliyin Bəyənnaməsinin ölkəmizdə uğurlu icra edildiyini bütün dünyaya göstərəcəkdir. Bugün Azərbaycanda, xüsusəndə Qarabağda görülən işlər 2030-cu ildə keçiriləcək BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə həsr olunmuş sammitində ölkəmizin məğrur duruşu üçün zəmin yaradacaqdır.

Ədəbiyyat

1) "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı // Bakı- 2003

2) "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Bakı- 2008

3) Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı // Bakı- 2016

4) http://www.aztv.az/az // Azərbaycan Televiziyasının rəsmi veb saytı

5) https://azertag.az/ // Azərbaycan Dövlət İnformasiya Agentliyinin rəsmi veb saytı

6) https://www.globalhungerindex.org/ // Qlobal Aclıq İndeksinin rəsmi veb saytı

7) https://its.gov.az/ // İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin rəsmi veb saytı

8) https://minenergy.gov.az/ // Azərbaycan Respublikasının Energetika Nazirliyinin rəsmi veb saytı

9) https://www.stat.gov.az/ // Dövlət Statistika Komitəsinin rəsmi veb saytı

QARABAĞIN IQTISADIYYATININ YENIDƏN QURULMASI PERSPEKTIVLƏRI

Məhərrəmova Firuzə Hüseynağa qızı, k.e.i.
AMEA İqtisadiyyat İnstitutu
melek_1@bk.ru

Azərbaycan Respublikasının qərb bölgəsində yerləşən Qarabağ faydalı qazıntılarla və mineral sularla zəngindir. Burada qızıl, gümüş, mis, əlvan metallar, dəmir, sink, qranit, qiymətli daşlar, odadavamlı gil polimetall filizləri (Mehmanə yatağında), neft, təbii qaz, müxtəlif tikinti materiallarına (mərmər, sement xammalı, tikinti daşı) və s. rast gəlmək olar. Meşələrdə olan xammal ehtiyatları yerli ağac emalı müəssisələrini xammalla təmin etmək üçün kifayət qədərdir. Vaxtilə işğaldan qabaq Qarabağda kənd təsərrüfatının demək olar bütün sahələri inkişaf etmişdir. Taxılçılıq, üzümçülük, maldarlıq, pambıqçılıq, xalçaçılıq, meyvəçilik, tütünçülük, şərabçılıq, konserv məhsullarının istehsalı, həmçinin heyvandarlıq, əsasən, ətlik-südlük, yüksək dağlıq sahələrdə isə ətlik-yunluq olaraq inkişaf etmişdir. Burada meyvə, kartof, bostan-tərəvəz məhsulları becərilmiş, barama saxlanması üçün geniş sahələrdə tut bağları salınmışdır.

Ermənistan silahlı qüvvələri tərəfindən Qarabağın işğalından sonra bu bölgələr ölü zonaya çevrildi, hər şey məhf edildi. Torpaqlarımız işğaldan azad olunmuşdur. Bundan sonra Qarabağda iqtisadiyyat müasir standartlar səviyyəsində yenidən qurulacaq. Cənab Prezident də Qarabağda həyatın yenidən qurulacağını, abadlaşacağını, yeni iqtisadi inkişaf mərhələsinə qədəm qoyacağını bəyan etmişdir. Artıq yolların tikintisinə, mobil rabitə, tele-radio yayımının təşkili, bölgələrin elektrik enerjisi, içməli su ilə təmin edilməsi, bir sıra dövlət orqanlarının, rəsmi strukturların yerlərdə formalaşması, inzibati binaların tikilməsi və bərpasına başlanmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də də Qarabağa böyük qayıdışın təmin edilməsi də nəzərdə tutulur. Bu istiqamətdə mühüm qərarlar qəbul edən Ölkə Prezidentinin 4 yanvar 2021-ci il tarixli fərmanı ilə işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə "Qarabağ Dirçəliş Fondu" yaradılıb. Bu fond Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və yenidən qurulması, habelə iqtisadiyyatının inkişafının və yüksək rifah şəraitində yaşaması üçün həyata keçirilən hər cür tədbir və dəstək göstərən, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişafını təmin edən, eləcə də ölkə daxilində, habelə ölkə xaricində zəruri təşviqat işlərini həyata keçirən publik hüquqi şəxsdir.

Qarabağın iqtisadi dirçəlişi üçün böyük potensialı var. Hətta yalnız bir sahəyə baxsaq belə, məsələn, Qarabağın turizm sahəsində ixtisaslaşması – sağlamlıq-müalicə, dərketmə, rekreasiya istiqamətində olmuşdur. Təbii və qədim, tarixi-mədəni abidələrinin bir çoxu erməni vandallarınn dağıntısına məruz qalsa da, dünya əhəmiyyətli memarlıq və arxeoloji abidələri ilə tanınan Qarabağ yenə də turistlərin marağına səbəb olacaq. İran, Türkiyə, Gürcüstan kimi qonşu ölkələrdən turistlərin Qarabağa üz tutacaqları gözlənilir. Cünki Qarabağda turistlərin marağına səbəb ola biləcək fauna və flora da zəngindir. Murovdağ silsiləsinin yüksək zirvələri bəzən il boyu qarlı olur ki, bu da qış turizmi üçün əlverişlidir. Silsilələr və onların yan qollarının çaylarla bölünməsi nəticəsində dərin və sıldırım yamaclı dərələr əmələ gəlmişdir. Çay dərələrinin genişləndiyi sahələrdə isə turizm üçün əlverişli, mənzərəli dağarası çökəkliklər (Dovşanlı, Xankəndi və s.) vardır.

Dünyanın ən öndə gedən texnologiyalarının alternativ enerjiden istifadənin həyata keçirilməsinə yönəldildiyi bir zamanda, "Yaşıl enerji" zonası kimi bərpa olunması nəzərdə tutulan Qarabağ ərazisi dünyanın ən müasir yaşayış məskənlərindən biri olacaq. Laçın-Kəlbəcər bölgələrində külək enerjisindən, Zəngilan-Cəbrayıl bölgələrində isə günəş enerjisindən istifadə imkanları genişdir. Heç şübhəsiz ki, yaxın gələcəkdə Qarabağ ərazisi dünyanın ən müasir yaşayış məskənlərindən biri olacaq. Öz torpaqlarına qayıtmağa hazırlaşan keçmiş məcburi köckünlərin əmək məşğulluğunun təmin edilməsi üçün proqramlar hazırlanmaqdadır. Bunlara ənənəvi

məşğuliyyət sahələrinin bərpasından başqa, həmçinin yeni məşğulluq növlərinin yaradlılmasının, dövlət tərəfindən hazırlanan planların yaxın bir zamanda həyata keçirilməsini misal çəkmək olar.

Artıq Qarabağda kənd təsərrüfatı məhsullarının yetişdirilməsi üçün istifadə olunmuş torpaqların reabilitasiyasına başlanmış, hətta 7 min ha sahədə dənli bitkilərin əkilməsi həyata keçirilmişdir. Əgər ərazilər minalardan təmizlənib istifadəyə verilərsə, bu yüz min hektarlarla ərazinin əhalinin istifadəsinə verilməsi və məşğulluğun təmin edilməsi, daha çox insanın işlə təmin olunması və kənd təsərrüfatı məhsulları istehsalının artması deməkdir. Beləliklə azad olunmuş ərazilərin yaxın gələcəkdə ölkənin iqtisadi fəaliyyət dövriyyəsinə cəlb edilməsi iqtisadi cəhətdən ölkəmiz üçün mühüm rol oynayacaqdır.

Qarabağın iqtisadiyyatının yenidən qurulmasında Azərbaycan bir çox ölkələrlə, xüsusən də Türkiyə ilə yaxından əməkdaşlıq edir. 2021-ci il martın 1-də qardaş ölkə Türkiyə ilə Preferensial Ticarət Sazişin qüvvəyə minməsi ilə iki ölkə arasında ticarət dövriyyəsinin 2023-cü ilə 15 milyard dollara çatdırmaq hədəfimizə doğru addım-addım irəliləyirik. Türkiyə tekstil sənayesi daxili tələbatı ödəməklə yanaşı, ixracda da yüksək paya malikdir. Bu baxımdan Türkiyə şirkətlərinin Qarabağda bu sahədə sənaye müəssisələri yaratması pambıqçılığın, iplik, parça istehsalının, xalçaçılığın inkişafına töhfə verə bilər. Beləliklə eyni zamanda sənayenin bir çox sahəsində uğur qazana bilərik. Hansı ki, bu uğur özünü həm yeni iş yerlərinin yaradılmasında, həm də yerli istehsalın inkişafında, əhalinin sosial rifah halının yaxşılaşdırılmasında göstərə bilər.

15 iyun 2021-ci il tarixində qardaş ölkə Türkiyə ilə imzalanan Müttəfiqlik haqqında Bəyannamədə bir çox önəmli məsələlər öz əksini tapır ki, bunlar, beynəlxalq müstəvidə birgə əməkdaşlıq, siyasi və iqtisadi-ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, demək olar ki, bütün sahələrlə əhatə olunur. Enerji təhlükəsizliyinin, Cənub Qaz Dəhlizinin önəmi Türkiyə, Azərbaycan və Avropa üçün göstərilir və hər bir məsələ çox böyük önəm daşıyır. Zəngəzur dəhlizinin açılması isə İkinci Qarabağ savaşından sonra yaranmış yeni geosiyasi vəziyyətin nəticəsidir ki, bu dəhliz Türkiyə ilə Azərbaycanı dəmir yolu və avtomobil yolu ilə birləşdirəcəkdir. Bu dəhlizin açılması iki ölkə arasındakı əlaqələrin daha da sıxlaşmasına şərait yaradacaqdır ki, bu da iqtisadi cəhətdən əlverişlidir.

Qonşu İran İslam Respublikası da 30 şirkətinin Qarabağ bölgəsində iqtisadiyyatın yenidən qurulmasında iştirak etmək niyyətindədir. İki ölkə arasında əməkdaşlıq əlaqləri də genişlənir. Təbriz şəhərinin Qarabağla yaxın ərazidə olmasını nəzərə alsaq, ölkəmizin İranla ticarət əlaqələrinin artması üçün yeni imkanlar yaranacaq.

QARABAĞIN İQTİSADİYYATININ GƏLƏCƏYİNƏ BAXIŞ, DAYANIQLI İNKİŞAFİN YENİ MODELİ.

Əliyev İlkin Rafael oğlu, doktorant
Bakı Biznes Universiteti
Ilkin_aliyev@mail.ru

Xülasə:

15 il əvvəl təcavüzkar erməni şovinistlərinin irəli sürdükləri ərazi iddiaları azərbaycanlıların qədim torpaqlarından kütləvi deportasiyasına, çoxsaylı terror aktlarına və tammiqyaslı amansız müharibəyə səbəb oldu. Nəticədə on minlərlə insan həlak oldu, əlil vəziyyətinə düşdü, yüz minlərlə soydaşımız qaçqın və məcburi köçkünə çevrildi. Dağlıq Qarabağ və onun ətrafında olan 7 rayonumuz erməni hərbi birləşmələri tərəfindən işğal edildi. [4] Lakin ulu öndər Heydər Əliyevin yürütdüyü uğurlu siyasətin davamçısı olan İlham Əliyev 10 noyabr 2020-ci il qələbəsi ilə işğal altında olan Azərbaycan torpaqları düşməndən azad edildi. Və hal hazırda 30 ildən uzun bir müddətdə Ermənistanın Azərbaycana vurduğu ziyanların hesablanması və Beynəlxalq məhkəmələr qarşısında cavablandırılması istiqamətində işlər həyat keçirilir.

Açar sözlər: Qarabağ, Vətən , İqtisadiyyat, Post-konfilikt, Bərpa

Azərbaycan işğaldan azad edilmiş ərazilərin bərpası zamanı bir sıra dünya ölkələrinin post konflikt bərpa prosesi təcrübəsindən istifadə edəcəkdir. Azad olunmuş bütün ərazilərdə tariximizin, mədəniyyətimizin və iqtisadiyyatımızın canlandırılması ölkə iqtisadiyyatının qarşısında duran əsas strateji hədəflərdən biridir. Bütün bu görülən işlər kompleks tədbirlər planının bir hissəsini təşkil edir. İlkin olaraq düşmən işğalından azad olunmuş ərazilərin bərpası yaşayış minimumunun təmin edilməsi üçün aşağıdakı qeyd olunanlar reallaşdırılmalıdır :

-İşğaldan azad olunmuş ərazilərin minalardan və digər partlayıcı silahlardan təmizlənməsi;

-Elektrik enerjisinin bütün ərazilərdə təmin edilməsi;

-Strateji nəqliyyat xətlərinin yenidən bərpası;

-İçməli su sanitar qovşaqlarının və irriqasiya sistemlərinin bərpası;

-Yaşayış evlərinin və mənzillərin bərpası və yenidən tikilməsi;

-Hava limanlarının bərpası. (Humanitar yardımların qəbulu üçün önəmlidir).

İşğal olunmuş ərazilərin geri qaytarıldıqdan sonra dəymiş ziyanın müəyyənləşdirilməsi, bərpa işlərinin həyata keçirilməsi, qaçqın və məcburi köçkünlərin öz ata-baba yurdlarına qaytarılması üçün Azərbaycan Respublikası Ərazilərin Bərpası və yenidən Qurulması üzrə Dövlət komissiyası və onun işçi qrupu olan Azərbaycan Respublikası Ərazilərinin bərpası və yenidən qurulması üzrə Agentlik yaradılmışdır (ARRA). Bu qurumun əsas məqsədi işğal olunmuş ərazilərin bərpası zamanı yerli icra hakimiyyəti orqanlarl ilə paralel olaraq təmir bərpa işlərini həyata keçirməkdən ibarətdir. Bərpa tikinti işləri ilə bağlı bütün hesabatlar isə birbaşa olaraq ölkə prezidentinə təqdim olunur.

İlk mərhələ olaraq azad olmuş ərazilərin minalardan təmizlənməsi əsas məsələdir. Lakin Ermənistan aidiyyati qurumları bu ərazilərdə basdırılmış mina və partlayıcıların xəritələrini təqdim etməməsi bu məsələni müəyyən qədər çətinləşdirir. Azərbaycan Respublikası Baş Prokurorluğundan isə bununla bağlı bir sıra Beynəlxalq təşkilatlara rəsmi müraciətlər edilmişdir. Ərazilərin minalardan təmizlənməsi ANAMA dövlət minatəmizləmə qrupuna həvalə edilmişdir. Cari gündə ərazilərin minalardan təmizlənməsi işlərində ANAMA ilə paralel olaraq Rusiya və Türkiyədən gələn bir sıra minatəmizləmə mütəxəssisləri qrupları tərəfindən də həyata keçirilir.

İşğal olunmuş ərazilərin bərpası bütöv dövlətin büdcə vəsaiti hesabına həyata keçirilməyəcək. Dünya təcrübəsinə əsaslanaraq bu ərazilərin bərpası və yeni kəndlərin, qəsəbələrin salınmasında bir sıra yerli və xarici investorların da sərmayə qoyuluşlarından da istifadə olunacaqdır. Belə ki, işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsinə dair ARRA-nın hələ 2000-ci il hesabatlarına nəzarəti təkcə ərazilərin minalardan təmizlənməsinə 182 milyon dollara başa gəlməli idi. Bu ərazi təxmini olaraq 345 kvadrat km əhatə edir. Ərazilərin minalardan təmizlənməsində ANAMA ilə yanaşı Beynəlxalq Etimad Fondu, ABSİA (USAİD), HALO TRAST kimi beynəlxalq təşkilatlardan cəlb edilmiş vəsaitlər ilə də həyata keçirilməsi nəzərdə tutulur.

Ərazilərin minalardan təmizlənməsindən sonra qarşıda duran əsas məsələlərdən biri də məhz strateji yol xəttlərinin bərpası məsələsidir. Bu mərhələdə də dövlət-özəl tərəfdaşlıq yolu ilə yerli və xarici şirkətlərin cəlb edilməsi yüksək önəm daşıyır. Daha sonra isə Dünya Bankı İslam İnkişaf Birliyi, Asiya İnkişaf Bankı BMTİO(UNDP) ARDNF və s. təşkilatlar qeyd edə bilərik.

Ev, mənzil, içməli su və sanitariya, həmçinin irriqasiya sistemlərinin qurulmasında da ABSİA(USAİD), Dünya bankı, Qırmızı Xaç Cəmiyyəti, Beynəlxalq Miqrasiya Təşkilat (İOM) və xarici təşkilatlardan cəlb olunmuş vəsaitlərdə də geniş şəkildə istifadə oluna bilər.

ARRA-nın 2000-ci ildə çap etdiyi hesabatda evlərin tikilməsi üçün 1.8 milyard, kənd təsərrüfatının bərpasına 1.2 milyard və təhsil obyektlərinin bərpası üçün 1.1 milyard dollar vəsait nəzərdə tutulmuşdur. Amma bu rəqəm hesablamsında uzun müddət keçdiyi üçün bu rəqəmlərdə ciddi dəyişikliklər olacağı qaçınılmazdır. Bu rəqəmlərin indiki ortalama ilə hesablasaq optimist ssenari ilə 25 milyard manat, realist senariyə göre 40 milyard manat xərc tələb edəcəyini qeyd edə bilərik. Azərbaycanda illik investisiya qoyuluşlarının illik 5-6 milyard manat olduğunu nəzərə alaraq, işğaldan azad olunan ərazilərin bərpası və əhalinin köçürülməsinin təxmini 5-8 il vaxt aparacağının nəticəsinə gələ bilərik. Lakin işğaldan azad edilmiş ərazilərin təkcə dövlət büdcəsi əsasında həyata keçirilməyəcək. 2021-ci ilin ölkə büdcəsində işğaldan azad edilmiş ərazilərin ərpası üçün ilkin olaraq 2.2 mlrd manat vəsaitin ayrılması nəzərdə tutulmuşdur.

Post-konfilikt dövründə işğaldan azad edilmiş yeni əhalinin məskunlaşdırılmasında bu ərazilərə investorların cəlbi daha vacibdir. Belə ki, bu ərazilərə qoyulacaq investisiyanın həcmi bu ərazilər haqqında investorların alacağı informasiyalar ilə düz mütənasibdir. Yəni investorlar bu ərazilər haqqında nə qədər çox informasiyaya sahibi olarlarsa bu ərazilərə qoyulan investisiyaların da həcmi bir o qədər çox olar.

Xarici investorların işğaldan azad olunmuş ərazilərə cəlb edilməsinin bir neçə yolu vardır. Bunlar aşağıdakılardır

-Işğaldan azad edilmiş rayonlarda yaradılan yeni şirkət və müəssisələrdə payçı kimi iştirak etmək

-Tamamilə xarici investisiya hesabına yeni şirkət və ya müəssisə yaratmaq

-Işgaldan azad edilmiş ərazilərin torpaq və ya təbii sərvətlərindən istifadəsi hüququnun verilməsi və s.

Bundan əlavə işğaldan azadedilmiş ərazilərə yeni investorların cəlb edilməsi üçün qanunvericilikdə bir sıra düzəlişlər edilə bilər. Belə ki bu ərazilərdə yeni yaradılmış xarici investisiyalı şirkətlərə bir sira vergi güzəştlərinin verilməsi, həmçinin bu şirkətlərə bir sıra xidmətlərin ödənişsiz olaraq təklif edilməsi bu ərazilərə investor cəlbinin artmasını müsbət təsir edəcəkdir.

Dünya təcrübəsinə də baxdığımız zaman görə bilərik ki post konfilikt dövründə ölkəyə yeni investorları cəlb etmək üçün bir sıra faktorların da olması önəmlidir. Bu faktorlar aşağıdakılardır

- dövlətin sahibkarlara göstərdiyi dəstək
- ucuz işçi qüvvəsi
- innovasiya mərkəzlərinin yaradılması imkanı
- daxili iqtisadi siyasət
- güzəştli vergi sistemi
- təsərrüfat fəaliyyətinin tənzimlənməsi sisteminin sadələşdirilməsi
- maliyyə özün axunda şərait yaradan tədbirlər sisteminin olması və s.

Son 20 ildə ölkəmizə yatırılan xarici investisiyaların həcminə nəzər yetirdiyimiz zaman ilk beşlikdə Türkiyə, Böyük Birtaniya, Niderland, Abş və Rusiyanın olduğunu görə bilərik. Belə ki, bu beş ölkədən ikisinin ölkəmiz ilə həmsərhəd olduğunu nəzərə alaraq bu ərazilərə yeni investisiyaların cəlb edilməsində Rusiya və Türkiyənin önəmli pay sahibi olacağını qeyd edə bilərik. Ölkə başçısı tərəfindən mətbuat konfranslarında verilən bir sıra açıqlamalarda da işğaldan azad edilmiş ərazilərdə neqliyyat yollarının çəkilməsində Türkiyə şirkətlərinin yer alacağını ifadəsini görə bilərik.

İşğaldan azad edilmiş rayonların iqtisadiyyatlarına, təbiətlərinə, flora və faunalarını nəzər yetirdiyimiz zaman oranın özünə məxsus bir sıra xüsusiyyətlərinin, özəlliklərinin olduğunu görə bilərik. Belə ki yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi zonasının çox böyük iqtisadi potensialı vardır. Zəngilan Kəlbəcər Qubadlı Laçın Xocalı Tərtər Füzuli rayonlarında arıçılıq və maldarlıq, Cəbrayıl və Kəlbəcər rayonlarında balıqçılıq üçün əlverişli şərait vardır. Həmçinin ipəkçilik üçün Cəbrayıl rayonu və Şuşa şəhəri, taxılçılıq üçün Kəlbəcər Cəbrayıl Tərtər Qubadlı Füzuli və Xocavənd, gön dəri emalı üçün Ağdam, Füzuli Laçın rayonları geniş potensiala malikdir.

İşğaldan azad olunmuş Kəlbəcər-Laçın iqtisadi zonası enerji ehtiyatları ilə də olduqca zəngindir. belə ki bu ərazilərdə gələcək dövrlərdə "Qız Qalası SES", "Xudafərin SES" və "Tərtər SES"-in enerjisindən istifadə olunacaqdır. Füzuli Zəngilan və Cəbrayıl rayonlarında berpa olunun güneş enerjisindən, Qarabağın dağlıq rayonları saylan Kəlbəcər və Laçında külək enerjisindən, Kəlbəcər və Şuşada geotermal enerji potensialından istifadə oluna bilər.

Regionun faydalı qazıntı yataqları ilə bağlı potensiala baxdığımız zaman işğaldan azad olunmuş rayonların zəngin olduğunu görə bilərik. İşğal edilmiş ərazilərdə 155 müxtəlif növ faydalı qazıntı yatağı mövcuddur. Bu yataqlardan 5 qızıl, 6 civə, 2 mis, 1 qurğuşun və sink, 19 üzlük daşı, 10 mişar daşı, 4 sement xamalı, 13 müxtəlif növ tikinti daşı, 1 soda istehsalı üçün xammal, 21 vulkan və pemza külü, 10 gil, 9 qum-çınqıl, 5 tikinti qumu, 9 gips və gəc, 1 perlit, 14 metal yatağı vardır.

Qeyd olunmuş yataqlarda texmini hesablamalara görə 132 ton qızılın, 37.3 min ton qurğuşun, 189 milyon kub metr mişardaşı, 1,5 milyon ton gəc, 18,4 milyon ton üzük daşı, 57,9 milyon ton tikinti daşı, 96,9 milyon qum-çınqıl 1898,4 ton civə, 4,4 milyon ton perlit, 2,1 milyon ton pemza, 147.1 milyon ton sement xammalı vardır.

Ərazi üzrə xammal və faydalı qazıntı ehtiyatlarının bölgüsü qrafikdə əks olunmuşdur.

(Cədvəl 1) İşğaldan azad edilmiş rayonlarda olan təbii sərvətlər.

Ağdərə	Qızıl, qurğuşun, sink, mis, gəc, mişar daşı
Şuşa	Üzlük daşı, gil, tikindi daşı
Xocalı	Gil, üzlük daşı, qum-cınqıl
Xocavənd	Qılıl, civə, mişar daşı, gil, perlit, qum-çınqıl, tikinti daşı, üzlük daş, əlvan metallar (omiks, listvemi)
Laçın	Civə, mişar daşı, üzlük daşı, tikinti daşı, gil, qum-cınqıl, pemza, əqiq daşı, jad, vulka külü
Qubadlı	Mişar daşı, gil, tikinti daşı, üzlük daşı, əlvan metallar.
Zəngilan	Qızıl, gümüş, üzlük daşı, əhəng daşı,
Cəbrayıl	Mişar daşı, qum, çınqıl, gil, sement xammalı, gəc, tikinti daşı, gips, pemza, vulkan külü, əlvan metallar (yəşəm, xalsədan)
Füzuli	Mişar daşı, gil, qum, çınqıl
Ağdam	Mişad daşı, üzlük daşı, sement xammalı, qum, çınqıl.

İşğaldan azad edilmiş ərazilərdə yeni nəqliyyat-logistika ve tranzit imkanları da olduqca genişdir. 10 noyabr sazişinin ən mühüm bendlərindən biri də naxçıvan muxtar respublikası ilə azərbaycanın digər əraziləri birləşdirən dəhlizin yaradılması olacaqdır. Belə ki bu dəhlizin açılması ilə azərbaycan və türkiyə arasında olan yük daşıma məsafəsi olduğunca azalmış olacaqdır. Belə ki bu dəhlizin açılması Azərbaycan ilə yanaşı Rusiya və Türkiyə arasında olan beynəlxalq yükdaşıma və tranzit nəqliyyat yollarının da hərəkət istiqamətlərində müəyyən qədər dəyişiklik olacaqdır. Cənab prezident İlham Əliyevin göstərişi ilə Füzuli rayonunda yeni hava limanının açılması da regionun iqtisadi və sosial inkişafında həmçinin gələcək dövrlərdə turizm imkanlarının daha da genişləndirilməsində böyük rol oynayacaqdır. Füzuli rayonunda yeni hava limanının açılması həmçinin işğaldan azad edilmiş ərazilərə humanitar yardımların göndərilməsi zamanı da olduqca vacibdir. İşğaldan azad edilmiş rayonların bərpası üçün dövlət büdcəsi ilə yanaşı bir sıra fondların vəsaitlərində istifadə olunacaqdır. Bunlardan biri də Azərbaycan respublikası prezidentinin fərmanı ilə yaradılmış "Qarabağ dirçəliş fondu"-dur. Bu fondun əsas məqsədi ölkə daxilində və ölkə xaricində sərmayələrin cəlb edilməsindən, bu cəlb edilmiş vəsaitlərin işğaldan azad edilmiş ərazilərin bərpası istiqamətində xərclənməsindən ibarətdir. Cənab prezidentin göstərişi ilə yaradılmış olan digər bir fond isə "Yaşat" fondudur. Yaşat fondunun da əsas fəaliyyət istiqaməti vətən müharibəsində yaralanmış və həlak olmuş əsgər və zabitlərimzin, həmçinin onların ailə üzvlərinin təminatını dəstəkləməkdən ibarətdir. Bu fondların maliyyə hesabatlarına baxdığımız zaman hər bir vətəndaş ilə yanaşı böyük şirkətlərinin, kommersiya banklarının, publik hüquqi şəxslərin həmçinin ölkədən xaricdə fəaliyyət göstərən bir sıra vətəndaşlarımızın bu fondlara vəsait köçürdərək ölkəmizə dəstək olduqlarını görə bilərik.

Nəticə:

Azərbaycan xalqı 10 noyabr qələbəsi ilə 30 ildən bəri işğal altında olan əraziləri düşmən tapdağından azad etdi. İndi isə Azərbaycan xalqının qarşısında bu ərazilərin minalardan təmizlənməsi, bu əraziləri deymiş ziyanın beynəlxalq hüquqi müstəvidə qiymətləndirilməsi, bu ərazilərdə minimum yaşayış səviyyəsinin təmin edilməsi, və ən əsası bu ərazilərdən qaçqın düşmüş əhalinin öz ata-baba yurdlarına qaytarılması məsələsi əsas önəm kəsb edir. Post-konfilikt dövründə bu ərazilərdə torpaq işlərinin aparılmasında Azərbaycan bir sıra dünya ölkələrinin təcrübəsindən istifadə edəcəkdir. Belə ki, bu ərazilərdə bərpa aparılması məqsədi ilə ölkə rəhbərliyi tərəfindən fondlar yaradılmış, aidiyyatı nazirliklərə müvafiq işlərin görülməsi haqqında tapşırıqlar verilmişdir. Həmçinin ölkə prezidentinin göstərişi ilə bu ərazilərə dəymiş ziyanın beynəlxalq qiymətləndirmə

şirkətləri tərəfindən hesablanaraq avropa məhkəməsi və digər beynəlxalq hüquq orqanlarına müraciət olunması da nəzərdə tutulmuşdur.

İstifadə olunmuş ədəbiyyat:

1. Aydın Mirzəzadə - Qarabağ düyünü. Bakı.2012
2. www.arra.az (Azərbaycan Respublikası Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Agentlik)
3. www.iqtisadiislahat.org - İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi
4. Ulu öndər Heydər Əliyevin 25 fevral 2003-cu ildə-Xocali soyqiriminin ildönümü ilə əlaqədar azərbaycan xalqina müraciəti.

İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ AQRAR SAHƏNİN İNKİŞAF İSTİQAMƏTLƏRİ.

Qurbanov Aqil Abid oğlu, i.f.d.
Bakı Biznes Universiteti.
aqilqurbanov73@mail.ru

Xülasə

Vətənimizin 44 gün ərzində ərazi bütövlüyünü təmin etməsi xalqımızın çoxəsrlik tarixində mühüm yer tutur. Dövlət sərhədlərimizi bərpa etməklə xalqımız XXI əsrin möhtəşəm zəfərini əldə etdi . İşğaldan azad edilmiş ərazilərin (İAEƏ-in) ölkəmizdə iqtisadi və sosial rifah halının yaxşılaşmasına verəcəyi töhvə artıq duyulmaqdadır. Bu ərazilərin iqtisadi fəaliyyətin əsas sahələrindən birinə çevrilməsi yüksək inkişafa səbəb olacaqdır. Bölgənin dayanıqlı inkişafı ərazidəki turizim, təbii resurs bolluğu iqtisadiyyatın daha surətli inkişafını təmin edəcək, investisiya cəlb edilməsinə şərait yaradacaqdır. İAEƏ-in təbii ehtiyatları, xüsusilə kənd təsərrüfatı potensialı ölkəmizin iqtisadi inkişafı baxımından mühüm əhəmiyyət daşıyacaqdır ki, bunun üçün də əvvəlcə həmin ərazidəki torpaqlar minalardan təmizlənməli bərpa olunmalı, meliorasiya, irriqasiya sistemləri quraşdırılmalıdır ki, ərazilər aqrar sfera üçün yararlı olsun. Bununla yanaşı torpaqların təyinatı üzrə uçotu aparılmalıdır. Bundan sonra bu ərazilərdə yaşayacaq insanlar müəyyənləşdirilməli, torpaqların onların istifadəsinə verilməsi üçün müvafiq mexanizm əsasında islahatlar aparılmalıdır.

Açar sözlər: kənd təsərrüfatı, islahatlar, aqrar siyasət, ərzaq bazarı, innovasiya.

Kənd təsərrüfatı ölkənin iqtisadiyyatının mühüm sahəsidir. Hazırda ölkə əhalisinin təqribən yarısı kənd yerlərində yaşayır və fəal işçi qüvvəsinin 36 faizi bu sahədə çalışır. Ümumi Daxili Məhsulun 5,7 faizi kənd təsərrüfatı bölməsində istehsal olunur. Lakin respublika müstəqillik qazandıqdan sonra keçid dövrünə xarakterik olaraq aqrar bölmədə tənəzzül baş vermiş, kənd təsərrüfatı məhsulları istehsalının həcmi 1991-ci ilə nisbətən 1996-cı ildə 50 faiz, ixrac potensialı 3 dəfə azalmışdır. 1995-ci ildən həyata keçirilən aqrar islahatlar nəticəsində bu bölmədə ciddi struktur, institutsional, sosial iqtisadi dəyişikliklər baş vermiş, bazar münasibətləri təşəkkül tapmışdır. Mövcud olmuş 1970 kolxoz və sovxozun fəaliyyətinə xitam verilmiş, onların əkinə yararlı torpaqları, əmlakı paylanmışdır. Torpaq islahatı nəticəsində 3,2 milyon nəfəri birləşdirən 828313 ailəyə 1343 min hektar sahədən daimi istifadə hüququna dair Dövlət Aktları verilmiş, digər torpaqlar isə bələdiyyələrin və dövlətin mülkiyyətində saxlanılmışdır. Orta həcmi 1,8 hektar olan 40 minə qədər fermer təssərrüfatı və istehsal kooperativi, 802 min kiçik ailə təsərrüfatları yaranmışdır. Ət, süd, çörək, pambıq, meyvə-tərəvəz, şərab, tütün, çay emal edən və kənddə texniki, kimyəvi satış və s. xidmət göstərən dövlət müəssisələri əsasən özəlləşdirilmiş və ya səhmdar cəmiyyətlərinə çevrilmişdir. İslahatlar bir çox mükəmməl Qanunlar və hüquqi-normativ sənədlər əsasında həyata keçirilmişdir ki, bu da aqrar sahənin inkişafına, bazar iqtisadiyyatının möhkəmlənməsinə və dönməzliyinə, kəndin simasının dəyişməsinə təkan vermişdir. Kənd təssərrüfatı məhsulları istehsalçıları bütün vergilərdən (torpaq vergisi istisna olunmaqla) azad edilmiş və əvvəlki vergi

borcları silinmişdir. Neft məhsulları onlara aşağı qiymətə, güzəştlə satılmışdır. Qısa müddətdə sürətlə və fundamental şəkildə həyatda keçirilən keyfiyyət dəyişiklikləri nəticəsində son illər istehsalın sabitləşməsi, məhsulun və məhsuldarlığın nəzərə çarpaçaq dərəcədə yüksəlməsi, sahibkarlığın inkişafi iş yerlərinin nisbətən artımı baş vermişdir. Lakin, bütün bunlara baxmayaraq kənd təsərrüfatı sahəsində hələ də məhsul istehsalının həcmi və məhsuldarlıq aşağı səviyyədə qalır.

İAEƏ-də kənd təsərrüfatının inkişaf potensialının qiymətləndirlməsi üçün işğaldan əvvəlki vəziyyətin təhlil olunması məqsədəmüvafiq olardı. 1988-ci ildə Dağlıq Qarabağ və ətraf rayonlar yüksək kənd təsərrüfatı göstəricilərinə malik idi. Həmin vaxtlar ölkədə istehsal edilən məhsulların tərkibində işğaldan azad edilən ərazilərin statistikası aşağıda qeyd edildiyi kimi idi; Ölkə üzrə taxıl istehsalının 14,3 faizi, pambıq istehsalının 3,3 faizi, üzüm istehsalının 31,5 faizi, kartof istehsalının 6,3 faizi, ət istehsalının 14,5 faizi, süd istehsalının 17,1 faizi, yumurta istehsalının 3,6 faizi, yun istehsalının 19,3 faizi, barama istehsalının 17 faizi işğaldan azad edilən ərazilərin payına düşürdü. Həmin dövrdəki texnoloji və idarəetmə sistemi ilə əldə olunan bu nəticələrin günümüzdə prioritet istiqamətlərin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyəti var. İşğaldan əvvəlki dövrdə ölkə üzrə iribuynuzlu mal-qaranın 15,1 faizi, xırdabuynuzlu heyvanların isə 19,2 faizi həmin ərazilərin payına düşürdü. İribuynuzlu heyvandarlıq sahəsi üzrə Laçın, Ağdam və Füzuli rayonlarının, xırdabuynuzlu heyvandarlıq üzrə isə Laçın, Ağdam, Kəlbəcər, Füzuli və Cəbrayıl rayonlarının göstəriciləri yüksək olmuşdur. Qeyd olunan göstəricilərlə yanaşı, İAEƏ-n relyefi, təbii iqlim şəraiti və digər təbii imkanları nəzərə alınmaqla həmin bölgənin kənd təsərrüfatının prioritet istiqamətlərini müyyənləşdirmək mümkündür.(8)

Bitkiçilik sahəsində məhsulun həcminin və məsuldarlıq göstəricilərinin azalmasının əsas səbəbləri sahələrə lazımi aqrotexniki xidmətin göstərilməməsi, torpağa gübrələrin verilməməsi, bitki mühafizə vasitələrindən, kimyəvi maddələrdən istifadənin son dərəcə məhdudluğu, suvarma sistemlərinin bərbad vəziyyətə düşməsi, su çatışmazlığı və torpaqların şorlaşması, eroziyaya uğraması, məhsulun tədarükü, emalı, saxlama, qablaşdırma, daşınma, marketinq sistemlərinin olmamasıdır. Heyvandarlıq sahəsində isə buna yem bazasının zəifliyi onun getdikcə azalması, heyvan xəstəliklərinin artması, mühafizə vəsitələri və vaksinlərin çatışmaması, baytarlıq xidməti sisteminin zəifliyi, damazlıq-seleksiya işlərinə maliyyə vəsaiti yönəldilməsinə imkansızlıq təsir edir.

Ölkədə həyata keçiririlən aqrar siyasət məhsuldarlığın və keyfiyyətin sürətlə artırılması vasitəsilə aqrar bölmənin rəqabət qabiliyyətinin qorunub saxlanılmasına, ölkənin kənd təsərrüfatı məhsullarına olan tələbatının dolğun ödənilməsinə və əvvvəlki ixrac qabiliyyətinin bərpa edilməsinə yönəldilmişdir. Lakin kənd təsərrüfatı bölməsinin intensiv inkişaf etməsi üçün istər maddi, istərsə də maliyyə resursları yaradılmalıdır.

Kənd təsərrüfatı məhsulları istehsalçılarının təsərrüfat və maliyya fəaliyyətinin təhlili göstərir ki, dövlət dəstəklənməsi həyata keçirilmədən bu sahədə əsaslı dönüş və inkişaf əldə etmək mümkün deyildir. Odur ki, işğaldan azad edilən ərazilərdə kənd təsərrüfatının perspektiv inkişafı üçün qısa, orta və uzun müddətə proqramların hazırlanması vacibdir.

1. İAEƏ-də fəaliyyət göstərəcək fermerlərdə ilkin kapital olmadığından istehsal üçün zəruri maddi-texniki resursları (toxum, yanacaq, gübrə, dərman preparatları, texnika, ehtiyat hissələri və s.) kifayət qədər ala bilmirlər. İşğaldan azad edilən ərazilər üçün xüsusi kreditin verilməsini genişləndimək faizi münasib səviyyəyə salmaq, verilmə şərtlərini sadələşdirmək və ən başlıcası bu işdə olan bürokratik əngəllərə qarşı dövlət səviyyəsində mübarizə aparmaq məqsədəuyğun olardı.

2. Ölkədə fermerin istehsal etdiyi kənd təsərrüfatı məhsullarının satış qiyməti çox ucuzdur. İAEƏ-də istehsalın ziyanla başa gəlməməsi üçün digər tədbirlərlə yanaşı həm də fermerlərə bəzən vacib məhsulların istehsalı üçün dövlət tərəfindən subsidiyaların verilməsi daha yaxşı olardı.

3. Daxildə istehsal olunan kənd təsərrüfatı məhsullarının qiymətini qaldırmaq üçün həmin növ məhsulların xaricdən gətirilməsinin qarşısını almaq məqsədilə dövlət rüsumlarının tənzimlənməsi mexanizmlərindən istifadə edilməsi məqsədəuyğun olardı.

4. İAEƏ-də xırda təsərrüfatlara uyğun texnikanın alınıb icarə və ya lizinq qaydasında verilməsi tətbiqi daha çox səmərə verə bilər.

5. 1995-ci ildə həyata keçirilən islahatda torpaq payı almış vətəndaşların böyük əksəriyyəti hüquqi şəxs yaratmadan, yəni fiziki şəxs kimi özünün kiçik pay torpağında istehsalla məşğul olurlar. Belə kiçik sahələr texnikadan və müasir texnologiyalardan tam istifadə etməyə imkanı azaldır. Nəticədə məhsuldarlıq aşağı olur və məhsul baha başa gəlir. İşğaldan azad edilən ərazilərdə islahat aparılarkən bu hallar nəzərə alınsa daha yaxşı olardı.

6. Respublikanın müxtəlif bölgələrində mal-qaranın qorxulu yoluxucu xəstəlikləri (quduzluq, dabaq, qara-yara, bruselyoz), bitkiçilik sahəsində isə qorxulu zərərvericilər (çəyirtkə, sünbülqıran) və karantin xəstəliklər vardır. Nəticədə fermerlərə ziyan dəyir. İAEƏ-də baytarlıq və karantin xidmətlərinin fəaliyyəti daha ciddi nəzarət olunması məqsədəuyğun olardı.

7. İAEƏ-də suvarılan torpaqlarda su təchizatını yaxşılaşdırmaq üçün meliorasiya və irriqasiya işlərinin aparılması daha yüksək səmərə əldə etməyə zəmin yaradardı.

8. İAEƏ-in torpaq və iqlim şəraitinə görə pambıqçılığın iqtisadi cəhətdən səmərəli hesab olunan rayonlarında bu bitkinin əvvəlki şöhrətini geri qaytarmaq üçün həm dövlət və həm də tədarükçü təşkilat olan səhmdar cəmiyyətləri tərəfindən əlavə həvəsləndirici tədbirlər həyata keçirilməlidir.

9. İAEƏ-də elektrik enerjisinin fasiləsiz verilməsi təmin olunmalıdır. Bu suvarılan ərazilərdə əkilən bitkilərin vaxtında və keyfiyyətli suvarılmasına imkan verəcəkdir, eyni zamanda elektron suvarma tətbiq ediləcəkdir.

10. Torpaqlardan düzgün istifadə edilməməsi, xüsusilə növbəli əkin sisteminin tətbiq olunmaması, torpağın münbitliyinin azalmasına, bitkiçilikdə aqrotexniki, heyvandarlıqda isə zoobaytar qaydalara tam əməl olunmaması vahid sahədən və ya bir başdan alınan məhsulun miqdarının potensial imkanlardan xeyli aşağı olmasına gətirib çıxarır. Bunun səbəbi bir tərəfdən maddi-texniki bazanın zəifliyidirsə, digər tərəfdən sahibkarlarda informasiya və məsləhət xidmətlərinin çatışmamasıdır. Bu baxımdan azad edilən ərazilərdə bu məsələlər diqqət mərkəzində olmalıdır.

İAEƏ-də topdansatış ərzaq bazarlarının təşkil edilməsi bölgənin inkişafını daha da sürətləndirər. Topdansatış ərzaq bazarları istehlakçıların zəruri məhsullarla təmin olunmasına imkan verən müvafiq infrastruktura malik idarə olunan və tənzimlənən mexanizm rolunu oynayar. Ərzaq bazarınının infrastrukturuna inzibati təyinatlı sığınacaqlar, dəmir yolları, anbarlar, mehmanxanalar, poçt, tibb məntəqəsi, maliyyə- hesablaşma mərkəzi (bank), informasiya-marketinq mərkəzi, keyfiyyətə nəzarət təhlükəsizlik xidməti və ticarət obyektləri daxildir. Topdansatış ərzaq bazarı iştirakçılarının qarşılarına qoyulan tələblər müəyyənləşdirilməlidir. Bu tələblər məhsulların keyfiyyətli, çeşidlənməsi, standartlaşdırılması, qablaşdırılması, təhlükəsizliyi kimi məsələləri əhatə edir. Topdansatış ərzaq bazarlarının fəaliyyətinə cavabdeh olan məsul işçilər sadalanan tələbləri bilavasitə məhsul istehsalçılarına təqdim etməlidirlər. Bazar iştirakçılarının (istehsalçıların) qarşılarına qoyulan bu tələblərlə istehlakçıların müdafiəsi və təhlükəsizliyi təmin olunur, eyni zamanda istehsalçılar bazarın tələblərinə uyğunlaşdırılır. Topdansatış ərzaq bazarlarının normal fəaliyyət göstərmələri üçün onlarda marketinq xidməti təşkil olunmalıdır. Marketinq xidmətinin vəzifələri aşağıdakılardan ibarət olmalıdır;

- ərzaq bazarının öyrənilməsi;
- istehlakçıların əlverişli qiymətlərlə yüksək keyfiyyətli qida məhsulları ilə təmin olunması;
- istehlakçıların tələbatlarının istehsalçılara çatdırılması;
- topdan ticarət iştirakçılarının maraqlarının təmin olunması.

Topdansatış ərzaq bazarlarında islehsalçı və yaxud emalçı məhsulun reallaşdırılması məsələsini özü istədiyi kimi həll edə bilər. Məhsul istehsalçı və ya emalçı tərəfindən, yaxud da topdan ticarətçinin vasitəsilə reallaşdırıla bilər. Ticarət şəbəkəsinə keyfiyyətsiz ərzaq məhsullarının daxil olunmasının qarşısını almaqla, topdansatış bazarı bir tərəfdən əhalinin ərzaq təhlükəsizliyini təmin etməli, başqa bir tərəfdən isə epidemiyaya nəzarət və ticarət müfəttişliyinin işlərinin yüngülləşdirilməsinə imkan verməlidir. Topdansatış bazarına akkreditasiya olunmuş bank ticarət iştirakçılarının qarşılıqlı münasibətlərini sadələşdirməyə imkan verməli və satıcılar arasında hesablaşmaları mümkün qədər qısa vaxt ərzində təmin etməlidir. Bazara akkreditasiya olunmuş topdan alıcılar və satıcılar bəzən infrastruktura daxil olan bankın xidmətlərindən istifadə etməlidirlər. Əks halda ticarət qaydalarını pozan topdan alıcı və yaxud satıcı bazarda yerini və

həmin yerin əldə edilməsi ilə əlaqədar çəkdiyi xərcləri itirə bilər. İşğaldan azad edilmiş ərazilərdə topdansatış ərzaq bazarlarının normal və səmərəli fəaliyyəti, həmçinin onların tənzimlənməsi idarə olunması qanunvericilik bazası çərçivəsində mümkündür. Bunun üçün lazımi hüquqi baza yaradılması məqsədəuyğundur.

Gələcək dövrdə ən müasir texnoloji sahələri və innovasiyaları dəstəkləyən rəqəmsal cəmiyyət inkişafın aparıcı qüvvəsinə çevriləcəkdir. Ölkəni rəqabətdə irəli aparmaq üçün cəmiyyətin yaradıcılığını və innovativliyini stimullaşdıran ekosistem qurulmalıdır.

Yeni dövrdə qurulacaq ekosistem (müvafiq təşviqlər, inkubasiya və akselerasiya mərkəzləri, dövlət-özəl əməkdaşlığı əsasında maliyyələşmə modelləri, vençur və kraudfandinq institutları və s.) iqtisadiyyatın texnoloji tutumluluğunun artırılmasına yönləndirilməlidir. Dünyada gedən sürətli texnoloji tərəqqiyə çevik uyğunlaşmaqla texnoloji ixrac məkanına çevrilmək üçün perspektivlər yaradılmalıdır. Bu məqsədlə emal sənayesinin inkişafı dərinləşdirilməli, elmtutumlu və yüksək gəlir yaradan orta və yüksək texnoloji sahələrin inkişafı təmin edilməlidir. Nəticəyönümlü elmi tədqiqatların təşviqi üçün rəqabətli maliyyələşdirmə mexanizmləri formalaşdırılmalıdır.(1)

Ədəbiyyat siyahısı.

9.“Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli sərəncamı.

10. Azərbaycan Respublikasi regionlarinin 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafi Dövlət proqramı, Bakı şəhəri, 29 yanvar 2019-cu il.

11. Ataşov B. X. Ərzaq təhlükəsizliyinin aktual problemləri. Bakı, 2005, 336s.

12. İbrahimov İ. H. Regionlarda sahibkarlığın inkişaf meyilləri və xüsusiyyətləri. Bakı, 2007. 296s.

13. İbrahimov İ. H. Aqrar sahənin iqtisadiyyatı. Bakı, 2016, 655s.

14. Quliyev E.A. Aqrar iqtisadiyyat. Bakı, 2015, 320 s.

15. https://www.stat.gov.az

16. https://vergiler.az

Гурбанов Агиль Абид оглы, к.э.н.

Направления развития аграрного сектора на территориях освобожденных от оккупации

Резюме

Обеспечение территориальной целостности нашей страны на 44 дня занимает важное место в многовековой истории нашего народа. Восстановив наши государственные границы, наш народ добился великой победы XXI века. Вклад на территорий освобожденных от оккупации (ТОО) в улучшение экономического и социального благосостояния в нашей стране уже ощущается. Превращение этих территорий в одно из основных направлений экономической деятельности приведет к высокому развитию. Устойчивое развитие региона, туризм в этом районе, богатство природных ресурсов обеспечат более быстрое экономическое развитие и создадут условия для инвестиций. Природные ресурсы освобожденных территорий, особенно сельскохозяйственный потенциал, будут иметь важное значение для экономического развития нашей страны. При этом регистрацию земель следует производить по целевому назначению. После этого необходимо определить людей, которые будут проживать на этих территориях, и провести реформы на основе соответствующего механизма передачи земель в их пользование.

Ключевые слова: сельское хозяйство, реформы, аграрная политика, продовольственный рынок, инновация.

Qurbanov Agil Abid, PhD in Economics.

Directions of development of the agrarian sector in the liberated territories.

Summary

Making the territorial integrity of our country during 44 days has an important place in the centuries-old history of our people. By restoring our state borders, our people have achieved a

great victory of the XXI century. The contribution of the liberated territories (LT) to the improvement of economic and social welfare in our country is already being felt. Turning of these areas into one of the basic areas of economic activity will lead to high development. Sustainable development of the region, tourism in the area, the abundance of natural resources will ensure faster economic development and create conditions for attracting investment. The natural resources of the LT, especially the agricultural potential, will be important for the economic development of our country so for doing this, the lands in the area must first be cleared of mines and restored, amelioration and irrigation systems must be installed so that the areas are suitable for the agricultural sector. At the same time, lands should be registered according to their destination. Then, the people who will live in these areas must be identified, and reforms must be carried out on the basis of an appropriate mechanism for the transfer of land to their use.

Keywords: agriculture, reforms, agrarian policy, food market, innovation.

QARABAĞ İQTİSADİ RAYONUNDA TİKİNTİ MATERIALLARI XAMMAL SƏRVƏTLƏRİNDƏN İSTIFADƏNİN İQTİSADİ-EKOLOJİ ASPEKTİ

Kərim Pirməmməd oğlu Piriyev, a.e.i., i.f.d.
AMEA Iqtisadiyyat İnstitutu
piriev-49@mail.ru

Son otuz il ərzində mənfur qonşularımızın Qarabağ regionundakı mövcud xammal ehtiyatlarına havayı sərvət və gəlir mənbəyi kimi baxmaları nəticəsndə ölkəmizə küllü miqdqarda ziyan vurmaqla, bu regionla bərabər onunla həmsərhəd ərazilərdə ekoloji tarazlığın pozulmasına, ekoloji böhranın gərginləşməsnə səbəb olmuşdur. Regiondakı mövcud mineral xammal ehtiyatlarından qəddarcasına istifadə etmələri böyük həcimdə sənaye əhəmiyyətli xammal ehtiyatının itirilməsinə və azalmasına, ətraf mühitin çirkləndirilməsi ilə ekoloji mühitin tənəzzülünə şərait yaradilmışdır. 1988-ci ildən başlayaraq müharibə dövrünə kimi torpaqlarımızın 20 %-i işğal edilmış . on minlərlə insanların həyatına son qoyulmuş, yaşayış məskənləri, infrastruktur, milli-mədəni və təbii sərvətlərimiz vəhşicəsinə talan edilmiş, regionun ekoloji müvazinətinin həddən ziyada pozulmasına səbəb olmuşdur.

Hesablamalar göstərir ki, erməni vandalları bu illərdə ümumi ehtiyatı 150 tona yaxın üç qızıl yatağını, 37 min tondan çox qurğuşun, 40,0 min tondan çox sink, 290 tondan çox gümüş və 211 tondan çox kadium, 436,0 ton mis və 18,5 min ton molibden xammalımızi və eləcə də bir-çox civə, tikinti materialları, bəzək daşları, yerüstü və yeraltı su yataqlarımızı talan etməklə ölkəmizə böyük həcimdə maddi ziyanla bərabəır, eləcə də Qarabağ iqtisadi rayonunun və ona bitişik olan ərazilərimizin biomüxtəlfliyinə, meşə sərvətlərnə və heyvanat aləminə, mövcud ekoloji sistemimizə böyük zərər vurmuşdurlar.

Məlumdur ki, Azərbaycan Respublikasının ərazisi bir-çox filiz və qeyri- filiz, əlvan və qara metal, yanacaq və s.faydalı qazıntı ehtyatları ilə zəngindir. Yalnız onu qeyd etmək yerinə düşər ki, keçən əsrin 70-ci illərinin axrında Azərbaycanın bütün regionnlarinda ehtiyatları təsdiqlənmiş 65 yataq olduğu halda müstəqilliyimizin bərpasının son 25-30 ilində ölkə rəhbərliyinin apardığı məqsədyönlü siyasət nəticəsində qeydə alınmış faydalı qazıntı yataqlarının sayı 900-ü keçmişdir. Bu yataqlara misal olaraq qızıl və digər metallarla qarışıq, filiz və qeyri-filiz tikinti materialları yataqlarını və s. göstərmək olar. Tədqiqatdan görmək olur ki, 2000-ci ilin məlumatlarına əsasən ölkə üzrə əsas tikinti materiallari ehtiyatlarından olan mişar daşı ehtiyatının 25,4 %-i, üzlük daşının 38,0 %-i, əhəng xammalının 57,5 %-i, qum-çınqılın 37,4 %-i, gilin 10,6 %-i, gəcin-33.2 %-I, perlit-

pemzanın 100%-i Qarabağ iqtisadi rayonunun payına düşmüşdür. (2) İşğal edilmiş Qarabağ iqtisadi rayonda respublikanın iqtisadi potensialında mühün əhəmiyyət kəsb edən 155 müxtəlif növ faydalı qazıntı yataqları, o, cümlədən: 5 qızıl, 6 civə, 2 mis, 1 qurğuşün və sink, 19 üzlük daşı,10 mişar daşı, 8 sement xammalı, 15 müxtəlif növ tikinti daşları,1 soda istehsalı üçün xammal, 21 pemza və vulkan külü, 12 gil, 16 qum-çınqıl, 9 gips, , anhidrid və gəc, 1 perlit, 14 əlvan və bəzək (əqiq, yəşəm, oniks, jadent və s.) daşları,11şirin su və 10 mineral su yataqları istismaras məruz qalmışdır.(4. s.106).

44 günlük Vətən müharibəsindəki qələbəmizdən sonra ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi altında azad edilmiş ərazilərdə yeni-yeni infrtastruktur sahələr, ağıllı şəhər və kəndlər salınmağa başlanılmışdır. Təbii ki, göstərilən həyatı əhəmiyyətli bu işlərin yerinə yetirilməsi üçün böyük həcmdə tikinti materiallarına ehtiyacda artacaqdır. Regionunun tikint materiallarına yaranmış mövcud ehtiyacını ödəmək məqsədilə yerli xammal ehtiyatlarimıza nəzər salsaq görmək olur ki, bu regionda demək olar ki, bütün növ tikinti materialları istehsalı üçün böyük həcmdə təbii xammal ehtiyatlarımız mövcuddur. 1915-ci ilin əvvəlinə olan məlumata əsasən Qarabağ regionunda 191639 min kub m. mişar daşı, 18584 ton gəc, 126637 min kub m. üzlük daşı, 24956 min kub m. kərpiç, 19531 min kub m. əhəngdaşı xammalı,1028 __ min kub m. qum-çınqıl, 31366 min kub m. pemza-perlt, 1339 min kub m.mərmər, 47501 min kub m. tikinti daşı, 1041542 min ton sement xammalı ehtiyatları təsdiqlənmişdir ki, (3, s,43-51) bilavasitə onlrın istehsal prosesinə cəlb edilməsini məqsədəuyğun hesab etmək olar.

Regionun iqtisadiyyatının sürətli bərpası və inkişafı, ətraf mühitin mühafizəsi və təbii xammal sərvətlərdən səmərəli istifadə problemlərinin həlli davamlı olaraq bir-çox tədbirlərin həyata keçirilməsini ön plana çəkir. Belə tədbirlərə-çaylarda hidroloji monitorinq sisteminin təkmilləşdirilməsini, yaşıllaşdırılma işlərinin genişləndirilməsini, enerji təminatının yendənqurulması və yaxşılaşdırılmasını, ağıllı şəhər və kəndlərin salınması və abadlaşdırılmasını, meşəbərpa və meşəsalma tədbirlərnin davam etdirilməsini, ekoturizmin inkişafı üçün xidmət ifrastrukturun yaradılmasını, su ehtiyatlarının zərərli tullantılarla çirkləndirilməsinin qarşısının alınmasını və s. göstərmək olar.

Yuxarıda göstərilənlərlə bərabər Qarabağ regionunun müasir quruculuğu şəraitində yerli təbii-təkrar xammal ehtiyatlarindan istifadəninin iqtisadi-ekoloji əsasi kimi aşağıdakıları göstərmək olar:

-regionun bərpasında institusional və istehsal sahələrində həyata keçiriləcək iqtisadi fəaliyyə-tin ekolojiləşdirilməsi vasitəsilə ətraf mühitin yaxşılaşdırılması;

-istifadəyə hazırlanan təbii-təkrar xammal ehtiyatlarının iqtisadi-ekoloji qiymətləndirilmə-sinin təşkili;

-təbii xammal ehtiyatlardan istifadənin və ətraf mühitin mühafizəsinin iqtisadi tənzimlənmə-sinin hüquqi əsaslarının yaradılması;

-yerli təbii tikinti xammal ehtiyatlardan istifadəyə yatirilacaq əsas vəsaitin faydallılıq təyina-tının müəyyənləşdirilməsi;

-regionun yenidənqurulmasında iştirak edəcək hər bir müəssisə və təşkilatın mövcud ehtiyat-lardan istifadədə ətraf mühitə dəyən antropogen zərərlərin aradan qaldırılması cavabdehliyinin artırılması;

-regionunun yenidənqurulması prosesində yerli tikihti materialları xammal ehtiyatlarından istifadə olunmasına üstünlük verilməsi və s.

Ədəbiyyat

1. Azərb. Respub. DSK-si, "Azərbaycanın regionları", statistik göctəricilər, Bakı-2020, 828 s.
2. Azərb. Respub. Ekologiya və Təbii Sərvətlər Nazirlynin " Azərbaycan Respublikasının faydalı qazıntı ehtiyatlarının 2000-ci il üzrə hesabat balansı" II kitab, Bakı- 2001.
3. Azərb. Respub. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumat materialları əsasinda erməni silahlı təcavüzü və işğalı nəicəsində ətraf mühitə və təbii sərvətlərə vurulmuş zərərlərin qiymətləndirilməsi (hesabat), Bakı-2015, 252 s.
4. Azərbaycan regionlarında tarazlı və rəqabətqabiliyyətli iqtisadiyyatın inkişaf istiqamətləri, Bakı-"Elm"-2013, 300 s.
5. N.Ə.Nəbiyev İqtisadiyyat, cəmiyyət və ekoloji mühit, Bakı-2000, 696 s.

İŞĞALDAN AZAD OLUNAN ƏRAZILƏRDƏ AQRAR SEKTORUN INKIŞAFI ILƏ BAĞLI ƏHALININ IKI FƏRQLI YANAŞMASI: LIBERALLAŞMA VƏ DÖVLƏT MÜLKIYYƏTINDƏ SAXLANILMA

Fuad Maqsud oğlu Həsənzadə
Azərbaycan Elmi-Tədqiqat
Kənd Təsərrüfatının İqtisadiyyatı və
Təşkili İnstitutunun doktorantı

Xülasə

30 il işğal altında olan ərazilərdə işğaldan əvvəl dövrlərdə, xüsusilə keçən əsrin 1970-1985-ci illərarası dövrdə aqrar sektor yüksək inkişaf etmişdi. Lakin işğal nəticəsində ərazidə olan bütün yaşayış evləri və infrastruktur, həmçinin aqrar sektora aid istehsal vasitələri talanmış, suvarma sistemləri tamamilə dağıdılmış, əkin sahələri məhv edilmişdir. İşğaldan azad edilən ərazilərin yenidən dirçəlməsi və inkişaf etdirilməsi, şübhəsiz ki, insanların öz yurdlarına qayıtması ilə daha çox bağlıdır. Ona görə də aqrar sektorun inkişafı regionlarda aparılması planlaşdırılan aqrar islahatlardan çox asılıdır.

Açar sözlər: Qarabağ, aqrar sektor, inkişaf, ev təsərrüfatları.

Giriş

2020-ci ilin 27 sentyabrında Azərbaycan ordusu Erməni işğalçı ordusuna qarşı əks hücüma keçərək 44 gün ərzində işğal altındakı Azərbaycan ərazilərinin böyük hissəsini azad etdi. 10 noyabr tarixində Rusiya, Azərbaycan və Ermənistan arasında imzalanan atəşkəs haqqında razılaşma əsasında işğal altında olan daha üç rayonun ərazisi də dekabr ayının 1-nə qədər olan dövrdə işğalçı Ermənistan ordusundan təmizləndi.

Hazırda işğaldan azad olunan ərazilərin minalardan təmizlənməsi kimi mühüm işlər davam etməkdədir. Bu prosesin başa çatmasından sonra ərazilərdə yenidən məskunlaşma və ərazilərin iqtisadi cəhətdən inkişaf etdirilməsi məsələləri gündəmdə dayanıb. İşğaldan azad edilən ərazilərin yenidən qurulması və bərpa edilməsi, həmçinin bu ərazilərdə normal məskunlaşmanın və təhlükə-sizliyin təmin edilməsi, səmərəli iqtisadi fəaliyyətin və yüksək rifahın təmin edilməsinin dəstəklənməsi məqsədlilə Azərbaycan Respublikası Prezidentinin 4 yanvar 2021-ci il tarixli Fərmanı ilə "Qarabağ Dirçəliş Fondu" yaradılmışdır. Bu Fond publik hüquqi şəxs olaraq, işğaldan azad edilən ərazilərdə həyata keçirilən digər tədbirlərlə yanaşı iqtisadi və sosial-iqtisadi tədbirlərə maliyyə dəstəyi göstərəcəkdir. Fondun vəsaiti fiziki və hüquqi şəxslərin ianələrindən, qrantlardan və qanunla qadağan olunmayan digər mənbələrdən formalaşacaq.

İşğal olunmuş ərazilər geniş və münbit torpaq sahələrini əhatə etdiyindən, şübhəsiz ki, bu ərazilərdə digər iqtisadi fəaliyyət sahələri ilə yanaşı aqrar sahənin inkişaf perspektivi daha yüksəkdir. Digər tərəfdən nəzərə alınmalıdır ki, aqrar sektor bu ərazilərdə yaşayan insanların mühüm hissəsinin ənənəvi məşğulluq sahəsidir.

İşğaldan azad olunan və kənd təsərrüfatı istehsalına yararlı olan torpaq sahələri kapital olaraq istehsal tsiklinə daxil olaraq, həm istifadə üçün yararlı hala salınmaq, həm də ondan səmərəli istifadə üçün yeni məsrəflər və investisiyalar tələb edəcək. Digər tərəfdən, bu ərazilərin istifadəsi üçün yeni işçi qüvvəsi tələb olunacaq. İlkin məhsul istehsalına və gəlirlərin əldə edilməsinə qədər müəyyən müddətlə yanaşı, həm də aqrar sektorun hansı ssenari ilə qurulması məsələsinin müəyyənləşdirilməsi elmi yanaşmanı tələb edir. Belə ki, bu ərazilərdə yenidən formalaşdırılması və inkişaf etdirilməsi tələb olunan aqrar sektorun subyektlərinin təşkilati-hüquqi forması qısamüddətli dövrdə xərclərin optimallaşdırılması və səmərəliliyin yüksəldilməsi üçün mühüm əhəmiyyət daşıyır. Buna görə də hər şeydən əvvəl bu regionlarda aqrar sektor üçün yararlı olan torpaq sahələrinin ümumi həcmi, bu sahələrin yararlı hala salınması üçün ilkin xərclər və bu sahələrdə ilkin təsərrüfatların yaradılması üçün işçi qüvvəsinin həcmi hesablanmalıdır.

Işğaldan azad olunan ərazilərdə aqrar sektorun inkişaf perspektivləri

İşğaldan azad edilən ərazilərin yenidən dirçəlməsi və inkişaf etdirilməsi, şübhəsiz ki, insanların öz yurdlarına qayıtması ilə daha çox bağlıdır. Ona görə də aqrar sektorun inkişafı regionlarda aparılması planlaşdırılan aqrar islahatlardan çox asılıdır. Belə islahatların aparılması isə əhalinin bu problemə yanaşmasından asılıdır. Belə ki, əhali praktiki olaraq, heç bir infrastrukturu olmayan, tamamilə dağıdırlmış və ya boş torpaq sahələrinə qayıdır. Buna baxmayaraq, əhali arasında aparılan sorğular göstərir ki, bu regionlarda yaşamış ailələr öz yurdlarına bütün hallarda qayıtmağa hazırdır. Belə psixoloji hazırlıq bərpa və yenidənqurma işlərinin daha yüksək səviyyədə qurulması üçün yaxşı başlanğıcdır. Lakin buna baxmayaraq, regionda aqrar sektorun daha səmərəli və dayanıqlı inkişafı bu sahəyə elmi yanaşmanı tələb edir. Bu regionda yaşamış və hazırda öz yurdlarına qayıtmağa hazır olan müxtəlif ev təsərrüfatları arasında aparılan ilkin sorğu deməyə əsas verir ki, qayıtma prosesinin əsas infrastruktur yaradılandan sonra başlaması hamı tərəfindən məqbul hesab edilir. Belə infrastruktura yollar, elektrik, qaz və su xətləri, xəstəxana və məktəblərin tikilməsi daxildir. Bir qrup əhali infrastrukturla yanaşı onlara evlərin tikilməsi üçün müəyyən vəsaitin və becərmək üçün torpaq sahəsinin verilməsi şərti ilə istənilən vaxt geri qayıtmağa hazırdırlar.

İşğaldan azad edilmiş regionlarda torpaq islahatının aparılması və əhalinin öz torpaq sahələrində kənd təsərrüfatı məhsulları yetişdirməsi ilk baxışda məqbul hesab edilsə də elmi cəhətdən əsaslandırmalıdır. Belə ki, Azərbaycanda torpaq islahatlarının və aqrar müəssisələrin, o cümlədən, sovxozların özəlləşdirilərək əmlakının işçilər arasında bölüşdürülməsinin qısa müddətli dövrlərdəki mənfi təsirlərindən nəticə çıxararaq belə tədbirlərin həyata keçirilməsində ehtiyatlı olmaq lazımdır. Təkcə Azərbaycanda deyil, keçmiş SSRİ respublikalarının demək olar ki, hamısında aqrar islahatlardan sonra həm məhsuldarlıq, həm də ümumi istehsal həcmi qısa müddətli dövrdə kəskin azalmış və regionlarda əhalinin demoqrafik vəziyyətinə ciddi təsirlər baş vermişdir. Ona görə də belə halların işğaldan azad edilmiş ərazilərdə yenidən təkrarlanmasına yol vermək olmaz.

İşğaldan azad edilmiş ərazilərdə aqrar sektorun yenidən formalaşması böyük məsrəf tələb etsə də bəzi üstünlüklərə də malikdir. Məsələn:

1. işğaldan azad olan ərazilərin kənd təsərrüfatı üçün yararlı hala salınması əvvəlcədən planlaşdırılan və uzun müddət üçün nəzərdə tutulan aqrar məhsul istehsalı üçün reallaşa bilər. Bu məqsədə uyğun olaraq, irriqasiya və suvarma sistemi yenidən qurula və müasir texnologiyanın üstünlüklərindən istifadə edilə bilər. Bu proses müvafiq dövlət orqanlarının, məsələn, Melorasiya və Su Təsərrüfatı ASC-nin digər qurumlarla birgə fəaliyyəti ilə təmin edilə bilər.
2. Torpaq sahələrinin istifadəçilər arasında bölünməsi baş vermədiyindən və əhali aqrar məhsul istehsalı ilə bağlı əmlaka malik olmadığından yeni yaradılacaq aqrar kapital ilkin dövrdə kollektiv çəkildə istifadə edilə bilər. Bu xərclərin kəskin azaldılmasına səbəb ola bilər. Məsələn, ayrı-ayrı istifadəçilərə verilən torpaq sahələrinin yararlı hala salınması əvəzinə bütünlükdə hər hansı inzibati kənd və ya qəsəbəyə aid torpaq sahəsinin ümumilikdə yararlı hala salınması imkanları daha yüksəkdir;
3. Regionlarda məskunlaşmanın qısa müddətdə reallaşması mümkün olmadığından aqrar sektorda işçi qüvvəsinin çatışmazlığı ilk vaxtlar kəskin hiss ediləcək və bu, aqrar sektorda

potensialdan yüksək həcmdə istifadəyə imkan verməyəcək. Ona görə də kapitalın və əməyin səmərəli istifadəsi vacibdir. Bu regionlarda aqrar sektorda çalışan gənclərə ali məktəblərə qəbul zamanı və ya hərbi xidmət keçməsində güzəştlər verilməlidir;

4. Regionlarda əhalinin tam məskunlaşmadığından onların zəruri həcmdə yığımı təmin etməyəcək və ayrı-ayrı ev təsərrüfatlarının aqrar sektorda istehsalı genişləndirmək üçün kredit vəsaitindən istifadə imkanları zəif olacaq. Bu regionlarda aqrar sektorun inkişafı üçün kredit vəsaitlərinə əlçatanlığın təmin edilməsi dövlətin diqqət mərkəzində olmalıdır;

5. Ayrı-ayrı ev təsərrüfatlarının onlara ayrılan torpaq sahələrində yüksək məhsuldarlıqla çalışması üçün texniki təhizata böyük ehtiyac olacaqdır. Digər tərəfdən, hər hansı ev təsərrüfatının belə texnikaya yiyələnməsi zamanı isə texniki vəsaitlərin marjinal gəliri yüksək olmayacaq. Çünki ayrı-ayrı ev təsərrüfatının texniki avadanlıqlardan istifadəsi zamanı boşdayanma halları adətən çox olur. Dövlət bu regionlarda aqrar sektorun zərusi texnika ilə təchizatına xüsusi diqqət yetirməlidir.

6. Ev təsərrüfatı həcmində istehsal prosesinin digər çatışmazlığı da var. Bu istehsal olunan məhsulun bazara çıxarılması və ya müəyyən müddət saxlanılması ilə bağlıdır. Hər iki mərhələ orta səviyyəli bir ev təsərrüfatının maddi imkanı səviyyəsində olan xərclər deyil. Dövlət satınalmaları bu sahədə tətbiq edilməlidir.

7. İşğaldan azad olan regionlarda əhalinin məskunlaşması və aqrar sektorun inkişafının əsas problemlərindən biri də işçi qüvvəsinin səmərəli yerləşdirilməsi ilə bağlıdır. Belə ki, bu regionlardan olan ailələrin böyük bir hissəsi son 28 il ərzində şəhərlərdə və ya şəhər tipli qəsəbələrdə məskunlaşdığından onların müəyyən hissəsi daha çox xidmət sektorunda, tikinti və ya nəqliyyat sektorunda, həmçinin sənaye sektorunda çalışırlar. Belə əmək potensialının dərhal regionlarda aqrar sektorda çalışması mümkün olmayacaq. Qısa müddətli dövrdə regionda əmək bölgüsünün təmin edilməsində dövlətin müdaxiləsi zəruri olacaq.

Nəticə

Beləliklə, qısa müddətli dövrdə işğaldan azad olunan regionlarda torpaq islahatın aparılması və ayrı-ayrı ev təsərrüfatlarına istifadəyə verilməsi aqrar sektorun inkişafı üçün ciddi çətinliklər yarada bilər. Ona görə də hazırda Azərbaycan Respublikasında qüvvədə olan qanunvericiliyə əsasən xüsusi mülkiyyətə verilməsi nəzərdə tutulan torpaq sahələrinin açıq və ya qapalı səhmdar cəmiyyətlərinin mülkiyyəti kimi özəlləşdirilməsi daha məqsədəuyğundur. Bu halda hər ev təsərrüfatınna "pay torpağı" kimi verilməsi nəzərdə tutulan torpaq sahəsinə uyğun səhmlər təqdim edilməlidir.

II QARABAĞ MÜHARİBƏSİNDƏN SONRA AZAD OLUNMUŞ REGİONLARDA İQTISADİ VƏ EKOLOJİ İVƏZIYYƏTİN BƏRPASINA DAİR MÜLAHİZƏLƏR

Nəbiyev Bəxtiyar Afiq oğlu
Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi
Aqrar Elm və İnnovasiya Mərkəzi
baxtiyar.nabiyev.1973@mail.ru

Xülasə

Məqalədə Azərbaycanın II Qarabağ müharibəsindən sonra azad olunmuş regionlarda iqtisadi və ekoloji vəziyyətin bərpası məsələləri, eləcə də, post-konflikt dövründə Qarabağda istehsal və sosial infrastruktur sahələrinin yaradılması prosesləri, aqrar təsərrüfatın bərpasının prioritet istiqamətləri nəzərdən keçirilir. Qeyd olunur ki torpaqlarımızda tariximizi, mədəniyyətimizi və iqtisadiyyatımızı yenidən canlandırmaq və bərpa etmək üçün bu ərazilərə mərhələli şəkildə, sektorlar üzrə investisiya qoyuluşlarına və digər sərmayələrin cəlb edilməsinə struktural mexanizmin hazırlanması öz töhfəsini verəcək.

Açar sözlər: iqtisadi hədəflər, post-konflikt, bərpa, inkişaf, investisiya, sosial optimizm, heyvandarlıq.

Giriş: Postkonflikt dövrdə işğaldan azad olmuş ərazilərimizə qayıdış, iqtisadi və sosial infrastrukturun bərpası bu gün respublikamız üçün prioritet məsələlərdəndir. Qarabağın təbii-maddi və mənəvi sərvətlərinə sahib çıxmaq, bərpa etmək və gələcək nəsillərə çatdirmaq zəruri milli və vətəndaşlıq vəzifəmizdir. Şanlı Zəfər milli və sosial optimizmin yüksəlməsi üçün mühüm amil oldu,

rasional səviyyədə əsaslandırılmış iqtisadi hədəflərin, «ağıllı kənd», «ağıllı şəhər» ideallarını gerçəkləşdirməyə zəmin yaratdı.

Postkonflikt dövründə Qarabağda istehsal və sosial infrastruktur sahələrinin yaradılması prosesləri. Münaqişə zamanı dəyən zərərin postkonflikt dövründə bərpa prosesi bir çox sahələrin prioritetləşməsini tələb edir. Bu sahələrin münaqişədən sonra müəyyənləşdirilib bərpasına başlanılması prosesi kompleks mexanizmlər tələb edir. İlkin olaraq, dəymiş zərəri müəyyənləşdirdikdən sonra minimum yaşayış səviyyəsinin təminatı prioritet olmalıdır. Minimum yaşayış səviyyəsinin təminatını nəzərdə tutan vacib amillər aşağıdakılardır:

- İşğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi;
- Elektrik enerjisi təminatı;
- Əhəmiyyətli yol xətlərinin bərpası;
- İçməli su, sanitar qovşaqlarının və irriqasiya sistemlərinin bərpası;
- Ev-mənzil yaşayış sahələrinin bərpası və təminatı;
- Humanitar yardım məqsədləri üçün hava limanının bərpası.

Sahələr	Minalardan Təmizlənmə	Kritik Yol Xəttlərinin Bərpası	Ev/mənzil, İçməli Su, Sanitariya və İrriqasiya	Təhsil, Səhiyyə və Telekommunikasiya	Kiçik və Orta Biznes, Ev təsərrüfatı, Bank və Turizm	Dağ-mədən sənayesi, Kənd Təsərrüfatı inkişafı, Enerji proyektləri
Maliyyə Mənbələri						
ANAMA	✓					
Beynəlxalq Etimad Fondu	✓					
ABŞİA (USAID)	✓		✓		✓	
Halo Trust	✓					
Dünya Bankı		✓	✓		✓	✓
İslam İnkişaf Bankı		✓			✓	
Beynəlxalq Maliyyə Korporasiyası (IFC)					✓	✓
Asiya İnkişaf Bankı		✓			✓	
ARDNF (SOFAZ)		✓		✓		✓
BMTİP (UNDP)		✓	✓	✓	✓	
Qırmızı Xaç Cəmiyyəti (ICRC)			✓		✓	
Beynəlxalq Miqrasiya Təşkilatı (IOM)			✓		✓	
Beynəlxalq Telekommunikasiya Birliyi (ITU)				✓		
BMTİK (UNCTAD)				✓		
QHT				✓		
Al Komissiyası (EU comission)				✓		
Diaspora				✓		
Transmilli Korporasiyalar (TMK)						
Vençur Kapital					✓	
Kraudfanding					✓	
Dövlət-Özəl Tərəfdaşlığı		✓	✓			✓
Birbaşa Xarici İnvestisiyalar (BXİ)			✓		✓	✓

İlkin mərhələdə bu sahələrə yönələn sərmayə sonrakı dövrdə sosial və iqtisadi canlanmaya dəstək olacaq. Ərazilərin minalardan təmizlənməsi sözügedən ərazilərə köçürüləcək əhalinin təhlükəsizliyi üçün ən vacib amildir. Bu prosesdən sonra, əhəmiyyətli yol xətlərinin bərpası yaşayış sahələri arası gediş-gəlişi və digər vacib təminatların təchiz olunmasını asanlaşdıracaq. İçməli su, sanitariya və irriqasiya sistemlərinin yenidən qurulması prosesi isə insanların həyat səviyyəsinin yaxşılaşdırılmasına və sonrakı mərhələdə iqtisadi baxımdan, ailə-ev təsərrüfatlarının canlanmasına köməkliyini göstərəcək.

İlkin sosial-iqtisadi inkişafın vacibliyi postkonflikt dövründə insanların mərhələli şəkildə köçürülməsinə və yardım asılılığından qısa zamanda azad olmalarına gətirib çıxarır. Belə ki, təhsil,

səhiyyə və telekommunikasiya obyektlərinin koordinasiyalı bərpası insanların adaptasiya prosesini sürətləndirəcək. Paralel şəkildə əhalinin məşğulluğunun artırılması məqsədilə kiçik və orta bizneslərin dəstəklənməsi bilavasitə ev təsərrüfatlarının inkişafına səbəb olacaq. Bundan əlavə, iqtisadi canlanmaya töhfə verəcək bank və turizm sektorlarına da xüsusi diqqət göstərilməlidir.

Qeyd edək ki, postkonflikt dövrdə münaqişədən yeni çıxan ərazilərə investisiya cəlb etmək kifayət qədər çətin bir prosesdir. Çünki hazırda həmin ərazilər haqda müfəssəl məlumat yoxdur. Bu o deməkdir ki, ərazi ilə bağlı nə qədər çox məlumat olarsa, investorların marağını bir o qədər çox cəlb edə bilər.

Postkonflikt dövründə sərmayə qoyuluşları üçün sahələr detallı araşdırılmalı və mərhələli olaraq prioritetləşdirilməlidir. Vətəndaşların ilkin yaşayış səviyyəsini təmin etdikdən sonra onların köçürülməsinə yönələn prosesdə ilkin olaraq, sosial və iqtisadi inkişafa dayanan sahələrə diqqət yetirilməlidir. Əlavə olaraq uzun müddətdə dayanıqlı iqtisadi inkişaf modeli yaradılmalı və sərmayə qoyuluşlarında davamlı gəlirlər əldə etmək üçün strateji sahələr seçilməlidir.

Azərbaycan iqtisadiyyatının tərkib hissəsinə çevrilməsi məqsədilə, işğaldan azad edilmiş bölgələrdə məskunlaşma, layiqli yaşayış və iqtisadi fəallıq təmin ediləcək, bu ərazilərdə həyata keçiriləcək quruculuq-bərpa işləri ölkəmizin sosial-iqtisadi inkişafının əsaslarını daha da möhkəmləndirməklə yanaşı Azərbaycanın yeni inkişaf prosesində mühüm mərhələ olacaqdır.

İşğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinin aparılması istiqamətində hər bir şəxsin göstərəcəyi dəstək tarixi qələbəmizə, qüdrətli və güclü Azərbaycan naminə milli birlik ideyasına, suveren və təhlükəsiz yaşamaq məqsədimizə mühüm töhfə olacaq. Bu sahədə bütün potensialın fədakarlıqla səfərbər edilməsi ölkəmizin inkişafında birgə uğur səlnaməsi yaradaraq, qələbəmizi daha da parlaq edəcəkdir.

Azərbaycan Respublikasının Prezidentinin 4 yanvar 2021-ci il tarixli fərmanı ilə işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə *"Qarabağ Dirçəliş Fondu"* yaradılıb. Bu fond, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyi göstərilməsini və sərmayələrin cəlb edilməsini, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişafını, eləcə də ölkə daxilində və ölkə xaricində zəruri təşviqat işləri həyata keçirir.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində elektroenergetika infrastrukturunun yaradılması məqsədilə "Azərenerji" ASC ilə İtaliyanın "Ansaldo Energia" şirkəti arasında qarşılıqlı əməkdaşlıq sahəsində təchizat müqaviləsi imzalanıb. Müqaviləyə əsasən, Ağdam, Füzuli, Kəlbəcər və Qubadlı rayonlarında inşa olunacaq 4 ədəd 110 kilovoltluq yarımstansiyanın avadanlıqlarla təchizatını məhz İtaliya şirkəti həyata keçirəcək.

Türkiyədə fəaliyyət göstərən, 130 texnologiya şirkətinə dəstək göstərən "GOSB" texnoparkı ilə Azərbaycan İnnovasiyalar Agentliyi arasında imzalanmış "Mədəni və Elmi Əməkdaşlıq" memorandumuna əsasən Qarabağda Yüksək Texnologiyalar Parkı yaradılacaq. Parkda ən son "soft" və "hard" elmi araşdırmaların aparılması, eyni zamanda yüksək texnoloji cihazların istehsalı planlaşdırılır.

Prezident İlham Əliyev azad edilmiş ərazilərdə kəndlərin "ağıllı kənd" konsepsiyası əsasında qurulacağını da qeyd edib: ...Biz indi "ağıllı kənd" konsepsiyasını da hazırlayırıq. Bu konsepsiya demək olar ki, hazırdır, mənə məruzə edildi, mən bunu təsdiqlədim. "Ağıllı kənd" birinci pilot

layihəsi icra ediləcəkdir. Məhz o yerlər də düzgün təsbit edilməlidir. Əkin sahələri və əkin sahələrinə gedən yollar təmizlənməlidir. Bu da prioritetlər sırasındadır. ....

Şübhəsiz, dövlət səviyyəsində bütün təsərrüfat və xidmət sahələrinin yeni keyfiyyətdə bərpası və inkişafını əhatə edən uzunmüddətli (təqribən, 10 il müddətinə) strateji xətt, plan və proqram hazırlanıb həyata keçiriləcəkdir. Artıq ölkə Prezidenti İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə bu istiqamətlərdə təşkilati və praktiki fəaliyyət və tədbirlər geniş vüsət almaqdadır. Fikrimizcə, təsərrüfat və xidmət sahələrinin keyfiyyətli bərpası və inkişafı məsələlərinin həllində növbəlilik, ardıcıllıq müəyyənləşdirilməlidir. İrimiqyası, uzunmüddətli bərpa və inkişaf posesində öz yurdlarına qayıdacaq insanların həyat və fəaliyyəti üçün ən zəruri şəraitin təmin edilməsi birinci plana keçməlidir.

Xarabalıq içindən dirçəldilmiş Çocuq Mərcanlı Qarabağa böyük qayıdışın modeli kimi qəbul edilir. Qarabağ əvvəlkindən də gözəl, tarixdə heç vaxt olmamış qədər əzəmətli olacaq. Bu böyük qayıdışda, ilkin olaraq, tarixən vilayətin tacı sayılan, işğaldan sonra isə Ali Baş Komandan İlham Əliyevin Azərbaycan mədəniyyətinin paytaxtı elan etdiyi Şuşaya Füzulidən çəkilən çoxcərgəli magistral ulu yurdun dünəninə və içərilərinə, bu yolun başlanğıcında tikilən beynəlxalq aeroport isə Qarabağın sabahına və böyük dünyaya yönəlik yeni simasını rəmzi olaraq ifadə edir.

Azərbaycanın işğaldan azad edilən Şuşa, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Ağdam, Kəlbəcər və Laçın rayonlarında nəqliyyat infrastrukturunun yenidən qurulması, bu rayonlarda istər quruculuq dövründə, istərsə də sonrakı illərdə yük və sərnişin daşınmasına olan tələbatın təmin edilməsi, beləliklə avtomobil nəqliyyatı ilə göstəriləcək bütün xidmətlərin bərpa edilməsi qabaqda duran birinci vəzifələrdəndir.

İşğaldan azad edilən şəhər və rayonlarda yük daşınması, avtobusla sərnişin daşınması və taksi minik avtomobilləri ilə sərnişin daşıma xidmətlərinin göstərilməsi məqsədilə avtomobillərə xidmət etmək üçün təmir sexləri, texniki qulluqların aparılması sahələri, yanacaqdoldurma məntəqəsi, avtoyuma məntəqəsi və avtomobillərin texniki cəhətdən saz vəziyyətdə saxlanılması üçün digər sexlər və duracaq sahələri olan avtonəqliyyat təsərrüfatının təşkil edilməsi nəzərdə tutulub. Nəzərdə tutulan işlər dövlət-özəl sektor tərəfdaşlığı layihələrinin tərkib hissəsi kimi reallaşdırılacaq. Bu, həmçinin özəl sektor üçün yeni investisiya imkanlarının yaranması və böyük layihələrin idarə edilməsi ilə bağlı təcrübələrin formalaşmasına geniş təkan vermiş olacaq.

Ekspertlər hesab edir ki, xarici şirkətlərin yenidənqurma və bərpa işlərinə cəlbi bir neçə səbəbdən vacibdir: "Yenidənqurma işlərinin miqyasca çox böyük olacağı proqnozlaşdırılır. Buna görə də, tək ölkə şirkətlərinin resursları hesabına bu işlərin görülməsi uzun zaman tələb edər. Xarici şirkətlərin cəlbi tender proseslərində ədalətli qiymətlərin formalaşmasına imkan verə bilər. Tenderlərdə nə qədər çox şirkət iştirak edirsə, bir o qədər çox təkliflər verilir, müqayisə imkanları genişlənir. Ölkəyə gələn şirkətlər özləri ilə yeni texnologiyalar, ənənələr, sistemlər, yanaşmalar və tərzlər gətirir. Yeni sahibkarlıq və rəqabət mədəniyyəti formalaşdırırlar ki, bu da sonradan ölkə sahibkarlığına mühüm töhvə vermiş olur".

Yenidənqurma prosesinə İkinci Qarabağ savaşında Azərbaycana dost ölkələri də cəlb etmək məqsədəuyğun olardı.

İnfrastruktur layihələri üzrə proseslərin başlandığını qeyd edən dövlət başçısı öz çıxışlarında qeyd edib: ...Artıq yol tikintisinə dair ilk kontraktlar, digər infrastrukturla bağlı kontraktlar bağlanıb. Mən öz bəyanatlarımın birində demişəm ki, dost ölkələri Azərbaycana cəlb edirik və cəlb edəcəyik. Birinci kontrakt Türkiyə şirkəti ilə bağlanıb, ikinci kontraktı İtaliyadan olan bir şirkətlə bağlamaq planlaşdırılır. Fürsətdən istifadə edib Azərbaycanın dostluq münasibətləri saxladığı dövlətlərin, ölkələrin başçılarına müraciət etmək istərdim ki, onların şirkətləri də bu layihələrdə

podratçılar kimi fəal iştirak etsinlər. Bərpa işlərini biz özümüz, öz vəsaitlərimiz hesabına maliyyələşdirəcəyik. Lakin biz istəyirik ki, şəhərlərimizin və kəndlərimizin bərpasına dost ölkələrdən olan şirkətlər cəlb edilsin. Qoy onlar da bu layihələri həyata keçirə bilsinlər və həmrəylik nümayiş etdirsinlər, ona görə ki, biz, heç şübhəsiz, bütün şəhərləri bərpa edəcəyik, Qarabağı dirçəldəcəyik və onu dünyanın ən inkişaf etmiş regionlarından birinə çevirəcəyik. ...

İlk olaraq, bərpa işlərinin Şuşa şəhərindən başlanılması qanuauyğun bir prosesdir. Şuşa şəhərində minaların demək olar ki, olmaması bərpa və yeni quruculuq işlərinin sürətləməsi üçün mühüm amildir. Bundan sonra isə Ağdam, Cəbrayıl, Füzuli və digər yerlərdə də bərpa işlərinə aparılması məqsədəuyğundur.

İstehsal sahələrini bərpa edərkən, birinci növbədə, xalqın tarixən zəngin təcrübə toplamış olduğu sahələrin yeni şəraitin tələblərinə uyğun bərpasına diqqət yetirilməlidir. Məlumdur ki, işğaldan azad olunmuş ərazilərin iqtisadiyyatı tarixən çoxsahəli xarakter daşımışdır. Qarabağın zəngin təbiəti, əlverişli coğrafi mövqeyi burada istehsal və xidmət sahələrinin kompleks inkişafına şərait yaradır. Keçən əsrin 80-ci illərində regionda müxtəlif istehsal sahələri öz inkişafının ən yüksək səviyyəsinə çatmışdı. İşğaldan azad olunmuş ərazilər üzümçülük-şərabçılıq, baramaçılıq-ipəkçilik, pambıqçılıq və mahlıc, tütünçülük- siqaret, meyvəçilik-konserv, taxılçılıq-qida, heyvandarlıq-ət-süd və digər istehsal sahələrində Azərbaycan iqtisadiyyatında çox mühüm yer tuturdu.

İstehsal və sosial infrastruktur sahələrinin bu istiqamətlərdə inkişafı bir tərəfdən işğaldan azad olmuş rayonların, bütövlükdə, Qarabağ bölgəsinin iqtisadiyyatının vahid bir regional sistem kimi inkişafına, digər tərəfdən Ermənistanla həmsərhəd rayonlarla Azərbaycanın digər əraziləri arasında ikitərəfli əlaqələrin inkişafına şərait yaratmalıdır. Şübhəsiz ki, yaxın vaxtlarda Qarabağda elm və təhsil ocaqlarının yaranmasına, elmin və təhsilin inkişafına da xüsusi diqqət yetiriləcəkdir.

Aqrar təsərrüfatın bərpasının prioritet istiqamətləri: Azad edilmiş ərazilərdə əkin-bərpa işlərinin aparılması, əkin sahələrinin təsərrüfat üçün əlverişli vəziyyətə gətirilməsi zəruridir. Eyni zamanda, işğaldan azad olunmuş Füzuli, Zəngilan, Ağdam və Qubadlı ərazisində də paralel olaraq ağac əkimi, meşə salınması işləri həyata keçirilməldir.

İşğaldan azad olunmuş ərazilərdə məskunlaşan əhalinin iri və xırdabuynuzlu heyvanlarla təmin olunması, arıçılıq təsərrüfatlarının yaradılması, rayonlara görə ixtisaslaşmanın yenidən dəqiqləşdirilməsi aqrar sahənin inkişafı baxımından atılacaq addımlardır. Həmin ərazilərdə kənd təsərrüfatının inkişafı, ilk növbədə, ölkənin ərzaq təhlükəsizliyinin, məşğulluğun təminatına yardım edəcək, yeni investisiyaların cəlb edilməsinə və su ehtiyatlarının istifadəsinə imkan yaradacaq. Bu proses, qeyri-neft məhsullarının ixracının artmasına səbəb olacaq, əkin dövriyyəsi artacaq, əkin sahələrinin təsərrüfat suyu ilə təmin olunmasına kömək göstərəcək.

Heyvandarlığın intensiv inkişaf etdirilməsi üçün örüş otlaq ərazilərinin səmərəli istifadə olunması, fermerlərə beynəlxalq standartlara uyğun modul tipli heyvandarlıq təsərrüfatların formalaşmasında köməklik göstərilməsi azad olunmuş ərazilərdə əhalinin yenidən məskunlaşmasını sürətləndirər.

Qarabağın meşə, su, torpaq, faydalı qazıntı və qeyri-maddi resursları ilə Azərbaycan iqtisadiyyatının dövriyyəsinə cəlb olunması, həmçinin yeni reallığa uyğun olaraq regional nəqliyyat-kommunikasiya imkanlarının genişlənməsi böyük artım potensialına malikdir. Yeni reallıq ölkə iqtisadiyyatının növbəti 10 ildə iki dəfə artırılmasına inamı gücləndirir. Xüsusən də, Qarabağda yaşıl enerji, dağ-mədən, metallurgiya, emal sənayesi, aqrar sahə və turizm kimi sahələr həm dövlət, həm də özəl yerli və xarici sərmayələr hesabına inkişaf etdiriləcək. Dünya Bankının

“Doing Business” hesabatında dünyanın ən islahatçı 10 ölkəsindən biri olan Azərbaycanın əldə edilmiş qələbəmizi sistemli və davamlı islahatlarla yeni imkanlara çevirməsi mümkündür.

II Qarabağ müharibəsindən əvvəl təcavüzkar Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində və transsərhəd səviyyədə su ehtiyalarının mühafizəsi və idarəçiliyi ilə bağlı beynəlxalq hüququn bütün prinsiplərini pozmuşdur. Ermənistan tərəfindən başlanmış müharibə Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonlarında nəinki şəhər və kəndlərin dağıdılmasına, eyni zamanda, ərazidə bitki və heyvanlar aləminin məhv edilməsinə, bütövlükdə ekoloji tarazlığın pozulmasına səbəb olub. Hər kəsə məlumdur ki, ermənilər rayon və kəndlərimizi boşaldarkən ağacları kəsmiş, ətraf ərazilərə od vuraraq yandırmış, özləri ilə apara bilmədikləri heyvanları öldürmüşlər. İstər müharibə zamanı, istərsədə müharibədən qabaq Ermənistanın Qarabağa vurduğu ziyanı ekoloji terror adlandırmaq daha doğru olar. Ermənilər tərəfindən mütəmadi olaraq törədilən yanğınlar nəticəsində 110 min hektardan çox münbit torpaqlar məhv edilib, ətraf mühitə və canlı təbiətə əhəmiyyətli dərəcədə ziyan vurulub.

Qarabağda turizmin inkişaf strategiyası haqqında: Hazırda Dövlət Turizm Agentliyi tərəfindən işğaldan azad edilmiş ərazilərlə bağlı turizmin inkişafı dövlət strategiyası hazırlanır. Mütəxəssislərin fikrinə görə, Qarabağda turizm məhsullarının, turizm infrastrukturunun inkişaf etdirilməsindən öncə bir neçə komponent təmin edilməlidir. Belə ki, ilk növbədə, təhlükəslizlik təmin olunmalıdır. Eyni zamanda, əhalinin geriyə qayıdışı və yaşayışı, bu yerlərdə infrastruktur bərpa edilməlidir. Söz yox ki, bunlarla paralel olaraq turizm məhsullarının istehsalı artırılacaq. Bunun üçün investisiyaların cəlb edilməsi də vacibdir.

Dövlət Turizm Agentliyindən bildiriblər ki, bir neçə yeni turizm marşrut istiqamətləri müəyyənləşdirilməlidir. Nəzərdə tutulan birinci istiqamət - Füzuli, Xocavənd, Şuşa, Laçındır. İkinci - Cəbrayıl, Füzuli Zəngilan, üçüncü - Zəngilan, Qubadlı, dördüncü - Kəlbəcər, Laçın, beşinci isə - Bərdə, Ağdam istiqamətidir. Regionların ayrı-ayrılıqda turizm potensialına baxdıqda, məsələn, təbiəti, mədəni-tarixi abidələri ilə Qarabağın incisi olan Şuşada müxtəlif tədbirlər, festivallar keçiriləcək. Laçın, Kəlbəcər istiqamətində mədəniyyət, təbiət, qış və sağlamlıq turizm imkanları var. Qubadlı, Zəngilan rayonlarında mədəniyyət və təbiət istiqaməti, Füzuli, Ağdam, Cəbrayıl rayonlarında mədəniyyətlə yanaşı, erməni işğalının acı nəticələrini əyani şəkildə göstərmək imkanları mövcuddur. Bu yerlərdə açıq muzeylər olacaq, orada işğalın nəticələrini göstərmək üçün bəzi tikililəri dağıdılmış halda saxlayacaq ki, daxili və xarici auditoriya üçün erməni vəhşilikləri, vandalizmi nümayiş olunsun.

İşğaldan azad edilmiş ərazilərə yeni kommunikasiya imkanlarının açılması cənub istiqamətindən İran turistlərinin, Naxçıvan üzərindən isə Türkiyədən turistlərin gəlməsi üçün əlverişlidir. Həm də, Azərbaycanla Türkiyə arasında bağlanan ikitərəfli sazişə əsasən, artıq sərhədi keçmək sadələşib. Bu isə ölkəyə daha çox turistin gəlməsinə şərait yaradacaq.

Qarabağın turizm potensialı olduqca zəngindir, burada turizmin çox növləri - ekoturizm, dağ turizmi, qış turizmi, ov turizmi, sağlamlıq turizminin inkişafı üçün bütün imkanlar var. Bu ərazilərin iqlimi, coğrafiyası və təbiəti həmçinin tarixi və dini abidələrin olması, xüsusən, gəlmə turizmin inkişafı üçün cəlbedicidir. İşğaldan azad olunmuş Kəlbəcər rayonu Cənubi Qafqazda turizmin inkişafı baxımından az saylı regional ərazilərdən biri hesab edilir. Çünki bu ərazini yayda və qışda, həm tarixi, dini, həm də müalicəvi cəhətdən turizm istiqamətində inkişaf etdirmək mümkündür. Eləcə də, digər azad edilmiş ərazilərdə də turizm potensialı yüksəkdir.

Məsələn, ən qədim yaşayış məntəqələrindən biri olan Füzuli rayonu yaxınlığında yerləşən Azıx mağarası turistləri cəlb edəcək məkanlardandır. Güman olunur ki, bu, bərpa prosesindən və pandemiyadan sonra ölkəyə gələn turistlərin sayına birbaşa təsir göstərəcək. Bu da, turistlərin

sayının illik olaraq 4 milyon nəfərə çatmasına imkan verəcək. Nəzərdə tutulmuş planlar yalnız xarici turistlər üçün deyil, həmçinin öz vətəndaşlarımız üçündə yeni rekreasiya imkanları yaradacaq. Xaricə axın edən vətəndaşlarımız, azad olunmuş ərazilərimizdə istirahət imkanlarından yararlana biləcəklər.

Ekoloji tədbirlərin görülməsi yalnız hazırda olan vəziyyəti düzəltmək üçün deyil, həmdə gələcəkdə təbii mühitin davamlılığını təmin etməkdə yararlı olmalıdır. Görüləcək işlərin çoxluğu və çətinliyini nəzərə alsaq, bu sektorda irəli getmiş və yeni texnologiyalardan istifadə edən ölkələrin təcrübələrindən yararlanmaq məqsədəuyğundur. Avropa ölkələrinin və Yaponiyanın bu sahədə öncül olduğunu nəzərə alsaq əməkdaşlıq etməyin bizim yararımıza olacağını deyə bilərik.

Hər kəsə Qarabağ regionunun turizm potensialı bəllidir. Regionun inkişafında bu sahənin önəmi danılmazdır. Lakin yalnız xarici turizmin diqqət mərkəzində qalması doğru deyil, uzun illərdi torpaqlarımızın azad olunmasını gözləyən vətəndaşlarımızın büdcəsini nəzərə alaraq, istirahət yerləri, qədim abidələr və ya digər bölgərin istifadəsini düzgün qərarlaşdırmaq lazımdır.

Nəticə

Azərbaycan xalqı böyük zəfərlə ərazilərini Ermənistan işğalından azad edərək, tarixinin ən yaddaqalan və şanlı dövrünə qədəm qoydu. Otuz ilə yaxın bir müddət ərzində erməni qəsbkarları tərəfindən maddi və mədəni sərvətləri talan edilmiş ərazilərimizin 10 noyabr tarixində yenidən həyata qaytarılması ölkənin siyasi-iqtisadi suverenliyinin güclənməsinin mühüm dayaqlarından biri olacaqdır. Torpaqlarımızın işğaldan azad edilməsi millətimiz üçün bir şərəf məsələsinə çevrilmişdir. Tam həyat şəraiti, işlə təmin olunma ilə yanaşı milli təəssübkeşlik hissləri vətənə qayıdışın başlıca motivlərindəndir. Bununla belə, regionda təhsil ocaqlarının açılması, yeni universitetlər və ya mövcüd universitetlərin filiallarının yaradılması məqsədəuyğundur. Gənc nəsilin bura axın etməsi, iş yerləri ilə təmin olunması regionda iqtisadi intibaha səbəb olacaqdır. Əzəli torpaqlarımızda tariximizi, mədəniyyətimizi və iqtisadiyyatımızı yenidən canlandırmaq və bərpa etmək üçün bu ərazilərə mərhələli şəkildə, sektorlar üzrə investisiya qoyuluşlarına və digər sərmayələrin cəlb edilməsinə struktural mexanizmin hazırlanması öz töhfəsini verəcəkdir.

. İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. https://president.az/articles/45924
2. https://president.az/articles/documents
3. Qarabağ Azərbaycandır!\ Azərbaycan Respublikasının Baş Prokurorluğu, Bakı: Poliart MMC, 2021- 592s.
4. Zəfər salnaməsi. –Bakı: Şərq-Qərb, 2021. 536 s.

Summary

He was released after the II Karabakh War considerations on the restoration of the economic and environmental situation in the regions

The article considers the issues of restoring the economic and environmental situation in the regions of Azerbaijan liberated after the II Karabakh War, as well as the process of creating production and social infrastructure in Karabakh in the post-conflict period, priority areas for agricultural rehabilitation. It is noted that the development of a structural mechanism for the gradual revival and restoration of our history, culture and economy in our lands will contribute to the attraction of investments and other investments in these areas

Key words: economic goals, post-conflict, recovery, development, investment, social optimism, animal husbandry.

AZƏRBAYCANDA İKT SEKTORUNUN VƏ RƏQƏMSAL İQTİSADİYYATIN İNKİŞAFI

İQTİSADİYYATIN RƏQƏMSALLAŞDIRILMASI İNFRASTRUKTURUNUN FORMALAŞMASI VƏ İDARƏ OLUNMASI MƏSƏLƏLƏRİ

Ələvsət Əliyev, i.f.d., dosent
AMEA İnformasiya Texnologiyaları İnstitutunun şöbə müdiri
lovsat_qaraca@mail.ru
Roza Şahverdiyeva, b.elmi işçi
AMEA İnformasiya Texnologiyaları İnstitutu
shahverdiyevar@gmail.com

Xülasə. *Məqalə iqtisadiyyatın rəqəmsallaşdırılması infrastrukturunun formalaşması və idarə olunması məsələlərinə həsr olunmuşdur. İqtisadiyyatın və cəmiyyətin rəqəmsal transformasiyasının prioritet məsələ olduğu, iqtisadiyyatın rəqəmsallaşdırılması üçün İKT infrastrukturunun təkmilləşdirilməsinin aktuallığı göstərilmişdir. İKT sektorunun infrastruktur və institutsional formalaşma problemləri tədqiq olunmuş, onun inkişaf potensialının formalaşdırılmasının innovativ istiqamətləri müəyyənləşdirilmişdir. Rəqəmsal iqtisadiyyatın xüsusiyyətləri, onun formalaşması mərhələləri və dünya dövlətlərinin rəqəmsal iqtisadiyyatının ÜDM-də payının proqnozları təhlil edilmişdir. Rəqəmsal iqtisadiyyatın formalaşmasının texniki və texnoloji problemləri, onun inkişaf səviyyəsinin ölçülməsi üzrə beynəlxalq tədqiqatların nəticələri şərh olunmuşdur. Rəqəmsal iqtisadiyyatın ölçülməsində istifadə olunan əsas indikatorlar sistemi və onun inkişaf səviyyəsinin qiymətləndirilməsi göstəriciləri işlənilmişdir. Rəqəmsal iqtisadiyyatın inkişaf səviyyələrinin qiymətləndirilməsi üsullarının təkmilləşdirilməsi istiqamətləri müəyyənləşdirilmişdir. Rəqəmsal iqtisadiyyatın inkişafının müxtəlif səviyyələrdə qiymətləndirilməsinin kompüter modelinin arxitektur-texnoloji struktur modeli təklif edilmişdir. Göstərilmişdir ki, İKT infrastrukturunun formalaşması və səmərəli idarə olunması yeni iqtisadi idarəetmə şəraitində regional və sektorial iqtisadiyyatın inkişafında əlavə imkanlar yarada bilər.*

Açar sözlər: *iqtisadiyyatın rəqəmsallaşdırılması, rəqəmsal iqtisadiyyat və texnologiyalar, informasiya infrastrukturu, rəqəmsal fərqlilik, innovativ istiqamətlər, süni intellekt, 5G texnologiyası, 4.0 Sənaye inqilabı.*

Giriş. XXI əsrin ilk illərindən etibarən sürətlə inkişaf etməkdə olan İKT, telekommunikasiya və kompüter texnikasının, həmçinin elmtutumlu yüksək texnologiya məhsullarının istehsal sahələrinin Sənaye 4.0 inqilabının [1] çağırışlarına müvafiq olaraq formalaşdırılması dünya iqtisadiyyatının inkişafında əsas istiqamətlərdən birinə çevrilmişdir. Buna görə də Sənaye 4.0 inqilabının komponentlərinin və süni intellekt texnologiyalarının tərkib komponentlərinin iqtisadiyyatın rəqəmsallaşdırılmasında tətbiq olunması və reallaşması müasir dövrdə əhəmiyyətli və aktual məsələlərdən hesab olunur. Hazırki dövrdə iqtisadiyyatın daha sürətli inkişafına nail olmaq üçün onun rəqəmsal texnologiya əsasında inkişafının təmin edilməsi, texnoloji innovasiyalar əsasında müasirləşdirilməsi, süni intellekt və robotlaşdırma, bio, nano, informasiya-kommunikasiya, kosmik və s. kimi yüksək texnologiyalar sektorlarının inkişaf etdirilməsi əsas məqsədlərdən hesab olunur. Azərbaycanda da bu istiqamətdə həyata keçirilən iqtisadi islahatların davamlılığı və səmərəliliyi ölkə iqtisadiyyatının inkişafı üzrə Strateji Yol Xəritələrində [2], Azərbaycanın 2021-ci ildə qəbul olunan sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərində [3] təsbit olunmuşdur. İqtisadiyyatın rəqəmsallaşdırılması üçün İKT infrastrukturunun təkmilləşdirilməsi və ölkənin İKT sənayesi potensialının artırılması da bir vəzifə olaraq göstərilmişdir [4]. Müasir dövrdə telekommunikasiya texnologiyaları cəmiyyətin bütün sahələrinə ciddi nüfuz edərək, inkişaf üçün geniş imkanlar yaratmışdır. Keyfiyyətli, təhlükəsiz və səmərəli rəqəmsal transformasiya, eləcə də bu sahədə resurslardan effektiv istifadə innovasiyaların inkişafında hərəkətverici qüvvə hesab olunur. Qabaqcıl ölkələr rəqəmsal xidmətlərin genişləndirilməsi və elektron hökumətin inkişafı vasitəsilə səmərəliliyin və şəffaflığın artırılmasına nail olmuşlar.

İqtisadiyyatın və cəmiyyətin rəqəmsal transformasiyası son illərdə Azərbaycan Respublikasının qarşısında duran prioritet məsələlərdən birinə çevrilmişdir. Ölkədə rəqəmsallaşma, İKT

sahəsində yeni infrastruktur quruculuğu, müasir texnologiyaların tətbiqi və modernizasiyası sahəsində mühüm işlər görülmüşdür. İqtisadiyyatın və dövlət idarəetməsinin səmərəliliyinin, informasiya təhlükəsizliyinin və vətəndaşların yaşayış səviyyəsinin yüksəldilməsi məqsədilə İKT infrastrukturunun əsasını təşkil edən genişzolaqlı internet şəbəkəsinin inkişafı, "Hökumət buludu" (G-Cloud), "Böyükhəcmli məlumatlar" (Big Data), "Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) kimi rəqəmsal təşəbbüslər həyata keçirilir [4]. Azərbaycanın regionda rəqəmsal mərkəzə çevrilməsi istiqamətində ardıcıl islahatlar aparılır. Ona görə də iqtisadiyyatın rəqəmsallaşdırılmasında müvafiq infrastrukturun formalaşması və idarə olunması problemlərinin müəyyənləşdirilməsi ölkə qarşısında duran əsas məqsədlərdən hesab olunur.

İKT sektorunun infrastruktur və institutsional formalaşma problemləri. İKT əsasında rəqəmsal iqtisadiyyatının formalaşması və inkişafı əsasən aşağıdakıları əhatə edir [5, 6]: yeni iqtisadiyyatın əsasını təşkil edəcək elektron biznes, elektron ticarət, e-kommersiya və rəqəm iqtisadiyyatı, cəmiyyətin sosial əsası olan texnologiyalara istiqamətlənmiş bilik, yüksəkixtisaslı mütəxəssislər, inkişaf etmiş elm, təhsil-tədris sistemi və əhalinin rifah səviyyəsinin yüksəlməsi; cəmiyyətin siyasi əsası olan elektron seçki, e-hökumət və e-demokratiya texnologiyaları və s. Hazırda rəqəmsal iqtisadiyyatın infrastruktur və institutsional formalaşmasının və inkişafının öyrənilməsi zəruri bir məsələyə çevrilmişdir. Bu isə həmin sahədə müvafiq monitorinqin aparılmasını, böyük həcmli ölçmələrin və bir sıra kəmiyyət-keyfiyyət qiymətləndirmələrinin həyata keçirilməsini tələb edir. Bununla əlaqədar olaraq müvafiq metodologiyaların və göstəricilər sisteminin işlənməsinə də tələbat artmaqdadır. Bundan başqa iqtisadi inkişaf tempinin yüksəldilməsində, infrastruktur və institutsional formalaşma məsələlərində dünya, milli və regional səviyyədə rəqəmsal geriliyin (fərqliliyin, fərqin, boşluğun, ziddiyyətin, uçurumun, uyğunsuzluğun) aradan qaldırılmasında İKT-nin rolunun və imkanının təhlili də çox vacib məsələlərdəndir. Ölkədə İKT sferasının infrastruktur və institutsional formalaşma vəziyyətinin mövcud və inkişaf səviyyəsini müəyyənləşdirmək üçün monitorinqin aparılması məqsədilə dünya təcrübəsi əsasında regional inkişaf kriteriyaları, göstəriciləri işlənilib hazırlanmalı və istifadə edilməlidir. İKT-nin infrastruktur və institutsional formalaşma vəziyyətinin düzgün qiymətləndirilməsi və müvafiq sahədəki qərar qəbuletmə işlərində ondan istifadə edilməsi dövlətin informasiya siyasətinin əsas vəzifələrindəndir. Bu proses İKT-nin inkişaf indeksinə müvafiq olaraq aşağıdakı göstəricilərlə xarakterizə edilə bilər [7]: Əhalinin hər 100 nəfərinə düşən internet istifadəçilərinin və kompüter istifadəçilərinin sayı, Kompüteri olan ev təsərrüfatlarının ölkə üzrə ev təsərrüfatlarında xüsusi çəkisi, İnternetə çıxışı olan ev təsərrüfatlarının ölkə üzrə ev təsərrüfatlarında xüsusi çəkisi, İKT sektorunda məhsul (xidmətlər) buraxılışı, İKT sektorunda yaradılmış əlavə dəyərin ÜDM-də xüsusi çəkisi, İKT məhsullarının idxalı, kompüterlərin struktur tərkibi; informasiya texnologiyaları (aparat, proqram) xərclərinin strukturu; informasiya-hesablama resurslarının/xidmətlərinin struktur tərkibi; İnternet istifadəçilərinin struktur tərkibi; İnternet şəbəkəsi serverlərinin struktur tərkibi; əhalinin 1000 nəfərinə düşən kompüterlərin struktur tərkibi; elektron sənəd mübadiləsinin struktur tərkibi; informasiya xidmətlərinin istehsalı/göstərilməsi üzrə iş yerlərinin struktur tərkibi; idarəetmə strukturlarında olan informasiya-hesablama sistemlərinin struktur tərkibi və istifadə dərəcəsi; regional-sahəvi İKT infrastrukturları, regional-sahəvi şəbəkələr, sistemlər,texnologiyalar, kontentlər informasiya resursları; makro və regional-sahəvi İKT proseslərin tənzimlənməsi mexanizmləri vasitələri; makro və regional-sahəvi normativ-hüquqi vasitələr. Hazırda dünyada İKT sferası İnternet, e-biznes, e-kommersiya, bulud, Big Data, Əşyaların İnterneti, kiber-fiziki sistemlərin tətbiqi ilə inkişaf etməkdədir. Ona görə də müvafiq sahədəişləniləcək kompleks göstəricilər sistemi rəqəmsal iqtisadiyyatın formalaşmasına ciddi təsir göstərən amilləri, şərtləri interaktiv olaraq nəzərə almalıdır.

İKT sektorunun inkişaf potensialının formalaşdırılmasının innovativ istiqamətləri. İKT sektorunun inkişaf potensialının formalaşdırılmasının innovativ istiqamətlərinin təhlili və qiymətləndirilməsi zamanı əsasən kriterial xüsusiyyətlərə malik olan proseslərə diqqət yetirilməlidir. Bu məqsədlə İKT sahəsinin inkişafının əsas innovativ istiqamətlərini qeyd etmək olar [5]: İKT-nin səmərəli tətbiqi və sosial-iqtisadi fəaliyyət sferasında İKT-nin rolunun artırılması, səhiyyənin, təhsilin, maliyyənin rəqəmsallaşdırılması, iqtisadiyyatın bir çox sahələrinin rəqəmsal-

laşdırılması üçün İKT infrastrukturunun inkişafı, ölkənin İKT sənayesi potensialının artırılması, genişzolaqlı internet xidmətləri infrastrukturunun genişləndirilməsi, cəmiyyətin İKT xidmətlərinə tələbatının təmini və real sektorda İKT-dən istifadənin genişləndirilməsi, İKT sahəsində rəqabət-qabiliyyətli, ixracyönümlü və innovativ iqtisadi potensialın gücləndirilməsi, ÜDM-in tərkibində İKT-nin xüsusi çəkisinin artırılması və e-xidmətlərin keyfiyyətinin artırılması, yüksəkixtisaslı İKT mütəxəssislərinə artan tələbatın təmin edilməsi, sosial mühitdə rəqəmsal texnologiyaların istifadəsinin genişləndirilməsi, virtual mühitdə e-təhsil, e-səhiyyə, e-kitabxana, e-mədəniyyət, e-ticarət, e-sosial, e-idarəetmə sahəsində infrastruktur və institutsional imkanların inkişaf etdirilməsi, virtual mühitdə istehsal, istehlak, bölgü, mübadilə və s. kimi iqtisadi münasibətlərin həyata keçi-rilməsi səviyyəsinin artırılması, qərarların qəbul edilməsində cəmiyyət üzvlərinin fəal iştirakının təmin edilməsi, təhsil, səhiyyə, mədəniyyət sahələri üzrə elektron resursların inkişaf etdirilməsi, informasiya iqtisadiyyatının Big Data, Internet of Things (İoT), cloud, kiber-fiziki sistemlər, super kompüter, süni intellekt, intellektual sistemlər, kontent, kosmik informatika, e-idarəetmə, pilotsuz uçan aparatlar, sürücüsüz nəqliyyat vasitələri kimi perspektiv altsektorlarının formalaşdırılması və s. Təhlillər göstərmişdir ki, İKT-nin qeyri-neft sektorunun formalaşmasına təsiri böyük ola bilər [2, 6]. Proqnozlara görə 2025-ci ilə qədər ÜDM-də 3 faizdən çox orta illik real artım və əlavə olaraq da 450 mindən çox yeni iş yerinin yaradılması gözlənilir. Qeyri- neft sektoruna yönəldilmiş birbaşa xarici investisiyaların qeyri-neft ÜDM-dəki payı hazırkı 2,6 faizdən 2025-ci ilə qədər 4 faizə çatdırılacaqdır.

Rəqəmsal iqtisadiyyatın mahiyyəti və xüsusiyyətləri. Milli iqtisadiyyatın rəqəmsallaş-dırılması və yeni rəqəmsal iqtisadi sektorların formalaşdırılması üçün müasir tələblərə uyğun innovativ İKT infrastrukturunun inkişaf etdirilməsi; ölkədə rəqəmsal ekosistemin formalaşması; inkişaf etmiş dövlətlərin bu sahədə beynəlxalq təcrübəsinin tətbiqi; innovativ texnologiyaların tətbiqinin stimullaşdırılması; yeni dövlət proqramlarının, konsepsiyalarının həyata keçirilməsi proseslərinin sürətləndirilməsi tədbirlərinin həyata keçirilməsi məqsədəuyğun hesab olunur.

Rəqəmsal iqtisadiyyat – iqtisadiyyatın müasir informasiya texnologiyalarının tətbiqiylə bilavasitə elektronlaşan hissəsindən ibarətir. *Rəqəmsal iqtisadiyyat* E-biznesin, e-kommersiyanın, e-məhsul və xidmətlərin, İKT-nin birbaşa tətbiqiylə virtual məkanda iqtisadi və sosial fəaliyyətin, digər biznes proseslərin elektron rejimdə həyata keçirilməsindən ibarətdir. Rəqəmsal iqtisadiyyatın rəqəmsallaşma, izlənilmə, əlaqələnmə, bölüşdürülmə, özəlləşdirilmə və s. kimi xüsusiyyətləri vardır. Rəqəmsal iqtisadiyyatın istehsal, paylama, mübadilə, istehlak və s. kimi bir çox mərhələləri mövcuddur [8, 9]. Rəqəmsal iqtisadiyyat rəqəmsallaşma, İnternet şəbəkəsi, telekommunikasiya sənayesi, rəqəmsal servis provayderləri, e-biznes və e-ticarət sənayesi, informasiya və bilik idarəetmə sistemləri, intelektual mülkiyyət hüquqları, insan kapitalı, yüksək texnologiya, sürətli və etibarlı rabitə texnologiyaları, 5G texnologiyasının tətbiqi, fərqli tərkibdə yeni məhsul istehsalı və s. kimi əsas hərəkətverici qüvvələrdən və tərkib elementlərindən ibarətdir. Rəqəmsal iqtisadiyyatın ənənəvi iqtisadiyyatdan bir sıra fərqli və üstün cəhətləri vardır. Rəqəmsal iqtisadiyyatın qərarların qəbul edilməsinin informasiya dəstəyi real vaxtda məlumatların böyük həcmdə işlənməsi, məsafədən əldə edilməsi və funksionallığı sayəsində sadələşdirilməsi; əhali və biznesin getdikcə elektron, onlayn qarşılıqlı fəaliyyətə və onlayn xidmətə keçməsi; müəssisənin rəqəmsallaşdırılması və məhsulların əksəriyyətinin rəqəmsal formata köçürülməsi; canlı əməyin robotlaşdırılmış, elektronlaşdırılmış şəkildə həyata keçirilməsi; yeni növ əşyaların, hətta insan orqanlarının belə kompüterləşdirilmiş istehsalının 3D printerlərdə hazırlanması; informasiyaya çıxışın asanlığı və onun emalı üçün qabaqcıl texnologiyaların istifadəsi səbəbindən informasiya asimmetriyasının azalması; əşyaların İnternetinin yaranması; bazarda pilotsuz nəqliyyat və s. kimi yeni məhsulların yaranması; yeni elektron pul növlərinin formalaşması; "rəqəmsal şəhər" konsepsiyasının reallığa çevrilməsi; elektron hökumət konsepsiyasının təqdim olunmasə və s. kimi bəzi əhəmiyyətli xüsusiyyətləri vardır [10]:

Rəqəmsal iqtisadiyyatın formalaşması mərhələləri. Rəqəmsal iqtisadiyyatın məqsədi cəmiyyət həyatının hər yerində rəqəmsal texnologiyaların tətbiqini və inkişafı təşkil etməkdir. Rəqəmsal iqtisadiyyatın ortaya çıxması iqtisadiyyatın bütün sektorlarının kompüterləşdirilməsi və rəqabət qabiliyyəti üçün yeni imkanlar açır. Beynəlxalq təşkilatlara görə, iş yerlərinin

rəqəmsallaşmasına görə dünya ÜDM-i 2030-cu ilə qədər 9 trilyon dollara qədər arta bilər. 2030-cu ilə qədər dünya işçi qüvvəsinin 14 faizi öz ixtisasını dəyişmək məcburiyyətində qalacaq. Bütün bu proqnozlar isə ali təhsilimizi ciddi və vacib çağırışlarla üz-üzə qoyur. 2035-ci ilə dünya rəqəmsal iqtisadiyyatının proqnozlaşdırılan həcmi 16 trln. dollar təşkil edəcəkdir. 2025-ci ildə Çində ÜDM artımının 22 %-nə qədəri internet texnologiyası hesabına təmin ediləcəkdir. 2025-ci ildə ABŞ-da rəqəmsal texnologiyalar hesabına yaradılan dəyərin gözlənilən artımı 1,6-2,2 trln. dollar ətrafında olacaqdır. ABŞ-da rəqəmsal iqtisadiyyatın həcmi ÜDM-in 10,9%-ni təşkil edir. 2018-ci ildə rəqəmsal texnologiyalardan istifadə etməklə göstərilən xidmətlərin ixracının həcmi 2,9 trln. dollara çatmışdır ki, bu da dünya üzrə xidmət ixracının 50%- ni təşkil edir. 2025-ci ilə qədər internet dünya iqtisadiyyatına ildə 4-11 trln. dollar gəlir gətirəcəkdir. 2025-ci ildə rəqəmsallaşma ÜDM artımının 19-34%-ni təmin edəcəkdir. 2036-cı ildə iş proseslərinin 50%-ə qədəri avtomatlaşdırılacaqdır [8, 9, 11]. Son onillikdə ölkədə İKT-nin inkişaf etdirilməsi bütövlükdə qeyri-neft sektorunun inkişafı ÜDM-in 2 dəfə artırılmasına, sosial-iqtisadi fəaliyyətin yeni formalarının təşəkkül tapmasına, İKT-nin inkişafı ilə respublikada biliyə əsaslanan innovasiya yönlü iqtisadiyyatın qurulmasına, intellektual potensialın gücləndirilməsinə, biznesin irəliləməsinə, elektron xidmətlərin inkişaf etdirilməsinə, informasiya məhsul və xidmət tələbatının dolğun ödənilməsinə, ixrac yönümlü İKT potensialının gücləndirilməsinə imkan verəcəkdir. Azərbaycanın bank sistemində rəqəmsallaşmanın genişləndirilməsi, rəqəmsal ödənişlərin institusional mühitinin yaxşılaşdırılması, bank sektorunun yenidən canlandırılması, rəqəmsal ödənişlər üzrə maarifləndirmənin gücləndirilməsi, rəqəmsal, onlayn ödənişlərin genişləndirilməsinə dair qarşıya qoyulmuş vacib məqsədlərə çatmaq üçün inkişaf istiqamətləri müəyyənləşdirilmişdir.

Rəqəmsal iqtisadiyyatın formalaşmasının texniki və texnoloji problemləri. Rəqəmsal iqtisadiyyatın texnoloji əsaslarının əsas istiqamətlərinə 3D çap texnologiyaları, nanotexnologiyaları, Big Data, bulud hesablama, smart sistemləri, kvant, yeni nəsil super kompüterlərin yaradılması, süni intellekt və qlobal rəqəmsal infrastruktur elementləri olan sənaye sistemlərinin yaradılması, “ağıllı fabriklər”, “ağıllı şəhərlər”-in yaradılması, rəqəmsal valyuta, kriptovalyutalar, "Əşyaların İnterneti", IV Sənaye İnqilabı" və s. aid etmək olar [12]. Rəqəmsal iqtisadiyyatın məzmununu sadələşdirilmiş formulalarla da ifadə etmək olar [13].

Rəqəmsal iqtisadiyyatın inkişaf səviyyəsinin ölçülməsi üzrə beynəlxalq tədqiqatlar. Dünya ölkələrində iqtisadiyyatın rəqabətədavamlılıq səviyyəsinin qiymətləndirilməsi üçün Birləşmiş Millətlər Təşkilatı, Dünya İqtisadi Forumu, Dünya Bankı, Beynəlxalq Telekommunikasiya İttifaqı, Menecmentin İnkişafı İnstitutu və bu kimi başqa nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən bir sıra əsas indikatorlar işlənilib hazırlanmışdır. Son dövrlərdə beynəlxalq təşkilatların illik hesabatlarında dünya ölkələrinin müxtəlif sahələr üzrə İKT, iqtisadi və innovativ xarakterli indeksləri müəyyənləşdirilmişdir. Ümumiyyətlə elmi-praktiki ədəbiyyatda rəqəmsal iqtisadiyyatı xarakterizə edən indekslərdən bunlara rast gəlmək olar [14]: 1)İqtisadiyyat indeksi, 2)Rəqəmsal iqtisadiyyat və cəmiyyət indeksi, 3)Qlobal kreativlik indeksi, 4)Şəbəkə hazırlığı və IKT-nin inkişafı indeksi, 5)Qlobal rəqabət qabiliyyətlilik indeksi, 6)Qlobal innovasiya indeksi, 7)Qlobal sahibkarlıq indeksi, 8)Bilik iqtisadiyyatı indeksi və s.

Rəqəmsal bazarın yaradılmasında prioritet sərmayə istiqamətlərinin aşkarlanması və rəqəmsal məhsuldarlığın yaxşılaşdırılması üçün Avropa Birliyi ölkələrinə kömək etmək məqsədilə ilk dəfə olaraq Rəqəmsal İqtisadiyyat və Cəmiyyət İndeksi (Digital Economy and Society Index) [15] hesablanmış və həmin indeks onun formalaşmasına təsir edən 12 qrupda olmaqla 5 subindeksdən və 28 göstəricidən təşkil olunmuşdur: 1)Kommunikasiya, 4 qrupda (7 göstərici); 2)İnsan kapitalı, 2 qrupda (4 göstərici); 3)İnternetdən istifadə, 3 qrupda (6 göstərici); 4)Rəqəmsal texnologiyaların inteqrasiyası, 2 qrupda (7 göstərici); 5)Rəqəmsal xidmət, 1 qrupda (4 göstərici).

Dünya İqtisadi Forumunun 141 ölkə üzrə 2019-cu il üçün hesabatına əsasən Azərbaycanın Qlobal Rəqabətqabiliyyətlilik İndeksi üzrə [16] Azərbaycan 58-ci yerdə 62.7 balla qiymətləndirilmişdir. O, “İnternet istifadəçiləri” göstəricisinə görə digər MDB ölkələri arasında liderdir. Azərbaycanın Qlobal Rəqabətqabiliyyətlilik İndeksi 12 göstərici üzrə hesablanmışdır. Həmin indeksdə Azərbaycanın innovasiya potensialı göstəricisi üzrə qiyməti (0-100 şkalasında) 38.3 balla 68-ci yerdə, kommersiyalaşma göstəricisi üzrə (0–100 şkalasında) 56.1 balla 68-ci yerdə,

tədqiqat və inkişaf göstəricisi üzrə (0–100 şkalasında) 19.8 balla 111-ci yerdə qərarlaşmışdır. Qlobal İnnovasiya İndeksi [17] ölkələri innovasiya inkişafı səviyyəsi göstəricisi üzrə reytinqləşdirən qlobal tədqiqatdır. Qlobal İnnovasiya İndeksi İNSEAD (Beynəlxalq Biznes-məktəb, Fransa) metodikası ilə hesablanır. Tədqiqatlar 2007-ci ildən Kornel Universiteti, INSEAD və Dünya Əqli Mülkiyyət Təşkilatı (Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşmış qurumu olan WIPO) tərəfindən birgə aparılır. Həmin hesabatda Azərbaycan 82-ci reytinqlə 0–100 şkalasında 27.23 bala malik olmuşdur. Qlobal Sahibkarlıq İndeksinin (QSİ) 2019-cu il üçün hesabatda 137 ölkə siyahısında 56-cı qlobal reytinqə malik olmaqla 32.1 bala sahib olmuşdur [18]. Qlobal İKT-nin inkişaf indeksi [19] 2017-ci il üzrə Azərbaycan 65-ci yerdə olmaqla 6.20 qiymətə malik olmuşdur. Yuxarıda göstərilən kompleks İKT, İnternetin inkişafı, innovasiya, iqtisadi, sahibkarlıq və biznes üzrə göstəricilərinin digər qabaqcıl ölkələrlə müqayisəli təhlili təsdiq edir ki, ölkənin həmin sahə üzrə göstəricilərini yaxşılaşdırmaq imkanları vardır. Onlardan səmərəli istifadə etmək yollarının müəyyənləşdirilməsi iqtisadiyyatın rəqəmsallaşdırılmasında İKT infrastrukturunun formalaşması və idarə olunmasının nəticəliliyini kifayət qədər artıra bilər.

Rəqəmsal iqtisadiyyatın ölçülməsində istifadə olunan əsas indikatorlar sistemi. 1. Rəqəmsal iqtisadiyyatın ölçmə sistemində kompozit indikatorlardan da geniş istifadə edilir [20]. Fərdi göstəriciləri bir ölçüdə birləşdirməklə kompozit indikatorlar yaradılır. Kompozit indikatorlar tez-tez çox ölçülü və bir çox hallarda ayrı-ayrı indikatorlarla əhatə oluna bilməyən mücərrəd anlayışların ölçülməsi üçün istifadə edilir. Kompozit indikatorlar iqtisadiyyatın, cəmiyyətin inkişaf səviyyəsinin təhlili, qiymətləndirilməsi və müqayisəsi üçün faydalı instrumentariyadır. Kompozit indekslərin qurulması çox da rahat deyil və bəzi diqqət tələb edən mərhələləri birləşdirir. Onlara aşağıdakıları aid etmək olar: Nəzəri əsas, verilənlərin seçilməsi, çoxfaktorlu analiz normallaşdırma (indekslər müqayisə edilə bilməsinin mümkünlüyünə görə normallaşdırılmalıdır), çatışmayan verilənlərin şərti hesablanması, çəki və cəmləmə, aqreqasiya. Real verilənlərə qayıdış, etibarlılıq və həssaslığın yoxlanılması, digər dəyişənlərə istinadlar, əyani təsvir. Kompozit indekslər şəffaf olmalıdır. Onların bir çox müsbət və mənfi tərəflərini müşahidə etmək olar. Rəqəmsal iqtisadiyyatın inkişaf səviyyəsinin qiymətləndirilməsi göstəricilərinə İKT sahəsində tədqiqat və inkişafa çəkilən xərcın səviyyəsi, İKT məhsul-xidmət istehsalının həcmi, İKT sektoru üzrə təşkilatlarının əsas fəaliyyət səviyyəsi, İKT üzrə mütəxəssislərin sayı, İKT sahəsində ixtira üzrə patent müraciətlərinin sayı, əhalinin İnternetə çıxış faizi, rəqəmsal texnologiyaların maliyyələşməsinə çəkilən xərclər, İKT sektorunda fəaliyyət göstərən təşkilatlara qoyulan investisiyaların növləri üzrə strukturu, İKT sektorunda texnoloji innovasiyalara çəkilən xərclərin strukturu, sahibkarlıq sektoru təşkilatlarının rəqəmsallaşdırılması səviyyəsi, sahibkarlıq sektoru təşkilatlarında İnternetdən istifadə istiqamətlərinin səviyyəsi və s. göstərmək olar.

Rəqəmsal iqtisadiyyatın inkişaf səviyyələrinin qiymətləndirilməsi üsullarının təkmilləşdirilməsi istiqamətləri. Rəqəmsal iqtisadiyyat sektorlarının səviyyəsinin qiymətləndirilməsinə regional və sahəvi yanaşmanın tədqiqi üçün onun alt sahələri müəyyənləşdirilməlidir. İnnovasiya, bilik, rəqəmsal və texnoloji iqtisadiyyat sahələrinə aşağıdakı alt sahələri daxil etmək olar: İKT iqtisadiyyatı, Bioiqtisadiyyat, Kosmik iqtisadiyyat, Nanoiqtisadiyyat, Təhsil iqtisadiyyatı, Dil iqtisadiyyatı, Tibb iqtisadiyyatı, Elm iqtisadiyyatı, İncəsənət-art iqtisadiyyatı, Kreativ iqtisadiyyat, İdman iqtisadiyyatı, Mədəniyyət iqtisadiyyatı, Alternativ energetika iqtisadiyyatı, Ekoloji iqtisadiyyat, Teoloji iqtisadiyyat, Patent iqtisadiyyatı, Diaspor iqtisadiyyatı və başqaları [20]. İnformasiya və biliklər iqtisadiyyatının sahəvi təsnifatı aşağıdakı kimi də formalaşdırıla bilər: İnternet; Proqram mühəndisliyi və avtomatlaşdırma texnologiyaları; Rəqəmsal kontentlər; İT-servis, Telekommunikasiya; Kompütinq və elektron sənaye; Kreativ kontent və rəqəmsal media; Elektronika sahəsi; Hərbi sənaye; Aerokosmik və aviasiya sənayesi; İdarəetmə servisləri; Bio, nano və yüksək texnologiyalar; Optik sənaye; Nəqliyyat və rabitə; Enerji sektoru; Kimyəvi maddələr və neft kimyası, Elmi-tədqiqat, təcrübə-konstruktor işləri; Elmi texnoloji tutumlu xidmət sahələri; Təhsil; Media sektoru və s. Kənd təsərrüfatı, sənaye, metallurgiya, nəqliyyat, tikinti, neft-qaz, energetika, təbii ehtiyatlar və s. ənənəvi sahələrə aid olsalar da, rəqəmsal innovativ iqtisadiyyatın sahəvi təsnifatına onları da daxil etmək olar.



Şəkil 1. Rəqəmsal iqtisadiyyatın inkişafının müxtəlif səviyyələrdə qiymətləndirilməsinin kompüter modelinin arxitektur-texnoloji strukturu

Rəqəmsallaşma səviyyələrini qiymətləndirmək üçün təklif olunan ilkin göstəricilər [21]: İnternetə qoşulmaq üçün mobil cihazdan istifadə edən ailələrin (cib telefonu və ya smartfon, e-kitab oxuyucusu və s.) bütün ailələrdə payı, 15 ilə 74 yaş arasındakı bütün fərdlərdən internetə qoşulmaq üçün mobil cihazdan istifadə edən əhalinin sayı, 15 ilə 74 yaş arasındakı bütün fərdlər arasında internet üzərindən mal və ya xidmət sifariş edən əhalinin nisbəti, dövlət və bələdiyyə xidmətlərindən istifadə edən 15 yaşdan 74 yaşa qədər olan fərdlərdən, İnternet üzərindən dövlət və bələdiyyə elektron xidmətlərindən istifadə edən əhalinin payı, bütün müəssisələr arasında internetdən istifadə edən müəssisələrin nisbəti, bütün müəssisələr arasında bulud xidmətlərindən istifadə edən müəssisələrin nisbəti, bütün müəssisələrin mübadilə formatları ilə daxili və xarici informasiya sistemləri arasında elektron məlumat mübadiləsindən istifadə edən müəssisələrin payı. Rəqəmsal iqtisadiyyatın inkişaf səviyyələrinin qiymətləndirilməsinin təkmilləşdirilməsi üçün kompüter modelinin arxitektur-texnoloji strukturu belə təklif olunmuşdur (şəkil 1).

Nəticə. İqtisadiyyatın və cəmiyyətin rəqəmsal transformasiyası ölkə qarşısında duran əsas prioritet məsələlərdəndir. Müasir dövrdə iqtisadiyyatın daha sürətli inkişafına nail olmaq üçün onun rəqəmsal texnologiyalar əsasında inkişafının təmin edilməsi, süni intellekt və robotlaşdırma, informasiya-kommunikasiya, big-data, İoT, kosmik və s. kimi yüksək texnoloji sektorlarının inkişaf etdirilməsi əsas məqsədlərdən hesab olunur. İqtisadiyyatın rəqəmsallaşdırılması infrastrukturunun təkmilləşdirilməsi və ölkənin İKT sənayesi potensialının artırılması bilavasitə həmin vəzifələrin

icrasına yönəlmişdir. Hazırkı dövrdə qabaqcıl dünya dövlətləri rəqəmsal xidmətlərin genişləndirilməsi və elektron hökumətin inkişafı vasitəsilə səmərəliliyin və şəffaflığın artırılmasına nail olmağa çalışırlar. İKT sektorunun infrastruktur və institutsional formalaşma problemlərinin həlli, onun inkişaf potensialının innovativ istiqamətlərinin formalaşdırılması da göstərilən problemin həllində müsbət nəticələrin alınmasına gətirib çıxara bilər. Rəqəmsal iqtisadiyyatın inkişafına, ÜDM-də onun payının artmasına nail olmaq üçün müvafiq infrastrukturun formalaşmasına, effektiv idarə olunmasına, rəqəmsal texnologiyaların hərtərəfli tətbiqinə şərait yaradılmalıdır. Bunların idarə olunması üçün rəqəmsal iqtisadiyyatın ölçülməsində istifadə olunan əsas indikatorlar sistemi və onun inkişaf səviyyəsinin qiymətləndirilməsi göstəriciləri işlənilmiş və qiymətləndirilmə üsullarının təkmilləşdirilməsi istiqamətləri müəyyənləşdirilmişdir. Rəqəmsal iqtisadiyyatın inkişafının müxtəlif səviyyələrdə qiymətləndirilməsinin kompüter modelinin arxitektur-texnoloji struktur modeli əsasında aparılan araşdırmaların göstərdiyi kimi, iqtisadiyyatın rəqəmsallaşdırılması, müxtəlif sahələrdə rəqəmsal texnologiyaların tətbiqi və onun infrastrukturunun təkmilləşdirilməsi fonunda "ağıllı şəhər" və "ağıllı kənd"lərin müasir modellərinin idarə edilməsi ölkə qarşısında duran əsas prioritetlərin icrasına dəstəkdir. Göründüyü kimi iqtisadiyyatın rəqəmsallaşdırılması infrastrukturunun formalaşması və idarə olunması IV Sənaye inqilabının çağırışlarına müvafiq olaraq yeni iqtisadi idarəetmə şəraitində regional və sektorial iqtisadiyyatın inkişafında əlavə imkanlar yarada bilər.

Ədəbiyyat

1. Schwab K. The Fourth Industrial Revolution. Limited, 2017, 192 p.
2. Telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi. Bakı, 6 dekabr 2016. https://president.az/articles/22382.
3. "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və onun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, 2 fevral 2021. https://president.az/articles/50474.
4. Rəqəmsal transformasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı, 27 aprel 2021. https://president.az/articles/51299.
5. Бычкова С.Г., Паршинцева Л.С. Информационно-коммуникационные технологии как основа развития информационного общества: Россия в системе международных статистических индикаторов. Статистика и экономика, 2019, Т.16, №1, с. 32-40.
6. Əliyev Ə.Q. IKT sektorunun müasir vəziyyətinin və perspektiv inkişaf potensialının qiymətləndirilməsi məsələləri. Informasiya cəmiyyəti problemləri, 2020, №2, səh.51–64.
7. AR Dövlət Statistika Komitəsi. Azərbaycanda İnformasiya Cəmiyyəti. Statistik Məcmuə. Bakı, 2020, 122 s. www.stat.gov.az/source/information_society/
8. Сысоева Е.А. Цифровые инновации в современном мире. Проблемы современной экономики, 2018, №3(67), стр. 39-43.
9. Digital Economy Report. 2019, 194 p.
10. Ustyuzhanina E.V. The impact of the digital revolution on the paradigm shift in the economic development. Revista Espacios, 2017, NO62, pp.2-4.
11. Вдовин С.А., Убоженко Е.В., Лобанова Е.И. Опыт, проблемы и перспективы стратегий развития цифровой экономики в России и за рубежом. Экономика: вчера, сегодня, завтра. 2019, Т.9, №1-1, с.573-582.
12. Сарыгулов А.И. Рапгоф В.Б. О некоторых подходах к оценке цифровой экономики. Проблемы современной экономики. 2020, №2(74), стр. 46-50.
13. Bayramov Ə.İ. Rəqəmsal inqilab: Milli iqtisadiyyatın gələcəyi. Monoqrafiya. Bakı 2021, 252 s.
14. Кох Л.В., Кох Ю.В. Анализ существующих подходов к измерению цифровой экономики. Научно-технические ведомости СПбГПУ. Эконом. науки. 2019, Том 12, №4, с.78-89
15. Digital Economy and Society Index. 2020. https://ec.europa.eu/digital-single-market/en/digital-economy-and-society-index-desi.

16. The Global Competitiveness Report. World Economic Forum. 2019, 666 p. http://www3.weforum.org/docs/WEF_TheGlobalCompetitivenessReport2019.pdf
17. Global Innovation Index. 2020, 448 p. https://www.globalinnovationindex.org/Home
18. The Global Entrepreneurship Index. 2019, 71 p. https://thegedi.org/wp-content/uploads/2021/02/2019_GEI-2019_final_v2.pdf.
19. ICT Development Index. https://www.itu.int/en/ITU-D/Statistics/Pages/publications/mis2017/methodology.aspx.
20. Aliyev A.G. Development system of hierarchical indicators for analyzing and measuring the level of growth of information and knowledge economy. Management Dynamics in the Knowledge Economy, 2021, vol 9, NO 1, issue 31, pp.65-80.
21. Sidorov A., Senchenko P. Regional digital economy: assessment of development levels. Mathematics, 2020, 8(12), 2143.

ЦИФРОВАЯ ЭКОНОМИКА: СОСТОЯНИЕ И ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ

Кирсанов С.А.- профессор РГГУ (Москва, РФ)
ksaimr@mail.ru
Паламаренко Г.А. - доцент РГГУ (Москва, РФ)

Аннотация

Современные информационные технологии оказывают огромное влияние на экономику и общество, изменяя сложивший экономический уклад и образ жизни людей. Цифровая экономика стремительно развивается, ее рост опережает другие отрасли. Отметим, что цифровизация — один из главных факторов мирового экономического роста. В статье рассматривается цифровизация экономики России и других стран.

Ключевые слова: цифровая экономика, цифровизация, IT-технологии

Цифровая экономика России

Правительство РФ реализует крупные инфраструктурные проекты, значительных успехов достигли частные компании, активно внедряются мобильная и широкополосная связь. Однако Россия пока отстает от стран — цифровых лидеров по основным показателям развития цифровой экономики.

Доля цифровой экономики в совокупном ВВП России составляет сегодня 3,9 %, что в разы ниже, чем, например, в США, Сингапуре, Израиле. Цифровые расходы домохозяйств составляют 2,6 % ВВП России[4]. Основными причинами отставания России от мировых лидеров в развитии цифровой экономики являются негативная среда для ведения бизнеса и внедрения инноваций во все сферы экономики; не отвечающее современным требованиям законодательство; пониженный уровень применения IT- технологий в бизнесе и др.

Тем не менее, к 2025 г. цифровая экономика России может достичь 8-10% ВВП страны. По прогнозам аналитиков потенциальный экономический эффект от цифровизации экономики России может увеличить ВВП страны к 2025 г. на 4,1-8,9 трлн руб.[5]

В соответствии со Стратегией развития информационного общества в Российской Федерации активно развертывается внедрение цифровых технологий во всех областях экономики, а также в государственном управлении. Программа «Цифровая экономика Российской Федерации», утвержденная распоряжением Правительства РФ от 28.07.2017 № 1632-р, стала основой для развития всего общества. Основными результатами деятельности по цифровизации должна стать разработка до 2024 г. генеральной схемы развития сетей

[4] Ирина Ли Цифровая экономика увеличит к 2025 году ВВП России на 8,9 трлн руб.// https://www.rbc.ru/technology_and_media/05/07/2017/595cbefa9a7947374ff375d4
[5] Ирина Ли Цифровая экономика увеличит к 2025 году ВВП России на 8,9 трлн руб.// https://www.rbc.ru/technology_and_media/05/07/2017/595cbefa9a7947374ff375d4

связи и инфраструктуры хранения и обработки данных, а также концепции создания и развития сетей 5G/IMT-2020.

Тем не менее, некоторые исследователи отмечают недостаточную системность программы «Цифровая экономика Российской Федерации» и, как следствие, отсутствие тесной взаимоувязанности программы с другими государственными проектами.[6]

Ситуация с цифровой экономикой в ряде стран

В последние годы в Китае наблюдается стремительный рост цифровизации экономики, особенно в таких сферах, как электронная торговля, финансовые технологии, сфера производства. Организация экономического сотрудничества и развития в своем индексе цифрового развития отводит на долю цифровой экономики Китая 6% в структуре ВВП; Японии и Республике Корея - 8-10% от ВВП.[7]

Согласно оценкам Глобального института McШтеу в Китае до 22% увеличения ВВП к 2025 г. может произойти за счет IT-технологий.[8] Правительство Китая ставит амбициозные цели по достижению доли цифровой экономики 50% в структуре ВВП к 2030 г.

Всемирный гигант платежных решений «Mastercard» запустил свою первую технологическую лабораторию в г. Пуна (Индия), которая позволит перейти к цифровой экономике и финансовой интеграции. Метрополитены городов Дели, Мумбай, Бангалор и Ченнаи смогут получать дополнительно более 7млрд $ в год путем увеличения цифровых платежей. Инвестиции частного капитала в Индии увеличились на 59% до 24,4 млрд.$ в 2017 г., согласно данным, предоставленным «Venture Intelligence».[9]

Объединенные Арабские Эмираты признаны самым передовым рынком в арабском мире и 22-м в глобальном рейтинге. Среди высокоразвитых в цифровом плане стран, ОАЭ (3,22 балла) наряду с Новой Зеландией (14-е место с результатом 3,54 балла) и Сингапуром (6-е место с 3,69 баллами) оказались единственными тремя странами, отнесенными к категории «выдающиеся», учитывая их ведущую роль в продвижении и применении инноваций.[10]

ОАЭ обладает самым высоким уровнем цифровой идентификации, которая измеряется с помощью различных индикаторов, таких, например, как доступ к сервисам, электронная подпись и др. Эта страна продвигает ряд цифровизационных инициатив, в том числе расширение широкополостного покрытия, создание унифицированной платформы для обслуживания «smart cities».[11] Так, Масдар сити - первый в мире проект зеленого города с нулевым выбросом углерода, который разрабатывается в Абу-Даби.[12]

---

[6] Капранова Л.Д. ЦИФРОВАЯ ЭКОНОМИКА В РОССИИ: СОСТОЯНИЕ И ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ // Экономика. Налоги. Право. – 2018// https://cyberleninka.ru/article/n/tsifrovaya-ekonomika-v-rossii-sostoyanie-i-perspektivy-razvitiya

[7] China's Digital Economy: Opportunities and Risks // International Monetary Fund Working Paper. 2019. [Электронный ресурс] //Международный валютный фонд. URL: https://www.imf.org/en/Publications/WP/Issues/2019/01/17/ Chinas-Digital-Economy-Opportunities-and-Risks-46459

[8] Капранова Л.Д. ЦИФРОВАЯ ЭКОНОМИКА В РОССИИ: СОСТОЯНИЕ И ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ // Экономика. Налоги. Право. – 2018// https://cyberleninka.ru/article/n/tsifrovaya-ekonomika-v-rossii-sostoyanie-i-perspektivy-razvitiya

[9] Financial Services in India//IBEF. URL: https://www.ibef.org/industry/financial-services-india.aspx

[10] **Гаджизаде A.WEF назвал ОАЭ одной из выдающихся цифровых экономик и передовым рынком среди арабских стран** https://azertag.az/ru/xeber/WEF_nazval_OAE_odnoi_iz_vydayushchihsya_cifrovyh_ekonomik_i_peredovym_rynkom_sredi_arabskih_stran-1082995?__cf_chl_jschl_tk__=pmd_Je8WqL97TKRgprY6OlYL.lyg6_NEGbmTpd0yjRIkcKs-1633694415-0-gqNtZGzNApCjcnBszQh9

[11] Руденко Л.Н. ПЕРСПЕКТИВЫ ЦИФРОВОЙ ТРАНСФОРМАЦИИ ЭКОНОМИКИ АРАБСКИХ СТРАН // Российский внешнеэкономический вестник. – 2019// https://cyberleninka.ru/article/n/perspektivy-tsifrovoy-transformatsii-ekonomiki-arabskih-stran

[12] Masdar City: первый в мире эко-город будущего // Royaldesign URL: http://royaldesign.ua/ru/masdar-city-pervyiy-v-mire-eko-gorod-buduschego.bX69f/

Заключение

Тенденция цифровизации различных общественных сфер в глобальном масштабе очевидна. В России наблюдается тенденция к инвестициям в цифровые технологии со стороны коммерческих компаний, но необходимо энергичнее перенимать опыт Индии, где инвестиции частного капитала увеличились на 59% всего лишь за один год. Для этого необходимо реально поддерживать малый бизнес в области стартапов.

Кроме этого, России необходимо повысить уровень использования передовых технологий в образовании, для чего на государственном уровне нужно рассмотреть и перенять опыт Японии, где «Умный город» Цунасима стал примером реального воплощения инноваций в области образования.[13] Данная практика позволит создать подходящую ситуацию для развития молодых талантов в сфере технологий и инноваций, применяя при этом новаторские формы организации учебной, научной и исследовательской деятельности.

Важно резюмировать тот факт, что сегодня цифровизация стала ключевым фактором, влияющим на экономический рост страны. Для успешного развития цифровой экономики и сокращения разрыва с вышеназванными странами России необходимо наращивать интеллектуальные и технологические преимущества, совершенствовать нормативное регулирование для успешного внедрения IT-технологий во все сферы жизни.

Список используемой литературы

1. Гаджизаде А.WEF назвал ОАЭ одной из выдающихся цифровых экономик и передовым рынком среди арабских стран// https://azertag.az/ru/xeber/WEF_nazval_OAE_odnoi_iz_vydayushchihsya_cifrovyh_ekonomik_i_peredovym_rynkom_sredi_arabskih_stran-1082995?__cf_chl_jschl_tk__=pmd_Je8WqL97TKRgprY6OlYL.lyg6_NEGbmTpd0yjRIkcKs-1633694415-0-gqNtZGzNApCjcnBszQh9
2. Ермакова Е.П. ФИНАНСОВАЯ СИСТЕМА ИНДИИ: ПЕРЕХОД К ЦИФРОВОЙ ЭКОНОМИКЕ И ФИНАНСОВОЙ ИНТЕГРАЦИИ // Пробелы в российском законодательстве. Юридический журнал. – 2018// https://cyberleninka.ru/article/n/finansovaya-sistema-indii-perehod-k-tsifrovoy-ekonomike-i-finansovoy-integratsii
3. Капранова Л.Д. ЦИФРОВАЯ ЭКОНОМИКА В РОССИИ: СОСТОЯНИЕ И ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ // Экономика. Налоги. Право. – 2018// https://cyberleninka.ru/article/n/tsifrovaya-ekonomika-v-rossii-sostoyanie-i-perspektivy-razvitiya
4. Руденко Л.Н. ПЕРСПЕКТИВЫ ЦИФРОВОЙ ТРАНСФОРМАЦИИ ЭКОНОМИКИ АРАБСКИХ СТРАН // Российский внешнеэкономический вестник. – 2019// https://cyberleninka.ru/article/n/perspektivy-tsifrovoy-transformatsii-ekonomiki-arabskih-stran
5. Японцы построили "умный" мегаполис Цунасима// https://weekend.rambler.ru/other/39463883/?utm_content=weekend_media&utm_medium=read_more&utm_source=copylink
6. China's Digital Economy: Opportunities and Risks // International Monetary Fund Working Paper. 2019 //Международный валютный фонд. URL: https://www.imf.org/en/Publications/WP/Issues/2019/01/17/ Chinas-Digital-Economy-Opportunities-and-Risks-46459
7. Masdar City: первый в мире эко-город будущего // Royaldesign URL: http://royaldesign.ua/ru/masdar-city-pervyiy-v-mire-eko-gorod-buduschego.bX69f/
8. Financial Services in India//IBEF. URL: https://www.ibef.org/industry/financial-services-india.aspx

[13].Японцы построили "умный" мегаполис Цунасима// https://weekend.rambler.ru/other/39463883/?utm_content=weekend_media&utm_medium=read_more&utm_source=copylink

RƏQƏMSAL İQTİSADİYYAT ŞƏRAİTİNDƏ AUDİTİN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

Yaşar Əzimağa oğlu Məmmədov, i.ü.f.d., dos.
AMEA İqtisadiyyat İnstitutu
mammadov60@mail.ru

Xülasə

Müasir dövrdə iqtisadiyyatın və cəmiyyətin inkişafında rəqəmsal konsepsiyası daha da möhkəmlənməkdədir. Ölkədə son dövrlərdə qəbul olunan dövlət proqramlarında və strateji yol xəritələrində rəqəmsal iqtisadiyyatın inkişafına, elektron hökümət quruculuğuna daha yüksək diqqət yetirilməkdədir. İqtisadiyyatın rəqəmsallaşdırılması ilə bağlı həyata keçiirlən islahatlarda auditin də bu baxımından inkişafi öz vacibliyi ilə çıxış etməkdədir. Məqalədə strateji audit konsepsiyasına və onun iqtisadi inkişafda oynayacağı rola diqqət yetirilir. Strateji auditin ölkənin makroiqtisadi inkişaf prosesləri ilə bağlı təşkili baxışları irəli sürülür. Müasir dövrün tələbləri əsas götürülməklə rəqəmsal auditin təşkili və inkişaf istiqamətləri müəyyən edilir.

Açar sözlər: strateji audit, nəzarət sistemi, iqtisiadi inkişaf, rəqəmsal audit, rəqəmsal platformalar.

Giriş

Yeni rəqəmsal iqtisadi şəraitdə audit proqnoz təhlili və auditin ümumiləşdirilməsinin müxtəlif formalarını əhatə etməyə imkan verir. Belə yanaşma da verilmiş və hesablanmış proqram inkişaf parametrlərinin nəzərdən keçirilməsi və sapmaların aşkar edilməsi üzrə prinsipial əhəmiyyət kəsb edir. Texnoloji (rəqəmsal) inqilabın əsas postulatları müasir fəaliyyətin elə elementləri hesab olunur ki, onlar istənilən sosial-iqtisadi sistemin (alt sistemlər) - insanın, ailənin, ev təsərrüfatının, müəssisənin, sahənin, sosial birliyin, kəndlərin, şəhərlərin, regionun, ölkənin yeni rəqəmsal fəaliyyət koordinatlarında inkişafının istiqamətləndirilməsi imkanını prinsipcə yeni səviyyəyə yüksəldirlər. Bu koordinatlar yeni rəqəmsal platformalardır ki, bu da insanların qarşılıqlı təsir sürətini (sosial şəbəkələr, sənədlərin elektron imzaları, elektron ödənişlər, dövlət xidmətlərinin informasiya şəbəkələri və s.) müəyyən qaydalara salmağa, əmək məhsuldarlığını artırmağa, bir çox istehsal və sosial proseslərin texnoloji tərzini dəyişməyə imkan verir.

Rəqəmsal iqtisadiyyatın inkişafı ilə bağlı müasir auditin təşkili xüsusiyyətləri

Cəmiyyətin sənaye ənənəvi iqtisadiyyatından rəqəmsal iqtisadiyyata istiqamətləndirilməsi insanların iqtisadi fəaliyyətə cəlb edilmə mexanizmlərini dəyişir. Əvvəllər lazım olan peşələri məhv edir, prinsipcə yeni peşə sahələri yaranır. İqtisadiyyatın rəqəmsallaşdırılması zehni əmək fəaliyyətinin azalmasına, istehsal heyətinin sərbəst buraxılmasına gətirib çıxarır ki, bu da robotlarla və həm istehsal, həm də idarəetmə rəqəmsal intellektual sistemlərlə əvəz olunur. İstehsalın mexanikləşdirilməsi və avtomatlaşdırılması yeni rəqəmsal platformalarda prinsipcə fərqli keyfiyyətli məzmunun inkişafına nail olur. Belə bir şəraitdə tətbiq olunan audit də yeni keyfiyyələ çıxış etməklə, bir növ strateji audit hesab ounur. Strateji audit mütərəqqi yenilikləri nəzərdə tutmalı və bu yenilikləri ümumiləşdirilən idarəetmə fəaliyyətində istifadə edilməli olan inkişaf yollarının əsaslı olub-olmamasının çoxcəhətli (çoxplanlı) yoxlanılması və təhlili ilə bağlı olmalıdır. Hal-hazırda inkişaf yolları ilk növbədə rəqəmsallaşdırma fenomeni, cəmiyyətdə çoxsaylı sosial-iqtisadi proseslərin fəaliyyətində elektron platformaların tətbiqi ilə bağlıdır. Cəmiyyət həyat fəaliyyətinin bütün sahələrində texnoloji inqilab yaşayır, buna görə də iqtisadi münasibətlərin yeni rəqəmsal paradiqması şəraitində strateji audit cəmiyyətin sosial-iqtisadi inkişafının texnoloji əsaslarının fundamental dəyişməsini nəzərə almalı olan müvafiq metodoloji müddəaların işlənib hazırlanmasını tələb edir [1].

Rəqəmsal platformalar cəmiyyətdə fəaliyyətin təşkilinin bütün proseslərinin həm dövlət, həm də korporativ tənzimlənməsinin forma və metodlarını köklü şəkildə dəyişdirir. Strateji audit cəmiyyətin həyat fəaliyyəti proseslərinin idarə edilməsi və tənzimlənməsi elementi kimi müstəqil, yalnız ona xas olan kompüterləşmə (rəqəmsallaşdırma) elementləri ilə əhatə olunmalıdır. Strateji

audit və sosial-iqtisadi sistemin təhlili qlobal rəqəmsal məlumat bazaları mövcud olduqda yeni keyfiyyətli məzmun əldə edir. Hazıradək formalaşmış reproduksiya proseslərinin reallıqlarının təhlili şəraitində uzunmüddətli strateji sosial-iqtisadi inkişaf parametrlərinin dəyərlərinin əsaslılığının yoxlanılması məqsədli sistemlərə meyillik nəzərə alınmaqla iqtisadi fəaliyyətin proqnoz göstəricilərinin imitasiya amil modelləri, məntiqi-parametrik hesablamaları üzərində qurulmuşdur. Rəqəmsal iqtisadiyyat sosial-iqtisadi sistemin inkişaf strategiyalarının əsas məzmununu da dəyişir. Böyük həcmli məlumatların ümumiləşdirilməsi üçün yeni rəqəmsal platformada proqnozlaşdırma, planlaşdırma və idarəetmə ilə bağlı yeni sərhədlər və imkanlar vardır. Belə ki, təsərrüfat subyektlərinin özləri ilkin istehsal əlaqələrindən başlayaraq, gələcək fəaliyyətin tənzimlənməsi üçün öz və əlaqəli rəqəmsal məlumat bazasından istifadə edərək planlar və proqnozlar (strategiyalar) formalaşdırır. Gələcək iqtisadiyyatın mərkəzləşdirilmiş qaydada aparılması şəraitində olduğu kimi, yuxarıdan deyil, aşağıdan idarəetmə daha çox formalaşır. Dövlət tərəfindən əsas məsələ-ictimai məhsulun istehsalının, paylanmasının, mübadiləsi və istehlakının bütün sahələrində cəmiyyətin böyük sistemlərinin normal ardıcıl sosial-iqtisadi inkişafına şərait yaratmaq və düzgün inkişaf istiqamətini müəyyənləşdirməkdir.

İctimai məhsulun dövriyyəsinin fasiləsiz prosesinin hər bir mərhələsi məlumat bazalarının mübadiləsi və rəqəmsal texnologiyalardan istifadə proseslərini dəfələrlə sürətləndirən yeni informasiya rəqəmsal şəbəkələri və platformalarla əlaqələndirilir. Rəqəmsal platformaların, informasiya bazalarının texnoloji parametrləri və xüsusiyyətləri sosial və ya iqtisadi (istehsal) proseslər də daxil olmaqla, cəmiyyətin həyat fəaliyyətinin bütün sahələrində bir çox məsələlərin sürətli həlli imkanlarını dəfələrlə artırır. Yeni rəqəmsal texnologiyalar cəmiyyətdə bütün fəaliyyət növlərini, əmək fəaliyyətinin, əhalinin məişət mühitinin təşkilini, ölkənin həyat fəaliyyətinin dövlət tənzimlənməsini dəyişdirir [2; 3].

Müasir iqtisadiyyatda auditin həyata keçirilməsi prosesində elmi-tədqiqatların nəticəsi kimi strateji göstəricilərin əsaslandırılması və genişlənmiş informasiya rəqəmsal texnoloji məlumat bazasını özündə ehtiva edən parametrlərin müvafiq inkişafı üçün çox miqyaslı platforma formalaşdırılmaldır. İnformasiya platformaları, onların şaxələnmiş rəqəmsal baza sistemləri sosial-iqtisadi inkişaf parametrlərinin yerinə yetirilməsi üçün proqnozlaşdırılan senarilərin variantlılığını artıran çox versiyalı strateji hesablamalar əldə etmək imkanlarına imkan yaradır. Rəqəmsal iqtisadiyyat şəraitində strateji auditin tətbiqinin nəticəsi istehsal amillərinin təsərrüfat fəaliyyətində səmərəliliyin artırılması imkanı hesab olunmalıdır. Rəqəmsallaşmanın məzmun əhəmiyyəti cəmiyyətin iqtisadi sisteminin istehsalının əsas amilləri olan bütün fundamental elementlərə nüfuz edir. İstehsal faktorları, birbaşa strateji audit prosesləri rəqəmsal platformalarla təmin olunur ki, bu da resurslardan, strateji idarəetmə formalarından və metodlarından istifadənin səmərəliliyini artırır.

Rəqəmsal iqtisadiyyat şəraitində strateji audit yeni imkanlar əldə edir. Belə ki, ölkə və regionların inkişaf strategiyasının əsas elementləri belə şəbəkə platformalarına və məlumat bazalarına əsaslanmalıdır. Bu da məqsədyönlü inkişaf proseslərinin ətraflı mənzərəsini, sosial-iqtisadi vəziyyətin planlaşdırma horizontları üzrə zəruri real hədəf əldə edilə bilən parametrlərinin müəyyən edilməsinə imkan verir. Belə şəraitdə informasiya texnologiyalarının dövlət və bələdiyyə idarəçiliyinə tətbiqi, əsas kommunikasiya proseslərinin inkişafı nəzərə alınmaqla mümkündür. İqtisadiyyatın rəqəmsallaşması şəraitində effektivliyin kifayət qədər maraqlı nəticəsi və terminologiyası Dünya Bankının (2016) "rəqəmsal dividendlər "adlı hesabatında təqdim olunmuşdur [10]. İqtisadi artıma, iş yerlərinə və xidmətlərə rəqəmsal texnologiyalara qoyulan investisiyalar xüsusilə əhəmiyyətli dərəcədə təsir göstərir. Rəqəmsal texnologiyalar müəssisələrə məhsuldarlığı artırmağa, insanlara iş tapmağa və imkanlarını genişləndirməyə, hökumətlərə isə bütün vətəndaşlara daha keyfiyyətli dövlət xidmətləri göstərməyə kömək edir. Hesabatın başlığında "rəqəmsal dividendlər" ifadəsi rəqəmsal platformaların istifadəsinin cəmiyyətin həyat fəaliyyətinin müxtəlif sahələrində iqtisadi fayda gətirdiyini göstərir. Rəqəmsal aktivlər biznes sahələrinin, dövlət və bələdiyyə orqanlarının resurslarının ən vacib hissəsinə çevrilir. Belə aktivlərdən istifadə cəmiyyətin iqtisadi inkişafının vacib şərtidir və obyektiv zərurətidir [10].

Strateji auditin məntiqinin və parametrlərinin əsaslandırılmasının ayrılmaz və mühüm tərkib hissəsi olan iqtisadi artım hər cür mütərəqqi rəqəmsal platformaların istifadəsini, sosial-iqtisadi

inkişafın idarə edilməsinin yeni metodlarını ümumiləşdirməli və rəqəmsal iqtisadiyyatın elementlərinin birbaşa texnoloji proseslərə daxil edilməsini nəzərə almalıdır. Bu proseslər "elektron hökumət", "dövlət və bələdiyyə ödənişləri haqqında informasiya sistemi", "elektron büdcə", "elektron pul" kimi yerli rəqəmsal dövlət platformalarının fəaliyyəti nəzərə alınmaqla qurulmalıdır [5].

Dövlət idarəetmə və tənzimləmə texnologiyaları cəmiyyətdə qərarların qəbul edilməsi azadlığı ilə əlaqəli olmalıdır. O cümlədən də dövlət auditinin bir çox vəzifələri də rəqəmsal platformalardan istifadə edərək avtomatlaşdırıla bilər. Lakin strateji auditin bəzi vəzifələrinin yerinə yetirilməsi, fikrimizcə, tamamilə rəqəmsallaşdırıla bilməz, çünki bütün prosedurlar tam formalaşdırıla bilməz. Maraqların lobbiləşdirilməsini, ictimai inkişafın idarə edilməsində korrupsiya təzahürlərinin aradan qaldırılmasının zəruriliyini formalaşdırmaq çətindir. Bu o deməkdir ki, internet bir çox dövlət xidmətlərinin göstərilməsinin səmərəliliyini artıra bilsə belə, dövlət orqanlarının vəzifəli şəxsləri və əməkdaşları texnologiyadan cəmiyyətə faydalı istifadə etməyə stimul verməyəcəklərsə, mənfəət əldə olunması məhdud olacaqdır. Belə ki, rəqəmsal texnologiyalar müəllimlərin işə gəlməsinin nəzarətini həqiqətən də asanlaşdırır, lakin tədrisin keyfiyyəti müəllim və ya professorun intellektual və peşəkar qabiliyyətləri və müvafiq motivasiyalarının hazırlıq səviyyəsi ilə müəyyən edilir.

Rəqəmsal iqtisadiyyat inkişaf üçün tələb olunan şəraiti yaradır və cəmiyyətdə antikorrupsiya hərəkətlərinin zəruri proseslərinin həyata keçirilməsini aktivləşdirir. Belə ki, elektron satınalma sistemləri və müvafiq rəqəmsal platformalar korrupsiya risklərinin azalmasına, malların, işlərin və xidmətlərin alınması prosesində xərclərin azaldılmasına kömək edir. Bu baxımdan da belə sistemlərin inkişafı üçün vəsaitin artırılması tələb olunur. Lakin əksər ölkələr bu sahə üçün daha mürəkkəb büdcə və ya xəzinədarlıq sistemləri yaratmaqda çətinlik çəkirlər. İnternetdən istifadə yayıldıqca ölkələrdə rəqəmsal texnologiyaların köməyi ilə vətəndaşlarla qarşılıqlı fəaliyyət sahəsi də genişlənir. Hazıradək çıxış yolu mütərəqqi xarakteri ilə səciyyələnmir, cəmiyyətin internet şəbəkəsinə tam qoşulmayan strukturlarının audit proseslərində iştirak etmədən fəaliyyətini davam etdirmək riskləri artır.

Dövlət strateji auditi rəqəmsal iqtisadiyyat şəraitində inkişaf problemlərinin ümumiləşdirilməsi prosesində sosial-iqtisadi proseslərin qarşılıqlı əlaqəsi və tənzimlənməsi sahəsində də çətinliklər ilə üzləşməkdədir. Dövlət strateji auditinin inkişafı ilk növbədə, sosial-iqtisadi inkişafın məqsəd və vəzifələrinin kifayət qədər düzgün müəyyən edilməsinə, vətəndaş cəmiyyətinin inkişafına və iqtisadi artımı sürətləndirən rəqəmsal platformalardan istifadəyə yönəldilməlidir. Müasir inkişafda strateji audit ictimai münasibətlərin rəqəmsallaşdırılması ilə bağlı müvafiq struktur elementlərin qarşılıqlı əlaqəli təşkilinə dəstək verməlidir:

- ⇨ Rəqəmsal iqtisadiyyat platformalarının iri sisteminin inkişaf etdirilməsi;
- ⇨ Şəbəkə strukturlarının dövlətin ictimai və təsərrüfat həyatının təşkilini təmin etməsi;
- ⇨ İqtisadiyyatın və sosial həyatın bütün sahələrində fərdi xidmət şəbəkə modellərinin qurulması və fəaliyyəti;
- ⇨ Məhsul, iş, xidmət istehsalçıları ilə istehlakçılar arasında birbaşa qarşılıqlı əlaqələrin gücləndirilməsi,
- ⇨ İqtisadi əlaqələrin genişləndirilməsi və qarşılıqlı istifadə olunan baza xidmət rəqəmsal platformalarının yaradılması;
- ⇨ Sosial-iqtisadi inkişafın ümumi nəticələrində fərdi iştirakçıların töhfəsinin artırılması;
- ⇨ Cəmiyyətdə lokomotiv və mütərəqqi biznes strukturlarının uğurlu inkişafının həvəsləndirilməsi;
- ⇨ Vətəndaşların, hökumətin, biznesin rəqəmsal əlaqələr ilə geniş təmin edilməsi.

Rəqəmsal iqtisadiyyat sisteminin hər bir strukturlaşdırılmış elementi müstəqil əhəmiyyət kəsb edir. Onların birgə yekun təsiri ölkə və regionların sosial-iqtisadi inkişafının səmərəliliyinin artırılmasında strateji auditin istifadəsini təmin etməlidir. İqtisadi inkişafın təmin edilməsində strateji auditin də nəzərdə tutulması, rəqəmsal iqtisadi elementlərin qarşılıqlı əlaqəsinin nəzarət-analitik və təftiş fəaliyyətinin səmərəliliyinin artırılmasına kömək etməlidir. Rəqəmsal iqtisadiyyat cəmiyyətdə təkamül dəyişiklikləri fenomeni olaraq, müvafiq dövlət audit formaları və üsulları da daxil olmaqla, strateji idarəetmənin prinsipial müddəalarının müəyyən transformasiyasını tələb edir.

Belə şəraitdə bir tərəfdən, cəmiyyətin həyat fəaliyyətinin bütün sahələrində rəqəmsal platformaların ümumi nəzarəti və sui-istifadəsi güclənə bilər. Digər tərəfdən, cəmiyyətin idarə, təsərrüfat, sosial və bütün digər həyat fəaliyyətinin də səmərəliliyi artmış olar.

Müasir dövrdə bazar rəqabəti sürətllə inkişaf edir və yeni keyfiyyətl məzmunu alır. İqtisadiyyatın rəqəmsallaşdırılması şəraitində xüsusilə yüksək rəqabət mühiti formalaşır. Malların, işlərin və xidmətlərin tələbatı və təklifi böyük miqyas, qlobal informasiya imkanları, ani rabitə vasitələri və rəqəmsal platformaların digər texnoloji komponentləri sayəsində daha da yeni şəkildə çıxış edir. Belə bir məqamda sərbəst qiymətlənmənin müvafiq variantlarının dəfələrlə artması şəraitində bazar tarazlığını müəyyən etmək üçün yeni bacarıqlar tələb olunur.

Təsərrüfat fəaliyyətinin genişlənməsi, biznes strukturlarının işinin təkmilləşməsi dövlət idarəetmə sisteminin də inkişafını zəruriləşdirir. Təkrar istehsal proseslərinin tənzimlənməsi cəmiyyətdə optimal tarazlığın həyata keçirilməsi və təsərrüfat kompleksinin inkişafının zəruri və səmərəli nisbətlərinə uyğun münasibətin formalaşmasının təmin edilməsi üçün yeni imkanlar açılır. Əhaliyə, biznes qurumlarına və ictimai təşkilatlara dövlət xidmətlərinin göstərilməsi sistemi xüsusi ilə inkişaf edir. Cəmiyyətdə həyatın yeni keyfiyyətinin yaradılması, bazar mühitinin dəyişməsinə ani reaksiya vermək, təsərrüfat və ictimai həyatın tənzimlənməsi parametrlərinə düzəlişlər etmək imkanı yaradan biznes mühitinin formalaşdırılması auditin daha çevik və yeni xidmətlər ilə çıxışını ön plana çəkir [7].

Strateji auditin əsas elementləri kimi modelləşdirmə, proqnozlaşdırma, monitorinq və təhlilin həyata keçirilməsi çıxış etməlidir. Hesab edirik ki, bu elementlər də rəqəmsal iqtisadiyyatın tərkib hissələri olan rəqəmsal strategiya, onun məqsəd və vəzifələri, dövlət tənzimlənməsinin rəqəmsal prosesləri və rəqəmsal biznes prosesləri ilə əlaqələndirilməlidir. Həmçinin, strateji auditin və rəqəmsal iqtisadiyyatın elementlərinin qarşılıqlı əlaqəsinin təqdim edilən müzakirəsi idarəetmə və audit fəaliyyətinin həyata keçirildiyi özünəməxsus virtual məkandan xəbər verməkdədir. Bu zaman şərtilik ondan ibarət olmalıdır ki, dövlət tənzimlənməsinin rəqəmsal prosesləri istənilən halda strateji inkişafın auditində rəqəmsallaşmanın müstəqil elementləri kimi iştirak etməlidir. Yəni, xarici auditor fəaliyyətinin ayrı-ayrı elementləri strateji inkişaf parametrlərinin ümumiləşdirilməsi və təhlili üçün audit fəaliyyətinin dərin proseslərinə daxil olmalıdır. Belə yanaşma audit prosesinin öz fəaliyyətində şəbəkə platformalarının rəqəmsallaşdırılması, hazırlanması və istifadəsi elementləri ilə zənginləşməli olduğunu göstərir.

Rəqəmsal iqtisadiyyat və rəqəmsal audit münasibətlətinin dərinləşməsi

Rəqəmsal iqtisadiyyatın müasir konsepsiyası rəqəmsal iqtisadi-riyazi modellərin müasir təcrbəyə geniş yayılmasını tələb edir. Sosial-iqtisadi sistemlərin keyfiyyət dəyişikliklərinin kəmiyyətcə interpretasiyası və onların aradan qaldırılması yolları üçün iqtisadi-riyazi alətdən istifadənin müəyyən çətinlikləri ola bilir. Yeni şəbəkə texnologiyalarının mənimsənilməsi şəraitində iqtisadi obyektlərin qarşılıqlı təsir mexanizmlərinin və rəqəmsal platformaların parametrlərinin öyrənilməsi və innovativ inkişafın digər məsələlərinin həlli zamanı imitasiya modelləşdirilməsi imkanlarına diqqət yetirmək lazım gəlir. Ümumiyyətlə, rəqəmsal platformalar əsasında, onların fəaliyyətinin monitorinqi, iqtisadi-riyazi modelləşdirmənin prosesləri və nəticələri sosial-iqtisadi inkişaf strategiyasının işlənib hazırlanması alətlərinə və bu proseslərin həyata keçirilməsinin strateji auditinin elementlərinə xidmət etməlidir. Strateji audit isə öz növbəsində təhlil edilmiş məlumatları ümumiləşdirərək, sosial-iqtisadi inkişafın strateji parametrlərinin tənzimlənməsi üçün reaksiya verməlidir. Bu da cəmiyyətin lazımi səviyyədə həyat qabiliyyətini təmin olunması və dövlət idarəetmə sisteminin səmərəliliyinin artırması baxımdan zəruri qərarlar qəbulunda önəmli rol oyanyacaqdır. Bununla yanaşı, müvafiq platformaların istifadəsi və sosial-iqtisadi inkişafın idarə olunmasının iqtisadi-riyazi tətbiqi şərtilə bütün yüksək səviyyəli təhlil prosedurlarının imkanları əhəmiyyətli dərəcədə artmış olacaqdır.

Rəqəmsal audit artıq ərzaq-qida məhsullarının təhlükəsizliyinin uzaqdan monitorinqini apara bilər. COVİD-19 dünya iqtisadiyyatının uzaqdan və müəyyən məsafədən idarə edilməsi üçün yeni imkanlar açmışdır. Belə ki, distant təqdimat və nümayişlər, video zənglər və onlayn əməkdaşlıq kimi tədbirlər bu baxımdan öz əhəmiyyətliliyi ilə çıxış edir [8]. Belə yeni formatda və normalarda fəaliyyət müəssisə və şirkətlərin nə edə biləcəyinə və nə uzaqdan edilə bilməyəcəyinə yenidən

baxmağa hazır olmasını bir daha göstərir. Xüsusilə də qida təhlükəsizliyi və keyfiyyəti auditinin indi uzaqdan nəzarət imkanını təmin etmək üçün rəqəmsal auditlə əvəz olunduğunu göstərməkdədir. Ümumilikdə auditin uzaqdan hazırlanmış onlayn proqramlar vasitəsilə həyata keçiirlməsi rəqəmsal auditin inkişafına əsaslı şəkildə təkan verməkdədir. Rəqəmsal iqtisadiyyat və rəqəmsal audit artıq bir inkişaf isitqaməti üzrə irəlilədiyini sübut etməkdədir. Hazırda bir çox şirkətlər indi bunu səmərəli təklif kimi qiymətləndirir və rəqəmsal auditin onlayn platformalarının potensialını müsbət qəbul edirlər.

Keyfiyyətə nəzarət auditinin fiziki aspektləri quraşdırılmış kameralardan istifadə edərək uzaqdan video auditi ilə həyata keçirilə bilər. Belə video vəziyyəti düzgün müəyyən edir, qida məhsullarının keyfiyyət nişanlarını və gömrük sənədləşdirilməsi prosedurlarını ani qiymətləndirir [9]. Hər hansı bir video nəzarət şirkəti 100% şəffaf fəaliyyət görünüşü və onun nəticələri ilə təmin edə bilər. Belə baxış həm də işəgötürən və işçi münasibətlərinin səmərəli tənzimlənməsinə, əmək məhsuldarlığının artırılması imkanlarının üzə çıxarılmasına öz müsbət təsirlərini göstərmək imkanlarına malik olacaqdır. Təcrübə deməyə əsas verir ki, insanlar, bir qayda olaraq, kadrda olanları bildikdə daha yaxşı və daha səylə çalışırlar. Əməkdaş malların alınmasından hazır məhsulun göndərilməsinə qədər əməliyyatların aparılmasını qeyd etməklə auditi yüngülləşdirə bilər. Bu cür audit aparmaq üçün xüsusi portativ qurğu və ya kameralardan istifadə etmək daha məqsədəuyğun olar.

Rəqəmsal audit müxtəlif yönümlü materialların çoxsaylı yoxlamalarını, təhlükəsizlik monitorinqlərini və əməkdaşlar haqqında məlumatların qiymətləndirilməsini də həyata keçirilməlidir. Belə yanaşma ənənəvi audit fəaliyyətindən keyfiyyət və elektron-texniki imkanların yüksəkliyi ilə fərqlənir. Xüsusi hazırlanmış audit proqramları rəqəmsal auditin aparılma imkanlarını sürətləndirir, onun maliyyə-təsərrüfat fəaliyyəti ilə yanaşı, informasiya-kommunikasiya texnologiyaları sahəsindəki işinin də dərinləşməsinə təsir edəcəkdir. Yeni audit proqramları həm də qida təhlükəsizliyinin və iş mühitinin səmərəliliyinin qiymətləndirilməsində də rəqəmsal auditin təşkilinə öz töhfələrini verə bilər. Belə audit proqramları geniş texniki imkanlara malik olmaqla yanaşı, eyni zamanda uzaqdan nəzaət və monitorinq sistemini həyata keçirə bilər. Müvafiq proqramlar nəticəsində audit təşkilatları və auditorlar geniş çeşidli xidmətləri, yoxlamaları yerinə yetirməklə, auditin keyfiyyətinin artırılmasında da önəmli rol oynaya bilər. Xüsusilə də o ərzaq təhlükəsizliyinin texniki yoxlamalarını, qablaşdırma xətti nəzarətini, məhsul temperaturunun qeydiyyatını və çəki yoxlamasını asanlaşdırır və kağız qeydlərinə olan ehtiyacları aradan qaldırmış olacaqdır. Audit nəticəsində çıxarılan qərarlar müəyyən edilmiş uyğunsuzluqlar barədə menecementi və məsul şəxsləri tez bir zamanda məlumatlardırmaqla, iş fəaliyyətindəki nöqsanların ani olaraq düzəldilməsinə xidmət edə bilər.

Nəticə

Rəqəmsal auditin inkişafı üçün ciddi tədbirlər həyata keçirilməlidir, bu tədbirlər hüquqi, normativ və tənzimləyici mexanizmləri əhatə etməlidir. Rəqmsal auditin təşkili və inkişafı informasiyalı cəmiyyətin və elektron hökümətin quruculuğu prinsiplərinə uyğunlaşdırılmalıdır. Ölkədə auditin, əsasən də rəqəmsal auditin inkişafı müasir tələblərlə uyğunlaşan strateji yol xəritəsinin hazırlanmasını da zəruriləşdirir. Müasir audit artıq ənənəvi audit fəaliyyətindən çıxmaqla, daha çox strateji məqsədlərə xidmət etməlidir. Belə məqsədlər ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi, informasiyalı cəmiyyətin qurulması, maliyyə-təsərrüfat fəaliyyətinin elektornlaşdırılması kimi mühüm müddəaları da özündə ehtiva etməlidir.

Ədəbiyyat

1. Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası". Bakı, 2012. https://president.az/files/future_az.pdf

2. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Bakı, 2016. https://azertag.az/store/files/untitled%20folder/_STRATEJI%20YOL%20XERITESI_.pdf

3. "Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyası (2012-2020-ci illər). Bakı, 2012. https://audit.gov.az/Upload/Files/2019/AUDIT_KONSEPSIYA_2013.pdf

4. “Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi”. Bakı, 2016. https://azertag.az/store/files/news/MALIYYE%20STRATEJI%20YOL.pdf
5. Məmmədov Yaşar Əzimağa oğlu “Audit xidmətinin inkişafı: nəzəri əsasları”. Elm və Bilik nəşriyyatı Bakı: 2019. 364 səh. http://economics.com.az/images/fotos/Kitablar/2020/Ymammadovaudit.pdf
6. Тренды образования аудиторов в цифровой экономике. https://eak-rus.ru/files/2019/auditor_9-2019.pdf.
7. Сюзева А.В. Ццифровая экономика как двигатель более качественного внутреннего аудита.
https://cyberleninka.ru/article/n/tsifrovaya-ekonomika-kak-dvigatel-bolee-kachestvennogo-vnutrennego-audita/2018/viewer.
8. Развитие аудита в мире цифровых технологий. https://phsreda.com/ru/article/74993/discussion_platform.2020.
9. Федорцова В.А. Аудит в условиях цифровой экономики. u/1067-science-journal-of-volsu-economics-2020-vol-22-2/finansy-bukhgaletrskij-uchet/1574-fedortsova-v-a-audit-v-usloviyakh-tsifrovoj-ekonomiki.
10. https://openknowledge.worldbank.org/bitstream/handle/10986/23347/210671RuSum.pdf

Яшар Азимага оглы Мамедов к.е.н., доц.
Институт Экономики НАНА

Особенности развития аудита в условиях цифровой экономики

Резюме

В современную эпоху в развитии экономики и общества все более укрепляется концепция цифровых технологий. В государственных программах и стратегических дорожных картах, принятых в стране в последнее время, развитию цифровой экономики, строительству электронного правительства уделяется все большее внимание. В реформах, осуществляемых в связи с цифровизацией экономики, развитие аудита с этой точки зрения также играет свою роль. В статье основное внимание уделяется концепции стратегического аудита и той роли, которую он будет играть в экономическом развитии. Выдвигаются организационные взгляды стратегического аудита на процессы макроэкономического развития страны. На основе требований современности определяются организация и направления развития цифрового аудита.

Ключевые слова: стратегический аудит, система контроля, экономическое развитие, цифровой аудит, цифровые платформы.

Yashar Azimagha Mammadov
doctor of philosophy in economics, associate professor
Institute of Economics of Anas

Features of audit development in the conditions of the digital economy

Summary

In modern times, the concept of digital in the development of the economy and society is becoming more solid. More attention is paid to the development of the digital economy, e-government construction in the state programs and strategic road maps adopted in recent years in the country. In the reforms carried out in connection with the digitization of the economy, the development of audit in this regard is also important. The article focuses on the concept of strategic audit and its role in economic development. The strategic audit looks at the macroeconomic development processes of the country. Based on the requirements of the modern era, the direction of digital audit is determined.

Keywords: strategic audit, control system, economic development, digital audit, digital platforms.

AZƏRBAYCANDA İKT SEKTORUNUN İNKİŞAFININ MÜASİR VƏZİYYƏTİ

Vəlibəyli Ayşən Rövşən gızı doktorant
Azərbaycan Kooperasiya Universiteti
velibeyli.aysen.va@gmail.com

Müasir zamanda ölkəmiz bütün sahələrdə dinamik inkişaf edir. Böyük uzaqgörənliklə aparılan iqtisadi islahatların nəticəsidir ki, qeyri-neft sektoru tərəqqi yoluna çıxmış, iqtisadiyyatın enerji amilindən asılılığı azalmışdır. İnfrastruktur layihələr, sosial məsələlər uğurlu həllini tapmış, ölkə iqtisadiyyatının şaxələndirilməsi təmin edilmişdir. Strateji valyuta ehtiyatlarımızın artması sosial problemlərin həlli üçün əlavə maliyyə resurslarının cəlb edilməsinə əlverişli şərait yaratmışdır.

Ölkəmizdə uğurla həyata keçirilən sosial-iqtisadi siyasət telekommunikasiya və informasiya texnologiyaları sektorunun inkişafına da müsbət təsir göstərmişdir. MDB məkanında daha çox ölkəmizdə İnformasiya Kommunikasiya Texnologiyalarının (İKT) inkişafı ilə bağlı mühüm addımlar atılmışdır. MDB ölkələri arasında ilk dəfə Azərbaycanda sabit telefon şəbəkəsi tam elektronlaşdırılmışdır. Artıq ölkəmizin istənilən yaşayış məntəqəsində yüksək sürətli, eləcə də genişzolaqlı internetə çıxış imkanı əldə olunmuşdur.

Elmi-texniki tərəqqinin ən son nailiyyətlərinə əsaslanmaqla müasir informasiya texnologiyalarının sürətlə inkişaf etdirilməsi dövlətimizin qarşısında duran prioritet vəzifələrdən birinə çevrilmişdir. Ulu öndərin 2003-cü il 17 fevral tarixdə imzaladığı "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə (2003-2012-ci illər) Milli Strategiya" müasir informasiya texnologiyalarının Azərbaycanda tətbiqi sahəsində prioritet vəzifələri müəyyənləşdirmişdir [1].

Prezident İlham Əliyev respublikamızda İKT inkişafına xüsusi diqqət və qayğı ilə yanaşır. Bu baxımdan ölkədə İKT-nin sürətli inkişafı ilə bağlı mühüm fərman və sərəncamların imzalanması təqdirəlayiqdir. Dövlət başçısının 2005-ci il 22 oktyabr tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)", eləcə də "Xüsusi iqtisadi zonaların yaradılması haqqında" 2007-ci il 6 mart tarixli fərmanı ölkədə İKT sektorunun inkişafına mühüm şərait yaratmışdır. 2008-ci il 11 avqust tarixli "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncamı da bu sahədə həyata keçirilən dövlət siyasətinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu göstərir. Respublikada rabitə və informasiya texnologiyalarının inkişafı üzrə dövlət proqramının qəbul edilməsində əsas məqsəd ölkənin informasiya cəmiyyətinə keçidinin, İKT-nin inkişafını və geniş tətbiqini təmin etmək yolu ilə informasiya və biliklərə əsaslanan, rəqabətə davamlı iqtisadiyyatın qurulması və inkişaf etdirilməsi üçün zəminin formalaşdırılması, dövlət idarəetmə mexanizmlərinin səmərəliliyinin artırılması və qərarların qəbulu prosesində vətəndaşların və sosial institutların iştirakı imkanlarının genişləndirilməsi, cəmiyyətin informasiya məhsulu və xidmətlərinə olan tələbatının dolğun ödənilməsidir [2,3].

Ölkəmizdə telekommunikasiya sahəsində əldə olunan nailiyyətlər yeni texnologiyaların tətbiqinə əlverişli şərait yaratmışdır. Əhaliyə internet xidmətlərinin göstərilməsində ciddi uğurlar qazanılmışdır. Azərbaycanda internet istifadəçilərinin sayı ildən-ilə artır. Sürətli internet istifadəçilərinin sayı təxminən 80 % təşkil edir.

Mobil telefon şəbəkəsində yeni fəaliyyət xidmətlərinin göstərilməsi istiqamətində ciddi işlər aparılmışdır. Artıq ölkəmizdə hər 100 nəfərə təxminən 105 mobil telefon düşür ki, bu da inkişaf etmiş ölkələr səviyyəsində dəyərləndirilir. Mobil telefon xidmətlərində qiymətlərin aşağı salınması yönümündə kompleks tədbirlər həyata keçirilir ki, bu da əhalinin mobil telefon şəbəkələrindən geniş istifadəsinə əlverişli zəmin yaradır.

Respublikada kosmik proqram üzrə işlər də uğurla davam etdirilir. Belə ki, 2013-ci ilin fevral ayında ilk telekommunikasiya peykinin orbitə çıxarılması nəzərdə tutulmuşdur. Bu məqsədlə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi digər təşkilatlarla birlikdə ikinci telekommunikasiya

peykinin hazırlanması, yer səthinin monitorinqi və öyrənilməsi üçün alçaqorbitli izləyici peyklərin yaradılması istiqamətində araşdırma işlərini həyata keçirir.

Azərbaycanda XXI əsrin tələblərinə cavab verən müasir informasiya infrastrukturunun, habelə iqtisadiyyatda mühüm yer tutan informasiya və kommunikasiya məhsulları sektorunun yaradılması işində ciddi nailiyyətlərin əldə olunması onu deməyə əsas verir ki, ölkəmiz iqtisadi cəhətdən qüdrətli dövlətdir.

Son illərdə İKT sektoru iqtisadiyyatın aparıcı və dinamik inkişaf edən sektoruna çevrildi. Bu illər ərzində sektor həcmi, hər üç ildən bir iki dəfədən çox, illik artım tempi, təxminən 20-25% olmaqla artırdı.Onun ÜDM-də payı 1,7%, qeyri-neft ÜDM-də isə payı 3, 3% -ə qədər artmışdı. Sektora investisiya qoyuluşu, demək olar ki, 2,5 milyard ABŞ dolları təşkil etmişdir ki, bunun da 28% -i dövlət tərəfindən, 72 %, yerli biznes strukturlarının və xarici investorların tərəfindən qoyulmuşdur. 2003-cü illə müqayisədə milli iqtisadiyyatımızda özəl sektorun payı 67,3% -dən 80% -ə qədər artmışdır. Azərbaycan Respublikasında, MDB ölkələri arasında ilk dəfə olaraq, stasionar telefon şəbəkəsi tamamilə elektronlaşdırıldı və ölkənin bütün yaşayış məntəqələrini telefonlaşdırdı. Respublikanın bütün rayon mərkəzləri maqistral fiber optik telekommunikasiya şəbəkəsinə qoşulur. Mobil şəbəkə genişləndirilir. Respublikada fəaliyyət göstərən üç mobil operator müasir 3G xidmətlərini təmin edir. 2012-ci ildə ölkəmizdə 4G texnologiyasının tətbiqi başlandı. Ölkədə hər 100 nəfərə 110 mobil abunəçi düşür. 2020-ci ilin nəticələrinə görə, Azərbaycan əhalisinin 85% -i internet istifadəçi, o cümlədən 70% -i genişzolaqlı internet istifadəçisi olmuşdur. Azərbaycanda və dünyada İnternetin dəyəri ildən-ilə azalır. Beləliklə, 2004-cü illə müqayisədə 1 Mbit / s sürətində internetə qoşulma dəyəri 1200 ilə 10 manata qədər azaldı. Ölkə üzrə genişzolaqlı xidmətlərə qoşulmağın orta dəyəri orta aylıq əmək haqqının 3% -ni təşkil edir. Bu, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliy tərəfindən təyin olunan strateji inkişaf hədəflərə nail olmasını təmin etmişdir. Son 5 ildə beynəlxalq internet kanalının həcmi 12,9 dəfə artmış və 200 Gbit / s-ə çatmışdır, digər tərəfdən internet xidmətləri bazarının həcmi demək olar ki, 4 dəfə artmışdır. 8 fevral 2013-cü il tarixində Azərbaycan Respublikası Azərbaycanın ilk telekommunikasiya peyki Azerspace-1, müstəqillik dövründə ölkəmizin ən yüksək texniki nailiyyətlərindən biri olan orbitə təqdim edildi. Peykin kommersiya istismarı artıq Avropaya, Yaxın Şərq, Orta Asiya və Afrikaya telekommunikasiya xidmətlərini, televiziya və radio yayım xidmətlərini, Azərbaycan mütəxəssisləri tərəfindən qurulmuş peyk infrastrukturu vasitəsilə idarə olunur. Ölkəmizdə görülən işlər rəqəmsal yayımın keçidinin tam təmin edilməsi ilə bağlı tövsiyələrinə uyğun olaraq həyata keçirilir. İllər keçdikcə xidmətlərin səviyyəsini və keyfiyyətini, infrastrukturun modernləşdirilməsi, İKT sahəsindəki kadr potensialının modernləşdirilməsi, sənayenin liberallaşdırılması üçün ardıcıl işlər görülmüşdür.

Nəticə

Beləliklə, Azərbaycan Respublikası qeyri neft sektorunda İKT məqsədlərinə nail olması böyük dərəcədə Milli İKT strategiyasının, etibarlı və səmərəli İKT infrastrukturunun müasir inkişafından asılıdır. Bu istiqamətdə dövlət siyasətinin təkmilləşdirilməsi ilk növbədə yeni dövlət proqramların qəbulu hesabına həyata keçirilməlidir.

Ədəbiyyat

1. Əliyeva A.“Elektron dövlət quruculuğu problemləri” I Respublika elmi-praktiki konfransı, 4 dekabr, 2014,s.257-261.

2. Калинина А.Э., Интернет –бизнес и электронная коммерция: Учебное пособие, Волгоград: Изд.ВолГУ, 2004, 148 с.

3. Гринберг А.С., Король И.А., «Информационный менеджмент», Москва, Юнити, 2003, 415 с.

MÜASİR ŞƏRAİTDƏ MÜƏSSİSƏLƏRİN BİZNES KONSEPSİYALARININ HAZIRLANMASINDA RƏQƏMSAL MARKETİNQİN ROLU

Hümbətəliyeva Səadət Əsgər qızı, i.f.d. dosent
Sumqayıt Dövlət Universiteti
Rüstəmova Gülbəs Rəsul qızı, i. f.d.
rrufet1979@mail.ru

Xülasə

Rəqəmsal marketinq *məhsulların, xidmətlərin onlayn yolla hədəflənən kütləyə sata bilmək və marketinq taktikalarını həyata keçirmək baxımından çox zəruridir. Məqalədə rəqəmsal marketinqin mahiyyəti, əsas alətləri, növləri və kanalları tədqiq edilmişdir. Offlayn və onlayn məkanlarda internet, mobil yayım, yerli şəbəkələr və müxtəlif rəqəmsal cihazların tətbiqi ilə baş verən işlər, biznes prosesləri təhlil olunmuşdur.*

Açar sözlər: **marketinq, rəqəmsal marketinq, internet marketinq, rəqəmsal marketinqin növləri, rəqəmsal marketinqin kanalları**

Müasir şəraitdə biznes sferası rəqabətin güclənməsi ilə xarakterizə olunur. Dünya iqtisadiyyatının rəqəmsallaşması, texnoloji və sosial mədəni mühitin inkişafı, bazarda istehlakçılarla yeni qarşılıqlı əlaqə və təsir alətlərinin axtarışının vacibliyini şərtləndirir. Uzun illər ərzində şirkətlər istehsal etdikləri məhsul və xidmətlərin təşviqində müxtəlif vasitələrdən istifadə etmişlər. Hazırda onlar marketinq fəaliyyətinin yeni formasının – rəqəmsal marketinqin yaranmasına təkan verən yeni idarəetmə alətlərini qəbul etmək məcburiyyətindədirlər ki, bununla sabitliyi təmin etmək və dəyişikliliyə daha tez reaksiya vermək iqtidarında olsunlar. Beləliklə yeni rəqəmsal metodlar, informasiyaların işlənməsi və emalı marketinq fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinin əsas mənbəyinə çevrilmişdir [1].

Şirkətlərin müştəri və təchizatçıları ilə qarşılıqlı əlaqələri daha da sadələşməklə biznes qaydaları yenidən qurulur. Bu baxımdan elektron ticarətin inkişafı dünya iqtisadiyyatının qloballaşması ilə sıx bağlıdır [2].

Rəqəmsal marketinq hazırda iri müəssisə və şirkətlərin öz məhsullarını və xidmətlərini satmaq, müştərilərə tanıtmaq və məhsulların irəlilədilməsi ilə bağlı digər məqsədlər üçün istifadə etdikləri önəmli bir vasitəyə çevrilmişdir. Son illərin təcrübəsi göstərir ki, rəqəmsal marketinqi öz satış strategiyalarına daxil edən şirkətlər rəqibləri ilə müqayisədə daha üstün nəticələrə sahib olmuşlar. Bu gün şirkətlər üçün rəqəmsal marketinqin vacibliyi onunla izah edilə bilər ki, o, bir çox onlayn marketinq strategiyası (məsələn, SEO, PPC, məzmun marketinqi, sosial media marketinqi və s.), ətraflı hədəfləmə və fərdiləşdirmə seçimləri, davamlı kampaniya performans rəyi və s. təklif edir. 2020-ci ilin statistikasına görə dünyada reklama çəkilən xərclər 605 milyard dollar təşkil etmişdir, 55% alıcı məhsul və xidmətlər haqqında öz araşdırmalarını onlayn üzərindən edir. Elektron ticarət saytlarına 43% onlayn trafiki Google axtarışlarında tapmaq olar [3].

Rəqəmsal marketinq istehlakçı üstünlüklərini anlamaq və təhlil etmək, ehtiyacları müəyyənləşdirmək və qarşılıqlı təsir təcrübəsini öyrənmək və təkmilləşdirməklə rəqəmsal texnologiyaların potensialından istifadə edərək müxtəlif metodları tətbiq etməklə mənfəət əldə etmək məqsədilə şirkətlərin həyata keçirdiyi marketinq fəaliyyətidir [4].

Rəqəmsal marketinqin əsas xidmət sahələrinə bunları aid edə bilərik:

Sosial media marketinqi – əsasən Facebook, Google Places,Yelp, Instagram, LinkedIN, Pinterest kimi məhşur axtarış platformaları üzərindən aparılan marketinq strategiyaları toplusudur.

SEO xidməti (Axtarış saytının optimallaşdırlması) – vasitəsilə şirkətin axtarışlar zamanı ilk sətirlərdə görünməyini təmin etmək mümkündür. SEO xidməti haqqında göstərilən statistikalar onun nə qədər vacib bir iş olduğunun bariz bir nümunəsidir. *Tək Google axtarış sistemində 2019-cu ildə 2,3 trilyon axtarış edilib.* **Birinci səhifədə ilk 5-ci yerdə görünən markalar, axtarışın 67,6%-**

ni əldə edir. İnsanların 81%-i alış-veriş zamanı qərar verərkən, məlumat üçün onlayn axtarışlara əhəmiyyət verirlər. Axtarışların 75%-i zamanı heç kim ikinci səhifəyə keçid etmir.

SEM xidməti (Axtarış sistemi marketinqinin qısaldılmış adı) – vasitəsilə axtarış sistemlərində həmin şirkəti axtaran insanlara reklamın görünməsini təmin etmək mümkündür.

PPC (Klik başına ödəmə) – axtarış platformalarında reklam büdcəsinin necə xərcləməsidir.

İnflunser marketinq – şirkətin biznesinin hədəf kütləsinə uyğun tanınmış şəxslərlə işləməsidir.

Kontent Marketinq – dizayn – logo, sosial media paylaşım dizaynları və s. hazırlamaqla şirkətin markasının hekayəsini, xidmətlərini və gələcək planlarını daha ətraflı izah etməsi üçün istifadə olunur.

E-mail marketinq – mail ünvanı üzərindən marketinq siyasətinin və satışın həyata keçirilməsini nəzərdə tutur.

Hər bir şirkətin öz hədəfinə uyğun rəqəmsal marketinq planları vardır. Rəqəmsal marketinqi internet marketinqə nisbətən daha geniş anlayış kimi qəbul etmək olar. Belə ki, o, məhsulların irəlilədilməsində bütün internet kanallarından istifadəyə əsaslanır. Rəqəmsal və yaxud interaktiv marketinq ənənəvi kanallar istisna olmaqla onlayn, eyni zamanda oflayn vəziyyətlərdə baş verən müvafiq rəqəmsal kommunikasiyanın formalaşmasını özündə birləşdirir. O, kommunikasiyanın yaradılması üçün məlumat – kommunikasiya texnologiyasının tətbiqinə əsaslanaraq bütövlükdə cəmiyyət, istehlakçılar, tərəfdaşlar üçün əhəmiyyət kəsb edən çatdırılma və təklif mübadiləsini həyata keçirir [5].

Müasir rəqəmsal texnologiyalardan istifadə etməklə şirkətin maketinq strategiyasını gücləndirmək və satış dövriyyəsini artırmaq imkanı vardır. Rəqəmsal marketinq strategiyasının birinci mərhələsində hədəflərin müəyyən olunması durur. Bu mərhələdə biznesin hədəflərinə uyğun olaraq digital-strategiya formalaşdırılır, daha sonra hədəf auditoriya və hadisələr müəyyənləşdirilir. Növbəti mərhələdə unikal təklif formalaşdırılır və şirkətin malik olduğu rəqəmsal alət və kanallar diqqətlə təhlil edilir. Daha sonra kontent strategiyanın inkişaf mərhələsinə başlanılır. Şirkətin hədəflərindən uzaqlaşmamaq şərtilə auditoriyaya kontent çatdırılır. Beləliklə bütün bunlardan sonra strategiyanın həyata keçirilməsi mərhələsi başlayır. Hər mərhələ üçün nəticələrin yoxlanılması da vacib şərtdir.

Rəqəmsal marketinqin üstünlüklərini həm də marketinq kompaniyasının nəticələrinin aydın olması və eyni vaxtda düzəlişlərin edilməsinin mümkünlüyü ilə də əlaqələndirə bilərik. Bundan başqa ənənəvi reklamla müqayisədə daha aşağı xərclərin olması bu marketinq növünün vacibliyini şərtləndirən əsas amillərdən biridir.

Rəqəmsal marketinqin bir sıra əlavə üstünlükləri də vardır ki, bunlardan biri də brendin avtoritetinin yüksəldilməsinə imkan verməsidir. Əgər bir brendin sosial mediada paylaşımı çox olarsa, onun haqqında müzakirələr də çoxalmış olacaq, beləcə brendin populyarlığı da artır və müştəri bazarı genişlənmiş olur. İnternet marketinqlə rəqəmsal marketinqi fərqləndirən əsas cəhətləri belə qruplaşdıra bilərik:

Cədvəl 1.

№	Fərq meyarları	İnternet marketinq	Rəqəmsal marketinq
1	Hədəf aiditoriyasına təsir sferasına görə	Onlayn	Onlayn və offlayn
2	Yayılma kanalları	İnternet kanalları	Rəqəmsal kanlların bütün növləri (internet, mobil tətbiqetmələr, rəqəmsal reklam, oyun konsolları)
3	Hədəf auditoriyası	İnternetə qoşulma imkanı olan hər kəs	İnternetə qoşulma imkanı olan hər kəs + offlayn auditoriyanı onlayn bazara cəlb etmək
4	Auditoriya ilə əlaqə imkanları	E-mail, lendinq, sayt, reklamlar (axtarış, bannerlər və s.)	E-mail, lendinq, sayt, reklamlar (axtarış, bannerlər və s.) + rəqəmsal televiziya, onlayn oyunlarda reklamlar, mobil tətbiqetmələr, messenjerlər, interaktiv ekranlar, POS- terminallar

Rəqəmsal marketinqə klassik yanaşmada 6D konsepsiyası əsasında baxmaq olar ki, bu konsepsiyanın elementlərinə aşağıdakıları daxil etmək olar:

- Digital Customer – rəqəmsal istehlakçı, yəni alıcının istehlakçı davranışının öyrənilməsi əsasında "rəqəmsal portretinin" yaradılması, "rəqəmsal iz ";
- Digital Competition – bu özündə rəqəmsal rəqabət elementlərini birləşdirir. Belə ki, rəqiblərin təhlili saytların internet aktivliyi, sosial şəbəkələrdə nəşr və səhifələrin təhlili ilə bağlı rəqəmsal marketinq alətlərinin tətbiqi əsasında çox asanlaşır;
- Dijital Communication – yəni rəqəmsal əlaqə özündə internet saytları, sosial şəbəkələr, mobil tətbiqlər, SMS və messenjerlər vasitəsilə malların təşviqinə əsaslanır;
- Digital product – rəqəmsal məhsul rəqəmsal texnologiyaların istifadəsinə əsaslanan xüsusi bir məhsulun hazırlanması;
- Digital pricing – rəqəmsal qiymətqoyma internetdə internet xidmətləri vasitəsilə müasir müxtəlif ödəniş texnologiylarından istifadə etməklə böyük miqdarda məhsul və xidmət təklifinin təhlili əsasında qiymətqoymanı nəzərdə tutur;
- Digital distribution – elektron ticarət logistik əməliyyatlar üçün izləmə sistemlərindən, həmçinin malların çatdırılması üçün pilotsuz təyyarələrdən istifadə edərək malların internet üzərindən sifariş verilməsi və çatdırılmasını nəzərdə tutur.

Rəqəmsal marketinqin üsul və vasitələrini nəzərdən keçirdikdə aydın olur ki, bunlara əsasən girişi təmin edən internet və cihazlar, lokal şəbəkələr, mobil cihazlar, rəqəmsal televiziya və onlayn radio, interaktiv ekranlar və digər rəqəmsal alətləri aid etmək olar.

Rəqəmsal marketinq çərçivəsində internetdə müxtəlif reklamlar yerləşdirilir, passiv təbliğ üçün müxtəlif planlı məzmunlar yaradılır, sosial şəbəkələrdə təşviqlə məşğul olurlar, müxtəlif tanınmış şəxsiyyətlərin, ekspertlərin fikirlərini dərc edirlər, SEO – resursların optimallaşdırlmasını və s. yerinə yetirirlər ki, bütün bunlar da rəqəmsal marketinqin əsas üsullarından biri olan internet və cihazlar vasitəsilə baş verir. İnformasiya sistemləri istifadəçilərinin tam hüquqlu ünsiyyəti və onları maraqlandıran məlumat mübadiləsi lokal şəbəkələrdən, əsasən müəssisələrin və şəhər ərazilərinin daxili kompüter şəbəkələrindən istifadə edilməklə təmin edilir. Qeyd etmək lazımdır ki, adətən bir kanal coğrafi baxımdan fərqli auditoriyalara yönəlmiş məhsul və xidmətlərin reklamlarının yayılması üçün istifadə edilir.

Rəqəmsal marketinqin əsas vasitələrindən biri təqdimatı əsasən SMS paylanması yolu ilə həyata keçirilən mobil cihazlardır ki, bu cür poçtlar mövcud olan müştəri bazası və ya müstəqil telefon nömrələri kolleksiyaları ilə həyata keçiriə bilər. Hazırda geniş yayılmış ən populyar cihazlardan kənar proqramlarda reklamların yerləşdirilməsini, müxtəlif tətbiqetmələrin və proqramların quraşdırlmasını qeyd etmək olar. E-poçt marketinq kampaniyasından və ya veb saytdan istifadəçilər üçün fərdi bir təcrübə yaratmaq daha yaxşı marketinq nəticələrinə səbəb ola bilər. Abunəçinin keçmiş satınalma davranışına əsaslanan məhsulları tövsiyə edən bir e-poçt başqa bir satışa səbəb ola bilər.

Rəqəmsal marketinq çərçivəsində rəqəmsal televiziya və onlayn radio ilə təbliğ metodu vasitəsilə telefonda tətbiqetmələrlə ikinci ekran texnologiyası ilə inteqrasiyasına, internet reklamla sinxronlaşdırlmasına imkan vermişdir. Rəqəmsal televiziya kanallarında ən çox yayılan rəqəmsal marketinq formatı reklam fasilələrində yayımlanan qısa videoçarxlardır. Bəzi hallarda isə "qaçan sətirlər"dən və s. istifadə olunur.

Rəqəmsal medianın əsas növlərindən hesab edilən interaktiv ekranlar, POS terminallar tədricən standart xarici reklamları aradan çıxararaq istehlakçılara birbaşa təsir edən və eyni zamanda onların alış verişinə kömək edən vasitədir. İnteraktiv ekranlara reklam məqsədləri üçün quraşdırlmış rəqəmsal bannerlər də aid edilir ki, hər hansı saytlarda qrafik bannerlər yerləşdirilir.

Rəqəmsal marketinqin əsas vasitələrindən biri də rəqəmsal alətlər hesab edilir. Onlar məlumatı toplayaraq digər daşıyıcılara ötürən cihazlara deyilir ki, bunlardan "ağıllı saatlar", fitnes bilərzikləri, "ağıllı" idman ayaqqabılarını misal çəkmək olar.

Dünyada milyonlarla insan internetdən, telefonlardan istifadə edir. Bu isə rəqəmsal marketinq üçün faydalıdır. Belə ki, müxtəlif sosial media vasitələrindən, digər rəqəmsal marketinq alətlərindən

istəfadə edməklə şirkətlər özləri haqqında məlumat vermək imkanına malik olurlar. İnsanlar da ehtiyac duyduqları xidmət və yaxud hər hansı məhsulu sürətli şəkildə tapıb sifariş edə bilirlər.

Rəqəmsal marketinqin bir vasitəsi də istənilən növdə bədii əsər yaratmaq və çoxaltmaq məqsədilə istifadə olunan kompüterlər, tabletlərdir ki, bunları "rəqəmsal art" alətləri də adlandırmaq olar. Bu rəsm, səs, animasiya, video, oyun, veb-sayt, alqoritm, performans və ya müxtəlif quraşdırmalar ola bilər. Hazırda bir çox ənənəvi sənət növləri rəqəmsal texnologiyalara inteqrasiya olunmaqdadır. Bunun da nəticəsidir ki, ənənəvi sənətlə rəqəmsal media arasındakı xətt pozulur. Bu tanıtım kanalı müasir rəqəmsal texnologiyalardan istifadə edərək yayımlana və ya yaradıla bilən hər hansı bir sənət əsərinin istifadəsini nəzərdə tutur. Bu metod hazırda ən çox marka işlərində, brend istehsalının istifadəsində fəal işlənməkdədir.

Nəticə olaraq qeyd edə bilərik ki, respublikamızda rəqəmsal texnologiyalardan istifadə səviyyəsi getdikcə artmağa başlamışdır. Buna baxmayaraq müəssisə və şirkətlərdə bu sahədə ixtisaslaşməış marketoloqların sayı kifayət qədər deyil və müəssisələrin əksəriyyətində marketinq strategiyası mövcud deyildir. Bəzi müəssisələr veb-sayt yaratmaq və media reklamları təşkil etməklə kifayətlənirlər. Məhsul və xidmətlərin rəqəmsallaşması marketoloqlara yaxşı fürsətlər açır ki, onlar bu imkandan şirkətlərdə yararlanmaqla yaxşı nətəcələr əldə edə bilər və rəqiblərini üstələyə bilərlər.

Ədəbiyyat

1. Рыбников, А. М. Цифровой маркетинг в современном бизнесе / А. М. Рыбников // Эффективное управление экономикой: проблемы и перспективы: Сборник трудов VI Всероссийской научно-практической конференции, Симферополь, 15–16 апреля 2021 года / Научн. ред. В. М. Ячменевой, редколлегия: И.М. Пожарицкая, Р.А. Тимаев, Т.И. Воробец. – Симферополь: Общество с ограниченной ответственностью «Издательство Типография «Ариал», 2021. – С. 392-397.
2. Nəcəfova, Ç. M. Beynəlxalq ticarət əlaqələri sistemində elektron ticarətin mahiyyəti / Ç. M. Nəcəfova // Elmi xəbərlər. Sosial və humanitar elmlər bölməsi. – 2021. – Vol. 17. – No 1. – P. 78-81.
3. https://www.thedrum.com/
4. Колодник, Т. Развитие теории цифрового маркетинга / Т. Колодник // Наука и инновации. – 2021. – № 1(215). – С. 53-57. – DOI 10.29235/1818-9857-2021-1-53-57.
5. А.В. Катаев, Т.М. Катаева, И.А. Названова. Digital – маркетинг. Учебное пособие. Ростов –на –Дону, Таганрог, 2020 - 161 с.

SƏNAYE MÜƏSSİSƏLƏRİNİN İDARƏ EDİLMƏSİNİN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİNDƏ PROSES YANAŞMASI VƏ RƏQƏMSAL TEXNOLOGIYALARIN TƏTBİQİ İMKANLARI

Yusifov Elşad Məsim oğlu, i.ü.f.d., dosent
Azərbaycan Memarlıq və İnşaat Universiteti
e.yusifov.77@mail.ru
Qasımlı Murad Bəkir oğlu, doktorant
Azərbaycan Memarlıq və İnşaat Universiteti
murad.gasimli.96@gmail.com

Xülasə

Mövcud iqtisadi şəraitdə, sənaye müəssisələri dünyada və daxili iqtisadiyyatlardakı böhran hadisələri ilə əlaqəli fəaliyyətlərində müəyyən çətinliklər yaşayırlar. Rəqabət qabiliyyətini qorumaq üçün hər bir sənaye müəssisəsi xərcləri minimuma endirməli, resurs axınlarını idarə etməli və gəlirləri maksimum dərəcədə artırmalıdır. Söhbət həm müvəqqəti, həm təşkilati, həm də müəssisənin istismarı zamanı yaranan maddi itkilərdən gedir. Bazarda rəqabətçi mövqelərin qorunması və möhkəmləndirilməsi üçün ilkin şərt olan yenilikçi istehsal texnologiyalarının tətbiqi

yüksək xərclərlə əlaqələndirilir, buna görə sənaye müəssisələri istehsal etdikləri məhsulun keyfiyyətini itirmədən istehsal xərclərini azaltmaq üçün yollar axtarmağa məcbur olurlar. Ənənəvi olaraq yeni bir texnologiyanın tətbiqi barədə qərar verilərkən texnoloji prosesin seçilməsi standartların hesablanması və texniki-iqtisadi fəaliyyət göstəricilərinə əsaslanırlar. Qeyd edilənlər müasir mərhələdə sənaye müssislərinin idarə edilməsinin səmərəliliyinin yüksəldilməsində rəqəmsal texnologiyaların tətbiqini zəruri etmişdir.

Sənaye müəssisələrinin səmərli idarə edilməsində proses yanaşmasının xüsusiyyətləri və rəqəmsal texnologiyaların tətbiqi imkanları yerli və xarici ədəbiyyatda kifayət qədər araşdırılmışdır [1, s .39].

M. Hammer və J. Champy, yüksək rəqabətçi mövqelər əldə etməyə yönəlmiş yeni bir şirkət növü meydana gətirərək istehsal və zaman xərclərində əhəmiyyətli qənaət təmin edən bir vasitə təklif edirlər [2, s .14].

Ancaq sənaye müəssisələrinin idarə olunması prosesinə, fəaliyyət praktikasında proses yanaşmasının inkişafı və tətbiqinə müxtəlif yanaşmalara baxmayaraq, biznesin optimallaşdırılması üçün texnologiyalar, metod və mexanizmlərin formalaşdırılması zərurəti ilə bağlı bir sıra aktual məsələlər mövcudluğunu hələ də qoruyur.

Təşkilatın iş proseslərinin bölüşdürülməsi, təsviri və idarə olunması, mühəndislik konsepsiyasına əsasən bütövlükdə iqtisadi fəaliyyətin səmərəliliyini əhəmiyyətli dərəcədə artıra biləcək bir idarəetmə metodologiyasını həyata keçirir. Ənənəvi olaraq, iflas təhlükəsi vəziyyətində müəssisənin tamamilə yenidən qurulması, böhran əleyhinə sistemdəki iş proseslərinin yenidən dizayn edilməsi və sabitliyi artırmaq üçün uğurlu bir sənaye müəssisənin proses idarəçiliyini yaxşılaşdırmaq üçün tövsiyə olunur.

Sənaye müəssisələrində biznes-proseslərinin optimallaşdırılması onların səviyyəli təsviri ilə başlayır [3, s. 132]. Bu gün biznes proseslərini təsvir etmək üçün ən çox istifadə olunan kifayət qədər məhdud sayda metodlar mövcuddur. İnformasiya sistemlərinin dizaynında funksional parçalanma prinsiplərini həyata keçirən struktur analiz və struktur modelləşdirmə istifadə olunur. Təşkilati prosesləri təsvir etmək üçün ən çox istifadə olunan qeyd IDEF0-dur. Xüsusiyyəti, iş proseslərinin funksional modelləşdirilməsinin mümkünlüyüdür. Bu yanaşma, müəyyən bir iş funksiyasının bütün girişlərini, nəticələrini əks etdirməyə imkan verir.

İş prosesi modelləşdirmə vasitələrinin istifadəsi sənaye müəssisənin biznes modelində dövriyyədə olan informasiya axınlarının idarə edilməsinə əsaslanır. İnformasiya axınları - icra edilə bilən funksiyalar arasında hərəkət edən məlumatlar toplusudur. Bunlar üç alt qrupa bölünür: məhdudlaşdırıcı, göstəriş verən və təsviredici.

Məhdudlaşdırıcı məlumat - nə etməməli olduğunuz prosesi izah edir. Tənzimləmə sənədlərində, əsasnamələrdə, qaydalarda, standartlarda yer alır və məcburi bir məlumat quruluşuna malikdir.

Təyinat xarakterli məlumatlar isə bir obyektin nə vaxt və hansı şəraitdə çevrilməli olduğunu müəyyənləşdirir. Bu texnoloji proses, iş yerindəki təlimatlar və digər sənədlər ola bilər.

Bir müəssisənin iş proseslərinin optimallaşdırılması birbaşa optimallaşdırma obyektlərinin seçimi ilə bağlıdır. Əməliyyat səmərəliliyi mümkün obyektlər kimi qəbul edilə bilər: əməliyyatların həcmi; müəyyən bir hadisəyə cavab müddəti (reaksiya dərəcəsi); resurs və vaxt baxımından itkilər.

Maliyyə səmərəliliyi: hər alt prosesin xammal, əmək, maliyyə baxımından dəyəri; satılan məhsulların dəyəri, tullantılar və tətbiq olunan texnoloji və ya idarəetmə həllindən qənaət hesablanması.

Yuxarıda göstərilən siyahı bir proses yanaşması tətbiq edilərkən optimallaşdırma hədəflərindən asılı olaraq digər göstəricilərlə tamamlana bilər. Optimizasiya - bir sistemin (və ya bu sistemin obyektlərinin) effektivliyini artırmaq üçün dəyişdirilməsi. Optimizasiya probleminin formalaşdırılması nəticəyə nail olmaq üçün optimallıq meyarlarının və parametrlərinin formalaşdırılmasını nəzərdə tutur. Qrafik optimallaşdırma modeli, hər bir təpəsi funksiyanın lokal ekstremumunu təmsil edən qabarıq çoxbucaqlı şəklində bir həll sahəsidir. İki və ya daha çox amil olan bir modelin qurulması və problemin simpleks üsulu ilə həll edilməsi halında, mümkün həll yollarının bölgəsi

konveks hiperpolihedronla təmsil ediləcəkdir ki, bu da yalnız koordinatların şərti dəyərlərində mümkündür.

Simpleks üsulu ədədi optimallaşdırma metodlarına istinad edir və məqsəd funksiyasının qondarma dəyişənlərlə əlavə edilməsini nəzərdə tutur, bunun sayəsində məhdudiyyətlər sistemi müəyyən sayda təkrarlanmadan sonra həll edilməsi lazım olan tənliklər sisteminə çevrilir.

Optimallaşdırmanın müəyyən bir məqsəd funksiyasının ekstremalını tapmaq olduğunu nəzərə alaraq, sistemin vəziyyətinə təsir edən hədəf funksiyasını və dəyişənləri təyin etmək lazımdır. Hədəflər prosesin dəyəri, prosesin icra müddəti və həmçinin məhsuldarlığı ola bilər.

Prosesin son nəticəsinin keyfiyyəti bu barədə şikayətləri öyrənməklə qiymətləndirilir, yəni. rəsmi müştəri şikayətləri, şirkət rəhbərliyindən və ya icraçılarından narazılıq, habelə bu halda istifadə olunan mübahisələr. Müştərilər və agentlərlə qarşılıqlı əlaqə prosesindən məsul olan hər bir mütəxəssisin (menecerin) diqqət yetirməsi lazım olan parametrləri təmin etmək lazımdır. Məsələn, qeyri-standart müqavilələrdən standart müqavilələrə keçid üçün bir texnologiyanın hazırlanmasından, anlaşılan bir nəticə əldə etmək üçün atılması lazım olan bir sıra addımlardan danışa bilərik.

Aralıq nəticələrin keyfiyyəti də eyni şəkildə qiymətləndirilir. Burada optimallıq meyarları aşağıdakı prosedurun icraçısının və proses menecerinin rahatlığıdır. İfaçıların hərəkətlərinin mənalı olması diqqət yetirilməli olan növbəti parametrdir. Optimal bir prosedur, ətraflı qaydalar və aydın məzmunu olan minimal addımlar dəsti tələb edir.

Hər şey müəyyən edilmiş çərçivədədirsə, hərəkətlərin (prosedurların) idarə edilməsi prosesi müəyyən bir vaxt (sabit vaxt intervalı) alır və ondan kənara çıxmaq yalnız bir istisnanın olması və buna görə prosedurun başlanğıcı deməkdir belə bir istisnadan istifadə etmək üçün. Bundan əlavə, ifaçının həyata keçirdiyi hərəkət növlərini vurğulamaq lazımdır, çünki onlar əmək və vaxt xərcləri ilə fərqlənirlər:

- tanışlıq - minimum vaxt xərcləri, məlumatların alınması barədə bildiriş;
- uzlaşma - əvvəlcədən razılaşdırılmış parametrlər və mövcud məlumatlarla yoxlanaraq sərf olunan orta vaxt;
- çevrilmə - maksimum vaxt sərf olunur, əldə edilən məlumatlar diqqətlə yoxlanılmasını tələb edir, qərar vermək üçün yalnız məlumat bazalarında mövcud olan məlumatlar kifayət deyil.

Proses diaqramını qiymətləndirmək üçün qiymətləndirmənin aparılacağı göstəriciləri və norma kimi götürülmüş meyarları müəyyənləşdirmək lazımdır. Modelləşdirmə prosesində müvafiq göstəricilər kimi aşağıdakılar təklif edilə bilər:

- Giriş sayı - birləşdirilmiş giriş (optimal rəqəm kimi);
- Çıxış sayı (digər proseslərə) - biri prosesin düzgün gedişi ilə, digəri isə iki və ya üçü - istisnalarla;
- Prosesdəki prosedurların sayı - 10-dan çox deyil, çünki bu halda, onlar hələ də effektiv şəkildə idarə oluna və nəzarət edilə bilər;
- Mümkün istisnaların sayı minimaldır, çünki istisna prosesin nəzarət oluna bilməsi üçün bir təhdiddir, lakin bunlar təmin edilməlidir;
- Cəlb olunan işçilərin və şöbələrin sayı optimal variantda minimaldır.

Optimizasiya probleminin formalaşdırılması, onun optimallığı üçün meyarların, dəyərlərin seçilməsində istifadə ediləcək dəyişən parametrlərin əks olunmasını əhatə edir. Proseduru həyata keçirmək üçün aşağıdakı addımlar tələb olunur:

Optimizasiya sisteminin sərhədlərini müəyyənləşdirin. Bu mərhələdə optimallaşdırma obyektinin xarici dünya ilə əlaqələrini, nəticəsinə əhəmiyyətsiz təsir göstərən, yəni modelə daxil edilməsi praktik və lazımsız olan amilləri istisna etmək tələb olunur.

Nəzarət olunan dəyişənləri seçin. Bu mərhələdə, bütün optimallaşdırma prosesi boyunca modeldə əks olunacaq nəzarət olunmayan dəyişənlərin (sabit əmsallar) düzəldilməsi tələb olunur. Dəyişdirilə bilən dəyişənlər daxil edilir, dəyərləri mümkün həll variantları aralığından dəyişəcəkdir.

Bərabərlik və ya bərabərsizlik şəklində nəzarət olunan dəyişənlər üzərində mövcud məhdudiyyətləri müəyyənləşdirin.

Ədədi bir optimallaşdırma meyarının seçilməsi, yəni, performans göstəricisi. Hədəf funksiyasının formalaşması.

Ona verilən tapşırıqlara uyğun olaraq iki optimallaşdırma metodundan istifadə edə bilərsiniz.

Yerli optimallaşdırma metodları. Məqsəd funksiyasının lokal ekstremumunu tapmaq üçün qaynayırlar. Unimodal bir obyektiv funksiyası olan hallarda, bu ekstremum yeganədir və hədəfdən asılı olaraq qlobal maksimum və ya minimum adlanır.

Qlobal optimallaşdırma metodları. Bunlar çox obyektiv hədəf funksiyaları modelləşdirildikdə istifadə olunur. Qlobal bir axtarışda əsas vəzifə hədəf funksiyanın qlobal davranış tendensiyalarını müəyyənləşdirməkdir.

Ayrıca, üç böyük optimallaşdırma üsulu qrupu ayrılmalıdır: stoxastik, deterministik, kombinə edilmiş. Qəbul edilə bilən çoxluğun ölçüsü meyarına görə, bir neçə dəyişkən və dəyişməz dəyişənlərin istifadəsinə gəldikdə, optimallaşdırma metodları bir ölçülü və çoxölçülüdür.

Sənaye müəssisələrinin səmərəli idarə edilməsinə proses yanaşmaları ilə bəqabər rəqəmsal texnologiyaların tətbiqi də imkanlarının araşdırılması da vacibdir.

Rəqəmsal texnologiyaların meydana gəlməsi sənaye müəssisələrində məhsul keyfiyyətinin formatına əhəmiyyətli dərəcədə təsir göstərir. Sənaye müəssisələrində keyfiyyət idarəçiliyi aşağıdakı istiqamətləri təşviq etməlidir:

- istehlakçı ehtiyaclarının və məhsulun istifadə şərtlərini daha yaxşı başa düşülməsilə müştəri məmnuniyyətini maksimum dərəcədə artırmaq;
- məhsulların hazırlanması və istehsalı müddətlərinin azaldılması;
- proseslərin avtomatlaşdırılması və sinxronizasiyası yolu ilə əməliyyat səmərəliliyinin artırılması və müəssisə xərclərinin azaldılması;
- iş yerində təhlükəsizliyin artırılması;
- ətraf mühitə zərərin azaldılması;
- üçüncü tərəf təşkilatlarla yeni əməkdaşlıq formalarının inkişafı.

Ümumiyyətlə, rəqəmsal transformasiya yeni inkişaf modelləri, əməliyyatlar, məhsullar, marketinq yanaşması, hədəflər və s. inkişaf etmiş istehsal texnologiyasını mənimsəyərək sənaye müəssisələri biznes strategiyasının yenidən nəzərdən keçirməlidirlər. O, satışları və biznesin inkişafını sürətləndirmək üçün hazırlanır.

Məhsul keyfiyyətinin yaxşılaşdırılmasına kömək edən amilləri müəyyənləşdirərək, keyfiyyətə təsir göstərən rəqəmsal texnologiyaların araşdırılmasına keçmək tələb olunur. Sənaye Əşyaları İnterneti (Industrial Internet of Things - IIoT) - korporativ və sənaye istifadəsi üçün əşyaların interneti - bir-birinə bağlı kompüter şəbəkələri sistemi və məlumat toplama, eləcə də mübadiləsi üçün quraşdırılmış sensor və proqram təminatı ilə birləşdirilmiş kompüter şəbəkələri sistemi,o cümlədən insan müdaxiləsi olmadan avtomatlaşdırılmış bir rejimdir [4].

"Ağıllı" sənaye müəssisələri, rəqəmsal müəssisələrin hədəflərinə əlavə olaraq, avtomatlaşdırma vasitələrinin istifadəsinin artması, idarəetmənin təkmilləşdirilməsi və proseslərin optimallaşdırılmasıdır. "Ağıllı" sənaye müəssisələri maksimum istehsal elastikliyini qoruyaraq kütləvi istehsalı hədəfləyir. Bu, sənaye müəssisənin yüksək səviyyədə avtomatlaşdırılması və robotlaşdırılması sayəsində əldə edilir. Texnoloji və istehsal prosesləri üçün avtomatlaşdırılmış idarəetmə sistemlərindən geniş istifadə olunur. Sənaye Əşyaları İnterneti (IIoT) texnologiyaları avadanlıqlar arasında ünsiyyət təmin edir. Spesifik protokollardan istifadə edərək sensorlar və rabitə ilə təchiz edilmiş bir sənaye müəssisənin istehsal aktivləri, tamamilə və ya minimum sayda insanın müdaxiləsi ilə məhsul istehsal edə bilir. "Big Data" emal texnologiyaları, sensorlar və avtomatlaşdırılmış idarəetmə sistemlərindən gələn kəskin şəkildə artan məlumat axınlarının öhdəsindən gəlməyə imkan verir.

Texnologiyanın işləmə prinsipi belədir. Əvvəlcə avadanlıqların əsas hissələrinə sensorlar, aktivatorlar, nəzarətedicilər və insan-maşın interfeysləri quraşdırılır. Bundan sonra məlumatlar toplanır və şirkətə dair obyektiv, həmçinin səanye müəssisənin vəziyyəti haqqında dəqiq məlumatlar əldə etməyə imkan verir. Emal edilmiş məlumatlar sənaye müəssisənin bütün şöbələrinə çatdırılır ki, bu da müəssisənin müxtəlif şöbələrinin işçiləri arasında qarşılıqlı əlaqələrin qurulmasına və daha dəqiq qərarlar qəbul edilməsinə kömək edir.

Müvafiq texnologiyanın tətbiq edilməsi ilə bağlı aparılan araşdırmalar aşağıdakı imkanların olduğunu göstərir:

- Birincisi, bu texnologiyanın tətbiqi avadanlıq istehsalçısının işinə nəzarət etməsinə, gündəlik təmir aparmasına, qəzaları proqnozlaşdırmasına və lazımi ehtiyat hissələrini əvvəlcədən hazırlamasına imkan verir.
- İkincisi, şəbəkəyə qoşulmuş avadanlıqların planlı və həqiqi yüklənmə həcmini bildiyimiz zaman, material tədarükçülərindən son məhsulun istehlakçılarına qədər müxtəlif sahələr arasında avtomatik sifariş şəbəkəsi təşkil etmək mümkündür. Bu mərhələ iştirakçılarını vahid istehsal sahəsinə birləşdirməklə həyata keçirilir.
- Üçüncüsü, bu, kəmiyyət olaraq ölçülmüş avadanlıq satış modelindən funksional satış modelinə (son nəticə) keçiddir. Məsələn, müəyyən edilmiş parametrlərdən asılı olaraq yalnız kompressorların deyil, müəyyən və zəmanətli parametrlərə malik sıxılmış havanın satışı, avadanlıqların qiyməti formalaşır.

Sənaye müəssisələrinin idarə edilməsinin səmərəliliyin yüksəldilməsi ilə əlaqədar tətbiq edilən rəqəmsal alət kimi xüsusi olaraq blokçeyn texnologiyasını ön planda tutmaq vacibdir. Blokçeyn texnologiyası, məlumatların saxlanma, ötürülmə və hətta istehsal tərzini dəyişdirən bir texnologiyadır. Əsasən, blok zənciri məlumat kitablarını qurmağın yeni bir yolunu ifadə edir.

Ənənəvi internet modelində bütün kompüterlər məlumatları mərkəzləşdirən və paylayan qovşaqlara qoşulur, bir axın yaradır. Blok zəncirində məlumat saxlama quruluşu fərqlidir. Kriptoqrafiya və inkişaf etmiş məlumatların sıxılması kimi bir neçə texnoloji inkişaf sayəsində, blok zəncirindəki bütün kompüterlər müəyyən bir şəbəkədəki bütün məlumatları saxlayır. Buna görə, bu texnologiyanın mərkəzi qovşaqları yoxdur, çünki bütün bağlı cihazların özləri belədir.

Sənaye müəssisəsində blokçeyn texnologiyası sistemdə edilən bütün əməliyyatları izləməyə imkan verən əməliyyat blokları zənciridir. Məsələn, ABŞ Qida və Dərman İdarəsi və proqram təminatı şirkəti IBM "Watson Health, xəstələrin fərdi məlumatlarını elektron tibbi qeydlər, genomik məlumatlar, klinik sınaqlar mobil cihazlar istifadəsi yolu ilə müxtəlif mənbələrdən araşdıraraq səhiyyə sistemini yaxşılaşdırmaq üçün blokçeyn texnologiyasını tətbiq etmək üçün səylər göstərir [5, s. 101].

Fikrimizcə, bu texnologiyaların istehsalata tətbiqi sənaye məhsulunun keyfiyyətini artıra və xərcləri 10-20% azalda bilər.

Sənaye müəssisəsinin ilk növbədə bazara çıxması prosesi çox vacibdir. Şirkətin nüfuzu, məhsulun dayanma vaxtı, anbar siyasəti, müəssisədəki xərclər, tədarükçülərlə əməkdaşlıq və müştəri bazası məhsulların bazara çıxarılması vaxtından asılıdır. Bütün bu amillər müəssisənin işinin ayrılmaz hissəsidir. Rəqəmsal texnologiyalar sayəsində bu prosesləri təkmilləşdirmək və bununla da müəssisənin səmərəliliyini artırmaq mümkün olur.

Hər hansı bir sənaye müəssisəsi üçün rəqəmsal transformasiya, konsepsiyanın inkişaf mərhələsində formalaşmış vahid yanaşmaya uyğun olaraq təşkil edilmiş ardıcıl sistemli bir işdir. Rəqəmsal sənaye müəssisələrinin inkişafı konsepsiyası onların biznes strategiyasının əsas hissəsinə çevrilir. Bununla birlikdə, fəaliyyətin nəticələrində əhəmiyyətli bir inkişafın yalnız aşağıdakı şərtlərdən ən az biri yerinə yetirildiyi zaman əldə edildiyi yadda saxlanılmalıdır:

- satış artımından və ya qiymət artımı səbəbindən satış həcmində əhəmiyyətli bir azalma olmadan gəlirlilik artımından əldə edilən mənfəətin artması;
- sifarişlərin yerinə yetirilmə keyfiyyətinə və müştəri baxımından məhsul keyfiyyətinə xələl gətirmədən xərclərin azaldılması.

Yuxarıda qeyd edilən iki şərt, yeni dördüncü nəsil sənaye texnologiyalarının tətbiqi də daxil olmaqla, hər hansı bir yeni idarəetmə fəaliyyətinin əsas məqsədi olmalıdır. Bu gün qeyd edilən sənaye texnologiyalarının istehsalata tətbiqi nəticəsində dəyər yaratmağın səkkiz əsas istiqamətini qeyd edə bilərik:

- avadanlıqların iş rejimlərinin optimallaşdırılması;
- avadanlıqların yüklənməsinin optimallaşdırılması;
- məhsuldarlığı və əməyin təhlükəsizliyini artırmaq;
- logistik optimallaşdırma;

- məhsul keyfiyyətinin yaxşılaşdırılması;
- tələbin yaxşılaşdırılması;
- məhsulların bazara çıxarılması müddətinin qısaldılması;
- satış sonrası xidmətin təkmilləşdirilməsi.

Rəqəmsal sənaye müəssisəsi, məhsulun hazırlanması və tədarükü, istehsal, logistik xidmətlərə qədər müəssisə daxilindəki proseslərin rəqəmləşdirilməsini və şaquli şəkildə birləşdirilməsini əhatə edir. Öz növbəsində, rəqəmsal müəssisənin üfüqi inteqrasiyası daxili əməliyyatlardan kənara çıxaraq təchizatçıları, istehlakçıları və dəyər zənciri boyunca bütün əsas tərəfdaşları əhatə edir. İzləmə və nəzarət cihazlarından tutmuş real vaxt icrası ilə inteqrasiya olunmuş kompleks planlaşdırmaya qədər müxtəlif texnologiyalardan istifadə edir. Bütün bunlar uyğun bir rəqəmsal platforma əsasında həyata keçirilir və birlikdə rəqəmsal bir müəssisənin rəqəmsal ekosistemini təşkil edirlər.

Nəticə

Ümumiyyətlə sənaye müəssisələrinin idarə edilməsinin təkmilləşdirilməsini həyata keçirərkən rəqəmsallaşma və avtomatlaşdırma arasında bir fərq qoyulmalıdır. Avtomatlaşdırma, insanları gündəlik əməliyyatlardan azad etmək məqsədi daşıyır, ona təhlil və qərar qəbul etmək üçün daha çox vaxt ayırmaq lazım gəlir. Rəqəmsallaşma növbəti addım kimi qəbul edilməlidir. Yəni, maşınların həyata keçirdiyi təhlili və qərar verməsini, insanın istehsaldakı iştirakının məhdudlaşdırılmasını, eləcə də biznes - proseslərdə insan amilini minimuma endirməyi əhatə edir. Avtomatlaşdırma rəqəmsallaşmanın hədəflərindən biridir və ya aşağı səviyyənin bir hissəsi olan rəqəmsallaşdırmanın ilkin mərhələsidir.

Sənaye müəssisələrinin rəqəmsal transformasiyasına iki aspektdən baxmaq olar. Birincisi, biznes modelinin rəqəmsallaşdırılmasıdır. Burada müştəri ilə qarşılıqlı əlaqə modelinin qurulması, ənənəvi satışdan müştəri üçün rəqəmsal bir xidmətlə tamamlanan "ağıllı" məhsul modelinə keçiddir. İkincisi isə əməliyyatların rəqəmsallaşdırmasıdır. Bu mövcud biznes modeli çərçivəsində sənaye müəssisələrnin idarə edilməsinin səmərəliliyini artırmaq üçün rəqəmsal vasitələrin tətbiqidir.

Ədəbiyyat

1. Ишмурадова И.И. Шагаипов Д.Р. Реинжиниринг бизнес-процессов на предприятиях по выпуску хлебобулочных изделий // Экономика, предпринимательство и право. – 2016. – № 1. – с. 37-48.

2. Комиссарова М.А. Возможности использования реинжиниринга как основного инструмента управления компаниями с позиций процессного подхода // Креативная экономика. – 2011. – № 7. – с. 10-16.

3. Бъерн А. Инструменты совершенствования. / Пер. с англ. С.В. Ариничева / Науч. ред. Ю.П. Адлер. – М.: РИА «Стандарты и качество», 2003. – 272 с.

4. Ralf Luis de Moura, İndustrial Internet of Things (IIoT) Platforms: An Evaluation Model, International Conference on Computational Science and Computational Intelligence (CSCI) – 2018, p. 1002-1009.

5. Попова, Л.Ф. Возможности и вызовы четвертой индустриальной революции для развития менеджмента и качества / Л. Ф. Попова , М. Н. Яшина // Вестник СГСЭУ. – 2018. – №2 (71). – С. 100-102.

Yusifov Elshad Masim
Azerbaijan University of Architecture and Construction, Ph.D., Associate Professor
Gasimli Murad Bekir
Azerbaijan University of Architecture and Construction, doctoral student

Process approach and ımplementatıon of dıgıtal technologıes ın ıncreasıng the effıcıency of management of ındustrıal enterprıses

Summary

In the current economic situation, industrial enterprises face certain difficulties in their activities in connection with the crisis in the world and in domestic economies. To maintain

competitiveness, every industry must minimize costs, manage resource flows, and maximize revenues. We are talking about temporary, organizational and material losses during the operation of the enterprise. The application of innovative production technologies, which are a prerequisite for maintaining and strengthening competitive positions in the market, is associated with high costs, so industrial enterprises are forced to look for ways to reduce production costs without losing the quality of their products. Traditionally, when deciding on the application of a new technology, the choice of technological process is based on the calculation of standards and technical and economic performance indicators. All this has necessitated the application of digital technologies to increase the efficiency of management of industrial enterprises at the present stage.

Юсифов Эльшад Масим оглы
Д.ф.н., доцент, Азербайджанский Архитектурно-Строительный Университет
Гасымлы Мурад Бекир оглы
Докторант, Азербайджанский Архитектурно-Строительный Университет

Процессный подход и возможности внедрения цифровых технологий в повышение эффективности управления промышленными предприятиями

Резюме

В нынешних экономических условиях промышленные предприятия сталкиваются с определенными трудностями в своей деятельности в связи с кризисом в мировой и внутренней экономике. Чтобы поддерживать конкурентоспособность, каждая отрасль должна минимизировать затраты, управлять потоками ресурсов и максимизировать доходы. Речь идет о временных, организационных и материальных потерях, понесенных при работе предприятия. Применение инновационных производственных технологий, являющихся предпосылкой для сохранения и укрепления конкурентных позиций на рынке, связано с высокими затратами, поэтому промышленные предприятия вынуждены искать способы снижения себестоимости продукции без потери качества своей продукции. Традиционно при принятии решения о применении новой технологии выбор технологического процесса основывается на расчете нормативов и технико-экономических показателей. Все это обусловило необходимость применения цифровых технологий для повышения эффективности управления промышленными предприятиями на современном этапе.

AZƏRBAYCANDA RƏQƏMSAL ÖDƏNİŞLƏRİN İQTİSADİ İNKİŞAFA TƏSİRİ

Tağıyev Xəyaləddin Rəsul oğlu, i.f.d., baş elmi işçi
Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin
İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu
khayaladdin_tagiyev@cbar.az, xstagiyev@gmail.com
Rüstəmov Tamerlan Hafiz oğlu, doktorant
Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin
İqtisadi İslahatlar Elmi-tədqiqat
thrustamov@bankofbaku.com, tamerlanrustamov@gmail.com

Xülasə

Son dövrlər informasiya texnologiyalarının sürətlə inkişafı və COVİD19 pandemiyası şəraitində rəqəmsal transformasiyanın dərinləşdiyi bir mühitdə rəqəmsal ödənişlərin iqtisadi inkişafa təsirinin müəyyən edilməsi çox böyük əhəmiyyət kəsb edir. Məhz buna görə də tədqiqat işində rəqəmsal ödənişlərin və iqtisadi inkişafın mahiyyəti izah edilmiş, ölkəmizdə rəqəmsal ödənişlər üzrə mövcud vəziyyət ətraflı təhlil edilmiş, rəqəmsal ödənişlərin ölkə iqtisadiyyatına, ödəniş xidməti təchizatçılarına və istifadəçilərə göstərdiyi üstünlüklər müəyyən edilərək rəqəmsal

ödənişlərlə iqtisadi artım və kölgə iqtisadiyyatı arasındadı əlaqələr göstərilmişdir. Sonda tədqiqat üzrə konkret nəticələr verilmişdir.

Açar sözlər: rəqəmsal ödənişlər, ödəniş sistemləri, iqtisadi artım, iqtisadi inkişaf

1. Giriş

Rəqəmsal ödənişlər dedikdə nağd pul iştirak etmədən iki və daha çox iqtisadi subyektlər arasında müxtəlif məqsədlər üçün ödəniş alətləri və vasitələri ilə pul vəsaitinin köçürülməsi əməliyyatı başa düşülür. Xarici ədəbiyyatlarda "rəqəmsal ödənişlər" anlayışı ilə yanaşı "nağdsız ödənişlər", "ödəniş sistemləri" və "elektron ödənişlər" kimi anlayışlardan da istifadə edilir. Lakin "rəqəmsal ödənişlər", "nağdsız ödənişlər" və "elektron ödənişlər" eyni mənanı daşısalar da, "ödəniş sistemlər"i bunlardan əhəmiyyətli dərəcədə fərqlənir və daha geniş istifadə edilir. Belə ki, ödəniş sistemi - pul vəsaitlərinin köçürülməsinə, hesablaşmaların və ödəniş dövriyyəsinin iştirakçıları arasında borc öhdəliklərinin tənzimlənməsinin həyata keçirilməsinə imkan verən, bu prosesin həyata keçirilməsi ilə bağlı iqtisadi münasibətlərə əsaslanan və özündə iqtisadiyyatda tətbiq olunan və fəaliyyət göstərən metodları, texnoloji alətləri, institutları, zəruri hüquqi bazanı birləşdirən sistemdir. Beynəlxalq təcrübədə ödəniş sistemləri aparılan əməliyyatın məbləğindən asılı olaraq iri həcmli və pərakəndə ödəniş sistemləri, aparılan əməliyyatın tezliyindən asılı olaraq isə real vaxt rejimli, klirinq sistemli və ya qarışıq ödəniş sistemləri kimi təsnifləşdirilir.

Məlumdur ki, iqtisadiyyatda ödənişlər nağd və nağdsız formada aparılır. Ümumi olaraq tarixi inkişaf mərhələsinə görə ödəniş alətlərini 3 qrupa bölmək olar: kağız pul yaranana qədər istifadə edilən ödəniş alətləri, kağız pul ödəniş aləti kimi və sonuncu rəqəmsal, elektron və ya nağdsız ödəniş aləti.

Ümumi olaraq, rəqəmsal ödənişlərdən istifadə istehlakın həcmini artırır və ÜDM-in xərc üsulunun tərkib hissəsindən biri də istehlak olduğundan belə çıxır ki, rəqəmsal ödənişlər ÜDM-in genişlənməsinə səbəb olur. Həmçinin rəqəmsal ödənişlərdən istifadə kölgə iqtisadiyyatının qarşısını alır, bu da ÜDM-in əhəmiyyətli dərəcədə artmasına gətirib çıxarır [7, 8].

Bildiyimiz ki, iqtisadi artım dedikdə, real ÜDM-in illər üzrə fərqi götürülür, lakin iqtisadi inkişaf iqtisadi artımdan daha geniş anlayışdır. Özündə həm kəmiyyət, həm də keyfiyyət baxımından dəyişiklikləri, inkişafı birləşdirir. İqtisadi inkişaf sadəcə müəyyən dövr içində əldə edilən ümumi daxili məhsulun artması demək deyil, bu artımın iqtisadiyyatda və əhalinin rifah səviyyəsindəki müsbət dəyişikliklərə təsirindən də ibarətdir. Ümumiyyətlə iqtisadi inkişaf davamlılıq xarakterdə olub, ən yaxşı iqtisadi strukturun əldə edilməsidir. İqtisadi inkişaf məqsədli iqtisadi siyasətlə aparılarsa, iqtisadi artım bu struktur dəyişiklərində əhəmiyyətli rol oynayar.

2. Azərbaycanda rəqəmsal ödənişlər üzrə mövcud vəziyyət

Azərbaycanda rəqəmsal ödəniş infrastrukturu Mərkəzi Bank və kommersiya bankları, həmçinin xidmət mərkəzi olan prosessinq təşkilatları tərəfindən yaradılmışdır [8, 12]. Mərkəzi Bank tərəfindən 2001 və 2002-ci ildə real vaxt rejimində milli hesablaşmalar sistemi olan AZIPS və xırda ödənişlər üzrə hesablaşma klirinq sistemi olan XÖHKS yaradılmışdır. Bu sistemlər ölkənin ödəniş sistemləridir. Statistik olaraq 2020-ci ildə AZIPS vasitəsi ilə aparılan əməliyyatların sayı 908 min ədəd, həcmi isə 195,6 mlrd. manat, XÖHKS sistemində isə əməliyyatların sayı 58917 min ədəd olmaqla həcmi 27,8 mlrd. manat olmuşdur. Qeyd edək ki, son beş il ərzində AZİPS sistemində əməliyyatların həcmində 1.48 dəfə, XÖHKS sistemində isə əməliyyatların həcmində 1.73 dəfə artım baş vermişdir.

Mərkəzi Bank tərəfindən yaradılan digər ödəniş infrastrukturu 2008-ci ildə Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sistemi adı ilə yaradılan və 2011-ci ildən Hökumət Ödəniş Portalı olan bütün növ dövlət, kommunal, mobil rabitə və digər ödənişlərin ödənilməsinə imkan verən elektron ticarət platformasıdır. Bu sistem ilə gpp.az internet saytı vasitəsi ilə və ya bankların və milli poçt operatorunun filial və şöbələrində ödəniş kartı, bank hesabları, nağd pul vasitəsi ilə bütün növ ödənişlərin həyata keçirilməsi mümkündür. 2020-ci ildə HÖP vasitəsi ilə aparılan əməliyyatların sayı 51 889 125 ədəd, həcmi isə 3 250 528 747 manat olmuşdur ki, bu da son beş il ilə müqayisədə uyğun olaraq 1.708 dəfə və həcm üzrə 1.58 dəfə artım deməkdir.

Mərkəzi Bank tərəfindən 2016-cı ildə istismara verilən və rəqəmsal ödəniş ekosistminin nüvə komponentlərindən biri də Banklararası Kart Mərkəzidir (BKM). BKM-in yaradılmasında əsas məqsəd ölkədə fəaliyyət göstərən banklar tərəfindən emissiya edilmiş ödəniş kartları ilə ölkə daxilində aparılan əməliyyatlar üzrə xidmət mərkəzləri arasınd aməlumatların emalı, ötürülməsi, saxlanılması və bu əməliyyatlar üzrə hesablaşmaların təşkil edilməsidir. BKM-in istismara verilməsi ilə ödəniş kartları ilə əməliyyatlarda məlumat təhlükəsizliyi təmin edilmiş, valyuta mübadiləsi xərcləri aradan qaldırılaraq əməliyyat effektivliyi yüksəldilmişdir.

Mərkəzi Bankın operatorluq və sahiblik etdiyi 2020-ci ilin oktyabr ayından real rejimdə istifadəyə verdiyi daha bir sistem ani ödənişlər sistemidir (AÖS). AÖS vasitəsi ilə ödəniş kartı iştirak etmədən birbaşa cari hesabı idarə etməklə mobil nömrə, şəxsiyyət vəsiqəsinin FİN nömrəsi, elektron poçt vasitəsi ilə 24/7/365 rejimli dərhal ödənişlərin aparılması mümkündür. Artıq əksər banklar AÖS sisteminə inteqrasiya olmuşdur.Paralel oalraq rəqəmsal transformasiya dövründə banklar elektron bankçılıq xidmətlərinin, əsasən də mobil bankçılığın inkişafı, "in-house" xidmət mərkəzlərinin yaradılması, bank məhsul və xidmətlərinin məsafədən təqdim edilməsi, tokenizasiya xidməti kimi innovaitv ödəniş həllərinin tətbiqi istiqamətində aktiv fəaliyyət göstərirlər. Ölkədə

xidmət mərkəzlərinə "AzəriKart" MMC və "MilliKart" MMC-ni və in-house xidmətləri göstərən bankları nümunə olaraq göstərmək olar.

3. Rəqəmsal ödənişlərin ölkə iqtisadiyyatına təsiri

Beynəlxalq təcrübəyə uyğun olaraq, nağdsız ödənişlərin göstərdiyi müsbət təsir ölkə iqtisadiyyatı, ödəniş xidməti təchizatçısı və istifadəçi baxımından qruplaşdırılır. Aşağıda bu qrupların hər biri üzrə ayrı-ayrılıqda rəqəmsal ödənişlərin həcminin artırılması nəticəsində hansı üstünlüklərin əldə edilməsi göstərilmişdir:

Ölkə iqtisadiyyatına təsiri baxımından:

1. İstehlak artır və bu da ÜDM-in artmasına təsir göstərir;
2. Pul kütləsi banklarda toplanır və investisiya potensialı genişlənir;
3. Pulun dövriyyəsi üzrə əməliyyatların qeydiyyatı aparıldığından pul kütləsinin idarə edilməsi asanlaşır;
4. Kölgə iqtisadiyyatının qarşısı alındığından dövlət büdcəsinə toplanılan büdcə gəlirlərinin həcmi artır (kölgə iqtisadiyyatının həcminin ÜDM-dəki payı ilə nağdsız ödənişlərin həcmi arasındakı korrelyasiya əmsalı hesablanmışdır);
5. Pulun hərəkətetmə sürəti yuxarı olduğundan biznes sahəsində səmərəlilik artır və likvidlik zamanında təmin edilir;
6.Maliyyə inklüzivliyi müxtəlif regionlar üzrə daha da dərinləşidr;
7. Nağd pulun idarə edilməsi üzrə xərclər azalır;
8. Əhalinin maliyyə savadlılığı yüksəlir;

Ödəniş xidməti təchizatçısı baxımından:

1. Dövriyyədən kənar nağd pul vəsaitləri banklara cəlb edildiyindən banklarda pul kütləsinin həcmi artır;
2. Bank hesabları olan müştərilərin sayı artır və onların apardıqları bank əməliyyatları üzrə banklar xidmət haqqı şəkilində gəlir əldə edir - bankın biznesi genişlənir;
3. Banklar yeni innovasion texnoloji avadanlıqların tətbiqinə can atır və bank sektoru inkişaf edir;
4. Bankların kağız daşıyıcılarda aparılan ödəniş əməliyyatlarına münasibətdə əməliyyat xərcləri azalır;

İstifadəçi baxımından:

1. Müştərilərin fiziki yerləşməsindən asılı olmayaraq bank xidmətlərindən yararlanması - səmərəli paylanma, maksimum əhatə dairəsi genişlənir;
2. Bank xidmətləri üzrə xidmət haqqının aşağı olma ehtimalı yaranır - kağız və elektron daşıyıcılar əsasında rəqabət mühiti formalaşır;
3. Səmərəlilik - vaxta qənaət edilir, fiziki olaraq banka getmək stresi, növbələr gözləmək və bürokratik əngəllər kimi problemlər aradan qaldırılır;
4. Banklar tərəfindən təqdim edilən yeni bank məhsullarından yararlanmaq imkanı olur.

Qeyd edilməlidir ki, rəqəmsal ödənişlərin ölkə iqtisadiyyatına təsiri ilə bağlı beynəlxalq beyin mərkəzləri, həmçinin ölkəmizdəki alimlər tərəfindən bir sıra əhəmiyyətli araşdırmalar aparılmışdır.

Rəqəmsal ödənişlərin iqtisadi artıma təsirini iki üsul əsasında ölçmək mümkündür. Birinci üsul əsasında rəqəmsal ödənişlərin həcminin ən kiçik kvadratlar üsulu ilə son istehlaka göstərdiyi təsir ölçülür və bundan sonra ikimərhələli ən kiçik kvadratlar üsulu ilə nağdsız ödənişlər nəticəsində artan istehlakın real ÜDM-ə göstərdiyi təsir qiymətləndirilir. İkinci üsulda isə nağdsız ödənişlərin həcminin son istehlaka göstərdiyi təsir qiymətləndirilir və müəyyən edilmiş artım faizi müvafiq ildə mövcud olan istehlakın həcminə vurularaq həmin ilin real ÜDM-i əsasında müqayisə edilərək rəqəmlə və faizlə artım göstərilir.

Məlum olduğu kimi, xərc üsulu ilə hesablanan ÜDM-in onun əsas tərkib elementlərini istehlak, investisiya, hökumət xərci və xalis ixracat təşkil edir. Buna görə də nağdsız ödənişlərin istehlaka təsirini ölçdükdən sonra onun da real ÜDM-ə nə dərəcədə təsir göstərdiyini müəyyən etmək olur. Aparılmış tədqiqatlar əsasında bu nəticəyə gəlmək olar ki, rəqəmsal ödənişlərin həcminin 1% artması, real ÜDM-i təxminən 0.1% artırır, həmçinin kölgə iqtisadiyyatını da təxminən 1% azaldır [2, 3, 7, 9].

4. Nəticə

Aparılmış tədqiqat nəticəsində aşağıdakı nəticələr əldə edilmişdir:

- Rəqəmsal ödənişlərin mahiyyəti izah edilmiş və təsnifatı göstərilmişdir;
- İqtisadi artımla iqtisadi inkişafın fərqi izah edilmişdir;
- Azərbaycanda rəqəmsal ödənişlər üzrə mövcud vəziyyət təhlil edilmişdir;
- Rəqəmsal ödənişlərin ölkə iqtisadiyyatı, ödəniş xidməti təchizatçıları və istifadəçilər baxımından üstünlükləri qeyd edilmişdir;
- Rəqəmsal ödənişlərin iqtisadi artıma təsiri müəyyən edilmişdir.

Ədəbiyyat siyahısı

1. Iftekhar Hasan, Tania De Renzis and Heiko Schmiedel, "Retail Payments and the real economy", Working Paper Series, No 1572, ECB, Frankfurt am Main, August 2013.
2. Iftekhar Hasan, Tania De Renzis, Heiko Schmiedel, "Retail payments and economic growth", Research Discussion Papers, Bank of Finland, No 19-2012.
3. Mark Zandi, Virenda Singh, Justin Irving, "The impact of electronic payments on economic growth", Moody's Analytics, February 2013.
4. Tom Kokkola, European Central Bank. (2010). "The payment system", Kaiserstrasse 29, 60311 Frankfurt am Main Germany, 369 pages.
5. Tagiyev Kh.R. Role and importance of cashless payments in the country economy // Baku World Forum of Young Scientists 2014. Azerbaijan, Baku: 26-31May 2014, p70.
6. Rustamov T.H, Taghiyev Kh.R, Mahmudov R.M. Non-bank payment service providers and financial inclusion: The case of Azerbaijan // "Journal of Qafqaz University", № 2, p. 167-177, Baku, 2015.
7. Taghiyev Kh.R, Eminov S.İ., Guliyev S.R. The impact of cashless payments on economic growth in Azerbaijan // "İnternational Journal of Research in Social Sciences", vol. 6, issue 12, December 2016, p. 296-310.
8. Taghiyev Kh.R, Eminov S.İ., Guliyev S.R. The analysis of the factors influencing on electronic payments and relationship among Azerbaijan's economy with them // "IOSR Journal of Economics and Finance (IOSR-JEF)", vol. 7, issue 6, Nov. – Dec. 2016, p. 01-12.
9. Tağıyev X.R. Nağdsız ödənişlərin ölkə iqtisadiyyatında rolu vəəhəmiyyəti // "Qafqaz Universitetinin Jurnalı", № 2, s. 162-170, Bakı, 2013.
10. Tağıyev X.R., Rüstəmov T.H., Süleymanov Z.S., Azərbaycanda elektron pulun istifadəsi və inkişaf perspektivləri // "Azərbaycanın Vergi Jurnalı", № 4. s. 159-172, Bakı, 2015.
11. Rüstəmov T.H, Tağıyev X.R, Mahmudov R.M, Quliyev S.R. Birbaşa debetləşmə aləti, tətbiqi mexanizmi və xüsusiyyətləri, ölkəmizdə tətbiqi üzrə mövcud vəziyyətin təhlili // "Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Elmi Xəbərləri", il 4, cild 4, iyul-sentyabr, səh. 128-141, Bakı, 2016.
12. www.cbar.az

The impact of digital payments on economic development in Azerbaijan

Khayaladdin R.Taghiyev
P.h.D on economy, senior researcher in Institute of Scientific Research on Economic Reforms of Ministry of Economy of the Republic of Azerbaiijan
Tamerlan H.Rustamov
Doctoral student, Institute of Scientific Research on Economic Reforms of Ministry of Economy of the Republic of Azerbaiijan

Summary

In the context of the recent rapid development of information technology and the deepening of the digital transformation in the context of the COVID19 pandemic, it is important to determine the impact of digital payments on economic development. That is why the study explains the essence of digital payments and economic development, analyzes the current situation with digital payments in our country, identifies the benefits of digital payments to the country's economy, payment service providers and users, and shows the relationship between digital payments and economic growth and the shadow economy. In the end, concrete results of the research were given.

Keywords: digital payments, payment systems, economic growth, economic development

Влияние цифровых платежей на экономическое развитие Азербайджана

Хаяладдин Р.Тагиев
Кандидат экономических наук, старший научный сотрудник Института Научных Исследований Экономических Реформ
Министерства Экономики Азербайджанской Республики
Тамерлан Рустамов
Докторант Института Научных Исследований Экономических Реформ
Министерства Экономики Азербайджанской Республики

Резюме

В контексте недавнего быстрого развития информационных технологий и углубления цифровой трансформации в контексте пандемии COVID19 важно определить влияние цифровых платежей на экономическое развитие. Вот почему исследование объясняет сущность цифровых платежей и экономического развития, анализирует текущую ситуацию с цифровыми платежами в нашей стране, определяет преимущества цифровых платежей для экономики страны, поставщиков платежных услуг и пользователей, а также показывает взаимосвязь между цифровыми платежами. и экономический рост и теневая экономика. В итоге были приведены конкретные результаты исследования.

Ключевые слова: цифровые платежи, платежные системы, экономический рост, экономическое развитие.

MÜASİR İQTİSADİ ŞƏRAİTDƏ RƏQƏMSAL KƏND TƏSƏRRÜFATININ İNKİŞAFI

Hüseynov Möhübbət Musa oğlu, Doktorant
Azərbaycan Kooperasiya Universiteti
mohubbathuseynov@mail.ru

Müasir şəraitdə, rəqəmsal iqtisadiyyatın inkişafı məsələsi çox aktual olaraq qalır, çünki insan həyatının müxtəlif sahələrini kökündən dəyişməyə qadirdir. Bunlara aşağıdakılar daxil edilməlidir: infrastruktur və rabitə, maliyyə və ticarət, marketinq və reklam, media və əyləncə, dövlət və cəmiyyət, təhlükəsizlik, təhsil və personal və s..

Rəqəmsal iqtisadiyyat və ya "internet-iqtisadiyyatı" altında, rəqəmsal texnologiyaların istifadəsinə əsaslanan, elektron biznes və elektron ticarət, eləcə satılan rəqəmsal mal və xidmətlər ilə əlaqəli bir fəaliyyət növü kimi başa düşülür. Bu fəaliyyət isə çoxşaxəlidir.

Rəqəmsal iqtisadiyyatın əsas üstünlüklərini vurğulayaq:

1. Əmək prosesinin keyfiyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdıran rəqəmsal texnologiyalar və onların istifadəsi hesabına istehsalın optimallaşdırılması.

2. Əmək fəaliyyətinin səmərəliliyinin artması. Aşağı əmək məhsuldarlığının müəyyənləş-diricisi kimi insan amili çıxış edir. Məsələn, sağlamlıq, motivasiyanın az olması, yorğunluq və s .

3. Milli sərhədlərdən kənara çıxış, başqa sözlə, ərazi bağlılığının olmaması.

4. Geniş idarəetmə imkanları. Rəqəmsal iqtisadiyyat sayəsində ölkənin hər hansı bir yerində və hətta kənarda da biznesin inkişafı mümkündür.

5. İqtisadi təhlükəsizliyə təhdidlərin minimuma endirilməsi.

6. Məlumatın saxlanması və çevik istifadəsi ilə əlaqəli geniş imkanlar [1, səh. 18].

Eyni zamanda, rəqəmsal iqtisadiyyata müəyyən mənfi cəhətlərdə xasdır:

1. Kiberhücumların mümkünlüyü ilə əlaqədar məlumat təhlükəsizliyi ilə bağlı problem.

2. İşsizliyin artımının potenсialı (əməyin avtomatlaşdırılmasının artırılması nəticəsində).

3. Təşkilatı inkişaf etdirmək məqsədilə işçilərin səlahiyyətlərini həyata keçirməsinin məhdudlaşdırılması.

4. İnformasiya texnologiyalarının istifadəsi nəticəsində sistemli düşüncə tərzinin zəiflənməsi və nəticədə kadrların düşüncə proseslərinin durğunluğu.

Qeyd etmək lazımdır ki, ölkə üçün aqrar-sənaye kompleksinin əhəmiyyəti olduqca böyükdür. Sürətli inkişaf templəri ilə, bu sahə yalnız ölkəmizi deyil, digər qonşu ölkələri də ərzaq məhsulları ilə təmin edə biləcək yüksək texnoloji sənayeyə çevrilməkdədir.

Kənd təasərrüfatı dünya miqyasında rəqəmsal texnologiyaların potensial müsbət təsirinə görə dünya reytinqində birinci yerdədir. Bu sahənin rəqəmsallaşdırılması aqrar-sənaye kompleksi müəssisəsinə genişmiqyaslı investisiyalar tələb edəcəkdir.

Bu gün Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi fikrimizcə, fermerləri təkcə hava haqqında deyil, həmçinin digər növ məlumatlar barədə informasiya çatdırmalıdır. Məsələn, fitoxəstəliklərin və zərərvericilərin yayılması təhlükəsi haqqında da məlumat verməlidir. Adi ismarıclar vasitəsilə fermerlər hansı pestisidləri, hansı miqdarda və müddətdə istifadə edilməli haqqda məlumatları əldə edə biləcəklər.

Hal-hazırda kənd təsərrüfatını inkişaf etdirmək üçün imkanlar böyükdür. Xüsusilə idarəetmə qərarları baxımından innovasiyalar üçün geniş bir sahə açılır. Mütəxəssislərin fikrincə, bir mövsüm ərzində fermer məhdud vaxt şəraitində 40-dan çox müxtəlif növ qərarlar qəbul edir.

Biz qısa və orta müddətli perspektiv üçün bir sıra təkliflər hazırlamışıq. Bunlara aşağıdakıları aid etmək olar:

1. "Rəqəmsal kənd təsərrüfatı" layihəsi. Layihənin icra tarixi: 2021-2023 illərdə. Məqsəd - kənd təsərrüfatının rəqəmsal formaya keçməsi, habelə aqrar-sənaye kompleksində texnoloji irəliləyişə nail olma, rəqəmsal kənd təsərrüfatı müəssisələrində məhsuldarlığın 2023-cü ilə qədər 2 dəfə artırılması məqsədilə rəqəmsal texnologiyaların tətbiqidir.

2. İnternetdəki “Şəxsi hesab” vasitəsi ilə subsidiya alanlarla fərdi işləri üçün dövlət dəstəyi tədbirlərinin sisteminin yaradılması. Bu prosesdə "Ağıllı müqavilələr" layihəsi üzərində iş aparmaq lazımdır. Bu layihə fermerlərin vahid identifikasiya sistemində elektron identifikasiya imkanlarını genişləndirə bilər.

3. Kənd təsərrüfatında torpaqdan istifadənin keyfiyyətinin yaxşılaşdırılmasına yönəlmiş "səmərəli hektar" layihəsi. Bu layihə çərçivəsində aqrar emal müəssisələrinin idarə edilməsindəki yeni prinsiplər fərdi bölmələr səviyyəsində həyata keçirilməlidir.

4. “Sahədən limana" layihəsi rəqəmsal kənd təsərrüfatının inkişafının növbəti mərhələsi ola bilər. Onun mahiyyəti real vaxtda kənd təsərrüfatı xammalının ixrac axınlarını modelləşdirməsi, məhsulların yığım proqnozunu və təmizlənməsi vaxtını müəyyən etmək imkanından ibarətdir.

Zənnimizcə, milli aqrar-sənaye kompleksi müəssisələrinin rəqəmsal həllərin inkişafı üçün əlavə maliyyələşdirmə planlaşdırılmalıdır. Onlardan ilk növbədə "Ağıllı ferma"; "Ağıllı sahə"; “Ağıllı sürü”, "Ağıllı istixana"; "Ağıllı emal"; "Ağıllı anbar"; "Ağıllı aqro ofis" kimi layihələr nəzərdən keçirilməlidir.

Hesab edirik ki, kənd təsərrüfatında rəqəmsal texnologiyaların kompleks istifadəsi böyük məlumat massivlərinin emalına və ən çox texnoloji maneələri dəf etməyin bir sıra problemləri və vəzifələrinin həllinə yardım edə biləcəkdir [2, 3].

Qeyd etməliyik ki, aqrar sahədə innovasiya prosesi öz xüsusiyyətlərinə malikdir. Aqrar sahənin innovasiyalı inkişafı birbaşa investisiya fəallığı ilə bağlıdır. Aqrar sektorda innovasiyaların tətbiqi investisiyaların yatırılması ilə həyata keçirilə bilər.

Qənaətli resurs istehlakı rejiminə keçid – innovasiyaların işlənməsində əsas tələbdir. Aqrar səhadə müəssisələrin istehsal fəaliyyətinin diversifikasiyası istehsala əvvəllər istifadə olunmamış resursların cəlb edilməsini təmin edir, həmçinin torpaq resursları, beləliklə də kənd təsərrüfatı əraziləri kənd əhalisinin pul gəlirlərinin artırılması, yeni iş yerlərinin yaradılması və bir sıra digər sosial problemlərin həll olunmasına kömək etmiş olur.

Son illər xaricdə elmi-texniki nailiyyətlərin bazar məhsuluna çevrilməsi biznesin bu sahəyə diqqətini yüksəltmişdir. Axır zamanlar, aqrar elmində innovasiya fəallığı bir sıra obyektiv və subyektiv səbəblərə görə azalmışdır. Tədqiqatlar göstərir ki, hətta ASK-ın mövcud innovasiya potensialı 5-6% civarında istifadə olunur.

Bir sıra elmi işləmələr innovasiya məhsuluna çevrilmir, innovasiyalı işləmlərin böyük hissəsi kənd təsərrüfatında tətbiqsiz qalır. Azərbaycanın kənd təsərrüfatının innovasiya prosesinin inkişaf problemlərindən danışaraq, bu prosesin texniki və texnoloji təhcizatlanmasının çox zəif olmasını qeyd etməliyik.

Nəzərə alsaq ki, müasir şəraitdə aqrar sahədə innovasiya proseslərinə investisiyaların yatırılması banklar və investorlar üçün az maraq kəsb edir, deməli bu, sahədə fəal innovasiya siyasətinin aparılması, investisiya yatırılması sisteminin yaxşılaşdırılmasını təmin edən xüsusi tədbirlərin həyata keçirilməsini tələb edir. Buna yalnız dövlət dəstəyi nəticəsində birbaşa – büdcə maliyyələşdirilməsi vasitəsilə, ya da dolayı – kredit və vergi siyasətinin stimullaşdırıcı tədbirlərinin tətbiq edilməsi, antiinhisar sistemin inkişaf etdirilməsi, aqrar sahənin özünün innovasiya fondunun yaradılması yolu ilə nail olmaq olar.

Eyni zamanda qeyd etməliyik ki, Azərbaycanda fermerlərin fəaliyyətinin asanlaşdırılması məqsədilə Kənd Təsərrüfatı Nazirliyi tərəfindən "AgroUber" adlı xüsusi mobil tətbiq dövriyəyə buraxılmışdır. AgroUber" proqramı Azərbaycanda aqrar sahədə ilk dəfə tətbiq olunur. İnnovativ metodlara əsaslanan bu proqram aqrotexniki xidmətlərin idarəçiliyində tamamilə şəffaflıq yaradacaq, zaman itkisinin qarşısını alacaq və fermerlərə operativ xidmət göstərməyə imkan verəcək. Eyni zamanda, bu yanaşma aqroxidmət göstərən mexanizatorlar arasında rəqabətliliyi artıracaq, paralel olaraq xidmətin keyfiyyətini yüksəldəcək. Mobil tətbiqdə xidmətin sifariş vəziyyəti proqram vasitəsilə izlənilir, 3-cü tərəf olmadan fermerlərin birbaşa mexanizatorlara çıxışı təmin edilir və vahid mexanizator bazası formalaşdırılır [4].

Nəticə

Fikrimizcə, kənd təsərrüfatının rəqəmsallaşdırılmasının müəyyən yol xəritəsini yaratmaq lazımdır, o da layihələrin icra mərhələlərini bölgələr üzrə əks etdirməlidir. İnkişaf etmiş dövlətlər üçün, rəqəmsal kənd təsərrüfatı artıq adi hala çevrilib, lakin ölkəmizdə son illərin uğurlarına baxmayaraq, inkişaf etmiş ölkələrlə müqayisədə rəqəmsal texnologiyaların tətbiqi hələ də aşağı səviyyədədir.

Buna görə, rəqəmsal kənd təsərrüfatının inkişafında geriləmənin əsas səbəblərini tədqiq etmək zəruridir. Zənnimizcə, bunlara aşağıdakı səbəblər aid edilə bilər:

● Kənd təsərrüfatı sahələrinin yüksək sürətli internet və rabitə ilə örtüyünün az olması.

● Maliyyələşdirmə çatışmazlığı. Bu layihələr çox bahadır və bir qayda olaraq, uzun müddətli ödəmə üçün hazırlanmışdır.

● Qanunvericilik bazasındakı problemlər: rəqəmsal texnologiyanın istifadəsi üçün zəruri qanuni mexanizmlərin olmaması.

● Lazımi mütəxəssislərin olmaması.

Yekun olaraq qeyd edək ki, ölkəmizdə rəqəmsal kənd təsərrüfatı milli iqtisadiyyatın inkişafında vacib amil kimi çıxış edir, yəni bu sahəyə xüsusi diqqət cəlb etmək zəruridir. Eyni zamanda, rəqəmsal texnologiyaların kənd təsərrüfatında tətbiqi bir tərəfdən xarici mənbələrin

istifadəsinin azaldılmasına, digər tərəfdən isə yerli istehsal amillərindən maksimum dərəcədə istifadəyə imkan verir.

Ədəbiyyat

1. Кареев В. В., Васильев Д. А., Пономарева Е. В., Соколов А. П. Формирование предварительных сценариев в экономике. — М.: Сегодня и завтра российской экономики, 2015. — С. 17-21.

2. Соколов А. П., Королев В. А., Пономарева Е. В. Инвестиции в инновации для отрасли АПК на основе взаимодействия власти и бизнеса//Научное обозрение. Серия 1. Экономика и право. 2015. № 4. — С. 56-60.

3. Ушачев И. Г., Аношина Ю. Ф., Жукова О. В., Мамедова Н. А., Ерохина Е. И., Кирова И. В., Курочкина Е. Н., Пономарева Е. В. Экономика России. Актуальные проблемы и вызовы: монография. — М.: ООО "Научный консультант", 2018. — 168 с.

4. Kənd Təsərrüfatı Nazirliyinin rəsmi saytı -https://www.agro.gov.az/az/ news/ azerbaycanda-ilk-defe-fermer-mexanizator-elaqesini-temin-edecek-agrouber-mobil-tetbiqi-istifadeye-verilib

RƏQƏMSAL TRANSFORMASİYA MÜHİTİNDƏ YARADICI SƏNAYE MƏHSULLARININ İXRACI: MÖVCUD VƏZİYYƏT VƏ PROBLEMLƏR

Qədəşov Ayxan Arif, Doktorant
Aqrar Tədqiqatlar Mərkəzi
aykhan.gadashov@ereforms.gov.az, Bakı ş.

Xülasə:

Hazırda ölkəmizdə çoxsahəli islahatlar aparılmaqdadır. Aparılan islahatların başlıca hədəflərindən biri də ixracqabiliyyətli məhsul istehsalının dəstəklənməsi və yeni ixrac bazarlarına çıxaraq ölkəyə əlavə valyutanın cəlb olunmasıdır. Ölkə başçısının rəhbərliyi altında aparılan planlı və genişmiqyaslı islahatların nəticəsi olaraq ixrac coğrafiyamız genişlənmiş, ərsəyə gətirilən məhsul və xidmətlərin ənənəvi və yeni bazarlara çıxarılması imkanları yaradılmışdır. Ölkə ixracı üçün ənənəvi hesab olunan sənaye, qida və kənd təsərrüfatı sahələri ilə yanaşı, yaradıcı mədəniyyət sənayesi (YMS) məhsullarının da istehsalı və xarici bazarlara çıxarılması dəstəklənməkdədir. Bu məqsədlə müxtəlif dövlət proqramları qəbul olunaraq, yeni layihələr həyata keçirilir. Bu məqalədə YMS məhsullarının ölkə iqtisadiyyatı üçün və məşğulluq səviyyəsinin artırılması üçün əhəmiyyəti öyrənilərək, rəqəmsal transformasiya mühitində həmin məhsulların ixrac imkanları araşdırılır. Bununla yanaşı məqalədə sahənin mövcud vəziyyəti və problemləri araşdırılaraq sahənin inkişafı üçün təkliflər verilir.

Açar sözlər: Mədəniyyət sənayesi, **r**əqəmsal transformasiya, yaradıcı sənaye, "Azexport", "AmazonKindle" elektron ticarət, qeyri-neft ixracı, kino, rəsm, musiqi, ədəbiyyat.

Giriş

Son illər ölkə iqtisadiyyatı üçün prioritetlərdən biri də iqtisadiyyatın rəqəmsal transformasiyasıdır. Bu məqsədlə müxtəlif sahələrdə müasir texnologiyalar tətbiq edilərək rəqəmsallaşmada ciddi addımlar atılıb. İqtisadiyyatın və dövlət idarəetməsinin səmərəliliyinin və informasiya təhlükəsizliyinin təmin edilməsi məqsədilə genişzolaqlı internet şəbəkəsi daha da inkişafı etdirilib. "Hökumət buludu" (G-Cloud), "Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) kimi rəqəmsal həll yollarının geniş tətbiqinə start verilib.

Aparılan rəqəmsallaşma prosesinin sistemliliyinin təmin olunması məqsədilə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən 27 aprel 2021 tarixində "Rəqəmsal Transformasiya Sahəsində İdarəetmənin Təkmilləşdirilməsi haqqında" Fəraman imzalanıb [1]. Fərmana əsasən ölkədə müasir telekommunikasiya və rəqəmsal arxitektura quruculuğunun idarə olunması, eləcə də müxtəlif sahələrdə rəqəmsal xidmətlər və həllər üzrə platformanın inkişaf etdirilməsi sahəsində işlərin effektiv əlaqələndirilməsi əsas götürülüb.

Azərbaycanda sahibkarlıq subyektləri tərəfindən təqdim olunan xidmət və məhsulların rəqəmsallaşması istiqamətində kompleks tədbirlərin davamı olaraq Azərbaycan Respublikası Prezidentinin 2016 –cı il 21 Sentyabr tarixli "Azərbaycan Respublikasında İstehsal Olunan Malların Vahid Məlumat Bazasının Yaradılması" haqqında Sərəncamına əsasən "Azexport.az" internet portalı yaradılıb [2]. Portalın uğurlu fəaliyyətinin nəticəsi olaraq sahibkarların beynəlxalq elektron ticarət platformalarında təmsil olunması 100 dəfədən artıq, yerli məhsulların beynəlxalq elektron ticarət platformalarında təmsil olunması isə 500 dəfədən artıq artmışdır [3]. Portalın dəstəyi ilə ənənəvi ixrac məhsulları ilə yanaşı ölkəmiz üçün ixracı qeyri ənənəvi hesab edilən YMS məhsullarının da elektron ticarət platformaları vasitəsilə xarici bazarlarda potensial alıcılara təqdim olunması təmin olunur.

YMS məhsullarının ixracının dəstəklənməsi məqsədilə görülən böyük işlərə baxmayaraq problemlər qalmaqdadır. Məqalədə YMS məhsullarının rəqəmsal transformasiya dövründə elektron ticarət platformaları vasitəsilə xarici bazarlara çıxarılmasının əhəmiyyəti öyrənilir. Həmçinin, bu sahədə son illər əldə olunan nailiyyətlər, müasir problemlər və həlli yolları araşdırılır, təkliflər irəli sürülür.

Rəqəmsal transformasiya mühitində yaradıcı sənaye məhsullarının ixracı:

Dünya iqtisadiyyatının sürətlə inkişaf edən sahələrindən biri də Yaradıcı Mədəniyyət Sahəsidir (YMS). İnkişaf etmiş ölkələrdə iqtisadiyyatın 6 faizini YMS məhsulları təşkil edir. Növbəti illərdə bu göstəricinin 10-15 faizədək qalxması proqnozlaşdırılır. YMS sahəsində çalışanların təqribən 50 faizi qadınlardır [4]. Bu da məşğulluqda genderlər arasında tarazlığın qorunmasına öz müsbət təsirini göstərir.

İqtisad elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Ziyad Səmədzadə daxili istehsalın və məşğulluğun dəstəklənməsi ilə bağlı fikirlərində qeyd edir ki; "Yerli ixrac məhsullarının artması elə məşğulluğun artması deməkdir. Azərbaycan əhalisi surətlə artır. Bu, çox müsbət haldır. Bu, o deməkdir ki, yeni iş yerləri yaradılmalıdır, hər bir layihə yeni iş yerləri baxımından qiymətləndirilməlidir. Biz təkcə investisiyaları qoymaqla kifayətlənməməliyik. Bu investisiya əsasında iş yerlərinin yaradılması bizim üçün son dərəcə önəmlidir" [5].

Hazırda dünyada 30 milyona yaxın insanı Yaradıcı Mədəniyyət Sənayesində çalışır. YMS sahəsində çalışan şəxslərin əksəri 15-29 yaş aralığında olan gənclərdir [6]. Son illər rəqs, teatr tamaşaları, təsviri sənət, musiqi, dizayn, film, video və foto sənəti, reklam, oyun və yaradıcı texnologiyalar kimi kateqoriyalardan ibarət YMS-lərin dünya iqtisadiyyatına, əhalinin məşğulluq səviyyəsinə və sosial rifahına təsirinin öyrənilməsi məqsədilə müxtəlif araşdırmalar aparılıb. Aparılan araşdırmalara istinadən BMT-nin "UNCTAD" təşkilatının 2002-2015-ci illər üzrə Yaradıcı İqtisadiyyata Baxış adlı sənədi nəşr olunub. Sənəddə qeyd olunan illər üzrə YMS sahəsində dünya üzrə orta hesabla illik 7.3 faizlik artımın olduğu müşahidə olunub. Bununla yanaşı YMS-lərin məhsul və xidmətləri üzrə ixracı 3 dəfəyədək artıb. Belə ki, 2002-ci ildə bu göstərici 208 milyard dollar olduğu halda 2015-ci ildə artaraq 509 milyard dollar təşkil edib [7].

YMS məhsulları əsasən sosial şəbəkə və digər internet resursları vasitəsilə istifadəçilərə çatdırılır. Bu da YMS-lərin rəqəmsallaşmaya dözümlü olmasına və sürətlə böyüməsinə əlavə təkan verir. Almaniya, Fransa, Böyük Britaniya və digər qabaqcıl ölkələrdə aparılan araşdırmalara əsasən YMS-lərin iqtisadiyyatın digər sahələrinə nisbətən daha az sərmayə tələb edir və 2 dəfə daha sürətlə inkişaf edir. "BMWI.de"nin 2019-cu ildə yayımladığı hesabata əsasən Almaniyada 1.8 milyon insan YMS sahəsində fəaliyyət göstərir. Burada ən çox inkişaf etmiş YMS sahələri kimi musiqi, kitab və əl işləri ön sıralardadır [8].

Azərbaycanda YMS-lərin müxtəlif formaları mövcuddur. Əksər dövlətlər sahənin inkişafı məqsədilə müxtəlif strateji sənədlər qəbul edir. Ölkəmizdə də bu sahə üzrə konkret işlər görülmüş, müxtəlif dəstək mexanizmləri yaradılmışdır. 2017-ci ildə hazırlanmış Azərbaycan üzrə Mədəniyyətin İnkişafı İndikatorları hesabatı YMS-lərin Azərbaycan iqtisadiyyatındakı payının müəyyən edilməsinə dair əsas sənədlərdən hesab olunur. Sənədə əsasən YMS-lərin ÜDM-də payı 1% olaraq göstərilmişdir (2016-cı il üçün 374 milyon ABŞ dolları) [9].

Azərbaycan xalqı yaradıcı xalq olduğundan YMS-lərin daima inkişafa meyli müşahidə olunur. Əhali arasında daha çox sənətkarlıq növləri, musiqi, ədəbiyyat, film, rəssamlıq və digər sahələr

geniş yayılmışdır. Aparılan araşdırmalarda əsasən vergi ödəyicisi kimi qeydiyyatda olan fiziki və hüquqi şəxslərin məlumatları nəzərə alındığından bu sahədə qeydiyyatda olmadan fəaliyyət göstərən şəxslərin fəaliyyətinin tam ölçülməsində çətinliklər mövcuddur. Ölkənin bu sahədə mövcud potensialını nəzərə alsaq gələcəkdə YMS- iştirakçılarının ölkəyə 1-1.5 milyard ABŞ dolları əlavə valyuta cəlb etmə imkanının olduğunu deyə bilərik.

Dövlət tərəfindən YMS məhsullarının inkişafına göstərilən dəstək mexanizmlərindən biri də ərsəyə gətirələn məhsulların müasir rəqəmsal infrastruktur imkanlarından istifadə etməklə xarici bazarlara çıxarılmasıdır. Bu məqsədlə, YMS məhsulları Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 21 sentyabr 2016-cı il tarixli Sərəncamı əsasında yaradılan "Azexport.az" internet portalına yerləşdirilir. Portalın yaradılmasında başlıca məqsədlərdən biri də Azərbaycanda istehsal olunan məhsul və xidmətlərin vahid bazasını formalaşdırmaq, həmçinin, xarici bazarlarda potensial müştərilərə çatdırılmasını təmin etməkdir.

"Azexport.az" internet portalının YMS məhsullarının satışı üçün inteqrasiya olunduğu beynəlxalq elektron ticarət platformaları.

"Azexport.az" internet portalına yerləşdirilən YMS məhsulları "etsy.com", "kickstarter.com", "amazon kindle" və "sotheby's" kimi platformalara inteqrasiya olunub. "Azexport.az" internet portalı "Amazon" platformasında elektron kitabların satışı istiqamətində də uğura nail olub. Belə ki, ümumilikdə "Azexport.az" və Amazon portallarında Akademik Urxan Ələkbərovun "Fundamentals of İnclusive Development Management" adlı elektron kitabı 3 ay ərzində 300 dən artıq nüsxədə satılıb.

Hazırda dizayn həlləri, əl işləri, milli suvenirlər, əsərlər, şeirlər, rəsmlər, kreativ video oyunlar, müsiqilər, bəstəkarlıq və potensial ixrac imkanı olan digər yaradıçılıq məhsullarının "Etsy", "Apple Music", "Itunes", "Google Play", "Kickstarter" və "Sotheby's" kimi platformalara yelrəşdirilməsinə dair işlər davam etdirilir.

YMS məhsullarının ixracının müasir problemləri.

Hazırda ölkəmizdə YMS sahəsində mövcud bazar iştirakçılarının beynəlxalq platformalarda və ümumən ixrac platformalarında təmsilçilik və satışı həcm etibarilə müxtəlif səbəblərdən aşağı səviyyədədir Mövcud çətinlikləri və onların həlli yollarını aşağıdakı kimi qruplaşdırmaq olar:

Beynəlxalq elektron ticarət platformalarında təmsil olunma. Elektron ticarət platformaları istifadəçiləri arasında aparılan sorğu və araşdırmaların nəticələri onu deməyə əsas verir ki, sifarişçilər məhsul alışı zamanı bir neçə əsas məqamları gözdən keçirir. Tələb olunan məhsul üzrə potensial təchizatçının tapılması üçün ilk addım daha keyfiyyətli fotoşəkil və detallı məlumat təqdim edən təchizatçı dairəsinin müəyyən olunmasıdır. YMS sahəsində mövcud bazar iştirakçıları ilə aparılan danışıqlar zamanı məhsulların yüksək keyfiyyətli fotoşəkillərinin, həmçinin, məhsul haqqında xarici dillərdə olan məlumatların təqdim olunmasında çətinliklərin olduğunu müəyyən olunub. Yüksək keyfiyyətli məhsul ərsəyə gətirməsinə baxmayaraq sahibkar beynəlxalq elektron

ticarət platformalarında rəqabətqabiliyyətli məhsulla təmsil oluna bilmir. Əgər ənənəvi ticarətdə müştərinin məhsulu fiziki toxunuşla təhlil edib seçim etmək imkanı varsa, elektron ticarətdə rəqabətə davam gətirə bilmək üçün yüksək keyfiyyətli fotoşəkil və məhsul haqqında detallı məlumat tələb olunur.

Beynəlxalq ani ödəniş sistemlərinə inteqrasiya. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 26 sentyabr 2018-ci il tarixli, 508 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2018-2020-ci İllərdə Azərbaycan Respublikasında Rəqəmsal Ödənişlərin Genişləndirilməsi" üzrə Dövlət Proqramına əsasən ölkədə yeni rəqəmsal ödəniş texnologiyalarının tətbiqinə dair yeni imkanlar yaradılıb. Buna baxmayaraq sahənin inkişafına çətinlik yaradan bəzi amillər hələ də mövcuddur. Belə ki, dünya təcrübəsində YMS məhsulları əsasən kiçik həcmli fərdi sifarişlərlə hazırlanır və "Etsy", "Apple Music", "Itunes", "Google Play", "Kickstarter", "Sothebys" və "Amazon", "Amazon Kindle" kimi platformalar vasitəsilə satışı reallaşdırılır. Qeyd olunan platformalar vasitəsilə reallaşan satışların ödənişləri "Paypal", "Payline","Google Pay", "Apple Pay", "2Checkout" kimi ani ödəniş sistemləri vasitəsilə həyata keçirilir.

Amerikanın "Etsy" platforması YMS məhsullarının ən çox satıldığı platforma hesab olunur. Platformanın 50 milyondan artıq daimi ziyarətçisi mövcuddur. Hazırda platformada məhsul yerləşdirilməsi üçün "Paypal" ani ödəniş sistemində qeydiyyatdan keçmiş hesab tələb olunur. Müqayisə üçün qeyd edək ki, 2013-cü ildən etibarən "Paypal" ani ödəniş sistemi ilə əməkdaşlıq edən qonşu ölkə Gürcüstan sadalanan platformada 200-dək istehsalçının 20 mindən artıq məhsulu ilə təmsil olunur.

Ölkəmizdə sadalanan ödəniş sistemləri bir tərəfli (yalnız xaricə ödəniş üçün) fəaliyyət göstərməkdədir. Bu isə Avropa və Amerika portallarında YMS məhsullarının satışına çətinlik törədir. Belə ki, sifarişçi bir ədəd əl işi olan suveniri almaq üçün alqı-satqı müqaviləsi bağlamalı, hesab-faktura tərtib etməli və həmin müqavilədə göstərilən hesaba bank köçürməsilə ödəniş etməlidir. Qonşu ölkələrdə isə alternativ məhsul təklif edən şəxslərə ödənişi ani ödəniş sistemləri vasitəsilə həyata keçirərək məhsulu daha rahat sifariş etmək imkanı mövcuddur.

Problemin dolayı yolla həlli üçün bəzi satıcılar müxtəlif üsullardan istifadə edir. Bunlardan biri də satıcının qonşu ölkələrdən birinə səfər edərək orada bank hesabı açması və ya xaricdə yaşayan yaxınının adına bank hesabı açaraq "Paypal", "Apple Pay" və ya digər ödəniş sistemlərini həmin hesaba bağlamasıdır. Belə olduğu təqdirdə Azərbaycanda ərsəyə gətirilən məhsulun dəyəri xarici ölkənin bank hesabına köçmüş olur.

Regionlarda elektron ticarətin inkişaf səviyyəsi. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 2 aprel tarixli 359 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya" - da elektron ticarətin inkişafı ilə bağlı hədəflərə əsaslanaraq "2018-ci il sentyabrın 25-də Bakı Elektron Ticarət Forumu - "BEF-2018" beynəlxalq tədbir keçirilmişdir. Elektron ticarətin inkişafına təkan verəcək forumda 300-dən artıq yerli və beynəlxalq iştirakçı tərəfindən ziyarət qeydə alınıb [10]. Bakı şəhərində elektron ticarətin inkişafına yönələn tədbirlərin təşkili daim müşahidə olunur. Nəzərə almaq lazımdır ki, YMS məhsullarının istehsalında əsasən önə çıxan sahələr əl işləri, müxtəlif dekorativ əşyaların, milli suvenirlərin toxunması və istehsalı sahələridir. Qeyd olunan sahələrin əsas iştirakçıları regionlarda yaşayan şəxslərdir. Hazırda regionlarda elektron ticarət sahəsi demək olar mövcud deyil. İqtisadi təkmərkəzliliyin nəticəsi olaraq region əhalisi elektron ticarət sferasına nə sahibkar, nə də alıcı kimi demək olar ümumiyyətlə daxil olmayıb. Bunun nəticəsidir ki, paytaxtdakı bir sıra sahibkarlar da regionlara çatdırılma xidməti təklif etmir.

Nəticə və təkliflər:

YMS məhsullarının ixracı üçün böyük potensial olsa da, müxtəlif xarakterli problemlərin nəticəsi olaraq bu sahənin inkişaf sürəti istənilən səviyyəyədə deyil. Sadalanan problemləri aradan qaldırmaq üçün həm dövlətin, həm də YMS sahəsində çalışan şəxslərin üzərinə bir sıra vəzifələr düşür:

- Azərbaycanda ani ödəniş sistemlərinin işlək vəziyyətə gətirilməsi üçün müvafiq dövlət qurumları tərəfindən qanunvericilikdə lazımi dəyişikliklərə dair təkliflərin hazırlanması sahənin inkişafına öz müsbət təsirini göstərə bilər;

• YMS sahəsində mövcud bazar iştirakçıları tərəfindən ərsəyə gətirilən məhsulların yüksək keyfiyyətli fotoşəkilinin çəkilməsi üçün peşəkar fotoqrafların və məhsullar barədə məlumatların beynəlxalq platformalara müxtəlif dillərdə təqdim olunması üçün kontent menecerlərin müəyyən olunmasını məqsədəmüvafiq hesab oluna bilər;

• Regionlardakı YMS məhsulu istehsalçılarının də elektron ticarətlə məşğul olması üçün ixtisaslı kadrların regionlarda çalışmasını stimullaşdırmağa, həmçinin, yerli və beynəlxalq ekspertlərin iştirakı ilə təlim və tədbirlərin təşkilinə ehtiyac vardır.

YMS sahəsi daha çox intellektual məhsulların ərsəyə gətirilməsi kimi səciyyələnir. Bu səbəbdən də bu sahə dünyanın ən sürətlə inkişaf edən və rəqəmsallaşmaya daha çox immuniteti olan sahələrdəndir. Ölkəmizdə dövlət və cəmiyyət tərəfindən YMS sahəsinə xüsusi diqqət hiss olunmaqdadır. Azərbaycan xalqının tarix boyu yaradıcılığı ilə seçilən xalq kimi tanınır. Ölkənin coğrafi yerləşmə mövqeyi və multikultural dəyərlərin qorunub saxlanması da YMS sahəsinin müxtəlif istiqamətlər üzrə inkişafına öz müsbət təsirini göstərmişdir. Sahə üzrə sadalanan problemlərin həllinə nail olmaqla Azərbaycanda istehsal olunan YMS məhsullarının xarici bazarlara elektron ticarət platformaları vasitəsilə çıxararaq ölkəyə əlavə valyuta cəlb olunmasına dəstək olmaq imkanı mövcuddur.

İstifadə edilmiş ədəbiyyatlar:

1. "Rəqəmsal Transformasiya Sahəsində İdarəetmənin Təkmilləşdirilməsi" haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı, 27 aprel 2021, https://president.az/articles/51299;

2. "Azərbaycan Respublikasında istehsal olunan malların vahid məlumat bazasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Bakı, 21 sentyabr 2016, https://president.az/articles/21139;

3. http://ereforms.gov.az/az/ixrac-icmali;

4. https://www.britishcouncil.org/sites/default/files/gender_equality_and_empowerment_cci_eastern_partnership_2018_en-compressed.pdf;

5. http://www.azerbaijan-news.az/posts/detail/ziyad-semedzade-azerbaycanin-ixrac-potensiali-yaxin-illerde-en-azi-iki-uc-defe-artacaq-120439;

6. https://en.unesco.org/creativity/sites/creativity/files/info-kit_brochure-final-en-web.pdf

7. https://unctad.org/system/files/official-document/ditcted2018d3_en.pdf;

8. https://www.bmwi.de/Redaktion/EN/Publikationen/Wirtschaft/2020-cultural-and-creative-industries-monitoring-report.pdf?__blob=publicationFile&v=5;

9. http://mct.gov.az/medias/media/other/285/hesabat-2016.pdf;

10. https://mincom.gov.az/az/view/news/393/baki-beynelxalq-elektron-ticaret-forumu-oz-ishini-yekunlashdirib

Export Of Creative Industrial Products In Digital Transformation Environment

Summary

In recent years, the main goals of the economic reforms in the republic are to reduce the natural reserve factor of the state budget and gross domestic product, to ensure diversification of the economy and the superiority of the non-oil factor. As a result of planned and large-scale economic reforms, the share of the non-oil sector in the gross domestic product has increased, the production of export-oriented, competitive products has expanded, and opportunities have been created to bring the goods to traditional and new markets through international e-trading platforms. The author investigated the achievements, current problems of the field and sustainable development opportunities by analyzing the state of the international e-commerce status in the country. Considered options for increasing the export of the creative industry products from local market.

MÜASİR İQTİSADİ ŞƏRAİTDƏ RƏQƏMSAL KƏND TƏSƏRRÜFATININ İNKİŞAFI

Hüseynov Möhübbət Musa oğlu
Azərbaycan Kooperasiya Universiteti Doktorant
Email: mohubbathuseynov@mail.ru

Müasir şəraitdə, rəqəmsal iqtisadiyyatın inkişafı məsələsi çox aktual olaraq qalır, çünki insan həyatının müxtəlif sahələrini kökündən dəyişməyə qadirdir. Bunlara aşağıdakılar daxil edilməlidir: infrastruktur və rabitə, maliyyə və ticarət, marketinq və reklam, media və əyləncə, dövlət və cəmiyyət, təhlükəsizlik, təhsil və personal və s..

Rəqəmsal iqtisadiyyat və ya "internet-iqtisadiyyatı" altında, rəqəmsal texnologiyaların istifadəsinə əsaslanan, elektron biznes və elektron ticarət, eləcə satılan rəqəmsal mal və xidmətlər ilə əlaqəli bir fəaliyyət növü kimi başa düşülür. Bu fəaliyyət isə çoxşaxəlidir.

Rəqəmsal iqtisadiyyatın əsas üstünlüklərini vurğulayaq:

1. Əmək prosesinin keyfiyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdıran rəqəmsal texnologiyalar və onların istifadəsi hesabına istehsalın optimallaşdırılması.
2. Əmək fəaliyyətinin səmərəliliyinin artması. Aşağı əmək məhsuldarlığının müəyyənləşdiricisi kimi insan amili çıxış edir. Məsələn, sağlamlıq, motivasiyanın az olması, yorğunluq və s .
3. Milli sərhədlərdən kənara çıxış, başqa sözlə, ərazi bağlılığının olmaması.
4. Geniş idarəetmə imkanları. Rəqəmsal iqtisadiyyat sayəsində ölkənin hər hansı bir yerində və hətta kənarda da biznesin inkişafı mümkündür.
5. İqtisadi təhlükəsizliyə təhdidlərin minimuma endirilməsi.
6. Məlumatın saxlanması və çevik istifadəsi ilə əlaqəli geniş imkanlar [1, səh. 18].

Eyni zamanda, rəqəmsal iqtisadiyyata müəyyən mənfi cəhətlərdə xasdır:

1. Kiberhücumların mümkünlüyü ilə əlaqədar məlumat təhlükəsizliyi ilə bağlı problem.
2. İşsizliyin artımının potenсialı (əməyin avtomatlaşdırılmasının artırılması nəticəsində).
3. Təşkilatı inkişaf etdirmək məqsədilə işçilərin səlahiyyətlərini həyata keçirməsinin məhdudlaşdırılması.
4. İnformasiya texnologiyalarının istifadəsi nəticəsində sistemli düşüncə tərzinin zəiflənməsi və nəticədə kadrların düşüncə proseslərinin durğunluğu.

Qeyd etmək lazımdır ki, ölkə üçün aqrar-sənaye kompleksinin əhəmiyyəti olduqca böyükdür. Sürətli inkişaf templəri ilə, bu sahə yalnız ölkəmizi deyil, digər qonşu ölkələri də ərzaq məhsulları ilə təmin edə biləcək yüksək texnoloji sənayeyə çevrilməkdədir.

Kənd təasərrüfatı dünya miqyasında rəqəmsal texnologiyaların potensial müsbət təsirinə görə dünya reytinqində birinci yerdədir. Bu sahənin rəqəmsallaşdırılması aqrar-sənaye kompleksi müəssisəsinə genişmiqyaslı investisiyalar tələb edəcəkdir.

Bu gün Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi fikrimizcə, fermerləri təkcə hava haqqında deyil, həmçinin digər növ məlumatlar barədə informasiya çatdırmalıdır. Məsələn, fitoxəstəliklərin və zərərvericilərin yayılması təhlükəsi haqqında da məlumat verməlidir. Adi ismarıclar vasitəsilə fermerlər hansı pestisidləri, hansı miqdarda və müddətdə istifadə edilməli haqqda məlumatları əldə edə biləcəklər.

Hal-hazırda kənd təsərrüfatını inkişaf etdirmək üçün imkanlar böyükdür. Xüsusilə idarəetmə qərarları baxımından innovasiyalar üçün geniş bir sahə açılır. Mütəxəssislərin fikrincə, bir mövsüm ərzində fermer məhdud vaxt şəraitində 40-dan çox müxtəlif növ qərarlar qəbul edir.

Biz qısa və orta müddətli perspektiv üçün bir sıra təkliflər hazırlamışıq. Bunlara aşağıdakıları aid etmək olar:

1. "Rəqəmsal kənd təsərrüfatı" layihəsi. Layihənin icra tarixi: 2021-2023 illərdə. Məqsəd - kənd təsərrüfatının rəqəmsal formaya keçməsi, habelə aqrar-sənaye kompleksində texnoloji irəliləyişə nail olma, rəqəmsal kənd təsərrüfatı müəssisələrində məhsuldarlığın 2023-cü ilə qədər 2 dəfə artırılması məqsədilə rəqəmsal texnologiyaların tətbiqidir.
2. İnternetdəki "Şəxsi hesab" vasitəsi ilə subsidiya alanlarla fərdi işləri üçün dövlət dəstəyi tədbirlərinin sisteminin yaradılması. Bu prosesdə "Ağıllı müqavilələr" layihəsi üzərində iş aparmaq

lazımdır. Bu layihə fermerlərin vahid identifikasiya sistemində elektron identifikasiya imkanlarını genişləndirə bilər.

3. Kənd təsərrüfatında torpaqdan istifadənin keyfiyyətinin yaxşılaşdırılmasına yönəlmiş "səmərəli hektar" layihəsi. Bu layihə çərçivəsində aqrar emal müəssisələrinin idarə edilməsindəki yeni prinsiplər fərdi bölmələr səviyyəsində həyata keçirilməlidir.

4. "Sahədən limana" layihəsi rəqəmsal kənd təsərrüfatının inkişafının növbəti mərhələsi ola bilər. Onun mahiyyəti real vaxtda kənd təsərrüfatı xammalının ixrac axınlarını modelləşdirməsi, məhsulların yığım proqnozunu və təmizlənməsi vaxtını müəyyən etmək imkanından ibarətdir.

Zənnimizcə, milli aqrar-sənaye kompleksi müəssisələrinin rəqəmsal həllərin inkişafı üçün əlavə maliyyələşdirmə planlaşdırılmalıdır. Onlardan ilk növbədə "Ağıllı ferma"; "Ağıllı sahə"; "Ağıllı sürü", "Ağıllı istixana"; "Ağıllı emal"; "Ağıllı anbar"; "Ağıllı aqro ofis" kimi layihələr nəzərdən keçirilməlidir.

Hesab edirik ki, kənd təsərrüfatında rəqəmsal texnologiyaların kompleks istifadəsi böyük məlumat massivlərinin emalına və ən çox texnoloji maneələri dəf etməyin bir sıra problemləri və vəzifələrinin həllinə yardım edə biləcəkdir [2, 3].

Qeyd etməliyik ki, aqrar sahədə innovasiya prosesi öz xüsusiyyətlərinə malikdir. Aqrar sahənin innovasiyalı inkişafı birbaşa investisiya fəallığı ilə bağlıdır. Aqrar sektorda innovasiyaların tətbiqi investisiyaların yatırılması ilə həyata keçirilə bilər.

Qənaətli resurs istehlakı rejiminə keçid – innovasiyaların işlənməsində əsas tələbdir. Aqrar səhadə müəssisələrin istehsal fəaliyyətinin diversifikasiyası istehsala əvvəllər istifadə olunmamış resursların cəlb edilməsini təmin edir, həmçinin torpaq resursları, beləliklə də kənd təsərrüfatı əraziləri kənd əhalisinin pul gəlirlərinin artırılması, yeni iş yerlərinin yaradılması və bir sıra digər sosial problemlərin həll olunmasına kömək etmiş olur.

Son illər xaricdə elmi-texniki nailiyyətlərin bazar məhsuluna çevrilməsi biznesin bu sahəyə diqqətini yüksəltmişdir. Axır zamanlar, aqrar elmində innovasiya fəallığı bir sıra obyektiv və subyektiv səbəblərə görə azalmışdır. Tədqiqatlar göstərir ki, hətta ASK-ın mövcud innovasiya potensialı 5-6% civarında istifadə olunur.

Bir sıra elmi işləmələr innovasiya məhsuluna çevrilmir, innovasiyalı işləmlərin böyük hissəsi kənd təsərrüfatında tətbiqsiz qalır. Azərbaycanın kənd təsərrüfatının innovasiya prosesinin inkişaf problemlərindən danışaraq, bu prosesin texniki və texnoloji təhcizatlanmasının çox zəif olmasını qeyd etməliyik.

Nəzərə alsaq ki, müasir şəraitdə aqrar sahədə innovasiya proseslərinə investisiyaların yatırılması banklar və investorlar üçün az maraq kəsb edir, deməli bu, sahədə fəal innovasiya siyasətinin aparılması, investisiya yatırılması sisteminin yaxşılaşdırılmasını təmin edən xüsusi tədbirlərin həyata keçirilməsini tələb edir. Buna yalnız dövlət dəstəyi nəticəsində birbaşa – büdcə maliyyələşdirilməsi vasitəsilə, ya da dolayı – kredit və vergi siyasətinin stimullaşdırıcı tədbirlərinin tətbiq edilməsi, antiinhisar sistemin inkişaf etdirilməsi, aqrar sahənin özünün innovasiya fondunun yaradılması yolu ilə nail olmaq olar.

Eyni zamanda qeyd etməliyik ki, Azərbaycanda fermerlərin fəaliyyətinin asanlaşdırılması məqsədilə Kənd Təsərrüfatı Nazirliyi tərəfindən "AgroUber" adlı xüsusi mobil tətbiq dövriyəyə buraxılmışdır. AgroUber" proqramı Azərbaycanda aqrar sahədə ilk dəfə tətbiq olunur. İnnovativ metodlara əsaslanan bu proqram aqrotexniki xidmətlərin idarəçiliyində tamamilə şəffaflıq yaradacaq, zaman itkisinin qarşısını alacaq və fermerlərə operativ xidmət göstərməyə imkan verəcək. Eyni zamanda, bu yanaşma aqroxidmət göstərən mexanizatorlar arasında rəqabətliliyi artıracaq, paralel olaraq xidmətin keyfiyyətini yüksəldəcək. Mobil tətbiqdə xidmətin sifariş vəziyyəti proqram vasitəsilə izlənilir, 3-cü tərəf olmadan fermerlərin birbaşa mexanizatorlara çıxışı təmin edilir və vahid mexanizator bazası formalaşdırılır [4].

Nəticə

Fikrimizcə, kənd təsərrüfatının rəqəmsallaşdırılmasının müəyyən yol xəritəsini yaratmaq lazımdır, o da layihələrin icra mərhələlərini bölgələr üzrə əks etdirməlidir. İnkişaf etmiş dövlətlər üçün, rəqəmsal kənd təsərrüfatı artıq adi hala çevrilib, lakin ölkəmizdə son illərin uğurlarına

baxmayaraq, inkişaf etmiş ölkələrlə müqayisədə rəqəmsal texnologiyaların tətbiqi hələ də aşağı səviyyədədir.

Buna görə, rəqəmsal kənd təsərrüfatının inkişafında geriləmənin əsas səbəblərini tədqiq etmək zəruridir. Zənnimizcə, bunlara aşağıdakı səbəblər aid edilə bilər:

● Kənd təsərrüfatı sahələrinin yüksək sürətli internet və rabitə ilə örtüyünün az olması.

● Maliyyələşdirmə çatışmazlığı. Bu layihələr çox bahadır və bir qayda olaraq, uzun müddətli ödəmə üçün hazırlanmışdır.

● Qanunvericilik bazasındakı problemlər: rəqəmsal texnologiyanın istifadəsi üçün zəruri qanuni mexanizmlərin olmaması.

● Lazımi mütəxəssislərin olmaması.

Yekun olaraq qeyd edək ki, ölkəmizdə rəqəmsal kənd təsərrüfatı milli iqtisadiyyatın inkişafında vacib amil kimi çıxış edir, yəni bu sahəyə xüsusi diqqət cəlb etmək zəruridir. Eyni zamanda, rəqəmsal texnologiyaların kənd təsərrüfatında tətbiqi bir tərəfdən xarici mənbələrin istifadəsinin azaldılmasına, digər tərəfdən isə yerli istehsal amillərindən maksimum dərəcədə istifadəyə imkan verir.

Ədəbiyyat

1. Кареев В. В., Васильев Д. А., Пономарева Е. В., Соколов А. П. Формирование предварительных сценариев в экономике. — М.: Сегодня и завтра российской экономики, 2015. — С. 17-21.

2. Соколов А. П., Королев В. А., Пономарева Е. В. Инвестиции в инновации для отрасли АПК на основе взаимодействия власти и бизнеса//Научное обозрение. Серия 1. Экономика и право. 2015. № 4. — С. 56-60.

3. Ушачев И. Г., Аношина Ю. Ф., Жукова О. В., Мамедова Н. А., Ерохина Е. И., Кирова И. В., Курочкина Е. Н., Пономарева Е. В. Экономика России. Актуальные проблемы и вызовы: монография. — М.: ООО “Научный консультант”, 2018. — 168 с.

4. Kənd Təsərrüfatı Nazirliyinin rəsmi saytı -https://www.agro.gov.az/az/ news/ azerbaycanda-ilk-defe-fermer-mexanizator-elaqesini-temin-edecek-agrouber-mobil-tetbiqi-istifadeye-verilib

İNVESTİSİYA VƏ İNNOVASİYA SİYASƏTİ

İNVESTİSİYA LAYİHƏLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ ZAMANI RİSKLƏRİN NƏZƏRƏ ALINMASI VƏ BİZNES QƏRARLARININ QƏBULU

Niyazi Əlikram oğlu Həsənov, i.ü.f.d. dos.
ADİU (UNEC)
niyazisan@gmail.com

XÜLASƏ:

Məqalədə investisiya strategiyalarının formalaşması və modernləşdirilməsi istiqamətində layihələrin qiymətləndirilməsi üçün, kriteriyalarda riskləri nəzərə almaqla, biznes qərarlarının qəbulu mexanizmi və müəyyən bir layihənin əlverişli olması haqqında qəbul edilən qərarların və onun investisiyaların cəlb etmək qabiliyyətinin olması və investisiyaların əlverişliliyinin qiymətləndirilməsi üçün, kapital qoyuluşlarının fərqləndirilməsi, dünyada mövcud iqtisadi münasibətlər sisteminin və investisiyaların səmərəli istifadə edilməsi yolları və müasir biznesin metodiki məsləhətlərinin təhlili aparılmışdır. Dünyada gedən prosesləri nəzərə almaqla, investisiya layihələrinin qiymətləndirilməsi zamanı risklərin nəzərə alınması və biznes qərarlarının qəbulu, investisiya cəhətdən səmərəli olan layihələrin maliyyə nəticələrinin kommersiya baxımından hesablanması, iqtisadi səmərəlilik kontekstində nəzərə alınması mühüm əhəmiyyət daşıyır. Bu baxımdan, birbaşa maliyyə maraqlarının dairəsindən kənara çıxan xərclərin və nəticələrin müəyyən edilməsi və investisiyaları qiymətləndirmək üçün, zaman amilini nəzərə alan metodlar əsasında müəyyən edilərək göstəricilərin istifadə mexanizmlərinin müəyyən edilməsi, biznes qərarlarının səmərəli formatda qəbulunun riyazi təhlilləri aparılmışdır.

1. Risk müvafiq situasiyanın konkret məzmunu kimi

İnvestisiya strategiyası zaman nəzərə almaq lazımdır ki, riskin mövcudluğu mümkün variantdan birini nəzərdə tutur, ona görə onların qəbulu prosesində bütün mövcud alternativlər təhlil edilməli və ən səmərəli və ən risksizi olanı seçilməlidir. Risk situasiyanın konkret məzmunu və bununla əlaqəli alternativ müxtəlif dərəcəli çətinliklərə malikdir və müxtəlif üsulla və müxtəlif alətlərin köməyi ilə bu problem həll edilir. İnvestisiyaların tətbiqinin əvvəlki təcrübəsinə istinad etsək onu demək olar ki, sadə hallarda xüsusi şəkildə səmtləşdirilmiş qiymətləndirmə mümkündür. Lakin bu və digər mürəkkəb istehsal məsələsinin optimal həcminin ehtiyacı məsələn, investisiyaların qoyuluşunun qəbul edilməsi, xüsusi alətlərin və riskin təhlili metodlarının istifadəsini tələb edir ki, bu zaman, mürəkkəb ehtimallı təhlilin modellə araşdırılma əməliyyatı ortaya çıxır. Qeyd eləmək lazımdır ki, potensial neqativ nəticəyə və itkiyə baxmayaraq bu və ya digər risk müvafiq layihənin nəticəsi olaraq sonda özünə məxsus (inkişafın mühərriki) mümkün gəlir mənbəyi ola bilər. Burada əsas məsələ riskdən ümumiyyətlə, imtina etmək deyil, obyektiv meyarlar əsasında xüsusi alət olan "risk-təhlilin" seçilməsi və bu məntiqə əsasən, qeyri-müəyyənlikdə qərarların qəbul edilməsidir. [1. səh.36].

Riskin qiymətləndirilməsi əsasən, bu riskin dərəcəsini kəmiyyətcə və ya keyfiyyətə uyğun üsulu ilə müəyyənləşdirilməsi məsələsini nəzərdə tutulur. Qeyd etmək lazımdır ki, müasir dövrdə ilkin mənbələrə əsaslanan iqtisad elmində, riskin qiymətləndirilməsinin tam nəzəriyyəsi yoxdur, ola bilsin ki, məhz bunun səbəbi onda gizlənir ki, hər cür nəzəriyyə müasir konsepsiyalara əsaslanır və təcrübənin ümumiləşdirilməsini özündə ithaf edir. Rəqabət şəraitində bazar iqtisadiyyatı sistemi məcbur edir ki, müasir dövrdə hər bir sahibkar, qeyri-müəyyənlik şəraitində qərar qəbul etmək məcburiyyətindədir, çünki bu iqtisadi sistemdə heç bir idarəedici subyekt hansı qərarı qəbul edəcəyini qabaqcadan bilmir. Bundan əlavə əlbəttə, xarici və daxil amillər mövcuddur və onlar nəzərdə tutulan məqsədə nail olmağa mane olurlar və qeyri-müəyyənlik şəraitində hətta, belə bir tam aydın seçilmədə o yarana bilər ki, müvafiq olaraq qərar qəbul edilən zaman, xarici mühitin vəziyyəti məlum olmaz və ya o tez-tez dəyişə bilər. Risk probleminə həsr edilmiş tədqiqatlarda riskin kəmiyyətcə qiymətləndirilməsi məsələsinin müəyyən edilməsinə bir neçə yanaşma mövcud ola bilər və onlardan əsasları əlbəttə, statistik metod, oxşarların istifadəsi metodu və quraşdırma metodu və s..

İnvestisiya layihələrin bir sıra alətləri, riskin kəmiyyətcə qiymətləndirilməsinin riyazi statistik metoduna əsaslanır və tədqiqat işlərində istifadə olunur ki, bunlardan standart əyilmə, variasiya əmsalından istifadə oluna bilər. Belə yanaşmalar, əvvəlcədən məlum olan, statistik qiymətləndirmə metodu, bir qədər qısa müddətə konkret layihənin riskinin qiymətləndirilməsi ilə yanaşı, bütövlüklə firma və ya şirkətin riskini qiymətləndirməyə imkan verir. Mövcud riskin qiymətləndirilməsi metodunun üstünlüyü riyazi hesablamaların sadə olduğunu hesab etmək olar lakin burada, çatışmamazlıq mövcuddur o isə, böyük miqdarda müşahidələrin nəticələrinin toplanmasında olan ehtiyacdan irəli gəlir. Əvvəlcə keçirilmiş müqayisəyə əsaslanaraq investisiya layihələrinin qiymətləndirilməsinin kriteriya təhlilində əsasən, üstünlük maksimal gəlirli layihəyə verilir. Lakin bu kriteriyalar əvvəlki formada ancaq tam müəyyən edilmiş şərtlərə uyğun halda tətbiq edilə bilər. Riskin mövcudluğu müxtəlif ehtimal dərəcəsi ilə gəlirin əhəmiyyətinin cəm halında olmasını güman edir. Bununla belə yeganə mümkün gəlirin seçilməsi üçün səbəb yoxdur, hansı ki, maksimal gəlir kriteriyasına əsaslanaraq müqayisəni edə bilər.

Beləliklə, bu situasiyalar üçün başqa kriteriyalar gərəkdir və ola bilsin ki, məsələn risk şəraitində alternativ müqayisə üçün investisiyanın gözlənilən gəlir kriteriyalarını istifadəsi, mümkün orta gəlirin müəyyən edilməsi məhz, onların ehtimalı ilə müqayisə edilsin. Mümkün riski nəzərə alan mövcud maksimal sayda kriteriyaları müzakirə edək. Tamamilə aydındır ki, özünün inkişafı üçün sərf edilməmiş və əksəriyyəti individual hallar üçün əlavə mənfəətin əldə edilməsi bu məqamda azala bilər, ona görə də gözlənilən faydalı kriteriya əsasında riski hesaba almaq lazımdır.

Gözlənilən faydalılığın həddi qeyri-müəyyənlik şəraitində layihələrin seçilməsi probleminin həllinə müvafiq nəzəri bir vasitədir. Gözlənilən faydalılığın meydana çıxması üçün vacib olan faydalılığın funksiyasının dəqiq forması məlumdur deməli onun həlli asan ola bilər. [2. səh.69].

2. İnvestisiya layihələrinə kriteriyaların tətbiqi

Belə ki, investisiya layihələrinin həllində, kriteriyaların tətbiqi zamanı müəyyən çətinliklər meydana çıxır. Qeyri-müəyyənliyin mövcud müasir şəraitində investorluq fəaliyyətinin alternativinin seçilməsi, «qərar ağacı» metodu ilə əlaqədar növbəti ifadədə əlavə aparılmış müşahidə edilmiş növbəti kriteriyalardan birinin köməyi ilə həyata keçirilə bilər (daha doğrusu nə vaxt ki, gələcəkdə gəlirin və onun gözlənilən maksimum həcmindən az olması mümkünlüyü mövcuddur onda, təqribi hər bir mümkün nəticələrin əldə edilməsi üçün, qeyri-müəyyənlik ilə hesablana bilər).

1. MAXIMAX kriteriyası (optimallıq kriteriya), bu zaman alternativi müəyyən edilir və hər bir alternativ üçün maksimum nəticəni maksimumlasdırmaqla müəyyən edilir. 2. MAXIMIN kriteriyası (pessimist kriteriya) bu zaman alternativ müəyyən edilir və hər bir alternativ üçün minimum nəticəni maksimum hallarla müəyyən edilir. 3. Əhəmiyyətsizlik kriteriyası, bu zaman maksimum orta nəticəlin alternativinin çıxarılmaşıdır və bu halda uyğunsuz fərziyyə mövcud olur ki, mümkün hallarda yəqinlik arasında tarazlıq yaratmaqla, nəticədə gözlənilən maksimum riyazi böyüklüyü verən alternativ seçilir.

Layihənin həyata keçirilməsində investora layihənin həyata keçirilməsi haqda əlavə məlumatlar daxil olursa deməli, əvvəlki mövcud qeyri-müəyyənlik aradan götürülür. Bu haqda layihəyə aid informasiya "ola bilsin" ifadəsi əlavə edilər və mümkün qanunlarla bölüşür ki, onda investisiya layihəsinin təhlili kontekstində riskin şərtləri ilə qərarın qəbulu üçün, müasir şəraitində baxılması lazımdır. [3. səh. 369].

Layihə riski üç səbəbdən ola bilər, birinci, risklə əlaqədar hadisə, ikinci, riskin mümkünlüyü, üçüncü, risklə təhrik olunan pul məbləğinin böyüklüyü ilə ifadə olunması. Deyildiyi kimi, riskin qiymət miqdarı, yalnız qəbul edilmiş məsələlərin aqibəti ilə əlaqədar deyil, həm də bu məsələlərin qiymət ehtimallığı ilə əlaqədardır.

Riskin ölçülməsinə ehtimal ilə yanaşma üsulu məsələsi, Q.B. Kleynerin, V.L. Tambovsevin, R.M. Kaçalovun Moskvada «Ekonomika» nəşriyyatında çapdan çıxmış «Qeyri-sabit iqtisadi mühitdə müəssisə: risklər, strategiyalar, təhlükəsizlik» kitabında ifadə olunur ki, burada xüsusi şkala, göstəricilər və alqoritmləri özündə əks edən və kəmiyyət qiymətləndirilməsini aparmağa imkan verən xüsusi alətin (üsulun) əsasında təsərrüfat qərarlarının qəbul edilməsində risk səviyyəsini ölçməyin mümkünlüyünü təqdim edir. Bu alətin (üsulun) əsasında sistem təhlilini, xüsusi modelin qurulmasını, riskin ölçü şkalasını seçməsini və riskin ölçü göstəricilərinin müəyyən

edilməsi üsulunu əks etdirən ölçü nəzəriyyəsi konsepsiyası əsaslandırılmışdır. Bu kitabda, layihə riskinin bütün iştirakçılarını nəzərə almaqla onun ümumiləşdirilmiş kəmiyyət qiymətləndirilməsini formalasdırmaq irəli sürülür ki, bu iştirakçıların hər biri üçün əvvəlcə ayrı-ayrı nəticələri (başlanğıcları) və alternativ riskləri qiymətləndirir. [4. səh. 39].

Bütün layihə risklərini kompleks qiymətləndirilməsi üçün, onun göstəricisinin formalaşması ideyası bütövlükdə investisiya şəraiti haqqında başlanğıc göstəricilərin bütün məcmusunun uçotunu özündə əks etdirir ki, bu da risk subyektlərinin tərkibi, mümkün zərərlə əlaqədar hər bir mümkün ehtimal olunan hadisə yığınını nəzərdə tutur və zərər olduqda subyektlər üçün onun miqyası müəyyən edilir. Bununla yanaşı, layihə risklərinin ümumi qiymətləndirilməsinin formalaşması imkanı, artıq digər üsulla, ayrı-ayrı subyektlərin risklərinin müəyyən edilməsi və kəmiyyətcə qiymətləndirilməsini təşkil edən inteqral üsulla həyata keçirilir. [5. səh. 133].

Layihə iştirakçılarından hər birinin riskinin kompleks qiymətləndirilməsini r_i ilə və «risklər paketi» nin ümumi qiymətləndirilməsini G ilə işarə etsək, $r = (r_1,..,r_n)$. Onda:

$$G = f(r_1,..,r_n),$$

burada $r_1,..,r_n$ iştirakçıların riskləri; n - onların sayı; f -funksiyanın seçim variantlarıdır.

1. $f = \max(r_1,..,r_n)$

Bu funksiya maksimum risk edən iştirakçının, məsələn, investorun riskinə görə layihə riskinin qiymətləndirilməsinə uyğundur.

2. $f = \min(r_1,..,r_n)$

Bu funksiya minimum risk edən iştirakçının, məsələn layihənin həyata keçməsi üçün verilən binanın icarəyə verənin riskinə görə layihə riskinin qiymətləndirilməsinə uyğundur.

3. $f = \frac{r_1 + ... + r_n}{n}$

Bu funksiya bütün layihə subyektlərinin orta riskini ifadə edir və nəzərə almaq lazımdır ki, 1 və 2-ci hallarda ayrı-ayrı iştirakçıların qarşılıqlı əvəz olunma risklərinin elastikliyi sıfıra bərabərdir, yəni ayrı-ayrı iştirakçıların risklərinin əvəz olunmaz kimi götürülür. Eyni zamanda 3-cü hal zamanı bu elastiklik sonsuzluğa bərabərdir və riskin qiymətləndirilməsinin ümumi kəmiyyəti, layihənin sərbəst seçilməsi və digər iştirakçının riskinin müvafiq dəyişməsi hesabına hər hansı bir iştirakçının risklərinin dəyişməsi saxlanıla bilər.

Əvvəlki 3 düsturu birləşdirən və riskin qiymətləndirilməsi üçün daha ümumi ifadə aşağıdakı formada olması daha çox məntiqə uyğundur.

4. $f = \left(a_1 r_1^b + ... + a_n r_n^b\right)^{\frac{1}{b}}$

«Riskin bərabərlik əmsalı» adlanılan risklər paketi nöqteyi-nəzərindən, investisiya layihəsinin ümumi xarakteristikası mühüm əhəmiyyət kəsb etdiyi üçün məhz bu düstur ilə müəyyən edilə bilər.

$$k = 1 - \min(r_1,..,r_n) \ / \max(r_1,..,r_n)$$

0-dan 1-ə qədər məna kəsb edən bərabərlik əmsalı layihə subyekti üzrə riskin bərabər bölgüsünü göstərir. Əgər əmsal sıfıra yaxındırsa, onda risk bərabər bölünür, vahidə nə qədər yaxındırsa, layihənin ayrı-ayrı iştirakçılarının riskləri arasında fərq bir o qədər böyükdür anlamına gəlir və prinsipcə bütövlükdə bu layihə riski böyük olması kimi başa düşülməlidir. Bu əmsal həmin layihənin risklər paketinin tam qiymətləndirilməsinin formalaşması zamanı, düzəliş etmək mümkünlüyünü özündə saxlayır.

Layihə risklərinin kəmiyyətcə qiymətləndirilməsi zamanı, alət kimi ehtimal olunan yanaşmadan istifadənin mühümlüyünün nəticəsi olaraq əsas anlayışları nəzərdən keçirək. Ehtimal edilən yanaşmanı müəyyən etmək üçün aşağıdakı metodlardan istifadə oluna bilər:

Obyektiv metod, bu bəzi hadisələrin baş verdiyi tezliklərin hesablanması (faktiki göstəricilər əsasında) ilə əlaqədardır. Məsələn, investisiya layihəsinin həyata keçməsi prosesində itkilərin bir

sıra səviyyələrinin yaranması tezliyi aşağıdakı düsturla hesablana bilər:

$$f(A)=n(A)/n$$

Burada, f – itkilərin bir sıra səviyyələrinin yaranması tezliyi, $n(A)$-bu itki səviyyəsinin başlanması hallarının sayı, n- həm uğurla həyata keçirilən, həm də baş tutmayan investisiya layihələrini özündə əks etdirən statistik seçmə müşahidə hadisələrin ümumi sayıdır.

Subyektiv ehtimal, analoji şərtlərdə alınan bu cür oxşar tez nəticələrə yox, qiymətləndirən mütəxəssisin düşüncələrinə və şəxsi təcrübəsinə əsaslanan nisbətən müəyyən nəticələrin fərziyyələrinə əsaslanması ilə bağlıdır. Buradan subyektiv ehtimalların geniş variasiya olunması müxtəlif informasiyanın geniş spektri ilə və ya eyni informasiyaya əsaslanan müxtəlif əməliyyatların aparılması ilə izah edilir. Bir sıra hadisələrin sıfıra bərabər olması ehtimalı, onun başlanmasının qeyri-mümkünlüyünü təsdiq edir və ya əksinə, vahidə bərabər olma ehtimalı hadisəsinin əlbəttə, şübhəsiz başlanması deməkdir. Bütün mümkün variantların ehtimallarının cəmi vahidə bərabərdir.

Riskin ehtimal edilən təhlilində, tətbiq edilən mühüm anlayışlar, alternativlər, mühit və vəziyyət, nəticə anlayışları ilə bağlıdır. Məhz alternativ, bəzi problemlərin həllinə istiqamətlənmiş fəaliyyətlərin ardıcıllığı deməkdir. Alternativə misallar əsasən, hansı növ investisiyaların (real maliyyə) hansı növü üstündür, yeni hansısa zavodu tikmək və ya tikməmək, öz xarakterinə görə fərqlənən iki texnoloji xətdən hansını almaq, yeni məhsulun istehsala başlamaq, təqdim etmək və ya hansı texnologiyanı tətbiq etməmək və s. bu kimi suallarla bağlı olduğunu unutmaq olmaz.

Mühit vəziyyəti dedikdə, o vəziyyət başa düşülür ki, müvafiq məsələ üçün qərar qəbul edən şəxs (məsələn, investor) təsir göstərə bilmir (məsələn, əlverişli və ya əlverişsiz bazar, iqlim şərtləri və s. məsələlər burada nəzərdə tutulur). Nəticə olaraq isə, müəyyən mühit vəziyyətində həyata keçən alternativ təkliflər zamanı yaranan mümkün hadisələr nəzərdə tutulur. Bu əsasən, mühitin müəyyən vəziyyətində, müəyyən alternativ nəticələr göstərən kəmiyyət əsasında qiymətləndirməsidir (məsələn, mənfəətin, məhsulun miqdarı və s. məsələlər bura aid edilir).

3. İnvestisiya layihələrində risk meyarlarının təhlil

İnvestisiya layihələrinin müxtəlif variantlarını təhlili, müqayisə əsasında, investorlar tərəfindən qəbul edilən qərarların, müvafiq nəzəriyyələr çərçivəsinə uyğun olduğunu və fəaliyyət göstərdiyini görərik. «Qərarlar ağacı» əsasən, alternativ qərarlardan birini seçməyə və məqsədlərə nail olmaq üçün, ən çox təsir edən hansı strategiyanı (məsələn, ***NVP***-nin maksimallaşması) müəyyən etməyə imkan verən strateji qərarların qəbul edilməsi nəzəriyyəsi metodlarından biridir. Müəyyən məqsədə görə qurulmuş «qərarlar ağacı» müxtəlif fəaliyyət istiqamətlərinin, onların maliyyə nəticələrinin əlaqələndirilməsini və onlara düzəliş edilməsini nəzərə alınması imkanını təmin edir ki, bu da müəyyən edilmiş meyarlara uyğun alternativləri müqayisə etməyə imkan verir. Hər bir alət kimi, bu metod da nöqsansız deyil və özünün tətbiqi ilə əlaqədar bəzi məhdudlaşdırıcı şərtlərə malikdir. Onlar arasında seçim alternativi və variantların sayı məhduddur. Hadisələrin gedişinin müəyyən edilməmişdir və deməli gələcək haqqında dürüst müəyyənlik yoxdur. Qəbul edilmiş qərarların nəticələri məhz hansı alternativin seçilməsindən və real olaraq hansı hadisənin olmasından asılıdır.

«Qərarlar ağacı»-nı işləyib hazırlayan şəxs müvafiq hadisələr ehtimalını qiymətləndirməyə qadirdir olmalıdır ki, ehtimalın bu və ya digər hadisəyə aid edilməsi qaydası keçmişdə mövcud olan meyllərin nəzərə alınmasına və ya bu sahədə səlahiyyəti olan ekspertlərin subyektiv qiymətləndirilməsinə əsaslana bilsin. Gələcək qərarların bu günkü qərarlardan asılılığı mövcuddur, belə ki, hər bir qərarın nəticələri növbəti qərara təsir göstərir («qərarlar ağacı»-nın köməyi ilə onların məkan və zamanda ardıcıllığı təşkil olunur). Digər tərəfdən bu məsələ, həm də cari qərarlara uyğun nəzərdə tutulan qərarlardan asılı ola bilər.

Pul axınının proqnozu, xarici mühitin və layihə mühitinin təsbit olunan təsirlər nəticəsində, layihənin həyata keçirilməsi gedişində dəyişikliklərə məruz qalır. Aparılan qiymətləndirmə zamanı, həm layihənin genişlənməsi, həm də ondan imtina edilməsi kimi alternativ imkanlar mövcud ola bilər. Seçimi təhlil etməyə və onu həyata keçirməyə kömək edən alətlərdən biri də, «qərarlar ağacı»-nın qurulması metodudur. Belə təhlilin ilkin mərhələsində «qərarlar ağacı»-nın əsas strukturu işlənib hazırlanır, mərkəzi əsas hadisələr ayrılaraq fərqləndirilir və başlanması üçün,

müvafiq əks tədbirlər işlənib hazırlanır (məsələn, kompensasiya və ya minimallaşdırma xarakterli tədbirlər, hansılar ki, risklərin təhlildə keyfiyyət yanaşmasına oxşarlıq və onların dəyər ekvivalentləri hesab edilir). Sonra isə «qərarlar ağacı» üzrə «geriyə hərəkət», yəni gələcəkdən indiki dövrə hərəkət təşkil olunur və dəyişən şərtlərə reaksiya verərək *NPV* layihənin kəmiyyətinin nə qədər güclü dəyişməsini qiymətləndirməyə imkan verir. Aparılan hesablamalara uyğun olaraq hər bir halda, həyata keçirilməsi zəruri olan konkret fəaliyyətin seçilməsi zəruri şərtdir.

İndi isə gəlin, tədqiq olunan metodun riyazi-iqtisadi şərhini nəzərdən keçirək. Bu şərh Y.Q.Pollyak., V.A. Filimonovun [6. səh. 69.] birgə redaktəsi ilə Moskvanın «Radio və rabitə» nəşriyyatında çapdan çıxan «Rabitə vasitələrinin statistik maşın modelləşməsi» adlı kitabda, nəzəri cəhətdən ətraflı məlumat verilmişdir. «Qərarlar ağacı» geniş formatda firman və ya şirkətin oyununun («təbiətlə») halı kimi təqdim edilə bilər, fikri burada əsaslandırılmışdır. Onda biz aşağıdakı formulu tərtib edə bilərik:

$$\Gamma = \{P, \tau\}$$

Burada $P = \{p_0, ..., p_n\}$ təpələr çoxluğu (firma və ya şirkətin qərarının, yaxud hadisənin qəbul edilməsi nöqtəsi), τ - aşağıdakı xassələrə malik zirvənin qabağda getməsi qaydasını müəyyən edən funksiya, mövcuddur və təkdir, $\boldsymbol{\tau(p0) = p0;\ p \in P}$ üçün l mövcuddur bu da ki, $\tau(...\tau(p)...) = \tau l(p) = p0i;T$ son uclar çoxluğu, $\boldsymbol{T \subset P}$ seçilmiş strategiya üzrə *NPV* riyazi gözləmə (və ya digər nəzərdən keçirilən meyar) müəyyən edilən firma və ya şirkət üçün verilən uduş funksiyasıdır $\boldsymbol{NPV(p): T \to R}$ ($\boldsymbol{R}$ - bütün maddi ədədlər bura daxildir).

Bazarda oyunçuların strategiyalarının seçimi və situasiyasından aşlı olaraq hər birinin təsbit edilməsi kimi yanaşmalar əsasında müəyyən edilir. «Qərarlar ağacı» bu müvafiq oyun haqqında əyani təsəvvür yaradır, lakin optimal strategiyanın seçilmiş formal meyarların tətbiq edilməsi üçün, normal formada oyunu təqdim etmək lazımdır. Oyunlar nəzəriyyəsinə uyğun olaraq hər hansı bir son oyunu geniş və normal formada münasib oyun kimi təqdim etmək olar. Bunun üçün hər bir oyunçudan bütün strategiyaları saymaq və alınan uduşun səmərəsini göstərmək zəruri şərtdir.

Beləliklə, tədiyyə matrisi verilir ki, $\boldsymbol{A(A = \{a_{ij}\},}$ (burada $\boldsymbol{i}$ - oyunçunun strategiyasının nömrəsi, j - hadisə strategiyasının nömrəsi), buna görə optimal strategiya müəyyən edilir. Optimal strategiyanı statistik həll nəzəriyyəsinin aşağıdakı müvafiq meyarlarından istifadə edərək müəyyən etmək olar. Vensel E.S. ”Əməliyyatların tədqiqatı: vəzifələr, prinsiplər, metodologiya” kitabında bu məsələyə aydınlıq gətirmişdir.(210.s57.)

Valdinin maksimin meyarı, bu meyar «pessimist» kimi qiymətləndirilə bilər, çünki firma və ya şirkətə uğur gətirməyə mane olmaqdan fəaliyyət göstərən ağıllı rəqiblə bunu bir oyun kimi nəzərdən keçirlər. Bu meyara görə optimal strategiya o strategiya hesab olunur ki, burada $\boldsymbol{a = \max \min_j a_{ij}}$ halında oyunun aşağı qiymətindən az olmayan hər hansı bir halda uduşa müvafiq təminatı verilir (*NPV* - nin riyazi gözləməsi nəzərə alınmaqla).

Seviçin minimaks risk meyarı, bu meyar da pessimist kimi nəzərdən keçirilə bilər, lakin, optimal strategiyanın seçilməsi zamanı, uduşa yox, risk əleyhinə yönəldilir. Bu halda «məlumatın olmaması» kimi, yəni məlum strategiya zamanı uduşla bu strategiyanın naməlum olduğu zamanla uduş arasında fərq kimi müəyyən edilir. $\boldsymbol{R = \{r_{ij}\}}$ ödəniş matrisi hesablanır, burada $-i$ oyunçu strategiyasının nömrəsi, j-təsadüf strategiyasıdır, hansı ki, $r_{ij} = \beta_j - a_{ij}$ halında strategiyanın nömrəsi, burada β_j - bu formula əsasında təyin olunur.

$$\beta_j = \max_i (a_{ij})$$

Elə bir strategiya seçilir ki, burada ən pis şərtlərdə riskin kəmiyyəti minimumdur, beləliklə, qərarların qəbul edilməsi zamanı göstərilən meyar həddən artıq riskdən yaxa qurtarmağa imkan verir yəni, $S = \min_i \max r_{ij}$ olur.

Qurvitsin pessimizmi – optimizim meyarı, bu meyara uyğun olaraq elə strategiya seçilir ki, bu zaman aşağıdakı şərtlər nəzərə alınması vacib şərtdir:

$$H = \max_i \{\chi \cdot \min_i a_{ij} + 1(1-\chi) \cdot \max_i a_{ij}\}$$

χ- analitikin subyektiv mülahizələrini nəzərə almaqla 0 və 1 arasında seçilən «pessimizm əmsalı»-dır. Yəni vəziyyət nə qədər çətindirsə və riskə meyl azdırsa, χ 1-ə daha yaxın seçilir. Beləliklə, $\chi = 1$ zamanı Qurvits meyarı Valdın meyarına matrisin təhlili üçün də seçilə bilər.

«Qərarlar ağacı»-nın seçilməsi əsasında formalaşmış pul axınına əsaslanaraq firma və ya şirkətin operativ strategiyasını və gələcək investisiyaları proqnozlaşdırmaq olar. Qeyd etmək lazımdır ki, real həyatda istifadə edilən «qərarlar ağacı» kifayət qədər mürəkkəb struktura malikdir və onlardan istifadə gələcək imkanların aşkar edilməsinə kömək edir. Cari və gələcək qərarlar arasında əlaqələrin əks edilməsi ilə xalis diskontlaşmış gəlirin ən yüksək mənası strategiyanın düzgün müəyyən edilməsidir. [7. səh. 99]

Sadalanan üstünlüklərlə yanaşı bu metoda bəzi çatışmayan cəhətlər xasdır. Hər şeydən əvvəl əsas problem ondan ibarətdir ki, bu metod kifayət qədər mürəkkəbdir və kəmiyyətcə müəyyən edilməməsidir, belə ki, məsələn qradasiyadan aşağı və ya yüksək tələbdən istifadə etməli olursan. Əgər tələbin hədlərini daha ətraflı təfərrüatı ilə izah etsək, onda «ağac» güclü şaxələnəcək və qavramaq və anlamaq üçün mürəkkəb olacaqdır. Bundan əlavə layihənin həyata keçməsi gedişində onun genişlənməsi haqqında qərarın qəbul edilməsi kapital qoyuluşu müxtəlif risklərlə müşayiət olunur. Buna görə də daxil olan dəyişikliklərin risklilik dərəcəsini nəzərə almaq üçün müxtəlif diskontlaşma dərəcəsindən istifadə edilmə zəruriliyinin doğurduğu problem yaranır. Bu dərəcələrin konkret mənasının hesablanması «qərarlar ağacı» metodundan kənarda yerinə yetirilir və onların kəmiyyətləri ekzogen (xarici təsirlər ilə) baş verən göstəricilər hesab edilir. [8. səh. 31].

Buradan belə nəticəyə gəlmək olar ki:

- investisiyalaşma variantının seçilməsi haqqında qərarın qəbul edilməsi nəticələrinin fərziyyəsi məlum edilməli və müəyyən mühitdə mövcud vəziyyətin başlanması ehtimalı əsaslandırılmalıdır;
- ehtimallar əsasında riskin standart xarakteri hesablanmalı, riyazi gözləmə, dağıtma ölçüsü, standart kənarlaşma, variasiya əmsalı, korrelyasiya əmsalı müəyyən edilməlidir;
- investisiyaların qiymətləndirilməsi və qərarların qəbul edilməsinin ən məşhur qaydalarından birinə yəni, (iqtisadiyyat sahəsində Nobel mükafatı laureatı X. Markovitsona) investisiyaların gözlənilən gəlirliliyinə müvafiq variasiyalara əsaslanmaqla, mövcud şərtlərdən birinə riayət edilməsi lazımdır;
- layihədən gözlənilən gəlirlilik ya gözlənilən gəlirlərdən çoxdur və ya ona bərabərdir və ya müvafiq olaraq digər variasiyadan azdır, və ya əksinə ola bilər;
- gözlənilən gəlirlər nisbətən çox olarsa onda müvafiq variasiya digər variasiyaya nisbətdə az olacaq və ya ona bərabər olacaqdır;
- gözlənilən gəlirlilik layihənin həyata keçirilməsi ehtimalının indikatorı, variasiya isə onun riskinin göstəricisidir və qeyri-müəyyənlik şəraitlərində investisiya qərarlarının qəbul edilməsi prosesini yüngülləşdirən metod kimi «qərarlar ağacı» qurulmasına yanaşmadan istifadə edilməlidir.

Ədəbiyyat siyahısı:

1. Балабанов И.Т. “Риск-менеджмент”. М.: Финансы и статистика, 2012.
2. Бочаров В. В. “Инвестиционный менеджмент”. — СПб: Питер, 2015.
3. Самедзаде З.А. «Этапы бщльшого пути». Баку. Нурлар. 2004.
4. Бирман Г, Шмидт С. “Экономический анализ инвестиционных проектов”. – М.: «Банки и биржи», Издательское объединение «ЮНИТИ», 2017.
5. Маркова В.Д, Кравченко Н.А. “Бизнес-планирование”. Новосибирск: ЭКОР, 1994.
6. Полляк Ю.Г., Филимонов В.А. «Стратегическое машинное моделирование средств связи» Москва. Из. Радио и связь. 2016. с.59.
7. “Управление риском”. Практические методы минимизации случайного риска потенциальных убытков. С-Пб., Русский Ллойд, 2013.

8. Hasanov N.A **Determination of stock incomes based on mathematical modelling.** Qafqaz University, Academy of Sciences, Association for Scientific Research. Baku-2000.

MARKETİNQ STRATEGİYASI İNNOVASİYALI MƏHSULLAR BAZARININ ƏSAS FAKTORU KİMİ

Həsənova Pəri Əmirəhməd qızı, i.e.d., professor
Bakı Dövlət Universiteti
Məmmədova Ayşən Viladdin qızı, doktorant
Azərbaycan Texnologiya Universiteti
a.nesibova@uteca.edu.az
Məmmədov Seymur Ceyhun oğlu, doktorant
Azərbaycan Texnologiya Universiteti
s.memmedov@uteca.edu.az

Xülasə

Təqdim olunmuş məqalədə innovasiya fəaliyyətinin əsas istiqamətlərindən biri olan yeniliklərin tapılması və reallaşdırılmasının nəticəsi olan innovasiyalı məhsullar və bazarda onlara olan tələbin formalaşması şərh edilmişdir. Bundan əlavə innovasiyalı məhsul üzrə marketinq strategiyasının mərhələləri qeyd olunmuş, innovasiyalı məhsullar bazarında uğurlu marketinq strategiyasının üç əsas elementi olan missiya, rəqabət üstünlüyü və üçüncü istehsal etməkdə üstün olduğumuz məhsullarımızı alacaq seçilmiş bazar seqmentləri geniş şəkildə şərh edilmişdir.

Marketinq yenilik, innovasiyalı bir məhsula və xidmətə müsbət təsir göstərən, yeni ideyaları özündə formalaşdıran bir fəaliyyətdir. Texnologiyanın inkişaf etdiyi bir vaxtda iri və ya kiçik hər növ firma üçün yenilik etmək əsas inkişaf amilinə çevrilib.

İnnovasiya məhsulların yaradılmasında marketinqin məqsədini müəssisənin fəaliyyətində rəqabətqabiliyyətliliyin yüksəldilməsi məqsədilə innovasiya strategiyalarının formalaşması və realizasiyası kimi müəyyənləşdirmək olar. Müəssisə innovasiya fəaliyyəti üzrə məqsədini müəyyən-ləşdirərkən ilk növbədə innovasiya potensialını, innovasiya fəaliyyətinin formalaşmasına təsir göstərən daxili və xarici mühit amillərini ətraflı təhlil etməlidir.

Hal–hazırda dünyada yeni iqtisadiyyatın formalaşması prosesi baş verir və onun əsas xüsusiyyətlərindən biri bazarların iri firmaların əlində cəmləşməsindən, rəqabətqabiliyyətli istehsalın formalaşmasında maliyyə resurslarının təsirinin artmasından, müəssisələrin dayanıqlı və stabil inkişafında bankların və maliyyə təşkilatlarının rolunun yüksəldilməsindən ibarətdir. Belə bir şəraitdə müəssisələrin fəaliyyətində baş verən köklü dəyişikliklər, idarəetmə proseslərinin təkmilləşdirilməsi, innovasiyadan, elmi-texniki tərəqqinin son nailiyyətlərindən isifadə edilməsi, rəqabətqabiliyyətliliyin yüksəldilməsini təmin edən əsas şərtlərdən birinə çevrilir. Beləliklə, müəssisənin rəqabətqabiliyyətliliyinin artırılmasında innovasiya yönümlü inkişaf strategiyalarından istifadə etməyə zərurət yaranır. Son nəticədə, bazarda o müəssisələr daha çox müvəffəqiyyət qazanırlar ki, onlar innovasiyadan, elmi texniki tərəqqinin son nailiyyətlərindən daha geniş istifadə edirlər. Qeyd olunanlar müəssisələrdə innovasiya fəaliyyətinin həyata keçirilməsində marketinq konsepsiyasından istifadəni zəruri edir, onun əhəmiyyətini və rolunu xeyli artırır.

İqtisadi ədəbiyyatlarda innovasiya, potensial elmi-texniki tərəqqinin yeni və ya təkmilləşdirilmiş məhsul, xidmət və texnologiyalarda öz əksini tapması kimi qeyd olunur. Başqa sözlə, innovasiyanı mövcud sahələrdə texnoloji baxımdan yeniliyin tətbiqi kimi də başa düşülür.

Ümumiyyəttlə innovasiya dedikdə kommersializasiyası başa çatdırılmış yenilik başa düşülür. İnnovasiya dedikdə həmçinin, praktiki fəaliyyətdə yeni məhsulun, yeni texnologiyanın, yeni idarəetmə sisteminin və digər yeniliklərin tətbiqi nəzərdə tutulur. İnnovasiya fəaliyyəti dedikdə isə innovasiya məhsulunun yaradılması və kommersializasiyasının həyata keçirilməsini təmin edən

fəaliyyət başa düşülür. Hər bir yenilik, yeni məhsul, yeni kəşf o vaxt ictimaiyyət tərəfindən qəbul olunur ki, o bazarda yeni keyfiyyətdə innovasiya kimi çıxış edir. [1]

İnnovasiya müasir dövrümüzün əsas inkişaf istiqamətlərindən biridir. Firma, müəssisə inkişafının yeganə yolu mütəmadi olaraq yeni məhsul və xidmətlər təqdim etməkdir. Rəqabətqabiliyyətli məhsul istehsalı və xidmətin göstərilməsi bilavasitə innovasiya sisteminin tətbiqindən asılıdır. Dünyada texnologiyaların inkişafı ilə bazara daim yeni-yeni məhsullar çıxarılır ki, bu da innovasiya sisteminin müasirləşməsini və inkişafını zəruri edir.

Rəqabətin artdığı, istehlakçı ehtiyaclarında baş verən sürətli dəyişikliklər, innovasiyalı məhsul və şirkətlərin bazara daha tez daxil olması şirkətləri dəyişikliyə məcbur edir. İnnovasiya yenilik, icad, texnoloji inkişaf kimi anlayışları özündə birləşdirən çox geniş bir anlayışdır. İnnovasiya mühitinin formalaşması və inkişaf etdirilməsi, həm şirkətlər üçün, həm də ölkənin iqtisadi vəziyyətinin inkişafı üçün mühüm rol oynayır.

Firmanın yenilik siyasətində innovasiyalı məhsulun yaradılması və ya mövcud məhsulun ciddi surətdə təkmilləşdirilməsi, yeni texnologiyaların tətbiq edilməsi, yeni idarəetmə sisteminin qurulması, yeni informasiya-kommunikasiya sisteminin yaradılması və tətbiq edilməsi onun inkişafının əsasını təşkil edir. Qeyd olunan istiqamətlərdə innovasiya fəaliyyətinin həyata keçirilməsi firmanın innovativ inkişaf strategiyalarının müxtəlifliyini əsaslandırır. Bu baxımdan firmada innovasiya prosesinin planlaşdırılması və idarə edilməsi əsas məsələlərdən birinə çevrilir.

İdarəetmə elminin yaranması və inkişafı, eyni zamanda əmtəə bazarlarında rəqabətin kəskinləşməsi innovasiya fəaliyyətində marketinq strategiyasından istifadəni, marketinq prinsiplərinin tətbiqini zəruri etmişdir.

İnnovasiya fəaliyyətində ənənəvi marketinq strategiyası və konsepsiyasından istifadə marketinq – miks çərçivəsində kompleks tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Belə tədbirlər kompleksi innovasiya məhsulunun realizasiyası məqsədilə qiymət, məhsul siyasəti, səmərəli bölgü və satış kanallarının yaradılması, aktiv stimullaşdırma tədbirlərinin həyata keçirilməsini nəzərdə tutur. Bu cür yanaşmada marketinq innovasiya menecmentinin ayrıca bir funksiyasına, taktiki və strateji məsələlərin həllində zəruri alətə çevrilir. [2]

İnnovasiyalı məhsullar bazarında marketinqinin məqsədi müəyyənləşdirildikdən sonra bu sahədə qarşıya qoyulan vəzifələr müəyyənləşdirilir.

İnnovasiya fəaliyyətində müasir marketinq yanaşmaları və marketinq strategiyası strateji xarakterə malikdirlər. Bununla əlaqədar innovasiya marketinqinin ikili xarakterini qeyd etmək vacibdir.

Birinci halda, innovasiya marketinqi əmtəə bazarlarında fəaliyyət göstərən müəssisələrin innovasiya ilə bağlı marketinq fəaliyyətini özündə əks etdirir, və daha çox strateji xarakter daşıyır. Bu marketinq fəaliyyəti daha geniş miqyası əhatə etməklə, innovasiyalı məhsulun bazara irəlilədilməsi ilə yanaşı, bazarın tələblərinə uyğun olaraq innovasiyanın yaradılması prosesinin idarəedilməsi ilə də əlaqədardır və eyni zamanda, marketinq – miks-dən istifadə etməklə innovasiya prosesinin həyata keçirilməsinin taktikasının və strategiyalarının hazırlanmasında iştirakı da nəzərdə tutur.

İkinci halda isə, innovasiya marketinqi innovasiya bazarında fəaliyyət göstərən innovasiya müəssisəsinin marketinq fəaliyyətini özündə birləşdirir, bazar üçün yeni məhsul, yeni texnologiya, yeni idarəetmə sistemlərinin, bir sözlə innovasiyanın yaradılmasını və kommersializasiyasını nəzərdə tutur.

İlkin sınaqdan müvəffəqiyyətlə keçmiş innovasiyalı məhsul nümunəsi üzrə satış strategiyasını işləyib hazırlamaq tələb olunur. İnnovasiyalı məhsul üzrə hazırlanan marketinq strategiyası üç hissədən ibarət olur.

Birinci hissədə məqsəd bazarı, satışın gözlənilən həcmi, bazar payı, yaxın illərdə mənfəətin həcmi və s. qeyd olunur.

İkinci hissədə qiymət, bölgü kanalları, birinci il üçün marketinq büdcəsi qeyd olunur.

Üçüncü hissədə isə yaxın bir neçə ildə əldə edilməsi nəzərdə tutulan satışın həcmi və mənfəət norması, marketinq kompleksinin strategiyaları qeyd olunur.

İnnovasiyalı məhsullar bazarında marketinq yalnız marketinq əlaqələri və bazar araşdırması məsələlərini əhatə etmir, eyni zamanda strateji marketinq məsələsini də əhatə edir. Faktiki olaraq, birinci yerdə strateji marketinq olmalıdır. Marketinq mesajları, reklam və satış məsələlərinin təfərrüatlarına keçmədən əvvəl bazarda biznesin istiqaməti və oriyentasiyası haqqında həlledici qərarlar qəbul etməliyik.

Strateji marketinq müəssisənin strateji planlaşdırması ilə tam şəkildə uyğunlaşdırılmalıdır. Bu iş müəssisənin missiya, baxış və dəyərlərini aydınlaşdırmaqla başlayır. Bu fundamental elementlər sonradan marketinq strategiyası haqqında qərar qəbul etmək üçün güclü əsas təmin edir. [3]

Daha sonra innovasiyalı məhsullar bazarında rəqabətin olduqca yüksək olduğunu qəbul etməliyik. Qəbul etməliyik ki, müəyyən innovasiyalı məhsulların istehsal edilməsində, müəyyən xidmətlərin göstərilməsində və ya bir sıra bazar nişaları ilə işləməkdə bəzi rəqiblərimiz bizdən yaxşıdır. Bu halda onlarla birbaşa rəqabət aparmağı qərarlaşdıra bilərik. Və ya daha strateji qərar qəbul edərək onları keçib yalnız daha yaxşı olduğumuz məsələlərə diqqət yetirməliyik. "Ən yaxşı bacardığımız iş hansıdır?" sualını deyil, "Rəqiblərimizlə müqayisədə ən yaxşı bacardığımız iş hansıdır?" sualını verməliyik. Bu, rəqabət üstünlüyümüzü təyin etmək və ondan istifadə etmək məsələsidir. Bundan sonra diqqətimizi rəqiblərimizə nisbətən üstün olduğumuz məsələlərə yönəltməliyik.

Daha sonra bizim istehsal etməkdə xüsusilə bacarıqlı olduğumuz məhsulları istəyən bazar seqmentləri və ya nişalarını tapmalıyıq. Bizim müvəffəqiyyətimiz məhsullarımıza ehtiyacı olan və onları istəyən müştəriləri tapmağa və onlara xidmət etməyə əsaslanır. Məhsullarımızı hamıya satmağa çalışmaq deyil, uğur qazana bilməyəcəyimiz bazar və bazar seqmentlərini nəzərə almayaraq sadəcə düzgün müştərilərə diqqət yetirməliyik.

Beləliklə, innovasiyalı məhsullar bazarında uğurlu marketinq strategiyası üç əsas elementi qələbə formulunda birləşdirir. İlk olaraq missiyamız; ikinci növbədə rəqabət üstünlüyümüz və üçüncü növbədə bizim istehsal etməkdə üstün olduğumuz məhsullarımızı alacaq seçilmiş bazar seqmentləri.

Ölkəmizdə inkişaf dövrünü yaşayan və daha çox əhəmiyyət kəsb edən marketinq innovasiyasının tətbiq olunması halında şirkətlərin rəqiblərini üstələyərək əldə edə biləcəyi faydalar, rəqabət qabiliyyətlilik və ən əsası müştəri məmnuniyyəti uğrunda bazarda uzunmüddətli mübarizə aparmaq üçün təkliflər irəli sürülmüşdür. İnnovasiya prosesini qəbul və tətbiq edən şirkətlər bazarda baş verən dəyişikliklərə uyğunlaşan elastik quruluşa sahibdirlər.

Qloballaşma ilə birlikdə dəyişən rəqabət vəziyyətində müştəri istək və ehtiyaclarının qarşılanması keyfiyyət, maya dəyəri, sürət kimi amillərin yerini alaraq, şirkətləri innovasiyalı məhsul və prosesi inkişaf etdirməyə, təşkilati quruluşlarında dəyişikliklər etməyə məcbur edir.

Düzgün marketinq strategiyasının hazırlanmasının məqsədi hazırkı vaxtda və nəzərə alına bilinən gələcəkdə firmanın imkanları ilə rəqabətli bazar şərtləri arasında uyğunluğun yaradılmasıdır. Kommersiya təşkilatı üçün strategiyanın hazırlanması onun imkanları ilə fəaliyyət göstərdiyi bazarın tələb və şərtləri arasında uyğunluğun təmin edilməsidir. [4]

İnnovasiyalı məhsulun həyat dövranının müxtəlif mərhələlərində bazar situasiyası, məhsulun bazar mövqeyi və rəqabət şəraiti bir-birindən fərqləndiyindən onun hər bir mərhələsində müxtəlif marketinq strategiyası tətbiq edilir.

Bazara çıxma mərhələsinin marketinq strategiyasında əsas diqqət bazarın genişləndirilməsi və bunun sayəsində satışın həcminin artırılmasına, baza məhsulların etibarlılığının və funksionallığının yüksəldilməsinə, innovasiyalı məhsul markasının yaradılmasına və istehlakçıların məlumatlandırılmasına yönəldilir. Bununla əlaqədar olaraq bu mərhələdə bazara nüfuz etmə və xərclərin ödənilməsi strategiyasından, bazara keçmə və genişmiqyaslı daxilolma strategiyasından, passiv marketinq strategiyasından, bazar payının artırılması strategiyasından və məhsulun bazar intensiv irəlilədilməsini təmin edən digər strategiyalardan istifadə edilir.

Məhsulun həyat dövranının artım mərhələsində marketinq kompleksinin dəyişdirilməsi və uzlaşdırılması strategiyasından, qeyri-ənənəvi satış bazarlarına çıxma strategiyasından, bazarın genişləndirilməsi strategiyasından, məhsulların modifikasiyası strategiyasından, xərclərin səviyyəsinin aşağı salınması strategiyasından və satışın həcminin artırılmasına imkan verən digər

strategiyalardan istifadə edilir. Bu strategiyaların realizasiyası məqsədilə məhsulların differensial-laşdırılması, onun imicinin yaradılması və bunların sayəsində istehlakçıların məhsula bağlılığının yaradılması həyata keçirilir, əmtəə dövriyyəsinin həcminin artırılması və digər amillər hesabına məhsulun istehsalına və satışına çəkilən xərclərin səviyyəsi ixtisar edilir.

Yetkinlik mərhələsinin marketinq strategiyasının məqsədi satışın həcminin və bazar payının aşağı düşməsinin qarşısını almaqdan və onların saxlanmasına nail olmaqdan ibarət olduğundan burada satışın həcminin və bazar payının saxlanması strategiyasından, diversifikasiya strategiya-sından, məhsulların özəlliklərinin və xüsusiyyətlərinin yaxşılaşdırılması və təkmilləşdirilməsi strategiyasından aşağı qiymətqoyma və intensiv bölüşdürmə strategiyasından istifadə edilir. [5]

Müəssisə rəqabət mübarizəsindən qaçmağa, istehlakçıların məhsula bağlılıq səviyyəsini saxlamağa və bunun sayəsində onları təkrar məhsul almağa təhrik etməyə çalışır. Böhran mərhələsində müəssisə «biçim» strategiyası və ya ləğvetmə strategiyası, qiymətlərin aşağı salınması strategiyası, marketinq fəaliyyətinin effektliliyinin artırılması strategiyası tətbiq edir, satışın həvəsləndirilməsinin və reklam fəaliyyətinin maliyyələşdirilməsini ya tamamilə dayandırır, ya da ona ayrılan maliyyə vəsaitlərinin həcmini xeyli ixtisar edir, məhsulun bazardan çıxarılmasına və yaxud onun təkmilləşdirilməsinə dair qərar qəbul edir. Məhsulun həyat dövranının müxtəlif mərhələlərində istifadə edilən marketinq taktikası da birbirindən ciddi surətdə fərqlənir.

İnnovasiyalı əmtəə ilə həm daxili, həm də xarici bazara çıxarkən istehsalçılar və satıcılar bir sıra ciddi problemlə qarşılaşa bilərlər ki, onların da arasında satışa çox tez – tez mənfi təsir göstərən əsas göstəricilər bunlardır:

- reklam və əmtəənin irəlilədilməsi səviyyəsinin aşağı olması;
-yeni əmtəənin kommersiya istehsalının mənimsənilməsində texniki və istehsal çətinlikləri;
- bölgü kanalları və satış şəbəkəsindən səmərəli istifadə olunmaması;
- qiymətin düzgün müəyyənləşdirilməməsi.

Mütəxəssislər istehlakçıların yeni əmtəəyə necə münasibət bəsləməsindən, xarici bazarda rəqabətin səviyyəsindən, reklam və stimullaşdırma tədbirlərinin necə təşkil olunmasından asılı olaraq adətən yeni əmtəə ilə bazara çıxmağın dörd strategiyasını fərqləndirirlər.

İntensiv marketinq strategiyasından istifadə edən firmalar öz əmtəələrində rəqiblərinə nisbətən mövcud olan üstün cəhətlərindən istifadə edərək xarici bazarda öz innovasiyalı əmtəələrinə daha möhkəm mövqe qazanmağa çalışırlar. [6]

Bazara "seçmə nüfuz etmə strategiyası" nda firma əmtəyə çox yüksək qiymət qoymaqla marketinq tədbirlərindən, yəni satışın stimullaşdırılmasına çəkilən xərcləri minimum səviyyəyə endirir. Bu strategiyadan aşağıdakı şərtlər daxilində istifadə olunur:

- bazarın tutumu az olduqda;
- əksər alıcılar ilə tanış olduqları halda;
- istehlakçının əmtəəyə yüksək qiymət ödəməyə hazır olduğu halda;
- rəqabət zəif olduqda.

Bazara geniş nüfuz etmə strategiyası innovasiyalı əmtəənin qiymətinin aşağı, marketinqə çəkilən xərclərin yüksək olduğu haldır. Bu strategiyadan istifadə edən firmaların məqsədi tez bir zamanda müvəffəqiyyətlə bazara çıxmaq və mümkün qədər onun payının çox hissəsini zəbt etməkdir. Passiv marketinq strategiyası əmtəənin aşağı qiymətinə və satışın stimullaşdırılmasına çəkilən xərclərin az olmasına əsaslanan strategiyadır. Bu strategiya özünü o vaxt doğruldur ki, ehtiyacın səviyyəsi əsasən qiymətlə müəyyənləşdirilir. Marketinqə çəkilən xərcələrin aşağı olması satışın kifayət qədər mənfəətli olmasını təmin edir. Belə strategiyanın həyata keçirilməsinin əsas şərtləri:

- bazarın tutumu böyük olduqda;
- alıcılar əmtəə haqqında çox geniş məlumata malik olduqda;
- istehlakçılar bahalı əmtəələri almaqdan imtina etdikdə;
- rəqabət qorxusu cüzi olduqda.

Şirkətlərdə marektinq strategiyasını tətbiq edərkən diqqətli olmalı və biznesin ümumi strategiyası ilə üst üstə düşməsini təmin etməliyik. Əks halda görülən bütün fəaliyyətlərin nəticəsində istədiyimiz nəticələri almaya bilərik. Bunun üçün aşağıdakı addımlara diqqət etməliyik.

İlk öncə şirkətin ümumi biznes strategiyasını mənimsəməliyik. Bu onun üçün vacibdir ki, bununla şirkətin hansı hədəflərə doğru getdiyini görmək rahat olsun. Eyni zamanda şirkətin digər fəaliyyətləri ilə də tanış olmaq üçün biznes strategiyasını ilkin mərhələdə bilmək uğurlu addımdır.

Daha sonra isə marektinq araşdırması aparmaq, bazarı analiz etmək, rəqibləri tanımaq və müştərilərin fikirlərini aşkarlamaq və beləliklə, hansı üstün və zəif tərəflərimizin olduğunu bilmək, fəaliyyətləri qurarkən hansı detallara fikir veməli lazım olduğumuzu aşkarlamaq lazımdır.

İnnovasiyalı məhsulun və markalaşmanın tam formalaşdırılması mərhələsində isə məhsulumuzu yaxşı analiz etməli əksik tərəflərini aradan qaldırmalı və üstün tərəflərini biraz daha möhkəmləndirməliyik. Eyni zamanda markalaşma detallarına fikir verməli və markanı öz seqmentimizə uyğun olaraq logo, sloqan, paketləmə və s. kimi markalaşma detalları ilə təmin etməliyik. [7]

Məhsulun qiymətləndirmə strategiyasını edə bilmək üçün mütləq rəqiblərin məhsullarını tanımaq və qiymətlərini bilmək lazımdır. Eyni zamanda müştəri fikirlərinin öyrənilməsi də vacibdir.

Növbəti mərhələdə şirkətimizi əsas hədəfə aparacaq bütün kampaniyaları və layihələrini özündə birləşdirən marketinq kommunikasiya planının hazırlanması gərəklidir. Seçilən kommunikasiya kanalları, onlardan istifadə, nə qədər büdcə ayrılacağı, hansı kommunikasiya kanalında hansı fəaliyyətlər ediləcəyi və bu fəaliyyətlərin zamanlaması planlaşdırılmalıdır.

Nəticə

Beləliklə, innovasiyalı məhsullar bazarında marketinq strategiyasının hazırlanmasının məqsədi hal-hazırda və gələcəkdə firmanın imkanları ilə rəqabətli bazar şərtləri arasında uyğunluğun yaradılmasıdır. Marketinq strategiyasının mərkəzində təkcə firmanın resurslarının profili deyil, həm də onun qarşılaşdığı mühitin tənqidi qiymətləndirilməsinə olan ehtiyac durur.

İnnovasiya fəaliyyətində müasir marketinq yanaşmaları və marketinq strategiyası strateji xarakterə malikdirlər. İnnovasiyalı məhsullar bazarında marketinq strategiyası hazırlayarkən hər şeydən əvvəl, şirkətin hal-hazırdaki vəziyyətini, müştəri bazasını və sektorun böyüklüyünü göstərən ümumi bir analiz edilməlidir. Bu analizin məqsədi, innovasiyalı məhsulların sektorda hansı mövqədə olduğunu müəyyənləşdirmək və eyni zamanda şirkətin performansına müsbət mənada təsir göstərəcək ən doğru strategiyanı seçməkdir

Marketinq strategiyası peşəkarlar tərəfindən yazılmalıdır. Eyni zamanda marketinq strategiyasının hər bir detalı diqqətli və məqsədli formada bir vizyon üçün hazırlanmalıdır. Səmərəli marketinq strategiyasının yaradılması kompaniyanın potensial imkanları ilə yanaşı-rəqiblərə nisbətən onun zəif və güclü tərəfləri, ətraf mühitinin yaratdığı imkan və təhlükələrin yaradıcı və ətraflı qiymətləndirilməsi ilə xarakterizə olunur.

Ədəbiyyat siyahısı

1. İslam İbrahimov, Kərim Kərimov. Sənayedə investisiya və innovasiya fəaliyyəti, (Dərs vəsaiti), Bakı 2017.

2. İbad Abbasov, Təbriz Əliyev. Qeyri-neft sənayesinin iqtisadiyyatı, (Dərslik), Bakı 2018.

3. Doç. Dr. Osman Nuri Aras, Elçin Süleymanov. Azərbaycan iqtisadiyyatı, Bakı 2010.

4. G.A.Əzizova. Dövlətin investisiya və innovasiya siyasəti, (Dərs vəsaiti), Bakı 2012.

5. http://www.stat.gov.az/

6. http://senaye.gov.az/

7. http://economy.gov.az/

AZƏRBAYCANDA İNVESTİSİYA VƏ İNNOVASİYA SİYASƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

Əliyev R.R. t.f.d., dos.
Mingəçevir Dövlət Universiteti
rovshan36@mail.ru

Azərbaycan iqtisadiyyatının yüksəldilməsi bilavasitə ölkədə texnoloji inkişafın perspektivləri ilə bağlıdır. Bu problemin mürəkkəbliyi ondan ibarətdir ki, davamlı texnoloji prosesi təmin etmək üçün yalnız onun təkcə əsas istiqamətlərini müəyyən etmək yox, eyni zamanda texnoloji səviyyəsini qiymətləndirmək lazımdır**.**

Dövlət investisiya siyasəti uzunmüddətli məqsədlər və ölkə iqtisadiyyatının inkişaf məqsədləri kontekstində formalaşmalıdır. İqtisadi təhlükəsizlik baxımından ayrı-ayrı investisiya layihələrinə və proqramlarına dövlət dəstəyinin obyektiv meyarlarının işlənib hazırlanması zəruridir. Bundan başqa, investisiya prosesinin dəqiq idarəetmə mexanizmi lazımdır. Dövlət dəstəyinin strukturu və ünvanı dövlətin ayrı-ayrı sahələrinin inkişafının prioritet istiqamətlərini müəyyən edən çevik sənaye siyasətinə əsaslanmalıdır. Müasir şəraitdə dövlət investisiya siyasəti əsaslı qoyuluşların əhəmiyyətli payının özünümaliyyələşdirməsi, maddi-texniki ehtiyatlar bazarlarının mexanizmlərinin və infrastrukturunun inkişafı, investisiya prosesinin iştirakçıları arasında münasibətlərin müqavilə və geri qaytarılma sistemlərinin prinsiplərinə əsaslanmalıdır. Bununla yanaşı, bir sıra proqramlar dövlət dəstəyi tələb edəcək [1].

İlk növbədə, sahələrarası təkrar istehsal prosesinin əsas prinsipləri müəyyən edilir. Sonra hər bir sahə qrupu üzrə daha konkret olaraq bir sıra investisiya prosesləri və proqramları nəzərdə tutulur. İnvestisiyaların prioritet istiqamətlərini təmin etmək üçün xarici və yerli kapitalın sərmayələri də daxil olmaqla əsas investisiya mənbələrini əsaslandırmaq lazımdır. Dövlətin investisiya və iqtisadi təhlükəsizliyinin təmin edilməsi baxımından dövlət investisiya siyasətinin səmərəliliyinin artırılması bütövlükdə aşağıdakı prinsiplərin həyata keçirilməsi zamanı mümkündür:

1. Müəssisələrin aktivlərinin bazar qiymətləndirilməsi üçün şəraitin yaradılması;
2. Qeyri-kommersiya risklərdən investisiyaların sığortalanması üçün şəraitin yaradılması;
3. İnvestisiya prosesinin ardıcıl mərkəzsizləşdirilməsi, o cümlədən müxtəlif mülkiyyət formalarının inkişaf etdirilməsi;
4. Müəssisələrin investisiya layihələrinin maliyyələşdirilməsi üçün daxili (öz) yığım mənbələrinin rolunun artırılması;
5. Qeyri-inflyasiya yığım mənbələrinin (müəssisələrin və əhalinin əmanətlərinin daxili yığım mənbələrinin) rolunun artırılması;
6. İnvestisiya proqramları və layihələrinin birgə (pay) dövlət-özəl maliyyələşdirilməsi təcrübəsinin əhəmiyyətli dərəcədə genişləndirilməsi;
7. Dövlət büdcəsindən bütün səviyyələrdə, əsasən, geri qaytarılan əsasda kreditləşmənin aparılması;
8. Dövlət büdcə vəsaitlərinin məqsədli xərclənməsi üzərində dövlət nəzarətinin gücləndirilməsi;
9. Xarici investisiyaların cəlb edilməsini stimullaşdırmaq məqsədi ilə normativ bazanın təkmilləşdirilməsi.

Dövlət investisiya siyasətində prioritetlərin işlənib hazırlanması problemi hökumətin fəaliyyətinin ən vacib istiqamətlərindən biri olmalıdır və iqtisadiyyatın real sektorunun fəallaşmasına istiqamətlənməlidir. Buna görə də, dövlət resurslarının məhdudluğunu nəzərə alaraq, iqtisadiyyatın real sektorunda multiplikator effekti yaradan mexanizmin işə salınması üçün ilk növbədə istehsal sahələrini müəyyən etmək lazımdır. Multiplikativ effektlər ödəniş qabiliyyətli tələbatı və iş yerlərinin sayını artırır, vergi bazasının fəaliyyətinə müsbət təsir edir və son nəticədə iqtisadiyyatın canlanmasına və sonrakı mərhələdə yüksəlməsinə səbəb olur.

İnvestisiya proqramlarına dövlət tərəfindən dəstək verilməsi barədə qərarlar qəbul edilərkən bazara çıxarılacaq məhsul və ya xidmətlər növlərinə ödəniş qabiliyyətli tələbatın artması perspektivləri nəzərə alınmalıdır.

İnvestisiya fəaliyyətinin dövlət tənzimlənməsi müxtəlif formalarda həyata keçirilir:

- investisiya-innovasiya prosesinin iştirakçılarının münasibətlərinin tənzimlənməsini və maraqlarının müdafiəsini təmin edən qanunların və digər normativ-hüquqi aktların qəbul edilməsi (bu sahədə bir sıra qanunlar qəbul edilib, lakin fəaliyyətin hüquqi təminatı natamam və qeyri-kamildir ki, bu da investisiya axınının qarşısını alır);
- iqtisadi təhlükəsizlik göstəriciləri nəzərə alınmaqla, milli və regional prioritetlərin müəyyən edilməsi ilə uzunmüddətli investisiya strategiyasının işlənib hazırlanması;
- sosial, iqtisadi, elmi, müdafiə və digər bu kimi obyektlərin birbaşa maliyyələşdirilməsi;
- amortizasiya, vergi, gömrük və digər siyasət vasitəsilə investisiya prosesinə dolayı təsir göstərilməsi;
- dövlət və regional səviyyədə investisiya və innovasiya siyasətinin prioritetləşdirilməsi [2].

Regional təsərrüfat sisteminin digər sahələrinin iqtisadiyyatın prioritet sahələri üçün təmir-xidmət, maşınqayırma və digər məhsulların istehsalına yönəldilməsinə kömək edən regional investisiya siyasətinin həyata keçirilməsi zəruridir. Azərbaycanda fəaliyyət göstərən bir neçə texnoparkların təcrübəsi göstərir ki, əlverişli investisiya mühitinin yaradılması investisiya axınını stimullaşdırmaqla yanaşı, eyni zamanda dövlət büdcəsinə vergi daxilolmalarını da müsbət təsir göstərir.

Səmərəli dövlət innovasiya və investisiya siyasəti əsasında yerli məhsulların rəqabət qabiliyyəti artır, davamlı iqtisadi artıma nail olunur, əhalinin həyat səviyyəsi yaxşılaşır, ölkənin müdafiə, texnoloji və iqtisadi təhlükəsizliyi təmin edilir.

Dövlət innovasiya siyasətinin əsas məqsədləri aşağıdakılardır:

- innovasiya fəaliyyəti üçün rəqabət qabiliyyətli yerli məhsulların artımını təmin edən iqtisadi, hüquqi və təşkilati şəraitin yaradılması, elmi-texniki tədqiqatlardan səmərəli istifadə edilməsi, sosial-iqtisadi inkişaf məsələlərinin həll edilməsi;
- elmi-texniki potensialdan səmərəli istifadə, rasional yerləşdirmə və onun inkişaf etdirilməsi, onun strukturunun formalaşdırılması;
- ölkə iqtisadiyyatının inkişafı, mühüm sosial vəzifələrin həyata keçirilməsi, maddi istehsal sahəsində mütərəqqi struktur dəyişikliklərinin təmin edilməsi, onun səmərəliliyinin və rəqabət qabiliyyətinin artırılması, müdafiə qabiliyyətinin gücləndirilməsi, şəxsiyyət, cəmiyyət və dövlətin təhlükəsizliyinin möhkəmləndirilməsi [3].

Qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün dövlət tərəfindən innovasiya siyasətinin aşağıdakı məsələlərinin həll edilməsi məqbul hesab edilir:

- dövlət innovasiya siyasətinin prioritetlərinin müəyyən edilməsi və onun həyata keçirilməsi;
- innovasiya fəaliyyətinin yaradılması və inkişaf etdirilməsi;
- beynəlxalq bazarda innovasiya məhsullarının dəstəklənməsi və xarici iqtisadi innovasiya fəaliyyətinin inkişafı üzrə tədbirlərin həyata keçirilməsi;
- innovasiya fəaliyyətinin inkişafında elmin, təhsilin, istehsalın və maliyyə-kredit sahəsinin qarşılıqlı əlaqələrnin təmin edilməsi.

Dövlət tərəfindən innovasiya siyasətinin əsas müddəalarının həyata keçirilməsi üçün istehsal müəssisələrində innovativ proseslərin dəstəklənməsini təmin edən fondlar yaradılmışdır.

Beləliklə, sənaye istehsalının davamlı inkişafını təmin etmək üçün dəqiq Dövlət İnnovasiya və İnvestisiya siyasəti formalaşdırılmalıdır.

Ədəbiyyat

1. Алиев Р.Р. Инвестиционная обстановка в Азербайджане. – М. //Экономика и производства. №4, 2002

2. Гордиенко Д.В. Основы экономической безопасности государства. – М.: Финансы и статистика, 2009. – 224 с.

3. Государственная экономика: факторы роста / А.Г.Зельднер, И.А. Ваславская, В.К. Южелевский и др.; Ин-т экономики. – М.: Наука, 2003. – 214 с.

AZƏRBAYCANDA İNNOVASİYA FƏALİYYƏTİNİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

AğayevYusif Ariz oğlu
Azərbaycan Kooperasiya Universiteti

Xülasə

Müasir iqtisadi inkişafın əsas təkanverici qüvvələrindən biri kimi innovasiya fəaliyyəti çıxış edir. Azərbaycan Respublikasında innovasiya fəaliyyətinin inkişafına olan diqqət artmaqdadır. Bu sahənin inkişaf zərurətləri nəzərə alınaraq tezisdə innovasiya fəaliyyətinin inkişafı ilə bağlı əsas baxışlar irəli sürülmüşdür.

Açar sözlər: innovasiya fəaliyyəti, iqtisadi siyasət, hüquqi baza.

İnnovasiya fəaliyyətinin tənzimlənməsi Azərbaycan Respublikasında dövlətin iqtisadi siyasətinin əsas tərkib hissəsi kimi çıxış edir. Ölkədə son on ildə sosial-iqtisadi inkişafın təmin edilməsi ilə bağlı zəruri normativ-hüquqi baza yaradılmış, innovasiya fəaliyyətinin genişləndirilməsinə olan diqqət artırılmışdır. Bununla yanaşı, qlobal iqtisadi inkiaşla ayaqlaşmaq üçün mühüm əhəmiyyət kəsb edən innovasiya fəaliyyəti və siyasəti, onun hüquqi əsaslarının təkmilləşdirilməsinə olan ehtiyac artmaqdadır. Belə ki, bu sahədəki siyasətə uyğun olaraq ölkədə investisiya - innovasiya mühitinin daha da yaxşılaşdırılması üçün vacib addımların atılması zəruri hesab olunur. "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə Elmin inkişafı üzrə Milli Strategiya"da innovasiya fəaliyyəti infrastrukturunun inkişaf etdirilməsi, o cümlədən texnoparklar, texnoloji mərkəzlər, biznes inkubatorları şəbəkəsinin genişləndirilməsi bir vəzifə kimi qarşıya qoyulmuşdur. Azərbaycanda innovasiyalı iqtisadiyyatın inkişaf tələbi köklü və əsaslı islahatların, tədbirlərin həyata keçirilməsini də ön plana çəkir. Belə iqtisadiyyatı yaratmaq ilk növbədə, bu sahədə konkret olaraq əsaslandırılmış, orta və uzun müddətə hədəflənmiş syasətin, strategiyannın, hüquqi bazanın və tənzimləmə mexanizmlərinin yaradımasını tələb edir. İnnovasiya fəaliyyətinin və siyasətinin hüquqi əsaslarını təmin edəcək əsas sənədlərədn biri kimi "Azərbaycan - 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası" öz əhəmiyyətliliyi ilə çıxış edir [1]. Bu konsepsiya və ondan sonra qəbul olunan digər hüquqi sənədlərdə innovasiya fəaliyyətinin müasir tələblər üyğun inkişafının qloballaşma şəraitində baş verməkdə olan davamlı dəyişikliklər ilə bağlılığı əsaslandırılır. İnnovativ inkişafın keyfiyyətcə yeni müstəvidə genişlənməsi dünyada təsərrüfat sistemində baş verən ciddi dəyişmə meyilləri, innovativ ixtira və yeniliklərin sürətlə yayılması, onların tətbiqi sahəsinin böyüməsi ilə də sıx bağlıdır.

Ölkədə qəbul olunan hüquqi əsaslar hələ ki, innovativ inkişaf və bu sahədəki fəaliyyətin genişlənməsi üçün qaneedici səviyyədə deyildir. Belə ki, bu sənədlərdə innovasiyaların təşkili və tənzimlənməsinə dəsətk verək müasir mexanizm və alətlərin geniş tətbiqinə ehtiyac hiss olunur. Həmçinin, hüquqi bazada innovasiya fəaliyyətinin bir sahə kimi inkişafı və onların tətbiq imkanlarının stimullaşdırılmasına da diqqətin artırılması vacib hesab olunur. Bu sahə yeni bir istiqamət kimi çıxış edir, bu baxımdan ölkədə onun təşkili və tənzimlənmə sisteminin müasir tələblərə uyğun qurulması önəmli hesab olunmalıdır. Xüsusilə də innovasiya fəaliyyəti ilə bağlı tərəflərin hüquq və vəzifələri, bu sahədəki funksional fəaliyyət, məsuliyyət meyyarları, kordinasiya kimi məqamların hüquqi müstəividə daha əsaslandırılmış şəkildə ifadə xüsusi zərurətdən çıxış edir. Göstərmək lazımdır ki, innovasiya, innovasiya fəaliyyəti ilə bağlı baxış və müddəalar ölkədə son on ildə qəbul edilən bir sıra konseptual sənədlərdə, strateji yol xəritələrində və dövlət proqramlarında öz əksini tapır []. Hesab edirik ki, bütün bu kimi mühüm baxşların hüquqi və iqtisadi-elmi əsaslandırılmış formasının vahid qanunvericilk bazasında birləşdirilməsinə ehtiyac vardır. Eyni zamanda, innovasiya fəaliyyəti ilə bağlı digər hüquqi müddalarında müasir tələblərlə uzlaşan sisteminin, o ümlədən təşkil və tənzimləyici məqamlarının da belə qanunvericilik bazasında əks olunması məqsədəuyğun olar.

Azərbaycanda innovasiya fəaliyyəti baxımından önəmli olan hüquqi sənədlər qəbilinə aid olan "Xarici investisiyaların qoruması haqqında", "İnvestisiya fəaliyyəti haqqında", "Haqsız rəqabət

haqqında", "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", "Təhsil haqqında" və digər qanunlarda, "Mülki Məcəllə" və "Vergi Məcəllə"sində bu fəaliyyətin təşənzimlənməsini baxımdan önəmli zəruri müddəalar, icra, tənzimləyici, nəzarət, maliyyələşmə, stimullaşdırma kimi mexanizmlər öz əksini tapmamışdır. Müvafiq hüquqi sənədlərin özündə isə dünyada son dövrdə baş verən proseslərlə bağlı əsaslı şəkildə təkmilləşməyə ehtiyac hiss olunur. Digər tərəfdən, innovasiya, innovasiya fəaliyyəti üçün xüsusi əhəmiyyət kəsb edən "Rəqabət Məcəlləsi" üzərində artıq uzun müddəndər artıq işlənməsinə baxmayaraq, onun qəbulu mümkün olmamışdır.

"Azərbaycan - 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası" birbaşa innovasiya siyasətini, bu sahədə hüquqi bazanı təşkil etməsədə, burada innovasiyalı cəmiyyətin, innovasiya fəaliyyətinin inkişafı ilə bağlı perspektiv istiqamət hədəflərini müəyyən edən bir çox müddəalar vardır [1]. Belə yanaşma bir sıra dövlət proqramlarında da diqqəti cəlb edir [5; 6]. Lakin müasir təcrübə göstərir ki, müvafiq sənədlərdə sosial-iqtisadi, innovasiyalı inkişafla bağlı hədəflər, çağırışlar, nəqliyyat, tranzit və logistika infrastrukturunun təkmilləşdirilməsi, bölgələrin tarazlı inkişafı, informasiya-kommunikasiya texnologiyalarının inkişafı və informasiyalı cəmiyyətə keçidin təmin olunması, insan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması, qanunvericiliyin təkmilləşdirilməsi və institusional potensialın gücləndirilməsi, vətəndaş cəmiyyətinin inkişaf etdirilməsi, mədəni irsin qorunması və səmərəli idarə edilməsi, ətraf mühitin qorunması kimi məsələlər öz lazımı əksini tapmamışdır. Hesab etmək olar verir ki, belə sənədlər həm də əhatə dairəsi, icra mexanizmi, kordinasiya sistemi və maliyyələşmə məbələri kimi mühüm məsələlərlə bağlı daha əhatəli və həyata keçirilməsi baxımdan konkret əsaslandırmalarla hazırlanmalıdır.

Müasir təcrübə göstərir ki, innovasiya sahəsində həyata keçirilməli olan siyasət və strategiya hər bir ölkənin inkişafına yönəlməklə yanaşı, ciddi kordinasiyaya malik olmalıdır [2; 3; 4].. Belə kordinasiya həm də ölkədə müəyyən olunan iqtisadi siyasətlə uzlaşdırılmalı, həyata keçirilən strategiya və dövlət proqramları ilə tam şəkildə bağlı olmalıdır. İnnovasiya üzrə müəyyən edilən strateji xətt və siyasət ölkənin sosial-iqtisadi inkişafına xidmət etməklə, nəticədə müasir informasiyalı cəmiyyətin və iqtisadiyyatın yaradılmasına istiqamətlənməlidir.

Azərbaycan Respublikasında innovativ inkişafın sürətlənməsi, bu sahədəki fəaliyyətin tənzimlənməsi və inkişafı ilə bağlı olan vacib hüquqi bazanın yaradılmasına ciddi ehtiyac vardır. Belə ki, ilk öncə, innovasiya haqqında və ya innovasiya fəaliyyəti haqqında müasir təcürbə ilə səsləşən hüquqi sənədlərin qəbulu xüsusi zərurətdən çıxış edir. Belə hüquqi baza iqtisadi inkişafın sürətləndirilməsində innovasiya fəaliyyətinin daha fəal iştirakı üçün yeni imkanlar açar. Eyni zamanda, innovasiya yönümlü məhsul istehsalı və xidmətlərin göstərilməsinin vacib hüquqi təminatını yaratmaqla, subyektlərin bu sahədəki baxışlarının dəyişməsinə təsir edər.

Azərbaycanda son on ildə aparılan iqtisadi siyasət və həyata keçirilən islahatlar ilə yanaşı, innovasiya yönümlü zəruri hüquqi bazanın yaradılması makroiqtisadi göstəricilərin daha da yaxşılaşmasına, yeni iş yerlərinin yaradılmasına və qeyri-neft sektorunun ixrac potensialının artmasına müsbət təsir göstərər. İnnovasiya fəaliyyətinin müasir tələblərə uyğun inkişafının təşkili və tənzimlənməsi Azərbaycan Respublikasında daim diqqət mərkəzində saxlanılmalıdır. Belə fəaliyyət sahəsinin təşkili, tənzimlənməsi və inkişafı baxımından hələ kifayət qədər tədbirlərin həyata keçirilməsinə ehtiyac vardır. Müvafiq tədbirlərin həyata keçirilməsində bazar amilləri də önəmli rol oynamlı, bu sahədə dövlətətin rolu daha da artırılmalıdır. İnnovasiya fəaliyyətinin inkişafı baxımından müvafiq məsələlərə xüsusi diqqət yetirilməsi məqsədəuyğundur:

- Elmi-texniki və innovasiya istiqamətli fundamental və praktik tədqiqatların genişləndirilməsi;
- İnnovasiya fəaliyyəti ilə bağlı maliyyələşmə mənbələrinin müəyyən olunması;
- İnnovasiya sahəsində stimullaşdırıcı tədbirlərin tətbiqinin təkmilləşdiirlməsi;
- Müvafiq sahədə yüksək ixtisaslı və peşəkar kadr və mütəxəssislərin hazırlanması;
- İnnovasiya fəallığının yüksədilməsinə yönələn zəruri proqramların hazırlanması;
- Elm və innovasiya fəaliyyətinin səmərəli təşkili, bu sahələrlə milli təsərrüfat subyektləri, müəssisələri, ali təhsil müəssisələri arasında kooperativ və səmərəli tənzimləyici əlaqənin yaradılması;

➢İnnovasiya fəaliyyətinin regional inkişafına diqqətin artırılması;

➢İnnovasiya fəaliyyətinin tənzimlənməsi və inkişafı ilə bağlı təkmil hüquqi bazanın formalaşması;

➢İnnovasiya sahəsində milli və beynəlxalq kordinasiya mexanizminin təşkili.

İstifadə olunan mənbələr

1. "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası". Bakı, 2012.

2. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi". Bakı, 2016. http://www.president.az/articles/17670.

3. "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi". Bakı, 2016. http://www.president.az/articles/17670.

4. "Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi". Bakı, 2016. http://www.president.az/articles/17670.

5. Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı". Bakı, 2015. http://www.president.az/articles/17670.

6. "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı". Bakı, 2019. http://www.president.az/articles/17670.

Направления развития инновационной деятельности в Азербайджане

Резюме

Одной из основных движущих сил современного экономического развития выступает инновационная деятельность. В Азербайджанской республике растет внимание к развитию инновационной деятельности. Учитывая необходимость развития данной сферы, в дипломной работе были выдвинуты основные взгляды на развитие инновационной деятельности.

Ключевые слова: инновационная деятельность, экономическая политика, правовая база.

Development directions of innovation activity in Azerbaijan

Summary

Innovation is one of the main driving forces of modern economic development. The attention to the development of innovative activity in the Republic of Azerbaijan is growing. Taking into account the development needs of this area, the thesis presented the main views on the development of innovation activity.

Keywords: innovation activity, economic policy, legal base.

MÜƏSSİSƏNİN DAVAMLI İNKİŞAFININ VƏ İNNOVATİV İQTİSADİYYATIN QARŞILIQLI ƏLAQƏSİNİN FORMA VƏ METODLARI

Mahmudova Lalə Fəqail qızı
Kafedra müdiri, dosent
Sumqayıt Dövlət Universiteti
mahmudovalala2021@mail.ru

Xülasə: *Məqalədə müəssisənin davamlı inkişafı və innovativ iqtisadiyyat anlayışları təsvir edilmişdir, müəssisənin davamlı inkişafının və innovativ iqtisadiyyatın əsas istehsal-iqtisadi, təşkilati-texniki və sosial-ekoloji göstəricilərinə baxılmışdır, onların qarşılıqlı əlaqəsinin əsas məqsədləri, forma və metodları açıqlanmışdır.*

Hal-hazırda, müəssisələrin qarşısında duran çoxsaylı xarici və daxili problemlər, onların bazarda mövcudluğunu sual altında qoyur, davamlı olaraq öz fəaliyyətlərini davam etdirmək imkanlarını məhdudlaşdırır. Sənaye müəssisələrində innovasiyaların tətbiqi problemlərinin həlli

yolları bir çox məsələlərin, həmçinin iqtisadiyyatın onurğa sütununu təşkil edən sənayenin əsas fondlarının yenilənməsi ilə əlaqədardır. Beləki, 2017-ci ildə ölkəmizdə mövcud olan əsas fondların dəyəri 104644,5 milyon manat təşkil edirdisə, 2018-ci ildə bu rəqəm 109 611,3 milyon manat, 2019-cu ildə isə 131762,2 milyon manat olmuşdur [1].

Müasir dövrdə iqtisadiyyatın modernləşdirilməsinin əsas yollarından biri innovasiya sənayesinin yaradılmasına, əmək bölgüsünün ağırlaşmasına, keyfiyyət dəyişikliklərinə, davamlı inkişafa əsaslanan yoldur. Buna görə, təşkilati-texniki, ekoloji-iqtisadi və sosial innovasiyaların daimi tətbiqinə istiqamətlənmiş, qarşılarına davamlı inkişafa nail olmağı bir vəzifə kimi qoymayan müəssisələr bazardan daha aktiv və məqsədəuyğun fəaliyyət sərgiləyən rəqiblər tərəfindən sıxışdırılırlar. Müəssisənin davamlı inkişafı dedikdə, hətta əlverişsiz xarici və daxili təsirlər şəraitində müəssisənin nəinki qarşıya qoyduğu məqsədlərə nail olmaga, həm də bütün alt sistemlərinin sabitliyini qorumaga qadir olması başa düşülür. Bu tələb müəssisənin fəaliyyətinin sosial və ekoloji-iqtisadi aspektlərini xarakterizə edən göstəricilərin uzunmüddətli perspektivdə konkret daxili və xarici şərait çərçivəsində balanslaşdırılmasında özünü biruzə verir. Müəssisənin davamlı inkişafının əsas göstəricilərinin siyahısı cədvəl 1-ə verilmişdir [3,4].

Cədvəl 1 **Müəssisənin davamlı inkişafının əsas göstəriciləri**

Fəaliyyətin istehsal-iqtisadi aspektləri	
İstehsal göstəriciləri	**İqtisadi göstəricilər**
istehsal potensialı	satış həcmi və bazar payı
istehsalın davamlığı	marketinq xərcləri
istehsalın rentabelliyi	investisiya aktivliyi
əsas fondların aktiv hissəsinin etibarlığı və yenilənməsi	ödəmə qabiliyyəti və maliyyə asılılığı, aktivlərin çevikliyi
inventarın yetərliyi	ETTKİ-nə investisiyalar və əsas kapital
Fəaliyyətin təşkilati-texnoloji aspektləri	
Texnoloji göstəricilər	**Təşkilati göstəricilər**
Istehsalın enerji tutumu	Idarəetmənin səmərəliliyi
Avadanlıqların mütərəqqi olması və işçilərin əməyinin mexanikləşdirilməsi səviyyəsi	Təşkilati quruluşun səmərəliliyi
Xammal emalının dərinliyi	Rəhbərliyin 1 işçisinə düşən xalis mənfəət
Fəaliyyətin sosial-ekoloji aspektləri	
Sosial göstəricilər	**Ekoloji göstəricilər**
Xammaldan təkrar istifadə	Kadr sabitliyi
Ətraf mühitin çirkləndirilməsi	Işçilərə çəkilən xərclər və əmək haqqı
Tullantısız istehsal	Normal iş şəraitinin təmin olunması
Ətraf mühitə investisiya qoyuluşları	Istehsalatda xəsarətlər və bədbəxt hadisələr
Resurslara qənaət edən texnologiyalardan istifadə	1 nəfər işçiyə düşən əmək haqqı borcu

Innovativ iqtisadiyyatın yaradılması yalnız müəssisə rəhbərlərinin və sahiblərinin deyil, həm də dövlətin başlıca məqsədlərindən biridir. Müəssisə, xalq təsərrüfatının struktur vahidi kimi, sənaye sahələrinin və bütövlükdə ölkə iqtisadiyyatının inkişafına əhəmiyyətli təsir göstərir. Lakin, həm dövlət iqtisadiyyatının, həm də sənaye sahələrinin vəziyyəti maliyyə-kredit, investisiya, istehsal, ekoloji, sosial sahələrin dövlət tənzimlənməsi mexanizmləri vasitəsi ilə müəssisənin davamlı inkişafı üçün şərtləri əvvəlcədən müəyyənləşdirir. Bu dövlətin müəssisənin inkişafına yönəlmiş dəstək tədbirlərinin gələcəkdə milli iqtisadiyyatın artımına səbəb olmaqla müsbət əks əlaqəsinin sinerqetik effektində müşahidə olunur. Bu məsələlərin dərin və hərtərəfli təhlili nəticəsində ölkə rəhbərliyi innovativ iqtisadiyyatın yaradılması hesabına yerli müəssisələrin rəqabətqbiliyyətliliklərinin yüksəldilməsini inkişafın prioritet məqsədləri kimi müəyyənləşdir-mişdir. Ölkəmizdə sənaye sahələrində yeni tətbiq olunan məhsullara çəkilən xərclər 2016-cı ildə 35746,9 min manat, 2017-ci ildə bu rəqəm 14676,7 min manat, 2018-cu ildə 28952,2 min manat, 2019-cu ildə 21698,1 min manat olmuşdur. Təkmilləşdirilmiş məhsullara çəkilən xərclər 2016-cı

ildə 540,9 min manat, 2017-ci ildə bu rəqəm 383,8 min manat, 2018-cu ildə 855,3 min manat, 2019-cu ildə 3905,9 min manat olmuşdur [2].

Innovativ iqtisadiyyat dedikdə, əsasında təşkilati-texnoloji, istehsal-iqtisadi, ekoloji-sosial fəaliyyət sahələrində fasiləsiz innovasiya axını duran müəssisələrin, dövlətin və cəmiyyətin iqtisadi tipi başa düşülür. Eyni zamanda innovativ iqtisadiyyat çərçivəsində əlavə dəyər sənaye iqtisadiyyatının mövcud imkanları və maliyyə kapitalının konsentrasiyası hesabına deyil, intellektual iqtisadiyyatı formalaşdıran intellektual kapital hesabına yaradılır. Beləliklə, insanın intellektual kapitalının transformasiyası həm ayrı-ayrı müəssisələrin, həm də bütövlükdə ökənin rəqabət üstünlüklərinin mənbəyinə çevrilir. Innovativ iqtisadiyyatın əsas göstəricilərinin siyahısı cədvəl 2-ə verilmişdir [3,4].

Cədvəl 2 **İnnovativ iqtisadiyyatın əsas göstəriciləri**

Fəaliyyətin istehsal-iqtisadi göstəriciləri	
Texnoloji innovasiyalara yönələn xərclərin ümumi istehsal xərclərinin həcmində payı	Yüksək texnoloji sektorun ÜDM-ki payı və iqtisadiyyatın innovativ sektorunun əlavə dəyəri
Iqtisadiyyatın və qiymətlərin artım tempi	Innovativ məhsulların ümumi məhsul buraxılışında və ixracında payı
Fəaliyyətin təşkilati-texniki göstəriciləri	
Texnoloji və təşkilati innovasiyaları həyata keçirən sənaye təşkilatlarının payı	ETTKİ çəkilən xərclər və ehtiyatlardan istifadə dərəcəsi
Ixtiraçılıq fəaliyyəti	Əmək məhsuldarlığının səviyyəsi
Fəaliyyətin sosial-ekoloji göstəriciləri	
Əhalinin real gəlirləri, mənzillə təmin olunma səviyyəsi, ümumi işsizlik	Ekologi baxımdan əlverişsiz ərazilərdə yaşayan insanların sayı
Təhsil və səhiyyə çəkilən xərclər	Zərərli maddələrlə ətraf mühitin çirklənməsi səviyyəsi

Texnoloji yeniliklərin uğurlu tətbiqi və səmərəli istifadəsi, habelə zəruri təşkilati infrastrukturun yaradılması ilə bağlı məsələlərin həlli və sosial-iqtisadi problemlərin aradan qaldırılması müəssisənin davamlı inkişafının və innovativ iqtisadiyyatın qarşılıqlı əlaqəsinin əsas məqsədlərinə aiddirlər. Innovativ iqtisadiyyat müəssisənin davamlı inkişafının əsasını təşkil etdiyinə görə innovativ iqtisadiyyatın əsasını təşkil edən göstəricilər davamlı inkişaf göstəricilərinə birbaşa təsir göstərir.Innovativ iqtisadiyyat göstəriciləri ilə müəssisənin davamlı inkişaf göstəriciləri arasında qarşılıqlı əlaqə cədvəl 3 verilmişdir [3,4].

Cədvəl 3 **Innovativ iqtisadiyyat göstəriciləri ilə müəssisənin davamlı inkişaf göstəriciləri arasında qarşılıqlı əlaqə**

Innovativ iqtisadiyyatın göstəriciləri	**Müəssisənin davamlı inkişafının göstəriciləri**
İstehsal və iqtisadi fəaliyyət göstəriciləri	
Innovativ məhsulun ümümi məhsul istehsalı və ixracının həcmində payında	Istehsal potensialı, satış həcmi və bazar payı, istahsalın davamlığı və rentabelliyi, aktivlərin çevikliyi, investisiya aktivliyi, əmtəə ehtiyatlarının dövriyyəsi
Ümumi istehsal xərclərinin həcmində texnoloji innovasiya xərclərinin payı	Istehsal potensialı, istahsalın davamlığı və rentabelliyi, əsas fondların aktiv hissəsinin yararlılıq və yenilənmə səviyyəsi
Iqtisadiyyatın və qiymətlərin artım tempi	Müəssisənin ödəmə qabiliyyəti, maliyyə asılılığı, marketinq xərcləri, satış həcmi və bazar payı, əmtəə ehtiyatlarının dövriyyəsi
Yüksək texnoloji sektorun ÜDM payı və iqtisadiyyatın innovativ sektorunun yaratdığı əlavə dəyər	ETTKİ-nə investisiyalar, əsas kapitala investisiyalar, investisiya aktivliyi
Fəaliyyətin təşkilati-texniki göstəriciləri	
Təşkilati və texnoloji innovasiyaları həyata keçirən sənaye təşkilatlarının payı	Idarəetmənin səmərəliliyi, təşkilati strukturun qənaətliliyi, rəhbərliyin 1 işçisinə düşən xalis mənfəət
ETTKİ-nə çəkilən xərclər və onlardan istifadə dərəcəsi, əmək məhsuldarlığı və	Avadanlıqların müasirliyi, istehsalın enerji tutumluğu və xammalın emal səviyyəsi

yaradıcılıq aktivliyinin səviyyəsi	
Fəaliyyətin sosial-ekoloji göstəriciləri	
Əhalinin real gəlirləri, mənzillə təmin olunma səviyyəsi, ümumi işsizlik	Kadr sabitliyi, işçilərə çəkilən xərclər və əmək haqqı, 1 nəfər işçiyə düşən əmək haqqı borcu, normal iş şəraitinin təmin olunması
Təhsil və səhiyyə çəkilən xərclər	Istehsalatda xəsarətlər və bədbəxt hadisələr, işçilərə çəkilən xərclər, normal iş şəraitinin təmin olunması,
Zərərli maddələrlə ətraf mühitin çirklənməsi səviyyəsi, ekologi baxımdan əlverişsiz ərazilərdə yaşayan insanların sayı	Ətraf mühitin çirklənməsi, tullantısız istehsal, tullantıların təkrar emalı, resurslara qənaət edən texnologiyalardan istifadə, ətraf mühitə investisiyalar

Hal-hazırda müəssisənin davamlı inkişafının və innovativ iqtisadiyyatın bir necə qarşılıqlı əlaqə forması mövcuddur. Inkişaf etmiş ölkələr müəssisənin davamlı inkişafının və innovativ iqtisadiyyatın qarşılıqlı asılılıq formalarını rəhbər tuturlar. Davamlı inkişaf həm ilkin şərt, həm də innovativ iqtisadiyyatın nəticəsi kimi qəbul edilir. Ilk yanaşma istehsalın inkişafının daxili qanunauyğunluqlarına yönəlmişdir, yəni texnoloji innovasiyalar - iqtisadi inkişafın mənbəyidir fikrinə əsaslanır və "technology push" – "texnoloji təkan" adlanır. Ikinci istiqamət innovasiyaların potensial istehlakçıların istəkləri ilə, bazarın təziqi altında inkişafı ilə əlaqədardır və "demand pull" –"texnoloji açılış" adlanır. [5].

"Technology push" əməkdaşlıq forması modernləşdirmə yolu ilə innovasiya iqtisadiyyatının formalaşdırılmasını nəzərdə tutur. Dünya liderlərinə uyğunlaşmaq üçün yerli müəssisələr müasir avadanlıqların alınması və ya mütərəqqi texnologiyaların analoqlarının yaradılması üsullarından istifadə edə bilərlər. Bununla da, müəssisələrin davamlı inkişafı üçün zəmin yaratmış olarlar. Bundan sonra davamlı inkişafın hədəfi müəssisənin sosial, ekoloji, iqtisadi cəhətlərini düzgün uygunlaşdlırmaqla zəruri infrastrukturun yaradılmasıdır, bu da öz növbəsində sistemin bütün elementlərini reallaşaçaq təkmilləşmələrə qısa zamanda uyğunlaşmanı təmin edəcək. Əməkdaşlığın bu formasında müəssisənin davamlı inkişafı müəssisənin əsas məqsədi hesab edilir, innovasiyaların tətbiqi isə müəssisənin balanslaşdırılmış inkişafını təmin edən alət kimi qəbul edilir. Qeyd olunan əməkdaşlıq forması xarici texnologiyaların alınması üçün iqtisadi güzəştlərə, kiçik və orta biznesi innovasiya prosesinə cəlb etməyə yönəlmiş investisiya mühitinin formalaşdırılmasına, mütərəqqi texnologiyaların geniş tətbiqi məqsədi ilə zəruri texniki standartların hazırlanmasına istiqamətlənmiş maliyyə və texnoloji üsulların köməyi ilə həyata keçirilir.

Digər tərəfdən, "demand pull" əməkdaşlıq formasına görə innovasiya iqtisadiyyatının yaradılması və müəssisələrin fəaliyyətində innovasiyalardan istifadə onların tətbiqi üçün zəruri infrastrukturun inkişafını qabaqlaya bilməz. Bu səbəbdən ilk növbədə,innovasiyalı inkişafın tələblərinə cavab verən institusional mühit yaradılmalıdır, normativ-hüquqi təminat məsələləri həll edilməlidir, yüksək ixtisaslı mütəxəssislər və sosial infrastruktur hazırlanmalıdır, iqtisadi səmərəlilik və ətraf mühit üçün mümkün nəticələr hesablanmalıdır.Birinci mərhələdə normativ sənədlər işlənib-hazırlanmalıdır, ikinci mərhələdə innovativ iqtisadiyyatın infrastrukturu formalaşmalıdır, üçüncü mərhələdə isə yeni texnologiyalar tətbiq edilməlidir. Bu aspektdə innovativ iqtisadiyyat modernləşdirmə yolu ilə yaradılır və müəssisənin inkişafının məqsədi kimi çıxış edir. Öz növbəsində, dayanıqlı inkişaf innovativ iqtisadiyyatın yaradılmasının zəruri şərti kimi çıxış edir. Bu yanaşma çərçivəsində, müəssisələrin və innovativ iqtisadiyyatın qeyd olunan maliyyə və texnoloji əməkdaşlıq metodları ilə yanaşı təşkilati və sosial-iqtisadi metodları da tətəbiq edilir. Son iki metod sahibkarlıq fəaliyyətinin inkişafına, işçilərin əmək motivasiyasının formalaşmasına, iqtisadi azadlığın və siyasi təhlükəsizliyin yüksək səviyyədə təmin olunmasına yönəlmiş zəruri hüquqi və sosial institutların yaradılmasınından ibarətdir.

Araşdırılan bu iki yanaşma bir birinə zidd deyil. Innovativ iqtisadiyyat, şübhəsiz ki, müəssisənin davamlı inkişafının əsas vasitəsidir. Davamlı inkişaf prosesi sistemin əsas elementlərinin tədricən dəyişdirilməsini nəzərdə tutur, bu da müəssisənin fəaliyyətinin bütün sahələrində innovasiyaların tətbiqini ehtiva edir. Eyni zamanda, innovasiyaların tətbiq ediləcək mühitin əsas sosial-iqtisadi və təşkilati-texniki aspektlərini əvvəlcədən razılaşdırılmadan innovativ iqtisadiyyat və onun əsaslandığı modernləşdirmə prosesi mümkün deyil.

Nəticə

Beləliklə, müəssisənin davamlı inkişafının və innovativ iqtisadiyyatın qarşılıqlı əlaqəsi yalnız istehsal proseslərinin texnoloji səviyyələrinin yüksəldilməsində deyil, həm də buna uyğun olan təşkilati-iqtisadi dəyişikliklərdə özünü göstərir. Uyğun təşkilati-iqtisadi dəyişikliklər öz əksini yeni ictimai institutların, dəyərlərin və davranış normalarının, digər müəssisələrlə, işçilərlə və başqa maraqlı tərəflərlə etibarlı əlaqələrin yaradılmasında tapır. Bu səbəbdən müəssisənin davamlı inkişafının və innovativ iqtisadiyyatın qarşılıqlı əlaqəsinin və qarşılıqlı asılılığının artırılması üçün yalnız istehsalın və satışın daima artmasına istiqamətlənmədən imtina etmək, müəssisənin sosial və ekoloji inkişafına üstünlük vermək lazımdır. Buna görə, modernləşdirmə innovativ iqtisadiyyatın formalaşdırılmasının ilkin şərtlər sistemi kimi iqtisadi artımın və davamlı inkişafın zəruri şərtidir, çünki yalnız iqtisadi, sosial, ekoloji innovasiyaların köməyi ilə davamlı və uzunmüddətli fəaliyyət həyata keçirmək mümkündür.

Ədəbiyyat

1. Azərbaycan rəqəmlərdə.Statistik məcmuə, Bakı, 2021, 220 s.
2. Azərbaycanın sənayesi. Statistik məcmuə, Bakı, 2020, 166 s.
3. Макаренко М.В., Чмель С.Ю.Ключевая роль инноваций в модернизации экономики России // Промышленное производство и использование эластомеров. – 2011. – Вып.1.- С.4-9
4. Чуев И.Н., Чуева Л.Н. Комплексный экономический анализ финансово-хозяйственной деятельности. – М.: Издательско-торговая корпорация «Дашков и Ко» , 2012.-384 с.
5. Махалина О.М. Теория и практика реформирования управления промышленными компаниями в условиях модернизации экономики. – М.: Издательство «Спутник +», 2010.-192 с.

İQTİSADİYYATIN KLASTERLƏŞMƏSİ ŞƏRAİTİNDƏ SAHİBKARLIĞIN İNNOVASİYALI İNKİŞAF PROBLEMLƏRİ

S.A.Abbasov, i.e.d., prof.
Bakı Biznes Universiteti
server.abbasov@gmail.com

Qloballaşma, inteqrasiyalaşma, diversifikasiya və innovasiyalı inkişaf ilə şərtlənən müasir bazar iqtisadiyyatının inkişafının prioritet istiqamətlərindən biri klasterləşmədir. Dövlət və iqtisadi subyektlər arasında qarşılıqlı fəaliyyətin yeni institusional forması olan klaster və klaster yanaşması sənaye siyasətinin uğurla reallaşdırılmasının mövcud mexanizmini təşkil edir.

İnkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrdə qarşılıqlı fəaliyyət mexanizmi kimi klasterlər biznes-cəmiyyətin təşkilinin ənənəvi formasına çevrilmiş, məqsədyönlü klaster siyasəti aparılır və iqtisadiyyatın rəqabət qabiliyyəti reytinqində onlar liderlik səviyyəsinə yüksəlmişdir. Klaster yanaşmasına əsaslanan dövlətin iqtisadi siyasəti ölkənin müəyyən ərazilərində klasterlərin yaradılması və inkişafına dəstək sistemini, sahələrin, müəssisələrin, regionların və bütövlükdə milli iqtisadiyyatın effektivliyinin yüksəldilməsini özündə etiva edir.

İqtisadiyyatın klasterləşməsi şəraitində innovasiyanın rolu və əhəmiyyəti artır, belə ki elmi-texniki tərəqqi, yüksək texnologiyalar ölkənin dayanıqlı, mənəvi, intellektual və sosial-iqtisadi inkişafı üçün möhkəm zəmin yaradır. Bu baxımdan bazar iqtisadiyyatının əsas tərkib hissəsi olan biznesin və onun aparıcı istiqaməti sayılan sahibkarlığın innovasiyalı inkişafı ilə bağlı problemlər xüsusi aktuallıq kəsb edir və onların elmi tədqiqinə böyük ehtiyac vardır.

Son illər bütün dünyada, o cümlədən Azərbaycan Respublikasında iqtisadiyyatın klasterləşməsi prosesi sürətlə gedir. Sənaye-innovasiya klasterlərin yaradılması və inkişafının ən effektiv formalarının və yeni idarəetmə mexanizmlərinin tətbiqi sahəsində uğurlu xarici təcrübə qazanılmışdır. Belə ki, sənaye şirkətlərinin, elm və təhsil müəssisələrinin, yeniliklərin kommersiyalaşdırılmasının qarşılıqlı mexanizmi kimi sənaye-innovasiya klasterlərinin formalaşması və sahibkarlığın innovasiyalı inkişafı istiqamətində bir sıra Asiya ölkələrində, xüsusilə Yaponiyada və Cənubi Koreyada böyük irəliləyişlər müşahidə edilir.

Son illər dünyanın inkişaf etmiş ölkələrində dövlət və regionlar özlərinin iqtisadi inkişaf siyasətini sahələrin və regionların rəqabət qabiliyyətinin və innovasiya potensialının yüksəldilməsi, eləcə də davamlı iqtisadi inkişafın təmin edilməsi üçün klasterlərin formalaşdırılmasına yönəltməyə başlamışlar. Diqqət predmetini ayrıca iri şirkətlər, universitetlər və laboratoriyalar deyil, müəyyən ərazidə yerləşmiş, hər hansı sahəyə (qarşılıqlı əlaqəli sahələrə) məxsus, dayanıqlı qarşılıqlı əlaqələri xarakterizə edən təmərküzləşmiş qrup şirkətlər təşkil etmişdir.

Klasterlər innovasiya üçün aşağıdakıların hesabına əlverişli mühit formalaşdırırlar:

- şirkətlərin, istehlakçıların, malgöndərənlərin və digər institutların təmərküzləşməsi nəticəsində yaranan yaxınlıq innovasiyanı daim stimullaşdırır;
- qonşu sahələrdə şirkətlərin mövcudluğu ilə şərtlənən rəqabət təzyiqidir ki, bu da ayrı-ayrı firmaların innovasiya fəaliyyətinin inkişafına səbəb olur;
- innovasiyanın inkişafı və kommersiya mənimsənilməsi üçün çox vacib yeniliklərin əldə edilməsi üçün əlverişli klaster mühiti;
- innovasiya ilə bağlı riskin bölüşdürülməsi və innovasiya fəaliyyətinə investisiyanın nəticələrindən istifadə məqsədilə variantların geniş diapazonu üçün imkanların yaradılması;
- yeni biliklərin inkişafı və mübadiləsi yerli səviyyədə daha aktiv baş verdiyini nəzərə alaraq yeni biliklərin və innovasiya texnologiyalarının inkişafı üçün şirkətlər və elmi-tədqiqat institutları arasında sıx qarşılıqlı əlaqənin qurulması.

Beləliklə ,klaster siyasətinin ziddiyətli nəticələrinə baxmayaraq onun populyarlığı azalmır, inkişaf etmiş ölkələrin bir çoxu klaster yanaşmasından istifadəni uğurla davam etdirir və reallaşdırılan klaster proqramlarının effektivliyinin yüksəldilməsi üsullarını axtarırlar. Klaster yanaşması dövlətin iqtisadi siyasətinin mühüm təşkiledicisinə çevrilmişdir.

AZƏRBAYCANDA TİKİNTİ SEKTORUNA İNVESTİSİYA QOYULUŞLARININ DÖVLƏT TƏNZİMLƏNMƏSİ

Ş.İ.Əlizadə i.ü.f.d., b.m.
Azərbaycan Memarlıq və İnşaat Universiteti
shehla0619@mail.ru
N.Q. Budaqova Magistr
Azərbaycan Memarlıq və İnşaat Universiteti
budagova.nargiz@mail.ru

Xülasə

Müasir dövrdə investisiyalar tikinti şirkətlərinin ideyaların həyata keçirmələrinə kömək edir. Ona görə də şirkətlərin fəaliyyəti zamanı investisiya qoyuluşlarının əhəmiyyəti böyükdür. Tikinti müəssisələrində investisiya layihələrinin yerinə yetirilməsində dövlətin də xüsusi rolu vardır. Belə ki, Respublikamızda neft sektoru ilə yanaşı qeyri-neft sektorlarının inkişaf etdirilməsi qarşıya qoyulmuş vacib məsələlərdəndir. Bu məsələ ilə əlaqədar respublikamızda bir sıra tədbirlər həyata keçirilir. Qeyri-neft sektorunun inkişaf etdirilməsi üçün ölkənin malik olduğu təbii və maliyyə resurslarının cəlb edilməsi və onlardan istifadənin səmərəliliyinin artırılması üçün bir sıra tədbirlərin həyata keçirilir.

Məqalədə tikinti müəssisələrinin investisiya fəaliyyəti, investisiya resurslarından istifadənin səmərəliliyinin artırılması məqsədilə həyata keçirilən tədbirlərin yerinə yetirilməsində dövlətin rolu kimi məsələlər araşdırılmışdır.

Açar sözlər: tikinti, investisiya, tikinti müəssisələri, layihələr, dövlət, sektor, artım, maliyyə mənbələri, səmərəlilik.

İnvestisiya fəaliyyəti milli iqtisadiyyatın bütün sfrealarına xüsusilə də tikinti sektoruna fiziki və hüquqi şəxslər tərəfindən investisiyaların yönəldilməsi prosesini nəzərdə tutur. Tikinti

sektorunda investisiya qoyuluşu müxtəlif formalarda həyata keçirilir: pul vəsaiti, veksel, səhm və digər qiymətli kağızlar, istiqraz vərəqləri, təbii sərvətlər və s.

Azərbaycan Respublikasında bu sahəyə yönəldilən investisiyaların böyük həcmi bank depozit qoyuluşları və pul vəsaiti formasında həyata keçirilir [3, s.21]. Məlumdur ki, tikinti prosesi istehsal fəaliyyəti ilə birbaşa əlaqəlidir. Bu səbəbdən tikinti sektorunun səmərəliliyinin artırılması xüsusi diqqət tələb edir. Bu istiqamətdə tikinti sektorunun yeni texnika, texnologiyalarla təmin edilməsi, müxtəlif inkişaf modellərinin, üsul və metodların buraya tədbiqi mühüm əhəmiyyət kəsb edir.

Mütəxəssislərə görə, tikinti komplekslərinin əsas funksiyaları yeni texnologiyaların yaradılması, mənimsənilməsi, elmi-texniki tərəqqinin intensiv inkişafı və istehsala tətbiq edilməsi nəticəsində səmərəli nəticələrin əldə olunmasıdır. Bir sıra Avropa ölkələrində həmçinin ABŞ-da tikinti komplekslərinin inkişafı üçün yeni bazarın yaradılması metodundan istifadəyə üstünlük verilir.

Qeyd etmək lazımdır ki, tikinti sektoruna investisiya qoyuluşları dövlət tərəfindən müəyyənləşdirilən və qəbul edilən qanunlar, qanunauyğunluqlar çərçivəsində reallaşdırılmalıdır [4, s.77]. İnvestisiya qoyuluşlarının artırılmasında dövlət qanunlarının rolu əvəzedilməzdir. İnvestisiya fəaliyyətində dövlət tərəfindən həyata keçirilən müxtəlif tədbirlərlə yanaşı, ən vacib məsələlərdən biri də bu sahəyə uzunmüddətli kreditlərin ayrılmasıdır. Xarici ölkələrdə tikinti komplekslərində həyata keçirilən, qoyulan investisiyaların səmərəliliyinin qiymətləndirilməsi üçün müəyyən edilmiş tələblər aşağıdakılardır:

1. İnvestisiya haqqında qərar qəbul edilməsinə mühüm təsir göstərən qeyri-material amilləri təhlil edilməlidir.
2. İnvestisiyanın maliyyə təminatı kapital qoyuluşunun həyata keçirilməsinin mənbəyi olmalıdır.
3. Ekoloji amilə də xüsusilə nəzərə alınmalıdır.

Eyni zamanda investisiya haqqında layihələrinin iqtisadi səmərəliliyinin qiymətləndirilməsi məsələsini 2 formada tədqiq etmək olar:

- İnvestisiya səmərəliliyinin müqayisəli məsələlərinin işlənilməsi. Burada investisiya fəaliyyəti bazarda kapital qoyuluşunun alternativ sahəsini nəzərə almalıdır;
- İqtisadi konyuktur tələbləri üzrə tədqiqatının aparılması. Bu tədqiqat istehsal xarakterli sahələrə yönəldilən investisiyaların zərərsizliyinin təmin edilməsi istiqamətində olmalıdır. Bu səmərəli investisiya mühitinin yaradılmasına istiqamətlənən investisiyanın firma daxili strategiyasının və dövlət siyasətinin ən vacibi hesab olunur.

Bakıda tikinti kompleksləri mövcud investisiyalarını daha çox mənzil tikintisinə yönəldirlər. Bu da ölkə ərazisində mənzil üzrə alıcıq qabiliyyətinin səviyyəsinin qənaətbəxş olmasının bariz nümunəsidir. Lakin qeyd etməliyəm ki, regionlarda bu vəziyyət aşağı səviyyədədir. Regionlarda da alıcılıq qabiliyyətinin artırılması üçün dövlət sosial-iqtisadi siyasətinin tərkib hissəsi olan kənar ərazilərə investisiya yönəldilməsi tədbirini gerçəkləşdirə bilər. Əlbəttə, Bakıdan kənara investisiya yönəldilməsi, investisiya axınının təmin edilməsi məqsədəuyğun olardı. Lakin qeyd etmək lazımdır ki, regionlarda investisiya axınına mane olan ən başlıca səbəb region ərazilərində bank-kredit resurslarının və bank filiallarının azlıq təşkil etməsi və fəaliyyətlərinin zəif səviyyədə olmasıdır [2, s.65]. Buna baxmayaraq, Sahibkarlığa Kömək Milli Fondunun əsasnaməsində olunan dəyişikliklərdən sonra bu problemlərin həlli istiqamətində qismən də olsa müəyyən nailiyyətlər əldə olunmuşdur.

Dövlətin investisiya mühitinin səmərəliliyinin artırılması istiqamətində həyata keçirdiyi tədbirlər əsas iqtisadi siyasətin tərkib hissəsini təşkil edir. Belə ki, 1995-ci ildə 13 yanvarda qəbul edilmiş "İnvestisiya fəaliyyəti haqqında" qanun bu tədbirlərdən biridir. Dövlət tərəfindən əlverişli investisiya mühitinin yaradılması və investisiya fəaliyyətinin tənzimlənməsi aşağıdakı vasitələrlə reallaşdırılır:

– dövlət norma və standartlarının müəyyənləşdirilməsi;

– ayrı-ayrı region, sahə və istehsalatların inkişafı üçün subvensiya, subsidiya, büdcə borclarının verilməsi;

– vergitutma subyektləri və obyektlərində güzəştli vergi dərəcələrinin və stimullaşdırıcı vergi sisteminin tətbiqi;

– kredit və amortizasiya siyasətinin həyata keçirilməsi, o cümlədən əsas fondların sürətli amortizasiyası yolu ilə amortizasiya üzrə güzəştlər ayrı-ayrı iqtisadi sahələr, əsas fondların və avadanlığın müxtəlif növləri və elementləri üçün dəyişkən və fərqli müəyyən edilə bilər;

– torpaqdan, sudan və başqa təbii ehtiyatlardan istifadə şərtlərinin müəyyənləşdirilməsi;

– investisiya layihələrinin ekspertizasının keçirilməsi və s.

Müstəqillik əldə etdikdən sonra həyata keçirilən iqtisadi transformasiyaların gedişində tikinti sektorunda fəaliyyət göstərən müəssisələrin əsaslı islahatlar aparılması sahəsində bir sıra tədbirlər reallaşdırılmışdır. Bu tədbirlər sırasında qəbul olunmuş Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 2 dekabr tarixli 646 nömrəli «Tikinti kompleksinin inhisarsızlaşdırılması və özəlləşdirilməsi tədbirləri haqqında» Fərmanı xüsusi əhəmiyyətə malik olmuşdur. Fərmana əsasən tikinti sferasında fəaliyyət göstərən dövlət şirkətləri və konsernləri «Azərtunelmetrotikinti», «Azərenerjitikinti-quraşdırma», «Azərnəqliyyatyoltikinti», «Azərsənayetikinti», «Azərkəndtikinti» dövlət şirkətlərinin və «Azərsutikinti» dövlət konserni ləğv edilmişdir. Həmin dövlət qurumlarının dövlət əhəmiyyətini, texnoloji cəhətdən bir-biri ilə bağlılığını nəzərə alaraq, rəqabət şəraitində çevikliyi təmin etmək məqsədi ilə onların bazasında səhmləri tamamilə dövlətə məxsus olan «Azərtunelmetrotikinti», səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan «Azərenerjitikinti-quraşdırma», «Azərnəqliyyatyol-tikinti» və «Azərsutikinti», səhmlərinin 25,5%-i dövlətə məxsus olan «Azərsənayetikinti» və «Azərkəndtikinti» səhmdar cəmiyyətləri yaradılmışdır [6].

Əlverişli investisiya mühitinin formalaşma mexanizmi əlverişli investisiya iqlimini yaradılmasını nəzərdə tutur və buraya adı çəkilən tədbirlər daxil olunur: vergi sisteminin inkişaf etdirilməsi; amortizasiya hesablamaları və ayrılmaları mexanizminin sistemini hazırlamaq; maliyyə mənbəyi olaraq əhalinin şəxsi vəsaitlərindən, büdcədənkənar vəsaitlərdən və s. mənbələrdən mənzil tikintisi və sosial-mədəni təyinatlı obyektlərin tikintisindən istifadə; anti-inhisar tədbirlərinin qəbul edilməsi; inflyasiya səviyyəsinin minimuma endirilməsi; əsas fondların təkrar və yenidən qiymətləndirilməsinin təmini; maliyyə lizinqinin təkmilləşdirilməsi; invesitisya fəaliyyəti çərçi-vəsində subkeytlərin şəxsi fondlarının formalaşdırılması və inkişafının təmin edilməsi.

Ölkəmizdə əlverişli investisiya mühitinin təmin edilməsi məqsədilə bir sıra islahatlar planı hazırlanmışdır. İnvestisiya mühitinin səmərəliliyini artırmaq istiqamətində yerli qanunvericilikdə əsaslı dəyişikliklər həyata keçirilir. Ən əsası təkmilləşmiş qanunvericiliyin 95 faizi Avropa standartlarına uyğun formada aparılır. Bu sahədə dövlətin qarşısında duran zəruri məsələlərdən biri də əlverişli investisiya mühitinin formalaşdırılması istiqamətində yenilik, islahatlar və tədbirlər planın həyata keçirilməsidir. Bu planlar mütəmadi formada reallaşarsa əlverişli investisiya mühitinin formalaşması daha tez baş verər. Əlbəttə ki, tam formada, ideal investisiya mühiti yaratmaq prosesi mümkünsüzdür. Bununla yanaşı, dövlət bu islahatları, yenilikləri mütəmadi formada izləməyə çalışır. Bariz nümunə kimi Azərbaycan Respublikası Prezidentinin 25 oktyabr 2007-ci il tarixli imzaladığı fərmanı göstərmək olar. Qeyd olunan fərman Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin "bir pəncərə" prinsipi üzrə təşkilatın təmin edilməsi tədbirlərinə həsr olunmuşdur. Bu fərmana əsasən əvvəlki qaydanın əksinə olaraq yerli və xarici investorlar hər hansısa sahəyə investisiya yatırmaq istədikdə bir neçə qurum əvəzinə yalnız bir quruma müraciət edirlər. Eyni zamanda bu fərmana görə investisiya yatırılması üçün lazım olan icazələri və lisenziyanı almaq üçün yalnız bir quruma müraciət etmək kifayət edir. Bütün qeyd olunan prosesləri yalnız bir qurum verir. Proqram müasir dövrdə artıq bir neçə inkişaf etmiş ölkədə tətbiq edilir və səmərəli nəticəsini verir.

Tikinti kompleklərinin fəaliyyətləri prosesində inşaat materialları xüsusi rol oynayır. Layihə-axtarış şöbələrindən başqa digər şöbələrin işinin təmin olunmasında tikinti sənaye müəssisələrinin fəaliyyət prinsiplərindən istifadə olunur. Bina və yaxud istənilən obyektin tikintisində kərpic, daş, beton, armatur və s. digər inşaat materiallarsız təsəvvür etmək çətindir. Qanunvericiliyə uyğun formada qeyd olunan inşaat materialları dövriyyə vəsaiti şəklində balansda ötürülür, daha sonra isə əsas fondlara çevrilir [2, s.55]. Nəticə etibarilə qeyd edə bilərik ki, tikinti qiymətinin formalaşması mərhələsi birbaşa tikinti materiallarında asılıdır.

İnşaat materiallarını istehsal edən tikinti sənaye müəssisələrinə dövlət tərəfindən güzəştlərin verilməsi daha məqsədəuyğun olardı. Bu da öz-özlüyündə bu sahəyə investisiya axınına təkan verərdi.

Müasir dövrümüzdə tikinti sənaye müəssisələrində investisiya siyasətinin əsas xarakters-tikaları bunlardır:

– kapital qoyuluşunun resurs istehsal və emal edən istehlak sahələrində yaxşılaşdırılması

– xarici investorların sayını artırmaqdan ötrü, onların payının artırılması;

– investisiyaların xüsusilə maşınqayımanın, tikintinin baza sahələrinə yönəldilməsi;

– vəsaitləri mövcud müəssisələrin (istehsalın) texniki cəhətdən yenidən silahlandırılmasına və yenidən qurulmasına qoyulması və uyğun olaraq onların yeni tikintidə xüsusi çəkisinin azaldılması.

İnvestisiya fəaliyyətinin dövlət tənzimlənməsi əsas etibarilə vergiqoyma mexanizmi, amortizasiya siyasəti, investisiyaların maliyyələşdirilməsinə büdcə ayırmalarından istifadə edilməsi və digər iqtisadi metodların vasitəsilə həyata keçirilməlidir.

Qeyd etmək lazımdır ki, bazar iqtisadiyyatını və investisiya qoyuluşlarını tənzimləyən ən mühüm amillərdən biri də amortizasiya siyasətidir. Ölkədə son dövrlərədək davam edən amortizasiya siyasəti əsas fondların təzələnməsinə mənfi təsir edir və elmi-texniki tərəqqinin işinə maneçilik törədir. Amortizasiya formalarının normalarının aşağı olması nəticəsində əsas fondların aktiv (maşın və avadanlıqları və s.) və passiv (bina və qurğular) hissələri uzun müddət təzələnmirdi. Amortizasiya hər ildə əsas fondların orta illik dəyərinə bərabər sürətdə ayrılırdı, lakin 62 məlumdur ki, bu fondların aşınması bərabər olmur. Praktikada ancaq əsas fondların fiziki aşınması nəzərə alınırdı və maya dəyərinin tərkibində qeyd olunurdu. Məlumdur ki, elmi-texniki tərəqqi dövründə əsas fondların və onların aktiv hissələrinin fiziki aşınmasından əvvəl tələblərə cavab verən mənəvi köhnəlmə nəzərə alınmalıdır. Təsadüfi deyil ki, əsas istehsal fondlarının aktiv hissəsinin arta yaşı Yaponiyada 5-6 il, Almaniyada 7-8 ildir.

Nəticə.

Dövlət tikinti sektorunda investisiya qoyuluşlarının tənzimlənməsində müxtəlif iqtisadi mexanizmlərdən (tənzimləmə metodlarından) istifadə etməlidir. Bu mexanizmlərə aşağıdakıları aid etmək olar: vergitutma subyektlərinin və obyektlərinin, vergi sisteminin tətbiqi; kredit və amortizasiya siyasətinin həyata keçirilməsi, həmçinin əsas fondların sürətli amortizasiya yolu ilə. İnvestisiya fəaliyyətinin dövlət tənzimlənməsi vahid sosial, iqtisadi və elmi-texniki siyasətin həyata keçirilməsi məqsədilə aparılır. Müasir dövrümüzdə investisiya fəaliyyətinin dövlət tənzimlənməsi əsas etibarilə vergiqoyma mexanizmi, amortizasiya siyasəti, investisiyaların maliyyələşdirilməsinə büdcə ayırmalarından istifadə edilməsi və digər iqtisadi metodların vasitəsilə həyata keçirilməlidir.

Dövlətin xarici investisiya fəaliyyətini təzimlənməsində bir sıra metodlardan istifadə edilir. Bunlara aid etmək olar:

– Maliyyə metodları: maliyyə yardımı, təminatlı kreditin verilməsi, vergi güzəştləri və s.

– Qeyri-maliyyə metodları : torpaq sahəsinin ayrılması, zəruri infrastruktura ilə təchiz edilməsi, texniki yardım göstərilməsi və s.

Ədəbiyyat

1. “Azərbaycanda investisiya fəaliyyəti haqqında” qanun. Bakı, 1995
2. “Xarici investisiyaların qorunması haqqında” qanun. Bakı, 1992
3. “İnvestisiya fondları haqqında” Azərbaycan Respublikası qanunu. Bakı, 2010
4. Tikintinin iqtisadiyyatı (ali məktəblər üçün dərslik). Bakı, Çaşıoğlu, 2005
5. V. Z. Zeynalov. Azərbaycanda investisiya siyasəti. Bakı, Azərnəşr. 2012
6. Əlizadə Ş.İ. “Azərbaycan respublikasında tikinti müəssisələrinə investisiya qoyuluşlarının dinamikası və səmərəliliyi”, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Tikintinin iqtisadiyyatı və menecment, №1, Bakı-2016
7. www.unec.edu.az

State Regulation Of Investment In The Construction Sector Of Azerbaijan

Alizada S.I.Ph.D., Senior Lecturer
Azerbaijan Architecture and Construction University
Budaqova N.Q.Magistrate
Azerbaijan Architecture and Construction University
budagova.nargiz@mail.ru

Abstract

In modern times, investment helps construction companies to implement their ideas. Therefore, the importance of investments in the activities of companies is great. The state also has a special role in the implementation of investment projects in construction companies. Thus, along with the oil sector, the development of non-oil sectors is one of the important issues in our country. In this regard, a number of measures are being taken in Azerbaijan. A number of measures are being taken to attract the country's natural and financial resources and increase the efficiency of their use for the development of the non-oil sector.

Keywords: construction, investment, construction companies, projects, public, sector, growth, financial sources, efficiency

SOME ISSUES OF THE DEVELOPMENT OF THE DIGITAL ECONOMY AND THE INTRODUCTION OF INNOVATIONS IN THE CONTEXT OF A PANDEMIC

Samira Abasova
Azerbaijan State University of Economics (UNEC)
Baku, Istiqlaliyyat str. 6, AZ1001 Azerbaijan
e-mail: *sam.abasova@gmail.com*
Shahla Huseynova
Azerbaijan State University of Economics (UNEC)
Baku, Istiqlaliyyat str. 6, AZ1001 Azerbaijan
e-mail: Shahla_huseynova@unec.edu.az

Abstract.The article discusses some issues of the development of the digital economy and the introduction of innovations in Azerbaijan. The authors, based on the analysis of State Programs and Decrees of the President of the Republic of Azerbaijan, noted the need to prepare measures to create legal, technical, organizational and financial conditions for the development of the digital economy in our country, revealed the advantages of the digital economy and the impact of ICT technologies on the development of the innovative economy of Azerbaijan. The global coronavirus epidemic has created new opportunities and justified the need for innovation in all areas of the economy.

Key words *- information technology, digitalization of the economy, introduction of innovations, newest technologies.*

I. INTRODUCTION

In order to implement the measures envisaged in connection with the expansion of digital payments in the "Strategic Card for the Development of Telecommunication and Information Technologies in the Republic of Azerbaijan", approved by Decree No. 1138 of the President of the Republic of Azerbaijan dated December 6, 2016 [8], a "State Program for the Expansion of digital payments in the Republic of Azerbaijan for 2018-2020 ”[6]. The strategic goal of the State Program is to significantly expand the non-cash payment environment between business entities and government agencies, to reduce to a minimum the volume of cash turnover. As a result, the financial resource base of the banking sector will be significantly strengthened.

The transition of the economy to digital is a matter of our global competitiveness and a matter of national security. Today, at all forums, and even at the World Economic Forum held in Davos (in

the report of Klaus Schwab) [2], the need for the transition to the fourth industrial revolution (Industry 4.0) [7] is noted, the main goal of which is to ensure the transition to the Digital Economy. The economy of the Republic of Azerbaijan must be ready for these challenges. The Digital Economy program may be the first systematic look at this topic. The transition to the digital economy is a global project and affects various aspects of our life.[5] Objective difficulties are possible at all stages of its implementation.

II. PANDEMIC CHALLENGES AND DIGITAL TRANSFORMATION IN AZERBAIJAN

In Azerbaijan, both government and business structures must be ready for the period of digital transformation. The transition to the Digital Economy program, generated by technological progress, will lead to fundamental changes in the global market. The "traditional economy" is leaving and giving its place to the "Digital Economy". We must not forget that today global competitiveness is determined not by developed or developing countries, but by the country's innovative potential (Innovative country).

The formation of a new technological infrastructure and the improvement of international relations services, the improvement of a stable technological base for the use of it by an even larger number of people is of great importance. At present, the start of the implementation of the "Azerbaijan Digital HUB" program has been launched, which in the future will turn into the Regional Digital Center of Azerbaijan. The Azerbaijan Digital HUB program, the main focus of which is the formation of a sustainable infrastructure, is carried out by AzerTelecom, which is the backbone Internet provider and a subsidiary of the first mobile operator of Azerbaijan, Bakcell. In this direction, work is underway to create a technological infrastructure both within the country and abroad. For example, jointly with Azərbaycan Dəmir Yolları CJSC, a project is being implemented to lay a fiber-optic cable along the main line of the protective strip of railways. Thus, the creation of a network connection with telecom operators of neighboring countries in the North-South and East-West directions will be ensured. Within the framework of the Digital HUB program, it is planned to build a digital silk road on the historical silk road between Europe and Asia. For this, the Trans-Caspian Highway line will be built along the bottom of the Caspian Sea between Azerbaijan and the countries of Central Asia, which is an integral part of the main infrastructure project outside the borders of our country.

The implementation of all of the above will ensure the formation of a stable technological base in the country that meets modern requirements, as well as the transit of excess Internet and content to the countries of the Asian region. At the next stage, the transformation of Baku into an Internet Exchange Center and the creation of a Regional Data Center in Azerbaijan will be ensured. It should be especially noted that this program ultimately implies the formation of a digital ecosystem. Since, amongst the components that make up the basis of the program, along with building a stable infrastructure, improving communication services, it is assumed the presence of large content operators (Facebook, Google, Netflix, Amazon, Alibaba, Tencent, etc.), the construction of a regional data center and the creation of new jobs, the development of small and medium-sized businesses in the field of digital business and, in the future, the export of digital services to neighbouring regions under the brand “Made in Azerbaijan”. All this will create conditions for the formation of a digital ecosystem in Azerbaijan, the development of the digital economy, an increase in the rating of our country in world rating indices, an increase in the country's innovation rating and, accordingly, the growth of gross domestic production.

III. PROBLEMSOF DEVELOPMENT AND CREATION OF A SUSTAINABLE INFRASTRUCTURE OF INFORMATION AND COMMUNICATION TECHNOLOGIES

Today, when the coronavirus pandemic has spread to all countries of the world, hundreds of millions of people have begun to use digital platforms more actively, and the role and importance of information and communication technologies has grown globally.

Since its inception, the Internet has played an important role in all areas of human activity. However, his role has never been more critical than it is today. At this critical moment, the problems of ensuring the security and stability of the development of society, socialization of

people through the use of Internet technologies have become even more urgent. The corona virus pandemic has highlighted the enormous importance of the development of such areas as distance education, e-science, online commerce. The instant payment system is a payment by QR code in the new generation POS terminals. The global epidemic has created a foundation and a need for innovation in all areas. The development of the non-oil sector has become even more urgent. There is a huge need for managing society and the state based on online technologies.

The corona virus pandemic is a global phenomenon of enormous difficulty to predict. However, to solve this problem, it is necessary to use technologies of the next generation, which brings digital technologies to the fore. Changes at the global level can also change the adaptive behavior of people and the entire human society. Against the backdrop of the corona virus pandemic, the organization of public administration and the solution of international problems has changed. The heads of government refuse to hold international meetings and carry them out through Internet technologies (Skype, Zoom and other similar programs), business, education, partly medicine and other spheres are moving to an online platform. We use work at remote workplaces, video conferencing using connection services, work from home outside the office. As a result, costs are significantly reduced. In the face of the pandemic, people prefer online trading, and fast delivery without people and contact is very convenient and safe.

In this situation, there is a great demand for online applications, digital technologies, which increases the need to create a sustainable infrastructure in our country.

Naturally, with the end of the pandemic, countries around the world will pay even more attention to the development of ICT and Internet technologies. To this end, the development of "smart" devices and systems is of great importance. Given this reality, society is faced with the task of solving problems associated with scientific developments in the field of biomedicine and chemical technologies, artificial intelligence. Development in this direction has already begun in Azerbaijan. For this purpose, proposals and recommendations are being developed to solve certain scientific and theoretical problems of sustainable and safe functioning of electronic government and its functional components in extreme conditions.

It should be noted that President Ilham Aliyev pays great attention to the development of artificial intelligence technologies in Azerbaijan. Scientists of the republic are conducting significant research in this area of science. The widespread use of these advanced technologies in Azerbaijan, the formation of the technological infrastructure of our country in accordance with these tasks, the formation of special data centers, supercomputer clusters and other important issues are in the center of attention of the state.

At the present stage, such problems as prevention of illegal receipt and distribution of confidential personal information through microchips, the formation of a new intellectual society in our country, the creation of a stable, reliable virtual society, and the production of new "smart" technologies in Azerbaijan are of great importance. All this will contribute to the fact that the level of development of science and technology in our time will allow us to find the necessary means to solve the problem of coronavirus in the near future.

IV. DISCUSSION AND CONCLUSIONS

The active introduction of innovations is one of the important conditions for the further development of our republic. Active work is underway to form a digital economy in our country, create a digital government, and develop an information society. That is why the President of the Republic of Azerbaijan set important tasks for the government on ICT technologies - as the main priorities of state policy.

Reference

[1] Baranov D. N. "The essence and content of the category "digital economy"// Bulletin of Moscow University named after S.Yu. Witte. Series 1: Economics and management 2018, p.17

[2] Davos: World Economic Forum 2020 https://wtcmoscow.ru/services/international-partnership/actual/davos-vsemirnyy-ekonomicheskiy-forum-2020/

[3] "Digital Economy". Journal №1 (1) 2018 // digital-economy.ru ›images› easyblog_articles ›1-journal

[4] Mammadov M., Information Economy (lectures) /https://www.kitabyurdu.org/muhazire/informatika/378mahmud-memmedov-informasiya-iqtisaiyyati.

[5] Abasova S., Huseynova S. "The role of the digital economy in the formation and development of an innovative economy : Azerbaijan case " // Economic and Social Development. 70th International Scientific Conference on Economic and Social Development – ESD, 811p. ; Baku, 25-26 June, 2021; file:///C:/Users/Hp/Downloads/Book_of_Proceedings_esdBaku2021_Online.pdf

[6] Order of the President of the Republic of Azerbaijan On approval of the "State Program for the expansion of digital payments in the Republic of Azerbaijan in 2018-2020". Baku, 18.09.2018. https://azertag.az/ru/xeber/

[7] https://ru.wikipedia.org/wiki/

[8] https://ru.president.az/articles/21953

AZƏRBAYCANDA İNNOVASİYA SAHİBKARLIĞININ TƏŞKİLİNİN BEYNƏLXALQ TƏCRÜBƏYƏ UYĞUNLAŞDIRILMASI

Əbdürrəhmanova Aytən Faris qızı, dissertant
AMEA İqtisadiyyat İnstitutu

Xülasə

Məqalədə Azərbaycanda innovasiya sahibkarlığının təşkili və inkişafına təminat yaradacaq amillər ön plana çəkilmiş, orada innovasiya prosesinin həyata keçirilməsinin dünya təcrübəsindəki tipləri fərqləndirilmiş, inkişaf etmiş ölkələrdə innovativ inkişaf modelləri təsnifləşdirilmiş, onların təyinatı qeyd edilmiş, Azərbaycanda bu sahədə görülən işlərin xülasəsi verilmişdir. Daha sonra yaxın və uzaq perspektivdə innovasiya sahibkarlığının inkişaf meylləri MİS-in formalaşması və inkişaf kontekstində formalaşdırılmış, onun dinamikliyinə təminat yaradacaq innovasiya sisteminin inkişaf istiqamətləri göstərilmişdir.

Açar sözlər: *innovasiya sahibkarlığı, beynəlxalq təcrübə, innovasiya prosesi, innovativ inkişaf modeli, milli innovasiya sistemi.*

Azərbaycanda həyata keçirilən şaxələndirilmiş sosial-iqtisadiinkişaf strategiyası sahibkarlığın iqtisadiyyatda rolunun əsaslı şəkildə yüksəldilməsinə münbit şərait yaratmış və nəticədə özəl sektorun ÜDM-dəki payı 85%-zə, məşğulluqda isə - 77%-zə çatmışdır. Rəsmi statistik məlumata görə təkcə 2015-2019-cu illərdə ölkənin emal sənayesində istehsal edilən məhsulun həcmi 149,7% artaraq 11,8 mlrd.man çatmış, orada fəaliyyət göstərən müəssisələrin sayı 552 vahid, o cümlədən özəl sektorda 572 vahid artmış, sənaye fəaliyyəti ilə məşğul olan fərdi sahibkarların sayı 4131 nəfər çoxalmışdır [8, s.35]. Adı çəkilən sənaye sferasında 2019-cu ildə fəaliyyət göstərən bütün müəssisələrin 57 faizi mikro, 24.2 faizi kiçik və 18.8 faizi orta və iri müəssisələrdir **[8, s.15].** Azərbaycanın emal sənayesi müəssisələrinin mövcud maddi texniki bazası dövrün müassir tələblərinə cavab vermədiyindən onların innovasiya aktivliyi aşağıdır. Və yüksək keyfiyyətli, rəqabətə davamlı məhsul istehsal etməyə imkan vermir. Kiçik və orta statuslu emal sənayesi müəssisələrininn ixrac imkanları həmin səbəblərdən qənaətbaxş deyildir . Qeyd edilən illər ərzində həmin sferada 159 vahid sahibkarlıq subyektləri ləğv edilmişdir. Bu nöqsanların aradan qaldırılması üçün qüvvədə olan müvafiq normativ hüquqi, aktlarda biznes mühitinin yaradılmnasında dövlətin rolunun gücləndirilməsi, sahibkarlara göstəriləcək xidmətlərin, əhatə dairəsinin genişləndirilməsi nəticəsində səmərəli əsaslı modeldən innovasiya əsaslı modelə keçidin formalaşdırılması, eləcə də respublikada istehsal edilməyən yeni rəqabət qabiliyyəti məhsullar istehsalının təşkili, bu məqsədlə sahibkarlıq subyektlərinin dövlət dəstəyi mexanizmini təkmilləşdirilməsinin vacibliyi qeyd edilmişdir **[1,2,3,5].** Bütün bunlar isə-beynəlxalq təcrübədən geniş istifadə etməklə Azərbaycanda innovasiya sahibkarlığının səmərəli təşkilinin zəruriliyini şərtləşdirir.

Apardığımız araşdırmalar göstərir ki, dünyanın əksər inkişaf etmiş ölkələrində innovasiya sahibkarlığının təşkili, idarə edilməsi, ona dövlət maliyyələşdirilməsi üzrə fərqli yanaşmalar mövcuddur, lakin onların hər biri nəticə etibarı ilə sahibkarlıq subyektlərinin dayanıqlı inkişafına, onların innovasiya aktivliyinin yüksəldilməsinə, sahibkarların yaradıcılıq imkanlarının artırılmasına, ixrac potensialının dinamikliyinə, işçilərin maddi rifah halının yaxşılaşdırılmasına hədəflənmişdir.

İnnovasiya prosesinə dair dünya təcrübəsini ümumiləşdirərkən, onun həyata keçirilməsinin bir neçə tipini (modifikasiyasını) fərqləndirmək olar:

a) İnnovasiyanın tətbiqi mexanizminin **"natural"** və **"ixtisaslaşdırılmış"** modeli. Bu model, xarici ölkələrin mövcud variantlarından fərqli olaraq, innovasiyaların sərbəst tətbiqinə əsaslanır və həmin məsələ ilə adətən ixtisaslaşdırılmış innovasiya infrastrukturu (institutu) məşğul olur.

b) "Xaricdən stimullaşdırma" və **"avtomatlaşdırma"** modelləri.Xaricdən stimullaşdırma üçün adətən elmi işləmələrin istehsalata tətbiqi dövlət tərəfindən stimullaşdırılır və yaxud gözəştlər tətbiq edilir. Avto-stimullaşdırma yüksək gəlir əldə etmək üçün innovasiya işləyənlərin maraqları ilə uzlaşdırılır. Azərbaycanda həmin modellərin tətbiqinin məntiqi nəticəsi bütünlükdə dövlət büdcəsindən elmə ayrılan vəsaitin məbləği və təyinatı ilə şərtləşir. Bununla yanaşı "Elm haqqında" Azərbaycan Respublikasının Qanununda innovasiya fəaliyyətinin tədqiqatçılar tərəfindən təqdim etdikləri layihələrin qeyri-dövlət maliyyə mənbələrindən maliyyələşdirilməsi müvəqqəti yaradıcı qrupların təşkili, onların əhatə dairəsinin genişləndirilməsi, bütünlükdə intellektual mülkiyyətin inkişafının dəstəklənməsi məsələləri öz əksini tapmışdır.

c)İnnovasiya prosesinin dinamikliyi ilə əlaqədar uzunmüddətli iqtisadi inkişaf konsepsiyası çərçivəsində, beynəlxalq təcrübədə **"qabaqcıl hüdud"** və **"modernləşdirməni üstələmək"** modellərindən də istifadə edilir. Qabaqcıl hüdud modelinin mahiyyəti elmi-texniki tərəqqinin son nailiyyətləri əsasında prinsipcə yeni məhsul və texnologiya yaratmaqdan, yeni satış bazarına daxil olmaqdan ibarətdir. Modelləşdirməni üstələyən model strateji xarakterli olub özünün müxtəlifliyi ilə fərqlənir və milli sənayenin innovativ inkişafı əsasında rəqabət qabiliyyətli məhsul nümunəsinin hazırlanması istehsalı və geniş şəbəkəyə malik bazarlarda satışını özündə etiva edir.

Cədvəl 1. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə tətbiq edilən əsas innovativ inkişaf modellərinin təsnifatı

	Modellərin təyinatı	Ölkələr
1.	Elmdə və innovativ inkişafda liderliliyə hədəflənən fundamental və tətbiqi tədqiqatlara tələb olunan məbləğdə maliyyə vəsaitləri ayıran , iri məqsədli layihələrin və kompleks proqramların həyata keçirilməsinə üstünlük verən	ABŞ, Böyük Britaniya, Fransa
2.	İqtisadiyyatın bütün sferalarında münbit innovasiya mühitinin yaradılması və innovasiyaların fəal yayılması prosesini intensivləşdirən	Almaniya, İsveç, İsveçrə
3.	Beynəlxalq miqyasda formalaşan elmi-texniki tərəqqinin nailiyyətlərinə yaxınlaşmaq, yenilikləri daha tez mənimsəməklə seçilən innovasiyanın bütün növlərinin tətbiqinin iqtisadiyyatın müxtəlif sektorlarında koordinasiya edən	Çin, Yaponiya, Cənubi Koreya
Mənbə: müəllif tərəfindən mənbələrin məlumatları əsasında tərtib edilmişdir **[9; 10]**		

Bizim fikrimizcə, emal sənayesinin ənənəvi sahələrinin texniki-texnoloji durumunu əsaslı şəkildə yaxşılaşdırmaq, 4-cü nəsil texnologiyanı mənimsəmək, növbəti nəsil texnologiyalara keçidi təmin etmək üçün "modernləşdirməni üstələmək" modelindən istifadə ön plana çəkilməlidir.

Şərh edilən modellərin sintezi və yaxud onların birbaşa innovativ, davamlı inkişafa hədəflənən modelləri iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə öz məzmununa, təyinatına və əhatə dairəsinə görə fərqlənir və onların təsnifatı tərəfimizdən tərtib edilən 1. saylı cədvəldə əks etdirilmişdir.

Cədvəldən göründüyü kimi sahibkarlıq subyektlərinin innovasiya fəaliyyəti və ETLKİ-nin maliyyələşdirilməsi sistemi xarici ölkələrdə - xüsusilə ABŞ, Yaponiya və Şərqi Avropada çoxsaylı vəsaitlərin daxilolma mənbələri ilə xarakterizə olunur. Həmin maliyyə mənbələrinə - dövlətin, sənayekorporasiyalarının, ali və orta ixtisas təşkilatlarının, kommersiya şirkətlərinin və xarici

firmaların vəsaitləri daxildir. İnnovativ inkişafa dövlət dəstəyi baxımından ABŞ, Yaponiya, Almaniya, Böyük Britaniya. Fransa və Kanada ölkələrinin iş təcrübəsi xüsusi maraq doğurur. Məhz həmin ölkələrdə formalaşan və həyata keçirilən innovasiya siyasətində ümumi oxşarlıq mövcuddur və onun əsasını-innovasiya sahibkarlığının inkişafının stimullaşdırılması təşkil edir. Həmin ölkələrdə dövlətin innovasiya siyasətinin başlıca maliyyə aləti – dövlət büdcəsindən ayrılan vəsaitdən istifadədir. Bu ölkələrdə ayrılan vəsait iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi üçün innovativ inkişafın prioritet istiqamətlərinin icrasına sərf edilir. Adı çəkilən ölkələrdə kiçik innovasiya shibkarlığının inkişafının stimullaşdırılması, innovasiyalara dəstək üzrə ayrılan xərclərin 20-50%-zini dövlət öz üzərinə götürür. Həmin ölkələrdə elmi-tədqiqat və innovativ işləmələrə ayrılan birbaşa vəsait son 20 ildə sabit saxlanılır və dövlət xərclərinin ABŞ-da 6-7%-ni, Yaponiyada – 3-5%-ni; Almaniya, Fransa, İtaliya və Böyük Britaniyada isə 4-5%-ni təşkil edir **[10]** . Beynəlxalq təcrübənin ümumiləşdirilməsi göstərdi ki, bütünlükdə ölkənin innovasiya potensialı, o cümlədən iqtisadiyyatın qeyri-neft sektorunun əsasını təşkil edən emal sənayesinin innovasiya fəaliyyəti aşağıdakı iki mühüm amillərlə müəyyən edilir:

1. biznesin rəqabət qabiliyyətliliyi;
2. innovasiya sahibkarlığı sferasında dövlətin innovasiya siyasətinin prioritetləri.

Bizim fikrimizcə, həmin amillər bir-birindən asılı olması da, qarşılıqlı əlaqədə icra edilir. Başqa sözlə innovasiyanın tətbiqi üçün dövlətin yaratdığı şərait geniş vüsat aldıqca innovasiya prosedsinin özü də aktivləşir və nəticədə müəssisənin innovasiya fəaliyyətinin yaxşılaşdırılması, eləcə də onun innovasiya potensialının inkişafı üçün əlverişli stimul formalaşır. Beləliklə innovasiyanın inkişafının təşkilati-iqtisadi mexanizmi özündə kompleks xarakterli iqtisadi alətləri və metodları cəmləşdirərək innovasiya fəaliyyətinin dinamik inkişafına təkan verir. Bazar iqtisadiyyatı inkişaf edən ölkələrdə adı çəkilən mexanizm kifayət qədər tənzimlənmişdir, lakin inkişaf etməkdə olan ölkələrdə, o cümlədən Azərbaycanda, adı çəkilən mexanizmin formalaşması özünün ilkin mərhələsindədir. Bunu sübut edən əsas amil emal sənayesinin innovasiya aktivliyinin beynəlxalq tcrübədə nəzərdə tutulan astana həddindən kəskin dərəcədə aşağı olmasıdır. Deməli, başlıca hədəf həmin astana həddinə yaxınlaşmaqdır. Ədalət naminə qeyd etmək lazımdır ki, son 10 il ərzində Azərbaycanda innovativ iqtisadiyyatın dəstəklənməsi üçün bir sıra təşkilati və infrastruktur tədbirləri həyata keçirilmiş və nəticədə müxtəlif təyinatlı Yüksək Texnologiyalar Parkları (YTP), sənaye parkları yaradılmış və orada qeydiyyatdan keçən rezidentlər vergi və gömrük güzəştlərindən istifadə edərək idxalı əvəz edən və ixrac yönümlü qeyri-neft məhsulları istehsalının həcmi və çeşidini artırmağa nail olmuşlar. Əldə edilən nailiyyətlərə kölgə salmadan onu da qeyd etmək lazım gəlir ki, Azərbaycanda Milli İnnovasiya Sisteminin (MİS) qurulması qanunvericilik səviyyəsində öz əksini tam tapmamış və bu sahədə mərkəzləşmiş normativ sənəd mövcud deyil, innovativ inkişafının vacibliyi ayrı-ayrı normativ-hüquqi aktlarda qismən formalaşmışmışdır.

Azərbaycanda dövlətin innovasiya siyasəti və innovativ iqtisadiyyatın quurlmasının vacibliyi Ölkə Prezidentinin 06 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"-nin 3.1.4-cü yarımbəndində qeyri-neft sektorunun davamlı və ölkənin perspektiv inkişafı məqsədilə "Təhsil-tədqiqat-innovasiya" fomatında inkişafın təşviqi və universitet klasterlərinin yaradılmasının vücibliyi qeyd edilir **[2]**.

Bizim fikrimizcə, dövlətin dəstəyi ilə yeni maliyyələşmə mexanizmlərinin (Startapların, vençur fondlarının, angel (mələk) investorların, etimad fondların və s.) emal sanayesi müəssisələrində tətbiq edilməsi, orada zəruri innovasiya infrastrukturunun yaradılması nəticə etibarı ilə innovativ sahibkarlığın inkişafına təkan vermiş olacaqdır. Həmin normativ-hüquqi aktların əhəmiyyətini yüksək qiymətləndirərkən onu da qeyd etmək lazım gəlir ki, Azərbaycanda innovasiya sahibkarlığının davamlı inkişafına təminat yaratmaq üçün "İnnovasiya fəaliyyətinin tənzimlənməsi və inkişafı haqqında" qanunun qəbul edilməsi və emal sənayesinin əsas alt sahələri üzrə uzunmüddətli dövrü əhatə edən innovativ-inkişaf Proqramlarının işlənilməsi və həyata keçirilməsi vacibdir. Həmin proqramda yuxarıda istiqamətləri və əhatə dairəsi göstərilən Strateji Yoı Xəritələrinin ən azı 2025-ci ilədək dövr üçün nəzərdə tutulan iqtisadiyyatın innovativ inkişaf prioritetlərinin elementləri nəzərə alınmalı, proqrama daxil edilən tədbirlərin icrası kompleks və sistemli yanaşmaya söykənməli, dövlətin innovasiyaya hədəflənən ümumi inkişaf strategiyasını özündə etiva etməlidir. Burada başlıca

məsələ dövlətin innovasiya strategiyası ilə innovasiya bazarı arasında qarşılıqlı və üzvi əlaqənin yaradılmasıdır.

Son illər Ölkə Prazidenti tərəfindən qeyri-neft sektorunda sahibkarlığın inkişafı üzrə imzaladığı Fərman və Sərəncamlarda **[5;6;7]** innovasiya sahibkarlığının qabaqlayıcı və dinamik inkişaf tiplərinin konturları müəyyən edilmişdir. Orada bir tərəfdən hazırda Azərbyacnda mövcud olan 3-cü və 4-cü texnoloji sistemdən, 5-ci və 6-cı texnoloji sistemə keçid strateji məqsəd kimi qarşıya qoyulmudur.

Yeni texnolojiproseslərə keçidin tələblərinə uyğun "elm-təhsil-istehsalat-bazar" srtateji alyansın fəaliyyəti üçün yeni hüquqi çərçivə qaydası formalaşdırılmalıdır ki, yeni təşkilati-iqtisadi mexanizm çərçivəsində Azərbaycan iqtisadiyyatı inkişaf modeli müstəvisində formalaşa bilsin. Buna nail olmaq üçün isə iqtisadi inkişafın hərəkətverici qüvvələri ilə mikroiqtisadi aspektdə inklüziv inkişafı arasında sıx üzvi əlaqə yaradılmalıdır ki, iqtisadi diversifikasiya və rəqabət üçün zəruri olan strautur dəyişikliyini həyata keçirmək mümkün olsun.

Deməli, ölkədə innovasiya yönümlü iqtisadyyatı formalaşdırmağın başlıca şərti Milli İnnovasiya Sistemini (MİS) yaratmaq və onu təkamül yolu ilə inkişaf etdirməkdir. Lakin ölkəmizdə real MİS-in formalaşması özünün ilkin mərhələsindədir, sistemli və ardıcıl xarakter daşımır. Həmin sistemin inkişafı kontestində yeni istehsalı yaratmaq və innovasiyaları yaymaq üçün təkcə elmi və istehsalatı inkişaf etdirmək deyil, həm də onu stimullaşdıran, insanları həmin prosesə həvəsləndirən, onlara münbit sosial şərait yaradan mexanizm formalaşdırmalı, maliyyə vəsaiti əldə edilməli və elmi-texniki tərəqqiyə hədəflənməyə təminat yaradılmalıdır.

Dünyanın müxtəlif ölkələrində formalaşan MİS bir-birindən əsaslı şəkildə fərqlənir. Hər bir real şəraitdə MİS-in inkişaf strategiyası dövlətlərin makro-iqtisadi siyasəti, normativ-hüquqi təminatı, birbaşa və yaxud dolayı formada dövlət tənzimlənməsi, elmi-texnoloji və sənaye potensialının vəziyyəti, sahibkarlıq fəaliyyətinin formaları, dövlət institutlarının tarixi-inkişaf xüsusiyyətləri, təbii resursların mövcudluğu, ölkənin təbii coğrafi şəraiti, eləcə də tarixi və mədəni ənənələr əsasında müəyyən edilir. Məhz həmin amillər uzunmüddətli dövr üçün innovasiya sisteminin təkamül sürətini və hərəkətverici istiqamətini müəyyən edilir.

Nəticə

Tərəfimizdən aparılan araşdırmalar göstərir ki, bu vaxtadək MİS məvhumuna, onun metodologiyasının işlənilməsinə dair yekun fikir formalaşmamışdır. İnnovativ inkişaf yoluna qədəm qoyan ölkələrin iqtisadiyyatında baş verən dəyişikliklər kontekstində söyləmək olar ki, innovasiya sahibkarlığının dövlət tənzimlənməsinin vacib forması kimi çıxış edəcək MİS-milli sərhədlər çərçivəsində elmi biliklərin və texnologiyaların istehsalı və kommersiyalaşdırılması ilə məşğul olan təşkilatı strukturların (sahibkarlıq subyektlərinin, universitetlərin, elmi laboratoriyaların, texnoparkların, inkubatorların, sənaye məhəllələrinin, digər innovasiya infrastrukturunun) qarşılıqlı əlaqəsinin məcmusudur. Eyni zamanda MİS-hüquqi, maliyyə və sosial xarakterli institutlar kompleksindən ibarət olub, innovasiya prosesinin dinamikliyinə təminat yaradan, milli ənənələrə, köklərə, siyasi və mədəni dəyərlərə söykənən geniş əhatəli mürəkkəb sosial-iqtisadi sistemdir.

İnnovasiya yönümlü iqtisadiyyatı formalaşdıran ölklərin iş təcrübəsini ümumiləşdirərkən, innovasiya sahibkarlığının inkişafına təminat yaradan innovasiya sisteminin inkişafının aşağıdakı əsas istiqamətlərini belə formalaşdırmaq olar:

- sahibkarlıq subyektlərinin və elmi-tədqiqat təşkilatlarının innovsiya fəaliyyətinin inkişafı üçün münbit şəraitin yaradılması;
- dövlətin icra orqanları, aparıcı elmi təşkilatlar və sənaye sahələri arasında strateji tərəfdaşlığın inkişaf etdirilməsi;
- müasir texnologiyalara əlçatanlığın təmin edilməsi üçün çərçivə şəraitin yaradılması;
- innovasiya prosesinin ilkin pilləsinin maliyyələşdirilməsi prosedurunun inkişafı;
- innovasiya menecmenti ixtisası üzrə kadrların hazırlanması, yenidənhazırlanması və ixtisaslarının artırılması üzrə fasiləsiz prosesin təmin edilməsi;
- innovasiya klasterlərin və onların şəbəkələrinin bütünlükdə emal sənayesinin sıx texnoloji və kooperasiya əlaqəsində olan sahələr üzrə formalaşdırılması.

Ədəbiyyat

1. Azərbaycan – 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Bakı, "Xalq" qəzeti. 03 fevral 2021-ci il.
2. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi, Bakı, 2016, 111s.
3. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Bakı, 2016, 96 s.
4. Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi, Bakı, 2016, 51 s.
5. "Qeyri neft sektorunda rəqabət qabilyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbayvcan Respublikası Prezidentinin 19 sentyabr 2018-ci il tarixli Sərəncamı . "Xalq" qəzeti 20 sentyabr 2018-ci il
6. "Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 06 oktyabr 2016-cı il tarixli Fərmanı, Bakı, "Xalq qəzeti", 07 oktyabr 2016-cı il.
7. "Azərbaycan İnvestisiya Holdinqinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 07 avqust 2020-ci il tarixli Fərmanı. Bakı, "Xalq" qəzeti 8 avqust 2020-ci il.
8. Azərbaycanın sənayesi. Statistik məcmuə. Bakı, "DSK", 2019, 250 s.; 2020, 164 s.
9. Инновационное предпринимательство (под ред. В.Я. Горфинкеля и Т.Г. Попадюк) М, «Юрайт», 2015, 564 с. (второе издание).
10. (https://studme.org./1719051221714)

AZƏRBAYCANIN TİKİNTİ SFERASINDA İNVESTİSİYA PROSESİNİN XARAKTERİK XÜSUSİYYƏTLƏRİ

Həsənov İ.C., dosent
Bakı Biznes Universiteti
i_hasanov_65@mail.ru

İqtisadiyyat sahələrində müəyyən məqsədlər üçün əsas fondların artırılması tikinti və layihələndirməyə dair müxtəlif qərarların müxtəlif şəraitdə istifadə olunması ilə həyata keçirilir. Bu baxımdan investisiyanın ayrı-ayrı kateqoriyalarını onların xarakterik xüsusiyyətləri vasitəsilə göstərilməsi lazım gəlir. İnvestisiyaların təsnifatı çoxsaylı xarakteristikalara əsasən həyata keçirilə bilər. Burada iqtisadi-təşkilati nöqteyi-nəzərdən onların ən əhəmiyyətli olanları göstəriləcəkdir. İnvestisiyalar aşağıdakı xarakteristikalarına görə təsnifləşdirilir:

- qəbul edilən qərarların səlahiyyət səviyyəsinə görə;
- kapital qoyuluşu obyektlərinin xarakterinə görə;
- maddi-texniki məzmununa əsasən;
- qarşılıqlı əlaqəsinə görə;
- əmək məhsuldarlığının artırılması və texnologiyanın inkişafına təsirinə görə.

Qərarların qəbul edilməsi sahəsində səlahiyyət səviyyəsinə görə investisiyalar mərkəzləşdirilmiş, yerli, müəssisələrin investisiyası və s. ola bilər. Mərkəzləşdirilmiş investisiyalar iri, məqsədli və digər mərkəzləşdirilmiş investisiyalar kimi qruplaşdırılır. İri mərkəzləşdirilmiş investisiyalar – yanacaq-enerji, infrastruktur və digər strateji əhəmiyyətli sahələrin inkişafı üçün yönəldilən investisiyalardır. Məqsədli investisiyalar dövlət büdcəsi təşkilatlarının əsas fondlarının tərkibinin bərpa edilməsinə və ya genişləndirilməsinə yönəldilir.

Tikilən obyektlərin xarakterindən asılı olaraq sənaye istehsalında, nəqliyyat sferasında, kommunal təsərrüfatında investisiyalar fərqləndirilə bilərlər. Sənaye investisiyası mərkəzləşdirilmiş və ya müəssisələrin investisiyalarının reallaşdırlmasından asılı olmayaraq istehsal kateqoriyasına aiddir. İstehsal investisiyaları sənaye istehsalının genişləndirilməsinə, texniki cəhətdən yenidən qurulmasına, kənd təsərrüfatına, əmək şəraitinin yaxşılaşdırılmasına və s. yönəldilir.

Beynəlxalq praktikaya uyğun olaraq Azərbaycanda da istehsal investisiyası çox geniş şəkildə həyata keçirilir. Bu o deməkdir ki, sənaye müəssisələrində kapital qoyuluşu əsas istehsal proseslərinə yönəldilir və məhsulun buraxılışı ilə bağlıdır (məsələn, materiallarla təminatın və onların yerləşdirilməsinin təşkili, anbarların genişləndirilməsi, avtomatlaşdırılması və s.).

Nəqliyyat investisiyasının əsas vəzifəsi istehsal və bölüşdürmə arasındakı əlaqənin təmin edilməsidir. Belə investisiyaların reallaşdırılması məqsədi, bir tərəfdən, istehsalın inkişafı, digər tərəfdən isə bölüşdürmənin inkişafı vasitəsilə qoyula bilər. İstehsalın inkişafı nöqteyi-nəzərdən nəqliyyat investisiyaları daşınmaların, müəyyən mənada isə nəqliyyatın inkişafına xidmət edir. İnvestisiya qoyuluşlarının nəticələrinin bölüşdürülməsi məsələlərinin, başqa sözlə, istehlakın həlli məqsədinə xidmət edən isə ticarət investisiyalarıdır [1].

Nəqliyyat investisiyaları istehsala uyğun olaraq əldə edilən məqsədlərin birinci dərəcəliliyi üzrə qruplaşdırıla bilər:

- artırılan həcmə, daşınmaların yayılmasına;
- daşınmaların sürətləndirilməsinə xidmət edilməsinə;
- daşınmaların xərclərinə xidmət edilməsinə;
- daşınmaların metodlarının və vasitələrinin təkmilləşdirilməsinə;
- nəqliyyat işçilərinin əmək şəraitinin yaxşılaşdırılmasına.

Belə növ investisiyalarda layihəçilər və investorlar inkişafın birinci dərəcəli məqsədləri ilə yanaşı digər xarakteristikaların yaxşılaşdırılmasını da təmin etməlidirlər.

Öz əhəmiyyətinə görə kommünal yönümlü investisiyalar əhalinin ehtiyacının təmin edilməsilə blavasitə bağlıdır. Ona görə də həmin investisiyaların xüsusi çəkisinin azaldılmasına ictimai rəy tez reaksiya verir. Kommunal sahələrə investisiyanın əhəmiyyəti istehsal təyinatlı investisiyalarla sıx bağlıdır. İstehsal təyinatlı investisiyaların səmərəliliyi isə onların kommunal yönümlü investisiyaların reallaşdırılması dərəcəsindən asılıdır.

İnkişaf etmiş ölkələrin çoxunda investisiyanın təsnifatı onların maddi-texniki məzmununa uyğun aparılır. İnvestisiyanın reallaşdırılması prosesində tikinti, sanitar-texniki və texnoloji-quraşdırma işləri ilə yanaşı hazırlıq, qurğuların tikintisi, buraxılış tsikli ilə bağlı digər işlər də görülür.

Tikintiyə yönəldilən investisiyalar anlayışı təkcə yerüstü və yeraltı tikinti ilə məhdudlaşırılmır, bura həmçinin hazırlıq, sanitar-texniki, şəbəkələrin çəkilməsi xərcləri də daxil edilir. Mexanikləş-dirməyə qoyulan investisiyalara tikinti, nəqliyyat, yeraltı və digər maşın və mexanizmlərə, avadanlıqlara, dəzgah və alətlərə qoyulan investisiyalar aiddir.

Sair investisiyalar qrupuna aid edilir:

- layihə işlərinin dəyəri;
- müsabiqələrdə və ekspertizada iştirak üçün xərclər;
- tədqiqat və sınaq xərcləri;
- torpağın vəziyyətinin müəyyənləşdirilməsi üzrə tədqiqat xərcləri;
- dövlət yığımları və ödənişləri;
- sınaq buraxılışı işləri;
- kadrların hazırlanması xərcləri.

Ölkənin iqtisadi sistemində baxılan investisiya kateqoriyaları qarşılıqlı əlaqəlidir. İnvestisiyalar qarşılıqlı əlaqəli əlamətləri üzrə əsas, əlaqəli və birgə investisiyalara bölünürlər. Əsas investisiya qoyulan məqsədlərə nail olmağa imkan yaradır. Əsas investisiyaları adətən müəssisənin ərazi sərhədində reallaşdırırlar; istehsal qurğuları ilə yanaşı onlara, həmçinin köməkçi, tikinti, inzibati binalar, mühəndis şəbəkələri və s. daxildirlər.

Əlaqəli investisiyalar əsas investisiyaların reallaşdırılmasına köməklik edir və ya köməkçi rolunu yerinə yetirir. Onlar adətən müəssisənin ərazisindən kənarda reallaşdırılır və digər təşkilatın inkişafına xidmət edir, hansı ki, yeni yaradılmış əsas vasitələri aktivləşdirir və qurğunu istismar edir.

Birgə investisiyalar iki və ya daha çox investor tərəfindən öz məqsədlərinə nail olmaq üçün reallaşdırılır. Onlar kapital xərclərini, həmçinin istismar xərclərini, maliyyə təminatını, xüsusi məsələlərin tənzimlənməsini, yaradılan əsas fondların birgə istifadəsinin şərtlərini müəyyənləş-

dirənləri nəzərə almaqla, razılaşdırmaya əsasən birgə həyata keçirilir.

Əlaqəli investisiyalara tələbat istehsal, nəqliyyat, kommunal proqramların reallaşdırılmasına aşkar edilə bilər. Əgər istehsal əlaqəli investisiya əsas investisiyaların reallaşdırılması nəticəsində yaradılan, qurğunun bəzi material və obyektiv şəraitini tərəfdaş müəssisənin mövcud strukturuna görə təmin edə bilmirsə, onda o lazım olmayacaq. Belə halda məqsəd elə müddəanın yaradılmasını tələb edir ki, xarici təşkilat onun istehsal gücünün genişləndirilməsi nəticəsində, investisiya proqramı qarşıya qoyduğu, tələbləri təmin edə bilsin.

Qeyri-istehsal əlaqəli investisiya infrastruktur xarakterli, nəqliyyat və kommunal investisiyaları ola bilərlər, hansı ki, müəssisənin artan istehsal məsələlərinin həlli üçün lazım ola bilər (məsələn, əlavə elektrik enerjisi, kanalizasiyanın əlavə güclə təmin edilməsi və s.) və hansı ki, işçilərin artan ştatının normal həyat sahəsinin təmin edilməsi üçün lazımdır (sosial, mədəni və s. tikinti üçün).

Əsas və əlaqəli investisiyanın qarşılıqlı əlaqəli nəticəsində axırıncının həcmi müəyyən dərəcədə əsas investisiyaya təsir edir.

İntensivləşdirməyə yönəldilən investisiyalar, adətən sistemin daxili tarazlığını bərpa etməyə və mövcud güclərin istifadəsi üçün ən yaxşı uyğunlaşırlar. Onlar o vaxt tövsiyə olunur ki, əgər əsas texnologi proseslərin mütləq əksəriyyətinin səviyyəsi bir-birinə uyğun gəlir, ancaq güclərdə fərq olur və bəzi «dar yerlər» mövcuddur, hansı ki, istehsal prsoesinin köhnə elementlərini dayandırır. İntensivləşdirməyə yönəldilən investisiyalar mövcud müəssisələrin ərazisində reallaşdırılır; «dar yerlərin» aradan götürülməsi ərazinin genişləndirilməsini tələb etmir, güclərdə tarazlıq ən müasir texnologi üsulların tətbiqi nəticəsində əldə edilir. Belə investisiyalar, baxmayaraq ki, müəssisənin ümumi texniki səviyyəsini yüksəltmir, ancaq əmək məhsuldarlığını artırır.

Yenidənqurmaya yönəldilən investisiyaların köməkliyi ilə istehsalın genişləndirilməsi və texniki səviyyəsinin yüksəldilməsi əsas və köməkçi maşın parkının dəyişilməsi yolu ilə əldə edilir. Nisbi böyük dəyişilmə və ya maşın parkının modernləşdirilməsi ilə yanaşı yenidənqurma üçün texnologiyanın inkişafı məqsədilə mövcud binaların və mühəndis şəbəkələrinin təzələnməsi xarakterikdir. Onun həyata keçirilməsi nəticəsində istehsal gücləri artır və istehsalın keyfiyyət göstəriciləri yüksəlir.

DÖVLƏTİN İNNOVASİYA SİYASƏTİNİN DAVAMLI İNKİŞAFDA ROLU

Əhmədova Təranə Mütəllim qızı i.f.d., dosent
Sumqayıt Dövlət Universiteti
tarana.7474@mail.ru

Xülasə: *Məqalədə dövlətin innovasiya siyasətinin məqsəd və vəzifələri açıqlanmışdır. İnnovasiya fəaliyyətinin dövlət tənzimlənməsinin zəruriliyi əsaslandırılmışdır. İnnovasiya fəaliyyətinin dövlət tənzimlənməsi metod və vasitələri haqqında məlumat verilmişdir. İnnovasiya fəaliyyətinə dövlət dəstəyinin əsas istiqamətləri tədqiq edilmişdir. Azərbaycanın innovasiya siyasətinin formalaşması prinsipləri nəzərdən keçirilmişdir. Ölkənin innovativ potensialının qorunması və inkişafı üçün strategiyanın hazırlamanmasının zəruriliyi əsaslandırılmış və həmin strategiyanın əhatə edəcək sahələr müəyyən edilmişdir. İnnovasiya fəaliyyətinin tənzimləyici və stimullaşdırıcı kimi funksiyalarına əsaslanaraq ölkənin davamlı inkişafı üçün innovasiya siyasətinin formalaşdırılması modeli qurulmuşdur.*

Müasir dövrdə ölkə iqtisadiyyatı qarşısında qoyulan əsas vəzifələrdən biri bütün ictimai istehsalın səmərəliliyini artıracaq, sosial-iqtisadi məsələləri daha müvəffəqiyyətlə həll edəcək innovasiya fəaliyyətinin intensivləşdirilməsidir. İnnovasiya fəaliyyəti düzgün və səmərəli idarə olunarsa, cəmiyyətin hər bir üzvü üçün layiqli bir həyat keyfiyyətinə nail olmaq mümkündür. İnnovasiya fəaliyyəti xüsusi fəaliyyət sahəsi kimi dünyanın inkişaf etmiş ölkələrində XX əsrin ikinci yarısında formalaşmışdır ki, bu da elm və texnikanın sürətli inkişafı ilə əlaqələndirilir.

Milli iqtisadiyyatın inkişaf səviyyəsi böyük ölçüdə innovasiya fəaliyyətinin intensivliyi ilə müəyyən edilir. İnnovasiya fəaliyyətinin intensivləşməsində aparıcı rol dövlətin üzərinə düşür. Ona görə də bu fəaliyyət növünün intensivləşdirilməsi dövlətin aktiv innovasiya siyasətini tələb edir.

Dünya iqtisadiyyatının inkişafının hazırkı mərhələsində müəyyən bir ölkənin iqtisadi inkişaf perspektivləri effektiv innovasiya siyasətindən asılıdır. İnnovasiya siyasəti dövlətin iqtisadiyyatdakı böhranın nəticələrinin aradan qaldırılmasında, daxili bazarın işinin səmərəli təşkilində və gələcəkdə yüksək texnoloji məhsullar üzrə dünya bazarında rəqabət aparmaqda güclü bir vasitədir. Dövlətin innovasiya siyasəti ölkənin uzunmüddətli sosial-iqtisadi inkişaf strategiyasının ayrılmaz hissəsidir. Yəni, dövlətin innovasiya siyasəti onun iqtisadi siyasətinin tərkib hissəsidir.

İnnovasiya siyasətinin formalaşması üçün obyektiv şərtlər yalnız ölkələrin hərbi və iqtisadi qüdrətinin təmin edilməsində deyil, həm də əhalinin həyat səviyyəsinin yüksəldilməsində, cəmiyyətin bütün sahələrinin yeniləşdirilməsində özünü göstərir. İnnovasiya siyasəti vasitəsi ilə dövlət innovasiya fəaliyyətini müəyyən bir şəkildə təşkil edir, yerləşdirir, ölkənin ümumi iqtisadi mexanizmindəki yerini və rolunu müəyyənləşdirir, inkişafında prioritet sahələri tənzimləyir, eyni zamanda bu prosesə dəstək üçün görülən tədbirləri göstərir [6].

Dövlətin innovasiya siyasətinin məqsədi ölkə iqtisadiyyatını sabitləşdirmək və yüksəltmək, elmi-texniki potensialı qorumaq və inkişaf etdirmək, innovasiyaların istifadəsi üçün əlverişli şərait yaratmaqla büdcənin səmərəli icrası və istifadəsinə şərait əldə etməkdir. Hədəfə çatmaq üçün aşağıdakı operativ və strateji planlaşdırma vəzifələri müəyyənləşdirilməlidir:

• sənaye müəssisələrində innovativ fəaliyyətlərin aktivləşdirilməsi yolu ilə yeni rəqabət-qabiliyyətli məhsulların yaradılması və onların keyfiyyətinin dünya səviyyəli göstəricilərə çat-dırılması;

• iqtisadi sahələrin yenidən qurulmasının həyata keçirilməsində elmin nailiyyətlərindən mümkün qədər çox istifadə edilməsi;

• ölkənin davamlı sosial-iqtisadi inkişafını təmin etmək üçün milli elmi, texniki və innovativ proqram və layihələrin formalaşdırılması;

• elm və texniki inkişaf sahəsində müqavilə sisteminin tətbiqi;

• dövlət əhəmiyyətli elmi, texniki və innovativ proqram və layihələrin həyata keçirilməsi üçün büdcə və büdcədənkənar mənbələrdən investisiyaların cəlb edilməsi;

• ixtiraçılıq fəaliyyətinin stimullaşdırılması, məhsulların və texnologiyaların patent qorunması səviyyəsinin artırılması, milli patent bazarının xarici patent axınından qorunması;

• bütün səviyyələrdə büdcələr hesabına aparılan elmi tədqiqatların nəticələri üçün milli prioritetin, müəlliflərin və sənaye mülkiyyətinin patent sahiblərinin maraqlarının qorunmasına kömək göstərilməsi;

• innovativ fəaliyyətlər üçün biznes planlaşdırılmasının inkişaf etdirilməsi.

Qeyd edilən strateji məqsəd və vəzifələrin reallaşdırılması ölkənin innovativ inkişafına şərait yaradar. İqtisadi artımın əsas mənbəyi kimi innovativ inkişaf aşağıdakıları nəzərdə tutur:

• ölkədə innovativ mühitin yaradılması;

• milli innovasiya sisteminin inkişafı və iqtisadiyyatın açıqlığının artırılması, qlobal innovasiya sisteminə inteqrasiyanın təmin edilməsi;

• elmi-tədqiqat və təcrübi konstruktor işlərinin kommersiyalaşdırılması;

• insan potensialının inkişafı və s.

Dövlət iqtisadi siyasətinin tərkib hissəsi olaraq innovasiya siyasəti müəyyən alətlərin istifadəsini əhatə edir. Həmin alətlər innovasiya fəaliyyətinin dövlət tənzimlənməsi metod və vasitələri kimi çıxış edir. İndiki dövrdə yalnız bazar mexanizmləri deyil, həm də məqsədli dövlət siyasəti bütün səviyyələrdə və sektorlarda innovasiya proseslərinin hərəkətverici qüvvəsidir. Bu sahədə dövlətin tənzimləyici rolu xüsusi bir keyfiyyət halına gəlir [4].

İnnovasiya prosesinin dövlətin tənzimlənməsi davamlı inkişafın və iqtisadi təhlükəsizliyin təmin edilməsində zəruri amildir. Azərbaycanda innovasiya fəaliyyəti bir sıra normativ-hüquqi aktlarla tənzimlənir. Bu sənədlər ölkənin innovasiya siyasətinin əsasını təşkil etməklə innovativ fəaliyyətə birbaşa və dolayı yolla təsir göstərir.

Bu normativ-hüquqi aktlar aşağıdakılara imkan verir:

• əlverişli biznes mühitinin və ticarət fəaliyyəti üçün şəraitin yaradılması;
• yerli malların istehsal səmərəliliyinin və rəqabət qabiliyyətinin artırılması;
• innovasiyaların inkişafına yönəlmiş mənbələrdən istifadənin səmərəliliyinin artırılması;
• ölkənin ixrac potensialının artırılması;
• kiçik və orta sahibkarlığın inkişafı.

Şəkil. Dövlətin innovasiya siyasətinin istiqamətləri

İqtisadiyyatda rəqabət mühitini dəstəkləyən hüquqi bazanın yaradılması innovasiya fəaliyyətinin stimullaşdırılmasının əsas şərtidir.

İnnovasiya fəaliyyətinin dövlət tənzimlənməsinin göstərilən istiqamətləri arasında dolayı metodlar ən böyük üstünlüklərə malikdir.

Dövlətin innovasiya siyasəti vasitəsilə elmi-texniki inkişaf üçün prioritetlərinin həyata keçirilməsi mümkündür. Dövlət innovativ texnologiyaların əhəmiyyətini nəzərə alaraq ölkənin elmi-texniki potensialını inkişaf etdirməyə çalışır. Dövlət elmi-texniki potensialın qorunub saxlanılmasında və artırılmasında maraqlı olmalıdır və bu məqsədə çatmaq üçün əsas vasitə innovasiya sahəsindəki fəaliyyətlər olmalıdır. Aktiv innovasiya siyasəti gələcəkdə formalaşacaq ən perspektivli layihələrin və yeniliklərin seçilməsinə əsaslanmalıdır [5].

Azərbaycanın innovasiya siyasəti aşağıdakı prinsiplər nəzərə alınmaqla formalaşmalıdır:

- innovasiya fəaliyyəti milli istehsalın səmərəliliyinin artmasına, texnoloji inkişafa və elmi intensiv məhsulların rəqabət qabiliyyətinin artmasına və nəticədə ölkə əhalisinin həyat keyfiyyətinin yaxşılaşdırılmasına kömək etməlidir;

- dövlət innovasiya siyasətinin həyata keçirilməsi yolu ilə bu sahədə bazar münasibətlərinin inkişafı üçün şərait yaratmalıdır;

- dövlətin innovasiya siyasəti ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsinə və milli təhlükəsizliyinin təmin edilməsinə yönəldilməlidir;

- ölkənin innovativ inkişaf proqramında dövlət dəstəyi tədbirlərinin planlaşdırılması və həyata keçirilməsi zamanı məqsədlər dəqiq müəyyənləşdirilməlidir;

- innovasiya fəaliyyətinə dövlət dəstəyi proqramı çərçivəsində büdcə vəsaitlərinin məqsədyönlü istifadəsini təmin edəcək bazar vasitələrinin, dövlət-özəl tərəfdaşlıq mexanizmlərinin və innovasiya sahəsinin dövlət büdcəsindən birbaşa maliyyələşdirmə metodlarının istifadə edilməlidir;

- ölkənin sosial-iqtisadi inkişafı məqsədləri üçün təsərrüfat subyektlərinin innovasiya fəaliyyətlərinə dövlət dəstəyi həyata keçirilməlidir.

İnnovasiyaya dövlət dəstəyinin aşağıdakı ən vacib formalarını ayırd edə bilərik:

- maliyyə dəstəyi;
- informasiya dəstəyi;

- əmlak dəstəyi;
- təhsil sahəsində dəstək.

1. Müasir şəraitdə maliyyə dəstəyi xüsusi əhəmiyyət kəsb edir. Maliyyə və hüquqi tənzimləməyə əsaslanan innovasiya proseslərinin stimullaşdırılması əsas dövlət dəstəyi mexanizmidir. Bunun sayəsində Azərbaycanda təkmilləşdirilmiş innovativ iqtisadiyyat modeli yaratmaq mümkündür.

İki əsas maliyyə dəstəyini ayırmaq olar:

1.1 Vergilərin və gömrük rüsumlarının ödənilməsi üçün güzəştlərin müəyyən edilməsi. Texnologiyanın və elmin inkişafına, tədqiqat işlərinin aparılmasının stimullaşdırılmasına, müsbət innovativ mühitin yaradılmasına yönəlmiş vergi güzəştləri innovasiyaya dövlət dəstəyinin prioritet və əsas tədbirlərindən biridir. Qabaqcıl inkişaf etmiş ölkələr vergi güzəştləri əsasında innovativ iqtisadiyyat sahəsində böyük nəticələr əldə etmişdir. Azərbaycanda da bu istiqamətdə bir sıra tədbirlər görülür. Bunu Azərbaycan Respublikasının Vergi Məcəlləsinin yeni texnika və texnologiyalar tətbiq edən müəssisələr üçün vergi güzəştlərinin tətbiq edilməsini nəzərdə tutan normaları sübut edir. Belə normalardan biri kimi Vergi Məcəlləsinin 113-cü maddəsini göstərə bilərik. Bu maddəyə görə, gəlir götürmək məqsədilə elmi-tədqiqat, layihə-axtarış və təcrübə-konstruktor işlərinə çəkilən xərclər gəlirdən çıxılır. Bu da vergi ödəyicisinin vergi tutulan gəlirini azaltmaqla onun sərəncamında əlavə maliyyə vəsaitinin qalmasına gətirib çıxarır [2].

Bundan əlavə digər vergi güzəştləri də mövcuddur. Belə ki, Vergi Məcəlləsinə 2012-ci il 21 dekabr tarixli qanunla edilmiş dəyişikliklərlə əsasən yeni yaradılan sənaye və texnologiya parkının rezidentlərinə yeddi il ərzində gəlir, mənfəət, əmlak, torpaq vergiləri, ƏDV ilə bağlı güzəştlər tətbiq olunur [1].

Beləliklə, yeni texnologiya və məhsulların yaradılması və ya təkmilləşdirilməsi ilə əlaqəli fəaliyyətlə məşğul olan müəssisələrə vergi güzəştləri tətbiq olunur. İnnovasiya fəaliyyəti subyektləri üçün vergi güzəştlərinin tətbiqi Azərbaycanda innovativ inkişafı stimullaşdıran əsas yollardan biridir.

1.2 İnnovasiya fəaliyyətinə büdcə dəstəyi. İnnovasiya fəaliyyəti üçün dövlətin əsas iqtisadi aləti tədqiqat və inkişafın dövlət büdcəsindən birbaşa maliyyələşdirilməsidir. Büdcə dəstəyi innovasiya fəaliyyətinin stimullaşdırılmasının ən təsirli formalarından biridir. Dövlət dəstəyi kimi qrantlar da fəal şəkildə istifadə olunmalıdır. Qrantlar elmi inkişaf və tədqiqatların dövlət tərəfindən dəstəklənməsi və ya stimullaşdırılmasını təmin edə bilir [3].

Ümumi olaraq deyə bilərik ki, dövlətdən maliyyə dəstəyi formalarına elmi təşkilatlara subvensiya və subsidiyaların ayrılmasını, təcili olaraq həlli tələb olunan elmi tədqiqatlar üçün qrantların təsis edilməsini, fərdi elmi nailiyyətlərə görə mükafatların verilməsini və s. aid edə bilərik. Mövcud şəraitdə büdcə fondlarından istifadənin səmərəliliyini artırmaqla yanaşı, innovasiya fəaliyyətinə kommersiya banklarının, sığorta təşkilatlarının, xarici ölkələrin investorlarının maliyyə resurslarının cəlb edilməsi üçün onları stimullaşdırmaq lazımdır.

2. İnformasiya dəstəyi. Dünya təcrübəsi göstərir ki, son kəşflər və inkişaflar, müvafiq seqmentlərdə bazar şərtləri, eksperimental və elmi-texniki xidmətlərə tələb, patentlər və nou-haular haqqında məlumatlar toplamaq üçün strateji əhəmiyyətli vasitə informasiya dəstəyidir. Buna görə də texnologiya və elm sahəsində müxtəlif informasiya sistemlərinin yaradılması və inkişaf etdirilməsi vacibdir. İnformasiya dəstəyi əsasında məlumatların vaxtında toplanması, qeydiyyatı, işlənməsi, saxlanılması və istehlakçıya çatdırılması mümkündür.

3. İnnovativ fəaliyyət subyektlərinə əmlak dəstəyi torpaq sahələrinin, binaların, tikililərin, qeyri-yaşayış sahələrinin, avadanlıqların, maşınların, mexanizm və qurğuların, nəqliyyat vasitələrinin, inventar alətlərinin dövlət və regional proqramlarına uyğun olaraq əvəzsiz və ya güzəştli şərtlərlə verilməsini nəzərdə tutur.

4. Təhsil sahəsində dəstək. Bu dövlət dəstəyinin əsasını innovasiya fəaliyyəti sahəsində ixtisaslı kadrların hazırlanması təşkil edir.

Yuxarıda göstərilən innovasiya fəaliyyətinə dəstək formaları dövlətin əsas və alt proqramlar çərçivəsində həyata keçirilir. Bu günə qədər Azərbaycanda innovasiya fəaliyyətinin inkişafını təmin etmək üçün bir sıra məqsədli proqramlar hazırlanmış və reallaşdırılmışdır. Qeyd edək ki, ölkənin

sosial-iqtisadi inkişafının modernləşdirilməsi və keyfiyyətcə yaxşılaşdırılması proseslərinin həyata keçirilməsinin sistemli əsasını məhz məqsədli proqram sənədləri təşkil edir. Həmin məqsədli proqramlar ölkənin innovasiya potensialının qorunmasına və inkişafına kömək edir.

Ölkənin innovativ potensialının qorunması və inkişafı üçün aşağıdakı sahələrdə də strategiya hazırlamaq lazımdır:

- innovativ fəaliyyətin genişləndirilməsi üçün bank kreditlərinin cəlb edilməsi sisteminin təkmilləşdirilməsi;
- innovasiya proseslərinin və innovativ fəaliyyətlərin maliyyələşdirilməsi üçün amortizasiya fondundan məqsədyönlü istifadə sisteminin formalaşdırılması;
- innovativ fəaliyyətdə əhəmiyyətli artımın təmin edilməsi məqsədilə vergi qanunvericiliyində dəyişikliklərə dair təkliflərin hazırlanması;
- innovasiya subyektləri üçün effektiv bazar mexanizmi kimi lizinqdən istifadə sisteminin inkişaf etdirilməsi, bahalı maşın və avadanlıqlardan istifadə edərək yüksək texnoloji məhsulların istehsalı.

İnnovasiya fəaliyyətinin tənzimləyici və stimullaşdırıcı kimi funksiyalarına əsaslanaraq ölkənin davamlı inkişafı üçün innovasiya siyasətinin formalaşdırılması modelini qura bilərik.

Cədvəl Davamlı inkişaf üçün innovasiya siyasətinin modelləşdirilməsi

Davamlı inkişaf	**İnnovasiya siyasəti**			
Məqsədlər	Davamlı inkişafın formalaşdırılması		İnnovativ inkişafın dəstəklənməsi və stimullaşdırılması	İnnovativ davamlı inkişafın yaradılması
Metodlar	Birbaşa		Dolayı	
Formalar	İndikativ planlaşdırma	Proqram-məqsədli	Hüquqi mexanizmlər	İnfrastrtuktur mexanizmləri
Nəticələr	Ölkənin davamlı inkişafı üçün infrastruktur dəstəyinin əhəmiyyətinin artırılması		Uzunmüddətli perspektivdə ölkənin davamlı inkişafına nail olmaq	

Təqdim olunan model ixrac yönümlü innovativ məhsullar istehsal etməklə ölkənin və onun müəssisələrinin beynəlxalq bazarlarda rəqabət üstünlüklərinin formalaşmasını nəzərdə tutur.

Nəticə

Yuxarıdakıları ümumiləşdirərək qeyd etmək olar ki, innovasiya siyasəti dövlətin əlində mühüm vasitədir. İnnovasiya sahəsinin inkişafı əksər inkişaf etmiş ölkələrdə dövlət siyasətinin həyata keçirilməsində prioritet istiqamətlərdən biridir. Ölkənin dünya arenasındakı rəqabət qabiliyyəti, əsasən bu sahənin inkişafından asılıdır. Odur ki, dövlət innovasiya siyasəti sahəsində daim təkmilləşdirmələr aparmalıdır. İnnovasiya siyasətinin təkmilləşdirilməsi sahəsində dövlətin əsas vəzifəsi Azərbaycanın milli strateji prioritetlərini həyata keçirmək və əhalinin həyat keyfiyyətini artırmaq mənafeyi baxımından rəqabətə davamlı innovativ məhsulların bazara çıxarılması üçün iqtisadi şərait yaratmaqdır. Həmin milli strateji prioritetlərə iqtisadi artımın stimullaşdırılmasını, təhsilin, fundamental elmin inkişaf etdirilməsini, ölkənin milli maraqlarının təmin edilməsini və iqtisadi təhlükəsizliyinin qorunmasını, dövlətin və iqtisadiyyatın sahibkarlıq sektorunun səylərini qarşılıqlı faydalı tərəfdaşlıq əsasında birləşdirməyi aid etmək olar.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi, Bakı, 2012.
2. Musayev A.F. İnnovasiya iqtisadiyyatı və vergi stimullaşdırması. Bakı: Azərbaycan Universitetinin nəşriyyatı, 2014, 184 s.
3. Бондаренко Н.Е. Роль государственной инновационной политики в развитии современной экономики. Вестник РЭА, 2010, № 4, с.44-51
4. Киселева В.В., Колосницына М.Г. Государственное регулирование инновационной сферы. М.: ИД ГУ ВШЭ, 2008, с. 15.

5. Шилов А. Инновационная экономика: наука, государство, бизнес // Вопросы экономики, 2011, с. 127-137.
6. Яшин С.Н. Экономика и финансовое обеспечение инновационной деятельности. Т. 1. Экономика. М: БХВ-Петербург, 2014, 688 с.

KİÇİK SAHİBKARLIĞIN İNNOVATİV İNKİŞAF İSTİQAMƏTLƏRİ

Əkbərov T. B., i.f.d., (BDU)
akberovtaleh@yahoo.com
Məmmədov C. Ə., doktorant ADİU
jamammadov@deloitte.az
Musayev A.R., doktorant ADİU
azer_095@mail.ru

Xülasə

Məqalədə innovativ fəaliyyətin rəqabət qabiliyyətinə təsiri araşdırılmış, kiçik sahibkarlığın innovativ potensialının inkişafında vergi güzəştlərinin yeri və rolu müəyyənləşdirilmiş və kiçik innovativ biznesin problemləri üzə çıxarılmışdır. Məqalədə həmçinin kiçik innovativ biznesin inkişafına mane olan səbəblər aşkarlanmış və onların aradan qaldırılması ilə bağlı müvafiq təklif və tövsiyələr verilmişdir.

Açar sözlər: innovativ fəaliyyət, kiçik sahibkarlıq, innovativ biznes, vergi güzəştləri, elm-təhsil-biznes əməkdaşlığı.

Ticarət iştirakçıları arasında rəqabət yeni məhsulun və onun istehsalı üçün yeni texnologiyanın araşdırılması və təcrübi-konstruktor işləmələri mərhələsində başlayır.

Müəssisənin innovativ fəaliyyətinin effekti onun rəqabət qabiliyyəti baxımından üç hissədən ibarətdir:

1) malların rəqabət qabiliyyətinin artırılması, qısa və orta müddətə rəqabət üstünlükləri yaradılması;

2) yeni ehtiyaclar aşılamaq, uzunmüddətli dövrdə rəqabət üstünlükləri yaratmaq;

3) istehsal səmərəliliyinin artırılması, əmtəə kütləsinin rəqabət qabiliyyətinin müəssisənin rəqabət qabiliyyətinə çevrilməsi.

Rəqabətlilik amillərindən biri də istehsal olunan məhsullarda - intellektual fəaliyyətin nəticələrində qabaqcıl elmi və texniki həllərin istifadə dərəcəsi ilə təyin olunan malların texniki mükəmməlliyidir.

Kiçik və orta müəssisələrin innovativ fəaliyyəti müəyyən göstəricilərdə ifadə olunur, məsələn kiçik və orta müəssisələrin tədqiqat və işləmələrə daxili xərclərinin kiçik müəssisələrin istehsalının ümumi həcmindəki payı; kiçik və orta müəssisələrin ümumi sayında innovativ fəaliyyət göstərən kiçik və orta müəssisələrin payı; kiçik və orta sahibkarlığın ümumi məhsulunda innovativ məhsulların payı. Son zamanlarda Azərbaycanda kiçik və orta sahibkarlığın innovativ fəaliyyət göstəricilərinin hərəkətində çox istiqamətli tendensiyalar müşahidə olunur: birincisi, məhsulların innovativlik göstəricisinin kəmiyyətində azalma, ikincisi, innovativ-aktiv müəssisələrin payının artması[1].

Dövlətin innovativ fəaliyyətlərini inkişaf etdirdiyi iqtisadi tədbirlər arasında birbaşa və dolayı yolları müəyyən etmək olar. Birbaşa metodlara maliyyə investisiyaları, kreditləşmə, lizinq və s. şəklində investisiyalar aiddir. Dolayı tənzimləmə metodları arasında vergi güzəştləri, ilk növbədə, kiçik müəssisələr üçün vacibdir.

ÜDM-nin müəyyən hissəsini dövlət tərəfindən kiçik müəssisələrin vergi ödəmələri şəklində səfərbərliyi bir tərəfdən dövlətin maliyyə resurslarını təşkil edir, digər tərəfdən vergi sistemi tənzimləmə funksiyasını yerinə yetirməli və ictimai istehsala, onun quruluşu və dinamikasına

iqtisadi təsir, kiçik müəssisələrin fəaliyyətinin innovativ iqtisadiyyata yönəldilməsi aləti kimi xidmət etməlidir.

Effektiv vergi sistemi əmtəə istehsalçısını dəstəkləyəcək, kiçik müəssisələrin fəaliyyətini optimallaşdıracaq və investisiya cəlb edəcəkdir. Mövcud vergi sistemi kiçik sahibkarlığın inkişafını və sənaye müəssisələrinin potensialının artmasını lazımi səviyyədə təmin etmədiyi üçün onun islahatına ehtiyac var. Vergilərin təşviq funksiyasını həyata keçirmək üçün o, hər bir sfera və sahənin xüsusiyyətlərini nəzərə almalıdır.

Vergi güzəştlərinin rolu, innovativ texnologiyaların tətbiqi ilə istehsalın modernləşdirilməsinə və texnoloji yenilənməsinə yönəldilmiş maliyyə resurslarını vergi tutulan bazadan azad edərək vergi ödəyicilərinin vergi yükünü azaltmaqdan ibarətdir. Elmi-tədqiqat və təcrübi-konstruktor işlərinin (ETTKİ) həyata keçirilməsində kiçik sahibkarlıq subyektlərinə vergi güzəştləri vergi ödəyicilərinin innovasiya fəaliyyətinə stimullaşdırıcı təsir göstərir.

İnnovasiya fəaliyyətinin vergi stimullaşdırılması üzrə tədbirləri həyata keçirərək dövlət orta və uzunmüddətli dövrdə nəticə əldə etməyi gözləyir. Vergi ödəyicilərinin fəaliyyətinə innovativ texnologiyaların tətbiqinin təsiri məhsulların keyfiyyətinin və rəqabət qabiliyyətinin artmasına səbəb olur və nəticədə istehlakçıların üstünlük vermələrini dəyişdirir. Bu, bütün səviyyələrdə büdcələrə vergi gəlirlərinin artırılması yolu ilə innovativ fəaliyyətin stimullaşdırılmasından əldə olunan maliyyə nəticəsini müəyyənləşdirir[2].

Vergi güzəştlərinin effektivliyinin qiymətləndirilməsi mübahisəli bir prosesdir. Qiymətləndirmə kriteriyalarının formalaşmasına təsir göstərən ilk amil innovasiya prosesinin əhəmiyyətli müddətidir. İkinci amil, innovativ texnologiyanın tətbiqi və icrasının mümkün nəticələrinin qeyri-müəyyənliyi ilə əlaqəli innovativ və vergi risklərinin olmasıdır. Bu şərtlər daxilində dövlət tərəfindən həyata keçirilən innovativ fəaliyyətlərə dəstək tədbirləri yalnız ünvan xarakterli deyil, həm də minimal risk səviyyəsinə malik olmalıdır [3].

Statistik məlumatlara görə, Azərbaycanda kiçik sahibkarlığın ümumi strukturundakı innovativ sahibkarlığın payı, müxtəlif təxminlərə görə, 1,4 ilə 3,5% arasında dəyişir.

Eyni zamanda, ölkənin ən güclü innovasiya potensialı diqqəti cəlb edir.

Kiçik innovativ biznesin inkişafına nə mane olur?

1. Qanuni əsasların olmaması.

Paradoks ondadır ki, "innovativ fəaliyyət" anlayışının özü hüquqi anlayış deyil. İlk baxışdan, bu gün elmi-texniki sferada müəssisələrin kiçik formalarının inkişafına Sahibkarlığın İnkişafı Fondunun (SİF) veb saytında (http://www.//edf.gov.az/) əks olunan qanunvericilik bazası mövcuddur. Qanunların siyahısı aşağıdakı kimidir: AR Mülki Məcəlləsi, AR Cinayət Məcəlləsi, Patent Qanunu, "Müəllif hüququ və əlaqəli hüquqlar haqqında" Qanun.

Sözügedən qanunlar həqiqətən əqli mülkiyyət sahəsini tənzimləyir, lakin bu sahənin əsas konsepsiyasından - “innovasiya fəaliyyəti” ndən belə bəhs etmir. Mövcud qanunlarda "innovasiya" kimi anlayış yoxdur, bunun əvəzinə "ETTKİ" ifadəsi istifadə olunur, lakin "innovasiya fəaliyyəti" anlayışı daha genişdir.

Vergi qanunvericiliyinin də təkmilləşdirilməsinə ehtiyac var. Hesab edirik ki, investisiya fəaliyyətləri üçün sürətləndirilmiş amortizasiya və məqsədli vergi güzəştləri kimi effektiv vergi güzəştləri metodlarından istifadə edilməsi məqsədəuyğundur.

2. Kiçik innovativ biznes üçün minimal tələb.

Aydındır ki, zəif tələb aşağı rəqabətin nəticəsidir. Öz növbəsində sahibkarlar arasında motivasiya olmaması səbəbindən rəqabət yoxdur. Sahibkarların, xüsusən ticarətlə gəlirli olacağına zəmanət verilən sahələrdə məşğul olmağı üstün tutmaları tamamilə təbiidir.

Hal-hazırda sənaye sektorunda inhisar yüksək səviyyədə inkişaf etmişdir, buna görə rəqabət (müəssisələrin innovasiyalara əsas mühərriki) yoxdur.

3. Kadr problemi.

İnnovasiyada "direktorlar korpusunun nəsillərinin dəyişməsi" baş verir. Təcrübəli kadrlar ayrılır, gənclər isə bu sahədə təcrübəsizdirlər. Gənclərin təhsilinin keyfiyyəti şübhəsizdir, lakin yeni gələnlərdə yalnız “köhnə” nəslin sahib olduğu böyük innovativ layihələr aparmaq bacarığı çatmır. Azərbaycanda xüsusilə innovasiyaları bazara təqdim edə biləcək menecerlər yoxdur.

Kadr probleminin ikinci tərəfi “beyin axını” dır. Bu proses Azərbaycan üçün yeni deyil, baxmayaraq ki, son zamanlar xarici təcrübə qazanan “tərk edənlərin” bir qisminin yenidən vətənlərinə döndükləri məlumdur.

4. İnnovasiya fəaliyyətinin maliyyə mexanizmləri.

Kifayət qədər ciddi intellektual potensiala sahib olan kiçik innovativ müəssisələrin problemi, bir qayda olaraq, prototiplər yaratmaq üçün bahalı maddi-texniki bazaya ehtiyaclarıdır. Sual yaranır: pulu haradan almaq olar? Hazırda kiçik innovativ sahibkarlıq subyektlərinə maliyyə dəstəyinin bir neçə yolu var.

Kreditləşmə. Banklar, məlum səbəblərdən çox nadir hallarda kiçik müəssisələrə, xüsusən də innovativ müəssisələrə borc verirlər. Hər şey məntiqlidir: innovasiya olduqca riskli bir sahədir. Burada geri ödəmə müddəti dərəcəsini və işləmələrin gəlirliliyini proqnozlaşdırmaq son dərəcə çətindir.

Biznes mələkləri. Qeyd edək ki, iqtisadi lüğətdə "biznes mələkləri" şəxsi fondlarını riskli layihələrə yatıran özəl investorlar adlanır: inkişafın başlanğıc mərhələsindəki müəssisələr və ya minimum texniki-iqtisadi əsaslandırma ilə innovativ ideyalar.

Vençur fondları. Bir çox mütəxəssislər Azərbaycan risk fondlarının fəaliyyətinə kifayət qədər şübhə ilə yanaşır. Alternativ olaraq elmi-texniki sferada kiçik innovativ müəssisələrə yardım SİF tərəfindən təklif edilir. Azərbaycanda kiçik müəssisələrin riskli maliyyələşdirilməsinin əsas problemlərindən aşağıdakıları qeyd edə bilərik:

- effektiv mexanizm yaradılmamışdır: əhalinin əmanətlərinin innovasiyalara transformasiyası;
- texniki sahədə tez-tez dəyişən “oyun qaydaları” texniki tərəqqinin inkişafına obyektiv maneçilik törədir;
- ölkənin iqtisadi və siyasi vəziyyətinin sabitliyində potensial investorların qeyri-müəyyənliyi və bu səbəbdən risk etmək istəməmələri;
- ABŞ-dan fərqli olaraq, Azərbaycanda, pensiya fondları və sığorta şirkətləri öz vəsaitlərini riskli kapital şirkətlərinə yatırmaq üçün qanuni hüquqlara malik deyillər, ancaq onları yalnız dövlət qiymətli kağızlarına, yəni yalnız risksiz maliyyə aktivlərinə investisiya edə bilərlər (risk-free). Nəticə etibarilə, riskli kapital fondları kiçik maliyyə şirkətlərini inkişaf etdirmək üçün bu maliyyə resurslarını cəlb edə bilməz;
- ümumilikdə və xüsusən də kiçik biznes sahəsində vençur maliyyələşdirməsinin inkişafı və istifadəsi üçün mükəmməl olmayan hüquqi baza;
- ölkənin sabitləşdirmə fondunun qismən istifadəsinə dair aydın investisiya qərarlarının olmaması: sonuncusunu yüksək riskli, o cümlədən vençur layihələrin inkişafına yönəltmək məsləhətdir;
- vençur biznesinin inkişafı üçün əlverişli texniki və iqtisadi şəraitin yaradılmasında və nəticədə kiçik müəssisələrin innovativ fəaliyyətinin artmasında dövlətin zəif rolu;
- innovativ layihənin həyata keçirilməsinin mümkün mənfi sosial (ekoloji daxil olmaqla) nəticələrinin əlavə əsaslandırılmasını tələb edən, xüsusən də yüksək texnoloji sənaye sahəsində fəaliyyət göstərən kiçik müəssisənin açılması üçün kompleks prosedur;
- dövlət müəssisələrinin kiçik müəssisələr üçün zəruri olan istehsal infrastrukturunun yaradılmasında qeyri-kafi fəaliyyəti: yollar, rabitə, enerji, su, istilik təchizatı və s.;
- innovasiya prosesləri üçün etibarlı uzunmüddətli maliyyə mənbələrinin olmaması;
- vençur fondunun investorları üçün yaranan zərərin əvəzini ödəmək ümidi olmadan qoyulan bütün vəsaiti itirmək təhlükəsi həmişə var. İnvestisiya kapitalına investisiya qoymaqla, investor bir neçə il ərzində yüksək likvidli qiymətli kağızlarla müəyyən bir paket alacağını gözləyir, lakin gözləntilər səhv ola bilər.

5. Əlverişsiz iqtisadi fon.

Azərbaycanın iqtisadi inkişafının keçid dövrü: ölkənin sənayeləşməsini bitirmədən bazar mexanizmlərini tətbiq etməyə çalışırıq. İqtisadiyyat, elm və təhsil böhranı kiçik innovativ biznesin inkişafına imkan vermir.

6. Tədqiqatçıların aşağı motivasiyası.

Paradoksal olaraq, elmi və texnoloji mühitdəki tədqiqatçılar belə, elm və biznesin uyğun şeylər olduğuna inanmaqdan imtina edirlər. Bir çox tədqiqatlar, tərifə görə, gəlirli ola bilməz, çünki onlar fundamental xarakter daşıyırlar. Yalnız nəticələrin müəyyən sahələrdə tətbiqi bir iş adamına ən azı bir növ gəlir gətirə bilər. Kiçik müəssisələr heç vaxt zəmanətli mənfəət vermədikləri üçün əsl tədqiqatlarla maraqlanmamışlar. Tədqiqat həqiqətən dəyərlidirsə, kiçik müəssisələrdə ümumiyyətlə bu cür pul yoxdur.

Bu gün alimlər öz araşdırmalarında daha çox dövlətin dəstəyinə güvənirlər. Müəyyən bir fondun elmi axtarışa sponsor olduğu bir alternativ də qrant axtarır. Maraqlıdır ki, tədqiqatçılar, kiçik müəssisələrlə şəxsi əməkdaşlıq təcrübələrindən bəhs edərək, dəfələrlə ticarət saxtakarlığını xatırlatdılar. Yalan müqavilə bağlayaraq, "işləməyə lazım olan hər şeyi öyrənərək" sahibkar sadəcə olaraq yox oldu. Belə çıxır ki, ideya "akkumulyatorları" tərəfində kiçik sahibkarlığa davamlı inamsızlıq var. Bəlkə də bu, sahibkarlıq tərəfindən investisiyaya marağın olmamasının əsas səbəbidir.

Yuxarıda deyilənlərdən belə nəticə çıxarmaq olar ki, tətbiqi tədqiqatların maliyyələşdirilməsi kiçik müəssisələrin marağındadır, lakin fundamental tədqiqatlara dəstək patronajdır. Halbuki nnovasiyanın gələcəyi bir çox cəhətdən fundamental elmlə əlaqəlidir.

7. Əqli mülkiyyətin qorunmasına tələb.

Azərbaycanın innovativ şirkətləri tərəfindən həyata keçirilən yerli elmi, elmi-texniki və tədqiqat işləmələrinin maliyyələşdirilməsinin digər bir mənbəyi Qərbin tədqiqat layihələri çərçivəsində proqramlardır. Ancaq ölkəmizdə bu şəkildə inkişaf etdirilən texnologiya tətbiq edilə bilməz, çünki bu hüquqlar xarici müştəridə qalır. Buna görə, əqli mülkiyyətə dair hüquqlarını qoruyan ölkə üzrə bir qanun hazırlamaq və qəbul etmək son dərəcə vacibdir.

Fikrimizcə, dövlətin dünyada ümumiyyətlə qəbul edilmiş əqli mülkiyyətə sahiblik və idarəetmə sxemlərindən hələ də istifadə etməməsinin əsas səbəbi, Azərbaycan iqtisadiyyatında istifadə olunan xeyli sayda "borc götürülmüş" Qərb texnologiyalarından ibarətdir. Əqli mülkiyyətin qorunması praktikasında beynəlxalq hüququn tanınması dərhal bu "borc götürülmüş" texnologiyaların qanunsuz olmasına səbəb olacaq və müəssisələr istifadələri üçün əhəmiyyətli miqdarda vəsait ödəmək məcburiyyətində qalacaqlar (hər bir texnologiyanın müəllifi olduğu nəzərə alınmaqla, məbləğlər əldə edilə bilər. bəzi təxminlərə görə ildə bir neçə yüz milyon dollar). Dövlətin bu kimi texnologiyalarla əlaqəli beynəlxalq hüquq normalarını tanımaqdan imtina etməsi, əksər Qərb investorlarının Azərbaycanda yalnız elm tutumlu məhsulların “son yığılması” və “qablaşdırılması” üçün istehsal müəssisələri açmaqla məhdudlaşmasına gətirib çıxarır. Bu, ən yaxşı şəkildə dərman vasitələrində və kompozit materialların istehsalında özünü göstərir.

Azərbaycan patent qanunvericiliyinin kifayət qədər mükəmməl olduğuna inanılır, lakin bu, patent sahibinin intellektual mülkiyyətinin qorunmasına zəmanət verildiyi anlamına gəlmir (bu səbəbdən rəsmi statistikalar işləmələr və innovativ həllər sahəsindəki vəziyyəti əks etdirmir). Bu bir neçə səbəbdən baş verir.

Fikrimizcə, əsas olanları vurğulayaq.

Birinci səbəb, Azərbaycanda üç növ patentləşdirmənin olmasıdır: ideyalar, ETTKİ. Hər hansı bir mərhələdə patentli işləməni əsas götürə, dəyişdirə və özümüzünkü kimi patentləşdirə bilərik. İdeya bənzərsizdirsə və eyni zamanda patentləşdirilib, amma həyata keçirilmirsə, kifayət qədər qısa müddətdən sonra güclü elmi və maliyyə struktura malik olan təşkilat tərəfindən yalnız texniki cəhətdən araşdırıla bilər, yalnız Azərbaycanda deyil, həm də xaricdə və müəyyən bir məhsulda təcəssüm olunan tədqiqat işləməsi olaraq patentləşdirilmişdir. Bu vəziyyətdə, innovasiya hüquqlarını Azərbaycanın qanunvericilik bazasının hazırkı səviyyəsi ilə, habelə arbitraj məhkəmələrinin səmərəsiz işi ilə sübut etmək praktik olaraq mümkün deyil. Buna görə dövlət qeydiyyat orqanlarının mövcud statistikası, bir qayda olaraq, təmsilçi hesab olunmur. Geniş miqyaslı layihələr üzərində işləyən yerli innovatorlar patentləşdirməyə yalnız innovasiyanın kütləvi istehsala və ya xaricdə satışa tam hazır olduqda müraciət edirlər.

İkinci səbəb. Patentlər uzun müddətə qeydiyyata alınır (bəzən bir ilə qədər). Təhlil prosesində işləmələr "sızmalar" mümkün olan bir çox mütəxəssis tərəfindən araşdırılır. "İçəri" məlumatları satın alan təşkilat onu digər ölkələrdə patentləşdirə bilər ki, bu da həqiqi sahibini gələcəkdə onu

həm lisenziyalaşdırılmış şəkildə, həm də Azərbaycanda patentləşdirilmiş texnologiyaya əsaslanan məhsul olaraq ixrac etmək imkanından məhrum edir.

Üçüncü səbəb. Biznes və ali təhsil müəssisələri arasında qarşılıqlı əlaqə. Kiçik innovativ müəssisənin üzləşdiyi yeni məhsulların hazırlanması və mənimsənilməsində əsas çətinliklərdən biri də əhəmiyyətli laboratoriya və tədqiqat bazasının və elmi kadrların olmamasıdır. Aydındır ki, elmi-tədqiqat və layihə institutlarında və bürolarda lazımi işləmələr mövcuddur, lakin kiçik şirkət üçün bunların alınması xərcləri böyük ola bilər. Eyni zamanda, bir çox kiçik müəssisə eyni vaxtda eyni innovasiyalara ehtiyac duyur və bu da kiçik innovativ müəssisələri birliklərdə (ittifaqlarda) birləşdirən vasitəçilərin yaranmasına kömək edir. Belə birliklər geniş tətbiq dairəsinə sahib olan innovasiyaların yaradılması üçün əhəmiyyətli maliyyə dəstəyi verə bilər.

Kiçik innovativ sahibkarlığın ixtisaslaşmış elmi təşkilatlar və digər firmalarla əməkdaşlığı davamlı olaraq elmi araşdırmalara başlayan, innovativ ideyaları yeni və ya təkmilləşdirilmiş məhsula, texnologiyaya və ya sosial xidmətlər göstərməyə yanaşmaya çevirən elmi və istehsalat birliklərinin yaranmasına imkan verir. Eyni zamanda, təcrübə ilə birləşən elmi tədqiqatlar tətbiq olunur və kiçik sahibkarlıq məhsulların keyfiyyətini və rəqabət qabiliyyətini artıran elmi və texnoloji nailiyyətlərlə zənginləşdirilir. Ali təhsil müəssisələrinin kiçik innovativ firmalarla əməkdaşlığı bu baxımdan böyük imkanlara malikdir. Məsələn, texniki universitetlərin kafedraları yeni texnologiyaların və texnoloji avadanlıqların inkişaf etdirilməsində kiçik müəssisələrə effektiv yardım göstərə bilirlər və kiçik müəssisələr də öz növbəsində universitetlərin təcrübə istehsal bazasına çevrilə və onları maliyyə mənbələri ilə dəstəkləyə bilər. Bundan əlavə, aspirantura təhsili sistemində də daxil olmaqla konkret yüksək texnoloji sahələr üçün məqsədyönlü mütəxəssis hazırlığı mümkündür.

Nəticə.

Müxtəlif strukturların işləmə modelini əhəmiyyətli dərəcədə dəyişdirən müasir informasiya texnologiyaları sayəsində kiçik müəssisələrə yeni fəaliyyət növlərinə giriş təmin olunur və dünya əmtəə və xidmətlər bazarında kiçik və orta sahibkarlığın payı artır. İnformasiya texnologiyaları istehsal xərclərinin azaldılmasına şərait yaradır və kiçik müəssisələrin rəqabət qabiliyyətlərini artırmasına imkan yaradır. İqtisadi inkişafı və ölkənin dünya bazarlarında layiqincə təmsil olunmasını təmin edən özəyi rəqabətçi kiçik sahibkarlıq olan innovativ iqtisadiyyat olduğundan, onun təmin edə biləcəyi dəstək infrastrukturuna xüsusi diqqət yetirmək lazımdır ki, bu da gələcəkdə uğurla yeniliklər tətbiq etməyə və beynəlxalq bazarlarda fəaliyyət göstərməyə yardım edəcəkdir.

Ədəbiyyat siyahısı

1. Новая парадигма управления социально-экономическим развитием регионов России / М. В. Васильева, Т. В. Владимирова, Е. В. Романенко, В. П. Часовой; под общ. ред. М. В. Васильевой. – М.: Планета, 2013. – С. 164–165.

2. Доля инновационного предпринимательства в общей структуре малого бизнеса [Электронный ресурс]. – Режим доступа: http://www.bishelp.ru (müraciət tarixi: 22.06.2021).

3. Seyfullayev İ.Z. “Vergi güzəştlərinin səmərəliliyinin qiymətləndirilməsinin nəzəri-praktiki məsələləri”. // Azərbaycanın vergi xəbərləri, 2012-ci il, .№ 6, s. 125-138.

Akbarov T.B. (BSU), **Mammadov J.A.** (UNEC), **Musayev A.R.** (UNEC)

Innovatıve Development Dırectıons Of Small Entrepreneurshıp

Summary

The article examines the impact of innovative activities on competitiveness, identifies the place and role of tax incentives in the development of innovative potential of small business, and identifies the problems of small innovative businesses. The article also identifies the obstacles to the development of small innovative businesses and provides relevant suggestions and recommendations for their elimination.

Keywords: innovative activity, small business, innovative business, tax benefits, science-education-business cooperation.

Акбаров Т.Б. (БГУ), **Мамедов Ж.А.** АГЭУ (UNEC),
Мусаев А.Р. АГЭУ (UNEC)

Инновационные направления развития малого предпринимательства

Резюме

В статье исследуется влияние инновационной деятельности на конкурентоспособность, определяется место и роль налоговых льгот в развитии инновационного потенциала малого бизнеса, выявляются проблемы малого инновационного бизнеса. В статье также определены препятствия на пути развития малого инновационного бизнеса и даны соответствующие предложения и рекомендации по их устранению.

Ключевые слова: инновационная деятельность, малое предпринимательство, инновационный бизнес, налоговые льготы, сотрудничество науки, образования и бизнеса.

ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ВНЕДРЕНИЯ ИННОВАЦИЙ В АГРАРНОМ СЕКТОРЕ

Р.С. Гусейнов, Диссертант
Азербайджанского Университета Кооперации
rafael.huseynov.77@bk.ru

Резюме

Эффективное использование инноваций в современное время - основа развития любой отрасли. Применение инновационных технологий, особенно в аграрном секторе, имеет большое социально-экономическое значение. Задержки в этой области могут создать проблемы с продовольственной безопасностью и урбанизацией в стране.

В представленной статье обоснованы основные направления и преимущества применения инноваций в аграрной сфере.

Ключевые слова: инновации, конкурентоспособность, интенсификация, агробизнес, производительность,

В ближайшие двадцать–тридцать лет человечество столкнется с серьезными глобальными вызовами, которые касаются, прежде всего, трех направлений: сохранения природных ресурсов, охраны окружающей среды и продовольственной безопасности. Для большого числа стран уже сегодня продовольственная безопасность становится насущной проблемой. По оценкам демографов, к середине XXI века население мира увеличится на 5 млрд человек, и львиная доля этого прироста придется на Китай, Индию, Пакистан, Бразилию и т. д. (то есть на развивающиеся страны). В настоящий момент почти 1 млрд. человек в мире вынуждены ежедневно голодать, и если активные действия, направленные на борьбу с голодом, не будут предприниматься ведущими экономиками мира, то велика вероятность, что уже к 2050 году половина земного шара будет жить в условиях голода или постоянного недостатка продовольствия.

Развитие сельского хозяйства является определяющим фактором обеспечения продовольственной безопасности. Интенсификация и инноватизация сельского хозяйства являются необходимым условием для удовлетворения продовольственной потребности населения планеты. Однако развитие аграрного производства может стать и катастрофическим по своим последствиям процессом для мировой экосистемы и человечества, что связано с нехваткой водных ресурсов, потерей посевных площадей из-за эрозии почвы, деградацией, засолением и опустыниванием земель, исчезновением лесов, угрозой биологическому разнообразию видов и существованию человечества в целом. И поэтому инновационное развитие сельского хозяйства имеет такое большое значение как для будущего российской экономики, так и для мирового хозяйства.

Внедрение инновационных проектов должно стать приоритетным направлением развития сельского хозяйства республики в ближайшей и среднесрочной перспективе, что позволит увеличить производительность труда, обеспечить экономию материальных, финансовых и кадровых ресурсов, повысить объемы экспорта и внутреннего потребления, уменьшить объем импорта за счет замещения сельскохозяйственными товарами внутреннего производства. В конечном итоге вышеперечисленные процессы будут способствовать росту конкурентоспособности российского аграрного сектора и увеличению его инвестиционной привлекательности. Именно этим обусловлена актуальность исследований в данной области.

На протяжении всей экономической истории страны агарный сектор является одной из основополагающих сфер национальной экономики,поскольку именно его эффективность определяет состояние всей экономики страны, оказывает решающее влияние на уровень продовольственной безопасности и благосостояния населения.

Последние пять лет агарное производство развивается достаточно динамично, чему способствует режим импортозамещения в условиях экономических санкций в отношении нашей страны. Однако при этом проблемы и вызовы аграрному производству зачастую требуют пристального внимания и поиска эффективных решений [3]. К таким проблемам можно отнести следующие: низкая производительность труда (по оценкам экспертов производительность труда в сельском хозяйстве Азербайджана ниже, чем в ЕС.Однако если рассматривать отрасли отечественной экономики, то сельское хозяйство демонстрирует рост производительности и является по этому показателю лидером. В результате ослабляет урбанизация и миграция из сельской местности в города, преобладание на ряде сегментов отечественного продовольственного рынка (фрукты и овощи) импортных товаров [3].

В современных условиях развитие сельского хозяйства определяется уровнем внедрения инновационных технологий и эффективностью производства. В сельской местности проживают 47,2% жителей Азербайджана. Эти населения являются огромным кадровым потенциалом и при научно обоснованной организации сельскохозяйственного производства есть возможность занять передовые позиции в мире.

Отечественное сельское хозяйство (в отличие от других отраслей) демонстрирует рост даже в условиях экономической рецессии. Доля сельскохозяйственной продукции в ВВП страны выросла примерно на 1,0 % с 2020 по 2017 гг. Политика импортозамещения позволила сократить долю импорта в товарных запасах розничной торговли. Параллельно наблюдается рост доли аграрной отрасли в экспорте, она занимает четвертое место после таких отраслей, как нефтегазовая, металлургическая и химическая – и при сохранении данной тенденции отрасль сможет занять позицию нетто-экспортера продовольствия.

Однако наращиванию темпов развития сельского хозяйства и его инноватизации препятствует ряд проблем, которые мы рассмотрим более детально далее. Итак, к основным проблемам, которые препятствуют эффективному развитию аграрного сектора, относятся :

- ✓ограниченный внутренний спрос;
- ✓относительно низкая конкурентоспособность большой части сельхозпродукции;
- ✓недоиспользование аграрного потенциала из-за неэффективной структуры аграрного сектора (неравномерное распределение земельных ресурсов между крупным сельхозпроизводителями и мелким агробизнесом; недоиспользование человеческого потенциала);
- ✓отсутствие доступного кредитования для среднего и малого агробизнеса;
- ✓снижение кадрового потенциала из-за оттока населения из сельской местности, в особенности высококвалифицированных специалистов;
- ✓низкая производительность труда в сельском хозяйстве.

Ограниченный внутренний спрос обусловлен вполне объективными причинами. В стране каждый год сокращается доля сектора мелкой розничной торговли и все более наращивают объемы сетевые ритейлеры, которые предлагают местным производителям сельхозпродукции такие закупочные цены, которые не в состоянии покрывать их издержки, и в итоге полки магазинов заполняют более дешевые, и зачастую низкокачественные, импортные аналоги. Помимо этого, благосостояние населения и его реальные доходы на

протяжении последних пяти лет постепенно сокращаются, что негативно сказывается на структуре потребительской корзины и уровне платежеспособного спроса.

Что касается неконкурентоспособности отечественной сельхозпродукции, то тут необходимо учитывать следующее. На каждом этапе аграрного производства, транспортировки и реализации сельхозпродуктов возникают избыточные, и необоснованные затраты, которые в разы ниже или отсутствуют у наших зарубежных конкурентов (сельскохозяйственных поставщиков из ЕС и Китая, в частности)[8]. Конкурентоспособность местной сельхозпродукции существенно снижена (даже без учета климатических особенностей и отличий в уровне государственной поддержки), а некоторые продовольственные товары дороже, чем в тех же странах ЕС или США.

Неэффективная структура аграрного сектора, безусловно, только добавляет проблемы и препятствует внедрению инноваций в сельском хозяйстве. Как правило, концентрация характеризуется гипертрофированными размерами: под контролем одного агрохолдинга могут находиться территории нескольких районов и даже нескольких регионов. К примеру можно отметить, что по данным Института аграрного развития в Центральной и Восточной Европе имени Лейбница (IAMO), 10 крупнейших вертикально-интегрированных холдингов России владеют земельным банком в размере 5,2 млрд га и производят более 45% товарной продукции. Подобные процессы происходят в соседних странах, в том числе в Азербайджане. Подобная структура рынка объясняется неравным доступом сельхозпроизводителей к субсидированным кредитным продуктам и другим формам государственной поддержки [6]. Большая часть игроков аграрного сектора лишена государственных субсидий, и поэтому агрохолдинги имеют беспрецедентно высокую поддержку государства, что создает им конкурентные преимущества и вытесняет малый агробизнес. Естественно, что в таких условиях именно агрохолдинги имеют финансовый и научно-технический потенциал для внедрения инноваций, в то время как средние и малые предприятия не располагают достаточными ресурсами.

Инновационный процесс в аграрном секторе характеризуется рядом особенностей. Любая инновация в сельском хозяйстве сильно зависит от климатических условий регионов, и это касается как затрат на инновационный процесс, так и сроков его реализации – поэтому инвестиции в инновационные проекты в аграрном секторе более рискованны, чем в других отраслях экономики. Однако длительный процесс разработки и внедрения инновации позволяет эффективнее использовать кадровый потенциал как научно-исследовательских учреждений, так и аграрных предприятий.

В целом выделяются три основных направления внедрения инноваций в деятельность сельскохозяйственных предприятий [8].

В аграрном секторе, в отличие от других отраслей народного хозяйства, внедрение и наращивание инноваций и инновационных технологий происходит медленнее, и это требует особого внимания и существенной поддержки со стороны государства [5]. Рыночное освоение инноваций сдерживается такими факторами, как низкая платежеспособность хозяйств; отсутствие долгосрочных инвестиций в инновационные аграрные технологии; отсутствие достоверной и полной информации о новейших научных разработках в области сельского хозяйства. Так, в современных условиях разработку и внедрение технологических инноваций осуществляло всего несколько процентов от общего числа сельхозпредприятий, что обусловлено сокращением объемов инвестиционных программ, в том числе в инновационную деятельность сельского хозяйства. Государственная инновационная политика в сельскохозяйственной отрасли должным образом не реализуется, а вопросы практического применения инноваций товаропроизводители вынуждены решать самостоятельно.

Несмотря на все вышеперечисленные проблемы, национальная аграрная сфера Азербайджана имеет высокий потенциал для развития и перспективы по внедрению инноваций. Одно из ключевых преимуществ сельскохозяйственной отрасли страны – это доступ к важнейшим ресурсам, обеспечивающим аграрное производство. И именно поэтому факторы, которые являются глобальными вызовами для ЕС (рост населения, изменение климата и др.),

для Азербайджана превращаются в возможности роста и повышения конкурентоспособности отечественного агробизнеса.

Важнейшей задачей национальной аграрной отрасли является продовольственное самообеспечение, а в связи с периодическими изменениями мировых цен на нефть и продолжением пандемии эта задача приобретает особое значение. Поэтому в кратчайшие сроки нужно наращивать темпы развития, восстановит сельское хозяйство на качественно новом инновационном базисе. В противном случае развитие аграрного сектора остановится и он может потерять конкурентоспособность, а страна столкнется с продовольственными угрозами. В настоящее время затраты на местное сельскохозяйственное производство остаются высокими, однако производительность труда в нем в несколько раз ниже, чем в США и ЕС. И только ликвидация такого разрыва сможет гарантировать аграрной отрасли Азербайджана собственную продовольственную безопасность.

Заключение

Таким образом, в современных условиях экономическая политика страны должна и дальше быть направлена на реализацию стратегии импортозамещения и на обеспечение национальной продовольственной безопасности. Экономические санкции должны оставаться своеобразным катализатором для активного роста конкурентоспособности отечественного сельского хозяйства, а также стимулом для развития инновационной деятельности в аграрном секторе. И несмотря на то, что инновационное развитие сельского хозяйства сопровождается целым спектром проблем, модернизация сельского хозяйства является единственным условием его будущего эффективного развития.

REGİONAL İNVESTİSİYA STRATEGİYASININ REALLAŞDIRILMASI MEXANİZMİ

Yəhyayeva Aynurə Yusif qızı i.f.d, dosent
Sumqayıt Dövlət Universiteti
yehyayeva1@gmail.com

Xülasə: *Məqalədə regionların davamlı iqtisadi inkişafının təmin edilməsinin zəruriliyi əsaslandırılmışdır. Regionların davamlı iqtisadi inkişafında investisiya strategiyalarının rolu tədqiq edilmişdir. Regional investisiya strategiyalarının formalaşması və reallaşdırılması mərhələləri təhlil edilmişdir. Regional investisiya strategiyasının reallaşdırılmasının məqsəd və vəzifələri araşdırılmışdır. Regionlarda əlverişli investisiya strategiyasının həyata keçirilməsi çərçivəsində maliyyələşdirmə mənbələri müəyyənləşdirilmişdir. İnvestisiya strategiyalarının reallaşdırılmasının sosial-iqtisadi səmərəliliyi qiymətləndirilmişdir.*

Regionların davamlı inkişafı aydın şəkildə müəyyənləşdirilmiş, mənalı və regional şəraitə uyğunlaşdırılmış strategiya olmadan təsəvvür edilə bilməz. Strategiyanın əsas xüsusiyyəti məqsədlərə çatmaq üçün istifadə olunan yüksək keyfiyyətli hərəkətlər ardıcıllığıdır. Strategiya yalnız ən vacib ətraf mühit amillərini idarə etməyə imkan vermir, eyni zamanda gözlənilməz vəziyyətlərə hazır olmağı, vaxtında və düzgün nəticələr çıxarmağı təmin edir. Strategiyanın əsas prioritetlərindən biri iqtisadi inkişafın davamlılığını artırmaqdır. Regionların davamlı inkişafının tənzimlənməsi problemlərinin həlli həmin ərazidə yerləşən müəssisələrin yaşaması və inkişafının əsas istiqamətlərindən birinə çevrilməkdədir. Azərbaycanda regionların davamlı inkişafının əsas şərtlərindən biri regional səviyyədə qəbul edilmiş və əlverişli investisiya strategiyasının formalaşdırılmasına, regional iqtisadi subyektlərin qarşılıqlı fəaliyyətinin səmərəliləşdirilməsinə yönəlmiş idarəetmə qərarlarının etibarlılığını artırmaqdır.

Regionların davamlı iqtisadi inkişafının idarə olunması nəzərdə tutulan məqsədlərə çatmaq üçün təhdid və imkanlar yaradan müxtəlif ətraf mühit amillərinin təsiri altında mövcud və gələcək ehtiyacların ödənilməsini təmin edəcək resurs potensialının idarəedilməsi sistemi kimi başa düşülməlidir. Regionların davamlı iqtisadi inkişafı bir çox fərqli amillər və şərtlərlə müəyyən edilir

ki, bu da həmin ərazilərdə yerləşən müəssisələrin bütövlüyünün qorunmasına, daimi maliyyə sabitliyinin təmin edilməsinə, istehsalın səmərəliliyinin və intensivliyinin qorunmasına təsir göstərir. Bu istiqamətlərin həyata keçirilməsində ən vacib vasitə əlverişli investisiya strategiyasıdır.

İnvestisiya strategiyası regional iqtisadi sistem daxilində baş verən investisiya prosesini idarə etmək üçün bir vasitədir. Eyni zamanda, investisiya strategiyası bu iqtisadi sistemin inkişafı üçün bir konsepsiyadır və investisiya prosesinin istiqamətlərinin əsas məqsədi və prioritetlərini müəyyənləşdirir. Regionun investisiya strategiyası ölkənin investisiya strategiyasına uyğun olmalıdır. Əlverişli regional investisiya strategiyası regionun sosial-iqtisadi inkişaf strategiyasına əsaslanmalıdır.

İnvestisiya strategiyasında məqsəd investisiya siyasətinin həyata keçirilmə mexanizmlərindən istifadə imkanlarını müəyyənləşdirmək və əsaslandırmaqdır. Regionun investisiya strategiyasının əsas məqsədləri bunlardır: regionda davamlı iqtisadi artıma nail olmaq, yüksək məşğulluq səviyyəsini təmin etmək, zəruri məhsulların qiymətlərini sabitləşdirmək, regionun iqtisadi infrastrukturunu inkişaf etdirmək, region iqtisadiyyatına investisiya cəlb etmək üçün şərait yaratmaq. Həmçinin, sabit investisiya axınının təmin edilməsi və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması üçün regionda investisiya mühitinin yaxşılaşdırılmasıdır [4].

Regionlarda investisiya strategiyasının formalaşması həmin ərazilərdəki bütün investisiya fəaliyyətlərinə, istiqamətlərinə və formalarına birbaşa təsir göstərir. İnvestisiya strategiyasının formalaşdırılması investisiya bazarının vəziyyəti və investisiya fəaliyyətinin həyata keçirilməsi şərtlərinin proqnozlaşdırılmasına əsaslanan mürəkkəb çox səviyyəli bir prosesdir.

Region üçün əlverişli investisiya strategiyasının hazırlanması və həyata keçirilməsi bir neçə mərhələdən ibarətdir.

Birinci mərhələ regiona mövcud və yeni investisiya mənbələrinin cəlb edilməsi imkanlarını, region iqtisadiyyatının mövcud vəziyyətinin, xarici mühitinin qiymətləndirilməsi və təhlilini əhatə edir. Buraya regionun iqtisadi və coğrafi mövqeyi, əmək, xammal və material ehtiyatları, elmi potensialın qiymətləndirilməsi, habelə büdcə formalaşdıran ayrı-ayrı sənaye müəssisələrin fəaliyyətinin təhlili və qiymətləndirilməsi daxildir. Xarici mühiti öyrənmək üçün milli və beynəlxalq iqtisadiyyatdakı son iqtisadi və texnoloji tendensiyaları, investisiya strategiyalarını, bu və ya digər regionlarda fəaliyyət göstərən qanunvericilik və idarəetmə mexanizmlərini təhlil etmək lazımdır.

İkinci mərhələ region üçün birbaşa olaraq ən əlverişli investisiya strategiyasının hazırlanmasıdır. Bu mərhələyə strategiyanın məqsədlərinin formalaşdırılması və regional iqtisadiyyatın inkişafı üçün prioritet istiqamətlərin müəyyənləşdirilməsi, regional iqtisadiyyata investisiyaların cəlb edilməsi proqramının hazırlanması daxildir. Təhlil və qiymətləndirmənin nəticələri nəzərə alınmaqla strategiyanın hazırlanmasının ilk mərhələsində əldə edilə bilən məqsədlərin (regiona birbaşa və portfel investisiyaların daxil olması, xarici və daxili investisiyaların nisbəti, əsas kapitala yatırımlar) formalaşdırılması lazımdır.

Regionlarda əlverişli investisiya strategiyasının həyata keçirilməsi çərçivəsində maliyyələşdirmə mənbələri aşağıdakılar ola bilər:

- dövlət və regional büdcələr;
- birbaşa və portfel investisiyalar;
- kommersiya banklarının vəsaitləri;
- sığorta şirkətlərinin vəsaitləri;
- beynəlxalq təşkilatların və bankların vəsaitləri;
- dövlətlərarası razılaşmalar nəticəsində əldə edilmiş vəsaitlər (qrantlar və beynəlxalq texniki yardım üçün vəsaitlər daxil olmaqla);
- əhalinin vəsaitləri və s.

Regional borc qiymətli kağızlarının buraxılması əlverişli investisiya mühiti yaratmağa və regional iqtisadiyyata daxili və xarici investisiyaların cəlb edilməsi üçün təsirli mexanizmlər yaratmağa imkan verir.

Üçüncü mərhələ investisiya strategiyasının həyata keçirilməsidir. Bu mərhələdə vəzifələr perspektivli investisiya strategiyasının əvvəlki mərhələsinin həyata keçirilməsində qarşıya qoyul-

muş məqsədlərə və prioritetlərə uyğun olaraq həll olunur. Regionun perspektivli investisiya strategiyasının həyata keçirilməsi həmin ərazidəki investisiya fəaliyyəti subyektlərinin iqtisadi müstəqilliyinin və məsuliyyətinin artırılmasını nəzərdə tutur.

İnvestisiya strategiyasının həyata keçirildiyi dövrlərə görə konkretləşdirilməsi qoyulmuş vəzifələrə uyğun olaraq ayrı-ayrı strateji məqsədlərə çatma ardıcıllığı və vaxtını müəyyən edir.

Regionlarda perspektivli investisiya strategiyasının həyata keçirilməsi regional hakimiyyət orqanlarına və təsərrüfat subyektlərinə investisiya qərarlarının keyfiyyətinin yüksəldilməsi, investisiya həcmlərinin, sosial inkişaf templərinin artırılması üçün əlverişli şərait yaradılması istiqamətində cari və uzunmüddətli vəzifələri həll etməyə imkan verməlidir [2].

Ümumiyyətlə, üçüncü mərhələdə regional iqtisadiyyatın investisiya cəlbediciliyini artırmaq üçün təsirli mexanizmlərin hazırlanması zəruridir. Həmin mexanizmlərə daxildir:

- investisiya layihələrinin icrası üçün verilən kommersiya kreditləri üzrə faizlərin regional büdcədən qismən ödənilməsi;
- zəmanətlərin mövcudluğu və investisiyaların qorunması;
- vergi güzəştlərinin və investisiya vergi kreditinin verilməsi;
- bank faizlərinin ödənilməsi baxımından icarə müqavilələri üzrə xərclərin qismən ödənilməsi;
- investisiya layihələrinin həyata keçirilməsi üçün regional səviyyədə dövlət zəmanətlərinin verilməsi;
- regionun və bələdiyyənin inkişafı üçün fondun yaradılması;
- investisiya fəaliyyətinin sığortası;
- torpaq sahələrinin və qeyri-yaşayış sahələrinin güzəştli qiymətlərlə satışı və icarəsi;
- digər dəstək növləri [3] .

Digər dəstək növlərinə investisiya proseslərinin gedişini tənzimləyən regional qanunvericiliyin təkmilləşdirilməsi, inzibati maneələrin aradan qaldırılması, regional hakimiyyət orqanlarının informasiya dəstəyi, sabit və cəlbedici regional iqtisadiyyatın imicinin yaradılması tədbirləri, potensial investorlarla ünsiyyət üçün kommunikasiya mexanizmlərinin yaradılması və s. daxildir.

Dördüncü mərhələ, regionun investisiya strategiyasının icrasına nəzarəti, monitorinqi, nəticələrin qiymətləndirilməsini, nəticələrin proqnozlaşdırılan hədəflərlə üst-üstə düşmədiyi təqdirdə investisiya strategiyasını tənzimləməyi əhatə edir. Həm də bu mərhələdə əlverişli regional investisiya strategiyasının milli maraqlara uyğunluğunu ciddi şəkildə müşahidə etmək, investisiya strategiyasının həm ölkə daxilində, həm də beynəlxalq aləmdə dəyişikliklərə uyğunlaşmasını təmin etmək lazımdır.

Regionun investisiya strategiyasının formalaşdırılması prosesini ümumiləşdirilmiş şəkildə aşağıdakı kimi göstərə bilərik (şəkil 1).



Şəkil 1. Regional investisiya strategiyasının formalaşdırılması prosesi

Regionun uzunmüddətli investisiya strategiyasında qarşıya qoyulmuş investisiya inkişafının prioritetləri regional iqtisadiyyatın obyektiv mövcud resurs potensialı əsasında formalaşdırılmalıdır.

Ayrı-ayrı regionlarda investisiya strategiyasının formalaşmasına aşağıdakılar əsas yarada bilər:

- region üçün xüsusi əhəmiyyət kəsb edən obyektlərin və fəaliyyət sahələrinin prioritet inkişafı;
- mövcud istehsalın, təbii ehtiyat potensialının və mədəni və demoqrafik xüsusiyyətlərin maksimum istifadəsi və inkişafı;
- regionda sosial-iqtisadi şərtlərin bərabərləşdirilməsi çərçivəsində vahid iqtisadi məkanın yaradılması və möhkəmləndirilməsi.

İnvestisiya strategiyasının hazırlanması zamanı aşağıdakılara diqqət yetirilməlidir:

- investisiya fəaliyyətləri üçün zəruri tənzimləyici və hüquqi dəstəyin formalaşdırılması və inkişafı;
- investisiya strategiyasının məqsədyönümlüyünün müəyyənləşdirilməsi;
- sənaye komplekslərinin iqtisadi bazasının möhkəmləndirilməsi;
- investisiya strategiyası üçün meyarlar bazasının formalaşdırılması [1];
- ərazinin sənaye kompleksinin, sahibkarlıq fəaliyyətinin və investisiya fəaliyyətinin prioritetlərinin şaxələndirilməsinin əsas istiqamətlərinin müəyyənləşdirilməsi;
- investisiyaların inkişafı üçün strateji məqsədlərin hazırlanması;
- regionun investisiya potensialının və investisiya almağa hazırlığının qiymətləndirilməsi;
- investisiya qoyuluşu risklərinin qiymətləndirilməsi;
- investisiya risklərinin idarə edilməsi mexanizmlərinin müəyyənləşdirilməsi;
- investisiya layihələrinin idarəetmə vasitələrinin seçimi;
- strategiyanın həyata keçirilməsi üçün tələb olunan maliyyə mənbələrinin həcminin, tərkibinin və strukturunun müəyyənləşdirilməsi;
- investisiya layihələri üçün maliyyələşdirmə mənbələrinin və cəlb etmə mexanizmlərinin mövcudluğunun qiymətləndirilməsi;
- regionun inkişafının strateji məqsədlərinə institusional və infrastruktur dəstəyi.

Qeyd edilənlərə uyğun olaraq ümumiləşdirilmiş formada regional investisiya strategiyasının reallaşdırılması modelini qura bilərik (şəkil 2).

Şəkil 2. Regional investisiya strategiyasının reallaşdırılması modeli

Bu model qarşıya qoyulmuş strateji vəzifələrin həllini və regionun iqtisadi inkişafının davamlılığını təmin etməyi nəzərdə tutur.

Strategiyanın reallaşdırılmasının gözlənilən təsiri regionun sosial-iqtisadi inkişafının sürətləndirilməsi və investisiya cəlbediciliyinin artması, lazımi rəqabət üstünlüklərinin təmin edilməsi üçün zəmin olmalıdır. İnvestisiya fəaliyyətinin intensivləşməsi region iqtisadiyyatının bərpasına və daha da inkişafına kömək edir. İnvestisiya fəaliyyətinin yüksək səviyyədə olması regionların iqtisadi dayanıqlığının artırılması üçün əhəmiyyətli stimul verir. Beləliklə, region

iqtisadiyyatının davamlı inkişaf fəaliyyətinin bütün sahələrində investisiya strategiyasının rolu çox yönlüdür. Belə bir strategiyanın inkişafı yalnız regional iqtisadiyyatın şaxələndirilməsinə, çoxşaxəli iqtisadi kompleksdən və yeraltı sərvətlərdən səmərəli istifadəyə deyil, həm də əhalinin həyat səviyyəsinin, rahatlığının və keyfiyyətinin artırılmasına yönəldilməlidir. Şübhəsiz ki, investisiya strategiyasının səmərəliliyi investisiya fəaliyyətinin sosial cəhəti nəzərə alınmaqla investisiyanın ümumi iqtisadi səmərəliliyinin göstəriciləri əsasında müəyyənləşdirilməlidir. İnvestisiya strategiyasının iqtisadi səmərəliliyinin artırılması regionun investisiya siyasətinin həyata keçirilməsində sosial, ekoloji, texnoloji amillərin əhəmiyyətini artıracaqdır.

İnvestisiya fəaliyyətinin həyata keçirilməsində iqtisadi, texnoloji, innovativ və sosial amillərin əlaqələndirilməsini təmin etmək məhz regional investisiya strategiyasının reallaşdırılmasının ən vacib vəzifələrindən biridir.

Nəticə

Beləliklə, regionlarda səmərəli investisiya strategiyasının reallaşdırılması investisiya fəaliyyətinin stimullaşdırılması üçün səmərəli bir proses təmin edir, regional orqanlara investisiya qərarlarının keyfiyyətinin yüksəldilməsi, investisiya həcmlərinin, sosial-iqtisadi inkişaf templərinin artırılması üçün əlverişli şərait yaradılması istiqamətində cari və gələcək vəzifələri həll etmək imkanı verir.

İnvestisiya strategiyalarının reallaşdırılması regional inkişafın cari vəzifələrinin demək olar ki, aşağıdakı strateji və əhəmiyyətli hissələrinin həllində mühüm rol oynayır:

- ərazi vahidlərinin inkişafı üçün strateji məqsədlərin həyata keçirilməsi;
- elmi, texniki və innovasiya siyasətinin həyata keçirilməsi;
- regionların sosial inkişafı problemlərinin həlli.

Qeyd edilənlərə əsaslanaraq dövlət tərəfindən region səviyyəsində investisiya strategiyasının reallaşdırılması tədbirləri aşağıdakı problemlərin həllinə yönəldilməlidir: investisiya fəaliyyətinin bütün iştirakçılarının qarşılıqlı fəaliyyət şərtlərini müəyyənləşdirmək; investisiya fəaliyyətinin obyektləri olan müəssisələrin investisiya proseslərində iştirak üçün hazırlanması; regionlarda sosial proqramlara dəstək verilməsi, regional büdcədən maliyyələşdirmə; regionda investisiya fəaliyyətinin artması üçün şərait yaradılması; ölkə ərazisində fəaliyyət göstərən müəssisələrin rəqabət potensialının səviyyəsinin artırılması.

Yuxarıda qeyd etdiyimiz regional investisiya strategiyasının reallaşdırılmasının elmi əsaslandırılmış istiqamətləri investisiya fəaliyyətinin stimullaşdırılmasını təmin edər, regional orqanlara investisiya qərarlarının keyfiyyətinin yüksəldilməsi, investisiya həcmlərinin, sosial-iqtisadi inkişaf templərinin artırılması üçün əlverişli şərait yaradılması istiqamətində cari və gələcək vəzifələri həll etməyə imkan verər. Həmçinin, işğaldan azad edilmiş ərazilərin inkişafı baxımından səmərəli investisiya strategiyasının reallaşdırılması həmin ərazilərdə infrastruktur obyektlərinin, istehsal sahələrinin yaradılmasına və genişləndirilməsinə, onların innovativ əsaslarla fəaliyyətlərinin təmin edilməsinə, torpaq sahələrinin təsərrüfat dövriyyəsinə cəlb etməklə ev və kəndli təsərrüfatlarının fəaliyyətlərinin inkişafına, yeni iş yerlərinin yaradılmasına gətirib çıxaracaqdır ki, bu da son nəticədə təkcə həmin regionların deyil, bütövlükdə ölkənin davamlı iqtisadi inkişafına öz müsbət təsirini göstərəcəkdir.

Ədəbiyyat

1. Atakişiyev M.S., Nurəliyeva R.N., Abbasova N.H. İnvestisiya fəaliyyətinin təşkili. Bakı: Azərnəşr, 2012, 256 s.

2. Абдулманапов, С. Г. Инвестиции в системе социально-экономического развития регионов. Экономика и предпринимательство, 2020, № 3(116), с. 495-503

3. Гираев В. К. Финансовый механизм инвестиционного обеспечения регионального развития. Научное обозрение: теория и практика, 2019, Т. 9, № 7(63), с. 991-1000

4. Полятыкина Е.В. Инвестиционная стратегия и ее роль в развитии региона. Инновационная экономика: перспективы развития и совершенствования, 2017, №1 (19), с.286-297

İSTEHSAL FƏALİYYƏTİNDƏ İNVESTİSİYA SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

Günay Oktay qızı Əliyeva, müəllim
Azərbaycan Texniki Universitetinin
Email: gunayaliyeva1986@gmail.com

Xülasə:

Müasir dünyada inkişaf etmiş ölkələrin davamlı inkişafını təkmilləşdirmək üçün investisiya və innovasiya siyasəti mühüm rol oynayır. Azərbaycan Respublikasında sənaye sahələrinin intensiv sabitliyinin və iqtisadi artımının təmin olunmasında, iqtisadi təhlükəsizlik, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin təmin edilməsində, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasında, bir çox sosial-iqtisadi problemlərin həllində ölkədəki investisiya durumu, investisiyaların innovasiya yönümlü olması vacib şərtlərdən biridir.

Açar sözlər: milli iqtisadiyyatın tənzimlənməsi, investisiya sisteminin təkmilləşdirilməsi, əql mülkiyyət, innovasiya fəaliyyəti, riyazi modelləşmə və elmi-texniki potensial

Sənaye müəssisəsinin inkişafının təkmilləşdirilməsi üsul, vasitə və formalarının qaydaya salınmış məcmusu, milli iqtisadiyyatın tənzimlənməsi sisteminin aparıcı alt sistemi kimi innovasiyalı istehsalın investisiya proseslərində mümkün hədləri nəzərə almaqla, gəlir və xərclər arasında optimal nisbətlərin əldə olunmasına xidmət etməlidir.

Müxtəlif inkişaf səviyyəsində olan ölkələrin təcrübəsinin təhlili göstərir ki, sənayedə əsas vəsaitlərin yenilənməsinə yönəldilən maliyyə resurslarının səfərbər edilməsində dövlətin rolu artır. Bu baxımdan dövlətin istifadə etdiyi alət və vasitələr sırasında, ilk növbədə monetar siyasət, vergi ödəmə, amortizasiya ayırmaları, büdcə siyasəti, büdcədənkənar fondların tənzimlənməsi mexanizmi və i.a. qeyd olunmalıdır. İnnovasiyalı inkişafın iqtisadi səmərəliliyi, o cümlədən sənayedə texniki-texnoloji yenilənmənin əhatə dairəsi və tempinin iqtisadi məqbulluğu amortizasiya siyasətinin xarakteristikaları ilə bilavasitə bağlıdır. Belə bir fikirlə razılaşmaq olar ki, amortizasiya siyasəti əməyin fondla silahlanmasını təkcə kəmiyyət baxımından deyil, həm də keyfiyyətcə yaxşılaşdırır.

İnvestisiya xarakterli istənilən fəaliyyət, o cümlədən innovasiyalı inkişaf üçün xarakterik olan fəaliyyət qanunvericiliklə tənzimlənir və ciddi surətdə reqlamentləşdirilir. Həmin reqlamentlər, bir qayda olaraq, investisiya fəaliyyətinin planlaşdırılması zamanı nəzərə alınır. Başqa sözlə, istənilən investor vəsait qoyuluşundan əvvəl hər bir addımını ciddi və detallaşdırılmış surətdə planlaşdırır. Araşdırmalar göstərir ki, investisiya fəaliyyətində təshihlər, adətən planlaşmada yol verilən səhvlərlə deyil, layihənin reallaşma prosesində şəraitin və imkanların dəyişməsi və onun ilkin şərtlərinin təkrar dəqiqləşdirilməsi zərurəti ilə bağlı olur.

Müəssisənin investisiya potensialı, investisiya sisteminin təkmilləşdirilməsi onun resurs və istehsal potensialının komponenti kimi nəzərdən keçirilməlidir. İqtisadi potensial isə "ölkə iqtisadiyyatının, onun sahələrinin, müəssisələrinin, təsərrüfatlarının iqtisadi-istehsal fəaliyyətini həyata keçirmək, əmtəə (xidmətlər) istehsal etmək, əhalinin ehtiyaclarını, ictimaiyyətin tələbatlarını, istehsal və istehlakın inkişafını təmin edən məcmu qabiliyətidir".

Sənaye müəssisəsinin investisiya potensialı onun inkişafı imkanlarını müəyyənləşdirməklə yanaşı, eyni zamanda maddi-texniki bazanın modernləşdirilməsinə və fəaliyyət dairəsinin genişləndirilməsinə yönəlmiş investisiya proseslərinin xarakteristikalarını, o cümlədən bazar özünütənzimləməsi, dövlət tənzimləməsi və rəqabət mexanizmlərinin, investisiya mənbələrinin, investisiyanın maddi və dəyər formasında hərəkətinin ən müxtəlif aspektlərinin xarakteristikalarını şərtləndirir.

Öz inkişafına (maddi-texniki bazanın modernləşməsinə, fəaliyyət dairəsinin genişlənməsinə və i.a.) vəsait ayırmaqla və ya cəlb etməklə əlavə pul vəsaiti axınları yaratmaq imkanları müəssisəninin investisiya potensialının xarakteristikaları ilə şərtlənir. Postsovet ölkələrinin əksəriyyətində həmin imkanlar riskli maliyyələşmə institutlarının təşəkkül mərhələsində olması, habelə digər müəssisələrin investisiya potensialı ilə əlaqələrin zəifliyi səbəbindən məhduddur. "Elmi-texniki

potensialın formalaşmasında və ondan səmərəli istifadə olunmasında onun maliyyə tərkibi mühüm rol oynayır. O, elmin maddi-texniki bazasının inkişafına yönəldilmiş investisiyaların məcmusunda ifadə olunur. Buraya dövlət büdcəsindən elm üçün ayrılmış vəsaitlər, nazirlik və təşkilatların, həmçinin elmi-tədqiqat idarələrinin elmə yönəltdiyi təxsisatların formalaşması və istifadə olunması aiddir [3.səh. 56-58].

Sənaye innovasiyaları üzrə investisiya qərarının əsaslandırılması üçün ənənəvi göstəricilərlə yanaşı (məhsulun yenilik dərəcəsi, istehsalın texniki səviyyəsi, yeni texnologiyaların iqtisadi-texniki üstünlükləri və i.a.), istehsalın (müəssisənin) əsas fondlarında qeyri-maddi aktivlərin payı, texnologiyanın ətraf mühitə və iş şəraitinə təsiri, bazarın müvafiq seqmentinin tutumu, yeni məhsulun patent təmizliyi, standartlaşdırma səviyyəsi və s. təhlilə cəlb olunmalıdır.

İqtisadiyyatda göstəricilərin riyazi statistik üsullarla modelləşdirilməsi geniş yayılmışdır. Beləki, modelləşdirmə vasitəsi ilə iqtisadi təhlilin aparılması, onun hüdudlarını genişləndirir, alınan nəticələrin daha dərin monitorinqini aparmağa imkan verir.

Riyazi-statistik modellərin qurulması bir sıra mərhələlərin ardıcıllığına əsaslanır:

- tədqiq edəcəyimiz göstəricinin seçilməsi;
- bu göstəriciyə təsir edən amillərin seçilməsi;
- bu göstəricilərə aid məlumatın toplanması və sistemləşdirilməsi;
- keyfiyyət təhlilinin və monitorinqin aparılması;
- kompütərdə riyazi- statistik modelin seçilməsi və alınması;
- alınmış modelin statistik meyarlara görə təhlili;
- alınan modelin iqtisadi interpretasiyası.

Məqalədə emal sənayesi üzrə investisiya həcmi, ona təsir edən amillər təhlil edilərək müəyyən edilmişdirki, onun həcminə təsir edən çoxsaylı amillər içərisindən seçilən amillər və investisiya arasında xətti əlaqə mövcuddur.

Bunu nəzərə alaraq bu əlaqənin

$y=F(X_i)$, $i = \overline{1,n}$ (3.1) olduğunu müəyyən etmişik.

Əgər (1.1) düsturunu açıq yazsaq onda

$Y=a_0+a_1x_1+a_2x_2+....a_4x_4$ (1.2)

Burada: y-funksiya

X_i-amil arqumentlərdir.

Emal sənayesi üçün təsir edən amillər kimi, məhsul istehsalı (X_1), bir işçinin orta aylıq əmək haqqı (X_2), əsas fondların mövcudluğu (X_3). Təhlil dövrü kimi 2011-2019-cu illərin məlumatları götürülmüşdür. Verilənlər bazasının kompütərdə korrelyasiya proqramı ilə həlli zamanı funksiya və amillər arasında aşağıdakı əlaqələr aşkar olundu (cədvəl 1).

Cədvəl1. Korrelyasiya təhlili

	Y	*X1*	*X2*	*X3*
Y	1			
X1	0.689513	1		
X2	0.472	0.939132	1	
X3	0.195718	0.835794	0.933899	1

Cədvəl 1-dən göründüyü kimi, X_2X_1 və X_3X_2 amilləri arasındakı əlaqə sıxdır, yəni onlar arasından cüt korrelyasiya R_{x2x1}=0,939132 və R_{x3x1}= 0.933899.

Lakin Y-lə X_3 arasında əlaqə zəifdir, yəni R_{yx3}=0.195718.

Daha sonra "Statistika" proqramından istifadə edərək emal sənayesində investisiya qoyuluşu ilə amillər arasında aşağıdakı riyazi-statistik model alınmışdır:

Y_1= -157.198649655748+0,573497352X_2+1,945522654X_2-0,655198716X_3

Ümumi nəticələr

R çoxluğu	0.979506231
R-kvadratı	0.959432457
Normallaşdırılmış R-kvadratı	0.93509193
Standart səhv	161.8213428
Müşahidələr	9

Dispersiya analizi

	df	*SS*	*MS*	*F*	*Qiymətləndirmə F*
Reqressiya	3	3096544.327	1032181.442	39.4170797	0.000665407
Qalıq	5	130930.7349	26186.14698		
Cəm	8	3227475.062			

	Əmsallar	*Standart səhv*	*t-statistika*	*P-Dəyər*
Y-keçid	-157.1986497	315.8025506	-0.497775111	0.639758963
X1	0.573497352	0.100015315	5.73409532	0.00225913
X2	1.945522654	2.945264906	0.66055948	0.538108599
X3	-0.655198716	0.124997459	-5.241696286	0.00334914

Aşağı 95%	*Yuxarı 95%*	*Aşağı 95,0%*	*Yuxarı 95,0%*
-968.99495	654.5976507	-968.99495	654.5976507
0.316399799	0.830594905	0.316399799	0.830594905
-5.625521814	9.516567123	-5.625521814	9.516567123
-0.976514913	-0.333882518	-0.976514913	-0.333882518

Çıxma qalığı

Müşahidə	*Proqnozlaşdırılan Y*	*Qalıq*	*Standart qalıq*
1	791.1654503	56.73454967	0.443477717
2	946.5096927	-85.30969273	-0.666841421
3	901.7148994	-12.81489945	-0.100170397
4	576.0614418	68.53855823	0.535746269
5	311.5791901	171.3208099	1.339165677
6	707.5492625	-283.2492625	-2.214078315
7	615.9587301	36.64126988	0.286414307
8	1449.605142	-17.70514178	-0.13839602
9	2400.556191	65.84380872	0.514682184

Alınan modelin statistik meyarlarla təhlilinə baxaq: cəm korrelyasiya əmsalı R=0,979506231, determinasiya əmsalı R^2=959432457, standart səhv 161,8213428-dir. Modelin ayrı-ayrı amillərini xarakterizə edən t-Styudent əmsallarının hesabat qiymətləri aşağıdakı kimidir:

t_{Yhes}=0,497775111; t_{X1hes}=5,73409532; t_{X2hes}=0,66055948; t_{X3hes}=-5,241696286. 95%-lik ehtimalla bu göstəricinin cədvəl (kritik) qiyməti t_{krit}=2,78-dir. Bu mənada bəzi amillərin t-styudent qiymətləri bu şərti; $t_{krit} \geq t_{xi}$ ödəmir. O ki, qaldı bütövlükdə modelin qiymətləndirilməsinə, F-Fişer əmsalı ilə müəyyən edilir. Modelin Fişer əmsalının hesabat qiyməti F_{hes}=39,4170797-dir. 95%-lik

ehtimalla onun cədvəl (kritik) qiyməti F_{krit}=4,12-dir və görünür ki, F_{hes}> F_{krit} şərti ödənilir. Bütün bunları nəzərə alaraq qeyd edirik ki, model adekvatdır.

İstehsal fəaliyyətində investisiya sistemini yaxşılaşdırmaq və təkmilləşdirmək üçün müəssisənin vergi güzəştləri səbəbindən sərbəstləşən maliyyə vəsaitlərinin texniki və texnoloji yenilənməyə yönəldilməsi prosesinə nəzarət sistemi təkmilləşdirilməlidir. Məsələ ondadır ki, vergi güzəştləri səbəbindən innovasiyalı sənaye istehsalında sərbəstləşən maliyyə vəsaitlərinin texniki və texnoloji yenilənməyə yönəldilməsi prosesində uçot və təhlil məlumatlarının toplanması, qeydiyyatı, çeşidlənməsi, emalı və son istifadəçi tələblərinə uyğunlaşdırılması metodikalarının tamamlanması və daha da dəqiqləşdirilməsinə ciddi ehtiyac duyulur [2. səh.208-211].

Əqli mülkiyyətin qorunması sisteminin təkmilləşdirilməsi, hazırda istehsal fəaliyyətində investisiya mühitinin yaxşılaşdırılmasının prioritetlərindən biri hesab edilməlidir. Məsələ ondadır ki, innovasiyalı investisiya qərarları, əksər hallarda qeyri-maddi aktivlərin idarə edilməsi ilə əlaqədardır. Bu baxımdan əqli mülkiyyətin qorunması, müvafiq proseslərin mükəmməl maliyyə mexanizminin qurulması məsələləri xüsusi aktuallıq kəsb edir.

"Lakin əqli mülkiyyətə hüququn rəsmiləşdirilməsindəki çətinliklər, təkcə maliyyələşmədəki çatışmazlıqlarla deyil, habelə elmi-tədqiqat təşkilatlarının, büdcə vəsaiti hesabına əldə edilmiş ETTKİ nəticələrindən istifadə üçün real səlahiyyətə maik olmaması ilə əlaqədardır" [1].

Zənnimizcə belə yanaşma diqqətə layiqdir. Əqli mülkiyyət hüququnun ötürülməsi prosesində elmi-texniki işləmələrin mülkiyyətçilərinin hüquqlarının genişləndirilməsi, qabaqcıl təcrübədən göründüyü kimi digər sahələrdə olduğu kimi sənayedə də innovasiya fəallığının yüksəldilməsinə ciddi müsbət təsir edə bilər.

İstehsal fəaliyyətində investisiya sisteminin təkmilləşdirilməsi aşağıdakı tələblərə cavab verməlidir:

– müəssisənin istehsal-təsərrüfat fəaliyyətinin səmərəliliyi məqbul həddə olmalıdır;
– istehsal və maliyyə risklərinin azaldılması tədbirləri qarşılıqlı müsbət effekt verməlidir;
– yeni məhsulun son istehlakçıya doğru yeridilişində məcmu xərclərin səviyyəsi innovasiyalı inkişaf strategiyasını həyata keçirən sənaye müəssisəsinin rəqabət qabiliyyətini zəiflətməməlidir.

Doğrudan da, "müştərinin öz tələbatını ödəmək üçün onun məhsulu alması kifayət deyildir. Əgər bu texniki cəhətdən mürəkkəb qurğudursa, onda alıcı qurğunun istismarı, xidmət heyətinin əməyini ödəmək, onlara təlim vermək, sığortalamaq üçün müəyyən xərclər çəkməlidir. Beləliklə, alıcının xərcləri iki hissədən: alış məsrəfləri (məhsulun qiyməti) və istehlak xərclərindən (istismar məsrəfləri) ibarət olacaqdır. Lakin vacibliyinə və əhəmiyyətinə baxmayaraq, bu iqtisadi göstərici də rəqabətə davamlılıq anlayışının mahiyyətini tam əks etdirmir.

İstehsal fəaliyyətində investisiya sisteminin təkmilləşdirilməsi investisiyaların maliyyələşdirilməsi mexanizminin mükəmməlliyindən, maliyyə təminatının xarakteristikalarından asılıdır. Bu və digər səbəblərdən, müvafiq dövlət strukturları investisiya resurslarının formalaşması proseslərinin və həmin resursların hərəkətinin tənzimlənməsi hesabına innovasiyalı sənaye istehsalının inkişafının maliyyə təminatının yaxşılaşdırılması imkanlarını qiymətləndirməlidirlər. Araşdırmalar göstərir ki, həmin imkanlar, ilk növbədə:

– faktiki və potensial maliyyə mənbələrinin cari və perspektiv xarakteristakaları;
– potensial maliyyə mənbələrinin fəallaşdırılması üçün hazırlanan və həyata keçirilən tədbirlərin gözlənilən nəticələri;
– qanunvericilik bazasının unifikasiyası sayəsində cəlb edilən xarici investisiya mənbələrinin xarakteristakaları hərtərəfli təhlil edilməklə müəyyən edilməlidir.

İnnovasiyalı istehsal fəaliyyətində investisiya mühitinin təkmilləşdirilməsi imkanlarının gerçəkləşdirilməsi yolları əsaslandırılarkən xərclər, gəlirlər, risklər, zaman və görüləcək işlərin ardıcıllığı amilləri arasında qarşılıqlı əlaqələrə münasibətdə kompleksliyin təmin olunması innovasiyalı sənaye istehsalının investisiya proseslərinin tənzimlənməsi sisteminin səmərəliliyinin yüksəldilməsində heç də az rol oynamır. Sənaye sahələri, müəssisələri və fəaliyyət növləri üzrə investisiya resurslarının bölgüsü sisteminin optimallaşdırılması meyarları yüksək texnoloji mühitin get-gedə ciddiləşən tələbləri ilə, kifayət qədər uzlaşmalıdır.

Nəticə

Mümkün hədlər daxilində nisbətlərin optimallaşdırılması üçün qurulan ssenarilər təkmilləşdirmə sisteminin səmərəliliyində mühüm rol oynaya bilər. Belə ki, innovasiyalı fəliyyətə xidmət edən investisiya layihələrinin xərclər və gəlirlərini əks etdirən ödənişlər axınının formalaşmasının çoxsaylı variantları hesablanır və ən yaxşısının müəyyənləşdirilməsi üçün qarşılıqlı müqayisə aparılır. Üstünlük verilən variantlar innovasiyalı və dayanıqlı inkişaf meyarları əsasında seçilməli və istehsal fəaliyyətində investisiya sisteminin təkmilləşdirilməsinə xidmət etməlidir.

Ədəbiyyat

1. Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunu– Bakı, 22 may 2012-ci il: [elektron resurs].- http://www.e-qanun.az/framework/23895
2. Ələkbərov, Ə.Ə. Sosial-iqtisadi inkişafın maliyyə-büdcə parametrlərinin tənzimlənməsi. - Bakı: Elm, - 2007. - 448 s.
3. Kərimova T.İ. İqtisadiyyatın investisiya potensialı: formalaşması və istifadə mexanizmləri. - Bakı: İqtisad Universiteti, - 2008. - 224 s.
4. İsgəndərov, R.K. Elmi-texniki tərəqqi: sosial – iqtisadi aspektlər. - Bakı: Elm və təhsil, - 2010. - 636 s.
5. www.stat.gov.az

YÜNGÜL SƏNAYEDƏ İNNOVASİYA MARKETİNQİNİN MAHİYYƏTİ VƏ ƏHƏMİYYƏTİ

Məmmədova Ayşən Viladdin qızı, doktorant
Məmmədli Zeynəb Tahir qızı, doktorant
Məhərrəmova Aysel Salman, müəllim
Şıxıyeva Xoşqədəm Xəqani qızı
Azərbaycan Texnologiya Universiteti
s.memmedov@uteca.edu.az

Xülasə

İnnovasiyalı məhsullar bazarlarında rəqabətin kəskinləşməsi, rəqabətli mövqeləşdirmənin üstün bir amilə çevrilməsi innovasiya fəaliyyətində və eləcədə yüngül sənayedə innovasiyalı məhsullar bazarında marketinq konsepsiyasından istifadəni, marketinq prinsiplərinin tətbiqini zəruri etmişdir.

İnnovasiya marketinqi innovasiya bazarında fəaliyyət göstərən yüngül sənayenin alt bölmələrinə aid olan müəssisənin marketinq fəaliyyətini özündə birləşdirir, bazar üçün yeni məhsulun yaradılmasını və kommersializasiyasını nəzərdə tutur.

Məqalədə innovasiya marketinqinin mahiyyəti, yüngül sənayenin fəaliyyət sahələrində innovasiya marketinqinin tətbiqinin zəruriliyi, müəssisənin istehsal texnologiyasını təkmilləşdirmək və rəqabətqabiliyyətli məhsul yaratmaq məqsədilə daima innovasiyaya meyilli olmağını vacibliyi vurğulanmışdır.

Müasir dövrdə, bazar iqtisadiyyatı münasibətləri şəraitində innovasiyalı məhsullara olan tələbatın təmin edilməsi uğrunda milli iqtisadiyyatın ayrı-ayrı sektorları arasında rəqabət mübarizəsi kəskinləşir. Bu mübarizə əyani şəkildə ölkəmizin yüngül sənayesində də özünü göstərir.

Azərbaycanın yüngül sənayesinə xas olan mühüm cəhət - təsərrüfat vəsaitlərinin sürətli dövriyyəsi, sahənin məhsullarına dəyişilməz tələbat, istehsalın dinamik surətdə genişlənməsi, avadanlığın və texnologiyaların operativ yenilənməsidir. Bütün bu amillər yüngül sənayedə innovasiyalı məhsulların yaradılması üçün əsasdır. Həm də yüngül sənayenin digər sahələrlə qarşılıqlı əlaqəsi var, bu sahənin milli iqtisadiyyatın digər sahələrinin (kimya, dəriayaqqabı,

maşınqayırma, müdafiə sənayesi, xəz sənayesi və s.) xammalına və materiallarına ehtiyacı var. Bu isə öz növbəsində iqtisadiyyatın digər sahələrinin də inkişafına təkan vermiş olur.

Marketinq yenilik, innovasiyalı bir məhsula və xidmətə müsbət təsir göstərən, yeni ideyaları özündə formalaşdıran bir fəaliyyətdir.

İnnovasiyalı məhsullar bazarında ənənəvi marketinq konsepsiyasından istifadə, marketinq – miks çərçivəsində kompleks tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Belə tədbirlər kompleksi innovasiya məhsulunun realizasiyası məqsədilə qiymət, məhsul siyasəti, səmərəli bölgü və satış kanallarının yaradılması, aktiv stimullaşdırma tədbirlərinin həyata keçirilməsini nəzərdə tutur.[1]

İnnovasiya marketinqinin məqsədi, müəssisənin fəaliyyətində rəqabətqabiliyyətliliyin yüksəldilməsi məqsədilə innovasiya strategiyalarının formalaşmasını və realizasiyasını müəyyənləşdirməkdir. Müəssisə innovasiya fəaliyyəti üzrə məqsədini müəyyənləşdirərkən ilk növbədə innovasiya potensialını, innovasiya fəaliyyətinin formalaşmasına təsir göstərən daxili və xarici mühit amillərini ətraflı təhlil etməlidir.

İnnovasiya marketinqi yüngül sənayenin bütün fəaliyyət sahələrində yaradıcı yanaşma tətbiq olunmasını nəzərdə tutur, müəssisənin istehsal texnologiyasını təkmilləşdirmək və rəqabətqabiliyyətli məhsul yaratmaq məqsədilə daima yeni ideyalarin axtarışına, onların istehsala tətbiqinə istiqamətləndirir. Müasir tədqiqatlar innovasiya sahəsində ənənəvi düşüncələrlə qeyri standart düşüncələrin uzlaşmasını təmin edir, innovasiya proseslərinin daha mütərəqqi üsullarla həyata keçirilməsinə imkan yaradır.

Yüngül sənayedə innovasiya fəaliyyətində müasir marketinq yanaşmaları strateji xarakterə malikdirlər. Bununla əlaqədar innovasiya marketinqinin ikili xarakterini qeyd etmək vacibdir.

Birinci halda, innovasiya marketinqi innovasiyalı məhsullar bazarlarında fəaliyyət göstərən yüngül sənaye müəssisələrinin innovasiya ilə bağlı marketinq fəaliyyətini özündə əks etdirir, və daha çox strateji xarakter daşıyır. Bu marketinq fəaliyyəti daha geniş miqyası əhatə etməklə, innovasiyalı məhsulun bazara irəlilədilməsi ilə yanaşı, bazarın tələblərinə uyğun olaraq innovasiyanın yaradılması prosesinin idarəedilməsi ilə də əlaqədardır və eyni zamanda, marketinq – MİKS-dən istifadə etməklə innovasiya prosesinin həyata keçirilməsinin taktikasının və strategiyalarının hazırlanmasında iştirakı da nəzərdə tutur.

İkinci halda isə, innovasiya marketinqi innovasiya bazarında fəaliyyət göstərən innovasiya müəssisəsinin marketinq fəaliyyətini özündə birləşdirir, bazar üçün yeni məhsul, yeni texnologiya, yeni idarəetmə sistemlərinin, bir sözlə innovasiyanın yaradılmasını və kommersializasiyasını nəzərdə tutur. [2]

Hal-hazırda Azərbaycanda yüngül sənaye sahələrinin yenidən təşkil edilməsi nəticəsində məhsul istehsalının həcminin və keyfiyyətinin artımı, innovasiyalı məhsulların bazara çıxarılması prosesinin artması müşahidə olunur. Xammal emalı, toxuculuq və tikiş, dəri və dəridən olan məmulatlar istehsalı sahələrində vəziyyət daha da yaxşılaşmışdır. Respublikada dəri, dəridən olan məmulatlar və ayaqqabı istehsalında mühüm irəliləyişlər olmuşdur, bu imkanlardan daha səmərəli istifadə edilməlidir.

Hazırda xalçaçılıq sahəsində respublikanın şəhər və rayonlarında onlarca müəssisə və sexlər fəaliyyət göstərir. Pespektivdə bu sahənin xammal bazasının möhkəmləndirilməsi, istehsal-texniki səviyyəsinin artırılması, xalçaların keyfiyyətinin və rəqabətqabiliyyətinin yüksəldilməsi, innovasiyalı məhsulların artması istiqamətində tədbirlər görülür.

Bundan əlavə innovasiya marketinqinin aşağıdakı bir sıra fərqləndirici xüsusiyyətlərini qeyd etmək olar:

- innovasiyalı məhsullara tələbatların axtarışı və ödənilməsinə strateji istiqamətlənmə. Bu o deməkdir ki, innovasiya marketinqi , innovasiya fəaliyyətinin idarəedilməsinin həm başlanğıc, həm də son mərhələsində tətbiq olunur;
- yüngül sənayedə innovasiya fəaliyyətinin təşkili və idarəedilməsi bazarla qarşılıqlı əlaqədə həyata keçirilir ki, bu da öz növbəsində şəbəkə nəzəriyyələrindən istifadə edilməsini və müasir münasibət formalarının öyrənilməsini nəzərdə tutur;

Qeyd olunan xüsusiyyətlər innovasiyalı məhsullar bazarında marketinqin yerini və xarakterini bir daha formalaşdırır. [3]

Yüngül sənayedə innovasiya məhsullar üzrə marketinq sisteminin formalaşması bir sıra marketinq tədbirlərinin həyata keçirilməsini nəzərdə tutur ki, onlara da əsasən aşağıdakıları aid etmək olar:

- Marketinq tədqiqatlarının həyata keçirilməsi.
- İnnovasiya məhsulunun yaradılması və realizasiyası prosesinin planlaşdırılması.
- Məhsul konsepsiyasının hazırlanması.
- Yeni məhsulun rəqabətqabiliyyətliliyinin təmin olunması.
- İnnovasiya layihəsinin effektivliyinin qiymətləndirilməsi.
- Yeni məhsulun bazara irəlilədilməsi və kommersiyalaşdırılması.
- İnnovasiyanın investisiya imkanlarının tədqiqi.
- İnnovasiya layihələrinin marketinq idarəedilməsi.
- Müəssisədə innovasiya menecmentinin təşkili.

Yüngül sənaye sahələrinə məxsus olan müəssisələrdə innovasiya məhsulu üzrə marketinq alətlərinin tətbiqi istiqamətlərindən biri yeni məhsulun və texnologiyanın yaradılması prosesində zəruri informasiyanın əldə edilməsidir. Belə informasiyaya hər şeydən əvvəl, yeni məhsulun potensial alıcıları, kommersializasiya imkanları, rəqiblər, bazarın tələbatı, müəssisənin daxili imkanları və məhdudiyyətləri haqqında olan informasiyalar aid edilirlər. Belə məlumatlar innovasiya məhsulları üzrə marketinq qərarlarının qəbulunda xüsusi əhəmiyyətə malik olurlar.

Müəssisənin fəaliyyətində qəbul edilən hər bir qərar onun üçün zəruri olan informasiyanın əldə edilməsi və təhlilinə əsaslanır. İnnovasiya fəaliyyətinin və onunla əlaqədar idarəetmə qərarlarının yüksək riskli olması informasiyaya olan tələbi artırır. Zəruri informasiyanın əldə edilməsinin çətinliyi onun əhəmiyyətini xeyli çoxaldır.

Məlumatların toplanması üsullararına əsasən marketinq tədqiqatları, eksperiment və müşahidə metodları aid edilirlər. İnnovasiyalı məhsulun yaradılması və realizasiyasının bütün mərhələlərində marketinq tədqiqatlarından istifadə mühüm əhəmiyyət kəsb edir. İnnovasiya məhsulunun yaradılması və realizasiyası prosesinin planlaşdırılması innovasiya fəaliyyətində marketinq sisteminin vacib elementlərindən biri hesab olunur.

İnnovasiya fəaliyyətini həyata keçirməyə qərar verən yüngül sənaye müəssisəsi investisiya maliyyələşməsini həll etdikdən sonra yaradılması nəzərdə tutulan innovasiyalı məhsul üzrə planlaşdırmanı həyata keçirir, marketinq kompleksini işləyib hazırlayır. Planlaşdırma yeni məhsulun yaradılması və kommersiyalaşdırılması prosesini mərhələlər üzrə izləməyə, fəaliyyət planını hazırlamağa imkan verir. [4]

Yüngül sənayedə innovasiya məhsullar üzrə marketinq sisteminin elementlərindən biri də məhsul konsepsiyası çərçivəsində məhsul siyasətinin formalaşmasıdır. Marketinq tədqiqatlarının həyata keçirilməsi əsasında, məhsul çeşidinin planlaşdırılması, müəssisənin məhsul siyasətini formalaşdırmağa və həyata keçirməyə imkan verir. Məhsul marketinq kompleksinin bir elementi kimi müəssisənin fəaliyyətində olduqca mühüm əhəmiyyət kəsb edir. Məhsul siyasəti digər marketinq strategiyalarının hazırlanması və həyata keçirilməsində də olduqca mühüm rol oynayır.

Məhsul siyasəti - əmtəənin rəqabətqabiliyyətliliyinin təmin edilməsini nəzərdə tutan, alıcıların tələbini ödəməyə və mənfəət əldə etməyə yönəldilən, məhsul çeşidinin formalaşması və planlaşdırılmasının həyata keçirilməsini nəzərdə tutan, müvafiq marketinq strategiyalarının və tədbirlər kompleksinin həyata keçirilməsi istiqamətlərini müəyyənləçdirən tədbirlər sistemidir. Müəssisənin məhsul siyasətinin formalaşması üzrə qəbul olunan istənilən qərar strateji xarakter daşıyır və qısamüddətli nəticələrin deyil, uzunmüddətli rəqabətqabiliyyətliliyin və rəqabət üstünlüyünün təmin olunmasına istiqamətlənir. Beləliklə, məhsul siyasətinin mahiyyətinə və məzmununa uyğun olaraq innovasiya məhsulunun mahiyyəti formalaşır: - istehlakçıların artan tələbatının ödənilməsi, yüksək mənfəət əldə edilməsi hesabına müəssisənin uzunmüddətli rəqabətqabiliyyətliliyinin təmin olunması və s.

Müəssisənin məhsul siyasətinin formalaşması son nəticədə innovasiya məhsulu üzrə marketinq alətlərinin tətbiqi istiqaməti kimi çıxış edir. Müəssisənin innovasiya məhsulu üzrə marketinq

sisteminin elementlərindən biri də yeni məhsulun rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsindən ibarətdir.

Müəssisənin innovasiya məhsulu üzrə marketinq sisteminin elementlərindən biri kimi innovasiya layihələrinin iqtisadi səmərəliliyinin qiymətləndirilməsi və bu zaman tətbiq olunan marketinq metodları hesab olunur.

Beləliklə, innovasiya məhsulları üzrə innovasiya layihəsinin effektivliyinin qiymətləndirilməsi innovasiya fəaliyyətində marketinqin tətbiqi istiqamətlərindən biri kimi çıxış edir, bu sahəyə çəkilən xərclərin özünü doğrultmasını müəyyənləşdirməyə imkan verir. İnnovasiya məhsulunun bazara irəlilədilməsi və kommersialaşdırılası prosesində marketinqin tətbiq olunması istiqamətlərindən biri də yeni bazarlara çıxış strategiyasının formalaşmasından ibarətdir. [5]

Marketinq innovasiyası prosesi zamanı şirkətlər daha çox araşdırma və inkişaf fəaliyyətinə daha çox investisiya ayırır. Burda həm ixtisaslı kadrlar həm də müasir texnologiyaların cəlbi nəzərdə tutulur. Bu qərar şirkətə kifayət qədər maliyyə tələb edə bilər lakin nəticənin şirkət üçün rəqabət üstünlüyü əldə edərək faəliyyətini uzatması, istehsal edilən məhsul və ya xidmətlərin daha keyfiyyətli olması daha çox müştərinin cəlb olunmasına, mövcud müştərilərin daha keyfiyyətli və yeni məhsul və ya xidmətlərlə təmin edilməsinə, rəqiblərdən önə keçərək fərqli və ya innovasiyalı məhsulla bazar payını artırmaqla yanaşı rəqiblərindən bir neçə addım önə keçə , nəticə etibarı ilə ölkə iqtisadiyyatının və sosial rəfahın inkişafına müsbət təsir edə bilər.

Məhsulun üzərində müştərilərin fikirləri nəzərə alınaraq edilən müəyyən dəyişikliklər, məhsulun qramında və ya paketlənməsində edilən yenilənmələr, məhsulların müştərilərə müxtəlif və rəqiblərdən fərqli kanallarla çatdırılması, bu kanalların axtarılması, inkişaf etdirilməsi, yeni texnologiya və metodlardan istifadə edərək məhsulun bazarda tanıtımı marketinq innovasiyasının bir hissəsidir. Məhsul və ya marka ilə müştərilərin arasında əlaqələrin qurulması şirkətlərin hazırkı dövrdə strategiyası halına gəlmişdir. Bu strategiyadan istifadə edən şirkətlər müştərilərin diqqətində olur və müştərilər satın alma davranışlarını bu məhsulun üzərində mərkəzləşdirməklə yanaşı bu davranışını dəyişmək ehtimalı çox olur.

Rəqəmsal marketinq bu strategiyanın ayrılmaz bir hissəsidir və şirkətlərin istər gələcək istərsə də mövcud vəziyyətdə qərarlarına təsir göstərəcək dərəcədə əhəmiyyət kəsb etməkdədir. Müasir metodla müştərilərin marka, məhsul və ya xidmət barədə reaksiyaları, davranışları izlənilir, müsbət və ya mənfi fikirləri, bu fikirlərin idarə edilməsi, cavablandırılması və müştərinin daha da məmnun edilərək həm marka həm də şirkət üçün əhəmiyyətliliyi artırılır.[6]

Yüngül sənaye sferasında istehsalın qaydaya düşməsinində son dövrdə müəyyən yaxşılığa doğru dəyişikliklər baş versə də, burada həllini tapmamış xeyli sayda problemlər yer alır. Bu problemlərin öz həllini tapması Azərbaycanda təkcə iqtisadi deyil, həm də çoxlu sayda sosial məsələlərin yoluna qoyularaq həlli mümkündür. Yüngül sənayenin canlanmasına nail olmaq lazımdır. Çünki bu, respublikamızın tələb olunan miqdarda istehlak malları ilə təminatına, idxalın aşağı salınmasına və bu sahədə xaricdən asılılığı minimuma endirməyə imkan verəcək. Bununla yanaşı, iş qabiliyyətli əhalinin xeyli hissəsinin iş yerlərilə təmin olunmasına imkan yaranacaq. Odur ki, yüngül sənaye kimi mühüm bir sahənin inkişaf etdirilməsi dövlət başçımızın ölkəmizin milli iqtisadiyyatının inkişafına istiqamətləndirilən daxili siyasətin prioritetini təşkil edir.

Nəticə

Ölkəmizdə inkişaf dövrünü yaşayan və daha çox əhəmiyyət kəsb edən marketinq innovasiyasının tətbiq olunması halında şirkətlərin rəqiblərini üstələyərək əldə edə biləcəyi faydalar, rəqabət qabiliyyətlilik və ən əsası müştəri məmnuniyyəti uğrunda bazarda uzunmüddətli mübarizə aparmaq qarşıda duran ən mühüm məsələlərdir.

İnnovasiya prosesini qəbul və tətbiq edən şirkətlər bazarda baş verən dəyişikliklərə uyğunlaşan elastik quruluşa sahibdirlər. Belə bir şəraitdə rəqabət üstünlüyü və davamlılığını təmin edən şirkətlərin əsas mənbəyinin yenilikçilik olduğu qəbul edilməkdədir. Qloballaşma ilə birlikdə dəyişən rəqabət vəziyyətində müştəri istək və ehtiyaclarının qarşılanması keyfiyyət, maya dəyəri, sürət kimi amillərin yerini alaraq, şirkətləri yeni məhsul və proses inkişaf etdirməyə, təşkilati quruluşlarında dəyişikliklər etməyə məcbur edir.

Respublikamızda son dövrlərdə yüngül sənayenin sürətli inkişafı göstərir ki, İnnovasiya marketinqinin tətbiqi, əhalinin tələb olunan miqdarda innovasiyalı istehlak malları ilə təminatına, idxalın aşağı salınmasına və bu sahədə xaricdən asılılığı minimuma endirməyə imkan verəcək. Bununla yanaşı, iş qabiliyyətli əhalinin xeyli hissəsinin iş yerlərilə təmin olunmasına imkan yaranacaq. Odur ki, yüngül sənaye kimi mühüm bir sahənin inkişaf etdirilməsi dövlət başçımızın ölkəmizin milli iqtisadiyyatının inkişafına istiqamətləndirilən daxili siyasətin prioritetini təşkil edir.

Ədəbiyyat

1. İslam İbrahimov, Kərim Kərimov. Sənayedə investisiya və innovasiya fəaliyyəti, (Dərs vəsaiti), Bakı 2017.

2. Qrem Huley, Con Sonders, Naycel Pirsi, Marketinq strategiyası və rəqabətli mövqeləşdirmə, Rus dilindən tərcümə - Bakı, İqtisad Universiteti nəşriyyatı, Bakı 2008

3. Oqtay Məmmədli, Şahin Xurşudov, Fazil İsmaydov, Rəhmiyyə İbrahimova, Gülnarə Turabova, Marketinq, (Dərslik), Bakı 2016.

4. Fikrət Quliyev, Marketinqin idarə edilməsi, Bakı 2018.

5. http://economy.gov.az/

6. http://senaye.gov.az/

İNNOVASİYA İNKİŞAFININ QİYMƏTLƏNDİRİLMƏSİNƏ YANAŞMA

Taner Shener Adnan oglu, doktorant
Milli Aviasiya Akademiyası
tanershener3@gmail.com;
orcid:0000-0003-2272-0327

Xülasə

Məqalədə innovasiya inkişafının qiymətləndirilməsi üzrə yerli və xarici metedoloji yanaşmaları nəzərdən keçirilib və təhlil edilib. İşdə inovasiya inkişafının qiymətləndirlməsinin ümumi istiqamətləri və metodik yanaşmalarının ümumi xüsusiyyətləri müəyyən edilmiş, Azərbaycanın innovasiya potensialının müqayisəli qiymətləndirilməsinə görə hər regionlar üçün innovasiya indeksi hesablanmışdır. İşdə tətbq edilən metodika Azərbaycanın milli və spesifik xüsusiyyətlərini, bu sahədə statistik göstəriciləri, toplana və emal edilə bilən informasiyaları, regionların innovasiya potensialını nəzərə alaraq dəqiqləşdirilmiş, göstəricilər sistemi dəyişdirilmiş və Azərbaycan üçün hesablanmışdır. Aparılan tətqiqat nəticəsində regionların respublikanın iqtisadiyyatının inkişafında rolunun və rəqabətqabiliyyətliliyinin atrırılması üzrə təkliflər verilmişdir.

Açar sözləri: **regional innovasiya, qiymətləndirmə, metodologiya, innovasiya potensialı, milli**

GİRİŞ

Bizim günlərdə innovasiya fəaliyyəti əsasında regionların sosial-iqtisadi inkişafı məsələsinə maraq artır. Dünya iqtisadiyyatının texnoloji yenidən qurulması şəraitində iqtisadiyyatın innovasiya inkişafı və texnoloji moderləşdiriməsi xüsusi aktuallıq kəsb edir. Bu halda innovasiya inkişaf yolu çoxtərəfli inkişafını və qabaqlayan inkişafın yeni zonalarının formalaşmasını güman edir. innovasiya potensialının artırılması Avropa dövlətləri üçün də vacib məsələlərdəndir. Onlar bu sahədə uyğun fəaliyyət planı qəbul edirlər [1].

Bu gün innovasiya inkişafının qiymətləndirilməsi üzrə çoxlu yanaşmalar var: qiymətləndirmə subyekt və obyektlər üzrə differensiallaşdırılmış, institutsional mühitə, məqsəd və vəzifələrə, göstəricilərə, qiymətləndirmənin informasiya bazasına görə və s.

Buna görə də innovasiya inkişafının qiymətləndirilməsi üzrə yerli və xarici metedoloji yanaşmaları nəzərdən keçirmək və təhlil etmək lazımdır. İlk öncə innovasiya inkişafı anlayışının açıqlamasını verək.

İ*nnovasiya inkişafı* ölkənin bütün maraqlı tərəflərinin (hökümət təşkilatları, əhali və s.) ehtiyaclarının təmin edilməsini nəzərə alacaq kompleks balanslaşdırılmış inkişafı məqsədli yeniliyin yaradılması və tətbiqinin qarşılıqlı əlaqəli proseslər məcmusu, amil və şərtlərin innovasiya proseslərinə təsir edən sistemdir [2].

Cədvəl 1 İnnovasiya inkişafının qiymətləndirilməsinə yanaşmalar

Yanaşma	**URL**
The Global İnnovation İndex	https://www.globalinnovationindex.org
Global İnnovation Barometer	https://www. ge.com/stories/innovation-barometer
European İnnovation Scoreboard	*http://ec.europa.eu/DocsRoom/documents/25101*
Regional İnnovation Scoreboard	http://ec.europa.eu/docsroom/ documents/23881
İnnobarameter	https://ec.europa.eu/growth/industry/innovation/facts-figures/ innobarometer_en
Community İnnovation Survey	http://ec.europa.eu/eurostat/web/microdata/community-innovation-survey
İnnovation Cities İndex	https://www.innovation- cities.com/indexes
Eco-İnnovation Scoreboard	https://ec.europa.eu/environment/ecoap/indicators/index_en

Qeyd:[3,4,5,6,7,8,9,10,11] əsasında müəllif tərəfindən tərtib edlib.

1. Ölkənin innovasiya inkişafının ölçülməsinə ümumi yanaşma

Əvvəl qeyd etdiyimiz kimi, RİS strukturuna müxtəlif yanaşmalar var. Yanaşmalar şərti olaraq iki əsas istiqamət üzrə qruplaşdırılır:

1. RİS-ə qarşılıqlı əlaqəli və qarşılıqlı təsirli elementlərdən ibarət sistem kimi baxılır.
2. RİS-ə innovasiya fəaliyyətinin qarşılıqlı əlaqəli mərhələlərinin prosesi kimi baxılır.

Əslində RİS çox mürəkkəb struktura malikolduğundan, RİS hər iki istiqaməti nəzərə almaqla öyrənilməlidir.

Beləliklə, regionun innovasiya sistemi - bu sistemin elementləri olan və qarşılıqlı əlaqədə olan iqtisadi subyektlər tərəfindən innovasiya fəaliyyətinin müxtəlif mərhələlərinin həyata keçirən ardıcıl prosesdir. (Şəkil 1.)



Şək 1. Regional innovasiya sistemi bloku [Vagina]

əks əlaqə

Bu yanaşmaya görə RİS konseptual modeli müxtəlif bloklarda yerləşən innovasiya prosesinin mərhələlərinə əsaslanır. Bu şəkildə innovasiya sisteminin struktur elementlərinin qarşılıqlı təsir

mexanizmi verilib. Burda funksional blok "RİS yaranma imkanları" və "Sistem girişi" kimi baxılan potensialı əks etdirir.

Digər "Proses bloku" innovasiya fəaliyyətinin birbaşa həyata keçmə mərhələsini əks etdirir. Burda aparıcı element elmi-tədqiqat birlikləri bə biznes-sektorudur. Bu elementlər sıx əməkdaşlıq şəraitində yeniliyin yaranması, onların yoxlanılması və kommersiyalaşmasını təmin edir.

Qarşılıqlı iş birliyinin əsasını dövlətin aktiv iştirakı və formalaşan institusional mühit və inkişafın innovasiya mühitinin keyfiyyəti innovasiya prosesinin surət və nəticəviliyinə təsir edir.

"Nəticəvi blok" RİS effektlərini əks etdirir, başqa sözlə regionun sahəvi rəqabətqabiliyyətliliyinin artırılması əsasında dayanıqlı iqtisadi artım hesabına əhalinin həyat səviyyəsinin artırılmasını əks etdirir. RİS-də alınan effektlər sisteminin potensialının güclənməsinə istiqamətlərin və onun inkişafının yeni mərhələsinin ehtiyatı (əsası) kimi istifadə edilir.

RİS-in şək. 1-də verilmiş modelini RİS-in inkişaf səviyyəsinin qiymətləndirilməsinə yanaşmanın işlənməsində əsas götürək. RİS-in qiymətləndirilməsinin metodoloji əsası kimi daha geniş yayılmış xarici və yerli yanaşmadan istifadə edək.

Azərbaycanda mövcud metodikaların tətbiq edilməsinə mane olan RİS vəziyyətini əks etdirən ilkin göstəricilərin yerli statistikada olmamasıdır. Yerli hesablamalar da rəsmi statistikada açıq olan göstəricilərə əsaslanır.

RİS-in inkişaf səviyyəsini müəyyən edən innovasiya indeksinin strukturunda RİS-in innovasiya potensialının subindeksləri və onun səmərəliliyi ayrıca hesablanmalıdır. Çünki RİS-in nəticəviliyi onun səmərəliliyinin əsas amilidir. Ona görə də nəticəviliyi xarakterizə edən indikatorlar ayrıca hesablanmalı və indeksin strukturunda böyük çəkiyə malik olmalıdır.

Regionun iqtisadi sisteminin innovasiya inkişafının qiymətləndirilməsində əsas istiqamətlər nəzərə alınmalıdır:

- RİS vəziyyəti əks etdirən ilk göstəricilərin tərkibi yenidən müəyyən edilməli;
- RİS-in potensial və səmərəliliyi göstəriciləri müxtəlif qruplara keçmək şərti ilə subindeks tərkibində göstəricilərin qruplaşdırılması;
- nəticəvi göstəricilərin vacibliyi baxımından subindeksin çəkisinin müəyyən edilməsi.;

Regionun innovasiya inkişafı indeksinin strukturu RİS vəziyyətini əks etdirən 4 subindeksdən ibarət olmalıdır (şək. 2):

Şək. 2. RİS inkişaf səviyyəsinin qiymətləndirilməsi [Vagina]

"İnnovasiya imkanları" subindeksi innovasiya sisteminin ilkin formalaşma imkan və şərtlərini əks etdirir. RİS potensialını xarakterizə edən göstəricilərə aiddir: insan potensialı, elmi, istehsal-texnoloji vəziyyət, iqtisadi subyektin informasiyalaşma dərəcəsi:

"İnnovasiya fəaliyyəti" subindeksi regionda innovasiya proseslərinə fəallığını, innovasiya təsərrüfat subyektlərinin keyfiyyət xüsusiyyətlərini, tədqiqatçıların çap aktivliyini xarakterizə edən göstəricilər aiddir. Burda tədqiqat keyfiyyəti, elmi birliklərin və iqtisadiyyatın biznes-sektorunun qarşılıqlı fəaliyyətini, patent və ixtiralara verilən ərizə sayları və s. nəzərə alınmalıdır.

"Effekt" subindeksi regionda innovasiya sisteminin səmərəliliyini və innovasiya məhsul, xidmət və texnologiyaların yaradılmasında innovasiya fəaliyyətinin nəticəviliyi əks etdirir.

RİS nəticəviliyini əks etdirən göstəricilərin siyahısına aiddir: innovasiya işləməsinin ixracından əldə edilən pulun həcmi, əhalinin yaşayış keyfiyyətini əks etdirən göstəricilər.

Regional iqtisadi sistemlərin innovasiya inkişafının qiymətləndirilməsi formalaşan RİS-in səmərəliliyini müəyyən etməyə, məlumatlaın dinamikasının təhlili isə onların səmərəliliyinin artırılması üzrə təşkilati-idarəetmə qərarlarının işlənməsinə imkan verir.

Çox heyif ki, RİS-in bu metodika ilə qiymətləndirilməsinin aparılması Azərbaycanda bəzi çətinliklərlə qarşılaşır. Çünki təqdim edilən 4 subindeksin hər birinin tərkibinə daxil olan göstəricilərin Azərbaycanda statistikası yoxdur.

2.Regionun innovasiya inkişafının qiymətləndirmə yanaşmalarının ümumi xüsusiyyətləri

Regionun innovasiya inkişafını qiymətləndirən metodikaların əksəriyyəti müəsissənin rəhbərliyinin sorğusu əsasında aparılır. Bu biznes-birliklərin innovasiyaya və onun tətbiqinə münasibətini bilməyə kömək edir. Çox vaxt bu vəziyyət Avrostatın məlumatlarının istifadəsi ilə tənzimlənir. Bütövlükdə, baxılan metodikalar ölkənin regional təbiətli, iqtisadi və sosial xüsusiyyətləri ilə inkişaf etmiş ölkələrdə institusional mühitin yaradılmasına uyğunlaşıb.

Beləliklə, baxılan region innovasiya inkişafının qiymətləndirmə metodik yanaşmalarının ümumi xüsusiyyətləri cədvəl 2-də verilib.

Cədvəl 2 Region innovasiya inkişafının qiymətləndirmə metodik yanaşmalarının ümumi xüsusiyyətləri

Xüsusiyyətlər	**İzahı**
məqsəd	regionun innovasiya inkişafı sahəsində tədqiqat;
vəzifə	regionun innovasiya inkişafının qiymətləndirilməsi, müqayisə üçün regionların reytinqini yaratmaq, onların regionun innovasiya inkişafının zəif və güclü tərəflərini müəyyən etmək;
baxılan obyekt	müəyyən administrativ sərhədlərlə (şəhər, klaster, region, region qrupu ölkə) məhdudlaşan region;
qiymətləndirmə amilləri	regionun innovasiya inkişafına təsir edənlər (industrial, iqtisadi, kompleks, sosial, ekoloji-iqtisadi);
istifadə edilən ilkin məlumat	statistik verilənlər, müəssisə və beynəlxalq təşkilat məlumatları, sosioloji sorğu verilənləri;
tətbiq edilən üsullar	qiymətləndirmənin kəmiyyət və keyfiyyət üsulları;
göstəricilər	metodikdan asılı olaraq sayı dəyişir, müəyyən bloklarda göstəricilər qruplaşır;
tətbiq edilən çəki əmsalları	xüsusi hallarda

Regionların innovasiya inkişafını qiymətləndirmənin metodik yanaşmaların əksəriyyəti iqtisadi, sosial, institusional göstəriciləri nəzərə alan və innovasiya inkişafının müəyyən şəklini əks etdirən kompleks yanaşmaya əsaslanıb. Hətta yanaşmaların çoxu iqtisadi yanaşmaya əsaslanır. Bu da cəmiyyətin innovasiya inkişafına çəkdiyi xərclər, əhalinin təsərrüfatına və həyat fəaliyyətinə tətbiqindən alınan gəlir ilə izah edilir. Digər tədqiqatçılar isə böyük müəssisələrin işinin nəticələrinin verilənlərinin istifadəsinə yönəlib, kiçik sahibkarlıq fəaliyyətini və regional xüsusiyyətlərin verilənləri nəzərə alımmırlar.

Bundan başqa, baxılan metodikalar spesifik xüsusiyyətə malik regionların qiymətləndirilməsində istifadə edilmirlər. Xarici alimlər regionun innovasiya inkişafının qiymətləndirilməsində iqtisadiyyata təsir edən təbiət və demokrafik amillərində nəzərə almağı təklif edirlər[12]. Digərləri isə kiçik xalqlar yaşayan regionlarda mədəni ənənələrini, ənənəvi təsərrüfat fəaliyyətini və onlara təsir edən xarici mühiti nəzərə almağı təklif edirlər[2].

Nəticə

innovasiya inkişafınının qiymətləndirilməsi üzrə metodik yanaşmaların təhlili nəticələrinə görə aşağıdakı nəticələri ala bilərik:

- innovasiya inkişafının qiymətləndirilməsi məsələsi kompleks göstəricilər və lazım verilənlərin toplanma sisteminin işlənilməsi ilə inkşaf etdirilməlidir;

- innovasiya inkişafının qiymətləndirilməsində kəmiyyət və keyfiyyət göstəriciləri nəzərə alınaraq ekspert qiymətləndirilməsi daxil etməklə kompleks yanaşma məqsədə uyğundur;

- ölkənin təbiət, demoqrafik, iqtisadi xüsusiyyətlərini nəzərə almaq lazımdır. Kiçik xalqlar çoxluq təşkil etdiyi regionlarda innovasiyanın ənənəvi həyat tərzinə ənənəvi təsərrüfat fəaliyyətinə təsiri təhlil edilməlidir.

Beləliklə, innovasiya inkişafının kompleks qiymətləndirilməsi işlənilməlidir. Bu qiymətləndirmənin nəticələri dövlət siyasətinin təkminləşmə mexanizminə əsas ola bilər.

Ədəbiyyat

1. Thome A.M.T., Scavarda A., Ceryno P.S., Remmen A. (2016) Sustainable new product development: a longitudinal review // Clean Technol Environ Policy, 2016. – doi:1007/s10098-016-1166-3.
2. Global Innovation Index. [Электронный ресурс]. URL: https://www.globalinnovationindex.org
3. Global Innovation Barometer. Ge.com. [Электронный ресурс]. URL: https://www.ge.com/stories/innovation-barometer
4. European Innovation Scoreboard 2017. Methodology Report. Ec.europa.eu. [Электронный ресурс]. URL: http://ec.europa.eu/DocsRoom/documents/25101
5. 2017. Ec.europa.eu. [Электронный ресурс]. URL: http://ec.europa.eu/docsroom/documents/23881 (дата обращения: 14.02.2018).
6. The innovation trends at EU enterprises. Summary. Innobarometer. [Электронный ресурс]. URL: https://ec.europa.eu/growth/industry/innovation/facts-figures/innobarometer_en
7. Community Innovation Survey. Ec.europa.eu. [Электронный ресурс]. URL: http://ec.europa.eu/eurostat/web/microdata/community-innovation-survey
8. Innovation Cities Program. [Электронный ресурс]. URL: https://www.innovation-cities.com/indexes
9. The eco-innovation scoreboard. European Commission. [Электронный ресурс].URL: https://ec.europa.eu/environment/ecoap/indicators/index_en
10. Pater R. Lewandowska A. (2014) Human capital and innovativeness of the European Union regions, Innovation // European Journal of Social Science Research, 2014.
11. Heather A. Conley, David L. Pumphrey, Terence M. Toland, Mihaela David (2013)Arctic Economics in the 21st Century. The Benefits and Costs of Cold. A Report of the CSIS Europe Program. – July 2013.
12. Hüseynova Arzu Doğru qızı (2013) Azərbaycanda innovasiya potensialının təhlili. Bakı: Elm və təhsil, 2013, 385 s

Approaches to the assessment of innovation development

ABSTRACT

The article reviewed and analyzed local and international methodological approaches to assessing innovation development. The study identifies the general trends and methodological approaches to the assessment of innovation development, and calculated the innovation index for each region for a comparative assessment of Azerbaijan's innovation potential. The methodology used in this work has been refined based on national and specific features of Azerbaijan, statistical indicators in this area, collecting and processing information, and the innovative potential of the regions. As a result of the research, recommendations were made on the role of the regions in the development of the economy and competitiveness of the regions.

Keywords: regional innovation, assessment, methodology, innovation potential, national

İNNOVASİYA POTENSİALI VƏ MÜƏSSİSƏLƏRDƏ ONDAN İSTİFADƏSİNİN STİMULLAŞDIRILMASI

Şərifli İsmayıl Elman oğlu
Bakı Biznes Universiteti
İsmayilsharifli@gmail.com

Xülasə

Bu gün Azərbaycan iqtisadiyyatı innovasiya iqtisadiyyatına keçid mərhələsindədir. İnnovasiya iqtisadiyyatının mahiyyəti innovasiya fəaliyyətinin aktivləşdirilməsidir. İnnovasiya infrastrukturunu inkişaf etdirmədən innovasiya fəaliyyətini inkişaf etdirmək qeyri-mümkündür. Bu isə ilk növbədə Azərbaycanda yalnız neft sənayesində deyil, digər sahələrin inkişafı, biliyə söykənən sahələrin və elmtutumlu texnologiyaların inkişaf etdirilməsidir. Buna nail olmaq üçün isə sahə müəssisələrində innovasiya prosesinin təşkili və bir fəaliyyət olaraq idarə olunmasının mükəmməl metod və mexanizmlərdən ibarət sisteminin işlənilməsi, tətbiqi və mənimsənilməsi vacibdir. İnnovasiya prosesi, hər bir mürəkkəb sistem kimi, bütövdür, müəyyən strukturaya malikdir və dinamizmi ilə seçilir.

İnnovasiya strategiyasının əsas zəmini istehsal olunan məhsulun və texnologiyanın mənəvi köhnəlməsidir. Bununla əlaqədar olaraq müəyyən müddətdən bir texnologiyanın, avadanlığın, iş yerlərinin və buraxılan məhsulun attestasiyasını aparmaq, bazarı və əmtəələrin bölgüsü kanalını təhlil etmək məsləhət görülür. Başqa sözlə biznesin təhlilinin aparılması gərəkdir. Novator fəaliyyətinin əsas prinsipləri hansılardır? P.Drukker hesab edir ki, nə etmək lazmdır və nəyi etmək məsləhət görülmür kimi iki yanaşma arasında dəqiq xəttin çəkilməsi zəruridir. [4]

İnnovasiya potensialından istifadə zamani aşağıda qeyd edilənləri etmək məqsədəuyğun hesab edilir:

1. Məqsədyönlü sistemli innovasiya fəaliyyəti innovasiyanın mümkün mənbələrinin fasiləsiz təhlilini tələb edir.
2. İnnovasiya ondan istifadə edəcək insanların tələblərinə, arzularına və vərdişlərinə uyğun olmalıdır.
3. İnnovasiya sadə olmalı və onun dəqiq məqsədi olmalıdır.
4. Az miqdarda pul və az sayda işçi qüvvəsi və məhdud riskə malik olmaqla innovasiyanın effektiv tətbiq edilməsi həyata keçirilməlidir.
5. Effektiv innovasiya məhdud bazarlarda öz nişalarının liderliyinin təmin edilməsinə yönəldilməlidir. Əks halda o rəqiblərin sizi ötə biləcəyi situasiyanı yarada bilər.

İnnovasiya prosesinin mahiyyətini yaxşı bilmək və müvafiq tədbirlərin görülməsi üçün onun parametrlərini də dəqiq bilmək lazımdır. İnnovasiya prosesinin parametrləri aşağıdakı cəlvəldə göstərilmişdir.

Cədəvəl 1 İnnovasiya prosesinin parametrləri

Parametrlər	**İnnovasiya prosesi**	**Cari fəaliyyət**
Məqsəd	Yeni tələbin ödənilməsi	Yaranmış tələbin ödənilməsi
Risk	Yüksək	Zəif
Prosesin tipi	Diskret	Fasiləsiz
İdarəolunma	Aşağı	Yüksək
Sistem üçün nəticə	Yeni səviyyəyə keçid	Əvvəlki səviyyədə qalma
İştirakçıların cari maraqlarına münasibət	Ziddiyətlidir	Uyğundur

İnnovasiya fəaliyyətinin nəticələrinin əsasən aşağıdakılardan ibarətolduğunu təcrübə təsdiq edir:

- ali təhsil ocaqlarında eksperimental bazada və Elmi-Tədqiqat İnstitutlarına hazırlanan kiçik - -seriyalı və kiçiktonnajlı məhsullar;
- proqramm məhsulları;
- unikal aparatdan istifadə etməklə elmi-istehsal xidmətləri;
- informatika, informasiya, ETKİB-nin və istehsalın patent-lisenziya təmiatı sahəsində xidmət.

İnnovasiya fəaliyyətində əsas məsələ stimullaşdırmanın məqsədlərinin düzgün seçilməsindən ibarətdir. Əgər yüngül səanyenin bütün sahə və alt sahələrində texniki təkrar silahlanması yeni texnoloji səviyyədə, innovasiyanın istifadəsinin ümumi aktivləşdirilməsi məqsəddirsə, o halda yüngül səanyenin bütün sahələrində və altsahələrində bərabər paylanmış ümumi qərar kifayətdir. Əgər ki, yüngül səanyenin struktur yenidən qurulması və rəqabət qabiliyyətliyinin yüksəldilməsi məsələsi dünya bazarına çıxış perspektivi nəzərə alınmaqla eyni zamanda həll edilməlidirsə, o halda stimullaşdırma mexanizmi dövlətin maraqları və həmin sahənin inkişaf prioritetlərinin seçilməsini və bu prioritetlərin stimullaşdırma mexanizmini özündə birləşdirməlidir. [5]

Bizə elə gəlir ki, stimullaşdırma sistemi sahənin ikili vəzifələrini həll etməyəimkan verməlidir. Daha doğrusu struktur islahatlarının aparılması və sahənin rəqabətqabiliyyətliyinin yüksəldilməsi kimi məsləələri həll etməlidir.

İnnovasiyanın düzgün və vaxtında tətbiq edilməsi üçün o planlı şəkildəhəyata keçirilməlidir.

İnnovasiyanın planlaşdırılması və tətbiqinin gedişatında müəssisənin rəhbərliyinə bir sıra amillər əhəmiyətli dərəcədə təsir göstərir: Bu amillərə aşağıda qeyd edilənləri aid etmək olar:

- müəssisənin icraçı direktorunun əhaətsinin və ya prezidentinin, onun admnistrasiyasının xarakteri;
- direktorlar şurasının tərkibi;
- müəssisənin rəhbərinin mükafatlandırma sistemi və səviyyəsi.

Baxmayaraq ki, hər bir innovasiya prosesinin başında müəssisənin lideri dayanır, innovasiya strategiyasının uğurla tətbiqi daha çox onun komandasının tərkibini təşkil edən insanların xarakterindən asılıdır.

Müəssisə rəhbərlərinin bir çoxu belə komandanın vahid üzvü olmağa üstünlük verirlər. «Business Week»-in qiymətləndirməsinə görə ABŞ-ın 100 iri şirkətlərinə daxil olan şirkətlərin əksəriyyərində direktorlar şürası və baş direktor postunun birləşdirilməsi və kabinetin və ya tamhüquqlu idarə heyətinin olmaması müşahidə olunur. Mütəxəsislərin fikrinə görə bu fakt "koordinasiya" diktaturasının formalaşmasına və innovasiyadan imtinaya səbəb olur.

İnnovasiyanın iqtisadiyyatın və o cümlədən yüngül sənayenin bütün sahələrində tətbiqi üçün bu məsələyə elmi yanaşma zəruridir. Elm sahəsində innovasiyanın dərinləşməsi iqtisadiyyatın bütün sahələrində dəqiq olaraq tətbiq ediləcəkdir. Mütəxəssislər elmi innovasiya fəaliyyəti həyata keçirən müəssisə və təşkilatların stimullaşdırılması üçün müxtəlif variantlar olduğunu bildirirlər.

Azərbaycanda elmi innovasiya fəaliyyətini həyata keçirən bütün müəssisə və təşkilatların fəaliyyətinin stimullaşdırılması təklif edilir. "Elm haqqında" qanun layihəsinin ikinci oxunuş üçün təkmilləşdirilmiş yeni variantına daxil edilib. "Elm haqqında" qanunun layihəsində dövrümüzün tələbi olan elmi innovasiya ilə əlaqədar olaraq dövlət siyasətinin əsas istiqamətləri də artıq müəyyənləşdirilmişdir. Bu sənədə görə, respublikada milli innovasiya sistemini formalaşdırılmaqla və bilavasitə onun inkişafının bütün strateji istiqamətlərinin müəyyən edilməsi və həmçinin müəyyən edilmiş prioritetlər üzrə texnika və texnologiya sahəsində inkişafının hədəf kimi təyin eedilməsi, uzunmüddətli innovasiya proqramlarının hazırlanması və reallaşdırlmasının elmi innovasiya sahəsində dövlətin bu sahədə siyasətinin əsas istiqamətlərindən olacağı nəzərdə tutulmuşdur. [1]

Layihədə qeyd edilir ki, elmi innovasiya sahəsində dövlət siyasətinin əsas istiqamətlərindən biri innovasiya layihələrinin maliyyələşdirilməsi, investisiyaların cəlb edilməsi və təşviqi üzrə əlverişli şəraitin yaradılması və müvafiq təşkilati işlərin görülməsidir.

Layihəyə əsasən, elmi innovasiya sahəsində dövlət siyasətinin əsas istiqamətlərindən biri

rəqabətqabiliyyətli, yüksək texnologiyalara əsaslanan istehsal sahələrinin yaradılmasında iştirak etməklə, dövlət sifarişi ilə yaradılmış milli innovasiya məhsullarının zəmanətli satış bazarlarının təmin edilməsi və xaricibazarlara çıxışının həvəsləndirilməsi və himayə edilməsidir.

İqtisadçı alimlərin fikrinə görə innovasiya qanunvericiliyinin olmaması bizə bir çox məsələlərdə maneçilik törədir. Ona görə də ən azı qanunvericiliyi, metodikanı hazırlamaq lazımdır ki, innovasiyalar da inkişaf etsin: "Bu sahədə daha çox təhsil, elm, dövlət və sahibkarlıq tandemini artırmaq lazımdır. Bizdə hər biri ayrı-ayrılıqda olduğu üçün bunu birləşdirməyə ehtiyac vardır.

Maliyyə olmadan da struktur mexanizmlərində müəyyən dəyişikliklər edilə bilər: "Məsələn, universitetdə işləyən elmi təqdiqatçı fəlsəfə doktoru dosent və ya professor olmaq istəyirsə, onların üzərinə elmi məqalələr, kitab, dərslik və sair yazmaqla bağlı yük qoyulur. Fəlsəfə doktorunun dosent olmaq üçün elmi məqalə yazması tələb olduğu kimi, stimullaşdırmanın struktur mexanizmlərində həm də innovasiyaları inkişaf etdirən layihə çalışmalarında yer almaları da tələb edilməlidir. Bu, birbaşa struktur stimullaşdırılmasıdır.

Burada maliyyəyə ehtiyac yoxdur. Bu cür yanaşmalarla maliyyə ayırmadan struktur mexanizmlərini təşviqedici formada tətbiq etməklə buna nail olacağıq. Dünya təcrübəsində də bu var. Sadəcə, ölkəmizdə bumexanizmi işləyib, tətbiq etməliyik".

Stimullaşdırmanın maliyyə yönümlü olan tərəflərindən də istifadə etmək olar: "Hər bir universitetin magistr, fəlsəfə doktorluğu hazırlığı var. Onların hər biri dissertasiya işləyir, hansısa mövzunu araşdırırlar. Əgər yeni qanunda innovasiyaların inkişaf etdirilməsi və tətbiqi istiqamətində öhdəliklər qoyularsa və konkret olaraq araşdırma işlərinin əhəmiyyətli, nəticə yönümlü olması ilə bağlı tələb qoyularsa, bu, daha stimullaşdırıcı tədbir ola bilər. Düzdür, bu, əvvəl də var idi. Amma indi konkret qabardılmasına ehtiyac var.

Təbii ki, bir çox nüansların aradan qaldırılması üçün bu sahənin tənzimlənməsinin bazasını təşkil edən qanun və normativlərin uyğun hala gətirilməli isə ümumilikdə qanunvericiliyimiz beynəlxalq qanunvericiliklə uyğunlaşdırılmalıdır.

Elmi-texniki innovasiyanı işləmələr və tətbiqi etmə imkanlarına malik müvafiq müəssisələrin bu işlərə sövq edilməsi və stimullaşdırılması zamanı araya bir çox problemlər çıxır ki, bunlar arasında da ən qabarığı kadr problemidir. İnnovasiyanın da məhz kadrlar tərəfindən işlənildiyi, real vaziyyətə gətirildiyi və tətbiq edilərək nəticəsinin sınaq edidiyi nəzərə alınaraq bu sahədə düşünülmüş tədbirlər planının hazırlanmasna, işlənilməsinə və müvafiq addımların atılmasına ehtiyac vardır. Məsələn, elmi – tədris ocaqlarını bu sahədə stimullaşdırmaq, xüsusi qrupların yaradılması ilə yerli müəssisələrdə, xarici ölkələrdə tədris-təlim, təcrübə proseslərinə cəlb edilməsi və s.

Xüsusi kurs və təcrübə keçmiş yerli mütəxəssislərin xarici həmkarları ilə birlikdə müştərək şəkildə bu sahədə çalışmalarının təşkil edilməsi məqsədəuyğundur. Bununla əlaqədar prosesin sürətli getməsi və məhsuldar, effektli olması məqsədilə dövlətin müxtəlif qurumları və iri şirkətlər qrant layihələri təqdim edə bilərlər.

Qrantlar üzrə innovativ proseslərə ali təhsil müəssisələrinin mütəxəsisiləri- alimləri, tələbələr və sahə istehsal müəssisələrinin müvafiq mütəxəsisiləri cəlb edilə bilər.

Beləliklə, tarixi proseslər göstərir ki, innovasiya məhsullarının miqdarı zaman keçdikcə artır. Hal-hazırda Yaponiya, ABŞ, Sinqapur, Alamniya və digər bu kimi dövlətlərdən fərqli olaraq Respublikanın daxili bazarlarında çox az miqdarda, çeşiddə innovasiya məhsulları satılır. Artıq heç bir şübhəsiz dövlətə və sahibkarlara məlumdur ki, zaman keçdikcə istehlakçılar əsasən innovativ məhsullara üstünlük verirlər və bu məsələlər nəzərə alınaraq istehsal məhsulları və satış əmtəələri yeni tələblərə cavab verməli və biz də növbəmizdə mükəmməl satış bacarığına malik olmalıyıq.

NƏTİCƏ

İnnovasiya potensialının artırılması əsasında müəssisələrin dayanıqlı inkişafının nəzəri və metodoloji problemləri mühüm təsərrüfat əhəmiyyətinə malikdir və onların həlli aktual hesab edilr. Müasir sənaye müəssisələr üçün müxtəlif struktur prosesləri ilə ifadə olunan daimi yenilənməyə ehtiyac vardır.

İnnovasiya ilə əlaqədar xarici tədqiqatlara istinadən iki əsas məqamı vurğulamaq olar:

- innovasiya daha çox iqtisadi və sosial hadisədir nəinki sadəcə texniki. Hər bir dövrdə sərf

olunan resursların səmərəliyinin yuksəldilməsi innovasiya yönümlü qəbul olunmuş qərarların əsas məqsədi olmuşdur.

- innovasiyalar iqtisadi və sosial nəzəriyyələrə əsaslanan, dəyişiklikləri tam normal, təbii, hətta xoş hadisə kimi qəbul edən sahibkarlıqla sıx bağlıdır.

İnnovasiya fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi üçün onun aktivləşdirilməsinin idarəedilməsini elmi əsaslandırılmış prinsip və metodların məcmusu bazasında həyata keçirmək zəruridir.

İnnovasiya fəaliyyətinin aktivləşdirilməsinin maksimum effektinin əldə edilməsi üçün metodoloji bazanı daima inkişaf etdirmək və təkmilləşdirmək lazımdır.

İnnovasiya fəaliyyətinin aktivləşdirilməsində bütün ümumisistem prinsipləri arasında innovasiya fəaliyyətinin aktivləşdirlilmə məsələlərində idarəetmə funksiyalarının yerinə yetirilməsi daha vacib hesab edilir.

Ədəbiyyat

1. "Elm haqqında" Azərbaycan Respublikasının Qanunu(14 iyun 2016)
2. A.Musayev. İnnovasiya iqtisadiyyatı və vergi stimullaşdırması. Bakı."Azərbaycan Universiteti" nəşriyyatı, 2014
3. A.Musayev. İnnovasiya iqtisadiyyatı və vergi stimullaşdırması. Bakı."Azərbaycan Universiteti" nəşriyyatı, 2014.
4. Основные этапы инновационного процесса. http://helpiks.org/8- 73483.html
5. Иновационнная деятельность и ее методика. https://vuzlit.ru/1217480/inovatsionnnaya_deyatelnost_i_ee_metodika

MÜASİR DÜNYADA İNNOVASİYALARA İNVESTİSİYA: XÜSUSİYYƏTLƏRİ VƏ NÜMUNƏLƏRİ

Abasova Aytən Əsgər qızı, t.e.n., dosent
Azərbaycan Memarlıq və İnşaat Universiteti
ORCİD İD: 0000-0003-1633-6257
Əsgərov Suleyman, magistrant
Azəraqrar Dövlət İstehsalat və Emal Birliyi MMC

Xülasə

Maliyyə kapitalı yeniliklərin yaradılması və yayılmasında əsas məqamlardan biri kimi görülür. Dünyanın aparıcı ölkələrində innovasiya fəaliyyətlərin maliyyələşdirilməsinin xüsusiyyətləri təqdim edilir. Məqalədə göstərildiyi kimi, innovasiyanın uğuru maliyyə və qeyri-maliyyə amillərinin harmonik birləşməsi ilə müəyyənləşdirilir.

Açar sözlər: innovasiya fəaliyyəti, elmi tətqiqat və təcrübi konstruktor içləri, vençur maliyyələşdirilməsi, stimullaşdırma, dövlət dəstəyi.

Giriş

İnnovasiya prosesinin bir ideyanın kommersiyalaşdırılmasına qədər yenilik yaratmağın prosesi müəyyən miqdarda pul, əmək və zehni şərait tələb edir.

İnvestisiya miqdarı (korporativ və hökumət) yeniliyin aktivləşdirilməsi üçün ən vacib şərtdir və ənənəvi olaraq innovativ infrastrukturun, bu halda maliyyə yeniliyinin inkişafının əsas göstəriciləri kimi qəbul edilir. Eyni zamanda, müasir innovasiya inkişafı nəzəriyyəsi bir neçə alt sistemin: insan (intellektual daxil olmaqla) potensialının, maliyyə və texnoloji kapitalının, habelə müvafiq qurumların və bir-birinin yaxın qarşılıqlı əlaqəsini təmin edən innovasiya fəaliyyətinin təşkilinə sistemli bir yanaşma nəzərdə tutur.

İnnovasiya sahəsində aparıcı ölkələrin təcrübəsi bütöv bir innovasiya sistemində iqtisadiyyatın və cəmiyyətin əsas alt sistemlərinin harmonik birləşməsinin son dərəcə yüksək əhəmiyyəti tezisini təsdiqləyir. Belə bir əlaqənin konkret yolları, innovasiya sistemlərinin formaları, iqtisadi subyektlərin, innovasiya iştirakçılarının - tədqiqatçıların, texnologiya inkişaf etdiricilərinin, investorların, yeni məhsul və xidmətlərin istehsalçılarının koordinasiya mexanizmləri - milli iqtisadiyyat modelinin xüsusiyyətləri, tarixi, məkan, sosial-mədəni və digər amillər ilə müəyyən edilir. Bu baxımdan, əksər ölkələr üçün ümumi uğurlu innovasiyaların şərtlərinin öyrənilməsi və yeniliklərin maliyyələşdirilməsinin xüsusiyyətlərinin təhlili təcili bir elmi vəzifədir. Ölkəmizdə, yerli iqtisadiyyatda innovasiya proseslərinin intensivləşməsində təsirli maneələrin olması səbəbindən onun həllinə nəzəri və praktiki maraqlar nisbətən artır.

Xarici ölkələrdə innovasiyaların maliyyələşdirilməsinin xüsusiyyətləri.

İnnovativ inkişafların həyata keçirilməsi üçün tələb olunan kapital, fundamental elm və tədqiqat işlərinin davamlı inkişafı üçün investisiya qoyuluşu, yenilik fəaliyyətində ən vacib amillər qrupunu təmsil edir. ABŞ-da yaxşı inkişaf etmiş kapital bazarı özəl kapital və korporativ maliyyəni, çoxsaylı müəssisə kapital fondlarını və iş mələklərini əhatə edir. ABŞ-da yenilik prosesinin yuxarıdan aşağıya mərkəzləşdirilmiş şəkildə strateji planlaşdırılması yoxdur; bu qismən dövlət maliyyələşdirməsinin qısa müddətli olması ilə əlaqədardır və bu da gələcək tədqiqatlar üçün qeyri-müəyyənlik yaradır. ABŞ hökumət tərəfindən yeniliyin maliyyələşdirilməsi üçün nisbətən aşağı riskli siyasət tədbirləri və əksinə özəl sektorda riskli, avanqard layihələr ilə xarakterizə olunur. Digər tərəfdən, bazar mexanizmlərinin yeni texnologiyaların potensial məhsullarına yaxşı bir ödəmə tələbi formalaşdırma qabiliyyəti və onların təşviqi tədqiqat nəticələrinin sürətlə kommersiyalaşdırılması üçün kifayət qədər möhkəm zəmin yaradır.

Amerika iqtisadiyyatı, həm bank sektorundan, həm də riskli kapital biznesindən və müxtəlif qeyri-dövlət fondlarından innovasiya prosesinin ilkin və digər mərhələlərində fikirlərin təbliğinə uyğunlaşdırılmış son dərəcə inkişaf etmiş bir maliyyələşdirmə şəbəkəsi ilə seçilir. Maliyyə sektorunun və riskli kapital biznesinin inkişaf etdiyi ABŞ-da geniş bir risk və digər maliyyə fondları şəbəkəsi mövcuddur və yenilik üçün pulun böyük hissəsi məhz onlardan gəlir. Maliyyə institutlarının fürsətləri: səhmdar cəmiyyətləri və kredit təşkilatları maliyyə mənbələrinə çatma imkanlarını əhəmiyyətli dərəcədə asanlaşdırır ki, bu da yeni başlayanlar, kiçik və orta müəssisələr üçün xüsusilə vacibdir. Geniş bir Amerika vençur fondu şəbəkəsi dünya iqtisadi cəmiyyətinə dərindən yayılır, risk etməkdən çəkinmir, inkişaf etməkdə olan ölkələrə cəsarətlə gedir.

Maliyyə qaynaqlarının azalması ilə yanaşı, fərdi investorların əhəmiyyəti də artır: 2019-cu ildə, iş mələkləri, əsasən ilkin mərhələdə investisiya qoyduqlarını nəzərə alaraq, bütün özəl sektorun riskli kapital qoyuluşlarının 2/3 hissəsini həyata keçirdi. ABŞ-dan fərqli olaraq, İsrail,Finlandiya, xüsusən Yaponiyada, başlanğıc mərhələsində təşəbbüs maliyyələşdirmə payı sonrakı mərhələdən xeyli yüksəkdir.

Əksinə, Yaponiyada prosesin maliyyələşdirilməsində problemlərin çoxu, vəsaitlərin çatışmazlığı və innovasiya proseslərinin bank maliyyələşdirilməsi sistemindən qaynaqlanır. Mühafizəkar Yapon düşüncəsi, puldan və biznesdəki sabitlikdən qorunmaq üçün maneələr yaradır. Nisbətən inkişaf etmiş bir bank sistemi və on illərdir ki, həllini tapan innovativ proseslərin iştirakçıları arasında qarşılıqlı əlaqə sistemi olan Amerika modelindən fərqli olaraq, Yapon modeli innovative proseslərin həyata keçirilməsi üçün digər prinsiplərə yönəldilmişdir: fikirlərin yaranması, xüsusən də təqdimat, böyük özəl şirkətlərdə cəmlənmişdir.

Yaponiyada hazırkı mərhələdə elm və texnologiyanın bu sahələrinin maliyyələşdirilməsində dövlətin iştirakına böyük ehtiyac yoxdur, dövlət həyatla sıx əlaqəli sahələrə investisiya qoymağa

üstünlük verir: biotexnologiya, "yaşıl texnologiyalar", nanotexnologiya, "alternativ" enerji, informatika və rabitə. Qərb ölkələrində tədqiqat xərclərinin əsas hissəsini özəl biznes fondları təşkil edir: Avropa ölkələrində orta hesabla 70%. Bu məqsədlər üçün vəqf (endaument) - xüsusi təyinatlı maliyyə fondları, məsələn: Böyük Britaniyadakı Gatsby xeyriyyə fondu xaricə yayılmışdır. İngiltərədə Texnologiya Strateji Şurası, bir yenilik layihəsi üçün büdcənin 50% -ə qədərini təklif edir. İngiltərədə geniş bir vençur sistemi qurmaq, bazarın başlanğıcında əldə edilən uğurların əhəmiyyətli bir hissəsidir. Amma buna görə, ABŞ-da inkişaf etmiş bir vençur biznesi və xüsusi bir təşəbbüskarlıq ruhunun birləşməsi, məsələn, İngilislər tərəfindən ixtiralardan əldə etdikləri onların vətəndən, İngiltərədən, əldə etdiklərindən daha böyük gəlir təmin etdi məsələn (Apple şirkəti və s.). ABŞ-da yenilik proseslərinin davamlı və effektiv maliyyələşdirilməsi həm özəl şirkətlərin, həm də fərdi investorların (iş mələklərinin) birgə səyləri ilə müqavilə əsasında və federal qurumlar çərçivəsində təmin edilir. İnnovasiyaların maliyyələşdirilməsi üçün ABŞ infrastrukturu, Prezident Aparatının Elm və Texnologiya Departamenti kimi qurumlar da daxil olmaqla bir neçə inkişaf institutu və bölüşdürmə mexanizmini əhatə edir; ABŞ Konqresindəki xüsusi komitələr; Federal qurumlar; 1950-ci ildə qurulmuşdur Milli Elm fondu və digərləri. Milli Elm Fondunun yaranması federal səviyyədə tədqiqatlara dəstəyi artırdı. Məsələn, proqramlarından biri olan Sənaye Universitetləri Əməkdaşlıq Tədqiqat Mərkəzi (I / UCRC) dövlətin maliyyələşdirməsini və innovasiya mövzusunda iş, akademik əməkdaşlığına dəstək verməyi hədəfləyir.

Dünyadakı bir çox iqtisadiyyatdan fərqli olaraq, erkən mərhələdə maliyyələşdirmə problemi ABŞ-da Kiçik Biznes İnnovativ Texnologiya Transferi (STTR) kimi federal qrantlar və kiçik müəssisələr üçün ilkin mərhələdə tədqiqatları maliyyələşdirən bəzi digər proqramlar vasitəsilə həll olunur. Xüsusilə, SBİR ilkin mərhələdə qrantlar verir, kiçik və orta sahibkarlıq subyektlərini dəstəkləyir, eyni zamanda illik büdcəsi 2,5 milyard dollar olan start-up şirkətlərini dəstəkləyir. Bir qayda olaraq, pul almağın şərtləri universitetlərlə sənaye arasında əməkdaşlıqdır.

ABŞ-da dövlət dəstəyi əsasən iki istiqamətdə gedir:

1. Fundamental elmə (xüsusən Milli Elm Fondundan) maliyyələşdirmə, habelə müdafiə sahəsində dərhal iqtisadi effekt verməyən, lakin gələcəkdə nəticə verməyə qadir olan tədqiqatların əhəmiyyətli bir hissəsi (İnternetin, jet mühərriklərinin ixtirası ilə baş verdi).

2. Sosial cəhətdən zəruri olan tətbiqi tədqiqatlar üçün kifayət qədər mənfəətli və ya olduqca yüksək prioritetli məqsədyönlü maliyyə dəstəyi: ətraf mühitin mühafizəsi və ekoloji enerji sahəsində; bunlar yenilənə bilən enerji mənbələri, az karbonlu yanacaqların yaradılmasıdır; tibbdə bunlar yoluxucu və onkoloji xəstəliklərə qarşı vaksinlərdi.

Federal qurumlar vasitəsilə maliyyələşdirmə milli problemlərin və biznes ehtiyaclarının koordinasiyalı həllinə kömək edir. Dövlətin iştirakı əsasən inkişafın ilk mərhələlərində lazımdır. ABŞ biznes iqlimi üçün xarakterik olan olduqca əlverişli bir innovasiya mühitində, dövlətin qarşısında yenilikləri, bazara təqdim etmə mərhələsində sahibkarlara yalnız müdaxilə etməmək şərti vacibdir. Birbaşa maliyyələşdirmə elmi tədqiqatların stimullaşdırılmasında iştirak miqyasını tədricən azaldır: böhran dövründə və ondan sonra bütün ölkələrdə investisiyaların həcmi azaldı, eyni zamanda dövlət fondlarının paylanması kiçik şirkətlərin, universitetlərin və fərdi tədqiqatçıların innovasiya fəaliyyətləri üçün rəqabət mexanizmləri əhəmiyyətli bir amil olaraq qalmaqda davam edir. Bunun üçün ABŞ və digər ölkələr hərbi təhlükəsizlik, ekologiya, kosmik tədqiqat və s.-də dövlət maraqları nöqteyi-nəzərindən elan olunanlardan ən yaxşı layihələri seçmək üçün bir qurum sistemi qurdular.

Elmi tədqiqatların maliyyələşdirilməsi və vəsaitlərin xərclənməsinə nəzarət mexanizmi elə qurulub ki, anonim müraciətlərin müstəqil ekspertizası dövlət qurumları tərəfindən aparılsın.

Çin modelinin müvəffəqiyyəti nəhəng insan və maliyyə resurslarına, təhsilə, elmi müəssisələrə və infrastruktura əhəmiyyətli sərmayələr, sahibkarlığın ardıcıl təşviqi və maarifləndirilməsi, dövlətin iqtisadiyyata müdaxiləsinə əsaslanır. Nəticə olaraq, Çin bir çox innovativ inkişaf göstəricilərinə görə bir sıra ölkələr arasında liderlik edir və bir sıra ölkələrdə elm sahəsində işləyənlərin sayı baxımından liderdir (ÜDM, yüksək texnoloji ixracat, elm və texnologiya, tədqiqat və inkişaf). İsrail, Koreya və Yaponiyada tədqiqat xərclərinin payı dünyada ən yüksək yerlərdən biridir: ÜDM-in 34% -dən çoxu. Lakin innovativ inkişaf səviyyəsi baxımından bu ölkələr liderlər qrupuna daxil edilməyib. Beləliklə, yenilik üçün əhəmiyyətli miqdarda maliyyələşmə zəruridir, lakin kifayət olmayan bir şərtdir.

Bir çox ölkələrin innovativ təcrübəsinə əsaslanaraq, ən təsirli olduğu iqtisadi təşviqlərin inkişaf etməkdə olan ölkələrdə (Cənubi Asiya, Braziliya) və lider ölkələrin innovativ fəaliyyətinin böyük ölçüdə sosial problemlərin, həyat keyfiyyəti və ətraf mühitin həlli ilə əlaqəli qeyri-maddi amillərdən təkan aldığı bildirilir.

İnnovasiyaların yaradılmasında pul qoyuluşlarını tamamlayan digər amillərin rolu aşağıdakı diqqətəlayiq bir həqiqəti nümayiş etdirir: məhdud maliyyə bəzən tamamilə yeni istehsal və bazar strategiyalarının formalaşmasını stimullaşdırır.

Uğurlu yenilikçi həllər ənənəvi məhsul və xidmətlər istehsal edən şirkətlərin istehsal proseslərinin, marketinq və iş modellərinin köklü bir şəkildə yenidən baxılması nəticəsində yaranır.

Universitetlərdən biznesə texnologiya transferini necə stimullaşdırmaq olar?

Əksər xarici ölkələr üçün ümumi yanaşma fundamental tədqiqatların dövlət tərəfindən maliyyələşdirilməsi və tətbiqi elmi tədqiqatların özəl sektorda cəmləşməsidir. Burada innovativ inkişafa aparan ölkələr əsasən investisiya qoyuluşunun prioritet sahələrinin seçilməsində və maliyyə sektorunun inkişafında fərqlənirlər ki, bu da tədqiqat sahələrinin müxtəlifliyini və ən çətin məqamda - maliyyə mənbələrinin mövcudluğunu müəyyənləşdirir. İstedadlı, təşəbbüskar və savadlı insanların mövcudluğu, yeni müəssisələrin və start-up-ların açılması üçün heç bir maneənin olmaması ilə birlikdə yeniliklərin yaradılmasına və təbliğinə əhəmiyyətli dərəcədə kömək edir. İstedadlı, təşəbbüskar və savadlı insanların mövcudluğu, yeni müəssisələrin və start-up-ların açılması üçün heç bir maneənin olmaması ilə birlikdə yeniliklərin yaradılmasına və təbliğinə əhəmiyyətli dərəcədə kömək edir. İdarəetmə amillərinin müsbət təsiri innovasiya mexanizmlərinə yanaşmanın bütövlüyü və innovasiya sistemlərinin yaradılması ilə, yəni innovasiya zəncirinin elementlərinin sistem səviyyəsində əlaqəsi və yenilik proseslərinin koordinasiya dərəcəsi ilə müəyyən edilir. Vergi güzəştləri yenilik üçün vəsait çatışmazlığını qismən kompensasiya edə bilər və innovasiya tələbini formalaşdırır.

Nəticə

İnnovasiya fəaliyyətinin maliyyə amillərinin empirik təhlilinin nəticələrinə və bu sahədə aparıcı tədqiqatçıların əldə etdikləri nəticələrə görə, innovasiya sahəsində lider ölkələrin inkişaf tempi və keyfiyyəti böyük ölçüdə qarşılıqlı əlaqələndirmə keyfiyyəti ilə əlaqədardır. Bütöv sistemin bütün elementlərindən, həmçinin ölkələrin tarixindəki, mədəniyyətindəki, xalqının zehniyyətindəki daxili xüsusiyyətlərinə, iqtisadi modelinə, habelə bölgələr və milli iqtisadiyyat arasındakı digər amillərə və fərqlərə ciddi şəkildə uyğun olaraq idarəetmə metodlarının düzgün seçilməsi müasir dünya innovasiya meylləri və elm və texnologiyanın qlobal inkişaf prosesləri nəzərə alınmaqla qurulur.

Ədəbiyyat

1. Викстид Б. –Государство не идет на риск. Журнал- Инновационные тренды. 2011 №6 стр. 12.

2. Дежина И. –В любом деле очень высока роль лидера. Журнал-Инновационные тренды.2011 №12 стр.1.

3. Ливада В. –Капкан венчурных инвестиций. Журнал-Инновационные тренды.2011 №13. стр. 23.

4. Стрелбцов Д. –Сможет ли Япония отказаться от атомной энергетики. Журнал-Инновационные тренды.2011 №13. стр. 58.

Резюме

Финансовый капитал рассматривается как один из ключевых элементов создания и распространения инноваций. Представлены особенности финансирования инновационной деятельности в ведущих странах мира. Как показано в статье, успех инноваций определяется гармоничным сочетанием финансовых и нефинансовых факторов.

Ключевые слова: инновационная деятельность, затраты на НИОКР, венчурное финансирование, стимулирование, государственная поддержка.

Abstract

Financial capital is seen as one of the key elements in the creation and diffusion of innovations. The features of financing innovative activities in the leading countries of the world are presented. As shown in the article, the success of innovation is determined by a harmonious combination of financial and non-financial factors.

Key words: innovation activity, research and development costs, venture financing, incentives, government support.

İNNOVASİYA SAHİBKARLIĞINDA RƏQABƏT STRATEGİYASI

Əliyeva Mətanət Lətif qızı, Baş müəllim
AzMİU
metanet.eliyeva.0067@mail.ru

Xülasə

Məqalədə innovasiya sahibkarlığının mahiyyəti, xüsusiyyətləri açıqlanmış, innovasiya sahibkarlığı prosesinin mərhələləri göstərilmişdir. Daha sonra innovasiya sahibkarlığı üçünrəqabətin rolu əsaslandırılmış. Rəqabət strategiyasının məzmununu şərtləndirən amillər vurğulanmışdır.

Açar sözlər: inovasiya, innovasiya sahibkarlığı, rəqabət, strategiya, innovasiya prosesi, yenilik, iqtisadi mexanizm

Azərbaycan Respublikasnnı dünya iqtisadiyyatına inteqrasiyası İİqtisadi problemlərin beynəlmilləşdirilməsi, əhalinin təhlükəsizliyi və jəmiyyətin təbii mühitə texnogen təsirilə müşayət edilir. Bu baxımdan olkəmizdə mövjud elmi potensialdan və təbii sərvətlərdən istifadə edilməklə yeni innovasiya məhsulları və xidmətləri yaradılmalı, onlardan dünyanın digər ölkələrinə əmtəə kimi reallaşdırılması təmin edilməlidir.

Müasir dövrdə Azərbaycanın istehsal münasibətləri sistemində gedən dəyişikliklər innovasiya prosesi, innovasiya sahibkarlığı kimi problemlərin öyrənilməsini obyektiv zərurətə çevirmişdir. Belə ki iqtisadi artımın dinamikası və keyfiyyəti innovasiya bazarı əsasında texnoloci irəliləmələrdən daha çox asılıdır.

Bu mənada sahibkarlıq, innovasiya sahibkarlığı, innovasiya məhsulları (xidmət), onların yaradılması və tətbiqi ardıjıllığı öyrənilməlidir.

İnnovasiya sahibkarlığı ilə innovasiya prosesi sıx əlaqədardır. İnnovasiya prosesinin təsiri altında iqtisadiyyatın quruluşu dəyişir.Ehtiyatlardan səmərəli istifadə olunması hesabına onların bir hissəsi sərbəst qalır və digər fəaliyyət sferalarına paylanılır (3.səh.17). Bu ijtimai təjrübədə innovasiyanın yaradılması və reallaşdırılmasına yönəldilmiş sistemli fəaliyyət növüdür.

Məlum olduöu kimi sahibkarlıq fəaliyyətləri içərisində innovasiya sahibkarlığı mühüm istiqamətindən biri hesab olunur . İnnovasiya sahibkarlığı bütün sahibkarlıq fəaliyyəti sferasının əsas bazasını təşkil edir. İnnovasiya sahibkarlığının əsasını elmi-texniki məhsul (əmtəə və xidmətlər) və intellektual mülkiyyəti təşkil edir. Bu zaman dəyişmələr əsasən məhsulun özündə deyil, istehsal prosesində baş verir. İnnovasiya sahibkarlığı- ijtimai, texniki və iqtisadi proses olub, ideyaların və ixtiraların təjrübi istifadə edilməsində yeni məhsulların və texnologiyaların yaradılmasına gətirir. İnnovasiya sahibkarlığı dedikdə texniki-texnoloci yeniliyin yaradılması və kommersiya istifadəsi başa düşülür İnnovasiya sahibkarlığı-bu yeni nəyinsə yaradılmasında xüsusi novatorluq prosesidir, inovasiyaya yönəldilmiş yeni imkanların daim axtarılmasına əsaslanan təsərrüfat prosesidir.

Yuxarıda sadalananları innovasiya sahibkarlığı prosesinin dörd mərhələsində birləşdirirlər: yeni ideyanın axtarışı və onun qiymətləndirilməsi; biznes-planın tərtib edilməsi; lazımi resursların axtarışı; yaradılmış müəssisənin (firmanın) idarə edilməsi. Təbidir ki, innovasiya sahibkarlığı üçün birinji mərhələ –yeni ideyanın axtarışı və onun qiymətləndirilməsi daha böyük əhəmiyyət kəsb edir. Belə ki, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi hər hansı konkret ideyaya əsaslanır.

Məlumdur ki, innovasiya sahibkarlığı yeni məhsulun və ya xidmətin yaradılması və realizə olunmasını əhatə edir. İnnovasiya sahibkarlığı müxtəlif sahələrdə yeniliklərin, yeni qaydaların yaradılması və təjrübədə istifadə edilməsi prosesidir. Bu halda innovasiya prosesi müxtəlif yollarla həyata keçirilə bilər. Hər bir konkret halda ən səmərəli yolun seçilməsi texnologiyasının xarakterindən, son məhsul bazarından, firmanın potensialından, iqtisadi mühitdən, rəhbərin sərişteli olmasından və s. asılıdır.

İnnovasiya sahibkarlığı yeniliklərin: yeni ideyalar, məhsullar, xidmətlər, həmçinin yeniliklərin yaradılması və tədqiqini həyata keçirən təşkilati formalar və sairənin daim axtarılmasını qarşıya qoyur.

İnnovasiya sahibkarlığının hərtərəfli əhəmiyyətini müşahidəsi göstərir ki.o bir tərəfdən. innovasiya sahibkarlığı ilə məşğul olan şəxslərin yeni ideya, fikirlər sayəsində öz mənfəətini artıraraq maksimum səviyyəyə gətirməyə çalışdığı və sahibkar mənfəətinin artmasına jan atdığığını digər tərəfdən, bazar rəqabətliliyini artıraraq daha yüksək səviyyəli xidmət sferasının formalaşmasına səbəb olur. Bu o deməkdir ki, inovasiya sahibkarlığı birbaşa ideyalar sayəsində bazara təsir etməklə bütün iqtisadiyyata təsir edərək iqtisadi inkişafa nail olur.

İnnovasiya sahibkarlığı üçün rəqabət mühüm kateqoriyalardandır. Rəqabət-əmtəə istehsalına xasdır və ən böyük mənfəətin əldə edilməsi, məhsulun istehsalı və satışında ən əlverişli şəraitə nail olmaq üçün bazarda sahibkarlar arasındakı mübarizədir. Sahibkarların bütün təsərrüfat fəaliyyətləri iqtisadiyyatın əsas qanunlarına: dəyər qanunu, pul dövriyyəsi qanunu, rəqabət qanununa tabedir. Rəqabət qanunu təyin edir ki, bazarın bütün iştirakçıları əmtəənin (xidmətin) istehsalı və satışı üçün mümkün onun ən yaxşı şəraiti əldə etməyə çalışırlar. Buna görədə onların maraqları toqquşur.

Qeyd etmək lazımdır ki, firma üçün bütün rəqib strategiyaların eyni vaxtda istifadəsi qeyri səmərəlidir. Firma özünə müəyyən etməlidir ki, hansı növ rəqabət üstünlüyü istəyir və o hansı sferada mümkündür. Sahibkar strategiyası dedikdə bu elə qayda və üsulların seçilməsi deməkdir ki, onun köməyi ilə sistemin inkişafının əsas məqsədlərinə çatmaq mümkün olür. Sahibkar strategiyası strateci hədəflərə səmərəli çatmaq üçün qayda və üsulların işlənməsini tələb edir. Bu zaman prosesin bütün iştirakçılarının strateci proqramın işlənməsi və reallaşdırılmasında maraqlılığı əsas götürülür. Sahibkarlıq strategiyası yeniliklə bazara çıxmanın kompleks planı sayılır və onun uzun müddətə rəqabət üstünlüyünün saxlanmasını təmin edir.

İstənilən sahəsdə rəqabət strategiyasının məzmunu aşağıdakılarla şərtləşir:

-yeni rəqiblərin bazara daxil olması qorxusu,

-əvəzediji əmtəə və xidmətin bazara nüfuz etmə qorxusu,
-istehlakçıların kifayət qədər öyrənilməməsi,
-mövjud rəqiblərin öz aralarındakı rəqabəti.

Firmanın rəqabət strategiyasına yanaşması sahibkarlıq fəaliyyətinin formasından asılıdır və innovasiya sahibkarlığı yeni fəaliyyət növü, yeni məhsul və təşkilati-iqtisadi üsulların təkmilləşdirilməsinə yönəldiyindən rəqabət strategiyasının formalaşması və reallaşdırılmasında çox üstünlüklərə malik olur.

NƏTİCƏ

1. Beynəlxalq təcrübədə müəssisənin müxtəlif təşkilati – hüquqi formalarından istifadə olunur.Bir qayda olaraq bütün sahibkarlıq subyektləri iqtisadi maraq, yeni sahibkarlıq fəaliyyətinin əsasında maksimum mənfəət əldə edilməsi kimi xüsusiyyətləri ilə səjiyyələnir. Bu fəaliyyət həm ijtimai marağın ödənilməsinə,həm də təsərrüfat subyektlərinin müstəqilliyi və sərbəstliyinə xidmət edir. Sahibkarlıq fəaliyyəti risklə bağlı olduğundan istehsal – təsərrüfat fəaliyyətində o, öz əmlakı ilə işin nətijələri üçün javabdehdir.

2. Sahibkarlığın inkişafı sahəsində aparılmış dövlət siyasəti və görülmüş işlərin nəticəsində ölkədə son illərdə qeydiyyata alınmış sahibkarlıq subyektlərinin sayı ümumilikdə 58.8% artaraq 1045348 olmuşdur, Həmçinin hüquqi şəxslərin sayı 66.6%, hüquqi şəxs yaratmadan fərdi sahibkarlıqla məşğul olanların sayı isə 57.5% artmışdır. 1yanvar 2020-cı il tarixinə qeydiyyata alınmış statistik vahidlərin 115443-ü mikro, 6536-sı kiçik, 2557-si orta, 648-i isə iri sahibkarlıq subyektləri olmuşdur.

3. Sahibkarlığın iki əsas formasını fərqləndirirlər: yeniliyin yaradılması və iqtisadi reallaşdırılması (innovasiya sahibkarlığı) və sırf bazar sahibkarlığı (geniş mənada marketinq). Bu mənada iqtisadiyyatın ümumi nəzəriyyəsinin araşdırılması böyük əhəmiyyət kəsb edər. Belə ki, tədqiqatlar göstərir ki, iqtisadiyyatın ümumi səviyyəsi, maddi istehsal innovasiya sahibkarlığının inkişafına təsir göstərir.

4. İnnovasiya sahibkarlığının normal fəaliyyəti üçün iqtisadi mexanizm kimi xüsusi vergi güzəştlərinin edilməsi ilə onun stimullaşdırılması mümkün ola bilər.

İkinji mexanizm kimi innovasiya sahibkarlığı müəssisələrində sürətli amortizasiyanın tətbiqi təklif edilmişdir.

5.. İnnovasiya sahibkarlığının iadrəedilməsinin təşkilati-iqtisadi mexanizmi aşağıdakıları əhatə edir: innovasiya fəaliyyətinin direktiv-hüquqi təminatı; iqtisadi mexanizm; innovasiya sahibkarlığının idarə edilməsi.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. “Sahibkarlıq fəaliyyəti haqqında” AR-nın Qanunu,
2. “Kiçik sahibkarlığa dövlət köməyi haqqında” AR-nın Qanunu
3. Aslanzadə İ.A.Azərbaycanda innovasiya fəaliyyətinin inkişafı. Bakı-Elm-2011., 160 s.
4. Əliyev R.T. Sahibkarlığın formalaşmasında və inkişafında sosial-iqtisadi amillərin rolu. 2013
5. Qafarov A.H., Soltanlı İ.Q. İnnovasiyalara səbəb olan amillər və müəssisənin inkişafında onların rolu B. 2010.
6. Mövsümova G. İnnovasiya sahibkarlığı və onun maliyyələşdirilməsi mənbələri. / Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. “Milli inkişaf modelinin formalaşması problemləri”. Respublika elmi-təcrübi konfransının materialları. B, 2010.
7. Səfərov Q.Ə., Məmmədov Z.M. İnnovasiya sahibkarlığı və onun ümumi səciyyəsi. B. 2010.
8. Səmədzadə Z.Ə. Dünya iqtisadiyyatı. Çin “İqtisadi möcüzəsi”, B,2001, 215 s.

Резюме

В статье раскрыты сущность и особенности инновационного предпринимательства, показаны этапы процесса инновационного предпринимательства, обоснована роль конкуренции в инновационном предпринимательстве, выделены факторы, определяющие содержание стратегии конкуренции.

Ключевые слова: инновации, инновационное предпринимательство, конкуренция, стратегия, инновационный процесс, инновация, экономический механизм.

Summary

The article describes the essence and features of innovative entrepreneurship, shows the stages of the process of innovative entrepreneurship. Then the role of competition for innovative entrepreneurship is substantiated. The factors determining the content of the competition strategy are emphasized.

Keywords: innovation, innovative entrepreneurship, competition, strategy, innovation process, innovation, economic mechanism.

AZƏRBAYCANDA İNVESTİSİYA SİYASƏTİNİN HÜQUQİ MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ PROSESİ

Hacılı Ələddin, i.e.n., dosent
Azərbaycan Dövlət İqtisad Universiteti
aladdin_hacili@mail.ru

Xülasə

Müasir bazar iqtisadi münasibətləri şəraitində milli iqtisadiyyatın dinamik və səmərəli inkişafı dövlət tərəfindən əsaslandırılmış investisiya siyasətinin uğurla həyata keçirilməsindən asılıdır. Bu olduqca vacib və əhəmiyyətli problemin milli maraqlara uyğun həlli investisiyalar sahəsində mükəmməl iqtisadi-hüquqi tənzimləmə mexanizminin yaradılması və bu mexanizmdəm maksimum dərəcədə səmərəli istifadə edilməsindən asılıdır. Bu baxəmdan son illərdə dövlətin heüquqyaratma orqanları tərəfindən bir sıra qanunlar, strateji yol xəritələri və məqsədli proqramlar qəbul edimişdir. Məhz bu normativ aktlar əsasında ölkədə investisiya proseslərinin səmərəli tənzimlən-msinin hüquqi mexanizmi formalaşdırılmışdır. Qeyd etmək vacibdir ki, hazırda sürətlə inkişaf edən iqtisadi mühitin təsiri altında ölkənin iqtisadi maraqlarını nəzərə almaqla, bu mexanizm mütəmadi olaraq təkmilləşdirilmə prosesindən keçir.

Açar sözlər: **davamlı inkişaf strategiyası, investisiya siyasəti, hüquqi mexanizm, fərmanlar, konsepsiya, strateji yol xəritəsi, dövlət proqramı.**

Hazırda Azərbaycanda milli iqtisadiyyatın inkişafının sürətləndirilməsi baxımından dövlətiin uğurlu investisiya siyasətinin formalaşdırılması və onun səmərəli şəkildə reallaşdırılması olduqca önəmli əhəmiyyət kəsb edir.

Müasir dövrdə dövlətin ardıcıl olaraq həyata keçirdiyi iqtisadiyyatın davamlı inkişaf strategiyası ölkədə bütün investisiya resurslarını tam səfərbər edilməklə, onlardan rasional və səmərəli istifadəni ön plana şəkmişdir.

Məhz bu baxımdan da Azərbaycanda əsaslandırılmış investisiya siyasətinin işlənib hazırlanması və onun uğurla həyata keçirilməsi istiqamətində səmərəli işləyən mükəmməl hüquqi mexanizmin formalaşdırılması və onun bacarıqlı şəkildə tətbiqi dövlətin iqtisadi fəaliyyətinin prioritet istiqaməti sayılmalıdır. Bu vacib məsələnin milli maraqlara uyğun həllinin vacibliyi mütəmadi olaraq yeni daha mütərəqii normativ-hüquqi aktların qəbulunu və eyni zamanda, artıq qüvvədə olanların isə dəyişən iqtisadi şəraitə uyğun daha da təkmilləşdirilməsinin həyati zərurətə şevirib.

Azərbaycanda həyata keçirilən investisiya siyasətinin reallaşdırılmasının hüquqi mexanizmi dedikdə ilk növbədə dövlətin müvafiq hüquqyaradan orqanları tərəfindən ardıcıl şəkildə qəbul edilən məcəllə, qanun, ölkə prezidentinin fərman və sərəncamlari, Nazirlər Kabinetinin qərar və sərəncamları, dövlətin icra hakimiyyət orqanlarının qərarları, sərəncamları, əsasnamələrində və s. əks olunan hüquq normalarının sistemlı düzülüşü başa düşülməlidir. Burada əsas məsələ bu mexanizmdən səmərəli istifadənin təşkilidir. Qeyd emək lazımdır ki, hüquqi mexanizmin

formalaşmasında məqsədli dövlət proqramlarının özünəməxsus rolu vardır. Başqa sözlə, istənilən istiqamətli hər bir dövlət proqramında onun reallaşdırılmasının investisiya təminatı ilə bağlı normalar əks olunur ki, bu da həmin proqramların uğurlu reallaşdırılmasında həlledici amil sayılır.

Beləliklə, dövlət tərəfindən investisiya proseslərinin mükəmməl hüquqi mexanizm vasitəsilə tənzimlənməsi nəticə etibarı ilə milii iqtisadiyyatın davamlı inkişafı ilə bağlı bütün problemlərin həllinin başlıca faktoru hesab edilməlidir. Təbii ki, investisiya siyasətinin reallaşdırılması prosesində ilk növbədə, milli iqtisadiyatın strukturunun təkmilləşdirilməsi, milli sahibkarlığın dinamik inkişafı, təbii sərvətlərdən rasional istifadə və ekolojui təhlükəsizliyin təmin edilməsi, regionların kompleks inkişafı kimi bir sıra ümummilli əhəmiyyətli problemlər öz həllini tapmış olur.

Azərbaycanda 2000-ci illərdən başlayaraq milli iqtisadiyyatın inkişafının sürətləndirilməsinin hüquqi mexanizminin yaradılması istiqamətində dövlət tərəfindən ardıcıl olaraq bir sıra mühüm qanunların və digər normativ-hüquqi aktların qəbul edilməsi və onların maksimum dərəcədə məqsədyönlü tətbiqi, nəticə etibarı ilə, ölkədə əsaslandırılmış investisiya siyasətinin səmərəli formada reallaşdırılmasına geniş imkanalr yaratmışdır.

Aparılan araşdırmalar göstərir ki, məhz mükəmməl şəkildə formalaşdırılmış hüququ əsasa istinad eütməklə dövlət tərəfindən investisiyalarla bağlı həyata keçirilən kompleks tədbirlər nəticəsində ölkədəiqtisadi inkişafın başlıca faktoru sayılan milli iqtisadiyyatın strukturunda köklü dəyişikliklər baş vermişdir. Beləki, düzgün reallaşdırılan investisiya-innovasiya siyasəti dövlət tərəfindən milli iqtisadiyyatın kompleks inkişafında neft bölməsinin inkişafına paralel olaraq iqtisadiyyatın digər sahələrinin də sürətlə genişlənməsi imkanları yaradılmışdır, başqa sözlə, müasir milli inkişaf strategiyasında iqtisadi strukturda qeyri-neft sektorunun tərəqisi üçün əıverişli iqtisadi-hüquqi zəmin yaratmışdır. Təhlilə əsasən söyləmək olar ki, 2010-cu ildən başlayaraq dövlət tərəfindən iqtisadiyyatın strukturunda qeyri-neft sektorunun payının yüksəldilməsi istiqamətində ciddi addımlar atılmağa başlanmışdır. Beləki, buna ən bariz nümunə kimi Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixində imzaladığı 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası göstərilə bilər. Bu sənədlərin davamı kimi bir-birilərini tamamlayan 2 məqsədli dövlət proqramları: Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2014-cü il tarixli 118 nömrəli Fərmanı ilə «Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı» və 29 yanvar 2019-cu il tarixli 500 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı» Azərbaycanın regionlarında və ölkə iqtisadiyyatında ümumilikdə qeyri-neft sektorunun inkişafı üzrə dövlət siyasətinin reallaşdırılmasına xidmət göstərmiş olur.

Dövlətin həyata keçirdiyi uğurlu investisiya siyasəti nəticəsində 2014-2019-cu illərdə ümumi daxili məhsulun həcmi (ÜDM) 1,9 dəfə və xüsusilə də, qeyri-neft sektorunda bu rəqəm 2,8 dəfə artmışdır. Bu illərdə sənayedə ümumi məhsulunun həcmi 1,4 dəfə, sənayenin qeyri-neft bölməsində - 2,4 dəfə, kənd təsərrüfatında - 1,6, ticarətdə - 1,6 dəfə artmışdır.

Hazırda Azərbaycan dövləti mili iqtisadiyyatın dinamik inkişafının təmin edilməsinə investisiyaların cəlb edilməsi istiqamətində düşünülmüş siyasət həyata keçirməkdədir. Bu siyasətin uğurlu nəticəsidir ki, təkcə 2004-2020-ci illərdə milli iqtisadiyyata 250 mlrd. dollara yaxın sərmayələr cəlb edilmişdir. Xüsusi qeyd edilməlidir ki, iqtisadi inkişafın maddi bazasının formalaşdırılması baxımından strteji xətt həyata keşirilməkdədir. Başqa sözlə, əsas kapitala yönönəldilən investisiyaların həcmi 2014-cü ildə 15.4 mlrd.manatdan 2019-cu ildə 17,2 mlrd.manata yüksəlmışdir. Bunun nəticəsidir ki, artıq 2019-cu ildə iqtisadi dövriyyədə olan əsas fondların həcmi 200 mlrd.manat həcminə çatdırılmışdır. İnvestisiyalar sahəsində dinamik inkişafında samballı hüquqi əsas kimi Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir «Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi» xüsusi qeyd edilməlidir. «Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi» yaxın gələcəyə və perspektiv dövrə milli iqtisadiyyatın və xüsusilə də qryri-neft sektorunun səmərəli inkişafının təmin edilməsi istiqamətində investisiya resurslarının səfərbər edilməsi və onlardan milli maraqlara uyğun istifadə ediləsinə əlverişli investisiya mühitinin yaxşılaşdırılması qarşıda duran əsas vəzifələri müəyyənləşdirmişdir.

Aparıan araşdırmalar göstərir ki, qeyri-neft sektorunun inkişafı üzrə dövlətin apardığı investisiya siyasətinin uğurla reallaşdırılmasında son illərdə yaradılan xüsusi dövlət qurumlarının rolu böyük olmuşdur. Hazırda fəaliyyətdə olan «Azərbaycan İnvestisiya Şirkəti» ASC, Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi, «Aqrolizinq» ASC, AZPROMO və digər təşkilatların qryri-neft sektorunda sahibkarlığın inkişafına güclü təsiri olmuşdur ki, bu da məhsul istehsalında və göstərilən xidmətlərin həcminin artmasında önəmli rol oynamışdır.

Artıq bu bir qəbul olunmuş faktdır ki, dövlətin strateji xətttinə uyğun olaraq qeyri-neft sektorunun inkişaf etdirilməsi Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafının təmin olunması istiqamətində yürüdülən siyasətin prioritet istiqamətlərindən biri sayılır.

Mövcud hüquqi mexanizmin təkmilləşdirilməsində AR Prezidentinin 2021-ci il 02 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər»inın istiqamətverici sənəd hesab edilir. Bu sənədlərə əsasən ölkənin tikinti sektorunun dinamik inkişafına tələb olunan həcmdə investisiya resurslarının cəlb olunmasında strateji yol xəritəsində nəzərdə tutulan tənzimləmə mexanizmlərindən ən vacibi kimi, investisiya proseslərinin dinamik inkişafının tənzimlənməsi mexanizmi hesab olunur.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixində imzaladığı 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası
2. Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2019-cu il tarixli 500 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»
3. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir «Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi»
4. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir «Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər».
5. Allahverdiyev H. İnvestisiya proseslərinin tənzimlənməsi. Bakı. 2003. 234 s.
6. Əliyev T.N. «Regional innovasiya sisteminin təşkili və idarə edilməsi». Bakı. 2013
7. Əzizova G.A. «Dövlətin investisiya –innovasiya siyasəti». Bakı. 2012
8. Əliyev T.N. «Milli innovasiya sisteminin təşkili və idarə edilməsi». Bakı. 2013.
9. İsayev S. İnvestisiya fəaliyyətinin hüquqi tənzimlənməsi. Bakı. 2011. 187 s.
10. Musayev A. «İnnovasiya iqtisadiyyatı və vergi stimullaşdırılması». Bakı. 2014
11. Шеремет В.В. Управление инвестициями. Москва. 2000. I-II том
12. «Statistik göstəricilər» Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. 2019
13. Azərbaycan rəqəmlərdə -2020. AR DSK-nin nəşri. Bakı. 2021
14. Prezident kitabxanası: http://www.elibrary.az

Резюме

В современных условиях рыночных отношений основной целью реализации инвестиционной политики государства является обеспечения динамичного и эффективного развития национальной экономики. Важным средством для успешной решении этой важной задачи считаетса формирование и эффетивное применение совершенного правового механизма регулирования инвестиционных процессов в Азербайджане. Именно такой механизм создасть благоприятные условия для постоянного повышения эффективности регулирования инвестиционных процессов, посредством полной мобилизации инвестиционных ресурсов и направление их на устойчивое развитие проритетных отраслей национальной экономики.

Долгие годы подавляющие объемы инвестиционных ресурсов напралялись на развите нефтяного сектора экономики, происходило односторонее развите отрслей, связанные с добычей и переработкой углеводородных составляющих, в результате чего образовался диспропорция в структуре экономики. Для устраненин этого недостатка, в настоящее

время, государство разработало специальную инвестиционную политику по ускоренному и динамичному развитию ненефтяного сектора экономики. Для ускоренной реализации этой стрегии Президентом АР последовательно были подписаны Указ от 6 декабря 2016 года «Стратегическая дорожная карта по перспективам национальной экономики Азербайджанской Республики» и Распоряжение от 2 февраля 2021 года «Азербайджан 2030: национальные приоритеты по социально-экономическому развитию». Эти нормативно-правовые акты позволили заметно совершенствовать действующего правового механизма.

Ключевые слова: стратегия устойчивого развития, инвестиционная политика, правовой механизм, указы, концепция, стратегическая дорожная карта, государственная программа.

Summary

In modern conditions of market relations, the main goal of implementing the investment policy of the state is to ensure the dynamic and effective development of the national economy. The formation and effective application of a perfect legal mechanism for regulating investment processes in Azerbaijan is considered an important means for the successful solution of this important task. It is this mechanism that will create favorable conditions for a constant increase in the efficiency of regulation of investment processes, through the full mobilization of investment resources and directing them to the sustainable development of high-profile sectors of the national economy.

For many years, the overwhelming volumes of investment resources were directed to the development of the oil sector of the economy, there was a one-sided development of industries related to the extraction and processing of hydrocarbon components, as a result of which a disproportion in the structure of the economy was formed. To eliminate this shortcoming, at present, the state has developed a special investment policy for the accelerated and dynamic development of the non-oil sector of the economy. For the accelerated implementation of this strategy, the President of the Republic of Azerbaijan consecutively signed the Decree of December 6, 2016 "Strategic Roadmap for the Prospects of the National Economy of the Republic of Azerbaijan" and the Order of February 2, 2021 "Azerbaijan 2030: National Priorities for Socio-Economic Development". These normative legal acts have made it possible to significantly improve the current legal mechanism.

Keywords: sustainable development strategy, investment policy, legal mechanism, decrees, concept, strategic road map, state program

X.FİSKAL VƏ MONETAR TƏNZİMLƏMƏ

AZƏRBAYCANDA KİÇİK VƏ ORTA SAHİBKARLIQ MÜƏSSİSƏLƏRİ VƏ ONLARIN MALİYYƏ DAYANIQLIĞININ QİYMƏTLƏNDİRİLMƏSİ

Əvəz Əkbər oğlu Ələkbərov, i.e.d., professor
"Maliyyə və maliyyə institutları" kafedrasının müdiri,
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
avaz.alakbarov@unec.edu.az
Əlicanova Şəhla Musa, müəllim
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
shahla.alijanova@unec.edu.az

Xülasə:

Kiçik və orta sahibkarlıq müəssisələrində maliyyə dayanıqlığının mövcud vəziyyətinin təmin edilməsindən, həmin təhlilin nəticələrinə uyğun olaraq qiymətləndirmə aparılmasından və bununla bağlı təkliflər işlənib hazırlanmasından ibarətdir. Ölkədə aparılan iqtisadi siyasətin ən əsas, prioritet istiqamətlərindən biri dayanıqlı inkişafın təmin edilməsidir. Azərbaycanda dayanıqlı inkişafın təmin edilməsi məqsədilə irimiqyaslı və çoxşaxəli tədbirlər həyata keçirilir. Bu istiqamətdə nəzərdə tutulan məsələlərin həll olunması və dayanıqlığın davamlı olmasının təmin edilməsii bağlı bir neçə təklif verilmişdir. KOS müəssisələrində maliyyə dayanıqlığının idarə edilməsinin müasir vəziyyəti təhlil edilmiş, KOS müəssisələrinin maliyyə dayanıqlığının qiymətləndirilməsi aparılmış, KOS müəssisələrinin maliyyə dayanıqlığının təkmilləşdirilməsi istiqamətləri müəyyənləşdirilmiş, təkliflər irəli sürülmüşdür

Açar sözlər: **sahibkarlıq, kiçik və orta sahibkarlıq, dayanıqlıq**

Azərbaycanda kiçik və orta sahibkarlığın (bundan sonra – KOS) inkişafı iqtisadiyyatın diversifikasiyası, rəqabətqabiliyyətliliyinin artırılması, məşğulluğun təmin edilməsi, istehlak mallarına olan tələbatın yerli resurslar hesabına ödənilməsi və iqtisadi inkişafın təmin edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Belə ki, inkişaf etmiş ölkələrdə KOS-un ÜDM və məşğulluqdakı xüsusi çəkisinə nəzər saldıqda belə qənaətə gəlmək olur ki, Azərbaycanda da davamlı iqtisadi inkişafın təmin edilməsində KOS-un əsas hərəkətverici amilə çevrilməsi qarşıda duran əsas çağırışlardandır. Adından da göründüyü kimi, kiçik və orta sahibkarlıq (KOS) subyektlərinin iqtisadiyyatda oynadığı rol iri müəssisələrə nisbətən daha əhəmiyyətlidir. Xüsusən də ümumi daxili məhsulun (ÜDM), məşğulluğun artırılması, eyni zamanda büdcənin vergi ehtiyaclarının ödənilməsi kimi məsələlərində KOS-lar əvəzedilməz imkanlara malikdir. Odur ki, inkişaf arzusunda olan dövlətlərdə KOS-lara dəstək sahibkarlığa dəstəyin əsas növü hesab olunur. Elə təcrübə də KOS-ların iqtisadi inkişafın əsas təminatçısı, məşğulluğun və yeniliklərin vacib mənbəyi olduğunu təsdiqləyir. Nəzərə alaq ki, inkişaf etmiş ölkələrdə mövcud müəssisələrin 99 faizi KOS-lardır. KOS-ların məşğulluqda payı 50-70, ümumi daxili məhsul istehsalında isə 50-60 faiz arasında dəyişir.

KOS-lar eyni zamanda inkişaf etməkdə olan ölkələrin də makroiqtisadi səhnəsində önəmli rola malikdirlər. Ancaq zəif inkişaf edən ölkələrdə KOS-ların payı həm ÜDM istehsalında, həm də məşğulluqda bir qədər kiçikdir. Belə ki, inkişaf etmiş ölkələrdə ÜDM istehsalında KOS-ların töhvəsi 50%-ə yaxın olduğu halda, bu rəqəm orta keçid mərhələsinə malik olan ölkələrdə 40, zəif templə inkişaf edən ölkələrdə isə 30 faiz ətrafında dəyişir. Məşğulluğun təmin edilməsində isə inkişaf dərəcəsinə görə müvafiq olaraq KOS-ların payı 45, 36, 30 faiz ətrafındadır. Göründüyü kimi, ölkənin iqtisadi inkişafı KOS-ların vəziyyətindən birbaşa asılıdır.

KOS-ların iqtisadiyyatda bu dərəcədə önəmli çəkiyə sahib olması isə onların xüsusiyyətləri ilə əlaqədardır. Çünki, KOS-lar daha az investisiya ilə daha çox istehsal və məhsul müxtəlifliyi əldə etməyə malikdir. Eyni zamanda iqtisadi dalğalanmalar KOS-lara daha az təsir göstərir. Bundan başqa, tələbata və müxtəlifliklərə rahat uyğunlaşa, bölgələrarası tarazlı iqtisadi inkişafı təmin edə bilirlər. Ən əsası, gəlir bölgüsündəki ədalətsizliyi minimum səviyyəyə endirirlər. Bu kimi

xüsusiyyətlər KOS-ların ölkə iqtisadiyyatında vacib problemlərin həllində əsas iştirakçı olmasına imkan verir. Nəzərə alaq ki, maaşlı çalışanların yarıdan çoxu məhz kiçik və orta böyüklükdəki müəssisələrdədirlər. Ötən dövr ərzində Azərbaycanda sahibkarlığın inkişafının dəstəklənməsi üçün bir sıra tədbirlər həyata keçirilmişdir.

İstənilən müəssisənin fəaliyyətinin uğurlu nəticələri bir çox amillərdən asılıdır. Onlardan biri də müəssisənin dayanıqlı və dayanıqlığının idarə olunmasıdır. Dayanıqlı inkişaf müəssisə üçün bazar şəraitində bazar qanunlarının tələb etdiyi ən vacib şərtlərdəndir. Əgər müəssisə dayanıqlı inkişafa malik olmazsa bu halda o bazardakı rəqabətə dözə bilməz və iflasa uğrayar. Müəssisə rəqabətə davamlı olub və perspektiv planlar üçün işləmək istəyirsə mütləq dayanıqlı inkişafını təmin etməlidir. Bunun üçün o kifayət qədər ilkin kapitala əsas və dövriyyə kapitalına, kifayət dərəcədə peşəkar kadr potensialına, strateji planlara malik olmalı, fəaliyyət göstərdiyi sahədə inkişaf meyllərini və perspektivlərini görməli və düzgün taktika, strategiya seçməlidir. Qeyd edilənlərin reallaşdırılması müəssisə mövcudluğunun tərkib elementləri olmaq etibarilə müəssisənin dayanıqlığının təşkili və idarə edilməsinin əsasını, özəyini təşkil edir. Müəssisələr üçün dayanıqlığın təmin edilməsi nə qədər vacibdirsə, onun yüksək səviyyədə idarə edilərək qorunub saxlanılması da bir o qədər vacibdir. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 28 dekabr tarixli Fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi yaradılıb.

Dövlət başçısının 26 iyun 2018-ci il tarixli Fərmanı ilə Agentlik Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi adlandırılıb, eləcə də Agentliyin Nizamnaməsi və strukturu təsdiq edilib.

"Sahibkarlığın dəstəklənməsi məqsədilə xarici dövlətlərin və beynəlxalq təşkilatların maliyyələşdirdikləri proqramların (layihələrin) əlaqələndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2 iyul 2019-cu il tarixli Fərmanı ilə xarici dövlətlərin və beynəlxalq təşkilatların Azərbaycan Respublikasında mikro, kiçik və orta sahibkarlığın dəstəklənməsi məqsədilə kredit, texniki yardım və ya qrant formasında maliyyələşdirdikləri proqramlar (layihələr) Agentlik ilə əlaqəli şəkildə həyata keçirilir. Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq, ölkəmizdə sahibkarlığın genişləndirilməsi və iqtisadiyyatda rolunun artırılması, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması tədbirləri sistemli və ardıcıl olaraq davam etdirilir. Özəl sektorun dəstəklənməsi, sahibkarların hüquq və mənafelərinin qorunması sahəsində yeni iqtisadi şəraitə uyğun islahatlar həyata keçirilir, bu sahənin inkişafı üçün beynəlxalq təcrübə nəzərə alınmaqla müasir çağırışlara cavab verən mexanizmlər tətbiq edilir.

Bu sahədə təkliflər hazırlanarkən sahibkarlığın inkişafı və tənzimlənməsi sahəsində beynəlxalq təcrübədə tətbiq olunan mütərəqqi idarəçilik təcrübəsi araşdırılıb. Belə ki, bir sıra inkişaf etmiş ölkələrdə sahibkarlığın, xüsusilə KOS-ların inkişafı məqsədilə investisiyaların, müasir texnologiyaların, qabaqcıl idarəetmə təcrübəsinin və dövlət tənzimləmə mexanizmlərinin tətbiqinə, yüksək keyfiyyətli, rəqabət qabiliyyətli və ixracyönümlü məhsulların istehsalının stimullaşdırılmasına, sahibkarlıq subyektlərinə informasiya, hüquqi və iqtisadi məsləhət xidmətlərinin göstərilməsi və onların dövlət təşkilatları, yerli və xarici tərəfdaşlarla səmərəli əməkdaşlıq əlaqələrinin qurulmasına yardım edən müvafiq təsisatlar fəaliyyət göstərir.

Həmçinin dövlətin yaxından iştirakı ilə ixtisaslaşdırılmış sahə banklarının yaradılmasının vacibliyi önə çəkilir. Bundan başqa KOS-lara verilən kreditlərinin sığortalanması və təminat fondu yaradılması vurğulanır. Həmçinin qiymətli kağızlar bazarının inkişaf etdirilməsi və KOS-ların bazara çıxışını stimullaşdırmaq üçün qanunvericilik bazasının təkmilləşdirməsinə ehtiyacın olduğu deyilir. Bütün bunlarla yanaşı KOS-ların xarici maliyyə bazarlarına çıxışını təmin etmək üçün yerli qiymətli kağızların xarici fond bazarlarında ticarətini tənzimləyən normativ hüquqi bazanın formalaşdırılması və müvafiq ticarət sisteminin tətbiq edilməsi təklif olunur. Ən nəhayət kiçik biznesin dəstəklənməsi üçün hökumət tərəfindən mikromaliyyələşmə proqramının həyata keçirilməsi, françayzinq, faktorinq, lizinq kimi xidmətlərin geniş vüsət alması üçün güzəştlər sisteminin və normativ aktların hazırlanmasının vacibliyi vurğulanır.

Azərbaycanda KOS-un inkişafı üzrə strateji baxış biznes mühitinin daha da təkmilləşdirilməsi, KOS subyektlərinin maliyyə vəsaitlərinə və satış bazarlarına çıxışının asanlaşdırılması və biznes bilik və bacarıqlarının artırılması ilə rəqabətqabiliyyətliliyinin təmin olunmasına və iqtisadi inkişafdakı rolunun artırılmasına nail olmaqdır. Nəzərdə tutulan tədbirlərin uğurlu icrası nəticəsində KOS-un ÜDM-də və məşğulluqda payının müvafiq olaraq 15 və 20 faizə, ölkənin qeyri-neft ixracındakı payının isə 10 faizə çatdırılması əsas hədəf kimi müəyyənləşdirilir.

Azərbaycanın 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı KOS subyektlərinin rəqabət qabiliyyətinin daha da artırılmasına, gündəlik istehlak malları ilə təminatın əsasən KOS subyektləri vasitəsilə həyata keçirilməsinə, KOS subyektlərinin ÜDM və məşğulluqda payının əhəmiyyətli dərəcədə artırılmasına nail olmaqdır.

Azərbaycanda biznes mühiti daha da yaxşılaşdırılmış və ölkə Dünya Bankının "Doing Business 2020" hesabatında bəzi göstəriciləri üzrə (məsələn, biznesə başlama, əmlakın qeydiyyatı) yüksək nəticə əldə etmişdir. Beynəlxalq təcrübəyə uyğun elektron hökumət portalının yaradılması ilə dövlət xidmətləri daha da genişləndirilmişdir. KOS üçün innovasiya çərçivəsi həm infrastruktur (məsələn, sənaye parkları, texnologiya parkları və biznes inkubatorları), həm də maliyyə dəstəyi (informasiya və kommunikasiya texnologiyaları (İKT) sektoru üçün xüsusi fondun yaradılması) vasitəsilə yaxşılaşdırılmışdır.

Nəticə

-Strateji Yol Xəritəsininin strateji hədəflərindən çıxış etməklə, sahibkarlığın inkişaf etdirilməsində biznes mühitinin yaxşılaşdırılmasının daha təkmilləşdirilmiş mexanizmlərinin hazırlanması və reallaşdırılması təmin olunmalıdır;

- sahibkarlığın inkişaf etdirilməsi proseslərində təbii ehtiyatları və əmək resursları, həmçinin iqtisadi potensialı nəzərə alınmaqla, iqtisadi fəallığın artırılması və xüsusilə, kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətlərinin səmərəliliyinin yüksəldilməsi tədbirləri görülməlidir.

Hesab edirik ki, bu məsələlərin kompleks həlli ölkəmizdə kiçik və orta sahibkarlığın inkişafında biznes mühitinin yaxşılaşdırılması problemlərinin daha optimal həllində praktiki baxımdan strateji əhəmiyyət kəsb edə bilər və s.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

2. "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətli istehsalının stimullaşdırılması məqsədilə daxili bazar araşdırmalarına dövlət dəstəyi göstərilməsi Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

3. Small business: foreign experience [Electronic resource], [2012] - Access mode: http://www.mispnsk.ru/articles

4. Title. from the screen. Economy in Singapore: the value and role of small business [Electronic resource], [2011] - Access mode: http://www.kreditbusiness.ru

5. Small and Medium-Sized Business: Foreign Development Experience // Young Scientist. - 2012. - №4. - p. 177-181. - URL https://moluch.ru/archive/39/4640

6. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi 2016

7. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Starteji Yol Xəritəsi. 6 dekabr 2016

AZƏRBAYCANDA SƏRBƏST BÜDCƏ VƏSAİTLƏRİNİN İDARƏ OLUNMASININ TƏKMİLLƏŞDİRİLMƏSİ İMKANLARI

A.H.Haciyev, *t.e.n., baş elmi işçi*
AMEA İqtisadiyyat institutu
a.h.haciyev@gmail.com

Dünya bankının tövsiyyələrinə əsasən "*cash management*" – sərbəst büdcə vəsaitlərinin idarə olunması üzrə gəlir əldə edilməsi, dövlət maliyyəsinin idarə olunmasında ən perspektiv istiqamətlərindən biridir. Hal-hazırda bu istiqamət inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin təcrübəsində geniş istifadə edilir (məsələn, qonşu Rusiyada sərbəst büdcə vəsaitlərinin idarə olunma mexanizmləri və alətləri istər Federal büdcə səviyyəsində, istərsədə ölkənin regionlarında, regional büdcələr səviyyəsində geniş tətbiqə malikdir) Məsələnin mahiyyəti ondadır ki, Dövlət büdcəsinin profisit və ya kəsirlə planlaşdırılmasından asılı olmayaraq büdcə ili ərzində Xəzinədarlığın Vahid Hesabında (XVH) müəyyən miqdarda sərbəst maliyyə vəsaitlərinin qalığı mövcud olur ki, bu vəsaitlərdən səmərəli istifadə ilə Dövlət büdcəsinə əlavə gəlirlərin təmin olunması mümkündür . Yəni, qısa, cari və uzun müddətli dövrlərə xəzinəyə daxilolmalar və xəzinədən xərclənmələrin uzlaşması əsasında, konkret müəyyənləşən likvidlik əmsalları üzrə, VXH-da minimum tələb olunan gündəlik likvidlik səviyyəsini müəyyənləşdirmək (hədəfləmək), bu səviyyə üzrə isə maliyyə bazarlarında mövcud olan müxtəlif müddətli alətlər və mexanizmlərin istifadəsi əsasında dövlət büdcəsinə əlavə gəlirlər əldə etmək olar (hesablanan likvidlik əmsalları tətbiq olunan mexanizm və alətlər üzrə mümkün risklərin və neqativ nəticələrin minimumlaşdırılmasını təmin etməlidir).

İnkişaf etməkdə olan ölkələrin təcrübəsi göstərir ki, sərbəst büdcə vəsaitlərinin idarə olunması alət və mexanizmləri geniş miqyaslıdır və bu qismdə bir qayda olaraq aşağıdakılar çıxış edir: komersiya banklarında depozitlərin yerləşdirilməsi; xarici valyutaların alınıb/satılması (ölkədə sərbəst məzənnə rejiminin tətbiqi şəraitində); REPO əməliyyatları (o cümlədən, overnayt-REPO, forvard-REPO, xarici valyutalı REPO və s.); SWOP əməliyyatları və s. Göstərilən alət və mexanizmlər dövlət büdcəsinə əlavə gəlirlərin təmin olunması ilə yanaşı, eyni zamanda, xəzinədarlığın sərbəst vəsaitləri əsasında bank sektorunda likvidliyin artırılması ilə iqtisadiyyatın real sektorunun kreditləşməsinin genişlənməsi təmin edilir. Başqa sözlə, bu mexanizmin tətbiqində əsas məqam ondan ibarətdir ki, 3 qurum (Maliyyə Nazirliyi, Mərkəzi bank və Vahid Xəzinədarlıq sistemi) tərəfindən reallaşdırılan siyasətlər - maliyyə-büdcə, pul-kredit və VXH-ın vəsaitlərinin idarə olunması, arasında əlaqələndirmə, tarazlıq hər bir qurumun konkret məsuliyyəti və cavabdehliyinin müəyyənləşməsi ilə əldə olunur.

Aydındır ki, sərbəst büdcə vəsaitlərinin idarə olunmasında mühüm məqam – xəzinədalığa vəsaitlərin daxil olması və çıxarılmasının intensivliyi, bu parametrlər əsasında VXH üçün müvafiq likvidlik göstəricilərinin hesablanmasıdır. Bu göstəricilərin əsaslandırılması dərəcəsindən asılı olaraq dövlət büdcəsinin gəlirliyi və sərbəst büdcə vəsaitlərinin idarə olunmasının dayanıqlığı müəyyənləşdirilir.

Azərbaycanda bu sahədə - sərbəst büdcə vəsaitlərinin idarə olunması əsasında gəlir əldə edilməsində, bir sıra çatışmazlıqlar mövcuddur (baxmayaraq ki, belə əməliyyatlar müəyyənləşib). Belə vəziyyət, maliyyə sistemində birja əməliyyatlarının aparılması üzrə müvafiq hazırlıqlara malik olan mütəxəssislərin olmaması (belə hazırlıqlar Maliyyə nazirliyinin mütəxəssisləri tərəfindən Mərkəzi bankda və fond bazarında keçirilməlidir); banklar tərəfindən öz öhdəliklərinin icra etməməsi risklərinin mövcudluğu (akseptsiz qaydada vəsaitlərin silinmə mexanizminin nəzərdə tutulması); Xəzinədarlıq sistemində vəsaitlərin VXH daxil olma/çıxmanın keyfiyyətli planlaşdırma və proqnozlaşdırma sisteminin olmaması və digər amillər ilə müəyyənləşir

Azərbaycanda dövlət maliyyəsinin idarə olunması üzrə istifadə oluna biləcək mexanizm və alətlərin inkişaf etdirilməməsinin əsas səbəbləri kimi aşağıdakıları qeyd etmək olar:

- *əvvəla, ölkədə mövcud olan hesabatlılıq sistemi*. Hal-hazırda Maliyyə Nazirliyinin müstəsna səlahiyyətinə aid edilmiş bu sualların Nazirlikdə mövcud olan həlli imkanları, bu imkanların reallaşdırılma dərəcəsi, istifadə olunan təcrübə, mexanizmlər, alətlər və onların səmərəliliyi barədə

məlumatların əldə olunması praktiki olaraq mümkünsüzdür (qeyd edək ki, qonşu ölkələrdə, məsələn Rusiyada, belə məlumatlar nazirliklərin saytlarında açıq istifadədir). Problem ondadır ki, Dövlət büdcəsinin Mərkəzləşdirilmiş xəzinə hesabına formalaşan ehtiyatların idarəçiliyi (qanunvericilikdə edilmiş son düzəlişlərdən sonra) Maliyyə Nazirliyində daxili istifadə üçün nəzərdə tutulur və bu səbəbdən Nazirliyin bu istiqamətdə fəaliyyətində səmərəliliyin qiymətləndirilməsi praktiki olaraq mümkünsüzdür.

Sonra. Hesablama Palatası ilk dəfə olaraq 2018-ci ilin ortalarında, 1.98 mlrd. manat səviyyəsində olan büdcə ehtiyatlarının Maliyyə Nazirliyi tərəfindən idarə olunması və yerləşdirilməsinin strukturu barədə məlumatları açıqladı. Əgər baxılan rəqəmlər üzrə Maliyyə nazirliyində sərbəst büdcə vəsaitlərinin idarə olunmasının keyfiyyət göstəriciləri təhlil olunarsa, bu halda aydın görməkk ki, təmin olunan gəlirlik, istifadə olunan mexanizmlərin səmərəliliyi olduqca aşağı səviyyədədir. Beləki, vəsaitlərinin idarəetməyə verilməsindən dövlət büdcəsinə 2018-ci il üçün nəzərdə tutulmuş məbləğ - 6,3 mln manat, başqa sözlə, orta illik 0,3% gəlirlik; 2019-cu ilə əldə olunacağı proqnozlaşdırılan 1 mln. manat gəlir isə 2017-ci ilin müvafiq icra göstəricisindən 7,2 dəfə, 2018-ci ilin proqnoz göstəricisindən isə 6,3 dəfə az deməkdir. Ümumiyətlə isə pandemiyaya qədər həcmi orta hesabla 1.5-2 mlrd. manatdan az olmayan xəzinə ehtiyatının istifadəyə verilməsindən dövlət büdcəsi ən yaxşı halda 3-4 mln. manat gəlir təmin olunub ki, bu da orta illik 0.2-0.3% gəlirlik deməkdir. Qeyd olunanlar Maliyyə nazirliyi sistemində formalaşan sərbəst vəsaitlərin idarə olunması modelində ciddi qüsurların mövcudluğunu və təkmilləşdirmə imkanlarının zəruriliyinin göstəricisidir.

Azərbaycanın mərkəzləşdirilmiş xəzinədarlıq sistemində likvidliyin idarə olunması imkanları, mümkün mexanizm və alətlərin səmərəlilik sualları araşdırılarkən bu sahədə inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrin təcrübəsinin öyrənilməsi məqsədə uyğundur. Əsas hədəf – ölkə Hökumətinin sərəncamında olan sərbəst büdcə vəsaitlərinin iqtisadiyyatda likvidliyin tənzimlənməsi üzrə səmərəli istifadə edilməsidir. Bu baxımdan dünya təcrübəsində istifadə edilən ən müxtəlif mexanizm və alətlər mövcuddur (o cümlədən, vəsaitlərin çox qısa, cari və ya uzun müddətə fərqli alətlər və əməliyyatlar üzrə banklarda yerləşdirilməsi).

Hal-hazırda post-pandemiya dövrünə hazırlıq baxımından sərbəst büdcə vəsaitlərinin istifadəsində səmərəliliyin artırılması üçün hansı mexanizmlərin olması, hansı alətlərdən istifadə zəruriliyinin müəyyənləşməsini mühüm əhəmiyyətli edir. Konkretləşdirilməsi tələb olunan sırasında, ilk növbədə, aşağıdakılar göstərilməlidir:

- vahid xəzinə hesabı qalığından büdcə ssudalarının verilməsinin qanunverci əsaslarının və normativ qaydalarının müəyyənləşdirilməsi;
- sərbəst büdcə vəsaitlərinin banklarda yerləşdirilməsinin qanunverici əsasları və normativ qaydalarının hazırlanması və s.

Məsələ ondadır ki, Azərbaycan Respublikası "Büdcə sistemi haqqında" Qanununda, Nazirlər kabineti tərəfindən təsdiq olunmuş "Büdcə ili ərzində vahid xəzinə hesabında olan vəsaitin qalığının (sərbəst qalığın) idarəetməyə verilməsi Qaydaları" bu vəsitlərdən istifadənin ümumi istiqamətləri müəyyənləşdirilsədə, bu sahədə konkret mexanizm və normativ sənədlər müəyyənləşməyib. Büdcə qalıqlarının idarə olunmasının mövcud qaydalarına əsasən bu idarəçilik Maliyyə nazirliyinin Kollegiyası tərəfindən təsdiq olunmuş investisiya strategiyası əsasında həyata keçirilir. Strategiyada il ərzində istifadə oluna biləcək sərbəst vəsaitlərin miqdarı, bu vəsaitləri idarə edəcək İdarəedici şirkət (və yaxud komersiya bankı), idarə etmənin müddəti, likvidlik səviyyəsinə, kredit risklərinə, idarə etməyə verilən vəsaitlərin gəlirlik səviyyəsinə tələblər müəyyənləşməlidir.

Vahid xəzinə hesabında likvidliyin idarə olunması mexanizmlərinin təkmilləşdirilməsi və praktiki təcrübədə istifadəsinin inkişaf etməkdə olan ölkələrin (o cümlədən, Rusiyanın) təcrübəsində perspektiv istiqamətlər kimi aşağıdakılar müəyyənləşir:

- Maliyyə Nazirliyi, Mərkəzi xəzinədarlıq və Mərkəzi bankın büdcə vəsaitlərinin bank depozitləri şəklində yerləşdirilməsi üzrə birgə fəaliyyət mexanizminin hazırlanması və qısa müddətli təminatsız kreditlərin verilməsi təcrübəsi;
- iqtisadiyyata birbaşa olaraq büdcə kreditlərinin verilməsi;

- REPO müqavilələri üzrə qiymətli kağızlar bazarında alqı-satqı əməliyyatları (mahiyyət etibarı ilə bu əməliyyatlar son kreditləşmə instansiyası olan Mərkəzi bankın reallaşdırdığı analoji əməliyyatlardan fərqlənir) və s.;

Təbii ki, istifadə edilə biləcək bütün mexanizm və alətlərlər üzrə qanun verici sənədlər (Büdcə məcəlləsi), ölkə Hökumətinin müvafiq qərarı, normativ sənədlər, Maliyyə nazirliyi və Xəzinədarlığın müvafiq təlimatları hazırlanmalıdır.

QEYRİ-DÖVLƏT MALİYYƏ NƏZARƏTİNİN TƏŞKİLİ VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ

Qurbanov Bayraməli Şükür oğlu, i.e.n., dosenti
ADİU (UNEC)
bqurbanov52@gmail.com

Xülasə

Qeyri- dövlət maliyyə nəzarəti müasir dövrdə daha da inkişaf edir. Bu nəzarətin əsas formaları kimi audit nəzarəti və daxili nəzarət çıxış edir.Məqalədə nəzərdən keçirilən bu nəzarət formaları müvafiq qanunlar əsasında təşkil olunur. Lakin mövcud qanunvericilik aktları qeyri-dövlət maliyyə nəzarətinin daha keyfiyyətli və səmərəli keçirilməsini yetərincə təmin etmir. Qanunvericiliyin təkmilləşdirilməsinə və qeyri-dövlət maliyyə nəzarətini həyata keçirənlərin fəaliyyətinə nəzarətin gücləndirilməsinə ehtuyac duyulur.

Açar sözlər: qeyri-dövlət maliyyə nəzarəti, auditor nəzarəti, kənar nəzarət, daxili audit, əminlik yaratmaq, məcburi audit, könüllü audit.

Giriş

Dünya maliyyə böhranı və pandemiya şəraitinin ölkə iqtisadiyyatına mənfi təsirinin azaldılması tələbləri mövcud maliyyə, maddi və əmək ehtiyatlarından daha səmərəli istifadə olunması zərurətini yaratmışdır. Bu vəzifənin həllində müəssisə və təşkilatların təsərrüfat-maliyyə fəaliyyəti üzərində maliyyə nəzarətinin təşkilinin müasir tələblər səviyyəsində qurulması mühüm rol oynayır. Azərbaycan Respublikasında maliyyə nəzarətinin bütün formalarından, o cümlədən qeyri-dövlət maliyyə nəzarətinin müxtəlif növlərindən geniş istifadə edilir.

Qeyri-dövlət maliyyə nəzarətinin əsas formaları kimi audit nəzarəti, təsərrüfatdaxili nəzarət və ictimai nəzarət çıxış edirlər. Buraya bələdiyyə nəzarətini də əlavə etmək olar. Bələdiyyə nəzarəti qeyri-dövlət maliyyə nəzarətinə aid edilsə də mahiyyətcə dövlət nəzarətinə yaxındır və bələdiyyə büdcəsinin formalaşdırılması və icrası, habelə bələdiyyə əmlakının idarə edilməsi üzərində bələdiyyənin nəzarətini ehtiva edir. Bu nəzarət bələdiyyələrin formalaşdırdığı daxili nəzarət orqanları və müqavilə əsasında auditorlar tərəfindən həyata keçirilə bilər.

Audit nəzarəti qeyri-dövlət maliyyə nəzarətinin əsas forması olmaqla ölkəmizin iqtisadiyyatının bazar münasibətlərinə keçirilməsi ilə bağlı yaranmış və inkişaf etmişdir. Eyni zamanda audit nəzarəti bazar münasibətlərinin inkişafında, iqtisadi subyektlərin maliyyə sabitliyinin möhkəmləndirilməsində, bazarın tədqiqində mühüm əhəmiyyətə malikdir.

Sahibkarlıq subyektlərinin səmərəli idarə olunmasının təşkilində, təsərrüfat-maliyyə fəaliyyətinin tənzimlənməsində daxili nəzarətin rolu da yüksəkdir. Bazar iqtisadiyyatı şəraitində daxili nəzarətin əhəmiyyəti nəzərə alınaraq respublikamızda "Daxili nəzarət haqqında" AR Qanunu qəbul edilmişdir.

Xüsusi mülkiyyətin əsas mülkiyyət forması olduğu bazar iqtisadiyyatında daxili audit sahibkarlara müəssisə və aşağı idarəetmə strukturlarının fəaliyyətinə nəzarət etmə imkanı verir.

Audit nəzarəti əsas qeyri- dövlət maliyyə nəzarəti kimi

Qeyri-dövlət maliyyə nəzarəti, xüsusilə də onun aparıcı forması olan audit nəzarəti məcburi və könüllü ola bilər. Bu öz əksini "Auditor xidməti haqqında" AR Qanununda da tapmışdır. Qanunun 2-ci maddəsində göstərilir: "Qanuna görə öz maliyyə hesabatlarını dərc etdirməli olan təsərrüfat

subyektləri üçün, habelə qanunla bilavasitə nəzərdə tutulmuş hallarda həyata keçiirlməli olan audit məcburi, digər hallarda isə könüllüdür".

Qanuna uyğun olaraq, bir çox ölkələrdə olduğu kimi, Azərbaycanda şirkətlərdə audit yoxlamasının olması tələb olunur. Lakin şirkətlər hansı auditor təşkilatı və ya auditorla müqavilə bağlamaqda müstəqildirlər. Təsisçi tərəfindən idarə edilən, kiçik şirkətlər, əsasən audit fəaliyyətindən azaddırlar. Qanunla müəyyən edilmiş şirkətlərin ildə bir dəfə audit yoxlamasından keçməsi tələbi bir sıra amillərlə şərtlənir. Bu amillər surasında dövlətin, səhmdarların, tərəf müqabillərinin və digər maraqlı tərəflərin şirkətin maliyyə vəziyyəti haqqında informasiya əldə etmək istəyi ön sırada dayanır.

Məcburi qeyri-dövlət maliyyə nəzarəti forması kimi məcburi audit özü də iki yerə ayrıla bilər:

- audit yoxlaması səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılır;
- audit yoxlaması sifarişçi təsərrüfat subyektinin öz tələbi ilə və özünün seçdiyi, əmin olduğu auditor şirkəti ilə bağladığı müqavilə əsasında aparılır.

Birinci halda aparılan audit yoxlaması mahiyyətcə dövlət, formaca qeyri-dövlət nəzarət formasıdır. Göründüyü kimi, bu halda yoxlama obyekti ondan boyun qaçırmaq, imtina etmək imkanına malik deyil. Eyni zamanda auditor yoxlama zamanı müəyyən etdiyi pozuntu və nöqsanlar haqqında müqavilə bağladığı səlahiyyətli orqan qarşısında məsələ qaldırır. Bu baxımdan yanaşsaq, dövlət orqanlarının sifarişi ilə aparılan auditor yoxlamaları dövlət maliyyə nəzarətinin bir qolu kimi baxıla bilər.

Şirkətlərin tələbi ilə aparılan audit yoxlaması nəticəsində əldə olunan məlumatlar məxfi saxlanılır, yalnız müqavilə bağlanan tərəfə verilir. Təkcə məhkəmə orqanlarının tələb etdikləri hallar, həmçinin "Cinəyat yolu ilə əldə edilmiş pul vəsaitlərinin və digər əmlakın leqallaşdırılmasına və terorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" AR Qanununa əsasən təqdim olunmalı məlumatlar istisna təşkil edir. Onlar haqqında dərhal səlahiyyətli dövlət orqanlarına məlumat verilməlidir.

Qanunvericiliyin tələblərinə uyğun olaraq aparılan auditor yoxlamasından əlavə şirkətlərin təsisçilərinin tələbi ilə zəruri hallarda əlavə audit yoxlamaları təşkil oluna bilər. Burada əsas amil kimi əminlik yaradılması çıxış edir. Audit nəzarətinin inkişafı və səmərəliliyi onun istifadəçilərə əminlik vermək qabiliyyəti ilə bağlıdır. Əminlik vermək dedikdə hər hansı xüsusi bir informasiyanın düzgünlüyünün yoxlanılaraq istifadəçilərə daha düzgün inamlı qərar qəbul etmək imkanı başa düşülür.

Əminlik vermək şirkətin fəaliyyətinin xarici, müstəqil auditor tərəfindən yoxlanılmasını nəzərdə tutur. Şirkətin daxili auditinin idarəçilərdən müəyyən asılılığı olduğu üçün onların yoxlamaları səhmdarlarda tam əminlik yaratmaya bilər.

Xarici auditor şirkətin maliyyə hesabatları əsasında məlumatın uçot standartlarına, müvafiq qanunvericiliyə uyğun olduğu haqda rəy verir.

Məlumdur ki, yeni şirkətin yaradılmasında əsas məqam səhmdarların kapital qoyuluşudur. Səhmdarlar şirkətə kapital yatıraraq onun sahiblərindən biri olur. Səhmdarlar şirkətin idarəçiliyində həm bilavasitə iştirak edə, həm də etməyə bilərlər. Əgər şirkətin idarə edilməsi kənar idarəçiyə həvalə edilibsə, səhmdarlara şirkətin maliyyə vəziyyəti haqqında hesabatlar təqdim olunmalıdır. Bu hesabatların düzgün və ədalətli olmasının yoxlanılması müstəqil, xarici auditorlara həvalə edilir.

Audit xidmətinin təşkili əsasları

Auditin əminlik verməsi üçün auditorlar yoxlamalar apararkən auditin tərkib elementlərini dəqiq istifadə etməlidirlər.

Auditin aparılmasında üç tərəf iştirak edir: hesabatları hazırlayanlar – rəhbərlik, istifadəçilər – səhmdarlar və auditi aparanlar.

Şirkətin maliyyə hesabatlarını direktorun rəhbərliyi altında müvafiq işçilər hazırlayır. Bu hesabatlar səhmdarlar üçün şirkətin cari maliyyə vəziyyətini əks etdirir. Buna görə də səhmdarlar şirkətin maliyyə hesabatlarının doğru və ədalətli hesablanmasına əmin olmaq üçün həmin maliyyə hesabatlarının xarici auditorlar tərəfindən yoxlanılmasını tələb edirlər.

Xarici auditorlar aşağıdakıları yoxlamalıdır: hesabat dövrünün sonuna maliyyə nəzarəti haqqında, hesabat dövrü üzrə maliyyə nəticəsi haqqında, hesabat dövründə kapitalda edilən dəyişikliklər haqqında və s. hesabatlar.

Əminlik yaratmaq üçün tələb olunan məqamlardan biri audit yoxlamaları aparılarkən uyğun sənədlərin olmasıdır. Yoxlamaların düzgün aparılması üçün müvafiq sənədlər təqdim olunmalıdır.

Şirkətlərin maliyyə hesabatları Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun aparılmalıdır. Xarici auditorlar hesabatları yoxlayarkən bunlara diqqət edir.

Auditor yoxlaması audit rəyinin təqdim olunması ilə yekunlaşır. Auditor yoxlama aparılan şirkətin maliyyə hesabatlarının müvafiq maliyyə hesabatları standartlarına uyğunluğunu müəyyən etdikdən sonra audit rəyi hazırlayıb səhmdarlara təqdim edirlər. Bu, səhmdarlara daha doğru maliyyə qərarları qəbul etməyə imkan verir. Demək olar ki, audit rəyinin düzgün tərtib olunması audit prosesinin əminlik yaratmasında xüsusi əhəmiyyətə malikdir.

Müasir dövrdə maliyyə nəzarəti orqanlarının qarşısında qoyulan əsas vəzifələrdən biri də cinayət yolu ilə pul vəsaitlərinin əldə edilməsi və terrorçuluğun maliyyələşdirilməsi ilə mübarizədir. Ölkəmizdə bu məsələlərdə mübarizənin təşkilinin hüquqi əsası kimi 10 fevral 2009-cu ildə qəbul edilmiş "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" AR qanunu çıxış edir. Bu qanun monitorinq iştirakçılarının, habelə monitorinqdə iştirak eləyən digər şəxslərin daxili nəzarət sisteminin qurulmasını, daxili nəzarətin həyata keçirilməsini tələb edir. Qanunun 5.4-cü maddəsində deyilir: "Monitorinqdə iştirak edən digər şəxslər bu Qanunun 12-ci maddəsinə uyğun olaraq cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı daxili nəzarət sistemini hazırlamalı və həyata keçirilməlidir".

Audit xidməti sahəsində mövcud olan problemlər

Audit xidmətinin həyata keçirilməsində müəyyən problemlər də mövcuddur. Bu problemlərin həllində qanunvericiliyin təkmilləşdirilməsi mühüm rol oynaya bilər. O cümlədən:

- qanunvericiliyin audit sahəsində ədalətli rəqabətin təmin olunmasında təsirinin zəif olması. Bu istiqamətdə mövcud qanunvericiliyə müəyyən maddələrin əlavə olunması məqsədə uyğun hesab edilir;
- audit yoxlamalarının maksimum şəffaflığının təmin olunması üçün də qanunvericiliyinin təkmilləşdirilməsinə ehtiyac duyulur;
- korrupsiya və rüşvətxorluqla mübarizə sahəsində auditorların öhdəliklərinin və məsuliyyətlərinin qanunvericilikdə aydın göstərilməsi tələb olunur.

Qanunvericilikdə mövcud olan bu nöqsanlar məhz audit xidmətinin təşkilində aşağıdakı nöqsanların əsasında dayanır:

- bir çox hallarda audit xidmətinin istifadəçilərinin auditə inamı kifayət qədər yetərli olmur;
- auditorlar öz peşə səviyyəsini yüksəltməkdə maraqlı olmur.

Azərbaycan Respublikasının Auditorlar Palatasının Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitəsinin (KNKİK) məlumatına görə 2020-ci ildə audit təşkilatlarının və sərbəst auditorların apardıqları yoxlamaların keyfiyyəti aşağıdakı kimi qiymətləndirilmişdir:

- 2 auditor təşkilatı keyfiyyətli – 5 balla;
- 5 auditor təşkilatı qənaətbəxş – 4 balla;
- 1 auditor təşkilatı və 2 sərbəst auditor qismən-qənaətbəxş – 3 balla;
- 2 auditor təşkilatı və 1 sərbəst auditor qeyri-qənaətbəxş – 2 balla.

İlin yekununa görə fəaliyyəti qeyri-qənaətbəxş qiymətləndirilmiş auditor təşkilatları və sərbəst auditora ciddi xəbərdarlıq edilmiş, onlara tapşırılmışdır ki, apardıqları audit yoxlamalarını Beynəlxalq Audit Standartlarına və digər qanunvericilik aktlarına əməl etsinlər.

Göründüyü kimi, 2020-ci ildə Palata tərəfindən cəmi 13 auditor subyektində keyfiyyətə nəzarət tədbiri keçirilib ki, bu da çox aşağı göstəricidir. Bu səbəbdən də qərara alınıb ki, "... auditor təşkilatlarının və sərbəst auditorlarının 2020-ci ildə apardıqları auditlər üzrə icrası başa çatmayan və ya icra olunmayan keyfiyyətə nəzarət ilə əlaqədar monitorinqlərin səbəbləri araşdırılsın və 2021-ci ilin Plan-qrafikinə daxil edilsin...".

Öz audit fayllarını KNKİK-ə təqdim etməyən aşağıdakı audit təşkilatları və sərbəst auditorlar inzibati yolla cəzalandırılmış və bu hal təkrar olunarsa, fəaliyyətlərinə xitam veriləcəyi bildirilmişdir.

Sıra №-si	Auditor təşkilatlarının və sərbəst auditorların adı
1	"AZAUDİT" MMC
2	Çələbiyev Eldəniz Nazim oğlu
3	"BDO Azərbaycan" MMC
4	"Moore Stephens Azerbaijan" MMC
5	"Grant Thornton" MMC AR-dakı filialı
6	"Forum" MMAM
7	"G and A Audit" MMC
8	"EON AUDİT" MMC
9	Həsənov Ülvi Dilqəm oğlu
10	"Best Audit" MMC

Göründüyü kimi, auditor təşkilatları ilə müqayisədə sərbəst auditorlar daha məsuliyyətlidirlər. Çünki sərbəst auditorlar öz fəaliyyətlərinə daha ciddi şəxsi məsuliyyət hissi ilə yanaşırlar. Auditor təşkilatları daha geniş dövriyyəyə malik olduğu üçün onların fəaliyyətinə nəzarət də daha güclü olmalıdır.

Daxili maliyyə nəzarəti və kənar nəzarətin qarşılıqlı əlaqəsi

Nəzarət idarəetmənin əsas funksiyalarından biri olduğu üçün təsərrüfat subyektlərinin öz təsərrüfat-maliyyə fəaliyyəti üzərində keyfiyyətli daxili nəzarəti təşkil etməklə rəqabət mübarizəsində həm də öz dayanıqlılığını təmin etmiş olur. Çünki düzgün nəzarət yalnız təsərrüfat subyektinin maddi və maliyyə resurslarının qorunub saxlanmasını deyil, həm də fəaliyyətin yaxşılaşdırılması üçün ehtiyat mənbələrinin aşkar edilməsini təmin edir.

Daxili auditlə xarici audit arasında əsas fərqlər onların funksiyalarından, həyata keçirilməsi vaxtlarından irəli gəlir. Daxili auditin mühüm funksiyası şirkətin rəhbərliyinə zəruri informasiyaların çatdırılmasıdırsa, kənar auditin mühüm funksiyası maraqlanan kənar istifadəçilər üçün uyğun rəyin tərtib olunmasıdır. Kənar audit əsas etibarilə maliyyə məsələlərinə istiqamətləndiyi halda, daxili audit qeyri-maliyyə problemlərini də gözdən keçirir.

Təsərrüfat subyektlərində daxili nəzarətçilər müəyyən özəlliklərə malikdirlər, o cümlədən:

- Müəyyən olunmuş nöqsan və pozuntuların aradan qaldırılması üçün tövsiyə və göstərişlər hazırlamaq;
- Bu tövsiyə və göstərişlərin icrasına nəzarət etmək;
- Daxili nəzarət reallaşdırılarkən yaranan məsələlər üzrə məsləhətləşmələr aparmaq;
- əldə edilən informasiyanı vaxtında rəhbərliyə çatdırmaq.

Eyni zamanda bu öhdəlikləri icra etmək üçün daxili nəzarət bölmələri aşağıdakı hüquqlara malikdir:

- öz səlahiyyətləri daxilində müəssisənin işçilərindən yazılı və şifahi izahat almaq;
- idarəetmə sisteminin, istehsalın səmərəliliyinin yüksəldilməsi, o cümlədən, nəzarət sisteminin təkmilləşdirilməsi məqsədilə şirkətin rəhbərliyinə zəruri təklif və tövsiyələr vermək, gələcək tədbirlərin iş planını hazırlamaq;
- maliyyə-təsərrüfat fəaliyyətinin mövcud qanunvericiliyin tələblərindən, normativ hüquqi sənədlərdən, mövcud standartlardan və normalardan kənarlaşmasına səbəb olmuş şəxsləri müəyyənləşdirmək, onların qeyri-peşəkar və qanunsuz fəaliyyətini sübutlarla əsaslandıraraq rəhbərliyə və təsisçilərə məlumat vermək;
- öz səlahiyyətləri daxilində digər müəssisə və təşkilatlarla əlaqə saxlamaq.

Daxili nəzarəti kənar nəzarətdən fərqləndirən cəhətlərdən biri də nəzarətçi subyektin nəzarət sisteminin tərkibinə daxil olmamasıdır. O, təsərrüfat subyektinin rəhbərliyinə tabe olan bir təsərrüfat strukturudur. Bu, nəzarətin təşkilinin əsas prinsiplərindən birinin – müstəqillik prinsipinin fəaliyyətinə mane olur. Ona görə də, daxili nəzarət, əsasən, aşağı vəzifəli şəxslərin fəaliyyətinə

nəzarət kimi baxıla bilər. Daxili auditorlar şirkətin rəhbərliyi qarşısında hesabat verir, iadrə heyəti və bölmələri ilə birbaşa əlaqədə olurlar.

Müəssisələrin təsərrüfat - maliyyə fəaliyyətinə nəzarətin təşkilində daha keyfiyyətli nəticələrin əldə edilməsi üçün daxili nəzarət qurumlarının işi də müntəzəm yoxlanılmalıdır. Belə yoxlamaların ən səmərəli forması kimi müəssisədə aparılan kənar audit baxıla bilər. Deyilənlərdən belə bir nəticə çıxara bilərik ki, həm dövlət həm də təsərrüfat subyektləri üçün ən məqbul vəziyyət xarici və daxili nəzarətin eyni vaxtda, qarşılıqlı əlaqədə tətbiq olunmasıdır. Kənar nəzarət tədbirləri keçirilərkən daxili nəzarətin düzgün və keyfiyyətli təşkiinin qiymətmətləndirilməsi də təmin olunmalıdır. Bu, daxili maliyyə nəzarətçilərinin öz vəzifələrinə daha ciddi yanaşmasını şərtləndirər və daxili nəzarətin daha keyfiyyətli həyata keçirilməsini təmin edər.

Nəticə

Müasir şəraitdə iqtisadi inkişafa mane olan amillərin təsirini azaltmaqda təsərrüfatların iqtisadi fəaliyyəti üzərində səmərəli maliyyə nəzarətinin rolu böyükdür. Belə bir nəzarətin təmin olunmasında qeyri- dövlət maliyyə nəzarəti mühüm əhəmiyyətə malikdir.

Müxtəlif şəkillərdə təşkil olunan qeyri - dövlət maliyyə nəzarətinin əsas formaları kimi audit nəzarəti və daxili nəzarət çıxış edir.

Qanunla müəyyən edilmiş təsərrüfat subyektləri ildə bir dəfə məcburi audit yoxlamasından keçməlidir. Digər müəssisələr isə özləri könüllü olaraq audit yoxlamasından keçirlər.

Audit yoxlamasından keçmək müəssisələr üçün bir çox cəhətdən əlverişlidir. Lakin onlar o halda audit şirkətinə (sərbəst auditora) müraciət edirlər ki, audit aparanların fəaliyyəti əminlik yaradır.

Lakin respublikamızda göstərərilən audit xidmətinin səviyyəsi bir çox hallarda günün tələbləri səviyyəsində deyil. Buna görə də audit xidmətinin keyfiyyətinin yüksəldilməsi istiqamətində ciddi tədbirlər görülməlidir:

- audit xidməti haqqında qanunvericiliyin daha da təkmilləşdirilməsi;
- audit təşkilatlarının (sərbəst auditorların) fəaliyyətinə nəzarətin gücləndirilməsi;
- auditorların peşə səviyyəsinin yüksəldilməsi tədbirlərinin genişləndirilməsi:
- müəssisələrin idarə edilməsində rolunu nəzərə alaraq daxili auditin daha düzgün və səmərəli aparılmasına nail olmaq üçün onun təşkilinin xarici auditor tərəfindən qiymətləndirilməsi.

Ədəbiyyat

1. “Auditor xidməti haqqında” AR Qanunu, 16 sentyabr 1994-cü il, № 882.
2. “Daxili audit haqqında” AR Qanunu,Bakı, 22 may 2007, № 332 IIIQ.
3. “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanunu, 10 fevral 2009-cu il, № 767
4. “2020 -ci ildə auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinə və kənar nəzarətin keyfiyyətinə dair icmal təhlilin hazırlanması barədə” AR Auditorlar Palatası Şurasının qərarı, №328, 23 fevral 2021-ci il., https://audit.gov.az/Az/page/950
5. Məmmədov Y.Ə. Rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşmasına auditin təsiri. Bakı, Nağıl evi, 2016.
6. Мельник М.В. Ревизия и контроль, Москва ИД – ФБК ПРОГКЕСС, 2004.

Гурбанов Б.Ш., К.э.н., доц. АГЭУ

Организация и совершенствование негосударственного Финансового контроля

Резюме

Bu tədbirlər sırasında vergi investisiyalarını xüsusi qeyd etmək lazımdır. Doğrudur «vergi investisiyası» anlayışı təsərrüfat subyektlərinə dövlət dəstəyi məqsədinə əsasən vergi hüququ sistemində tətbiq olunmayan, həmçinin iqtisadi nəzəriyyədə və iqtisadiyyatın dövlət tənzimlənməsində nəzərdən keçirilməyən yeni bir anlayışdır. Pandemiya dövründə maliyyə çətinliyi ilə üz-üzə qalan iqtisadi subyeklərin vergi investisiyası modelindən «sosial» investisiyalara bənzər şəkildə istifadə etməyi təklif edirik. Bildiniz kimi sosial investisiyaların tətbiqi başqa nəticələr əldə etməyə yönəldilmişdir, məsələn, insan kapitalının inkişafı, əlavə biznes vahidinin formalaşması, onun qorunması və s. Vergi investisiya modelinin tətbiqi həm regional, həm də bütövlükdə respublika üzrə sosial-iqtisadi infrastrukturun inkişafı istiqamətində yaranmış problemlərin həllinə hərtərəfli yanaşmanın həyata keçirilməsini təmin etməyə imkan verəcəkdir.

Qeyd edək ki, böhran şəraitində mikro, kiçik və orta biznes sahibkarlara dəstək mexanizmlərinin çatışmazlığı və zəif metodik işlənməsi ilk növbədə Azərbaycan Respublikasında belə təcrübənin olmaması ilə əlaqədar yeni model və mexanizimlərin formalaşmasına ehtiyac yaratmışdır. Müasir şəraitdə ən perspektivli və səmərəli olanlardan biri vergi investisiyası modeli təqdim olunur ki, bu da sahibkarların maliyyə çətinliklərini aradan qaldıraraq onların fəaliyyətlərini bərpa etməyə və gələcək inkişafı üçün ön şərtlərin formalaşdırılmasına imkan verəcəkdir.

Ədəbiyyat

1. COVID 19 pandemiyasının dünya iqtisadiyyatına təsiri. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi. / 08.04.2020. https://iqtisadiislahat.org/store//media/2020/Aprel/08042020_covid_dunya.pdf.

2. COVID-19 и человеческий капитал. Международный банк реконструкции и развития / Всемирный банк, Вашингтон, 2020 г.–123 с.

3. Koronavirus (COVID-19) pandemiyasının Azərbaycan Respublikasının iqtisadiyyatına mənfi təsirinin azaldılması ilə bağlı Tədbirlər Planı. [Elektron resurs] / 2020. URL: https://www2.deloitte.com/az/az/pages/tax/articles/pandemiyadan-z.html.

4.Vüsal Qasımlı: "Koronaböhrandan zərərçəkən sahibkarlara, muzdlu işçilərə və aztəminatlılaradəstək veriləcək". 20.03.2020. https://mediapost.az/vusal-qasimli-koronabohrandan zererceken sahibkarlara-muzdlu-iscilere-ve-azteminatlilara-destek-verilecek.

5.Балабанюк Ж. Мир после пандемии: каким будет глобальный рынок труда в 2030–2050 годах. 3 Декабря 2020. https://mind.ua/ru/openmind/20219270-mir-posle-pandemii-kakimbudet-globalnyj-rynok-truda-v-20302050-godah

6. Татаринова Л.В. Малый и средний бизнес в период пандемии в России: поддержка со стороны государства и банковского сектора в частности// Международный журнал прикладных наук и технологий «Integral» . - 2020. - №3. - С. 420-428.

7. Матершева, В. В. Пандемия и малый бизнес / В. В. Матершева, Ю. С. Гайдина // Актуальные проблемы развития отраслевых рынков: национальный и региональный уровень : Сборник статей V Международной научно-практической конференции, Воронеж, 09 апреля 2021 года / Под редакцией Т.Н. Гоголевой. – Воронеж: Издательско-полиграфический центр "Научная книга",2021. – С. 105-110.

8. www.interfax.az

9. www.taxes.gov.az

Резюме

Д.ф.э.Курбанова Р.В.

Важность осуществления налоговых инвестиций в снижении налогового бремени микро, малых и средних предпринимателей в период пандемии

В статье рассматривается важность применения налоговых вложений для снижения налоговой нагрузки на микро, малые и средние предприятия в условиях кризиса. С 2020 года из-за пандемии экономическая ситуация в нашей стране, как и во многих странах мира, была нестабильной. Разные страны с разным уровнем экономического развития, социальными и экономическими приоритетами влияют на экономику, используя разные модели государственной поддержки. С этой целью в статье обосновывается важность налоговых инвестиций для поддержки микро, малых и средних предпринимателей, преодоления финансовых трудностей, с которыми они сталкиваются, восстановления их деятельности и дальнейшего развития. Применение модели налоговых инвестиций обеспечит реализацию комплексный подход к решению проблем.

Ключевые слова: пандемия COVID-19, микро, малые и средние предприниматели, налоговые вложения, стабильность экономической системы, хозяйствующие субъекты, налоговые льготы и льготы, методологические основы государственной поддержки, страховые взносы, методы антикризисного управления, социально-экономическая ситуация в стране.

Summary

Ph.D.Gurbanova R.V.

The Importance Of Implementation Of Tax Investments In Reducing The Tax Burden Of Micro, Small And Medium Entrepreneurs In The Pandemy Period

The article discusses the importance of applying tax investments to reduce the tax burden on micro, small and medium enterprises during the crisis. From 2020, due to the pandemic, the economic situation in our country, as in many countries around the world, was unstable. Different countries with different levels of economic development, social and economic priorities influence the economy using different models of state support. To this end, the article substantiates the importance of tax investments to support micro, small and medium-sized businesses, to overcome their financial difficulties, to restore their activities and to develop them in the future. will ensure the implementation of a comprehensive approach to problem solving.

Keywords: COVID-19 pandemic, micro, small and medium entrepreneurs, tax investments, stability of the economic system, business entities, tax breaks and exemptions, methodological bases of state support, insurance premiums, anti-crisis management methods, socio-economic situation of the country.

YENİ STRATEJİ İNKİŞAF TRENDLƏRİNİN TƏHLİLİ (BANK SEKTORU TİMSALINDA)

Ayaz Museyibov, doktorant
AzDİU (UNEC),
Ayaz.museyibov@unec.edu.az

Xülasə

2015-ci ildə baş vermiş ardıcıl iki devalvasiya ölkənin bank sektorunda ciddi çağırışlar formalaşdırdı. Qeyri-işlək kreditlərin 3 dəfəyə yaxın artması, depozit və əmanətlərin azalması fonunda bank sektorunda strateji inkişaf proqramları icra edildi. Bunun nəticəsi olaraq, 2020-ci ildə sektorda qeyri-işlək kreditlərin 6,1 %-ə qədər azalması, dedollarizasiya proseslərinin güclənməsi müşahidə edildi. Bununla yanaşı, 2020-ci ildə Azərbaycanın bank sektoru üçün ən böyük təhdidlərdən biri pandemiyanın yaratdığı yeni risklərdir. Araşdırmanın əsas məqsədi inkişaf trendlər ilə yanaşı, bank sektorunun qarşılaşdığı əsas risklərin təhlili və potensial strateji inkişaf imkanlarının öyrənilməsidir. Bu məqalədə Azərbaycanın bank sektorunda cari vəziyyətinin təhlili aparılır, gələcək inkişaf perspektivləri tədqiq edilməklə, makroiqtisadi sabitliyinin gücləndirilməsi istiqamətində müvafiq təkliflər verilir.

Açar sözlər: Bank sektoru, strateji inkişaf, sistematik risklər, pandemiya, islam bankçılığı, maliyyə sabitliyi

Giriş

2014-cü ilin sonlarından etibarən dünya və ölkə iqtisadiyyatında baş verən proseslər, ölkədə milli valyutanın məzənnəsinin ucuzlaşması maliyyə-bank sisteminə əhəmiyyətli dərəcədə mənfi təsir etmiş, bir sıra bankların bağlanmasına, həmçinin xarici valyutada götürülmüş kreditlərin qaytarılmasında problemlərin yaranmasına səbəb olmuşdur. 2020-ci ildə isə Azərbaycan özünün maliyyə sabitliyi siyasətini pandemiyanın təsiri ilə dünya iqtisadiyyatında resessiya, əhəmiyyətli qlobal risklərin artması, dünya maliyyə və əmtəə bazarlarında qeyri-sabitlik, əlavə olaraq regionda siyasi gərginliklərin artması şəraitində həyata keçirmişdir. Ötən dövr ərzində həyata keçirilmiş tədbirlər nəticəsində ölkədə makroiqtisadi sabitlik bərpa edilmiş, maliyyə-bank sisteminin dayanıqlılığının artırılması istiqamətində mühüm irəliləyişlərə nail olunmuş, ümumi iqtisadi artımın ressesiv zonadan çıxması fonunda bank sektorunda müşahidə olunan sabitləşmə meyilləri mötədil iqtisadi aktivliklə əvəz olunmuşdur. Son 10 ildə ölkənin strateji valyuta ehtiyatları 2 dəfəyə yaxın artaraq 49,1 milyard ABŞ dollarına çatmış, Mərkəzi Bankın rəsmi valyuta ehtiyatları isə 6,4 milyard ABŞ dolları təşkil etmişdir.[1] Pandemiyanın təsiri ilə 2020-ci ilin birinci yarısında bank sektorunda müşahidə olunan dalğalanmalar ilin ikinci yarımilindən etibarən stabilləşmiş, kredit portfeli, bank sisteminin cəmi aktivləri, xalis mənfəəti və kapitalı neqativ dalandan kənarlaşmışdır. Cari dövr ərzində əldə olunmuş nailiyyətlərə baxmayaraq, bank sektorunda qismən də olsa müəyyən risk, çağırış və inkişaf potensialları qalmaqdadır.

İnfrastrukturun inkişafı

Azərbaycan bank sisteminin davamlı fəaliyyəti üçün ötən dövr ərzində Milli ödəniş sistemi, Hökumət ödəniş portalı, Mərkəzi kredit reyestri, Banklararası kart mərkəzinin fəaliyyəti təmin edilmişdir. Ölkədə ilk dəfə xüsusi blokçeyn platforması tətbiq edilməklə Rəqəmsal İdentifikasiya Sistemi real istismara verilmişdir. Bu layihənin inkişafı bank sistemində məlumatların tamlığının, əlçatanlığının və məxfiliyinin qorunması ilə bərabər, sektorda inam mühitinin formalaşmasında çox mühüm rol oynayacaqdır.

Ötən müddət ərzində aparılmış islahat tədbirləri çərçivəsində kredit faizlərinin aşağı salınması, sağlam kredit ekosisteminin qurulması məqsədilə qabaqcıl beynəlxalq təcrübədə tətbiq edilən 3 vacib mexanizmin tətbiqi və Kredit bürosu, Daşınar əmlakın yüklülüyü reyestri, İpoteka və kredit zəmanəti fondunun fəaliyyətinə nail olunmuşdur. Ötən dövr ərzində sığorta sektorunda da institusional islahatlar həyata keçirilmiş, İcbari Sığorta Bürosu, Aqrar Sığorta Fondu, "Aqrar Sığorta Müştərək Sığorta Şirkəti" ASC kimi institusional qurumların fəaliyyəti təmin edilmişdir.

Son dövrlər bank sistemində atılmış ən mühüm islahat tədbirləri kimi Ani Ödənişlər Sisteminin (AÖS) istismara verilməsi də qeyd edə bilərik. Belə ki, AÖS-ün istismara verilməsi monitorinq və qiymətləndirilməsi İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən həyata keçirilən "2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı" çərçivəsində icra edilmiş tədbirlərdən biridir. AÖS-ün istismara verilməsi nəticəsində QR kod funksionallığının tətbiqi və internet və mobil bankçılıq xidmətləri vasitəsilə əhali üçün qeydiyyat, hesablararası köçürmə və ödəniş funksionallıqlarının istifadəyə təqdim edilməsi təmin olunmuşdur. Gözləntilərimiz ondan ibarətdir ki, AÖS üzrə yaradılan imkanlar iqtisadi subyektlər arasında rəqəmsal ödənişlərin genişləndirilməsinə, nağdsız cəmiyyətin formalaşdırılmasına yeni təkan verəcəkdir. Bu layihələrin inkişafı bank sistemində məlumatların tamlığının, əlçatanlığının və məxfiliyinin qorunması ilə bərabər, sektorda inam mühitinin formalaşmasında çox mühüm rol oynayacaqdır.

Bank sistemində yaradılmış digər mühüm bir yenilik isə kreditləşmə prosesləri üçün avtomatlaşdırılmış qərar qəbuletmə sistemlərinin tətbiqinə imkan verəcək və beynəlxalq metodologiyalara əsaslanan yeni kredit skorinqinin tətbiq olunmasıdır. Bu sistemin tətbiqi isə, əgər banklar tərəfindən müvafiq qaydada istifadə olunarsa, anderraytinq proseslərinin avtomatlaşdırılması, kreditləşmə proseslərinin bank əməliyyatları termini ilə ifadə etsək "anında" aparılmasına imkan yaradacaqdır.[2] Bank sistemində tətbiq edilmiş digər bir yenilik ölkədə ilk dəfə 2020-ci ildə kredit skorinqi tətbiq olunmasıdır.[3] Ən vacib məqam ondan ibarətdir ki bu mexanizmlərin tətbiqi elə bir inkişaf layihələridir ki, bank xidmətlərindən istifadə edən hər bir kəs ödəniş və kredit ekosistemləri üzrə xidmətlərin keyfiyyətinin artmasını öz həyatında birbaşa hiss edəcəkdir.

Bundan əlavə, 2020-ci ildə pandemiyanın bankların kapital dayanıqlığına mənfi təsirlərinin azaldılması məqsədilə prudensial çərçivə nisbətən yumşaldılmış, requlyativ nəzarət prosesləri üzrə güzəştlər verilmiş, kredit ekspansiyasına şərait yaradılması, rəqəmsallaşmanın təşviqi üzrə tədbirləri əhatə edən dəstək proqramı qəbul edilmişdir. Müvafiq proqrama əsasən kreditlər restruktrizasiya edilərkən kreditlərin keyfiyyətinin pisləşdirilməsinə yol verilməməsi, nisbətən "yumşaq prudensial çərçivə"yə keçid, kapitalın adekvatlığı indikatorları üzrə banklara 5 əsas istiqamətdə mühüm dəstək, maliyyə əlçatanlığı və ya kredit hesabatlılıq sistemləri üzrə dəstək və rəqəmsallaşma istiqamətində geniş miqyaslı dəstək tədbirləri icra edilmişdir. Buna müvafiq olaraq, bank sistemi də yeni şəraitə uyğun fəaliyyətini qismən qura bilmişdir. [4]

Mövcud vəziyyətin təhlili

Bank sektorunun aktivləri 2021-ci il ilin aprel ayında 32,7 milyard manat səviyyəsində stabilləşmişdir ki, bu da 2016-cı illə müqayisədə 1,3 milyard manat və ya 4,3 faizlik artım deməkdir. Digər mühüm bir göstərici kimi isə 2016-cı ildə bank sektorunun xalis zərəri 1,6 milyard manat təşkil etdiyi halda, 2020-ci ilin yekunları üzrə 567,8 milyon manat xalis mənfəət əldə edildiyini qeyd edə bilərik. Ötən müddət ərzində bank sektorunda başlayan canlanma işçi sayında da öz əksini tapmışdır. Belə ki, 2021-ci ilin aprel ayına olan rəsmi statistikaya əsasən 2016-cı ilin sonu ilə müqayisədə bank sektorunda işçi sayı 11 % artmışdır (18,893-16,947) ki, bu da sektorda əhəmiyyətli canlanmanın baş verdiyini göstərir. [5]

Bank sisteminin maliyyə göstəricilərinin təhlili də ötən müddət ərzində banklarda dayanıqlılıq göstəricilərinin artdığını göstərir. Aktivlər və kapital üzrə gəlirlilik əmsalları da son 1 il ərzində müsbət rəqəmlərlə ifadə olunmuşdur. Azərbaycan Banklar Assosiasiyasının müvafiq məlumatlarının təhlili onu göstərir ki, sektorda 2016-cı ildə zərərlə işləyən banklar sektorun 50 faizini təşkil edirdisə (16 bank), 2021-ci ilin 1-ci rübünün nəticələrinə əsasən bu göstərici cəmi 8 faiz (2 bank) olmuşdur.[6]

2020-ci ildə ölkədə ayrı-ayrı maliyyə institutlarının sağlamlaşdırılması və fəaliyyətinin tənzimlənməsi məqsədilə mikroprudensial siyasət çərçivəsində 4 bankın fəaliyyətinə xitam verilmişdir. İcra olunmuş tədbirlər və qəbul olunmuş normativ-hüquqi sənədlər maliyyə sektorunun sabitliyini artırmaqla bərabər, yerli maliyyə instutlarının da güclənməsi və bazar inamının artmasına şərait yaratmışdır. Bununla belə, cari dövr ərzində əldə olunmuş nailiyyətlərlə birgə, bank sektorunun ölkənin iqtisadi inkişaf strategiyasına uyğunlaşdırılması üçün yeni inkişaf strategiyalarının realizasiyası da arzuolunan hesab olunur.

2020-ci ilin nəticələrinə əsasən maliyyə dərinliyi əmsalı olan cəmi aktivlərin qeyri-neft ÜDM-ə nisbəti 63% təşkil etmişdir. Cəmi kredit portfelinin ümumi ÜDM-ə nisbəti isə 2015-ci illə müqayisədə 2 dəfə azalmaqla 20%-ə düşmüşdür. Müvafiq göstəricinin azalmasına səbəb isə, ümumi ÜDM-in 2020-ci ildə 2015-ci illə müqayisədə 33,3 faiz artmasına rəğmən, ümumi kredit portfellərinin 33,1 faiz azalmasıdır. Bu isə ona dəlalət edir ki, 2015-ci ilə qədərki dövrdə xarici valyutada olan kreditlərin bank sektorundakı dominantlığı stabilləşməyə mənfi təsiri özünü göstərir. Onu da qeyd edək ki, ümumiyyətlə, ölkədə maliyyə dərinliyi göstəricisinin nin daha da artırılması istiqamətində tədbirlərin icrasına ehtiyac vardır. Xüsusi ilə də, real sektor sahələrində müvafiq göstərici nisbətən aşağıdır. Örnək olaraq, ölkənin iqtisadi inkişafında mühüm rolu olan kənd təsərrüfatı sektorunda maliyyə dərinliyi əmsalı 7 faiz təşkil edir.

Cədvəl 1. ÜDM və kredit portfeli göstəricilərinin müqayisəsi (ümumi və kənd təsərrüfatı üzrə), 2015-2020

İl	Ümumi ÜDM	Ümumi kredit portfeli	Kənd təsərrüfatı üzrə ÜDM	Kənd təsərrüfatı üzrə kredit portfeli
2015-ci il	54352,1	21730,4	5635,3	508,1
2016-cı il	59987,7	16444,6	5632,1	441,3
2017-ci il	70135,1	11757,8	6580	429,2
2018-ci il	79797,3	13020,3	7010	470
2019-cu il	81681	15298,2	7836,7	543,4
2020-ci il	72432,2	14530,4	8428,9	566,2

Mənbə: Dövlət Statistika Komitəsi və Mərkəzi Bankın məlumatları əsasında hazırlanmışdır.
https://www.stat.gov.az/news/macroeconomy.php?page=4&arxiv=1
https://www.cbar.az/page-42/monetary-indicators#page-2

Belə ki, Cədvəl 1-dən də göründüyü kimi 2020-ci ildə kənd təsərrüfatı serktorunda ümumi buraxılış istehsalı 8,4 milyard manat olsa da, sektora verilmiş kreditlərin ümumi həcmi cəmi 566,2 milyon manat olmuşdur.[7]

Apardığımız araşdırmalar onu göstərir ki, sektora kredit qoyuluşlarının aşağı olmasının səbəblərindən biri də kredit portfellərinin əsasən istehlak kreditlərinə (bütün dövrlər üzrə 40 faizdən yuxarı göstərici) yönəldilməsi olmuşdur ki, bu da kənd təsərrüfatı ilə bərabər digər real sektor sahələrinin də maliyyələşdirilməsində zəif göstəricilər kimi özünü göstərmişdir.



Qrafik 1. Azərbaycanda maliyyə dərinliyi əmsalı üzrə dinamika, 2005-2020

Mənbə: Dövlət Statistika Komitəsi və Mərkəzi Bankın məlumatları əsasında hazırlanmışdır.
https://www.stat.gov.az/news/macroeconomy.php?page=4&arxiv=1
https://www.cbar.az/page-42/monetary-indicators#page-2

Kredit portfellərinin əsas keyfiyyət göstəricilərindən hesab olunan qeyri-işlək kreditlərin xüsusi çəkisi (QİK əmsalı) 2021-ci ilin ilk 4 ayının göstəricilərinə əsasən 6,1 faizə enmişdir. Qeyd edək ki, bu göstərici Azərbaycanda bu sahədə 2015-ci ilin neft böhranından sonra qeydə alınmış ən pozitiv göstəricidir. Onu da qeyd edək ki, qeyri-işlək kredit portfelinin son illər davamlı olaraq azalması Azərbaycanı bu sahədə Şərqi Avropa və MDB məkanında müvafiq istiqamətdə ən uğurlu nəticələrə nail olan ölkələrdən birinə çevirmişdir. Əslində bu göstəricinin özü sektorun sağlamlaşdırılmasının əsas siqnallarından olmaqla yanaşı, bank sisteminin kredit portfellərinin risk yükü və ümumi kredit faizlərinin azalmasına da müsbət təsir edən amillərdəndir. Bu göstərici, həmçinin, 2017-ci ilin "neqativ bumu" ilə müqayisədə (QİK əmsalı, 15,5 faiz) 2,5 dəfə azalma deməkdir ki, bunun da azalması öz növbəsində bank sisteminin kredit xərclərinin azaldılması və nəticədə aşağı kredit faizlərinin formalaşması və daha sağlam kredit hesabatlığı mədəniyyətinin formalaşmasına müsbət təsir edəcəkdir. [8]

Uzunmüddətli kreditləşmənin ümumi portfeldə xüsusi çəkisi 2021 – ci ilin ilk 4 ayının nəticələrinə əsasən 82,5 faizə çatmışdır. Müqayisə üçün qeyd edək ki, müvafiq göstərici 2015-ci ildə 75,6 faiz, 2005-ci ildə isə cəmi 36 faiz təşkil etmişdir. Pandemiyanın mənfi nəticələrinə baxmayaraq, bu istiqamətdə mənfi tendensiya qeydə alınmamışdır. Bu göstəricinin artması özlüyündə sektorda inamın yüksəlməsi və müştəri-bank münasibətlərində keyfiyyətcə və məzmunca daha dayanıqlı münasibətlərin qurulmasının nəticəsidir.

Ötən müddət ərzində kredit portfellərində dedollarizasiya prosesləri də müşahidə olunmuş, manatla verilmiş kreditlərin ümumi portfeldə xüsusi çəkisi 2020-ci ildə 2019-cu illə müqayisədə 4,9 faiz artmaqla 70,2 faizə çatmışdır. 2021-ci ilin ilin ilk 4 ayının nəticələri də bu istiqamətdə müsbət trendlərin müşahidə olunduğunu göstərir və müvafiq göstərici ilin əvvəlindən 2,1 faiz artmaqla 72,3 faizə çatmışdır.

Bununla belə, qeyri-işlək aktivlərin effektiv şəkildə həlli istiqamətində bir sıra institusional inkişaf imkanları da mövcuddur. Bu imkanlara qeyri-işlək aktivlərin idarəedilməsi üzrə bankların potensialının yüksəldilməsi, qeyri-işlək aktivlərin restrukturizasiyası üzrə hüquqi sistemin təkmilləşdirilməsi, qeyri-işlək aktivlərin satışı və təkrar bazarının formalaşdırılması kimi amilləri qeyd etmək mümkündür.

Məlum olduğu kimi, 2015-ci il dünya neft böhranından sonrakı proseslərin iterativ davamı olaraq, hüquqi şəxslərin depozitləri 2017-ci ildə 19 milyard, fiziki şəxslərin əmanətləri isə 6,8 milyard manata qədər azalmışdır. 2020-ci ilin aprel ayında isə banklarda yerləşdirilmiş depozitlərin həcmi 22,4 milyard manat ətrafında stabilləşmə nümayiş etdirmiş, fiziki şəxslərin əmanətlərinin həcmi isə 8,3 milyard manat olmuşdur. 2001-ci illə müqayisədə hüquqi şəxslərin depozitləri 58

dəfə, fiziki şəxslərin əmanətləri isə 71 dəfə artmışdır. Bu iki göstəricinin artması, həm iqtisadi inkişafın elementləri, həm də bank sektoruna inamın müsbətə doğru dəyişməsinin inikasiyası hesab oluna bilər.[5] Onu da qeyd edək ki, həm hüquqi şəxslərin depozitləri, həm də fiziki şəxslərin əmanətləri üzrə 2020-ci ildə qeydə alınmış cüzi azalma lisenziyası ləğv olunmuş banklarla bağlı olmuşdur və bu volatillik sistem əhəmiyyətli risk hesab edilmir.



Qrafik 2. Azərbaycanın kredit ekosistemində trendlər (milyard AZN), 2005-2021.

Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı
https://www.cbar.az/page-40/statistical-bulletin

Son illərdə müşahidə olunmaqda olan əmanətlərin və depozit portfellərinin dedollarizasiyası prosesi 2020-ci ildə də davam edib. Depozitlərin tərkibində manatın xüsusi çəkisi 46,5%-ə çatıb ki, bu da 2015-ci ildən bəri qeydə alınan ən yüksək göstəricidir və məlumat üçün bildirək ki, bu göstərici 2015-ci ilin dekabr ayında 15,3 faizə qədər azalmışdı. Depozitlərin dedollarizasiyası üzrə 2020-ci ildə 4, 9 faiz, bu ilin ilk 4 ayında isə 2,9 faizlik artım qeydə alınmışdır. Depozit portfelinin tərkibində müddətli depozitlərin xüsusi çəkisi isə 39,7 faiz təşkil etmişdir. Bu göstəricinin daha yüksək olması əlbəttə ki, bank sektoruna inamın daha yüksək olmasına xidmət edərdi, lakin indiki halda, tələb olunan depozitlərin çəkisinin artması investisiya fəallığının yaratdığı likvidliyə tələblə də izah oluna bilər. Eyni zamanda təsadüfi deyildir ki, uzunmüddətli kreditlərin xüsusi çəkisi artmaqdadır.[2] Bu zaman nəzərə alınmalı yeganə məqam banklar tərəfindən risklərin düzgün hesablanması, mitiqasiya alətlərinin işləkliyi və kredit və depozitlərin müddətləri arasındakı fərqliliyin hər hansı sistematik bank riskinə çevrilməsinə imkan verilməməsidir.

Yeni inkişaf perspektivləri

Maliyyə-bank sisteminin makroiqtisadi inkişafa müsbət təsirlərinin artırılması məqsədi ilə bu xidmətlər və real sektorun münasibətləri üzrə korporativ idarəetməyə dair strateji çərçivənin formalaşması məqsədəuyğun hesab oluna bilər. Hazırda üç əsas (Anqlo-Amerikan, Almaniya və Yaponiya korporativ modeli) modelin nəzərdən keçirilməsi yetərli hesab edilir. Xüsusi ilə də, Almaniya və Yaponiya modeli maliyyə bazarlarının aşağı likvidliyi, yüksək səviyyədə bank nəzarəti və bir sıra hallarda səhmlərin qarşılıqlı mübadiləsi ilə müəyyən olunur. Sözügedən modellərdə bank krediti əsas maliyyələşmə aləti kimi çıxış edir ki, bu baxımdan da, Almaniya və Yaponiya modellərinin Azərbaycanda tətbiqi nəzərdən keçirilə bilər.

Eyni zamanda, ölkə bankları "inkişaf bankı" statusuna keçərlərsə, biznesin bütün səviyyələrində (biznes planların tərtibi, xarici tərəfdaşların tapılması, bazarlara giriş, marketinq və s.) gəlir əldə etməklə faiz gəlirlərindən asılılığı azalda bilərlər.

Azərbaycanda islam maliyyəsinin inkişafı da xarici investisiyaların (xüsusən də, Körfəz ölkələrindən) cəlbi üçün əlavə təkan ola bilər. İslam maliyyə institutları, real sektorda maliyyə

xidmətlərinə çıxışın genişləndirilməsi, kiçik və orta sahibkarlığın maliyyə əldə etmək imkanı üçün yaxşı platforma hesab olunur və bununla da artım və iqtisadi inkişafa dəstək verirlər. Məlum olduğu kimi, İslam dini bütün kommersiya və maliyyə əməliyyatlarının real aktiv əsaslı (asset-based) olmasını zəruri edir. Yəni, klassik iqtisadi terminlə ifadə olunarsa, İslam kommersiya hüququ "pul-əmtəə-pul" münasibətini dəstəkləyir. Hazırda dünyanın nəhəng bankları hesab edilən HSBC, Citi Bank, Lloyds TSD (U.K.), Deutsche Bank, UBS, Royal Bank of Scotland banklarında İslam pəncərələri (Islamic window) çərçivəsində müştərilərə xidmət strukturu yaradılmışdır. İslam maliyyə institutları real sektorda maliyyə xidmətlərinə çıxışın genişləndirilməsi, həmçinin, kiçik və orta sahibkarlığın maliyyə əldə etmək imkanı üçün yaxşı platforma hesab olunur və bununla da artım və iqtisadi inkişafa dəstək olur. Qlobal miqyasda davam edən pandemiyaya və onun yaratdığı iqtisadi böhranlara rəğmən İslam maliyyə sistemi inkişaf etməkdədir. Bu inkişaf diversifikasiyalı xarakter daşımaqla müsəlman olmayan inkişaf etmiş ölkələri də əhatə edir. ABŞ və Avropa ölkələri uzun müddətdir ki, bu sistemin geniş implementasiyasını həyata keçirirlər. Məsələn, Böyük Britaniyada artıq 30 ildir ki, islam maliyyə xidmətləri göstərilir. Həmçinin, Türkiyənin dövlət bankları tərəfindən də islam maliyyə xidmətlərinin göstərilməsi məqsədilə xüsusi bank filialları açılmışdır.[9]

Nəticə

Beləliklə, ötən illərin statistik göstəriciləri Azərbaycan bank sektorunun önəmli inkişaf yolu keçdiyini göstərir. Eyni zamanda pandemiyanın yaratdığı yeni paradiqmalar bütün dünya ölkələri üçün rəqəmsal transformasiya istiqamətində daha sürətlə irəliləyən, əsaslı baza bank xidmətlərinə malik, proqressiv inkişaf texnologiyalarını ölkəyə transfer edə biləcək bank sistemi dizayn etməyin nə qədər mühüm əhəmiyyətə malik olduğunu göstərdi.

Yekun olaraq qeyd edək ki, bank sistemində əldə olunmuş mühüm nailiyyətlərə baxmayaraq, pandemiyanın yaratdığı yeni şəraiti, həmçinin, depozitlərin tərkibində tələbolunanadək depozitlərin yüksək xüsusi çəkisi, kredit resurslarının uzunmüddətli verilməsi ilə müqayisədə depozitlərin qısamüddətli əsaslarla cəlb olunmasına müvafiq olaraq, dərin və uzunmüddətli hədəflərə istiqamətlənmiş kompleks strateji tədbirlərin davam etdirilməsi məqsədəuyğun hesab olunur.

Azərbaycanda bank sisteminin formalaşmış potensialı və ötən illərin təcrübəsi onu deməyə əsas verir ki, qarşıdakı illərdə bu sahədə daha da müsbət irəliləyişlərə nail olmaq imkanları çağırışlarla müşayiət olunsa belə, kifayət qədər genişdir.

Xaricdən investisiya cəlb olunmasının nisbətən asanlığı, milli-mənəvi dəyərlərdə möhkəm ortaq əsasların olması, ölkənin bank sektorunda bu sahədə məlumatlılıq səviyyəsinin yüksək olmasını, mahiyyəti etibarilə real sektorun maliyyələşdirilməsində yüksək imkanlara malik olmasını nəzərə alaraq, kiçik və orta sahibkarlığın maliyyə resursları ilə təminatında islam bankçılığının imkanlarından istifadə olunması və tətbiqinin institusional çərçivəsinin formalaşdırılması məqsədəuyğun olardı.

Maliyyə inklüzivliyinin inkişaf etdirilməsi və maliyyə xidmətlərinin daha əlçatan olması üçün qabaqcıl beynəlxalq təcrübədə geniş istifadə olunan metodların – baza bank hesabının açılması, bank olmayan ödəniş xidməti təchizatçıları tərəfindən müvafiq ödəniş xidmətlərinin göstərilməsi, ödəniş agenti şəbəkəsinin formalaşdırılması, poçt rabitəsi milli operatoru tərəfindən maliyyə xidmətlərinin göstərilməsi, agent bankçılığın tətbiqi də arzuolunan hesab olunur. Maliyyə bazarlarına nəzarət orqanının bank sektorunda riskəsaslı prudensial tənzimləmə metodlarından istifadə etməklə institusional potensialının artırılması da məqsədəuyğun olardı.[10]

Dünyada maliyyə bazarlarının və qlobal maliyyə texnologiyalarının, məhsul, xidmət və modellərinin sürətli dəyişməsi fonunda baş verən proseslərə çevik reaksiya vermək gücündə olan "tətikləyici" və "lokomotiv" rolunu oynayacaq xarici transmilli bankların yerli sektorda iştirakının təşviq edilməsi də inkişafa nail olunması baxımından mühüm əhəmiyyətə malikdir. Maliyyə və ümumilikdə makroiqtisadi sabitliyin gücləndirilməsi məqsədi ilə iqtisadi koordinasiya qurumlarının tərkibində krizis menecment qrupunun formalaşdırılması imkanları da nəzərdən keçirilə bilər. Ölkə banklarının innovativ həllər, yeni texnologiyalar və yeni əməliyyat sistemlərindən istifadəyə dair maraqlarının stimullaşdırılması ilə bağlı tənzimləyici tədbirlərin müəyyənləşdirilməsi də təklif olunan məsələlərdəndir. Eyni zamanda real sektorun maliyyələşdirilməsi məqsədilə təşviqedici

fəaliyyətlər vasitəsilə islahat tədbirlərinin davam etdirilməsi, yəni vergi güzəştləri, real sektora dövlət zəmanətləri ilə aşağı faizli kreditlərin verilməsi, real sektora kreditlərin verilməsi məqsədilə ayrıca fondun formalaşdırılması və s. Kimi tədbirlər də realizasiya edilə bilər.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Dövlət Neft Fondu, 2021. Azərbaycan Respublikası Mərkəzi Bankı, 2021.
https://www.oilfund.az/report-and-statistics/recent-figures
https://www.cbar.az/
2. Azərbaycan Respublikası Mərkəzi Bankının press-relizləri, 1993-2021.
https://www.cbar.az/press-releases/1
3. Azərbaycan Kredit Bürosunun press-relizləri, 2018-2021.
https://www.acb.az/communication/press-release.html
4. "Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar kredit təşkilatlarının müvəqqəti tənzimləmə Qaydası"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikasi Mərkəzi Bankının İdarə heyətinin qərarı, 2020. http://e-qanun.az/framework/44967
5. Azərbaycan Respublikası Mərkəzi Bankının "Statistik bülleteni", 2021.
https://www.cbar.az/page-188/credit-institutions
6. Azərbaycan Banklar Assosiasiyasının "Renkinqlər" hesabatı
https://aba.az/banklar/renkinql%c9%99r/
7. Azərbaycan Respublikası Mərkəzi Bankının "Statistik bülleteni", 2021. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2020.
https://www.cbar.az/page-188/credit-institutions
8. Azərbaycan Respublikası Mərkəzi Bankının "Statistik bülleteni", 2021. Dünya Bankı "Dünya İnkişaf indikatorları" hesabatı, 2021
https://databank.worldbank.org/source/world-development-indicators
https://www.cbar.az/page-188/credit-institutions
9. İslam İnkişaf Bankı, 2020. https://www.isdb.org/
10. Beynəlxalq Hesablaşmalar Bankı.İşçi məqalələri seriyası, 2010-2021.
https://www.bis.org/bispapers/index.htm?m=5%7C27

Abstract

Two consecutive devaluations in 2015 created serious challenges for the banking sector of Azerbaijan. Against the background of nearly threefold increase in non-performing loans, decrease in deposits and savings, strategic development programs were implemented in the banking sector. As a result, non-performing loans in the sector decreased to 6.1% in 2020, and dedollarization processes expedited. At the same time, one of the biggest threats to Azerbaijan's banking sector in 2020 is the new risks posed by the pandemic. The main purpose of the study is to analyze the main risks faced by the banking sector, along with development trends, and to study potential strategic development opportunities. This article analyzes the current situation in the banking sector of Azerbaijan, examines the prospects for future development and makes relevant proposals to strengthen macroeconomic stability.

DÖVLƏTİN PUL-KREDİT TƏNZİMLƏNMƏSİNİN VASİTƏLƏRİ VƏ ONUN REALLAŞMASI

Bayraməli Şükür oğlu Qurbanov, i.e.n., dosent
ADİU (UNEC)
bqurbanov52@gmail.com
Nüsrət Salman oğlu Babayev, müəllim doktorant
ADİU (UNEC

Xülasə

Monetar tənzimləmənin əsası olan pul-kredit siyasəti dövlətin iqtisadi siyasətinin mühüm istiqamətlərindən biridir. Müasir şəraitdə pul-kredit tənzimlənməsi iqtisadi tənzimləmənin təmin olunmasında zəruri bir vasitədir. Pul- kredit siyasətinin müəyyənləşdirilməsi zamanı multiplikator

effektinin nəzərə alınması müsbət rol oynayır. Bu zaman monetar və fiskal prinsiplər qarşılıqlı istifadə olunmalıdır.

Açar sözlər. İqtisadi siyasət, pul-kredit siyasəti, pul bazarı, dövlət tənzimlənməsi, monetar tənzimləmə, bank sistemi, sığorta sistemi, fiskal və monetar prinsiplər.

Giriş

Dövlətin iqtisadi siyasətinin çox mühüm və aparıcı istiqamətlərindən biri və eyni zamanda monetar tənzimləmənin əsası olan pul-kredit siyasəti ilə bağlıdır. Hər bir konkret mərhələdə dövlətin yerinə yetirdiyi pul-kredit siyasəti son nəticədə maliyyə bazarının yaranması və onun tərkib hissələri olan pul bazarı və kapitallar bazarının formalaşması və reallaşmasından asılıdır. İqtisadi ədəbiyyatdan və təcrübədən məlumdur ki, pul bazarı öz strukturuna görə uçot bazarından, banklar arası bazardan və valyuta bazarından ibarətdir. Uçot bazarı dedikdə adətən, dövlət və kommersiya vekselləri qısa müddətli qiymətli kağızlar başa düşülür. Başqa sözlə, uçot bazarında böyük miqyasda qısa müddətli qiymətli kağızlar dövr edir ki, bu zaman da əsas problem onların səfərbər olması və səfərbərliyinin təmin edilməsidir.Məqalədə məhz qeyd olunan məsələlər nəzəri istiqamətdə öyrənilmişdir.

Pul bazarının mühüm tərkib hissəsi banklararası bazardır. Bu adətən özünə sərbəst pul vəsaitlərinin müvəqqəti olaraq borc kapitalı formasında istifadəsini nəzərdə tutur. Son illərdə dövlət tənzimləyici orqanları pul bazarını tənzimləmək üçün uzun müddətli aktivlərdən də istifadə edir. Ölkəmizin beynalxalq maliyyə, pul-kredit sisteminə inteqrasiya olduğu müasir dövrdə pul bazarının fəaliyyətinə valyuta bazarı fəal təsir göstərir. Adətən, valyuta bazarı tədiyyə balansının başlıca özəyini təşkil edir, eyni zamanda beynəlxalq kreditlərin miqyası da mühüm təsir göstərir. Beləliklə, hər bir ölkədə pul bazarının resursları son nəticədə fond, valyuta resurslarının hərəkətindən asılı olaraq formalaşır.

Eyni zamanda bütünlükdə bu prosesin xarakterinə ölkədə mövcud olan pul-kredit mexanizmi güclü təsir göstərir. Təcrübə göstərir ki, ölkədə tətbiq olunan pul-kredit siyasətinin effektliliyi pul bazarının nə dərəcədə səmərəli idarə olunmasından çox asılı olur. Əlbəttə, son illərdə Azərbaycanın neft strategiyasının reallaşması ilə əlaqədar olaraq ölkəyə böyük miqdarda kredit formasında investisiya qoyuluşu bu problemi daha da aktuallaşdırdı. Bütünlükdə, pul-kredit mexanizminin milli iqtisadiyyatın inkişafındakı rolunu səmərələşdirmək üçün pula olan tələbi və təklifi düzgün müəyyənləşdirmək lazımdır.

Belə ki, əgər ölkədə normal tədavül prosesini həyata keçirmək üçün tədiyyə vasitələri lazım olan normal ehtiyacdan azdırsa, bu bütünlükdə tədavül prosesini pozar, ləngimələrə səbəb olar. Dövriyyədə olan pul kütləsi zəruri ehtiyacdan artıq olduqda isə, o, inflyasiyanı sürətləndirə bilər. Ümumən, əsas tənzimləyici orqan olan Mərkəzi Bank özünün yeritdiyi optimal pul-kredit siyasəti vasitəsilə bu prosesləri tənzimləməlidir. Lakin, təcrübə göstərir ki, bu zaman bu prosesi tənzimləmək üçün monetar amillər kifayət etmir, hökmən Maliyyə Nazirliyi vasitəsilə fiskal – büdcə siyasətini dəyişən şəraitə və tələbə uyğun olaraq təkmilləşdirilməsi zəruriyyəti meydana çıxır.Bu baxımdan ölkədə reallaşdırılan monetar tənzimləmə siyasətinin səmərəliliyini artırmaq üçün hökmən maliyyə sahəsində, istehsal sferasında, xarici-iqtisadi əlaqələrdə və tədiyyə balansının təkmilləşdirilməsi ilə bağlı olan bütün problemlər qarşılıqlı əlaqə və asılılıqda əlaqələndirilərək həll etmək lazımdır. Aydındır ki, bu prosesi səmərəli həyata keçimək üçün dövlət eyni zamanda gizli iqtisadiyyatın minimum həddə çatdaralmasına, korrupsiyanın aradan qaldırılmasına, bütünlükdə maliyyə kredit sistemində şəffaflığın təmin olunmasına çalışmalıdır.

Məlumdur ki, ölkədə pul-kredit siyasətinin formalaşması bütünlükdə ölkədə reallaşdırılan tənzimləmə modeli və sistemi ilə müəyyənləşsə də onun əməli cəhətdən həyata keçirilməsinə nəzarət Mərkəzi Banka həvalə olunub. Mərkəzi Bank haqqında Azərbaycan Respublikasının qanununda bu qurumun funksiyaları, məqsəd və vəzifələri konkret göstərilib. Bütünlükdə bank dövriyyəyə olan pul kütləsinin faiz dərəcəsinin, habelə tədavül üçün lazım olan pul kütləsinin həcmini ehtiyaclara uyğunlaşdırmağı, manatın likvidliyini, bütün səviyyələrdə təmin etmək üçün zəruri tədbirlər sistemi göstərməlidir. Yuxarıda qeyd etdiyimiz kimi, makroiqtisadi tənzimləmə sistemində ölkədə həyata keçirilən kredit siyasəti müstəsna əhəmiyyətə malikdir. Çünki, son

nəticədə istər ölkəyə xaricdən qoyulan investisiyalar, eləcə də daxili mənbələr hesabına milli iqtisadiyyata yönəldilən kreditlər bütünlükdə ölkədə reallaşdırılan monetar siyasətin meyllərini müəyyənləşdirir.

Pul-kredit tənzimlənməsinin mahiyyəti və zəruriliyi.

Nəzərə alsaq ki, son 25 il ərzində Azərbaycan iqtisadiyyatına 200 milyard dollardan çox investisiya qoyulmuşdur ki, onun da böyük hissəsi kredit resurslarından ibarətdir. Doğrudur, müstəqilliyin ilkin illərində Azərbaycan iqtisadiyyatına qoyulan kreditlərin ümumən, ayrı-ayrı illərdə 70-80% arasında tərəddüd etdiyini nəzərə alsaq, onda kredit siyasətinin bütünlükdə monetar tənzimləmə xarakterinə nə qədər böyük təsiri olduğu aydın görünür. Ölkəmizdə neft strategiyasının əməli cəhətdən reallaşdırılması nəticəsində artıq 2008-ci ildən başlayaraq iqtisadiyyata qoyulan investisiyaların strukturunda daxili maliyyə mənbələri kəskin surətdə xarici investisiyalar qoyuluşunu üstələmişdir. Bütün bunların məntiqi nəticəsi olaraq bu gün Azərbaycan kredit alan ölkədən kredit verən ölkəyə çevrilmişdir.

Bu zaman meydana başqa bir problem çıxır. 2015-ci ilin məlumatlarına görə Azərbaycanın valyuta ehtiyatları 38,4 milyard dollar təşkil etmişdir. Məlumdur ki, qlobal maliyyə böhranı ayrı-ayrı ölkələrin valyutalarının dəyərini bu və ya digər istiqamətdə dəyişmişdir. Bunları nəzərə alaraq Mərkəzi Bank öz resurslarının bir hissəsini ABŞ dollarında, müəyyən hissəsini avroda, habelə digər ölkələrin valyutasında saxlayır. Bu zaman qarşıya başqa bir dilemma çıxır. Biz valyuta ehtiyatlarını istifadə etməliyik yoxsa müəyyən faiz müqabilində xaricə yönəltməliyik və yaxud özümüz xaricdən kredit almalıyıq. Son illərin təcrübəsi göstərir ki, Azərbaycan dövləti və Mərkəzi Bank bu istiqamətdə optimal siyasət yeridir. Qeyd olunanlara qlobal maliyyə böhranına Azərbaycanın maliyyə sisteminin davamlılığı göstərir. Ümumən, kredit siyasətinin dövlət tənzimlənməsi iki yolla həyata keçirilə bilir.

Birincisi, birbaşa və ya inzibati;

İkincisi, iqtisadi və ya dolayı yolla.

Adətən, maliyyə-kredit sahəsində inzibati metodlar dedikdə, hər şeydən əvvəl Mərkəzi Bankın kommersiya banklarına verdiyi kreditin həcmi və faiz dərəcəsi nəzərdə tutulur. Bununla yanaşı Mərkəzi Bank kreditin həcmini məhdudlaşdırmaqla və yaxud artırmaqla bu prosesi tənzimləyir. Bunun üçün Mərkəzi Bank müxtəlif vasitələrdən istifadə edir.

Birincisi, kommersiya banklarının verdiyi faiz dərəcəsini limitləşdirir, onların kredit vermək və kredit resursu cəlb etmək imkanlarını tənzimləyir. Mərkəzi Bank kommersiya banklarının fəaliyyətinə səmərəli təsir göstərmək üçün onlara lisenziya verir və yaxud onları geri qaytarmaq hüququna malikdir. Həmin lisenziyaların tələblərinə uyğun olaraq Mərkəzi Bank ana və filial kredit təşkilatlarının fəaliyyətinin əslində normativ-hüquqi bazasını müəyyənləşdirir.

Təcrübə göstərir ki, kommersiya bankları bir çox hallarda real sektora uzun müddətli kredit qoymaqda maraqlı olmurlar. Bu problemi həll etmək üçün Mərkəzi Bank öz şərtlərinə ümumi kredit qoyuluşlarının strukturunda daha çox vəsait ayırmasını tövsiyyə edir. Monetar siyasətin səmərəli həyata keçirmək üçün yoxlama və nəzarət mezxanizmindən geniş istifadə edir. Bu funksiya vastəsilə Mərkəzi Bank digər bankların, xüsusən kommersiya banklarının likvidliyinin qorunmasına və bütünlükdə onun səmərəli fəaliyyətini təmin etmək üçün vaxtaşırı nəzarət funksiyasını yerinə yetirir. Formalaşmış bazar iqtisadiyyatı şəraitində vaxtaşırı enib-qalxmalarda, böhran hallarında heç bir ölkənin maliyyə-kredit sisteminin kənarda qalması mümkün deyil. Bu baxımdan ölkədə monetar tənzimləmənin uzun müddətli effektliliyi əhəmiyyətli dərəcədə mükəmməl sığorta sisteminin olmasını tələb edir.

Sığorta sistemi həm daşınmaz əmlakın, həm əhalinin əmanətlərinin, hətta insan fəaliyyətinin özünün sığortalanmasını əhatə edir. Bu baxımdan bütün inkişaf etmiş ölkələrdə həm adi sığorta sistemi, həm də məcburi sığorta sistemi geniş tətbiq olunur. Ölkədə sığorta fondlarının yaranmasına və onların öz funksiyalarını yerinə yetirməsi üçün müvafiq qaydaları adekvat icra qurumları həyata keçirirlər. Dünya təcrübəsi göstərir ki, monetar tənzimləmə sistemində risklərin idarə olunması, təhlükəsizlik prinsiplərinin gözlənilməsi, likvidlik probleminin təmin edilməsi tənzimləmə sisteminin çox zəruri ünsürlərindən biridir. Monetar tənzimləmənin tərkib hissəsi kimi kredit tənzimlənməsində bankların verdikləri kreditə görə faiz dərəcəsi, əhalinin əmanətlərə görə

bankların verdiyi faiz, qiymətli kağızlara verilən dividentlərin səviyyəsinə Mərkəzi Bank və müvafiq maliyyə təşkilatları ciddi nəzarət funksiyası yerinə yetirirlər. Ümumən, müasir dünyada iqtisadi tənzimləmənin dolayı vasitələri qeyd olunanlardan daha genişdir. Ən başlıcası isə dolayı və birbaşa tənzimləmə bir-birindən asılı olmaqla çox saylı daxili və xarici obyektiv və subyektiv amillərlə şərtlənir.

Məlumdur ki, bank faizi makroiqtisadi tənzimləmənin iqtisadi yoludur. Lakin, faiz dərəcəsinin dəyişdirilməsi müvafiq qanunun qəbulunu tələb edir ki, bu da inzibati yoldur. Beləliklə, dolayı tənzimləmə həm də birbaşa inzibati tənzimləmə ilə bağlı bir proses kimi həyata keçirilir. Təcrübə göstərir ki, dolayı yolla monetar tənzimləməni həyata keçirmək üçün Mərkəzi Bank banklara və qeyri-bank təşkilatlarına bazar mexanizmi vasitəsilə təsir edir. Başqa sözlə, kreditin verilməsi və kreditin cəlb edilməsi prinsiplərini dəyişmək. əlverişli rəqabət sahibkarlıq mühiti formalaşdırmaqla bütünlükdə monetar tənzimləmənin səmərəliliyini artıra bilir. Azərbaycanda fiziki və hüquqi şəxslərə verilən kredit mexanizmini təkmilləşdirmək, habelə depozitlərə və əmanətlərə faiz dərəcəsini optimallaşdırmaq ölkənin Mərkəzi Bankının müəyyənləşdirdiyi və qəbul etdiyi normativ aktlar tərəfindən həyata keçirilir. Mərkəzi Bank bu proseslərə nəzarət etmək üçnü hər bir bank və kredit qurumu üçün məcburi ehtiyat normaları müəyyənləşdirir.

- Depozit əməliyyatları həyata keçirir;
- Faiz dərəcəsini maliyyələşdirir;
- Açıq bazarda əməliyyatlar aparır;
- Bankların sanatsiya edərək yenidən maliyyələşdirir.

Son nəticədə Mərkəzi Bank bankların likvidliyini təmin etmək, tədavül üçün lazım olan pul kütləsinin həcmini müəyyənləşdirmək, kredit resurslarını banklara yönəltmək və özü pul bazarında, maliyyə bazarında və kredit bazarında fəal iştirak etmək yolu ilə də bu prosesləri tənzimləyir. Bu gün hər bir ölkənin maliyyə sistemi dünya bazarına dünya maliyyə sisteminə fəal inteqrasiya olunur. Bu prosesə uyğun olaraq beynəlxalq valyuta fondunun və dünya inkişaf bankının həyata keçirdiyi pul-kredit siyasəti öz təsirini hökmən həmin ölkənin monetar tənzimləmə siyasətinin xarakterində və effektivliyində özünü göstərir.

Pul-kredit siyasətinin müəyyənləşməsində multiplikator effektinin rolu

Monetar tənzimləmə alətləri bütünlükdə pul resurslarının yaranması, istifadəsi, bölgüsü və mübadiləsi ilə bağlı olan prosesləri səmərəli həyata keçirməyə xidmət edir. Bu zaman Mərkəzi Bank Keynsin təliminə görə multiplikatr effektini nəzərə alaraq pul-kredit siyasətini müəyyənləşdirir. Mövcud iqtisadi ədəbiyyatda pul multiplikatoru aşağıdakı forma əsasında müəyyənləşir.

Pul multiplikatoru, yəni bankların pulu yaratmaq qabiliyyətinin göstəricisi aşağıdakı nisbətlə müəyyən edilir:

$$\text{M} = \frac{\text{M}_S}{Mb} = \frac{nəqd\ pul + depozitlər}{nəqd\ pul + bank\ ehtiyatları} = \frac{nəqd\ pul\backslash depozitlər + depozitlər/depozitlər}{nəqd\ pul\backslash depozitlər + bank\ ehtiyatları} = \frac{(q+1)}{(q+z)}$$

Burada *m* - pul multiplikatoru

M_b– pul bazası (ehtiyat pullar)

M_s–pul kütləsi

M_b– aqreqatı banklardan kənarda nəqd pul və kommersiya banklarının ehtiyatlarını əhatə edir. Kommersiya banklarının ehtiyatlarına isə onların kassalarında olan nəqd pul və Mərkəzi Bankdakı hesablarında yerləşdirilmiş vəsaitlər daxildir. Mərkəz Bankdakı hesabda olan vəsaitin bir hissəsini məcburi ehtiyatlar (müxbir hesablarında olan vəsait), digərlərini isə izafi ehtiyatlar təşkil edir. qeyd edək ki, M_b–nin göstərilən strukturu Mərkəzi Bankın passivlərini əks etdirir. Mərkəzi Bankın aktivləri nöqteyi-nəzərdən isə M_b–yə xalis xarici aktivlər və xalis daxili aktivlər (kommersiya banklarına və hökumətə kreditlər) daxildir.

M_s–aqreqatına banklardan kənarda nəqd pul, tələb olunanadək depozitlər, müddətli depozitlər, digər depozitlər və qiymətli kağızlar daxildir. M_s–ə daxil olan komponentlərin sayı və növü ölkələr

üzrə müxtəlif ola bilər. Bu maliyyə-bank sektorunun inkişaf səviyyəsindən asılıdır. İnkişaf səviyyəsi yüksəldikcə M_s–in də keyfiyyət göstəricisi bir o qədər yüksəkdir (M_2, M_3, M_4 və s.)

Eyni ilə pul bazasında olduğu kimi, burada göstərilən struktur M_s–in yalnız passiv tərəfini göstərir. Lakin konsolidə edilmiş balansın yəni pul kütləsinin aktiv hissəsi də mövcuddur və buraya bank sisteminin məcmu xalis xarici aktivləri və xalis daxili aktivləri daxil edilir.

Bütün bunlarla yanaşı əgər Mərkəzi Bank qiymətli kağızların alışını həyata keçirirsə bu vaxt kommersiya bankları malik olduqları dövlət qiymətli kağızları sataraq əlavə ehtiyatlara sahib olur. Bu isə həmin bankların kredit vermək imkanlarını artırır. Respublikamızda qiymətli kağızlar bazarı demək olar ki, formalaşmamışdır. Qiymətli kağızlar biringi səviyyəli bazarı mövcud olduğu halda ikinci səviyyəli bazar demək olar ki, fəaliyyət göstərmir. Hökumətin qiymətli kağızlar bazarının inkişaf etməsində maraqlı tərəf olmasına baxmayaraq, bu sahədə aparılan işlər qənaətbəxş deyildir. Burada iki istiqamət müəyyənləşdirməlidir:

1) Özəlləşdirmə prosesi getdiyinə görə yüzlərlə səhmdar cəmiyyətlər yaranmağa başlamışdır. Bu müəssisələrə aid səhmlərin, qiymətli kağızların alqı satqısının həyata keçirilməsi;

2) Dövlət əlavə maliyyələşmə mənbəyi olmaq etibarilə qiymətli kağızlar emissiyasını həyata keçirməklə onların müəssisə və firmalara alqı-satqısını təşkil etmək.

Dövlət qiymətli kağızları buraxmaqla həm əlavə maliyyələşmə mənbəyi əldə edir və həm də bu vasitə ilə bankların pul yaratmaq qabiliyyətinə təsir edir. Qiymətli kağızlar bazarının bərqərar olması üçün aşağıdakı şərtlərin olması vacibdir.

– Makrosəviyyədə iqtisadiyyatda stabilliyin olması.
– Manatın alıcılıq qabiliyyəti ilə digər valyutaların alıcılıq qabiliyyətləri arasında fərqin azalması.
– Daxili qiymətlər strukturunun dünya qiymətlərinə uyğunlaşması.
– İnflyasiya səviyyəsinin aşağı olması.
– İqtisadi aktivliyi sürətləndirəcək kredit dərəcələrinin tətbiqi.
– Dövlət qiymətli kağızların iqtisadi alətlər içərisində möhkəm mövqe tutması.
– İri müəssisələrin özəlləşdirilməsi prosesinin başa çatması.
– İri investisiya institutlarının yaranması (bura aparıcı rolu kommersiya bankları oynayırlar)
– İnvestisiya fəaliyyətinə münbit şərait yaradan vergi qanunvericiliyinin olması.

Pul-kredit tənzimləməsində monetar və fiskal prinsiplərin qarşılıqlı əlaqəsi.

Yuxarıda qeyd olunanlar göstərir ki, hər bir ölkənin inkişaf səviyyəsindən, pul-kredit sisteminin formalaşma səviyyəsindən, ölkənin dünya iqtisadiyyatına inteqrasiyasından və bütünlükdə bazar münasibətlərinin yetkinlik dərəcəsindən asılı olaraq monetar tənzimləmənin prinsipləri, formaları fərqli ola bilir.

Qeyd edək ki, milli iqtisadiyyat və onun əsas sektorlarının inkişafı üzrə strateji yol xəritəsində fiskal və monetar siyasətin koordinasiyalı tətbiqi üzən valyuta sistemi prinsipi ilə fiskal sistemin ahəngdar tətbiqi zəruriyyəti xüsusi vurğulanır və qeyd olunur ki, hər bir konkret şəraitdə ölkənin maliyyə imkanları. valyuta ehtiyatları, xüsusən dünya bazarında xam neftə qiymətin dəyişməsindən asılı olaraq fiskal və monetar prinsiplər fərqli nisbətdə tətbiq mümkünlüyü əsaslandırılır.

Məlumdur ki, qlobal maliyyə böhranından sonra ölkəmizdə manatın devalvasiyası baş vermiş, büdcə imkanları dəyişmiş, pul vahidimizin alıcılıq qabiliyyəti və likvidliyi əvvəlki illərdən fərqli olmuşdur. Bununla bağlı, Azərbaycan dövləti son vaxtlar vergiqoymada obyektivliyi, şəffaflığı artırmaq, vergi dərəcəsini sabit saxlamaqla onun obyektini genişləndirmək, Ölkədə mümkün qədər büdcəmizin neft gəlirlərindən asılılığını azaltmaqla büdcənin həcmini artırmaq yaxın gələcək üçün mühüm bir hədəf kimi qarşıya qoyulmuşdu. Bu məqsədlə qeyri-neft sektorunun üstün inkişafı ölkə daxilində idxalı əvəz edən sahələri üstün inkişafı, səmərəli regional siyasətin reallaşdırılması, sənayenin innovativ inkişafı, kənd təsərrüfatı sahələrinin diversifikasiyası, xüsusən pambıqçılığı, tütünçülüyü, çayçılığı, fındıqçılığı, meyvəçiliyin, üzümçülüyün üstün inkişafının zəruriyyəti xüsusi vurğulanmışdır. Regionlarda sənaye məhəllələrinin yaradılması istiqaməti xüsusi vurğulanmışdır.

Bütün bu işlərdə əsas məqsəd ölkənin idxaldan asılılığını azaltmaqdan ibarətdir. Bildiyimiz kimi, Azərbaycanda monetar tənzimləmənin xarakterinə idxal məhsullarına qiymətin yüksək olması

bütünlükdə ölkə daxilində pul-kredit siyasətinin xarakterinə güclü təsir göstərir. Beləliklə, əsas məqsəd qloballaşmanın ölkə daxilində həyata keçirilən monetar siyasətin xarakterinə neqativ təsirləri azaltmaqdan ibarətdir.Dünya təcrübəsi göstərir ki, hər bir ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsində effektiv pul – kredit siyasətinin təmin edilməsi ilə yanaşı fiskal tənzimlənmənin də onunla qarşılıqlı əlaqə və asılılıqda tətbiqi müstəsna əhəmiyyət kəsb edir.

Bu problem transformasiya dövrünü yaşayan ölkələr üçün xüsusi ilə aktualdır. Çünki, bazar münasibətlərinin kifayət qədər formalaşmadığı, ölkənin «təhlükəsizlik yastığı» maliyyə baxımından tam təmin olmadığı halda ancaq monetar yolla sosial-iqtisadi problemləri səmərəli tənzimləmək və ölkənin maliyyə təhlükəsizliyini təmin etmək mümkün deyildir. Digər tərəfdən 2008-ci ildə dünyanı bürüyən qlobal maliyyə böhranı bu tezisi bir mənalı olaraq sübuta yetirmişdir ki, fiskal monetar tənzimləmə hökmən uzun perspektiv üçün qarşılıqlı əlaqə və asılılıqda tətbiq olunmalıdır. Bu asılılığın aşkarlanması monetar siyasətin bir sıra cəhədlərinin makroiqtisadi təhlükəsizlik baxımından dəyərləndirilməsini tələb edir. Artıq bizə məlumdur ki, hər bir ölkədə pul kütləsinə olan tələb və bu prosesin tənzimlənməsi müxtəlif prinsiplərlə və üsullarla həyata keçirilə bilər. O da məlumdur ki, bütünlükdə hər bir lkədə pul kütləsinə olan tələb ilk növbədə məcmuu tələbi tənzimləmək, idarə etmək və bütünlükdə pul tələbini müəyyən edən amillərin təhlil edilərək araşdırılmasını tələb edir. Bu zaman nəzərdən qaçırılmamalıdır ki, pul təklifi də fərqli yollarla tədavülə daxil ola bilər. Belə ki, ölkədə pul kütləsinə olan tələb Mərkəzi Bank tərəfindən faiz dərəcəsini dəyişdirməklə pul kütləsinin təklifini dəyişdirə bilər. Misal üçün, qiymətli kağızların alqı- satqı prosesində Mərkəzi Bank fəal iştirak etməklə, başqa sözlə, açıq bazarda əməliyyatlara daxil olmaqla faiz dərəcəsini dəyişdirə bilər.

Digər bir yol, Mərkəzi Bank kredit siyasətini dəyişdirməklə, başqa sözlə, onun həcmini və Mərkəzi Bankın kommersiya banklarına və eləcə də bazar subyektlərinə verdiyi uçot dərəcəsini dəyişdirməklə də, monetar tənzimləmənin xarakterinə güclü təsir göstərir. Qeyd etmək lazımdır ki, pul kütləsinə olan tələb və təklif əhəmiyyətli dərəcədə ölkədə iqtisadi inkişafın strategiyasından, onun qarşıya qoyduğu başlıca məqsəd və hədəflərdən, eyni zamanda iqtisadiyyatın sosial yönümlü, investisiya yönümlü və yaxud hərbir yönümlü (hərbi xərclərə çox vəsait ayrılması) asılı olaraq Mərkəzi Bank dövriyyəyə buraxılan pul kütləsi yollarını fərqli nisbətdə həll edə bilir. Misal üçün, Mərkəzi Bank xarici valyutanın alınması və satılması prosesində fəal iştirak etməklə valyuta məzənnəsini dəyişə bilir,

İkincisi, Mərkəzi Bank kommersiya banklarına və eləcə də konkret layihələr, proqramlara kreditin həcmini artırıb azaltmaqla dövriyyədə olan pul kütləsinə olan tələbi dəyişdirə bilir, və yaxud da Mərkəzi Bank ölkədə dövlət büdcəsinin kəsirini bağlamaq üçün xarici valyutaları milli manata mübadilə etmək yolu ilə də tələb və təklifin nisbətini dəyişdirə bilir. Ona görə də ölkənin maliyyə təhlükəsizliyini təmin etmək üçün hər bir konkret halda ölkənin maliyyə durumu, büdcənin gəlir və xərclərinin formalaşma kanalları və istifadəsi konkret təhlil olunaraq bu prosesə Mərkəzi Bank qeyd olunan vasitələrlə müdaxilə edə bilər.

Doğrudur, inkişaf etmiş ölkələrdə, xüsusən XX əsrin sonunda dünya iqtisadi ədəbiyyatanı «Reyqonomika», «Tetçerizmi» kimi daxil olan siyasətlərdə iqtisadi inkişafda və maliyyə təhlükəsizliyinin təmin edilməsində monetar nəzəriyyənin tətbiqinə üstünlük verirdilər. Qeyd etmək lazımdır ki, ümumən monetar siyasətin qeyd olunan prinsiplərinə uyğun olaraq ölkədə sərt və ya mülayim monetar siyasəti tətbiq oluna bilər. Mülayim monetar siyasət dedikdə, ölkədə monetar siyasətin tətbiqi daha çox makroiqtisadi səviyyədə tənzimləmə siyasəti həyata keçirilir və mümkün qədər dövlət bu prosesə az müdaxilə edir. Bundan fərqli olaraq sərt monetar siyasətində ölkədə tətbiq olunan makroiqtisadi tənzimləmə sisteminin prinsiplərinə uyğun olaraq Mərkəzi Bank dövriyyəyə daxil olan pul kütləsinin həcmini məhdudlaşdırmağa çalışır. Əlbəttə, bu proseslərin ölkənin maliyyə təhlükəsizliyinə təsirini daha obyektiv qimətləndirmək üçün pul multiplikatorundan və eləcə də, pul aqreqatlarının strukturunu təhlil edib dəyərləndirmək əsasında daha obyektiv qərarlara gəlmək mümkündür. Məlumdur ki, bu proses bir tərəfdən banklara qoyulan depozitlərin həcmindən, verilən kreditlərin həcmi və faiz dərəcəsindən, habelə Mərkəzi Bankın ehtiyat normasından asılı olaraq dəyərləndirilməlidir. Çünki, Milli iqtisadiyyatın maliyyə təhlükəsizliyi baxımından multiplikator effektinin nəzərə alınması çox vacibdir.

Pul-kredit tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətləri

Bunları nəzərə alaraq Mərkəzi Bank monetar siyasətin birbaşa təsir vasitələrindən, xüsusən, bank kreditlərinin həcmini və verilməsini, faiz səviyyəsini tənzimləməklə maliyyə təhlükəsizliyini daha effektiv reallaşdırmağa cəhd edir. Bütün bu proseslərin səmərəli həllində bu prosesdə şəffaflığı, obyektivliyi təmin etmək üçün ölkə prezidentinin sərəncamı ilə maliyyə nəzarəti Şurası yaradılmış, o da ölkədə maliyyə-pul-kredit resurslarının hərəkəti, istifadəsi, banklararası əməliyyatın daha obyektivliyini, xüsusən likvidliyini təmin etmək üçün zəruri tədbirlər həyata keçirir. Bütün bu qeyd olunanlar bizə belə qəti qənaətə gəlməyə əsas verir ki, ölkənin maliyyə təhlükəsizliyini təmin etmək üçün hökmən monetar siyasət fiskal siyasətlə konkret reallıqdan və şəraitdən asılı olaraq optimal nisbətdə tətbiq olunmalıdır. Çünki, əməli cəhətdən ölkənin milli iqtisadi, o cümlədən maliyyə təhlükəsizliyini təmin etməklə investisiya qoyuluşlarının yüksəldilməsi, onların innovasiya xarakterinin gücləndirilməsi, sahibkarlıq imkanları və mühitinin yaxşılaşdırılması, iqtisadiyyatın strukturunun dəyişən şəraitə uyğunlaşması, həlledici dərəcədə fiskal siyasətdən, yəni büdcə-vergi siyasətindən çox asılı olur.

Ölkə prezidentinin 16 mart 2016-cı il tarixli «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsi»ndə və daha sonra həmin sərəncama uyğun olaraq 6 dekabr 2016-cı il tarixində «11 istiqamət üzrə strateji inkişaf planı nın hazırlanması bütünlükdə ölkədə fiskal siyasətin xarakterini və iqtisadi inkişaf istiqamətini müəyyənləşdirmək mümkündür. Çünki, fiskal siyasətin imkanı və xarakteri həlledici dərəcədə ölkənin iqtisadi inkişaf strategiyasında reallaşdırılması nəzərdə tutulan makroiqtisadi parametrlərin miqyası və dinamikasından çox asılı olur.

Strateji yol xəritəsində yaxın gələcək üçün, yəni 2016 - 2020-ci və 2016 – 2025-ci illər üçün hazırlanan strateji yol xəritəsində aşağıdakılar prioritet istiqamət kimi nəzərdə tutulmuşdur:

1. Milli iqtisadiyyatın GİZİT təhlili əsasında üstün tərəfləri.
2. Zəif tərəfləri
3. İmkanlar
4. Təhlükə və təhdidlər nəzərə alınaraq inkişafın parametrləri proqnozlaşdırılıb.

İkincisi: Milli iqtisadiyyatın 360 dərəcəli diaqnostikası əsasında təkrar istehsalın mərhələlərinə uyğun olaraq bütünlükdə iqtisadi inkişaf, istehsal, bölgü, mübadilə və istehlak üzrə proseslər təhlil olunaraq onlar davamlı inkişaf baxımından dəyərləndirilməlidir.

Üçüncüsü: Yaxın gələcək üçün milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin artırılması prioritet bir vəzifə kimi qarşıya qoyulmuşdur. Aydındır ki, rəqabət qabiliyyətliliyinin yüksəldilməsi subyektiv amillərlə yanaşı, həlledici dərəcədə investisiyaların axınının, onların innovasiya yönümlü olmasını tələb edir.

Dördüncüsü: strateji yol xəritəsində səmərəliliyin yüksəldilməsi xüsusi bir istiqamət kimi qarşıya qoyur.

Beşincisi: qeyri-neft sektorunun inkişafı və qeyri-neft məhsullarının ixracının artırılması;

Altıncı: iqtisadiyyatın inklyuzivliyini kəskin artırmaq, başqa sözlə, onun sosial yönümünü gücləndirmək, ölkənin müstəqilliyindən və onun potensialından cəmiyyətdə bütün sosial qurumların səmərəli faydalanması üçün əlverişli mühüt yaradılması.

Yeddinci: ümumən, yol xəritəsində 8 aparıcı sahə üzrə o cümlədən, 4 istehsal, 2 sosial və 2 xidmət sferasının intensiv inkişafı nəzərdə tutulmuşdur.

Sekkizinci: yaxın perspektivdə özəlləşdirmə həyata keçiriləcək və bunun müqabilində büdcəyə vəsait daxil olması və kiçik – orta sahibkarlığın inkişafı nəzərdə tutulmuşdur.

Bu prinsiplərə uyğun olaraq ölkə prezidentinin 6 dekabr 2016-cı il tarixli digər sərəncamında hazırlanmış 11 proqram təsdiqlənmişdir. Ümumən, bu məqsədlə yaxın gələcək üçün iqtisadiyyata 27 milyard dollardan çox investisiya qoyulacaq, bu günki adambaşına düşən 170 dollar yaxın 10 il ərzində artırılaraq 450 dollara çatdırılması nəzərdə tutulmuşdur.

Nəticə

Bütün bu tədbirlərin həyata keçirilməsi sayəsində iqtisadiyyatın şaxələnməsi təmin olunacaq, büdcə imkanları artacaq, bu da son nəticədə fiskal tənzimləmə imkanlarını kəskin artıracaqdır. Əlbəttə, fiskal tənzimləmə sistemində Neft Fondunun potensialından geniş istifadə mühüm əhəmiyyət kəsb edir.

Məlumdur ki, dövlət büdcəsinin formalaşmasında və bütünlükdə fiskal siyasətin reallaşmasında ölkədə mövcud olan vergi sistemi, vergitutmanın prinsipləri və formaları müstəsna əhəmiyyətə malikdir.

Bununla belə, Azərbaycanda büdcənin son illərdə təxminən 3/1 hissəsi sosial məqsədlərə yönəlir. Azərbaycan dövləti dünya bazarında neftin qiymətinin kəskin aşağı düşməsinə baxmayaraq Neft Fondundan zəruri transfertlər etmək yolu ilə büdcənin tarazlılığını təmin edir.

Bütün deyilənlər bizə belə qəti qənaətə gəlməyə əsas verir ki, ölkəmizin dinamik və davamlı inkişafının təmin edilməsində sosial-iqtisadi proseslərin tənzimlənməsi prosesində monetar və fiskal siyasətin optimal nisbətdə tətbiqi çox zəruridir. Bu eyni zamanda ölkəmizin iqtisadi, habelə maliyyə təhlükəsizliyinin təmin edilməsində həlledici əhəmiyyət kəsb edir. Son vaxtlar ölkəmizdə yaradılmış iqtisadi potensial, normativ-hüquqi baza müvafiq olaraq yaxın gələcək üçün ölkəmizin pul-kredit siyasətinin dəyişən şəraitə və tələbə uyğun olaraq təkmilləşdirilməsini obyektiv zəruriyyətə çevirir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. "Azərbycan respublikasında maliyyə xidmətlərinin inkişafına dair strateji yol xəritəsi"nin təsdiq edilməsi haqda AR Prezidentinin Fərmanı, 06.12.2016
2. Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov Ə.M. Milli İqtisadiyyatın dövlət tənzimlənməsi, Ali məktəblər üçün dərslik, "Elm" nəşriyyatı,Bakı 2006, 834 s.
3. Əhmədov M.A., Hüseyn A.C., İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları Metodik vəsait, Bakı, "İqtisad Universiteti" , 2011, 120 s.
4. Əliyev A.Ə., Şəkərəliyev A.Ş., İ.Ş.Dadaşov Dünya İqtisadiyyatı : Müasir dövrün problemləri, Monoqrafiya. Bakı, "Elm" nəşriyyatı, 2003,684 s.
5. Əliyev Ü.Q. Keçid dövrünün milli iqtisadi problemləri, Monoqrafiya , Bakı,Azərnəşr, 2008, 358 s
6. Məmmədov Z.F.Qlobal maliyyə böhranı və dövlətin antiböhran strategiyası: Dünya təcrübəsi və Azərbaycan reallığı. Bakı, Dövlət idarəçiliyi, 2010.
7. Həsənov R. İqtisadi siyasət: metodologiya və praktika, Dərs vəsaiti, Bakı: "İqtisad Universiteti" Nəşriyyatı 2009, 282 s.
8. Xodov L.Q., Vergilər və iqtisadiyyatın vergi tənzimlənməsi: Dərs vəsaiti, Rus dilindən tərcümə. Bakı ,İqtisad Universiteti ,2008,290 s.
9. Kəlbiyev Y.A.Fiskal siyasət və milli iqtisadiyyatın tənzimlənməsi problemləri, Monoqrafiya ,Bakı "Elm" 2005, 468 s.
10. Qloballaşma mühitində milli iqtisadi inkişaf modelin formalaşması və inkişafı problemləri, Bakı, 2010, 258 s.

Гурбанов Б.Ш. К.э.н., доц АГЭУ

Бабаев Н.С. Докторант, преподаватель АГЭУ

Средства денежно-кредитного регулирования государства и их реализация

Резюме

Как основа денежно-кредитной политики монетарное регулирование является важным направлерием экономической политики государства. В современных условиях денежно-кредитное регулирование выступает как необходимый инструмент в обеспечении экономического регулирования. При определении денежно-кредитной политики играет положетельную роль учитывание мультипликаторного эффекта. При этом, фискальные и монетарное принципы длжны применяться совместно.

Ключевые слова. Экономическая политика, денежно-кредитная политика, денежный рынок, государственное регулирование, денежно-кредитное регулирование, банковская система, система страхования, фискальные и денежные принципы.

Gurbanov B.Sh. Candidate of Economic Sciences,
Associate Professor of ASUE
Babayev N. S. Doctoral student teacher of ASUE

Means of monetary regulation of the state and its implementation

Summary

Monetary policy, which is the basis of monetary regulation, is one of the important directions of the state's economic policy. In modern conditions, monetary regulation is a necessary tool to ensure economic regulation. Taking into account the multiplier effect plays a positive role in determining monetary policy. In this case, monetary and fiscal principles should be used interchangeably.

Key words: Economic policy, monetary policy, money market, government regulation, monetary regulation, banking system, insurance system, fiscal and monetary principles.

SOSİAL SIĞORTA GƏLİRLƏRİNİN AUDİTİNİN TƏŞKİLİNİN METODOLOJİ ASPEKTLƏRİ

Novruz Hüseynov, doktorant
ADİU (UNEC)
e-mail: novruz_huseynov_92@mail.ru

Xülasə

Məqalədə, sosial sığorta gəlirlərinin mühüm əhəmiyyətə malik olması göstərilir. Vəsaitlərin təyinatı üzrə xərclənməsi zəruriliyi qeyd edilir. Bu proseslər isə audit nəzarəti ilə tənzimlənir. Nəzarət prosesində idarəetmənin bütün obyektlərinin fəaliyyəti müşahidə edilir və yoxlanılır, konkret obyektlərin qarşısında qoyulan məqsədlərdən kənara çıxmaların səbəbləri aşkar edilir və operativ qaydada onların aradan qaldırılması üzrə tədbirlər həyata keçirilir. Audit nəzarətinin məqsədi kənarlaşmaların aşkar edilməsi, səmərəli təkliflərin verilməsi və qiymətləndirmə aparmaqdan ibarətdir. Bütün bu prosesləri isə audit nəzəri metodoloji aspektləri vasitəsi ilə həyata keçirir.

Azərbaycanın sosial sığorta sistemi dövlətin sosial-iqtisadi siyasəti sistemində özünün mövcudluğunun zəruriliyini və əsaslığını sübut edərək, xeyli müddətdir ki, çox uğurla tətbiq edilir. Məlumdur ki, məcburi sosial sığorta ödəmələri istehsal edilən malların, göstərilən xidmətlərin və yerinə yetirilən işlərin xərc mənbəyi kimi çıxış edir, birbaşa istehsal xərclərini artırır. Məhz buna görə də sığorta ödəmələri üzrə hesablaşmaların uçotu təsərrüfat subyektinin mühasibat uçotunun çox mühüm hissədir. Ona görə ki, istehsal xərclərinin səviyyəsi sığorta ödəmələrinin düzgün hesablanmasından asılıdır. Sığorta ayırmalarının düzgün hesablanması və ödənilməsi gələcəkdə baş verən sığorta hadisələrinin nəticələrinin dərhal aradan qaldırılmasında mühüm amil kimi çıxış edir. Nəzərə almaq lazımdır ki, sığorta ödəmələrinin vaxtında ödənilməsinin təmin edilməsi ilə bərabər həmin toplanan vəsaitin təyinatı üzrə xərclənməsi üzərində nəzarət mexanizminin də qurulması vacib elementlərdəndir. Başqa sözlə desək, uçot-analitik informasiyanın keyfiyyətinin yüksəldilməsi və maliyyə resurslarından istifadə üzərində nəzarətin metodiki təminatının inkişafı büdcə vəsaitlərinin səmərəli idarəedilməsinin əsasıdır.

Azərbaycanın dünya iqtisadiyyatına dinamik inteqrasiyası, xarici investorların ölkənin daxili bazarında iqtisadi mövqeyinin güclənməsi nəticəsində milli sahibkarların ilk növbədə Avropa Birliyinə daxil ölkələrin kompaniya və firmaları ilə iqtisadi əlaqələrinin formalaşması və inkişafı investorları üçün (xarici istifadəçilərinin əsas hissəsini iqtisadi baxımdan inkişaf etmiş ölkələrin investorları təşkil edir) maliyyə hesabatının formalaşdırılmasının aydın və vahid qaydasının işlənib hazırlanmasını zəruri etmişdir. Əslində bu milli mühasibat uçotunun Maliyyə Hesabatının Beynəlxalq Standartlarına uyğun dəyişdirilməsi zəruriliyini və onun yeni konsepsiyasının işlənib hazırlanmasının aktuallığını şərtləndirir. Belə dəyişikliyin əsas məqsədləri dövlət və korporativ

sektor tərəfindən hesabatların tərtibinin MHBS-a tam keçidini təşkil etməkdən, müəssisələrin fəaliyyətinin tam şəffaflığını və beynəlxalq bazara çıxışının asanlaşdırılmasını təmin etməkdən, uçot və audit sferasının inkişafı, həmçinin dövlət tərəfindən müvafiq tənzimləyici funksiyaların həyata keçirilməsi üçün prinsip etibarilə yeni instutisional əsası yaratmaqdan ibarətdir.

Büdcə təşkilatlarında, o cümlədən büdcədənkənar dövlət fondlarında maliyyənin büdcə sistemi haqqında qanunvericiliklə, büdcəyə daxil olan idarə və təşkilatlarda mühasibat uçotu və auditin təşkili üzrə təlimatlarla şərtlənən özünəməxsus xüsusiyyətləri vardır. Büdcəyə əsas fəaliyyəti gəlir və xərclər smetası əsasında büdcə vəsaitləri hesabına tam və qismən maliyyələşən təşkilatlar aid edilir. Deməli, zəruri şərtlər smeta üzrə maliyyələşmə və büdcə təşkilatları üçün nəzərdə tutulan qaydada mühasibat uçotu və hesabatların aparılmasıdır.

Büdcə təşkilatlarında mühasibat uçotu Azərbaycanın uçot sisteminin tərkib hissəsidir. Büdcə təşkilatları üçün informasiya sisteminin kommersiya təşkilatlarında mühasibat uçotunun aparılmasının mövcud qaydasından əhəmiyyətli şəkildə fərqlənməsi ilə şərtlənən xüsusiyyətləri vardır. Büdcə təşkilatlarında mühasibat uçotunun aparılması onlar üçün nəzərdə tutulan xüsusi normativ aktlarla reqlamentləşdirilir. Büdcə təşkilatlarınının təcrübəsində məcburi olan büdcə uçotunun müəyyənləşdirilən reqlamentləri (qayda və göstərişlər) ölkənin Maliyyə Nazirliyi tərəfindən müəyyən edilir.

Yaxşı təşkil edilmiş mühasibat uçotu nəinki gizli ehtiyatları aşkar etməyə, pozulmuş büdcə-maliyyə intizamını, həm də mümkün itkilərin və əsaslandırılmamış xərclərin vaxtında qarşısını almağa və aradan qaldırılmasına imkan verir.

Əhalinin sosial müdafiə sisteminin müasir beynəlxalq təcrübəsi əhalinin sosial təminatının mühüm sahəsi olan sosial sığorta sferasının davamlı və uzunmüddətli inkişafı məsələləsində strateji yanaşmanın tətbiqinin obyektiv zəruriliyini sübut edir. İqtisadiyyatın nisbətən gənc sahəsi olan sosial sığortanın xarici sosial sığorta və təminat sistemi ilə uğurlu rəqabət aparmağa, onu inkişafına və təkmilləşdirilməsinə imkan verən yetəri qədər metodoloji və metodiki təminata malik deyildir. Özünün xüsusi maliyyə və sosial əhəmiyyətliyinə görə sosial müdafiə sistemi dəyişməz şəkildə qala bilməz. O sosial sığorta vəsaitlərinin idarəedilməsinin dövlət və kommersiya funksiyalarını uzlaşdıraraq harmonik inkişaf etməlidir.

Mühasibat uçotunun ənənəvi təcrübəsinin və metodologiyasının beynəlxalq standartlara keçirilməsi zəruriliyi sosial sığorta sistemində, o cümlədən uçot və hesabat sahəsində xeyli problemlər yaratmışdır. Əhalinin sosial müdafiə sisteminin bir çox parametrləri təşkil edilmiş uçotdan birbaşa asılıdır. Bu proseslərin lazımı qədər qiymətləndirilməməsi sosial müdafiənin səviyyəsinin aşağı düşməsinə gətirib çıxarır ki, bu da xüsusilə sosial sığorta sisteminin dövlət tənzimlənməsində özünü kəskin büruzə verir.

Sosial müdafiə sahəsində aparılan maliyyə təsərrüfat əməliyyatlarını Maliyyə Nazirliyinin əmri ilə təsdiq edilmiş büdcə uçotu haqqında təlimatla büdcə idarələrində, dövlət və yerli hakimiyyət orqanlarında, büdcədənkənar dövlət fondlarının idarəedilməsi orqanlarında o cümlədən Dövlət Sosial Müdafiə Fondunda mühasibat uçotunun aparılmasının vahid qaydası müəyyən edilmişdir.

Bazar şəraitində kommersiya və qeyri-kommersiya, o cümlədən büdcə təşkilatlarının maliyyə-təsərrüfat fəaliyyətinin qiymətləndirilməsinin, nəzarətin, səmərəli maliyyə ehtiyatlarının aşkar edilməsinin və digər tədbirlərin ön plana çıxdığının şahidi oluruq. [7, **səh. 47].**

Bu istiqamətdə isə əsas yük audit nəzarəti xidmətinin üzərinə düşür. Audit xidmətinin düzgün qurulmasını şərtləndirən əsas amillərdən biri onun funksiyalarının düzgün müəyyənləşdirilməsindən ibarətdir. Müasir şəraitdə auditin əsas funksiyalarına: informasiya, nəzarət, əks əlaqə, analitik, metodiki, modelləşdirmə, sosial və s. əlavə etmək olar.

Sadalanan funksiyalardan metodiki funksiya mühüm yer tutur. Belə ki, öz tədqiqat predmetinə müxtəlif metodoloji yanaşmalar tətbiq edərək onun hər tərəfli tədqiqində və qiymətləndirilməsində mühüm əhəmiyyət kəsb edir.

Metodoloji planda bir elm kimi auditin inkişafının əsas həlqəsi onun elmi prinsiplərinin məcmusudur. Fikrimizcə, auditin əsas prinsiplərinə onun elmiliyini, əlverişliliyini, həqililiyini (nəticəliliyini), məqsədəmüvafiqliyini, qrafikə uyğun təşkilini, obyektivliyini, sistemliliyini (komp-

leksliliyini), məxfiliyini, çevikliyini (aktivliyini, uyğunluğunu), audit sisteminin qənaətliliyini, audit sisteminin başa düşülən olmasını, sadəliyini, vahid şəkildə olmasını aid etmək olar.

Praktiki fəaliyyət kimi auditin tələblərinə aiddir:

-auditdə ixtisaslaşmanın və fəaliyyət sferasının müəyyən edilməsi,

-auditor yoxlamalarının yüksək peşəkarlıqla aparılması,

-müştərilərin kommersiya fəaliyyətini yaxşılaşdırmaq və auditorların nüfuzunun artmasının təmin edilməsi,

- müştəri dairəsini genişləndirmək və auditor təşkilatlarının gəlirlərinin artırılması,

-auditorların və onların iş yerlərinin hesablama və təşkilati texnika ilə təchiz edilməsi

- auditor təşkilatlarının tam informasiya bazasının təmin edilməsi,

- xidmətlər dairəsinin genişləndirilməsi və auditor firmalarında işə yüksəkixtisaslı auditorları cəlb etmək,

-müştəriləri düşünülmüş şəkildə, ehtiyyatla və diqqətlə seçmək (ehtiyatlılıq, tələbkarlıq, ciddilik bacarığını göstərmək).

Auditora müəyyənləşdirilən tələblər müstəqillik, doğruluq, obyektivlik, peşəkarlıq, səriştəlilik və vicdanlılıq, məxfilik, peşəkar davranışlıq, məsuliyyətlilikdir.

Auditin tələblərinin uğurla yerinə yetirilməsi, onun məqsədinə nail olunması və vəzifələrin həll edilməsi auditin təşkilinin prosedur qaydalarının ardıcıllığına ciddi riayət etmədən mümkün deyildir. Auditin ardıcıllığına aiddir:

-auditin həcmini müəyyən etmək;

-mühasibat uçotu sistemini və daxili nəzarəti qiymətləndirmək;

-auditi planlaşdırmaq;

-auditor dəlillərini toplamaq (əldə etmək);

-auditor sənədləşməsini aparmaq;

-auditor rəyini tərtib etmək;

Praktiki audit nəzəriyyəsinin ümumi sxemi aşağıdakı kimidir (şəkil 1.3.2):

Göründüyü kimi auditor standartlarının işlənib hazırlanmasının əsası yalnız auditin prinsipləri, tələbləri və konsepsiyaları deyil, həm də onun müddəalarıdır (aksiomatik tezisləridir.).

Auditi planlaşdırarkən auditor fəaliyyətnin mühüm ünsürləri, həmçinin auditor riskinin qiymətləndirilməsi metodologiyasını və yoxlamanı aparmaq üçün informasiya bazasını müəyyən etməkdir. [46, səh. 53].



Şəkil 1.3.2.Praktiki audit nəzəriyyəsinin ümumi sxemi

Müasir dövrdə bütün büdcə təşkilatlarının praktiki fəaliyyəti mövcud büdcə qanunvericiliyinə müvafiq olaraq dövrü maliyyə nəzarətinə məruz qalır. Müntəzəm nəzarət həmin təşkilatlarda büdcə vəsaitlərinin hərəkətinin monitorinqini həyata keçirməyə imkan verir. Belə nəzarət nəticəsində maliyyə - təsərrüfat əməliyyatlarının nəticələrinin qiymətləndirilməsinə, mövcud qanunvericilikdən kənarlaşmaların aşkar edilməsinə, mənfi nəticələrin aradan qaldırılması üzrə tədbirlərin görülməsinə nail olunur.

Bu gün büdcə təşkilatlarının maliyyə-təsərrüfat fəaliyyətinə nəzarətin üstünlük təşkil edən forması yoxlama və təftiş şəklində maliyyə nəzarəti mexanizmləridir.

Maliyyə nəzarəti dövlət quruculuğunun ayrılmaz hissəsi, dövlətin idarəedilməsinin mühüm funksiyalarından biridir. Bazar münasibətlərinin inkişaf etdiyi hazırki şəraitdə maliyyə nəzarətinin rolu əhəmiyyətli şəkildə artmışdır. Bir tərəfdən maliyyə nəzarəti maliyyənin idarəedilməsinin həlledici mərhələsində biridir, digər tərəfdən isə onların səmərəli idarəedilməsinin zəruri şərti kimi

çıxış edir. Maliyyə nəzarəti real olaraq maliyyə resurslarının hərəkətinin bütün prosesini əhatə edir. Maliyyə nəzarəti yol verilən pozuntuları aşkar etmək və aradan qaldırmaq məqsədilə nəzarət obyektlərinin büdcə və digər qanunvericiliyin tələblərinə riayət edilməsini yoxlamaq və təhlil etmək yolu ilə həyata keçirilir. Maliyyə nəzarəti müstəqillik, obyektivlik, etibarlılıq, şəffaflıq, səriştəlilik, aşkarlıq kimi prinsiplərə əsaslanır. Maliyyə nəzarətinə vahid tələblər dövlət maliyyə nəzarəti standartları ilə müəyyən edilir. Maliyyə nəzarətinin obyektləri və prosedurları çoxsaylıdır və predmeti çoxşaxəlidir. Deməli, maliyyə nəzarəti dedikdə dövlətin və onun vətəndaşlarının maliyyə maraqlarının təmin edilməsi baxımından xüsusi səlahiyyətli orqanların büdcə prosesi iştirakçılarının qanunvericiliyin tələblərinə riayət etmələrinə nəzarət üzrə həyata keçirdikləri tədbirlər prosesidir.

Maliyyə hesabatının bir çox istifadəçiləri auditlə (auditing) mühasibat uçotunu (accounting) qarışdırılar. Bu əksər hallarda auditin mühasibat informasiyası ilə bağlı olmasından qaynaqlanır və bir çox auditorlar mühasibat işlərində olduqca səriştəlidir. Mühasibat uçotu-qərar qəbul etmək üçün informasiyanı hazırlamaq məqsədi ilə daxili qanunauyğunluğun (məntiqin) köməyi ilə iqtisadi hadisələrin qeydiyyatı, təsnifatlaşdırılması və yekunlaşdırılması prosesidir. Konkret iqtisadi vəziyyət və bütövlükdə cəmiyyət üçün mühasibat uçotunun vəzifəsi rəhbərliyi və digər şəxsi qərar qəbul etmək üçün istifadə edəcəyi kəmiyyət informasiyasının müəyyən tipi ilə təmin etməkdir. Bu vəzifəni yerinə yetirmək üçün mühasib mühasibat informasiyasının hazırlanmasının əsasını təşkil edən qayda və prinsipləri yaxşı başa düşməlidir. Eyni zamanda mühasib iqtisadi hadisələrin qəbul oluna bilən dəyərlə vaxtında hesablandığının təminat sistemini yaratmalıdır.

Mühasibat məlumatlarının auditi qeyd edilən informasiyanın yoxlanılan dövrdə iqtisadi hadisələri düzgün əks etdirdiyini müəyyən edir. Çünki, mühasibat qaydası mühasibat informasiyasının düzgün formalaşdırıldığının qiymətləndirilməsi üçün kriteriyadır. Bu informasiya ilə məşğul olan istənilən auditor bu qaydanı yaxşı başa düşməlidir. Audit baxımından maliyyə hesabatı ümumi qəbul edilmiş mühasibat prinsipidir. Auditor nəinki mühasibat uçotunu başa düşməli, eyni zamanda auditor dəlillərinin toplanması və izahında səriştəli olmalıdır.

Müasir dövrdə büdcə uçotunun əsas vəzifələri aşağıdakılardır:

-büdcənin icrası haqqında tam və etibarlı informasiyanı formalaşdırmaq;

-büdcə vəsaitlərindən istifadə edilməsi üzrə qanunvericiliyə riayət edilməsi üzərində nəzarəti təmin etmək;

-müvafiq səviyyələrdə hakimiyyətin sərəncamverici və icraedici orqanları üçün zəruri hesabatların tərtibini təmin etmək;

-digər daxili və xarici istifadəçiləri zəruri informasiya ilə təmin etmək.

Praktiki olaraq büdcə təşkilatlarının maliyyə-təsərrüfat fəaliyyəti üzərində nəzarət yalnız büdcə vəsaitlərindən məqsədsiz istifadə faktlarını müəyyən etmək deyil, onlardan səmərəli istifadə edilməsi, risklərdən adekvat müdafiə və s. haqqında suallara da cavab verməlidir. Deməli, müasir dövrdə büdcə təşkilatlarının, o cümlədən büdcədənkənar dövlət fondlarının maliyyə axınlarının idarəedilməsi səmərəliliyinin yüksəldilməsi, xarici mühit amillərinin təsiri nəticəsində ortaya çıxa biləcək risklərdən müdafiəsi aktual məsələlərdən biridir. Deməli, dövlət maliyyəsinin, o cümlədən büdcədənkənar dövlət fondlarının vəsaitlərinin düzgün idarəedilməsi adekvat audit sisteminin, həmin vəsaitlərdən istifadənin məqsədyönlülüyünün və səmərəliyinin yoxlanılmasının mükəmməl mexanizminin formalaşdırılmasını zəruri edir.

Nəticə

Ümumiyyətlə büdcə təşkilatları büdcə vəsaitlərindən ilin əvvəlində təsdiq olunan gəlir və xərclərin smetasına uyğun olaraq istifadə edir. Həmin smetanın təsdiq olunması büdcə planlaşdırılmasının səmərəliliyini və ayrılmış vəsaitlərin təyinatı üzrə xərclənməsinə xidmət edir. Gəlir və xərclərin smetasında büdcə idarələrinin həm büdcədən və büdcədənkənar fondlardan, həm də sahibkarlıq fəaliyyətinin (pullu xidmətlərin göstərilməsindən, operativ idarəedilmə hüququ büdcə idarələrinə təhkim edilən dövlət və bələdiyyə mülkiyyətinin istifadəsindən və digər fəaliyyətdən əldə edilən gəlirlər) həyata keçirilməsindən əldə etdiyi bütün gəlirlər əks etdirilməlidir.

Beləliklə, büdcədən maliyyələşən bütün təşkilatların, o cümlədən Dövlət Sosial Müdafiə Fondunun də dayanıqlı inkişafı məhz toplanan sığorta haqlarının və büdcədən ayrılan vəsaitlərin təyinatı üzrə, kənarlaşmalar olmadan, israfçılığa yol vermədən smetaya uyğun xərclənməsi üzərində

nəzarətdən keçir. Həmin nəzarət həm büdcə təşkilatlarının tabe olduqları Mərkəzi İcra Hakimiyyəti orqanlarının tabeliyindəki audit qurumları, həm də kənar maliyyə nəzarəti orqanlarının həyata keçirdiyi yoxlamalar vasitəsi ilə həyata keçirilir. Qeyd olunan yoxlamalarda məqsəd təkcə kənarlaşamaların, vəsaitlərin təyinatı üzrə xərclənməməsinin müəyyənləşdirilməsindən ibarət deyil. Belə ki, həmin yoxlamalar zamanı əlavə resursların aşkara çıxarılması, səmərəli təkliflərin verilməsi halları da ola bilər.

Beləliklə bütün qeyd olunan məsələlər büdcə və büdcədən kənar fondların vəsaitlərinin təyinatı üzrə xərclənməsinin təmin edilməsindən, vətəndaşlara ayrılan vəsaitlərin təyinatı üzrə çatdırılmasından, onlardan toplanan sığorta haqlarının və digər ödəmələrin aidiyyəti üzrə qeydiyyatlarının aparılmasından, bununla da əhalinin sosial problemlərinə vaxtında və operativ müdaxilə edilərək həll edilməsindən ibarətdir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası, 12 noyabr 1995-ci il
2. Azərbaycan Respublikasının "Büdcə sistemi haqqında" Qanunu, 2 iyul, 2002-ci il
3. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi, 6 dekabr, 2016, 947 s
4. "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə dövlət proqrami, 26 sentyabr 2018-ci il, 83 s
5. "Auditor xidməti haqqında", Azərbaycan Respublikasının qanunu, 16 sentyabr 1994-cü il
6. "Mühasibat uçotu" haqqında Azərbaycan Respublikasının qanunu, 29 iyun-2004-cü il
7. Алборова Р. А., Светлана М. К. Проблемы развития методологии, метода и методики аудита, Международный бухгалтерский учет, №36, Издательский дом финансы и кредит, 2015, стр. 47–60

Summary

The article highlights the importance of social insurance revenues. The need to spend funds as intended is noted. These processes are regulated by audit control. In the process of control, the activities of all objects of management are observed and inspected, the reasons for deviations from the goals set for specific objects are identified and measures are taken to eliminate them promptly. The purpose of audit control is to identify deviations, make effective recommendations and conduct an assessment. All these processes are carried out through the theoretical and methodological aspects of the audit.

ИСЛАМСКИЕ ФИНАНСОВЫЕ МЕХАНИЗМЫ, ВЛИЯЮЩИЕ НА РАЗВИТИЕ МАЛОГО И СРЕДНЕГО БИЗНЕСА

Алескерова Н.М. докторант
Научно-исследовательский институт экономических реформ
Минэкономики
elm@amea-iqtisadiyyat.org

На экономическое развитие страны влияет множество факторов, одним из которых является развитие малого и среднего бизнеса (МСБ). Во многих странах МСБ рассматривается как ключевой субъект, как в национальном, так и в региональном развитии. Развитие малых и средних предприятий ведет к диверсификации экономики, повышению конкурентоспособности, занятости, удовлетворению спроса на потребительские товары за счет местных ресурсов и, как следствие, обеспечению экономического развития. [1]

Известно, что одна из основных проблем в развитии МСБ - это финансовая проблема. Процентные ставки и условия, требуемые в традиционных коммерческих банках, затрудняют, а иногда и недоступны для МСБ. В исламской финансовой системе доход должен быть получен в результате установленной деятельности. Любой гарантированный,

безрисковый доход считается ростовщичеством, что запрещено законами шариата.[2] Потому что исламская финансовая система является социально ориентированной этической системой, основанной на принципах справедливости, честности и разделения рисков между сторонами. Основная цель этой системы - найти альтернативные способы финансирования под проценты. На самом деле эта система не противоречит принципам рыночной экономики, и хотя они отказываются от процентов, их главная цель также получение прибыли. Принцип работы исламских финансовых институтов основан на партнерстве и разделении рисков. Другими словами, эта система является доказательством того, что банк может получать доход, участвуя в проектах без получения процентов.

Также известно, что любая коммерческая деятельность сопряжена с определенным риском, и иногда эта деятельность может привести к убыткам. В этом случае положение предприятий, которые берут процентные ссуды в коммерческих банках, будет еще хуже. А исламские банки, поддерживают предпринимателей, разделяя не только их прибыль, но и их убытки в соответствии с используемыми финансовыми инструментами.

Исламские финансовые учреждения разработали ряд финансовых инструментов в соответствии с законами шариата. Наиболее часто используемые из этих инструментов:

➢ Финансирование на основе активов - мурабаха, аренда, салям, таварук и т. д. Хотя каждый инструмент в этой группе имеет свои особенности, в целом можно сказать, что это финансирование - это покупка любого актива банком или финансовым учреждением и продажа клиенту с отсрочкой платежа при определенных условиях.

➢ Финансирование на основе партнерства - мудараба и мушарака. Эти инструменты представляют собой вид финансирования, основанный на сотрудничестве двух или более сторон, и используются для финансирования инвестиционных проектов. Кроме того, прибыли и убытки от хозяйственной деятельности распределяются между сторонами в заранее согласованной пропорции. [3]

Посредством этих инструментов и услуг исламская финансовая система поддерживает бизнес, предпринимательство, производственную деятельность и создает условия для улучшения благосостояния каждого человека в обществе. Таким образом, с помощью инструментов «мудараба» и «мушарака» исламские финансовые учреждения могут предоставлять ссуды проектам с высоким или низким доходом или стартапам в долгосрочной перспективе. Это, в свою очередь, будет способствовать экономическому прогрессу и росту. [4]

Конечно, эти процессы, особенно инструменты долгосрочного финансирования, представляют большой риск. В отличие от коммерческих банков, согласно законам шариата, исламские банки не могут полагаться на фиксированный доход или «передавать» риски клиенту. Поэтому при финансировании любого проекта финансовые институты серьезно изучают его и стараются минимизировать риск. Также одним из главных условий является соответствие финансируемого направления деятельности принципам шариата. Однако следует отметить, что, хотя исламская банковская система в настоящее время развивается во многих странах, все еще существует ряд проблем в применении исламских финансовых инструментов. Например, незнание людей, неполное развитие этой системы во многих странах, отсутствие нормативно-правовой базы и стандартов, налоговые вопросы и т. д. [3]

Согласно отчету Индустрии Исламских Финансовых Услуг (IFSI), объем мировых исламских финансов в 2019 году оценивается в 2438,6 миллиарда долларов. Из них 72,4% или 1 765,8 млрд долларов пришлось на исламские банки. Более подробная информация представлена в таблице:

Исламские финансы	Миллиарды долларов США	Доля в общих финансах,%
Банковские активы	1,765.8	72.4
Sukuk	543.4	22.3
Активы исламских фондов	102.3	4.2
Takaful	27.07	1.1

Источник: Отчет IFSI о стабильности за 2020 год. Данные за 2019 год.

Во всем мире исламские банки и исламские окна в основном ориентированы на оптовые и розничные продажи и финансирование различных секторов домашнего хозяйства. По показателям 2019 года 27% от общего объема финансирования было потрачено на оптовую и розничную торговлю, 26% - на финансирование домашнего хозяйства. Более подробно на следующей диаграмме:



Источник: Отчет IFSI о стабильности за 2020 год.

Результат.

Таким образом, малые и средние предприятия, являясь движущей силой экономики, играют важную роль в создании новых рабочих мест и генерировании национального дохода. Однако эти предприятия нуждаются в финансовой поддержке для развития своей деятельности. Особенно остро эта проблема стоит для начинающих предпринимателей. Многие финансовые учреждения из-за неопытности, низкой платежеспособности, невежества и ряда других причин не заинтересованы в кредитовании таких предпринимателей. В этом отношении исламские финансовые инструменты могут играть важную роль в качестве альтернативного источника финансирования. С другой стороны, многие мусульмане с точки зрения процентных ставок не пользуются услугами традиционных банков. Применение исламской финансовой системы означает, что мусульмане будут доверять свои средства, которые они держат «под подушкой» дома, банкам работающим в соответствии с нормами шариата. А это означает, что эти средства будут введены в обращение.

Однако, как мы уже отмечали, у этой системы тоже есть свои условия применения и проблемы. Чтобы повысить эффективность исламских финансов, в первую очередь необходимо решить эти проблемы.

Литература:

1. Стратегическая дорожная карта по производству товаров народного потребления на уровне малых и средних предприятий Азербайджанской Республики.

2. Исламские финансы и банковская система (философия, принципы и практика), Линова-Медиа, Казань 2012

3. Серия рабочих документов ADBI «Использование исламского банкинга и финансов для малого бизнеса: изучение концептуального и практического измерения», 2020 г.

4. Беджо Сантосо «Роль микро-, малых и средних предприятий в достижении целей устойчивого развития через исламские финансовые институты», 2019 г.

İQTİSADİ TƏHLİLİN - AUDİTLƏ ƏLAQƏSİ

Səadət Quliyeva i.ü.f.d., AƏSMA
13sada@mail.ru

Xülasə

Ölkə iqtisadiyyatının bazar münasibətlərinə uyğun inkişaf etməsi, müxtəlif təşkilati-hüquqi formalı təsərrüfat subyektlərinin yaranması, yeni təsərrüfatçılıq və idarəetmə sistemlərinin formalaşması, milli iqtisadiyyatın dünya təsərrüfat sisteminə inteqrasiyası Azərbaycanda da sivil idarəetmə nəzarət formalarının istifadəsini tələb edir.

Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasının dərinləşməsi auditin aparılmasının vahid sistemini işləyib hazırlamağa gətirib çıxarmışdır. Bu mənada inkişaf etmiş xarici ölkələrdə və MDB ölkələrində audit standartlarının işlənib hazırlanması sahəsində toplanmış təcrübənin öyrənilməsi və tətbiqinin böyük əhəmiyyəti vardır.

Audit iqtisadi-hüquqi nəzarətin daha yüksək pilləsidir. Onun vəzifəsi iqtisadi münasibətləri qeyri-əsassız müdaxilədən qorumaq, həm də iqtisadiyyat sahəsində hüquq pozuntularının qarşısını almaq və ictimai hüquq şüurunu daha yüksək səviyyədə formalaşdırmaqdır.

İqtisadi təhlildə müəyyən informasiya mənbələrindən istifadə olunur. Bu informasiyaların çox hissəsi mühasibat uçotu və hesabatlarda öz əksini tapır. Deməli, təsərrüfat fəaliyyətinin təhlili mühasibat uçotu ilə əlaqəli surətdə fəaliyyət göstərir.

Müəssisə, idarə və təşkilatların işini xarakterizə edən mühüm iqtisadi göstəricilər statistik hesabatlarda verilir. Bu hesabatlar iqtisadi təhlilin köməyi ilə öyrənilir, təhlil edilir. Deməli, iqtisadi təhlil statistika elmi ilə də qarşılıqlı surətdə fəaliyyət göstərir.

İqtisadi təhlil elmi cəhətdən əsaslandırılmış planlaşmanın, tənzimləmənin və idarəetmənin tərkib hissələrindən biridir. Müasir şəraitdə həmin elmlərin rolu və əhəmiyyəti heç də azalmır, əksinə yüksəlir, istehsalın inkişafına və nəticələrinə təsiri daha da genişlənir.

Xalq təsərrüfatının ayrı-ayrı sahələrində əməyin, istehsalın, texnoloji proseslərin təşkili iqtisadiyyatı və planlaşdırılmasının özünəməxsus xarakterik xüsusiyyətləri vardır. Bu xarakterik xüsusiyyətləri bilmədən bu və ya digər sahənin, müəssisə, idarə və təşkilatların fəaliyyətini ətraflı və dürüst öyrənmək mümkün olmur. Deməli, iqtisadi təhlil ayrı-ayrı sahələrin iqtisadiyyatı ilə də qarşılıqlı surətdə fəaliyyət göstərir.

İstehsalın inkişaf tempinin daim artırılması zəruriliyi və idarəetmənin mürəkkəbləşdiyi indiki şəraitdə iqtisadi təhlilin dərinləşdirilməsi və təhlilin nəticələrinin düzgün hesablanması çoxlu miqdarda və mürəkkəb hesablamaların aparılmasını tələb edir. İqtisadi təhlil riyaziyyat, riyazi proqramlaşdırma, iqtisadi məlumatların mexaniki üsulla işlənilməsi və digər elmlərlə qarşılıqlı surətdə fəaliyyət göstərir.

Müasir şəraitdə inkişaf edən audit postsovet məkanında tamamilə istifadə olunmayan adi iqtisadi termin idi. Nəzəri kökləri, dərinlikləri, təsərrüfat kateqoriyalarının əlaqələrini nəzərə almadan demək olar ki, sovet dövründə istehsal, bölgü, tədavül və istehlak prosesləri vahid əldə birləşdirildiyi üçün praktiki cəhətdən auditə bir o qədərdə ehtiyac yox idi.

Bu gün isə auditə - xüsusi mülkiyyətin, sahibkarlığın, bazar iqtisadiyyatının <<məhsulu>> kimi yanaşmaq və onlarla əlaqəda olan elmi bir sahə kimi öyrənilməsi daha məqsədəuyğun olar.

Ölkəmizdə bazar münasibətlərinə keçidlə əlaqədar audit yeni bir elmi bilik kimi XX əsrin sonunda fəaliyyətə başlamışdır.

Son illərdə nəşr edilmiş bir çox iqtisadi ədəbiyyatlarda auditin mahiyyətinə, yoxlama təftiş və ya təsərrüfat fəaliyyətinin təhlili kimi baxılır. Dünya ölkələrində nəşr edilmiş iqtisadi ədəbiyyatlarda isə bu məsələ daha da dəqiqləşdirilərək haqlı olaraq qeyd edilir ki, audit dedikdə kompleks iqtisadi təhlil başa düşülməlidir.

Audit fəaliyyəti – auditorun və audit firmasının fəaliyyətidir. İdarəetmə, maliyyə və vergi hesabat məlumatlarının düzgünlüyünə nəzarətin təminatıdır. Auditor-mahiyyətinə, sənədlərin yoxlanmasına, yoxlananlarla qarşılıqlı münasibətinə gəldiyi nəticəyə görə təftişdən fərqlənir. Auditor anlayışı təftişçi və nəzarətçi anlayışlarından qat-qat genişdir.

Audit nəinki maliyyə göstəricilərinin düzgünlüyünü yoxlamaqla kifayətlənir, eyni zamanda mənfəətin artırılması üçün məsrəflərin səmərəliliyinin yüksəldilməsi üzrə təkliflər paketi hazırlayır. Audit üzrə məşhur amerikan iqtisadçısı Dr.Robertsonun fikrincə audit – planlaşdırılmış tədbirin riskinin azaldılması, yumşaldılmasına yönəldilən tədbirdir, maliyyə hesabatlarından istifadə edənlərin məlumat risklərinin səviyyəsini minimuma endirməyə imkan verir [1].

Audit məhkəmə - mühasibat ekspertizasından fərqlənir, audit heç kimdən asılı olmayan yoxlama olduğu halda məhkəmə - mühasibat ekspertizası məhkəmə orqanlarının qərarı ilə həyata keçirilir. Məhkəmə - mühasibat ekspertizası hər hansı bir cinayət işini mühasibat uçotunun məlumatları əsasında ekspert yolu ilə hüquqi qaydada sübuta yetirir. Audit cinayət və arbitrajlıq işinin olduğu və olmadığı hallarda da fəaliyyət göstərir [2]. Məhkəmə - mühasibat ekspertizası isə cinayət və arbitraj işi olmadan həyata keçirilə bilməz.

Auditin iqtisadi təhlilə nisbətən mühasibat uçotuna daha yaxın olması fikrini irəli sürən iqtisadçılarlada razılaşmaq olmaz. Məlumdur ki, mühasibat uçotu – istehsal prosesində müəssisənin, birliyin, idarənin, təşkilatın vəsaitlərinin vəziyyətini və istifadə olunmasını sənədlərdə əks etdirməklə məşğuldur. Audit dedikdə müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanması və bu barədə rəyin ifadə edilməsi başa düşülür. Auditin əsas məqsədi müəssisənin maliyyə hesabatının düzgün olduğunu və müəssisə tərəfindən təsərrüfat hüququna dair müəyyən qanunlara və normalara, vergi qanunvericiliyinə necə riayət olunduğuna nəzarət etməkdir. Audit mühasibat uçotunun qeydə aldığı təsərrüfat-maliyyə fəaliyyətinin əməliyyatlarını, onların düzgünlüyünü yoxlayır və məqsədinə uyğun nəticə çıxardır.

İnkişaf etmiş qərb ölkələrinin əksər iqtisadçıları audit dedikdə kompleks iqtisadi təhlil başa düşürlər. Ümumiyyətlə bir çox alimlər bu sahədə araşdırma aparan tədqiqatçıları müayinəçi həkimlərlə müqayisə edib eyniləşdirirlər, daha doğrusu həyata keçirdikləri funksiyalara görə bərabər tuturlar [3].

İqtisadçı-tədqiqatçılar bütün cəmiyyətin, bir dövlətin, ölkənin, mənsubiyyət xüsusiyyətindən asılı olmayaraq hər bir təsərrüfatın, müəssisənin, idarənin, təşkilatın nailiyyətlərinin, çatışmamazlıqlarının və ehtiyatlarının səbəblərini, mənbələrini subyektləri idarə edənlərdən soruşmadan onlardan daha yaxşı bilir və subyektlərin hər biri üzrə əməli təkliflər və tövsiyələr hazırlayır.

Ölkənin inkişaf tempi çox yüksək və iqtisadi vəziyyəti yaxşı olduqda da iqtisadçı-tədqiqatçılar narahatlıq keçirir. İnkişaf tempinin, əhalinin yaşayış səviyyəsinə mənfi təsir göstərmədən tənzimlənməsi və ölkənin, əhalinin iqtisadi vəziyyətinin daha da yaxşılaşdırılması üçün tədbirlər planının hazırlanması üzərində düşünür.

Ölkənin inkişaf tempi aşağı və əhalinin iqtisadi vəziyyəti pis olduqda iqtisadçı-tədqiqatçılar daha çox narahatlıq keçirirlər. Ölkənin inkişaf tempinin yüksəldilməsi və əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılması yollarının axtarılmasına gərgin əmək sərf edərək kompleks təkliflər planı hazırlamaqla məşğul olurlar. Bununlada cəmiyyəti, ölkəni, ayrılıqda götürülmüş hər hansı bir təsərrüfat subyektinin böhranlı vəziyyətdən çıxarır və həyatın inkişaf relsi üzərinə yönəldirlər.

Əlbətdə burada söhbət öz ixtisasının sahibi olan yüksək nəzəri biliyə, həyati təcrübəyə malik, cəmiyyətin, ölkənin, xalqın işini öz şəxsi işindən üstün tutan iqtisadçı-tədqiqatçılardan gedir. Ümumiyyətlə həqiqi mənada iqtisadçılar həyatda gördükləri hər bir şeyi dərk etməyi və onun haqqında mülahizələr yürütməyi bacarmalıdırlar.

Göründüyü kimi, iqtisadçılar müayinəçi həkimlər kimi tək-tək fərdləri deyil bütün cəmiyyəti müayinə edir və onun nasazlıqlarını aradan qaldırmağa çalışırlar.

İqtisadi ədəbiyyatlarla tanışlıqda məlum olur ki, daxili inkişaf istiqamətinə və tələbata uyğun olaraq auditin yayıldığı ölkələrdə ona müxtəlif mənalar verilir. Misal üçün, İngiltərədə audit dedikdə müstəqil (heç bir yuxarı təşkilatdan asılı olmayan) yoxlama və müəssisənin maliyyə hesabatı haqqında anlayış-məlumat başa düşülür. Bu halda audit kompaniyası ilə dövlət müəssisələrinin və yerli orqanların auditləri arasındakı fərq nəzərə alınmır.

ABŞ-da audit dedikdə - iqtisadi fəaliyyət və hadisələr haqqında sistemli şəkildə məlumatların düzgün qiymətləndirilməsi başa düşülür. Bunlar məhsul istehsalı və satışı, yerinə yetirilmiş iş və xidmətlər haqda mühasibat uçotunun, təsərrüfat obyektlərinin mühasibat və maliyyə hesabatlarının

düzgünlüyünü, həqiqəti əks etdirməkdən ibarətdir. Amerika mütəxəssislərinin fikrincə audit-iqtisadi obyektin fəaliyyəti və yerləşməsi haqda məlumatın toplanması və qiymətləndirilməsidir. Audit heç bir təşkilatdan asılı olmayan hazırlıqlı mütəxəssis tərəfindən həyata keçirilir, o müəyyən olunmuş meyara uyğun işin keyfiyyəti haqda rəy verir. Audit dedikdə müstəqil yoxlama və müəssisənin maliyyə hesabatı haqda fikir söylənməsi başa düşülür. Auditin əsas məqsədi kompaniya və firmaların maliyyə hesabatlarının düzgünlüyü və qanuniliyini müəyyən etməklə, kompaniya və verginin müəyyən olunmuş qanunlarına, təsərrüfatın hüquqi normalarına riayət olunduğunu müəyyən etməkdən ibarətdir.

Audit sərbəst məşğuliyyət növü kimi Avropanın aksioner kompaniyalarında dörd əsr bundan əvvəl meydana gəlməyə başlamışdır. Bu aksionerlərin, kreditorların və vergi xidmətçilərinin müəssisənin maliyyə vəziyyətinin düzgün qiymət verə bilən, heç kimdən asılı olmayan, müstəqil ixtisas sahibi – üçüncü tərəfə ehtiyacın yaranmasından irəli gəlmişdir.

Müxtəlif ölkələrdə auditin hüquqi təminatı fərqli olmuşdur. Məsələn, İngiltərədə hüquqi məcburiliyi haqda qanun 1862-ci, Fransda 1967-ci, ABŞ-da 1937-ci ildə qüvvəyə minmişdir. Hazırda dünyanın bütün ölkələrində özünün hüquqi və təşkilati infrastrukturu olan ictimai audit institutları fəaliyyət göstərir. Dünya təcrübəsində audit bazar iqtisadiyyatının ayrılmaz hissəsidir və çox müxtəlif, mürəkkəb təşkilati formalara malikdir.

Respublikamızda audit xidməti və müvafiq infrastrukturlar son dövrlərdə inkişaf etməyə başlanmışdır. Auditin ilk dalğası 80-ci illərin axırlarında müşahidə edilirdi. Həmin illərdə keçmiş sovet qanunvericiliyi əsasında müştərək müəssisələrdə audit faliyyəti ilə məşğul olan strukturlar yaratmaq nəzərdə tutulurdu. Lakin, auditin qanunvericilik bazası 1991-ci il sentyabrın 16-da Respublikanın Milli Məclisinin 883 saylı qərarına əsasən <<Auditor xidməti haqqında>> Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindi. Daha sonra bir sıra başqa qanunvericilik sənədləri qəbul edildi. Bununlada audit öz funksiyasını yerinə yetirməyə başladı.

Azərbaycan Respublikası Milli Məclisi 1994-cü ilin sentyabrın 19-a <<Azərbaycan Respublikasında Auditorlar Palatası haqqında >> əsasnamənin təsdiq edilməsi barədə qərar qəbul etdi. Həmin qərara əsasən, Azərbaycan Respublikasının Auditorlar Palatasının xalq təsərrüfatının bütün sahələrində auditor fəaliyyətini tənzimləyən əsas orqan funksiyaları həvalə edilmişdir. 1995-ci ilin noyabrın 1-dək respublikada fəaliyyət göstərən auditorlar və audit təşkilatları Auditorlar palatasında qeydiyyatdan keçmişlər. Auditorlar palatasına fəaliyyətin bütün növünü lisenziyalaşdırmaq vəzifələri həvalə edilmişdir [4].

Müasir dövrdə audit yoxlamalarının aparılmasının araşdırılması və sadələşdirilməsi işində mühüm vasitələrindən biri uçotun aparılması və hesabatların tərtibinin vahid formada həyata keçirilməsidir. Uçot və hesabatın eyniliyi bütün mülkiyyət formalarına mənsub olan subyektlərin təsərrüfat-maliyyə fəaliyyətinin yoxlanmasında (auditində) iqtisadi təhlilin bütün üsulları və növlərindən istifadə edilməsinə geniş imkan yaradır. Elə buna görə də auditor həm yüksək ixtisaslı mühasib və həm də təhlilçi olmalıdır. Mühasib kimi uçotun düzgünlüyünü müəyyən etməli, təhlilçi kimi nailiyyətlərin daha da yüksəldilməsi, nöqsan və çatışmamazlıqların müəyyən edilərək aradan qaldırılması, ehtiyat və imkanların səfərbər edilməsi haqqında əsaslandırılmış təkliflər hazırlamalıdır.

Audit xidmətinin ən vacib vəzifələrindən biri biznes planının əsaslılığını, obyektivliyini və optimallığını yoxlamaqdan ibarətdir. Biznes – plansız heç bir subyekt təsərrüfat maliyyə fəaliyyətini həyata keçirə bilməz.

Maliyyə sisteminin sabitləşdirilməsi, dövlət büdcəsinin ardıcıl olaraq gəlirlə təmin edilməsi, fiziki və hüquqi şəxslərin dövlət qarşısında öz öhdəliklərini tam yerinə yetirməsi üçün vergi intizamının gözlənilməsi tələbləri maliyyə intizamının yeni bir istiqamətinin – vergi auditinin meydana çıxmasını zəruriyyətə çevirir. Vergi auditinin mahiyyətinə - iqtisadiyyatın dövlət tərəfindən idarə olunması funksiyası (elementi) və vergi qanunvericiliyinin icra edilməsi üzrə xüsusi fəaliyyət kimi baxılmalıdır.

Vergi orqanlarının fəaliyyətinin bu istiqamətlərinin vacibliyi vergi auditinin mahiyyətini yalnız qanunçuluğun gözlənilməsi ilə məhdudlaşdırmağa əsas vermir, çünki bu halda onun fəal iqtisadi təsir imkanları çox məhdud bir şəkil alır. Vergi orqanları öz fəaliyyətlərində passiv müşahidəçi

rolunu oynaya bilməzlər. Ona görə ki, vergi auditi prosesində, təsərrüfat-maliyyə fəaliyyətinin miqdar göstəriciləri ilə yanaşı, həm də bu fəaliyyətin qanunauyğunluğu, keyfiyyəti və həcmi, iqtisadiyyatın vergi potensialının artırılmasının əsas istinad nöqtəsi kimi tədiyyəçinin maliyyə vəziyyəti qiymətləndirilir.

Nəticə

Bütün yuxarıda qeyd olunanları nəzərə alaraq belə nəticəyə gəlmək olar: auditin yekun məqsədi subyektlərin maliyyə vəziyyətini, maliyyə sabitliyini və maliyyə göstəricilərini təhlil etməkdən ibarətdir.

Audit firmasının balansın likvidliyini təhlil etməsi də onun əsas vəzifələrindəndir. Bu hal subyekt müflisləşdikdə, iflasa uğrama həddinə çatdıqda həyata keçirilir. Bu halda audit firması subyektin balansını və əmlak qalığını təhlil edərək onun – aksionda satılması və ya istifadə üçün banka verilməsi haqda təkliflər verir.

Hazırda respublikamızda auditorların – ali maliyyə nəzarət orqanları, vergi müfəttişliyi, təsərrüfatdaxili və müstəqil audit formaları fəaliyyət göstərir. Auditorların hər bir forması (tipi) özünə məxsus funksiyaları iqtisadi təlilin bütün üsulları, növləri və tədqiqat metodlarını tətbiq etməklə həyata keçirir.

İstifadə edilmiş ədəbiyyat:

1. Робертсон Д.Ж “Краткое руковосмво по станжартам и нормам аудита” М.Финансы и статистика 2012.
2. Стоянов Е.А “Аужит Стоянова Е.С экспертная диагностика” М.Финансы и статистика 2012.
3. М.И.Баканоб “Теория А.Д.Шереметин экономического анализа” М.2020.
4. “Audit haqqında” Azərbaycan Respublikasının Qanunu

QİYMƏTLİ KAĞIZLARLA ƏMƏLİYYATLARIN ANALİTİK QİYMƏTLƏNDİRİLMƏSİ

Əfsanə Bəbir qızı Quliyeva

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) dissertantı

E-mail: afsana.guliyeva1992@gmail.com

Açar sözlər: qiymətli kağızlar, səhm, investor, maliyyə əmsalları, analitik qiymətləndirmə

Qiymətli kağızların təhlilinin əsas prinsiplərindən biri konkret şirkətin qiymətli kağızları-nın cəlbediciliyi haqda nəticə çıxarmaq üçün müxtəlif şirkətlərin fəaliyyəti nəticələrinin müqayisə edilməsidir. Qiymətli kağızların təhlili qiymətli kağızlar, onları emissiya edən şirkətlər və bazarda vəziyyət haqqında məlumatların toplanmasına istiqamətlənmiş çoxsaylı müxtəlif hərəkətlər kompleksidir. Qiymətli kağızların qiymətləndirilməsi zamanı fundamental və texniki təhlil metodlarından istifadə edilir. Praktikada fundamental təhlilin dəyərliyi əsasən, əsas amillərin davranışının proqnozunun və onların reallıqda davranışının uzlaşdırılmasında mövcud kənarlaşanın müəyyən edilməsində özünü göstərir. Texniki təhlilin müəyyən praktiki əhəmiyyəti həmin hadisələ-rin mümkün inkişaf meylini təsdiq (inkar) edən indikatorların mövcud olması ilə səciyyələnir [1; 2].

Məlumdur ki, qiymətli kağızlarla bağlı investorların məqsəd münasibətdə investorun məqsədi dəyəri nisbətən aşağı olan qiymətli kağızları (bazar tərəfindən dəyərləndirilməmiş) əldə etmək və onların qiyməti yüksəldikdə satmaqdır. Bu aspektdə qiymətli kağızların təhlilinin vəzifəsi onların ədalətli dəyərinin və etibarlıiq dərəcəsinin müəyyən edilməsidir. Təhlilin obyektiv informasiya ilə təmin edilməsi şirkətin fəaliyyətinin səmərəliliyini, onun adi səhmlərinin cəlbediciliyini qiymətlən-dirmək məqsədi ilə aşağıdakı aparıcı maliyyə əmsallarını hesablamaq və analitik qiymətləndirmək məqsədəuyğundur [4] :

- qrup A (“səhmə düşən kəmiyyət”): səhmə düşən mənfəət, səhmə düşən xalis aktivlərin balans dəyəri və s.

- qrup B (qiymət əmsalları): səhmin mənfəətlə təmin olunması və ya mənfəət multiplikatoru (P/E).

- qrup C (mənfəətlik əmsalları): hesabat dövrü üzrə şirkətin mənfəətliliyi (mənfəətin məcmu aktivlərə nisbəti); kapitalın məhsuldar hissəsinin rentabelliyi (mənfəətin (“həqiqi”) investisiya olunmuş kapitala- kreditor borcları çıxılmaqla material aktivlərə nisbəti); mənfəətin (imtiyazlı səhmlər üzrə öhdəliklər çıxılmaqla xalis mənfəətin korrektə edilmiş məbləğinin) xüsusi kapitala nisbəti. İkinci və üçüncü əmsalın müqayisəsi tədqqiq edilən şirkətin fəaliyyətində maliyyə alətinin səmərəliliyi haqda fikir formalaşdırır.

- qrup D (artım əmsalları): cari ilin pul gəliri, mənfəət, xüsusi kapital və s. ötən ilin müvafiq göstəricilərinə nisbəti. Nəticədə alınmış kəmiyyətlər inflyasiya səviy-yəsinə uyğun olaraq korrektə edilməlidir (məsələn, inflyasiyanın 7% səviyyəsində pul gəlirinin 5% artımı pul gəlirinin 2% azaldığını səciyyələndirir).

- qrup E (stabillik əmsalları): öyrənilən göstəricinin (pul gəliri, mənfəət, xüsusi kapital, rentabellik və s.) 3 illik səviyyəsinin düzülüşü.

- qrup F (divident ödənişi əmsalları): xalis mənfəətin və ya pul axınının hansı hissəsinin divident formasında bölüşdürülməsini və beləliklə də, tədqiq edilən şirkətin divident siyasətini səciyyələndirir.

- qrup G (ödəmə qabiliyyəti əmsalları): bura şirkətin öz öhdəliklərinə xidmət etmək qabiliy-yətini səciyyələndirən likvidlik göstəriciləri, adi səhmlərin təminatlığı əmsalları və bilavasitə öhdəliklərin örtülməsi əmsalları daxildir.

Yuxarıda qeyd edilən əsas göstəricilərə istinadən adi səhmlərin ədalətli dəyəri müəyyən edilir. Vurğulayaq ki, adi səhm sahiblərinin gəliri onu əldə etdiyi müddətdə dividentin məbləğində və kurs fərqindən ibarətdir. Əlbəttə, əgər səhm sahibi onu uzun müddətə saxlayırsa, bu halda, onun dəyəri divident ödənişlərinin diskont axınının cari dəyərinə bərabər olacaqdır ki, bu zaman dəyər şirkətin dividentləri ödəmək qabiliyyəti ilə müəyyən edilir. Qeyd olunanlarla yanaşı, şirkətin gələcəkdə əldə edəcəyi mənfəət dividentləri ödəmə qabiliyyətini müəyyən edən uzunmüddətli amil qismində çıxış edir.. Məsələyə bu prizmadan yanaşaraq belə bir fikir formalaşdırmaq olar ki, qiymətli kağızların qiymətləndirilməsi iki model əsasında aparıla bilər: dividentlərin diskontlaşdı-rılması modeli və mənfəətin kapitallaşdırılması modeli [2; 3].

Birinci modelə əsasən, investorun əldə edəcək gələcək bütün ödəmələrin cari dəyərini hesablamaq üçün analitik dividentlərin gələcək diskontlaşdırmasını aparmalıdır. İkinci modelə əsasən şirkətin gələcəkdə əldə edəcəyi mənfəəti planlaşdırılır və mənfəət multiplikatoru hesablanır, başqa sözlə, qiymətin elə həddi müəyyən edilməlidir ki, həmin qiymətli kağıza görə ödəniləcək qiymət onun dəyərinə müvafiq olsun. Göründüyü kimi, hər iki modeldə şirkətin mənfəət əldə etmək qabiliyyəti (daxili amil) və kapital bazarının vəziyyəti, inflyasiya, bütövlükdə və o cümlədən, konkret sahə üzrə bazarın dinamikası (kənar amillər) əsas götülür. Qeyd olunmalıdır ki, hansı metoddan istifadə olunmasından asılı olmayaraq ötən illərin statistik məlumatlarından istifadə olunduğundan istehsalın strukturunda, satış siyasətində, rəhbərliyin tərkibində dəyişikliklər, eləcə də bəzi xüsusi üstünlüklərin itirilməsi və s. nəzərə alınmalıdır [2; 3].

Müasir dövrdə səhmdar cəmiyyətin maliyyəsinin idarə olunması kontekstində effektiv modellərdən biri xüsusi kapitalın rentabelliyi modelidir. Bu model səhmin dəyəri və xüsusi kapitalın rentabellik səvuyyəsi göstəricilərinin qarşılıqlı təsiri sisteminə əsaslanır. Xüsusi kapitalın rentabelliyinin (ROE) stabilliyi səhmdar cəmiyyətini cəlbediciliyini səciyyələndirir və bu halda onun ədalətli dəyərini (xüsusi kapital ilə xüsusi kapitalın tələb olunan gəlirlik səviyyəsinə nisbətinin hasili) müəyyən etmək mümkündür. Qeyd etmək lazımdır ki, xüsusi kapitalın rentabelliyinin tələb olunan gəlirlikdən, sonuncunun kredit dərəcəsindən aşağı olması şəraitində səhmin səhmin birja qiyməti xüsusi kapitaldan az olduqda şirkət səhmlərini geri satın almalıdır, bu halda dividedlərin ödənilməsi, əlavə səhmlərin yerləşdirilməsi məqsədəuyğun deyildir [4].

Nəzərə alınmalıdır ki, səhmin birja qiyməti xüsusi kapitaldan az olduqda səhmlərin borc vəsaitləri hesabına geri satın alınması sərfəlidir. Əgər bu halda səhmin bazar qiyməti balans onun

qiymətindən yüksək və ya ona bərabər olarsa şirkət üçün səhmlərin geri satın alınması sərfəli, dividendlərin ödənilməsi arzu olunmaz, əlavə səhmlərin yerləşdirilməsi məqsədəuyğun deyildir. Eyni zamanda, xüsusi kapitalın rentabelliyinin tələb olunan gəlirlikdən, sonuncunun kredit dərəcəsindən aşağıdırsa və bu zaman səhmin faktiki qiymətinin xüsusi kapitala nisbəti xüsusi kapitalın rentabelliyinin tələb olunan gəlirliyə nisbətindən böyükdürsə bu halda şirkət üçün səhmlərin geri satın alınması sərfəli deyil, dividentlərin ödənilməsi, əlavə səhmlərin yerləşdirilmə-si mümkün və divident formasında xalis (bölüşdürülməmiş) mənfəətin verilcməsi məqsədəuyğun-dur [4]. Qeyd etmək lazımdır ki, təcrübədə şəraitlə də qarşılaşmaq olar ki, şirkət xüsusi kapitalı müqabilində tələb olunan gəlirlik dərəcəsinə nail olmur, lakin səhminin faktiki qiymətinin xüsusi kapitalın həcminə nisbəti vahiddən böyükdür. Bu halda səhmlərin geri alınmasından imtina edilməlidir, əlavə səhmlərin yerləşdirilməsi və divident ödənişinin həyata keçirilməsi mümkündür.

Ədəbiyyat

1. Бердникова Т.Б. Оценка ценных бумаг. Учебное пособие. – М.: ИНФРА-М. 2010. – 144 с.
2. Дмитриева О.В. Бухгалтерский учет и анализ операций с ценными бумагами: Учебное пособие / О.В. Дмитриева. – М.: Инфра-М, 2018. – 576 с.
3. Сребник Б.В. Рынок ценных бумаг. Учебное пособие. – М.: КноРус. 2016. – 288 с.
4. Котлл С., Мюррей Р., Блок Ф. Анализ ценных бумаг Грема и Додда /пер. с англ.-М.: ЗАО «Олимп-Бизнес», 2000. – с.563-586, 641-646

MÜBADİLƏ KURSUNUN YARATDIĞI RİSKLƏRİN KƏMİYYƏTCƏ QİYMƏTLƏNDİRİLMƏSİ VƏ İDARƏ EDİLMƏSİ METODLARI

Hacıyev Seymur Oktay oğlu
«Azərbaycan» Universitetinin doktorantı

Dünya təsərrüfat sisteminə inteqrasiya edən şirkətlər xarici valyutaların mübadilə kursları haqqında mütəmadi məlumat əldə etməyə çalışırlar. İdxal və ixrac prosesində belə informasiyalar mühüm əhəmiyyət kəsb edir. Tədqiqatlar göstərir ki, xarici valyutaların təsirləri ilə bağlı qərar qəbulu prosesində mübadilə kursunun yaratdığı risklərin idarəedilməsi vacibdir [1]. Valyuta kurslarının dəyişməsinin yarada biləcəyi risklərdən qorunmaq cəhdi şirkətlərin fəaliyyətinə belə risklərinin hansı təsirinin ola biləcəyini araşdırmaqdan keçir [2]. Bəzi tədqiqatçılar, məsələn Papaioannou belə hesab edir ki, valyuta kurslarının yarada biləcəyi risklərin idarəedilməsi problemi tarixən Bretton Vud sisteminin dağılması və ABŞ dollarının qızıl standartının 1973-cü ildə ləğv edilməsi ilə başlıdır [3]. Əsas iqtisadi fəaliyyəti qeyri-maliyyə məsələləri olan şirkətlərdə də xarici valyuta kurslarının yarada biləcəyi risklərin idarə edilməsi mühüm əhəmiyyət daşıyır və bu problem əsas biznesdən tam müstəqil şəkildə analiz olunur. Dünya təsərrüfat sisteminə inteqrasiya edən transmilli şirkətlərdə bu məsələ şirkətin xəzinədarlıq məsələləri ilə məşğul olan bölmələrində diqqət mərkəzində saxlanılır. Bu problemi tədqiq edən bəzi tədqiqatçıların gəldiyi nəticələrə görə, əksər transmilli şirkətlər problemin ciddiliyini nəzərə alaraq, xüsusi komitələr yaradırlar. Bu komitələr şirkətin xəzinədarlığının mübadilə kursları ilə bağlı riskləri nə dərəcədə idarəetməsini və nə dərəcədə səmərəli qərar qəbul etməsi məsələlərini nəzarətdə saxlayırlar [4].

Mübadilə kursunun yaratdığı risk deyəndə xarici valyuta kurslarının dəyişməsinin şirkətin kapitalına, o cümlədən, birbaşa və ya dolayı yolla şirkətin nəgd pul vəsaitlərinə, aktiv və passivlərinə, gəlirlərinə, fond bazarına olan təsirlər nəzərdə tutulur [5]. Belə təsirlərdən qorunmaq üçün transmilli şirkətlər adətən qabaqlayıcı zəruri (*hedging*) tədbirləri həyata keçirməli olurlar. Bəzi transmilli şirkətlərin özləri valyuta bazarlarında müəyyən çəkiyə malik olan şirkətlərdir. Məsələn, Azərbaycanda fəaliyyət göstərən transmilli şirkətlərdən Beynəlxalq Əməliyyat Şirkəti, BTC Co, SOCAR ölkədə mövcud valyuta bazarında müəyyən çəkiyə malikdirlər. Bəzi tədqiqatçılar hsab edir ki, bütün hallarda valyuta mübadiləsi bazarında dəyişikliklər şirkətlərin vəsaitlərinə müəyyən

həcmdə risklər yaradır. Ona görə də şirkətlər belə risklərdən qorunmaq üçün onların qiymətləndirilməsini aparmalıdırlar [613]. Belə qiymətləndirmələr isə mübadilə kurslarının yaratdığı risklərin növlərinin fərqləndirilməsini zəruri edir. Adətən valyuta kurslarının yaratdığı riskləri üç növə ayırırlar [4]:

1)transaksiya riskləri. Bu risklər nəqd pul kütləsinin axınına olan risklərlə bağlıdır. Valyuta kurslarının dəyişməsi nəticəsində ixrac zamanı qəbul ediləsi, ixdal zamanı ödəniləsi vəsaitlərin, həmçinin bir ölkədən digərinə ötürüləsi dividentlərin dəyərində dəyişikliklər yaranır.

2) şirkətin mühasibatlığı ilə bağlı olan risk. Buna həm də translyasiya riskləri deyilir.Əgər müəssisənin vəsaitlərinin müəyyən hissəsi xarici valyutadadırsa, onda kursun dəyişməsi nəticəsində aktiv və passiv hissənin bir birinə uyğun gəlməməsi baş verə bilər. Bu risklərlə daha çox xarici ölkələrdə törəmə şirkətləri olan transmilli şirkətlər qarşılaşır.

3.İqtisadi risk. Bu risk şirkətin yerləşdiyi ölkədə mübadilə kursunun dəyişməsi ilə baş verən iqtisadi dəyişikliklərlə bağlıdır. Belə risklərdən qorunmaq üçün şirkət mütəmadi olaraq idxal və ixrac əməliyyatlarının hesabını aparmalıdır.

Hər bir şirkət üçün onun məruz qala biləcəyi mübadilə kursu riskinin növünün müəyyən edilməsindən sonrakı mərhələ belə risklərin ölçülməsidir. Bəzi tədqiqatşılar, məsələn, G.A.Holton [8], D.R.Van Deventer və digərləri [9], mübadilə kursu risklərinin ölçülməsini, xüsusilə translyasiya və iqtisadi risklərin ölçülməsini çətin proses kimi qiymətləndirirlər. Hazırda bu məqsədlə istifadə edilən ən uğurlu metod VaR (value-at-risk) metodudur. Bu metod şirkətin məruz qala biləcəyi riskin maksimum itkilərinin verilmiş zaman müddətində müəyyən faiz (məsələn α%) etibarlılıqla müəyyən edilməsidir. Bu metoddan digər növ risklərin yarada biləcəyi itkilərin ölçülməsində və risklərin qarşısının alınmasında səmərəli qərar qəbulu üçün də istifadə etmək olar. Lakin nəzərə almaq lazımdır ki, VaR metodundan "ən pis ssenari" üçün, yəni 100- α% etibarlılığı ilə qiymətləndirmə aparmağa imkan vermir.

VaR-ın hesablanması üç parametrdən asılıdır: 1) mübadilə kursunun davamlılıq müddəti. Adətən bu müddət kimi bir gün qəbul edilir; 2)ölçmənin aparılmasının etibarlılıq səviyyəsi. Adətən bu səviyyə 99% və ya 95% qəbul edilir. Şirkət tərəfindən etibarlılıq səviyyəsinin seçilməsi oan görə vacibdir ki, gün ərzində ən pis halda nə qədər itirmək riskinin hansı səviyyədə olduğu məlum olsun; 3)itkilərin növü. Valyuta mübadiləsi risklərinə tətbiq zamanı bu itkilər milli valyuta və ya ABŞ dolları ola bilər.

VaR belə bir sualın cavabını tapmağa imkan verir: valyuta kursunun dəyişməsi zamanı şirkət müəyyən zaman kəsiyində və müəyyən ehtimalla hansı maksimum itkiləri gözləyə bilər. Məsələn, əgər VaR 100$ və ehtimal 99% olarsa, onda demək mümkündür ki, bir gün ərzində 100$ itirilməsi ehtimalı 1% -dir. Həmçinin demək mümkündür ki, bir gün ərzində 100$ -ın 99% ehtimalla itirilməməsi mümkündür.

VaR-ı müəyyən etmək üçün üç metoddan geniş istifadə edilir: tarixi, kovariyasiya və Monte-Karli metodları. VaR-ı müəyyən edilməsi üçün tarixi metodun tətbiqi zamanı 1)müəyyən dövr ərzində şirkətin gəlirləri haqqında məlumatlar toplanır; 2)bu göstəricilər artan sıra ilə düzülür; 3) etibarlılıq səviyyəsini müəyyən edərək "ən pis" variantlar kənara qoyulur.

Əksər hallarda risklər xarici amillərlə bağlı olduğundan onların idarəedilməsi, daha çox, mümkün variantlardan optimal olanının seçilməsi haqqında qərarın qəbulu kimi nəzərdə tutulur. Yəni bazardakı qeyri-müəyyənliyin yaratdığı risklər şirkət qarşısında mümkün variantlardan optimal olanını seçmək kimi vəzifə qoyur. Bu halda optimal variantın seçilməsi üçün "oyun nəzəriyyəsi" metodundan istifadə edilə bilər. Sadə halda iki "oyunçu" - şirkət və ətraf mühit götürülə bilər. Həm də sadəlik üçün şirkətin fəaliyyətində 5 mümkün halın A_i (i=1÷ 5) , ətraf mühitin də 4 mümkün halın OS_j (j=1÷ 4) olduğunu fərz etsək və qəbul edilən qərarın səmərəliliyini e_{ij} kimi ifadə etsək, ödəmə matritsasını aşağıdakı kimi tərtib edə bilərik.

Cədvəl 1.1

	OS_1	OS_2	OS_3	OS_4
A_1	e_{11}	e_{12}	e_{13}	e_{14}
A_2	e_{21}	e_{22}	e_{23}	e_{24}
A_3	e_{31}	e_{32}	e_{33}	e_{34}
A_4	e_{41}	e_{42}	e_{43}	e_{44}
A_5	e_{51}	e_{52}	e_{53}	e_{54}

Burada sütunlar xarici amillərin (idarə olunmayan) mümkün təsirlərini, sətirlər isə idarə olunan amilləri və seçilən strategiyanı (qəbul edilən qərarları) ifadə edir. Sütun və sətirlərin kəsişməsindəki hər bir e_{ij} isə xarici amillərin və şirkətin idarəolunan amillərinin qarşılıqlı təsiri ilə qəbul edilən qərarların nəticəsində gözlənilən nəticəni ifadə edir.

Hər bir hal üçün risk matritsasını R=$\|r_{ij}\|$ kimi, maksimum səmərəli halı isə $\beta_j = \max\limits_{1\le i\le m} e_{ij}$ ifadə etsək, onda

$$r_{ij}=\beta_j - e_{ij}$$

Olar.

Bazarın tam qeyri-müəyyənliyi şəraitində optimallıq meyarları kimi aşağıdakı beş meyardan istifadə edilə bilər:

1. Tam zəmanətli nəticənin əldə edilməsi meyarı. Bu meyar həm də Valdanın *maksimin meyarı [9]* adlanır. Bu meyara əsasən mümkün variantlardan "ən pis" olanı qəbul edilir. Bu, mümkün variantlardan ən zəmanətli variantdır. Sonra isə "ən pis" olanlar arasından maksimum olanı seçilir. Lakin reallıqda şirkət daha yaxşı nəticələr əldə edə bilər. Lakin ən pis halda heç olmazsa bu variantın alınmasına tam zəmanət verilir. Bu meyarın seçilməsini səmərəlilik matritsası vasitəsilə belə göstərmək olar.

Cədvəl 1.2

	OS_1	OS_2	OS_3	OS_4	Min(e_{ij})
A_1	e_{11}	e_{12}	e_{13}	e_{14}	Min(e_{1j})
A_2	e_{21}	e_{22}	e_{23}	e_{24}	Min(e_{2j})
A_3	e_{31}	e_{32}	e_{33}	e_{34}	Min(e_{3j})
A_4	e_{41}	e_{42}	e_{43}	e_{44}	Min(e_{4j})
A_5	e_{51}	e_{52}	e_{53}	e_{54}	Min(e_{5j})

Bu meyara əsasən 6-cı sütundakı minimumlar arasından ən maksimum olan seçilir. Beləliklə, Valda meyarına əsasən səmərəli qərar

$$E= \max_{1\le i\le m} \min_{1\le j\le n} e_{ij}$$

şərtini ödəyən hal qəbul edilir.

2. Optimist meyar (*maksimaks meyarı*). Bu halda mümkün variantlardan ən yaxşısı qəbul edilir. Ən yaxşılar arasından isə maksimum olan seçilir. Yəni

Cədvəl 1.3

	OS_1	OS_2	OS_3	OS_4	Max(e_{ij})
A_1	e_{11}	e_{12}	e_{13}	e_{14}	max(e_{1j})
A_2	e_{21}	e_{22}	e_{23}	e_{24}	Max(e_{2j})
A_3	e_{31}	e_{32}	e_{33}	e_{34}	Max(e_{3j})
A_4	e_{41}	e_{42}	e_{43}	e_{44}	Max(e_{4j})
A_5	e_{51}	e_{52}	e_{53}	e_{54}	Max(e_{5j})

Bu meyara əsasən 6-cı sütundakı maksimumlar arasından ən maksimum olan seçilir və səmərəli qərar kimi qəbul edilir.

$$E= \max_{1\le i\le m} \max_{1\le j\le n} e_{ij}$$

3. Pessimist meyar. Bu meyar mümkün variantlar arasından ən əlverişsizini, ən əlverişsizlər arasından da ən pisini seçməyi nəzərdə tutur. Bu meyara "minimini meyar" kimi də ad vermək olar. Bu halda ödəmə matritsasını cədvəl 1.4-dəki kimi göstərə bilərik.

Cədvəl 1.4.

	OS_1	OS_2	OS_3	OS_4	Min(e_{ij})
A_1	e_{11}	e_{12}	e_{13}	e_{14}	min(e_{1j})
A_2	e_{21}	e_{22}	e_{23}	e_{24}	Min(e_{2j})
A_3	e_{31}	e_{32}	e_{33}	e_{34}	Min(e_{3j})
A_4	e_{41}	e_{42}	e_{43}	e_{44}	Min(e_{4j})
A_5	e_{51}	e_{52}	e_{53}	e_{54}	Min(e_{5j})

Bu meyara əsasən 6-cı sütundakı minimumlar arasından ən minimum olan seçilir və səmərəli qərar kimi qəbul edilir.

$$E= \min_{1\le i\le m} \min_{1\le j\le n} e_{ij}$$

4. *Savage meyarı və ya minimaks risk meyarı*. Bu meyar da qeyri-müəyyənlik şəraitində qərarqəbulu meyarlarından biridir. Əvvəlki üç meyarın tətbiq olunduğu qeyri-müəyyən vəziyyətlərdə olduğu, bu meyar da elə qeyri-müəyyən vəziyyətlərdə tətbiq edilir ki, qəbul edilən qərarın nəticələri məlum deyil, lakin onu təqribən qiymətləndirmək olar. Savage meyarına görə mümkün gəlirlərdən maksumum olanı və mümkün itkilərdən minimum olanı seçilir. Əvvəlki üç meyarın tətbiqində olduğu kimi, Savage meyarının tətbiqində ödəmə matritsası (və ya strategiya) qurulur. Lakin burada əlavə olaraq, risk matritsası da tərtib edilir. Qərar qəbulu risk matrisası əsasında edilir. Qərar qəbulu zamanı mümkün maksimum risklərdən minimumu seçilir.

$$E= \min_{1\le i\le m} \max_{1\le j\le n} r_{ij}$$

Cədvəl 1.5.

	OS_1	OS_2	OS_3	OS_4	max(r_{ij})
A_1	r_{11}	r_{12}	r_{13}	r_{14}	max(r_{1j})
A_2	r_{21}	r_{22}	r_{23}	r_{24}	Max(r_{2j})
A_3	r_{31}	r_{32}	r_{33}	r_{34}	Max(r_{3j})
A_4	r_{41}	r_{42}	r_{43}	r_{44}	Max(r_{4j})
A_5	r_{51}	r_{52}	r_{53}	r_{54}	Max(r_{5j})

Savage meyarı elə qərarın qəbuluna imkan verir ki, mümkün itkilər minimllaşdırılmış olsun.

5. Qurviçin ümumiləşdirilmiş *maksimin* meyarı, yaxud (pessimizm-optimizm meyarı). Qurviç meyarı mümkün ən pis vəziyyətlərin kombinasiyası kimi qeyri-müəyyən vəziyyətdə qərar qəbuluna imkan verir. Başqa sözlə desək, bu meyar əvvəlki meyarların əsaslandığı həm optimist, həm də pessimist vəziyyətləri, həmçinin minimum və maksimum gəlirlərin kombinasiyasını nəzərə alaraq qərar qəbulunu mümkün edir. Ona görə də Qurviç meyarını

$$E_i=k^* \min_{1\le j\le n} e_{ij}+(1-k)^* \max_{1\le j\le n} e_{ij}$$

Bu variantlar arasında üstünlük E_i-nin maksimum olduğu varianta verilir.

$$E= \max_{1\le i\le m} (k^* \min_{1\le j\le n} e_{ij}+(1-k)^* \max_{1\le j\le n} e_{ij})$$

Burada $0\le k\le 1$. Əgər k=1 olarsa, Qurviç meyarı *maksmin* meyarı ilə- zəmanıtli nəticəsi olan variantla üst-üstə düçür:

$$E= \max_{1\le i\le m} \min_{1\le j\le n} e_{ij}$$

Əgər k=0 olarsa, Qurviç meyarı *maksmaks* meyarı ilə üst-üstə düşür.

$$E= \max_{1\le i\le m} \max_{1\le j\le n} e_{ij}$$

Olur.

Ədəbiyyat

1 Allayannis, G., J. Ihrig, and J. Weston, 2001, “Exchange-Rate Hedging: Financial vs. Operational Strategies,” American Economic Review Papers and Proceedings, Vol. 91 (2), pp. 391–395.

2 Barton, T.L., W.G. Shenkir, and P.L. Walker, 2002, “Making Enterprise Risk Management Pay Off: How Leading Companies Implement Risk Management,” (Brookfield, Connecticut: Fei Research Foundation).

3 Papaioannou, M., 2001, “Volatility and Misalignments of EMS and Other Currencies During

4 Lam, J., 2003, Enterprise Risk Management: From Incentives to Controls, (Hoboken, New Jersey: Wiley).

5 Madura, J, 1989, International Financial Management, 2nd ed. (St. Paul, Minnesota: West Publishing Company).

6 Hakala, J., and U. Wystup, 2002, Foreign Exchange Risk: Models, Instruments, and Strategies, (London: Risk Publications).

7 Shapiro, A.C, 1996, Multinational Financial Management, 5th ed. (Hoboken, New Jersey: Wiley).

8 Holton, G.A., 2003, Value-at-Risk: Theory and Practice, (San Diego, California: Academic Press).

9 Van Deventer, D.R., K. Imai, and M. Mesler, 2004, Advanced Financial Risk Management: Tools and Techniques for Integrated Credit Risk and Interest Rate Risk Management, (Hoboken, New Jersey: Wiley).

10 Г.Л. Бродецкий. Системный анализ в логистике, выбор в условиях неопределённости. — Москва: Academia, 2010. — С. 22. — 336 с.

XI. AQRAR SİYASƏT VƏ ƏRZAQ TƏHLÜKƏSİZLİYİ

AZƏRBAYCANDA ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN GÜCLƏNDİRİLMƏSİNDƏ İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİNİN POTENSİALINDAN SƏMƏRƏLİ İSTİFADƏ MƏSƏLƏLƏRİ

Ataşov Bəyalı Xanalı oğlu,
Əməkdar elm xadimi, i.e.d., prof.
Azərbaycan Kooperasiya Universitetinin elm və innovasiyalar üzrə prorektoru.
bayali.atashov@mail.ru

Xülasə

Məqalədə ölkə əhalimizin ərzaq təhlükəsizliyinin etibarlı təmin edilməsində erməni işğalından azad olunmuş ərazilərin potensialından maksimum səmərəli istifadə edilməsi məsələləri araşdırılmışdır. Qarabağ iqtisadi regionun potensialı qiymətləndirilmiş, bu regionun dirçəlişi və ümumrespublika iqtisadiyyatına reinteqrasiya olunmasının vacibliyi, bu proseslərin bilavasitə ölkə rəhbərliyinin diqqət mərkəzində olması, böyük qayıdışın bütövlükdə ölkəmizdə regional inkişafa yeni nəfəs verəcəyi xüsusilə vurğulanmışdır.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra 1990-cı illərin əvvəllərində ciddi problemlərlə üzləşdi. Dövlət idarəçiliyində xaos, iqtisadiyyatda tənəzzül, hər yerdə özbaşınalıq səbəbindən həmin dövrdə acınacaqlı vəziyyət yaranmış və nəticədə hiyləgər və xain qonşumuz olan Ermənistan hərbi qüvvələri tərəfindən torpaqlarımızın 20 %-i işğal olunmuşdu. Bu təkcə torpaq itkisi deyildi, minlərlə qeyrətli və cəsur əsgər və zabitlərimiz şəhid oldular, çoxlu sayda insanlarımız əsirlikdə qaldılar, bir milyona yaxın vətəndaşlarımız isə məcburi köçkün və qaçqın vəziyyətinə düşdülər, yurd-yuvalarından və yaşayış yerlərindən məhrum oldular.

Yuxarı Qarabağ iqtisadi rayonu ərazisi 7,25 min kv.km-dir və ümumilikdə ərazimizin 8,4-i deməkdir. Qarabağ bölgəsi hələ sovetlər birliyi dövründə güclü inkişaf etmiş iqtisadiyyata malik idi. Burada kənd təsərrüfatı, yüngül və yeyinti sənayesi sahələri xüsusilə geniş potensialı ilə fərqlənirdi. Regionda çoxlu sayda yeyinti-emal sənayesi müəssisələri, o cümlədən yağ-pendir zavodları, heyvandarlıq kompleksləri, şərab zavodları, tikinti materialları müəssisələri və s. fəaliyyət göstərirdilər. Ən yüksək əmək haqqı və gəlirlərə malik olan bu bölgədə aqrar sahənin inkişafı daha geniş vüsət almışdı. Ağdam və Füzuli rayonlarında taxılçılıq, heyvandarlıq, üzümçülük, pambıqçılıq geniş inkişaf etmişdi. Zəngilan və Cəbrayıl rayonlarında heyvandarlıq və üzümçülük əsas fəaliyyət sahələrindən idi. Laçın və Kəlbəcərdə isə daha çox heyvandarlığın inkişafına üstünlük verilirdi. Xankəndində iri sənaye müəssisələri, o cümlədən, toxuculuq müəssisələri var idi. Şuşa və onun ətraf zonaları turizm-rekrasiya baxımından xeyli əlverişli idi. Həmin dövrdə regionda bir çox digər fəaliyyət istiqamətləri üzrə də güclü inkişaf olmuşdur. Bütün bunlar regionun iqtisdi potensialının yüksək olmasının bariz nümunəsi kimi qiymətləndirilə bilər.

Lakin mənfur erməni faşistləri tərəfindən 30 ilə yaxın davam edən işğal nəticəsində bu güclü potensiala malik regionun resursları yerlə yeksan edilmiş və dağıdılmışdır. Bunların nəticələri dövlət başçısının tapşırığı ilə elmi, iqtisadi və hüquqi amillər nəzərə alınmaqla qiymətləndirilməkdədir və müvafiq lazımi yerlərə, o cümlədən, beynəlxalq səviyyədəki qurumlara təqdim olunacaqdır. Qeyd etmək istərdik ki, Ermənistanın hərbi təcavüzündən yaranan nəticələri daha dolğun təsəvvür etmək üçün bir qrup faktlara müraciət etmək istərdik. Belə ki, hərbi təcavüz səbəbindən 900 yaşayış məntəqələrimiz, 150 min evlər, 7 min ictimai binalar, 693 məktəb, 695 tibb müəssisəsi, 855 uşaq baxçası, 6 min sənaye və kənd təsərrüfatı müəssisələri dağıdılmışdır. Bundan əlavə, 2670 km avtomobil yolları, 160 körpü, 2,3 min km su xəttləri, 2 min km qaz kommunikasiyaları, 15 min km elektrik xəttləri, 280 min hektar meşələr, 1 mln. hektara yaxın kənd təsərrüfatı üçün yararlı torpaqlar sıradan çıxarılmışdır. Bir sözlə, güclü iqtisadi potensial məhv edilmişdir və bütün bunların bərpasına külli məbləğdə maliyyə resursları və investisiyalar yatırılması tələb olunur. 4 yanvar 2021-ci il tarixli ölkə Prezidentinin "Qarabağ Dirçəliş Fondunun Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Sərəncamı ilə şuranın üzvlərinin təsdiq edilməsi bu regionun dirçəlişinə əhəmiyyətli səviyyədə təsir göstərəcəkdir [1]. İlk növbədə, infrastrukturun yenidən qurulması,

ərazilərin minalardan təmizlənməsi və yaşayış üçün hazırlanması tədbirləri görülməkdədir və bu işlər xeyli intensivləşmişdir. Dövlət başçısı tərəfindən Qarabağ regionunun və ona bitişik işğaldan azad edilmiş yeddi rayonun potensialından maksimum səmərəli istifadə olunması məsələlərinin hədəfləri və prioritet istiqamətləri müəyyənləşdirilmişdir. Hansı sahələrə investisyaların daha çox yatırılacağı hədəfləri əsaslandırılmış və regionun hazırda dünyada mövcud olan ən yüksək texnologiyalar əsasında inkişaf etdirilməsi qarşıya məqsəd qoyulmuşdur.

Bütün dünyada qlobal problemlərdən biri kimi ərzaq təhlükəsizliyi xüsusi diqqət mərkəzindədir və BMT səviyyəsində minilliyin hədəflərində bu qlobal problemə ciddi önəm verilmişdir. Beynəlxalq ekspertlərin hazırladıqları müxtəlif sənədlərdən və hesabatlardan yanaşsaq, dünyada bir milyarda yaxın insan aclıqdan əziyyət çəkir, o cümlədən, 800 milyon insan aclıq şəraitində yaşayır, 200 milyondan çox insan isə ifrat aclıq vəziyyətindədirlər. İqlim dəyişiklikləri səbəbindən dünyanın bir çox regionlarında quraqlığa çevrilmiş kənd təsərrüfatı sahələri artmaqdadır, yeni torpaq sahələrinin əkinə yararlı hala gətirilməsinə investisiyalar çatışmır, qlobal istiləşmə səbəbindən ərzaq təhlükəsizliyi problemlərinə diqqət daha da artmaqdadır.

Bu qeyd olunan problemlər üzrə dünyanın aparıcı ölkələri və beynəlxalq təşkilatlar səviyyəsində sammitlər, konfranslar və dünya səviyyəli tədbirlər keçirilir, ərzaq təhlükəsizliyinin gücləndirilməsinə diqqət artırılır və dünya ölkələrinin bu sahədə əməkdaşlığının vacibliyi göstərilir. Amma fikrimizcə, hər bir ölkənin özünün düşünülmüş və əsaslandırılmış fəaliyyət mexanizmlərindən, uzunmüddətli strateji hədəflərindən ibarət ərzaq təhlükəsizliyi strategiyası olmalı və mövcud resurslardan səmərəli istifadə edilməsi məqsədilə zəruri addımlar atılmalıdır. Göstərilən fəaliyyət istiqamətləri üzrə kompleks və sistemli tədbirlərin görülməsi Qarabağ regionunda xeyli aktuallığı ilə diqqəti cəlb edir. Əvvəldə qeyd etdiyimiz kimi, işğaldan azad olunmuş ərzailərin kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsində və əsas etibarilə ərzaq təhlükəsizliyinin gücləndirilməsi nöqteyi – nəzərindən mühüm məsələlərin elmi şəkildə əsaslandırılması vacib şərtlərdəndir.

Burada bir haşiyə çıxmaq istərdim, 80 illik yubileyi qeyd olunan görkəmli akademik Ziyad Səmədzadənin elmi fəaliyyətində və nəşr olunmuş elmi əsərlərində Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin olunmasının problemləri, prioritet istiqamətləri, konseptual məsələləri uzun illər ərzində davamlı olaraq fundamental səviyyədə tədqiq edilmiş, dərin məzmuna malik elmi nəticələr və yüksək praktiki əhəmiyyət kəsb edən yanaşmalar müəyyənləşdirilmiş, mexanizmlər və konsepsiyalar hazırlanmışdır. Ölkəmizdə olan resurslardan səmərəli istifadə etməklə kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsi, bütövlükdə aqrar sahənin potensialından bəhrələnməsi, bu sahənin intensiv inkişafı hesabına ölkə əhalisinin mühüm ərzaq məshullarına olan tələbatının ödənilməsi, idxaldan asılılığın minimuma endirilməsi və s. strateji əhəmiyyət kəsb edən istiqamətlər üzrə akademik Ziyad Səmədzadənin fikir və mülahizələri, tətbiq xarakterli elmi nəticələri bu gün də aktuallığını qoruyub saxlamaqdadır [2]. Müasir dövrdə də yorulmaz və cəfakeş elm fədaisi Ziyad Səmədzadə öz elmi axtarışları və fəallığı ilə hər birimizə nümunədir və yorulmadan çalışmaqdadır. İşğaldan azad olunmuş ərazilərin bərpası, dəymiş ziyanın obyektiv olaraq qiymətləndirilməsi, Qarabağ regionunun iqtisadi və sosial inkişaf problemlərinə konseptual yanaşmaların təmin olunması və s. bu kimi məsələlər üzrə Z.Səmədzadənin fikirləri və mülahizələri dərin elmi-praktiki məzmuna malikdirlər. Akademik Ziyad Səmədzadə haqlı olaraq qeyd edir ki: "İlk növbədə, biz işğaldan azad olunmuş ərazilərimizə dəymiş ziyanı obyektiv qiymətləndirməliyik. Bu məsələdə cənab Prezidentin mövqeyi ondan ibarətdir ki, birinci növbədə dəymiş ziyanı qiymətləndirməliyik, bu işi sistemli, ardıcıllıqla həyata keçirməliyik" [3]. Akademikin əsaslandırmalarından bu nəticəyə gəlmək olar ki, Qarabağ regionunda əkinçiliyin və heyvandarlığın ən yüksək səviyyədə inkişaf etdirilməsi imkanları vardır. Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl və Kəlbəcər rayonlarında kənd təsərrüfatı məhsullarının istehsalının genişləndirilməsi və heyvandarlığın güclü inkişaf bazası mövcuddur [4]. Akademik Ziyad Səmədzadə bu qənaətdədir ki, Qarabağın dirçəldilməsi istiqamətində həyata keçirilən düşünülmüş və sistemli dövlət tədbirləri öz bəhrəsini tezliklə verəcəkdir [5].

Qarabağ regionu üzrə sosial-iqtisadi inkişafın reabilitasiya olunması, buradakı təbii resurslardan maksimum məhsuldar istifadə edilməsi, o cümlədən kənd təsərrüfatı və aqrar sahənin müasir dövrün texnologiyaları əsasında inkişaf etdirilməsi sayəsində təkcə regionda məskunlaşacaq əhalinin yox, bütövlükdə ölkə əhalisinin ərzaq təhlükəsizliyinin təmin olunmasına ciddi töhfələr

veriləcəkdir. Bu gün Qarabağ regionu və ona bitişik ərazilər nəhəng tikinti meydançasına çevrilmişdir. Bir tərəfdən infrastruktur obyektləri şəbəkəsi bərpa edilir, digər tərəfdən isə iqtisadi inkişafın təmin edilməsi məqsədilə istehsal infrastrukturu yaradılır. Regionda nəqliyyat sahələrinin kompleks və bir-birini tamamlayan mobil, səmərəli həlqəsi formalaşdırılır. 20 noyabr 2020-ci il tarixli "Bərdə-Ağdam dəmir yolu xəttinin layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən artıq dəmiryolu xəttinin tikintisinə başlanılmışdır [6]. Digər mühüm infrastruktur layihəsi – Füzuli-Şuşa beynəlxalq magistral avtomobil yolunun çəkilişi ilə bu ərazilərin bərpasının sürətləndirilməsinə ciddi təkan verəcəkdir. Füzuli və Zəngilanda tikintisi davam etdirilən beynəlxalq aeroportların strateji əhəmiyyəti böyükdür. Bundan əlavə, müxtəlif iqtisadiyyat sahələrinin, o cümlədən aqrar sahənin regionda ənənəvi potensialından səmərəli istifadə olunacağı proqnozlaşdırılır [7].

Qarabağ regionunda aqrar sahənin inkişaf etdirilməsi müxtəlif ərzaq məhsullarının istehsalının və çeşidinin artırılmasına güclü zəmin yaradacaqdır. Digər tərəfdən, bu kimi tədbirlər ölkə iqtisadiyyatının strukturunun genişlənməsinə və böyüməsinə kömək edəcəkdir. Regionda aqrar sahənin inkişafı və ərzaq məhsullarının istehsalına diqqətin artırılması həm də sahibkarlığın intensiv inkişafına təkan verəcəkdir. Bu isə öz növbəsində yeni əlavə dəyər mənbələrinin yaradılmasına və sahibkarlığın keyfiyyətcə inkişafına müsbət təsir göstərəcəkdir. Yeni iş yerlərinin yaradılması, rəqabətqabiliyyətli aqrar-emal müəssisələrinin təşkili də sahibkarlığın inkişafını şərtləndirən amillər kimi diqqət çəkirlər. Region üçün xarakterik və ənənəvi olan iqtisadiyyat sahələrinin fəaliyyət-lərinin qısa zaman kəsiyində bərpa edilməsi, bu sahələrə yüksək texnologiyaların transferinin gücləndirilməsi və xarici investisiyaların cəlb edilməsi əsas hədəflərdəndir.

Nəticə

Artıq dövlət tərəfindən formalaşdırılan və reallaşdırılmaqda olan prioritet fəaliyyət istiqamətləri də nəzərə alınmaqla, işğaldan azad olunmuş ərazilərdə iqtisadi inkişaf proseslərinin təşkili, o cümlədən, kənd təsərrüfatı və aqrar sektorun inkişaf etdirilməsi, bunların sayəsində daha çox və geniş çeşiddə mühüm ərzaq məhsullarının istehsalının təşkil edilməsi və emal proseslərinin intensivləşdirilməsi istiqamətində görülən işləri qısa xarakterizə etmək və perspektiv imkanları ümumiləşdirmək mümkündür:

- Qarabağ regionu və ümumlikdə, işğaldan azad olunmuş ərazilər üzrə bərpa və dirçəliş hədəflərinin konseptual əsasları formalaşmışdır;
- prioritet hədəflər kimi regionun yüksək texnologiyalar, o cümlədən "ağıllı" texnologiyalar əsasında inkişaf etdirilməsi və maksimum "yaşıl" iqtisadiyyat istiqamətlərinin inkişaf etdirilməsi götürülmüşdür;
- regionun təbii resurslarından səmərəli və məhsuldar istifadə edilməsi məsələlərinə start verilmişdir;
- regionun inkişafında prioritet iqtisadiyyat sahələri müəyyənləşdirilmişdir və bu sahələrin önündə kənd təsərrüfatı və bütövlükdə aqrar sektor yer almışdır;
- regionda iri infrastruktur layihələri, o cümlədən, beynəlxalq aeroportlarla yanaşı, yüksək texnologiyalar əsaslı aqrosənaye komplekslərinin və parklarının yaradılması strateji vəzifələr kimi qarşıya qoyulmuşdur və artıq Ağdam sənaye parkının təməlqoyma mərasimi keçirilmişdir;
- regionda mühüm ərzaq məhsullarının istehsalı və emalı üzrə ixtisaslaşmış aqroparkların, aqrosənaye parklarının, ərzaq məhsulları klasterlərinin, iri fermer təsərrüfatlarının, xüsusilə, yüksək texnologiyalar əsaslı heyvandarlıq komplekslərinin və emal müəssisələrinin yaradılması proseslərinin hazırlıq işlərinə başlanılmışdır.

Beləliklə, bu ərazilərin dirçəliş və bərpa tədbirlərinin geniş vüsət alması hesabına böyük qayıdışın təmin edilməsi təkcə Qarabağda yox, bütövlükdə ölkəmizdə tarazlı regional inkişafa yeni nəfəs verəcəkdir.

Hesab edirik ki, Qarabağ regionunun güclü iqtisadi potensialının reallaşdırılması yaxın gələcəkdə bir sıra həyati vacib hədəflərə çatmaqda, o cümlədən ölkə əhalimizin yerli istehsal hesabına əsas ərzaq məhsulları ilə etibarlı təminatına nail olmaqda əhəmiyyətli rol oynayacaq. Bu isə öz növbəsində ərzaq idxalından asılılığımızı bütövlükdə xeyli dərəcədə azaldacaqdır.

Ədəbiyyat

1. Qarabağ Dirçəliş Fondunun Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 4 yanvar 2021-ci il. https://president.az/articles/49877.
2. Самедзаде З.А. Этапы большого пути – экономика Азербайджана за полвека, её новые реалии и перспективы. Баку, ИПЦ «Нурлар», 2004-936 с.
3. İlk növbədə biz işğaldan azad olunmuş ərazilərimizə dəymiş ziyanı obyektiv qiymətləndirməliyik. 9 Yanvar 2021. https://aqreqator.az/az/siyaset/1198156.
4. Qarabağ regionunun iqtisadi və sosial inkişaf problemləri. 05 Aprel 2021. https://www.muallim.edu.az/news.php?id=15372.
5. Regional iqtisadiyyat: müasir aspektlər və 618ctual məsələlər.23 Aprel 2021. https://www.muallim.edu.az/news.php?id=15658.
6. Bərdə-Ağdam dəmir yolu xəttinin layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 24 noyabr 2020-ci il. https://president.az/articles/47740.
7. Gülalıyev M., Həsənzadə F. İşğaldan azad olunmuş ərazilərdə yeni aqrar təsərrüfat modeli. 23.01.2021. http://economics.com.az/index.php/tedbirler/yenilikl-r/item/2056-ishzhhaldan-azad-olunmush-aerazilaerdae-yeni-azhrar-taesaerrufat-modeli.html.

FERMER TƏSƏRRÜFATLARININ KREDİT RESURSLARINA ÇIXIŞI PROBLEMLƏRİ VƏ ONLARIN HƏLLİ İMKANLARI

Əvəz Əkbər oğlu Ələkbərov, i.e.d., professor
"Maliyyə və maliyyə institutları" kafedrasının müdiri
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
avaz.alakbarov@unec.edu.az
Əbdülrəhim Əbdülrəhman oğlu Dadaşov, doktorant
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
ebdulrehimdadasov@gmail.com,

Xülasə: Məqalədə fermer təsərrüfatarının kredit resurslarına çıxışının ölkədə və dünyadakı mövcud vəziyyəti təhlil edilmiş, fermerlərin kredit resurslarına əlçatanlılığının artırılmasına dair yeni yanaşma təklif olunmuşdur. Təklif olunan yeni yanaşmada aqrar sahədə fəaliyyət göstərən elmi-tədqiqat institutlarının vasitəçi və zəmanət funksiyalarının icrası ilə bağlı məsələlər qabardılmış, onların bank və fermer arasında vasitəçiliyi sayəsində kredit əlçatanlıqlarına müsbət təsiri göstərilmişdir.

Açar sözlər: fermer təsərrüfatı, kredit resursları, risk, zəmanət, elmi-tədqiqat institutu.

Bildiyimiz kimi, kənd təsərrüfatına maliyyə dəstəyi çox mühüm məsələdir; bankların və digər kredit təşkilatlarının kənd təsərrüfatına kredit verərkən qarşılaşdıqları çətinliklər və risklər isə fermerlərin maliyyə resurslarına çıxışına birbaşa təsir göstərən amillərdən biridir. Maliyyə xidmətlərinə çıxış son məqsəd olmasa da, təsərrüfatların məhsuldarlığa investisiyaları üçün vəsait təmin etmək, məhsuldan sonrakı təcrübələri yaxşılaşdırmaq, ev təsərrüfatlarının nağd pul axınını yaxşılaşdırmaq, bazarlara daha yaxşı çıxışı təmin etmək və risklərin daha təkmil idarə olunmasını təşviq etmək üçün vacibdir. Maliyyə resurlarına çıxış iqlim dəyişikliyinə adaptasiya və kənd təsərrüfatının iqlim dəyişikliyinə davamlılığının artırılmasında, bununla da uzunmüddətli ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynaya bilər.

Qısa məzmunda "maliyyə çıxışı" dedikdə insanların təhsilə və ya sağlamlığı üçün investisiya yatıracağı, risklərin idarə edilməsi və olaraq insanların qənaət etdiyi, borc aldığı, borc ödəyəcəyi və sığorta aldığı satış nöqtələrinə əlçatançılığı nəzərdə tutulur. Maddi əsaslara dayanan bütün bu

fəaliyyətlər daha yüksək məhsuldarlığa, gəlir, istehlak, qidalanma və təhsilin yüksəldilməsinə gətirib çıxarır və beləliklə çoxsaylı Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmağa xidmət edir.

Kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən fermerlərin və digər istehsalçı subyektlərinin təsərrüfat fəaliyyətini genişləndirilməsi və inkişafı, xüsusi vəsaitlərin çatışmazlığı və kapitalın dövretmə sürətinin zəif olması, əlavə pul vəsaitlərinin cəlb edilməsi ehtiyacları, kredit resursları ilə təminat zamanı kənd təsərrüfatı sektoru istehsalçıları üçün yaranmış problemlərin aradan qaldırılması ilə maliyyə çıxışının asanlaşdırılması zərurəti aktual məsələyə çevirmişdir. Belə ki, bu problemin həlli istiqamətində son dövrlər ərzində Azərbaycan Respublikasında prioritetlər qəbul edilmiş, bir sıra təkanverici tədbirlər görülmüşdür. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə qəbul edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsulları istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə 3-cü strateji hədəf olaraq "maliyyə çıxışının asanlaşdırılması" müəyyən edilmişdir. Bu ölkədə rəqabətqabiliyyətli kənd təsərrüfatı sektoru formalaşdırmaq üçün istehsalçıların və eləcə də fermer təsərrüfatlarının maliyyə resursları ilə təminatının yaxşılaşdırılması, bu sahədə risklərin qiymətləndirilməsi və habelə bu risklərin azaldılması, təsirinin yumşaldılması üzrə mexanizminin təkmilləşdirilməsinin zəruriliyi qeyd edilir.

Kredit kənd təsərrüfatı istehsalı sistemlərində mühüm elementdir. Bu istehsalçılara kənd təsərrüfatını xarakterizə edən istehsal dövrü ilə yaranan nağd ehtiyaclarını ödəməyə imkan verir: torpaqların hazırlanması, əkilməsi, becərilməsi və məhsulların yığılması bir neçə ay ərzində çox az pul gəliri əldə edildiyi bir vaxtda material xərcləri ilə təmin edilir, satın alınan giriş və istehlakın nağd şəkildə edilməsi lazımdır. Nağd gəlir məhsul satışından qısa müddət sonra alınır. Kredit bazarları olmadığı təqdirdə, fermerlər növbəti dövrdə istehsal və istehlakı asanlaşdırmaq üçün nağd ehtiyatlarının qorunması zərurəti yaranır. Kreditin mövcudluğu həm daha çox istehlaka, həm də daha çox istehsal resursunun alınması və istifadəsinə imkan yaradır və bununla da fermerlərin rifahını artırmış olur [3].

Maliyyə-kredit təşkilatlarının kənd təsərrüfatının maliyyələşməsinə ehtiyatlı yanaşmasının bir neçə səbəbi vardır. Kənd yerlərinin xidmət nöqtələrindən uzaq olması, regionlarda infrastrukturun nisbətən zəif inkişafı və maliyyə təşkilatlarının filial şəbəkəsinin hər regionda olmaması göstərilən xidmətlərin xərclərini artırır və bu faktor da son nəticədə mənfəətlik səviyyəsinə mənfi təsir göstərir. Bundan əlavə, maliyyə təşkilatlarının kənd təsərrüfatına kreditlərin verilməsinə belə ehtiyatla yanaşmalarının başqa bir səbəbi də bu sahəyə aid edilən "yüksək risk" amilidir. Kənd təsərrüfatına aid risklər kənd təsərrüfatı məhsullarının istehsalı və satışı ilə bağlı riskləri əhatə edir. Digər risklər isə maliyyə təşkilatlarının kənd təsərrüfatını maliyyələşdirməkdə gördüyü risklərdir. Hər iki kateqoriyadan olan risklər bir-biri ilə sıx əlaqəlidir və məhz kənd təsərrüfatına aid risklər gələcəkdə maliyyələşmədə olacaq riskləri müəyyən edir [1].

Kənd təsərrüfatı istehsalçılarının maliyyələşdirilməsi üçün dövlət tərəfindən göstərilən dəstək sayəsində bir çox müsbət nəticələr əldə edilməsinə baxmayaraq, hazırda kənd təsərrüfatının kreditləşdirilməsində bəzi boşluqlar mövcuddur ki, əldə edilmiş təcrübəyə və müvafiq təhlillərə əsasən, məsələləri aşağıda göstərilən şəkildə səciyyələndirmək olar:

- kənd təsərrüfatı sahəsində həm borcalanların (kənd təsərrüfatı istehsalçıları, emalçıları, ticarətçiləri), həm də kredit təşkilatlarının səriştəsi və bilikləri aşağı səviyyədədir. Odur ki, maarifləndirmə baxımından hər iki tərəfə informasiya və məsləhət dəstəyinin göstərməsi kreditləşmənin uğurlu olması üçün çox əhəmiyyətlidir;
- kreditlərin geri ödənilməsi kənd təsərrüfatı sahələrinin xüsusiyyətləri nəzərə alınmaqla həyata keçirilməlidir. (Kreditin hansı kənd təsərrüfatı sahəsinə verilməsi, tətbiq edilən faiz dərəcələrinin reallığı, fəaliyyətinin mövsümiliyi, onun bazara çıxarılması, eyni zamanda təbii hadisələr, daşqın, yanğın, dolu düşmə, zəlzələ, külək, quraqlıq və s.);
- kənd təsərrüfatı maliyyəsində digər bir maneə ondan ibarətdir ki, əməklə bağlı ödənişlər və qısa müddətli vasitələrin (yanacaq, toxum, gübrə, pestisid) fermerlərin əksər xərclərini təşkil etməsinə baxmayaraq, bitki maliyyəsi ilə bağlı qısa müddətli kredit faktiki olaraq mövcud deyildir.

Beynəlxalq təcrübədə fermer təsərrüfatlarının kredit müraciətləri aşağıdakı səbəblərdən dolayı imtina edilir:

- kənd təsərrüfatı və ya idarəetmə təhsilinin və təcrübəsinin olmaması;

- səmərəsiz aqrobiznes fəaliyyəti;
- yetərli gəlirin olmaması,
- kreditorlarla öncəki münasibətlərin pisləşməsi;
- kredit tarixçəsinin qənaətbəxş olmaması;
- girov təminatının çatışmazlığı;
- uğursuz hazırlanan biznes planı [2].

Nəticə

Fermer təsərrüfatlarının kredit resurslarına çıxışının artırılması ilə bağlı aparılmış tədqiqatın nəticəsində kənd təsərrüfatı sahəsinin maliyyə resursları ilə təminat zəruriliyi, fermerlərin dəyər zənciri mərhələləri üzrə maliyyələşmə ehtiyacları müəyyən edilmişdir. Bununla yanaşı, ölkə və dünya miqyasında fermer təsərrüfatının kreditə resurslarına çıxışı problemləri öyrənilmiş, mövcud vəziyyəti qiymətləndirilərək qrafik və cədvəllər formasında təsvir edilmişdir. Kənd təsərrüfatı sahəsinin maliyyə resursları ilə təminatı səviyyəsi araşdırılaraq, bu sahədə ehtiyacların müəyyən edilməsi məqsədilə müvafiq qiymətləndirmələr əsasında aparılan təhlillər aşağıdakı nəticələri söyləməyə əsas vermişdir:

- kənd təsərrüfatı sahəsinin mövcud kredit təminatı əsaslı şəkildə dövlət dəstəyindən (güzəştli kreditlərdən) asılıdır;
- bu sahənin kreditləşdirilməsində əsas mənbə olan güzəştli kreditlərin əksər hissəsi iri həcmli və uzunmüddətli kredit layihələri üzrədir;
- kreditlərdən istifadə edən təsərrüfatların xüsusi çəkisi az olmaqla, kiçik və orta həcmli təsərrüfatların kreditdən istifadə göstəriciləri daha da aşağıdır;
- fermerlərin əsas xərclərini təşkil edən dövriyyə vəsaitlərinə olan ehtiyaclarının ödənilməsi üçün ayrılan qısamüddətli kreditlərin həcmi cüzi səviyyədədir.

Beynəlxalq təcrübədə fermer təsərrüfatlarının kredit müraciətləri aşağıdakı səbəblərdən dolayı imtina edilir:

- kənd təsərrüfatı və ya idarəetmə təhsilinin və təcrübəsinin olmaması;
- səmərəsiz aqrobiznes fəaliyyəti;
- yetərli gəlirin olmaması,
- kreditorlarla öncəki münasibətlərin pisləşməsi;
- kredit tarixçəsinin qənaətbəxş olmaması;
- girov təminatının çatışmazlığı;
- uğursuz hazırlanan biznes planı.

Kredit resurslarına çıxış problemlərinin həlli istiqamətində Elmi-Tədqiqat İnstitutlarının vasitəçiliyi ilə yeni yanaşma təklif edilərək əsaslandırılmış, kreditləşmə mexanizmindəki rolu izah edilmişdir. Mövcud mexanizm çərçivəsində kiçik fermer təsərrüfatlarının girov təminatında olan problemlər və fəaliyyətinin gəlirliyində zəmanətin mövcud olmaması güzəştli kredit resurslarına çıxışını çətinləşdirməkdədir. Təklif edilən yeni yanaşmada aqrar sektorun müxtəlif sahələrinin elmi-tədqiqatı ilə məşğul olan institutların fermerlərin güzəştli kredit resurslarına çıxışının artırılmasında "katalizator", "vasitəçi" və "zəmanətçi" rolunun qabardılması ilə fəal iştirakı nəzərdə tutulur.

Sözügedən yanaşmanın təcrübədə tətbiqi nəticəsində fermer resurslarının kredit resursları ilə təminat səviyyəsinin 35-40%-ə qədər yüksələcəyi proqnozlaşdırılır və nəticədə kənd təsərrüfatı kreditlərinin ümumi iqtisadiyyat sahələrinə kredit qoyuluşlarındakı payının 5.0%-ə yüksəlməsi ehtimal edilmişdir. Əlverişli kredit resursları ilə təminetmə səviyyəsinin yaxşılaşması son nəticədə kənd yerlərində məşğul əhalinin sayının artırılmasına, fermerlərinin gəlirlilik və rifah səviyyəsinin yüksəldilməsinə, rentabelli məhsul istehsalına və ixrac potensialının artırılmasına, ÜDM-də kənd təsərrüfatı sahəsində yaradılan əlavə dəyərin həcminin artırılmasına xidmət edəcəkdir.

Ədəbiyyat

1. Zaripov A., Qədirov Ş. Kənd təsərrüfatının maliyyələşməsində qarşıya çıxan risklər və onların həll yolları. 2020. URL: https://fed.az/az/aqrar/kend-teserrufatinin-maliyyelesmesinde-qarsiya-cixan-riskler-ve-onlarin-hell-yollari-meqale-80258

2. Jahnsson K.H., Huisman C.J., Lagerkvist C.J. Agricultural credit market institutions - a comparison of selected european countries. Working Paper No. 33, 2013, 30 pages. URL: https://www.ceps.eu/wp-content/uploads/2013/01/FM%20WP33%20Credit%20Market%20Institutions.pdf

3. Nzomo M., Muturi W.. The effect of types of agricultural credit programmes on productivity of small scale farming businesses in Kenya: a survey of kimilili bungoma sub county. Journal of Economics and Sustainable Development, Vol.5, No.23, 2014, pp 150-161. URL: https://www.iiste.org/Journals/index.php/JEDS/article/view/16767/17127

AQRAR BAZARDA QİYMƏT DALĞALANMALARININ TƏNZİMLƏNMƏSİ

Səadət İntiqam qızı Hacıyeva, doktorant
Aqrar Tədqiqatlar Mərkəzi
e-mail: seadet.haciyeva@atm.gov.az

Xülasə

Məqalədə kənd təsərrüfatı məhsullarının qiymət dalğalanmalarına səbəb olan əsas amillər nəzərdən keçirilmiş və qiymətlərdəki dəyişkənliklərin aqrar bazara təsirlərinə dair nəzəri yanaşmalar təhlil edilmişdir. Qiymət dəyişkənliyinin təsirlərinin minimallaşdırılması ehiyacları və bunun üçün ölkələrin praktikasında mövcud olmuş tənzimləmə siyasətləri araşdırılmışdır. Aqrar bazarda qiymət dalğalanmalarının qarşısının alınmasına və ya bu dalğalanmaların təsirlərinin kompensasiya edilməsinə yönəlmiş siyasətlərin bu ölkələrin iqtisadiyyatlarında yaratdığı təsirlər öyrənilmişdir. Həmçinin Azərbaycanda aqrar sektorda qiymətlərin dəyişkənlik səviyyəsi və bazarda qiymətlərin qeyri-sabitliyinə təsir edən əsas faktorlar nəzərdən keçirilmişdir. Ölkəmiz üçün əsas ərzaq məhsulu sayılan və istehlak səbətində mühüm payı olan kartof və soğan sektoru timsalında mövsüm və qeyri-mövsüm dövrlərində bazarda qiymətlərin dəyişkənlik səviyyəsi təhlil edilmişdir. Aparılmış araşdırma və təhlillərə əsasən aqrar bazarda qiymət dəyişkənliyinin yaratdığı mənfi təsirlərin azaldılması ilə bağlı tövsiyələr verilmişdir.

Açar sözlər: Aqrar bazar, bazar tənzimlənməsi, qiymət dəyişkənliyi, bazar riski, istehsalçı qiymət indeksi.

Giriş

Aqrar sektor iqtisadiyyatın digər sektorlarına nisbətən daha çox qiymət dəyişkənliyinə malikdir. Kənd təsərrüfatı məhsullarının qiymət dəyişmələri 2008 və 2011-ci illərdə pik həddə çatmış və kənd təsərrüfatı məhsulları yüksək qiymət dəyişkənliyi ilə xarakterizə olunmuşdur. Bu vəziyyət dörd əsas amil ilə izah edilə bilər: Bunlar i) iqlim dəyişiklikləri, xəstəlik və zərərvericilərin yayılması, ii) kənd təsərrüfatı məhsullarının qiymət elastikliyi, iii) kənd təsərrüfatında istehsalın azalması və iv) əhalinin artması və gəlirlərin səviyyəsidir [9].

Fermerlərin davranışlarına təsir edən risklər arasında məhsulların qiyməti ilə əlaqəli risk iqtisadi baxımdan ən həssas hesab edilir. Qiymət riskinin qarşısını almaq məqsədilə fermerlərin təsərrüfat fəaliyyətləri ilə bağlı yeni qərarlar qəbul etməsi, bazarın təklif etdiyi alətlərdən istifadə edə bilməsi və ya gəlir mənbələrini differensiallaşdırması üçün adətən müxtəlif strategiyalar hazırlanır [1].

Kənd təsərrüfatı məhsullarının qiymət dəyişkənliyi davamlı narahatlıq doğuran önəmli bir məsələdir. Siyasətçilər və qida tədarükü zəncirindəki bütün iştirakçılar kənd təsərrüfatında qiymət dəyişkənliyi ilə bağlı məlumatlı olmalı və gələcəkdə gözlənilən dəyişiklikləri daha yaxşı başa düşməlidirlər. Məsələn, hazırda bəzi ölkələrdə fermerlər əvvəllər bazar və qiymət dəstək siyasətləri tərəfindən qarşılanan bir sıra risklərlə rastlaşırlar. Fermerlərin məhsul satışından əldə etdikləri və ya istehsal vasitələrinə görə ödədikləri qiymətlərin qeyri-müəyyənliyi ilə bağlı bazar riski kənd təsərrüfatının inkişafına təsir edən önəmli faktorlardandır [7].

Nəzəri konsepsiya

Qiymətlərin səviyyəsinin dəyişməsi qiymət volatiliyi ilə ölçülür. Volatililik bir məhsulun dəyərinin zamanla nə qədər və nə qədər tez dəyişdiyini göstərir. Bu konsepsiya aydın görünsə də, volatililiyin dəqiq tərifi mövcud deyil və ölçülməsi daha çox subyektiv amillərə meyllidir. İqtisadi nəzəriyyədə volatililik iki əsas anlayışı ifadə edir: dəyişkənlik və qeyri-müəyyənlik; birincisi ümumi dəyişiklikləri təsvir edərkən, ikincisi gözlənilməz dəyişiklikləri ifadə edir.

Aqrar bazarda qiymət dalğalanmaları bazar üçün həm adi xarakterik xüsusiyyətdir, həm də rəqabətli bazarın mövcudluğu üçün zəruri şərtdir. Qiymət sisteminin mahiyyəti ondan ibarətdir ki, hər hansı bir məhsul qıtlaşdıqda onun qiyməti qalxır. Bu da istehlakın azalmasına və həmin məhsulun istehsalına daha çox sərmayə qoyulmasına səbəb olur. Lakin qiymət dəyişiklikləri getdikcə qeyri-müəyyən olduqda və uzun müddət ərzində həddindən artıq dəyişikliklərə məruz qaldıqda qiymət sisteminin səmərəliliyi pozulmağa başlayır [2].

Qiymət dəyişkənliyi həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə kənd təsərrüfatı sektoruna, qida sektoruna və iqtisadiyyatın digər seqmentlərinə ciddi şəkildə mənfi təsirlər göstərə bilər. Qiymət dəyişikliklərinə səbəb olan əsas faktorlar aşağıdakı kimi qruplaşdırılmışdır.

• Hava və iqlim dəyişikliyi – Qiymətlərdə dəyişkənliyə səbəb olan ən ümumi və proqnozlaşdırıla bilməyən amil gözlənilməz hava şəraitidir.

• Ehtiyatların səviyyəsi - Ehtiyatlar qısa müddətli dövrdə tələb və təklif arasındakı uyğunsuzluğu azaltmaqda mühüm rol oynayır.

• Enerji qiymətləri - Həm gübrə, həm nəqliyyat, həm də bioyanacaq xammalı kimi istehsal resurslarına olan tələb vasitəsilə enerji bazarları ilə əlaqələrin artması enerjidən kənd təsərrüfatı bazarlarına qiymət dəyişkənliyini ötürür.

• Valyuta məzənnələri - Xarici valyuta hərəkətləri daxili əmtəə qiymətlərinə təsir edərək, dünya miqyasında qida təhlükəsizliyinə və rəqabət qabiliyyətinə təsir potensialına sahibdir.

• Artan tələb - Təklif tələbi təmin edə bilmirsə, əmtəə qiymətləri üzərində artan təzyiq formalaşır. Adambaşına gəlirlər qlobal səviyyədə artdıqca və bir çox kasıb ölkələrdə gəlirlərin 50% artacağı gözlənildikdə, qida tələbatının elastikliyi tələbə təsir etmək üçün daha çox qiymət dəyişikliyi tələb ediləcək dərəcədə azalacaq.

• Resurs məhdudiyyətləri - Daha yüksək istehsal vasitələri xərcləri, daha yavaş texnologiya tətbiqi, daha çox ətraf ərazilərə genişlənmə, ikiqat əkinçilik və suvarma suyundakı məhdudiyyətlər istehsalın artım templərini məhdudlaşdırır.

• Ticarət məhdudiyyətləri - Həm ixrac, həm də idxal məhdudiyyətləri beynəlxalq bazarlarda qiymət dəyişkənliyini artırır [8].

Həmçinin, kənd təsərrüfatı siyasəti və qanunvericiliklərindəki dəyişikliklər və xüsusən ÜTT razılaşmalarının təsiri altında olan kənd təsərrüfatı bazarları son onilliklərdə daha açıq və rəqabətçi hala gəlmişdir. Bu da artan qiymət dəyişkənliyinə və təsərrüfat gəlirlərində dəyişikliklərə səbəb olmuşdur [11].

Aqrar bazarda qiymət dəyişiklikləri ilə bağlı kifayət qədər araşdırma və tədqiqatlar mövcuddur. Müxtəlif tədqiqatlarda qiymət dalğalanmalarının aqrar bazara, fermerlərə, istehlakçılara və dövlətə təsirləri ilə bağlı araşdırmalara rast gəlinir.

1980-1990-cı illər üçün inkişaf etməkdə olan on dörd bazar iqtisadiyyatını araşdıran Mohanty və Klau (2001) ərzaq qiymətlərinə təsir edən xarici faktorların inflyasiya prosesinə əhəmiyyətli dərəcədə təsir etdiyini bildirirlər. Bu iqtisadiyyatlarda ərzaq məhsulları qiymətləri inkişaf etmiş sənaye ölkələrinə nisbətən istehlakçı qiymət indeksinin daha yüksək hissəsini təşkil edir. Bundan əlavə, kənd təsərrüfatı məhsulları qiymətlərinin hava şəraiti və xarici ticarət məhdudiyyətlərindən asılı olaraq dəyişkən olduğu bildirilir. Dostie ve digərləri (2002) Madaqaskarın kənd təsərrüfatı sahəsini və yoxsulluq səviyyəsini araşdırmış və mövsümi istehsalın həm kənd təsrrüfatı məhsulları qiymətlərinə, həm də istehlak qaydalarına təsir etdiyini bildirirlər. Tədqiqat eyni zamanda mövsümi problemlərin həllində mövsümi idxal siyasətinin müxtəlif ölçülərindən bəhs edir. Domaç və Yücel (2003) inkişaf etməkdə olan bazar iqtisadiyyatlarında probit (standart paylanma ortalamasından kənarlaşmaya əsaslanan ehtimal vahidi) modellərinə əsaslanaraq kənd təsərrüfatı məhsulları istehsalında artım sürətinin artmasının inflyasiyanın yüksəlməsinə səbəb olan amillərin baş vermə ehtimalını azaltdığına dair iddialar irəli sürürdülər. Bare və Yücel (2004) Türkiyədəki kənd

təsərrüfatı qiymətləri ilə ərzaq və ümumi istehlakçı qiymətləri arasında intuitiv bir əlaqə olduğunu bəyan edərək, əvvəlcə bu əlaqəni çarpaz korrelyasiya və vektor altruist modelləri ilə araşdırmışlar. Kənd təsərrüfatı məhsullarının qiymətlərindəki inflyasiyanın artmasının ərzaq qiymətləri və ümumi istehlakçı qiymət indeksində statistik baxımdan əhəmiyyətli bir şəkildə əks olunduğunu aşkar etmişlər. Bu araşdırmaların sonunda kənd təsərrüfatı qiymətlərindəki dəyişkənliyin Türkiyə iqtisadiyyatındakı inflyasiya prosesinə mənfi təsir göstərə biləcəyini və inflyasiyaya mümkün təsirləri baxımından tarif siyasətində endirim əvəzinə tarif kvotalarının yaradılması və ya mövcud kvotaların artırılmasını təklif edirdilər [1].

Tənzimləmə siyasətinin formalaşması

İyirminci əsrdə kənd təsərrüfatı qiymətlərinin dəyişkənliyi həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrin hökumətlərini bu dəyişiklərinin qarşısını almaq və ya təsirlərini azaltmağa yönəlmiş siyasətlər tətbiq etməyə vadar etdi. 1980-ci illərdə kənd təsərrüfatı məhsulları bazarlarına təktərəfli və ya çoxtərəfli müdaxilələr norma halına gəldi. Amerika Birləşmiş Ştatları daxili qiymətləri idarə etmək üçün dəstəkləyici qiymətlərdən və ehtiyatlardan istifadə etdi. Avropa İttifaqında bənzər bir sxem var idi, eyni zamanda Avropa Birliyinə üzv olan ölkələr arasında ticarət üçün xüsusi bir məhsula məxsus valyuta məzənnələri ("yaşıl məzənnələr") tətbiq edildi. İnkişaf etməkdə olan ölkələrdə istehsal olunan məhsullar üçün müdaxilələr ya çoxtərəfli idi (məsələn, beynəlxalq əmtəə müqavilələri ilə) və ya daxili qurumlar vasitəsilə tənzimlənirdi.

Bu dövrdə satış qurumları və stabilizasiya fondları həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə geniş yayılmışdı. Banqladeş, Hindistan, İndoneziya, Meksika, Filippin və Cənubi Koreyada bufer stokları, Fildişi Sahili, Papua Yeni Qvineya və Cənubi Koreyada bufer fondları, Afrikanın böyük bir hissəsində və Latın Amerikası və Asiyanın bəzi yerlərində inhisarlara əsaslanan marketinq qurumları və Çili, Malayziya və Venesuelada dəyişkən tarif sxemləri mövcud idi.

1980-ci illərdən bir çox ölkə iqtisadiyyatda dövlətin rolunu yenidən müəyyənləşdirmişdir. Kənd təsərrüfatı məhsulları bazarlarında islahatların aparılması bu səylərin vacib bir hissəsi olmuşdur. İslahatlar bazar strukturlarını yeniləyib və əsas qurumların səlahiyyətlərini ləğv edib və ya dəyişdirərək kənd təsərrüfatı bazarlarının fəaliyyətini dəyişdirməyə yönəlmişdi [10].

İnkişaf etməkdə olan ölkələrin bir çoxunda fəaliyyət planı (milli və çoxmillətli) 1980-ci illər ərzində ciddi problemlərlə qarşılaşdı. İstehsalçılar və istehsalçı ölkələrin hökumətləri, ümumiyyətlə zəif bazar şərtlərində əldə edə biləcəkləri qiymətlərə həddindən artıq nikbin baxdılar. Eyni zamanda, nəzarətlə əlaqəli səmərəsizlik xərcləri zamanla daha da artdı. Məsələn, qəhvənin yüksək qiymətləri nisbətən yüksək istehsal xərclərinə malik olan bir çox ölkələrdə, xüsusilə Afrika ölkələrində əkin sahələrinin artmasına səbəb oldu. Braziliyada kvota məhdudiyyətləri daha aşağı gəlirli istehsalın qarşısını aldı.

Nəticə olaraq, 1980-ci illərdə qiymətlər zəiflədikcə, daha əvvəl uğurlu olan demək olar bütün milli müdaxilə siyasətləri maliyyə çətinlikləri ilə qarşılaşdı. Beynəlxalq əmtəə müqavilələri də öz növbəsində bazardakı dəyişikliklərə uyğunlaşa bilmədi və 1996-cı ilə qədər müqavilələrdəki bütün iqtisadi maddələr ləğv edildi və ya iflasa uğradı.

Bu vəziyyətə qarşı bir çox hallarda donorlar çətinliklə üzləşən milli sabitləşdirmə qurumlarını xilas etmək və ya yenidən qurmaq üçün tədbirlər görməyə çağırdılar. Bazarın liberallaşdırılması, xüsusilə inhisarçılıq tənzimləmələrinin ləğvi və bürokratiyaların köklü şəkildə azaldılması bu cür yardım üçün əsas şərtlərdən idi. Beləliklə, əsasən Avropa Birliyi, USAID və Dünya Bankı kimi çoxtərəfli kreditorların çağırışı ilə 1980 və 1990-cı illərdə inkişaf etməkdə olan ölkələrin kənd təsərrüfatı bazarlarının liberallaşdırılmasına yönəlmiş bir sıra islahatlar başladıldı [5].

Ümumilikdə isə qlobal kənd təsərrüfatı bazarlarındakı son dərəcə yüksək qiymət dəyişkənliyi, dünya ərzaq təhlükəsizliyi üçün artan təhlükəni göstərir. Ölkələrin qiymət dalğalanmalarına qarşı həssaslığını azaltmaq üçün siyasətlər bazar fəaliyyətini yaxşılaşdırmalı və ölkələri dəyişkənliyin həddindən artıq mənfi təsirləri ilə daha yaxşı mübarizə aparacaq şəkildə təchiz etməlidir [2].

Siyasətin məqsədi bazarın xarici təsirlərə qarşı daha dayanıqlı olmasına, tullantıların azaldılmasına, yerli bazarlara təklif olunan qiymətlərlə tədarükün artırılmasına, xüsusən də kiçik istehsalçılar üçün məhsuldarlığın artmasına kömək etməkdir. Sektorun məhsuldarlığını, hava və

iqlim dəyişikliyi və resurs çatışmazlığına qarşı dayanıqlılığı artırmaq üçün kənd təsərrüfatı tədqiqatlarına, qurumlara və infrastruktura dövlət investisiyaları lazımdır.

Məhsuldan sonrakı itkiləri azaltmaq üçün investisiyalar tələb olunur. Qiymət dəyişkənliyinin kənd təsərrüfatı bazarlarının bir xüsusiyyəti olaraq qalacağını qəbul edərək həm qiymət dəyişkənliyini mümkün qədər azaltmaq, həm də mənfi təsirlərini məhdudlaşdırmaq üçün ardıcıl siyasətə ehtiyac var.

Bazar şəffaflığını artırmaq qiymət dəyişkənliyini azalda bilər. Qida təhlükəsizliyinə həssas olan məhsulların istehsalı, ehtiyatları və ticarəti barədə daha etibarlı məlumatlar daxil olmaqla, bazar proqnozları üçün qlobal və milli məlumat və nəzarət sistemlərini təkmilləşdirmək üçün daha çox səy göstərilməlidir. İdxal və ixracdakı məhdudiyyətlər və s. kimi təhrif olunmuş siyasətlərin qaldırılması və ya azaldılması da qiymət dəyişkənliyini azalda bilər [8].

2014-2020-ci illər üçün Ümumi Kənd Təsərrüfatı Siyasəti (CAP) əsasən qiymət dəyişkənliyini aradan qaldırmaq əvəzinə fermerlərin qiymət dəyişkənliyinin mənfi təsirlərini kompensasiya etməyə və gəlir dəyişkənliyinə qarşı mübarizə aparmağı hədəfləmişdir. Bu siyasətdən sonra həqiqətən də, aqrar bazara müdaxilələr azaldıldı və hazırda yalnız qiymətlər müəyyən səviyyələrin altına düşdükdə məhdud formada intervensiya tədbirləri həyata keçirilir. Əsas siyasət aləti bazar şərtlərindən asılı olmayaraq fermerlər üçün sabit bir gəlir forması təmin edən birbaşa ödənişləri əhatə edir. Əlavə olaraq, üzv dövlətlər, kənd inkişaf proqramları vasitəsi ilə üç risk idarəetmə aləti vasitəsilə (sığorta planları, yatırım fondları və gəlirləri sabitləşdirmə aləti) dəstəklənmə imkanına malikdirlər [4].

Azərbaycanda aqrar bazarda qiymət dəyişkənliyi

Azərbaycanda kənd təsərrüfatı bazarında bir çox amillərin təsiri ilə qiymətlərdə dalğalanmalar müşahidə edilir. Qiymətlərin dəyişkənliyinə təsir edən əsas amil mövsümi istehsal həcminin yüksək olmasıdır. Bununla belə idxal məhsullarının bazardakı payı və mövqeyi, analoji məhsulların dünya bazarlarındakı qiymət qalxıb enmələri, iqlim şərtlərinə bağlı olaraq istehsalın həcmi və digər gözlənilməyən risklər (məsələn, pandemiyanın təsiri ilə tələbatın azalması) ölkəmizdə aqrar bazarda qiymətlərin səviyyəsinə təsir edən əsas amillər hesab edilir.

Kənd təsərrüfatı məhsullarının 2013-2021-ci ilin yanvar-may aylarında istehsalçı qiymət indeksinin dəyişməsi qrafik 1-də verilmişdir.

Qrafik 1. **Kənd təsərrüfatı məhsullarının istehsalçı qiymət indeksi,** *(əvvəlki aya nisbətən)*



Mənbə: Dövlət Statistika Komitəsi

Qrafikdən görünür ki, kənd təsərrüfatı məhsullarının istehsalçı qiymətlərinin ən aşağı səviyyəsi 2015-ci ilin iyun-iyul aylarında mövcud olub. Ümumilikdə isə illər üzrə qiymətlərin ən aşağı səviyyəsi iyun-iyul aylarında, ən yüksək səviyyəsi isə qış aylarında olub. Burdan da aydın olur ki, qiymətlərin səviyyəsinə istehsal mövsümündə istehsalın artması birbaşa olaraq təsir edir.

Azərbaycan əsas ərzaq məhsulları hesab edilən və demək olar ki, il boyu istehlak edilən kartof və soğan sektorunun timsalında aqrar bazarda qiymət dalğalanmalarının səviyyəsinə nəzər salaq.

Qrafik 2-nin məlumatlarından göründüyü kimi, kartof sektorunda 2015-ci ilin iyul ayından 2021-ci ilin iyul ayına kimi olan müddət ərzində qiymətlərdə kəskin dəyişiklik baş verib. Qiymətlərin ən aşağı səviyyəsi 2018-ci ilin iyul ayında (0.30AZN/kq), ən yüksək səviyyəsi isə 2019-cu ilin aprel ayında (1.40 AZN/kq) olub. Ümumi qanunauyğunluğa gəldikdə isə bütün illərdə istehsal mövsümü olan iyul-avqust aylarında qiymətlər ən aşağı səviyyədə olub, mart-aprel aylarında isə ən yüksək həddə çatıb.

Qrafik 2. **Kartofun topdan satış qiymət dinamikası**



Mənbə: www.aqrarbazar.az (“Bakı-Meyvəli” bazarı)

Qrafik 3-də soğanın topdan satış qiymət dinamikası verilib. Kartof sektorunda olduğu kimi soğan sektorunda da qiymətlərin səviyyəsi ilin müxtəlif dövrlərində dalğalanmaları məruz qalıb.

Qrafik 3. **Soğanın topdan satış qiymət dinamikası**

Mənbə: www.aqrarbazar.az (“Bakı-Meyvəli” bazarı)

Bir istehsal dövrü ərzində qiymətlər arasında 5 dəfədən çox fərq yaranmışdır. 2016-cı ilin oktyabr, 2018-ci ilin sentyabr və 2020-ci ilin iyul ayları soğan sektorunda istehsalçılar baxımından ən əlverişsiz dövrlər olmuşdur.

Qrafik 3-dən göründüyü kimi qiymətlərdə dalğalanmalar demək olar ki, bir ildən bir baş vermişdir. Qiymət volatiliyinə bağlı olan belə qeyri-müəyyənliklər sektorun daha çox inkişafına mane olan amil kimi çıxış edir.

Nəticə

Aqrar bazarda qiymət dəyişkənliyi ilə bağlı aparılmış araşdırma və təhlillərin nəticələrinə əsasən müəyyən edilmişdir ki, aqrar bazarda qiymət dəyişkənliyi bazar iştirakçıları üçün əhəmiyyətli risk yaradır və bu riskin idarəedilməsi üçün həm inkişaf etmiş və həm də inkişaf etməkdə olan ölkələr tənzimləmə siyasəti həyata keçirirlər. Aqrar bazarda qiymətlərin dəyişkənliyi ilə bağlı tənzimlənmə siyasətləri əsasən 1980-ci illərdən sonra formalaşmağa başlamışdır.

Kənd təsərrüfatı məhsulları bazarında iqlim dəyişikliyi, xəstəlik və zərərvericilərin təsiri, əhalinin sayının və gəlir səviyyəsinin dəyişməsi və s. kimi amillərdən asılı olaraq qiymətlərin

səviyyəsində dalğalanmaların olması qaçılmazdır. Xüsusilə inkişaf etməkdə olan ölkələrdə mövsüm dövründə istehsalın artımı ilə yaranan təklif artıqlığı istehsalçılar baxımından əlverişsiz mühitin yaranmasına və gəlir itkisinə səbəb olur. Qiymətlərlə bağlı bazarda mövcud olan qeyri-müəyyənlik kənd təsərrüfatının inkişafına mane olan əsas amillərdən biri kimi çıxış edir. Çünki proqnozlaşdırıla bilməyən gəlir səviyyəsi istehsalçıların öz fəaliyyətlərini genişləndirməyə maraqlı etmir.

Bu baxımdan ölkəmizdə də aqrar sahənin dayanıqlı inkişafının təmin edilməsi üçün qiymətlərin dəyişkənlik səviyyəsi minimallaşdırılmalı və ya bu dəyişkənliyin yaratdığı mənfi təsirlərin konpensasiya edilməsi mexanizmi yaradılmalıdır.

Azərbaycanda kənd təsərrüfatı məhsullarının əsas qiymət enmələri əsasən meyvə-tərəvəz məhsullarının istehsal dövründə baş verir. İstehsaldan sonrakı dövrlərdə isə bazarda daha çox idxal məhsul olur. Tənzimləmə siyasəti həm istehsalçıların mövsüm dövründəki itkilərinin azaldılmasına, həm də istehsaldan sonrakı dövrlərdə idxaldan asılılığı azaltmağa yönəlməlidir. Bunun üçün isə ölkədə bazara çevik müdaxilələr edə bilən intervensiya mexanizminin yaradılması, həmçinin logistika infrastrukturu, o cümlədən soyuducu anbar infrastrukturunun genişləndirilməsi məqsədəuyğundur.

Ədəbiyyat

1. Achille Barnabé Assouto, Denis Acclassato Houensou, Gervasio Semedo, “Price risk and farmers’ decisions: A case study from Benin”, Scientific African 8, 2020;
2. FAO, Policy Brief 12, “Price Volatility in Agricultural Markets”, December 2010;
3. Dövlət Statistika Komitəsi, İstehsalçı qiymət indeksləri, 2013-2021-5 ay;
4. Francesco Tropea, “Price volatility in agricultural markets: Risk management and other tools”, 07-07-2016;
5. Julie Dana, Christopher L. Gilbert, “Managing Agricultural Price Risk in Developing Countries”, February 2008;
6. Kənd təsərrüfatı məhsullarının qiymət məlumat bazası, www.aqrarbazar.az, 2015-2021-5 ay;
7. Marilyne Huchet. “Agricultural Commodity Price Volatility: An Overview”, 2011.
8. OECD-FAO Agrıcultural Outlook 2011, səh 4;
9. Seda Şengül, Kenan Lopcu, “Türkiye’de gıda ürünleri fiyatlarındaki oynaklık: bir ekonometri uygulama”, 2018;
10. Takamasa Akiyama, John Baffes, Donald Larson, Panos Varangis, “Commodity Market Reforms: Lessons of Two Decades”, 2001-03;
11. Yves Madre & Pieter Devuyst, **“**How to tackle prıce and ıncome volatılıty for farmers? An overvıew of ınternatıonal agrıcultural polıcıes and ınstruments”, 18 January 2016.

I. Hajiyeva, Chief of department, Agricultural Economics Research Center
Ph.D. student of the Agricultural Economics Research Center

Regulation of price fluctuations in the agricultural market

Abstract

In the article, the main factors that cause price fluctuations in agricultural products have been considered and theoretical approaches to the impact of price fluctuations on the agricultural market have been analyzed. The need to minimize the effects of price volatility and the regulatory policies of other countries’ experiences for this purpose have been examined. The effects of policies aimed at preventing price fluctuations in the agricultural market or compensating for the effects of these fluctuations in the economies of these countries have been studied. The level of price volatility in the agricultural sector in Azerbaijan and the main factors affecting price volatility in the market have been also considered. The level of price volatility in the market during the seasonal and non-seasonal periods has been analyzed on the example of the potato and onion sector, which is the main food product for our country and has an important share in the consumer basket. Based on the carried research and analysis, recommendations have been made to reduce the negative effects of price volatility in the agricultural market.

Keywords: *Agrarian market, market regulation, price volatility, market risk, producer price index.*

С.И. Гаджиева, директор департамента, Центр Аграрных Исследований
Докторант Центра аграрных исследований

Регулирование ценовых колебаний на аграрном рынке

Резюме

В статье рассмотрены основные факторы, вызывающие колебания цен на сельскохозяйственную продукцию, и проанализированы теоретические подходы к влиянию колебаний цен на аграрный рынок. Исследованы методы минимизации влияния волатильности цен и существующие для этого в практике зарубежных стран нормативные политики. Были изучены последствия политики, направленной на предотвращение колебаний цен на аграрном рынке или компенсацию последствий этих колебаний в экономике этих стран. Также были рассмотрены уровень волатильности цен в аграрном секторе в Азербайджане и основные факторы, влияющие на нестабильность цен на рынке. Проанализирован уровень волатильности цен на рынке в сезонные и несезонные периоды на примере сектора картофеля и лука, который является основным продуктом питания для нашей страны и занимает значительную долю в потребительской корзине. На основании проведенных исследований и анализа были даны рекомендации по снижению негативных последствий, вызванных колебаниями цен на аграрном рынке.

Ключевые слова: *Аграрный рынок, рыночное регулирование, волатильность цен, рыночный риск, индекс цен производителей.*

UOT 39.71.07.

KƏND TƏSƏRRÜFATININ DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN AMİLLƏRİ

Babayeva Səmayə Oqtay gızı dissertant
Azərbaycan Dövlət Aqrar Universiteti
nihat-020@mail.ru

Xülasə

Məqalədə kənd təsərrüfatının dövlət tənzimləməsinin əsas amilləri tədqiq olunur.Qeyd edilir ki, bu sektorda dövlət tənzimlənməsinə iki aşağıdakı amil təsir edir: kənd təsərrüfatında təkrar istehsalat prosesin mahiyyəti və kənd yerlərin əhalisinin artım templəri. Ona görə kənd təsərrüfatı istehsalı şəhər şəraitində olan istehsalatdan ciddi şəkildə fərqlənir.Məqalədə xüsusli olaraq göstərilir ki, Azərbaycan hökümətinin klasterlaşma siyasətinin vasitəsilə azad olunmuş ərazilərdə ərazilərdə geoğrafi baxımından bir-birinə yaxın olan torpaqlarda, aqrar-sənaye istehsalatını inkişafını təmin edə bilərdi.Müəllifin tədqiqatı nəticəsində qeyd olunur ki, klasterlərin yaradılması və inkişafından əvvəl bu klasterlərin potensial ixrac bazarlarını və daxili bazardakı satış seqmentlərini müəyyən etmək lazımdır., Müasir zamanda dünyada buğda satışının qabaqcıl mövqelərinə malik olmasını nəzərə almaq tövsiyə olunur.

Açar sözlər: kənd təsərrüfatı, aqarar sektor, dövlət tənzimlənməsi, klasterlər, amillər.

Giriş

Hər hansı bir ölkənin kənd təsərrüfatının inkişafının dövlət tənzimlənməsi iqtisadiyyatın aqrar sektoruna xas olan xüsusiyyətlər ilə müəyyən edilir. Əsas olan odur ki, ilk növbədə, kənd təsərrüfatının iqtisadiyyatın əməktutumlu bir sahəsi olduğudur. Bununla yanaşı, bir qayda olaraq, kənd təsərrüfatı məhsullarının istehsalı , emalı və satış ilə məşğul olunan inhisarçılar da bu prosesə təsir göstərir. İkincisi, aqrar sektorda istehsal, sosial və bazar infrastrukturunun bəzi elementləri kənd istehsalçılarını digər sahələrin istehsalçıları ilə müqayisədə bərabər şəraitdə inkişaf etməmişdir. Üçüncüsü, torpaq bir insanın ümumi yaşayış yeridir və bu baxımdan mühüm bir sosial

funksiya həyata keçirir. Dördüncü, kənd təsərrüfatı ciddi şəkildə təbii və iqlim şəraitindən asılıdır və sığorta və ehtiyat fondlarının yaradılması üçün əlavə vəsait tələb edir. Beşinci, kənd təsərrüfatı istehsal quruluşuna xələl gətirmədən qida tələbatının dəyişməsinə çevik cavab verə bilmir.

Kənd təsərrüfatının dövlət tənzimlənməsinin xüsusiyyətləri

Dövlət tənzimlənməsi tədbirləri üçün bir qayda olaraq, müvafiq qanunlarda öz əksini tapmışdır, aqro sənaye kompleksindəki və qida bazarındakı real vəziyyətdən asılı olaraq istifadə olunur. Kənd təsərrüfatı sahəsini tənzimləyən dövlət siyasətinə təsir edən bir sıra spesifik amillər mövcuddur..

İlk öncə, aqrar istehsal təbiətlə bağlı istehsaldır və ona görə məkan üzrə geoqrafik xüsusiyyətlərinə malikdir. O təbiət tsiklına daxildir, hava şəraitindən çox asılıdır və buna görə bu sahənin istehsal təmərgüzləşməsinin təbii sərhədləri yaranır. Bundan başqa sənayedən fərqli olaraq kənd təsərrüfatında istehsalat istehsalçının daimi nəzarətini (demək olar gündəli rejimdə) tələb edir.Eyni zamanda aqrar sektorun tənzimlənməsi zamanı aqrar müəssisələrdə qeyri standart idarəetmə qərarların qəbulu imkanı da nəzərdən keçirilməlidir. İlk öncə dövlət aqrar müəssisələrdə desentralizasiya meyllərin, təmərgezləşmə meyllərin aradan qaldırılmasını təmin və bununla da münbit rəqabət şəraitinin yaradılmasını təşkil etməlidir [2,3].

Aqrar sektorun tənzimləməsinə əhəmiyyətli dərəcədə iki aşağıdakı amilldə təsir edir: kənd təsərrüfatında təkrar istehsalat prosesin mahiyyəti və kənd yerlərin əhalisinin artım templəri. Ona görə kənd təsərrüfatı istehsalı şəhər şəraitində olan istehsalatdan ciddi şəkildə fərqlənir.

Yuxarıda deyiləndən anlamaq olur ki, aqrar istehsal və ərzaq bazarı çox az elastikliyə malik olan sahələrdir. Eyni zamanda bazarda iki azelastikli sahənin rastlaşması qiymətlərin qeyritənəsüblü dəyişikliklərinə gətirir.Belə ki , təhlillər göstərdi ki, bazara göndərilən aqrar istehsalatın məhsullarının 1% azalması ya artması zamanı , müvafiq olaraq bu məhsullara qiymətlər bir neçə faiz artır ya da azalır.Yəni fermer qiymətləri və ərzaq bazarı qeyri sabit olur. Bu o deməkdir ki, aqrar məhsulları bazarında qiymət mexanizmi özünün əsas funksiyasını – bazarda tələb və təklifin tarazılaşdırılmasını - səmərəli şəkildə həyata keçirmir.Başqa sözlə aqrar məhsulları bazarında qiymətlərin dövlət tərəfindən tənzimlənməsi xüsusi əhəmiyyətə malikdir [1].

Fikrimizcə, kənd təsərrüfatında dövlət tənzimlənməsinin həyata keçirilməsində aşağıdakı amillər nəzərə alınmalıdır: 1) ölkənin müxtəlif torpaq-iqlim və iqtisadi ərazilərinin potensialından səmərəli istifadə etmək üçün istehsalın rasional bölgüsü, onların ixtisasının dərinləşdirilməsi və bunun əsasında ixtisaslaşdırılmış qida zonalarının yaradılması; 2) bitkilərin məhsuldarlığını və heyvandarlıq məhsuldarlığını artıran texnologiyalardan istifadə; 3) sosial sarsıntıların və siyasi qeyri-sabitliyin, eləcə də ətraf mühitin deqradasiyasının müxtəlif formalarının kənd təsərrüfatına təsiri.

Qeyd etmək lazımdır ki, kənd təsərrüfatında dövlət tənzimlənməsinin həyata keçirəndə aşağıdakı amillərdə nəzərə almaq lazımdır:

- Ölkənin iqlim və torpaq xüsusiyyətlərini nəzərə almaqla və xüsusiləşdirilmiş ərzaq zonaların yaradılmasına əsaslanan aqrar istehsalın səmərəli yerləşdirilməsi;
- Malqaranın və bitkilərin məhsuldarlığını artıran texnologiyaların geniş istifadəsi;
- Kənd təsərrüfatı istehsalına sosial və siyasi qeyri sabitliyin təsiri;
- Aqrar istehsalın fəaliyyət göstərdiyi ekoloji mühit.

Qeyd olunan 4 amillərdən, fikrimizcə, dövlət dəstəyi ərazi-iqtisadi prinsipinə görə verilməlidir.Hər bölgə, həmçinin erməni işqalından azad olunmuş ərazilərimiz özünə məxsus incəlikləri mövcuddur. Bu baxımdan, Azərbaycan hökümətinin klasterlaşma siyasətinin vasitəsilə bu ərazilərdə geoğrafi baxımından yaxın olan torpaqlarda aqrar-sənaye istehsalatını inkişafını təmin edə bilərdi.

Bu ərazilərin bölgə bazarında klaster məhsullarına böyük tələb var və ona görə klasterlərin inkişafında daha çox buğdanın istehsalı və emalına (Aqdam rayonunda), südün, meyvə, ət məhsulların (Zangilan, Laçın, Kəlbəcər rayonları) , pambığın, dəri məmulatların, yunun emalına (Cəbrail və Aqdam rayonu) diqqət yetirmək lazımdır.

Ət və buğda sahələri əsasən daxili bazara istiqamətləndirilib və ümum iqtisadiyyat səmtində inkişaf olunacaq. Lakin dəri məlumatları və yun məhsulların keyfiyyətinin aşağı olması ilə əlaqədar

həmin sahələrdə hələki rəqabət qabiliyyətli klasterlərin yaradılması xarici kapitalın cəlb olunmadan mümükün olmayacaq.

Zənnimizcə, işğaldan azad olunmuş ərazilərdə ilkin mərhələdə buğda emalı, süd, meyvə-tərəvəz və pambıq klasterlərin yaradılması nəzərdə tutulmalıdır. Biz həmin aqrar sahələrin istehsalat və ixrac potensiallarının təhlilini edərək bu cür nəticəyə gəlmişdik. Bu sahələrin raqəbət qabiliyyətliliyinin qiymətləndirilməsində biz həmçinin onların və xaricdəki rəqiblərin istehsal xərcləri şeçidini müqayisəli təhlil etmişdik.

Lakin, zənnimicə, klasterlərin yaradılması və inkişafından əvvəl bu klasterlərin potensial ixrac bazarlarını və daxili bazardakı satış seqmentlərini müəyyən etmək lazımdır.Nəzərə almaq lazımdır ki, müasir zamanda dünyada buğda satışı qabaqcıl mövqelərinə malikdir.

Nəticə

Yekunda qeyd etməliyik ki, kənd təsərrüfatı istehsalı özü də azelastik istehsal sahəsidir. Xüsusən bu qiymət dəyişiklikləri qısamüddətli səciyyə daşıyanda birüzə verilir.Məsələn, hal-hazırda üzümçülükdə və bostançılıqda istehsal həcmləri kəskin dəyişmək mümkün olmur (hətta yeni texnologiyalar hesabına) bu da öz növbəsində istehsal ərazilərin manevr edilməsinə mane olur.İstehsalın intensifləşdirilməsi öz təsirini dərhal vermir, amma eyni zamanda o ciddi şəkildə olur. Heyvandarlıqın əksər sahələri , xüsusən malqaraçılıq, və əl-xüsus südçülük təsərrüfatının istehsal həcmi qiymətlərin dəyişilməsinə çevik şəkildə ək sada vermir. Beləliklə, kənd təsərrüfatı istehsalın yeni qiymət səviyyəsinə alışdırılması üçün xeyli zaman tələb olunur.

Ədəbiyyat

1. Федюкин В.К. Управление качеством процессов / В.К.Федюкин. — СПб.:Питер, 2004. — С. 14
2. Яхнюк С. Бюджетная поддержка сельского хозяйства региона в связи с вступлением России в ВТО // АПК: экономика, управление. – 2012. - №3. – с.80-85.
3. Алексанов Д.С., Кошелев В.М., Хоффман Ф. Экономическое консультирование в сельском хозяйстве / Д.С. Алексанов, В.М. Кошелев, Ф. Хоффман.- М.: КолосС, 2008.-253 с.

Бабаева Сямая Огтай кызы
Азербайджанский Государственный Аграрный
Университет Диссертант

Факторы государственного регулирования сельского хозяйства

Резюме

В статье исследуются основные факторы государственного регулирования сельского хозяйства, отмечается, что на государственное регулирование в этой отрасли оказывают влияние следующие два фактора: характер воспроизводственного процесса в сельском хозяйстве и темпы роста населения сельской местности. области. Поэтому сельскохозяйственное производство существенно отличается от производства в городских условиях. В статье конкретно показано, что за счет кластерной политики правительства Азербайджана станет возможным обеспечить развитие агропромышленного производства в географически близких районах на освобожденных территориях. В авторском исследовании отмечается, что перед созданием и развитием кластеров необходимо определить потенциальные экспортные рынки этих кластеров и сегменты сбыта на внутреннем рынке, рекомендуется учитывать, что сбыт пшеницы занимают лидирующие позиции в мире в новейшее время.

Ключевые слова: сельское хозяйство, аграрный сектор, государственное регулирование, кластеры, факторы.

Babaeva Syamaya Ogtay kyzy
Azerbaijan State Agrarian University
dissertation student

Factors of state regulation of agriculture

Summary

The article examines the main factors of state regulation of agriculture, it is noted that the state regulation in this industry is influenced by the following two factors: the nature of the reproduction process in agriculture and the growth rate of the rural population. areas. Therefore, agricultural production differs significantly from urban production. The article specifically shows that due to the cluster policy of the Azerbaijani government, it will be possible to ensure the development of agro-industrial production in geographically close areas in the liberated territories. The author's study notes that before the creation and development of clusters, it is necessary to determine the potential export markets of these clusters and sales segments in the domestic market, it is recommended to take into account that wheat sales occupy a leading position in the world in modern times.

Keywords: agriculture, agrarian sector, state regulation, clusters, factors.

KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ DÖVLƏT TƏDARÜKÜ VƏ ƏRZAQ TƏHLÜKƏSİZLİYİ

Ş.N.Məmmədov, Doktorant
Azərbaycan Memarlıq və İnşaat universiteti

Xülasə

Kənd təsərrüfatı məhsullarının dövlət tədarükünün böyük həcmi bazarlara təsir göstərmək və bazar iştirakçıları arasında olan münasibəti tənzimləmək üçün güc verir. Dövlət tədarükü, iş yerlərinin açılması, innovativ həllərin tətbiqinə, fermerlərə dəstək, ərzaq təhlükəsizliyinin gücləndirilməsinə, iqtisadi inkişaf kimi bir sıra məqsədlərin təmin olunması üçün istifadə edilmişdir.

Açar sözlər: **kənd təsərrüfatı məhsullarının dövlət tədarükü, müqavilə, satınalma metodaları, ərzaq təhlükəsizliyi**

GİRİŞ

Kənd təsərrüfatı məhsullarının dövlət tədarükü dedikdə, tələb olunan məhsulların dövlət satınalmaları bazarlarında maneələrin aradan qaldırılması yolu ilə podratçılardan təchiz edilməsi başa düşülür. Tədarük prosesinin həyata keçirilməsində maraqlı tərəflər üç hissədən ibarətdir. Birinci podratçı adlandırılan, kiçik və orta fermerlər, iri sahibkarlar aiddir. Podratçılar ölkə daxili ilə məhdudlaşmır, burada xarici podratçılarda bu prosesin iştirakçısı sayılır. İkinci olaraq dövlət tədarükçü qismində çıxış edir və hüquqi və texniki əsaslara dayanaraq sistematik formada prosesin həyata keçirilməsində aparıcı rol oynayır. Üçüncü yerdə dövlət tərəfindən təchiz edilən müvafiq idarə və təşkilatlar dayanır.

Tədarük prosesinin həyata keçirilməsi üçün aşağıda qeyd olunmuş üç satınalma metodundan istifadə edilir.

• Açıq tender: bütün ixtisaslı təchizatçılar iştirak edə bilər yekunda qalib təchizatçı ilə müqavilə bağlanılır.Açıq tenderdə qalib bal sistemi əsasında müəyyən olunur. Bal sistemi qiymət təklifi və texniki təklifdən ibarət olub yekunda ən yüksək balı yığmış təchizatçı qalib elan olunur.

• Kotirovka sorğusu metodu: sifarişçi təşkilat tərəfindən təyin edilmiş təchizatçıların və təchizatçıların elan edilmiş kotirovka sorğusuna əsasən öz iştirak ərizəsi ilə iştirak edə biləcəyi tender vasitəsilə qalib müəyyənləşdirilərək müqavilə bağlanılır.Kotirovka sorğusu metodu əsasən tədarükün daha opreativ həyata keçirilməsi və ehtimal olunan orta bazar qiymətinin müvafiq məbləğdən aşağı olduğu zaman .həyata keçirilir.

• Birbaşa müqavilə və ya bir mənbədən satınalma metodu: müqavilə təşkilatın podratçı namizədi seçməsi və müqavilənin bağlanması üçün danışıqlar apardığı müqavilə metodu nəzərdə tutulur. Birbaşa müqavilə və ya bir mənbədən satınalma metodu əsasən təchiz olunacaq məhsulun alternativ satıcısı olmadığı zaman həyata keçirilir..

Müqavilələr təyinatına görə iki yerə bölünür:

• Ümumi məbləğ üçün müqavilə: müqavilənin ümumi məbləği əsasında bağlanmış müqavilə nəzərdə tutulur. Burada müqavilənin ümumi dəyəri dəqiq şəkildə göstərilməlidir və müqavilədə göstərimiş olan ümumi dəyəri məbləğ olaraq aşmaq olmaz. Müqavilə satın alan təşkilatlar tərəfindən hər bir fərdi tələb əsasında tərtib edilir.

• Vahid qiymət üçün müqavilə: vahid qiymət əsasında bağlanmış müqavilə. Müqavilə, müəyyən edildiyi kimi, satın alınan təşkilatlar tərəfindən tez-tez satın alınan mallar üçün istifadə olunur. Satın alan təşkilatlar sifarişləri vahid qiymət müqaviləsinə uyğun olaraq yerləşdirə bilərlər. Burada müqavilənin ümumi dəyəri olmur və mallar üçün vahid qiymət müəyyən edilir, mallar miqdarnan məhdudlaşmır. Ümumi dəyər əlavələrdə olan dəyərlərin cəmi ilə hesablanır.

Kənd təsərrüfatı məhsullarının dövlət tədarükü sahəsində bəzi təşəbbüslər fermerlərin minimum qiymətlərlə təmin edilməsinə, subsidiyalarının verilməsi və ya natural formada paylanma yolu ilə istehlakçıların ərzağın yüksək qiymətlərindən qorunmasına yönəlib. Qiymət dəstəyi fermerlərin qiymət risklərinin azaldılması hesabına bazarlarda iştirakını stimullaşdıra bilər. Qiymətlərin dəyişkənliyi fermerlərin gəlirlərinin əhəmiyyətli dərəcədə dəyişməsinə və bazar əməliyyatları ilə bağlı qeyri-müəyyənliyə gətirib çıxararkən, risklər kənd təsərrüfatı fəaliyyətinin fermerlər üçün əlverişsiz olmasına səbəb olan xammal qiymətlərinin kəskin azalmasına səbəb ola bilər. Bu risklər kiçik fermerlərin gəlirlərinə, ərzaq təhlükəsizliyinə və qidalanmaya mənfi təsir göstərə bilər. Onlar həmçinin istehsal və diversifikasiyaya, eləcə də bazarlarda iştiraka sərmayə yatırmaq üçün stimulları azaldırlar.

Lakin istehsalçıların yüksək qiymətləri saxlanması daxili bazarlarda istehlak qiymətlərinin artmasına səbəb ola bilər. Yoxsul ev təsərrüfatlarının əhəmiyyətli bir hissəsi təmiz ərzaq alıcılarıdır. Beləliklə, ərzaq qiymətlərinin artması onların ərzaq təhlükəsizliyinə və qidalanmasına mənfi təsir göstərə bilər, həmçinin mənfi mübarizə strategiyalarına səbəb ola bilər. Əksinə, ərzağın aşağı qiyməti eyni ev təsərrüfatlarına fayda gətirir, lakin təmiz ərzaq satıcıları ərzaq istehsalından və bazarlarda iştirakdan çəkindirir.

Dövlət ərzaq tədarükünün kiçik fermerlərin bazarlara çıxışına təsiri və nəticədə gəlirlərin, ərzaq təhlükəsizliyinin və qidalanmanın yaxşılaşdırılması bir sıra amillərdən asılıdır. Onlardan biri kiçik fermerlərin ərzaq alışı zamanı rəhbər tutduğu qaydaların, prosedurların və satınalma müqavilələrinin dəqiqliklə hazırlanması, xüsusilə də Dövlət satınalmaları sahəsində təşəbbüslərin riskləri və qeyri-müəyyənlikləri azaltmaq, bazara çıxmaq üçün maneələri aradan qaldırmaq və bazarda iştirak etmək üçün stimullar yaratmaqdan ibarətdir.

Fermenrlərin bazarda iştirakı gəlirlərə və qida təhlükəsizliyinə müsbət təsiri, ev təsərrüfatlarının məhsuldar səmərəliliyindən də böyük dərəcədə təsirlənir ki, bu da öz növbəsində işçi qüvvəsi, aktivlərə çıxış, infrastruktur və maliyyədən asılıdır. Bazarın funksionallığı da əsasdır, çünki istehsal xərclərini, rəqabət səviyyələrini, qiymətləri və qiymət dəyişkənliyini müəyyənləşdirir. Bu səbəbdən torpaq, su, giriş, xidmətlər, texnologiyalar və infrastruktura məhdud giriş kimi məhdudiyyətlərin aradan qaldırılmasına kömək edən kənd təsərrüfatı müdaxilələri fermerlərin tədarük mexanizmində iştirakı üçün çox vacibdir

Kənd təsərrüfatı məhsulları tədarükçülərindən ümumiyyətlə ərzaq təhlükəsizliyi qaydalarına riayət etmək və icazə və lisenziyalar almaq tələb olunur. Bu, yoxlamalardan keçmək, rüsum ödəmək və ərzaq istehsalını, məhsul yığımından sonra və emal sahələrini yüksəltmək üçün sərmayə qoymağı tələb edir. Bu tələblər fermerlərin bazarlarda iştirakında məhdudiyyətlər yarada bilər, çünki adətən lazımi sərmayələri qoymaq üçün kapitaldan və ərzaq təhlükəsizliyi qaydalarını bilməkdən məhrumdurlar. Sertifikatlaşdırma və lisenziyalaşdırma prosesləri də bürokratik və kiçik mülkiyyətçilər üçün baha başa gələ bilər.

Son dərəcə təfərrüatlı və məhdudlaşdırıcı şərtlər, kiçik sahibkarlar üçün də çətinliklər yarada bilər. Kiçik sahibkarlıq istehsalının təbiəti, yəni mövsümi, kiçik miqyaslı və dəyişkəndir, həddindən

artıq spesifik qida tələblərinə uyğun olma qabiliyyətlərini məhdudlaşdıra bilər. Qablaşdırma tələbləri də çətinliklər yarada bilər, çünki fermerlərin fərqli qablaşdırma materiallarına investisiya qoymaq üçün mənbələri olmaya bilər.

Nəticə

Kənd təsərrüfatı məhsullarının dövlət tədarükü mexanizmində fermerlərin iştirakı mexanizmin formalaşmasının əsas elementdir. Bu mexanizm fermerlər üçün satış kanallarının yaranmasına, məhsulların keyfiyyətinin artırılmasında və ərzaq təhlükəsizliyində daha yüksək tələblərə cavab verməyə imkan verir.

Ədədbiyyat

1. FAO. 2015. "The State of Food and Agriculture – Social protection and agriculture: breaking the cycle of rural poverty". FAO: Rome.

2. European Commission. 2008a. "Public Procurement for a Better Environment".

3.. Social protection for food security. A report by the High Level Panel of Experts on Food Security and Nutrition of the Committee on World Food Security

4. Niebylski, M.L., Lu, T., Campbell, N.R., Arcand, J., Schermel, A., Hua, D., Yeates, K.E., Tobe, S.W., Twohig, P.A., L'Abbé, M.R. & Liu, P.P. 2014. "Healthy food procurement policies and their impact". International journal of environmental research and public health, 11(3), pp. 2608–2627.

5. Price volatility and food security. A report by the High Level Panel of Experts on Food Security and Nutrition of the Committee on World Food Security, Rome 2011.

Sh.N.Mamedov

doctoral student, Azerbaijan University of Architecture and Construction

Government procurement of agricultural product and food safety

Abstract

The large volume of state supply of agricultural products provides the power to influence markets and regulate relations between market participants. It has been used for a number of purposes, including public procurement, job creation, the application of innovative solutions, support for farmers, strengthening food safety, and economic development.

Keywords: Government procurement of agricultural product, contracts, procurement methods, food safety

Ш.Н.Мамедов

докторант, Азербайджанский Архитектурно-строительный Университет

Государственное снабжение сельхозпродукцией и продовольственная безопасность

Резюме

Большой объем государственных поставок сельскохозяйственной продукции дает возможность влиять на рынки и регулировать отношения между участниками рынка. Он использовался для ряда целей, включая государственные закупки, создание рабочих мест, применение инновационных решений, поддержку фермеров, укрепление продовольственной безопасности и экономическое развитие.

Ключевые слова: госзакупки сельхозпродукции, контракты, методы закупок, продовольственная безопасность

KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ AVROPA BAZARINA ÇIXARILMASI

Məmmədov Seymur Ceyhun oğlu, müəllim
Qasımova Yetər İsrayıl qızı, müəllim
Mürsəlova Nigar Vaqif qızı, müəllim
Məmmədli Hikmət Qara oğlu, magistr
Azərbaycan Texnologiya Universiteti
s.memmedov@uteca.edu.az

Xülasə

Kənd təsərrüfatı iqtisadiyyatın əsas sahələrindən biridir. Aqrar sahədə kənd təsərrüfatı məhsullarının beynəlxalq bazara çıxarılmasının səmərəli təşkili istehsalçı-istehlakçı maraqlarının qorunmasına xidmət edir, sahibkarlıq fəaliyyətinin normal işinin tənzimlənməsində və inkişafında mühüm rol oynayır.

Məqalədə Azərbaycan kənd təsərrüfatı məhsullarının qablaşdırılaraq Avropa bazarlarına çıxarılması, Avropa ölkələrinin kənd təsərrüfatı məhsulları istehsalçıları arasında birgə əməkdaşlıq, birgə istehsal, satış və ixracın təşkili perspektivləri müzakirə edilib. Tədqiqatın əsas məqsədi Azərbaycanın kənd təsərrüfatı məhsullarının Avropa bazarına ixracı üçün mövcud imkanların araşdırılması, yeni əməkdaşlıqların qurulması yollarının müəyyən olunmasıdır.

Aqrar siyasətin əsas istiqamətlərindən və ərzaq bazarının formalaşdırılması amillərindən biri aqrar sahədə istehsal, emal, satış və xidmətlərin ərzaq ehtiyatlarının yaradılmasına istiqamətləndirilməsidir. Kənd təsərrüfatı məhsullarının ixracı, məhsulların pula çevrilməsi, alıcıların-istehlakçıların ehtiyaclarının ödənilməsi prosesidir. Başqa sözlə desək, aqrar sahədə məhsulun və xidmətlərin satışı, beynəlxalq bazara satışa çıxarılması dedikdə, onun pulla dəyişdirilməsi, bir sahibkardan başqa istehlakçıya verilməsi və ya mübadilə edilməsi prosesi başa düşülür.

Azərbaycanda kənd təsərrüfatı məhsullarının ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsini təmin edən, iqtisadiyyatın şaxələndirilməsinə və rəqabətqabiliyyətli ixracyönümlü kənd təsərrüfatı məhsulları istehsalının və emalı sektorunun formalaşdırılması üçün əlverişli mühit yaradılmışdır. Bu sahədə müvafiq tənzimlənmə sisteminin təkmilləşdirilməsinə, o cümlədən dövlət yardımlarının effektivliyinin artırılmasına və Avropa bazarında rəqabətin daha da yaxşılaşdırılmasına nail olunmaqla, əlverişli biznes mühiti formalaşdırılmışdır.

Azərbaycanın ixrac potensialının ildən ilə artması və xüsusən də kənd təsərrrüfatı məhsullarının ixracda öz yerini tutması, ixracatçı təsərrüfatların öz inkişafı ilə yanaşı, ölkənin də iqtisadi cəhətdən dayanıqlı olmasında və onun tədiyyə balansının müsbət dinamikasında böyük rol oynayır. [1]

Son illərdə ölkədə kənd təsərrüfatı məhsullarının istehsal tempi artmış və xarici bazarlarda rəqabətli məhsullarımız isə dünyanın müxtəlif ölkələrinə ixrac olunmaqdadır.

Kənd təsərrüfatı məhsullarının Avropa ölkələrinə ixracı son illərdə çox böyük templə artmışdır. Bu sürətli artımın sintez yaradan bir çox səbəbləri vardır ki, onların da ən mühümləri - kənd təsərrüfatına yönləndirilmiş maliyyə resurslarının həcmi artmışdır. Həmçinin, ənənəvi ixrac malları ilə yanaşı digər məhsulların da ixracı sürətlənmişdir: misal olaraq, istixana pomidoru, alma, çiyələk, gilas, fındıq, nar və xurma meyvələrinin ixracını göstərmək olar.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycanın kənd təsərrüfatı məhsullarının ixracının artmasında yuxarıda qeyd etdiyimiz kimi, bu sahəyə ayrılan maliyyə resurslarının artmasıdır. Belə ki, kənd təsərrüfatına ayrılan maliyyə resurslarının artması ilk növbədə istehsalın intensiv artmasına kömək edir. Kənd təsərrüfatı məhsullarını istahsal edən təsərrüfatlar kifayət qədər maliyyə resursları aldıqda xaricdən qabaqcıl texnologiyalar alınır, yeni məhsuldar sortlar ölkəyə gətirilir ki, bu da istehsal olunan məhsulun həm kəmiyyət artımına, həm də keyfiyyət baxımından xarici bazarda rəqabətliyinin artmasına gətirib çıxarır. İxracın artmasına son zamanlar bölgəmizdə yaranmış imkanların da ixrac üçün münbit şərait yaratmasını qeyd etmək lazımdır, misal üçün pomidor məhsulu üzrə ixracının qat-qat artmasını göstərmək olar.

Müasir qloballaşma dövründə əvvəllər uzaq görünən ixrac bazarları da əlçatan olmuşdur. Azərbaycanın kənd təsərrüfatı məhsulları artıq Avropa ölkələri ilə yanaşı Çin, Yaponiya, Şərqi Asiya və Körfəz ölkələrinə də ixrac edilir.

Azərbaycandan son dövrlərdə daha çox ixrac edilən çiyələk, gilas, alma, fındıq və xurma kimi məhsullarla Avropa bazarlarında rəqabət aparan ölkələr daha çox Şərqi Avropa ölkələridir.

İxrac edilən kənd təsərrüfatı məhsullarının xüsusən də emal olunması və əlavə dəyər qatılması hesabına sahibkarlara və ölkəmizin büdcəsinə əlavə gəlirlərin gətirilməsi imkanlarını açır. [2]

Statistik göstəricilərə əsasən 2019-cu ilin yekunları üzrə Azərbaycan $943,3 milyon dəyərində kənd təsərrüfatı məhsulları ixrac edib ki, bu da 2018-ci ilin göstəricisi ilə müqayisədə 14,1% çoxdur. Kənd təsərrüfatı məhsullarının ixracı strukturunda $760,7 milyon ilkin kənd təsərrüfatı məhsullarının (artım 12,2%) payına düşüb. Emal olunmuş kənd təsərrüfatı məhsullarının ixrac həcmi $182,6 milyon (artım 23,3%) təşkil edib.

İqtisadi inkişaf etmiş ölkələrdə daha çox geni modifikasiya edilmiş məhsullar bazara çıxarılır. Buna görə də Avropanın özü maraqlıdır ki, Azərbaycan kimi geni modifikasiya edilməmiş, təmiz məhsulları ixrac edən ölkələrə üstünlük versin. Azərbaycan üçün alternativ bazar olaraq Avropa İttifaqı ölkələrini nümunə göstərmək olar.

Hal-hazırda kənd təsərrüfatı məhsullarının Avropa bazarlarına çıxarılması istiqmətində aidiyyəti tənzimləmə orqanlarının potensialının gücləndirilməsi, dövlət yardımlarının inkişaf məqsədlərinə uyğunlaşdırılması, qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi, məhsul istehsalı, ixracı, satışı və istehsal vasitələri bazarında rəqabət mühitinin inkişaf etdirilməsi, maliyyə resurslarına çıxışın asanlaşdırılması, bazar infrastrukturunun təkmilləşdirilməsi və beynəlxalq bazara çıxış imkanlarının yaxşılaşdırılması, informasiya-məsləhət xidmətlərinin inkişaf etdirilməsi və digər istiqamətlərdə kompleks işlər görülməkdədir. [3]

Nəticədə, gələcəkdə də bu sahədə mühüm irəliləyişlər mümkündür. Belə ki, təbii resurslardan səmərəli istifadə olunması, təsərrüfat subyektlərinin fəaliyyətinin gücləndirilməsi, kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı və Avropa bazarına çıxarılması sahələrinin dəyər zənciri üzrə inkişaf etdirilməsi üçün şərait yaradılacaq, bununla da ölkədə ərzaq təhlükəsizliyinin dayanıqlılığı təmin olunacaq, qeyri-neft sektoru üzrə ixrac həcminin artımına nail olunacaq və kənd təsərrüfatı sahəsində çalışanların gəlir əldəetmə imkanları yaxşılaşacaqdır.

Strateji Yol Xəritəsində 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı və email üzrə 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış ənənəvi təsərrüfatçılıqdan bazaryönümlü əlavə dəyər yaradan intensiv təsərrüfatçılığa keçidin gücləndirilməsi hesabına rəqabətqabiliyyətli aqrobiznesi formalaşdırmağı nəzərdə tutur.

2025-ci ilədək olan dövr üzrə uzunmüddətli baxış çərçivəsində müəyyən edilmiş məqsəd kənd təsərrüfatı sektorunun tam müasirləşdirilməsi və onun rəqabət qabiliyyətinin gücləndirilməsidir. Azərbaycan yerli istehsalda əvvəllər daha çox paya sahib olmuş, dəyər yaradan sənaye məhsullarının (məsələn, pambıq, çay və tütün məhsullarının) istehsalında və ixracında rəqabət üstünlüyünə malik olacaqdır. Bundan başqa, belə məhsulların ixracı artırılacaq, onların idxalından asılılıq azaldılacaq və nəticədə daha çox gəlir əldə ediləcəkdir. Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsinin təkmilləşdirilməsi istiqamətində görülən tədbirlər nəticəsində yaranan istehsalçıların dəyər zənciri boyunca yüksək dəyər gətirən sahələrdə fəal iştirakı təmin ediləcəkdir. [4]

2016–2020-ci illər üçün nəzərdə tutulmuş prioritetlər çərçivəsində həyata keçiriləcək tədbirlər nəticəsində 2025-ci ilədək ölkənin aqrar–sənaye müəssisələri kənd təsərrüfatı sektorunun əsaslı şəkildə dəyişməsində əsas aparıcı qüvvə olacaqdır. Bundan sonra sənaye sahələrinə yerli və xarici özəl investisiya axını olacaq, yüksək dəyər yaradan kənd təsərrüfatı məhsullarının rəqabət əsasında istehsalı və emalı həyata keçiriləcəkdir. 2025-ci ilədək kənd təsərrüfatı məhsullarının emalı sektorunda bu cür investisiyalar hesabına ən az bir neçə yerli aparıcı müəssisənin yaradılması nəzərdə tutulmuşdur. Bu aqrar–sənaye müəssisələri öz ixrac potensialını yüksəldərək ixrac bazarlarının sayını artıracaqdır. Buraya Avropa bazarları ilə yanaşı Qərb bazarlarınıda aid etmək əsas prioritet istiqamətlərdən biridir.

Beləliklə Azərbaycan Avropa bazarlarında mühüm paya sahib olacaqdır. Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrində yerli şirkətlərlə yanaşı xarici şirkətlər də geniş fəaliyyət göstərəcəkdir. Azərbaycanda investisiya axınının əhəmiyyətli dərəcədə artmasına şəraitin yaradılması, eləcə də beynəlxalq bazar iştirakçılarının kompleks layihələr və aqropolislər vasitəsilə yerli bazara daxil olması nəzərdə tutulub. [5]

Azərbaycan Dövlətinin iqtisadiyyata tənzimləyici təsiri ölkənin iqtisadi siyasəti vasitəsilə həyata keçirilir. İqtisadi siyasətimizin prioritet istiqamətlərindən olan ölkənin ixrac potensialından istifadənin tənzimlənməsi məsələsi iqtisadiyyatın dövlət idarəetməsi mexanizmində ən əhəmiyyətli mənbələrdən biridir. Çünki bu bilavasitə iqtisadi sistemin fəaliyyətinin səmərəliliyinin artırılmasına yönəldilmiş bir məsələdir. Ölkəmizin ixrac potensialından istifadənin iqtisadi tənzimlənməsi məsələsi özündə ixrac potensialından istifadənin mövcud durumunda olan çatışmamazlıqları aradan qaldırılması yollarını birləşdirir.

Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalının artırılması region və Avropa bazarlarına ixrac imkanlarını artırmaqdadır. Azərbaycanın ərzaq məhsulları istehsalçıları öz məhsullarının dünya bazarında yüksək keyfiyyətinə görə tanınmasını və bu məhsulların milli brendinin yaradılmasını təmin edəcəklər. Belə tanınmış şirkətlər ölkənin logistika infrastrukturunun inkişafı sayəsində Qafqaz regionunda əsas ixracatçı kimi fəaliyyət göstərəcək, hətta digər ölkələrə investisiya qoymaqla, biznes fəaliyyətini genişləndirə və regionda daha güclü mövqeyə sahib ola biləcəklər.

Qeyd etmək lazımdır ki, ölkənin ixrac imkanlarının genişləndirilməsi problemi ilə yanaşı, ölkənin idxal siyasətinə də fikir vermək lazımdır. Çünki ölkənin ixrac potensialının inkişafında idxalı əvəzetmə strategiyası da az rol oynamır. İxrac yönümlü modelin inkişaf etməsi, ölkənin aparıcı sənaye və kənd təsərrüfatı sahələrinin mövcud və potensial imkanlarından maksimum istifadə etməklə ixrac potensialının inkişafına yönəldilmiş əsas strategiya olmasına baxmayaraq, milli sənaye və kənd təsərrüfatı sahələrinin idxalın mənfi təsirlərindən qorunması, onların getdikcə daha güclü inkişafı və rəqabət qabiliyyətinin artırılması və gələcəkdə xarici bazara çıxış imkanı əldə etməsi məqsədilə idxalı əvəz etmə siyasətindən də istifadə olunmalıdır. [6]

Ordumuzun şanlı qələbəsi nəticəsində, Ermənistan işğalından azad etdiyi rayonlarda Prezident İlham Əliyevin oktyabrın 29-da imzaladığı "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" fərmanına uyğun olaraq xüsusi idarəetməni həyata keçirən müvəqqəti komendantlıqlar yaradılıb. Fərmana əsasən müvəqqəti komendantlıqlara Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə kənd təsərrüfatı üçün yararlı torpaqların müəyyənləşdirilməsi, kənd təsərrüfatı texnikası və istehsal vasitələrinin, kənd təsərrüfatı heyvanlarının uçotunun aparılması, saxlanılması və mühafizəsi, fitosanitar və epizootik vəziyyətin ilkin qiymətləndirilməsi həyata keçiriləcək.

Dövlət başçısı tərəfindən "Aqrar sahədə idarə etmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" və "Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında" keçən il imzalanmış fərmanlar kənd təsərrüfatının inkişafına qayğı və diqqəti əks etdirməklə yeni uğurların qazanılmasına imkan yaradır. Dayanıqlı inkişaf prinsiplərinə arxalanaraq rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsulları istehsal etmək və emal sektorunu formalaşdırmaq, islahatları sürətləndirmək, qabaqcıl təcrübəni öyrənib tətbiq etmək, idarəetməni təkmilləşdirmək, vəzifələrin aktuallığını qiymətləndirmək məsuliyyəti yüksəltmək, sahibkarlığın inkişafına dəstək vermək qarşıda duran başlıca vəzifədir.

Nəticə

Aqrar sahənin inkişafının davamlılığının təmin edilməsi, o cümlədən kənd təsərrüfatı məhsullarının ixrac potensialının gücləndirilməsi Prezident İlham Əliyev tərəfindən qarşıya qoyulmuş əsas prioritet istiqamətlərdəndir. Bu məqsədlə dövlət tərəfindən birbaşa və dolayı dəstək mexanizmləri həyata keçirilir.

Prezident İlham Əliyev 2020-ci ilin yekunları ilə bağlı keçirdiyi müşavirədə Azərbaycanın kənd təsərrüfatı məhsullarının ixracı məsələsinə yenidən baxılmalı olduğunu vurğulayıb. Bundan başqa, Prezident ixrac, eləcə də ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün kənd təsərrüfatı məhsullarının çeşidinin artırılmalı olduğunu söyləyib.

Mütəxəssislər Azərbaycan məhsullarının alıcılarının yaxın qonşular yox, əsasən Avropa və Orta Asiya ölkələri ola biləcəyini deyir. Onların sözlərinə görə, Azərbaycan yeni bazarlara çıxmaq üçün ilk növbədə Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzvlük məsələsini həll etməlidir.

Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nin "Kənd təsərrüfatı və emal sənayesi məhsulları üzrə ixracın təşviqi və dəstəklənməsi" bəndinə əsasən, ixrac bazarlarının coğrafiyasının genişləndirilməsinə və ənənəvi ixrac bazarlarındakı mövqelərin möhkəmləndirilməsinə dəstək verilməsi, "Made in Azerbaijan" brendinin təşviqi, potensial ixrac bazarları haqqında fermerlərin məlumatlandırılması, potensial ixracatçı fermerlərin müəyyənləşdirilməsi, sertifikatlaşdırma sisteminin təkmilləşdirilməsi, beynəlxalq standartların təmin edilməsi, ixrac sənədlərinin əldə edilməsinə dəstək verilməsi kimi tədbirlərin həyata keçirilməsi də nəzərdə tutulub. Bu istiqamətdə davamlı olaraq tədbirlər görülür.

Ədəbiyyat

1. Eldar Quliyev. Aqrar iqtisadiyyat, (Dərslik), Bakı 2015.

2. İbad Abbasov, Təbriz Əliyev. Qeyri-neft sənayesinin iqtisadiyyatı, (Dərslik), Bakı 2018.

3. Doç. Dr. Osman Nuri Aras, Elçin Süleymanov. Azərbaycan iqtisadiyyatı, Bakı 2010.

4. Milli iqtisadiyyat və İqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Preidentinin Fərmanı, 6 dekabr 2016.

5. http://senaye.gov.az/

6. http://economy.gov.az/

AQRAR SƏNAYE KOMPLEKSİNDƏ İDARƏETMƏ UÇOTU VƏ TƏHLİLİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

Quliyev Zakir Qəşəm oğlu, i.ü.f.d.
Bakı Biznes Universiteti
zakirquliyev@inbox.ru

Xülasə

Məqalədə aqrar sənaye kompleksinin təkmilləşdirilməsi problemlərindən bəhs edilir. Bu problemin təhlil edilməsinin əsas məqsədi onların efektivliyinin müəyyən olunmasıdır. Çünki effektivlik iqtisadi kateqoriya olaraq, xərclərlə gəlirin mütənasibliyinin əsas meyarıdır. Aqrar sənaye kompleksində idarəetmə təhlilinin təkmilləşdirilməsi problemlərinin əsas məqsədi məhsulların maya dəyərinin minimallaşdırılması və rəqabət qabiliyyətinin artırılmasıdır. Bu məsələlər məqalədə xüsusi təhlil olunur.

Açar sözlər: aqrar sənaye kompleksi, idarəetmə təhlili, audit, əmlakın kapitallaşdırılması, idarəetmə uçotu, rentabellik indeksi, subsidiya, inflyasiya

Mühasibat uçotunun və hesabatlarının islahatları üçün əsas alət beynəlxalq standartların istifadəsi olmalıdır. Aqrar sənaye konmpleksində mühasibat uçotunun və hesabatlarının islahatlarının inkişafına MHBS nöqteyi-nəzərinə uyğun aşağıdakı qayda ilə baxmaq olar: - mühasibat uçotunun və hesabatlarının hasil etdiyi informasiyanın keyfiyyətinin artırılması; - MHBS tətbiq edilməsi üçün infrastrukturun yaradılması; - mühsibat uçotunun və hesabatlarının nizamlanma sisteminin MHBS konsepsiyaları əsasında dəyişdirilməsi; - mühsibat hesabatlarına olan nəzarətin keyfiyyətləndirilməsi və gücləndirilməsi; - mühasbat uçotu və hesabatları və audit hesabatlarla məşğul olan mütəxəssislərin və istifadəçilərin peşəkarlıqlarının artırılması. Mühasibat uçotunun və hesabatlarının hasil etdiyi informasiyanın keyfiyyətinin artırılması üçün informasiyanın faydalığını müəyyən edən xüsusiyətlərə nail olaraq MHBS bilavasitə tətbiq etməklə və yaxud onun əsasında milli uçot sistemini qurulmaqla mümkündür.

Azərbaycan iqtisadiyyatında MHBS geniş tətbiq edilməsinin zəruri şərti infrastrukturun yaradılmasıdır ki, mühsibat uçotunun və hesabatlarının nizamlanması təmin edilsin. Azərbaycan

iqtisadiyyatında MHBS tətbiq edilməsinin mühüm tərəfi onun qanuniliyinin tanınması, təqdir prosedurunun həyata keçirilməsi, istifadəsinin və yayılmasının mexanizminin hazırlanması, azərbaycan dilinə rəsmi tərcümə edilməsi, MHBS uyğun mühasibat hesabatlarına nəzarət və auditin həyata keçirilməsi və MHBS tətbiq edilməsinə dair metodiki göstərişlərlə təmin edilməsi ilə həyata keçirməsidir **[1].** Mühsibat uçotunun və hesabatlarının nizamlanma sisteminin dəyişdirilməsində əsas rolu dövlət orqanlarının və ictimai ixtisas birliklərinin məntiqə uyğun fəaliyyəti aşağıdakı istiqamətlərdə olmalıdır: a) mühasbat uçotu və hesabatları və audit fəaliyyəti sahələrinə aid dövlət siyasətinin hazırlanması; b)mühasbat uçotu və hesabatları və audit fəaliyyəti sahələrinin hüquqi əsaslarının təkmilləşdirlməsi; c) MHBS təqdir prosedurunun həyata keçirilməsi və onların Azərbaycan Respublikasının ərazilərində qüvvəyə mindirilməsi; d) mühasbat uçotu və hesabatları və audit fəaliyyəti sahələrinə aid normativhüquqi aktların və milli standartların hazırlanması və təsdiq edilməsi; e) mühasbat uçotu və hesabatları və audit fəaliyyəti sahələrində qanunvericiliyə riayət olunmasına dövlət nəzarətinin təşkili; f) MHBS üzrə peşəkar ictimai ekspertizanın təşkil edilməsi; g) mühasbat uçotu və hesabatları və audit fəaliyyəti üzrə metodiki göstərişlərin və məlumat materiallarının hazırlanıb yayılması.

Qeyd etmək lazımdır ki, aktivlərin ədalətli qiymətləndirilməsində bəzi mübahisəli məqamlarda yaranır. Aqrar sənayesində vahid mühasibat uçotunun və hesbat sisteminin dəstəklənməsi üçün sistemin stabil olması təmin edilməlidir. Bunun üçün birinci növbədə qeyri adekvat inkişaf risklərini müəyyən etmək lazımdır (iqtisadi vəziyyətin reallığa uyğun olmaması, qeyri müqaisəli informasiya, ardıcıl olmayan nizamlanma, birtərəfli inkişaf). Buradada mühasibat uçotu və hesbatları uzrə müqaisəli informasiya xüsusi yer tutur. Müqaisəlilik mühasibat uçotu standartlarının və əsasnamələrin normaları ilə müəyyən edilir: - əgər standartlar müxtəlif qiymətləndirmə variantlarını nəzərdə tutmayıbsa göstəricilər müqaisəli sayılır; - əgər standartlar müxtəlif qiymətləndirmə variantlarını nəzərdə tutmayıbsa və qiymətləndirmə eyni variantla aparılıbsa göstəricilər müqaisəli sayılır. Mühasibat uçotunda tətbiq olunan müqaisəlilik obyektiv xarakter daşımır, uçot obyektlərinin qiymətləndirilməsində mütəxəssislərin şəxsi nöqteyi-nəzərindən asıldır. S. Cevonsonun qeyd etdiyi kimi «...hər elmi müddəanın kökündə» üç fundamental məntiq qanunu dayanıb: bərabərlik, ziddiyyət və üçüncünün istisnası. Buna görədə maliyyə informasiyasına qoyulan müqaisəlilik anlayışı pozulmaz fundamental məntiq qanununa uyğun olmalıdır.

Beləliklə qiymətləndirmə növləri bir qayda olaraq qiymətləndirən əşyaların əlamətləri ilə müəyyən edilir. Əgər qiymətləndirmə eyni xüsusiyyətləri xarakterizə edirsə, deməli göstəricilər müqaisəli sayılır. Əgər qiymətləndirmə fərqli xüsusiyyətləri xarakterizə edirsə, onda göstəricilər müqaisəli sayılmır. Yuxarıda deyilənləri nəzərə alaraq qiymətləndirmə növlərini iki çoxluğa bölmək olar: müqaisəli qiymətləndirmələr və müqaisəli kimi tanınmayan qiymətləndirmələr. Aktivlərin gəlirliyini əks edən bütün qiymətləndirmələr vahid müqaisəli sinifi təşkil edir və bu sinifə daxildir: mümkün satış qiymətləri, ləğv etmə dəyəri, bazar qiyməti, ədalətli qiymət, pərakəndə satış qiyməti. Əmtəənin (əşyaların) gələcəkdəki xərcləri kimi (məsələn: bərpa dəyəri, yenidən qiymətləndirmə dəyəri) əlamətini bildirən bütün növ qiymətləndirmələr başq bir qrupa daxil edilərək öz aralarında müqaisəli sayılır. Maya dəyərinin qiymətləndirilməsinin digər növlərdən fərqli olaraq, daha çox variantları mövcuddur: sex dəyəri, zavod (istehsal) dəyəri, xam malın alınması, yarımfabrikatların dəyəri və orta qiymətlərdən alınan tam qiymət. Hazırda maya dəyəri əmlakın bu növləri üçün müəyyən edilir: xam mal və materiallar, tamamlanmamış istehsal, hazır və yüklənmiş məhsullar. Bu zaman materialların ehtiyyatının qiymətləndirilməsi müəssisənin uçot siyasətinə əsasən dörd variantdan biri ilə müəyyən etmək olar: hər vahidin qiymətləndirilməsi (LİFO), orta qiymətləndirmə (AVCO), ilk mədaxil, ilk məxaric (FİFO), sonuncu mədaxil, birinci mədaxil (LİFO).**[2,s.51]**

Tamamlanmamış istehsalın maya dəyəri üzrə qiymətləndirilməsi bir neçə variantlardan birinin köməyi ilə aparılır: plan üzrə maya dəyəri; məsrəflərin bir başa maddələrini nəzrdə tutan faktiki maya dəyəri; xam malın, materialların və yarımfabrikatların istehlak qiymətinə görə. Hazır məhsulların anbarlarda və digər saxlama yerlərində hesabat dövrünün əvvəlinə (axırına) qiymətləndirilməsi həm plan üzrə maya dəyərinə görə, həmdə faktiki istehsal dəyərinə görə aparıla bilər. Hazır məhsulların, tamamlanmamış istehsalın, materialların qiymətləndirilməsində uçot

qiymətləridə istifadə oluna bilər. Müstəqil və xəbərdar olunan tərəflərin aktivlərin alınmasını və ya öhdəliklərin ödənilməsini ümumi qiymətlə həyata keçirdiyi qiymət ədalətli sayılır.

Beləliklə, ədalətli qiymətləndirmə aparmaq üçün 5 şərtin tələblərinə riayət etmək lazımdır: aktiv bazarın mövcud olması, qiymətlər barədə məlumatların asan əldə edilməsi, anlaşma tərəflərinin müstəqilliyi və məlumatlılığı, səriştəli marketinq, müstəqil peşəkar tərəfindən qiymətləndirmə mümkünlüyü. Aktiv bazar mövcud olduğu halda ədalətli qiymət kimi bazar dəyəri qəbul edilir, əks halda – qiymət verənin peşəkar mülahizələri əsasında subyektiv qiymətlər. Birinci halda həqiqi qiymət bazar qiymətləri ilə qeyri adekvat şəkildə əvəz edilir. Buna görədə bazar qiyməti ədalətləi qiymət sayılmır. Ədalətli qiymətləndirmə meyarının istifadəsi proqressiv istiqamət sayılır, çünki əmlakın həqiqi qiymətinin müəyyən edilməsi imkanını yaradır.

Prezidentin aqrar sənayesi kompleksi sahəsinə ayırdığı subsidiyalarının verilməsindədə şəffaflığın tam təmin edilməsilədə bağlı verdiyi sərəncam və tapşırığların icrasına görə istehsalçılara dövlət büdcəsinin vəsaiti hesabına olan yardımlarında verilməsi mexanizminin təkmilləşdirilməsi və bu sahədə səmərəliliyin dahada artırılmasının eləcə də şəffaflığın təmin olunması istiqamətində kənd təsərrüfatı nazirliyi tərəfindən kompleks tədbirlərdə həyata keçirilir **[5].**

Aqrar sənaye kompleksində idarəetmə təhlilinin təkmilləşdirilməsi problemlərininəsas məqsədi məhsulların maya dəyərinin minimallaşdırılması və rəqabət qabiliyyətinin artırılmasıdır. Aqrar sənaye kompleksində idarəetmə təhlilinin təkmilləşdirilməsi problemlərininişlənilməsi strateji təhlilin əsas istiqamətlərindən sayılaraq, ali rəhbərlik səviyyəsində həyata keçirilir. Onun əsas tapşırıqları aşağıdakılardır:

- idarəetmə təhlilinin təkmilləşdirilməsi problemlərinin texniki-iqtisadi xarakteristikalarının müəyyən edilməsi, keyfiyyətinin qiymətləndirilməsi, məhsulun rəqabət qabiliyyətinin artırılması;
- idarəetmə təhlilinin təkmilləşdirilməsi problemlərinin işlənilməsi və tətbiq edilməsi üçün investisiya məbləğinin müəyyən edilməsi;
- idarəetmə təhlilinin təkmilləşdirilməsi problemlərinin işlənilməsi (maliyyə, kadr, maddi-texniki) imkanlarının müəyyən edilməsi;
- idarəetmə təhlilinin təkmilləşdirilməsi problemlərinə qoyulan xərclərinin çıxarılma müddətinin müəyyən edilməsi;
- idarəetmə təhlilinin təkmilləşdirilməsi problemlərinin efektivliyinin qiymətləndirilməsi.

Aqrar sənaye kompleksi səviyyəsində idarəetmə təhlilinin təkmilləşdirilməsi problemlərinin effektivliyinin analitik qiymətləndirilməsi üçün üç qrupda birləşən geniş göstəricilər sistemi tətbiq edilir.

Birinci qrupa aid göstəricilər idarəetmə təhlilinin təkmilləşdirilməsi problemlərinin tətbiq edilməsi nəticəsində istehsalat efektini xarakterizə edir:**[6,səh 434]** İdarəetmə təhlilinin təkmilləşdirilməsi problemlərinin hesabına yaranan qiymət fərqi (ΔƏQ) ΔƏQ = ƏQ1 – ƏQ0, burada ƏQ1

1- idarəetmə təhlilinin təkmilləşdirilməsi problemlərindən sonrakı qiymət ƏQ0 - idarəetmə təhlilinin təkmilləşdirilməsi problemlərinə qədər olan qiymətdir.

2. idarəetmə təhlilinin təkmilləşdirilməsi problemlərinin hesabına yaranan gəlir fərqi (ΔG) ΔG = G1 – G0, burada G1- idarəetmə təhlilinin təkmilləşdirilməsi problemlərindən sonrakı gəlir, G0- idarəetmə təhlilinin təkmilləşdirilməsi problemlərinə qədər olan gəlir.

3. Maya dəyərinin azalması hesabına qənaət: Q=H1(MD0-MD1), burada H1idarəetmə təhlilinin təkmilləşdirilməsi problemlərindən sonra məhsulun illik istehsalının həcmidir; MD0 və MD1 müvafiq olaraq idarəetmə təhlilinin təkmilləşdirilməsi problemlərindən qabaq və sonra olan maya dəyərləridir.

4. istehsalda əmək sərfiyyatının azalması: İ= H1(ƏS0-ƏS1), burada ƏS0 və ƏS1müvafiq olaraq idarəetmə təhlilinin təkmilləşdirilməsi problemlərindən qabaq və sonra olan əmək sərfiyyatıdır. Əgər bu qənaət bir fəhlənin illik iş vaxtına bölünsə işçiərin sayının azalması müəyyən edilər.

İkinci qrupa idarəetmə təhlilinin təkmilləşdirilməsi problemlərinin maliyyə effektivliyini xarakterizə edən göstəricilər daxildir:

1. Faiz və vergiləri ödənilməyən gəlir fərqi (ΔP) ΔP=P1 – P0, burada P1- idarəetmə təhlilinin təkmilləşdirilməsi problemlərindən sonrakı əməliyyat fəaliyyəti nəticəsində, faiz və vergiləri

ödənilməyən gəlir; P0–idarəetmə təhlilinin təkmilləşdirilməsi problemlərinə qədər faiz və vergiləri ödənilməyən gəlir.

2. Faiz və vergilərin ödənilməsindən sonra təmiz gəlir fərqi (ΔTG) 66 ΔTG =TG1 –TG0 , burada TG1- faiz və vergilər ödənildikdən və idarəetmə təhlilinin təkmilləşdirilməsi problemlərindən sonrakı gəlir, TG0 - idarəetmə təhlilinin təkmilləşdirilməsi problemlərinə qədər olan gəlir.

3. Faizlərin və vergilərin ödənilməsinə qədər məhsulun satışından əldə edilən gəlirin təmiz gəlirə nisbəti kimi hesablanan ümumi gəlirin normasının fərqi : ΔPüm =Püm1 – Püm0,

4. Faizlərin və vergilərin ödənilməsindən sonra məhsulun satışından əldə edilən gəlirin təmiz gəlirin cəminə nisbəti kimi hesablanan təmiz gəlirin normasının fərqi: ΔPt =Pt1 – Pt0

Üçüncü qrupa idarəetmə təhlilinin təkmilləşdirilməsi problemlərinin investisiya efektivliyinin göstəriciləri aiddir. Burada real investisiyaların efektivliyini qiymətləndirən göstəricilər istıfadə olunur: təmizə çıxarılan efekt, rentabellik indeksi, sərf olunmuş xərclərin çıxarılma müddəti, hansıların hesablanması yuxarıda göstərilmişdir. Burada hesablanma xüsusiyyəti bundan ibarətdir ki, müəssisənin idarəetmə təhlilinin təkmilləşdirilməsi problemlərindən, elmi-tədqiqatlara, təcrübə-konstruktor işlərinə və nəhayət istehsala və bazara çıxmağa sərf olunan xərclərin hamısı nəzərə alınır **[4].**

Aqrar sənaye kompleksinin idarəetmə təhlilinin təkmilləşdirilməsi problemlərinin potensialının analitik konsepsiyasının öyrənilməsi, onun mahiyyətinin və strukturunun (tapşırıqların əsaslandırılması, idarəçilik təhlilinin metodları və istiqamətləri) təhqiq edilməsini sistemli yanaşma üsulu ilə müəyyən edir. Elmi-texniki tərərqqinin nəaliyyətlərini istehsalatda praktiki tətbiqinin obyektiv təsvir edilməsi üçün bütün aspektlərin kompleks şəklində baxılması tələb olunur. Aqrar sənaye kompleksinin təkmilləşdirilməsi problemlərinin təhlil edilməsinin əsas məqsədi onların efektivliyinin müəyyən olunmasıdır. Çünki efektivlik iqtisadi kateqoriya olaraq, xərclərlə gəlirin mütənasibliyidir. Buna görədə təkmilləşdirilməsi problemlərinin layihəsinin efektivliyini analitik qiymətləndirmək üçün aşağıdaki məsələləri həll etmək lazımdır: - Həyata keçirilən layihənin qiymətləndirilməsi;

- layihənin həyata keçirilməsinin məqsədə uyğunluğunun potensial qiymətləndirilməsi (yəni bütün nəticələr xərclərdən dahada qiymətlidir);

- layihənin efektivliyinin müqaisəli qiymətləndirilməsi (yəni alternativ layihələr ilə müqaisədə üstün cəhətlərin müəyyən edilməsi) **[3].**

Təkmilləşdirilmə problemlərinin layihələrinin təhlili bir neçə mərhələ ilə aparılır:

1) Gözlənilən əsas iqtisadi göstəricilərin hesablanması üçün ilkin informasiyanın hazırlanması;

2) Güman edilən iqtisadi göstəricilərin illər üzrə hesablanması;

3) Üçüncü mərhələ ən məsuliyyətlidir, çünki qiymət göstəricilərinin iqtisadi şərhi ilə və bunun əsasında optimal layihənin seçilməsi ilə bağlıdır.

Nəticə. Bütün mərhələdə aqrar sənaye kompleksinin təkmilləşdirilməsi problemlərinin layihələrinin rentabelliyi orta bank kreditinin faizi ilə müqaisə olunur. Rentabellik gözlənilən gəlir məbləğinin layihənin qiymətinə olan nisbəti kimi hesablanır. Əgər aqrar sənaye kompleksinin layihəsinin hesablanmış rentabelliyi orta bank kreditinin faizindən aşağıdırsa layihə rədd edilir, çünki banka faizlə pul qoymaq dahada sərfəlidir. Daha sonra aqrar sənaye kompleksinin təkmilləşdirilməsi problemlərinin layihəsinin rentabelliyi ölkədə gedən inflyasiyanın orta göstəricisi ilə müqaisə olunur. Bu pul vəsaitinin inflyasiyadan qorunması üçündür. Çünki əgər inflyasiya rentabelliyi üstələsə müəssisənin kapitalı dəyərini itirir.

Ədəbiyyat

1. Q. Ə. Abbasov “Mühasibat uçotunun nəzəriyyəsi”, Bakı-2015
2. S. M. Səbzəliyev, Y. Mustafayev, N. Musayeva “Mühasibat uçotu”, Bakı-2014
3. V. A. Terexova “Maliyyə uçotu”, Bakı-2008
4. Əliyev R.B. “İqtisadi təhlilin nəzəriyyəsi”, Bakı-2002
5. Namazova C.B., Haciyev F.Ş. “Müştərək müəssisələrdə mühasibat uçotu və iqtisadi təhlil”, Bakı-2005 Rus dilində
6. Бухгалтерский учет (под. ред. И.Е. Тишкова), Минск-1999

Д.ф.э.н. Гулиев Закир Гашам
Вакинский Университет Бизнеса
Управленческий учет в агропромышленном комплексе и направления совершенствования анализа

РЕЗЮМЕ

В статье рассматриваются проблемы совершенствования аграрной отрасли. Основной целью анализа этой проблемы является определение их эффективности. Потому что эффективность как экономическая категория является ключевым критерием затрат и доходов. Основной целью совершенствования управленческого анализа в агропромышленном комплексе является минимизация себестоимости продукции и повышение конкурентоспособности. Эти вопросы специально проанализированы в статье.

Ключевые слова: агропромышленный комплекс, управленческий анализ, аудит, капитализация имущества, управленческий учет, индекс рентабельности, субсидирование, инфляция.

Ph.d Guliyev Zakir Gasham
Baku Business University
Management Accounting In The Agro-Industrial Complex And Directions To Improve The Analysis

SUMMARY

The article deals with the problems of improving the agro-industrial complex. The main purpose of analyzing this problem is to determine their effectiveness. Because efficiency, as an economic category, is a key criterion of cost and income. The main goal of improving the management analysis in the agrarian industry is to minimize the cost of products and increase competitiveness. These issues are specifically analyzed in the article.

Keywords: agro-industrial complex, management analysis, audit, capitalization of property, management accounting, profitability index, subsidy, inflation.

AQRAR SƏNAYE KOMPLEKSLƏRİNİN FƏALİYYƏTİNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİ MEXANİZMİ

Hacıyeva Zülfiyyə Elman qızı
Sumqayıt Dövlət Universiteti
haciyeva-zulfiyye@inbox.ru

Xülasə: *Məqalədə aqrar siyasət dövlətin iqtisadi siyasətinin tərkib hissəsi kimi nəzərdən keçirilmişdir. Aqrar sənaye komplekslərinin inkişafı baxımından dövlətin aqrar siyasətinin rolu tədqiq edilmişdir. Aqrar sənaye komplekslərinin inkişaf etdirilməsinin məqsəd və vəzifələri müəyyən edilmişdir. Aqrar sənaye komplekslərinin inkişafında dövlətin rolu araşdırılmışdır. Aqrar sənaye komplekslərinin fəaliyyətinin dövlət tənzimlənməsinin zəruriliyi əsaslandırılmışdır. Həmçinin, ölkənin sosial-iqtisadi inkişafındakı roluna əsaslanaraq aqrar sənaye komplekslərinin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində tövsiyə xarakterli təkliflər irəli sürülmüşdür.*

Aqrar siyasət dövlətin iqtisadi siyasətinin ən vacib hissələrindən biridir. Dövlətin bütün bazar subyektlərinin maraqlarını təmin etməyə yönəlmiş aqrar siyasət yerli istehsal səviyyəsinin artırılmasında və kənd təsərrüfatı məhsullarının ixrac coğrafiyasının genişləndirilməsində əhəmiyyətli rol malikdir. Aqrar siyasət ölkənin ərzaq təhlükəsizliyinə, kənd və şəhər əhalisinin həyat keyfiyyətinin və sosial infrastrukturunun yaxınlaşmasına töhfə verərək davamlı və rəqabətli aqrar sənaye istehsalının inkişafına yönəldilməlidir. Dövlətin aqrar siyasətinin vacib istiqamətlərindən biri orta və uzunmüddətli dövr üçün aqrar sənaye kompleksinin inkişaf strategiyası ola bilər.

Aqrar sənaye kompleksi kənd təsərrüfatı məhsullarının istehsalı, onların sənaye üsulu ilə emalı, saxlanması və satışı üzrə ixtisaslaşmış, iqtisadi cəhətdən bir-biri ilə əlaqəli sahələrin, habelə

kənd təsərrüfatını və emal sənayesini istehsal vasitələri ilə təmin edən sahələrin məcmusu kimi çıxış edir. Aqrar sənaye kompleksi çoxsaylı struktur elementlərini özündə birləşdirən mürəkkəb sosial-iqtisadi sistemdir. Bu sistemdə xüsusi rol həm qlobal, həm də milli ərzaq təhlükəsizliyinin təmin edilməsinin təməli olan kənd təsərrüfatına məxsusdur. Aqrar sənaye kompleksi ölkə iqtisadiyyatında xüsusi əhəmiyyətə malikdir. Cəmiyyətin həyatını qorumaq üçün şərtləri müəyyənləşdirən əsas iqtisadi komplekslərdən biri kimi çıxış edir. Aqrar sənaye kompleksinin inkişafının öyrənilməsi onun əsas problemlərini müəyyənləşdirmək üçün zəruridir.

Qlobal çağırışlar kontekstində beynəlxalq və milli miqyasda aqrar-sənaye kompleksinin inkişafının əsas vəzifələri bunlardır:

- adambaşına düşən istehsalın artımı;
- tələb olunan keyfiyyət və çeşiddə ərzağın fiziki və iqtisadi əlçatanlığının təmin edilməsi;
- istehsalın texniki cəhətdən modernləşdirilməsi;
- əhalinin ərzaq təchizatı vəziyyətinin monitorinqi və daimi tənzimlənməsi.

Aqrar sənaye komplekslərinin inkişaf strategiyasına uyğun olaraq üç əsas məqsədi müəyyən edilə bilər:

1. Kənd yerlərinin davamlı inkişafı, kənd əhalisinin məşğulluğunun və yaşayış səviyyəsinin artırılması;
2. Maliyyə sabitliyinin təmin edilməsi və kənd təsərrüfatının modernləşdirilməsi əsasında aqrar sənaye məhsullarının rəqabət qabiliyyətinin artırılması;
3. Kənd təsərrüfatı istehsalında istifadə olunan torpaq və digər təbii sərvətlərin qorunub saxlanılması və artırılması.

Hal-hazırda yerli aqrar sənaye kompleksinin səmərəli inkişafı strateji əhəmiyyət kəsb edir. Bu kompleksin strateji əhəmiyyəti ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlıdır.

Məhz ölkənin ərzaq təhlükəsizliyinin əsasını aqrar-sənaye kompleksinin, yəni kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və istehlakçıya çatdırılması üçün məsul olan milli iqtisadiyyat sahələrinin səmərəli işləməsi təşkil edir. Əhalinin ərzaq ilə təmin edilməsi probleminin həlli üçün ən vacib şərt ölkənin aqrar-sənaye kompleksinin bütün əlaqələrinin balanslı inkişafıdır.

Ümumiyyətlə, milli ərzaq təhlükəsizliyi ölkə əhalisinin həyat təminatında mühüm yer tutur. Çünki ərzağın mövcudluğu insan həyatı üçün əsas şərtdir. Ərzaqla təminolunma səviyyəsi və ekoloji təhlükəsizlik millətin sağlamlığını və insanların ömrünü müəyyənləşdirir. Bu baxımdan dünya iqtisadiyyatının siyasi, hərbi, maliyyə və iqtisadi çağırışları çağırışları kontekstində qlobal və milli ərzaq təhlükəsizliyinin təmin edilməsinin təşkilati və iqtisadi mexanizminin təkmilləşdirilməsi ilə bağlı tədbirlərin gücləndirilməsi vacibdir. Bütün bunlar aqrar sənaye komplekslərinin davaml inkişafının sosial-iqtisadi əhəmiyyətini göstərir.

Aqrar-sənaye kompleksinin davamlı inkişafının xüsusi əhəmiyyəti yerli kənd təsərrüfatı xammalı və ərzaq məhsullarının istehsalında sürətli bir sıçrayış təmin etmək, mənfi tendensiyaları aradan qaldırmaq və idxal əvəzetmə siyasətinin səmərəli həyata keçirilməsi üçün zəruri şərait yaratmaqdır. Aqrar sənaye komplekslərinin davamlı inkişafının əsas perspektivləri səmərəli idarəetmə sistemi formalaşdıraraq istehsal və maliyyə risklərini minimuma endirmək, onların mənfi nəticələrini proqnozlaşdırmaq və qarşısını almaqla sıx bağlıdır [1].

Daxili aqrar ərzaq bazarının inkişafındakı mənfi tendensiyaları aradan qaldırmağa qadir olan milli aqrar sənaye kompleksinin inkişafının nəticələri aşağıdakılar olmalıdır: əsas alt sektorların davamlı iqtisadi artımı, sahə quruluşunun optimallaşdırılması, istehsalın texnoloji cəhətdən modernləşdirilməsi, innovativ mühitin aktiv inkişafı. Bu sahələr bir-biri ilə əlaqəli və bir-birindən asılıdır ki, bu da aqrar sənaye kompleksinin həll edilməli olan problemlərinin mürəkkəbliyini göstərir.

Hazırda ölkənin idxal olunan ərzaq məhsullarından asılılığının azaldılması problemlərinin həlli mühüm vəzifə kimi qarşıya qoyulur. Bütün bu vəzifələrin həllində dövlətin xüsusi rolu vardır.

Ümumilikdə aqrar sənaye komplekslərinin inkişafı baxımından dövlətin rolunu aşağıdakı şəkil vasitəsilə daha aydın görə bilərik. İqtisadiyyatın aqrar sənaye kompleksləri ölkənin və onun ayrı-ayrı bölgələrinin sosial-iqtisadi inkişafı üçün ən vacib prioritetlərdən biri olaraq qalır. Dövlətin rolunu gücləndirmədən və aqrar sənaye komplekslərinin fəaliyyətini dəstəkləmədən rəqabətə

davamlı aqrar ərzaq istehsalının yaradılması qeyri-mümkündür. İqtisadi subyekt olaraq dövlət məqsədli proqramlar hazırlayır və iqtisadi inkişaf siyasətini müəyyənləşdirərək aqrar iqtisadiyyatın müxtəlif sahələrinə təsir edir. Aqrar sənaye kompleksləri təbii və iqlim şəraitindən, təbii istehsal şəraitindən və sənaye müəssisələrindən güclü asılılıqla əlaqəli əhəmiyyətli risklərə məruz qalır. Bu, aqrar-sənaye kompleksinin dövlət tənzimlənməsini zəruri edir. Yalnız dövlət cəmiyyətin bütün təbəqələrinin və sosial qruplarının maraqlarını nəzərə alaraq iqtisadiyyata balanslı bir yanaşma təmin edə bilər. Yuxarıda deyilənlərdən belə çıxır ki, aqrar-sənaye komplekslərinin fəaliyyətinin dövlət tənzimlənməsi demək olar ki, obyektiv iqtisadi qanundur [3].



Şəkil. Aqrar sənaye kompleksinin inkişafında dövlətin rolu

Dövlət tənzimlənməsi sosial-iqtisadi sabitliyə nail olmaq, milli rəqabət üstünlüklərini təmin etmək, bazar mexanizmini dəyişən iqtisadi şərtlərə uyğunlaşdırmağa yönəlmiş dövlət idarəçiliyinin əsas funksiyası kimi müəyyən edilə bilər. Dövlət tənzimlənməsi dövlət orqanları tərəfindən həyata keçirilir və qanunvericilik, icraedici və tənzimləyici xarakterli xüsusi tədbirlər sistemini əhatə edir. Dövlət tənzimlənməsi əmək məhsuldarlığının inkişafı, bazar mexanizminin sabit işləməsi, ölkənin milli gəlirinin rasional bölgüsü kimi ciddi problemlərin həllinə yönəldilməlidir.

Aqrar sənaye kompleksinin fəaliyyətinin iqtisadi cəhətdən əsaslı tənzimlənməsinə ehtiyac bir sıra amillərin təsiri nəticəsində yaranır. Bunların arasında ən əhəmiyyətlisi təbii və iqtisadi təsir, kənd istehsalçılarının iqtisadiyyatın digər sahələri ilə müqayisədə aşağı inhisarlaşma dərəcəsi, kənd təsərrüfatının kapital intensivliyinin yüksək səviyyəsi və aşağı gəlirliliyi, kənd təsərrüfatı və sənaye məhsullarının, eləcə də xidmətlərin qiymətlərindəki kəskin bərabərsizlik kimi amillərdir.

Tarixən hər bir cəmiyyətdə, hər hansı bir ictimai-siyasi və sosial-iqtisadi sistemdə aqrar sənaye komplekslərinin fəaliyyəti bu və ya digər dərəcədə dövlət tərəfindən tənzimlənir.

Aqrar sənaye komplekslərinin fəaliyyətinin dövlət tənzimlənməsi vəzifələri aşağıdakılardır:

• aqrar-sənaye istehsalının sabitləşdirilməsi və inkişafı;
• ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi;
• əhali üçün ərzaq təminatının yaxşılaşdırılması;
• kənd təsərrüfatı ilə iqtisadiyyatın digər sahələri arasında iqtisadi paritetin qorunması;
• kənd təsərrüfatı və sənayedəki işçilərin gəlir səviyyəsinin yaxınlaşması;
• yerli istehsalçıların aqrar sənaye istehsalı sahəsində qorunması [2].

Beləliklə, aqrar sənaye kompleksinin dövlət tənzimlənməsi aşağıdakı prinsiplər üzərində qurula bilər:

- əmtəə istehsalçılarının kənd təsərrüfatında istehsal prosesini əsasən öz vəsaiti hesabına həyata keçirilməsi və dövlət dəstəyinin idarəetmənin səmərəliliyinin artırılması üçün bir stimul kimi qəbul edilməsi;

- dövlətin kənd təsərrüfatı istehsalını stimullaşdırmaq üçün istifadə etdiyi metod və vasitələr kənd təsərrüfatı istehsalçılarını istehsal mənbələrindən səmərəli istifadə etməyə, işlərində tətbiq olunan texnologiyaların keyfiyyətini yüksəltməyə təşviq etməlidir.

Bu şərtlərin tətbiqi kənd təsərrüfatı müəssisələrinin gəlirlərinin sabitləşməsinə, rəqabət qabiliyyətinin artırılmasına, kənd təsərrüfatında təkrar istehsal prosesinin bərpa olunmasına və dövlətin ərzaq təhlükəsizliyinin təmin olunmasına kömək edəcəkdir.

Aqrosənaye kompleksinin fəaliyyətinin dövlət tənzimlənməsi bu kompleksə daxil olan müəssisələrin mənafelərin əlaqələndirilməsinə, bütün idarəetmə formalarının subyektlərinin bərabərliyinə əsaslanaraq onların məqsədyönlü səmərəli fəaliyyətini təmin etməlidir.

Aqrar sənaye komplekslərinin fəaliyyətinin dövlət tənzimlənməsinin vacib bir tərəfi birbaşa və dolayı tənzimləmə metodlarının birləşməsidir. Birbaşa metod inzibati və hüquqi tənzimləmədir və aqrar sənaye kompleksinin subyektlərini müstəqil davranış imkanından məhrum edir. Çünki onlar dövlətin qanunvericiliyinə uyğun olaraq ciddi şəkildə hərəkət etməlidirlər. Bu metodlara qanuni və inzibati məhdudiyyətlər, kənd təsərrüfatı məhsullarının gömrük rəsmiləşdirilməsi qaydaları, malların müəyyən növlərinin buraxılmasına qadağa qoyulması və s. aid edilir. Planlaşdırılan iqtisadi nəticə qısa müddətdə əldə olunduğundan birbaşa metodlar olduqca təsirli olur. Dolayı metoddan istifadə edilərkən dövlət aqrar sektora dolayı yolla təsir göstərir, aqrar sənaye kompleksinin subyektləri üçün müstəqil qərarlar qəbul etməklə bağlı müəyyən təlimatlar hazırlayır. Buna misal olaraq kənd təsərrüfatının inkişafı strategiyasının hazırlanmasını, qiymət sisteminin tənzimlənməsini, yeni texnologiyaların tətbiqinə dəstək verilməsini və s. göstərmək olar. Beləliklə, birbaşa dövlət tənzimləmə metodu əsasən inzibati vasitələrin istifadəsi ilə, dolayı metod isə iqtisadi təsiri ilə xarakterizə olunur [4].

İqtisadi tənzimləmə metodlarının məzmunu iqtisadi subyektlərin mənafelərinin, sahibkarlıq təşəbbüsünün reallaşmasını və sağlam rəqabəti qorumaq üçün dövlətin sənaye münasibətlərinə təsirində ifadə olunur.

İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, aqrar sənaye komplekslərinin inkişafı baxımından dövlət-özəl tərəfdaşlıq adlı qarışıq modellər çox geniş yayılmışdır. Bu modelin əsas üstünlüyü həm bazar, həm də inzibati alətlərdən eyni zamanda sürətli istifadə etməyə imkan verməsidir. Bununla birlikdə, iqtisadiyyat sabitləşdikcə və səmərəlilik artdıqca bazar əsaslı tədbirlər artırılmalı və mərkəzləşdirilmiş tənzimləmənin rolu zəifləməlidir. Qarışıq dövlət-özəl tərəfdaşlıq modelinin uğurlu tətbiqi və bu əsasda effektiv iqtisadi mexanizmin inkişafı üçün aşağıdakı tədbirlərin görülməsi məqsədəuyğundur:

1. Mövcud dövlət tənzimlənməsi tədbirləri sisteminə yenidən baxılması. Həmin tədbirlər sistemini iki hissəyə bölmək vacibdir:

a) milli xarakterli tədbirlər;

b) aqrar sənaye müəssisələrinin təcrübi fəaliyyətinə dair tədbirlər.

2. Kənd təsərrüfatı məhsullarının qiymət sisteminin təkmilləşdirilməsi.

3. Vergitutma üçün tənzimləyici tədbirlərin və bu əsasda onun optimallaşdırılması istiqamətlərinin inkişaf etdirilməsi.

4. Aqrar sənaye kompleksinin dövlət tənzimlənməsinin maliyyə-kredit mexanizminin təkmilləşdirilməsi.

5. Aqrar sənaye kompleksinin dövlət və iqtisadi idarəetmə sisteminin təkmilləşdirilməsi.

6. Kənd təsərrüfatı müəssisələrinin özlərində idarəetmənin təkmilləşdirilməsi.

Aqrar-sənaye kompleksində kadr və idarəetmə siyasətinin təkmilləşdirilməsi üçün əsas tədbirlərə ehtiyac var. Bunun üçün həm ölkə daxilində, həm də xaricində sahibkarların geniş kadr hazırlığını və yenidən hazırlanmasını təşkil etmək, inzibati tənzimləmə və iqtisadi idarəetmə funksiyalarının qanunvericiliklə müəyyənləşdirilməsini qəbul etmək və hər bir sahənin, o cümlədən, dövlət tənzimləməsinin və iqtisadi özünüidarəetmənin funksional vəzifələrini, hüquqlarını və məsuliyyət meyarlarını aydın şəkildə müəyyənləşdirmək lazımdır. Yuxarıda deyilənlərdən belə çıxır ki, aqrar sənaye kompleksinin dövlət tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi üçün təklif olunan istiqamətlər səmərəliliyi, rəqabətqabiliyyətliliyi və strateji sabitliyi təmin edərək aqrar sənayeni keyfiyyətcə yeni inkişaf səviyyəsinə qaldırmağa imkan verəcəkdir.

Aqrar sənaye komplekslərinin davamlı iqtisadi inkişafında xüsusi amil aqrar sahibkarlığın inkişafıdır. Aqrar sahibkarlığının inkişafının dövlət tənzimlənməsində məqsəd aqrar sənaye kompleksinin səmərəli işləməsi üçün normativ hüquqi aktların qəbulu və icrasına nəzarət etməyə şərait yaratmaqdır.

Aqrar sahibkarlığının tənzimlənməsi üçün ən vacib funksiyalar bunlardır:

- aqrar sahibkarlığının formalaşması və inkişafı üçün hüquqi mühitin yaradılması;
- aqrar sənaye kompleksində sahibkarlıq fəaliyyətinin aparılması üçün təhlükəsizliyin təmin edilməsi;
- kənd təsərrüfatında sahibkarlığa dövlət dəstəyi və onların icrasına nəzarət proqramlarının hazırlanması;
- vergi sahəsində qanunvericiliyin tənzimlənməsi.

Bazar münasibətlərinin ən vacib funksiyalarını yerinə yetirərkən dövlət inzibati, hüquqi, iqtisadi, təşkilati tədbirlərdən aqrar sənaye kompleksində iqtisadi artım üçün şərait yaratmaq, eləcə də istehsalın azalmasını aradan qaldırmaq üçün istifadə edir. bu problemlərin həllində aqrar sənayenin inkişafı üzrə Dövlət Proqramları əhəmiyyətli ola bilər.

Belə Dövlət Proqramları aqrar-sənaye kompleksinin iqtisadi, maliyyə, istehsal və sosial problemlərinin həlli, eləcə də ölkənin sosial-iqtisadi inkişaf hədəflərinin həyata keçirilməsinə optimal şərait yaratmaq baxımından əhəmiyyətlidir. Aqrar sənaye komplekslərinin fəaliyyətinin inkişafı üzrə Dövlət Proqramlarında əsasən aşağıdakı hədəflər nəzərdə tutulur:

- daxili və xarici bazarlarda ölkənin aqrar sənaye məhsullarının rəqabət qabiliyyətinin artırılması;
- kənd təsərrüfatı istehsalçılarının maliyyə sabitliyinin təmin edilməsi;
- torpaqlardan və digər təbii sərvətlərdən istifadənin səmərəliliyinin artırılması;
- kənd yerlərinin sabit inkişafı.

Qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün maliyyə mənbəyi kimi dövlət büdcədi, regional büdcə, büdcədənkənar fondlar, müəssisələrin öz vəsaitləri, kommersiya banklarından kreditləri, investisiyalar çıxış edir.

Nəticə

Nəticə olaraq deyə bilərik ki, inkişaf etmiş aqrar sənaye kompleksi olmadan iqtisadiyyatın müsbət inkişafı və cəmiyyətin rifahının yüksəlməsi qeyri-mümkündür. Aqrar sənaye kompleksinin problemlərini həll etmək üçün dövlətin hərtərəfli dəstəyinə ehtiyac var. Çünki iqtisadiyyatın bu sektorunun fəaliyyəti ölkənin ərzaq təhlükəsizliyini təmin etmək üçün mühüm sosial-iqtisadi problemlərin həllinə yönəldilmişdir. Güclü sosial siyasət yürütmək üçün dövlət aqrar münasibətlərdə və aqrar ərzaq siyasətində baş verən dəyişikliklərə uyğun olaraq aqrar islahatlardan istifadə etməlidir. Məhz, aqrar sənaye kompleksinin inkişafında dövlət strateji hədəflərə nail olmaq üçün bu sahədə uzunmüddətli hərtərəfli həllər hazırlamadan və həyata keçirmədən mümkün deyil. Beləliklə, dövlət aqrar sənaye kompleksinin səmərəli işləməsi və istehsal həcminin artması üçün dövlət səriştəli şəkildə hədəflənmiş proqramlar hazırlamalı, sənayeni maliyyələşdirməli və kənd təsərrüfatı müəssisələrinə verilən güzəştli kreditləri dəstəkləməlidir. Bütün bunlar aqrar sənaye komplekslərinin fəaliyyətinin dövlət tənzimlənməsinin sosial-iqtisadi əhəmiyyətini göstərir.

Ədəbiyyat

1. Hacıyeva Z.E., Osmanov İ.O. Aqrar sənaye müəssisələrinin innovativ inkişafında dövlətin rolu // Elmi xəbərlər. Sosial və humanitar elmlər bölməsi, 2020, cild. 16, № 4, s.79-82

2. Абрамцева, Н.С. Государственное регулирование агропромышленного комплекса. Менеджер, 2016, № 4(78), с. 86-93

3. Кочесокова З.Х., Кочесокова И.Х. Разработка направлений государственного регулирования агропромышленного комплекса. Бизнес в законе, 2013, №5, с.184-186

4. Черникова, В. Д. Механизмы и методы государственного регулирования аграрного сектора экономики на современном этапе // Аллея науки, 2019, т. 2, № 12(39), с. 51-55

AZƏRBAYCANDA AQRAR SAHƏNİN KREDİTLƏŞMƏSİ MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSI İSTİQAMƏTLƏRİ

Məhəmmədəli Məhəmmədli, Doktorant
Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Tədqiqatlar Mərkəzi
m.mahammadeli@gmail.com

Xülasə

Kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, saxlanması və satışı proseslərinin təkmilləşdirilməsi və regionların aqrar inkişafı ilə bağlı innovative layihələrin maliyyələşdirilməsi, kənd təsərrüfatı istehsal vasitələrinin təchizatının yaxşılaşdırılması ilə bağlı layihələrin, həmçinin onların güzəştli satışının və lizinqinin maliyyələşdirilməsi,heyvandarlıq təsərrüfatlarının dövlət-özəl tərəfdaşlığı tətbiq edilməklə inkişafı sahəsində layihələrin maliyyələşdirilməsi istiqamətində kredit resursları ilə təminat sistemi əsas rola malikdir.Kənd təsərrüfatında kredit resursları ilə təminatın inkişaf etdirilməsi bu proseslərin realizə edilməsi imkanlarının genişlənməsinə təsir edir. Kredit resursları ilə təmin olunmanın kənd təsərrüfatının inkişafında mühüm yeri mövzunun aktuallığını önə çıxarır. Aqrar sahədə kreditləşmə sisteminin inkişafı üzrə nəzəri- metodoloji bazasının formalaşdırılması və tətbiqi istiqamətləri təhlil edilməsi. həmçinin kənd təsərrüfatı subyektlərinin müasir vəziyyəti qiymətləndirilərək, Azərbaycanda kənd təsərrüfatının inkişafı istiqamətləri və kredit resursları ilə təmin olunma fəaliyyətinin dövlət tənzimlənməsinin əsas problemləri, istifadəsinin stimullaşdırılması və elmi-texniki inkişafın prioritetlərinin seçilməsi üzrə kreditləşmə modelləri siyasətinin mühüm istiqamətləri tədqiq edilərək müvafiq sahələr üzrə təkliflərin irəli sürülməsi nəzərdə tutulur.

Açar sözlər: ***kənd təsərrüfatı, kredit, resurs, aqrar sahə, istehsal***

GİRİŞ

Ümumiyyətlə bitki və heyvan məhsulları istehsalına və ya bu məhsulların daha faydalı məhsullara çevrilməsinə yönəlmiş hər hansı bir iqtisadi fəaliyyət kənd təsərrüfatı fəaliyyəti hesab olunur. Bu baxımdan kənd təsərrüfatı fəaliyyəti qısaca; bitki və heyvan məhsulları istehsal etmək və bunların yarı və tam işlənmiş məhsullara çevrilməsi kimi müəyyən edilir.

Kənd təsərrüfatı fəaliyyətlərinin həyata keçirildiyi iqtisadi bölmələrə kənd təsərrüfatı müəssisələri, bu müəssisələri idarə edənlərə isə fermerlər (istehsalçılar) deyilir. Bir insanın əkinçi sayılması üçün onun kənd təsərrüfatı istehsalı ilə məşğul olduğu torpağın və ya digər istehsal amillərinin sahibi olması vacib deyildir. Kənd təsərrüfatı fəaliyyətini mülkiyyətçi, icarəçi və ya payçı kimi həyata keçirənlər də əkinçi sayılırlar.

Əkinçilik fəaliyyətinin həyata keçirilməsinin məqsədinə görə yaşayış əkinçiliyi, ticarət əkinçiliyi və sənaye əkinçiliyi mövcuddur.

Yalnız ailə üzvlərinin dolanışığını təmin etmək məqsədi ilə həyata keçirilən əkinçilik fəaliyyətinə yaşayış əkinçiliyi deyilir.

Əldə olunan məhsulların böyük bir hissəsi bazara gətirilərsə və gəlir təmin edilərsə və bu gəlirlə tədarük bazarlarından toxum, gübrə və digər məhsullar alınarsa, bu yolla aparılan kənd təsərrüfatı fəaliyyətinə ticarət əkinçiliyi deyilir.

Xüsusi kənd təsərrüfatı müəssisələrində sənaye üsulları və qabaqcıl texnologiya istifadə edilərək kütləvi istehsal üçün kənd təsərrüfatı fəaliyyətləri sənaye əkinçiliyi kimi qəbul edilir.

Texniki və iqtisadi olaraq əkinçilik fəaliyyətinin iki fərqli ölçüsü mövcuddur. Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, bitki və heyvan yetişdirmə, bitki qorunması, torpaq, suvarma, mexanizasiya, məhsulun işlənməsi və qiymətləndirilməsi və s. texniki bilik tələb edir. Müəyyən tədbirlər və xərclər müqabilində əkinçilik fəaliyyətindən mümkün olan ən yüksək gəliri təmin etmək üçün texniki tədbirlər kifayət deyil və bunlara əlavə olaraq iqtisadi prinsiplər də nəzərə alınmalıdır.[1;9]

Texniki biliklərin kənd təsərrüfatında tətbiqi zamanı ortaya çıxan iqtisadi problemlər və axtarılan həll yolları kənd təsərrüfatı fəaliyyətinin iqtisadi tərəfini təşkil edir. Bu səbəbdən, istər

dolanışıq, istər ticarət, istərsə də kənd təsərrüfatı fəaliyyətinin həyata keçirilməsində əkinçilik iqtisadiyyatına ehtiyac var.

Kənd təsərrüfatı iqtisadiyyatı əkinçilik fəaliyyəti ilə əlaqəli iqtisadi problemləri, az mənbələrdən istifadəni səmərəli şəkildə və müəyyən olunmuş məqsədə çatmaq üçün və ümumi iqtisadiyyat qanunlarının və prinsiplərinin kənd təsərrüfatına tətbiq edilməsindən irəli gələn problemləri həll etməyə çalışan bir tətbiqi elmdir.

Kənd təsərrüfat iqtisadiyyatı qıt istehsal mənbələrindən və torpaq, əmək, kapital və kənd təsərrüfatı məhsulları istehsal etmək üçün idarəetmə qabiliyyəti kimi texniki məlumatlardan istifadə edərkən istehsalçıların necə seçim etdiklərini və istehsalın sonunda əldə etdikləri məhsulları zamanla istehlakçılara necə payladıqlarını araşdırır.

Kənd təsərrüfatı iqtisadiyyatının vəzifəsi kənd təsərrüfatı elmlərinin müxtəlif nəticələrinin kənd təsərrüfatı biznesində harada, nə vaxt və necə sərfəli şəkildə tətbiq oluna biləcəyini göstərməkdir. Bu şəkildə əkinçilik fəaliyyətini daha rasional və gəlirli etmək üçün izləniləcək yol müəyyən edilə bilər. Kənd təsərrüfatı fəaliyyətində iqtisadi uğur qazanmaq üçün bütün texniki tətbiqetmələrin iqtisadi aspektini araşdırmaq lazımdır. Kənd təsərrüfatı iqtisadiyyatı yalnız kənd təsərrüfatı məhsullarının rasional və gəlirli istehsalı və paylanması ilə əlaqəli deyil, eyni zamanda istehlakçıların alıcılıq qabiliyyətini, meyllərini və davranışlarını müəyyənləşdirməkdə də rol oynayır.

Ümumiyyətlə, kənd təsərrüfatının iqtisadi təhlilini aparmaq üçün aşağıdakı məqamları araşdırmaq önəmlidir:

• İstehsal hadisələri və bazarın iş şəraiti qarşısında istehsalçının davranışını müəyyən-ləşdirmək,

• Kənd təsərrüfatının digər iqtisadi seqmentlərlə əlaqəsini aşkar etmək,

• Kənd təsərrüfatının iqtisadi inkişaf prosesindəki rolunu və əhəmiyyətini araşdırmaq,

• Böyük bir istehsalçı və istehlakçı seqmenti təşkil edən fermerlərin münasibətlərini göstərmək,

• Əkinçilik cəmiyyəti ilə bütün cəmiyyət arasındakı mövcud əlaqələri ortaya qoymaq,

• Kənd təsərrüfatı sahəsində iş və qənaət yollarını araşdırmaq,

• Kənd təsərrüfatı sektorunun digər iqtisadi qruplar və dövlət orqanı ilə münasibətlərindəki vəziyyəti və davranışlarını araşdırmaq,

• Şəhər və kənd yerləri arasındakı qarşılıqlı əlaqələrin təhlili fermer və daxili əmanət kreditləri, fermerlərin təsərrüfat fəaliyyətlərində istifadə etdikləri elektrik və su ehtiyatlarını və vaxtında istifadə edə bildikləri borcları ödəyə bilər.[2;6;7]

Müəssisələrin kapital çatışmazlığını ödəmək üçün xarici mənbələrdən əldə olunan kapital adlanan kredit bir şəxsin və ya qurumun pulunu əvvəlcədən müəyyən olunmuş vaxtda ödəmək üçün alınır. Kredit sözü “etibar” mənasını verir və uğurlu bir kredit sistemi etibara əsaslanır. Kreditlə gələcəkdə formalaşması gözlənilən kapitalın əvvəlcədən istifadəsi təmin edilir. Kənd təsərrüfatı müəssisələri kapital quruluşları və kredit tələbləri baxımından üç qrupda araşdırıla bilər:

1. Birinci qrupda tamamilə öz kapitalları ilə fəaliyyət göstərən və normal şəraitdə xarici kapitala ehtiyac duymayan müəssisələr var.

2. İkinci qrupda, öz kapitalı çatmadığı müddətdə xarici kapitaldan müvəqqəti istifadə etməli olan müəssisələr var.

3. Üçüncü qrupda xarici kapital təmin edə bilmədikləri üçün sadə və ibtidai metodlarla istehsal edən müəssisələr var.

Bu müəssisələr arasında kapital quruluşu baxımından ən ideal vəziyyətdə olanlar birinci qrupdakılardır. Xarici kapitaldan istifadə etmədən öz mənbələrindən işin bütün ehtiyaclarını ödəyə bilən bu tip müəssisələr, maliyyələşdirmə baxımından güclü bir quruluşa sahibdirlər. Kapital toplaya biləcəkləri dərəcədə, yarana biləcək istehsal və bazar risklərindən daha az təsirlənirlər. Bu baxımdan fəaliyyət sahələrində daha sərbəst hərəkət edə bilərlər. İkinci və üçüncü qrupdakı müəssisələrin səmərəli fəaliyyəti onların xarici kapitalından asılıdır. Bu cür əkinçilik sahələrinin nisbəti, xüsusilə də Türkiyədə olduğu kimi inkişaf etməkdə olan ölkələrdə çox yüksəkdir. Nəticədə,

kredit bu cür ölkələrdə kənd təsərrüfatı istehsalında lazımi kapitalın təmin edilməsində böyük əhəmiyyət qazanır. Niyə müəssisələrin kreditə ehtiyacı var?

- Məhsullarının çoxunun ildə bir dəfə satıldığı, lakin il boyu xərcləndiyi kənd təsərrüfatı sektorunda, kapital dövriyyəsi nisbəti yavaş olduğundan qənaət etməklə kapital yaratmaq çətin olduğu üçün istifadə olunan kapitalın miqdarı çox vaxt çatmır.Bu çatışmazlıq istehsalın artırılması üçün lazımi fəaliyyətlərin həyata keçirilməsinə, müəssisələrin rasionalizasiyasına və buna görə də fermerin gəlir səviyyəsinin artmasına çox mane olur. Bu vəziyyətdə öz kapitalı çatmayan fermerlərə istehsal fəaliyyətlərini vaxtında və tam şəkildə həyata keçirmək, alış və sərmayələrini fasiləsiz etmək üçün müvafiq şərtlər altında kənd təsərrüfatı kreditləri ilə dəstək verilməlidir.
- Kənd təsərrüfatı istehsalının xəstəliklərdən və zərərvericilərdən təsirlənərək təbii şərtlərdən asılı olması, sığortanın inkişaf etməməsi kənd təsərrüfatındakı riskləri və qeyri-müəyyənlikləri artırır. Nəticədə, fermerin kredit tələbi artır.
- Sürətli mexanizasiyaya, giriş istifadəsindəki artımlara və istehlakçı seçimlərində dəyişikliklərə uyğunlaşmaq üçün fermerlərin əlavə xərclər etmələri lazımdır.
- Kənd təsərrüfatı məhsullarına tələb və təklifin elastikliyi səbəbindən yaranan qiymət dəyişiklikləri kənd təsərrüfatı müəssisələrinin gəlirlərində güclü şəkildə əks olunur. Gözlənilən gəliri əldə edə bilməyən fermerlərin fəaliyyətlərinə davam etmək üçün kreditə ehtiyacları var.

Yuxarıda göstərilən bu səbəblərdən dolayı əkinçilik siyasətinin ən vacib hissəsini təşkil edən kredit əkinçilik sektorunun inkişafında əsas amillərdən biridir. Mənfəət marjasının az olduğunu və müəyyən bir dövrdə girişlərin istifadəsinin zəruri olduğunu nəzərə alsaq, istehsalçılar üçün kənd təsərrüfatı kreditinin faiz dərəcəsinin aşağı olması və asanlıqla və kifayət qədər miqdarda istifadə oluna bilməsi böyük əhəmiyyət daşıyır. Kənd təsərrüfatı kreditləri əsasən fermerlər tərəfindən aşağıdakı sahələrdə istehsal və marketinq üçün istifadə olunur:

Qeyri-neft sektorunun inkişafı, ilk növbədə, milli iqtisadiyyatda dövlət büdcəsi gəlirlərinin tarazlaşdırılması, kəndin inkişafı, həmçinin alternativ ixrac sektorunun yaradılması baxımından vacibdir. Eyni zamanda, qeyri-neft sektorunun inkişafı milli iqtisadiyyatı dəyişən bazar şərtlərindən sığortalamaq üçün alternativlərin praktik tətbiqini nümayiş etdirir. Qeyd etmək lazımdır ki, qeyri-neft sektorunun inkişafına hər cür dəstək ölkədə neftin əvvəlki əhəmiyyətini itirməsi halında strateji əhəmiyyətə malik olacaqdır. Buna görə mövcud vəziyyətdə neft gəlirlərini qeyri-neft sektoruna yönəltmək və qeyri-neft sektorunun inkişafına sərmayə qoymaq olduqca vacibdir. Qeyri-neft sektorunun şaxələndirilməsi dolayısı ilə iqtisadi artımın sürətlənməsi ilə adambaşına düşən real gəliri artırır və nəticədə ölkə əhalisinin iqtisadi rifah səviyyəsini yüksəldir. Son illər ölkəmizdə həyata keçirilən iqtisadi siyasət nəticəsində bəzi istehsal və xidmət sahələri qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirmişdir. İslahatlar nəticəsində qeyri-neft sektorunun ÜDM-də payı 2013-cü ildən sonra artmağa başladı. Dövlətin rolu bu sahədə danılmazdır.[2]

Şəkil 1: Dövlətin iqtisadiyyatı birbaşa tənzimləmə metodları 2019. [9]



Qeyri-neft sənayesinin sürətli inkişafı ilə yanaşı innovasiyaların təşviqi və genişləndirilməsi ölkədə biliyə-savada əsaslanan iqtisadiyyatın formalaşması üçün əlverişli şərait yaradacaqdır. "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında qaz sektorunun və neft-kimya sənayesinin modernləşdirilməsi, qeyri-neft sənayesinin şaxələndirilməsi və inkişafı, alternativ və bərpa olunan enerji mənbələrinə çıxışın genişləndirilməsi, aqrar sektorun inkişafı və qida təhlükəsizliyi, ticarət və xidmətlərin genişləndirilməsi və inkişafı, xarici ticarət və investisiyaların strukturunun təkmilləşdirilməsi əsas prioritet olaraq müəyyən edilmişdir. Azərbaycan Respublikası qeyri-neft sektorunun inkişafı üçün böyük potensiala malikdir. Bu imkanlar daxili bazardan idxal asılılığının qarşısını almağa və bir sıra məhsullar üçün xarici bazarlarda müqayisəli üstünlüklərə nail olmağa kömək edə bilər. Azərbaycanda emal sənayesi, kənd təsərrüfatı, tikinti, turizm, telekommunikasiya, eləcə də yüngül sənaye qeyri-neft sektorunun prioritetləri baxımından inkişaf etdirilə bilər.

Mövcud şəraitdə Azərbaycan Respublikasının milli iqtisadiyyatının qeyri-neft sektorunda inkişaf potensialının artırılması üçün, xüsusən dövlət sektorunda - infrastruktur və tranzit dəhlizlərində əhəmiyyətli investisiyaların cəlb edilməsi və sabit maliyyələşmənin təmin edilməsi vacibdir. Ümumiyyətlə, qeyri-neft sektorunun inkişafı ölkəmizin dünya iqtisadiyyatına daha dərin inteqrasiyasını təmin edəcəkdir. Azərbaycan Respublikasında bölgələrin sosial-iqtisadi inkişafı ilə bağlı Dövlət Proqramlarının həyata keçirilməsi zamanı Prezident bütün iqtisadi rayonlara daxil olan şəhər, habelə kəndlərin sosial-iqtisadi inkişaf baxımından sürətləndirilməsi, iqtisadiyyatın şaxələndirilməsi, xüsusən də bölgələrin inkişafının təminatı üçün tədbirlərin davam etdirilməsidir. Dövlət Proqramında qarşıya qoyulmuş hədəfə çatmaq üçün bölgələrdə infrastrukturun, o cümlədən kommunal xidmətlərin yaxşılaşdırılması, ixracyönümlü və rəqabətqabiliyyətli məhsulların istehsalında sahibkarlığın inkişafının sürətləndirilməsi, xüsusilə kənd yerlərində məşğulluğun artırılması nəzərdə tutulur.

İqtisadi böyümə, məşğulluq, büdcə və valyuta gəlirlərinin başlıca mənbəyi olan qeyri-neft sektoru, qarşıya qoyulmuş hədəflərə çatmaq üçün balanslı və davamlı iqtisadi böyümənin əldə edilməsində və yüksək gəlirli bir iqtisadiyyatın qurulmasında strateji rol oynamağa davam edəcəkdir.[1]

Dövlət proqramlarının uğurlu icrası nəticəsində bölgələrdə qeyri-neft sənayesinin inkişafı üçün güclü potensial yaradılmışdır. Hazırda kənd təsərrüfatı, turizm, informasiya və telekommunikasiya texnologiyaları və emal sənayesi Azərbaycanda qeyri-neft sektorunun inkişafında əsas prioritetlərdir. Beynəlxalq maliyyə qurumları Azərbaycanda kənd təsərrüfatı və turizmin vacibliyini vurğulayır. Hazırda ölkənin işləyən əhalisinin təxminən 46%-i kənd təsərrüfatında işləyir. Buna

görə də Azərbaycanda kənd təsərrüfatının inkişafı üçün müntəzəm dövlət proqramlarının icrası, bir sıra islahatların həyata keçirilməsi və yeni texnologiyaların tətbiqi sürətlənir.

Regionlarda qeyri-neft sektoru aşağıdakı xüsusiyyətlərə malikdir:

- kənd təsərrüfatı məhsulları emal sənayesinin bir çox sahələri (qida, içkilər, geyim, dəri məhsulları və s.) üçün əsas xammal kimi istifadə olunur;
- texnoloji cəhətdən bir-birilə əlaqəli müəssisələr və digər iqtisadi fəaliyyət sahələri üçün ilkin xammal və reagent kimi kimya və neft-kimya sənayesinin məhsulları (əczaçılıq, rezin və plastik məhsullar, tikinti, kompüter və elektron avadanlıqları, mebel, avtomobil və onların qoşquları, kənd təsərrüfatı, məişət və qida məhsullarının qablaşdırılması üçün qabların (çantalar, qablar, paspaslar və s.) istehsalında xammal kimi istifadə olunur;
- əmək obyektlərinə təsir, formasını dəyişdirmək texnoloji prosesdə kimyəvi-fiziki təsir metodlarının tətbiqi ilə həyata keçirilir;
- müxtəlifliyi ilə seçilən ayrı-ayrı məhsulların istehsalı, xidmətlər prosesində zəif ixtisaslaşmış maşınlar, avadanlıqlar, alətlər, cihazlar, dəzgahlar və s. istifadə olunur.
- fərdi emal sahələrinin yüksək emal gücü və material tutumu;
- sənayelərin enerji tələbatının davamlı artması;
- əmək xərclərinin yüksək miqdarı və xüsusi çəkisi;
- işçi payının yüksək səviyyədə saxlanılması.[3]

Qeyri-neft sektorunun inkişafı ölkənin iqtisadi potensialının gücləndirilməsində ən vacib amillərdən biridir. Azərbaycanın qeyri-neft sənayesi 2020-ci ildə 8,8 faiz artmışdır.[8]

2020-ci ildə Azərbaycanın ÜDM-də real artımı 3%, o cümlədən neft sektorunda 1,6 və qeyri-neft sektorunda 3,8% olmuşdur. Əlavə olaraq sənayenin inkişafı isə 8,8, kənd təsərrüfatında isə bu göstərici 4,8 faiz olmuşdur. 2020-ci ildə xidmət sektorunda artım 3,6, nəqliyyat sektorunda 4,4, rabitə və məlumat sektorunda 8,7% səviyyəsində olmuşdur. Verilən məlumatlara görə 2020-ci ildə ticarət sektorunda 4,5, turizm sektorunda isə 6% irəliləyiş müşahidə edilmişdir. Ümumilikdə, 2020-ci ildə qeyri-neft sektorunun ÜDM-dəki payı 65%-i keçərək dünya bazarında iqtisadi mövqeyin güclənməsinə səbəb olmuşdur.[4]

Qrafik 1: 2020 -ci il iqtisadi inkişaf göstəriciləri. [10]



Daha sonra hökumətin 2020-ci il üzrə əsas nominal investisiya həcminin 18,3 milyard manat (indiki nisbətdə təxminən 10,8 milyard dollar) səviyyəsində olması qeyd olunur. Qeyd edildiyi kimi, 2020-ci ildə bütün kapital qoyuluşlarının 7,7 milyard manatı (4,53 milyard dollar) ölkənin neft və qaz sektoruna, 10,6 milyard manatı (6,2 milyard dollar) qeyri-neft sektoruna yönəldilib.Verilən məlumatlara görə, 2020-ci ildə qoyulan investisiyaların ümumi həcmində dövlət investisiyaları 7,2 milyard manat (4,2 milyard dollar), özəl - 11,1 milyard manat (6,53 milyard dollar) təşkil etmişdir.[4]

İqtisadiyyatın şaxələndirilməsi istiqamətində görülən işlər Azərbaycanda qəbul edilmiş regionların sosial-iqtisadi inkişafı dövlət proqramı qeyri-neft sektoruna böyük töhfələr verdi.

Ümumiyyətlə, son illərdə Azərbaycanda xarici investisiyaların artımında müsbət meyillər müşahidə olunsa da, qeyri-neft sektorunda bu cür xarici investisiyalar olduqca zəifdir. Belə ki,

COVID-19 pandemiyası səbəbindən 2020-ci ilin ikinci rübündə qlobal birbaşa xarici investisiya axınlarının kəskin azalması müşahidə edilmişdir.[4]

Qrafik 2: 2020 - ci il üzrə qeyri - neft sektoruna kapital qoyuluşu. [10]



İnanırıq ki, bu vəziyyətdə ölkəmiz inkişaf hədəfləri naminə mövcud vəziyyəti dəyişdirəcək və önümüzdəki illərdə xarici investisiyaları artıracaqdır. Bu cəhətdən Azərbaycan iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi məqsədiylə yuxarıda qeyd olunan sahələr təkmilləşdirilməli, yeni strateji plan tədbirlərinə üstünlük verilməli, xarici siyasətçilər üçün vergi siyasəti və inzibati səmərəlilik və qanunvericilik bazası makroiqtisadi inkişafı və regional rəqabət qabiliyyətini yaxşılaşdırmalı, mülkiyyət hüquqlarının və məhkəmə sisteminin qeydiyyatı asanlaşdırılmalı, korporativ idarəetmə və şəffaflıq artırılmalıdır.

Azərbaycanda aparılan islahatlar nəticəsində bir sıra yeni iqtisadi inkişaf modeli formalaşmışdır. Bu inkişaf modelinin ən xarakterik xüsusiyyəti ölkədə qeyri-neft sektorunun yüksək artımını və yerli istehsalın daha güclü artımını təmin etməkdir.

Ölkəmizin qlobal iqtisadi böhranın təsirlərinə qarşı yüksək dayanıqlılığı, ilk növbədə, qeyri-neft sektorunun inkişafına və neftdən asılılığın əhəmiyyətli dərəcədə aradan qaldırılmasına yönəlmiş siyasətdən irəli gəlir. Sevindirici haldır ki, son illərdə Azərbaycanda qeyri-neft sektorunun inkişafı belə bir siyasət sayəsində neft sənayesinin böyümə sürətindən yüksək olmuşdur.[2]

Nəticədə, dövlət qeyri-neft sektorunu yaxşılaşdırmaq üçün müxtəlif sahələrdə addımlar atır. Müxtəlif dövlət proqramlarında qeyri-neft sektorunda inkişafın prioritet sahələri - əsasən regional proqramlar 2004-2008, 2009-2013, 2014-2018, 2019-2023, "2008-2015-ci illər üçün Qida Təhlükəsizliyi Proqramı", 2005-2025-ci illər üçün Yoxsulluğun Azaldılması və Davamlı İnkişaf Proqramları 2008-2015-ci illər və 2015-2020-2025-ci illər üçün gələcəyə baxış inkişaf konsepsiyasında öz əksini tapmışdır.

Son illərdə respublikamızda həyata keçirilən iqtisadi siyasətin əsas xarakterik xüsusiyyətləri onun sosialyönümlü olması, eyni zamanda bütün problemlərin həllində iqtisadi amilin vurğulanmasıdır. Bu dövrdə dövlət proqramlarının, fərman və sərəncamların yüksək səviyyədə reallaşdırılması ölkədə iqtisadi inkişafın sürətləndirilməsini uğurla təmin etmiş, inkişaf prosesində qeyri-neft sektorunun payını və rolunu durmadan artırmışdır.[6]

Azərbaycan hökuməti iqtisadi siyasəti xarici və daxili iqtisadi amillər, milli iqtisadiyyata təsir göstərən ortamüddətli proqnozlar nəzərə alınmaqla həyata keçirir. Azərbaycanda da qeyri-neft sektorunun inkişafı hazırda iqtisadi artımın əsas mənbəyi kimi diqqət mərkəzindədir.

Milli iqtisadiyyatın inkişafına və ixracın şaxələndirilməsinə yönəlmiş tədbirlər qeyri-neft sektorundakı iqtisadi artıma müsbət təsir göstərir. Növbəti mərhələdə digər mühüm strateji vəzifə qeyri-neft sektorunun inkişaf səviyyəsini yüksək səviyyəyə qaldırmaq və bu sahələrin rəqabət qabiliyyətini qlobal iqtisadi çağırışlara çatdırmaqdır. Bu tarixi və prioritet vəzifələrin çoxu icra

proseslərinin Strateji Yol Xəritəsində öz əksini tapmışdır. Bu vacib sənəddə göstərilən 11 sahə üçün Strateji Yol Xəritəsi qeyri-neft sənayesinin inkişafını artırmaq üçün uzunmüddətli hədəflərə istqamət verir.

Hazırda əsas vəzifə bu strateji hədəflərə çatmaq üçün zəruri olan tədbirlərin vaxtında həyata keçirilməsini təmin etmək və qeyri-neft sektorunun özünü inkişaf potensialını maksimum dərəcədə artırmağın yollarını tapmaqdır. Bunu qlobal iqtisadi mühit və Azərbaycanın üzləşdiyi iqtisadi problemlər tələb etməkdədir.

Qeyd etmək lazımdır ki, Azərbaycan qeyri-neft sektorunun inkişafını modelləşdirmək və qlobal iqtisadi problemlər səviyyəsində müvafiq tədbirlər görmək üçün mümkün qədər daha çox təbii ehtiyata və digər resurs potensialına malikdir. Ölkənin müxtəlif qeyri-neft sənayeləri - metallurgiya, kimya və neft kimyası, habelə kənd təsərrüfatı sektoru, turizm sənayesi inkişafı və gücləndirilməsi üçün böyük potensialı mövcuddur. Digər tərəfdən qeyri-neft sektorunun inkişafının düzgün təşkili xalq təsərrüfatının təhlükəsizliyinin möhkəmləndirilməsində, davamlı inkişafın təmin olunmasında, əhalinin sosial-iqtisadi problemlərinin həllində və bölgələrin iqtisadi fəallığının artırılmasında olduqca vacibdir.[6]

Bütün bunlar Azərbaycanın qeyri-neft sektoruna və qlobal təhlükələr fonunda güclü potensiala sahib olduğunu göstərir. Qeyri-neft sektorunun sürətli inkişafı ilə yanaşı, innovasiyanın təşviq edilməsi və genişləndirilməsi ölkədə bilik əsaslı iqtisadiyyatın yaradılması üçün əlverişli şərait yaratmışdır.

Dövlət proqramlarının uğurlu icrası nəticəsində bölgələrdə qeyri-neft sənayesinin inkişafı üçün güclü potensial yaradılmışdır. Hazırda Azərbaycanda kənd təsərrüfatı, turizm, informasiya və telekommunikasiya texnologiyaları və emal sənayesi qeyri-neft sektorunun inkişafında əsas prioritetlərdəndir. Beynəlxalq maliyyə qurumları Azərbaycanda kənd təsərrüfatı və turizmin vacibliyini vurğulayırlar.[3]

İşğaldan azad olunmuş ərazilərin bərpası və inkişafı ilə bağlı kompleks yanaşmanı təmin etmək üçün dörd mərhələdə fəaliyyətin həyata keçirilməsi nəzərdə tutulur. İlkin mərhələdə idarəetmə və təhlükəsizlik, infrastruktur məsələlərinin həllini, növbəti mərhələlərdə isə sosial xidmətlərin fəaliyyətini, iqtisadiyyatın yenidən qurulması və inkişafı məsələsini özündə ehtiva edir.

Azərbaycan 2020: Gələcəyə baxış Konsepsiyası"da sənaye sektorunun modernləşdirilməsi, qeyri-neft sektorunun şaxələndirilməsi və inkişafı, alternativ və bərpa olunan enerji mənbələrinə çıxışın, kənd təsərrüfatının inkişafı və ərzaq təhlükəsizliyi, enerji və ərzaq təhlükəsizliyinə çıxışın genişləndirilməsi əsas prioritet kimi müəyyən edilmişdir.[1]

Nəticədə son illərdə uğurlu şəkildə həyata keçirilən dövlət proqramları və tədbirlər qeyri-neft sektorunun daimi inkişafına, işgüzar mühitin daha da yaxşılaşdırılmasına, investisiyaların artırılmasına və yeni müəssisələr, iş yerlərinin açılmasına təkan verdi.

Ümumiyyətlə, keçən ilin əvvəllərindən etibarən ölkəmizin imici yeni iqtisadi şərtlərin yaratdığı çağırışlara uyğun olaraq həyata keçirilən dərin iqtisadi islahatlarla xarakterizə olunur. Bu islahatlar iqtisadi sektorun prioritetləri daxil olmaqla ümumi inkişafa daha güclü təsir göstərmişdir.[7]

NƏTİCƏ

Azərbaycan böyük inkişaf yoluna qədəm qoyub. Postsovet ölkələri ilə müqayisədə ölkəmizin beynəlxalq aləmdəki reytinqi daha yüksəkdir. Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının uğurlu icrası rayonların simasını tamamilə dəyişib, yeni iş yerləri açılıb. Regionlarda illərdir ki, müasir abadlıq, quruculuq, əsaslı tikinti işlərinin həyata keçirilməsi, yeni müəssisələrin yaradılması əhalinin rifahının yaxşılaşdırılmasında böyük rol oynayır. Hazırda bu işlər işğaldan azad edilmiş ərazilərimizdə də uğurla həyata keçirilir.

Ölkənin sosial-iqtisadi inkişafına dair aşağıdakı beş Milli Prioritet reallaşdırılmalıdır:

- dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
- dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
- rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
- işğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
- təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi.

Milli sosial rifah səviyyəsinin davamlı artması məqsədilə yüksək, dayanıqlı, inklüziv və başlıca olaraq özəl təşəbbüslərə arxalanan iqtisadi artımın sürətlənməsi, azad edilmiş ərazilərə əhalinin qayıdışının təmini Azərbaycanın yeni inkişaf magistralının ideoloji nüvəsini təşkil edir. Ölkəmizin uzunmüddətli davamlı və sürətli inkişafı üçün cəmiyyət, biznes və dövlət üçlüyünün uğurlu əlaqəsi möhkəmləndiriləcək. Ölkədə özəl təşəbbüslərin yaradıcı və innovativ əsaslarla inkişaf etdirilməsi iqtisadi resursların daha yüksək əlavə dəyər yaradan sahələrə istiqamətlənməsini təmin edəcək.

2021-2025-ci illərdə sosial-iqtisadi inkişaf Strategiyası qabaqcıl beynəlxalq təşkilatlar və ixtisaslaşmış məsləhətçi şirkətlərlə səmərəli əməkdaşlığın həyata keçirilməsi ilə yanaşı, ölkəmizin aidiyyatı dövlət orqanlarının, elmi təşkilatların, mütəxəssislərin və vətəndaş cəmiyyəti təsisatlarının da cəlb olunmalıdı. Çünki bu strategiya respublikamızda qüdrətli dövlət və yüksək rifah cəmiyyətinin formalaşmasına yönəlməklə, mövcud və gələcək nəsillərin mənafeyinə tam uyğundur.

Qeyri-neft sektoruna dövlət dəstəyinin gücləndirilməsi davamlı iqtisadi inkişafı təmin edəcək və Prezident İlham Əliyevin dediyi kimi, çox ciddi islahatlar və dərin islahatlar yaxın illərdə vətəndaşlarımızın həyat səviyyəsini daha da yaxşılaşdıracaqdır.

Ədəbiyyat

1. 2012-ci il 29 dekabr tarixli Fərman ilə təsdiq edilmiş "Azərbaycan 2020: “Gələcəyə baxış” inkişafı konsepsiyası"
2. “Dayanıqlı İnkişaf Məqsədləri” Statistik İcmal 2020
3. “Azərbaycan Respublikası regionlarının 2019-2023-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” 11.04.2019
4. Azərbaycan Respublikası “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsi” 2020
5. Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev strategiyası, ADİU-UNEC 2019
6. Osman A.M., Süleymanov E.A., Bulut C.K. (2019) “Azerbaycan Ekonomisinin “15 yılı. Bakü, Kafkas Yayınları: 344 s.
7. Azərbaycan Respublikası Prezidentinin saytı: www.president.az
8. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi: economy.gov.az
9. http://lib.bbu.edu.az/files/book/835.pdf- Qeyri-neft sektorunun dövlət tərəfindən tənzimlənməsi 2019.
10. https://www.azernews.az/business/157559.html -2020 - ci il iqtisadi inkişaf 2021.

ÖLKƏNİN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA REGİONLARIN ROLU

Əliyev Ə.M. i.f.d., dosent
Azərbaycan Memarlıq və İnşaat Universiteti
ORCID ID: 0000-0002-5134-188X
elesger-eliyev@list.ru
Əliyeva N.S., i.f.d., dosent
Azərbaycan Memarlıq və İnşaat Universiteti
nigar24-87@mail.ru

Xülasə

Məqalədə regionun sosial-iqtisadi inkişafını şərtləndirən amillər, müasir şəraitdə milli iqtisadiyyat fonunda regionun rolunun yüksəldilməsi və onların inkişafının tənzimlənməsinin təmin olunması xüsusiyyətləri tədqiq edilir. Bundan başqa ölkə prezidenti tərəfindən regionların inkişafına göstərilən diqqət və qayğı məqalədə geniş əks olunmuşdur.

Daha sonda Azərbaycan Respublikasının tərkib hissəsi kimi regionların iqtisadiyyatının formalaşması, onların ölkənin sosial-iqtisadi inkişafındakı polu da geniş araşdırılmışdır.

Açar sözlər: region, regional siyasət, qeyri neft sektoru, iqtisadi rayonlar, investisiya imkanları, sosial – iqtisadi inkişaf

Ölkə iqtisadiyyatının inkişaf etdirilməsində ağırlıq mərkəzi regionların problemlərinin həlli və onların kompleks inkişaf etdirilməsi üzərinə düşür.İqtisadiyyatın qeyri-neft sektorunun inkişaf perspektivləri reqionlarin mövcud durumunndan bilavasitə asılıdır.

Qeyd etmək lazımdır ki,ölkə prezidenti cənab İ.Əliyev regionların inkişafının sürətləndirilməsi kontekstində mövcud əmək ehtiyatlarından,təbii və iqtisadi potensialdan səmərəli istifadəni nəzərdə tutan dövlət proqramları və digər layıhələrin həyata keçirilməsi üçün fərman imzalamışdır. Belə ki,regionlarda infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması,bölgələrdə yaşayan əhalinin məşğulluğu və maddi rifahının yüksəldilməsi məqsədilə "Azərbaycan Respublikası reqionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" qəbul olunmuşdur.Bundan başqa 2 fevral 2021-ci ildə ölkə prezidenti cənab İlham Əliyevin sərəncamı ilə "Azərbaycan 2030:sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərdə" reallaşdırılması nəzərdə tutulan işğaldan azad olunmuş ərazilərə böyük qayıdış Azərbaycanda turizmin inkişaf etdirilməsi, sağlamlıq-müalicə turizm müəssisələrinin vahid xidmət kompleksi çərçivəsində mühüm xidmət sahələrinin inkişafına təkan verə bilər.

Azərbaycanın vəzifəsi 2030-cu ilədək ,yəni 10 il ərzində inkişaf planına uyğun olaraq ölkənin ÜDM-ini iki dəfə artırmaqdır.Bu isə orta illik iqtisadi artım tempinin 7 faizə bərabər olmasını tələb edir. Bütün bunları "Bloomberqə" müsahibəsində iqtisadiyyat naziri M.Cabbarov bildirmişdir.

Ölkə Prezidentinin 7 iyul 2021-ci il tarixli fərmanı iıə Azərbaycan Respublikası iqtisadi rayonlarının yeni bölgüsü təsdiq edimişdir.Bölgüyə əsasən 14 igtisadi rayona daxil edilən ərazilər göstərilmişdir.İşğaldan azad edilmiş əraziləri əhatə edən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası üçün xüsusi proqram qəbul olunmuşdur.Bu isə dövlət üçün strateji əhəmiyyət kəsb edən, prioritet təşkil edən regionların inkişaf etdirilməsi zərurətindən irəli gəlir.

Ölkə iqtisadiyyatın inkişafında regionun rolunun yüksəldilməsi məsələsi ilk növbədə dövlətin regional siyasəti ilə bağlı olur. Regional iqtisadi inkişaf dövlətin regional siyasəti baxımından öyrənilir. Çünki,hər bir regionun inkişafı milli maraqlar və milli iqtisadiyyat fonunda öyrənilir Regional siyasət – dövlətin iqtisadi siyasətinin əsas hissəsini təşkil edir.

Regional siyasəti həyata keçirən zaman dövlət hər şeydən əvvəl nəzərdə tutduğu yardımı düzgün şəkildə bölüşdürməyi təmin etməli, bütün təsərrüfat subyektlərinin öhdəliklərinə diqqət etməli, kiçik layihələrin maliyyələşdirilməsi prosesinə nəzarət etməlidir.

Regional siyasət haqqında danışılan zaman dövlətin stimul yaratma tədbirlərinin nəzərdən keçirilməsi böyük əhəmiyyətə malikdir. Ümumiyyətlə isə iqtisadi stimullaşdırma ikili xarakter daşıyır- birbaşa və dolayı formada. Birbaşa formalara aiddir: firmalara güzəştli kredit və subsidiya verməklə «himayə» olunan regionlarda müəssisələrin yaradılması, əsaslı tikintiyə geri qaytarılmayan ssudaların cəlb olunması, işçi və texniki personalın ixtisasının artırılmasına çəkilən xərclərin ödənilməsi, müəyyən müddət üçün vergilərin tam və ya qismən ödənişinin dayandırılması, əsaslı vəsaitlərin amortizasiyası işinin sürətləndirilməsi uçotu, nəqliyyat və elektroenerji tariflərinin aşağı salınması və s.

Regional siyasəti həyata keçirən zaman özünüidarəetmə orqanlarının (bələdiyyə) rolunu da göstərmək lazımdır. Qərb ölkələrinin əksəriyyətinin bələdiyyə orqanlarının qarşısında duran prioritet məsələlərə təsərrüfatın inkişafına yardım, əhalinin iqtisadi və sosial maraqlarının qorunması, xidmət sferasının təkmilləşdirilməsi və s. aiddir.

Son illərdə Azərbaycan iqtisadiyyatı həqiqətən çox çətin və mürəkkəb bir yenidənqurma və inkişaf yolu keçməkdədir. Lakin bu yolun çətinliklərindən asılı olmayaraq son illər Respublika rəhbərliyinin müstəqilliyinin təmin olunması istiqamətində həyata keçirdiyi məqsədyönlü geniş miqyaslı işlər özünün çox böyük müsbət nəticələrini vermişdir.Belə ki,Azərbaycan tarixinin ən parlaq səhifələrindən olan 44 günlük Vətən müharibəsinin nəticələri artıq regionların inkişaf etdirilməsi siyasətində də mühüm dəyişikliklərə səbəb olmuşdur

Bizim ikrimizcə, son illərin müsbət nəticəsi ondan ibarətdir ki, Azərbaycan müstəqillik, suverenlik əldə etmiş və siyasi, iqtisadi və sosial sahədə qazandığı nailiyyətlərlə onu möhkəmləndirmiş və böyük gələcəyi olan dönməz, əbədi müstəqilliyə çevirmişdir.Dünya ölkələrinin böyük əksəriyyətinin tənəzzüldə olduğu bir vaxtda Azərbaycanda 2021-ci ilin 6 ayı

ərzində ümumi daxılı məhsul istehsalı 2.1% artmışdır.Bu prosesdə məhz regionlarda görülən işlər hesabına iqtisadiyyatın dayanıqlı olması və şaxələndirilməsi uğurla həyata keçirilmişdir.Əlavə edək ki,qeyri-neft sektorunun inkişaf etdirilməsi üçün ölkənin redionlarında güclü iqtisadi potensial vardır.

Müasir dövr həm iqtisadi , həm də sosial inkişaf baxımından çətin və mürəkkəbdir. Bu çətinlik Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinə qədəm qoyduğu gündən keçmiş SSRİ-nin tərkibində olmuş digər Respublikalarla iqtisadi əlaqələrin birdən birə kəsilməsi ilə əlaqədardır.

İqtisadiyyatın daima təkmilləşməsi və yeniləşən istehsal istiqamətləri, quruluş dəyişiklikləri onun durumunun güclü amillər hesabına artan üstunlukləri inkişafın çox əhəmiyyətli, həm keyfiyyət, həm də kəmiyyət tərəflərini özündə əks etdirir. İqtisadiyyatın belə mütəmadi dinamik yüksəlişinin əhatə dairəsinin getdikcə çoxtərəfli geniş miqyas alması isə onun hər sonrakı inkişaf mərhələsinin sosial və istehsal zəminini xeyli gücləndlirir. Məhz dövlət müstəqilliyimizin əvəzsiz bəhrəsinin ifadəsi olaraq Azərbaycan iqtisadiyyatının milli mənafelərə uyğun zəmində yenidən qurulması, məqsədlərinin ardıcıl həyata keçirilməsi tarixdə ilk dəfə olaraq onun mühüm istiqamətlərindən biri olan məhsuldar qüvvələrin, xüsusən sənayenin ölkə ərazisi daxilində daha səmərəli yerləşdirilməsinə də böyük imkanlar açır.

Məlumdur ki, beynəlxalq aləmdə hər bir ölkənin bu əsasda regionlarında istehsalın tarazlı inkişafı onların ümumi sosial-iqtisadi tərəqqisinin ən əlamətdar göstəricilərindən biri kimi qiymətləndirilir.

Dünya təcrübəsi göstərir ki, bu mühüm problemin düzgün həllinin əsasında ilk növbədə hər bir ərazinin yerli təbii sərvətlərindən, habelə başqa istehsal imkanlarından səmərəli və dolğun istifadə etməklə ölkələrin çoxistiqamətli və geniş tərkibli iqtisadi inkişafı durur.

Müstəqillik əldə etdikdən sonra ilk illər Azərbaycan iqtisadiyyatının məlum səbəblər üzündən düçar olduğu ağır böhran onun bir çox regionlarının inkişafını daha böyuk miqyasda tənəzzülə uğratdı. Sonralar Azərbaycan iqtisadiyyatının ümumi dirçəliş və yüksəliş mühitinin yaranmasının və aparılan aqrar islahatlar nəticəsində əsas kənd təsərrüfatı məhsulları istehsalı böyük həcmdə artsa da, emal müəssisələrinin zəif bərpası çox rayonlarda bütövlükdə sənayenin əvvəllər nail olunmuş yüksək səviyyəyə qalxmasını hələ təmin etməmişdir.

Azərbaycanda bazar iqtisadiyyatının möhkəmləndirilməsi bir çox məsələlərin həll edilməsini tələb edir. Bu məsələlərin ən vaciblərindən biri də Respublikanın regionlarında sahibkarlığın inkişafıdır. Son illər Respublikada, o cümlədən regionlarda sahibkarlıq fəaliyyətini gücləndirmək məqsədilə mühüm əhəmiyyətli – normativ sənədlər qəbul edilmişdir. Bu baxımdan sahibkarlığın inkişafının dövlət proqramında sahibkarlığın regional inkişafının sürətləndirilməsi bölməsi xüsusi əhəmiyyət kəsb edir. Burada əsas məqsəd regionlara investisiyaların cəlb edilməsi yollarını araşdırmaqdan ibarətdir.

NƏTİCƏ

Ölkənin hər bir regionu təsərrüfat kompleksində özünəməxsus yer tutur..

Respublikada regionların inkişafı aşağıdakı strateji məsələlərin həllini tələb edir:

1. Elmi cəhətdən əsaslandırılmış regional inkişaf siyasətinin işləyib hazırlanması, onun həyata keçirilməsini təmin edə bilən normativ-hüquqi bazanın yaradılması.

2. Regionların investisiya imkanlarını öyrənmək və onlardan istifadənin elmi cəhətdən əsaslandlırılması . Bunlar ona görə vacibdir ki, regionlarımızın investisiya imkanları 80-ci illərə nisbətən əsaslı surətdə dəyişmişdir, yeni şəraitdə inkişaf və investisiya imkanlarını öyrənmək üçün dövlət tərəfindən dəstəklənən vahid metodologiya yoxdur.

3. Respublika regionlarının bütün təbii ehtiyat və imkanlarından səmərəli istifadə etmək, daxili tələbatı daha yüksək səviyyədə ödəmək, ərzaq və iqtisadi təhlükəsizliyi təmin etmək və eyni zamanda xarici bazara daha çox, yüksək keyfiyyətli və rəqabət qabiliyyətli məhsul çıxarmaq mənafeyini kompleks qiymətləndirmək və nəzərə almaqla aqrar və sənaye kompleksinin aparıcı sahələrinin perspektiv inkişafı və strukturunun formalaşmasının strateci planının və onun daxili tərkib hissəsi kimi müvafiq məqsədli proqramın işlənib hazırlanması və tətbiqi vaxtı çatmışdır.

4. Regional inkişafın xüsusi ərazi formalarının (aiz, xiz, azs və s.) inkişaf imkanlarının ödənilməsi prosesləri sürətləndirilməli, bələdiyyələrin onlara həvalə edilmiş ərazilərdə təsərrüfatın

inkişafında rolu və məsuliyyəti artırılmalı, bələdiyyələrlə dövlət hakimiyyət orqanları arasındakı münasibətlər daha normal hala salınmalıdır.

Ədəbiyyat

1. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı Bakı-2019-cu il
2. Əli Nuriyev ”Regional siyasət və idarəetmə “Bakı-2004
3. Bakı xəbər qəzeti ,28.08.2021.N154(4516)
4. www.economy.gov.az
5. www.stat.gov.az
6. www.ecoreform.az

Алиев А.М.
к.э.н., доцент, Азербайджанский Архитектурно-
Строительный Университет
Алиева Н.С.

Роль регионов в социально-экономическом развитии страны

Резюме

В статье исследуются факторы, определяющие социально-экономическое развитие региона, особенности повышения роли региона в современной экономике на фоне национальной экономики и обеспечения регулирования их развития. Кроме того, в статье широко отражены внимание и забота, проявленные Президентом к развитию регионов. Также широко освещено формирование экономики регионов в составе Азербайджанской Республики, их роль в социально-экономическом развитии страны.

Ключевые слова: регион, региональная политика, ненефтяной сектор, экономические регионы, инвестиционные возможности, социально-экономическое развитие.

Aliev A.M.
Candidate of Economic Sciences, Associate Professor,
Azerbaijan University of Architecture and Civil Engineering
Alieva N.S.

The role of regions in the socio-economic development of the country

Summary

The article examines the factors that determine the socio-economic development of the region, the peculiarities of increasing the role of the region in the modern economy against the background of the national economy and ensuring the regulation of their development. In addition, the article broadly reflects the attention and care shown by the President to the development of the regions. The formation of the economy of the regions within the Republic of Azerbaijan, their role in the socio-economic development of the country is also widely covered.

Key words: region, regional policy, non-oil sector, economic regions, investment opportunities, socio-economic development.

REGİONLARIN İNKİŞAF STRATEGİYASI İQTİSADİ DİVERSİFİKASİYA SİYASƏTİNİN TƏRKİB HİSSƏSİDİR.

Yusif Qəşəm oğlu Abayev, dissertant
AMEA İqtisadiyyat İnstitutu
yusifabayev@mail.ru

Xülasə

Son illərdə neft qiymətlərinin aşağı düşməsi, IV sənaye inqilabı hesabına alternativ enerji mənbələrin artan imkanları,inkişaf etmiş ölkələrin neft və qaz məhsullarından aslılığını azaltmışdır. Bu proses enerji daşıyışılarını ixdal edən ölkələrdə olduğu kimi Azərbaycan iqtisadiyyatında da ciddi mənfi təsir göstərmişdi. Bu təsiri azaltmaq məqsədilə hökümət ölkə iqtisadiyyatı üçün prioritet sektorlar müəyyən edib. Bu sahələr kənd təsərrüfatı, sənaye, turizm, tikinti, nəqliyyat, rabitə və telekomunikasiya olmaqla bu sahələrin davamlı inkişafı istiqamətində atılan addımların sürətləndirilməsinə səbəb olmuşdur. İqtisadi rayonların malik olduğu təbii iqtisadi resurslar, iqlim müxtəlifliyi və digər iqtisadi amillər qeyri-neft sektorunun inkişafında əsas rola malikdir. 2004-ci ildən qeyri-neft sektorun inkişafına dəstək məqsədilə regionların dayanıqlı inkişafı istiqamətində mərhələli şəkildə dövlət proqramları icra olunmuşdur. İcra olunan dövlət proqramları regionların sosial iqtisadi inkişafına səbəb olmaqla bərabər, qeyri-neft istiqamətində sahibkarlıq subyektlərin inkişafınada təsir etmiş və regionlarda dayanıqlı iqtisadiyyatın yeni mərhələsi formalaşmağa başlamışdır.

Açar sözlər: iqtisadi diverfikasiya, kənd təsərrüfatı, sənaye, regional inkişaf, iqtisadi dayanıqlıq

GİRİŞ

Azərbaycan Respublikasında regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Regionların inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına və nəticədə, əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan vermişdir.

Azərbaycan Respublikası Prezidentinin həyata keçirdiyi uzunmüddətli iqtisadi inkişaf strategiyası ölkənin regionlarının davamlı və tarazlı inkişafının təmin olunmasını, o cümlədən yerlərdə dayanıqlı inkişaf prinsiplərinə əsaslanan rəqabətqabiliyyətli iqtisadiyyat, yüksək standartlara cavab verən sosial rifah, təbii resursların səmərəli istifadəsini və ətraf mühitin etibarlı mühafizəsini təmin edən ekoloji təhlükəsizlik sisteminin formalaşdırılmasına imkan verən əlverişli mühit yaratmaq məqsədini daşıyır. Bu strategiyanın həyata keçirilməsində, o cümlədən ölkənin regionlarının sosial-iqtisadi inkişafının yeni keyfiyyət mərhələsinə yüksəlməsində regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramları (2004-2008, 2009-2013 və 2014-2018-ci illər üzrə) böyük əhəmiyyət kəsb edir. 2004-cü ildən uğurla icra olunan bu proqramlar regionlarda şəhər, qəsəbə və kəndlərin simasını köklü şəkildə dəyişmiş, regionların potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin, biznes və investisiya mühitinin yaxşılaşmasına və əhalinin rifahının yüksəlməsinə geniş imkanlar açmışdır. Dövlət proqramlarının icra olunduğu 2004–2018-ci illər ərzində ümumi daxili məhsul 3,3 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artmışdır.

Ölkə regionlarının, o cümlədən kənd yerlərinin sosial-iqtisadi inkişafı sahəsində əldə olunan nailiyyətləri daha da artırmaq və "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair" Strateji Yol Xəritəsinin 9.1.4-cü bəndinin icrasını təmin etmək məqsədilə "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" (bundan sonra – Dövlət Proqramı) təsdiqlənmişdir (1).

Dövlət Proqramları çərçivəsində görülmüş işlər ölkədə həyata keçirilən ümumi sosial-iqtisadi inkişaf siyasətinə ciddi dəstək vermiş və nəticədə 2005-2019-ci illərdə ümumi daxili məhsul (ÜDM)

real ifadədə bir necə dəfə artımışdır. Ölkənin mövcud təbii resurslardan mümkün qədər tam və səmərəli istifadə olunması, təsərrüfat subyektlərinin fəaliyyətinin gücləndirilməsi, yerlərdə yeni innovasiyalara əsaslanan məhsul və xidmət istehsalı sahələrinin dəyər zəncirinin bütün həlqələri üzrə inkişaf etmişdir. Son elmi-texniki tərəqqinin nailiyyətlərinin tətbiqi ilə yaşıl iqtisadiyyatın inkişafı üçün münbit şəraitin yaradılması, bununla da ölkədə neft sektoru ilə yanaşı, qeyri-neft sektorunun da dayanıqlı inkişafının təmin olunması, qeyri-neft sektoru üzrə ixrac həcminin artımına nail olunmuşdur. Regionlarda, o cümlədən kənd yerlərində yaşayan əhalinin layiqli məşğulluq və gəlir əldəetmə imkanlarının artımış və onların sosial rifah halının yüksəlməsi müşahidə olunmuş, beləliklə də regionların davamlı və tarazlı inkişafının təmin olunmuşdur.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Milli statistik məlumatlarından (Qrafik-1) da göründüyü kimi dövlət proqramların icrası nəticəsində Ümumi daxili məhsulun həcmi 2005-ci il 12522,5 milyon manatdan 2019-ci ildə 81681,0 milyona manata yüksəlmişdir. 2005-ci ildə ümumi daxili məhsulun 44,09 % neft-qaz sektorun payın düşüdüyü halda, qeyri neft-qaz sektorun payı 48,35% , məhsul və idxala xalis vergilər isə 7,56% təşkil etmişdir.

Qrafik 1. Ümumi daxili məhsulun həcmi, milyon manat



2015-ci ildən neftin qiymətində baş verən azalmalar və buna uyğun dəyişən ixrac siyasəti ÜDM həcmində də özünü azalmalarla göstərmişdir. Digər tərəfdən də ölkənin iqtisadi diverfikasiya siyasəti nəticəsində regionlarda sosial iqtisadi inkişafı sürətlənmiş, sahibkarlıq subyektlərin inkişafı üçün yaranmış münbit şəraiət nəticəsində yeni iş yerləri yaranmış, əmək qabiliyyətli əhali arasında məşğulluq səviyyəsi yüksəlmiş, gəlirləri çoxalmışdır. İstifadəyə verilən sənaye parkları, geniş məhsul istehsalını həyata keçirən aqro parklar, qış-yay turizm mərkəzləri, beynəlxalq yük daşımaların həyata keçirən nəqliyyat infrastrukturu və digər xidmətlər davamlı inkişafı müşahidə olunur. Regionlarda yenilənən sosial infrastruktur və tətbiq olan yeni texnologiyalar sahəsində iqtisadi rayonların istehsal imkanklarından düzgün istifadə hesabına qeyri neft sektorunda məhsulun növ müxtəlifliyi və həcmində də müsbət dəyişiklik baş vermişdir. Və bunun nəticəsi olaraqda 2019-ci ildə ümumi daxili məhsulda neft-qaz sektorun həcmi əvvəlki illərə nəzərən faiz nisbətində azalmış 36,84 % olmuşdur, qeyri neft-qaz sektorun həcmi 54,45%, məhsul və idxala xalis vergilər isə 8,71% olmaqla əvvəlki illərə nəzərən faiz nisbətində və həcm nisbətində artımışdır. Demək olar ki son illər büdcə gəlirlərin formalaşmasında və ixrac olunan məhsulların çəkisində neft-qaz məhsullarından aslılığımız müəyyən nisbətdə azalmış, qeyri neft sektorunda istehsalın güclənməsi həm büdcə daxil olmalarında, həm ixracda özünü göstərmiş və ölkəmiz bəzi məhsullar üzrə ixdal ölkələr sırasından çıxaraq, həmin məhsulları ixrac edən ölkələr sırasına daxil olmuşdur (2).



Dövlət Proqramın uğurla icrası nəticəsində ölkə üzrə ümumi daxili məhsul 3 dəfədən çox artışmış olsada iqtisadi rayonlar üzrə isə fərq o qədərdə hiss olunacaq dərəcədə dəyişməmişdir. Bakı və Abşeron iqtisadi rayon ilə digər 10 iqtisadi rayon arasında əsas sahələri üzrə məhsul buraxılışında çox böyük fərq var. 2015- ci il üzrə Ölkənin regionlarında iqtisadiyyatın əsas sahələri üzrə məhsul buraxılışının 73% Bakı və Abşeron iqtisadi rayon üzrə, qalan 27% isə ölkənin digər iqtisadi rayonların payına düşür. Həmçinin 5 il sonrakı dövr üçündə hiss olunacaq dərəcədə fərq olmadan 2020-ci ildə 71,74% Bakı və Abşeron iqtisadi rayon üzrə, qalan 28,26% isə ölkənin digər iqtisadi rayonların payına düşür (Qrafik-2).

İqtisadi rayonlar arasında bu qədər fərq əmələ gətirən bir necə səbəb var. Bu səbəblərdən əsası ölkə əhalisinin qanuni və qeyri qanuni formada mərkəzə yəni Bakı şəhəri və Abşeron iqtisadi rayon ərazisində yerləşməsi və urbanizasiyanın sürətlə davam etməsidir. İkinci səbəb isə böyük sənaye müəssələrinin qeyd etdiyimiz iqtisadi rayonlarda yerləşməsidir. İstər nef-qaz sektoru üzrə istərsədə qeyri neft-qaz sektorunda dəyər yaradan böyük istehsal müəssiləri və sahibkarlıq subyektlərin böyük bir hissə nəzərdə tutulmuş iqtisadi rayon ərazisində fəaliyyət göstərir. Qeyd edilən səbəblər mütəmadi olaraq ölkənin sosial, iqtisadi və ictimai həyatında müəyyən problemlər yaratmaqla bərabər, digər iqtisadi rayonların mövcud iqtisadi potensialına da mənfi təsir edir. İqtisadi rayonlara cəlb olunan yerli və xarici investisiyaların həcminə təsir edir və sahibkarların regionlara investisiya yatırmaq inamı və xərcin özünü doğrultma etibarlığın aşağı düşməsinə səbəb olur.

Quba -Xaçmaz iqtisadi rayonu

Ölkədə iqtisadi idarəetmədə çevikliyin təmin olunması, institional islahatların aparılması, xüsusəndə Qarabağın bərpası və inkişafı istiqamətində həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılması məqsədilə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 7 iyul 2021-ci il tarixli Fərmanı ilə iqtisadi rayonların yeni bölgüsü təsdiqləndi. Fərmanda qeyd edilir ki, hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Qeyd edilən ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmin edilməsi üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasının məqsədə müvafiqliyi, işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirir. Azərbaycanda iqtisadi rayonların yeni bölgüsü iqtisadi rayonları sürətli inkişafına təsir edəcək. Regionların sosial-iqtisadi inkişaf proqramı, eyni zamanda Qarabağın inkişaf strategiyası da iqtisadi rayonların yeni bölgüsünə uyğunlaşdırılacaqdır (3).

Ölkənin iqtisadi cəhətdən böyük iqtisadi potensiala malik olan iqtisadi rayonlardan birisidə Quba -Xaçmaz iqtisadi rayonudur. Quba-Xaçmaz iqtisadi rayonu aqrar sektor üzrə inkişaf etmiş və ixtisaslaşmış iqtisadi rayonlardan birisi olmaqla bərabər yüngül və aqrar sənayenin inkişafına imkan verən təbii və iqtisadi resurslara malikdir. İqtisadi rayona Quba, Qusar, Xaçmaz, Siyəzən və Şabran

rayonları daxil olmaqla, rayonun coğrafi relyefi, torpağın münbitliyi, su ehtiyyatı, meşə və təbii bitkilərin zənginliyi, mineral ehtiyatların çoxluğu və sairə bu kimi təbii amillər iqtisadi rayonun qeyri neft sektor üzrə inkişafını şərtləndirir

Tədqiqat nəticəsində əldə edilmiş mlumatlaradan hiss olunur ki Bakı və Abşeron iqtisadi rayonlar ilə digər iqtisadi rayonlar arasındakı böyük fərq yaradan səbəblərdən birisidə iqtisadi rayonlarda yetəri qədər istehsal və emal müəssisələrinin olmamasıdır. Biz bu gün bunu Quba-Xaçmaz iqtisadi rayon üzrə görürük ki məhsul istehsalı ilə istehlak arasında əlaqələr lazımı səviyyədə qurulmur. Kənd təsərrüfatın inkişafı üzrə çox böyük imkanları olan iqtisadi rayonun mövcud resurslarından düzgün istifadə olunması regionun inkişafının ləngiməsinə səbəb olur. Məsələn daimi bol sulu çayları olan iqtisadi rayonun kənd təsərrüfatına yararlı torpaqların təbiətin quraqlıq dövründə su qıtlığından əziyyət çəkir, bunun nəticəsində də məhsulldarlıq aşağı düşür, sahibkarlıq subyektlərin əlavə xərcləri çoxalır və növbəti illərdə məhsul istehsalında maraqlı olmurlar. İqtisadi rayonun ərazisində 1 əsas su anbarı, 7 su kanalı vardır.

Su anbarı: *Taxtakörpü.* **Su kanalları:** *Yuxarı Zeyxur, Samur-Abşeron (şimal bölgəsi), Qudyalçay qidalandırıcı (SAK), Cağar Cibir, Xanarx, Vəlvələçay-Taxtakörpü, Taxtakörpü-Ceyranbatan* (4). Halbu ki il boyu bol sulu olan Qusarçay, Qudyalçay, Vəlvələçay üzərində mini su anbarların tikilməsi qış aylarında yığılan su ehttiyatı hesabına yay aylarında su qıtlığının aradan qaldırılmasına səsəb ola bilər. Və yaxud da Qudyalçay, Ağçay, Vəlvələçay, Qaraçay kimi çayların yatağında qurulmuş daş karxanalarının sayının azaldılması hesabına çaylardakı suların itkinin qarşısını almaqla su qıtlığının aradan qaldırmaq mümkündür.

Quba-Xaçmaz iqtisadi rayonunda intensiv meyvəçilik və bağçılıq sürətlə inkişaf edir. Yerli təbiətinin yetişdirilməsin imkan verən bütün növ meyvə və tərəvəz məhsulları yetişdirilir. İstər yerli növ olsun istərsə də yerli təbiətə uyğunlaşdırılmış xarici növ məhsullar olsun. Regionda yetəri qədər emal müəssisələrinin olmaması istehsal olunan məhsulların bazara xammal kimi çıxarılır, bəzəndə məhsul xammal şəkilində bazarda satıla bilmədiyindən xarab olaraq atılır. Emal müəssisələrinin olmaması ölkə daxili bazarlarda xammalın emal nəticəsində alınmalı olan aralıq və son məhsulların qıtlığına səbəb olur. İqtisadi rayonda heyvandarlıq, quşçuluq və əkinçiliyin inkişafı üçün də əlverişli imkanlar mövcuddur. Bölgədə aqroparkların sayını artırmaqla bəzi qida məhsullarına olan tələbatı yerli istehsal hesabına ödəmək mümkündür. Həmçinin iqtisadi rayon beynəlxalq magistral nəqliyyat yolun üzərində yerləşsədə logistik mərkəzlərin olmaması hazır məhsulların saxlanılmasına, emalına və daşınmasına mənfi təsir göstərir (5).

Son illər ərzində Quba-Xaçmaz iqtisadi rayonda turizm sahəsində böyük inkişafa nail olmuşdur. İlin bütün fəsillərində yerli və xarici turistlərə xidmət göstər bilən Qubada yerləşən "Rexos" , Qusar rayonunda yerləşən "Şahdağ qış-yay turizm kompleksi", Xaşmaz rayon ərazisində Nabran istirahət zonası, Şabran rayon ərazisində yerləşən Qalaalthotel & Spa"mərkəzlərində daim müştərilərə keyfiyyətli xidmətlər göstərilir. Bütün bu qeyd olunan iqtisadi amillər ölkədə qeyri neft sektorun inkişafını sürətləndirməklə, əhalinin yaşayış səviyyəsinin yüksəlməsinə səbəb olur.

Nəticə. Umumi götürdükdə tədqiqatdan belə nəticə çıxarmaq olar ki regionların iqtisadi inkişafı ilə bağlı dövlət proqramları uğurla icra olunmaqdadır. Bu baxımdan da regionların istehsal imkanlarını düzgün qiymətləndirməklə iqtisadi rayonların bir-birləri ilə qarşlıqlı inteqrasiyasını təşkil etmək vacibdir. Regionların dayanıqlı inkişafını təmin etmək məqsədilə respublika üzrə Sənaye parkların sayını artırmaq, aqroparkları daha müasir texniki avadanlıqlarla təchiz etmək, bölgələrdə yeni tələblərə uyğun aqrar-sənaye klasterlərin qurulmasını sürətləndirmək, beynəlxalq nəqliyyat dəhlizləri üzərində logistik mərkəzlərin yaradılmasını təşkil etmək və sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin sayın artırmaqla mütəmmadi olaraq qəbul olunan qanun, imzalanan sərəncam və fərmanlar haqqında məlumatlandırmaq lazımdır.

Ədəbiyyat

1. http://www.e-qanun.az
2. https://www.stat.gov.az. Milli hesablar-2020 pdf
3. https://president.az
4. http://www.ier.az. Azərbaycanın əsas su anbarları və su kanalları.pdf
5. https://www.economy.gov.az

Abstract

In recent years, declining oil prices and the growing potential of alternative energy sources due to the Fourth Industrial Revolution have reduced the dependence of developed countries on oil and gaz products. This process had a serious negative impact on the economy of Azerbaijan, as well as on energy-importing countries. To reduce this impact, the government has identified priority sectors for the country's economy. These areas have accelerated the steps taken towards the sustainable development of these areas, including agriculture, industry, tourism, construction, transport, communications and telecommunications, and others. Natural economic resources, climate diversity and other economic factors owned by economic regions play a key role in the development of the non-oil sector. Since 2004, state programs for the sustainable development of the regions have been gradually implemented to support the development of the non-oil sector. The implemented state programs, along with the socio-economic development of the regions, have affected the development of non-oil businesses and a new stage of sustainable economy has begun to take shape in the regions.

Keywords: economic diversification, agriculture, industry, regional development, economic stability

REGİON MÜƏSSİSƏLƏRİNDƏ FƏALİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ DAYANIQLI İNKİŞAFIN TƏMİN EDİLMƏSİNİN ƏSASI KİMİ

Əliyeva Şöhrət İzzət, doktorant
Sumqayıt Dövlət Universiteti
sh_aliyev@mail.ru

Xülasə

Region müəssisələrində fəaliyyətin qiymətləndirilməsi müvafiq fəaliyyətləri yaxşılaşdırmağa və artırmağa yönəlmiş inkişaf sahələri olmaqla fəaliyyət potensiallarını müəyyənləşdirmək üçün bütün qiymətləndirmələri əhatə edir. İşçi istedadlarını səmərəli istifadə etmək üçün onun fəaliyyəti qiymətləndirilir. Fəaliyyətin qiymətləndirməsi, işdəki müvəffəqiyyəti, münasibət və davranışı müəyyənləşdirən, müəssisənin müvəffəqiyyətində işçinin töhfələrini qiymətləndirən planlı və çox fazalı bir prosesdir.

Açar sözlər: Fəaliyyətin qiymətləndiriliməsi, region müəssisələri, performans menecmenti, fərdi inkişaf planı, biznes strategiyası.

Region müəssisələrində fəaliyyəti qiymətləndirmədə əsas menecerlərin fəaliyyətidir ki onlar qiymətləndirmə prosesində nəyin iştirak edəcəyinə və nəyin qiymətləndirilməsinə qərar verirlər. İkinci addım, qiymətləndirmə, sistemin mərkəzindəki addımdır. Sizin fəaliyyətinizin standartları mənalı şəkildə müəyyənləşdirilir ki, ədalətli və dəqiq ölçülsünlər. İdarəetmə hissəsindəki son addımda fəaliyyəti qiymətləndirmə sonradan əldə edilən fəaliyyətin nəticələrinin gələcək perspektivi ilə, işçilərin və müəssisələrin faydalarına uyğun bir şəkildə idarə edilməsi nəzərdə tutulur. İlk addımda işçilərin göstəriciləri barədə rəy və qiymətləndirməni, fəaliyyətin qiymətləndirməsinin məqsədlərini və istifadə sahələrini qısaca izah edək. Xülasə etmək üçün bunları aşağıdakı kimi sadalamaq olar.;

- Təlim proqramlarının əsasını təşkil edəcək təlim ehtiyaclarının müəyyənləşdirilməsi,
-Obyektiv perspektivlə bərabərliyi və ədaləti təmin etmək,
- Mükafatlandırma və cəza proqramları üçün məlumatların alınması,
-İşçi qüvvəsinin planlaşdırılması üçün mövcud potensialın qiymətləndirilməsi,
-Əmək haqqı siyasətinin hazırlanması.
-Məşğulluq qərarları.

Qiymətləndirmələr müəssisədə idarəetmə qərarları və "insan üçün iş" qərarına əsaslanır."İş üçün insan " prinsipi uyğun işçi seçimi üçün əsas deyil. Fəaliyyətin qiymətləndirilməsi əvvəlcədən

təyin olunmuş standartlara görə, fərdlər baxımından ölçmək və insanların inkişaf potensialını ortaya qoymaq məqsədi daşıyır. Beləliklə həm fərdi, həm də təşkilati inkişafı və gəlirliliyi təmin edir.

Fəaliyyətin Qiymətləndirilməsi Sisteminin Faydaları. Fəaliyyətin qiymətləndirmə sistemləri, müəssisələr üçün nəticələr yaxşı istifadə edildikdə müxtəlif faydalar verirlər. Fəaliyyətin nəticələrinin istifadəsinin üstünlükləri aşağıdakılardır:

- İşçinin uğurunu ədalətli və standart meyarlarla ölçmək,
-Effektiv ünsiyyət prosesi yaratmaq və insanlara geribildirim vermək,
-İşçilərin fərdi inkişafını təmin etməklə müəssisənin səmərəliliyini artırmaq,
-İşçinin davranışını, bilik və bacarıqlarını izləmək və qiymətləndirmək imkanı,
- İşçinin fəaliyyətini inkişaf etdirmək və yaxşılaşdırmaq üçün görüləcək iş üçün bir mənbə təşkil etmək.

Qiymətləndirməni kimin həyata keçirəcəyinə qərar vermək məsələsi metodun tətbiqi ilə bağlı problemlərdən biridir və əvvəlcə həll edilməlidir. Fəaliyyətin qiymətləndirmə sistemlərində qiymətləndirmə təşkilatın rəhbərliyi və insan resursları siyasətindən asılı olub seçiləcək qiymətləndirmə texnikasına görə müəyyən edilir. Qiymətləndirmə dövründə, işçiləri müşahidə edə bilmək üçün qiymətləndirmə edəcək şəxs və ya şəxslərə fəaliyyət barədə qərar qəbul etmək üçün kifayət qədər vaxt tələb olunur. [1, s.61]

– büdcə subvensiyalarının tətbiqi vasitəsilə büdcələrarası tənzimləmə təcrübəsi bütövlükdə özünü doğrultmuşdur, belə ki, bu proses respublikanın iqtisadi cəhətdən nisbətən zəif regionlarına yardımın zəruriliyi ilə şərtlənmişdir;

– yerli büdcələrə verilən transfertlərin həcminin hesablanmasının mövcud metodikası əldə olunan nəticələri nəzərə almaqla özünün dəqiqləşdirilməsini tələb edir;

– büdcələrarası münasibətlərin mövcud tənzimləmə metodları bəzi regionlarda ələbaxımlıq əhval ruhiyyəsini yaradıb, eyni zamanda digər regionların inkişafını stimullaşdırmamaqla maliyyə resurslarının yenidən bölüşdürülməsi üzrə regional diferensasiyanı gücləndirir;

– gəlirlərin və xərclərin büdcə sisteminin səviyyələri arasında düzgün bölüşdürülməməsi və subvensiyaların verilməsinin mövcud vəziyyəti büdcə vəsaitlərinin qarşı-qarşıya axınlarının artmasına səbəb olur;

– büdcələrarası münasibətlərin tənzimlənməsinin forma və metodlarının təkmilləşdirilməsi, öz növbəsində, yerlərdə xüsusi təşəbbüsün genişləndirilməsi üçün şəraitin yaradılması, vergitutma sahəsində yerli icra orqanlarının səlahiyyətlərinin genişləndirilməsi alternativ gəlir mənbələrinin inkişafı istiqamətində həyata keçirilməlidir.

Regionlarda investisiya mühiti yaxşılaşdırılmaqla, bölgəyə daha çox kapital cəlb edilməsinə şərait yaradılmalı, regionların xərclərinin əksər hissəsi daxili mənbələr hesabına qarşılanmalıdır. İndiki şəraitdə rayonların əksəriyyətinə büdcədən dotasiya ayrılması məqsədəuyğun sayılmasa da,

bütövlükdə dotasiyaların ləğvi məsələsinə də ehtiyatla yanaşılmalı, görülən tədbirlər mərhələli aparılmalıdır. Təbii ki, burada işğal olunmuş rayonlara, sərhəd, anklav (Naxçıvan MR kimi) və problemli regionlara müəyyən istisnalar və güzəştlər edilməlidir. Ən vacibi - regionlara investisiyaların cəlb edilməsi üçün sahibkarlığın inkişaf etdirilməsinə hər cür şərait yaradılmalı, yerli özünüidarəetmə qurumları bu sahədəki fəaliyyətlərini daha da gücləndirilməlidir.

Ayrı–ayrı regionlara subsidiya, güzəştli borclar, vergi güzəştləri formasında maliyyə yardımlarının verilməsində Qərbi və Şərqi Avropa ölkələrinin təcrübəsindən yararlanmaq lazımdır. Şərqi Avropa ölkələrinin əksəriyyətində əvəzsiz subsidiyalara deyil, güzəştli kreditlərə və vergi güzəştlərinə üstünlük verilir. Vergi güzəştləri - problemli regionlarda regional və yerli vergilər ödənilərkən tətbiq edilir. Bu zaman ya vergi dərəcələri aşağı salınır, ya da onun ödənilməsi müəyyən müddətə (adətən 5 ildən 10 ilə qədər) təxirə salınır. Belə vergi güzəştləri əldə edilən gəlirləri yenidən həmin əraziyə qoymağa sövq edir. Güzəştlər də subsidiyalar kimi avtomatik və ya seçmə ilə tətbiq edilə bilər.

Hakimiyyət və idarəetmə orqanlarının müxtəlif səviyyələrində xərcləmə səlahiyyətləri və məsuliyyətlərinin ayrılması məqsədilə: a) büdcə qanunvericiliyində büdcələr arasında xərcləmə səlahiyyətlərinin dəqiqləşdirilməsi və konkretləşdirilməsi üzrə dəyişiklik edilməli; b) büdcə sisteminin hər bir səviyyənin maliyyə ehtiyaclarını müxtəlif variantları əsaslandırılmaqla obyektiv (normativ) qiymətləndirilməsi təmin edilməlidir.

Büdcə normativləri hakimiyyətin hər bir səviyyəsinin maliyyə resurslarına ehtiyaclarını daha obyektiv qiymətləndirməyə imkan yaradacaqdır. Bu, büdcə sisteminin hər bir səviyyəsini onların məsuliyyət və funksiyalarına cavab verən maliyyələşdirmə mənbələri ilə təmin etmək üçün "şaquli bərabərliyini" təmin edəcəkdir.

Azərbaycanın büdcə prosesi praktikasında dotasiyalar bir qayda olaraq mərkəzi büdcədən yerli büdcələrə maliyyə yardımı kimi verilir. Mövcud büdcə tənzimlənməsi yerli hakimiyyət orqanlarının ərazilərdə vergi bazasını artırmasına stimul yaratmır və bu, öz növbəsində, regionun ümumi iqtisadi inkişaf strategiyasına da uyğun deyildir. Nəticədə, transfert mexanizmi ərazilərin sosial-iqtisadi inkişafında əhəmiyyətli bir rol oynamır və təbii olaraq təkcə transfert mexanizminin təkmilləşdirilməsi bütövlükdə büdcələrarası münasibətlərin müasir tələblərə uyğun islah olunmasını təmin edə bilməz.

Son illərin mərkəzi büdcədən yerli və bələdiyyə büdcələrinə ayrılan dotasiyaların təhlili göstərir ki, region büdcələrinin mərkəzi büdcədə payı eyni olmadığı kimi onların gəlir mənbələrinə görə göstəriciləri də fərqlidir. Regionların inkişafına dair Dövlət Proqramlarının xeyli uğurlu nəticələrinə baxmayaraq, ölkənin məcmu büdcə daxilolmalarında regionların payı yenə də 5-6 faizdən yuxarı qalxmır. İstənilən halda, regionların büdcəyə ödədikləri və büdcədən aldıqlarını müqayisə etdikdə, regionların büdcə qarşısında öhdəliklərinin artırılması zərurəti daha qabarıq görünür.

Fikrimizcə, qəbul olunmuş müxtəlif dövlət proqramlarının nəticələrinin ölçülə bilən olması üçün müxtəlif indikatorlar vasitəsilə onlar üzərində səmərəlilik göstəricilərinin təhlil edilməsini təmin etmək lazımdır. Yəni qəbul olunmuş dövlət proqramlarının işlək olması, bunun sonda büdcələrarası münasibətin keyfiyyətinin yüksəlməsinə, başqa sözlə, dövlətin strateji planları arasında harmoniyasının təmin olunmasına gətirib çıxaracağına əmin olmaq lazımdır.

Eyni zamanda regionların, həmçinin onlara aid olan ayrı-ayrı rayonların müxtəliv vatiantlarda sosial-iqtisadi inkişaf ssenarilərini hazırlamaq da vacib məsələlərdəndir. Bundan ötrü hazırda mövcud olan "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" əsasında hər bir rayon üçün müfəssəl "Yol xəritəsi" hazırlanmalıdır. Rayonlar üzrə statistik məlumatların indiki dairəsində belə ssenarilərin hazırlanması qeyri- mümkündür.

Büdcələrarası münasibətlərin regionların maliyyə təminatına təsirinin daha da təkmilləşdirilməsi məqsədilə ilk növbədə aşağıdakı tədbirlərin həyata keçirilməsini məqbul hesab edirik:

– müxtəlif hakimiyyət səviyyələri üzrə vergi daxilolmalarının əsaslandırılmış şəkildə bölüşdürülməsini təsbit etmək;

– regionları özlərinin vergi potensialını inkişaf etdirməyə, dövlət büdcəsindən asılılığı azaltmağa maraqlandırmaq;

– regionların sosial-iqtisadi inkişafındakı baş verən dəyişikliklərlə əlaqədar olaraq vergi daxilolmalarının azalması hallarında yerli gəlirlərdən mərkəzləşdirilmiş gəlirlərə ayırmaların tutulmaların proporsional azaldılmasının kompensasiya mexanizminin büdcə qanunvericiliyində nəzərə almaq.

Vergi potensialı və büdcə xərcləri strukturununun müfəssəl təhlili bütövlükdə regionun sosial-iqtisadi stabilliyinə ən çox təsir edən komponentləri ayırmağa imkan verir: regionda qiymətlərin və əmək haqqının səviyyəsinin və regionda şəraitin sabitliyinin təmin edilməsində təyinedici proqnoz hesablamalar göstərir ki, pul vəsaitlərinin yığımının səmərəliliyi və çevikliyi onların kölgə iqtisadiyyatından vergi sferasına çıxarılması, həmçinin regionun istehsal sahələrinin inkişafı üçün daha vacibdir. Fikrimizcə, regionun sosial-iqtisadi inkişafının sabitliyini özünün gəlir bazasının genişlənməsi və sosial sahəyə dövlət və regional xərclərin payının optimallaşması hesabina təmin etmək olar.

Aparılan təhlillər göstərir ki, büdcələrarası münasibətlər sisteminin islahatı aşağıda qeyd edilən problemlər ucbatından ləng həyata keçirilir:

➢ Hakimiyyət səviyyələri arasında büdcə münasibətlərini tənzimləyən və ölkənin büdcə quruluşu sisteminin prinsiplərinin reallaşması üçün tənzimləyici çərçivəni və normativ əsasları təmin edən bütöv qanunvericilik bazasının olmaması;

➢ Mərkəzlə regionların büdcə səlahiyyətlərinin məhdudlaşdırılması üçün baza mexanizmlərin yoxluğu qarşılıqlı büdcə münasibətləri (hakimiyyətin hər bir səviyyəsi üçün qanunvericiliklə təhkim edilən vergilərin nomenklaturu və regionların sərəncamına verilmiş mərkəzi vergilərin payı istisna olmaqla) və hər səviyyənin öz səlahiyyətlərini həyata keçirmək üçün maliyyə resurslarının formalaşdırılması üzrə tənzimləyici çərçivənin və normativ əsasların mövcud olmaması;

➢ Bütün regionlar üçün iqtisadi cəhətdən əsaslandırılmış və vahid vergi rejiminin olmaması nəticəsində, bir sıra ərazilər dövlət büdcəsinə ödənişlər üzrə əsassız imtiyazlardan və güzəştlərdən istifadə edir və bu, əslində ərazilərin büdcə təminatının daha da fərqləndirilməsinə gətirib çıxarır;

➢ Regionların iqtisadi inkişafının və əhalinin yaşam keyfiyyəti səviyyəsinin bərabərləşdirilməsi vəzifəsini səmərəli şəkildə həll edən büdcə tənzimləmə merodlarının işlənməməsi ucbatından mərkəzi və regional büdcələr arasında hesablaşmaların cüzi bir hissəsi transfert mexanizmi vasitəsilə tənzimlənir, böyük əksəriyyəti isə hələ də hökumətin subyektiv qərarları ilə müəyyənləşdirilir;

➢ Maliyyə yardımları və «qazanılan» büdcə vəsaitlərinin stimullaşdırılması, ərazilərdə öz vergi potensialının inkişaf etdirilmə mexanizmlərinin yarımçıq işlənməsi;

➢ Büdcələrarası münasibətlər sferasında qərarların qəbulu və icrasında aşkarlığın olmaması mərkəzi və regional səviyyədə icra və qanunvericilik orqanları arasında qarşılıqlı disbalansa gətirib çıxarır;

➢ Mərkəzdə və regionlarda vergi, xəzinədarlıq, gömrük, maliyyə orqanları, valyuta nəzarəti orqanları, Mərkəzi Bankın, yerli icra hakimiyyəti nəzarət orqanlarının işində lazımi koordinasiyanın, həmçinin bütün büdcə maddələrinin eyni dərəcədə yerinə yetirilməsi üzərində vahid nəzarətin olmaması.

Büdcələrarası münasibətlər sisteminin təkmilləşdirilməsinin yuxarıda sadalanan isiqamətlərini reallaşdırmaq üçün aşağıdakı praktiki tədbirləri həyata keçirmək lazımdır:

✓ mərkəzi tənzimləyici vergilərin əlavə olaraq regionların xeyrinə yenidən bölüşdürülməsi yolu ilə regional büdcələrin həqiqi müstəqilliyinin gücləndirilməsi;

✓ büdcə sisteminin bütün səviyyələrində olan büdcələrin səlahiyyətlərini və funksiyalarını, həmçinin müxtəlif dövlət xərclərini maliyyələşdirmək üçün məsuliyyətlərinin qanunvericiliklə təsbit edilməsi;

✓ Azərbaycanın büdcə sisteminin bütün səviyyələrində yuxarı büdcədən maliyyə yardımlarının göstərilmə prinsiplərinin və həcmlərinin razılaşdırılması;

✓ dövlət orqanlarının fəaliyyətinin bütün səviyyələrində büdcələrin hazırlanması, nəzərdən keçirilməsi, təsdiqlənməsi və icrası üzrə ümumi reqlament qaydalarının müəyyənləşdirilməsi;

✓ xüsusi mərkəzi proqramların maliyyələşdirilməsinə büdcə xərclənmələri üzərində xüsusi nəzarət tədbirlərinin həyata keçirilməsini nəzərdə tutmaq və onların regional proqramlarla təkrar

olunmasının aradan qaldırılması və yerli büdcələrin idarəolunma dərəcəsinin yüksəldilməsi və yerli büdcələrin fəaliyyətinə müvafiq qanunvericilik bazasının yaradılması;

✓ hazırda rəsmi olaraq təsdiq olunmuş iqtisadi zonaları və regionları coğrafi mövqeyi və təbii şəraitini nəzərə almaqla onlara aid edilən ərazilərin (rayonların) tərkibinə yenidən baxılması;

✓ yerli hakimiyyət orqanları səviyyəsində xərclərin və yerli büdcələrin minimum təmin edilməsi üzrə normativlərin qiymətləndirilmə sistemini yaradılması;

✓ regionlara, o cümlədən inkişaf etmiş vergi bazasına malik olmayanlara, öz gəlir mənbələrini inkişaf etdirməyə stimullardan məhrum etməmək üçün dəstək verilməsi;

✓ regionların vergitutma bazasının inkişafı üçün onların məsuliyyətini nəzərdə tutan stimullaşdırıcı konkret iqtisadi tədbirlərin hazırlanması;

✓ mərkəzi yardımlara xüsusi ehtiyacı olan regionlara regional büdcə xərclərinin məqsədli maliyyələşdirilməsini dotasiya şəklində yox, subvensiyalar şəklində verilməsinin təmin edilməsi;

✓ regionların maliyyə dəstəyi təkcə regionun büdcə gəlirləri deyil, bütün maliyyə resursları daxil olmaqla ümumi maliyyə təminatı səviyyəsindən asılı olaraq müəyyən edilən, regionların payının hesablanması prinsiplərinin dəyişdirilməsi.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında. https://sai.gov.az/files/Rey_2021_final.pdf

2. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında 16 noyabr 2021Qanun Layihəsi https://meclis.gov.az/news-layihe.php?id=1593&lang=az&par=0

3. Paşa, T.Ə. Qlobal maliyyə böhranı: səbəbləri, dünya və Azərbaycan iqtisadiyyatı üçün nəticələri. – Bakı: "Elm", - 2011, - 396 s.s.194

4. Борисенко, С.П. Неналоговые формы мобилизации финансовых ресурсов в бюджеты разных уровней //Аналитический вестник №13. 2010. 19-24 с. s.25

5. Горлова, О.С. Разграничение и распределение доходов между бюджетами бюджетной системы Российской Федерации //Финансы и кредит. – 2006, - № 25, - 31-36 с. s.32

6. Гришин, В.И. Региональная экономическая политика и межбюджетные отношения // Финансы. – 2008, - № 3, - 12-18 с. s.14

7. Кюрджиев, С.П., Уварова Г.Г., Мащенко Ю.Ю. и др. Современные проблемы управления региональной экономикой. Ростов-на-Дону, Академцентр, - 2011, - 295 с.s.7-8

8. http://www.e-qanun.az/framework/34496; http://e-qanun.az/framework/43943

9. http://www.e-qanun.az/framework/41115

10. https://www.taxes.gov.az/files/download/DB2021.pdf

Improving the system of interbudgetary relations aimed at financing the socio-economic development of the regions

Farid R. Mammadgasanov (doctoral student of AzSUE)

fmammadhasanov@gmail.com

SUMMARY

The purpose of the study is to analyze the current state of regulation of the system of interbudgetary relations aimed at financing the socio-economic development of the regions, to identify areas for improving the regulation of interbudgetary relations in terms of interregional redistribution. financial resources, preparation of substantiated proposals and recommendations.

Research methodology - to solve the tasks set, methods: logical generalization; structural-functional analysis; system-integrated methods of analysis and evaluation were used.

The significance of the study is the solution of the identified problems in the application of the mechanism of interbudgetary transfers in the development of regions, the identification of sources of income for different levels of budgets and the correct distribution of tax powers between the state and municipal levels.

Research results - the results obtained can be used to improve the system of interbudgetary relations aimed at financing the socio-economic development of the regions, to develop proposals and recommendations to ensure the targeted use of budget funds and increase efficiency.

Originality and scientific novelty of the research - the article analyzes the current state of regulation of interbudgetary relations for the sustainable development of the regions of the Azerbaijan Republic, identifies problems associated with the use of the mechanism of interbudgetary transfers in the development of regions, and proposes principles for the distribution of income sources for different levels of budgets. The main directions for the development of the tax potential of the regions were determined, including measures to rationalize the mechanism for balancing the budgetary provision of the regions, increase their own tax base, improve property taxes, tax regulation of the regions and increase powers. regional budgets in the formation of tax and non-tax revenues.

Key words: region, socio-economic development, local budget revenues, local budget expenditures, interbudgetary relations, budgetary regulation, financial provision, central and local budgets, tax potential.

XIII. İQTİSADİYYATIN SEKTORİAL VƏ ƏRAZİ STRUKTURUNUN TƏKMİLLƏŞDİRİLMƏSİ

NƏQLİYYAT AXINLARININ RİYAZİ MODELİ PROQRAMINƏQLİYYAT AXINLARININ RİYAZİ MODELİ PROQRAMI

Pərviz Əhməd oğlu Qurbanov, i.f.d. professor
Qərbi Kaspi Universiteti
Elçin Arif oğlu Abasov, i.f.d., dosent
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
Aygün Namiq qızı Çobanova, magistr
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası

Xülasə

Təqdim edilən məqalədə modelləşdirmə haqqında qısa anlayış, riyazi modelləşdirmə və nəqliyyat məsələsindən danışılır. Burada nəqliyyat məsələsinin həll edilməsi üçün istifadə olunan üsullardan bəzilərinə baxılır.

Məqalənin əsas məqsədi – asan dərk edilən daşınmalar matrisinin şimal-qərb bucağı, ən kiçik element, iki dəfə nəzərə alma və Fogelin approksimasiyası üsullarının köməyi ilə nəqliyyat xidmətlərinin yerinə yetirilməsini göstərməkdir.

Açar sözlər: riyazi modelləşdirmə, nəqliyyat məsələsi, daşınmalar matrisi, vaxt kriteriyası, məqsəd funksiyası, nəqliyyat xərcləri, məhdudiyyət şərtləri, optimal həll

Model sözü “ölçü”, obraz”, “üsul” mənalarını verən “modus”, “modulus” latın sözlərindən əmələ gəlmişdir. Modelləşdirmə obyektiv həqiqətə yaxınlaşma yolu kimi xidmət edir. Modelləşdirmənin bir növü də riyazi modelləşdirmədir. “Riyazi modelləşdirmə tənliklərinin formasının və orjinal modelin tənliklərində dəyişənlər arasında münasibətin identikliyinə əsaslanan xüsusi modellərin köməyi ilə fiziki hadisələri tədqiq etmək üçün metoddur.” Təhlil və optimal plan qərarlarının qəbulu modelləri iki hissədən ibarətdir. Məqsəd funksiyası planın effektivliyinin kəmiyyət ölçüsüdür. Modelin ikinci hissəsi (məhdudluq şərtləri) qərarın qəbul olunduğu şəraitin riyazi ifadəsindən ibarətdir. Bu şərtləri təmin edən qərarlardan biri mümkün plan hesab edilir. Məqsəd funksiyasının ekstremum (maksimum və ya minimum) qiymətini təmin edən mümkün plan optimal plan adlanır. [6]

Riyazi proqramlaşdırma tətbiqi riyaziyyat elminin əsas bölmələrindən biri olmaqla, onun öyrənmə obyektini mürəkkəb sistem və proseslərin optimal planlaşdırılması və idarə edilməsi üzrə ekstremum məsələlər təşkil edir. [7, s.33]

Riyazi proqramlaşdırmanın ən sadə növü xətti proqramlaşdırma məsələsidir. İqtisadiyyatda tətbiq edilən iqtisadi-riyazi modellərin çoxu XP məsələlərinə gətirilir. Bütün bu məsələlər praktiki olaraq simpleks alqoritmlərlə həll edilir. Bununla bərabər, bəzi növ XP məsələlərini həll etmək üçün daha səmərəli hesablama üsulları işlənib hazırlanmışdır ki, onlar da verilmiş məsələlərin məhdudiyyət şərtlərinin spesifik xüsusiyyətlərinə əsaslanır. Bu kimi məsələlərdən biri də nəqliyyat məsələsidir.

İlk əvvəl məsələnin qoyuluşuna nəzər salaq:

Fərz edilir ki, m sayda istehsal müəssisəsində bircins məhsul vardır və bu müəssisədə olan məhsulun miqdarı $a_1, a_2, \dots, a_m$ şəklindədir . Bu məhsullar n sayda istehlakçılara daşınmalıdır ki, bu istehlakçılarında tələbləri müvafiq olaraq $b, b_2, \dots, b_n$ vahiddir. Məhsul vahidini (i, j) kommunikasiyası (marşrutu) üzrə daşımaq üçün C_{ij} manat nəqliyyat xərci tələb edilir.

$$C = \|C_{ij}\|_{m,n} = \begin{pmatrix} c_{11}\ c_{12}\ \dots\ \dots\ c_{1n} \\ c_{21}\ c_{22}\ \dots\ \dots\ c_{2n} \\ -\ -\ -\ -\ -\ -\ - \\ c_{m1}\ c_{m2}\ \dots\ \dots\ c_{mn} \end{pmatrix}$$

Qurduğumuz C matrisi nəqliyyat xərcləri matrisi adlanır. [6]

Məqsəd funksiyası

$$z(x) = \sum_{i=1}^{m} \sum_{j=1}^{n} c_{ij}\, x_{ij} \quad (1)$$

Məhdudiyyət şərtləri

$$\sum_{j=1}^{n} x_{ij} = a_i \ (i = \overline{1,m}) \ (2)$$

$$\sum_{i=1}^{m} x_{ij} = b_j \ (j = \overline{1,n}) \ (3)$$

Məchulların mənfi olmaması şərtləri

$$x_{ij} \geq 0 \ (i = \overline{1,m}) \ (j = \overline{1,n}) \ (4)$$

Bütün bunları ümumiləşdirsək, nəqliyyat məsələsini aşağıdakı formada ifadə edə bilərik:

Məhsulları istehsalçılardan istehlakçılara daşımaq üçün elə bir daşınma planı (variantı) tapmaq lazım gəlir ki, bu plana (varianta) görə hər bir istehsalçının məhsulunun tam daşınması və hər bir istehlakçının tələblərinin tam ödənməsi şərti ilə bütün daşınmalara sərf ediləcək nəqliyyat xərclərinin cəmi minimum olsun. Məcmu təklifin məcmu tələbə bərabər olması, nəqliyyat məsələsinin həll olunması üçün zəruri şərtdir. Bu şərt, tarazlıq şərti adlanır. Bu cür nəqliyyat məsələsi qapalı nəqliyyat məsələsidir və yalnız qapalı nəqliyyat məsələsini həll etmək mümkündür. Əgər tarazlıq şərti ödənmirsə, bu cür nəqliyyat məsələsi isə açıq nəqliyyat məsələsidir, yəni məcmu təklif məcmu tələbdən çox yaxud da az ola bilər. [6]

Nəqliyyat məsələsinin iqtisadi-riyazi və klassik qoyuluşunda bir sıra modifikasiyalara rast gəlinir. Bu modifikasiyalara məhdudiyyətlərin mövcud olduğu nəqliyyat məsələsini; qadağaların mövcud olduğu nəqliyyat məsələsini; zamanın əsas şərt kimi götürüldüyü nəqliyyat məsələsini; çox mərhələli (pilləli) nəqliyyat məsələsini misal göstərə bilərik.

Məhdudiyyətlərin mövcud olduğu nəqliyyat məsələsində məlum $(i;j)$ kommunikasiyaları üzrə daşınmalı olan məhsulun həcminə aşağıdan və ya yuxarıdan (və ya ola bilsin ki, həm yuxarıdan, həm də aşağıdan) müəyyən məhdudiyyətlər qoyulur, yəni

$$x_{ij} \geq a$$

$$x_{ij} \leq b$$

$$b \geq x_{ij} \geq a$$

.

Digər mövcud olan modifikasiyalardan biri də, zamana görə nəqliyyat məsələsidir. Burada əsas məqsəd - qısa zaman ərzində məhsulları istehlakçılara çatdırmaqdan ibarətdir. Belə məsələlərdə əsas tez xarab olan məhsulları istehlakçılara, emal müəssisələrinə və s. çatdırmaqdan bəhs olunur. Bu zaman elə bir daşınma planı tapmaq lazım gəlir ki, bu plana görə istehsalçıların məhsullarının tam daşınması və eyni zamanda da istehlakçıların tələbatlarının tam ödənilməsi şərti ilə bütün kommunikasiyalar üzrə məhsulların daşınmasının maksimal vaxtı ən az (minimum) olsun. Vaxt kriteriyasına görə nəqliyyat məsələsinin iqtisadi-riyazi modeli aşağıdakı kimidir:

$$T(x) = \max_{x_{ij} \geq 0}\{t_{ij}\} \rightarrow min$$

$$\sum_{j=1}^{n} x_{ij} = a_i \ (i = \overline{1,m})$$

$$\sum_{i=1}^{m} x_{ij} = b_j \ (j = \overline{1,n})$$

$x_{ij} \geq 0 \ (i = \overline{1,m}) \ (j = \overline{1,n})$ [1, s.95-100]

Nəqliyyat məsələsi riyazi ifadəsinə görə xətti proqramlaşdırmanın əsas məsələsidir, lakin fərqli cəhətləri vardır: Bu səbəbdən, məsələni simpleks üsulla həll etmək nəzəri cəhətdən mümkün olsa da, praktik baxımdan mümkün olmur (hesablama işlərinin sayı həddən artıq çox olur). Odur ki, nəqliyyat məsələsini həll etmək üçün bir sıra sonlu həll metodları (potensiallar metodu, macar metodu, bölgü metodu, diferensial renta metodu, Fogelin approksimasiyası metodu) hazırlanmışdır. Nəqliyyat məsələsinin həllində ən çox işlənən metod potensiallar metodudur. Potensiallar metodunun alqoritmi hazırlıq mərhələsindən və sonlu sayda eyni tipli yaxınlaşmalardan ibarətdir. Hazırlıq mərhələsində məsələnin hər hansı bir daşınmalar matrisi tərtib edilir və onun optimal olub olmaması yoxlanılır. Hər bir yaxınlaşma iki mərhələdən ibarətdir. Yaxınlaşmanın birinci mərhələsində əvvəlki yaxınlaşmalarda tərtib edilmiş daşınmalar planının optimal olub-olmaması yoxlanılır. İkinci mərhələdə, optimal olmayan plan yaxşılaşdırılaraq daha az (ən pis halda, ona bərabər) nəqliyyat xərclərinə malik yeni daşınmalar planı tərtib edilir. Ilkin daşınmalar matrisini bu üsullardan biri ilə tərtib etmək olar: şimal - qərb bucağı üsulu; minimal dəyər üsulu; iki dəfə nəzərə alma üsulu; Fogelin approksimasiyası üsulu. [6]

Bu üsulların mahiyyəti ondan ibarətdir ki, məsələnin ilkin dayaq planı ardıcıl olaraq tətbiq edilən (m + n - 1) sayda addımların nəticəsində tapılır. Hər bir addımda məsələnin şərtləri verilmiş cədvəlin müəyyən bir xanasında yükdaşıma həcmi təyin edilir ki, o da dolu xana adlanır. Bununla da, istehlak məntəqələrindən birində (dolu xananın yerləşdiyi sütuna uyğun) məhsula olan tələbatın tam ödənilməsi ya da istehsal məntəqələrinin birindən (dolu xananın yerləşdiyi sətirə uyğun) məhsul ehtiyatının tam daşınması təmin edilir.

Birinci halda, dolu xananın yerləşdiyi sütun müvəqqəti olaraq nəzərə alınmır və yeni məsələyə baxılır. Məsələnin şərtləri cədvəlində sütunların sayı, verilmiş addımdan əvvəlki ilə müqayisədə, bir vahid azaldılmış olur, sətirlərin sayı isə eyni olaraq qalır. Bu zaman, müvafiq istehlak məntəqəsindəki tələbatın tam ödənilməsi ilə əlaqədar olaraq, dolu xananın yerləşdiyi istehsal məntəqəsində məhsul ehtiyatı dəyişir. İkinci halda, dolu xananın yerləşdiyi sətir müvəqqəti olaraq nəzərə alınmır və yeni məsələnin şərtləri cədvəlində sətirlərin sayı bir vahid azaldılmış olur, sütunların sayı isə eyni qalır. Bu zaman, müvafiq istehsal məntəqəsindən məhsul ehtiyatının tam daşınması ilə əlaqədar olaraq dolu xananın yerləşdiyi istehlak məntəqəsində məhsula olan tələbat dəyişir.

Yuxarıda göstərilən oxşar addımlar (m + n - 2) dəfə yerinə yetirildikdən sonra bir istehsal və bir istehlak məntəqəsi olduğu məsələ alınır. Burada bir boş xana qalır, istehsal məntəqəsindəki məhsul ehtiyatı isə yeganə istehlak məntəqəsində olan tələbata bərabər olur. Bu xanadakı yükdaşıma həcmini müəyyən etmək üçün (m + n – 1) – ci addım yerinə yetirilir. Nəticədə, NM-in ilkin dayaq planı təyin edilir. Bəzi üsullara nəzər yetirək.

Şimal – qərb bucaq üsulu

Verilmiş üsul olduqca sadədir və burada nəqliyyat xərclərinə heç bir əhəmiyyət verilmir. NM-in ilkin dayaq planını taparkən cədvəldə xanaların doldurulması x_{11} məchulunun yerləşdiyi

yuxarı sol xanadan ("şimal - qərb bucağı") başlanır ki, bu da x_{mn} məchulunun yerləşdiyi xanada qurtarır. Hər bir addımda yerdə qalan istehsal məntəqələrindən birincisi və yerdə qalan istehlak məntəqələrindən birincisinə baxılır. Bu zaman, istehsal məntəqəsindəki məhsul ehtiyatı o vaxta qədər növbəti istehlak məntəqələrində olan tələbatları ödəmək üçün istifadə edilir ki, o tam qurtarmış olsun. Bundan sonra, növbəti istehsal məntəqəsindəki məhsul ehtiyatı istifadə olunur və s. Hər bir addımda növbəti istehsal məntəqəsində qalmış ehtiyatlar və növbəti istehlak məntəqəsində qalmış tələbatlardan asılı olaraq yalnız bir xanada yükdaşıma təyin edilir və müvafiq olaraq bir istehsalçı, yaxud istehlakçı məsələnin şərtləri cədvəlindən çıxarılır. Şimal - qərb bucaq üsulu ilə ilkin dayaq plana daxil olan yükdaşıma həcmlərinin təyini alqoritminə baxaq:

1) Əgər $a_i < b_j$ olarsa, onda $x_{ij} = min\{a_i, b_j\} = a_i$ olur və buna görə də, $x_{il} = 0$ $(l = \overline{1,n}, l \neq j)$ götürülür.

$$\Delta\, b_j = b_j - a_i$$

2) Əgər $a_i > b_j$ olarsa, onda $x_{ij} = min\{a_i, b_j\} = b_j$ olur və buna görə də, $x_{kj} = 0$ $(k = \overline{1,m}, k \neq i)$ götürülür.

$$\Delta\, a_i = a_i - b_j$$

3) Əgər $a_i = b_j$ olarsa, onda $x_{ij} = min\{a_i, b_j\} = a_i = b_j$ götürülür. Bu zaman ya *i* istehsal məntəqəsinə baxılmır, yəni $\Delta a_i = 0$ olur və bütün $x_{il} = 0$ $(l = \overline{1,n}, l \neq j)$ götürülür; ya da j istehlak məntəqəsinə baxılmır, yəni $\Delta b_j = 0$ olur və bütün $x_{kj} = 0$ $(k = \overline{1,m}, k \neq i)$ götürülür.

Səhv etməmək üçün diqqət yetirmək lazımdır ki, NM-in tapılmış dayaq planında dolu xanaların sayı N = m + n – 1 – dən çox olmamalıdır. [7,s.239-243]

Minimal dəyər üsulu

Minimum dəyər üsulunun mahiyyəti cədvəldəki ən kiçik nəqliyyat xərclərinə malik xananın seçilməsindən və doldurulmasından ibarətdir. Bununla əlaqədar olaraq, minimum dəyər üsulu ilə tapılmış ilkin dayaq plana uyğun ümumi nəqliyyat xərcləri çox hallarda şimal - qərb bucaq üsulundakına nisbətən az olur və adətən NM-in optimal planına daha yaxın olur. NM-in dayaq planının minimum dəyər üsulu ilə tapılması alqoritmi də oxşar addımların ardıcıl tətbiqi prosesindən ibarətdir və hər bir addımda cədvəlin yalnız bir xanasında yükdaşıma həcmi təyin edilir. Nəticədə cədvəldəki ya bir sətir (istehsal məntəqəsi), ya da bir sütun (istehlak məntəqəsi) nəzərə alınmır.

İki dəfə nəzərə alma üsulu

Çox zaman böyük ölçüyə malik NM-i həll etmək tələb olunur və verilmiş ilkin məlumatlardan elementlərin seçilməsi və zəruri hesablamaların aparılması ilə əlaqədar müəyyən çətinliklərə səbəb olur. Bu kimi hallarda iki dəfə nəzərəalma üsulundan istifadə etmək əlverişlidir ki, onun da mahiyyəti aşağıdakından ibarətdir.

Burada, müvafiq ilkin məlumatlar cədvəlinin hər bir sətrində ən kiçik nəqliyyat xərci tapılır və onun daxil olduğu xanada * işarəsi qeyd edilir. Bundan sonra cədvəlin hər bir sütununda da ən kiçik nəqliyyat xərci tapılır və * işarəsi qeyd edilir. Beləliklə nəticədə, cədvəlin bəzi xanalarında iki dəfə qeyd aparılır və aydındır ki, onlar ** işarələrinə malik olurlar. Deməli, cədvəlin bu xanalarında həm sətir, həm də sütunlar üzrə ən kiçik nəqliyyat xərcləri yerləşir. Həmin xanalarda maksimum mümkün olan yükdaşıma həcmləri yazılır. Daha sonra * işarəsi qeyd olunmuş xanalarda yükdaşıma həcmləri eyni qayda ilə təyin edilir. Qeyd edək ki, bu zaman həm **, həm də * işarələri olan xanalarda yükdaşıma həcmləri, qalmış məhsul ehtiyatları və tələbatlar şimal-qərb bucaq üsulunda olduğu kimi tapılır. Cədvəlin yerdə qalan boş xanalarındakı yükdaşıma həcmləri isə minimum dəyər üsulu ilə təyin edilir. [7, s.247-248]

Bu üsullardan biri ilə ilkin daşınmalar planı tərtib edildikdən sonra potensiallar metodu ilə onun optimal olub olmaması yoxlanılır.

Nəticə

Yuxarıdakıları ümumiləşdirsək belə bir alqoritm tərtib edə bilərik:

1) İlk addım nəqliyyat məsələsinin cədvəlinin qurulmasından ibarətdir.

2) Daha sonra nəqliyyat məsələsinin açıq və ya qapalı nəqliyyat məsələsi olduğunu müəyyənləşdiririk. Əgər açıq nəqliyyat məsələsidirsə, bu zaman qapalı nəqliyyat məsələsinə çeviririk.

3) Məqsəd funksiyası qurulur və üsullardan biri ilə daşınmalar matrisi tərtib edilir.

4) Bu mərhələdə tapdığımız həllin optimal olub-olmadığını sınaqdan keçiririk.

Ədəbiyyat

1. F.İ.Abdullayev, Q.M.Namazov, N.Ə.Rəhimova Xətti-proqramlaşdırmanın iqtisadi-riyazi modelləri.
2. Bağırov M.N., Osmanov Y.Q. İqtisadi-riyazi modellər və üsullar,2001.
3. B.B.İsgəndərov, İ.İ.Abdullayev Əməliyyatların tədqiqi və riyazi proqramlaşdırma,2004.
4. B.Musayev, Ş.Səmədzadə – Planlaşdırmanın riyazi üsulları və modelləri. Bakı, 1973
5. S.Əbdürəhmanov, Ə.Mirzəyev, S.Şamoyev – Riyazi proqramlaşdırma. Bakı, 1983
6. https://www.kitabyurdu.org/muhazire/m-riyaziyyat/1086-ekonometrika-muhazireler.html
7. https://624blog.files.wordpress.com/2016/09/ekonometrika.pdf

SUMMARY

This paper presents an algorithm, which is developed and implemented based on a mathematical model to find an optimal solution for transportation problem. The algorithm has facilitated and reduced the complicated calculations. Thus, it has allowed us to save time and effort that manual solutions would take. The use of object-oriented programming facilitates the software design, and has given the flexibility and the possibility of making modifications at anytime and anywhere. The developed software gives accurate results in a typical time. These results would provide the productive and commercial companies and factories an appropriate advice on the ability to export and import of products at the lowest possible cost, therefore the price can be reduced to consumers, and then increased profits for these companies. Hence, they could increase or decrease the production quantities. The proposed solution needs to be improved in terms of correctness and scalability. Different cases of transportation problems might be taken into account to study the validation and expandability of the algorithm and its implementation.

The main aim of this paper is to achieve the optimal transportation cost by using the new method with the required number of steps and it’s very easy to understand. Based on the optimal solution it allows us to taking a decision effectively. Thus, there are possible extensions to improve our algorithm of the method. The decision maker goes through all the steps of algorithm which makes our approach very useful to be applied in a lot of real world problems.

Key words: mathematical mathematical modeling, transport problem, transport matrix, time criterion, objective function, transport costs, restriction conditions, optimal solution.

РЕЗЮМЕ

В данной статье представлен алгоритм, который разработан и реализован на основе математической модели для поиска оптимального решения транспортной задачи. Алгоритм облегчил и сократил сложные вычисления. Таким образом, это позволило нам сэкономить время и усилия, которые потребуются для ручных решений. Использование объектно-ориентированного программирования упрощает разработку программного обеспечения и дает гибкость и возможность вносить изменения в любое время и в любом месте. Разработанное программное обеспечение дает точные

результаты в типичное время. Эти результаты дадут производственным и коммерческим компаниям и предприятиям соответствующий совет относительно возможности экспорта и импорта продукции с минимально возможными затратами, поэтому цена может быть снижена для потребителей, а затем увеличена прибыль этих компаний. Следовательно, они могли увеличивать или уменьшать объемы производства. Предлагаемое решение требует доработки с точки зрения корректности и масштабируемости. Различные случаи транспортных проблем могут быть приняты во внимание для изучения валидации и расширяемости алгоритма и его реализации.

Основная цель данной статьи - достичь оптимальной стоимости перевозки с помощью нового метода с необходимым количеством шагов, который очень прост для понимания. Основываясь на оптимальном решении, это позволяет нам эффективно принимать решения. Таким образом, есть возможные расширения для улучшения нашего алгоритма метода. Лицо, принимающее решение, проходит через все этапы алгоритма, что делает наш подход очень полезным для применения во многих реальных проблемах.

Ключевые слова: математическое математическое моделирование, транспортная задача, транспортная матрица, временной критерий, целевая функция, транспортные расходы, условия ограничения, оптимальное решение.

AZƏRBAYCANDA EMAL SƏNAYESİ MÜƏSSİSƏLƏRİNİN RƏQABƏTLİLİYİNİN YÜKSƏLDİLMƏSİ MEXANİZMLƏRİ

i.f.d. Ruhiyyə Adil qızı Hüseynova
AzərbaycanMingəçevir Dövlət Universiteti
h.ruhiyye76@mail.ru

Xülasə

Azərbaycanın emal sənayesi müəssisələrinin rəqabətədavamlı, stabil inkişafı, onun texnoloji cəhətdən inkişaf etmiş xarici ölkələr səviyyəsinə çatdırılması, ölkənin iqtisadi və milli təhlükəsizliyinin təmin olunması bilavasitə mütərəqqi struktur dəyişikliklərinin aparılmasını zəruri edir. Bu isə həm daxili və həm də xarici investisiyaların emal sənayesi sahələrinin prioritet istiqamətlərinə düzgün yönəldilməsindən asılıdır. Bu məqsədlə emal sənayesi müəssisələrinin rəqabətədavamlı inkişafı üçün onun struktur dəyişikliklərinin əsas istiqamətlərinə aşağıdakıları aid etmək olar:

- iqtisadi inkişafın sosial ehtiyaclarının ödənilməsinin vacib şərti kimi iqtisadiyyatın sənaye istehlak sektorunun yaradılması;
- maddi ehtiyatların israfına yol verməyən iqtisadiyyatın təkrar istehsalının əsas səbəbi kimi ölkə iqtisadiyyatının sosial-texnoloji cəhətdən balanslaşdırılmasının təmin olunması.

Bugün emal sənayesi müəssisələrinin mövcud vəziyyəti, qloballaşan müasir dünyada rəqabətədavamlı məhsullar istehsal etməyə, demək olar ki, hazır deyil. Bu isə onu deməyə əsas verir ki, emal sənayesi müəssisələrinin rəqabət strategiyasının formalaşması mexanizmi yenidən elə işlənilməlidir ki, bu halda ölkədə yeni rəqabət mühitinin yaradılması müəssisələrin rəqabət qabiliyyətliyinin azalması ilə nəticələnməsin.

Ölkədə emal sənayesi müəssisələrinin rəqabətədavamlı, dayanıqlı və tarazlı inkişafının təmin edilməsinə investisiya qoyuluşlarının həcm və strukturu birbaşa təsir göstərir. Buna görə də əsas kapitala investisiya qoyuluşlarının prioritetləşdirilməsi emal sənayesi müəssisələrinin gələcək inkişaf istiqamətlərinin müəyyən olunması baxımından mühüm əhəmiyyət kəsb edir. İnvestisiya qoyuluşlarının prioritet istiqamətlərini müəyyən edərkən, ilk növbədə, resursların emal sənayesi müəssisələrinə yönəldilməsi və onun digər sahələrin inkişafı üçün əsas olmasını nəzərə almaq zəruridir. Bununla belə, investisiya qoyuluşlarının istiqamətlərinin müəyyən edilməsinə əlaqədar sahələrin inkişaf səviyyəsi əhəmiyyətli şəkildə təsir göstərir. Yəni, ölkədə iqtisadiyyatın səmərəli inkişafını təmin etmək üçün yüksək səviyyəli enerji kompleksinin, nəqliyyat sisteminin, sənaye və kənd təsərrüfatının satışı sisteminin və s. mövcud olması vacibdir.

Bazar iqtisadiyyatının ən mühüm prinsiplərindən biri əmtəə istehsalçıları arasındakı azad rəqabətin mövcud olmasıdır. Belə ki, rəqabətin əsas məzmunu alıcı uğrunda mübarizə və onların ehtiyatlarının tam təmin edilməsidir. Bazarda daha çox pay və mövqe uğrunda mübarizə və bu sahədə əldə edilən müvəffəqiyyət ilk növbədə əmtəə istehsalçılarının istehsal etdikləri məhsulun rəqabətqabiliyyətliyindən asılıdır.

Emal sənayesi sahələrində diversifikasiya prosesi həyata keçirilməsi zəruridir. Bu isə ölkə iqtisadiyyatının xarici-iqtisadi inkişaf strategiyasına uyğun aparılmalı, yüksək texnoloji emal sənayesinin daha yüksək sürətli inkişafı hesabına ölkənin neft sektorundan asılılığını aradan qaldırmalı, innovasiya sisteminin yaradılması yolu ilə emal sənayesi sahələrini rəqabətədavamlı, dayanıqlı iqtisadi artımın əsas resursuna çevirmək lazımdır.

Ölkəmizdə, xüsusilə də işğaldan azad edilmiş ərazilərdə yerli potensialdan istifadə edərək emal sənayesinin inkişafı, müasir dövrdə Azərbaycan iqtisadiyyatına və ölkələrarası rəqabətə təsir edərək iqtisadi artım üçün yeni imkanlar açmaqla, respublikamızı qloballaşan dünyanın ayrılmaz hissəsinə çeviirər.

Açar sözlər: Emal sənayesi, diversfikasiya, rəqabətədavamlılıq, korporasiya, innovasiya siyasəti

Qloballaşan dünyada beynəlxalq meyarlara uyğun güclü dövlət kimi inkişaf etmək yalnız rəqabətədavamlı, dayanıqlı və davamlı inkişaf edən açıq bir iqtisadi sistemin idarə olunması ilə mümkün ola bilər. Başqa sözlə, ölkədə iqtisadi inkişafın artım tempinin və bütövlükdə isə istehsalat və xidmət sahələrindən ibarət olan iqtisadi sistemin düzgün idarə edilməsi nəticəsində ölkə iqtisadiyyatının inkişafı əldə edilə bilər. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin «Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə milli strategiya»nın həyata keçirilməsi, «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı» üzrə dövlət proqramları və "Azərbaycan-2020: gələcəyə baxış" inkişaf konsepsiyası qəbul edilmişdir ki, bu proqramlar və konsepsiya qeyri-neft sektorunun qabaqlayıcı inkişafına nail olmağı, iqtisadiyyatın səmərəliliyini və rəqabət qabiliyyətini artırmağı, innovasiyanı milli iqtisadiyyatın dayanıqlı inkişafının əsas amili götürməyi, regional iqtisadiyyatın dinamik inkişafını, o cümlədən emal sənayesi sahələrinin rəqabətədavamlığının inkişaf strategiyasının formalaşmasını əsas məqsəd kimi qarşıya qoyur. Respublikada aparılan məqsədyönlü islahatların nəticəsidir ki, pandemiyaya baxmayaraq son illərdə qeyri-neft sektorunun inkişafı davam etməkdədir. Lakin bu uğurlu islahatlarla yanaşı emal sənayesi müəssisələrində ciddi irəliləyişlər yoxdur. Bugün emal sənayesi müəssisələrinin mövcud vəziyyəti, qloballaşan müasir dünyada rəqabətədavamlı məhsullar istehsal etməyə bütövlükdə hazır deyil. Bu isə onu deməyə əsas verir ki, emal sənayesi müəssisələrinin rəqabət strategiyasının formalaşması mexanizmi yenidən elə işlənilməlidir ki, bu halda ölkədə yeni rəqabət mühitinin yaradılması müəssisələrin rəqabət qabiliyyətliyinin azalması ilə nəticələnməsin. Bazar münasibətlərinin geniş vüsət aldığı müasir dünyada rəqabət münasibətlərinin müxtəlif formalarının tətbiqinə baxmayaraq, iqtisadiyyatın ayrı-ayrı sahələrinin rəqabət qabiliyyətliyinin yüksəldilməsi problemi hələ kapitalizmdən əvvəlki dövrə daxil olan metodologiya təşkil edir. Yəni, rəqabətqabiliyyətlilik problemi iqtisadi nəzəriyyə klassikləri də daxil olmaqla, həmişə iqtisadçı-alimlərin diqqət mərkəzində olmuşdur. Qloballaşan müasir dünyada respublikamızın emal sənayesi müəssisələrinin rəqabət strategiyasının formalaşması mexanizmlərinin kompleks şəkildə tədqiq olunması kifayət qədər öyrənilməmişdir.

Bazar münasibətlərinin əsasını iqtisadiyyatın tənzimlənməsi təşkil edir ki, bunu da ölkədə azad rəqabət mühitinin yaradılması ilə əldə etmək mümkündür. Belə ki, rəqabətli iqtisadiyyat istehlakçılar üçün ən zəruri məhsulların istehsalı üçün resursların müəssisə və sahələr arasında səmərəli bölgüsünə, tələbə uyğun məhsullarının ən ucuz üsulla istehsal olunmasına, onların keyfiyyətinin artırılmasına, bütövlükdə isə bazar subyektləri arasında sahibkarlıq fəaliyyətinin ən əlverişli şərtlər daxilində həyata keçirilməsinə səbəb olur. Deməli, ölkədə rəqabət mübarizəsi dinamik prosesidir və bazarın əmtəə ilə daha yaxşı təminatına xidmət edir. O istehsalın tempi və həcminin tənzimlənməsi rolunu oynayır. Bu zaman istehsalçını elmi-texniki nailiyyətlərin tətbiqinə,

əmək məhsuldarlığının yüksəldilməsinə, texnologiyanın, istehsalın təşkilinin təkmilləşdirilməsinə, bütövlükdə isə innovasiyalı iqtisadiyyatın yaradılmasına istiqamətləndirir.

Beləliklə, rəqabət bazar əlaqələrinə cəlb olunmuş bazar iştirakçıları arasında xüsusi formada təzahür edən münasibətləri ifadə edir. O, bir tərəfdən istehsalçıların öz aralarında, ikinci tərəfdən istehsalçılarla istehlakçılar arasında, üçüncü tərəfdən isə istehlakçıların öz aralarında mənafelərinin reallaşması uğrunda mübarizəni əks etdirir. Bazarda rəqabət şəraiti həmişə inkişaf edir, buna görə də, mikro səviyyədə yanaşsaq, müəssisə bazarda rəqabətin vəziyyətini izləməlidir. Yalnız belə şəraitdə müəssisə özünün və rəqiblərinin imkanlarını düzgün qiymətləndirə və özünün rəqabət üstünlüklərinin artmasına istiqamətlənən optimal rəqabət strategiyası hazırlaya bilər. Konkret xalqların rəqabətqabiliyyətliliyi onun sənayesinin yeniləşmək və modernləşmək qabiliyyətindən asılıdır.

Emal sənayesi müəssisələrində rəqabət mühitinə təsir edən amillər bir-birindən təcrid edilməmişdir. Onların konkret bazar vəziyyətlərində görünən ümumi fəaliyyətini ayrı-ayrı tərkiblərə parçalamaq çətindir. Belə ki, bu, verilən elementlərin qarşılıqlı təsirinin qiymətləndirilməsində müəyyən çətinliklərə səbəb olur. Eyni zamanda, məhz rəqabət mühitinin fəallığının səviyyəsi emal sənayesi müəssisələrində rəqabət strategiyasının formalaşmasında, rəqabət mübarizəsinin aparılmasının vasitə və metodlarının seçimində müəyyənedici andır. Onun düzgün qiymətləndirilməsi emal sənayesi müəssisələrinin rəqabətqabiliyyətliyinin yüksəldilməsinin metod və mexanizmlərinin seçilməsində mühüm rol oynayır.

Emal sənayesi müəssisələri bugünkü dövrdə rəqabətədavamlı məhsul istehsal etmək üçün hazır deyil. Hər bir ölkənin iqtisadiyyatının ümumi dinaminizmin və tərəqqisinin təmin edilməsində onun rəqabət mühitinin tənzimlənməsinin əvəzedilməz əhəmiyyəti vardır. Yəni, emal sənayesi sahələrinin rəqabətqabiliyyətliyinin yüksəlməsinin əsasında sahənin yüksək texnoloji sahələri dayanmalıdır. Bunun da təmin olunması səviyyəsi sahədə innovasiya prosesinin və diversifikasiya fəaliyyətinin necə təşkil edilməsindən bilavasitə asılıdır. Bu məqsədlə emal sənayesi müəssisələrinin innovasiya fəaliyyəti və rəqabət münasibətlərinə təsirinin təhlili həyata keçirilməklə, mövcud problemlər və onu doğuran səbəblər göstərilməlidir.

Bazar iqtisadiyyatının ən mühüm prinsiplərindən biri əmtəə istehsalçıları arasındakı azad rəqabətin mövcud olmasıdır. Belə ki, rəqabətin əsas məzmunu alıcı uğrunda mübarizə və onların ehtiyatlarının tam təmin edilməsidir. Bazarda daha çox pay və mövqe uğrunda mübarizə və bu sahədə əldə edilən müvəffəqiyyət ilk növbədə əmtəə istehsalçılarının istehsal etdikləri məhsulun rəqabətqabiliyyətliyindən asılıdır. Respublikamızda rəqabətin inkişafı və qorunması mexanizmi müxtəlif, bir çox hallarda bir-birinə əks olan amillərin təsiri altında formalaşır. Buna görə də Antiinhisar Komitəsi vəzifə və səlahiyyətlərinə uyğun olaraq bu sahədə fəaliyyətinin nomenklaturasını genişləndirmək məcburiyyətindədir. Hər şeydən əvvəl, rəqabət mexanizminin analitik araşdırma bazası genişləndirilməlidir. Yəni, Azərbaycanın emal sənayesi müəssisələrinin rəqabətdavamlı, stabil inkişafı, onun texnoloji cəhətdən inkişaf etmiş xarici ölkələr səviyyəsinə çatdırılması, ölkənin iqtisadi və milli təhlükəsizliyinin təmin olunması bilavasitə mütərəqqi struktur dəyişikliklərinin aparılmasını zəruri edir. Bu isə həm daxili və həm də xarici investisiyaların emal sənayesi sahələrinin prioritet istiqamətlərinə düzgün yönəldilməsindən asılıdır. Bu məqsədlə emal sənayesi müəssisələrinin rəqabətdavamlı inkişafı üçün onun struktur dəyişikliklərinin əsas istiqamətlərinə aşağıdakıları aid etmək olar:

- iqtisadi inkişafın sosial ehtiyaclarının ödənilməsinin vacib şərti kimi iqtisadiyyatın sənaye istehlak sektorunun yaradılması;

- maddi ehtiyatların israfına yol verməyən iqtisadiyyatın təkrar istehsalının əsas səbəbi kimi ölkə iqtisadiyyatının sosial-texnoloji cəhətdən balanslaşdırılmasının təmin olunması.

Dövlətin sosial-iqtisadi siyasəti emal sənayesi sektorunda struktur dəyişikliklərinin aşağıdakı istiqamətlərdə aparılmasına kömək etməlidir:

- idarəetmənin bütün səviyyələrində, müəssisələrin və iqtisadiyyatın dövlət sektorunda islahatın keçirilməsini nəzərdə tutan emal sənayesi müəssisələrinin təşkilati və idarəetmə sektorunun təkmilləşdirilməsi;

- köhnəlmiş texnologiyanın və yararsız əsas fondların əvəz edilməsi əsasında respublikanın emal sənayesi kompleksinin texnoloji strukturunun yaxşılaşdırılması. Bu investisiya prosesinin fəallığı və nisbətlərin əhəmiyyətli dərəcədə dəyişməsini nəzərdə tutur;

- yüksək emal dərəcəsinə malik olan məhsulun xüsusi çəkisinin artırılmasını nəzərdə tutan istehsal strukturunun dəyişdirilməsi;

- iqtisadiyyatın infrastrukturunun inkişafı.

Emal sənayesi müəssisələrində innovasiya prosesinin səmərəli təşkili onun genişlənməsinə mane olan amillərin necə idarə edilməsindən bilavasitə asılıdır.

Emal sənayesi müəssisələrinin rəqabət strategiyasının formalaşmasında diversifikasiya siyasətinin əsas istiqamətləri (Emal sənayesi müəssisələrində diversifikasiya strategiyasının formalaşdırılması mexanizmləri):

1.Multimilli çoxsahəli korporasiyaların yaradılması:

- rəqabətqabiliyyətli qlobal kompaniyaların dünya bazarında güclənməsi

- multimilli diversifikasiya hesabına strateji üstünlüyə nail olmaq və yeni rəqabət üstünlüyünün əldə edilməsi

2.Biznes-portfel korporasiyaların yaradılması:

-azmənfəətli və yaxud strateji baxımından ikinci dərəcəli strukturlu kompaniyaların satışı

-kompaniyaların sərbəst vəsaitlərinin və cəlb olunmuş kapitalının yeni avadanlıqlara, innovasiyalara yönəldilməsi

3.Korporasiyaların yarımsahələrə bölünməsi:

-kompaniyaların bazarlarının və əməliyyatlarının miqyasının daralması

-azmənfəətli kompaniyaların ayrılması

4.Yeni və ya strateji korporasiya (birlik) yaratmaq barədə razılığa gəlmək

-bircins və ya qeyri-bircins yeni sahələrə çıxış

-mənimsənilmiş sahələrdə mövqeyin möhkəmlənməsi.

Bu iqtisadi mexanizmlər özündə sahədə dayanıqlığın möhkəmləndirilməsini, yeni sahələrdə mövqelərin qazanılmasını, korporativ siyasətə uyğun gəlməyən ayrı-ayrı müəssisələrin satışa çıxarılmasını, qeyri-qənaətbəxş işləyən struktur bölmələri üzrə portfel restrukturizasiyasının aparılmasını, vergi planlaşdırılmasını və nəhayət, müəssisələrin özlərinin multisahəvi şirkət kimi formalaşmasının reallığaçevrilməsini kompleks şəkildə birləşdirməlidir.

Emal sənayesi müəssisələrinin inkişaf etdirilməsində əsas məqsəd ölkədə elmtutumlu və yüksək texnologiyalı, rəqabətədavamlı və ixracyönümlü, dünya standartlarına cavab verən emal sənayesi məhsullarının istehsal edilməsinə nail olmaq və ölkənin "neft amili"ndən asılılığını aradan qaldırmaqdır. Bu isə emal sənayesi müəssisələrində dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi, investisiya-innovasiya mənbələrinin və resurslarının müəyyənləşdirilməsi və artırılması, təbii sərvətlərin və əmək resurslarının səfərbər edilməsi əsasında həyata keçirilə bilər.

Nəticə

1.İstehsalın həddən artıq konsentrasiyası sahibkarlığın inkişafını boğur, nəticədə düzgün rəqabət mexanizmi daha az səmərəliklə hərəkət edər;

2.İnhisarçılıq bazarın inkişafında struktur nisbətsizliklərə gətirə bilir;

3.Emal sənayesi müəssisələrinin rəqabətqabiliyyətliyinin qiymətləndirilməsində qoyulmuş məqsəddən asılı olaraq «ən yaxın rəqiblərin seçimi», «daha güclü rəqiblərin seçimi», «bazarda əhəmiyyətli ümumi paya malik olan müəssisələrin seçimi», «bazarın coğrafi sərhədləri çərçivəsində bütün fəaliyyətdə olan rəqiblərin seçimi» və «bütün mümkün rəqiblərin seçimi» üsullarından istifadə olunması məqsədəuyğundur.

4.Emal sənayesi müəssisələrinin rəqabətədavamlı məhsullarının istehsalını stimullaşdıran aşağıdakı digər tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab edirik:

-yeni və ya təkmilləşdirilmiş məhsul növlərinin yaradılması ilə bağlı aparılan elmi-tədqiqat işlərinin inkşafına təkan verilməsi;

-innovasiya fəaliyyətinin reallaşdırılması məqsədilə istifadə edilən əsas vəsaitlərin amortizasiya normalarına güzəştli əmsalların tətbiqi;

-vergiqoyma sistemində innovasiya üzrə elmi-tədqiqat və təcrübə-konstruktor işlərinə, patentləşdirmə xərclərinə məhdudiyyətin aradan qaldırılması;

-emal sənayesi müəssisələrə innovasiya fəaliyyətini həyata keçirmək üçün güzəştli dövlət və bank kreditlərinin tətbiqi;

-innovasiya menecmenti və marketinqi, layihələrin idarə edilməsi, müasir texnikanın layihələndirilməsi və istismarı üzrə ixtisaslı mütəxəssislərin hazırlanmasına dövlət dəstəyinin reallaşdırılması və s.

5.Emal sənayesi müəssisələrinin rəqabət qabiliyyətliyinin yüksəldilməsini stimullaşdırmaq üçün elmtutumlu məhsulların istehsalının genişlənməsini təmin etmək, elmi-tədqiqat institutlarının fəaliyyətini genişləndirmək, bütövlükdə isə onun innovasiya yönümlü inkişafına nail olmağı məqsədəuyğun hesab edirik.

Важно сбалансировать цели экономического развития страны и обеспечить инклюзивное развитие реальных секторов экономики в соответствии с природными и экономическими ресурсами. Для этого одним из важных вопросов является комплексное изучение проблем, сдерживающих развитие национальной экономики, и вопросов, сдерживающих динамику ее роста. Комплексное изучение особенностей азербайджанской экономической модели останется одним из важнейших направлений экономики. Таким образом, основные факторы национальной модели экономического развития, важные составляющие экономической системы, адекватность и характеристики природных и экономических ресурсов, объективная оценка уровня использования имеющихся ресурсов, характер и обоснованность мер по повышению благосостояния населения. ответственное размещение общества и населения, регулирование трудовых процессов с точки зрения современных экономических аспектов и обеспечение эффективного использования трудовых ресурсов, гармонизация социально-экономических отношений в условиях углубляющейся рыночной экономики, продвижение человеческого фактора, защита критериев устойчивого экономического развития , экономические отношения и экономические механизмы устойчивого развития; регулирование организационно-экономических подходов, технико-экономических отношений, имеющих значение для применения современных технологий, развития экономики страны в целом. Необходимо решить вопросы улучшения прозрачной модели и ключевых компонентов существующей экономической системы. Профессор А.Нуриев отмечает, что при определении стратегии социально-экономического развития страны изучение и учет особенностей каждого периода, этапа не для того, чтобы возродить этот период, а для поиска эффективных семян, саженцев и особенностей и направлений развития. будущее развитие в этот период необходимо правильно определить. Нельзя забывать, что определенные периоды и этапы развития общества возникают и существуют как объективные процессы независимо от нас. В последние годы мы стали свидетелями этого, поскольку многие традиционные механизмы и тенденции мировых экономических процессов претерпели фундаментальные трансформации, что затрудняет проявление иммунитета перед лицом глобальных кризисов. Будущее Азербайджана во многом зависит от экономической модели, на которой он будет развиваться. Однако модель экономического развития не готова. Его следует выбирать таким образом, чтобы он соответствовал существующим реалиям Азербайджана, путем обобщения опыта предыдущей истории страны, получившей независимость, всестороннего изучения и сравнения моделей, действующих в мире. В этом случае недопустимо принимать модель развития любой страны такой, какая она есть, применять ее вслепую.

Переход к модели устойчивого развития.

В целях поддержания макроэкономической стабильности и ускорения национального экономического развития существующие в нашей стране благоприятные и реальные условия,

такие как экономико-географическое и геополитико-геоэкономическое положение, развитый транспорт, земельные, водные, лесные ресурсы, наличие ряда важных полезные ископаемые, важные научные - Важно учитывать факторы технического потенциала, многоотраслевого промышленного комплекса, сильной строительной базы, комплексного развития регионов, наличия многовекторных внешнеэкономических связей, ведущих к расширению внутренних рынков. Модель экономического развития каждой страны развивается в соответствии с ее реальным ресурсным потенциалом, возможностями и соответствующими условиями, и в этой связи государство должно уделять пристальное внимание усилению необходимых мер и адекватных механизмов для устойчивого развития и динамичного роста страны. народное хозяйство. Наряду с различными секторами экономики, эти государственные программы, стратегии и национальные концепции играют важную роль в ускорении решения социально-экономических проблем населения, стимулировании предпринимательства - малых и средних предприятий, повышении экономической активности населения как весь. Это произошло в то время, когда началась реализация важных стратегических концепций - в смелом применении экономических механизмов, успешно апробированных в мировой практике и нетрадиционных для экономической системы нашей страны, для значительного повышения маневренности и устойчивости азербайджанской экономики в современное время. При этом при оценке уровня адекватности основных механизмов модернизации и совершенствования экономической системы страны, формирования модели национального экономического развития, отчетности об их вкладе в национальную экономику как о максимальных уровнях эффективности и ответственности. Существующие экономические механизмы известны.Одним из важных условий является оптимальность прогнозирования экономической мощи - национального продукта. Эти процессы включают глубокую специализацию национальной экономики в ненефтяных секторах и минимизацию нефтяного фактора в формировании национальной стоимости, формирование валютных резервов, укрепление национальной экономической системы на основе реальных секторов и перспективных услуг, маневренное развитие национальной экономики. Обратите внимание на формирование модели как на важные условия. Однако новые стратегические задачи, вытекающие из требований современности, возникли многие проблемы при формировании и совершенствовании модели развития национальной экономики, и в ближайшее время потребуются масштабные меры для реализации этих задач и решения проблем. С точки зрения экономического развития Азербайджанская Республика выйдет из лидирующего государства в регионе до статуса высококонкурентного участника системы международных экономических отношений [8, с.56]. В последние годы, особенно в связи с тем, что цены на нефть на мировом рынке несколько раз упали, то есть формируются механизмы экономической политики, ориентированной на пост-нефтяной тренд. В связи с этим были предприняты реальные шаги по обновлению самой модели национального экономического развития и по принятию важных мер по определению приоритетов модели национального экономического развития в современную эпоху, стратегических целей на ближайшие 10-15 лет и на долгосрочную перспективу.

ЗАКЛЮЧЕНИЕ

Формирование продуктивных источников устойчивого роста национальной экономики и ускорение развития приоритетных ненефтяных секторов, достижение устойчивого улучшения социального благосостояния населения страны перед лицом глобальных трудностей и нестабильной финансовой конъюнктуры - все это отражено в «Указе Президента Азербайджанской Республики от 6 декабря 2016 года« Об утверждении стратегических дорожных карт для национальной экономики и ключевых секторов экономики »[9]. Стратегическая дорожная карта включает стратегическую стратегию развития и план действий на 2016-2020 годы, долгосрочное видение на период до 2025 года и целевое видение на период после 2025 года. Указом утверждена Стратегическая дорожная карта по 12 направлениям, в том числе перспективы народного хозяйства, развитие нефтегазовой отрасли, производство и переработка сельскохозяйственной продукции,

производство товаров народного потребления на уровне малых и средних предприятий, развитие тяжелой промышленности и машиностроения, специализированной индустрии туризма, логистики и стратегических дорожных карт для развития торговли, развития финансовых услуг, телекоммуникаций и информационных технологий особенно важны и перспективны. Как видно, в ближайшее время у нашей страны есть возможность кардинально обновить и усовершенствовать национальную модель экономического развития.

Таким образом, оптимальное определение стратегических аспектов модели развития национальной экономики в современное время и, в связи с этим, разработка и внедрение необходимых механизмов действия требует решения ряда важных задач:

- Прежде всего, с учетом национальных интересов каждой страны и преимуществ геостратегического экономического развития, следует определить стратегические цели экономического развития и предоставить концептуальный подход;

Развитие инклюзивных секторов национальной экономики должно быть ускорено с учетом стратегических аспектов долгосрочного и эффективного развития модели национального экономического развития;

- Должна быть сформирована прочная правовая база и механизмы действий для обеспечения устойчивости национального экономического развития;

- Прежде всего, с учетом национальных интересов каждой страны и преимуществ геостратегического экономического развития, следует определить стратегические цели экономического развития и предоставить концептуальный подход; и т.д .

Список использованной литературы

1. Фридман М. Количественная теория денег. М; Эльф пресс,1996 с 191.
2. Экономическая и национальная безопасность: Учебник под ред. Е.А.Олейников. М. Экзамен, 2004. с 768
3. Общая теория денег и кредита. Под.ред. Э.Ф.Жукова. М.ЮНИТИ. 1995 с.375.
4. Səmədzadə Z.Ə.Dünya iqtisadiyyatı. B. Gənclik.2001, 317 s.
5. Əliyeva T.T."Beynəlxalq valyuta kredit münasibətləri" Dərs vəsaiti, Bakı -2016
6. Srateji yol xəritəsi . Bakı- 2016
7. Самуэльсон П.Экономикс: В 2Т.М; МТП. «АЛТОН- ВНИИСИ, 1992.стр 375

Əliyeva Təhminə Tahir qızı, i.f.d., Bakı Biznes Universiteti

Müasir iqtısadiyyatın inkişafında iqtisadi sektorların rolu və əhəmiyyəti

Xülasə

Tədqiqatın məqsədi - İqtisadiyyatın sektorlar üzrə inkişafını və tənzimlənmə mexanizminin fəaliyyətinin məqsədli istiqamətlərinin seçilməsi əsas xətt kimi götürülməlidir. "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsində ilk dəfə olaraq iqtisadi və sosial inkişafın ahəngdarlığının, indiki və gələcək nəsillərin maraq və mənafelərinin vəhdət halında həll edilməsi, habelə iqtisadiyyatın inklyuzivliyinin artırılması strateji bir vəzifə kimi qarşıya qoyuldu. Güclü tərəflər, zəif tərəflər, imkanlar və təhlükələrin təhlili əsasında iqtisadi inkişafın güclü, zəif tərəfləri, imkanları, mümkün ola biləcək təhlükələr və təhdidlər nəzərə alınaraq ölkəmizin rəqabət üstünlükləri, bütövlükdə iqtisadi inkişafın fəlsəfəsi, yaradiqması müəyyənləşdirildi. Azərbaycan iqtisadi inkişafın elə bir mərhələsinə daxil olmuşdur ki, onun gələcək inkişafı resursların artımına deyil, ölkənin bütün iqtisadi potensialından səmərəli və optimal istifadə edilməsini tələb edir. Başqa sözlə, bu gün Azərbaycan iqtisadiyyatı öz inkişafını, rəqabətliliyinii yüksəltmək, iqtisadi təhlükəsizliyini təmin etməsi imkanına malikdir. Milli iqtisadiyyatın sektorları üzrə ayrı ayrı sahələrdə iqtisadiyyatım inkişaf mexanizminin öyrənilməsi, onun iqtisadi formalaşması və bu zəmində iqtisadi artımın təmin edilməsi üçün ölkə iqtisadiyyatına onun nə qədər müsbət təsir göstərəcəyini müəyyən etməkdən ibarətdir.

Tədqiqatın metodologiyası –muqayisəli və analitik təhlil

Tətbiqi əhəmiyyəti – təhlil əsasında iqtisadi inkişafın güclü, zəif tərəfləri, imkanları, mümkün ola biləcək təhlükələr və təhdidlər nəzərə alınmalidir

Tədqiqatın nəticələri. Makroiqtisadi göstəricilərinin dinamikasının təhlili göstərir ki, milli iqtisadiyyatın sektorlar üzrə inkişafı zəruridir və yaranmış bəzi iqisadi problemləri həll etmədən iqtisadi artımın dayanıqlı olması problemini və inkişafın müsbət nəticəliliyini əldə etmək mümkün deyildir.

Tədqiqatin orijinalligı və elmi yeniliyi- iqtisadiyyatın inkişafini yüksəltmək, iqtisadi təhlükəsizliyi təmin etmək, iqtisadi təhlükəsizliyin təmin olunmasını aktuallığını öyrənmək, qloballaşma şəraitində Azərbaycanın iqtisadi inkişafının səmərəliliyini artıra biləcək xarici iqtisadi siyasətinin formalaşdırılması və təkmilləşdirilməsi zəruriliyi araşdırmaq

dövlətin iqtisadi maraqları baxımından iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, dünya iqtisadiyyatına səmərəli inteqrasya və ölkədə əsas sosial-iqtisadi problemlərin həll edilməsi kimi mühüm amillər

AÇAR SÖZLƏR : maliyyə, büdcə, iqtisadiyyat, pul, milli iqtisadiyyat, pul kütləsi.

The Role And Importance Of Economic Sectors In The Development Of Modern Economy

Tahmina Aliyeva Tahir Ph.D in economics

Purpose of research. Selection of target sectors of the sectoral economic development and regulation mechanism should be taken as a key line. The main directions of the strategic road map for the national economy and key sectors of the economy" were adopted. For the first time in this roadmap, the harmony of economic and social development, the unity of interests and interests of present and future generations, as well as increasing inclusiveness of the economy has been proposed as a strategic task. Considering the strengths, weaknesses, opportunities, possible threats of economic development based on strengths, weaknesses, opportunities and threats, the competitive advantage of our country, philosophy, paradigm of economic development as a whole was determined. Azerbaijan was at one of the stages of economic development that its future development requires effective and optimal use of the country's economic potential, not the growth of resources. In other words, today's economy of Azerbaijan has the opportunity to increase its development, competitiveness and economic security.

The study of the mechanism of economic development in separate sectors of the national economy is to determine how it will have a positive effect on the country's economy for its economic formation and economic growth on this ground.

Methodology of the research - Comparative and analytical analisis

Importance of the application - the analysis should take into account strengths, weaknesses, opportunities, potential threats and threats to economic development

Results of the study. Analysis of the dynamics of macroeconomic indicators shows that the development of the national economy is indispensable and it is impossible to achieve a positive outcome of the development of the problem of sustainable economic growth without solving some of the economic problems.

Scientific innovation and originality in research - to study the need of acceleration of economic development, ensure economic security, study the relevance of ensuring economic security, formulate and improve foreign economic policy that can increase the efficiency of economic development of Azerbaijan in the context of globalization are such important factors as improving the structure of the economy from the point of view of the economic interests of the state, effective integration into the world economy and solving the main socio-economic problems in the country.

Keywords: finance, money, money supply, price index, valuation.

SƏNAYE İSTAHSAL BİRLİKLƏRİNDƏ NƏQLİYYAT VƏ RABİTƏ XİDMƏTLƏRİNİN İDARƏ EDİLMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN ƏSAS PRİNSİPLƏRİ

G.V.Məmmədova, S.Q. Cümşüdov, i.e.d., prof.
AzərbaycanTexniki Universiteti

Xülasə

Məruzədə sənaye istahsal birliklərində nəqliyyat və rabitə xidmətlərinin idarə edilməsinin təkmilləşdirilməsinin əsas prinsipləri araşdırılmışdır.

Açar sözlər: *xidmət, menecment, elmilik, kompleslilik, qənaətçilik, səmərəlilik, optimallıq, icranın yoxlanılması, nəzarətin təşkili.*

Sənaye istahsal birliklərində nəqliyyat və rabitə xidmətlərinin idarə edilməsinin təkmilləşdirilməsi aşağıdakı prinsiplərə əsaslanmalıdır:

– **Elmi yanaşma.** Burada obyektiv iqtisadi qanunların tələbləri araşdırılmaqla sənaye istahsal birliklərində nəqliyyat və rabitə xidmətlərinin bütün bölmələrində həmin obyektiv qanunların təzahür formaları tədqiq edilməli, araşdırılmalı, ümumuləşdirilməli və əldə edilmiş yeni elmi nəticələr əsasında idarəetmənin təkmilləşdirilməsi üzrə tövsiyyələr işlənib hazırlanmalıdır.

– **Sistem yanaşma**. Burada sənaye istahsal birlikləri daxilində nəqliyyat və rabitə xidməti təsərrüfatlarına vahid bir kibernetik sistem kimi baxılmalıdır. Belə ki, bu tam sistemin bütün elementlərinin qarşılıqlı əlaqələri və təsiri nəzərə alınmalıdır. Nəqliyyat və rabitə xidmətləri təsərrüfatlarının bütün bölmələrinin qarşılıqlı əlaqələrinin məqsədəuyğun tənzimlənməsi xüsusi əhəmiyyətə malikdir. Belə ki, idarə olunan təsərrüfat sisteminin hər hansı bir elementinə göstərilən təsir, onun bütün digər elementlərinə müxtəlif dərəcədə keçmiş olur. Digər tərəfdən sənaye istehsal birliklərinin göstəricilləri, onların ayrı-ayrı bölmələrinin göstəricillərindən fərqlidir. Bununla yanaşı qeyd etmək lazımdır ki, bütövlükdə nəqliyyat və rabitə xidmətləri təsərrüfatlarının hərtərəfli fəaliyyətinin səmərəliliyi, onun ayrı-ayrı bölmələrinin işinin səmərəliliyindən asılıdır.

– **Kompleks yanaşma.** Sənaye istahsal birlikləri daxilində nəqliyyat və rabitə xidməti təsərrüfatlarında resursların istifadəsinin iqtisadi və ekoloji səmərəliliyinin yüksəldilməsi məsələlərinin həllində texniki-texnoloji, ətraf mühitin qorunması, texniki, texnoloji, təşkilati, ideya-tərbiyəvi, psixoloji, fizioloji, sosial və iqtisadi amillər kompleks halında nəzərə alınmalıdır.

– **Qənaətçilik.** Sənaye istahsal birlikləri daxilində nəqliyyat və rabitə xidməti təsərrüfatlarının sərəncamında olan bütün resurslardan tam səmərəli istifadə olunanmalıdır. Burada təbii, material-texniki, müxtəlif növ enerji, əmək və maliyyə resurslarının səmərəli istifadəsinin cari və strateji biznes-planı işlənib hazırlanmalıdır. Resursların səmərəli istifadəsinin cari və strateji biznes-planı əməli-təqvim tədbirlər proqramı-qrafiki üzrə reallaşdırılmalıdır. Burada resursların qənaət rejimi metodu üzrə istifadəsi reallaşdırılması mənfəətlilik meyarı ilə qiymətləndirilməlidir.

– **Ekoloji təhlükəsizlik.** Sənaye istahsal birlikləri daxilində nəqliyyat və rabitə xidmətləri təsərrüfatlarında istifadə olunan avtomobil nəqliyyat vasitələrinin ətraf mühitə mənfi təsirini aradan qaldırmaq üçün həmin texniki vasitələrin maye-qaza keçirilməsinə nail olmaq tələb olunur.

– **Optimallıq.** Nəqliyyat və rabitə xidmətləri təsərrüfatlarının resursların istifadəsinin plan-iqtisad, təşkilati və idarəetmə məsələlərinin çoxvariantlı olduğunu nəzərə alaraq, həmin variantlardan ən yaxşısının optimallıq meyarına nəzərən seçilib qəbul edilməsi tələb olunur.

– **Səmərəlilik.** Nəqliyyat və rabitə xidmətləri təsərrüfatlarının resursların istifadəsinin iqtisadi və ekoloji səmərəliliyinin yüksəldilməsi məsələlərin həlli ilə əlaqədar planlaşdırılacaq

tədbirlər iqtisadi cəhətdən səmərəli olmalıdır. Odur ki, tətbiq olunacaq tədbirlərin iqtisadi səmərəliliyi qabaqcadan müəyyən edilməlidir. Nəqliyyat və rabitə xidmətləri təsərrüfatlarının resurslarından istifadənin iqtisadi səmərəliliyinin müəyyən edilməsi metodikası təkmilləşdirilməli, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi əsasında hər bir xüsusi halda müvafiq hesabatlar aparılmalı və illik iqtisadi səmərənin ümumi məbləği müəyyən edilməlidir.

– **Maddi və mənəvi həvəsləndirmə.** Sənaye istahsal birlikləri daxilində nəqliyyat və rabitə xidməti təsərrüfatların sərəncamında olan resursların istifadəsinin iqtisadi və ekoloji səmərəliliyinin yüksəldilməsində kollektivin maddi və mənəvi maraqlarının stimullaşdırılması təmin edilməlidir.

– **Heyətin düzgün seçilməsi.** Sənaye istahsal birlikləri daxilində nəqliyyat və rabitə xidmətlərinin idarə edilməsi ilə əlaqədar heyətin düzgün seçilməsi, kadrların düzgün yerləşdirilməsi və onların səmərəli istifadə olunması diqqət mərkəzində olmalıdır.

– **Şəxsi, kollektiv və dövlət (ümumxalq) mənafelərinin düzgün əlaqələndirilməsi.** Nəqliyyat və rabitə xidmətləri təsərrüfatlarının sərəncamında olan resursların qorunması, mənimsənilməsi və onların istifadəsinin səmərəliliyinin yüksəldilməsi ilə əlaqədar şəxsi, kollektiv və ümumxalq (dövlət) mənafeləri düzgün əlaqələndirilməli, uzlaşdırılmalıdır. Qeyd etmək lazımdır ki, burada ümumxalq (dövlət) mənafei başlıca meyar kimi qəbul edilməklə şəxsi və kollektiv mənafe nəzərə alınmalıdır.

– **Sahə və ərazi idarəetmənin məqsədəuyğun əlaqələndirilməsi.** Nəqliyyat və rabitə xidmətləri təsərrüfatlarının idarə edilməsi ilə əlaqədar sahə və ərazi üzrə tədbirlər bir-biri ilə əlaqələndirilməlidir.

– **Təkbaşına rəhbərlik və əməkçillərin hər birinin resursların qorunması, mənimsənilməsi və idarə edilməsində iştirakının təmin edilməsi.** Nəqliyyat və rabitə xidmətləri təsərrüfatlarının sərəncamında olan resurslarının qorunması, onların istifadəsinin iqtisadi və ekoloji səmərəliliyinin yüksəldilməsi istiqamətində tədbirlərin hazırlanması və həyata keçirilməsində vahid-təkbaşına rəhbərliklə yanaşı, əməkçillərin hər birinin fəal iştirakını təmin edilməlidir.

– **Logistik prinsiplər** əsasında müəssisədaxili və müəssisədənkənar daşımaların yeni texnologiya əsasında işlənməsi və tətbiqi ilə sistemin səmərəliliyi əldə edilməlidir.

– **Nəzarətin təşkili və icranın yoxlanılması.** Sənaye istahsal birliklərinin bütün bölmələrin, habelə, nəqliyyat və rabitə xidmətləri təsərrüfatlarınnın sərəncamında olan resursların qorunması, onların istifadəsinin iqtisadi və ekoloji səmərəliliyinin yüksəldilməsi tədbirlərinin həyata keçirilməsinə nəzarətin təşkili və icranın yoxlanılması zəruri hesab edilməlidir. Nəqliyyat və rabitə xidmətləri təsərrüfatlarının sərəncamında olan resursların qorunması və səmərəli istifadə edilməsi ilə əlaqədar xüsusi komissiya yaradılır. Qeyd etmək lazımdır ki, müxtəlif səviyyələrdə (Nəqliyyat, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Fövqəladə Hallar Nazirliyinin, əlaqədar nazirlik və baş idarələrin, icra hakimiyyətlərinin) yaradılan komissiyalar həmin təşkilatlarda tərtib və təsdiq olunmuş proqram-qrafik əsasında nəqliyyat və rabitə xidmətləri təsərrüfatlarının sərəncamında olan resursların qorunması və səmərəli istifadə edilməsini mütəmadi olaraq yoxlamaqla, toplanmış yoxlama materialları təhlil edilir və müvafiq hesabatlarla müvafiq səviyyələrdə, habelə, istehsalat müşavirələrində və kollektivin ümumi yığıncaqlarında müzakirə edillərək, müvafiq qərarlar qəbul edilir. Qəbul edilmiş qərara müvafiq nəqliyyat və rabitə xidmətləri təsərrüfatlarının sərəncamında olan resursların qorunması və istifadə edilməsinin səmərəliliyinin yüksəldilməsi ilə əlaqədar kompleks tədbirlər planı işlənib hazırlanır və bunun reallaşdırılması əməli-təqvim-qrafik üzrə həyata keçirilir.

Yuxanda araşdırılan prinsiplərin reallaşdırılması texniki-texnoloji, təşkilati, ideya-tərbiyəvi, psixoloji, fizioloji, sosial və iqtisadi amillərin nəzərə alınmasını tələb edir və göstərilən amillərə

müvafıq olaraq, nəqliyyat təsərrüfatlarınm resurslarının qorunası, mənimsənilməsi və onların istifadəsinin səmərəliliyinin yüksəldilməsi ilə əlaqədar təşkilat və təsərrüfatlarda kompleks tədbirlər proqramı işlənib hazırlanaraq, əməli-təqvim-qrafik üzrə həyata keçirilməsi üçün cavabdeh-məsul şəxslərdən ibarət icraçı qrup yaradılır. Kompleks tədbirlərin tətbiqinin gedişatı ilə əlaqədar mütəmadi olaraq istehsalat müşavirələrində icraçı qrupun hesabatı dinlənilməli, müzakirə edilməli və əməli fəaliyyətin təkmilləşdirilməsi, onun səmərəliliyinin yüksəldilməsi üçün qərar qəbul edilməlidir.

Nəqliyyat və rabitə xidmətləri bölmələrinin idarə edilməsinin (menecmentinin) təkmilləşdirilməsində onun əsas funksiyaları, ona təsir edən amillər və metodlar müvafiq olaraq yeni innovasiya, optimallaşdırma tələblərinə uyğunlaşdırılmalıdır.

Nəqliyyat və rabitə xidmətləri təsərrüfatlarının sərəncamında olan resurslarının qorunması, mənimsənilməsi və onların istifadəsinin səmərəliliyinin yüksəldilməsi ilə əlaqədar təşkilat və təsərrüfatlarında əmək haqqının forma və sistemlərinin düzgün seçilməsi, əmək haqqının tarif sisteminin elementlərinin təkmilləşdirilməsi və məqsədəuyğun istifadə olunması, habelə, mükafatlandırma sisteminin geniş tətbiqi zəruri hesab edilir. Nəqliyyat və rabitə xidmətləri təsərrüfatlarının sərəncamında olan təbii, material-texniki, enerji, əmək və maliyyə resurslarının səmərəlili istifadəsini xarakterizə edən göstəricilər - təbii resursların gəlirlilik və mənfəətlilik əmsalı, material-texniki resursların gəlirlilik və mənfəətlilik əmsalı, enerji resursların gəlirlilik və mənfəətlilik əmsalı, əmək resursların gəlirlilik və mənfəətlilik əmsalı, habelə, əmək məhsuldarlığı, maliyyə resurslarının gəlirlilik və mənfəətlilik əmsalı, rentabellikdən ibarətdir.

Nəqliyyat təsərrüfatlarının resurslarının qorunması, mənimsənilməsi və onlarm istifadəsinin səmərəliliyinin yüksəldilməsi ilə əlaqədar təşkilat və təsərrüfatlarında əmək haqqının forma və sistemlərinin düzgün seçilməsi, əmək haqqının tarif sisteminin elementlərinin təkmilləşdirilməsi və məqsədəuyğun istifadə olunması, habelə, mükafatlandırma sisteminin geniş tətbiqi zəruri hesab edilir. Nəqliyyat təsərrüfatınn sərəncamında olan təbii, material-texniki, enerji, əmək və maliyyə resurslarının səmərəlili istifadəsini xarakterizə edən göstəricilər - təbii resursların gəlirlilik və mənfəətlilik əmsalı, material-texniki resursların gəlirlilik və mənfəətlilik əmsalı, enerji resursların gəlirlilik və mənfəətlilik əmsalı, əmək resursların gəlirlilik və mənfəətlilik əmsalı, habelə, əmək məhsuldarlığı, maliyyə resurslarının gəlirlilik və mənfəətlilik əmsalı, rentabellikdən ibarətdir.

Ədəbiyyat

1. S.Q. Cümşüdov. Xidmət sahələrinin sosial-iqtisadi inkişafının dövlət tənzimlənməsi. “Dölət idarəçiliyi” jurnalı №1(9), Bakı 2005, səh. 96-104.

2. S.Q. Cümşüdov, diss. G.V. Məmmədova. Sənaye istehsal birliklərində nəqliyyat xidmətinin təşkilinin ekoloji aspektləri. Ekologiya və su təsərrüfatı elmi-texniki və istehsalat jurnalı. 2018, №1, səh. 24-29.

3. Cümşüdov S.Q., C.R. Rəhimov. Neft-qaz sənayesi məhsullarının nəqliyyatda istifadəsinin ekoloji və iqtisadi səmərəliliyi. Monoqr., Bakı, “Ziya-Jurnal”, 2009, 168 səh.

4. Cümşüdov S.Q. İdarəetmə qərarlarının qəbulu. Bakı, “Təhsil” NPM 2010, 160 s.

Г.В. Мамедова, С.Г.Джумшудов

Азербайджанский Технический Университет

Основные принципы совершенствовании управления транспортных услуги услуг связи в промышленных производственных объединениях

В докладе рассмотрены основные принципы совершенствовании управления транспортных услуги услуг связи в промышленных производственных объединениях.

Ключевые слова: *услуг, менеджмент, научность, системность, экономичность, эффективность, оптимальность, экологичность, контроль и проверка исполнения.*

MÜASİR DÖVRDƏ DÖVLƏT VƏ ÖZƏL SEKTOR ƏMƏKDAŞLIĞNIN TƏKMİLLƏŞDİRİLMƏSİ ZƏRURƏTLƏRİ

Arif Nail oğlu Əliyev, doktorant
Azərbaycan Kooperasiya Universiteti

Xülasə

Özəl sektorun inkişafı Azərbaycanda mühüm inkişaf istiqamətlərindən biri olaraq müəyyən olunmuşdur. Ölkədə həyata keçirilən iqtisadi islahatlarda bu sektorun inkişafına olan qayğı daha da artması ilə müşahidə olunur. Tezisdə dövlət-özəl sektor əməkdaşlığının təkmilləşdiirlməsi ilə bağlı zəruri hesab olunan baxışlar irəli sürülmüşdür.

Açar sözlər: özəl sektor, iqtisadi islahatlar, dövlət-özəl sektor əməkdaşlığı

Son on il ərzində dünya iqtisadi sisteminin əsas konstruksiya və mexanizmlərinin çoxsaylı transformasiyaları baş vermişdir. Qlobal problemlərin daim artması, onların coğrafiyasının genişlənməsi milli iqtisadiyyatın inkişafının sabitliyinə xüsusilə mənfi təsir göstərmişdir. Qlobal təsirlər və onların mənfi nəticələri kontekstində dünya əhalisinin təhlükəsizliyinin və həyat şəraitinin təmin edilməsi üçün ciddi təhlükələr yaranmışdır. Davam edən COVİD-19 qlobal pandemiyası bütün əhalinin sağlamlığına dəfələrlə ziyan vurmuş və bütün dünya iqtisadiyyatına mənfi təsir göstərmişdir. Dünyanın bütün aparıcı beynəlxalq təşkilat və ölkələri bu cür təhlükə qarşısında aciz qalmışdır. Hazırda təhlükəli viruslara qarşı mübarizə prosesi hələ də davam edir. İnsanın həyat fəaliyyətinin digər istiqamətlərində də analoji təhlükələr yarana bilər. Belə ki, iqlim dəyişikliyinin mənfi nəticələrinin genişlənməsi və istiləşmənin təsiri, insanları aclığın, bütün dünyada yoxsulluğun azaldılması üçün əsas ərzaq növünün lazımi həcmdə yetişdirilməsi imkanından məhrum edən quru torpağın ərazisinin artması. Bir sıra ölkələr, hətta cəmiyyət – dövlət, dövlət – özəl sektor istiqamətində səmərəli təşkilatçılıq və sıx əməkdaşlıq sayəsində öz əhalisinin həyat və rifahının yüksək səviyyəsi ilə seçilir. Belə əməkdaşlıq cəmiyyətin və milli iqtisadiyyatın qarşılıqlı təsir dinamikliyini təmin edir ki, bu da davamlı inkişafın əsas meyarıdır [6]. Həyata keçirilən dövlət siyasətinin şəffaflığı, sosial ədalət prinsiplərinin yayılması, təbii və iqtisadi resurslardan əhalinin rifahı naminə səmərəli istifadə edilməsi sayəsində dünyanın bir sıra ölkələrində hökumətlə əhali arasında yüksək etimad səviyyəsi müşahidə olunur. Lakin dünyanın əksər ölkələrində ölkə vətəndaşlarının milli maraqlarına cavab verən mexanizmlər yoxdur. Bu vəziyyətin əsas səbəbləri sırasında dövlətin cəmiyyətlə münasibətlərindəki fərq və bazar təsərrüfatçılığı və qlobal problemlərin artması şəraitində dövlətlə özəl sektorun qarşılıqlı təsirinin effektivliyinin təmin edilməməsidir.

Azərbaycanda dövlət-özəl sektor subyektlərinin qarşılıqlı fəaliyyətinin möhkəmləndirilməsi məsələləri və prosesləri dövlət siyasətinin ən mühüm istiqamətlərindən biri hesab edilir ki, bu da əsasən ölkə əhalisinin sosial təminatına və həyat vəziyyətinin yüksəldilməsinə yönəlib. Dövlət infrastruktur obyektləri şəbəkəsinin yaradılması üzrə onlarla məqsədli proqramlar, strategiyalar və kompleks tədbirlər hazırlayır və həyata keçirir: məktəblər, xəstəxanalar, körpülər, yollar, energetika obyektləri, su təchizatı infrastrukturu və s. Bu istiqamətlər üzrə bütün layihələrdə özəl sektorun subyektləri fəal cəlb olunur [1; 2]. Güclü maliyyələşdirmə mexanizmi sayəsində dövlət orqanlarının və özəl sektor nümayəndələrinin bütün sahələrdə və sahələrdə səmərəli qarşılıqlı fəaliyyəti müşahidə olunur. Bundan başqa, ölkənin regionlarında dövlət iqtisadi fəallığı və sahibkarlıq fəaliyyətini stimullaşdırıb – özəl müəssisə və şirkətlər yaradılıb ki, onlar da büdcəyə bir sıra ayırmalardan azad olunur və onlara vergi güzəştləri verilir, özəl investisiyalar təşviq edilir, güzəştli texnika, maşın və mexanizmlər, kənd təsərrüfatı gübrələri verilir. Eləcə də kənd təsərrüfatının və aqrar bölmənin ayrı-ayrı inkişaf istiqamətlərində subsidiyalar və dotasiyalar verilir. Beləliklə, özəl

sektorun subyektləri Dövlət orqanları tərəfindən maliyyə və institusional dəstək almaqla ölkədə infrastrukturun abadlaşdırılması və inkişafı proseslərinə fəal qoşulurlar.

Azərbaycanda dövlət və özəl sektorun əməkdaşlığının möhkəmləndirilməsi üzrə mexanizm və alətlərin tətbiqi ildən-ilə sürətlənir və burada dünya təcrübəsi fəal şəkildə tətbiq edilir. Beynəlxalq tədbirlər keçirilir, Azərbaycan nümayəndələri bu istiqamətlər üzrə regional və beynəlxalq təşkilatların müxtəlif forumlarında, seminarlarında və iclaslarında daim iştirak edirlər. Belə ki, iqtisadi, ticarət, texnoloji və ekoloji məsələlər üzrə komitənin 39-cu iclasından verilən məlumata görə, Azərbaycanda həyata keçirilən islahatlar ölkənin davamlı inkişafına keçid üçün ciddi zəmin yaratmışdır. Sahibkarların dövlət tərəfindən sistemli qorunması, özəl sektora və biznes mühitinə dəstək üçün təsirli tədbirlərin həyata keçirilməsi iqtisadiyyatın davamlı inkişafının möhkəmləndirilməsi üçün əlverişli şəraiti təmin etmişdir. Dövlətlə özəl sektor subyektləri arasında qarşılıqlı münasibətlər sahibkarlıq fəaliyyətinin səmərəli dövlət tənzimlənməsi sayəsində yaxşılaşıb. Sahibkarların müdafiəsinin effektiv mexanizmi işlənib hazırlanmış və quraşdırılmışdır ki, bunun da nəticəsində biznesə müdaxilə halları azalmışdır. Məsləhət xidmətlərinin genişləndirilməsi, sahibkarlara informasiya verilməsi və işgüzar münasibətlərin möhkəmləndirilməsi üçün daim tədbirlər görülür. Kiçik və orta müəssisələrə maliyyə yardımının real mənbəyi kimi nəzərdən keçirilən sahibkarlara dövlət maliyyə yardımı mexanizmi yaradılmışdır [7; 8]. Ölkədə verilən kommersiya kreditlərinin faiz dərəcəsi əhəmiyyətli dərəcədə azalıb, özəl sektorun sahibkarları üçün güzəştli kreditlərin sayının artması sayəsində kreditlər üzrə faiz dərəcəsi 7%-dən 6%-ə düşüb. Elektron xidmətlərin geniş spektri yaradılıb, müvafiq dövlət orqanlarının fəaliyyətinin rəqəmsallaşdırılması intensivləşdirilir. Yeni başlayan özəl sektor subyektlərinə güclü yardım göstərilməsi üçün müxtəlif elektron ticarət veb-portalları və iqtisadi xəritələr, eləcə də yüksək texnologiyalar və ticarət və xidmət metodlarının fəal tətbiqi hesabına kənd təsərrüfatı məhsulları istehsalçılarının dəstəyi təşkil olunur [5]. Əsasən, yaxın və uzunmüddətli perspektivdə ölkənin davamlı inkişaf konsepsiyasının ən mühüm strateji məqsəd və vəzifələri, sosial-iqtisadi aspektləri müəyyən edilmişdir. Ölkə regionlarının iqtisadi potensialı açılır. İqtisadiyyatın rəqabətədavamlı emal sahələri şəbəkəsinin yaradılması üçün təbii ehtiyatlar, faydalı qazıntılar, xammal ehtiyatları təsərrüfat dövriyyəsinə fəal cəlb olunur. Bu zaman yeni iş yerləri və əlavə dəyərin daha məhsuldar mənbələri yaradılır ki, bu da ölkə iqtisadiyyatının artımını təmin edir.

Qeyd edək ki, iqtisadiyyatın davamlı inkişafının möhkəmləndirilməsi, o cümlədən regional kontekstdə konkret irimiqyaslı dövlət proqramları həyata keçirilir: regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının hazırlanması və həyata keçirilməsi zərurəti aşağıdakı amillərlə şərtlənir: təbii və iqtisadi potensialdan səmərəli istifadə əsasında iqtisadiyyatın davamlı inkişafının təmin edilməsi; iqtisadi inkişaf səviyyəsinə görə regionlar arasında mövcud olan əhəmiyyətli fərqin aradan qaldırılması və regional tarazlığın təmin edilməsi; məşğulluğun artırılması və yoxsulluğun azaldılması üçün sahibkarlığın inkişafının sürətləndirilməsi; köhnə müəssisələrin istehsal fəaliyyətinin bərpası və yenilərinin yaradılması; regionların inkişafı üçün zəruri infrastrukturun yaradılması [3; 4]. Bütün bu amillər bütövlükdə cəmiyyətin və ölkə iqtisadiyyatının dayanıqlığının artmasına səbəb olur və daha etibarlı münasibətlər, cəmiyyət və dövlət arasında mühit yaradır ki, bu da dövlət və özəl sektor subyektlərinin əməkdaşlığının səmərəliliyinə müsbət təsir göstərir.

Yaxın dövrdə dövlət-özəl sektorun səmərəliliyinin artırılması üzrə mövcud mexanizmlərin və yanaşmaların müasir çağırışlar və qlobal təsirlər nəzərə alınmaqla davamlı inkişaf kontekstində təkmilləşdirilməsi çox aktual və vacib hesab olunur. Bütövlükdə, dövlət və özəl sektorun əməkdaşlıq mexanizminin təkmilləşdirilməsinin daha aktual problemləri davamlı inkişaf kontekstində bir sıra problemlərin kompleks şəkildə nəzərdən keçirilməsini və həllini şərtləndirir: dövlətin və özəl sektor subyektlərinin, xüsusilə postpandemik dövrdə qarşılıqlı əlaqəsinin əhəmiyyətli dərəcədə təkmilləşdirilməsi üçün tamamilə yeni, daha təsirli mexanizmlər və tədbirlər lazımdır; davamlı inkişaf proseslərinin intensivləşdirilməsi üçün mövcud, lakin istifadə olunmamış təbii və iqtisadi resursların açılması üçün daha geniş maliyyə-tutumlu məqsədli proqramlar və strategiyalar tələb olunur; təhsil, səhiyyə sistemində daha cəsarətli islahatlar, insan kapitalının səmərəli istifadəsi üzrə sosial problemlərin həlli, dövlət-özəl sektorun qarşılıqlı fəaliyyətinin

genişləndirilməsi, intellektual resurslardan, kadr potensialından maksimum istifadə edilməsi vacibdir.

Ədəbiyyat

7. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi". Bakı, 2016. http://www.president.az/articles/17670.

8. "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi". Bakı, 2016. http://www.president.az/articles/17670.

9. "Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi". Bakı, 2016. http://www.president.az/articles/17670.

10. Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı". Bakı, 2015. http://www.president.az/articles/17670.

11. "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı". Bakı, 2019. http://www.president.az/articles/17670.

12. Центры государственно-частного партнерства в странах ОЭСР. https://www.rspp.ru

13. Практическое руководство по вопросам эффективного управления в сфере государственно-частного партнерства. Европейская экономическая комиссия Организации Объединенных Наций. Нью-Йорк и Женева, 2008. –128 с.

14. Ахмедова Э.М. Оценка устойчивости экономики Азербайджана // Экономика. Управление. Инновации. – 2018 – №2 (4) 2018. – С.116-121.

Необходимость совершенствования сотрудничества государственного и частного секторов в современный период

Резюме

Развитие частного сектора определено как одно из важных направлений развития в Азербайджане. В экономических реформах, проводимых в стране, наблюдается дальнейший рост заботы о развитии этого сектора. В тезисе были выдвинуты взгляды, считающиеся необходимыми в связи с совершенствованием государственно-частного сектора.

Ключевые слова: частный сектор, экономические реформы, государственно-частное сотрудничество

The need to improve public and private sector cooperation in the modern period

Summary

The development of the private sector has been identified as one of the important directions of development in Azerbaijan. The economic reforms carried out in the country are accompanied by a further increase in the care for the development of this sector. In the thesis, necessary views were put forward on improving public-private cooperation.

Keywords: private sector, economic reforms, public-private cooperation

AZƏRBAYCANDA "DÖVLƏT ÖZƏL SEKTOR TƏRƏFDAŞLIĞI" LAYİHƏLƏRİNİN SAHİBKARLIQ FƏALİYYƏTİNİN İNKİŞAFINA TƏSİRİ

Vəliyeva İ.H. i.e.n., dos.
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
irada_335@hotmail.com

Xülasə

Dövlət özəl sektor tərəfdaşlığı (PPP) dövlət qurumları ilə özəl şirkətlərin yolların və parkların salınması, ictimai nəqliyyatın idarəedilməsi və iri ictimai obyektlərin inşası kimi irimiqyaslı layihələrin maliyyə, inşaat və ya idarəetmə sahələrində birgə iş birliyini tənzimləyən

tərəfdaşlıq növüdür. Layihənin PPP vasitəsi ilə maliyyələşməsi layihənin daha tez inşa edilməsi, yeni texnologiyalardan bəhrələnməsi ilə nəticələnir. Bu cür layihələr həmçinin bəzi imtiyazlara və vergi imtiyazlarına malik olur. Müəllif bu məqalədə dünyada PPP layihələrinə nəzər salaraq Azərbaycanda bu cür tərəfdaşlığı təhlil edir və onun sahibkarlığın inkişafına təsirini araşdırır.

Hal-hazırda bir sıra inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatında dövlət və özəl biznes arasında qarşılıqlı əlaqələrin yeni bir xüsusi forması - dövlət-özəl tərəfdaşlığı geniş yayılmağa başlamışdır. Beynəlxalq miqyasda dövlət-özəl sektor tərəfdaşlığı (DÖST) PPP (Public Private Partnership) kimi tanınır. Dövlət-özəl sektor tərəfdaşlığı, ölkə daxilində və ya ayrı-ayrı ərazilərdə sosial əhəmiyyətli layihələr həyata keçirmək məqsədi ilə dövlət və özəl sektor arasında fəaliyyətin təşkilati və institusional birliyidir. Bu həmçinin dövlət infrastruktur və ya xidmətlərin təmin edilməsi üçün dövlət və özəl sektor arasında uzunmüddətli müqavilədir və burada özəl sektor müəyyən risklər və idarəetmə məsuliyyəti daşıyır, eləcə də özəl sektora edilən ödəniş fəaliyyətin nəticələrinə əsaslanır. Bu tipli layihələrin icrası ilə dövlət mülkiyyət və ya nəzarət mexanizmlərini özündə saxlamaqla onun tərəfindən göstərilən bir sıra xidmətləri özəl sektora ötürür və nəticədə dövlət əvvəlcədən müəyyən edilmiş tələblərə uyğun keyfiyyətli infrastruktura, əhali isə keyfiyyətli xidmətə sahib olur.

Bu forma dövlətin iqtisadiyyata birbaşa təsirinin zəifləməsinə, funksional səlahiyyətlərin özəl sektora verilməsinə və eyni zamanda tənzimlənməsinin davam etdirilməsinə və gücləndirilməsinə əsaslanır.

Dövlət layihələrin icrasını ya təkbaşına təmin edir, ya da özəl sektorun imkan və bacarıqlarından istifadə edərək həyata keçirir. Biznes, sanki dövlət layihələrinin təkmilləşdirilməsi və yüksək keyfiyyətlə həyata keçirilməsi üçün dövlət aktivlərinin rəhbərliyinə dəvət olunur.

PPP-nin əsas məqsədi tərəflərin hər birinin resurslarını və təcrübələrini birləşdirməklə ictimai maraqlar çərçivəsində infrastrukturu inkişaf etdirmək və ən aşağı xərc və risklərlə sosial əhəmiyyətli layihələrin həyata keçirilməsini təmin etməkdir.

Əslində "dövlət-özəl sektor tərəfdaşlığı" (DÖST) və ya PPP, (Public Private Partnership (Dövlət Şəxsi Tərəfdaşlığı) termini XX əsrin 90-cı illərinin əvvəllərində ortaya çıxmışdı və əsasən PPP-nin "İngilis modeli" ilə əlaqələndirilirdi. 1992-ci ildə D. Meydjor hökuməti, dövlət mülkiyyətinin idarəedilməsinin modernləşdirilmiş konsepsiyası olan "Xüsusi Maliyyə Təşəbbüsü" Private Finance Initiative (PFI) elan etmişdi. PFI-nin mahiyyəti ondan ibarət idi ki, dövlət-özəl tərəfdaşlığına dair müqavilə və sazişlər çərçivəsində dövlətə məxsus olan sosial, mədəni və sənaye infrastruktur obyektlərinin maliyyələşdirmə (tikinti, yenidənqurma, istismar, idarəetmə və s.) funksiyaları özəl sektora ötürülmüş olur. Böyük Britaniyadakı dövlət idarəetmə sistemindəki bu köklü dəyişiklik, həm dövlət aparatı ilə özəl biznes arasındakı əlaqələrdə, həmçinin, institusional mühitdə əhəmiyyətli dəyişiklik yaratmışdı.

Dünyanın müxtəlif bölgələrində PPP nin fərqli modelləri tədbiq olunur. Bu qarşılıqlı əlaqə forması müasir qarışıq iqtisadiyyatın xarakterik xüsusiyyəti kimi dəyərləndirilə bilər. Nəzərə alsaq ki, qarışıq iqtisadiyyat bazar və inzibati idarəetmə elementlərindən ibarət olan bir iqtisadiyyatdır, buna, bir növ alternativ idarəetmə forması kimi də baxmaq olar.

Tarixə nəzər salsaq görərik ki, hələ heç bir dövlətdə 100 % bazar iqtisadiyyatı sistemi mövcud olmayıb. Baxmayaraq ki, XIX əsrdə İngiltərə bu sistemə müəyyən dərəcədə yaxınlaşmışdı. Hal-hazırda ABŞ-da qəbul edilən qərarların əhəmiyyətli bir hissəsi bazar tərəfindən diqtə edilir. Lakin bununla ölkədə hökumətin rolu azalmır, əksinə dövlət bazarın fəaliyyətində mühüm rol oynayır: iqtisadi mühiti tənzimləyən fərmanlar imzalanır, qaydalar müəyyən edilir, səhiyyə, təhsil və hüquq-mühafizə xidmətləri göstərilir, biznesə nəzarət edilir, ətraf mühitin çirklənməsi izlənilir və s.

Qeyd etmək lazımdır ki, PPP layihələrində bütün risklər dövlət və özəl biznes arasında qarşılıqlı razılaşmalarda nəzərdə tutulan nisbətdə bölüşdürülür və müvafiq xidmət səviyyəsini təmin etmək məqsədilə özəl müəssisələr üçün müəyyən bir nəzarət və tənzimləmə sistemi yaradılır. Bundan başqa dövlət birtərəfli qaydada əhali və müəssisələr üçün əsas dəstək funksiyalarını yerinə yetirir, infrastrukturların işinə görə cəmiyyət qarşısında cavabdehlik daşıyır. Təsadüfi deyil ki, bir sıra iqtisadçı alimlər bu idarəetmə formasına yarı özəlləşdirmə forması kimi baxırlar, yəni, dövlət,

infrastruktur obyektlərinin mülkiyyət və sərəncamvermə hüququnu müəyyən müddətə özəl sektora ötürməklə həm də bu obyektlərin sahibi olaraq qalır.

Hər bir layihə iştirakçısı ümumi layihənin inkişafına müəyyən töhfələr verir. Məsələn, biznes maliyyə resursları, professional təcrübə, rahatlıq, qərar qəbul edilməsində sürətli adaptasiya və səmərəliliyi təmin edir, effektiv idarəetmə və yenilikçi qabiliyyətlər göstərir.

Dövlət isə mülkiyyət hüququnu təmin edir, hər cür güzəşt və zəmanət, habelə maliyyə mənbələri təmin edir. PPP çərçivəsində dövlət əsas funksiyalarını - nəzarət, tənzimləmə, ictimai maraqlara riayət etməyi inkişaf etdirir.

Bundan başqa layihə iştirakçılarının PPP-yə müəyyən maraqları da vardır ki, bunlardan bəzilrini nəzərdən keçirək:

Biznesin marağı, layihələrin həyata keçirilməsindən əldə olunan mənfəətin artırılmasına olan maraqdan irəli gəlir. Dövlətin təqdim etdiyi layihələrdə iqtisadi azadlıq şəraitində özəl sektor məhsuldarlığı və yenilkçiliiyi artırmağa çalışır. İkincisi, biznes, layihənin həyata keçirilməsi prosesində uğursuzluqla qarşılaşanda, layihənin həyata keçirilməsinə qoyulmuş vəsaitin qaytarılması üçün kifayət qədər zəmanət almış olur, çünki dövlət tərəflərin qarşılıqlı razılığına əsasən müəyyən olunmuş risklərə görə məsuliyyət daşıyır. Bəzi hallarda yüksək keyfiyyətli xidmətə görə dövlət tərəfdaşına əlavə pul da ödəməyi ohdəsinə götürür . Nəhayət, özəl sektor dövlət aktivlərini uzunmüddətli idarəetmə məqsədləri üçün güzəştli ödəmə şərtləri ilə əldə edə bilir.

Dövlətin marağı isə ondan ibarətdir ki, əmlakın saxlanılması və investisiya qoyuluşu xərclərinin bir hissəsini özəl sektora yönəldə bilir. Həmçinin, icarə və güzəştli ödənişlər səbəbindən dövlət qurumları büdcəyə əlavə gəlir cəlb edə bilirlər.

PPP-nin müasir alətləri kimi müxtəlif bank müəssisələri çıxış edir.

Beynəlxalq təcrübədə DÖST layihələrinin növləri cəlb olunan aktivin forması (yeni və ya mövcud), özəl sektora həvalə olunan funksiyalar (layihələndirmə, tikinti,yenidənqurma, maliyyələşdirmə, texniki xidmət və istismar) və ona edilən ödəniş (istifadəçilər tərəfindən ödəniş, hökumət tərəfindən ödəniş və ya bunların hər ikisi) kimi parametrlərin kombinasiyasından asılı olaraq dəyişir. Ümumilikdə təcrübədə 10-dan çox DÖST modeli tətbiq edilir. Bunlara misal olaraq, "Tik-İdarə et-Təhvil ver" (Build-Operate-Transfer), "Tik-Sahib ol-İdarə et-Təhvil ver" (Build-OwnOperate-Transfer), "Tik – Sahib- ol-İdarə et" (Build-Own-Operate), (Design, Build, Own, Operate, Transfer) "Tik-Təhvil ver-İstismar et" (Build-Transfer-Operate) və s. qeyd etmək olar.

Bunlardan bəzilərinə diqqət yetirək:

"Tik-İdarə et Təhvil ver" (Build-Operate-Transfer) modelinin mahiyyəti ondan ibarətdir ki, burada infrastruktur obyekti, tikinti başa çatdıqdan sonra, qoyulmuş investisiyanı geri qaytarmaq üçün kifayət qədər müddət ərzində inşa edilmiş obyekti istifadə etmək hüququ əldə edir. Müddət bitdikdən sonra obyekt dövlətə keçir. Eyni zamanda, özəl tərəfdaşın yalnız istifadə etmək hüququ vardır, mülkiyyət hüququ isə yoxdur.

"Tik-Sahib ol-İdarə et-Təhvil ver" (Built, Own, Operate, Transfer) Bu halda, özəl tərəfdaş, müqavilənin qüvvədə olduğu müddətdə obyektdən istifadə etmək və sahib olmaq hüququnu alır. Müqavilə müddəti bitdikdən sonra obyekt dövlət orqanına təhvil verilir.

"Tik-Sahib ol-İdarə et" (Build-Own-Operate) Bu vəziyyətdə, etibarlılıq müddəti bitdikdən sonra yaradılan obyekt dövlət orqanlarına verilmir, əksinə, investorun sərəncamında qalır.

"Tik-Təhvil ver-İstismar et" (Build-Transfer-Operate) burada özəl qurum konsessiya müqaviləsində göstərilən bir obyektin tikilməsi, sahibi olması və istismarı üçün dövlət sektorundan maliyyə güzəşti alır.

"Layihələndir - Tik- Sahib ol, İdarə et, Təhvil ver (Design, Build, Own, Operate, Transfer) Bu tip razılaşmanın özəlliyi ondan ibarətdir ki, özəl tərəfdaş yalnız infrastruktur obyektinin inşası üçün deyil, həm də layihələndirilməsi üçün məsuliyyət daşıyır.

Beynəlxalq təcrübədə PPP-nin inkişafı üç mərhələyə bölünür. Əksər ölkələr bunlardan birincisində qərarlaşıb. Bu mərhələdə iştirakçılar yalnız qanunvericilik bazasını yaradırlar və standartlara uyğun olaraq, PPP-ləri necə tətbiq edəcəyini müəyyən etməyə çalışırlar və bununla özlərini və tərəfdaşlarını səhv etməkdən qoruyurlar. Hazırda üçüncü pillədə yalnız üç ölkə var: Böyük Britaniya, Avstraliya, İrlandiya. Əksər Avropa ölkələri, eləcə də ABŞ, Kanada, Yaponiya və

Rusiya ikinci mərhələdədir. Gördüyünüz kimi, PPP dünyanın müxtəlif ölkələrində fərqli uğurlarla inkişaf edir.

Bu konsepsiya daha çox inkişaf etmiş bazar iqtisadiyyatı və dövlət və özəl sektor arasında qarşılıqlı fəaliyyət ənənələri kök salmış ölkələrdə yayılmışdır.

Ancaq buna baxmayaraq bir çox mövqelər üzrə oxşar əlamətlər olsa da, müxtəlif ölkələrdə PPP təşkilinda müəyyən fərqlər də mövcuddur. Belə ki, Anglo-Sakson dövlətlərində, özəl bir tərəfdaş seçərkən ayrı-ayrılıqda üç müsabiqə - layihələndirmə, tikinti, idarəetmə üçün keçirilir. Fransada, əksinə, hər növ iş və ya xidmət üçün vahid müsabiqə keçirilir. Bir sıra Qərbi Avropa ölkələrində PPP-lərdən istifadə təcrübəsi göstərir ki, bu mexanizm məhz o ölkələrdə istifadə edilir ki, dövlətin və biznesin bir-birini tamamlayan maraqları olsun, eyni zamanda müstəqil fəaliyyət göstərmək iqtidarında olmasınlar.

Dünya Bankının mılumatlarında göstərildiyi kimi 2019-cu idə 62 ölkədə 409 layihə üzrə 96,7 milyard ABŞ dolları həcmində PPP investisiya layihələri həyata keçirilmişdir. Bu əsasən enerji, nəqliyyat, İKT su təsərrüfatı və tullantıların emalı istiqamətləri üzrə icra edilmişdir. 2019-cu ilin DÖST layihələrinə nəzər salsaq, görərik ki, 2018-ci ilə nisbətində 3% azalma müşahiə olunur. Buna səbəb 2018-ci ildə İndonesiya, Çin, Hindistan və Türkiyə kimi ölkələrin enerji sektoruna etdiyi iri miqyaslı sərmayələrin həcminin azalması idi. 2019-cu ildə DÖST layihələrini həyata keçirən ölkələrin sayında isə artım baş vermişdi. Belarusiya, Beliza, Kuba, Paraqvay və Özbəkistan kimi dövlətlər ilk dəfə DÖST layihələrini tətbiq etməyə başlamışdı. Yuxarıda qeyd edilən 2019-cu ilin 409 layihəsinin 40% (cəmi 160 layihə) beynəlxalq qurumlar tərəfindən maliyyələşdirilmişdir. Beynəlxalq sərmayeçilərin əksəriyyəti inkişaf etmiş ölkələr olmuşdur. Bu ölkələr arasında Çinin rolu xüsusilə qeyd edilməlidir. İnkişaf etməkdə olan ölkələrə DÖST layihələrinin sponsorluğunda yalnız Çin müəssisələri 10.3 milyard ABŞ dollar investisiya etmişdir. Bu layihələrin əksəriyyəti ildə bərpa edilən enerjinin istehsalında islahatlar keçirən Meksika, Latın Amerikası dövlətləri arasında özəl sektor investorlarını cəlb edən ən geniş portfolioya malikdir. Ümumiyyətlə, DÖST layihələrinin maliyyələşmə sahələrində bərpa edilən enerji, tərkar emal və digər ekoloji əhəmiyyətli layihələrin artması tendensiyası müşahidə edilir.



Cədvəldən [8] görüldüyü kimi 2019-cu ildə inkişafda olan ölkələrə edilən DÖST layihələrinin sərmayenin miqdarı və layihələrin sayı 2018-ci ilə nəzərən 428 layihədən 409 olmaqla azalmışdır. Lakin 2017 və 2016-cı ilə nisbətdə 2019-cu ildə layihələrin sayı çoxalmışdır. Bu azalma iri həcmli investisiya alan ölkələrdə biznes mühitində yaranmış dəyişikliklər və ya bu ölkələrdə iri layihələrin tamamlanması ilə əlaqədardır.

Yuxarıdakı cədvəldə [8] 2010-2019-cu illər ərzində DÖST layihələrinin həyata keçirilməsi coğrafiyası əks olunub. Son illər Şərqi Asiya və Sakit okeanı hövzəsi ölkələrinə edilən sərmayənin miqdarı ən yüksək olub. Buna əsas səbəb Çin tərəfindən bu regionda həyata keçirilən irimiqyaslı

infrastruktur, nəqliyyat və yol qurulması layihələridir. Çinin maliyyələşdirdiyi layihələri istisna etsək, ənənəvi olaraq bu regionda İndoneziya, Filippin, Malasiya və Tayland DÖST layihələrindən bəhrələnib və bu layihələr ümumdünya DÖST layihələrinin maliyyələşdirilməsi həcmində 17%-ini təşkil edir.



Latın Amerikası və Karib dənizi hövzəsi ölkələrində isə maliyyənin həcmində stabil olaraq yüksəlmə müşahidə edilir. Buna səbəb Braziliyada həyata keçirilən irihəcmli layihələr, Meksikada hüquqi islahatlar və bu regionda DÖST layihələrini ilk dəfə təcrübə edən ölkələrin meydana gəlməsidir.

2020-ci il ərzində DÖST layihələrinin sayı və ümumi investisiya həcmi COVİD-19 pandemiyasının yaranması və layihələrin həyata keçirilməsinə vurduğu zərbəyə görə göstərici hesab edilmir. Layihələrin bəziləri dayandırılmış, növbəti ilə təxirə salınmış və ya büdcələri yenilənmişdir.

Dünya ölkələrində dövlət özəl sektor tərəfdaşlıq konsepsiyası məlumatlarını nəzərdən keçirərək Azərbaycanda bu sahədə movcud vəziyyəti araşdıraq. Hazırda dövlətimiz PPP-nin inkişafının üçüncü mərhələsində qərarlaşıb. Beləki, standartlara uyğun qanunvericilik bazası yaradılmışdır. Qeyd etmək lazımdır ki, DÖST modelinin iqtisadiyyatın fərqli sahələrində tətbiqi Strateji Yol xəritələrində də əksini tapmışdır. 15 mart 2016-cı ildə "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi" haqqında Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.

Bu qanuna əsasən ölkədə tikinti və infrastruktur obyektlərinin tikilməsi ilə əlaqədar yeni modelin tətbiqi və yeni maliyyələşmə imkanları yaradılmışdır. Qanun investisiya mühtinin yaxşılaşdırılması, qeyri-neft sektoruna sərmayələrin cəlb edilməsi üçün çox böyük imkanlar açır. Azərbaycan dövləti adından sərmayəçilərə çox böyük güzəştlər təklif olunur.

Bu qanun körpülərin, tunellərin, su anbarlarının, sutəmizləmə qurğularının, suvarma, içməli və məişət su sistemlərinin, habelə kanalizasiya sistemlərinin, xəbər və konfrans mərkəzlərinin, habelə təhsil, səhiyyə, mədəniyyət və turizm obyektlərinin, kommersiya məqsədli binaların, topdansatış bazarlarının, fabriklərin və oxşar obyektlərin, idman mərkəzləri, yataqxana, istirahət və əyləncə parklarının, təbiət parklarının, qoruqların, sənaye və texnologiya parklarının, aqroparkların, yüksək texnologiyalara əsaslanan avtomatlaşdırılmış idarəetmə sistemlərinin və informasiya texnologiyaları sahəsində digər sistemlərin, hər hansı növ məhsulun tədarük edilə biləcəyi anbar və digər bu tip obyektlərin, geotermik və tullantı istiliyinə əsaslanan obyektlərin və qızdırıcı sistemlərin, elektrik enerjisi istehsalı, ötürülməsi, paylanması və satışı ilə məşğul olan müəssisələrin, şoselərin, nəqliyyatın sıx olduğu magistral yolların, dəmiryolunun və relsli sistemlərin, avtovağzal komplekslərinin, stansiyaların, funikulyor və qaldırıcı sistemlərin, logistika mərkəzlərinin, yeraltı və yerüstü avtomobil dayanacaqlarının, metro xətlərinin və stansiyalarının, xüsusi iqtisadi zonaların, mülki məqsədlərlə istifadə edilən dəniz və hava limanlarının, yük, sərnişindaşıma və yaxta limanlarından ibarət komplekslərin TİT modelinə uyğun maliyyələşmə əsasında tikintisinə

(inşasına, cari və əsaslı təmirinə, yenidən qurulmasına, bərpasına), idarə edilməsinə və təhvil verilməsinə investisiyanın cəlb olunmasının hüquqi əsaslarını müəyyən edir.

TİT modelinin tətbiqi ilə əlaqədar ardıcıl olaraq 2016 vı 2017 ci illərdə bir sıra normativ sənədlər təsdiq edilmişdir. Bunlar "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin investorlar tərəfindən "Tik-idarə et-təhvil ver" modeli çərçivəsində həyata keçirilməsinin şərtləri, tikinti və infrastruktur obyektlərinin növlərinə uyğun olaraq investorlar qarşısında qoyulan tələblər, bağlanılan müqavilələrin xüsusiyyətləri və şərtləri, investisiya qoyuluşu nəticəsində əldə olunacaq mal və xidmətlərin dəyərinin müəyyənləşdirilməsi Qaydası" **və** "Tik-idarə et-təhvil ver" modeli çərçivəsində bağlanılmış müqavilələr üzrə əməkdaşlıq yardımının və qarantiya öhdəliyinin həcminin hesablanması metodikası barədə Qayda" **sıdır. 2019-cu ildə isə** dövlət-özəl sektor tərəfdaşlığı layihələrinin təşviqi və dəstəklənməsi sahəsində sistemli fəaliyyətin təmin edilməsi məqsədilə Kiçik və orta biznsin inkişafı Agentliyinin (KOBİA) strukturunda "Dövlət-Sahibkar Tərəfdaşlığının İnkişafı Mərkəzi yaradılmışdır**.** Prezident Fərmanı ilə səlahiyyətli orqan kimi **İqtisadiyyat Nazirliyi** müəyyən edilmişdir

"TİT" modeli tətbiq edilərkən investorlar qarşısında qoyulan tələblər, bağlanılan müqavilələrin xüsusiyyətləri və şərtləri Azərbaycan Respublikası Prezidenti tərəfindən müəyyən olunması nəzərdə tutulmuşdur.

"TİT" modeli tətbiq edilərkən bağlanan müqavilələrə zəruri hallarda dövlət zəmanətinin verilməsi imkanları da nəzərdə tutulub. Əgər investorun xərcləri istehlakçılar tərəfindən ödənilməsi mümkün olmadıqda, dövlət tərəfindən sərmayəçiyə maddi yardım verilməsi də nəzərdə tutulub.

"TİT" modelinə uyğun bağlanmış müqavilə üzrə investorlar qarşısında götürülmüş öhdəliklərin icrasına dövlət zəmanəti verilir və bağlanan müqavilələrin müddəti 49 ildən artıq ola bilməz

"TİT" modelinin tətbiqi dairəsi kifayət qədər geniş müəyyənləşdirilib və qeyri-neft sektorunun əsas seqmentlərini əhatə edir.

Ən vacib məqam – yuxarıda qeyd edilən obyektlərin tikilməsi ilə bağlı investisiya layihələrini "TİT" modelinə uyğun həyata keçirən investor (sərmayəçi) bu fəaliyyətlə bağlı dövlət rüsumlarından və yığımlardan azaddır. Sadə dillə izah etsək, "TİT" modeli ilə tikilən obyektlərə qoyulan sərmayə dövlətlə yanaşı, istehlakçılar tərəfindən ödənilə bilər. Yəni obyektlər investor tərəfindən idarəetməyə də verilə bilər. Yaxud xidmətlər, mallar birbaşa istehlakçıya satıla bilər.

Bu gün Azırbaycanda Dövlət ozəl tərəfdaşlığı layihələrinin icrasına artıq start verilmişdir. İlkə imza atan təşkilatlardan biri Mənzil İnşaatı Dövlət Agentliyidir. Agentliyin ilk layihəsi olan Yasamal Yaşayış Kompleksinin tikintisi çərçivəsində özəl investorların müsabiqə yolu ilə dövlət-özəl tərəfdaşlığına cəlb edilməsi təmin edilib. Agentliyin tabeliyində olan "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə 3 yaşayış binasının tikintisi üzrə, habelə ərazidə rabitə, televiziya və internet xətlərinin çəkilməsi və bu sahədə sakinlərə xidmətlərin göstərilməsi üzrə elan olunmuş investisiya müsabiqələrinin iştirakçılarının təkliflərinin qiymətləndirilməsi prosesi başa çatdırılmışdı.

Yaşayış binalarının tikinti üzrə birinci investisiya müsabiqəsinin qalibi "KAT Holding" MMC (www.katholding.az) elan olunmuşdu. Tikintinin investisiya qoyuluşunun ümumi həcminin 10 milyon manatdan artıq təşkil edəcəyi nəzərdə tutulur. Kompleksin ərazisində telefon, televiziya və internet xətlərinin çəkilməsi və sakinlərə müvafiq xidmətlərin göstərilməsi üzrə keçirilmiş ikinci investisiya müsabiqəsinin qalibi isə "ENGİNET" MMC (www.enginet.az) seçilmiş və infrastrukturunun yaradılmasına 1 milyon manat həcmində investisiya qoyuluşunun edilməsi gözlənilir.

"TİT" modelinin tətbiqində uğurlar əldə olunarsa, dövlət büdcəsinin yükü də çox azalacaq. İnfrastruktur layihələrinə büdcədən kənar vəsaitləri cəlb etmək, bununla da həm məşğulluğu təmin etmək, həm də iqtisadi inkişafa da təkan vermək mümkün olacaq.

Bu formatda icra edilən layihələrin azad olunmuş torpaqlarda tətbiqi bu regionun inkişafına təkan verər, kənd və qəsəbələrdə infrastrukturun və nəqliyyat-kommunikasiya sisteminin yenidən qurulması və bərpası, habelə müasir texnologiyaların tətbiqinə geniş imkanlar yaradar. Qarabağ və ətraf bölgələrdə DÖST tipli layihələrinin icra edilməsi regiona özəl sektor və xarici investisiyaların cəlb edilməsini təmin edər, ən yaxın zamanda yeni iş yerlərinin açılması, insanların bölgəyə axınını,

əhalinin qaz, su və elektrik enerjisinin təminatının yaxşılaşdırılmasını əhəmiyyətli dərəcədə artırar. Azərbaycan Prezidentinin özünəməxsus dinamizmlə bu regionun dirçəlməsinə yönəlmiş siyasəti hesabına Qarabağ bölgəsinin pozitiv inkişafı gözlənilir və bu fakt statistik göstəricilərdə də öz təsdiqini tapacaq.

Ədəbiyyat

1. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" 2016
2. "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi" haqqında Azərbaycan Respublikasının Qanunu 2016
3. Манькова А.О. Международный опыт реализации проектов государственно-частного партнерства // Проблемы экономики и менед-жмента. 2016. No10(62). С. 10–14.
4. Максимова Т.А. , Ахмедова Милена Расуловна "Государственно-частное партнерство как механизм эффективности национальной экономики" Текст научной статьи по специальности «Экономика и бизнес» 2017
5. Чапаргина А.Н, Гасникова А.А Государственно-частное партнерство как механизм эффективности национальной экономикиТекст научной статьи по специальности «Экономика и бизнес» 2018
6. Иванов Владимир Юрьевич Зарубежный опыт применения механизма государственно-частного партнерства в реализации инфраструктурных проектов 2018
7. https://ppi.worldbank.org/content/dam/PPI/documents/PPI_2020_Half-Year_Update.pdf
8. Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəsmi saytı

Abstract

Public-Private partnership (PPP) involve collaboration between a government agency and a private-sector company that can be used to finance, built and operate projects such as public transportation networks, parks and convention centers. Financing a project through a public-private partnership allow a project to be completed sooner or involve concessions of tax. In this article author researches the influence of PPP collaboration to the development of entrepreneurship in Azerbaijan by considering global expertise.

MÜƏSSİSƏDƏ TƏSƏRRÜFAT RİSKLƏRİNİN İDARƏ OLUNMASI İSTİQAMƏTLƏRİ

Əmiraslanova Dilarə Əmiraslan qızı, i.ü.f.d. müəllim
Sumqayıt Dövlət Universiteti,
dilare.amiraslanova@mail.ru

Xülasə

Müasir şəraitdə iqtisadi təhlilin, idarəetmə nəzəriyyəsi və təcrübəsinin mühüm tərkib hissəsi kimi təsərrüfat riskinin qiymətləndirilməsi və uçotu probleminin müstəqil tədqiqi xüsusi əhəmiyyət kəsb edir. Bazar subyektlərinin müstəqil qarşılıqlı fəaliyyəti prinsipinin tətbiqi, sağlam bazar rəqabətinin təmin edilməsinin qeyri-müəyyənliyi riskləri qaçılmaz edir. Belə şəraitdə təsərrüfat fəaliyyətinin nəticələrini qabaqcadan görmək və optimal qərarlar qəbul etmək olduqca çətindir. Bu baxımdan, bazar münasibətləri sistemində risk obyektiv zəruri kateqoriya olmaqla təsərrüfat təhlili nəzəriyyəsinin və təcrübəsinin təkmilləşdirilməsini tələb edir.

Açar sözlər: risk, təsərrüfat, istehsal, bazar iqtisadiyyatı, sığorta, iqtisadi təhlil

Təsərrüfat risklərin idarə olunmasının təşkilinin səmərəliliyi, hər şeydən əvvəl, riskin elmi cəhətdən əsaslandırılması təsnifat sistemi üzrə düzgün eyniləşdirilməsi ilə müəyyən olunur. Bu sistem özündə kateqoriyaları, qrupları, növləri, altnövləri birləşdirməklə risklərin idarə olunmasının

müvafiq metod və fəndlərinin səmərəli tətbiqi üçün şərait yaradır. Hər bir riskə onun idarə olunması üsulu uyğun gəlir.

Risklərin mənfi nəticələrinin maksimum azaldılması,bölüşdürülməsi və onların idarə olunmasının mümkün yollarından biri alqı-satqı müqavilələrinin risklərdən yayınmaq nöqteyi-nəzərindən maksimum əlverişli tərtib olunmasıdır.

Son on illiklərdə qərarların qəbulunda elmi-texniki yeniliklərdən, innovasiyalardan istifadənin sürətinin və miqyasının artması risklərin idarə olunmasını asanlaşdırmışdır. Bunun səbəbi risklərin bölüşdürülməsi ilə əlaqədar bazarda tələb və təklifdə baş verən dəyişikliklərdir. Telekommunikasiya sahəsindəki yeni kəşflər, informasiya və maliyyə nəzəriyyəsinin işlənməsinin yeni metodları risklərin qəbulu zamanı diversifikasiya və ixtisaslaşma üçün çəkilən xərcləri xeyli azaltmışdır. Eyni zamanda, valyuta kurslarının, faiz dərəcələrinin və məhsulların qiymətlərinin dəyişkənliyi risklərin idarəolunması zamanı adekvat qərarların qəbul olunmasına tələbi artırmışdır [1].

Risklərin bazarın bütün iştirakçıları arasında bərabər paylanılmasını iddia edən və yalnız fərziyyə olunan ideal bazar reallıqda heç vaxt mövcud olmamışdır. Çünki real həyatda belə bir vəziyyətin yaranması üçün çoxlu sayda amillər mövcuddur ki, onları heç vaxt aradan qaldırmaq mümkün deyildir. Bu amillərdən ikisi daha əsasdır ki, onlar əməliyyat xərcləri və psixoloji məsələlərdir.

Əməliyyat xərclərinə sığorta şirkətləri və fyuçers bazarlarının fəaliyyət göstərməsi üçün, həmçinin, alqı-satqı müqavilələrinin bağlanması və onların icrası üçün çəkilən xərclər daxildir. Bu təşkilatların fəaliyyətindən daxil olan gəlirlər, onların yaradılması və fəaliyyətinə çəkilən xərclərdən artıq olmayınca yaradılmır.

İkinci amil olan, psixoloji problemlərə, ilk növbədə, məsuliyyətsizlik və qeyri-əlverişli seçim daxildir. Məsuliyyətsizlik riskə görə edilmiş sığorta nəticəsində sığortalanmış hüquqi şəxsin həmin riskə daha çox getməsi və ya gələcəkdə yarana biləcək mənfi hadisənin qarşısının alınması üçün daha az cəhd göstərməsi nətcəsində yaranır. Adətən, belə olan hallarda sığorta şirkəti həmin hüquqi şəxslərlə əməkdaşlıq etməkdən imtina edirlər. Məsələn, sahibkar öz anbarını yanğından sığortalamaqla yanğına qarşı təhlükəsizlik tədbirlərinin görülməsi istəyini azaldır. Belə qabaqlayıcı tədbirlərin görülməməsi obyektdə yanğın baş verməsi ehtimalını artırır. Və yaxud əgər anbarın sığorta pulu onun bazardakı real dəyərindən artıqdırsa, anbar sahibi özü obyekti yandıraraq sığorta şirkətindən sığorta məbləğini ala bilər. Adətən, belə hallarda sığorta təşkilatları sığorta məbləğini azalda və yaxud məbləği verməyə bilər.

Yüksək gəlir əldə etmək stimulu sahibkarda gəlirin azaldılması üçün qiymətlərə təsir edən amilləri nəzərə almağa, qarşıya çıxan maneələri əvvəlcədən görməyə və onların aradan qaldırılmasına sövq edir. Məlumdur ki, qiymətə aşağıdakı qrup amillər təsir edir [2]:

- siyasi (dövlətin siyasəti, qanunvericilik, məhkəmə quruluşu, siyasi stabillik vəs.);
- iqtisadi (iqtisadi tənzimləmə metodları, bazar konyukturası, rəqiblər, istehlakçılar vəs.);
- sosial (təbii proseslər, istehlakçıların tərkibi, onların yaşayış, intellekt səviyyəsi vəs.);
- psixloji (istehlakçıların mentaliteti, adət-ənənələri, zövqü vəs.).

Bütün bu amillərin nəzərə alınması gələcəkdə istehsal və satış zamanı qarşıya çıxa biləcək risklərin müəyyən edilməsinə kömək edir.

Bütün istehsal prosesi qiymət vasitəsilə idarə olunur. Hər bir sahibkar son nəticədə gəlir əldə etmək üçün istehsalın bütün fazaları boyu sadalanan amilləri nəzərə almaqla, məhsula qiymət qoyur.

Məhsula qiymət qoyma prosesi bir neçə mərhələdən ibarətdir. Onların hər birini sadalamaqla yarana biləcək riskləri göstərək [3; 5].

1. Məqsədin seçilməsi: ilk olaraq qiymətqoymada firmanın məqsədləri müəyyən olunur. Məqsəd bazar konyukturuna, firmanın resurslarına uyğun müəyyən edilir. Qiymət qoymaqda məqsədlər fərqlənə bilər, məsələn, tələbatın ödənilməsi, bazarın əldə saxlanılması, mənfəətin maksimallaşdırılması və s.

2. Tələbatın müəyyən edilməsi: bazarın əsas prinsipi nəyi, kim üçün, nəqədər istehsal etməyi müəyyən etməkdir. Adətən, məhsulun alıcısının seçilməsi qiymətqoymada mühüm rol oynayır. Bu

da çox zaman bazarın növündən və alıcıların qiymətə qarşı həssaslığından asılı olur. Alıcı həssaslığını müəyyən edən amillərə də aşağıdakılar daxildir.

Məhsulun əvəzedicisinin olması və onun qiyməti; məhsulun nadirliyi; məhsulun müqayisəsinin çətinliyi; məhsulun tədavül xərcləri; məhsulun bahalılığı; qiymət vasitəsilə keyfiyyətin müəyyənliyi; məhsulun əldə edilməsinə çəkilən xərclər.

3. Xərclərin təhlili: məlumdur ki, qiymətin yuxarı həddini tələbat, aşağı həddini isə sabit və dəyişən xərclər müəyyən edir. Bunların üzərinə mənfəəti əlavə etmək lazımdır ki, optimal qiyməti müəyyən etmək mümkün olsun.

4. Rəqiblərin qiymətlərinin təhlili: rəqibləri və onların əmtəələrinin qiymətinin fərqli xüsusiyyətlərini, çatışmayan mənfi və müsbət cəhətləri müəyyən edilməlidir.

5. Qiymətqoyma metodunun seçilməsi: adətən, üç səviyyədən biri – minimal, maksimal, optimal seçilir.

6. İlkin qiymətin qoyulması: yuxarıdakı mərhələlər firmanın qiymət siyasətinə və strategiyasına uyğun olaraq reallaşdırılır.

Məhsulun qiyməti müəyyən edildikdən sonra onun idarə edilməsi mərhələsi başlayır. Bu zaman yuxarıda qeyd edilən amillərlə yanaşı, kənar təsirlər və məhsulun həyat dövrü nəzərə alınmalıdır ki, bunların hər birində risk və qeyri-müəyyənlik vardır.

Sahibkar daim qiymətin səviyyəsinin dəyişməsinin mənfəətə təsirini diqqətdə saxlamalı və buna uyğun olaraq, maliyyə, marketinq siyasətini həyata keçirməlidir. Çünki məhsulun qiymətinə təsir edən amillər – dəyər, alıcı, rəqib,bazar kanalları, satış coğrafiyası müxtəlifdir.

Məlumdur ki, müasir şəraitdə dövlət müəssisələrin heç bir riskinə görə məsuliyyət daşımır. Məhz bu cəhət bazar iştirakçılarını daha sərbəst edir və inkişaf üçün müəssisələrdə stimul yaranır. Müəssisələrin fəaliyyətinin əsas göstəricisi onun gəliri olduğundan, qiymətlərin idarə olunması zamanı risklərin nəzərə alınması və onların ölçülməsi məhz maliyyə nəticələri üzrə hesablanır.

Risk amili müəssisələrin öz fəaliyyətini aktivləşdirməkdə mühüm rol oynayır. Məhz riskin mövcudluğu müəssisələri məcbur edir ki, bazarı daha ətraflı öyrənsinlər və fəaliyyətlərini daha səmərəli qurmaq üçün digər vasitələr axtarsınlar (fəaliyyətlərini daha səmərəli qurmaq, yeni bazarlar tapmaq, yeni texnologiyalardan istifadə etmək, marketinq metodlarından istifadə etmək, kadr məsələlərini nəzərə almaq və s.).

Adətən peşəkar sahibkarlar risk şəraitində qiymətlərin idarə edilməsi zamanı belə bir qaydaya üstünlük verirlər – 70/30. Əgər onlar bir işin görülməsinə 70% əmindirlərsə onu həyata keçirirlər. Yerdə qalan 30% isə uğursuzluq zamanı görülməli olan işlər onlar üçün stimul rolunu oynayır. Yəni, 30%-lik itki ehtimalı şirkətləri daha səmərəli yollar tapmağa, daim düşünməyə vadar edir və gözlənilməz uğursuzluqlar zamanı qərarlar qəbul etmək üçün stimul rolunu oynayır. Bu, “1/3 prinsipi” və ya “məntiqli risk” adlanır.

Sahibkar risklərlə daha çox əmtəə və xidmətlərə qiymətlər qoyulması zamanı qarşılaşır. Bu, xammalın, əməyin, enerjinin qiymətlərinin müəyyən edilməsi zamanı da eynidir. Məsələn, müəssisələrin qiymətqoyma zamanı etdiyi 1%-lik səhv onun son mənfəətinin 10-12%-ində əks olunur. Həmin məhsula qarşı tələb daha elastik olduqda isə bu rəqəm iki dəfə artır. Bu da müəssisələrin fəaliyyətində böyük təsirdir. Həmin amil müəssisələri həm inkişaf etdirə, həm də iflasa uğrada bilər. Həm də nəzərə almaq lazımdır ki, güclü inflyasiya zamanı məhsula olan qısamüddətli qiyməti proqnozlaşdırmaq çox çətindir və bu zaman -/+5 % həddində səhv adi haldır.

Sahibkarlıq fəaliyyətində alternativ variantların risk dərəcələrinin müqayisə edilməsi və onlardan strategiyaya uyğun olaraq ən səmərəlisinin seçilməsi riskin kəmiyyətcə qiiymətləndirməsini zəruri edir. Çünki bir sıra hallarda və müəyyən dərəcədə risklərin qarşısının alınması mümkündür. Ümumilikdə isə risk nəticəsində yaranan itkilərin azaldılması üçün risklərn effektiv idarə olunmasını təmin etmək zəruridir. Risklərin daim və istənilən şəraitdə mövcud olduğunu nəzərə alaraq, onların fasiləsiz proses olaraq idarə olunması idarə etmənin səmərəliliyini artıra bilər [4].

İstehsal-ticarət fəaliyyəti zamanı yarana biləcək itkiləri əvəzləyə biləcək (kompensasiya edəcək) fondların sahibkar tərəfindən yaradılması özünüsığortalamanın əsasını təşkil edir. Özünüsığortalamanın əsas vəzifəsi maliyyə-kommersiya fəaliyyəti zamanı yaranmış çətinliklərin operativ

şəkildə aradan qaldırılmasından ibarətdir. Özünüsığortalama prosesi zamanı müxtəlif növ ehtiyat və sığorta fondları yaradılır.

Nəticə

İstehsal-təsərrüfat prosesində meydana çıxan riskləri aşağı salmaq üçün aşağıdakı istiqamətlərdə tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur.

1. Sistemsiz riskin seçilməsi. Sistemsiz risk seçmək o deməkdir ki, bu risklər müəssisənin özündən asılıdır. İstehsal-təsərrüfat prosesində meydana çıxacağı proqnozlaşdırılan risklərin təhlili aparıldıqdan sonra onlardan ən əlverişlisi seçilir. Buna, ilk növbədə, müəssisənin gücünün nəticələrinin bir–biri ilə əlaqəsi olmayan fəaliyyət istiqamətləri arasında bölüşdürmək aiddir. Sistemsiz risk seçmək müəssisənin genişlənməsini, əlavə əmtəə və ya xidmət növünə yiyələnməyi nəzərdə tutur. Bu halda müəssisə üzrə risk azalmış olur. Başqa sözlə, elə riskin baş verməsinə imkan yaratmaq lazımdır ki, onunla mübarizə aparmaq mümkün olsun.

2. Riskin aşağı salınması üçün aşağıdakı tədbirlərin tətbiqi:

- həyata keçirilməsi nəzərdə tutulan işin, fəaliyyətin layihəsinin hazırlanmasına təcrübəli tərəfdaşların, ortaqların, məsləhətçilərin cəlb edilməsi;
- fəaliyyətlə bağlı meydana çıxa biləcək əlavə problemlərin nəzərə alınması;
-bazar konyukturasının dəyişmə meylinin proqnozlaşdırılması, təklif ediləcək əmtəəyə, xidmətə tələbatın səviyyəsinin öyrənilməsi;
- nəzərdə tutulmayan xərclərin bağlanması üçün ehtiyat vəsaitin toplanması;
- riskin tərəfdaşlar arasında bölüşdürülməsi.

Riskin tərəfdaşlar arasında bölüşdürülməsi o deməkdir ki, riskə görə cavabdehliyi layihənin o üzvü üzərinə götürməlidir ki, o başqalarına nisbətən riski daha yaxşı hesablaya və nəzarətdə saxlaya bilər.

Riskin bölüşdürülməsi layihənin maliyyə planı və müqavilənin sənədləri hazırlanarkən reallaşdırılır. Riskin tərəfdaşlar arasında bölüşdürülməsi kəmiyyət və keyfiyyətcə ola bilər.

Riskin kəmiyyətcə bölüşdürülməsi qaydası (qaydaları) həm kommersiya müəssisəsinin Nizamnaməsində (ortaqlar arasında), həm də kommersiya müəssisəsinin tərəfdaşlarla bağladığı müqavilələrdə nəzərdə tutula bilər.

Riskin keyfiyyətcə bölüşdürülməsi: riskin dərəcəsinin qiymətləndirilməsini,riskin strategiyasının seçilməsini, layihənin dəyərinin sifarişçi və icraçı tərəfindən qiymətləndirilməsini, sifarişçinin və icraçının gəlirinin qiymətləndirilməsini, layihənin xalis dəyərinin müəyyən edilməsini, sifarişçinin və icraçının ümumi riskinin müəyyənləşdirilməsini nəzərdə tutur.

Riskin keyfiyyətcə bölüşdürülməsi həmçinin layihənin iştirakçıları tərəfindən potensial investorların sayının artırılıb-azaldılması haqqında – riskin bir hissəsinin investorların üzərinə qoymaq istəyindən irəli gələrək – qərarlar qəbul edilməsini də nəzərdə tutur. Ancaq bu, təcrübəli investorların cəlb edilməsinə əngəl törədə bilər. Layihənin iştirakçıları investorlarla riskin bir hissəsinin onların öz üzərlərinə götürmələri ilə bağlı danışıqları olduqca ehtiyatla aparmalıdırlar.

3. Sığortalanmaq və özünü sığortalama. Birinci halda müəssisə sığorta firmasına (şirkətinə) müraciət edir, sığorta pulu ödəyir. İkinci halda isə öz-özünü sığortalayır.

4. Dürüst, əlavə, zəruri və tam informasiya əldə etmək. Hər bir informasiya pul deməkdir. Bu informasiyalar şəxsi təhlil əsasında, gizli yolla və açıq dərc edilmiş mənbədən əldə edilə bilər.

5. Ehtiyat vəsaiti yığmaq. Bu daha çox yayılmış yoldur. Belə ki, müəssisə layihənin dəyərini 7-12% artıraraq onu həyata keçirməyə çalışır. Risk baş verdikdə onun bir qismi artıq məbləğ hesabına kompensasiya edilir, baş vermədikdə isə əlavə ehtiyat kimi müəssisənin gəliri olaraq qalır.

Ümumiyyətlə, riski azaltmaq üçün seçilən yollar diqqətlə öyrənilməli və məsuliyyətlə tətbiq olunmalıdır. Bunun özü riski idarə etmək deməkdir. Təcrübə göstərir ki, təsərrüfat risklərini təmamilə aradan qaldırmaq mümkün deyildir. Ancaq riskləri idarə etmək və onları aşağı salmaq mümkündür.

Ədəbiyyat

1. Əliyev T.Q., Əliyeva Ş.T., Əliyev R.T. Kommersiya fəaliyyətinin əsasları. Bakı, ADNA,2013.

2. Kazımlı X., Quliyev İ.. İqtisadi risklərin qiymətləndirilməsi və idarə edilməsi. Dərs vəsaiti. Bakı, 2011.
3. Аббасов А.М., Кулиев Т.А. Экономика в условиях неопределенности. Бакı, 2002.
4. Балдин К.В., С.Н.Воробьев, М. Гардарски. Риск менеджмент. М., 2005
5. Гранатуров В.М. Экономический риск: сущность, методы измерения, пути снижения. Учебное пособие. М:. « Дело и сервис», 2002.

Методы управления хозяйственными рисками на предприятии

Амирасланова Диляра Амираслан гызы, д.ф.э., *преподаватель*

Резюме

В условиях современных рыночных отношений очень важна оценка хозяйственного риска, как важной составной части экономического анализа, теории и практики управления. Исследования принципов свободного взаимодействия рыночных субъектов, неопределенность обеспечения здоровой рыночной конкуренции делают риски неизбежными. В таких условиях очень сложно предвидеть результаты хозяйственной деятельности и предпринять оптимальное решение. С этой точки зрения, риск в системе рыночных отношений, являясь важной объективной категорией, требует усовершенствования теории и практики хозяйственного анализа.

Ключевые слова: риск, хозяйство, производство, рыночная экономика, страхование, экономический анализ

Methods Of Economıc Rısk Management In The Enterprıse

Ph.D. Amiraslanova Dilara Amiraslan
Sumgait State University, lecturer

Summary

Farm risks assessment as an important component of economic analysis, management theory and practice is important in modern market condition. Application of mutual activity principles of market subjects, non-certanity ensuring a healthy market competition make risks inevitable. In such circumstansec to forsee the results of economic performance and to take optimal desicions is too difficult. From this point risk in market ecomomy system being objective importnat category requries economy analsys theory and practice improvement.

Key words: *risk, economic, production, market economy, insurance, economic analysis*

İSTEHSAL İNFRASTRUKTURUNUN MÜASİR FUNKSİYA VƏ PRİNSİPLƏRİ

Qəniyev Xanlar İlqar oğlu, Doktorant
AZƏRBAYCAN MEMARLIQ VƏ İNŞAAT UNİVERSİTETİ
khanlar.ganiyev@gmail.com

Milli iqtisadiyyatın formalaşması və inkişafında istehsal infrastrukturunun rolu olduqca böyükdür. Müəssisələrin fəaliyyətlərinin səmərəli nəticələri onların fasiləsiz materiallarla, məhsul tədarükü alətlərlə, enerji, yanacaq, avadanlıqla təchiz olunması və bir sıra yardımçı və xidmət təsərrüfatlarının fəaliyyətindən asılıdır. Bütün yuxarıda qeyd edilənlərin hamısı məcmu halında istehsal infrastrukturunu və eyni zamanda milli istehsala texniki xidmət sahələrini formalaşdırır [3].

İstehsalda texniki xidmətin tərkibinə - istehsalın texniki vasitələrlə təmin olunması funksiyası və əmək alət və vasitələrinin məhsulların istehsalı prosesində hərəkəti daxildir. Həmin funksiyaları yerinə yetirərək, istehsal infrastrukturunun əsas məqsədinə nail olunmasını həyata keçirir, mənfəətin mütləqləşdirilməsi və əsas istehsalın ritminin saxlanılmasını təmin edir.

Milli istehsal infrastrukturuna aşağıdakı sahələr daxildir: təmir-montaj, energetika, nəqliyyat, təchizat, satış və anbar təsərrüfatları. Müəssisələrin bu bölmələrinin tərkibi və miqyası əsas

istehsalın xüsusiyyəti, tipi, həcmi ilə, daxili və xarici mühitlə onun istehsal əlaqələri ilə müəyyənləşdirilir.

İqtisadi sahələrin təmir-montaj xidmətlərini həyata keçirən qurumlar əsas istehsalı alət və digər vasitələrlə minimal məsrəflərlə təmin etməli, tələb olunan sazlama və quraşdırma işləri vaxtında aparmalıdır. Bu zaman keyfiyyət göstəricilərinin yüksək səviyyədə təmin olması da əsas vəzifələrdən biridir.

Qeyd olunan strukturların fəaliyyət istiqamətlərinə səmərəli innovasiya texnologiyanın tətbiqi, əmək tutumlu sahələrin, həmçinin istehsal olunan məhsulun keyfiyyətinin yüksəlməsi və onların maya dəyərinin aşağı düşməsi və rəqabət qabiliyyətinin yüksəldilməsinin təmin edilməsi və s. asılıdır.

İqtisadiyyatın istehsal sahələrinin nəqliyyat, təchizat, anbar və s. xidmətləri vaxtında maddi resursların tədarükünü, saxlanılması və istehsal prosesində hərəkətini təşkil etməlidir. Bu xidmət strukturlarının fəaliyyətinin düzgün təşkili, istehsal prosesinin qrafika uyğun aparılması maddi resursların qənaətini və keyfiyyətlə istifadə edilməsini təmin edir.

Milli iqtisadiyyatın biri hissəsi kimi, istehsal infrastrukturu bir sıra xüsusiyyətlərə malikdir [2,3]:

- təsərrüfatlarının ərazi infrastrukturunun ayrı-ayrı komponentləri arasında mübadilənin təmin edilməsi;
- iqtisadi əlaqələrin həyata keçirilməsində maddi baza rolunu oynayır;
- istehsal potensialı dəstəkləyir və istehsal məhsullarının qorumasına xidmət edir;
- istehsal infrastrukturunun milli iqtisadiyyatın sistemində özünəməxsus resursların mübadiləsi üçün bir sistem kimi çıxış edir;
- əhalinin sosial və ərazi sıxlığını artırır;
- istehsal prosesində yeni rayonları daxil edir;
- ölkədə iqtisadi məkan yaradır, iqtisadi fəaliyyəti təşkil əhəmiyyətli bir faktor kimi çıxış edir;
- coğrafi prinsipi əssında əmək bölgüsünü təşkil edir.

Ümumiyyətlə, istehsal infrastrukturu milli və regional iqtisadi artıma nail olmaq üçün vacib amillərdən biri kimi çıxış edir. İstehsal infrastrukturu milli və regional səviyyədə öz müxtəlifliyi və inkişaf səviyyəsindən, biznes fəaliyyəti, yeni iş yerlərinin yaradılması, habelə dövlət büdcəsinə vergi daxilolmalarının artmasından asılı olaraq, ölkə iqtisadiyyatının inkişafına birbaşa təsir göstərir.

Milli iqtisadiyyatın və ölkənin bölgələrinin potensialı infrastrukturun səmərəliliyini və inkişaf strategiyasını qiymətləndirməyə kömək edən göstəricidir. Bu məqsədlə, biz göstəricilərin üç qruplarını istifadə edə bilərik. Birinci qrupa, birbaşa resurslar (əmək resursları, əsas və dövriyyə fondları) daxildir. Bu resurslar milli və regional səviyyədə iqtisadi imkanları xarakterizə etməyə imkan verir. İkinci qrupa potensial inkişaf göstəriciləri daxildir. Onlar milli və regional iqtisadiyyatın bütün komponentlərinin inkişafına bərabər səviyyədə təsir edir [5]. Üçüncü qrupa daxil olan göstəricilər isə milli iqtisadiyyatın məhsuldarlıq potensialını xarakterizə edir.

Nəticə

Aparılan araşdırmalar göstərdi ki, şaxələndirilmiş iqtisadiyyatda infrastrukturun və xüsusən də istehsal infrastrukturunun inkişafının endogen əsaslarının təhlili aşağıdakı qiymətləndirmə parametrlərinə əsaslanır: öz vəsaitlərində investisiya qoyuluşların həcmi; öz vəsaitlərindən yatırılan investisiyaların kənardan cəlb edilmiş investisiyalara olan nisbətləri; bank kreditlərinin müəssisələrin mənfəətlərindən yatırılmış investisiyalara nisbəti; müəssisələrin öz vəsaitlərindən investisiya qoyuluşlarının regional büdcədən investisiya qoyuluşlarına olan nisbəti və s.

İstehsal infrastrukturunun inkişaf perspektivi üçün ekzogen mənbələrin təhlilinin aparılması üçün investisiya prosesinin uğurla həyata keçirilməsinə yararlı olan xarici investisiya mənbələrinin tədqiqini tələb edir.

Müvafiq məntiqə uyğun olaraq ölkədə istehsal infrastrukturunun inkişafına xidmət edən investisiya mənbələrinin parametrləri kompleks qiymətləndirilir.

Elmi araşdırmalarda xarici ölkələrin milli iqtisadiyyatın istehsal infrastrukturunun inkişafına xidmət edən təşkilati-iqtisadi tədbirlərin həyata keçirilməsi sahəsində təcrübələr öyrənilmişdir [2,3].

Qeyd etmək lazımdır ki, araşdırmaların əsasını retrospektiv təhlil təşkil edir, bu zaman müasir institusional dəyişikliklərə səbəb olan təmayüllər tədqiq olmuşdur. Onun reallaşdırılması nəticəsinə görə istehsal infrastrukturunun inkişaf etdirilməsinə xidmət edən bir sıra təşkilati-iqtisadi tədbirlər forması nəzərdən keçirilmişdir. Azərbaycan reallıqları üçün məqbul sayılan təşkilati iqtisadi formalar qismində aşağıdakıları xüsusi ilə qeyd etmək olar:

-biznes inkubatorlar;
-investisiya mərkəzləri;
-mikromaliyyələşdirmə mərkəzləri;
-elmi-təhsil fondları;
-regional fondları;
-texnoparklar;
-elmi-innovasiya mərkəzləri;
-layihə -konstruktor büroları və s.

Beləliklə, Azərbaycanda milli iqtisadiyyatın daha da səmərəli və şaxələndirilmiş inkişafı əhəmiyyətli dərəcədə istehsal infrastrukturunun inkişaf etməsinə xidmət edən müxtəlif layihələrin reallaşdırılmasından asılıdır.

Həmin layihələrin maliyyələşdirilməsi həm daxili, həm də xarici (beynəlxalq) maliyyə və investisiya mərkəzlərinin vəsaitləri hesabına həyata keçirilə bilər.

Ədəbiyyat

1. Məmmədov M.A., Qəniyev X.İ
2. , Milli iqtisadiyyatın şaxələndirilməsi şəraitində infrastruktur təminatının inkişaf istiqamətləri AzMİU. Tikintinin iqtisadiyyatı və menecment. Elmi-praktiki jurnal. Bakı, ,2020, № 4, s. 9-18.
3. Qəniyev X.İ, Əliyeva A.Q. Müasir dövrdə istehsal infrastrukturunun mahiyyəti və funksiyaları. AzMİU. Tikintinin iqtisadiyyatı və menecment. Elmi-praktiki jurnal. Bakı. 2018, № 5, s. 36-41
4. Виноградова М.В. Организация и планирование деятельности предприятия сферы сервиса: учеб. пособие/ М.В. Виноградова. - 4-е изд., перераб. и доп.- М.: Дашков и К, 2008.- 461 с., с. 173
5. Ганиев Х.И. Инновационные подходы в современной науке. Сборник статей по материалам LXIV международной научно-практической конференции. Москва,2020,№ 4(64), с.59-63
6. Максимова Ю. А., Моргунов В. И. Корпоративная маркетинго-логистическая стратегия бизнеса как эффективный инструмент современного менеджмента // РИСК: Ресурсы, Информация, Снабжение, Конкуренция. – 2010. – № 1. – С. 7–8.

SƏNAYE MÜƏSSİSƏLƏRİNDƏ ƏMƏK ŞƏRAİTİNİN MÜASİR VƏZİYYƏTİ

Məlikov Anar Kərim oğlu - Azərbaycan Dövlət
Neft və Sənaye Universitetinin dissertantı

Xülasə: Məqalədə müəssisələrdə əməyin təşkilinin təkmilləşdirilməsində kompleks işlərin əsas tərkib hissəsi iş yerlərinin təşkilinin yaxşılaşdırılması kimi təqdim olunur. Göstərilir ki, iş yerlərinin vəziyyəti və onun təşkili müəssisədə əməyin təşkili səviyyəsini müəyyənləşdirir.

İş yerləri planlaşdırıldıqda onların təbii işıqlanmasının mümkünlüyü nəzərə alınmasının vacibliyi nəzərə çatdırılır. Çünki, işıqlanma qənaətbəxş olmadıqda görmə orqanlarının gərgin yüklənməsinə və tez yorulmasına, işin keyfiyyətinin pisləşməsinə gətirib çıxarır.

Bildirilir ki, əmək şəraiti və onun təhlükəsizlik səviyyəsi qiymətləndirilməlidir. Burada sanitar-gigiyena şəraitinin müvafiq normativ tələbləri, istehsalat proseslərinin əməyin mühafizəsi və təhlükəsizlik tələblərinin müvafiq təchizatı, əməyin ağırlığı və monotonluğu, işçilərin xüsusi geyimlərlə təmin olunması yoxlanılmalıdır. Həmçinin iş yerlərində attestasiya, müəssisənin rəhbərliyi və yüksək ixtisaslı mütəxəs sislər sırasından təşkil olunmuş xüsusi atestasiya komissiyası tərəfindən aparılır. Burada iş yerlərinin attestasiyası və rasionallaşmasının təşkili işləri üzrə müəssisələrdə komissiyaların yaradılması məqsədə uyğunluğu və bunların vəzifələri sadalanır.

***Açar sözlər**: müəssisə, əmək şəraiti, əməyin təşkili, iş yerləri, təhlükəsizlik.*

Müəssisələrdə əməyin təşkilinin təkmilləşdirilməsində kompleks işlərin əsas tərkib hissəsi iş yerlərinin təşkilinin yaxşılaşdırılmasıdır. İş yerlərinə istehsalat proseslərinin, onun təşkilati - texniki əsaslarının başlanğıcı kimi baxılmalıdır. Burada istehsalat proseslərinin üç elementinin - əmək vəsaiti, əmək əşyası və əmək birləşdirilməsi ilə nəticəyə, yeni tələbat dəyərinin yaradılmasına nail olunur. İş yeri - lazımi istehsalat vasitələri ilə təchiz olunmuş ərazinin məhdudlu hissəsidir. Burada işçinin və ya eyni işi yerinə yetirən bir qrup işçilərin iş fəaliyyəti başa çatdırılır.

İş yerlərinin vəziyyətini və onun təşkili müəssisədə əməyin təşkili səviyyəsini müəyyənləşdirir. Bundan əlavə iş yerlərinin təşkili istehsalatda işçinin vəziyyətini formalaşdırır, onun özünü yaxşı hiss etməsinə, əhvali-ruhiyyəsinə, işgörmə qabiliyyətinə və nəticədə əmək məhsuldarlığına təsir göstərir. [1]

İş yerlərinin öyrənilməsi və tədqiqi üçün onu müvafiq əlamətlərinə görə aşağıdakı kimi təsnif etmək olar. Əmək bölgüsü əlamətlərinə görə iş yerləri fərdi və kollektiv (briqada) ola bilər. Fərdi iş yerlərində bir icraçı məşğul olur və bu əməyin təşkilinin fərdi formasına müvafiq gəlir. Bu zaman əməyin metod aə üsullarının təkmilləşdirilməsinə, vahid məhsul istehsalına əmək xərclərinin azaldılmasına əsas fikir verilməlidir. Kollektiv iş yerləri təşkil edildikdə icraçılar arasında funksiyaların düzgün və aydın bölüşdürülməsi, onların əmək vərdişlərinin qarşılıqlı əlaqəsi, birgə əmək metod və üsullarının təkmilləşdirilməsi, hər bir işçinin fəaliyyət zonası daxilində hərəkət marşrutunun rasionallaşdırılmasına xüsusi fikir verilməlidir.

Xidmət edən maşınların sayından asılı olaraq iş yerləri birdəzgahlı və çoxdəzgahlıolur.

Birdəzgahlı iş yerlərinin avadanlıq və mebellə təchiz olunmasına, müvafiq iş zonasının seçilməsinə, hərəkətin rasionallığına, mütərəqqi əmək üsullarının tətbiqinə, əlverişli əmək şəraitinin yaradılmasına və s. məsələlərə xüsusi fikir verilməlidir. [2]

Çoxdəzgahlı iş yerləri yerləşdirilən eyni və müxtəlif avadanlıqlarla təchiz olunmasına görə müvafiq olaraq birtipli və müxtəliftipli ola bilər.

Sabitliyinə görə iş yerləri stasionar (sabit), məsələn, tornaçı, frezləyici, toxucu və hərəkət edən (fasiləli dəyişən) növdə ola bilər, məsələn, bənna, yağlayıcı, təmirçi - çilingər, elektrik.

Yerinə yetirilən işlərin mexanikləşmə dərəcəsinə görə iş yerləri əl, maşın və əl, mexanikləşmiş, avtomatlaşmış və aparaturalı növdə olur.

İstehsalatın növündən və yerinə yetirilən əməliyyatlardan asılı olaraq iş yerləri vahid, seriyalı və kütləvi istehsalat xarakterli ola bilər.

Xüsusiləşmə dərəcəsinə görə iş yerləri xüsusiləşmiş və universal növdə olurlar.

İş yerlərinin təşkilinə olan tələblərdən asılı olaraq onlar texniki, təşkilati və psixofizioloji növdə olurlar.

Texniki tələblərə - yerinə yetirilən işin spesifikasını nəzərə alan texnoloji və qaldırma - nəqliyyat avadanlıqları, alətlər, rabitə vasitələri və s. aiddir.

Təşkilati tələblərə - əmək aləti və əşyanın rasional yerləşdirilməsi, iş yerlərinə xidmət funksiyalarının icraçı və xidmət heyətinin arasında məqsədyönlü bölüşdürülməsi, təhlükəsiz və sağlam əmək şəraitinin yaradılması və s. aiddir.

Psixofizioloji tələblərə - işçilərin fizioloji xüsusiyyətlərinə müvafiq iş yerlərinin təşkilinin optimal texniki və təşkilati amilləri aiddir.

İş yerlərinin təchizatı dedikdə, onun müvafiq vasitələrlə təmin olunması başa düşülür. Bunlar yerinə yetirilən işin səmərəli olması məqsədi ilə işçiyə əlverişli şərait yaradır. Təchizata olan əsas

tələblər istehsalat proseslərinin tələblərinə cavab verməklə, vaxtdan rasional istifadə, fizioloji gücə qənaət, təhlükəsiz əmək, işlərin rahatlığı və səmərəliliyini təmin etməlidir.

Təchizatın əsas tipik növləri aşağıdakılardır:

· əsas texnoloji avadanlıqlar - müvafiq iş yerlərində əsas işi yerinə yetirmək üçün xidmət göstərir. Bunlar dəzgahlar, mexanizmlər, aqreqatlar, aparatlar, konveer xətləri, hesablama və sayma maşınları, fərdi kompüterlər, çap edən - çoxaldan texnikalar, idarəetmə dəstəkləri və s. ola bilər. . [2]

- texnoloji silahlanma - işçi və ölçü alətləri, tərtibatlar, ehtiyat hissələri, qulluqçular üçün dəftərxana ləvazimatları, çap edən - çoxaldan texnikalar üçün əvəz olunma ləvazimatları və s. ola bilər.

- köməkçi avadanlıqlar - fərdi qaldırma - nəqletdirmə qurğuları, nəqletdiricilər, arabalar, materialları daşımaq üçün yük daşıyıcılar və s. ola bilər.

- işçi sənədlər və xüsusi ədəbiyyatlar - təlimatlar, texnoloji xəritələr,

- təhlükəsizlik texnikası qaydaları, kartotekalar, işçi çertyojlar, sorğu məlumatları, kitablar və s;

- təşkilati təchizatlara işçi mebel (stol, dəzgah, stul, kreslo, şkaflar, stellajlar,

sürmələr), saatlar, texnoloji təchizat və işçi sənədlər (kortotekalar, kitab qoymaq üçün ştativ), stol altlıqları, dayaqlar aiddir;

- təhlükəsizlik vasitələri - hasarlar, ekranlar, fərdi mühafizə vasitələri

(eynəklər, respiratorlar, əlcəklər, xüsusi geyim və ayaqqabılar), yanğından mühafizə vasitələri, sorucu ventilyasiya, təhlükəsizliyi xəbərdar edən yazı və qrafiklər və s;

- işıqlandırıcı vasitələr (bütün ərazi, işçi yerlərin əhatə dairəsi və onların

yuxarı səthini işıqlandırıcılar);

- rabitə vasitələri - başqa işçi yerləri və rəhbərliyin iş yeri ilə əlaqəsi;

- siqnalizasiya vasitələri - nasazlıqlar, qəza təhlükələri (səs, işıq,

kombinəedilmiş işarələr və s.);

- işçi qablar - material, xammal, yarımfabrikatlar, hazır məmulatlar,

istehsal tullantıları (konteynerlər, maye,maddələr üçün həcmli qablar, qutular);

·-iş yerlərində normal mikroiqlim saxlamaq üçün vasitələr - sorucu

ventilyasiyalar, qızdırıcılar;

- istehsalat sahələrini estetikləşdirən əşyalar (pərdələr, jalüzlər, gül qabları,

dekorativ - süni məmulatlar, xalçalar, ensiz xalılar və s.);

- təsərrüfat vasitələri - iş yerləri və avadanlvqlara xidmət etmək üçün

(şotkalar, xəkəndazlar, süpürgələr, zibil üçün qablar və s.).

Əməyi elmi təşkilinin (ƏET) əsas məsələləri işıqlanma komplektliyinə olan tələblərin formalaşdırılmasından ibarətdir. ƏET, eyni zamanda, işıqlandırıcı elementlərin hər birinin keyfiyyət tələblərini ödəməlidir.

Vahid məhsul istehsalına əmək sərfinin azaldılmasında xüsusi tərtibatların tətbiqi əsas rol oynayır. Bu tərtibatlara misal olaraq universal - yığma tərtibatını (UYT) göstərmək olar.

Hesablamalar göstərir ki, UYT-nin tətbiqi hər bir iş yerinə il ərzində vaxt sərfini 7-8 dəfə ixtisara salmağa və tələb olunan gücü 20 dəfə azaltmağa imkan verir.

İş yerinin texnoloji təchizat səviyyəsi təchizatlıq əmsalı ilə xarakterizə olunur və aşağıdakı formula ilə hesablanır:

$$K_{təc} = \Sigma П / \Sigma Пi,$$

burada:

ΣП, istehsalat əməliyyatında üsulların sayıdır; ΣПi – istehsalat əməliyyattında iştirak edən üsulların ümumi sayıdır.

Konkret bir işə xidmət göstərən bütün təchizat vasitələrinin iş yerlərində düzgün planlaşdırılma əmək prosesinin yerinə yetirilməsinə köməklik edir. bu zaman iki məsələnin həlli təmin olunur: a) icraçıların yüksək məhsuldarlığı, əlverişli və təhlükəsiz əmək şəraitini təmin edən texnoloji və təşkilati təchizat avadanlıqlarının rasional yerləşdirilməsi; b) istehsalat sahələrinin səmərəli istifadə olunması.

İş yerlərinin planlaşdırılması xarici və daxili xüsusiyyətlərinə görə fərqlənməklə, aşağıdakı məsələlərin həll edilməsinə yönəldilir:

- iş yerləri ilə müəssisə rəhbərlərinin qarşılıqlı əlaqəsinin rasionallığı;
- iş yerlərində keçid və materialların nəqletdirilmə məsafələrinin azaldılması;
- əsas iş yerlərindən zərərli əmək şəraiti olan iş yerlərinin izolyasiya qurğuları vasitəsilə ayrılması;
-təhlükəsiz əmək şəraitinin təmin olunması;
- işin yerinə yetirilməsinə nisbətən az vaxt sərf olunmasının təmin edilməsi;
- işçilərin fizioloji şərait və psixi-əsəb gərginliklərinin azaldılması;
- işin yerinə yetirilmə rahatlığı;
- işçinin iş yerində hərəkət marşrutunun optimallaşdırılması;
- işçinin iş vəziyyətinin rasionallaşması;
- əlverişli əmək şəraitinin yaradılması;
- əməyin təhlükəsizliyi.

Hər bir işçinin istehsalat ərazisinin həcmi 15 m^3-dan az, divarla məhdudlanmış iş yerlərinin sahəsi 4,5 m^2-dan az olmamalıdır. [2]

İş yerləri planlaşdırıldıqda onların təbii işıqlanmasının mümkünlüyü nəzərə alınmalıdır. İşıqlanma qənaətbəxş olmadıqda görmə orqanlarının gərgin yüklənməsinə və tez yorulmasına, işin keyfiyyətinin pisləşməsinə gətirib çıxarır. İnsanın boyunun hündürlüyündən asılı olaraq, ayaq üstə işlədikdə, əllərin aşağı, optimal və maksimum qiymətə çatma zonası cədvəl 1-də göstərilmişdir.

Cədvəl 1 İnsan ayaq üstə işlədikdə əllərinin çatma zonası, m

Əlçatma zonasının hüdudları	İnsanın boyunun hündürlüyü, m					
	hündür		orta		alçaq	
	kişi	qadın	kişi	qadın	kişi	qadın
Dərinlik boyunca	0,66	0,55	60	0,50	0,54	0,44
Hündürlük	1,22	1,02	20	1,00	1,18	0,98
Bir əlin frontu boyunca	0,50	0,48	48	0,47	0,47	0,46
Hər iki əllərin frontu boyunca	1,80	1,40	60	1,30	1,40	1,20
Döşəmənin qeyd edilən səviyyəsindən hündürdə olan aşağı hüdud	0,78	0,72	0,70	0,625	0,61	0,55

Maksimum əlçatma zonası, uzadılmış əllərin ətrafında fırlanma mərkəzi çiyin olmaqla müəyyənləşdirilir.

İşçilərin ölçüləri nəzərə alınmaqla Əmək ETİ tərəfindən işçi səthinin aşağıdakı normativləri işlənilmiş və məsləhət görülmüşdür:

Cədvəl 2 İnsanın boyundan asılı hündürlük normativləri, m

İş vəziyyəti və göstəricilər	Aşağı	Orta	Yüksək
Adi oturaq halında işlədikdə stolun hündürlüyü	0,70	0,725	0,75
Xüsusi dəqiq işlərdə oturaq halında işlədikdə oturaq halında işlədikdə stolun hündürlüyü	0,90	0,95	1,00
Oturaq halında işlədikdə dəzgah və maşınlarda iş səthinin hündürlüyü	0,80	0,825	0,85
Ayaq üstə işlədikdə dəzgah və maşınlarda iş səthinin hündürlüyü	1,00	1,05	1,10
İş vəziyyətini dəyişmək (oturaq - ayaq üstə) mümkün olan şəraitdə işlədikdə iş səthinin hündürlüyü	0,95	1,00	1,05

İş yerlərinin planlaşdırılmasına olan ümumi tələblərlə yanaşı, onların xüsusiyyətləri mütləq nəzərə alınmalıdır. Belə ki, çoxdəzgahlı iş yerlərində texnoloji avadanlıqların yerləşdirilməsi əsas götürülür, çünki bu amil bir dəzgahdan başqasına keçdikdə iş vaxtının sərfinə həlledici təsir göstərir.

70-ci illərdə fəhlə və qulluqçuların kütləvi peşələrini tətbiq etmək üçün iş yerlərinin təşkilinin tipik layihələri geniş inkişaf tapmışdır. ƏET-nə müvafiq gələn mərkəzi təşkilatlar tərəfindən yüzlərlə layihələr işlənilmiş, sonra müvafiq ardıcıllıqla mərkəzləşləşdirilmiş qaydada müəssisələrdə tətbiqi planlaşdırılmışdır. Odur ki, verilən yaxşı təkliflər lazım gələn səmərə verə bilmirdi, beləliklə, bu tədbirlərin məcburi xarakterliyinin formalizmi davam edirdi. Lakin iş yerlərinin təşkilinin tipik layihələri ideyası hələ də öz əhəmiyyətini itirməmişdir.

İş yerlərinin təşkilinin tipik layihəsi özündə nəyi əks etdirir? Bu, tipik, yəni müxtəlif ixtisaslı iş yerlərinin təchizatı və planlaşdırılması təklifləri üçün xarakterik olan təşkilat sənədlərinin cəmidir.

İş yerlərinin layihələndirilməsi obyektin seçilməsinin əsaslandırılmasına: fəhlələr üçün - peşələrin vahid tarif - ixtisas sorğusunun siyahısına; qulluqçular üçün - onların vəzifə nomenklaturası və dərəcələr üzrə sorğularına xidmət edir.

İş yerlərinin təşkilinin tipik layihələri aşağıdakı hissələrdən ibarətdir: giriş, iş yerinin təyinatı və xarakteristikası, təchizat, planlaşdırma, əməyin mühafizəsi və təhlükəsizlik texnikası tələbləri, işçilərə olan əsas tələblər, iş yerində müvafiq sənədlər, tipik layihədən istifadə olunduqda iqtisadi səmərəlilik göstəricilərinin hesabatları.

İş yerlərinin attestasiyası onun texniki, iqtisadi, təşkilati və sosial tələblərə uyğunluğunun kompleks şəkildə yoxlanılmasıdır.

İş yerlərinin inventarlaşmasından sonra kompleks yoxlanılması - attestasiyası aparılmalıdır. İş yerləri aşağıdakı qrup suallar əsasında attestasiya olunmalıdır.

Avadanlıqların texniki səviyyəsi və tətbiq olunan mütərəqqi texnologiyanın yüksək nailiyyətlərə cavab verməsinin məqsədəuyğunluğu qiymətləndirilir.

İş yerlərinin təşkilinin tipik layihələri və ƏET-nin tələblərinə müvafiq olaraq iş yerlərinin təşkili səviyyəsi qiymətləndirilir.

Əmək şəraiti və onun təhlükəsizlik səviyyəsi qiymətləndirilməlidir. Burada

sanitar-gigiyena şəraitinin müvafiq normativ tələbləri, istehsalat proseslərinin əməyin mühafizəsi və təhlükəsizlik tələblərinin müvafiq təchizatı, əməyin ağırlığı və monotonluğu, işçilərin xüsusi geyimlərlə təmin olunması yoxlanılmalıdır.

İş yerlərində attestasiya, müəssisənin rəhbərliyi və yüksək ixtisaslı mütəxəs sislər sırasından təşkil olunmuş xüsusi atestasiya komissiyası tərəfindən aparılır.

İş yerlərinin attestasiyası və rasionallaşmasının təşkili işləri üzrə müəssisələrdə komissiyaların yaradılması məqsədə uyğundur və bunların vəzifələrinə aşağıdakılar aiddir:

· iş yerlərinin attestasiyası üçün metodikanın işlənməsi;
· müəssisənin bölmələri üzrə iş yerlərində attestasiyanın keçirilmə planının işlənməsi;
· iş yerlərinin inventarlaşması və attestasiyası üçün işçi qrupunun yaradılması;
· iş yerlərinin rasionallaşması üzrə işlərin təşkili və planlaşdırılması;
· iş yerlərinin rasionallaşması və attestasiyası üzrə bölmələrə tibbi yardımın göstərilməsi;
· iş yerlərinin rasionallaşması və attestasiyası planının yerinə yetirilməsinə nəzarət.

İş yerlərinə xidmətin formaları və müasir vəziyətinin təhlili. İş yerlərinin təşkilində əməyin təşkili elementlərindən biri onlara xidmətin təşkilidir. Xidmət sistemi - istehsalat prosesinin nisbətən aktiv tərkib hissəsi olub, onun fasiləsiz və səmərəli işləməsinin təmin olunmasına istiqamətləndirilmişdir. İşin səmərəsi iş yerlərinə xidmətin təşkilindən çox asılıdır.

İş yerlərinə xidmətin təşkili xarakterinə görə əməyin kooperasiyasına yaxındır. Burada da, əməyin təşkilində olduğu kimi, iş yerlərinin qarşılıqlı təsiri əsas götürülür. Fərqli cəhətləri ondadır ki, kooperasiya vaxtı işçilərə müvafiq işi yerinə yetirdikdə texnoloji cəhətdən qarşılıqlı təsir göstərir. Məsələn, hissə bir iş yerində becərildikdən sonra hazırlanmaq üçün başqa iş yerinə verilir. İş yerlərinə xidmət zamanı bu cür bir başa qarşılıqlı əlaqə olmur. Bu zaman köməkçi xidmət sahələri, öz istehsalat funksiyalarını yerinə yetirmək üçün işçilərə köməklik göstərir.

Belə qarşılıqlı əlaqəni yaxşı aydınlaşdırmaq üçün iş yerlərinə xidmətin növü və ya xidmət funksiyaları və onların strukturuna baxılmalıdır. Aşağıdakı şəkil 1. əmək vəsaiti; əmək əşyası və işçilərin xidmət strukturu verilmişdir.

Əmək vəsaitinə xidmət əsas və köməkçi avadanlıqlara təmir və təmirarası xidmətdən; saxlanılma və avadanlıqların vəziyyətinin isə yararlı halda saxlanılma sından; bina, qurğuların isə yararlı vəziyyətdə saxlanılması və təmirindən ibarətdir.

Əmək əşyasına xidmət işlərinə iş yerlərinin xammal, material, yarımfabrikatlarla təmin olunması, onların komplektləşməsi, saxlanılması və nəql etdirilməsi, məhsulun keyfiyyətinə nəzarət və s. aiddir.

İşçilərə xidmət əmək əşyası və təhlükəsizlik texnikası tədbirlərinin yerinə yetirilməsindən, iş yerlərində normal sanitar-gigiyena şəraitlərinin təmin olunmasından ibarətdir.

ƏET tələblərinə müvafiq olaraq iş yerlərinə xidmətin təşkili məqsədi üçün bir-biri ilə qarşılıqlı əlaqəli olan aşağıdakı dörd qrup suallar mütləq həll olunmalıdır:

1) müvafiq iş yerinin və ona xidmət edən işçilərin hansı növ xidmətə aid olduğunu müəyyənləşdirmək;

2) hər bir xidmət növü üzrə xidmətin fiziki normasını təyin edib, onun həcmini növbə (il, ay) ərzində əsaslandırmaq;

3) xidmət reqlamentini, vaxtını göstərməklə onun qrafikini, ardıcıllığını və xidmətin dövriliyini müəyyənləşdirmək;

4) xidməti şəxsiləşdirmək, yəni xidmət növlərini xüsusi icraçılara həvalə etmək.

Beləliklə, iş yerlərində işçilərə hansı həcmdə, nə vaxt və kimin xidmət etdiyi məlum olduqda həmin xidmət qənaətbəxş hesab olunur. Xidmət göstərən işçilərə isə hansı həcmdə, nə vaxt və kimə xidmət gömtərmələri məlum olur. [3]

İş yerlərinə xidmətin elmi təşkili bir sıra prinsiplərin gözlənilməsi ilə əldə olunur. Bunlardan əsasları - sistemlılik, komplekslik, planlılıq, xəbərdarlıq, vaxtı-vaxtında xidmət, etibarlıq, operativlik və səmərəlilikdir.

Sistemlik - ƏET-nin əsas prinsipidir və xidmət qurulduqda və ya layihələndirildikdə onun təşkili hərtərəfli fikirləşilməlidir ki, bu zaman əlavə suallar meydana çıxmasın. SAistemlik baxımından işin məzmununun dəqiq formalaşdırılması əsas məsələdir. Bu isə ondan ibarətdir ki, xidmət üzrə icra edilən iş xidmət olunan işçi yerlərinin tələblərinə tabe olmalıdır.

Komplekslik - bütün növ xidmətlərin məcburi olaraq eyni səviyyədə təşkil olunmasıdır. Əgər yüksək xidmət səviyyəsində bir funksiya o birindən azdırsa, onda ümumilikdə xidmət sistemi öz tələblərinə cavab verə bilmir. . [4]

Planlıq - istehsalatdaxili planlaşdırmanın bir hissısidir. Hər bir iş yerinə xidmətin həcmi, növü və vaxtından asılı olaraq hesablamalar əsasında təşkil edilməlidir. Xidməti plnlığını vaxtında, müntəzəm, vaxt hüdudları əsaslandırılmış və dəqiq təyin olunmuş halda aparılmalıdırxidmətin .

Xidmətin xəbərdarlığı onun elə təşkili hesab olunur ki, iş yerlərinə xidmət işlərinin vaxtlı-vaxtında yerinə yetirilməməsi ucbatından istehsalatın dayanmasına yol verilməsin.

Xəbərdarlıq – avadanlığın və onun ayrı-ayrı hissələrinin iş ehtiyatlarının hesabatlarına əsaslandırmaqla vaxtında aparılan xidmətdir.

Vaxtlı-vaxtında xidmət – müəyyən olunmuş xidmət müddətinin ciddi gözlənilməsıdır. Hər bir nidmət vaxtında, müəyyən olunmuş vaxtda yerinə yetirilməlidir. Bunlardan isə xidmət olunan iş yerlərində işin dəqiqliyi çox asılıdır və bu prinsipin gözlənilməsinin böyük əhəmiyyəti vardır.

Etibarlıq – xidmətin elə keyfiyyətidir ki, xidmət funksiyası zamanı gözlənilməyən iş pozulmalarının sığorta olunması, əvəzolunma sistemi ilə əldə olunur.

Operativlik – xidmət vaxtı gözlənilməyən nasazlıqlara tez-tez reaksiya verməklə çatışmazlıqları aradan qaldırmaqdır. Bu prinsip etibarlıq prinsipi ilə bilavasitə bağlıdır və onlar bir-birini tamamlayır.

Səmərəlilik – təşkil olunan xidmət sisteminin fəaliyyət göstərməsi üçün müxtəlif variantların hesablanması və bunların içərisindən az əmək və material sərfinə cavab verən prinsiplərdən birinin seçilməsidir.

Təcrübə göstərir ki, xidmətin təşkilində olan çatışmazlıqlar növbə daxili iş vaxtı itkisinin $^2/_3$ hissəsinə səbəb olur. Xidmət sistemi nə qədər tam və mütərəqqi olsa, müafiq olaraq əmək prosesinin təşkili tez başa çatar, iş vaxtından səmərəli istifadə olunar. [2]

İş yerlərinə xidmətin təşkili sistemləri müxtəlifdir. Bu sistemlər köməkçi işlərin mərkəzləşmə və xüsusiləşmə dərəcələri ilə təyin olunur. Bunlara: mərkəzləşmişvə qarəşıq sistemlər aiddir.

Mərkəzləşmiş sistemdə xidmət funksiyaları hə bir iş yerində ya işçilərin özləri tərəfindən, ya da hər bir bölmədə olan xüsusi köməkçi işçilər tərəfindən yerinə yetirilir.

Bu sistemin üstünlüyü ondadır ki, bölmənin rəhbərinin tabeliyində köməkçi işçiləri olur və bunlar funksional və peşə baxımından lazım gəldikdə işi yerinə yetirirlər.mənfi cəhəti isə, köməkçi xidmət işçilərinin aşağı səmərədə istifadə olunmasıdır.

Mərkəzləşmiş sistemdə xidmət zamanı köməkçi heyətin səmərəli istifadəsinin təşkilinə şərait yaranır. Bu səmərə isə iri müəssisələrdə iş yerlərinə hər hansı xidmət funksiyası hesabına müxtəlif işləri yerinə yetirmək üçün xüsusi sahələr yaradılmaqlsa əldə olunur. Bu sahələrə xüsusi avadanlıqlar quraşdırmaqla, müvafiq xidmət heyəti seçilirvə ümumi işin həcminin artması hesabına onlar daimi işlə təmin olunur, xidmət heyətindən nisbətən rasional istifadə olunur. Mənfi cəhəti – öz nailiyyətlərinin realizasiyası üçün yüksək əmək və istehsalat təşkili tələb edir.

Bunlardan ən çox yayılmışı qarışıq sistemli xidmətdir, bu zaman xidmət funksiyasının bir hissəsi mərkəzləşmiş sistemlə yerinə yetirilir. Qarışıq sistemdə xidmət zamanı üstünlüklər və mənfi cəhətlər hər iki hər iki sistem üzrə saxlanılır. Mərkəzləşmiş işlərin xüsusi çəkisi nə qədər çox olarsa, iş yerlərinə xidmətin səmərəliliyi də bir o qədər yüksək olar.

Xidmət sisteminin seçilməsi konkret istehsalat şəraiti üçün təyin olunur. İş yerlərinə optimal xidmət sisteminin seçilməsi kriteriyası iş vaxtı və material xərcləri sərfinin minimum olmasıdır..

Müəssisaələrdə iş yerlərinə xidmətinformaları fərqlənir. Bunlar növbətçi, planlı-xəbərdaredici və standart xidmətlər ola bilər.(cədvəl 3.)

Cədvəl 3 İş yerlərinə xidmət sisteminin seçilməsi

Sahədə istehsalat prosesinin təşkili forması və ya xüsusiləşmə xarakteri	İstehsalatın nomenklturası	İstehsalatın növü			
		Vahid və kiçik seriyalı	Seriyalı	Böyük seriyalı	Kütləvi
Texnoloji xüsusiləşmiş sahə	İstənilən	NX	NX və ya PXX	PXX	PXX və ya SX
Яшйа цзря хцсусиляшмиш сащя	Аз номенклатуралы Чох номенклатуралы	NX	NX və ya PXX NX və ya PXX	PXX PXX	SX PXX və ya SX
Груп шякилли бежярилмя сащяси	____	HX	PXX	PXX	PXX
Ахым хятляри	Бир номенклатуралы Чох номенклатуралы	_____ _____	PXX Yüklənmiş Yüklənməmiş	PXX ____ ____	SX PXX NX
Автомат хятляр		_____	PXX	PXX	SX

Qeyd: NX – növbətçi xidmətlər; ПХХ – planlı-xəbərdaredici xidmətlər; CX – standart xidmətlər.
İş yerlərinə xidmətin təşkilinin təhlili nəticəsində aşağıdakı göstəricilər hesablanır.
İş yerlərinə xidmətin səmərəlilik əmsalı. Bu aşağıdakıformula ilə hesablanır:

$$K_{xid.s.} = 1 - T_{exs} / T_{növ},$$

burada: $K_{xid.s}$ - xidmətin səmərəlilik əmsalıdır;

T_{exs} – iş yerlərinə xidmətə aid olmayan səbəbdən vaxt itgisidir.;

$T_{нnöv}$ – növbəlik vaxtıdır, dəq və ya saat.

Xиidmətin keyfiyyət əmsalı. Bu göstəricibelə hesablanır

$$K_{x.к} = İY_V / İY_Ü,$$

Burada: $İY_V$ вя $İY_Ü$ müvafiq olaraq vaxtında və keyfiyyət ilə xidmət olunan iş yerlərininvə ümumi iş yerlərinin sayıdır.

İş yerlərinə xidmət edilməsindən əsas işçilətrin əmək məhsuldarlığının aşağı düşmə faizidir bu göstərici aşağıdakı kimi təyin olunur:

$$П_{maf} = T_{иivi} / T_{növ} - T_{ivi} \cdot 100,$$

burada: T_{ivi} – iş yerlərinə xidmət zamanı vaxt itkisidir, dəq.

Növbətçi xidmətlər – vahid və kiçik seriyalı istehsalat şəraitində, bir qayda olaraq, çağırış əsasında təşkil olunan xidmətdir. Bu zaman lazım gəldikdə xidmət heyəti iş yerinə çağırılır. Bu növ xidmət onun vaxtında yerinə yetirilməsinə zəmanət vermir və istehsalat prosesinin dayandırılmasına imkan yaradır.

Planlı – xəbərdaredici xidmət seriyalı istehsalatda nisbətən çox tətbiq edilir və plan-qrafik (cədvəl) əsasında aparılır. Bu xidmət formasında böyük hazırlıq işləri tələb olunur və xidmət öz vaxtında yerinə yetirildiyinə görə iş yerlərinin boş qalma ehtimalı minimum olur.

Standart xidmət kütləvi axın istehsalatında istifadə olunur. Bu iş yerlərinə xidmətin təşkilinin nisbətən yeniləşdirilmiş formasıdır. Müəssisənin standartı tam dəyərli sənəd olub, onun əsasında istehsala xidmət sisteminin səmərəliliyini müəyyənləşdirmək olar. Standart xidmət yüksək qənaətcilliyinə görə xarakterizə olunur, lakin əsas istehsalın dəqiq təşkil olunmasını tələb edir.

İş yerlərinə xidmətin təşkilinin işlənməsi aşağıdakı ardıcıllığa uyğun aparılmalıdır:

- bütövlükdə bölmə üçün xidmət işinin həcmi və tərkibi müəyyənləşdirilir;
- xidmət üzrə əsas işçilərə veriləcək məqsədyönlü işlər ayrılır;
- iş yerlərinə xidmət üçün işin tərkibi və həcmindən asılı olaraq köməkçi işçilərin əmək sərfi norması hesablanır;
- işin tərkibi və həcmi xidmət üzrə köməkçi işçilər arasında bölüşdürülür;
- xidmət forması (fərdi, kollektiv) müəyyənləşdirilir və onların tətbiq olunma şəraiti işlənilir;
- fiziki xidmət norması hesablanır;
- xidmətin reqlamenti (qrafiklər, cədvəllər, hərəkət marşrutları) işlənilir;
- köməkçi işçilərin stasionar və hərəkət edən iş yerlərinin təşkili layihələndirilir.

Xidmətin təşkilinin səmərəliliyi müasir texnologiyaların tətbiqi əsasında yüksəldilir, bunlar təmir işlərinin planlaşdırılmasında, yağlama işlərinin ardıcıllıqla yerinə yetirilməsində, xidmət qrafiki marşrutlarının tətbiqi üzrə əməyin təşkilində əmək tutumunun hesablanmasında, anbarların idarə olunmasında və s. istifadə olunur. [2]

Ədəbiyyat

5. Mehbalıyev S.S., İsgəndərov R.K. Əmək bazarı və əalini sosial müdafiəsi, Bakı, 2000, 544 c.
6. İsmayılov V.İ. Əməyin elmi təşkili. Bakı:Təhsil, 2003, 229 s.
7. Рофе А.И. Организация и нормирование труда:- М, 2001.-330 с.
8. Лапин А. Е. Охрана труда на предприятиях / // Вопросы статистики. - 2006. - №3.- с. 45-50

Analysis of the current state of working conditions in enterprises

Summary:

The article presents the improvement of workplace organization as a key component of complex work in improving the organization of labor in enterprises. It is shown that the condition of the workplace and its organization determines the level of labor organization in the enterprise.

When planning workplaces, it is important to take into account the possibility of their natural lighting. This is because, if the lighting is unsatisfactory, it leads to overload and rapid fatigue of the visual organs, and deterioration of the quality of work.

It is stated that working conditions and its level of safety should be assessed. There are appropriate normative requirements of sanitary and hygienic conditions, adequate supply of labor protection and safety requirements of production processes, weight and monotony of work, provision of workers with special clothes. Workplace certification is also carried out by a special attestation commission composed of the management of the enterprise and highly qualified specialists. It lists the expediency of establishing commissions for the organization of attestation and rationalization of workplaces and their responsibilities.
Keywords: *enterprise, working conditions, labor organization, jobs, security.*

MİLLİ İQTİSADİYYATIN ƏRAZİ VƏ SEKTORİAL STRUKTURUNUN MAHİYYƏTİ

Nəcəfova Çiçək Məhəmməd qızı
Sumqayıt Dövlət Universiteti
chichak64@mail.ru

Milli iqtisadiyyatın mahiyyəti ondan ibarətdir ki, ölkənin tarixi təkamülü nəticəsində meydana gələn milli və ictimai təkrar istehsal sistemi ictimai əməyin müxtəlif sahələri, forma və növləri bir-biri ilə qarşılıqlı əlaqədə olur. Milli iqtisadiyyatın xüsusiyyətlərinə isə tarixi və mədəni ənənələr, dövlətin coğrafi yerləşməsi, onun beynəlxalq əmək bölgüsündə rolu və s. təsir göstərir.

Milli iqtisadiyyatın iki struktur növü mövcuddur:

1. İqtisadi struktur - milli iqtisadiyyatın iqtisadi vahidlərinin funksiyalarını təyin edir. Onlar arasında qarşılıqlı əlaqənin öyrənilməsi maraq doğurur, çünki, onlar milli iqtisadiyyatın mahiyyətini təyin edirlər.

2. Qeyri-iqtisadi struktur - qeyri-iqtisadi vahidlərin - təhsil, mədəniyyət və s. funksiyasını təyin edir. Onların təhlili yalnız o zaman maraq doğurur ki, bu vahidlər və onlar arasında olan münasibətlər milli iqtisadiyyatın işinə öz təsirini göstərsin.

Milli iqtisadiyyatın strukturu daim dəyişir. Bu dəyişməyə ən böyük təsiri elmi-texniki tərəqqi göstərir ki, bu da istehsalın xarakterini dəyişir, iqtisadiyyatın yeni sahələrinin meydana gəlməsinə səbəb olur. İctimai istehsalın xarakterinin dəyişməsi, yeni sahələrin yaranması milli iqtisadiyyatda qarşılıqlı əlaqələrin xarakterinin dəyişməsinə təsir göstərir. Buna görə də, milli iqtisadiyyatın strukturu daim dəyişir ki, bu da daim monitorinqlərin aparılmasını, real strukturun onun gələcək inkişafı ilə müqayisəsinin aparılmasını tələb edir.

Milli iqtisadiyyatın strukturu coğrafi, mədəni, sosial, psixoloji və s. amillərin təsiri altında formalaşır. O hər bir ölkədə özünəməxsus şəkildə formalaşır, onu suni surətdə həyata keçirmək mümkün deyil.

İnfrastruktur birmənalı şəkildə təyin olunmur. Birincisi, bu məfhum xidmət sistemi məcmusu kimi başa düşülür ki, burada əsas vəzifə istehsalın təmin olunmasından və əhaliyə müxtəlif xidmətlərin göstərilməsindən ibarət olur. İkincisi, infrastruktur dedikdə, milli iqtisadiyyatın normal faəliyyətinin təmin olunmasına yönəlmiş fəaliyyət vahidlərinin məcmusu başa düşülür.

Milli iqtisadiyyatın müstəqil sahəsi kimi infrastruktur aşağıdakı inkişaf mərhələlərini keçmişdir:

a) kənd təsərrüfatının və sənətkarlığın ayrılması əməyin ixtisaslaşmasına və şəhərlərin böyüməsinə gətirib çıxardı;

b) kənd təsərrüfatının, sənətkarlığın və ticarətin ayrılması milli iqtisadiyyatın ticarət sahəsinin formalaşmasına səbəb oldu, nəticədə, infrastrukturun rolu nəzərəçarpacaq dərəcədə yüksəldi.

Milli iqtisadiyyatın aşağıdakı əsas infrastruktur növləri göstərilir:

1. İstehsal infrastrukturu - milli iqtisadiyyatın elə vahidlərinin məcmusudur ki, onların fəaliyyətinin əsas məqsədi istehsal prosesinin normal fəaliyyətinin təmin olunmasıdır. Məsələn, yükdaşımaları, yüksəktonnajlı su yükdaşımaları, və s. İstehsal infrastrukturu ikili mahiyyət daşıyır. Birincisi, o maddi istehsal prosesinin normal xidmət göstərməsinə yönəldilmişdir, ikincisi isə,

insanın həyat fəaliyyətinin və milli iqtisadiyyatda əmək resurslarının təkrar istehsalı prosesinin normal təmin olunmasına xidmət edir.

2. Sosial infrastruktur - milli iqtisadiyyatın insanın və ümumiyyətlə əhalinin normal həyat fəaliyyətinin təmin olunması ilə bağlı olan vahidlərinin məcmusudur. Müasir milli iqtisadiyyatda onun rolu daim artır, əsas vəzifə əhalinin həyat fəaliyyətinin keyfiyyət baxımından daha yüksək səviyyədə təmin olunmasıdan ibarətdir. Sosial infrastrukturun milli iqtisadiyyata təsiri ondan ibarətdir ki, o iqtisadiyyatın əsas resursu olan əmək resurslarının təkrar istehsalının təmin edilməsinə imkan yaradır.

3. Bazar infrastrukturu - milli iqtisadiyyatın elə vahidlərinin məcmusudur ki, onlar bazarın normal fəaliyyətinin təmin edilməsinə və onun inkişafına yönəldilmişdir. Bazar infrastrukturu iqtisadiyyatın müxtəlif sahələrinin fəaliyyətini təmin edən müxtəlif təşkilat və qurumların məcmusu kimi təqdim olunur.

Bazar infrastrukturu aşağıdakı elementlərdən ibarətdir:

1) ticarət təşkilatları;
2) birja ticarəti;
3) bank sistemi;
4) qeyri-bank təşkilatları;
5) nəqliyyat sistemi.

Milli iqtisadiyyatın sahə strukturu milli iqtisadiyyatın tərkibinə görə eynicinsli, fəaliyyət xüsusiyyətlərinə görə bir-biri ilə əlaqəli olan təsərrüfat subyektləri qrupundan ibarətdir.



Şək. 1. Milli iqtisadiyyatın sahə strukturu.

Milli iqtisadiyyatın sahə strukturu aşağıdakı inkişaf mərhələlərindən keçmişdir:

1) birincisi, iqtisadiyyatın kənd təsərrüfatı, faydalı qazıntılar kimi sahələrinin sürətli inkişafı ilə əlaqədardır;

2) ikincisi, istehsalatın və tikintinin inkişafı ilə əlaqədardır;

3) Milli iqtisadiyyatın sahə strukturunun bu inkişaf mərhələləri bir-birini əvəz etmişdir, lakin hər bir ölkə özünün spesifik xüsusiyyətlərinə malik olmuşdur.

Sahə strukturunun dinmaik dəyişilməsi 10 ildən 20 ilə qədər vaxt aralığında baş verir və aşağıdakı xarakterik xüsusiyyətlərə malik olur:

1) xidmət sahəsinin - intellektual və informasiya sfearsı - həcminin və əhəmiyyətinin artması;

2) başqa sahələrə nisbətən hasilat sənayesinin həcminin azalması;

3) iqtisadiyyatın kənd təsərrüfatı sektoru fonunda sənaye istehsalının həcminin artması.

İqtisadiyyatın müasir sahə strukturu mürəkkəb iyerarxik quruluşa malikdir (şək. 1). Yalnız bunu demək kifayətdir ki, maddi rifah yaradan sahələrin tərkibinə 11 kompleks sahə daxildir. Onlar öz növbəsində təxminən 130 sahəyə bölünür ki, onların da tərkibinə 300-dən çox istehsal sahəsi daxildir.

Eləcə də, iqtisadiyyatın ərazi strukturu kimi, sahə strukturu da dəyişikliklərə məruz qalır. Hər zaman yeni istehsal sahələri yaranır ki, bunlar da ölkənin ictimai məhsuluna öz töhfəsini verir, eyni zamanda, təsərrüfat faliyyətinin bəzi "köhnəlmiş" növləri durğunluq halına keçir və öz mövcudluğunu itirir. İqtisadiyyatın sahə strukturunun müxtəlif tərkib hissələri arasında nisbət dəyişikliklərini "struktur sıçrayışları" adlandırmaq qəbul olunmuşdur. Bu sıçrayışlar elmi-texnili tərəqqinin təsiri altında meydana gəlir.

Ümumiyyətlə, iqtisadiyyatın sahə strukturunun mütərəqqi inkişaf tempinə malik ölkələrdə istehsal sahələrinin və xidmət sektorunun inkişafına yönəlmiş resursların həcminin artması müşahidə olunur ki, bu da həyat səviyyəsinin artmasına imkan yaradır. Müasir informasiya xidmətləri və texnologiyaları isə öz növbəsində iqtisadiyyatın bütün sahələrinin gələcək inkişafını stimullaşdırır. üçüncüsü isə, xidmət sferasının inkişafı ilə əlaqədardır.

XIV. AZƏRBAYCANIN XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİ

ПЕРСПЕКТИВЫ СОТРУДНИЧЕСТВА АЗЕРБАЙДЖАНА И БЕЛАРУСИ В УСЛОВИЯХ НОВОГО ЭНЕРГЕТИЧЕСКОГО ПЕРЕХОДА

Быков А.А., Седун А.М., Хаустович Н.А.
Белорусский государственный экономический университет

При сопоставимой численности населения и сопоставимом уровне дохода, экономики Азербайджана и Беларуси являются взаимодополняющими, что можно считать объективной предпосылкой для углубления экономического сотрудничества между странами. Мы практически не конкурируем по экспортируемым товарам и услугам, каждая из двух экономик производит те продукты, которых как раз не хватает другой экономике. Между тем, комплементарность экономик еще не гарантирует углубления сотрудничества: 2020 году товарооборот между Беларусью и Азербайджаном составил 447,1 млн. долл. [1], что составляет всего лишь 0,6% от общего внешнеторгового оборота Беларуси и 1,3% от аналогичного показателя Азербайджана. Однако происходящие в мире технологические изменения, особенно в энергетическом секторе, могут серьезным образом повлиять на ситуацию.

Происходящий сейчас в мире энергетический переход (energy transition) характеризуется изменением структуры первичного энергопотребления и постепенным переходом от существующей схемы энергообеспечения к новому состоянию энергетической системы. За всю мировую историю произошло лишь несколько энергетических переходов: с дров на уголь (1800 – 1900), с угля на нефть и газ (1940 – 1970). Сейчас наблюдается переход с ископаемого топлива на возобновляемые источники энергии.

Ключевым драйвером настоящего энергоперехода является не исчерпание минерального топлива, и даже не технические новшества, которые открывают более дешевые и более эффективные источники энергии – энергия из возобновляемых источников пока что остается достаточно дорогой. Его драйвером стала политика декарбонизации со стороны правительств и международных организаций, направленная на сокращение выбросов CO_2. Ограничения на добычу нефти и газа накладываются со стороны спроса, а не предложения [2].

В рыночной экономике достижение общественно значимых целей, таких как декарбонизация, маловероятно без соответствующих экономических стимулов, которые обеспечивают коммерческим компаниям безубыточную работу. При сложившихся, сравнительно низких мировых ценах на минеральное топливо, условием успешной реализации политики декарбонизации становится формирование нормативно-правовой базы, стимулирующей производителей и потребителей энергии к меньшему использованию ископаемого топлива и его замещению возобновляемыми источниками. Она позволяет перераспределить доходы в пользу тех видов бизнеса, которые своей деятельностью вносят вклад в сокращение выбросов CO_2 – прямым путем, через снижение добычи и сжигания минерального топлива, а также косвенным путем, через снижение потребления конечных и промежуточных товаров и услуг, в технологическом процессе выпуска которых используется минеральное топливо.

Примером подобного перераспределения доходов можно назвать взимание «углеродного налога» с экспортеров не только энергоресурсов, но и других энергоемких товаров, например, металлов или удобрений. Согласно проекту нового климатического законодательства Европейского союза, России придется ежегодно выплачивать странам ЕС свыше миллиарда долларов углеродного налога за экспорт в ЕС энергоемкой продукции. Дополнительные доходы могут быть использованы как для стимулирующих выплат потребителям пока еще относительно дорогих безуглеродных технологий, так и для обеспечения спроса на услуги совершенно новых видов бизнеса, способствующих декарбонизации.

В процессе энергетического перехода, происходящего под эгидой декарбонизации, осуществляется структурная трансформация экономик, при которой определенные виды бизнеса теряют свою долю на рынке, а другие ее наращивают. Так получилось, что наращивают долю рынка и доходы компании, которые специализируются на производстве оборудования для ВИЭ, электротранспорта, литиевых батарей. Наиболее высокими темпами данные виды производства развиваются в США, Японии, Китае, ЕС, Ю. Корее – в экономиках с высоким доходом, мощной производственной базой и относительно высокими затратами на науку и инновации. Разрыв в экономическом благополучии перечисленных экономик с развивающимися странами, в том числе – с экспортерами нефти – будет нарастать по мере падения доходов последних. Тем самым общественно значимая цель декарбонизации при создании экономических стимулов для микроэкономических субъектов коррелирует с важнейшей целью обеспечения конкурентных преимуществ промышленно развитым странам и нейтрализации зарубежных конкурентов.

Немаловажным фактором, способствующим отрыву развитых экономик от развивающихся по уровню благосостояния стала их высокая конкурентоспособность в финансовом секторе, что обеспечивает возможности финансирования инвестиций и спроса на новую продукцию. Все перечисленные выше экономики отличаются устойчивыми (суверенными, по определению представителей научной школы современной денежной теории[3]) финансовыми системами, которые характеризуются: низкими процентными ставками по заемному капиталу; возможностью осуществлять денежную эмиссию для стимулирования экономического роста; низким уровнем инфляции; высоким объемом денежной массы М2 и М3 по отношению к ВВП; развитыми финансовыми рынками с возможностью прямого финансирования проектов и стартапов.

Избыток денег позволяет фирмам и домашним хозяйствам не экономить на технологиях, быстрее обновлять основные средства, больше потреблять, предпочитать новые продукты дешевым продуктам – в совокупности данные факторы ускоряют процесс энергетического перехода и увеличивают отрыв в технологическом уровне и благосостоянии развитых экономик от развивающихся.

Каково же место Беларуси и Азербайджана на новом сегменте рынка, формируемого в процессе энергетического перехода? В среднесрочной перспективе внедрение новых энергетических технологий представляет определенный вызов для азербайджанской экономики, которая зависит от экспорта нефти и мировых цен на нее. В период относительно высокий мировых цен на нефть с 2006 по 2014 гг. профицит текущего счета платежного баланса Азербайджана составлял от 13 до 35% к ВВП, в этот период азербайджанская экономика демонстрировала рекордные темпы экономического роста. В 2020 г. внешнеторговый профицит снизился до 0,5% к ВВП на фоне снижения цены нефти, сокращения экспортных доходов и поддержки фиксированного курса маната. Между тем, азербайджанская экономика обладает высоким запасом финансовой прочности: золотовалютные резервы превышают годовой ВВП, а совокупный внешний долг составляет лишь 18% к ВВП.

В Беларуси показатели финансовой безопасности экономики не столь высоки: внешний долг всех секторов приблизился к 70% ВВП, золотовалютные резервы составляют около 15% к ВВП. При этом условия для внедрения новых энергетических технологий сложились относительно благоприятные. С одной стороны, реализуется комплекс мероприятий по использованию «чистой» энергии БелАЭС, которые включают модернизацию электросетей, рост использовании электроэнергии в коммунальном секторе, в том числе для отопления. Осваивается производство новых конкурентоспособных моделей городского электротранспорта. Реализован проект рециклинга свинцовых аккумуляторных батарей. Среди ограничений и рисков, препятствующих распространению технологий нового энергетического перехода в Беларуси, можно выделить: узость внутреннего рынка, отсутствие ресурсной базы для производства (запасов литиевых солей, редкоземельных металлов и меди, используемых в производстве батарей, моторов и других элементов

электрооборудования), ограниченность в финансовых ресурсах белорусских предприятий и стартапов в сфере возобновляемой энергетики.

Как видно, белорусская и азербайджанская экономики комплементарны также в энергетическом и финансовом секторах: в Азербайджане высоко развита традиционная энергетика, в Беларуси – возобновляемая; однако Беларусь испытывает нехватку финансовых ресурсов, а в Азербайждане они более доступны. Комплементарность экономик создает предпосылки для более тесного экономического сотрудничества наших стран в сфере возобновляемой энергетики, которое должно подразумевать реальную производственную кооперацию, а не просто торговлю готовыми продуктами.

К возможным направлениям промышленного и научно-технического сотрудничества двух стран в сфере новых энергетических технологий можно отнести:

- участие белорусских специалистов и компаний в развертывании новой энергетической инфраструктуры в Азербайджане, включая энергоустановки на возобновляемых источниках энергии, организацию сетей электротранспорта с локализацией производства;
- участие азербайджанских финансовых институтов в привлечении денежных средств на мировых финансовых рынках для финансирования совместных проектов и стартапов в сфере новой энергетики с целью экспорта товаров и услуг на рынки третьих стран;
- совместное развитие химическое промышленности, ориентированной, в том числе, на развитие технологий использования нефти и газа в неэнергетическом секторе.

Литература

1. Беларусь и Азербайджан / МИД Республики Беларусь. Официальный сайт. Источник: https://mfa.gov.by/bilateral/cis/azerbaijan/

2. Прогноз развития энергетики мира и России 2019. – М., ИНЭИ РАН; Московская школа управления Сколково. – 2019. 89 с. Электрон. Ресурс. https://energy.skolkovo.ru/downloads/documents/SEneC/Research/SKOLKOVO_EneC_Forecast_2019-02_Rus.pdf

3. Juniper, J., Sharpe, T.P., Watts, M.J. Modern monetary theory: contributions and critics // Journal of Post Keynesian Economics/Winter 2014–15, Vol. 37, No. 2, 281

Prospects for cooperation between Azerbaijan and Belarus in the context of the new energy transition

Bykau A, Sedun A., Khaustovich N.
Belarus State Economic University

DÜNYA BANKININ “DOING BUSINESS” 2020 HESABATINDA “BEYNƏLXALQ TICARƏT” INDIKATORU ÜZRƏ AZƏRBAYCANIN MÖVQEYININ YAXŞILAŞDIRILMASI ISTIQAMƏTLƏRI

Həsənov Ə.H., i.f.d.
AMEA İqtisadiyyat İnstitutu

Xülasə.

Məqalədə Dünya Bankının “Doing Business” 2020 hesabatında 10 indikatordan biri olan “Beynəlxalq ticarət” göstəricisi tədqiq edilir. Müəllif bu hesabatda “Beynəlxalq ticarət” indikatorunun subindekslərinin dünyanın 26 ölkəsi üzrə müqayisələrini aparır və beynəlxalq ticarətin aparılması üçün əlverişli şərtlər dərəcəsinin bu ölkələr üzrə müqayisəli qiymətləndirilməsini keçirir.Tədqiqatın sonunda bu indikator üzrə Azərbaycanın mövqeyinin yaxşılaşdırılması istiqamətlərinə aid nəticə və təkliflər irəli sürülür.

“Biznesin aparılması” hesabatı (ingilis dilində Doing Business Report) –10 indikator əsasında 190 ölkədə sahibkarlıq fəaliyyətinin sadəliyini qiymətləndirən Dünya Bankı qrupunun illik tədqiqatıdır. “Biznesin aparılması” hesabatı 10 indikator üzrə tədqiqat aparırdı, onlardan biri də, “Beynəlxalq ticarət” indikatorudur. Əvvəllər o, 6 göstərici əsasında qurulurdusa, hal-hazırda göstəricilərin sayı 8-ə çatıb.

“Biznesin aparılması” tədqiqatı bu indikator üzrə məhsul ixracı və idxalı logistikası üçün vaxt və maliyyə xərclərini qiymətləndirir. 2018-ci ildə tətbiq edilən metdologiyaya əsasən, tədqiqatda, göndərilən malların ixracı və idxalı zamanı 3 mərhələni (sənədlərin tərtibatında tələblərə riayət edilməsi, sərhəd tələblərinə riayət və məhsulların ölkədaxili daşınması) keçmək üçün məcmu vaxtı və maliyyə xərclər (rüsumlardan başqa) ölçülür. “Biznesin aparılması” tədqiqatı ixrac prosedurlarının qiymətləndirilməsi zamanı rəqabətqabiliyyətli məhsullar hər bir ölkə üçün baxılır, idxal prosedurlarının qiymətləndirilməsi zamanı isə vahid və geniş yayılmış məhsul – avtomobil ehtiyat hissələri nəzərə alınır. Prosedurların qiymətləndirilməsi zamanı, baxılan məhsul və ticarət tərəfdaşı nəzərə alınaraq, ən geniş yayılmış, nəqliyyat daşıma növündən istifadə edilir (ən tanınmış liman, hava limanı, ya da sərhədkeçmə məntəqəsi kimi). Layihə üzrə məlumatların yığılmasının son raundu 2019-ci ilin may ayında yekunlaşmışdır. **[1].** Beynəlxalq ticarət üzrə hər bir ölkəyə aid dolğun məlumatlar http://www.doingbusiness.org **[2]** saytında yerləşdirilir. Bu metodologiya Djankov və başqaları tərəfindən 2008-ci ildə hazırlanıb, 2015-də və 2018-ci illərdə isə yenidən baxılmışdır.

Cədvəl 1. Dünya Bankının “Doing Business” 2020 hesabatında beynəlxalq ticarət indikatorunun subindeksləri üzrə ölkəvi müqayisələr(26 ölkə).

Ölkələr	Beynəlxalq ticarət-reytinq	Beynəlxalq ticarət indikatoru							
		İxraca sərf edilən vaxt: sərhəd və gömrük nəzarəti (saat)	İxracın dəyəri: sərhəd və gömrük nəzarəti (ABŞ dolları)	İxraca sərf edilən vaxt: sənədlərin rəsmiləşdirilməsi (saat)	İxracın dəyəri: sənədlərin rəsmiləşdirilməsi (ABŞ dolları)	İdxala sərf edilən vaxt: sərhəd və gömrük nəzarəti (saat)	İdxalın dəyəri: sərhəd və gömrük nəzarəti (ABŞ dolları)	İdxala sərf edilən vaxt: sənədlərin rəsmiləşdirilməsi (saat)	İdxalın dəyəri: sənədlərin rəsmiləşdirilməsi (ABŞ dolları)
Danimarka, Avstriya, İspaniya, Fransa,Sloveniya, Portuqaliya, Polşa,ÇexRespublikası,Niderland, Slovakiya, Belçika, Xorvatiya, Macarıstan, Rumıniya, İtaliya, Lüksemburq	1	0	0	1	0	0	0	1	0
Estoniya	17	2	0	1	0	0	0	1	0
Litva	19	7	58	3	28	0	0	1	0
Belarusiya	24	7	65	4	60	0	0	4	0
Latviya	28	24	150	2	35	0	0	1	0
Moldova	38	3	76	48	44	4	83	2	41
Ermənistan	43	27	100	2	100	3	0	2	100
Türkiyə	44	10	338	4	55	7	46	2	55
Gürcüstan	45	6	112	2	0	15	396	2	189
Ukrayna	74	6	75	66	192	32	100	48	162
Azərbaycan	83	17	214	33	250	14	300	33	200

Cədvəlin təhlili aşağıdaki nəticələri ortalığa gətirir :

1. “Doing Business”- 2020 hesabatında ”Beynəlxalq ticarət“ indikatoru üzrə 16 Avropa ölkəsi 1-ci yerdədir.Onlar 8 subindeksdən 6-sı üzrə “ 0 ” saat və “ 0 ” ABŞ dol.nəticəsi göstəriblər.Ancaq ixrac və idxal zamanı sənədlərin rəsmiləşdirilməsinə sərf edilən vaxt, müvafiq olaraq “ 1 ” saat və “ 1 ” saat təşkil etmişdir.

2. Respublikamızda “Doing Business”- 2020 hesabatının ”Beynəlxalq ticarət“ indikatoru üzrə ən pis vəziyyət “İxracın dəyəri: sənədlərin rəsmiləşdirilməsi” subindeksi üzrədir –37,5%(250 ABŞ). Bu subindeks üzrə xərclərimiz Litvadan-8,9 dəfə, Belarusiyadan—4,2 dəfə ,Latviyadan-7,1 dəfə,Moldovadan-5,7 dəfə, qonşu Turkiyədən 4,5 dəfə,Ukraynadan-1,3-dəfə artıqdır. 2 pillə bizdən qabağda yerləşən Gürcüstanda və reytinqdə birinci 17-i yeri tutan Avropa ölkələrində bu göstərici “ 0 ” ABŞ dollarıdır! Bu vəziyyət islahatlar aparmaq və gömrük və sərhəd məntəqələri üzrə normativ – hüquqi aktları, bu sahədə böyük təcrübəsi olan, aparıcı dövlətlərin səviyyəsinə gətirməyi tələb edir.

Qeyd edək ki,ümumi bal 8 subindeksin orta arifmetik göstəricisi kimi hesablanır**.**Yüksək faizlər yaxşı vəziyyəti, aşağı faizlər isə bu sahədə problemlərin olmasını göstərir.Azərbaycanın ümumi balı 77,0%-dır və buna görə respublikamız beynəlxalq ticarət indikatoru üzrə 83-cü yerdədir(cədvəl 2).

“Doing Business” 2020 üzrə Azərbaycandakı “Beynəlxalq ticarətin” aparılması üçün əlverişli şərtlər dərəcəsinin qiymətləndirilməsi nisbətən yaxşı vəziyyətin “İdxala sərf edilən vaxt: sərhəd və gömrük nəzarəti” və “ixraca sərf edilən vaxt: sərhəd və gömrük nəzarəti” subindekslərinə görə olmasını göstərdi, müvafiq olaraq: 95,3% və 89,7%. Başqa göstəricilər elə də ürək açan deyil: 37,5%-dən 86,6%-ə qədər. Ən pis vəziyyət “İxracın dəyəri: sənədlərin rəsmiləşdirilməsi” subindeks üzrədir – cəmi 37,5%. Yuxarıda qeyd etdiyimiz kimi, bu vəziyyət islahatlar aparmaq və gömrük və sərhəd məntəqələri üzrə normativ – hüquqi aktları bu sahədə böyük təcrübəsi olan aparıcı dövlətlərin səviyyəsinə gətirməyi tələb edir.

Cədvəl 2-də biz “Beynəlxalq ticarət” indikatoru üzrə reytinqdə birinci yerdə gedən 16 ölkəni və Azərbaycandan qabağda yerləşən və bizi maraqlandıran 9 ölkənin göstəricilərini hesablayıb,təhlil edib və qiymətləndirmişik.

Cədvəl 2. Dünya Bankının “Doing Business” 2020 hesabatında beynəlxalq ticarətin aparılması üçün əlverişli şərtlər dərəcəsinin 26 ölkə üzrə müqayisəli qiymətləndirilməsi (%)

Ölkələr	Beynəlxalq ticarət-reytinq	Beynəlxalq ticarət indikatoru								Ümumi Bal
		İxraca sərf edilən vaxt: sərhəd və gömrük nəzarəti (saat)	İxracın dəyəri: sərhəd və gömrük nəzarəti (ABŞ dolları)	İxraca sərf edilən vaxt: sənədlərin rəsmiləşdirilməsi (saat)	İxracın dəyəri: sənədlərin rəsmiləşdirilməsi (ABŞ dolları)	İdxala sərf edilən vaxt: sərhəd və gömrük nəzarəti (saat)	İdxalın dəyəri: sərhəd və gömrük nəzarəti (ABŞ dolları)	İdxala sərf edilən vaxt: sənədlərin rəsmiləşdirilməsi (saat)	İdxalın dəyəri: sərhəd və gömrük nəzarəti (ABŞ dolları)	
Danimarka, Avstriya, İspaniya, Fransa, Sloveniya, Portuqaliya, Polşa, Çex Respublikası, Niderland, Belçika,	1	100	100	100	100	100	100	100	100	100

Slovakiya, Xorvatiya, Macarıstan, Rumıniya, İtaliya, Lüksemburq										
Estoniya	17	99.2	100	100	100	100	100	100	100	99.9
Litva	19	96,0	94.5	99.1	93.0	100	100	100	100	97.8
Belarusiya	24	96,0	93.9	98,2	85,0	100	100	99,0	100	96,5
Latviya	28	85.5	85,8	99,4	91.3	100	100	100	100	95.3
Moldova	38	98.7	92,8	72,2	89,0	98,8	93,1	99,8	94,1	92.3
Ermənistan	43	83.9	90,6	99.4	75.0	99,4	100	99.7	85,7	91,7
Türkiyə	44	94,5	68,1	98,2	86,3	98,0	96,2	99,6	92,1	91,6
Gürcüstan	45	96,9	89.4	99.7	100	95,0	67,0	99,6	73,0	90,1
Ukrayna	74	96.9	92,9	61.5	52,0	88,9	91,7	80,3	76.9	80.1
Azərbaycan	83	89,7	79,8	81,1	37,5	95,3	75,0	86,6	71,4	77,0

Cədvəl Dünya Bankının "Doing Business" 2020 hesabatının məlumatları əsasında hesablanmışdır **[2]**

Avropanın 16 ölkəsi-bu reytinqdə 1-ci yeri tutub,100 %-lı nəticə göstəriblər.Əvvvəlki cədvəldə biz bu ölkələrin mütləq rəqəmlərini təhlil etmişik.Bu cədvəldə isə biz onların göstərdiyi nailiyyətlərini nisbi rəqəmlərdə hesablayıb və ümumi balı çıxartmışıq.Məqsədimiz cürbəcür variantları yoxlayıb, Azərbaycanın "Beynəlxalq ticarət" indikatorunun subindekslərinin inkişaf istiqamətlərini göstərib,nəticədə bu indikatorun və ümumiyyətlə,"Doing Business"hesabatında respublikamızın bu reytinqdə yüksək yerlərdə qərarlaşmasıdır.

Bir variantı təklif etmək istəyərdik.Misal üçün,qonşu Gürcüstan respublikası ilə "Beynəlxalq ticarət" indikatorun 8 subindeksləri üzrə müqayisələr belədir: İxraca sərf edilən vaxt: sərhəd və gömrük nəzarəti (saat)-6, İxracın dəyəri: sərhəd və gömrük nəzarəti (ABŞ dolları)-112, İxraca sərf edilən vaxt: sənədlərin rəsmiləşdirilməsi (saat)-2, İxracın dəyəri: sənədlərin rəsmiləşdirilməsi (ABŞ dolları)-0, İdxala sərf edilən vaxt: sərhəd və gömrük nəzarəti (saat)-15, İdxalın dəyəri: sərhəd və gömrük nəzarəti (ABŞ dolları)-396, İdxala sərf edilən vaxt: sənədlərin rəsmiləşdirilməsi (saat)-2, İdxalın dəyəri: sənədlərin rəsmiləşdirilməsi (ABŞ dolları)-189. Azərbaycanda isə,müvafiq olaraq:17; 214; 33;250;14;300;200. Beynəlxalq ticarətin aparılması üçün əlverişli şərtlər dərəcəsinin 2 ölkə üzrə aşağıdakı rəqəmləri ortaya gətirir:

Gürcüstan: ümumi bal-90.7%, subindekslər üzrə müvafiq olaraq: 96,9%;89,4%; 99,7%; 100 %;95,0%;67,0%;99,6%;73,0%.Azərbaycanın ümumi balı ,qeyd etdiyimiz kimi,77,0%-dır.Subindekslərin qiymətləndirməsi üzrə vəziyyət müvafiq olaraq, belədir : 89,7%;79,8%;81.1%; 37.5%; 95.3%;75,0%;86.6%;71,4%.

Yuxarıda qeyd etdiyimiz kimi,bu indikator üzrə bizim 4 ən əsas problemli subindeksimiz var.Bunlar-İxracın dəyəri: sərhəd və gömrük nəzarəti (ABŞ dolları), İxracın dəyəri: sənədlərin rəsmiləşdirilməsi (ABŞ dolları), İdxalın dəyəri: sərhəd və gömrük nəzarəti (ABŞ dolları), İdxalın dəyəri: sənədlərin rəsmiləşdirilməsi (ABŞ dolları),yane ixrac və idxal zamanı sərhəd və gömrük nəzarəti və sənədlərin rəsmiləşdirilməsinə edilən məsrəflərin miqdarıdır.Bu məsrəflər çox yüksəkdir və ona görə də biz "Doing Business" reytinqində layiqli yer tuta bilmirik və ümumiyyətlə də bu vəziyyət respublikamızın beynəlxalq ticarət proseslərini əngəlləyir-ixrac və idxal əməliyyatları yüksək temp götürə bilmir,bundan başqa da xarici investorlar və yerli iş adamları lazımı stimul əldə edə bilmirlər-sərhəd və gömrükdə edilən xərclər və itirilən vaxtlar qabaqcıl ölkələr səviyyəsinə qalxmağı çətinləşdirir. Qeyd etdiyimiz 4 subindeksdən 1-i hələ Qürcüstanda da ürək açan deyil və bizdən pisdir. Belə ki, İdxalın dəyəri: sərhəd və gömrük nəzarəti (ABŞ dolları) subindeksi 336 dollara(Azərbaycanda-300 dollar) və qiymıtləndirmə 67,0%(bizdə-75,0%) bərabərdir.

İqtisadi potensialımızı və nüfuzumuzu nəzərə alaraq, Azərbaycan beynəlxalq ticarətdə qonşu Gürcüstan təcrübəsini tədbiq edib,təkmilləşdirsə "Doing Business" hesabatında göstəricilərini və müvafiq olaraq, reytinqdə yerini xeyli yaxşılaşdıra bilər.Belə ki, mülahizə etsək ki, Azərbaycan "Beynəlxalq ticarətin" 3 subindeksi üzrə qonşularımızın göstəricilərinə çatsa yəni İxracın dəyəri: sərhəd və gömrük nəzarəti (ABŞ dolları) subindeksi üzrə 214 dollardan 112 dollara , İxracın dəyəri: sənədlərin rəsmiləşdirilməsi (ABŞ dolları) üzrə 250 dollardan Gürcustan kimi 0 dollara və İdxalın dəyəri: sənədlərin rəsmiləşdirilməsi (ABŞ dolları) üzrə 200 dollardan 189 dollara qədər xərcləri azaltsa,ya ne qiymətləndirmədə ,müvafiq olaraq: 79,8%-dən 89.4 %-a kimi,37,5%-dan 100%-a kimi və 71,4%-dan 73.0%-a kimi artım olsa, onda Azərbaycan beynəlxalq ticarət üzrə ümumi bal kimi 86.3%-ə çata bilər.Bu bizə nə verə bilər? Hesablamalarımıza görə bu variantda Azərbaycan inkişaf etmiş Yaponiya kimi dövlətin 86,3 %-ə yerləşdiyi 57-ci yerə qədər yüksələ bilər.Qeyd etmək istərdik ki, Yaponiyanın "Beynəlxalq ticarət" üzrə subind, Azərbaycan beynəlxalq ticarətdə qonşu Gürcüstan təcrübəsini tədbiq edib,təkmilləşdirsə "Doing Business" hesabatında göstəricilərini və müvafiq olaraq, reytinqdə yerini xeyli yaxşılaşdıra bilər.eksləri müvafiq olaraq, belədir : 83,6% ;77.3%; 98.8%; 86.5%; 83.2%;77.1%; 99.2%; 84,7%.Ümumi bal isə 86.3%-dir.

Bunu da əlavə qeyd etməliyik ki, Yaponiyadan qabağdaki 56-cı yeri Cin Xalq Respublikası tutur .

Nəticə.

1.Respublikamızda "Doing Business"- 2020 hesabatının "Beynəlxalq ticarət" indikatoru üzrə ən pis vəziyyət "İxracın dəyəri: sənədlərin rəsmiləşdirilməsi" subindeksi üzrədir –37,5%(250 ABŞ). Bu subindeks üzrə xərclərimiz Litvadan-8,9 dəfə, Belarusiyadan—4,2 dəfə ,Latviyadan-7,1 dəfə,Moldovadan-5,7 dəfə, qonşu Turkiyədən 4,5 dəfə,Ukraynadan-1,3-dəfə artıqdır. 2 pillə bizdən qabağda yerləşən Gürcüstanda və reytinqdə birinci 17-i yeri tutan Avropa ölkələrində bu göstərici " 0 " ABŞ dollarıdır! Bu vəziyyət islahatlar aparmaq və gömrük və sərhəd məntəqələri üzrə normativ – hüquqi aktları, bu sahədə böyük təcrübəsi olan, aparıcı dövlətlərin səviyyəsinə gətirməyi tələb edir.

2. Azərbaycan beynəlxalq ticarətdə qonşu Gürcüstan təcrübəsini tədbiq edib,təkmilləşdirsə "Doing Business" hesabatında göstəricilərini və müvafiq olaraq, reytinqdə yerini xeyli yaxşılaşdıra bilər. Azərbaycan "Beynəlxalq ticarətin" 3 subindeksi üzrə qonşularımızın göstəricilərinə çatsa, ümumi bal kimi 86.3% qazana bilər. Bu variantda Azərbaycan inkişaf etmiş Yaponiya kimi dövlətin 86,3 %-ə yerləşdiyi 57-ci yerə qədər yüksələ bilər.

3.Fikrimizcə, sərhəd-gömrük məntəqələrin buraxılış qabiliyyətinin artırılması üçün stimullaşdırıcı tədbirlər görülməli, yüksək dərəcədə İKT-dən istifadə artırılmalı, bütün sahələrdə tədbiq edilməlidir, sərhəd və gömrük nəzarəti və sənədlərin rəsmiləşdirilməsi prosesi kökündən dəyişdirilməlidir.

Ədəbiyyat

1. russian.doingbusiness.org.ru/methodology/trading-across-borders
2. http://www.doingbusiness.org

DÜNYA İQTİSADİYYATI VƏ AZƏRBAYCANIN MAKROİQTİSADİ TƏRƏQQİSİNİN RİYAZİ MEYYARLARI

D.İ.Allahverdiyev, i.f.d., aparıcı elmi işçi
AMEA-nın İqtisadiyyat İnstitutu

Xülasə

Məqalədə, müasir dünya ölkələri ilə qarşılıqlı siyasi-iqtisadi əməkdaşlığının intensivləşdiyi bir şəraitdə Azərbaycanın dünya iqtisadi sistemində, insan rifahının tərəqqi modeli tədqiq edilmişdir. Bununla əlaqədar olaraq dövlətlərin siyasi-iqtisadi əlaqələri və əməkdaşlığı, ölkələrin sosial-iqtisadi, maliyyə istiqamətində insan rifahının təmin edilməsinin təşkili və insan resursları sahəsində əməkdaşlığın müasir vəziyyəti və inkişaf perspektivi araşdırılmışdır. Eyni zamanda, mövcud problemlərin aradan qaldırılması üçün siyasi-iqtisadi təkliflər təqdim edilmişdir.

Açar sözlər: iqtisadi diplomatiya, xarici investisiya, iqtisadi siyasət, insan rifahı və potensialı, davamlı tərəqqi, iqtisadi reallıqlar.

GİRİŞ

Akademik Ramiz Mehdiyev qeyd edir ki, Azərbaycan müstəqil bir dövlət kimi fəaliyyət göstərdiyi gündən bəri siyasi-iqtisadi, sosial-ictimai həyatının bütün sahələrdidə əldə olunan tərəqqisi ümummilli lider Heydər Əliyevin adı ilə əlaqəlidir. O, öz milli və qlobal düşüncə tərzi, bəşəri fəaliyyəti, güclü siyasi iradəsi, xususi idarəçiliyi və rəhbərlik bacarığı Azərbaycanda Qurtuluş misiyasını öz üzərinə götürərək ölkəmizi ciddi siyasi-iqtisadi təlatümlərdən xilas etmişdir. Ümummilli lider ölkənin və xalqın taleyində, hərtərəfli tərəqqisində, uğurlar qazanmasında təhsilin xüsusi rolunu, əhəmiyyətini həmişə nəzərə almış, yüksək dəyərləndirmişdir. Heydər Əliyevin təhsilə verdiyi qiymətləndirmədə "Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya təcrübəsinə çatdırsın, o mütləq, hər şeydən çox, elm və təhsilə fikir verməlidir, elm-təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır" (7).

Yeni Dünya iqtisadiyyatı yalnız ayrı-ayrı dövlətlərin iqtisadiyyatının sadəcə cəmindən ibarət olan dünya təsərrüfatı deyil, dünya iqtisadiyyatında əməkdaşlıq sosial-iqtisadi tərəqqinin nəticəsində mövcud olan yeni iqtisadi reallığa uyğun insan rifahı ilə səciyələnir. Beləliklə dünyanın geoiqtisadi reallıqları beynəlxalq iqtisadi əlaqələrin yaranmasını və beynəlxalq ticarət də milli iqtisadiyyatın beynəlmiləlləşməsini şərtləndirmişdir. Dünya ölkələrinin qarşılıqlı diplomatik və iqtisadi əlaqələr inkişaf etdikcə beynəlxalq iqtisadi əlarələrin yeni formalarının yaranması obyektiv zərurətə çevrilir. Hər bir ölkənin iqtisadi tərəqqisinin mühüm hissəsi onun beynəlxalq iqtisadi əlaqələrinin miqyası ilə ölçülür. Lakin müasir siyasi-iqtisadi reallıqlar şəraitində sosial-iqtisadi tərəqqinin əsas göstəriciləri makroiqtisadiyyatın tərəqqi meyyarlarıdır.

Eyni zamanda geosiyasi və iqtisadi ideologiya pirizmzdan yanaşdıqda isə ölkəmizin milli iqtisadi maraqlarının, həm də azad iqtisadiyyat prinsiplərinin nəzərə alınması təbiidir. Belə ki, dünya iqtisadiyyatında liberallaşdırma prosesinin intensivliyi hər bir ölkənin beynəlxalq iqtisadi əlaqələrinin forma və məzmununu, o cümlədən dövlət maraqlarının zəruriliyi ilə müəyyənləşir. Əlbətdə, bu proseslər təbbidir, çünki Beynəlxalq iqtisadi əlaqələr sahəsində irəli sürülmüş nəzəriyyələrdən biri A.Smitin "mütləq üstünlüklər nəzəriyyəsi"dir. Beynəlxalq ticarətdə müqayisəli xərclər və üstünlüklər prinsipinə böyük əhəmiyyətini beynəlxalq əmək bölgüsü və ixtisaslaşma əlaqələndirərək qeyd edir ki, beynəlxalq ticarət vasitəsi ilə ayrı-ayrı ölkələr varlandıqca dünya iqtisadiyyatı da inkişaf edir, dünya ölkələri qapalı iqtisadiyyatdan imtina edərək daha sərfəli beynəlxalq ticarətlə məşğul olmalıdırlar. Beləliklə A.Simit qeyd edir ki,"bütöv bir xalqa öz əməyinin məhsulundan bacara bildiyi hər şeyi düzəltməyi, öz kapitalını və sənaye məsulunu özü üçün daha faydalı hesab etdiyi tərzdə sərf etməlidir"(5). Lakin beynəlxalq iqtisadi əlaqələr əhatəli və geniş bir mövzu olsada konkret hədəflərə istiqamətlənmiş fəaliyyəti ölkənin siyasi və sosial-iqtisadi həyatı ilə bağlı problemlərin həllinə sistemli və kompleks yanaşmanı şərtləndirir.

Dünya iqtisadi əlaqələrinin əsas meyyarları

Dünya ölkələrinin təcrübəsindən məlumdur ki, sosial- iqtisadi siyasətin düzgün seçimini həyata keçirməklə əhalinin həyat səviyyəsinin artırılmına təsirli vastə kimi səciyələndirilir. Belə ki, dünya iqtisadiyyatının inkişafı beş əsas istiqamətdə həyata keçirilir,yüksək iqtisadi artım, iqtisadi fəaliyyət və əmək məhsuldarlığının artırılması və iqtisadi əməkdaşlığın intensivliyi, beynəlxalq ticarət siyasətinin liberallaşdırılması, intensiv elmi-texniki tərəqqinin insan rifahında tətbiqi, imperializm və müstəmləkə siyasətinə qarşı beynəlxalq həmrəylik. Bununla yanaşı, müasir dünya iqtisadi inteqrasiyası dünya təsərrüfat əlaqələrini tənzimləyən beynəlxalq təşkilatlar sistemi yaradılır, beynəlxalq korporasiyaların fəaliyyəti nəzarətlə idarə olunmalıdır. Dünya iqtisadiyyatı öz inkişafının bu mərhələsində beynəlxalq iqtisadi münasibətlərə və beynəlxalq əmək bölgüsünə əsaslanır, lakin beynəlxalq mübadilədə iştirak edən və heç bir dövlətlə münasibətlərdən asılı olmayan milli təsərrüfatların tərəqqisini şərtləndirir.

Bləliklə beynəlxalq iqtisadi əməkdaşlıq prosesində milli mənafe və iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsi məqsədilə Azərbaycan bir sıra beynəlxalq təşkilatlarla əməkdaşlıq edir. Belə ki, dövlətin hərtərəfli inkişaf strategiyasının tərkib hissəsi olan beynəlxalq siyasi-iqtisadi əlaqələr əhatəli, çevik, şəffaf, bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında həyata keçirilməsi Azərbaycanın etibarlı və davamlı tərəfdaş kimi beynəlxalq mövqeyinin güclənməsinə xidmət etmişdir(5).

Azərbaycanın mövcud siyasi-iqtisadi sabitliyi beynəlxalq iqtisadi əlaqələrin inkişafı üçün münbüt əhəmiyyətə malikdir. Həmçinin müasir dünya siyasi-iqtisadi əlaqələrində Azərbaycan etibarlı tərəfdaş kimi dünya ölkələrində mövqeyini gücləndirir.

Beynəlxalq siyasi-iqtisadi əlaqələrin əsasını hər bir ölkədəkədəki ümumdaxili məhsulun göstəriciləri və əsas ümumi iqtisadi vəziyyəti hesab edilir. Belə ki, dünya üzrə ümumi məhsulun göstəricisi, müəyyən dövrdə bütün dünya ölkələrində istehsal olunan məhsul və xidmətlərin ümumi həcmini əks etdirir. Bu göstərici milli hesablama sistemi ilə hesablanır və hər bir milli təsərrüfatın daxili və beynəlxalq tələbatın əsası makroiqtisadi göstəricilərin kəmiyyət və keyfiyyətinə əsaslanır. Ölkənin xarici iqtisadi əlaqələrinin inkişafı isə onun beynəlxalq əmək bölgüsündə iştirakı ilə əlaqəlidir və bunun əsasını xarici ticarət dövrüyəsi təşkil edir.

Azərbaycanın Bəzi Dünya Dövlətləri ilə xarici ticarət dövriyyəsi

Ölkələr	2015	2016	2017	2018	2019
Cəmi	**21.945.815,6**	**21.946.732,5**	**24.103.278,5**	**30.954.982,9**	**33.302.818,2**
Müstəqil Dövlətlər Birliyi və digər ölkələrlə	**2.487.471,5**	**2.822.204,5**	**3.525.038,9**	**3.999.455,1**	**4.610.980,6**
Belarusiya	93.674,6	124.531,1	147.700,6	203.665,5	227.260,5
Qazaxıstan	146.883,4	124.391,2	145.099,9	220.744,7	229.635,7
Özbəkistan	17.041,4	15.329,2	30.000,6	43.948,4	81.962,9
Rusiya Federasiyası	1.855.692,3	2.050.953,1	2.159.125,9	2.550.162,7	3.022.046,5
Tacikistan	6.354,7	12.320,5	2.547,8	6.547,9	3.161,9
Türkmənistan	52.433,9	152.276,0	164.135,7	133.042,7	225.652,1
Ukrayna	333.129,9	331.215,5	889.181,2	828.532,3	807.624,98
Almaniya	1.913.959,5	1.001.234,7	894.834,7	1.447.734,2	1.642.151,4
ABŞ	1.185.093,8	552.255,9	781.785,7	858.501,9	783.815,9
BƏƏ	72.283,4	69.371,8	39.495,3	54.333,5	66.070,5
Çin	565.111,5	1.085.832,8	1.298.342,3	1.310.222,9	2.184.194,8
Fransa	1.076.351,7	776.632,7	614.818,7	625.041,0	787.366,6
Türkiyə	2.648.647,9	2.367.247,5	2.667.559,7	3.475.849,7	4.519.496,1
Pakistan	1.956,6	7.295,5	9.251,9	12.167,5	14.792,9

Gürcüstan	564.189,4	468.108,3	561.905,5	592.324,2	659.027,1
Hindistan	305.036,6	611.809,1	501.096,7	922.480,5	1.092.520,3
Polşa	97.243,9	74.984,0	77.816,8	103.997,0	95.503,8
Xorvatiya	205.547,5	315.197,8	214.361,8	247.552,3	439.249,1
İraq	187.698,8	17.829,0	15.724,9	14.717,7	14.728,9
İran İslam Respublikası	124.712,4	221.209,9	257.068,8	446.043,2	493.832,4
İsrail	915.495,1	679.735,6	671.612,3	1.334.729,8	1.375.301,9

DSK-nin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Müstəqillikdən sonra ölkə xarici ticarətdə yeni bazarlara yönəlsə də, bir müddət əvvəl əlaqəli olduğu iqtisadi bölgədən asılılığını davam etdirmişdir. 1991-1995-cü illər ərzində xarici ticarətin təqribən 75-80%-i MDB (Müstəqil Dövlətlər Birliyi) ölkələri ilə həyata keçirilirdi. Bununla yanaşı 2019-cu ilin statistik məlumatlarına görə, Azərbaycanın ixracatında ilk beş ölkə İtaliya, Türkiyə, İsrail, Hindistan, Almaniya; idxalatında isə Rusiya, Türkiyə, Çin, İsveçrə, ABŞ olmuşdur.

Belə ki, Azərbaycanın beynəlxalq ticarət dövriyyəsinin strukturu müstəqillik illər ərzində bu mütərəqqi dəyişikliklər yaranmışdır. Bu ölkəmizin müstəqillik illərinin əvvəllərində də dünyanın təxminən 50 ölkəsi ilə xarici ticarət əlaqələri həyata keçirilmişdir. Lakin müasir dövürdə Azərbaycanın beynəlxalq ticarət sahəsində 249 yaxın ölkələrlə iqtisadi əməkdaşlığı mövcuddur. Bu əlaqələr iqtisadiyyatın liberallaşdırılması, digər tərəfdən də dünya iqtisadiyyatına inteqrasiya prosesi Azərbaycanın xarici ticarət dövriyyəsində dünya ölkələrin payını əhəmiyyətli dərəcədə artırmışdır. Bu göstərici 1990-cı illərin əvvəlləri ilə müqayisədə 2017-ci ildə 20 faizdən 85 faizədək artdığı halda, "yaxın xaric" hesab edilən MDB ölkələrinin payı, əksinə, 82 faizdən 15 faizədək azalmışdır. Bu isə milli iqtisadiyyatını artıq vahid xalq təsərrüfatı kompleksi çərçivəsində deyil, müstəqil şəkildə və bazar iqtisadiyyatı prinsiplərinə əsaslanaraq formalaşdıran bir ölkə üçün təbii və mütərəqqi meyar kimi qiymətləndirilə bilər. Bu baxımdan Azərbaycanın iqtisadi inteqrasiya probleminə ideoloji aspektdə yanaşıldıqda, bu kimi cəhətlərin nəzərə alınmasını zəruri hesab edirik.

İqtisadi əlaqələrdə davamlı insan rifahı

Dünya iqtisadiyyatının tərəqqi tarixi təcrübəsi qeyd etməyə əsas verir ki, hər bir sivilizasiyanın əsas meyyarı mədəni, dini ənənələrdən yaranan kapital mülkün təməlini təşkil edir. Bunlar isə sosial-iqtisad və iqtisadi-ticarətin tərəqqisində mühüm faktorlar olmaqla yanaşı gəlirlərdən səmərəli istifadə də yeni kapitalın yaranışını şərtləndirir. Belə ki, yeni kapitalın yaranışı səmavi dinlərin inancının bölünməzliyinə və sosial-iqtisadi tərəqqinin davamlı artımı ilə xarakterikdir.

Bu fikirlərin riyazi və məntiqi əsasında iqtisadi tərəqqinin davamlı artımını şərtləndirən Davud modeli «Qurani Kərim»də qeyd olunan prinsiplərdən qaynaqlanır. Belə ki, sosial-iqtisadi prosesləri nəzarətdə saxlayan dövlət təbii sərvətdən əldə edilən gəlirləri iqtisadi tərəqqi və davamlı insan rifahına yönəldilməsi ilə səciyəvidir. Müqəddəs Qurani Kərimdə buyrulur ki, bütün müsəlmanlar qardaşdırlar. Məənfət əldə etmək üçün hər növ faiz əməliyyatı, eləcə də, borcdan əldə olunan gəlir miqdarı nə olursa, olsun, faizdir. Faiz istər az miqdarda, istərsə də çox miqdarda olsun istismardır. İslam iqtisadiyyatı ilə İslam maliyyəsi sarsılmaz vəhdətdədir (5). Zəkat və ianə sisteminə əsaslanan İslam maliyyəsi «əməklə əldə olunan mülkiyyət» ideyasını irəli sürməklə dövlətin balanslaşdırılmış qarşılıqlı fəaliyyət sistemi üzərində pərvəriş tapır(5). Sağlamlığı və uzun ömürü bəxşedən Allah, sağlam və uzun ömrün tərəfdarıdır. Müasir şəraitdə nəzəri konsepsiya kimi yanaşılan İslam iqtisadiyyatı bir sıra müsəlman dövlətlərinin iqtisadi modellərində də əksini taparaq möhrəmlən-məlidir.

Belə ki, liberal iqtisadiyyatın yaratdığı maliyyə böhranı zamanı spekulyativ əməliyyatlardan kənar, faizsiz borc sistemliyi və qeyri-müəyyənlikləri təcrid edən funksionallıqları ilə İslam bankları yüksək dayanıqlıq nümayiş etdirmişidlər. İslam banklarını idarə edən iqtisadçıların, menecerlərin proqnozlarına görə yaxın gələcəkdə dünyanın əksər bankları İslam pirinsipi ilə xidmətlər göstərəcəklərini və bunlar da iqtisadi tərəqqinin səmərəli investisiya mənbəyi kimi səciyələndir-mişlər (3).

Belə ki, müsəlmanlar öz pul vəsaitlərini Qərb banklarından çıxarıb özlərinin İslam banklarında yerləşdirmələri mövcud iqtisadi reallıqlardır. Qeyd olunanlar yeni davamlı sosial-iqtisadi tərəqqi və mükəmməl qlobal maliyyə arxitekturasının formalaşması İslamın iqtisadi modelini möhkəmləndirir. Belə ki, Şəriətdə qeyd olunur ki, borc borca satıla bilməz. İslam bankları sələmçiliyə qadağa təməlində ipoteka borclarının faizlərlə və qiymətli kağızlar formasında satışa çıxarılmasına qarşıdır(3). Bundan çıxış edən bir çox ekspertlər də belə qənaətə gəlirlər ki, əgər beynəlxalq valyuta bazarlarında İslam maliyyə modelləri üstünlük təşkil etsəydilər, ümumdünya maliyyə böhranı baş verməzdi. Bu səbəbdən də, dünyada iqtisadiyyatın sosiallaşmasının alternativi kimi yeni tərəqqi dövrü müsəlman iqtisadiyyatına ehtiramı artırır.

Bununla yanaşı dünyada müvafiq sahədə uğurlu təcrübələr kimi qəbul edilən nümunələrdə məhz makroiqtisadi siyasətin artımında və iqtisadi tədbirlərinin davamlı həyata keçirilməsi insan rifahına əsaslanmalıdır. Belə ki, birbaşa xarici investisiyaların iqtisadi inkişaf prosesinin təmin olunmasının mahiyyəti Milli iqtisadiyyatlar üzərində davamlı insan rifahına nail olmaqdır. Əlbətdə qeyd olunanlar, xarici kapitalın cəlbediciliyi, iqtisadi inkişafın təmin edilməsi, milli iqtisadiyyatın rəqabətliliyinin və beynəlxalq mövqelərin qorunması baxımından zəruridir. Qeyd edildiyi kimi, mövcud iqtisadi siyasətdə yaradılmış sabitlik davmalı iqtisadi naliyyətin və insan rifahın əsasıdır. Beləliklə beynəlxalq xarici iqtisadi əlaqələrin sürətləndirilməsi istiqamətində olduqca geniş siyasi-iqtisadi tədbirlərinin tətbiqi isə mövcud iqtisadi reallıqlardan qaynaqlanır.

Dünyanın bir çox ölkələrində əksər qlobal iqtisadi məsələlərdə, eləcədə sosial müdafiə sistemlərinin formalaşması proseslərində ciddi keyfiyyət dəyişiklikləri müşahidə olunur. İctimai inkişafın bir sıra məsələləri əhalinin rifah səviyyəsinə yeni formada təsir göstərməyə başlayır ki, bu da ayrı-ayrı ölkələrdə sosial müdafiə siyasətinə yenidən baxaılmasını zəruri edir. Belə ki, xarici iqtisadi əlaqələr bilavasitə dövlətin iqtisadi siyasətinin mühüm tərkib hissəsidir. Dünya təcrübəsi göstərir ki, dünya iqtisadi əlaqələrinin inkişafı ölkənin müstəqilliyinin zəmanəti, sabitliyin və cəmiyyətin səmərəli fəaliyyətinin mühüm şərtidir. Buna görə də dünya iqtisadi əlaqələrinin yeni formasının təmin edilməsi dövlət siyasətinin prioritet istiqamətlərinə aiddir. Bu səbəbdən, dünya iqtisadi əlaqələrində əməkdaşlıq yalnız o, zaman mümkündür ki, bütün tərəflər ondan faydalansın (9). Beləki, dünya iqtisadi əlaqələrində əsas məqsəd istehsalçılar və istehlakçılar arasında etibarlı tərəfdaşların tapılmasıdır. Dünya iqtisadi əlaqələri yalnız bu halda uğur qazana bilər ki, bunlar da, minlərlə yeni iş yerinin açılmasını şərtləndirir. Bütün bunlar insan inkişafını və siyasi-iqtisadi sabitliyi səciyələndirir ki, bunu da iqtisadi siyasasətdə əməkdaşlığın müasir forması səciyələndirmək olar.

Dünya iqtisadiyyatında İnkişaf etməkdə olan ölkələrin təcrübəsində də iqtisadiyyatda müvafıq kənd təsərrüfatı siyasəti həyata keçirilir. Belə təcrübədə isə kənd təsərrüfatı və xarici ticarət vergidən azad edilməsi qaydaları mövcuddur. Belə ki, Neft diplomatiyası XXI əsr Azərbaycanın iqtisadi təhlükəsizliyinin dövlət tənzimlənməsində həyatın bütün sahələrini əhatə edən əsas vastələrdən biridir. Əhalinin iqtisadi tərəqqisində, elm-təhsil sahəsində əsaslı dəyişiklərin başlanğıcı da neft diplomatiyasından çox asılıdır.

Lakin bunlarla yanaşı, təbii ki, "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2005-2014-ci illər) Dövlət Proqramı"nın icrasın da qeyd edildiyi kimi, 2005-cü ildə qəbul edilən regional inkişaf proqramını daha da mükəmmələşdirməklə tərəqqi meyyarlarını əhatə etmək olar. Lakin, mövcud iqtisadi reallıqlar şəraitində regional proqramın uğurla həyata keçirilməsi nəticəsində ciddi regional iqtisadi potensial formalaşmış və artıq Azərbaycanda əksər sahələrin, bir çox bölgələrin konkret inkişaf proqramları işlənib hazırlanmış, eləcə də müvəffəqiyyətlə icra olunmaqdadır (2,səh,159). Bu mexanizm əsasında istər yeni texnika və texnologiyanın tətbiq edilməsi, istərsə də idarəetmə qərarlarının qəbulu və s. formasında özünün iqtisad tərəqqisini davamlı edəcəkdir.

Bununla da regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının ən ümdə məqsədi ilə məhz kəndtəssərrüfatının mövcud potensialından səmərəli istifadəni təmin etməklə davamlı regional tərəqqiyə nail olmağı şərtləndirir. Mövcud reallıqda isə regionların sosial vəziyyətinə, iqtisadi durumuna, eləcə də bu sahədə rəsmi rəqəmlərə nəzər saldıqda məlum olur ki, 2003-2018-ci illəri əhatə edən proqramlar zəngin insan potensialı formalaşdırmışdır.

Belə ki, təhlillərdən məlum olduğu kimi ÜDM hər il davamlı artmla müşahidə edilmişdir. Bunlar əsasən 2000-cü ildən 2015-ci ilədək ÜDM-in həcmi 6,5 dəfə artaraq 55359 manat, hərnəfərə hesablanan ÜDM-in həcmi isə 5,5 dəfə artaraq 5665,8 manat olmuşdur. Büdcə xərcləri isə 2005-ü ildən 2009-cu ilədək təxminən 7 dəfə artaraq 1503,7 mln.manatdan 10503,9 mln. manat olmuşdur 2015-ci ildəkindən 3,7 faiz ümumi daxili məhsul istehsal edilmişdir. 2016-cı ildə Ümumi daxili məhsulun əhalinin hər nəfərinə düşən dəyəri 6223,8 manat olmuşdur. 2017-ci ildə isə ölkənin ümumi daxili məhsul 70135,1 milyon manata çatmış, hər nəfərinə düşən ÜDM 7215,6 manat olmuş, 2018-2019-ci illərdə isə ÜDM 8247,9 manat təşkil etmişdir.

Bununla yanaşı cari ildə dünyanın maliyyə fəallığı barədə "The Boston Consulting Group" (BCG) beynəlxalq konsaltinq şirkətinin illik hesabatında qeyd olunur ki, əvvəlki ilə nisbətən artım 8,3% təşkil edib. Mövcud iqtisadi reallıqlar şəraitində maliyyə sahəsində durğunluğa baxmayaraq, dünyada iqtisadi tərəqqi və insan rifahında artım müşahidə edilmişdir. Lakin proqnozlara görə davamlı iqtisadi tərəqqinin bərpası yaxın beş il ərzində mütəmadi dərəcədə artımına və insan rifahın təminatında irəliləyişlərin olacağı gözlənilir. Lakin milli gəlir və milli sərvətdə Amerika, Asiya və Yaponiya da 2025-ci ilə qədər olan dövrdə dünya maliyyə təminatında artım 87%-i təşkil edəcəkdir.

Eyni zaman da iqtisadi tərəqqi dünya ölkələri üzrə ABŞ (5,8 trilyon ABŞ dolları), Çinin materik hissəsi (3,6 trilyon ABŞ dolları), Almaniya (1,4 trilyon ABŞ dolları), İtaliya, Rusiya, İsveçrə (hər biri 0,4 trilyon ABŞ dolları), Fransa (0,7 trilyon ABŞ dolları) və Hindistan ilə Böyük Britaniya (hər biri 0,6 trilyon ABŞ dolları) olacağı dəqiqləşdirilmişdir (5). Lakin maliyyə fəallığı nağd pul və depozitlər, istiqrazlar, paylı investisiya fondlarındakı səhmlər və paylar, habelə həyat sığortası və pensiya fondlarındakı əmanətlərlə davamlı tərəqqiyə təminat verir.

Bununla yanaşı müqaisəli təhlillərdən də məlum olur ki, bəzi dünya ölkələrinin iqtisadiyyatında durğunluq tendensialar yaranmışdır ki, bununda nəticədə iqtisadi fəallıqda həm keyfiyyət, həm də kəmiyyət nöqteyi-nəzərindən sosial-iqtisadi tərəqqi və insan rifahının təminatında azalmalar müşahidə edilmişdir. Bunlarda 2021-ci ilin birinci rübunün göstəricilərinin 2020-ci ilin göstəriciləri ilə müqayisə etdikdə MDB məkanında sənaye istehsalçılarının qiymət indeksi 1,5 faiz azaldığı halda Azərbaycanda bu rəqəm 25 faiz təşkil etməsi olduqca təqdirə laiqdir.

Lakin 44 günlük müharibəyə, qlobal böhrana və neftin qiymətlərinin, neftə tələbatın kəskin aşağı düşməsinə baxmayaraq, Prezident İlham Əliyevin digər sahələrdə olduğu kimi, iqtisadiyyat sahəsində də apardığı çevik siyasəti nəticəsində ölkəmizdə makroiqtisadi sabitlik qorunub, dövrün çağırışlarına çevik formada adekvat reaksiya verilib**.** Büləliklə sosial-iqtisadi tərəqqi meyyarları sayəsində ölkəmiz 2020-ci ilin sosial-iqtisadi şoklarını mətinlə dəf etdiyi və iqtisadiyyatda dərin tənəzzülün qarşısı alınmış, manatın sabitliyi qorunmuş, hətta bir sıra sahələrdə irəliləyişə nail olunumuşdur.

Makroiqtisadi tərəqqinin riyazi modeli

Müasir dünyanın geosiyasətində mövcud olan pandemiya ümüm bəşəri problem olmaqla yanaşı sosial iqtisadiyyatda təsiri müxtəlifliyi ilə xarakterizə edilir. Belə ki, dünyada mövcud olan münaqişələr və ziddiyətlər sosial-iqtisadi sahədə insan rifahına təsirsiz ötüşməmişdir. Bununla əlaqədar Heydər Əliyev qeyd etmişdir ki, davamlı tərəqqiyə əsaslanan ictimai-siyasi, sosial-iqtisadi sabitlik, insan rifahına və onun inkişafına əsaslanmalıdır(1,səh,9). Qeyd olunanlardan belə nəticə yaranır ki, Real iqtisadi-siyasi strategiyanın həyata keçirilməsi insan rifahını səciyələndirir. Lakin, müasir dünya iqtisadiyyatında dayanıqlı və davamlı insan rifahı əsas pirinsiplərdəndir. Eyni zamanda davamlı insan rifahının tərəqqisi də vətəndaş hüquqlarının məmnunluğuna əsaslanır. Beləliklə hesab edirik ki, dünya geosiyasətində mövcud olan siyasi-iqtisadi təlatümlər insan fifahını və onun davamlı tərəqqisini əngəlləməməlidir.

Belə ki, iqtisadi tərəqqi istehsalın beynəlmiləlləşməsinə əsaslanır və bir-biri ilə qarşılıqlı əlaqədədir, dünya iqtisadi əlaqələrində və beynəlxalq əmək münasibətlərində iştirak edən milli iqtisadiyyatların məcmusunu təşkil edir. Eyni zamanda, dünya iqtisadiyyatında insan inkişafı təmin edilməsi prosesində bir sıra iqtisadi tərəqqi imkanları müşahidə edilməkdədir. Dünya iqtisadiyyatının tərəqqisində reallaşan müasir beynəlxalq iqtisadi münasibətlərin(BİM) xüsusiyyətlərinin öyrənilməsi ilk növbədə BİM-in nəzəriyyə və praktikasının əsas anlayışlarından olan "Dünya

iqtisadiyyatı" və ya "Dünya təsərrüfatının" mahiyyətinin dərk olunması, onun təşəkkül tapması və inkişaf mərhələləri səciyəvidir(6).

İqtisadi tərəqqi dövlət və cəmiyyət üçün zəruri olan mütərəqqi sosial-iqtisadi siyasəti aşağıdakı kimi təsvir ed

– iqtisadi tərəqqinin dəstəklənməsi;

–iqtisadi tərəqqi dövlətin dünya iqtisadiyyatında siyasi nüfuzudur;

– azad iqtisadiyyatın təşkili və iqtisadi tərəqqinin zənginliyinin artırılması;

–iqtisadi tərəqqiyə əsaslanan vətəndaş-dövlət həmrəyliyi;

İqtisadi tərəqqi sistem halında dəstəklənməsi zəruridir, bu dövlətin iqtisadi təhlükəsizliyin tənzimləməsinin əsasıdır. İqtisadi tərəqqi ifadəsi özündə iqtisadiyyatın inkişafını əks etdirir, iqtisadi perespektiv də məhz buradan yaranır. İqtisadiyyatın zənginliyi dövlətin və vətəndaşın güclənməsinə təminat verir. Burdan belə nəticə yaranır ki, dövlət daha çox düşüncənin, iqtisadi tərəqqi isə real əməlin məhsuludur(5.səh.41,63,95).

İnvestisiyaların, o cümlədən XİƏ-in və daxili investisiyaların ÜDM-ə təsirini qiymətləndirmək üçün bu göstəricilərin ümumi təhlilinin aparılması mühüm əhəmiyyətə malikdir. Bunun üçün əsas riyazi proqramlardan EViews, MatLab, MS Excel, MathCad və s. istifadə etmək olar. Bu məqsədlə Eviews proqram istifadə edərək 1995-2019-cu illəri əhatə edən dövr üzrə XİƏ, daxili investisiyalar və ÜDM-in həcmi haqqında rəsmi məlumatlardan istifadə etsək aşağıdakı nəticəni alarıq. Eyni zamanda bu nəticə sosial-iqtisadi tərəqqinin və insan rifahının dəyərləndirən proqram kimidə tətbiq etmək mümkündür. Beləki, sosial-iqtisadi göstəricilər, hər nəfərə düşən real ümumi daxili məhsul (ÜDM) fərdlər ilə bölgüsü, xalis milli gəlir, ev təsərrüfatlarının tərəqqi sürəti, tədqiqat və inkişaf xərcləri, real effektiv məzənnə, iqtisadiyyatın enerji tutumu, məşğulluq, yeni iş yerlərinin açılmasını əks etdirən iqtisadi fəaliyyətdir (6). Bütün bu göstəricilərin xülasəsi olan insan rfahı indeksi uzunömürlülük, təhsil meyarları və təqdim edilən düsturdan istifadə edilərək ÜDM cəminin optimal və ya mümkün həll metodu kimi qəbul edilir.

İDA= AND + ƏDA + DGA

Burada İDA insan potensialının irəliləş meyardır; AND - təhsil perspektivlərinin təmin edilməsi; ƏDA – peşəkar məmur, Sağlamlıq və uzunömürlülük meyarı; DGA - İnsan Rifahının İnkişafı və elm-təhsil meyyarının perespektivi hesab edilir. Bu yanaşmanı XİƏ-in tərəqqisinə eləcə də, ÜDM-da insan tərəqqisinin sosial-iqtisadi rifahının təminatına əsaslanır(5. Səh, 223).

Beləliklə, bütün gəlirlər istehlaka yönəldilir və makroiqtisadi təklif xüsusi məhsullar yaradır və tarazlaşdırır, bunun əsasında hər məhsulun alış keyfiyyəti artır. Eyni zamanda, tarazlığın tənzimlənməsi ictimai məhsulun əsas meyarı olan istehsaldakı tələb və təklif bərabərliyinə əsaslanır. Meyyarların tənzimlənməsi formulu aşağıdakı kimidir.

ÜDM = AD + NA + ƏD + GA

Burada: Eviews tətbiqi proqramında alınmış nəticəyə əsasən tərəqqi tənliyi aşağıdakı kimi olacaqdır, Ümumi Daxili Məhsul (ÜDM) bərabərliyi, İdarəetmədə aylıq əmək haqqına DA-dövlət gəlirləri, ƏD Dövlət işlərinin maliyyələşdirilməsi, NA uzunmüddətli elm-təsil potensialı, GA iqtisadiyyatda dövlət potensialının artırılması, ev xərcləri və fərdi istehlak xərcləri, həmçinin DA, əmtələrin və xidmətlərin xarici ölkələrə xalis idxal və ixracı kimi müxtəlif xərcləri, perespektivi qəbul edir.

Təyin edilmiş bu meyyar tənliyinə əsasən, belə nəticəyə gəlmək olar ki, Azərbaycan Respublikasında XİƏ –nin həcmini ifadə edən meyyarların bir vahid artması Azərbaycanda UDM-in 2,071 vahid artmasına, daxili investisiyaların həcmini ifadə edən meyyarların bir vahid artması isə UDM-in 3,397 vahid artmasını şərtləndirir.

Göründüyü kimi EViews tətbiqi proqramına əsasən qeyd edilmiş meyyara uyğun olan model əhəmiyyətlidir. Bu əhəmiyyətlilik ilk növbədə dəyişməyən əmsalların XİƏ-in tərəqqisi və insan rifahın tətbiqi ilə izah edilir.

A.Davud modelində qeyd olunur ki, insanın bütün həyat fəaliyyəti və dövrləri nəzərə alınmaqla ekoloji və sosial məhdudiyyətlərin aradan qaldırılmasına, iqtisadi artım nisbətlərinin və insan rifahının artırılması əsasında formalaşır.

Qeyd edilənlərlə yanaşı, bu modeli xətti cəbr metodu ilə əlaqələrin müqaisəsi ilk dəfə amerikan iqtisadçısı A.Davud tərəfindən ABŞ iqtisadiyyatının makrostrukturunu öyrənmək üçün tətbiq olunub. A.Davud tərəfindən tətbiqi 1923-1927-cü illərdə SSRİ-də milli iqtisadi balansın tərtib olunma təcrübəsinin təsir etdiyi metod məsrəflərin-tənzimlənməsi adını almışdır. Mövcud iqtisadi Reallıqda Davud modeli demək olar bütün makroiqtisadi sahələrdə təkrar istehsal prosesinin tətbiqini əhatə etmişdir(5). Beləliklə, bu modelin tətbiqi ilə A.Davud ÜMM-un istehsal, mübadilə və istehlak sahələrin və davamlı artan məhsulun, ictimai məhsulun, milli gəlirin, milli iqtisadiyyatda maddi axınların, daxili-xarici əlaqələrin makroiqtisadi təhlililllərində geniş imkan yaratmışdır. Makroiqtisadi tarazlığın müqayisəli təhlili və onun həcmini müəyyən edilməsi, bu sahələri əhatə edən Davud modeli təkcə makroiqtisadi vəziyyəti təhlil etməkdə deyil, həm də onun inkişafını proqnozlaşdırmaqda mühüm əhəmiyyətə malikdir. Beləliklə qeyd olunan modelin adekvatlığının yoxlanıması mühüm əhəmiyyətə malik olub, həmin adekvatlığı ənəvi metodlardan biri kimi Davud modelinin köməkliyi ilə tənzimlənir . Bununla da davamlı tərəqqi və insan rifahı əks etdirən tənlik modelinin statistik əhəmiyyətliliyini yoxlamaq məqsədlə Davud modeli, müqayisə edildikdə [1, səh.231]. Eviews proqram nəticəsini əks etdirən məlumatlara əsasən,

D + (Davud modeli) =278.9

EXCEL-də meyyarın **AD** = **AN** + **ƏD** + **GA** düsturunun köməkliyi ilə təyin etsək, onda bu tənlik bütövlükdə insan rifahında mühüm əhəmiyyətə malikdir (7.səh, 109). Belə ki, ölkənin XİƏ-nin tərəqqisi onun həmdə makro iqtisadi göstəriciləri ilə əlaqəlidir. Respublikamızın uzunmüddətli davamlı iqtisadi tərəqqisinin təmin edilməsi üçün zəruri olan cəmiyyət, biznes və yeni iş yerlərinin yaradılması, dövlətin insan rifahında uğurlu əlaqəsinin yaradılmasına əsaslı zəminlər yaradır. Bunlar Ölkə rəhbəri İlham Əliyevin qeyd etdiyi kimi, bu gün Azərbaycan ölkədə əhalinin rifahının daha da artırılması üçün sosialyönümlü bazar iqtisadiyyatının inkişaf etdirilməsi yolu ilə uğurla irəliləyir (5.səh 519). Əlbətdə Davud modeli qeyd olunan sahələrlə yanaşı dövlət tərəfindən sosial-iqtisadi rifahın artması məqsədilə davamlı olaraq əhatəli dövlət proqramları hazırlanmasını əks etdirir. Beləliklə nə qədər ki, iqtisadi tərəqqi öz potensial səviyyəsinə çatmayıb, məcmu tələbin əhatəliliyi özü ilə daha yüksək qiymət və istehsal səviyyəsi gətirəcək. Bununla da Davud modeli inflayasiya ilə bağlı müxtəlif makroiqtisadi hadisələri izah etmək, təhlillər və proqnozlar tərtbib etmək üçün də əhəmiyyətlidir. Həmçinin bu model müxtəlif makroiqtisadi siyasətin effektiliyini izah etmək üçün geniş pedaqoji əhəmiyyətə malikdir. İqtisadiyyata investisiyaların artan həcmlə daim tərəqqiyə əsaslanan davamı, ölkə iqtisadiyyatının tərəqqisi və insan rifahı həmdə sənayeləşməsi ilə səciyəvidir. Bu mərhələdə qeyri-neft iqtisadiyyatında sənayenin ÜDM-də payının 8-9%-dən 25%-ə qədər yüksəldilməsinə əsaslanan inkişaf hədəfi olmalıdır.

Beləliklə yüksək iqtisadi rifahın sürətlənməsi, azad edilmiş ərazilərdə əhalinin qayıdışının təmini Azərbaycanın yeni tərəqqi meyyarlarının ideoloji əsasını təşkil edir (4.səh, 159). Qeyd olunan iqtisadi rifah modelinə uyğun olaraq gələcək on il ərzində də ölkəmizin uzunmüddətli davamlı iqtisadi tərəqqisi üçün elm-təhsil, biznes və dövlət dəstəyinin möhkəmləndiriləcəyini proqnozlaşdırmaq mümkündür. Belə ki, Azərbaycan Respublikasının makroiqtisadi göstəricilərinin cari illərinə diqqət yetirdikdə 2020-2021-ci illərin müqaisəli təhlilində ölkənin iqtisadi tərəqqisnin əsas meyyarları artan templi olduğu aşağıdakı cədvəldə təsvir edilmiş rəqəmlərdən də məlumdur.

Makroiqtisadi göstəricilər

Müqayisə predmeti	2020-cu ilin müvafiq dövrünə nisbətən, faizlə	2021-ci ilin birinci rübbü faktiki
Ümumi daxili məhsul, min manat	100,4*	369 178,1
Hər nəfərə görə ümumi daxili sərvət, manat	105,9*	789,9*
Əsas kapitala yönəldilən vəsaitlər, min manat	104,4	76 962,7
Kənd təsərrüfatı məhsulu, min manat	104,9*	16 658,3
Xarici ticarət dövriyyəsi, min ABŞ dolarlı	100,4	56 551,9
İxrac	100,8	33 444,4
İdxal	134,9*	16 915,9*

Mənbə: DSK-nin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Cədvəlin məlumatlarından da göründüyü kimi, ölkənin makroiqtisadi göstəriciləri əslində dünyanın birsra aparıcı dövlətləri ilə müqaisə olunan göstəricilərində tərəqqi meyyarları ilə iqəlilədiyini qeyd etməyə əsas verir. Dövlətin iqtisadiyyatda rolunun bazaryönlü sərbəst iqtisadiyyat vasitəsilə effektiv və səmərəli idarə olunması, xarici bazarlara yerli məhsulların ixracının artırılmasını şərtləndirir. Beləliklə ticarət rejimlərinin daha da liberallaşdırılması iqtisadi tərəqqinin əsas meyyarları hesab edilir. Bununla yanaşı ölkənin sosial-iqtisadi tərəqqisi və qeyd olunan prinsipləri davamlı iqtisadi artım və sosial iqtisadiyyata əsaslanan cəmiyyət, insan rifahı və təmiz ətraf mühit və sağlam həyat tərzinə əsaslı imkanlar yaradır.

Beləliklə Azərbaycanın gələcək siyasi-iqtisadi tərəqqisində aşağıdakı iqtisadi meyyarlar da bu proseslərin əsas və davamlı tərkibi hesab edilir:

*iqtisadi tərəqqinin əsas istiqamətlərinin əhatəliliyi;

*ÜDM-nin tərkibində dövlət büdcəsinin formalaşdırılmasında təbii ehtiyatlar meyyarının artırılması;

*iqtisadi tərəqqiyə əsaslanan innovasiyaların tətbiqi;

Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının uzun ömürlülüyü qlobal təmayüllərə adekvat olan məqsədyönlü tətbiq səciyəvidir. Sistemli iqtisadi tərəqqinin artırılması insan kapitalının dünya təsərrüfat sisteminə inteqrasiyasını sürətləndirilməsini şərtləndirir. Bununla yanaşı dünya ölkələri və beynəlxalq iqtisadi təşkilatlar ölkənin milli maraqlarına uyğun əlverişli ticarət və iqtisadi əlaqələrinin artırılması mühüm əhəmiyyətə malikdir.

Beləliklə ölkədə iqtisadi tərəqqinin ümumi mənzərəsi, Hesablama Palatasının 2019-cu il dövlət büdcəsinin icrası haqqında tövsiyə layihəsinə və büdcənin icrasına dair illik hesabata təqdim etdikləri rəsmi açıqlamada Azərbaycanın dövlət borcu 16 780,3 milyon manat təşkil etdiyini, bu, ötən il üzrə ümumi daxili məhsulun (ÜDM) 20,7%-i qədər olduğu qeyd edilmişdir. Hər nəfərə hesablanan borc isə 1 675,8 manat qeyd olunub. Dövlət borcunun 15 455,7 milyon manatı və yaxud 8,4%-i xarici, 1 455,6 milyon manatı və yaxud 5,91%-i daxili dövlət borcunun payına düşdüyü şərh edilmişdir.

Lakin nəzərə almaq lazımdır ki, tarazlıq siniflər arası mübadilə proseslərinin təşkili üçündür. Bu əslində Azərbaycanın xarici siyasətində formasiyalar iqtisadi meyyarları nəzərə alınmaqla, əhatəli tədqiq edilməsini, onun potensialının və perespektivini obyektiv qiymətləndirilməsi zəruri edir. Belə ki, 1991-cı illərdən başlayaraq Azərbaycan iqtisadiyyatının tərəqqi prosesləri sabitləşmiş, milli iqtisadi prioritetlər müəyyənləşdirilmiş, sənaye və emal potensialından daha səmərəli istifadəni şərtləndirmişdir (7.səh, 163). Azərbaycan iqtisadiyyatının inkişafında ən mühüm meyyarlarından biri regionların iqtisadi fəallığının artırılması, onların dünya iqtisadi proseslərinə inteqrasiyasının təşkili və ixrac potensialının formalaşdırılmasıdır.

Beləliklə elmi mülahizələr və təhlillərlə Azərbaycan Respublikasında ÜDM-in proqnoz qiymətlərini də müəyyən etmək və XİƏ-in daxili investisiyaların əsas meyyarlarını ÜDM-ə təsirinin elastikliyiyini qiymətləndirilməsi də mühüm əhəmiyyətə malikdir.

Tədqiqat nəticəsində yuxarıda xətti tənliyin sərbəst dəyişənin 1% dəyişməsi nəticəsində dəyişənin neçə faiz dəyişməsini ifadə edən elastiklik əmsalını hesablamaqla səbəb meyyarının hesabına nəticə meyyarının neçə faiz dəyişəcəyini müəyyən etmək olar(3, 137).

Burada, yuxarıda qeyd edilən modelə əsasən tədqiq olunan dövrlər üzrə XİƏ-nın və daxili investisiyaların tədqiq olunan dövrlər üzrə Azərbaycan Respublikasında ÜDM-in hesab miniyumudur. Həmin göstəricilərə əsasən hesablanmış elastiklik əmsalları qurulmuş model üzrə şərh edilir.

Belə ki, təhlillər və hesablamalar göstərir ki, Azərbaycan XİƏ-ın 1% artması ÜDM-in 0,50 % artmasına, daxili investisaların həcminin 1% artması isə ÜDM-in 0,595% artması ilə nəticələnir.

Nəticə

Məlum olur ki, Azərbaycanda ÜDM-lə beynəlxalq xarici investisiya və daxili investisiyaların D = 3.397* + 2.071* + 915.27 Davud model tənliyi ilə ifadə olunan real mənzərəyə malikdir. Bu əmsalının vahidə yaxın olması qeyd etməyə əsas verir ki, bu müqaisə funksionallığa daha çox yaxındır. Eviews tətbiqi proqramına əsasən alınmış D = 3.397* + 2.071*+ *915.27 Davud tənliyi Azərbaycan Respublikasında ÜDM-nun *51,9 %-nin modelə daxil olan xarici və daxili investisiyalar hesabına sosial-iqtisadi tərəqqisini şərtləndirir.

Bununla yanaşı ölkənin sosial-iqtisadi tərəqqisi və qeyd olunan prinsipləri davamlı iqtisadi artım və sosial iqtisadiyyata əsaslanan cəmiyyət, insan rifahı və təmiz ətraf mühit və sağlam həyat tərzi ilə səciyəvidir. Beləliklə Azərbaycanın gələcək sosial-iqtisadi tərəqqisində aşağıdakı iqtisadi meyyarlar bu proseslərin əsas və davamlı tərkibi hesab edilir:

*iqtisadi tərəqqinin əsas istiqamətlərinin əhatəliliyi;

*ÜDM-nin tərkibində dövlət büdcəsinin formalaşdırılmasında təbii ehtiyatlar meyyarının artırılması;

*iqtisadi tərəqqiyə əsaslanan innovasiyaların tətbiqi;

Sosial-iqtisadi rifah üstünlüklərini reallaşdırılmasında maliyyə bazarının liberallaşdırılması və effektiv tənzimlənməsi, maliyyəyə çıxışında yaradılmış maniələrin dəf edilməsi və asanlaşdırılması ilə xarakterizə olunur. Belə ki, davamlı insan rifahını şərtləndirən sosial-iqtisadi naliyyətlər makroiqtisadi siyasət qaydalarını formalaşdırmaq. Bu sahənin inkişafını artırmaqla, idxal və ixracın tənzimlənməsi və idxal və ixrac potensialının artırılması isə insan rifahını şərtləndirən əsas meyyarlar kimi səciyələnir.

Lakin iqtisadi tərəqqi və onun təhlükəsizliyi problemi ilə əlaqəli onilliklər ərzində formalaşmış yanaşma tərzinə yeni yanaşmanı zəruri etmişdir. Belə ki, texnogen modelin təzyqi altında olan bir iqtisadiyyatda mövcud məzmun daşıyan sabitlikdən tərəqqinin təmin edilməsi real siyasi-iqtisadi şəraitin əsas şərtlərindəndir.

Eyni zamanda Azərbaycanda mövcud sosial-iqtisadi şəraitdə zəruri meyyarlardan hesab olunan ərzaq təhlükəsizliyinin təmin edilməsidir. Belə ki, iqtisadi təhlükəsizliyin mahiyyətinin tərkib hissəsini şəxsiyyət, cəmiyyət və dövlətin anlayışları təşkil edir.

İqtisadi tərəqqi sabitliyin təminatıdır. Bu yanaşma da sabitlik – ifadə meyyarı iqtisadi təhlükəsizliyin əsas elementi, təzahür formlarından biridir. Beləliklə qeyd etdiyimiz ardıcıllıq zamanı həqiqətin gerçək olduğu məlum olur. Belə ki, milli iqtisadi təhlükəsizlik dayanıqlı iqtisadiyyatın yaratdığı keyfiyyətdir və tərəqqinin yaratdığı nəticədir (5). Lakin virtuallaşmanın kütləviliyi və dünyəvi miqyas aldığı, rəqəmsal iqtisadiyyatın intensivliyi transmilli kapitalın dünya iqtisdi əlaqələrində həlledici mövqeydə olduğu şəraitdə sosial-iqtisadi sistemin təhlükəsizliyini milli iqtisadi strategiya və siyasi-iqtisadiyyatın əsas meyyarı kimi xarakterikdir.

Reallıqda, müasir iqtisadi şəraitdə bütün mənalarında (sosial-iqtisadi və siyasi-iqtisadi, maliyyə və.s) davamlı tərəqqiyə nail olan bir sıra ölkələrin təcrübəsi mövcuddur. Belə ki, Amerika, Almaniyya, Fransa, İngiltərə, İsrail və s. ölkələrin təcrübəsində iqtisadi təhlükəsizliyin əsas elementi şəxsiyyətin sosial-iqtisadi rifahı ilə əlaqələndirilir. Təhlillərdən məlum olur ki, keçmiş MDB ölkələri, eləcədə müstəqilliyin ilk illərində Azərbaycan da iqtisadi durğunluğun aradan qaldırılması ilə məşğul olduqları zaman yuxarıda qeyd edilən ölkələrin iqtisadi tərəqqisi və insan rifahı, fərdin sosial-iqtisadi və milli iqtisadi sistemin təhlükəsizliyi təmin edilirdi.

Ədəbiyyat

1. Heydər Əliyevin "müstəqilliyimiz əbədidir" nitqi dirçəliş XXI əsr jurnalı, №1-2, 2000
2. İlham Əliyev "İnkişaf – məqsədimizdir", 9-cu kitab, Azərnəşr, Bakı 2012, səh. 159
3. İ.Hüseyinoğlu "Milli iqtisadi tərəqqi modelinin formalaşması və pirinsipləri",Baki 2015.
4. R.Ə.Mehdiyev,"Yeni dünya nizamı: tərəqqiyə doğru" kitab, Azərbaycan nəşriyyatı, Bakı 2008, səh. 278.
5.D.İ.Allahverdiyev, "Dünya iqtisadiyyatı:İqtisadi mənafeylər, mövcud reallıqlar və perspektivlər" Bakı 2020.
6.M.H.İsmayılov "Azərbaycanın iqtisadi əməkdaşlığı yeni müstəvidə" Xalq qəzeti, 28.2021
7. Həsənov.H, "yeni dövrün iqtisadi reallıqları" "Xalq qəzeti" 05.12.2021.

Математические критерии мировой экономики и макроэкономический прогресс азербайджана

i.f.d., Д.И. Аллахвердиев
Ведущий научный сотрудник Института экономики НАНА

Резюме

В статье исследуется азербайджанская модель прогресса в мировой экономической системе и благосостояния людей в контексте активизации политического и экономического сотрудничества со странами современного мира. В связи с этим были изучены текущее состояние и перспективы сотрудничества в области политических и экономических отношений и сотрудничества между государствами, организации социально-экономического, финансового благополучия человека и человеческих ресурсов. В то же время были внесены политические и экономические предложения по решению существующих проблем.

Ключевые слова: экономическая дипломатия, иностранные инвестиции, экономическая политика, благосостояние и потенциал человека, устойчивое развитие, экономические реалии.

Mathematıcal Crıterıa Of The World Economy And Macroeconomıc Progress Of Azerbaıjan

i.f.d., D.İ.Allahverdiyev
Leading researcher of the Institute of Economics of ANAS

Summary

The article examines Azerbaijan's model of progress in the world economic system and human welfare in the context of intensifying political and economic cooperation with the countries of the modern world. In this regard, the current state and prospects of cooperation in the field of political and economic relations and cooperation between the states, the organization of socio-economic, financial human welfare and human resources were studied. At the same time, political and economic proposals were submitted to address the existing problems.

Keywords: economic diplomacy, foreign investment, economic policy, human welfare and potential, sustainable development, economic realities.

POSTPANDEMİYA DÖVRÜNDƏ TURİZMİN DAVAMLI İNKİŞAF MƏSƏLƏLƏRİ

Arzu Alim qızı Hüseyn i.ü.f.d., dosent
kafedra müdiri
Azərbaycan Turizm və Menecment Universiteti,
e-mail: a.huseyn@atmu.edu.az

Xülasə

Azərbaycan növbəti onillikdə iqtisadiyyatın ikiqat artımının təmin edilməsini hədəfləyir və bu hədəfin reallaşdırılmasında xidmət sektorunun, xüsusən də turizmin mühüm rol oynayacağı vurğulanır. Pandemiyadan ciddi şəkildə zərər çəkən turizm sektorunun postpandemiya dövründə iqtisadiyyatın illik artım tempinin yüksəldilməsinə töhfə verməsi üçün bir çox strateji vəzifələrin icrası təxirəsalınmadan təmin olunmalıdır. Çünki pandemiyanın mənfi təsirləri nəticəsində 2020-ci ildə Azərbaycana gələnlərin sayı 4 dəfə, turizm xidmətlərinin ixracının dəyəri isə 5,9 dəfə azalmışdır. Bu mənfi tendensiya 2021-ci ilin I rübündə də davam etmiş və turizm xidmətləri ixracı 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 10,3 dəfə azalmış, turizm xidmətləri üzrə idxalın ixracı üstələməsi nəticəsində 58,6 milyon ABŞ dolları həcmində kəsir yaranmışdır. Lakin bu azalmaya baxmayaraq Azərbaycanın postpandemiya dövründə turizm sektorunu inkişaf etdirmək üçün böyük potensilaı var. Bu məqalədə də postpandemiya dövründə turizmin davamlı inkişafı məsələlərinə toxunulur və bu sektorun potensialının dolğun reallaşdırılması ilə bağlı təkliflər irəli sürülür.

Açar sozlər: *Azərbaycan, turizm, COVID-19, xidmətlər ixracı, postpandemiya dövrü*

Giriş

Azərbaycan Respublikasında iqtisadiyyatın neft gəlirlərindən asılılığının minimuma endirilməsi istiqamətində həyata keçirilən tədbirlər turizm sektorunun da prioritetliyini şərtləndirir. Məhz turizm inkişafı istiqamətində həyata keçirilən tədbirlər nəticəsində 2015-2019-cu illər ərzində bu sahədə ciddi inkişafa nail olunmuşdur. Dünya İqtisadi Forumunun 2019-cu ildə açıqladığı "Turizm və səyahətin rəqabət qabiliyyəti" adlı hesabatına [16] əsasən Azərbaycan turizmdə biznes mühiti üzrə ötən hesabatla müqayisədə 57-ci mövqedən 28-ci pilləyə qədər irəliləməyə nail olmuşdur. Əldə olunan nailiyyətlər əsasən hesabatda Azərbaycan "turizm sahəsində biznes mühiti üzrə dünyada ən çox inkişafa nail olmuş ölkə" statusunda qiymətləndirilmişdir. Lakin 2020-ci ilin əvvələrindən etibarən başlanan COVID-19 pandemiyası [15] dünyanın əksər ölkələrində [6;7;8;9] olduğu kimi Azərbaycanda da turizm sektoruna ciddi zərər vurmuşdur.

Doğrudur, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncamına [4] uyğun olaraq, Covid-19 pandemiyasının mənfi təsirinin azaldılması istiqamətində ölkədə xeyli işlər görülmüşdür. Lakin koronavirus pandemiyasının yayılmasının qarşısını almaq məqsədilə Azərbaycanın dövlət sərhədində məhdudlaşdırıcı rejimin, eləcə də dünyanın əksər ölkələrində vətəndaşların səfərlərinə müvəqqəti məhdudiyyətlərin tətbiq olunması ölkəmizə gələnlərin sayının kəskin azalmaya səbəb olmuşdur. Pandemiya ilə bağlı yaranmış vəziyyət dünyanının əksər ölkələrdə olduğu kimi, Azərbaycanın da turizm sektoruna mənfi yöndə təsir göstərmişdir. Koronavirus pandemiyası 2020-ci ilin mart ayından başlayaraq turizm sektorundə ciddi tənəzzülə səbəb olmuşdur.

2021-ci ilin yanvar ayından etibarən isə Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə vaksinasiyanın başlanılması [11] turizm sektorunun bərpasına ümid yaratmışdır.

Bu məqalədə də postpandemiya dövründə turizmin davamlı inkişafı məsələlərinə yer verilir, bu sektorun inkişafındakı əsas maneələrin aradan qaldırılması və potensialının dolğun reallaşdırılması ilə bağlı təkliflər verilir.

Koronavirus pandemiyasının turizm sektoruna təsirinin qiymətləndirilməsi

COVID-19 pandemiyasının Azərbaycan Respublikasının iqtisadiyyatına mənfi təsirinin azaldılması istiqamətində görülən təxirəsalınmaz tədbirlərə baxmayaraq, əlverişsiz qlobal mühitin ən ciddi təsirlərindən biri turizm sektoruna olmuşdur. Belə ki, turizmin inkişafı istiqamətində görülən tədbirlər nəticəsində 2019-cu ildə Azərbaycana dünyanın 193 ölkəsindən 3170,4 min və ya 2018-ci illə müqayisədə 11,3 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir[3; 14]. 2020-ci ildə isə Azərbaycana gələnlərin sayının 3,5 milyon nəfər olacağı proqnozlaşdırılırdı. Lakin koronavirus pandemiyası bu proqnozun doğrulmasına imkan vermədi və 2020-ci ildə Azərbaycana dünyanın 155 ölkəsindən 795,7 min və ya 2019-cu illə müqayisədə 4 dəfə az əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir

.



	2010	2015	2016	2017	2018	2019	2020
Azərbaycan gələnlər	1962906	2006176	2248773	2696745	2849592	3170371	795700
Azərbaycandan gedənlər	3175606	4095800	4281869	4108936	4908078	5567684	1164600

Şəkil 1. 2010-2020-ci illərdə Azərbaycana gələn əcnəblərin və ölkədən gedən vətəndaşların sayı, min nəfər [3; 14]

Xüsusən də dövlət sərhədində məhdudlaşdırıcı rejimə keçməsi nəticəsində 2020-ci ilin II, III və IV rüblərində Azərbaycana baş tutmuş səfərlər əsas etibarilə qeyri-turizm məqsədilə həyata keçirilmişdir. Azərbaycanın da turizm sektorunda 2020-ci ildə müşahidə olunan geriləmə 2021-ci ilin birinci rübündədə davam etmişdir. 2021-ci ilin yanvar-mart aylarında Azərbaycana dünyanın 128 ölkəsindən 117,2 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4,4 dəfə az əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir[14]. Bu müddətdə xaricə səfər edən Azərbaycan vətəndaşlarının sayı isə 8,4 dəfə azalmışdır.

Azərbaycana gələn turist sayındakı kəskin azalma özünü turizm xidmətləri ixracında göstərmişdir. Nəticədə 2020-ci ildə Azərbaycanın turizm xidmətlərinin ixracı 5,9 dəfə azalaraq 304 milyon ABŞ dolları təşkil etmişdir. 2017-2021-ci illərin I rübü üzrə turizm xidmətləri ixracın dəyərinə nəzər saldıqda pandemiyanının bu sektora vurduğu zərələ bağlı mənzərəni daha aydın görə bilərik. Belə ki**,** 2021-ci ilin I rübündə turizm xidmətləri ixracı 2020-ci ilin I rübü ilə müqayisədə 10,3 dəfə, 2019-cu ilin müvafiq dövri ilə müqayisədə 12 dəfə, 2017-ci ilin I rübü ilə müqayisədə isə 26 dəfə azalmışdır [12].

Ümumiyyətlə, 2021-ci ilin I rübü üzrə qarşılıqlı turizm xidmətlərinin dövriyyəsi 5 dəfə azalaraq 110,8 milyon ABŞ dolları təşkil etmişdir. Bu müddətədə turizm xidmətləri üzrə idxalı turizm xidmətləri ixracını üstələməsi nəticəsində 58,6 milyon ABŞ dolları həcmində kəsir yaranmışdır [5]. 2020-ci ilin I rübündə turizm xidmətləri ixracı 13 faizi işgüzar səfərlərin, 87 faizi isə şəxsi səfərlərin payına düşmüşdür. 2021-ci ilin I rübündə bu göstərici işgüzar səfərlərin xeyrinə dəyişmişdir və turizm xidmətləri ixracında işgüzar səfərlərin payı 31 faizə çatmışdır.



Şəkil 2. 2017-2021-ci illərin I rübündə turizm xidmətləri ixracın dəyəri, milyon ABŞ dolları [12]

Nazirlər Kabinetinin 16 yanvar 2021-ci il tarixli Sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq ölkədə peyvəndlənməyə başlanılsada [11], hələlik prosesin uğurla yekunlaşması üçün zamana ehtiyac vardır. Təhlillərimizdən də göründüyü kimi COVID-19 pandemiyasının Azərbaycanın turizm sektoruna vurduğu zərərin bərpası 2021-ci ildə mümkün olmayacaq və 2022-ci ildə də bu istiqamətdə fəaliyyəti dərinləşdirməyə ehtiyac vardır.

Turizm sektorunun postpandemiya dövründə inkişaf imkanları

Azərbaycan Respublikasında sosial-iqtisadi rifahın yüksəldilməsi üçün 2030-cu ilə kimi iqtisadiyyatın ikiqat artımının təmin edilməsi hədəflənir. Həmçinin növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair aşağıdakı beş Milli Prioritet reallaşdırılmalıdır:

1. dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
2. dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
3. rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
4. işğaldan azad olunmuş ərazilərə böyük qayıdış;

5. təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi [1].

Xüsusilə postpandemiya dövründə Milli Prioritetlərin reallaşması, iqtisadiyyatın illik artım tempinin yüksəldilməsi üçün onun yeni mexanizmlərinin formalaşdırılması və inkişaf etdirilməsi aktuallıq daşıyır. Turizm sektorun postpandemiya dövründə inkişaf potensialı böyük olduğu üçün bu sahənin dayanıqlı inkişafındakı maneələrin müəyyənləşdirilməsi və aradan qaldırlması mühüm əhəmiyyətə malikdir.

Bildiyimiz kimi, Azərbaycan Respublikasında turizm sektorunun inkişafı prioritet elan edilmiş və "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi" 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış Azərbaycanı dünyada turistlərin ən çox üstünlük verdiyi 20 turizm məkanından birinə çevirmək və mövcud turizm ehtiyatlarından səmərəli istifadə göstəricilərinin maksimallaşdırılmasına nail olmaqdan ibarətdir [2].

2016-cı ildən etibarən də bu sahədə dinamik inkişafa nail olunmuşdur. Lakin 2020-ci ilin əvvələrindən etibarən COVID-19 pandemiyası dinamik inkişaf edən bu sektora qısa müddət ərzində ciddi zərər vurmuşdur. 2021-ci ilin birinci yarısında dünya üzrə COVID-19 pandemiyasının yeni mutasiyasının yayılmağa davam etməsinə baxmayaraq, artıq postpandemiya dövründə turizm sektorunun inkişafı proqnozlaşdırılır. Lakin koronovirus pandemiyasının təsiri ilə də Azərbaycanda 2020-ci ildə turizmin inkişafı ilə bağlı proqnozlara nail olmaq mümkün olmamışdır. Həmçinin Strateji Yol Xəritəsinin [2] icrası nəticəsində 2020-ci ildə Azərbaycanın real ÜDM-i 465 milyon manat artması, Bakı və digər bölgələrdə prioritetlər həyata keçirilməklə, cəmi 35 min, bilavasitə turizm sektorunda isə 25 min iş yeri yaradılması, Bakıda mehmanxana və mehmanxana tipli müəssisələrdə xarici ölkə vətəndaşları üzrə gecələmələrin sayının 2015-ci il üzrə təxminən 0,8 milyon gecədən 2020-ci il üzrə ən azı 3,65 milyon gecəyədək artırılması, hər turistin orta qalma müddətinin 2 gündən 3 günədək artırılması, aşağı büdcəli gəlmə turizm göstəricisinin 265 minə çatdırılması və “Böyük İpək Yolu” və digər mədəni turizm marşrutları üzərində yerləşən məntəqələrə 180 mindən artıq turistin cəlb olunması hədəfləri reallaşmamışdır.

Turizm sahəsi ekspertlərinin proqnozlarına görə, peyvəndlənən insanların sayının çoxalması tədricən səyahət məhdudiyyətlərinin azaldılmasına töhfə verəcək və 2022-ci ildən etibarən vəziyyət normallaşmağa başlayacaqdır.

Azərbaycanda isə postpandemiya dövründə turizm sektorunun inkişafı üçün əlavə imkanlar yaranacaqdır. Çünki 2020-ci ildə 44 günlük vətən müharibəsi zamanı böyük turizm potensialı olan torpaqlarımız işğaldan azad olunmuşdur. Postpandemiya dövründə bu imkanlardan da istifadə edərək həmin ərazilərdə də turizmin inkişafı mümkün olacaqdır. İşğaldan azad edilən ərazilərdə davamlı turizmin inkişafı məsələsi önə çıxmalıdır. Çünki davamlı turizm yerli sakinlərə rifah gətirir, təbiətə mənfi yöndə təsir etmir. Əraf mühütin bənzərsizliyinin və unikallığının gələcək nəsillər üçün olduğu kimi qorunub saxlanılmasını hədəfləyir.

Həmçinin araşdırmamız göstərir ki, postpandemiya dövründə turizm sektorunun inkluziv və davamlı böyümə imkanları mövcuddur. Türkiyə ilə şəxsiyyət vəsiqəsi ilə gediş-gəlişə icazə verilməsi bu ölkədən Azərbaycana turist axınını artıra bilər. Həmçinin Azərbaycan Yaponiya, Cənubi Koreya və bir çox ölkənin turistləri üçün cəlbedici məkan ola bilər.

Lakin postpandemiya dövründə turizmin davamlı inkaişafına nail olmaq üçün qarşıda duran başlıca çağırışları da nəzərə almaq vacibdir. Azərbaycan üçün ən ciddi çağırışlardan bir isə turizm sektorunda çalışanların peşəkarlığı ilə bağlıdır. Belə ki, pandemiya zamanında turizm müəssisələri fəaliyyətlərin dayandırdıqları üçün bir çox peşəkar kadrlar da sektordan ayrıldılar və ya başqa sektorlarda iş tapdılar. Xüsusən də regionlardakı turizm müəssiələr bu sahədə problemlə üzləşirlər.

Doğrudur, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin və Dövlət Turizm Agentliyinin dəstəyi ilə regionlardakı turizm müəssisələrinin kadr potensialının təkmilləşdirilməsi [13] ilə bağlı layihələr həyata keçirilir. Lakin bu sahədə fəaliyyət daha da dərinləşdirilməlidir. Azərbaycanda turizmin dayanıqlı inkişafındakı əsas maneələrdən biri kifayət qədər peşəkar xidmət personalına sahib olmamasıdır. Digər tərəfdən nəzərə almalıyıq ki, postpandemiya dövründə turistlər daha çox sanitariya-epidemioloji tələblərə əməl edən ölkələrə getməyə maraqlı olacaqlar.

Nəticə

Araşdırmamız göstərir ki, qlobal miqyasda turizm sektoru COVID-19 pandemiyası ən çox ziyan çəkən sektorlardan olmuşdur. Lakin peyvəndləmə kampaniyasının əhatə dairəsinin genişlənməsi iqtisadiyyatın bərpası prosesinə müsbət təsir göstərməklə yanaşı turizm sektorunun inkişafında rol oynayır. Müşahidələrimiz göstərir ki, 2021-ci ilin II rübündən etibarən daxili turizmdə canlanma baş vermişdir. Artıq postpandemiya dövrü üçün də hazırlıqlar görülməlidir. Şübhəsiz ki, postpandemiya dövründə turizm inkişafı istiqamətində tədbirlər görülərkən Strateji Yol Xəritəsinin 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışda nəzərə alınmalı, Azərbaycanı dünyada turistlərin ən çox üstünlük verdiyi 20 turizm məkanından birinə çevirmək istiqamətində fəaliyyəti davam etməlidir.

Həmçinin işğaldan azad edilmiş ərazilərin - Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının [10] ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası turzim sektorunun sürətli inkişafına, xidmətlər üzrə ixrac potensialının tam reallaşdırılmasına böyük təkan verəcəkdir.

Hazırda "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə uyğun olaraq "2021–2025-ci illərdə sosial-iqtisadi inkişaf Strategiyası" hazırlanır. Qənaətimizcə Milli Prioritetləri də nəzərə almaq, postpandemiya dövründə turizm sektorunun inkişafını sürətləndirmək üçün 2020-2030-cu illəri əhatə edən strateji sənəd hazırlanmalıdır.

Ədəbiyyat

1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir /- https://azertag.az/xeber/Azerbaycan_2030_sosial_iqtisadi_inkisafa_dair_Milli_Prioritetler-1702631
2. "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi". /Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 saylı Fərmanı ilə təsdiq edilmişdir /- http://e-qanun.az/framework/34254
3. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanda turizm Statistik məcmuə 2021. Bakı 2020, 99 s.
4. "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli 1950 nömrəli Sərəncamının 10.2-ci bəndinin icrası ilə bağlı tədbirlər plan. Bakı: 04 aprel 2020-ci il /- https://nk.gov.az/az/document/4367/
5. 2021-ci ilin I rübü ayı üzrə Azərbaycan Respublikasının tədiyə balansı /- https://uploads.cbar.az/assets/d7202ed9d7bd83669118d756c.pdf
6. https://www.unwto.org/tourism-and-covid-19-unprecedented-economic-impacts
7. https://www.wttc.org/.
8. UNWTO. 2020: Worst Year in Tourism History with 1 Billion Fewer International Arrivals. https://webunwto.s3.eu-west-1.amazonaws.com/s3fs-public/2021-01/210128-barometer-en.pdf?GaI1QTYG.Ky9LDZ2tlDKc.iRZkinJeuH
9. UNWTO Impact Assessment of the COVID-19 Outbreak on International Tourism, 2020
10. https://president.az/articles/52389 (İstifadə: 09.07.2021)
11. https://koronavirusinfo.az/az/page/koronavirus-covid-19/peyvend (İstifadə: 05.07.2021)
12. https://www.cbar.az/page-43/external-sector-statistics (İstifadə: 07.07.2021)
13. https://tourism.gov.az/news/qusarda-fealiyyet-gosteren-turizm-muesisseleri-uchun-telimlere-bashlanilib (İstifadə: 07.07.2021)
14. https://www.stat.gov.az/source/tourism/ (İstifadə: 08.07.2021)
15. https://covid19.who.int/ (İstifadə: 09.07.2021)
16. http://www3.weforum.org/docs/WEF_TTCR_2019.pdf (İstifadə: 04.07.2021)

Issues Of Sustainable Development Of Tourism In Post- Pandemic Period

PHD, assistant professor A.A.Huseyn
Azerbaijan Tourism and Management University, head of department

Azerbaijan aims to double its economic growth over the next decade and the service sector, especially tourism, will play an important role in achieving this goal. The tourism sector, which has been severely affected by the pandemic, urgently needs many strategic objectives to support the annual growth rate of the economy in the post-pandemic period. As a result of the negative consequences of the pandemic, the number of visitors to Azerbaijan in 2020 decreased by 4 times, and export costs for tourism services decreased by 5.9 times. This negative trend continued in the first quarter of 2021, when tourism exports fell 10.3 times compared to the same period in 2020, resulting in a deficit of $ 58.6 million due to high imports of tourism services. However, despite this decline, Azerbaijan has great potential to develop the tourism sector during the post-pandemic period. This article is also about the development of sustainable tourism in the post-pandemic phase and offers suggestions for realizing the full potential of this sector.

***Key words**: Azerbaijan, tourism, COVID-19, export of services, postpandemic period*

AZƏRBAYCANIN ALMANİYA İLƏ XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİNİN İNKİŞAF PERSPEKTİVLƏRİNƏ DAİR

Paşa Günay Tanrıverdi Qızı, i.f.d.
AMEA İqtisadiyyat İnstitutu
gunay_pasha@yahoo.com

GİRİŞ. Qabaqcıl təcrübələr göstərir ki, ölkənin regional və beynəlxalq iqtisadi-ticarət əlaqələrini inkişaf etdirmək və bu əsasda milli iqtisadiyyatın dünya təsərrüfatı sisteminə səmərəli inteqrasiyasının təmin olunması iqtisadi inkişaf strategiyasının əsas istiqamətlərindən birini təşkil edir. Belə ki, müasir dövrdə beynəlxalq iqtisadi və ticarət üzrə əməkdaşlığı genişləndirmədən, ölkə iqtisadiyyatının qlobal iqtisadiyyata səmərəli inteqrasiyasına nail olmadan davamlı iqtisadi inkişafa nail olmaq mümkün deyildir.

Bunun əsas səbəbi odur ki, qlobal iqtisadiyyata dərin inteqrasiya ölkədə milli iqtisadiyyatın səmərəli strukturunun formalaşması, müasir texnologiya və idarəçilik təcrübəsinin mənimsənilməsi, xüsusilə hazırkı 4-cü sənaye inqilabının çağırışlarına adaptasiya üçün geniş imkanlar yaradır. Digər tərəfdən, belə ölkələr beynəlxalq əmək bölgüsündə malik olduğu müqayisəli üstünlükləri səmərəli reallaşdırmaq və iqtisadi təhlükəsizliyi təmin etmək üçün əlverişli şərait əldə etmiş olur.

1. Azərbaycanın Almaniya ilə iqtisadi əməkdaşlığını genişləndirməsi

Bu baxımdan, Azərbaycanın eyni kontinentdə yerləşdiyi, ərazisi və nüfuz dairəsinə görə dünyanın əsas iqtisadi və siyasi güc mərkəzlərindən sayılan Avropa İttifaqı (Aİ), o cümlədən həmin birlikdə iqtisadi inkişafın hərəkətverici qüvvəsi hesab olunan Almaniya ilə iqtisadi əməkdaşlığını genişləndirməsi və bu məkana inteqrasiya olunması obyektiv zərurətə çevrilmişdir. Almaniya Avropa iqtisadiyyatında lider ölkə kimi ölkənin məkana inteqrasiyası prosesində aparıcı rola malikdir. BREXİT-in sürətlənməsi ilə Almaniya inteqrasiya prosesində lider ölkəyə çevrilməklə hər bir mərhələdə fayda əldə edir.

Azərbaycanda neft gəlirləri və böyük investisiya layihələri sayəsində başlanan iqtisadi əməkdaşlıq Almaniya ilə iqtisadi əlaqələrdə də özünü göstərir. Azərbaycan bu gün Almaniya üçün Qafqazda ən vacib iqtisadi tərəfdaşdır. 2012-ci ildə Almaniya-Azərbaycan Ticarət Palatasının təsis olunması ilə iqtisadi münasibətlər sabit institusional çərçivəyə keçirilmişdir. Azərbaycan Avropa İttifaqı ölkələri, xüsusilə Almaniya ilə əməkdaşlığın inkişafına böyük önəm verir. Azərbaycan və Almaniya arasında birgə iqtisadi əməkdaşlıq və digər fəaliyyət haqqında 70-dən çox sənəd imzalanıb və Azərbaycanda 154 Almaniya şirkəti qeydiyyatdan keçib və hal-hazırda 100-ə yaxın alman müəssisəsi fəaliyyət göstərir. Almaniya şirkətləri dövlət əsaslı layihələrdə podratçı qismində də iştirak edirlər. Bunlardan "Simens", "Ferrosstal", "İnterselekt", "Mersedes Bens" kimi iri şirkət-

lər Azərbaycanda uğurlu biznes fəaliyyəti göstərirlər. Almaniya ilə Azərbaycan arasında illik ticarət dövriyyəsi təxminən 350-400 milyon avro təşkil edir. Almaniyadan Azərbaycana əsasən avtomobillər, dəmir və polad məmulatları, istehsal avadanlıqları gətirilir. Azərbaycan və Almaniya investisiya sahəsində də əməkdaşlıq edir. Almaniya tərəfindən Azərbaycan iqtisadiyyatına 572 mln. dollar, Azərbaycan tərəfindən isə Almaniyaya 124 mln. dollar investisya yatırılıb.

Almaniya Avropa inteqrasiya prosesinin dəstəklənməsində mühüm marağa malikdir. Avropa Birliyi, xüsusilə Almaniya ilə Azərbaycanın xarici iqtisadi və ticarət əlaqələrinin inkişaf etdirilməsi, bu əsasda iqtisadiyyatın aparıcı sahələrinin qlobal dəyər zəncirinə səmərəli inteqrasiyası Azərbaycanın uzunmüddətli inkişaf strategiyasının əsas istiqamətlərindən biri kimi də qəbul etmək olar. Almaniya ilə xarici ticarət əlaqələrinin genişləndirilməsi son dövrlər daha da aktuallaşmış iki problemin həllinə – Azərbaycanda iqtisadiyyatın, o cümlədən xarici ticarətin diversifikasiyası və dayanıqlı iqtisadi artımın formalaşmasında mühüm rol oynaya bilər. Həmçinin dünya iqtisadiyyatında aparıcı rola malik olan Almaniya iqtisadiyyatının tədqiqi Alman kapitalının Azərbaycana cəlb edilməsi imkanlarını daha tam qiymətləndirməyə imkanı verir ki, bu da indiki şəraitdə ölkəmiz üçün çox vacib olan iqtisadi artımı sürətləndirə bilər.

İqtisadiyyatın hazırkı inkişaf mərhələsuində qlobal dəyər zəncirinə qoşulma prosesində və onun coğrafi strukturunda yeni keyfiyyət meylləri üzə çıxmaqdadır. Başlıca vəzifə, bu meyilləri düzgün qiymətləndirərək ölkənin beynəlxalq rəqabət qabiliyyətinin qorunub saxlanmasına imkan verən və mövcud iqtisadi tsiklin fazasına adekvat olan çevik tənzimləmə tədbirlərinin həyata keçirilməsindən ibarətdir. Bu tədbirlərin əsas hədəfi - ölkənin inkişaf etmiş bazarlar, xüsusilə Avropa bazarları ilə ticarət-iqtisadi əlaqələrini artırmaqdan ibarətdir.

Yeni qlobal çağırışlar şəraitində Avropa bazarlarına, o cümlədən onun lokomativi olan Almaniya ilə ticarət-iqtisadi əlaqələrin genişləndirilməsi bötüvlükdə xarici iqtisadi fəaliyyətin səmərəliliyinin mühüm göstəricisidir. Hazırda Azərbaycan iqtisadiyyatı üçün əsas problem texnoloji mürəkkəbliyə, eləcə də qlobal dəyər zəncirində üstün rola malik olan ölkələrlə ticarət-iqtisadi əlaqələrin genişləndirilməsi, onun dayanıqlığı və uzunmüddətli artım səviyyəsinin bərpa edilməsidir. İqtisadi inkişaf səviyyəsinin sürətlənməsi bilavasitə bu problemin həllindən asılıdır.

Azərbaycanın regional və beynəlxalq iqtisadi-ticarət əlaqələrin inkişaf etdirilməsi və bu əsasda milli iqtisadiyyatın dünya təsərrüfatı sisteminə səmərəli inteqrasiyasının təmin olunması, ölkədə milli iqtisadiyyatın effektiv strukturunun formalaşması, müasir texnologiya və idarəçilik təcrübəsinin mənimsənilməsi, xüsusilə hazırki 4-cü sənaye inqilabının çağırışlarına adaptasiya olunması hazırda ölkəmizin inkişaf strategiyasının əsas istiqamətlərindən biri olduğu Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində də əks olunmuşdur. Bu baxımdan, Azərbaycan onunla eyni kontinentdə yerləşən, əhatə və nüfuz dairəsinə görə dünyanın əsas iqtisadi və siyasi güc mərkəzlərindən biri olan Avropa İttifaqı (Aİ), o cümlədən avropa iqtisadiyyatının lokomativi hesab olunan Almaniya ilə iqtisadi əməkdaşlığını genişləndirməsi və bu məkana inteqrasiya obyektiv zərurətə çevrilmişdir.

NƏTİCƏ

Azərbaycanın Almaniya ilə xarici iqtisadi əlaqələrinə dair apardığımız aradırmalar sayəsində əldə etdiyimiz aşağıdakə **nəticə və təklifləri** nəzərinizə çatdırırıq:

1. Azərbaycanın da aid olduğu açıq iqtisadiyyatlı kiçik ölkələrin xarici bazarlara çıxışı vacibdir. Əks halda, miqyas effektindən faydalanmaq mümkün olmaz və nəticədə iqtisadiyyatın idxaldan asılılığı artar.

- *Bu səbəbdən, iqtisadiyyatın inkişaf səviyyəsinə görə Qərbi Avropa ölkələrinin bazarlarına çıxış cəhdləri Azərbaycan iqtisadiyyatı üçün önəmlidir. Kiçik iqtisadiyyatlı ölkə məhdud daxili bazara malik olmaqla yanaşı xarici risklərdən yüksək asılılığa malikdirlər.*

2. Xarici ticarətin genişlənməsi və diversifikasiyası, eləcə də çoğrafi baxımdan İEÖ-in yaratdığı dəyər zəncirinə qoşulma ticarət infrastrukturun inkişafını və liberal siyasət tələb edir.

- *İdxal və ixracın tənzimlənməsi üzrə iqtisadi instrumentlər mövcud olsa da, milli istehsalçı və istehlakçıların maraqlarının müdafiəsi, ikitərəfli iqtisadi-ticarət əlaqələrin qarşılıqlı güzəştlərə önəm verilməlidir. Xarici ticarət siyasətində Azərbaycan kimi inkişaf etməkdə olan ölkələr ticarət əməliyyatlarında yüksək texnoloji bazarlara istiqamətlənməni prioritet kimi nəzərə almalıdırlar.*

3. Aparılan təhlillər göstərir ki, Azərbaycanın ixrac etdiyi 830 növ məhsuldan yalnız 36-sı müqayisəli üstünlüyə malikdir. Qalan 800-dək məhsul ixrac olunsa da, müqayisəli üstünlüyə malik deyildir.

- *Hesablamalara görə son 10 ildə Azərbaycanın ixrac zənbilində etilen polimeri, neft qatranı, asiklik karbohidrogenlər, dərman vasitələri və metal borular kimi PRODY indeksi 20 min dollardan çox olan məhsullar yer almışdır. Çay, bitki yağları, şəkər və marqarin kimi əsas ixrac məhsullarında isə PRODY 10 min dollardan az olmuşdur. Bütövlükdə qeyri-neft ixracının yarısı 5-15 min dollar PRODY şkalasında yer alan məhsullardır. Dünya üzrə orta PRODY səviyyəsindən aşağı olan qeyri-neft ixrac mallarının payı 2018-ci ildə 61% olmuşdur.*

4. Almaniya iqtisadiyyatının onunla ticarət əlaqələrinə malik olan ölkələrin, o cümlədən Azərbaycanın iqtisadi artımına təsirinin xərclər-buraxılış modeli vasitəsilə təhlili göstərir ki, Almaniyada əlavə dəyərin ümumi buraxılışda payı 50%-dən aşağıdır.

- *Bu isə Almaniyada daxili resursların nisbətən daha çox olmasını və ixrac üçün əlavə üstünlüklərə malik olmasını göstərir. Simulyasiya üzrə nəticələrə görə Almaniyada son tələbin 1% artması dünya üzrə son tələbin həcmini 0.057%, ümumi buraxılışın həcmini isə 0.055% artırır. Tarazlı qiymətlər modelinin nəticələri göstərir ki, Almaniyada əlavə dəyər normasının 5 faiz artması ölkənin özündə qiymətlərin səviyyəsini təxminən 8% artırır.*
- *2018-ci ildə Azərbaycanın ümumi ticarət dövriyyəsinin 4.6%-ə qədəri Almaniyanın payına düşür. O cümlədən ixracın 4%-i, idxalın isə 5.8%-i Almaniya ilə həyata keçirilmişdir. Avropa ilə ticarət dövriyyəsinin 2018-ci ildə 11.2%-i Almaniya ilə həyata keçirilmişdir. Azərbaycanın Almaniya ilə ticarət dövriyyəsi 2001-2018-ci illərdə 16.8 dəfə artaraq 1441 mln.dollara çatmışdır. O cümlədən Almaniyadan idxal 9 dəfə, ixrac isə 60 dəfə artmışdır. Ticarət dövriyyəsində əsas artım ixrac hesabına baş vermişdir.*
- *Azərbaycanın Avropadan idxalının təxminən 1/3-i Almaniyaya məxsusdur. Avropadan ixracda isə Almaniyanın payı azalma dinamikasına malikdir. Almaniyadan əsasən hazır məhsul idxal olunur. Aralıq məhsul idxalı isə əhəmiyyətsiz çəkiyə malik olduğu üçün ölkədə iqtisadi aktivliyə təsir göstərmir. Qeyri-neft sektorunun zəif inkişafı bütövlükdə ölkənin qlobal dəyər zəncirinə qoşulmaq imkanlarını məhdudlaşdırır. Almaniya kimi inkişaf etmiş Avropa ölkəsinə ixracda rəqabətli olmaq ölkə iqtisadiyyatında xarici birbaşa investisiya cəlbinin stimullaşdırılmasını tələb edir. Birgə və s. formada müəssisələrin yaradılması qeyri-neft ixracının artırılması baxımından vacibdiir.*

5. Almaniyanın cari idxalındakı əmtəələri 4 qrupda təsnifləşdirmək olar:

- *ortamüddətli dövrdə Azərbaycanda istehsal imkanları çox kiçik olan, istehsalı mümkün olsa da, inkişaf etmiş ölkələrə ixracı ehtimalı az olan əmtəələr;*
- *hazırda Azərbaycandan Almaniyaya ixracı və ya ixracının artırılması mümkün olan əmtəələr – bunlara, hazırda Azərbaycanda istehsal olunan və ya istehsal edilməsi çox qısa dövrdə asanlıqla təşkil oluna bilən mal qruplarını aid etmək olar;*
- *qısamüddətli dövrdə (5 ilə qədər) Azərbaycandan Almaniyaya ixracı mümkün ola bilən əmtəələr;*
- *Ortamüddətli dövrdə (8-10 il ərzində) Azərbaycandan Almaniyaya ixracı mümkün ola bilən əmtəələr - əvvəlki qruplardan (birincidən başqa) fərqli olaraq bu kateqoriyaya nisbətən yüksək texnoloji məhsulları daxil edilmişdir.*

6. Almaniya, həmçinin Avropanın və digər regionların inkişaf etmiş və inkişaf etməkdə olan bazarlarının geniş çeşiddə əmtəələrə tələbi vardır və böyük potensialı olan Azərbaycan bu planları reallaşdırmaq imkanına malikdir. İnsan kapitalının zəif inkişafı səbəbindən heç bir ölkədə, o cümlədən nisbətən kiçik bazara malik olan Azərbaycanda yuxarıdakı son üç qrupda qeyd olunan əmtəələrin istehsalı və ixracının təşkil olunması ortamüddətli dövrdə mümkün deyildir.

- *Uzunmüddətli dövrdə nisbətən yüksək texnologiyaların ölkəyə gətirilməsi və Azərbaycanda onların istehsalının təşkil olunması üçün əvvəla, bu sahədə uğur qazanmış transmilli şirkətlərin ölkəyə cəlb olunması məqsədəuyğundur. İkincisi, bu sahədə peşəkar kadrların yetişdirilməsi tələb olunur ki, bu da müəyyən bir müddətdən sonra mümkün ola bilər. Bu sahədə Malayziyanın uğurlu təcrübəsindən istifadə etmək olar;*

•*Məhsullar arasında dayanıqlı olaraq ən yüksək mənfəətliliyə malik olanları seçilməlidir. Almaniyanın idxalı əsasında formalaşdırılan mal qruplarında Azərbaycan üçün potensial rəqabət qabiliyyətinə malik xeyli mallar vardır ki, bunlar ixrac üçün məhsul seçimində nəzərə alına bilər;*

•*İstər mal, istərsə də xidmət seçimi zamanı mal qrupları ilə kifayətlənmək olmaz. Bu qruplar külli miqdarda məhsulu özündə ehtiva edir və Azərbaycanın bu məhsullardan məhz hansıları üzrə ixtisaslaşacağı xüsusi tədqiqatın nəticəsi olmalıdır. Məsələn, əczaçılıq məhsullarının hamısının Azərbaycanda istehsalı hətta ortamüddətli dövrdə real görünmür. Eyni qayda ilə qeyri-üzvi kimyəvi məhsullardan məhz hansıları üzrə Azərbaycanın rəqabət üstünlüyünə malik olması tədqiq olunmalıdır.*

7. 2014-cü ildən ölkədə idxalın əvəzlənməsi üzrə islahatlar həyata keçirilsə də, bu sahədə qeyri-neft sektorunun daxili potensialının reallaşdırılması üzrə geniş imkanlar mövcud olaraq qalır:

▪ *Azərbaycanın idxal etdiyi aralıq malların ümumi idxalda payı (46%) ixracyönümlü iqtisadi modelə malik FOB (65%) və İƏİT ölkələri ilə müqayisədə 52%; investisiya yönümlü kapital mallarının idxalda çəkisi isə 17% olmaqla neftlə zəngin ölkələrlə müqayisədə aşağıdır. Kapital mallarının yerli istehsalının məhdud olması ilə yanaşı, bu cür malların idxalının da aşağı səviyyədə olması ölkə iqtisadiyyatının aşağı kapitaltutumluğunu şərtləndirir. Hesablamalara görə emal sektorunun 89%-i aşağı və aşağı-orta texnoloji intensivliyə malik sahələrdir.*

▪ *Emal sənayesinin texnoloji strukturunda resurs əsaslı mallar üstünlük təşkil edir (66.4%), yüksək texnologiyalı malların emal sənayesi üzrə ixracda payı isə cəmi 2.2%-dir. Yüksək texnoloji ixracda elektrik maşın və avadanlıqları, elektronik cihazlar və digər mexaniki qurğular üstünlük təşkil edir. İxracın texnoloji strukturunda nisbi əvəzlənmə prosesi müşahidə olunur. Dövr ərzində resurslara əsaslanan və ciddi texnoloji emal tələb etməyən malların ixracı 6% azalmış, aşağı, orta və yüksək texnoloji malların ixracı artmışdır.*

8. Ölkənin ixracının belə bir texnoloji strukturunun formalaşamasına baxmayaraq ixracda Almaniya 6-cı yerdədir.

▪ *İxracın mövcud strukturu isə Azərbaycanın Avropa bazarına daxil ola bilməsi üçün geniş potensialın mövcud olduğunu deməyə əsas verir. Avropa bazarına çıxış isə ixracda əsas ticarət tərəfdaşı olan Türkiyə, Çexiya və İsrailin əhəmiyyəti tədricən azalar və daha inkişaf etmiş bazar olan Almaniya qeyri-neft ixracında əsas ticarət tərəfdaşına çerilə bilər.*

9. Digər Qərbi Avropa ölkələrindən fərqli olaraq Almaniya Azərbaycan ixracında az da olsa yer tutur və bu əlaqələr get-gedə artır – 2017-cü ildə Almaniya Azərbaycandan 450 mln dollarlıq əmtəə idxal etmiş, 2018-ci ildə bu məbləğ 73.3% (330 mln dollaradək) artmışdır, halbuki 2018-ci ildə Azərbaycanın qeyri-neft ixracı 9.8% artmışdır. 2017-ci ildə isə Almaniyanın Azərbaycandan idxalı 2016-cı illə müqayisədə 26% azalmışdır:

▪ *Bu isə o deməkdir ki, Azərbaycanın Almaniyaya ixracı stabil deyildir. Almaniya, həmçinin Avropanın və digər regionların inkişaf etmiş və inkişaf etməkdə olan bazarlarının geniş çeşiddə əmtəələrə tələbi vardır və böyük potensialı olan Azərbaycan bu planları reallaşdırmaq imkanına malikdir;*

• *Avropa Birliyi, xüsusilə Almaniya ilə ölkənin xarici iqtisadi və ticarət əlaqələrinin inkişaf etdirilməsi, bu əsasda iqtisadiyyatın aparıcı sahələrinin qlobal dəyər zəncirinə səmərəli inteqrasiyası Azərbaycanın uzunmüddətli inkişaf strategiyasının əsas istiqamətlərindən biri hesab olunur. Azərbaycan və Almaniya arasında iqtisadi və ticarət əlaqələrinin potensial genişlənmə limitlərini qiymətləndirmək mühüm metodoloji həllər tələb edir. Bu məqsədlə Beynəlxalq Ticarət Mərkəzinin hazırladığı ticarət vəziyyəti üzrə metodologiyadan istifadə edilməlidir.*

10. Apardığımız tədqiqatda həm də Almaniyanın baxılan sahələr üzrə dünya bazarında mövqeyini nəzərə almaqla Azərbaycanın ticarət performansı əsasında iki ölkə arasında ticarətin genişlənməsi potensialı qiymətləndirilmişdir:

▪*Azərbaycan baxılan sahələr üzrə xalis idxalatçı kimi çıxış edir və dünya bazarında çox cüzi paya malikdir. Halbuki, həmin sahələr üzrə istehsalın genişləndirilməsi və qlobal dəyər zəncirinə qoşulmaq üçün ölkə geniş potensial imkanlara malikdir. Həm məhsul və həm də bazar üzrə aşağı diversifikasiyaya malik olma, xaricə zəif əsaslanma və idxaldan asılılıq analoji sahələrin zəif*

inkişafı ilə bağlıdır. Bunun nəticəsi olaraq dünya bazarında ölkənin rəqabətlilik imkanları məhduddur və mövqeyi aşağıdır.

▪*Almaniya ilə Azərbaycan arasında ticarət əlaqələrinin genişləndirilməsi potensialının kəmiyyət parametrləri göstərir ki, Azərbaycan öz xarici ticarət əlaqələrində Avropaya deyil, aşağı gəlirli MDB bazarına fokuslanmışdır. Bunun da əsas səbəbi - istehslın aşağı texnoloji mürəkəbliyə malik olması və xam məhsul ixracı üzrə təmərküzləşmədir.*

11. Almaniya ilə Azərbaycan birgə müəssisələrin məhdud saya malik olması ölkəmizə qeyri-neft sektoru üzrə birbaşa xarici investisiya cəlbindəki problemləri göstərir:

- *Birgə müəssisələr və xarici investisiya cəlbi baxımından tikinti və ticarət kimi xidmət sahələri xarici investorlar üçün cəlbedici olsa da, istehsal sahələrində bu fəaliyyət formasının təşviqi prioritet olmalıdır. Ölkədə qeyri-neft sektorunun davamlı inkişafı üçün texnoloji yenilənmə və rəqabətli istehsalın formalaşdırılması zərurətini nəzərə alaraq Almaniya ilə ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi buna mühüm töhfə verə bilər.*

12. Azərbaycandan fərqli olaraq Almaniya daha iri və mürəkkət texnoloji quruluşlu iqtisadiyyata malik olduğu üçün daha böyük regional və kontinental bazarlarda təmərküzləşib. Almaniya Avropa Birliyi, Şərqi Avropa, eləcə də Amerika və MDB ölkələrinə eyni zamanda həm idxal, həm də ixrac istiqamətində fokuslandığı bazarlardır. Beləliklə, qeyd edilən ölkələr bazarlarda daha yüksək üstünlüklər əldə edir və bu zaman qarşılıqlı ticarət üzrə 15%-ədək güzəştə malik olurlar:

- *Bu problemlərin aradan qaldırılması istiqamətində tədbirlər həyata keçirilməlidir. Azərbaycanın Avropa, o cümlədən Almaniya bazarına çıxması üçün mühüm məsələlərdən biri coğrafi yerləşmə və nəqliyyat məsələsidir. Son dövrlər ölkənin malik olduğu iri beynəlxalq nəqliyyat layihələri Avropa bazarlarına çıxış üçün mühüm potensial imkanlar yaratmışdır. Dəmiryolu vasitəsi ilə Azərbaycan beynəlxalq nəqliyyat dəhlizlərinə və Avropaya birbaşa çıxış əldə edəcək. Bakı-Tbilisi-Qars dəmiryolu Bakı-Tbilisi-Ceyhan neft boru xəttindən sonra Azərbaycanın qlobal bazarlarına çıxışını daha da artıracaq və rəqabətli edəcəkdir;*

- *Orta və uzunmüddətli dövrdə Azərbaycan iqtisadiyyatının əsas hədəfi qeyri-neft sektorunun inkişafı və bu məqsədlə xarici bazarlara çıxış imkanlarının artırılmasıdır. Burada, yüksək gəlir qrupunda yer alan Qərbi Avropa ölkələri, o cümlədən Almaniyanın ölkə iqtisadiyyatına yarada biləcəyi perspektivlər nəzərə alınmalıdır. Apardığımız tədqiqatlar göstərir ki, Azərbaycanın Avropa ölkələri, o cümlədən Almaniya ilə əlaqələri qeyri-bərabər dinamikaya malikdir;*

- *İki ölkə arasında ticarətin artırılması sahəsində əlaqələrin genişləndirilməsi üçün ilk növbədə hüquqi-normativ bazanın təkmilləşdirilməsi tələb olunur ki, bu da hər iki tərəf üzrə sahibkarların biznes müqavilələrinin artması üçün stimul ola bilər. Hər iki ölkə arasında ticarət əlaqələri və birgə müəssisələrin yaradılması işlərinin sürətləndirlməsi üçün yaradılmış Birgə Komissiyanın fəaliyyəti gücləndirilməli və çevikliyi artırılmalıdır. Bu baxımdan, iki ölkə arasında "Birgə qarşılıqlı münasibətlərin tənzimlənməsi haqqınd" Qanunvericilik bazasının formalaşdırılması ticarət əlaqələrinin inkişafına töhfə ola bilər.*

13. Tədqiqatda birgə investisiya formasında müştərək müəssisəslərin yaradılması perspektivləri qiymətləndirilmiş və müvafiq sahələr üzrə bu imkanların reallaşdırılması yolları göstərilmişdir:

- *Almaniya ilə müştərək müəssisə və xarici kapitalın ölkəyə əhəmiyyətli axını münbit investisiya mühütünin qorunması istiqamətində həyata keçirilən tədbirlərlə sıx əlaqəli olmalıdır;*

- *Qeyri-neft sahələri texnoloji dəstək və inkişaf perspektivi baxımından Almaniya ilə birgə müəssisə yaradılması və ya BXİ cəlbinin artırılması üçün - kimya və metallurgiya, maşınqayırma sənayeləri və tikinti materiallarının istehsalı, yeyinti və yüngül sənaye, aqrar sektorun maddi-texniki bazasının gücləndirilməsi, İKT kimi qeyri-neft sahələri texnoloji dəstək və inkişaf perspektivi baxımından Almaniya ilə birgə müəssisə yaradılması və ya BXİ cəlbinin artırılması üçün məqbul hesab edilmişdir.*

14. 2015-ci ildən bəri Azərbaycan iqtisadiyyatının üzləşdiyi əsas çağırışlardan biri də məhz birbaşa xarici investisiyaların azalmasıyla bağlıdır. Xüsusən qeyri-neft sektoruna, istehsal, emal sənayesi və kənd təssərrüfatına birbaşa xarici investisiyaların azalması iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft

iqtisadiyyatının davamlı inkişafı, idxaldan asılılığın azaldılması, ixrac potensialının artırılması istiqamətində qarşıya qoyulan hədəflərə nail olmaqda əsas maneə kimi qeyd oluna bilər:

- *Aparılan təhlillər göstərir ki, qeyri-neft sektoruna BXİ cəlb edilməsi baxımından xarici investorlar üçün Azərbaycan iqtisadiyyatında hələlik cəlbedici görünən sahələr əsasən qeyri-ticarət sektorlarıdır (tikinti, anbar təsərrüfatı), istehsal sahələri, xüsusilə emal sənayesi və kənd təssərrüfatı BXİ-nin marağını ciddi şəkildə cəlb edə bilməyib. Azərbaycanın makrostrukturu ixrac və investisiyalar üçün ən əlverişli iqtisadi sektorları – karbohidrogen ehtiyatları, bərpa olunan enerji, daşınmaz əmlak sektoru, neft-kimya və kimya sənayesi, qısa metal profil, nəqliyyat və tikinti sənayesi, major polad şirkətləri Almaniyalı investorlara sərmayə yatırımları üçün geniş imkanlar təqdim edir.*
- *Azərbaycanın təbii müalicə ehtiyatları - müxtəlif xəstəliklərin müalicəsi, profilaktikası və istirahətin təşkili üçün yararlı olan mineral sular, müalicəvi palçıqlar, xüsusən Naftalan nefti, şor göllər, müalicəvi iqlim, çimərliklər Almaniya investorları üçün yatırım və ya yeni kurort və sanatoriyaların təşkili üçün əhəmiyyətli ola bilər. Respublikamızda qeyri-kredit investisiyaların əksər hissəsi neft sektoruna yönəlsə də, digər sahələr - tikinti, nəqliyyat və rabitə, ticarət və xidmət sahələrinə vəsait qoyuluşları da perspektivlidir.*
- *Ölkədə qeyri-neft sektorunun istehsal infrastrukturunun keyfiyyətinin yüksəldilməsi üçün birbaşa xarici investisiyaların nəqliyyat, informasiya və kommunikasiya, kommunal-təsərrufat infrastrukturunun texniki bazasının gucləndirilməsi və gostərilən xidmətin keyfiyyətinin yaxşılaşdırılmasına yönəldilməsi də məqsədəuyğun hesab edilir. Qeyd edilən sahələrdə kifayət qədər təcrübəsi olan Almaniya investorlarının bu imkanlardan istifadə etməklə Azərbaycanda sərmayə yatıra və ya yeni şirkətlər qura bilərlər.*

15. Almaniya kimi inkişaf etmiş Avropa ölkəsinə ixracda rəqabətli olmaq ölkə iqtisadiyyatında xarici birbaşa investisiya cəlbinin stimullaşdırılmasını tələb edir. Birgə və s. formada müəssisələrin yaradılması qeyri-neft ixracının artırılması baxımından vacib hesab olunur:

- *Hesab edirik ki, Azərbaycan ixracı diversifikasiya olunmalıdır. Almaniyanın potensialından maksimal dərəcədə istifadə olunmalıdır – ilk növbədə yeni texnika, texnologiyaların tətbiqində, turizm biznesinin qurulması və fəaliyyətində və s. kimi sahələrdəki təcrübələrin tətbiqi istiqamətində işlər aktivləşdirilməlidir. Qeyd etmək lazımdır ki, son 5 ildə (2014-2018-ci illər) iki ölkə arasında ticarət dövriyyəsində artım müşahidə edilsə də, bu sahədə potensial böyükdür: İki ölkə arasında ixrac və idxalın dinamikasının təhlili bunu deməyə əsas verir. Postneft dövrü – neftin qiymətlərinin aşağı düşməsi və respublikanın ixracdan büdcəyə daxilomalarının dəfələrlə azalması qeyri-neft sektorunun, ixracyönümlü sahələrin sürətli inkişafını ön plana çəkir.*

16. İşğaldan azad olunmuş torpaqlarımızın dirçəldilməsi istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi regional və beynəlxalq əməkdaşlığı daha da gücləndirəcək, Qarabağ regionuna investisiya qoyuluşu imkanlarını daha da artıracaq. Xüsusilə bu bölgədə kənd təsərrüfatının inkişafı Azərbaycanın ərzaq təhlükəsizliyinin təminatında mühüm rol oynaya bilər - həm heyvandarlığın, həm də bitkiçiliyin, aqrar sektora əsaslanan emal sənayesinin qurulması perspektivləri var. Azərbaycan kərə yağının 50 faizini, ət və ət məhsullarının 15 faizə qədərini xaricdən alır. Bu asılılıqdan qurtarmaq mümkündür. Əlavə olaraq, ixracyönümlü emal edilmiş (konservləşdirilmiş) ət məhsullarının emalının təşkili perspektivlərini araşdırmaq mümkündür.

17. Almaniya ilə beynəlxalq iqtisadi əməkdaşlığın və onun mühüm forması olan muştərək sahibkarlığın genişləndirilməsi çox vacibdir. Həmçinin Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılması üçün birbaşa xarici investisiyaların yeni texnika və texnologiyanın, maşın və avadanlıqların və s. ölkəyə gətirilməsinə üstünlük verilməkdədir:

- *Lakin onu da nəzərə almaq lazımdır ki, yeni texnika və texnologiyaların, texniki qurğuların, maşın və avadanlıqların istehsalını təşkil etməkdə sənaye ölkələrinin transmilli korporasiyaları o qədər də səy göstərmirlər. Azərbaycanın ərazisində birbaşa investisiya yatıran Beynəlxalq korporasiya və şirkətlər ən yaxşı halda, maşın və texnoloji qurğuların komplektləşdirici hissələrinin istehsalı və ya yarımcıq istehsalatların təşkilinə üstünlük verirlər.*
- *Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılması üçün birbaşa xarici investisiyaların yeni texnika və texnologiyanın, maşın və avadanlıqların və s. ölkəyə gətirilməsinə üstünlük verilməlidir. Nəzərə almaq lazımdır ki, yeni texnika və texnologiyaların, texniki qurğuların, maşın və avadanlıqların istehsalını təşkil etməkdə sənaye ölkələrinin transmilli korporasiyaları o qədər də səy*

göstərmirlər. Azərbaycanın ərazisində birbaşa investisiya yatıran Beynəlxalq korporasiya və şirkətlər ən yaxşı halda, maşın və texnoloji qurğuların komplektləşdirici hissələrinin istehsalı və ya yarımcıq istehsalatların təşkilinə üstünlük verirlər.

18. Almaniya ilə müştərək müəssisə və xarici kapitalın ölkəyə əhəmiyyətli axını münbit investisiya mühitinin qorunması istiqamətində həyata keçirilən tədbirlərlə sıx əlaqəli olmalıdır. Qeyri-neft sahələri texnoloji dəstək və inkişaf perspektivi baxımından Almaniya ilə birgə müəssisə yaradılması və ya BXİ cəlbinin artırılması üçün - kimya və metallurgiya, maşınqayırma sənayeləri və tikinti materiallarının istehsalı, yeyinti və yüngül sənaye, aqrar sektorun maddi-texniki bazasının gücləndirilməsi, İKT kimi qeyri-neft sahələri texnoloji dəstək və inkişaf perspektivi baxımından Almaniya ilə birgə müəssisə yaradılması və ya BXİ cəlbinin artırılması üçün perspektivli sayıla bilər.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Prezidentinin "Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamı, Bakı şəhəri, 18 yanvar 2016-cı il.
2. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. https://static.president.az/pdf/38542.pdf
3. Əliyev E.V., (2015), Azərbaycanın Avropa İttifaqına ixracının müasir vəziyyətinin təhlili, Azerbaijan Journal of Economics and Social Studies, 1 (2).
4. Əliyev Ş.T. Azərbaycanın ixrac potensialının gücləndirilməsi və Ümumdünya Ticarət Təşkilatına daxil olması məsələləri. İPƏK YOLU, № 4, 2017, səh.14-20.
5. Qənbərov F. Azərbaycanda xarici iqtisadi əlaqələrin modernləşməsi istiqamətləri. Azərbaycan MEA Məruzələr, № 2, 2012. s.122-130.
6. Ярошевич В. Малая открытая экономика в процессе глобализации / В. Ярошевич // Белорус. экон. журн. – 2016. – № 4. – С. 37-39.
7. Ben Bernanke (2015). Germany's trade surplus is a problem, Brookings Institution, April 3rd, 2015, https://www.brookings.edu/blog/ben-bernanke/2015/04/03/germanys-trade-surplus-is-a-problem >.
8. Europe 2020. A strategy for smart, sustainable and inclusive growth [Electronic resource]: Brussels, 3.3.2010. COM (2010) 2020 final // EUR-Lex: access to Europ. Union Law. – Mode of access: http://eur-lex.europa.eu /LexUriServ/LexUriServ. do?uri=COM:2010:2020:FIN:EN:PDF.
9. https://ec.europa.eu/eurostat/data/database.
10. https://www.stat.gov.az/source/system_nat_accounts/
11. https://www.worlddata.info/europe/germany/index.php
12. https://www.economy.gov.az/ Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi.
13. https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ Azərbaycanın statistik göstəriciləri. 2020, Bakı 2020

DÜNYA TƏSƏRRÜFAT SİSTEMİNƏ İQTİSADİ İNTEQERASİYANIN ROLU

Allahverdiyeva Samira

Ph.D. Condidate from Western-Caspian University

samira.adiu@gmail.com

ORCID ID - https://orcid.org/0000-0002-1610-8847

X Ü L A S Ə

Ümumiyyətlə deyə bilərəm ki, iqtisadi inteqrasiya sərbəst bazar, gömrük kompleksi, eyni zamanda işçi qüvvəsinin, kapitalın və xidmətlərin sərbəst hərəkəti prinsipinin qorunub saxlanıldığı ortaq bir bazardır. Ümumi və ya vahid bazar keyfiyyətcə daha yüksək iqtisadi inteqrasiya dərəcəsi hesab olunur. Araşdırmalardan görə bilərik ki, İqtisadi inteqrasiya prosesində beynəlxalq və regional yaxınlaşma olaraq iki meyl özünü göstərir. Beynəlxalq miqyasda yaxınlaşma dedikdə dünya ticarətində tətbiq edilən tarif və qeyri-tarif məhdudlaşdırmaları vasitəsilə aradan qaldırılması yolu ilə həyata keçirilməsi nəzərdə tutulur. Regional yaxınlaşma zamanı isə beynəlxalq yaxınlaşmadan fərqli olaraq regional iqtisadi birliklər yaradılmaqla üzv ölkələrin xarici iqtisadi

əlaqələri və ümumiyyətlə iqtisadi siyasəti uyğunlaşdırılır. Bunlardan başqa dünya ölkələri siyasi baxımdan da bir-birinə yaxınlaşır və milli siyasət uzlaşdırılır. Ümumən deyə bilərik ki, inteqrasiya prosesi az və ya çox mənada qarşılıqlı ticarətin liberallaşdırılması ilə başlanır. Bu halın icrası ilə əmtəələrin, xidmətlərin və kapitalın hərəkətinin məhdudlaşdırılmasını aradan qalxır. Bundan sonra isə tədricən vahid iqtisadi, hüquqi, informasiya məkanı yaranır. Yekun olaraq da qeyd edək ki, bu proseslərin ardıcıllığından yeni keyfiyyətli beynəlxalq iqtisadi münasibətlər meydana gəlir.

Açar sözlər: xarici ticarət siyasəti, inkişaf modeli, inteqrasiya, azad ticarət zonası, gömrük ittifaqı.

Hər birimizə məlum olduğu kimi iqtisadi proseslərin qloballaşması şəraitində ölkələr arasındakı iqtisadi əlaqələrin inkişaf etdirilərək genişlənməsi, asılılıqların möhkəmləndirilməsi, mümkün olan problemlərin həllərinin çətinləşməsi ilk olaraq milli iqtisadiyyatın təkmilləşdirilməsi və beynəlxalq iqtisadi əlaqələrin konseptual əsaslarının hazırlanmasından bilavasitə asılıdır [1,2]. İqtisadi əlaqələrin əsas mərhələsi kimi Xarici ticarət əlaqələrini göstərə bilərik. Məlum olduğu kimi Xarici ticarət siyasəti ölkələrin birbaşa ticarət balansına təsir edən, əmtəə və xidmət alqı-satqısını və idxal-ixrac proseslərini şərtləndirən dövlət siyasətidir. İqtisadi siyasi amillərin daimi olaraq dəyişməsi və dünya bazarında baş verən dəyişikliklərin ölkədaxili iqtisadiyyata təsiri dövlətin xarici iqtisadi əlaqələrin daima diqqət mərkəzində saxlamağa məcbur edir. Xarici ticarət balansının saxlanılması, düzgün şəkildə idarə edilməsi çox önəmlidir. Bu baxımdan da hər bir ölkənin iqtisadi idarəetmədə xarici ticarət balansına nəzarəti müsbət olaraq dəyərləndirə bilməkdir. İxracyönümlü siyasətin inkişaf etdirilməsi, güclü olması ölkənin davamlı olaraq inkişaf etməsinə və xarici ticarət balansında yüksəlişə səbəb olacaqdır. Bu aspektdən yanaşaraq inkişaf etmək istəyən hər bir ölkə xarici ticarət siyasətinin inkişafını ön planda təmin etməyə çalışır və əsasən ixracyönümlü olaraq fəaliyyətini möhkəmləndirir. Hər bir ölkənin öz daxili qanunları vardır ki, həmin qanunlara görə də ölkələr xarici ticarət əlaqələrini formalaşdırır. Bu da ölkə daxilində iqtisadi qanunvericilikdən, verilən fərmanlardan, keçirilən iqtisadi tədbirlərdən asılı olaraq dəyişir. Xarici ticari əlaqələrin qurulmasında, inkişaf etdirilməsində xarici ticarət siyasətinin əhəmiyyəti əvəzedilməzdir. Ölkələr arasında araşdırma apararkən statistik göstəricilərə əsasən görə bilərik ki, İEÖ-in siyasi fəaliyyətində ticarət əlaqələrinə təsirin daha çoxdur. Bir çox ölkələrdə təşkilatlararası orqanların yaranmasının zəruriliyi xarici iqtisadi problemlərin daxili iqtisadi inkişafla sıx əlaqəsindən yaranır. Bütün bunları nəzərə alaraqdan Dünya təcrübəsinə əsasən deyə bilərik ki, xarici ticarət siyasətinin və xarici iqtisadi əlaqələrin səmərəli fəaliyyəti üçün ölkədə nazirliklərin xarici əlaqələr komitəsi, beynəlxalq əlaqələr kooperasiyası yaradılmalıdır. Buna baxmayaraq deyə bilmərik ki, xarici ticarət əlaqələri tamamilə dövlət inhisarında olmalıdır. Qeyd edə bilərik ki, beynəlxalq iqtisadi inteqrasiya onu dövlətlərarası digər qarşılıqlı iqtisadi fəaliyyət formalarından fərqləndirən bir sıra əhəmiyyətli əlamətlərlə xarakterizə olunur ki, bunlar aşağıdakılardır: [5,11]

- üzv-ölkələrin iqtisadi siyasətinin razılaşdırılması;
- milli qanunvericiliklərin, norma və standartların yaxınlaşması;
- milli istehsal proseslərinin bir-birləri ilə qarşılıqlı qovuşması, region çərçivəsində istehsal prosesinin texnologiya vahidliyinin formalaşması;
- istehsalda, elm və texnikada beynəlxalq ixtisaslaşma və kooperasiyanın geniş inkişafı;
- üzv-ölkələrin iqtisadiyyatlarında baş verən struktur dəyişikliklər;
- inteqrasiya prosesinin məqsədyönlü tənzimlənməsi, regional idarəetmə orqanlarının inkişafı.

Zaman keçdikcə texnologiyanın yeni müstəvilərə keçməsi, inkişaf etdirilməsi səbəbindən yeni ehtiyacların yaranması prosesi baş verir, sifariş və çatdırılma proseslərinin yeni texnologiyalarla icra olunması böyük vüsət alır. Bu da əlbətdəki dünya dövlətləri arasında sıx əlaqələrin yaradılmasına, sosial-iqtisadi, siyasi və mədəni əlaqələrin artması xarici ticarətin öz çərçivəsi hüdudlarından kənara çıxması, turizm və xidmət sektorunun çoxşaxəli inkişafa nail olmasına səbəb olur. Nəticədə də məlumdur ki, xarici ticarət siyasəti inkişaf etdikcə rəqabət sürətlənir. Bundan əlavə region və beynəlxalq aləmdə tənzimləmə fəaliyyətinin vacibliyini özündə şərtləndirir. Əgər biz ölkənin iqtisadi fəaliyyətinin təşkili, həmçinin, bu fəaliyyətin inkişafına baxsaq və onu dünya

iqtisadiyyatına uyğunlaşma konsepsiyası kimi araşdırsaq görərik ki, burda iki mövqedən yanaşmanın araşdırılmasına ehtiyac vardır:

1. İlk mərhələ olaraq keçid dövrünün öz mahiyyəti etibarı ilə ikinci mərhələ olan real bazar mərhələsinə çatması üçün bazarın formalaşması və keyfiyyət aspektində təşəkkül tapmasının vacibliyi;

2. İkinci mərhələdə isə iqtisadi fəaliyyətin sosial iqtisadi məğzində və cəmiyyətin siyasi tərkibində dəyişikliklərin dünya ticarətinə və iqtisadiyyatına inteqrasiyasının funksional həyata keçməsinə şərait yaratması.

Əsas vacib olan amil kimi xarici ticarətin təşkil olunması zamanı onun təhlükəsizliyi təmin edilməlidir və formalaşdırılmalıdır. Bununla yanaşı olaraq dövlətin xarici ticarət fəaliyyətinin möhkəmləndirilməsi üçün əsas başlıca olan amil ticarətin nə dərəcədə inkişaf etməsi və necə təşkil olunması proseslərinə dayanır. Zaman keçdikcə, yeni texnologiyaların inkişaf etməsi, dünya dövlətlərinin artıq zamanın tələbinə uyğun məhsul tələb etməsi ölkənin xarici ticarət sferasında müəyyən dəyişikliklərin olmasını tələb edir. Əgər bir dövlət hər hansı ölkə xarici ticarətdə inkişaf etmək istəyirsə inkişaf yolunun düzgün şəkildə təyin olunması çox önəmli faktorlardandır. Bu səbəbdən də biz bu seçimlərdə əsas olaraq 3 inkişaf modelini bir-birindən fərqləndirə bilərik:

1. İxrac yönümlü iqtisadiyyatın inkişafı;
2. İstehsalın idxalı əvəz edəcək formada inkişafı;
3. İnteqrasiya.

Bu inkişaf modellərinin tətbiqi ölkələrin hər birinin ayrılıqda potensial gücündən asılı olaraq istifadə edilir. Yəni hər dövlət bu inkişaf modellərini özünə uyğun şəkildə tətbiq edir, uyğunlaşdırır. Bunlardan yola çıxaraqdan qeyd etmək istərdim ki, müasir texnika və texnologiyanın tətbiqinin, yeni malların yaradılmasının, istehsalın artırılmasına yönəldilən strategiyaların məhdudluğundan asılı olaraq ixrac yönümlü iqtisadiyyat dünya bazarında dəyişir. İnkişaf modellərinin hər biri rəqabət qabiliyyətliliyinin dayanıqlılığının olmasını tələb edir. Bu strategiyaların icrası zamanı bir məsələnin də diqqətdə saxlanılması çox önəmlidir, belə ki, idxalı əvəz edəcək istehsalın formalaşdırılması üçün bir sıra mal qruplarının idxalı prosesinə son vermək lazımdır. Bununla yanaşı hər birimiz çox yaxşı bilirik ki, bütün idxal olunan məhsulların istehsalını yaratmaq mümkün deyil. Buna görə də hər bir ölkə öz daxili istehsal gücünün hansı sahələrdə daha inkişafa meyilli olduğunu araşdırmalı və həmin sahəyə yaranmış olan tələbatın qarşılanmasını təmin etməyə yönəlməlidir. Ölkədaxili tələbatın ödənilməsi üçün mərhələli şəkildə investisiya qoyuluşlarına şərait yaradılmalı, həmçinin, xarici ticarətin strukturu möhkəmləndirilməlidir. Bu zaman bu prosesin icrasını elə təmin etmək lazımdır ki, sonda böyük itkilərin yaranmasına deyil inkişafayönəlik bir iqtisadi fəaliyyətin yaranmasına səbəb olsun [13]. Əlbətdə, iri həcmli yatırımların dövlətə xeyiri olduğu kimi, bu investisiyaların bəzi hallarda itgisi də çox zərərvericidir. Belə ki, iri həcmli investisiyaların qoyuluşu müxtəlif istehsal amillərinin xarici ticarət strukturunu müəyyənləşdirməyə imkan verir ki, bu zaman da əsassız dəyişikliklərin olması itkilərin artmasının qarşısını ala bilməyəcək səviyyəyə gətirib çıxarır. Müxtəlif dünya təcrübəsinə əsaslanaraq deyə bilərəm ki, bazar iqtisadiyyatına keçid dövründə idxalı əvəz edəcək istehsal sferasının yaradılması lazımi səviyyədə səmərəli olmur. Bununla yanaşı qeyd etmək istərdim ki, iqtisadi inteqrasiya çərçivəsində yaradılmış olan azad ticari bloklar regional çərçivədə inkişafa müsbət təsir yarada bilər. Qeyd etdiyim məsələlərlə yanaşı, xarici ticarət fəaliyyətinin inkişafında önəmli olan bir digər əsas məsələ də inteqrasiya proseslərinin inkişafına şərait yaratmaqdır. Bildiyimiz kimi inteqrasiyanın özünün fərqliliyi ilə yanaşı, öyrənilməsinə yanaşmalar da müxtəlifdir[14]. Dövrümüzdə hər birmizə məlum olduğu kimi, inteqrasiyanın tədqiqi ilə iqtisadçılar, sosioloqlar, politoloqlar, hüquqşünaslar və s. məşğul olurlar. Bir qayda olaraq elmi təhlil zamanı inteqrasiyanı bir neçə istiqaməti ayırırlar [17]. Qeyd etmək istərdim ki, xarici ticarət əlaqələrinin tədqiqində beynəlxalq iqtisadi inteqrasiya, beynəlxalq əmək bölgüsü, beynəlxalq istehsal kooperasiyası və istehsalın inteqrasiyalaşdırılması kimi anlayışlara xüsusi diqqət ayrılır. Xüsusi hal olaraq qeyd edə bilərik ki, beynəlxalq iqtisadi inteqrasiya – dərin dayanıqlı əlaqələrin inkişaf etdirilməsi və milli təsərrüfatlar arasında əmək bölgüsü, həmçinin, müxtəlif səviyyələrdə və müxtəlif formalarda onların təkrar istehsal strukturlarının qarşılıqlı fəaliyyəti əsasında ölkələrin təsərrüfat-siyasi birləşməsi prosesidir.

Beynəlxalq iqtisadi inteqrasiyanın baş verməsi ilə milli iqtisadiyyatın uzlaşması, uyğunlaşması, bununla da, vahid bir sistemə dönüşməsi prosesi baş verir. Bu da əlbətdə ki, beynəlxalq inteqrasiya iştirakçılarının məlum ərazi, iqtisadi, struktur və texnoloji yaxınlığını nəzərdə tutur və onun regional xarakterini izah edir. Bildiyimiz kimi, beynəlxalq əmək bölgüsü və beynəlxalq istehsal kooperasiyasının nəticəsi istehsalın beynəlxalq ümumiləşdirilməsi – istehsalın beynəlmiləlləşdirilməsidir. Bu iqtisadi cəhətdən çox faydalıdır ki, bunun da əsas iki səbəbi vardır. İlk olaraq onu deyə bilərik ki, bu vasitə ilə müxtəlif ölkələrin resurslarından rahat və effektiv şəkildə istifadə etməyə imkan verir, həmçinin bir digər tərəfdən, miqyas effektindən istifadə etməyə şərait yaradır. Gəlin biz xarici ticarət əlaqələrinin inkişafında qarşılıqlı ticarət proseslərinin inkişafı üçün ticari fəaliyyətlərə nəzər yetirək.

Məlum olduğu kimi dünya təsərrüfat sisteminə səmərəli daxil olmaq üçün ilk növbədə yaranmış şəraitdə adekvat, elmi cəhətdən əsaslandırılmış xarici ticarət – investisiya siyasətinin formalaşdırılması tələb olunur. Respublikamızın xarici siyasətinin əsasında duran vəzifə həm region dövlətləri ilə, həm də beynəlxalq birliyin digər dövlətləri ilə qarşılıqlı faydalı əməkdaşlığın təmin edilməsi hesab edilir. Bu əməkdaşlıq ölkəmizin yerləşdiyi bütün coğrafiyanı əhatə etməlidir.

Azad ticarət zonası. Azad ticarət zonasının iştirakçısı olan ölkələr öz aralarında qarşılıqlı ticarət zamanı gömrük rüsumlarında bir sıra güzəştlər edir, rüsumların azaldılması barədə razılığa gəlirlər. Bundan əlavə azad ticarət zonasının hər bir iştirakçı üçüncü tərəflər üçün şəxsi tariflər müəyyən edirlər, daha doğrusu, azad ticarət zonasının iştirakçıları qarşılıqlı ticarət baryerlərini ləğv edirlər, lakin bununla yanaşı üçüncü tərəflərlə iqtisadi əlaqələrdə tam fəaliyyət azadlığı təmin edirlər ki, bunlar da rüsumların ləğvi və ya yeni rüsumların tətbiqi, iqtisadi razılaşmaların bağlanmasıdır.

Gömrük ittifaqı. Burada da azad ticarət prinsipi saxlanır, lakin üçüncü ölkələrə münasibətdə gömrük tarifi tətbiq olunur. Bu zaman, bu inteqrasiya birliyi çərçivəsində onun üzvlərinin üçüncü ölkələrlə xarici ticarət əlaqələri kollektiv şəkildə müəyyən olunur. İqtisadi inteqrasiyanın üçüncü səviyyəsi olaraq Gömrük ittifaqı ölkələrarası siyasi ticari fəaliyyətin qarşılıqlı şəkildə formalaşdırmasını təmin edir. Bu da, öz vahid regional məkanını daha etibarlı şəkildə qorumağa, müdafiə etməyə və beynəlxalq arenada mövqelərini gücləndirməyə şərait yaradır.

Ümumiləşdirərək qeyd edilənlərdən onu qeyd edə bilərəm ki, iqtisadi inteqrasiya – azad ticarət, gömrük kompleksi,həmçinin bunlarla yanaşı, işçi qüvvəsinin, kapitalın və xidmətlərin ölkələrarası azad hərəkəti prinsipinin qorunduğu ümumi bazardır. Ümumi və ya vahid bazar dedikdə isə iqtisadi inteqrasiyanın keyfiyyətcə daha yüksək dərəcəsi kimi nəzərdən keçirilir.

Ədəbiyyat

1. Abbasbəyli A.N. Müasir beynəlxalq münasibətlər və qloballaşma. Bakı: Nurlan, 2009. 640 s.

2. Əhmədov M.A. Qloballaşma və milli iqtisadiyyatın formalaşması. Bakı: Azərnəşr, 2003. 520 s.

3. Şəkərəliyev A.Ş., Nuriyev C.Q., Əliyev AA Gömrük Təşkilatı və İdarəedilməsi. Bakı: Gənclik, 2003, 316 s.

4. Shrepler H.A. Beynəlxalq iqtisadi təşkilatlar: Directory. M. Beynəlxalq Münasibətlər, 2005, 454 s

5. Abbasov Ç. "Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları". Bakı: 2005

6. Əhmədov MM Azərbaycan Xarici Ticarət Əlaqələrinin əsas istiqamətləri İqtisadiyyat və Həyat Dergisi, 2003, № 4-6, s. 115-117

7. Əliyev Aydın "Azərbaycanın iqtisadi siyasəti. Azərbaycanın xarici ticarəti iqtisadi münasibətlər. Dərs kitabı. Qanun, Bakı-2003.

8. İ. Feyzullabeyli. Ticarət iqtisadiyyatı. 2006

9. Q.İbadoğlu. "Azərbaycan və Dünya Ticarət Təşkilatı". 2006

10. Zahid Məmmədov "Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələri" .Bakı- 2004

11. Musayev A. "Qloballaşma bazarlarına inteqrasiya şəraitində Azərbaycanın qlobal maliyyəsi". Bakı: 2006.

12. Akopova ES Voronkova ON, Gavrilko NN Dünya iqtisadiyyatı beynəlxalq iqtisadi əlaqələr. - Rostov-na-Donu: "Feniks", 2001

13. Sənayedəki iqtisadi fəaliyyətin təhlili: Dərs vəsaiti /L.A. Богдановская, Г.Г. Vinogorov, OF Migun et al.; General altında. ed. V.İ.Strajova. -Minsk: Yüksək. shk., 2005. 363 s.

14. Belyakov GP İqtisadiyyatda inteqrasiya prosesləri: problemlər, axtarış, həll yolları. Monoqrafiya / G.P. Belyakov M.: İzd -vo MAI; Yaxşı söz, 2003.-243s.

15. Belyanikov A.Yu. MDB ölkəsinin inteqrasiya olunmuş qarşılıqlı fəaliyyət istiqamətləri. Monoqrafiya. Elmi kitab. 2012 95 s.

16. Mantusov VB Müasir dünya münasibətlərində beynəlxalq iqtisadi inteqrasiya: dərs vəsaiti. UnityDana 2012 63s.

17. Ахвледиани Ю.Т. М.ЮНИТИ-ДАНА. 2012, - 255 с

18. И.В.Липсин, В.В.Косов. Инвестиционный проект: методы подготовки и анализа. Москва 1995 г.

19. А.С.Булатова. Экономика. Москва 1996 г.

20. Международные экономические отношения / под редакцией А.И.Евдокимова – Москва: Проспект, 2004.

A B S T R A C T

Keys words: **foreign trade policy, development model, integration, free trade zone, customs union.**

In general, I can say that economic integration is a free market, a customs complex, but also a common market in which the principle of free movement of labor, capital and services is preserved. The overall or single market is considered to be a qualitatively higher degree of economic integration. Research shows that in the process of economic integration, there are two tendencies: international rapprochement and regional rapprochement. International rapprochement means the elimination of tariff and non-tariff restrictions on world trade. In the process of regional rapprochement, in contrast to international rapprochement, the foreign economic relations and economic policies of member countries in general are harmonized by the creation of regional economic unions. In addition, the countries of the world are getting closer politically and national policies are being coordinated. In general, we can say that the integration process begins with the liberalization of mutual trade in one way or another. This eliminates restrictions on the movement of goods, services and capital. After that, a single economic, legal and information space is gradually emerging. In conclusion, it should be noted that a new quality of international economic relations emerges from the sequence of these processes.

Р Е З Ю М Е

Ключевые слова: внешнеторговая политика, модель развития, интеграция, зона свободной торговли, таможенный союз.

В целом могу сказать, что экономическая интеграция - это свободный рынок, таможенный комплекс, но также и общий рынок, на котором сохраняется принцип свободного передвижения рабочей силы, капитала и услуг. Общий или единый рынок считается качественно более высокой степенью экономической интеграции. Исследования показывают, что в процессе экономической интеграции наблюдаются две тенденции: международное сближение и региональное сближение. Международное сближение означает отмену тарифных и нетарифных ограничений в мировой торговле. В случае регионального сближения, в отличие от международного сближения, создание региональных экономических союзов гармонизирует внешнеэкономические отношения и экономическую политику стран-членов в целом. Кроме того, страны мира сближаются в политическом плане, согласовывается национальная политика. В целом можно сказать, что интеграционный процесс начинается с либерализации в той или иной мере взаимной торговли. Это снимает ограничения на движение товаров, услуг и капитала. После этого постепенно формируется единое экономическое, правовое и информационное пространство.

В заключение следует отметить, что новое качество международных экономических отношений вытекает из последовательности этих процессов.

AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİSİNDƏN KEÇƏN BEYNƏLXALQ NƏQLİYYAT DƏHLİZLƏRİNİN İNKİŞAFI

İsmayılova Gülarə Köçəri qızı
ADİU (UNEC)
gulare.ismayilova1@gmail.com

Xülasə

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında Azərbaycan Respublikasının nəqliyyat, tranzit və loqistika infrastrukturunun təkmilləşdirilməsi məsələsinə də baxılmışdır. Konsepsiyanın işlənib-hazırlanmasında əsas məqsəd Azərbaycan Respublikasını regionun ticarət mərkəzinə çevirməkdir. Bunun üçün ölkənin strateji coğrafi mövqeyindən səmərəli istifadə etmək, tranzit və nəqliyyat xidmətlərinin inkişafı, bölgələrdə logistika mərkəzlərinin yaradılması nəzərdə tutulur. Nəticədə isə, ökənin istehsal və investisiya mərkəzi kimi cəlbediciliyi artacaq, yeni biznes və məşğulluq imkanlarının yaranmasına yol açılacaqdır. Yerli və beynəlxalq daşımaların idarə olunması mexanizmi təkmilləşdiriləcək, ölkənin nəqliyyat sisteminin beynəlxalq nəqliyyat sisteminə inteqrasiyası genişləndiriləcəkdir.Bütün bu məsələrər məqalədə öz əksini tapmış, araşdırılmış, tövsiyyələr hazırlanmış və təkliflər verilmişdir.

Açar sözlər: tranzit, loqistika, nəqliyyat-ekspedisiya xidmətləri, Şərq-Qərb nəqliyyat dəhlizi, Şimal-Cənub nəqliyyat dəhlizi, beynəlxalq yük daşımaları, intermodal daşımalar, TRASEKA.

Məlum olduğu kimi "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında qeyri-neft sektorunun inkişafı məsələsinə baxilmış və göstərilmişdir ki,2020-ci ilədək qeyri-neft sektorunun iqtisadiyyatda rolunun daha da artırılması üçün lazımi tədbirlər görülsün[4]. Qeyd etmək lazımdır ki,bu sektorda nəqliyyat sahəsi, xüsusilə də tranzit yükdaşımaları mühüm əhəmiyyət kəsb edir. Bu səbəbdən ölkənin tranzit potensialının artırılması istiqamətində bir sıra irimiqyaslı layihələrin işlənib hazırlanması və həyata keçirilməsi nəzərdə tutulur və bu sahəyə iri həcmli dövlət investisiyaları yönəldilir.Buna misal olaraq Bakı Beynəlxalq Dəniz Ticarət Limanının, Bakı Gəmiqayırma Zavodunun tikintisini, Bakı–Böyük Kəsik dəmir yolunun yenidən qurulmasını və Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin inşasını,eləcə də beynəlxalq hava limanlarının tikintisini göstərmək olar. Beləliklə Azərbaycanın nəqliyyat infrastrukturu yenidən qurulmaqla yanaşı daha da güclənir və nəticədə ölkəmizin tranzit potensialı qat-qat genişlənmiş olur.

Məlum olduğu kimi Azərbaycan Respublikası öz əlverişli coğrafi yerləşməsinə görə Asiya və Avropa qitələri arasında körpü rolunu oynayır və Avrasiya məkanında aparıcı rola malik olan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərində Azərbaycan Respublikası əhəmiyyətli yer tutur.Qeyd etmək lazımdır ki, Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi ölkəmiz üçün böyük siyasi və iqtisadi əhəmiyyətə malikdir.

Bu səbəbdən Azərbaycan mövcud nəqliyyat potensialını və tranzit imkanlarını artırmaq, bu sahədə öz rəqabətqabiliyyətliliyini yüksəltmək məqsədilə böyük sərmayələr qoyur, ölkə daxilində və regionda iri miqyaslı infrastruktur layihələri işlənib hazırlayır və həyata keçirir. Bu layihələrin əsas məqsədi Asiyadan Avropaya daşınan yüklərin həm həcmini artırmaq,həm də, həmin yüklərin qısa müddət ərzində çatdırılmasını təşkil etməkdir.

Nəzərə almaq lazımdır ki, Şərq-Qərb nəqliyyat dəhlizinin coğrafi mövqeyi, multimodal nəqliyyat infrastrukturunun mövcudluğu və iqtisadi səmərəliliyi onun əhəmiyyətini daha da artırır. Eyni zamanda istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu və Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Şərq-Qərb nəqliyyat dəhlizinin əsas seqmentlərinə çevrilərək yalnız layihədə iştirak edən ölkələrin deyil, bütün regionun inkişafına müsbət təsir göstərmək imkanına malikdir.

Digər tərəfdən nəzərə almaq lazımdır ki, Şimal-Cənub nəqliyyat dəhlizi də öz əhəmiyyətinə görə Azərbaycan Respublikasının iqtisadiyyatında xüsusi yer tutur.Bu səbəbdən həmin istiqamətdə mövcud olan avtomobil nəqliyyatı ilə yanaşı dəmir yolu infrastrukturunun da inkişaf etdirilməsi, o cümlədən Qəzvin-Rəşt-Astara (İran) – Astara (Azərbaycan) dəmir yolu xətti layihəsinin reallaşdırılması nəzərdə tutulur.

Qeyd etmək lazımdır ki, Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı layihəsi çərçivəsində, həmçinin regionda müasir yükdaşıma tələblərinə cavab verən iri logistik mərkəzin yaradılması üzrə layihələr işlənib hazırlanır. Bu mərkəz regional logistik qovşaq funksiyası yerinə yetirməklə həm Şərq-Qəqb,həm də Şimal-Cənub nəqliyyat dəhlizlərinin səmərəliliyinin maksimum artırılmasına və onların potensialından maksimum dərəcədə yararlanmağa imkan verəcəkdir.

Eyni zamanda Azərbaycan Respublikası İKT sahəsində Trans-Avrasiya Super İnformasiya Magistralı (TASİM) layihəsini də irəli sürüb. Bu layihə Qərbi Avropadan Şərqi Asiyayadək Avrasiya ölkələrini əhatə edən transmilli fiber-optik internet xəttinin çəkilməsi məsələsini nəzərdə tutur.Layihə çərçivəsində Frankfurtdan Honq Konqa istiqamətlənən əsas tranzit xəttinin qurulması planlaşdırılır.Düşünülür ki, bu xətt Avropanın və Asiyanın ən böyük informasiya mübadiləsi mərkəzlərini birləşdirərək Şərq-Qərb nəqliyyat dəhlizinin infrastrukturunun təkmilədirilməsinə imkan yaradacaqdır.Bu nəqliyyat dəhlizinin vasitəsilə yüklərin Çin, Qazaxıstan, Azərbaycan, Gürcüstan və Türkiyə ərazisindən keçirilərək Almaniyaya çatdırılması nəzərdə tutulur.

Qeyd edək ki, Azərbaycanın tranzit daşımaları sahəsində potensialından daha geniş və səmərəli istifadə edilməsi məqsədi ilə Azərbaycan Prezidentinin 21 oktyabr 2015-ci il tarixli Fərmanı ilə Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası yaradılıb. Koordinasiya Şurasının əsas vəzifələri tranzit yüklərin daşınması sahəsində vahid, çevik və şəffaf tarif siyasətinin həyata keçirilməsi, sərhədkeçmə və prosedurların sadələşdirilməsi, həmçinin bu sahədə fəaliyyət göstərən dövlət qurumları arasında əlaqələndirmə işlərinin təmin edilməsidir.

Bu məqsədlə dəmir yolu, dəniz nəqliyyatı ilə tranzit yüklərin daşınması, tranzit yüklərlə bağlı liman qurğularının istismarı, dəniz terminalları tərəfindən yükaşırma və dəniz limanında göstərilən digər xidmətlərin, nəqliyyat-ekspedisiya xidmətlərinin tariflərinin optimallaşdırılması, tranzit yükdaşıma müddətlərinin azaldılması, yükdaşımalar üzrə daşıma qaydalarının, prosedurlarının şəffaflaşdırılması və asanlaşdırılması üzr təkliflər işlənib hazırlanır və həyata keçirilir.Əlbətdəki,görülən bu tədbirlərin əsas məqsədi bu sahədə ölkənin rəqabət qabiliyyətinin artırılmasıdır.

Qeyd etmək gərəkdir ki, Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xətti layihəsinin reallaşması Azərbaycan üçün xüsusi əhəmiyyətə malikdir. İqtisadi ekspertlərin fikrincə, BTQ dəmir yolu xətti bu gün özündə bütöv bir brendi formalaşdırır. Belə ki, dəmir yolu xətti ilə yüklərin daşınması üçün Ələt qəsəbəsi yaxınlığında yeni beynəlxalq yük limanı inşa edilir. Bu liman vasitəsilə il ərzində 11,6 mln. yükün daşınması nəzərdə tutulur. Bildiyimiz kimi BTQ Azərbaycan neftini dünya bazarına daşıyan Bakı-Tbilisi-Ceyhan kəmərindən sonra regionun ikinci ən böyük layihəsidir. Bu layihə Azərbaycan üçün həm siyasi, həm iqtisadi, həm də strateji əhəmiyyətə malikdir. BTQ xəttinin işə düşməsi ilə dəmiryolu vasitəsi ilə Azərbaycan beynəlxalq nəqliyyat dəhlizlərinə və Türkiyəyə birbaşa çıxış əldə etmiş oldu. BTQ-nin umumı uzunlugu 838 km təşkil edir. Onun 503 km-i Azərbaycan, 259 km-i Gürcüstan, 76 km-i isə Türkiyə ərazisindən keçir [1].

Digər tərəfdən isə ”Kəmər və Yol” təşəbbüsünün Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb etdiyini qeyd etmək lazımdır. Burada Azərbaycanın əsas məqsədi “Trans-Xəzər Tranzit Dəhlizi”ni “Kəmər və Yol” layihəsinə inteqrasiya etdirmək və bu layihədən ölkəmiz üçün böyük səmərə əldə etməkdir. “Trans-Xəzər Tranzit Dəhlizi”nin başlica üstünlüyü nədədir?

“Trans-Xəzər Tranzit Dəhlizi”ilk növbədə siyasi-iqtisadi sabitlik və təhlükəsizlik, coğrafi-iqtisadi, məsafə və vaxt baxımından çox əlverişlidir.Digər tərəfdən layihənin regional əməkdaşlıqda tutduğu yer və dəhliz boyunca infrastrukturun mövcudluğu, tranzit potensialının reallaşdırılması onun əhəmiyyətini dahada artırır.

Qeyd etmək lazımdır ki,Azərbaycan İpək yolunun ölkəmizə aid olan hissəsinin yenidən qurulmasında həmişə fəal iştirak etmiş, Şərq-Qərb istiqamətində reallaşdırdığı Bakı-Tbilisi-Ceyhan və Bakı-Supsa neft kəmərləri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Cənub Qaz Dəhlizi layihəsi

çərçivəsində TANAP və TAP qaz kəmərləri vasitəsilə bu dəhlizin enerji komponentini təmin etmişdir. Beləki,Azərbaycanda 6 beynəlxalq hava limanı və 11 min km avtomobil yolları tikilib istifadəyə verilmişdir. Bununla yanaşı 2017-ci ildə Bakı-Tbilisi-Qars dəmiryolu istismara verilib və eyni zamanda Azərbaycanın böyük yük təyyarə parkı və Xəzər dənizində ən iri dəniz donanması mövcuddur. Nəqliyyat infrastrukturunun mühüm hissəsi Xəzər dənizində ən böyük liman olan Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanıdır. Gələcəkdə limanın buraxılış qabiliyyətinin 15 milyon tona çatdirilması nəzərdə tutulur. Perspektivdə isə limanın buraxılış qabiliyyətinin 25 milyon ton yükə və 500 min konteynerə çatdırılması planlaşdırılır.Yaradılmış bu infrastruktur regiona və xüsusilə Ələtdə yaradılacaq Xüsusi İqtisadi Zonaya böyük iqtisadi səmərə verəcək. Nəticədə ölkəmizin dünya təsərrüffatına səmərəli inteqrasiyası təmin edlmiş olacaq **[1]**.

Maraqlısı odur ki, bu layihəyə Mərkəzi Asiya və Uzaq Şərq ölkələri də maraq göstərməyə başlayıblar:Türkmənistan,Qazaxıstan, Özbəkistan, Əfqanıstan və Tacikistan. Rusiya kütləvi informasiya vasitələrinin verdiyi məlumatlara görə isə, Bakı-Tbilisi-Qars dəmir yolu ilə ABŞ-ın hərbi xarakterli yükləri də daşına bilər. Həmin qaynaqlar hesab edirlər ki, amerikalı hərbçilər öz hərbi əmlaklarını (döyüş texnikası, silahlar, ləvazimat və təchizat vasitələri) Əfqanıstandan çıxarmaq üçün "Qafqaz dəhlizi"ndən istifadə etmək istəyirlər.Belə ki,yüklərin "Qafqaz dəhlizi" Əfqanıstanın Herat məntəqəsindən götürülüb, Kuşka və Marıdan (Türkmənistan) keçməklə, dəmiryolu vasitəsilə Türkmənbaşına, sonra Xəzər dənizinidən bərə vasitəsilə Bakıya, daha sonra da dəmiryolu ilə Batumiyə və ya Türkiyəyə çatırilması nəzərdə tutulur.

Digər tərəfdən qeyd etmək lazımdır ki, 2005-ci ildə Azərbaycan ”Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizi haqqında Saziş”ə qoşulub. Bu sazişə görə “Şimal-Cənub” beynəlxalq nəqliyyat dəhlizi Avropa ölkələrinin, Rusiyanın, Orta Asiya və Qafqaz regionlarının Fars körfəzi və Hindistana çıxışına, Xəzəryanı ölkələrin Qara dəniz limanları ilə ticarət əlaqələrinin daha da genişləndirilməsinə imkan yaradacaqdır. Bu dəhliz vasitəsilə Cənubi-Şərqi Asiyadan Avropaya yüklərin daşınması 10-15 faiz ucuz başa gələcəyi düşünülür.Beləki, “Şima-Cənub”dəhlizi yüklərin çatdırılması məsafəsini 800 km -ə və çatdırılma müddətını isə 20 günə qədər qısaldır. Eyni zamanda yüklərin bu yolla daşınması daha təhlükəsizdir. ”Şimal-Cənub” dəhlizi İran və Rusiya arasındakı daşınma məsafəsini 1000 km-ə qədər qısaldır,daşınma xərclərini isə 50%-ə qədər ucuz edir. Onu da qeyd etmək yerinə düşərdi ki,"Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi həm də çox mühüm geosiyasi layihədir. O,Qafqaz regionunda və ümumilikdə Xəzər bölgəsində Azərbayca Respublikasının mövqelərinin möhkəmləndirilməsi üçün yeni imkanlar açır, Ermənistanın beynəlxalq nəqliyyat dəhlizləri ilə bağlı planlarının isə üzərindən xətt çəkir**[1]**.

Azərbaycan öz geosiyasi mövqeyinə görə Rusiyanın Cənuba, İranın isə Şimala doğru çıxışını saxlamaqla regiondakı sabitliyi təmin edir və mövcud risklərin qarşısının alınmasında mühüm rol oynayır.Bir sözlə Azərbaycan regionda **“**Qitələrarası körpü”statusuna malikdir. Geosiyasi riskərin getdikcə artdığı və qlobal miqyasda rəqabət və qarşıdurma meyillərinin gücləndiyi bir dövrdə Azərbaycanın bu rolu ölkənin sabit məcrada inkişafına yeni təminatlar yaradır və onun perspektiv inkişafina yeni yollar açır**.**

Beynəlxalq nəqliyyat dəhlizləri, xüsusən “Şimal-Cənub” nəqliyyat dəhlizi çox mürəkkəb gesosiyasi məkanda yer alan Azərbaycan Respublikasına öz mövqeyinin möhkəmləndirilməsinə və nəqliyyat sektorunda getdikcə kəskinləşən beynəlxalq rəqabətdən özünü müdafiə etməyə imkan verəcəkdir. Eyni zamanda ilkin hesablamalara görə bu dəhliz vasitəsilə yalnız Rusiya və İran arasında yüklərin daşınması Azərbaycan büdcəsinə 60 milyon dollar qədər vəsait cəlb etmək imkanına malikdir.Digər tərəfdən isə yeni iş yerlərinin açılmasını təmin etməklə, dolayı yolla Azərbaycan iqtisadiyyatını stimullaşdıracaqdır.Nəticə olaraq qeyd etmək lazımdır ki,Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizləri nəqliyyat sisteminin inkişafının əsas prioritetlərindən olmaqla yanaşı, ölkənin iqtisadi qüdrətinin artırılmasına yönəldilmiş müstəqil sahəyə çevrilir**[6]**.

“Azərbaycan-2020:gələcəyə baxış” İnkişaf Konsepsiyasında Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin formalaşmasında və inkişafında əsas vəzifələr kimi aşağıdakılar nəzərdə tutulmuşdur:

– yüklərin və sərnişinlərin ölkə ərazisində maneəsiz hərəkətinin təmin edilməsi üçün Avropa-Asiya nəqliyyat sistemlərinin inteqrasiyası məqsədilə nəqliyyat infrastrukturunun razılaşdırılmış şəkildə inkişaf etdirilməsi;

– nəqliyyat proseslərinin optimallaşdırılması;

– daxili daşımalarda milli nəqliyyat şəbəkəsinin yüklənmə dərəcəsinin artırılması və mövcud ehtiyatlardan daha səmərəli istifadə edilməsi hesabına yük və sərnişin daşımaları tariflərinin aşağı salınması üçün şəraitin yaradılması;

– intermodal nəqliyyat xəttində ayrı-ayrı nəqliyyat növləri arasında qarşılıqlı əlaqənin səmərələşdirilməsi;

– beynəlxalq nəqliyyat dəhlizləri üzrə investisiya layihələrinə investorların cəlb edilməsi üçün münbit şəraitin yaradılması;

– beynəlxalq turizmin inkişafına yardım edilməsi;

– ölkə üçün strateji əhəmiyyət daşıyan nəqliyyat dəhlizləri infrastrukturunun inkişafı layihələrinə tətbiq edilən vergi yükünün azaldılması;

– azad iqtisadi zonaların yaradılması və inkişafı;

– nəqliyyat-logistik idarəetmə mərkəzinin yaradılması;

– tranzit daşımaları sahəsində, ərazisində nəqliyyat dəhlizləri yerləşən ölkələrlə beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi;

– respublikanın ərazisindən keçən nəqliyyat dəhlizlərinə birləşən yerli əhəmiyyətli yolların və yol infrastrukturlarının yenidənqurulması və inkişaf etdirilməsi **[4]**.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının nəqliyyat sektorunun inkişafı-CARES www.carecprogram.org.

2. Azərbaycan Respublikasında kiçik və orta müəssisələr üzrə araşdrma. Bakı, 2009.

3. ”Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı.

4. “Azərbaycan- 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası. Bakı, 2012.

5. ”İdxal olunmuş malların kabotaj daşınması Qaydası” Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı, 2012-ci il 6 dekabr.

6. Milli informasiya portalı. https://www.milli.az/.

7.

Резюме

Исмаилова Г.К.

Развитие международных транспортных коридоров, проходящих по территории Азербайджанской Республики

В концепции развития «Азербайджан 2020, взгляд в будущее», утвержденной Указом Президента Азербайджанской Республики от 29 декабря 2012 года, рассматривается вопрос улучшения транспортной, транзитной и логистической инфраструктуры Азербайджанской Республики. Основной целью разработки концепции является превращение Азербайджанской Республики в торговый центр региона, предусматривающее эффективное использование стратегического географического положения страны, развитие транзитных и транспортных услуг, создание логистических центров в регионах. В результате страна станет более привлекательной как производственный и инвестиционный центр и появятся новые возможности для бизнеса и занятости. Будет усовершенствован механизм управления внутренними и международными перевозками, а интеграция транспортной системы страны в международную транспортную систему будет расширена.

Ключевые слова: *транзит, логистика, транспортно-экспедиторские услуги, транспортный коридор Восток-Запад, транспортный коридор Север-Юг, международные грузоперевозки, интермодальные перевозки, ТРАСЕКА*

Summary
Ismayilova G.K.
Development of International Transport Corridors Passing Through the Territory of the Republic of Azerbaijan

The concept of development of "Azerbaijan 2020, vision of the future", approved by the Decree of the President of the Republic of Azerbaijan dated December 29, 2012, also considers the issue of improving the transport, transit and logistics infrastructure of the Republic of Azerbaijan. The main purpose of the development concept is the transformation of the Republic of Azerbaijan into a shopping center of the region, providing effective use of the strategic geographical position of the country, the development of transit and transportation facilities. As a result, the country will become more attractive as a production and investment center, and new opportunities for business and employment will appear. There will be an improved management mechanism for internal and international transportation, and the integration of the transport system of the country into the international transport system will be expanded.

Key words: *transit, logistics, transport and forwarding services, East-West transport corridor, North-South transport corridor, international cargo transportation, intermodal transportation, TRACECA.*

AZƏRBAYCAN İQTİSADİYYATININ DÜNYA BAZARINA İNTEQRASİYA PROSESLƏRİ

L.Ə.Ələkbərova, Baş müəllim
Azərbaycan Memarlıq və İnşaat Universiteti
ORCİD İD: 0000-0002-3898-3941
ALEKPEROVA.LALA@MAIL.RU

Xülasə

Məqalədə ölkəmizin iqtisadiyyatının dünya bazarına inteqrasiya olunması yollarının müasir vəziyyəti araşdırılmış və təhlil edilmişdir. İnteqrasiyanın əsas rola malik olması ilə əlaqəli olaraq dünya ölkələri və bu ölkələrin yaratdığı beynəlxalq, yerli və regional səviyyəli təşkilatlar haqqında iqtisadi yöndə biliklərin öyrənilməsi zəruri əhəmiyyət kəsb edir. Başqa tərəfdən də milli iqtisadi sistemin dünya təsərrüfat sisteminə birləşməsi onun dünya iqtisadiyyatına inteqrasiyasının əsas tərkib hissəsi kimi fəaliyyət göstərməsini zəruri edir. Bu baxımdan dünya iqtisadiyyatının müasir problemlərinin müəyyən olunmasına böyük ehtiyac vardır və məqalə mövzusu mühüm aktuallıq kəsb edir.

Açar sözlər: milli iqtisadiyyat, inteqrasiya, dünya bazarı, xarici iqtisadiyyat, davamlı inkişaf

Müasir dövr üçün dövlətlərarası münasibətlərdə beynəlxalq iqtisadi inteqrasiya vacib rola malikdir. Dünyanın hər bir ölkəsində iqtisadi potensial müxtəlifdir və bu fərq daim nəzərə çarpacaq şəkildə inkişaf edir. Dünya iqtisadiyyatının subyekti kimi ayrı-ayrı dövlətlərlə ərazi və beynəlxalq əmək bölgüsü obyektiv zərurət kimi istehsal-təsərrüfat fəaliyyətini bir-birindən nə qədər ayrı təcridləşdirsə də, onların qarşılıqlı asılılığını bir o qədər gücləndirir. Dünya ölkələrinin müstəqil milli iqtisadiyyatlarının öyrənilməsi zərurəti meydana çıxır. Belə ki, müasir dövrdə dövlətlərarası münasibətlərdə beynəlxalq iqtisadi inteqrasiya mühüm rola malikdir. İnteqrasiyanın başlıca rola malik olması ilə əlaqədar olaraq dünya ölkələri və onların yaratdığı yerli, regional və beynəlxalq səviyyəli təşkilatlar haqqında iqtisadi biliklərin öyrənilməsi böyük əhəmiyyət kəsb edir. Digər tərəfdən də milli iqtisadi sistemlərin dünya təsərrüfüt sisteminə qovuşması onun dünya iqtisadiyyatına inteqrasiyasının ayrılmaz tərkib hissəsi kimi fəaliyyət göstərməsini tələb edir. Bu baxımdan isə dünya iqtisadiyyatının müasir problemlərinin öyrənilməsinə böyük ehtiyac vardır.

Dünya iqtisadiyyatının həm bu, həm də daha mürəkkəb və ziddiyyətli inkişaf dinamikası haqqında elmi biliklər əldə etmək vacib məsələlərdəndir.

Azərbaycan Respublikasının yeni çalarlarla zənginləşdirilmiş sosial-iqtisadi siyasətin strateji məqsədləri sərbəst bazar münasibətlərinə və özünüinkişaf qabiliyyətinə malik olan sosialyönümlü, diversifikasiya olunmuş milli iqtisadiyyatın formalaşdırılması və dünya təsərrüfat sisteminə inteqrasiyasının təmin olunmasıdır.

Davamlı və dinamik inkişaf məntiqinə əsaslanan bu siyasətin həyata keçirilməsi nəticəsində qazanılmış uğurlar daha da möhkəmləndirilmiş, makroiqtisadi sabitlik qorunub saxlanılmış, iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sahələrinin, regionların inkişafı sürətlənmiş, strateji valyuta ehtiyatlarının səmərəli istifadəsi təmin olunmuş, milli valyutanın sabitliyi, bank sisteminin etibarlılığı artırılmış, konservativ xarici borclanma strategiyası həyata keçirilmiş, sahibkarlığa dövlət dəstəyi gücləndirilmiş, əhalinin sosial rifahı davamlı olaraq yaxşılaşmışdır.

Ölkənin regionlarında mövcud olan iqtisadi potensialdan tam və səmərəli istifadə olunmasını, sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılmasını və iqtisadiyyatın tarazlı inkişafını təmin etmək məqsədilə uğurla icra olunan dövlət proqramları ölkə başçısının regionların inkişafına göstərdiyi diqqətin bariz nümunəsi olmaqla, regionların kompleks inkişafına, o cümlədən infrastruktur sahələrinin bərpası və genişləndirilməsinə, yeni istehsal və emal müəssisələrinin, sosial-mədəni obyektlərin yaradılmasına, yeni iş yerlərinin açılmasına, əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsinə səbəb olmuşdur.

Respublikamızın iqtisadi inkişafının əsas məsələlərindən biri xarici iqtisadi əlaqələrin düzgün istiqamətdə qurulması zərurətini yaradır. Azərbaycan hazırda dünyanın 84 ölkəsi ilə qarşılıqlı iqtisadi-ticarət əlaqələrinə malikdir. Ölkənin iqtisadi potensialı, xammal və mineral ehtiyatlarla zənginliyi, təbii şəraiti və əlverişli iqtisadi-coğrafi mövqeyi əməkdaşlıq imkanlarını artırır. Yeni iqtisadi sistemə keçidi normal həyata keçirmək üçün Azərbaycan daimi olaraq beynəlxalq inteqrasiyaya qoşulmalı və öz potensial imkanlarından istifadə edərək orada fəal iştirak etməlidir [2].

Azərbaycanda bazar iqtisadiyyatına keçid prosesi özəl mülkiyyətə əsaslanan on minlərlə müəssisə, cəmiyyət, birlik, təşkilatlara vasitəsiz xarici ticarət əlaqəsi yaratmağa və valyuta-təsərrüfat əməliyyatları aparmağa imkan verdi. Artıq istənilən müəssisə xarici iqtisadi fəaliyyətlə məşğul olmaq hüququna malikdir. Böyük təbii sərvətlərə və iqtisadi ehtiyatlara malik olan Azərbaycanın iqtisadi inkişafı, həlledici dərəcədə onun ümumdünya təsərrüfatı sisteminə səmərəli inteqrasiyası prosesindən asılıdır. Beynəlxalq təcrübə təsdiq edir ki, iqtisadiyyatın beynəlmiləlləş-dirilməsində xarici investisiya qoyuluşunun böyük üstünlükləri vardır. İnvestisiya qoyuluşu respublikanın milli iqtisadiyyatı ilə dünya iqtisadiyyatı arasında daha səmərəli inteqrasiyanı təmin edir. Ölkənin iqtisadi inkişafında xarici iqtisadi investisiyanın digər rolu, onun sahibkarlıq fəaliyyətinə müsbət təsiri ilə bağlıdır.

Son 15 il ərzində Azərbaycan böyük və şərəfli yol keçib. Ölkəmiz bütün sahələrdə böyük uğurlara imza atıb, Azərbaycanın beynəlxalq nüfuzu yüksəlib.

Bu gün Azərbaycan regionda aparıcı iqtisadi gücə çevrilib. Azərbaycanın təşəbbüskarı olduğu, tərəfdaşları ilə birgə həyata keçirdiyi bir sıra irimiqyaslı layihələr nəinki regionun, eləcə də qonşu bölgələrin inkişafına mühüm töhfə verir. Bu layihələr sırasında Bakı-Tbilisi-Ceyhan neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz boru xətti, ötən il istismara verilmiş Bakı-Tbilisi-Qars dəmir yolunu, hazırda reallaşdırılan, Avropanın enerji təhlükəsizliyini təmin edəcək nəhəng "Cənub Qaz Dəhlizi" layihəsi, o cümlədən Transanadolu (TANAP) və Transadriatik (TAP) boru kəmərlərinin tikintisini, Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsini, bundan başqa, Azərbaycanın "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin reallaşdırılması üzrə gördüyü işləri göstərmək olar.

Bütün bunlarla yanaşı, ölkədə iqtisadi islahatlar davam edir, iqtisadiyyatın qeyri-neft sektoru, xüsusən aqrar sahə son illərdə sürətlə inkişaf edir.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, inkişafa gedən yol dünya iqtisadiyyatına tam inteqrasiyadan keçir. Bunu Çin, Cənubi Koreya, Yaponiya, Tayvan kimi ölkələrin təcrübəsi də sübut edib. Məhz bu səbəbdən Azərbaycan son 15 ildə ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiya kursunu seçdi və hazırda da bunu uğurla davam etdirir. Buna aid yüzlərlə misal çəkərək

əyani olaraq aparılan iqtisadi islahatlar nəticəsində dünya iqtisadiyyatına inteqrasiya istiqamətində hər gün bir qədər də irəlilədiyimizi isbat etmək mümkündür. Bu gün inamla deyə bilərik ki, Azərbaycan proqressiv ölkədir və bizim iqtisadi formulamız uğurludur.

Artıq ölkəmiz özünü regionda müasir, güclü, dünyəvi dövlət kimi təsdiqləyib, beynəlxalq əməkdaşlığımız hər bir qitədə durmadan genişlənir. Ölkəmizin hərtərəfli uğurlu və davamlı gələcəyə istiqamətlənmiş inkişafı göz qabağındadır. Ölkənin inkişafı təkcə neft sektoruna bağlı deyildir. Hər ilin sosial-iqtisadi inkişafı yekunları ölkədə aparılan tərəqqinin əyani göstəricilərindəndir. Təsadüfi deyil ki, DİF-in (Dünya İqtisadi Forumu) hesablamalarına uyğun olaraq, rəqabətqabiliyyətliliyi baxımından ölkəmizin iqtisadiyyatı MDB məkanında 1-ci yerdədir. İnsan inkişafı indeksinə uyğun verilən məlumatlar da göstərir ki, ölkə iqtisadiyyatı və aparılan iqtisadi–sosial islahatlar olduqca uğurludur. Yəni bu da onu göstərir ki, Azərbaycan Respublikası düzgün istiqamətdə inkişafdadır. Ölkəmiz, ümumiyyətlə, sosial-iqtisadi sahədə aparılan bütün layihələri inam və uğurla həyata keçirməyə müvəffəq olmuşdur, bu proses çox uğurlu və operativ şəkildə davam etdirilir [9].

Ədəbiyyat

1. Aras O. N., Süleymanov E. Azərbaycan iqtisadiyyatı. Bakı: [Şərq-Qərb], 2016. 412 s.

2. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası və beynəlxalq iqtisadi əlaqələr. //Hürriyyət.-2019.- 9 may.- S.10.

3. Abbasov Ç.M. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları. Bakı, Elm, 2005. 252 s.

4. Bayramov V.A. Milli iqtisadiyyatın dayanıqlılığı. Bakı: Avropa, 2019. 304 s.

5. Əliyev Ş. Azərbaycan iqtisadiyyatı. [Ali məktəb tələbələri üçün dərslik]. Sumqayıt: [SDU], 2018. 375 s.

6. Əsədov.A. Azərbaycanın dünya iqtisadiyyatına uğurlu inteqrasiyası beynəlxalq aləmdə mövqelərimizi daha da gücləndirir. //Xalq qəzeti.-2009.- 22 fevral.- S.3.

7. Mirzəyev A. Müasir Azərbaycan iqtisadiyyatının əsasları. Bakı: ["Zərdabi Nəşr" MMC], 2019. 439 s.

8. Şəkərəliyev.A. Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər. Bakı: Turxan, 2016. 532 s.

9. URL: http://www.milli.az/news/economy/12402.html

Л.А.Алекперова

ст.преподаватель, Азербайджанский Архитектурно-строительный Университет,

Процессы интеграции экономики Азербайджана в мировой рынок

Резюме

В статье исследуется и анализируется современное состояние путей интеграции экономики нашей страны в мировой рынок. В связи с ключевой ролью интеграции важно изучать ведущие страны мира и созданные ими международные, местные и региональные организации. С другой стороны, интеграция национальной экономической системы в мировую экономическую систему требует, чтобы она функционировала как ключевой компонент своей интеграции в мировую экономику. В связи с этим возникает большая потребность в выявлении актуальных проблем мировой экономики, что и обусловливает актуальность статьи.

Ключевые слова: национальная экономика, интеграция, мировой рынок, внешняя экономика, устойчивое развитие

L.A.Alekperova
Senior Lecturer, Azerbaijan University of Architecture and Civil Engineering,
Department of Business Economics and Management

Integration processes of Azerbaijan's economy into the world market

Abstract

The article examines and analyzes the current state of the ways of integrating the economy of our country into the world market. In connection with the key role of integration, it is important to study the leading countries of the world and the international, local and regional organizations created by them. On the other hand, the integration of the national economic system into the world economic system requires that it function as a key component of its integration into the world economy. In this regard, there is a great need to identify urgent problems of the world economy, which determines the relevance of the article.

Keywords: national economy, integration, world market, foreign economy, sustainable development

KONTRAST TURİZMİNİN BƏZİ ASPEKTLƏRİ

Hüseynli Nuran Miraqil oğlu, müəllim
Lənkəran Dövlət Universiteti
nurangaga@yahoo.com

Xülasə

Məqalədə yeni bir turizm növün olan konrts turizmi barədə ümumi məlumat verilmişdir.Turizm dünyada gedən proseslərdən təsirlənməyinə baxmayaraq inkişaf edən və daim axtarışda olan bir sahədir.Kontrast ingiliscədən contrast təzad, fərq mənalarını ifadə edir.Dünyada ən məhşur kontrast anlayışı müalicəvi olan və turizm-rekreasiya fəaliyyətində istifadə edilən kontrast duş prosedurudur.

Turizm dünyada gedən proseslərdən təsirlənməyinə baxmayaraq inkişaf edən və daim axtarışda olan bir sahədir.Davamlı inkişaf cəhətdən baxılıdıqda turizm çox mədəni və təbii resurların inkişafı nöqteyi nəzərdən çox böyük potensiala malikdir. Postneft dövründə qeyri-neft sektoru sahələrinin, ilk növbədə, turizm sektorunun potensialından səmərəli istifadə edilməsi problemlərinin fundamental səviyyədə araşdırılmasına ehtiyac vardır. Turizm - Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin müvəqqəti olacağı ölkədə (yerdə) ödənişli fəaliyyətlə məşğul olmamaq şərtilə istirahət, sağlamlaşdırma, tanış olma, idraki (tarix və mədəniyyyət sərvətlərindən bəhrələnmə və sair), iş-peşə (vəzifə borclarının icra edilməsi istisna olmaqla), idman və dini məqsədlərlə daimi yaşayış yerlərindən müvəqqəti getmələri (səyahətləri) dir [1]. Turizm son illərdə fenomen və istənilən dünyadaki siyasi, iqtisadi, sosial, ekoloji problemlərin fonunda öz davamlı inkişafını dayandırmayan sahə kimi təzahür edilməkdədir.Hətda ÜDM – sinin 15 faizindən çoxunun turizmdən birbaşa və dolayı gəlirlərlə əldə edən ölkələr belə vardır. Turistlərin sayında artımın davamlı olması ölkəmiz üçün vacibdir.2019 cu ilin yanvar-dekabr aylarında 3.2 milyon turist gəlib bu 2018 ci ilin eyni dövrü ilə müqayisədə 0.4 milyon yəni 10 faiz daha çoxdur[2]. “2002-2005-ci illərdə Azərbaycanda turizmin inkişafı proqramı”, Azərbaycan Respublikasında 2007-2016-cı illər üçün turizmin inkişafına dair Dövlət Proqramı”,Azərbaycan Prezidenti İlham Əliyevin 6 aprel 2010-cu il tarixli sərəncamı ilə təsdiqlənən “Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı” və s. dövlətin bu işdə gördüyü işlər turizmin ölkəmizdə indiki səviyyəyə catmasını, artıq hər il 3 milyondna artıq turisti qəbul edən ölkə olmaqla yanaşı potensial olaraq bunu artırmaq perspektivimiz çox yüksəkdir. Turizm son yüz 60-70 ildə sürətlə inkişaf etmiş bir sahə kimi qarşımıza çıxır. Əgər keçən əsrin ortalarında turizm və onun müxtəlif növləri və formaları çox bəsit formada ələ alınırdısa indi artıq ona daha elmi daha mütərəqqi və mexanimzlər konsepsiyalar bucağından baxırlar. Turizm marketinqi deyərkən biz turizm sənayesində turoperatorların turagentlərin və ümumiyyətlə turizm

sahəsindəki bütün oyunçuların hüquqi və fiziki şəxslərin müxtəlif vasitələrlə məhsulun ideyası,onun qiyməti harada istifadə olunması və reklamının təşkilini başa düşürük. Artıq ölkəmiz dünyada baş verən bütün iqtisadi, mədəni, mənəvi proseslərin inkişafından məharətlə yararlanıb öz turizm potensialın dünyanın müxtəlif bölgələrindən olan turistlərə göstərə bilir.

Tamamilə fərqli sistemlər və altsistemlər vasitəsilə kontrast turizmi , onun komponentləri və eləcədə onun mahiyyətinə varmaq turizmdə kontrast anlayışının daha qabarıq ortaya çıxdığı XXİ ci əsr üçün futirizmin , kreativliyin eləcədə pandemiya dövrünün qloballıqdaki bəzi yığcam hissələri ,çatışmamazlığı ortaya çıxartması ilə fərqləndirilməyə və ayrıca növ kimi öyrənilməsi eləcədə tədqiq edilməsi labüd bir proses kimi elmin qarşısında duran vəzifələrdən biridir və aktuallığ olaraq onu öncül sıralara qoymaq imkanını bizlərə vermişdir.

Turizm sahəsi deyərkən turistləri cəledib ona
qeyri adiliklər söz verib və çağrıldığı ölkənin mədəniyyəti təbiəti insanları və sair göstərəməklə ond a ölkə haqda gözəl təəsüratlar yaradıb bundan sonra onun və yaxın əhatəsinin ölkəmizə gətirəcəyi tu ristlərə qulluq və onlardan ehtimal olunan mənfəətin qazanılmasını ifadə etmiş olur. Turizm dinamik inkişaf edən sənaye sahəsi olmaqla, həmdə mürəkkəb mexanizmlərdən ibarət bir fəaliyyət sektorudur. Turizmin əsas atributlarından biri gecələmə yerlərinin – mehmanxana, istirahət mərkəzlərinin mövcud olmasıdır.Artıq nəinki Bakı şəhərində, ölkəmizin müxtəlif regionlarında da yüksək səviyyəli mehmanxana,istirahət mərkəzləri inşa edilib və turistlər üçün hər cür şəraitin yaradıldığı belə məkanlarda istirahətlərin etmək mümkündür. Bu gün Azərbaycanın hər bir şəfalı güşəsində turistləri qəbul edə biləcək mehmanxana,istirahət mərkəzləri vardır ki, bunu kimi ölkəmizin uğuru və artıq turistlər üçün təklifin daha da yaxşılaşdırılmasının bir göstəricisi kimi də dəyərləndirmək olar. Digər bir tərəfdən, Bakı şəhərini Respublikamızın regionları ilə birləşdirən avtomobil yollarıının yüksək standarlara uyğun yenidən qurulması, regionların bir biri ilə yolların dünya standartlarına çatdırılması, logistikanın hətda hava nəqliyyatında belə hər regiona ən azı bir havalimanı düşüncəsindən yola çıxaraq prinsipi ilə edilməsi da müsbət tendensiya kimi göstərilə bilər.

Elə bu səbəbdən ölkədə təhsil sistemində, elm aləmində artıq turizm daha da populyarlaşmağa başlamışdır. Turizm haqqında yeni fikirlər ortaya çıxmağa, bu sahə daha dərindən araşdırılmağa başlamışdır.Bunun bariz nümunəsi kimi elə bu məqalə turizməd yeniliyin ortaya çıxmasını göstərə bilərik.Gələcəkdə real turist anlayışı,turizm cənnəti haqqında məqalələr yazmaqla ölkəmizdə gedən bu proseslərə öz tövhəmizi verməyə çalışacağıq.

Turizmin yeni yeni növləri yaranmağa başlayır.Burada biz turizmin yeni hələki ədəbiyyatlarda rast gəlinməyən bir yeni növ haqda danışmaq ondan bəhs etmək istərdik. Kontrast turizmi adı altında yeni turizmin növünün prezentasiyası kimi də başa düşmək olar bizim məqaləmizi.

Turizmin azart turizmindən başqa bütün növlərini hətda aqroturizmə bəzən daxil edilən vəhşi quşları seyr edib onların şəklin çəkmək üçün ölkəmizdə dünyaca məhşur Qızılağac qoruqu vardır, hansıki orada dünyanın hər yerindən quşlar qışlaq kimi istifadə edirlər.Ölkəmizdə son illərdə görülən məqsədyönlü işlərin davamı kimi turizmin inkişafı davamlı xarakter almağa başlamışdır. Bunun əyani sübutu olaraq.2018-ci il ərzində Heydər Əliyev Beynəlxalq Aeroportu ümumilikdə 3,8 milyondan çox sərnişinə xidmət göstərməsini qeyd etmək olar [3].

Ölkəmiz turizm sferasında ciddi marketinq siyasəti görməklə son illərdə turistlərin sayını artırmış olur.Bu il hədəf qrupu kimi Çin və Hindistan turistlərini ölkəyə gətirmək və artıq bizim üçün qeyri-ənənəvi bazarlarda belə fəaliyyət aparılır bu öz meyvələrini gələcəkdə verəcəkdir bununlada ölkəmiz artıq dünyada turizmi ilə bütün bölgələrdə tanınacaq və hər bir qitədən turistlər ölkəmiz haqqında nüsbət fikirlərə diqqət yetirərərk ölkəmizin yerləşmə məkanlarına daha çox turist gələcəkdir.

Kontrast ingiliscədən contrast təzad, fərq mənalarını ifadə edir.Ədəbiyyatlarda turizmdə kontrast şəhərlərin yeni hissəsi köhnə hissəsi arasındaki kontrast bir ölkənin şəhərləri arasında kontrast haqqında müxtəlif və çoxsaylı yazılar olmayına baxmayaraq məhz kontrast turizmi adrenalinin,mənəvi və idraki mənalarda turizmin yeni növündən bəhs edilməmişdir.Dünyada ən məhşur kontrast anlayışı müalicəvi olan və turizm-rekreasiya fəaliyyətində istifadə edilən kontrast duş prosedurudur.

Turizmin bu növünün digər turizm növlərindən müxtəlif fərqləri vardır.Kontrast turizmin ilk növbədə digər turizm növlərindən fərq ilə izah etmək istərdik.Əsas fərq əlbətdəki təzadların və nisbi kəskin kəskin fərqlərin istifadəsindən yeni bir turizm növünün hazırlanmasıdır.Digər bir fərq ən azı iki destinasiyadan istifadə edilməsidir.bir destinasiya içindəki iki fərqlilik kontrast turizmi sayıla bilməz.növbəti bir fərq isə burada fiziki yorğunluğ və daha çox turistin idraki mənəvi qavramasından istifadə edir.Ümumi mənada turist hətda ikidən çox destinasiyadada olub oraları izləmək kəşf etmək və yeni məlumatlar öyrənmək imkanı qazana bilər.Beləliklə kontrast turizmi ən azı iki fərqli məkanda 24 saatdan artıq müvəqqəti yerləşmək və həmin məkanların bəzən çox kəskin bəzən isə biraz yüngül formada milli, mədəni, qastranomik, idarəetmə və digər fərq və təzadlarını qısa zamanda görüb, dadıb, yoxlayaraq mümkün həzz, ləzzət, zövq ala bilmək kimi izah olunur.Kontrast turizminə bir misal verərək onun daha yaxşı başa düşülməyinə şərait yaratmağa çalışaq. Azərbaycanın Şuşa şəhərində sərin dağlıq havada turizm fəaliyyəti ilə məşqul olan şəxs oradan ölkənin başqa şəhəri olan Xankəndinə uca dağlardan baxış keçirir və düşünürkü nə gözəl olardı Xankəndindən füsunkar Şuşa ya baxıb oraları seyr edərək mənəvi rahatlanma yaşamaq istəyəcək və bunu həyata keçirdərsə bu artıq kontrast turizmi olacaqdır. Kontrast turizmi turistlərə iki antonim hisləri yaşadan bir turizm növü olması onun əsas cəlbediciliyidir. Kontrast turizminin aşağıdakı bir neçə xüsusi növləri vardır:

1.İdareətmə kontrastı: Teokratiya demokratiya təzadı buna misal göstərmək olar. Teokratik bir ölkədən demokratik bir ölkəyə sərhədi keçib bir turizm fəaliyyəti nəticəsində gedirsən və burada çoxlu fərqlilikləri görmüş olursan. Biri din ilə idarə edilən ölkə digəri isə Azərbaycan kimi demokratik ənənələr ilə idarəedilən ölkə olarsa burada təzad olduğu üçün kontrast turizminə aid edilir.

2.Qastranomik kontrast: Burada yemək zövqlərindən və ən azı iki fərqli yemək mədəniyyətinin birbirindən kəskin fərqlənən yemək mədəniyyətlərinin bir turizm fəaliyyəti zamanında dadılması imkanından bəhs edilir. Burada hətda bir ölkə daxilində belə qastronomik fərqlər kəskin ola bilər və bu artıq kontrast turizmi sayılacaq.

3.Müasirlik-qədimlik:Bunu bir neçə şəhərdə etmək mümkündür.Roma, İstanbul, Bakı və s. Bakı şəhərində şəhərin mərkəzində belə bu imkan var.

4.Dinə görə kontrast turizmi İslam dini olan bir bölgədən sonra Xristian dininə sitayiş edən bir bölgəyə keçmək.Burada bir ölkədə bir neçə dinlə,onların mədəniyyəti dini ayinləri, din adamları və eləcədə digər mara kəsb edən məlumatların əldə edilməsi ilə səciyyələnir. Bunu multikultiral ölkəmizdə etmək mümkündür.Bosniya-Hersoqovina buna digər bir misal kimi göstərilə bilər.

5.Mövsümi(fəsilə görə) kontrast turizmi:Burada qısa bir ərazidə(maksimum 50 kilometr) iki fərqli destinasiyada birində məsələn yaydır digərində isə qış vəya birində yay digərində isə payızdır iki mövsümi bir turizm fəaliyyəti içində görmək mümkün olur.Ölkmizdə bu növ kontrast turizmi ilə məşqul olmaq mümkündür.Yay aylarında bir şəxs Lerik rayonuna gedir və oradan ən azı bir günlük qızyurdu zirvəsi və onun ətrafındaki kəndlərə gedir orada ki soyuğu yay olmasına baxmayaraq görmüş və əyani sürətdə hiss etmiş olur.

6.Təhlükəsizliyə görə kontrast turizmi burada əsas qayə təhlükəsiz və təhlükəli məkanlar(daha çox dövlətlərin özlərinin getməyi tövsiyyə etmədikləri öz əraziləri vəya müharibə gedən dövlətlər nəzərdə tutulur) arasında fərqi öz gəzləri ilə görməkdən ibarət olacaqdır.

7.İştirakçıların sayına görə:Burada əsasən kollektiv olaraq bir yerə gedilir və sonda öz turizm fəaliyyəti ilə şəxs artıq tək məşqul olmaq istəyir.Burada artıq digərlərini düşünmək ümumi istəyə uyğun olaraq hərəkət etməyə məcbur olmur və öz istəyi ilə hərəkət edir.Bəzən insanlar tək qalmaq istəyir və bunu öz rekreasiyası, cəmiyyətdən ayrılıb turizm fəaliyyəti ilə fərdi şəkildə məşqul olmaq istəyir. Buradaki təzadı kontrast turizminə uyğun bir təzad hesab etmək olar.

8. Yerləşmə məkanına görə kontrast turizmi:Burada təbiətlə iç içə olmaq vəya otel, motel və bu kimi digər yerləşmə məkanlarında gecələmək imkanından danışılır əlbətdə çöldə brezentdə yatmaq ilə oteldə otaqda yatmaq fərqli, təzadlıdlıdır. Misal üçün turist Lənkəran şəhərinə gəlir orada turizm fəaliyəti ilə məşqul olur 3 gün sonra isə Lənkəran rayonu daxilində vəya Lerik rayonunda təbiətdə kempinq şəraitində 2 gün qalırsa artıq bu yerləşmə məkanına görə kontrast turizmi hesab edilir.

9. Günlərin vacibliyinə görə məsələn: Novruz bayramında Azərbaycana gəlmək və bayram bitdikdən sonra ölkəmizdə qalmaq artıq iki fərqli mühit insanların bayram ab havası və iş gündəlik tələbatların qazanmaq qayğısı ümumiyyətlə iki təzad.

10.Nəqliyyat vasitəsinə görə kontrast turzimi: Bildiyimiz kimi n'qliyyat vasitəsi deyərkən təkcə avotmobil, gəmi, təyyarə sayılmır həmdə əsrlər boyunca fərqli regionlarda inanların dostu olan at, eşşək, fil, it, maral və s. sayılırdı.Elə bu məntiqdən yola çıxaraq görürük ki, bir turist bir turizm fəaliyyətində bir gün avtomobil ilə hərəkət edirsə digər günü maraldan istifadə edirsə öz hərəkəti üçün bu artıq kontrast obyekti sayılır.

Ölkəmizdə kontrast turizminin inkişafı üçün labüd olan infrastruktur vardır və bununlada dünyada turizm sahəasində seçilmək və maraqlı marketinq eləcədə rebrendinq edə bilmək üçün lazım olan elastiklik əlamətlərini gözönünə gətirərək ölkəmizin növbəti bir ilkə imza atacağına inanıram.

Nəticə.

Beləliklə kontrast turizimi təzadlar ilə maraqlanan, onlardan həzz alan turistlər üçün maraqlıdır və turizmdə yeni cığır açmış olacaq.Kontrast turizminin tətbiqi fərqli adrenalin və turistin turizm fəaliyyəti ilə məşqul olarkən biraz daha aktiviliyə sövq etmiş olacaqdır.İnnovativliyə açığ və hər cür dəyişikliyə həssas olan turizm sferasının belə yeniliklərə ciddi ehtiyacı vardır.Ölkəmizdə bu turizm növünün inkişafına stimul verəcək qida fərqliliyi mövsimi fərqlilik müasirlik – qədimlik və sair digər mənalarda çoxlu bir birindən kəskin fərqlənən destinasiyalar vardır. Bu turizm növünün gələcəkdə daha çox öyrənilməyə ehtiaycı vardır cünki dünyada təzadlar, fərqliliklər və onların nəzəri –meteodoloji əsasları hələ kifayət qədər öyrənilməmişdir.

Ədəbiyyat

1.Turizm haqqında Azərbaycan Respublikasının Qanunu 1999 ci il.
2.stat.gov.az
3.https://tourism.gov.az

Некоторые аспекты контрастного туризма

преподователь Гусейнли Нуран Мирагил Оглы
Ленкоранский Государственный Университет

Резюме

Туризм - это область, которая постоянно развивается, несмотря на то, что на нее влияют процессы по всему миру. Контраст - это противоположностьс английского, что означает разница.Самая известная концепция котраста в мире - это контрастная душевая процедура, которая является лечебной и используется в туризм-рекреацие

Some Aspects Of Contrast Tourısm

Huseynli Nuran Miraqil teacher
Lankaran State University

Annotation

The article provides an overview of contrast tourism, a new type of tourism Tourism is an area that is constantly evolving, despite the fact that it is influenced by processes around the world. Contrast is the opposite in English, which means difference. The most famous concept of cotrast in the world is a contrasting shower procedure,which is therapeutic and is used in tourism-recreation.

BEYNƏLXALQ TİCARƏTİN SƏMƏRƏLLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİNİN NƏZƏRİ ƏSASLARI

Quluzadə Yasəmən Əlövsət qızı, dissertant
Azərbaycan Kooperasiya Universiteti
<jasminshahzade@gmail.com>

Xülasə

Beynəlxalq ticarətin səmərəlliliyinin qiymətləndirilməsinin nəzəri əsasları adlı tezisdə bu istiqamət üzrə beynəlxalq təcürbədə istifadə edilən metodoloji yanaşmalardan istidadə edilmişdir. Qlobal dünyada xarici iqtisadi əlaqələrin üçdə ikisinin xarici ticarədə aid olduğunu və eləcdə iqtisadi əlaqələrin səmərəliliyi baxımından belə yanaşmalara xüusi diqqətin yetirilməsini nəzərə alaraq beynalxalq aləmdə istifadə edilən göstəricilər qeyd edilmişdir.

Açar sözlər: səmərəlilik, ÜDM, xarici ticarət, diversifikasiya, cəlbolma səviyyəsi,xarici borc, birbaşa investisiya və s.

Ключевые слова: эффективность, ВВП, внешняя торговля, диверсификация, уровень привлекательности, внешний долг, прямые инвестиции и др.

Keywords: efficiency, GDP, foreign trade, diversification, level of attraction, foreign debt, direct investment, etc.

Beynəlxalq ticarət ölkələrarası iqtisadi münasibətlərin ilk ənənəvi və tarixi forma- sıdır. Xarici ticarətin beynəlxalq iqtisadi münasibətlərdə rolunun durmadan artması və inkişaf tendensiyasının müsbət istiqamətdə dəyişdirməsi dünyanın bir çox iqtisadçısını xarici ticarətin artımı ilə dünya istehsalının artımı və əhalinin rifah səviyyəsinin yüksəlməsi arasında əlaqənin qiymətləndirilməsi üçün yeni-yeni metodlar və medellər qurmasını zəruri etmişdir. Xarici ticarətin artımı nəticəsində ölkə əhalisinin rifahının və dünya üzrə istehsalın artması təbii ki, ilk növbədə beynəlxalq ticarətin səmərəliliyinin qiymətləndirilməsini zəruri etmişdir. Beynəlxalq ticarətdə ölkənin iştirak dərəcəsini qiymətləndirmək üçün bir sıra göstəricilərdən istifadə olunur.

Məlumdur ki, hər hansı bir ölkənin iqtisadi inkişaf səviyyəsi nə qədər yüksəkdirsə, onun, xarici iqtisadi əlaqələrinin formaları bir o qədər aktiv və müxtəlifdir. Bu səbəbdən də ölkənin dünyanın iqtisadi proseslərində aktiv iştirakı onun iqtisadi inkişaf səviyyəsini əks etdirir. Beynəlxalq iqtisadi münasibətlər sistemində iştirak edən hər bir dövlət calışır ki, xarici iqtisadi və ticarət əlaqələrini səmərəlilik prinsipləri əsasında qursun. Xarici iqtisadi əlaqələrinin əsasını əksər ölkələrdə xarici ticarət əlaqələri çıxış etdiyindən istər elmi və istərsədə praktik yanaşmalarda xarici ticarətlə bağlı yanaşmalar üstünlük təşkil edir. Beynəlxalq təcürbədə xarici ticarət götəricilərinin milli iqtisadiyyata təsirini adətən kəmiyyət və keyfiyyət göstəriciləri ilə qiymətləndirmək mümkündür.

Belə qiymətləndirməni həyata keçirmək üçün ilk növbədə milli iqtisadiyyatın beynəlxalq iqtisadi münasibətlərə cəlbolma səviyyəsini müəyyən etmək lazımdır. Milli iqtisadiyyatın beynəlxalq iqtisadi münasibətlərə cəlbolma səviyyəsini ilk növbədə ölkə ixracının Ümumi Daxili məhsula (ÜDM) nisbəti kimi xarakterizə olunur. Bu göstəricini bir çox hallarda ixrac kvotası da adlandırırlar. Qeyd edilən göstəricinin qiyməti nə qədər böyük oldarsa deməli ölkənin beynəlxalq iqtisadi münasibətlərə cəlbolma səviyyəsi bir o qədər yüksəkdir.

Ümumdünya ticarət təşkilatı (ÜTT) XXI əsrin əvvəllərində dünya üzrə ixrac kvotasının orta dəyərləri 20%, sənaye baxımından inkişaf etmiş ölkələrdə 27%, inkişaf etməkdə olan ölkələrdə 12%, iqtisadi baxımdan zəif inkişaf etmiş ölkələrdə 5.5% təşkil etmişdir[1].

Hesab edirik ki, ölkənin beynəlxalq iqtisadi münasibətlər sistemində iştirak səviyyəsini şərtləndirən amillərdən biri də ölkənin ərazisinin böyük və ya kiçik olması və həmçinin daxili bazarın səviyyəsi ilə bağlıdır. Ərazi baxımdan kiçik və daxili bazarı (tələbatı) məhdud olan ölkələr daha çox ixrac meyilli olurlar. Ərazi baxımdan böyük və daxili bazarı böyük olan ölkələr isə ixrac və idxalda payı elədə də böyük olmur. Milli iqtisadiyyatın beynəlxalq iqtisadi münasibətlərə cəlbolma səviyyəsini keyfiyyət baxımından xarakterizə etmək üçün hazır sənaye məhsulunun

ixracın strukturunda xüsusi çəkisini müəyyən etmək lazımdır. İnkişaf etmiş ölkələrdə bu göstərici ümumi ixracının 40-50% arasında olur.

Nəzərə alsaq ki, bazar iqtisadiyyatı şəraitində idxal və ixrac əməliyyatlarını ölkələr deyil, adətən firmalar həyata keçirir. Lakin bununla belə idxal və ixracın məqsədləri baxımından da nəzər yetirmək məqsədəuyğundur.

Cədvəl 1. **İxrac-idxal əməliyyatlarının məqsədləri**

İxracda məqsəd	**İdxalda məqsəd**
Yeni bazarların inkişafı ilə əlaqədar istehsalın genişlənməsi və daha çox gəlir əldə etmək	Daxili bazarın genişlənməsi ilə bağlı istehsalın həminin artırılması və mənfəətin çoxalması
İstehsalın maştabını genişləndirmək	İstehsal gücünün modernləşdirilməsi və genişləndirilməsi
Beynəlxalq rəqabətin təsirinə uyğun olaraq istehsalın texniki və iqtisadi səviyyəsinin artırılması	Xammalın səmərəli xarici məhsullarla əvəz olunmasına qənaət.
Müəssisənin valyuta ehtiyatlarında artımı	Milli istehlak bazarında çeşidlərin genişləndirilməsi
İstehsalın diversifikasiyası	Daxili rəqabəti təmin etmək

Qeyd: Müəllif yanaşması

Beynəlxalq təcürbədə ticarətin səmərəlliliyinin qiymətləndirilməsi üçün müxtəlif yanaşmalardan istifadə edilir. İstər inkişaf etmiş və istərsədə inkişaf etməkdə olan ölkələrin xarici iqtisadi əlaqələrinin səmərəliliyinin qiymətləndirilməsi üçün aşağıdakı meyyarlardan istifadə edir.

Cədvəl 2. **İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin xarici iqtisadi əlaqələrinin səmərəlilik göstəriciləri**

Əmsal	Formula	İnkişaf etmiş ölkələr üçün	İnkişaf etməkdə olan ölkələr üçün
A	$\frac{E}{I}$	**≥100%**	**≥100%**
B	$\frac{FDI}{GDP}$	**≥15%**	**≥10%**
Ç	$\frac{GDP}{ED}$	**≥113%**	**≥170%**

Qeyd: worldbank.org.

Burada; A─İdxalın ixracla örtmə nisbəti,%;
B ─ xarici birbaşa investisiyaların ÜDM-də payı, %;
Ç ─ ümumi daxili məhsulun xarici borca nisbəti %;
E ─ ixrac, İ ─ İdxal, FDİ ─ birbaşa xarici investisiya, ED ─ Xarici borc;
GDP ─ ümumi daxili məhsuldur.

Təcürbə təsdiqləyir ki, ki, hansı ölkə iqtisadi və ərazi baxımdan böyükdürsə həmin ölkənin iqtisadi münasibətlərə cəlbolma səviyyəsini əmsalı kiçik və əksinə hansı ölkə kiçikdirsə onun iqtisadi münasibətlərə cəlbolma səviyyəsini böyük olur. Başqa sözlə kiçik ölkələr daha çox ixrac və idxala meyilli olur. Qeyd etmək lazımdır ki, bu göstərici milli iqtisadiyyatın beynəlxalq iqtisadi münasibətlərə cəlbolma səviyyəsini kəmiyyət baxımından xarakterizə edir.Belə hal inkişaf etmiş ölkələr üzüç daha çox xarakterikdir.

Cədvəl 3. **Xarici iqtisadi ticarətə dair bəzi qiymətləndirmə göstəricilərinin metodikası**

Göstəricinin adı	Hesablama forması	Qısa izahı
İxrac kvotası	$İxrac_{kvotası} = \frac{Ix}{ÜDM} * 100$	İx-ixracın həcmi
İdxal kvotası	$İdxal_{kvotası} = \frac{Id}{ÜDM} * 100$	İd-idxalın həcmi
Xarixi ticarət kvotası	$XTD = \frac{XTD}{ÜDM} * 100$	XTD-xarici ticarət dövriyyəsi
Beynəlxalq rəqabət qabiliyyət əmsalı (xarici ticarət balansı)	$\frac{Ix - Id}{ÜDM}$	ÜDM-Ümumi Daxili Məhsul
Xarici ticarətin dövriyyəsinin elastiklik əmsalı	$\frac{XTDInd}{UDM\ indeksi}$	XTD indeksi, ÜDM indeksi
ixracın artım əmsalı	$\frac{İxInd}{UDM\ indeksi}$	İxind- ixrac indeksi
Əmtəə ixracı konsentrasiyası indeksi (Herfindahl -Hirschman indeksi)	$\frac{\sqrt{(\frac{Ix_k}{Mixrac})^2} - \sqrt{\frac{1}{n}}}{1 - \sqrt{\frac{1}{n}}} * 100$	$İX_k$- k-məhsulu üzrə ixracı, M_{ixrac}- məcmu ixracı, n- ixrac məhsul-larının sayıdır.

Mənbə: [3, səh.30].

Cədvəl 3-in məlumatları göstərir ki, ölkə iqtisadiyyatın beynəlxalq iqtisadi münasibətlərə cəlbolma səviyyəsini həmçinin ixracın elastiklik səviyyəsi ilə də müəyyən edilir. Belə ki,bu göstərici ixracın artım temrinin ölkənin ÜDM-nın artım tempinə nisbəti kimi müəyyən edilərək hesablanılır. Əgər bu nisbət vahiddən böyukdirsə deməli ölkə iqtisadiyyatı beynəlxalq iqtisadi münasibətlərə yüksək səviyyədə cəlbolunur.

Ümumiyyətlə qeyd etmək lazımdır ki, xarici ticarət əlaqələrinin səmərəliliyi dedikdə-bu sahədə fəaliyyət göstərən bütün subyektlərin fəaliyyətinin yekun nəticəsi kimi qiymətləndirmək olar. Xarici ticarət əlaqələrinin səmərəliliyinin qiymətləndirilməsində ən mühum və prinsipial məqam ondan ibarətdir ki, bu götərici hansı maraqlardan qiymətləndirilir. Başqa sözlə xarici ticarət əlaqələrinin səmərəliliyinin qiymətləndirilməsini bu sferada fəaliyyət göstərən yerli və xarici müəssisələrin maraqları baxımından, cəmiyyətin maraqları baxımından, dövlətin və s. maraqlar baxımından qiymətləndirmək olar. Bizim araşdırdığımız elmi tədqiqat işində xarici ticarət əlaqələrinin səmərililiyi yalnız dövlət maraqları baxımından yanaşılmışdır.

Nəticə

Xarici iqtisadi əlaqələr o cümlədən xarici ticarət əlaqələri beynəlxalq əmək bölgüsünün üstünlüklərinin realizasiya vasitəsidir. Beynəlxalq əmək bölgüsünün isə bilavasitə iqtisadi nəticəsinin əməyin ictimai məhsuldarlığının artırılması olduğunu nəzərə alsaq, onda xarici iqtisadi əlaqələrin səmərəliliyini yarada biləcək əsas mənbələrin geniş mənada əmək məhsuldarlığı ilə bağlı olduğunu görürük. Azad rəqabətlə nizamlanan bazar mexanizmi şəraitində xərclərin azaldılması isə ixtisaslaşmanın dərinləşməsi və istehsalın ölçülərinin artması ilə səciyyələnir. Hər hansı məhsul istehsalına görə beynəlxalq miqyasda ixtisaslaşma nəticəsində istehsalın texniki iqtisadi göstəriciləri yaxşılaşır: maya dəyəri aşağı düşür, istehsal vahidinə düşən kapital qoyuluşu azalır, əmək məhsuldarlığı isə artır. Yəni xarici ticarətin inkişafı nəticəsində əldə olunan ictimai əməyə qənaət məhz bilavasitə istehsalda yaranır. Məhsulun saxlanması, növləşdirilməsi, qablaşdırılması və nəqli prosesi daxil olmaqla ticarətin bir sıra xüsusiyyətləri orada istehsal prosesinin davam etdiyini və beləliklə də bu prosesin də ictimai əməyin məhsuldarlığının artırılmasında rolu olmasını söyləməyə əsas verir. Lakin xarici ticarətin əsas funksiyası istehsalın davamı deyil, ixtisaslaşmış istehsalçıların məhsullarının mübadiləsidir. Mal mübadiləsi isə məlum olduğu kimi dəyər yaratmır, ancaq istehsalda əldə edilmiş üstünlükləri reallaşdırır. Belə üstünlüklər isə milli və beynəlxalq dəyər və ya

qiymətlərin əlverişli nisbəti ilə ifadə olunur. Məhz məqalədə qiymətlərin əlverişli nisbətləri ilə ifadəsi yəni, məhsulların bilavasitə xarici ticarət vasitəsi ilə mübadiləsindən yaranan ictimai əməyin qənaəti birbaşa iqtisadi səmərəni göstərir. Qeyd etdiyimiz həmin səmərəlilik isə beynəlxalq aləmdə əmsallarla, göstəricilərlə xarakterizə olunur ki, onlardan da bəzilərini biz tezisimizdə qeyd etmişik.

Ədəbiyyat

1. https://www.wto.org/
2. Э.П.Бабин; Т.М.Исаченко, Внешнеэкономическая политика; М.: Экономика - Москва, 2013. - 463 с
3. С.Н. Растворцева, В.В. Фаузер В.Н. Задорожный, В.А.Залевский "Внешнеэкономическая деятельность российских предприятий в условиях глобализации" Санкт-Петербург-2011 с. 118
4. www.worldbank.org.

XARİCİ İQTİSADİ SİYASƏT VƏ ONUN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI İSTİQAMƏTLƏRİ

Osmanov İlqar Osman oğlu, assistent
Sumqayıt Dövlət Universiteti
ilqarosmanov1975@mail.ru

Xülasə: *Məqalədə xarici iqtisadi siyasət ölkənin ümumi iqtisadi siyasətinin tərkib hissəsi kimi nəzərdən keçirilmişdir. Xarici iqtisadi siyasətin milli iqtisadiyyata təsiri araşdırılmışdır. Xarici iqtisadi fəaliyyətin həyata keçirilməsinin iqtisadi səmərəliliyi tədqiq edilmişdir. Dövlət tənzimlənməsinin və iqtisadi siyasətin ən vacib obyektlərindən biri olan xarici ticarət əməliyyatları Dövlət Statistika Komitəsinin məlumatları əsasında təhlil edilmişdir. Həmçinin, ölkənin xarici iqtisadi siyasətinin səmərəliliyinin artırılması istiqamətində tövsiyə xarakterli təkliflər irəli sürülmüşdür.*

Beynəlxalq iqtisadi münasibətlərin inkişafının hazırkı mərhələsində hər bir dövlətin dünya arenasındakı mövqeyi çox vacibdir. Yeni minilliyin ilk onillikləri həm ölkəmiz, həm də ümumilikdə dünya birliyi üçün beynəlxalq inteqrasiya proseslərinin dərinləşməsi ilə müşayiət olunur. Bu, dünya bazarının mal və xidmətlər üçün sərhədlərinin genişlənməsinə və istehsal amillərinin, kapital, texnologiya və əmək ehtiyatlarının aktiv hərəkətinə kömək edir. Bu proseslərin beynəlxalq münasibətlərdə iştirak edən hər bir ölkə tərəfindən idarə olunmasına və nəzarətinə ehtiyacı var. Bu sahədə dövlətin xarici iqtisadi siyasəti aktiv rol oynayır. Hər hansı bir dövlətin xarici iqtisadi siyasəti onun ümumi siyasətinin bir hissəsidir. Xarici iqtisadi siyasət ölkənin iqtisadi və sosial inkişafının daxili strategiyası ilə sıx bağlıdır. Xarici iqtisadi siyasətin əsas prinsipləri ölkədəki iqtisadi vəziyyətin xüsusiyyətlərinə əsaslanmalı və dövlətin daxili sosial-iqtisadi siyasətinin əsas məqsəd və vəzifələrinə uyğun olmalıdır. Xarici iqtisadi siyasət də öz növbəsində daxili sosial-iqtisadi siyasətin məzmununa və həyata keçirilmə tempinə əhəmiyyətli dərəcədə təsir göstərir. Xarici iqtisadi siyasətin təcrübədə həyata keçirilməsinin nəticələri investisiya quruluşuna və dinamikasına, sosial istehsalın sürətinə və səmərəliliyinə və s. təsir edə bilər.

Xarici iqtisadi siyasət, bir qayda olaraq, olduqca mürəkkəb bir hadisədir, onun formalaşması mürəkkəbliyini əks etdirən aşağıdakı struktur istiqamətlərdə aparılır:

- ixrac siyasəti, o cümlədən xarici tərəfdaşlarla texniki və iqtisadi əməkdaşlığı tənzimləyən qaydalar;
- idxal siyasəti;
- valyuta nəzarəti də daxil olmaqla milli valyutanın məzənnəsinin tənzimlənməsi;
- ixrac və idxal əməliyyatlarının daxili maliyyələşdirilməsi siyasəti;

- Azərbaycan Respublikasında xarici investisiyalar da daxil olmaqla xarici maliyyələşdirmənin tənzimlənməsi;

- Azərbaycanın xaricindəki investisiyaların tənzimlənməsi.

Xarici iqtisadi siyasətin məzmununu qətiyyətlə müəyyən edən əsas daxili amillər qrupuna aşağıdakılar daxildir:

- ölkənin istehsal qüvvələrinin miqyası, sektor quruluşu və texnoloji səviyyəsi;
- təbii ehtiyatların mövcudluğu, həcmi, quruluşu və istifadəsi şərtləri;
- təbii və iqlim şəraiti: dənizə çıxışın mövcudluğu, kənd təsərrüfatı istehsalının potensial və sektor quruluşu və s.;
- yerli istehsal və istehlakın kəmiyyət və struktur balansı və ya başqa sözlə, milli bazarın xüsusiyyətləri;
- ölkənin pul və maliyyə vəziyyəti;
- iqtisadi cəhətdən fəal əhalinin kəmiyyət və keyfiyyət tərkibi;
- ölkənin iqtisadi təhlükəsizliyinə cavabdeh olan və onu gücləndirmək üçün siyasət apara bilən institusional strukturların və qurumların mövcudluğu;
- ölkənin intellektual potensialı. Həm quruluşu, həm də məzmunu baxımından olduqca mürəkkəb olan bu amil həm toplanmış bilikləri, həm də texnologiyaları (elmi və istehsal proseslərində istifadə olunan və qorunan patentlər, lisenziyalar, nou-hau və s.) və bütövlükdə milli elmin vəziyyətini əhatə edir.

Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası kontekstində xarici iqtisadi siyasətinin məqsədi beynəlxalq əmək bölgüsündə səmərəli iştirakına və milli iqtisadiyyatının qlobal rəqabət qabiliyyətinin artırılmasına əsaslanan şərait yaratmaqdır. Dövlətin xarici iqtisadi siyasəti onun milli iqtisadi təhlükəsizliyinin möhkəmləndirilməsinin vacib vasitəsi kimi bütün xarici iqtisadi əlaqələrin səmərəliliyini inkişaf etdirmək üçün qanunverici və icra hakimiyyəti orqanları tərəfindən məqsədyönlü və əhatəli fəaliyyət proqramı kimi başa düşülməlidir. Aydındır ki, bu proqram həm daxili maliyyə, həm istehsal sahəsində, həm də xarici mübadilə sahəsində həyata keçirilir. Daxili sahədə dövlət investisiya, maliyyə və vergi siyasəti, valyuta tənzimlənməsi və digər mexanizmlər vasitəsilə xarici iqtisadi fəaliyyətin səmərəliliyinə təsir göstərir [2]. Xarici mübadilə sahəsində - marketinq tədqiqatları, milli sərgilər və yarmarkalar təşkil etməklə və milli məhsulların xarici bazarlara çıxarılmasında cümlədən gömrük, valyuta və s. mexanizmlərindən aktiv istifadə ilə ixrac, idxal, valyuta və digər xarici iqtisadi əməliyyatların kommersiya effektivliyini artırır. Xarici iqtisadi siyasət sahəsində qanunverici orqanın rolu bu sahədə bütün iştirakçıların normal fəaliyyətini təmin etmək üçün zəruri və kifayət qədər hüquqi bazanın yaradılmasıdır. Həm də qeyd etmək lazımdır ki, xarici iqtisadi əməliyyatların təcrübi olaraq həyata keçirildiyi təşkilati strukturların formalaşması və təkmilləşdirilməsi özü-özündə dövlətin xarici iqtisadi siyasətinin vacib elementidir.

Xarici iqtisadi siyasət aşağıdakılara səbəb olur:

- digər ölkələrlə qarşılıqlı faydalı əməkdaşlığın təmin edilməsi;
- yerli istehsalçıların beynəlxalq aləmdə rəqabət qabiliyyətinin qorunması;
- ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi;
- tədiyyə balansının təmin edilməsi.

Dövlətin xarici iqtisadi fəaliyyət sisteminin inkişafı üçün digər ölkələr arasında malların, xidmətlərin və kapitalın beynəlxalq hərəkətinə töhfə verən xarici ticarət və digər dövlətlərarası əməkdaşlıq formaları böyük əhəmiyyət kəsb edir. Müasir şəraitdə xarici iqtisadi fəaliyyət Azərbaycanın milli iqtisadiyyatının inkişafında mühüm rol oynayır. Azərbaycanın xarici iqtisadi fəaliyyətinin müasir inkişaf dövrünün bir xüsusiyyəti, əlverişli regional investisiya mühitini təkmilləşdirmək, xarici investisiya cəlbediciliyini stimullaşdırmaq, regionların ixrac potensialını inkişaf etdirmək və xarici ticarətin üstünlüklərindən səmərəli istifadə etməkdir.

Ölkənin xarici iqtisadi potensialını qiymətləndirmək üçün mövcud təbii ehtiyatlar, sənaye potensialı, nəqliyyat infrastrukturu, əmək ehtiyatlarının həcmi və fəaliyyətinin səmərəliliyinin müəyyənləşdirilməsi barədə məlumat tələb olunur. Ölkənin potensialının və dünya bazarındakı vəziyyətinin təhlili xarici iqtisadi fəaliyyətin inkişafı üçün ən perspektivli istiqamətləri, o cümlədən

idxal əvəzləyən istehsal sahələrinin yaradılmasının qeyri-ənənəvi formalarını müəyyənləşdirməyə imkan verir.

İqtisadiyyatın sabitləşməsi yalnız aşağıdakı əsas məqsədləri özündə birləşdirən xarici iqtisadi fəaliyyət strategiyası əsasında mümkündür.

1. İxrac potensialının bərpası və inkişafı, ixrac strukturunun təkmilləşdirilməsi.

2. İdxalın rasionallaşdırılması.

3. Azərbaycan müəssisələrinin məhsullarının dünya bazarında rəqabət qabiliyyətinin artırılması.

4. Texniki modernləşdirmə və genişlənmiş istehsal potensialının yaradılması üçün xarici investisiyaların cəlb edilməsi.

5. Azərbaycanın iqtisadi təhlükəsizliyinin təmin edilməsi.

Xarici iqtisadi fəaliyyətin sadalanan məqsədlərinin həyata keçirilməsinə bir sıra əlverişsiz amillər mane ola bilər: iqtisadiyyatın əksər sahələrinin məhsullarının rəqabətə davamlı olmaması, xarici iqtisadi fəaliyyətin maliyyə, texniki, informasiya strukturunun inkişaf etməməsi və s.

Bu problemlərin aradan qaldırılması üçün xarici iqtisadi fəaliyyətin təşkili ölkənin və onun müəssisələrinin texniki və maliyyə imkanlarına, beynəlxalq satış bazarındakı rəqabət qabiliyyətinə tam uyğun olmalıdır. Məhsulların rəqabət qabiliyyətini artırmaq üçün ilk növbədə malların keyfiyyətinin beynəlxalq standartlara cavab verməsini təmin etmək lazımdır. Ən yaxşı seçimlərdən biri müəssisənin fəaliyyətində iştirak edən avadanlıqların təkmilləşdirilməsi ola bilər. Bu, məhsulun keyfiyyətinə təsir edən amillərin zərərli təsirini azaldır. Hal-hazırda, xarici iqtisadi fəaliyyətlə əlaqəli marketinq araşdırması aparmadan, müəyyən bir şirkətin gələcəyini proqnozlaşdırmaq çətindir. Lakin xarici iqtisadi fəaliyyətin səmərəliliyinin artırılmasının əvvəllər sadalanan bütün metodlarını istifadə edərək müəssisə xarici iqtisadi fəaliyyətə mane olan problemləri həll edə, xarici ticarət əməliyyatlarının həcmini artırmaq üçün başqa ehtiyatlar axtara bilər və s [4].

Xarici iqtisadi fəaliyyətin səmərəliliyini artırmaq üçün dövlət tənzimlənməsi mühüm əhəmiyyət kəsb edir. Dövlət tənzimlənməsinin və iqtisadi siyasətin ən vacib obyektlərindən biri xarici ticarət siyasətidir. Dövlətin xarici ticarət siyasəti xarici dövlətlərlə münasibətlərin inkişafına təsir edən tədbirlər sistemidir. Dövlətin xarici ticarət siyasəti dövlətin və onun orqanlarının xarici ticarət əlaqələrini tənzimləmə rejimini müəyyənləşdirmək və ölkənin beynəlxalq əmək bölgüsündə iştirakını optimallaşdırmaq üçün məqsədyönlü fəaliyyətlərini nəzərdə tutur. Xarici ticarət milli iqtisadiyyatın inkişafı və yerli istehsalçılar sırasında sağlam rəqabət üçün dövlət büdcəsinə əlavə vəsait gətirir. Həm də malların idxalı və ixracı milli gəlirin və ümumi milli məhsulun artımına imkan verir [4].

Ölkəmizin xarici iqtisadi əlaqələrin inkişafında əsas məqsədlərdən biri məhz ticarət əlaqələrini genişləndirmək və xarici ticarət dövriyyəsinin strukturunu yaxşılaşdırmaqdır. Ölkəmizin dünya bazarındakı mövqeyini təhlil edərək xarici ticarətinin gələcək inkişaf perspektivlərini qiymətləndirmək olar. Xarici ticarət siyasətinin səmərəliliyinə dünya iqtisadiyyatı sistemində və milli iqtisadiyyat daxilində baş verən iqtisadiyyatın açıqlıq dərəcəsi, dövlətlərin iqtisadi inteqrasiyası, istehsal olunan mal və xidmətlərin rəqabət qabiliyyəti, transmilli və çoxmilli şirkətlərin olması, dünyada hərbi-siyasi və sosial-iqtisadi proseslər və s. təsir göstərir.

Xarici ticarət əlaqələrinin tənzimlənməsi iqtisadi və inzibati metodlarla həyata keçirilir. İnzibati tədbirlər hüquqi normalara və qanunlara əsaslanan məhdudlaşdırıcı tədbirlərdən ibarətdir (ticarət münasibətlərinin hüquqi tənzimlənməsi aktları, gömrük prosedurları, qaydalar və s.). Ən təsirli tədbir gömrük vergitutma funksiyalarını, prinsiplərini və məqsədlərini, gömrük orqanlarının quruluşunu, tariflərin hazırlanması və təsdiqlənməsi qaydasını və s. əks etdirən gömrük məcəlləsi-dir. Bu metodlara əsaslanaraq ölkənin xarici ticarət strategiyasının həyata keçirilməsi mümkündür. Daxili bazarın qorunub saxlanmasına və iqtisadiyyatda struktur dəyişikliklərinin həyata keçirilməsinə yönəlmiş xarici ticarətin dövlət tənzimlənməsi metodlarının aktiv istifadəsi ölkənin xarici ticarət fəaliyyətində yaranmış mənfi tendensiyaların aradan qaldırılmasına imkan verir.

Aşağıdakı şəkil vasitəsilə 2010-2019-cu illər ərzində ölkəmizin xarici ticarət əməliyyatlarının artım dinamikasını təhlil edə bilərik.

Şəkildən göründüyü kimi, Azərbaycanın xarici ticarət əməliyyatlarının həcmində ixracın xüsusi çəkisi üstünlük təşkil etmişdir. 2019-cu ildə xarici ticarət dövriyyəsinin həcmi 33302,8 milyon ABŞ dolları təşkil etmişdir ki, bunun da 19635,6 milyon ABŞ dollarını və yaxud 59,0%-i ixracın, 13667,2 milyon ABŞ dolları və yaxud 41%-i idxalın payına düşür. 2010-cu ildə isə xarici ticarət dövriyyəsinin 76,4%-i ixracın, 23,6%-i isə idxalın payına düşür. 2010-cu ildən etibarən ixracın həcminin azalmasının əsas səbəbini həmin illərdə dünya bazarında neftin qiymətinin aşağı düşməsi ilə əlaqələndirmək olar. Son illər xarici ticarətdə neft-qaz məhsullarının payının azalması, qeyri-neft sektorunun məhsullarının payının artması ilə müşaiyət olunur. Bu isə ölkənin neft-qaz sektorundan asılılığının azaldılmasının bariz nümunəsidir.



Şəkil. 2010-2019-cu illər ərzində Azərbaycanda ixrac-idxal əməliyyatlarının artım dinamikası, milyon ABŞ dolları ilə

Qeyri-neft sektoru üzrə xarici ticarət fəaliyyətinin səmərəliliyini artırmaq üçün marketinq və satış xidmətinin idarə edilməsinin təşkilati strukturunu perspektivli sahələrə uyğun olaraq dəyişdirmək lazımdır. Xarici ticarət fəaliyyətinin səmərəliliyini artırmaq üçün müəssisələr istehsalın şaxələndirilməsi strategiyasından istifadə edə bilərlər. Müəssisələr, xüsusən marketinq və reklamın ticarət aspektinin vacibliyini unutmamalıdırlar. Şirkətlər perspektivli bazarlar və perspektivli məhsullar, habelə daxili və xarici bazarlarda güclü reklam kampaniyaları ilə bağlı marketinq tədqiqatları aparmalıdırlar.

Xarici ticarət strategiyasının həyata keçirilməsi dörd istiqamətdə aparılmalıdır [5].

Birinci istiqamət iqtisadiyyatın bütün sahələrinin inkişafı üçün əlverişli şəraitin yaradılmasıdır.

İkincisi, idxaləvəzetmə siyasəti həyata keçirilməli, ölkənin milli maraqlar nəzərə alınaraq yerli istehsalçılar qorunmalıdır. Bu, ölkənin istehsal aparatlarının modernləşdirilməsi və genişləndirilməsi, ölkədə ayrı-ayrı malların balanslı istehsalı və istehlakı üçün lazımdır.

Üçüncü istiqamət ölkənin ixrac üzrə ixtisaslaşmasının stimullaşdırılmasıdır. Bu prosedur beynəlxalq rəqabətin tələbləri nəzərə alınmaqla istehsalın ümumi texniki və iqtisadi səviyyəsini yüksəltmək, valyuta ehtiyatlarını artırmaq, eyni zamanda ölkənin ayrı-ayrı bölgələrinin və sənaye sahələrinin inkişafını sürətləndirməyə kömək etmək üçün lazımdır.

Dördüncüsü, xarici ticarət coğrafiyasında prioritetin müəyyənləşdirilməsidir.

Mövcud şəraitdə ölkənin xarici ticarət strategiyaları seçilərkən beynəlxalq təşkilatlarla əməkdaşlıq strategiyalarına da diqqət yetirməlidirlər. Beynəlxalq təşkilatlarla əməkdaşlıq strategiyasını müəyyənləşdirərək iqtisadi təhlükəsizlik və milli maraqları təmin etmək üçün uyğun üstünlüklərə nail olmağa çalışmaq lazımdır. Müasir dövrdə xarici iqtisadi fəaliyyət təkcə beynəlxalq mal və xidmətlər ticarəti ilə məhdudlaşmır. Həmçinin, yerli müəssisələrin beynəlxalq şirkətlərlə istehsal, elm, texniki və innovasiya sahəsində qarşılıqlı fəaliyyətini də əhatə edir.

Nəticə

Beləliklə, xarici iqtisadi siyasətin səmərəliliyinin artırılması istiqamətlərini aşağıdakı kimi müəyyənləşdirə bilərik:

- xarici iqtisadi fəaliyyətin təşkili prosesi ölkənin maliyyə, əmək, maddi və texniki imkanlarına uyğun olaraq xarici bazarda rəqabət qabiliyyəti nəzərə alınmaqla inkişaf etdirilməlidir;

- ölkənin xarici iqtisadi fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi müxtəlif metodlardan istifadə etməklə həyata keçirilməlidir;

- ölkənin xarici iqtisadi fəaliyyətinin səmərəliliyini artırmaq üçün nəzarət olunan və nəzarət olunmayan amillərin davamlı monitorinqi aparılmalı və qiymətləndirmə metodologiyası təkmilləşdirilməlidir.

- xarici iqtisadi fəaliyyətin hüquqi əsasları gücləndirilməli, onların təcrübədə icrası və valyuta gəlirlərinin ölkəyə qaytarılması üzərində dövlət nəzarətinin səmərəliliyi artırılmalıdır;

- dövlətin iqtisadi təhlükəsizliyinin mühüm tərkib hissəsi kimi xarici iqtisadi fəaliyyətin inkişaf etdirilməsi və səmərəliliyinin artırılması üçün fəaliyyət proqramı olmalıdır;

- dövlətin xarici iqtisadi siyasəti ümumi xarici siyasətin tərkib hissəsi kimi ölkədə iqtisadi sabitliyin və iqtisadi təhlükəsizliyin dəstəklənməsi üçün vacib bir vasitə kimi xidmət etməlidir. Eyni zamanda, bu və ya digər istehsalçı və ya istehlakçı qrupunun maraqlarını əks etdirməlidir;

- emal sənayesinin və mövcud ixrac mənbələrinin keyfiyyəti artırılmalıdır;

- təkcə idxal əvəzetmə problemini həll etmək üçün deyil, həm də milli ixracın əmtəə quruluşunu təkmilləşdirmək üçün müasir texnologiyalara əsaslanan istehsal sahələri texniki cəhətdən yenidən təchiz edilməlidir;

- ölkə alimlərinin və ixtiraçılarının müəllif hüquqlarının qorunmasında və ölkənin intellektual potensialının xaricə qanunsuz olaraq ixtiralar, texnologiyalar, nou-hau və s. şəklində sızmasının qarşısının alınmasında dövlətin rolu gücləndirilməlidir;

- milli ixracın inkişafına dair aktual problemlərin həllində dövlətin təşkilati, tənzimləyici və maliyyə dəstəyi aktivləşdirilməlidir.

Bütün bunların reallaşdırılması ölkənin xarici iqtisadi fəaliyyətinin səmərəliliyini artırmaqla ölkənin davamlı inkişafına təkan verəcəkdir. Ölkənin xarici iqtisadi siyasətinin səmərəliliyinin artırılması həm də sosial-iqtisadi problemlərin daha təsirli həlli üçün beynəlxalq əmək bölgüsünün üstünlüklərindən daha geniş istifadə etməsinə və innovativ inkişaf modelinə keçməsinin daha da genişləndirməsinə imkan verəcəkdir.

Ədəbiyyat

1. Azərbaycanın xarici ticarəti. Statistik məcmuə, Bakı, 2020, 220 s.

2. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2009, 415 s.

3. Айгунов А.Г. Совершенствование организационно-экономических форм государственного регулирования внешнеторговой деятельности. Дисс. канд. экон. наук. Ростов на Дону, 2007, 159 с.

4. Барышева Е.А. Определение направлений повышения эффективности внешнеэкономической деятельности предприятий. Российское предпринимательство, № 12 (234), июнь 2013, с.32-38

5. Чумакова Н.А., Сапрыкина В.Ю. Современные тенденции внешнеэкономической деятельности. Научный вестник ЮИМ, №4, 2016, с.42-46

NƏQLİYYAT-LOGİSTİKA KOMPLEKSLƏRİNİN FƏALİYYƏTİNİN TƏNZİMLƏNMƏSİNDƏ DÖVLƏTİN ROLU

Hüseynova Məlahət Soltan qızı i.f.d., dosent
Sumqayıt Dövlət Universiteti
huseynovyusif2003@mail.ru

Xülasə: *Məqalədə həm logistikanın, həm də nəqliyyatın hər birinin ayrı-ayrılıqda ölkə iqtisadiyyatında rolu və müsbət təsirləri tədqiq edilmişdir. Ölkəmizdə nəqliyyat-logistika kompleks-lərinin yaradılmasının zəruriliyi əsaslandırılmışdır. Dövlətin nəqliyyat-logistika komplekslərinin fəaliyyətinin inkişafındakı roluna baxılmışdır. Nəqliyyat-logistika komplekslərinin yaradılmasının səmərəliliyi əsaslandırılmışdır. Nəqliyyat-logistika komplekslərinin fəaliyyətinin dövlət tənzimlən-*

məsinin zəruiliyi tədqiq edilmiş, bu sahədə qarşıya qoyulmuş məqsəd və vəzifələr müəyyənləş-dirilmişdir. Həmçinin, nəqliyyat-logistika komplekslərinin fəaliyyətinin yaxşılaşdırılması məqsədilə bir sıra məqsədli və strateji əhəmiyyətli proqramların işlənib hazırlanması ilə bağlı tövsiyə xarakterli təkliflər irəli sürülmüşdür.

Dünya təcrübəsi göstərir ki, çoxsaylı istehsalçıların, təchizatçıların, nəqliyyat və logistika şirkətlərinin və vasitəçilərinin səmərəli işinin təşkili logistika sistemləri yaradılmadan mümkün deyil. Logistika dövlətin iqtisadi inkişafına çoxşaxəli təsir göstərir. Logistikanın rolunun düzgün başa düşüldüyü yerdə dövlət iqtisadi, siyasi və sosial baxımdan uğurla inkişaf edir. Logistikanın özünəməxsusluğu ondan ibarətdir ki, həm maddi istehsal sahəsi kimi çıxış edir, həm də xidmət infrastrukturunun köməkçi funksiyasını yerinə yetirir. Logistikanın iqtisadi elm kimi formalaş-masına XX əsrin 50-ci illərindən başlanmışdır. Son 30 ildə dünyada logistikanın nəzəriyyəsi və təcrübəsi sürətlə inkişaf etmişdir.

Logistik inkişafın yüksək səviyyədə olması ölkənin iqtisadi inkişafının bir çox sosial-iqtisadi göstəricilərinə müsbət təsir göstərir. Hər hansı bir ölkədə logistikanın yüksək səviyyədə inkişafının aşağıdakı müsbət təsirləri vardır:

1. Əmtəə dövriyyəsinin yaxşılaşdırılması. Bu, aşağıdakılara şərait yaradır:

- istehsal-bölgü-mübadilə-istehlak dövrünün tamamlanmasını təmin edir;
- lazımsız vasitəçilərin və ehtiyatların sayını azaldır, malların təhlükəsizliyini yaxşılaşdırır, yeri və vəziyyətinə istənilən vaxt nəzarəti təmin edir.

2. Mallara və xidmətlərə çəkilən xərclərin azaldılması.

3. Yeni iş yerlərinin yaradılması. Böyük nəqliyyat-logistika kompleksləri mərkəzləri bir neçə min insanın iş mənbəyi ola bilər. Böyük nəqliyyat-logistika kompleksləri təşkili ilə bağlı bir çox müsbət təcrübə nümunələri Avropa ölkələrində müşahidə olunur.

4. Topdan və pərakəndə ticarət dövriyyəsində və müştəri xidmətində artımın əldə edilməsi.

5. İnkişaf etmiş nəqliyyat və anbar infrastrukturu olan ərazilərin investisiya cəlbediciliyinin artırılması. Xüsusi investisiya axını iqtisadi artımın intensivləşməsinə və əhalinin həyat keyfiyyətinin yaxşılaşmasına səbəb olur.

6. Ətraf mühitin vəziyyətinin yaxşılaşdırılması.

7. Tranzit potensialının həyata keçirilməsindən dövlət gəlirlərində artımın təmin edilməsi.

8. Region iqtisadiyyatının inkişafı:

- regional iqtisadiyyatın inkişafında iri və orta sahibkarlığın iştirakının birləşdirilməsi;
- regionlarda pul dövriyyəsinin, vergi ödənişlərin artması.

9. İstehsalın inkişafı:

- sənaye müəssisələrində logistika əməliyyatlarının optimallaşdırılması;
- istehsalda avtomatlaşdırılmış idarəetmə sistemlərinin istifadəsi.

10. Real iqtisadiyyatın bir sıra sahələrində yeni istehsal güclərinin yaradılması və s.

Material axınının fiziki hərəkətinin təmin edilməsinə, logistik əməliyyatların çox hissəsinin həyata keçirilməsinə görə logistikanın əsas funksiyası kimi nəqliyyat çıxış edir [2]. Ölkəmizin iqtisadiyyatında nəqliyyatın rolu olduqca böyükdür. Nəqliyyat ölkə iqtisadiyyatının gücləndirilməsində və inkişafında xüsusi rol oynayır. İstehsalın bütün sahələrini birləşdirən, xammal, yarımfabrikat və hazır məhsulların maddi axınlarını optimallaşdıran nəqliyyatdır. İqtisadiyyatın innovativ inkişaf yoluna keçməsi kontekstində nəqliyyat dövlətin sosial-iqtisadi inkişafında ən vacib amil kimi qəbul edilir. Ölkənin iqtisadi məkanının bütövlüyünün təmin edilməsində, regionlararası və beynəlxalq nəqliyyat və iqtisadi əlaqələrin yaxşılaşdırılmasında, istehsal güclərinin səmərəli bölüşdürülməsində, təbii resurslardan istifadənin səmərəliliyinin və ölkə regionlarının sosial-iqtisadi potensialının artırılmasında, sahibkarlığın və beynəlxalq əməkdaşlığın genişləndirilməsində, ölkənin dünya iqtisadiyyatına bərabər hüquqlu tərəfdaş kimi daxil olmasında nəqliyyatın xüsusi rolu vardır . Ölkə daxilində nəqliyyatın davamlı işləməsi insanların, malların və xidmətlərin sərbəst hərəkətinin, rəqabətin və sahibkarlığın inkişafının, əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılmasının, bütövlüyün və milli təhlükəsizliyin təminatıdır. Qlobal iqtisadi məkana inteqrasiyada da aparıcı rol nəqliyyata məxsusdur. Qeyd edilənlər nəqliyyat-logistika komplekslə-rinin yaradılmasının və inkişaf etdirilməsinin nə qədər mühüm əhəmiyyət kəsb etdiyini göstərir.

Dünya təcrübəsi göstərir ki, nəqliyyat sistemi logistika sistemi ilə inteqrasiya olunduqda təsirli olur. Əhalinin artan hərəkətliliyi, dəyişikliklərin dinamikasının sürətlənməsi, istehsal proseslərinin modernləşdirilməsi şəraitində ölkə iqtisadiyyatının inkişafı və sabitliyini qorumağın əsas elementlərindən biri olan nəqliyyat-logistika komplekslərinin rolu artır. Nəqliyyat-logistika kompleksləri ölkənin səmərəli fəaliyyətinin və regional iqtisadiyyatın təşkilinin artırılması amili kimi ərazinin nəqliyyat marşrutları ilə təmin olunmasına, məhsulların hazırlanmasına, yerləşdirilməsinə, bölüşdürülməsinə və vaxtında istehlakçılara çatdırılmasına imkan verir.

Nəqliyyat-logistika kompleksləri iqtisadi rayonları, istehlakçıları, müəssisələri və şirkətləri birbirinə yaxınlaşdırmaqda mühüm rol oynayır. Nəqliyyat maddi nemətlərin,və hazır məhsulların istehsal sahəsindən şəxsi istehlak sahəsinə köçürülməsi prosesinin iştirakçısıdır. Məhsulların hərəkəti nəticəsində yalnız istehlak dəyəri deyil, həm də nəql olunan məhsulların dəyəri nəqliyyat xərclərinin miqdarına görə dəyişir.

Bütün bu cəhətlər nəqliyyat-logistika komplekslərinin fəaliyyətinin inkişafında dövlətin rolunun gücləndirilməsini tələb edir. Nəqliyyat-logistika komplekslərinin yaradılmasının ilk mərhələlərində dövlət dəstəyi və stimullaşdırılması çox vacibdir. Dövlətin nəqliyyat-logistika komplekslərinin fəaliyyətinin inkişafındakı rolunu aşağıdakı komponentlərdən daha aydın görmək olar:

- nəqliyyat-logistika proseslərinin dövlət tənzimlənməsi, o cümlədən onlara hüquqi dəstəyin göstərilməsi;
- nəqliyyat-logistika infrastrukturlarının yaradılması və istismarı;
- nəqliyyat-logistika komplekslərinin inkişafının stimullaşdırılması.

Nəqliyyat-logistika kompleksləri yaradılarkən yalnız hər hansı bir regionun infrastrukturunun vəziyyəti deyil, bütövlükdə iqtisadiyyatın imkanları nəzərə alınmalıdır. Nəqliyyat-logistika kompleksləri yaradılarkən dövlət-özəl tərəfdaşlıq mexanizmindən istifadə edilə bilər. Dövlət-özəl tərəfdaşlığı ölkədə infrastruktur obyektlərinin inkişafı, planlaşdırılması, maliyyələşdirilməsi, inşası və istismarı üçün dövlət sektoru ilə özəl sektor arasında qarşılıqlı əlaqə mexanizmidir. Dövlət-özəl tərəfdaşlığı uzunmüddətli tərəfdaşlıq və investisiya cəlb etmək üçün təsirli bir yoldur [5].

Konkret olaraq nəqliyyat-logistika komplekslərinin problemlərinin həllində dövlətlə biznes arasında qarşılıqlı əlaqə forması kimi çıxış edən nəqliyyat-logistika mərkəzləri və klasterləri mühüm rol oynaya bilər. Onların rolu müəssisələr, regionlar və bütövlükdə xalq təsərrüfatı səviyyəsində iqtisadi artım üçün şəraiti təmin etməkdir.

Ümumiyyətlə, nəqliyyat-logistika komplekslərinin yaradılmasının səmərəliliyinin əsaslandırılması aşağıdakılarla bağlıdır:

- logistik idarəetmə metodlarının təcrübədə tətbiqi, həmçinin nəqliyyat və logistika xidmətlərinin inkişaf etdirməklə müştərilərin kəmiyyət və keyfiyyət tələblərinin maksimum dərəcədə ödənilməsi yolu ilə ölkənin nəqliyyat-logistika kompleksinə daxil olan müəssisə və təşkilatların rəqabət qabiliyyətinin təmin edilməsi;
- daşımaların və malların hərəkəti sisteminin təşkili və idarə olunması üçün qabaqcıl terminal texnologiyasından istifadə etməklə ölkədəki nəqliyyat-logistika xidmətlərinin keyfiyyətinin yüksəldilməsinə təsir göstərən lisenziyalaşdırmanın tətbiqi. Bu birbaşa dövlət tənzimlənməsi və aydın nəzarət mexanizmidir;
- nəqliyyat-logistika komplekslərinin inkişafına büdcə və büdcədənkənar mənbələrin cəlb edilməsi ilə böyük və kiçik müəssisələrin ticarət strukturunun inkişafı və genişlənməsi;
- nəqliyyat-logistika komplekslərinin inkişafında informasiya dəstəyi sisteminin yaradılması üçün zəruri təşkilati, iqtisadi, istehsal və texniki şərtlərin təmin edilməsi;
- daşıma, nəqliyyat, anbar, bölüşdürmə xidmətləri və digər maddi-texniki fəaliyyət növləri üzrə kadr hazırlığının və yenidən hazırlanmasının təşkili, informasiya və maliyyə axınlarının idarə edilməsi üzrə təlimlərin keçirilməsi;
- Nəqliyyat-logistika sistemində iştirak edənlər üçün ən əlverişli şəraiti təmin edəcək vergi və kredit sahəsində güzəştlərin edilməsi;
- nəqliyyat-logistika sistemi iştirakçılarına eyni dərəcədə əlverişli iş şəraiti yaradılmasına yönəlmiş hüquqi tənzimləmənin həyata keçirilməsi.

Nəqliyyat-logistika komplekslərinin yaradılmasını sürətləndirmək və fəaliyyətinin nəticələrinə iqtisadi marağı artırmaq üçün bütün maraqlı strukturların iştirakı ilə korporativ əsasda holdinq şirkəti yaratmaq lazımdır.

Nəqliyyat-logistika komplekslərinin səmərəli işləməsi və inkişafı üçün beynəlxalq, dövlət və regional logistika proqramları və sistemləri ilə strateji qarşılıqlı əlaqələrin təşkili lazımdır. Həmçinin, nəqliyyat-logistika komplekslərinin səmərəli idarə edilməsi sistemi qurulmalıdır [4].

Nəqliyyat-logistika komplekslərinin idarə edilməsi sistemi üç səviyyəli bir quruluşa malikdir: dövlət, regional və yerli. Bu sistem müxtəlif səviyyəli idarəetmə orqanları arasındakı funksiya və səlahiyyətlərin dəqiq bir şəkildə müəyyənləşdirilməsini və qarşılıqlı maraqlar sahəsində koordinasiyalı qərar qəbul edilməsini tələb edir. Nəqliyyat-logistika komplekslərinin inkişafının idarə olunması mexanizminin yaradılması vahid təşkilati, iqtisadi, informasiya, tənzimləyici, elmi, texniki və kadr dəstəyinin formalaşdırılmasına əsaslanır. Bu, yüksək gəlirlilik sayəsində ilkin investisiyaların sürətli geri qaytarılmasını, nəqliyyat və logistika infrastrukturu obyektlərinin özünütəminetmə prinsipləri əsasında sonrakı inkişafını təmin edən uzunmüddətli bir prosesdir. Odur ki, bu sahədə yaxşı işlənib hazırlanmış investisiya siyasəti də lazımdır.

Nəqliyyat-logistika komplekslərinin səmərəli fəaliyyəti nəticəsində sosial-iqtisadi proseslər optimallaşdırılır ki, bu da aşağıdakı müsbət təsirlərin əldə olunmasına səbəb olur:

- ÜDM-in və xarici ticarət dövriyyəsinin artması;
- əmək ehtiyatlarından istifadədə məşğulluğun və səmərəliliyin artırılması;
- məhsulların maya dəyərinin azaldılması və rəqabət qabiliyyətinin artırılması;
- əhalinin rifahının və həyat keyfiyyətinin yaxşılaşdırılması.

Bu istiqamətlərdə müsbət nəticələrin əldə olunması nəqliyyat-logistika komplekslərinin fəaliyyətinin dövlət tənzimlənməsi səviyyəsindən asılıdır.

Nəqliyyat-logistika komplekslərinin fəaliyyətinin dövlət tənzimlənməsində məqsəd nəqliyyat-logistika xidmətlərinin inkişaf etdirməkdir. Nəqliyyat-logistika komplekslərinin fəaliyyətinin dövlət tənzimlənməsinə daxildir:

- nəqliyyat-logistika xidmətlərinin qiymətlərinin tənzimlənməsi;
- malların daşınması üçün logistika modelinin seçilməsi;
- anbar fəaliyyətinin inkişafı;
- logistika sahəsində kadr hazırlığı sisteminin təkmilləşdirilməsi və s.

Bunları daha ətraflı nəzərdən keçirək.

a) Regionlarda nəqliyyat və logistika xidmətlərinin inkişafının tənzimlənməsi.

Regional nəqliyyat və logistika xidmətləri aşağıdakı funksiyalarla təşkil olunmalıdır: xidmətlər üçün təkliflərin formalaşdırılması və istehlakçılara bu barədə məlumat verilməsi. Bu, tələb və təklifi sabitləşdirməyə, xidmətlərin qiymətlərini sadələşdirməyə və göstərilən xidmətləri yaxşılaşdırmağa, vergi gəlirlərini artırmağa imkan verir. İnkişaf etmiş ölkələrdə bu sahədə birjaların rolu durmadan artmaqdadır [3].

b) Nəqliyyat-logistika xidmətlərinin qiymətlərinin tənzimlənməsi. Məhsullar son istehlakçıya çatana qədər 2-3 dəfə bahalaşır. İxrac məhsullarının son qiymətlərinə nəqliyyat, anbar və saxlama təşkilatları, informasiya dəstəyi və s. təsir göstərir. Bütün bunlar nəqliyyat-logistika xidmətlərinin təşkilində təsirli bir logistika sisteminin olması probleminin həllini tələb edir. Bu cür sistemlərin yaradılması məhsulların saxlanması və daşınması üçün müasir texnologiyalardan və informasiya texnologiyalarından istifadə etməklə qiymətləri 8-15% endirə bilən dövlət-özəl tərəfdaşlıq əsasında həyata keçirilməlidir.

c) Nəqliyyat və logistika sistemlərinin formalaşması və inkişafına təkan vermək

Dövlətin bu sahədəki funksiyaları aşağıdakı vəzifələrin həllinə yönəldilməlidir:

- nəqliyyat və logistika sistemində dövlət tənzimlənməsi, logistika prosesləri qaydalarının yaradılması;
- dövlət-özəl tərəfdaşlığı əsasında və ya müstəqil olaraq dövlətin ixrac və tranzit-nəqliyyat potensialını reallaşdırmaq üçün layihələrin həyata keçirilməsində iştirak etməsi;
- regionlarda səmərəli nəqliyyat-logistika infrastrukturunun balanslı inkişafının təmin edilməsi;

- nəqliyyat-logistika xidmətlərinin mövcudluğunun, həcminin və rəqabət qabiliyyətinin təmin edilməsi;

- Azərbaycan Respublikasının nəqliyyat-logistika sisteminin inkişafı və beynəlxalq nəqliyyat sisteminə inteqrasiyası üçün nəqliyyat-logistika şirkətlərinin inkişafının stimullaşdırılması.

ç) malların daşınması üçün logistik modelin seçilməsində dəstək.

Dünyada, son illərdə beynəlxalq yük daşımalarının üçdə ikisi, intermodal, multimodal və kombinə edilmiş nəqliyyat vasitəsi ilə həyata keçirilir. Multimodal və intermodal nəqliyyatın inkişafı, müxtəlif nəqliyyat növlərinin texnoloji birliyinin təmin edilməsi və xidmətin keyfiyyətinin yüksəldilməsi üçün müasir logistika komplekslərinin yaradılması məsələsinin həlli tələb olunur. Konteyner daşınmasının səmərəliliyi artıq beynəlxalq təcrübədə öz təsdiqini tapmışdır. Bu nəqliyyat növü çox fəal inkişaf edir.

d) Anbar fəaliyyətinin inkişafına dövlət dəstəyi. Hazırda anbar təsərrüfatlarının fəaliyyəti dövlət tərəfindən kifayət qədər tənzimlənmir. Regionlarda bu sahədə dövlət siyasəti təmin edilməlidir. Bunun üçün iqtisadiyyatın müxtəlif sahələrində əmtəə və maddi ehtiyatların anbarda saxlanılması və xammalın emalı üçün regional sistemlərin inkişafı zəruridir.

e) Regional nəqliyyat-logistik sistemlərin inkişafında dövlətin rolu.

Regional nəqliyyat-logistika sistemlərinin inkişafına dövlət dəstəyi müəyyən funksiyaların yerinə yetirilməsini və aşağıdakı vəzifələrin həllini tələb edir:

- əmtəə dövriyyəsi və bölüşdürmə proseslərinin inkişafı üçün dövlət siyasətinin hazırlanması və həyata keçirilməsi;

- birbaşa və dolayı idarəetmə metodlarından istifadə etməklə əmtəə bazarları infrastrukturunun formalaşması və fəaliyyətinin tənzimlənməsi;

- əmtəə bazarlarının təhlili və proqnozlaşdırılması, regionlarda xidmətlərin göstərilməsi ilə bağlı logistika vasitəçilərinin inkişafına dəstək;

- əmtəə dövriyyəsinin təşkili və həyata keçirilməsi üçün əmtəə bazarları subyektlərinin fəaliyyətinin koordinasiyası.

Nəqliyyat-logistika komplekslərinin fəaliyyətinin dövlət tənzimlənməsinin zəruriliyi əsasən aşağıdakı amillərlə əlaqədardır.

Birincisi, bir çox müəssisə yeni nəqliyyat-logistika texnologiyalarının tətbiqini müstəqil olaraq maliyyələşdirə bilmir. Hətta mövcud avadanlıqları və texniki vasitələri yeniləyə və modernləşdirə bilmir.

İkincisi, makrologistik sistemlərin inkişafı və təkmilləşdirilməsi həm əhəmiyyətli investisiyalar, həm də müxtəlif funksional və inzibati idarəetmə səviyyələrində nəqliyyat-logistika proseslərində iştirakçıların kollektiv səylərinin əlaqələndirilməsini tələb edir.

Üçüncüsü, ölkədəki nəqliyyat-logistika problemlərinin çoxunun müxtəlif səviyyələrdə həlli dövlətin iştirakı ilə əlaqələndirilir. Dövlətin iştirakı əsasən hüquqi tənzimləmə, büdcə maliyyələşdirilməsi, kreditlərə zəmanətlərin verilməsi və s. kimi özünü göstərir.

Azərbaycan Respublikasının bu sahədə həyata keçirdiyi strategiya və proqramlar iqtisadiyyatın infrastruktur sahələrinin fəaliyyətinin daha da inkişaf etdirilməsinə və təkmilləşdirilməsinə yönəldilmişdir.

Nəqliyyat-logostika sahəsində dövlət tənzimləmə sisteminin təkmilləşdirilməsi birbaşa və dolayı tənzimləmə sahələrini əhatə etməklə aşağıdakı əsas vəzifələrin icrasını nəzərdə tutur:

- nəqliyyat-logistika sahəsində qanunvericilik bazasının hazırlanması və təkmilləşdirilməsi;

- nəqliyyat-logistika fəaliyyəti subyektlərinin məhsullarının və xidmətlərinin lisenziyalaşdırılması və sertifikatlaşdırılması mexanizmlərinin təkmilləşdirilməsi;

- nəqliyyat-logistika sahəsində maliyyə siyasətinin həyata keçirilməsi;

- nəzarət fəaliyyətinin təkmillləşdirilməsi;

- nəqliyyat-logistika kompleksinin inkişafı və modernləşdirilməsinin planlaşdırılması və s.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidenti tərəfindən 06 dekabr 2016-cı tarixində təsdiq edilmiş "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi" bu sahənin inkişafına mühüm rol oynayır [1]. Fikrimizcə, makro və mikro səviyyələrdə nəqliyyat-logistika fəaliyyətinin planlaşdırmanın həyata keçirilməsi və nəliyyat-logistik proseslərin

yaxşılaşdırılmasını nəzərdə tutan nəqliyyat-logistika komplekslərinin inkişaf strategiyasının hazırlanması da əhəmiyyətli ola bilər. Bu şərtlərdə nəqliyyat-logistika sistemi xərclərin idarəedilməsi yolu ilə rəqabət qabiliyyətinin artırılmasında həlledici amil olur. Planlaşdırma da öz növbəsində nəqliyyat-logistika proseslərinin və təchizat zəncirinin idarəolunması və təkmilləşdirilməsi üçün ən vacib vasitə kimi çıxış edir.

Qeyd edək ki, Azərbaycan iqtisadiyyatında davamlı iqtisadi artımı sürətləndirmək üçün qlobal tendensiyalara cavab verən və milli rəqabət üstünlükləri təmin edə biləcək nəqliyyat-logistika komplekslərinin inkişaf strategiyasının hazırlanmasını tələb olunur. Belə bir strategiyanın əsas məqsədi iqtisadi artımı təmin etmək və sürətləndirməklə innovativ və intensiv iqtisadi inkişaf modelinə keçməkdir. Bu uzunmüddətli strategiyanın uğurla həyata keçirilməsi nəqliyyat-logistika proseslərinin daha da təkmilləşdirilməsi mexanizmi formalaşdırılmadan və inkişaf etdirilmədən mümkün deyil.

Nəticə

Yekun olaraq deyə bilərik ki, nəqliyyat-logistika kompleksləri maddi axınların, nəqliyyat və logistik proseslərin optimal tənzimlənməsi, idarə edilməsi və xərclərin azaldılması yolu ilə iqtisadi artıma müsbət təsir göstərir. Buna görə də nəqliyyat-logistika komplekslərinin və onun infrastrukturunun inkişafına dair bir çox məsələlər dövlət təşkilatlarının və biznes nümayəndələrinin də iştirakını tələb edir. Nəqliyyat-logistika komplekslərinin fəaliyyətinin təkmilləşdirilməsi və effektiv nəqliyyat-logistik sistemlərin yaradılması məhz dövlətin, biznesin və cəmiyyətin bu prosesdə fəal iştirakından asılıdır. Qeyd edilənləri nəzərə alaraq ölkəmizdə təkmilləşdirilmiş milli nəqliyyat-logistika komlekslərinin yaradılması davamlı iqtisadi artımı gücləndirər. Azərbaycanda təkmilləşdirilmiş milli nəqliyyat-logistika komlekslərinin yaradılması və dünya nəqliyyat-logistika sistemlərinə inteqrasiyası müasir dövrün aktual məsələlərindən biri olmalıdır. Bu baxımdan sənaye və kənd təsərrüfatı sahələrinin perspektiv inkişafı nəzərə alınmaqla ölkənin bütün ərazisini əhatə edəcək, nəqliyyat və logistikanın hərtərəfli inkişafını təmin edə biləcək "Nəqliyyat-logistika komplekslərinin hərtərəfli inkişafı və fəaliyyətinin tənzimlənməsi üzrə Dövlət Proqramı"ı əhəmiyyətli ola bilər.

Ədəbiyyat

1. "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi". Bakı, 06 dekabr 2016-cı il, 67 s.

2. Лавриков И.Н. Транспортная логистика: учебное пособие. Тамбов : Изд-во ФГБОУ ВО «ТГТУ», 2016, 92 с

3. Печерская О.А. Факторы, влияющие на развитие транспортно-логистического комплекса. Альтернативные транспортные технологии, 2018, Т. 5, № 1(8), с. 34-37

4. Фрейдман О.А. Трансформация транспортно-логистической системы как условие устойчивого развития региона. Известия Иркутской государственной экономической академии, 2016, Т. 26, № 4, с. 557–565

5. Шконда А.А. Роль транспортно-логистической инфраструктуры в формировании экономической безопасности региона. Бюллетень науки и практики, 2018, Т. 4, № 1, с. 219-227

AZƏRBAYCAN İQTİSADİYYATIN DÜNYA TƏSSƏRÜFAT SİSTEMİNDƏ MÜASİR VƏZİYYƏTİ

Cəmilə Əli gızı Cəlilova, doktorant
Azərbaycan Kooperasiya Universiteti
elm@amea-iqtisadiyyat.org

Dünya bazarı isə ölkələr arası sabit əmtəə-pul münasibətləri sferası olub, əməyin, eləcədə digər istehsal amillərinin beynəlxalq bölgüsünə əsaslanir. Dünya bazarı yer kürəsində ölkələr arasında münasibətlərin tənzimləyicisi rolunu yerinə yetirir. Məhz bu funksiyaya uyğun olaraq dünya bazarı milli istehsalçıları, rəqabət qabiliyyəti olmayan istehsalçıları və standartlara uyğun gəlməyən əmtəə-

ləri bazardan sıxışdırıb çıxarır. Bununla da dünya bazarı milli istehsalçılara nəyi, nə qədər, kim üçün istehsal etməyə imkan verir. Fikrimizcə, bu şəraitdə dünya bazarı beynəlxalq səviyyədə mərkəzi iqtisadi kateqoriya kimi özünü göstərir.

Dünya bazarında respublikamızın yerinin gücləndirilməsi aşağıdakı səbəblərlə şərtlənir:

- iqtisadiyyatın real və qeyri-real sektorlarında texnoloji geriliyin aradan qaldırılması;
- innovasiyalı milli iqtisadiyyatın yaradılması yolu ilə rəqabət qabiliyyətli məhsulların istehsalının artırılması;
- Azərbaycan brendinin dünya bazarında tanınması;
- Azərbaycanda istehsal olunmuş məhsulların dünya bazarında konyunktura vəziyyətinin yaxşılaşdırılması;
- Respublikamızın beynəlxalq əmək bölgüsündə iştirak imkanlarının genişləndirilməsi;
- milli valyuta təsərrüfatının gücləndirilməsi və ölkənin valyuta ehtiyatlarının artırılması;
- Respublikamıza göstərilə biləcək xarici iqtisadi təsirlərin minimumlaşdırılması.

Aşkar edilmişdir ki, dünya bazarının təsiri altında milli dövlətlərdə sənaye cəmiyyətindən postsənaye cəmiyyətinə keçidin təkamül yolu ilə hərəkət etməsinə baxmayaraq, bu proses ölkə daxilində ciddi disproporsiya və ziddiyyətlər yaradır [1]. Bu meyl özünü bir çox maddi istehsal sahələrinin məhsullarına dünya bazarında tələbin azalması ilə əlaqədar olaraq struktur və peşəkar işsizliyin artması və makroiqtisadi göstəricilərin səviyyəsinin aşağı düşməsində biruzə verir. Bu amil milli dövlətlərdə makroiqtisadi göstəricilərdən biri olan işsizlik səviyyəsinin yüksəlməsinə səbəb olur. Dünya bazarı səviyyəsində baş verən bu proseslərin təsiri altında istər beynəlxalq miqyasda, istərsə də milli dövlətlərin daxilində keyfiyyətcə yeni iqtisadi və maliyyə mühitinin formalaşmasına və inkişafına şərait yaranır ki, ondan vaxtında və səmərəli istifadə mexanizminin hazırlanılması məqsədəuyğundur.

Azərbaycan dövlətinin dünya bazarında mövqeini gücləndirmək sahəsində həyata keçirdiyi tədbirlərin nəticəsidir ki, respublikamız dünya bazarında yalnız neft amilinə görə deyil, digər strateji məhsullarla da beynəlxalq miqyasda bazar əməliyyatlarında iştirakını gücləndirən nüfuzlu dövlət kimi tanınmasına nail olmuş, ölkəmizlə müxtəlif sahələrdə əməkdaşlıq etmək istəyən dövlətlərin sayı atmışdır. Statistikadan göründüyü kimi 2000-ci ildə respublikamızın cəmi 65 dövlətlə ticarət-iqtisadi əlaqəsi olmuşdursa 2019-cu ildə bu göstərici 167-yə çatmışdır. Faktlar göstərir ki, dünya bazarında respublikamız ölkələrin sayı baxımından inkişaf etməklə yanaşı ticarət əməliyyatlarının həcmi, strukturu və ticarət dövriyyəsinin genişlənməsi göstəricisinə görə də xeyli irəliləmiş, xarici ticarət müsbət saldolu olmuşdur.

Dünya bazarında Azərbaycanın xarici ticarət əlaqələrinin coğrafiyasından göründüyü kimi o, bütün səviyyələri əhatə edir və əməkdaşlığın strukturunda Avropa dövlətləri 54,1%-lə üstünlük təşkil edirlər. Dünya üzrə idxal əməliyyatların strukturunda isə maşınlar və nəqliyyat avadanlıqları - 42,1%, materialın növünə görə təsnifləşdirilən sənaye malları - 21,5%, kimyəvi mallar - 11,8%, yeyinti məhsulları və diri heyvanlar - 10,2% xüsusi çəkiyə malikdir. Faktlar əsas verir qeyd edək ki, Azərbaycanın daxili bazarının qeyd etdiyimiz seqmentləri əsasən xaricdən gətirilən məhsullar hesabına formalaşır [2].

Təhil nəticəsində müəyyən olunmuşdur ki, 2010-2020-ci illərdə ixracın strukturunda nəzərə çarpacaq keyfiyyət dəyişiklikləri baş vermişdir. Beləki, 2020-ci ildə ölkəmizdə ixracın 3 mlrd. manat azalmasına baxmayaraq onun spektri xeyli genişlənmişdir. Diqqəti cəlb edən fakt odur ki, idxalda olduğu kimi ixracda da Avropa ölkələri, 54,3% xüsusi çəkiyə malik olmaqla üstünlük təşkil edirlər (bax cədvəl 1).

Cədvəl 1. Azərbaycanda ixracın qitələr üzrə strukturu (%-lə)

Qitələr	İllər					
	2010	**2011**	**2012**	**2013**	**2015**	**2018**
Cəmi:	100	100	100	100	100	100
o cümlədən						
Avropa	59,1	71,5	52,9	53,1	54,3	61,1
Asiya	29,8	18,9	38,5	38,9	39,2	32,7
Amerika	9,5	8,6	6,7	6,5	5,9	5,2
Afrika	1,5	1,0	1,8	1,4	0,5	1,0
Okeaniya	0,1	0,0	0,1	0,1	0,1	0,0

Mənbə: [4].

Araşdırmalar göstərir ki, respublikada mədəni-məişət təyinatlı mallar demək olar ki, istehsal olunmur. Əhalinin bu mallara olan tələbatının əsas hissəsi dünya bazarı hesabına təmin olunur. Dünya bazarından idxal olunan qeyri-ərzaq mallarının nomenklaturası daha genişdir: yüngül sənaye məhsullarının 11 əmtəə qrupu, mədəni-məişət təyinatlı malların 17 əmtəə qrupu, təsərrüfat mallarının 19 əmtəə qrupu, xırdavat mallarının 15 əmtəə qrupu ilə təmsil olunur. Elə buna görə də bu istiqamətdə milli istehsalı gücləndirmək üçün iri istehsalı formalaşdırmaq, uyğunlaşdırılmış tikililərdən istifadə edilməsi, yaşayış məntəqələrində məhəllə sxemlərin, kiçik və orta müəssisələrin yaradılması məqsədəuyğundur.

Nəticə

Araşdırmalardan aydın olur ki, müasir şəraitdə respublikamızda elə qanunvericilik aktlarına rast gəlmək mükündür ki, onlar hələ də Azərbaycanın hazır məhsullar üzrə deyil, məhz xammal ixracçısı kimi ixtisaslaşmasını "stimullaşdırır" [3]. Fikrimizcə "İstehsalın və emalın inkişafının Strateji Yol Xəritəsi"nin tələblərinə uyğun olaraq respublikamızın yaxın prespekrivdə "cənub-şimal" ixtisaslaşma tipindən "şimal-şimal" ixtisaslaşma tipinə keçməsi ölkəmizin dünya bazarında yerini əsaslı surətdə yaxşılaşdıracaqdır. Bu məqsədə nail olmaq üçün, fikrimizcə,Azərbaycandan neft və digər ilkin xammaların xaricə daşınmasını məhdudlaşdırmaq məqsədəuyğundur. Bunun üçün aşağıdakı tədbirlərin görülməsi lazımdır:

- xammalın respublikadan ixracı maksimum məhdudlaşdırılmalıdır;
- xam neftin emal dərinliyinin yüksədilməsi (85-87%) və beynəlxalq standartlara çatdırılması ölkəmizin daxili imkanları səviyyəsində həll edilməlidir;
- xammala ixrac rüsumları sərtləşdirilmiş qaydada deyil, xammalın dünya qiymətlərinə nisbətən faizlə təyin edilməlidir. Bu rüsumlar xammalın dünya qiymətlərinin ən azı 80%-i həcmində olmalıdır.

Ədəbiyyat

1. Məmmədov E.Y. İstehlak bazarının idarə edilməsi. Dərslik. Bakı:"İqtisad Universiteti" Nəşriyyatı. – 2019. - 204 s.

2. Xəlilov N.A. Milli ərzaq təhlükəsizliyi: bazar transformasiyaları və iqtisadi qloballaşma amilləri. Bakı. Adiloğlu. 2011,-71 s.

3. Vəliyev A.V. Azərbayjanın istehlak bazarının formalaşmasında MDB ölkələri ilə tijarət-iqtisadi əlaqələrin rolu. Avtoreferat. Bakı. ADİV.2012,-30 s.

4. https://www.stat.gov.az/source/trade/az/f_trade/xt002_5.xls

İRAN İSLAM RESPUBLİKASININ İXRACAT POTENSİALININ ƏSAS İNKİŞAF İSTİQAMƏTLƏRİ

Bahrami Hossein Morteza oğlu
AMEA-nın İqtisadiyyat İnstitutu
bahramihossein77@yahoo.com

Xülasə: *Məqalədə İran İslam Respublikasının ixracat potensialının inkişafı ilə əlaqədar məsələlər araşdırılır. Burada ixracatın inkişafına və beynəlxalq ticarətə təsir edən əsas amillər və metodlar nəzərdən keçirilmiş, statistik məlumatlar verilmiş və müqayisələr aparılmışdır. İran İslam Respublikasının xarici ticarətdə vəziyyəti və dünya ticarətindəki payı təhlil edilmişdir. Həmçinin İran sənayesinin müxtəlif sahələr üzrə inkişafının nəticələri göstərilmişdir.*

Açar sözlər: *ixracat, idxal, inkişaf, məhsul, elm, ticarət*

Hazırda dünya ölkələri üçün ən mühüm məsələlərdən biri ixrac potensialını artırmaqdır. İxrac potensialını artırmaq üçün isə bazar münasibətlərinə keçid dövründə rəqabətədavamlı məhsul istehsal edərək onun xarici bazarlarda satışını təmin etmək lazımdır. Ölkənin iqtisadi artımının stimullaşdırılmasında əlavə imkanlar yaratmaq üçün ixracatı effektiv və səmərəli istifadə etmək vacibidir.

İran İslam Respublikasının xarici iqtisadi strategiyası qarşısında dünya bazarının tələb və standartlarına uyğun rəqabətə davamlı məhsulların idxal və ixrac əməliyyatlarının strukturunun təkmilləşdirilməsi, imkanlarının artırılması kimi məqsədlər dayanmışdır.

Məlum olduğu kimi, 1979-cu il inqilabından sonra İran İslam Respublikasının siyasi və iqtisadi modeli dəyişdi. Yeni qurulan respublika əsasən dövlət sektorunun üstünlük təşkil etdiyi iqtisadiyyata keçdi. 8 illik İran-İraq müharibəsindən sonra İran iqtisadiyyatı sürətli inkişaf dövrünə qədəm qoydu. Yerli istehsalın genişlənməsi, ticarətin liberallaşması, xarici əlaqələrin genişlənməsi, xarici investisiyaların cəlb edilməsi, möhkəm iqtisadiyyatın yaradılması, elm və texnologiya sahəsində inkişaf, həmçinin mədəni üstünlüklərin təşviqi müvafiq iqtisadi planlarda geniş şəkildə nəzərdə tutulmuşdur. Hazırda 2005-ci ildə qəbul edilmiş "Gələcəyə Baxış – 2005-2025" və 2016-cı ildə qəbul edilmiş 6-cı beşillik inkişaf planı (2016-2021) həyata keçirilməkdədir.

Qeyd etmək lazımdır ki, tələb məhsulun ixrac edilməsində ən vacib amil rolunu oynayır.

Hazırki dövrdə elmi-texniki inkişafın təmin edilməsi ölkənin dünya bazarlarına çıxması və rəqabətqabiliyyətinin artması sayəsində ixracın stimullaşdırılması prosesi sürətlənir.Müqayisəli üstünlüyə malik ölkələrin istehsal prosesində fərqlənməsinin başlıca səbəbi texnoloji yeniliklərin inkişafı ilə bilavasitə əlaqədardır.

Bu zaman yeni texnologiya digər ölkələrə yayılana qədər yenilikçi ölkə müvəqqəti də olsa, bu malın ixracında inhisarçı olur və bununla da özünün ixrac potensialının maksimum səviyyədə inkişafını təmin etmək imkanı əldə edir. Son dövrlərdə müqayisəli üstünlüklərin tədricən texnologiya tutumlu istehsala doğru dəyişdiyini nəzərə alaraq ixracın əmtəə tərkibində emaledici sahənin, əsasən də elm və kapital tutumlu məhsulların payının artırılması daha məqsədəuyğun və perspektivli hesab olunur[1].

İxracın səmərəliliyinin artırılması beynəlxalq mübadiləyə təsir edən aşağıdakı daxili və xarici amillərin kompleks fəaliyyətinin nəticəsidir:

• beynəlxalq əmək bölgüsünün dərinliyi və ölkənin onda iştirakının səviyyəsi;

• ticarət-iqtisadi infrastrukturun formalaşması üçün elmi-texniki inqilabın müasir nailiyyətlərinin tətbiqi və istifadəsinin səviyyəsi;

• ölkədə bank sisteminin inkişafı və bu sistemin dünya tədiyyə mühitinə inteqrasiyasının səviyyəsi;

• xarici ticarət əməliyyatları üzrə hesablaşmaların daha səmərəli vasitələrindən istifadə edilməsi;

• bazar islahatlarının sürətlənməsi, rəqabətqabiliyyətli ixrac sahələrinin inkişafını təmin edən iqtisadiyyatın strukturunun yenidən qurulması;

• düşünülmüş proteksionizm və ixrac əməliyyatlarının əmtəə-struktur və coğrafi diversifikasiyası.

İran İslam Respublikasının xarici ticarət vəziyyəti araşdırıldığında onun dinamikası və dünya ticarətindəki payının 1980-2015-ci illərdə kəskin şəkildə artdığı müşahidə edilir. Belə ki, BMT-nin Ticarət və İnkişaf Konfransının (UNCTAD) statistik məlumatlarına əsasən, İranın xarici ticarət dövriyyəsi 1980-ci ildə 24,5 mlrd. ABŞ dollarından 1990-cı ildə 37,6 mlrd., 2000-ci ildə 42,6 mlrd., 2010-cu ildə 166,3 mlrd. və 2015-ci ildə 161,1 mlrd. ABŞ dolları həcmində artmışdır[2].

İran İslam Respublikasının xarici ticarət dövriyyəsinin dünya ticarət dövriyyəsindəki payında isə azalma baş vermişdir. Belə ki, bu rəqəm müvafiq olaraq 1980-ci ildə 0,6%-dən 2012-ci ildə 0,43%-dək azalmışdır. Belə ki, İİR-sı Alıcılıq qabiliyyəti paritetinə (AQP) görə dünyada 17-ci, nominal ÜDM-in həcminə görə isə 25-ci[3], rəqabətqabiliyyətliliyə görə 23-cü, innovasiyalara görə 27-ci, iqtisadi biliklərin indeksinə görə 34-cü yerdə idi [4]. Son 7 il ərzində İranın iqtisadi inkişaf strategiyasını təhlil etsək görərik ki, əslində İran neft və neft məhsulları ixracatından asılılıq səviyyəsini birdəfəlik azaltmaqla daxili bazara etibar etməyi təmin edən sanksiyalar ("müqavimət iqtisadiyyatı") şəraitində inkişaf etmişdir. Mövcud beynəlxalq sanksiyaların inflyasiya komponentinə və respublika iqtisadiyyatına təsiri hökuməti sosial aspekti vurğulamaqla "müqavimət iqtisadiyyatı" siyasətini aparmağa məcbur etdi. Bu məqsədlə aparılan kurs özünütəminetmə, idxalın əvəzlənməsi, daxili bazarın və milli istehsalçıların qorunması, o cümlədən müavinət və subsidiyaların verilməsi yolu ilə maksimum dərəcədə artırılmasına davam etdi.

ÜDM-in artımı 2016-2017-ci illərdə son rekord həddə - 13.4 %-dən 2018-ci ilin martında başa çataraq ildə 3.8 %-ə düşdü. Keçən il orta illik artım 2,1 %-dən yüksək olaraq qalır[5, s.47]. İstehsal imkanlarına görə digər inkişaf etməkdə olan ölkələrlə müqayisədə İran hələ də xammal sektorundan asılı vəziyyətdədir. Belə ki, kənd təsərrüfatı, neft və qaz sektoru birlikdə ÜDM-in 30 %-dən çox, sənaye sektoru isə (su təchizatı, elektrik və qaz sənayesi daxil olmaqla) 23.4 %-ni təşkil edir.

İran 2015-ci ildə 425 milyard ABŞ dolları həcmində ÜDM istehsalı ilə Səudiyyə Ərəbistanından sonra Yaxın Şərq və Şimali Afrika regionunda ikinci ən böyük iqtisadiyyata malikdir. O, həmçinin əhalisinin sayına görə 83,75 milyon olmaqla Misirdən sonra bölgədə ikincidir[6]. İran iqtisadiyyatı böyük karbohidrogen sektoru, kənd təsərrüfatı və xidmətlər sferası, bir sıra istehsal və maliyyə xidmətləri olması ilə xarakterizə olunur. İran təbii qaz ehtiyatlarına görə ikinci və sübut olunmuş xam neft ehtiyatlarının həcminə görə dünyada dördüncü yeri tutur. İqtisadi fəaliyyət və dövlət gəlirləri hələ də böyük ölçüdə neft resurslarından asılıdır. İranda adambaşına düşən ÜDM-in həcmi 2015-ci ildə 5936 ABŞ dollat təşkil etmişdir ki, bu da dünya üzrə orta göstəricinin 47%-nə bərabərdir.

Qlobal mühitdə dövlətlərin həll etməli olduğu ən mühüm məsələlərdən biri xarici ticarət dövriyyəsinin artırılmasıdır ki, bu da ticarət əməliyyatlarının və iqtisadi səmərəliliyin artımının təmin edilməsinə gətirib çıxarır.

Son illərdə ölkənin inkişafında bir sıra amilllərin təsiri atmağa meyı edir. Bu amillər ölkədə sabitliyin olması, sərbəst azad iqtisadiyyata malik olmaq və nəhayət, sağlam beynəlxalq iqtisadi münasibətlərin formalaşması ilə əlaqqədardır. Xarici ölkələrlə əməkdaşlıq İranın milli iqtisadiyyatının çoxşahəli inkişafının təmin etmək üçün böyük üstünlüklər verə bilər. Məhz buna görə də İranın milli iqtisadiyyatının formalaşması şəraitində xarici ölkələrlə qarşılıqlı iqtisadi əlaqələrin inkişafı böyük əhəmiyyət kəsb edir. Dünya bazarı ilə münasibətlərinin formalaşdığı hazırki dövrdə dövlətin xarici iqtisadi strategiyasının əsas istiqamətləri onun ixrac potensialının artması, ixrac və idxal əməliyyatlarının strukuturunun təkmilləşdirilməsi, dünya bazarına beynəlxalq standartlara və tələblərə cavab verən rəqabətqabiliyyətli məhsulların çıxışı hesab edilməlidir[7, s.6]. Bu baxımdan ixrac fəaliyyətinin səmərəliliyinin artırılması məsələsi bir çox dövlətlər kimi İran iqtisadiyyatında ümumi səmərəliliyin artırılmasının mühüm aspektlərindən birinə çevrilmişdir. Belə ki, idxal və ixrac fəaliyyəti istənilən ölkənin iqtisadi sisteminin fəaliyyətinin mühüm tərkib hissəsidir. Buna görə də həqiqətdə iqtisadi sistemlə əlaqədar olan makroiqtisadi tənzimləmə mexanizminin seçilməsi prinsipial xarakter daşıyır.

Müasir İran iqtisadi inkişaf səviyyəsinə görə aqrar-sənaye ölkəsidir. Kənd təsərrüfatının aparıcı sahəsi bitkiçilikdir. Kənd təsərrüfatı məhsulları ixracatının (meşə təsərrüfatı da daxil olmaqla) 90%-

i bu sahənin payına düşür. Təbii sərvətlərdən neft, qaz, kömür, mis, dəmir, manqan və sink, qurğuşun filizləri istehlak edilir. Neft-qaz sənayesi İran iqtisadiyyatının başlıca sahəsidir və dövlətin gəlirlərinin 90%-ni verir. Bu sahə İran Milli Neft Şirkətinə məxsusdur.

İran iqtisadi modeli əsasən daxili tələbatın ödənilməsinə və idxal mallarından asılılığın aradan qaldırılmasına istiqamətlənmişdir**.** Qeyd edək ki, İran İslam Respublikasının müasir inkişaf modeli iqtisadi baxımdan inkişaf etməyə başlamış Türkiyə, Braziliya, Argentina, Şərqi Asiya və Avropa ölkələrinin iqtisadi inkişaf modellərindən fərqlənir. Nəzərə almaq lazımdır ki, son illər İran texnoloji cəhətdən sənaye yönümlü inkişaf yolunu seçmişdir. Müvafiq inkişaf tendensiyasının əsas xüsusiyyəti ondan ibarətdir ki, bu inkişaf modeli öz müasir idarəetmə mexanizminə əsaslanır. Bu sahə üzrə aparılan tədqiqatlar göstərir ki, milli iqtisadi sahələr üzrə rəqabət qabiliyyətinin yüksəldilməsi bilavasitə ixrac potensialının inkişafına təsir göstərən əsas amillərdir.

Ədəbiyyat

1. Sultanov C.R. İxrac potensialı sisteminin strukturu və inkişaf xüsusiyyətləri // Hüquqi dövlət və qanun. - 2008. - №10.- s.28-32.
2. Unctad Handbook of Statistics, 2013, pp.47-48.
3. Database World Economic Outlook, 2013.
4. World Fact Book, 2013.
5. Iran EconomicMonitor,http://documents.worldbank.org/curated/en /676781543436287317/pdf/Iran-Economic-Monitor-Weathering-Economic-Challenges.pdf
6. azeritag.az
7. İsmayılov Y.E. Azərbaycan Respublikasinin ixrac potensialinin formalaşdırılmasının və gücləndirilməsinin hüquqi təminatı – Bakı: UNEC, 2015.-138s.

Резюме

Бахрами Х.М.

Основные направления развития экспортного потенциала Исламской Республики Иран

В этой статье рассматриваются вопросы, связанные с Исламской Республикой Иран. Здесь были проанализированы ключевые факторы и методы, предоставлена статистическая информация и сделаны сравнения. Проанализирована ситуация во внешней торговле Исламской Республики Иран. Также были отмечены результаты развития иранской промышленности.

Ключевые слова: экспорт, импорт, разработка, продукция, наука, торговля.

Summary

Bahrami H.M.

The Main Development Directions of Republic of Iran's Export Potential

This article examines issues related to the development of export potential of the Islamic Republic of Iran. Here, key factors and methods that affect export development and international trade have been reviewed, statistical information has been provided and comparisons have been made. The situation in the foreign trade of the Islamic Republic of Iran and its share in world trade have been analyzed. Also, the results of the development of Iranian industry in various fields have been shown.

Key words: export, import, development, product, science, trade

İRAN İSLAM RESPUBLİKASINDA BEYNƏLXALQ STANDARTLARIN TƏTBİQİ PROBLEMLƏRİ

Agah Homayoun Abdolrahman oğlu
AMEA İqtisadiyyat İnstitutunun dissertantı
agahhoma20@gmail.com

Xulasə: Məqalədə İranda beynəlxaql standartlaşdırma məsələləri ilə bağlı problemlər araşdırılmış, iqtisadi sahələr üzrə məhsulların rəqabətqabliyyətinin artıılmasında innovasiya fəaliyyətinin roluna baxılmış və bu sahədə mövcud olan problemlərin həlli istiqamətində təklif və tövsiyələr verilmişdir.

Açar sözlər: *standartlaşdırma, rəqabət qabiliyyəti, innovasiya, məhsul, müəssisə, inflyasiya, investisiya.*

Bütün dünyada beynəlxalq standartlaşdırma ölkələrin müvafiq standartlaşma sahəsində mövcud orqanları tərəfindən tanınan standartlaşdırma növü hesab olunur. Standartlaşdırma yalnız məlumatların ötürülməsini asanlaşdırmır, həm də yeni satış bazarlarının açılmasına kömək edir, elmi-texniki tərəqqi ilə bağlı olaraq daim inkişafdadır.

Sənaye sahəsində standartlaşdırma proseslərinin tətbiqi çox vacibdir. Müasir standartaların tətbiqi məhsulların rəqabətə davamlılıq qabiliyyətini artırmış olur, istehsal proseslərinə bərabər tələbləri və müqayisəli keyfiyyət meyarlarını müəyyənləşdirir, həmçinin buna uyğun olaraq idarəetmə sistemlərini təyin edir, maraqlı şəxsləri və şirkətləri müəyyən məhsul barəsində texniki və təşkilati xüsusiyyətlərə dair məlumatlarla təmin edir. Onlar milli, xüsusilə də beynəlxalq əmək bölgüsü arasındakı əlaqədir, məhsulların və xidmət işlərinin keyfiyyətinin yüksək səviyyəyə çatmasına kömək etmək, uyğun əməkdaşlığı təmin etmək üçün yaradılır.

Aparılmış tədqiqatlar göstərir ki, standartlar adətən məhsulun keyfiyyət göstəricisini qiymətləndirmək üçün nəzarət metodlarını müəyyən edir və bu metodlardan hər biri zəruri halda arbitraj rolunu oynayır. Lakin qeyd etmək lazmdır ki, bu metodlar heç də həmişə tam qarşılıqlı əvəz olunan deyildir. Bu cür hallarda hər hansı bir metodun seçilməsi şəraitinə və fərqləndirici xüsisiyyətlərinə dair tövsiyə və məlumatlar verilir.

Dünya təcrübəsində olduğu kimi, İranda standartlaşdırma obyektlərinin spesifik xüsusiyyətlərinə və onlara qoyulan tələblərin məzmununa görə müxtəlif kateqoriyalı normativ sənədlər üçün aşağıdakı növ standartlar işlənib hazırlanmışdır [1, s.65]:

- ✓ əsasverici standartlar;
- ✓ məhsul, xidmət üçün standartlar;
- ✓ proseslər üçün standartlar;
- ✓ nəzarət metodları (sınaq, ölçmə, analiz) üçün standartlar.

Əsasverici standartlar müəyyən fəaliyyət sahəsi üçün ümumi təşkilati-

metodik müddəaları, həmçinin məhsulun yaradılması və istifadəsi proseslərində elmin, texnikanın və istehsalatın müxtəlif sahələrində qarşılıqlı anlaşmanı, texniki vəhdəti və qarşılıqlı əlaqəni təmin edən ümumtexniki tələbləri, normaları və qaydaları təyin edir. Normativ sənədlərin bu növü elə təşkilati prinsipləri və müddəaları, tələbləri, qaydaları və normaları təyin edir ki, onlar bu sfera üçün ümumi xarakter daşıyır elm və istehsalat üçün ümumi məqsədlərin yerinə yetirilməsinə köməklik göstərir. Bütövlükdə bu tələb, qayda və normalar məhsulun (xidmətin)

işlənməsi, istehsalı və istismarı zamanı ətraf mühitin mühafizəsi, insanın həyatı, sağlamlığı və əmlakı üçün təhlükəsizliyi təmin edir.

İranda standartlaşdırma işləri 1925-ci ildə "Standartlaşdırma haqqında" qanununun qəbulu ilə başlamışdı. 1953-cü ildə idxal və ixrac olunan malların xüsusiyyətinə və keyfiyyətinə nəzarət etmək üçün, rəsmi bir qurumun fəaliyyətinə ehtiyac yarandı.

1960-cı ildə İran Standartlar İnstitutunun yaradılması barədə qanunvericiliyə uyğun olaraq Ticarət Nazirliyinin nəzarəti altında Standartlar və Sənaye Tədqiqatları İnstitutu (SSTİ) kimi fəaliyyətə başladı və daha sonra bu təşkilat Beynəlxalq Standartlaşdırma Təşkilatına (İSO) qoşuldu. 1993-cü ilin fevral ayında İslam Məşvərət Məclisi tərəfindən təsdiqlənən və 1997-ci ilin iyun ayında bu təşkilatın qanun və qaydalarına dəyişikliklər edən qanuna görə hazırki Ali Standartlar Şurası SSTİ-nin fəaliyyətinə qərar verən ən yüksək orqandır.

1979-cu il İran islam inqilabından sonra Ayətullah Xomeynin başçılığı ilə yeni yaradılmış İslam Respublikası əvvəlki prezidentin xarici siyasətini kəskin şəkildə dəyişdirdi. O vaxtdan bəri ölkə siyasəti İslam inqilabını xaricdə təbliğ edərkən qərb və qeyri-müsəlman təsirlərini aradan qaldıraraq iqtisadi inkişafa və münasibətlərin normallaşmasına təkan verəcək istiqamət seçmişdir. İran dünyanın demək olar ki, 97 ölkəsi ilə diplomatik münasibətlər qurmuşdur. Son illərdə İran İslam Respublikasında istehsal sənayesində xidmət işlərinin zəifləməsi səbəbilə standartlaşdırma prosesində bir sıra çətinliklər yaranmışdır. Hazırda İran iqtisadiyyatının 60%-dən çoxu mərkəzləşdirilmiş şəkildə dövlət tərəfindən idarə olunur. İranın neft və qaz yataqları ilə zəngin olması onun iqtisadiyyatının asılılıq prinsipinə əsaslanmasına gətirib çıxarmışdır.

İran 101 İSO Texniki Komitəsi(TK) və Alt Komitələrinin (AK), 111 TC-nin Müşahidəçi (O) və SC-lərin üzvüdür. Hal-hazırda 3 ISO TCS katibliyi İranda aşağıdakı kimi yerləşmişdir:

ISO üzvlüyündən başqa SSTİ aşağıdakılarla da üzvdür:

- Beynəlxalq Elektrotexnika Komissiyasının (IEC) üzvü
- Beynəlxalq Metrologiya Təşkilatının (OİML) üzvü
- Beynəlxalq Ağırlıqlar və Tərəzilər İdarəsi (BIPM) haqqında Pakt Meter
- Ümumdünya Sənaye və Texnoloji Tədqiqat Təşkilatları Birliyinin üzvü (WAITRO) [2].

SSTİ İSO Beynəlxalq standartların inkişafına töhfə vermək üçün maraqlı tərəflərin uyğun infrastrukturun təmin edilməsi və fəaliyyət planının məqsədlərinə əsaslanan prioritetlərin müəyyən edilməsi kimi müvafiq bir quruluş yaratmışdır. SSTİ 215 ISO Texniki Komitə və Alt Komitələrində iştirak edir və 219 İSO TK və AK-lərin müşahidəçi üzvüdür. İSO aşağıdakı TK-lərin katiblik vəzifələrini SSTİ-yə həvalə etmişdir. Bu ölkədə məhsulların rəsmi standartlarını qanuni şəkildə təyin və inkişaf etdirən yeganə təşkilatdır.

İranda yeyinti və qida sənayesində məhsulların halal olması mühümdür. Ona görə də halal standartlar mövcuddur. Müsəlman ölkələri üçün əsas və ən çətin məsələlərdən biri halal yeməklə təmin edilməsində ilahi qanunlara riayət edilməsidir. Bununla əlaqədar İran İslam Respublikası dini etiqaddan irəli gələn fikirləri cəmiyyətə çatdırmağa çalışır. Bütün bunlara əsasən bəzi tədbirlər görülmüşdür:

-SSTİ 12000, Halal Qida - Ümumi Təlimat. Bu standartlar İslam qanunlarına əsasən

xammal və qida məhsullarınnın tələblərinə və xüsusiyyətlərinə uyğun əsas məlumatları müəyyənləşdirir. Bu da Jafari inancının tələblərinə uyğundur.

Son dövrdə İranda müəssisə standartları geniş tətbiq olunur. Onların sayı getdikcə artır. Belə standartlar məhsulun keyfiyyətinin kompleks idarə olunmasının əsasını təşkil edir, müəssisənin fəaliyyətinin bütün sahələrini əhatə edir və dövlət standartlarının tələblərini hər bir iş yerinə, hər bir

icraçıya çatdırmağa şərait yaradır. Bu standartlar texnoloji və nəzarət tərtibatları unifikasiyasının inkişafına təsir göstərir, xammal, material və enerjinin rasional istifadə olunmasını təmin edir.

Bu gün İran ABŞ başda olmaqla bir çox ölkə tərəfindən iqtisadi sanksiyalara məruz qalır ki, bu da onun beynəlxalq əlaqələrinin zəifləməsinə gətirib çıxarır. ABŞ-ın JCPOA nüvə sazişinin 2017-ci ildə deertifikasiyası və 2018-ci ildə ABŞ-ın iqtisadi sanksiyalarının reimpozisiyası inflyasiyanın artmasına və valyutanın sürətli dəyərdən düşməsinə səbəb olur [3]. Sanksiyaların təsiri beynəlxalq standartlaşdırma işlərinə də öz mənfi təsirini göstərir. Sanksiyalar ölkəyə çox tələb olunan investisiya axınını da əngəllədi. Bu təcrid İranın nüvə proqramı ilə bağlı ortaya çıxan suallara cavab olaraq həyata keçirilən müxtəlif iqtisadi sanksiyalarda və tətbiq olunan neft embarqolarında aydın görünür. İran beynəlxalq aləmdə artan siyasi və iqtisadi təcridinə görə dünyada yeni müttəfiqlər axtarır. Qlobal maliyyə bazarlarından nisbətən təcrid olunduğu üçün İran əvvəlcə 2008-ci il qlobal maliyyə böhranından sonra çətinliklə tənəzzülün qarşısını ala bilmişdir. İranın iqtisadi azadlıq balı 51.1-dir və 2019-cu il indeksində isə 155-ci yeri tutur [4]. Ümmumiyyətlə, aparılmış təhlil onu göstərir ki, İranda beynəlxalq standartların tətbiqi sahəsində davamlı tədbirlərin görülməsi zəruridir. Bunun üçün region ölkələri, xüsusən Azərbaycan ilə standartlaşma sahəsində iki tərəfli əlaqələrin genişləndirilməsi məqsədəuyğundur.

Ədəbiyyat

1. Motovəseli M. İqtisadi inkişaf.- Tehran, 2003. - 285s.
2. BBC (2018). Six charts that show how hard US sanctions have hit Iran. Available at: https://www.bbc.com/news/world-middle-east-48119109 (Accessed:10.06.2019)
3. İSİRİ (2019). ISIRI Legal Authority**.** Available at: :http://www.isiri.com/about.htm (Accessed:24.06.2019)
4. The Heritage Foundation (2019). Index of Economic Freedom:Iran. Available at: https://www.heritage.org/index/country/iran (Accessed:21.06.2019)

Проблемы применения международных стандартов
в Исламской Республике Иран Агах Хомайоун Абдулрахман оглы

Диссертант Институт Экономики НАНА

Резюме

В статье исследуются проблемы применения стандартизации в Иране, рассматривается роль инноваций в повышении конкурентоспособности продукции и вносятся предложения и рекомендации для решения существующих проблем в этой области**.**

Ключевые слова: стандартизация, конкурентоспособность, инновация, продукт, предприятие, инфляция, инвестиции.

Problems of application of international standards in the
Islamic Republic of Iran Agah Homyoun Abdulrahman oglu

Disertant Institute of Economy of ANAS

Summary

The article explores the problems of applying standardization in Iran, reviewed the role of innovation in increasing the competitiveness of products and made suggestions and recommendations to address existing problems in this area.

İRAN İSLAM RESPUBLİKASININ ŞƏRQİ AZƏRBAYCAN OSTANINDA SOSİAL VƏ İQTİSADİ İNKİŞAFIN XÜSUSİYYƏTLƏRİ

Həsənov Famil Həsən oğlu
AMEA İqtisadiyyat İnstitutunun dissertantı

İran İslam Respublikası dünya iqtisadiyyatına inteqrasiya olunmuş, dövlətlərarsı münasibətlərdə mühüm yer tutmuşdur. İranda keçən əsrin 80-cı illərindən başlayaraq reallaşdırılan davamlı iqtisadi islahatlar uğurlu nəticələr verməklə yanaşı, iqtisadi stabillik üçün əsaslar yaratmış, sivil bazar münasibətlərinin formalaşmasına səbəb olmuşdur. Lakin İran dövlətinə qarşı tətbiq edilən sanksiyalar hər sahədə öz mənfi təsirini göstərir. Şərqi Azərbaycan ostanı İranın tərkibində olduğu üçün öz təsirini burada da göstərir. İndi də beynəlxalq iqtisadi sanksiyalara, ABŞ və AB-nın təsirlərinə, davam edən dünya maliyyə böhranına baxmayaraq, ölkə iqtisadiyyatı inkişaf etməkdə davam edir. Lakin neftdən, qazdan və ümumiyyətlə xammaldan asılılıq ölkə iqtisadiyyatını böyük risklərlə üzləşdirir.

Cənubi Azərbaycan İranın şimal-qərbində ölkənin İraq, Türkiyə, Naxçıvan Muxtar Respublikası, Ermənistan və Azərbaycan Respublikası ilə olan sərhədində yerləşən tarixi vilayətidir.

Şərqi Azərbaycan vilayəti İranın əhəmiyyətli, çox cəmiyyətli və gözəl vilayətlərindən biri olmaqla, ölkənin Şimal-Qərbində yerləşir. İran İslam Respublikasının Məhkəmə Hakimiyyətinə bağlı "İran Statistika" saytının verdiyi məlumata əsasən, Şərqi Azərbaycan ostanının əhalisi 3909652 nəfər, qərbi Azərbaycan ostanının əhalisi 3265219 nəfər, Ərdəbil ostanının əhalisi 1270420 nəfər və Zəncan ostanının əhali sayı 1057461 nəfərdir. Bu ostanların əhalisinin ümumi sayı isə 9502752 nəfərdir.

İqlimi kontinental, bölgənin şimal-şərqində subtropik, isti və quru yayı soyuq, qarlı qışlarla əvəzlənir. Qeyri-rütubət çəkən İran ərazilərinin əksəriyyətindən fərqli olaraq, İran Azərbaycanının dağlıq bölgələri istisna olmaqla, illik orta yağıntı orta hesabla 300 ilə 900 mm arasında dəyişir. Buna görə də Azərbaycan İranda kifayət qədər miqdarda yağıntının olduğu, süni suvarma istifadə edilmədən əkinçilik üçün imkan yaradan bölgələrdən biridir.

Təbriz şəhəri Səfəvilər (1502-1736) dövründə paytaxt olsa da, sonralar Qacarlar (1795-1925) dövründə burada yay iqamətgahını dyenidən qurmuşdur. Cünki buranın iqlimi kontinental, bölgənin şimal-şərqində subtropik, isti və quru yayı soyuq, qarlı qışlarla əvəzlənir. Qeyri-rütubət çəkən İran ərazilərinin əksəriyyətindən fərqli olaraq, İran Azərbaycanının dağlıq bölgələri istisna olmaqla, illik orta yağıntı orta hesabla 300 ilə 900 mm arasında dəyişir. Buna görə də Azərbaycan, İranda kifayət qədər yağışın olduğu, süni suvarma istifadə etmədən əkinçiliklə məşğul olmağa imkan verən bölgələrdən biridir.

Əhalisinin əksəriyyəti Azərbaycan türklərindən ibarət olan Təbriz şəhəri ostanın paytaxtıdır. Təbriz - İranın şimal-qərbində müasir sənaye şəhəridir. Qədim şəhər olan Təbriz vaxtilə böyük İpək Yolu bazarı idi. Öz mədəniyyəti ilə zəngin olan bu şəhər bir çox çox tarixi abidələri və mədəniyyəti ilə də zəngindir. Burada hal-hazırda bir çox qədim məscidlər, tarixi abidələr qorunub saxlanır. Məsələn, 1465-ci ildə Qara Qoyunlu xanədanlığı tərəfindən inşa edilmiş gözəl xəttatlıq, ərəb naxışları və mavi plitələrlə bəzədilmiş Göy Məscidi bu günə qədər gəlib çatmışdı. Burada Urmiya qapalı duz gölü yerləşir, Təbriz dağlarının məşhur mənzərəsi "İlanlar", Osku rayonunda Kandovan sirli kəndinin qayaları 800 ildir yüksəlir və dünyanın ən böyük qapalı bazarı bir neçə kilometr irəlidə uzanır. Bu kənd bir sıra digərlərindən inkişafının özünəməxsusluğu ilə fərqlənir. Kandovan dağlarda inşa edilmiş daş evləri ilə məşhur heyrətamiz bir qədim kənddir, qədim vulkan massivinin Sekendd qayalarında qurulmuşdu. Fakt budur ki, XIII əsrin yerli sakinləri ölkəni işğal edən

monqollardan belə oranı qayalı bir sığınacaq hesab edirdilər. İlk məskunlaşanların nəsilləri "etibarlı" yaşayış yerini dəyişməmiş və o vaxtdan bəri bu kənddə hələ də təxminən 600 nəfər yaşayır. Şərqi Azərbaycan ostanının Təbriz şəhəri özünün tarixi abidələri, muzeyləri ilə məşhurdur. Bunlardan Azərbaycan, Qacar Muzeyi (Əmir Nezam Evi) xüsusi yer tutur. Azərbaycan Muzeyi İranın ən vacib arxeloloji muzeylərindən biri sayılır. Müxtəlif eksponatlar nümayiş etdirən muzeydə eramızdan əvvəl 500-cü ilə aid silah, sikkələr, şüşə qablar və s. kimi Qacar dövrünə aid əşyaları qədim əşyalar mövcuddur.

Dünyanın ən böyük Zərdüşt məbədi kompleksi, Süleyman Taxtı (Taxt-i Süleyman) olaraq daha yaxşı bilinən Azar Gishtasb, təkcə İran Azərbaycanının deyil, bütövlükdə İranın ziyarət kartı olmaq riski daşıyır. Kompleksin bir dibsiz bir vulkan gölündəki bir dairədə, sönmüş bir vulkanın kraterində yayılması xüsusilə təsir edicidir. Burada, vulkanın yamacında, bir zamanlar qədim Zərdüşt dövlətinin paytaxtı - Şase şəhəri mövcud idi. Köhnə günlərdə kiçik əyalət şəhəri olan Ərdəbildə ilk Səfəvi şahı I İsmayıl (1501-1524) İranın birləşməsi uğrunda təşəbbüsə başladı, burada Sufi nizamının banisi Səfəvie Şeyx Səfi əd-Din özünə əbədi bir sığınacaq tapdı. Ərazisində zəngin kitabxana, məscid, məktəb, su anbarı, xəstəxana və s. vardır.

İran ərazisindəki başqa bir qədim şəhər Marağa şəhəridir. Marağa şəhəri Sasani və habelə ərəb işğalları dövründə Azərbaycanın iqtisadi, ictimai cəhətdən inkişaf etmiş şəhərlərindən biri olmuşdur. Tarixin ruhu sözün həqiqi mənasında onu keçir, çünki burada qübbələr adlanan qədim türbələr demək olar ki, toxunulmamış qalmışdır. Bunlardan ən diqqət çəkənləri bunlardır: Gonbad-e Kabud (Mavi günbəz) - Hülaku xanın məzarı, Gonbad-e Sorkh (Qırmızı günbəz), Gonbad-e Modavar (Dəyirmi Qübbə) və s. 1259-cu ildə qurulmuş qədim Marağa rəsədxanası da bizə gəlib çatıb(1259-1271). Tusinin rəsədxanası öz həcminə görə Şərqin bütün məşhur rəsədxanalarını geridə qoyurdu. Rəsədxananın nəzdində 400 min kitabı olan kitabxana və astronomiya üzrə kadr hazırlamaq məqsədi ilə məktəb də fəaliyyət göstərirdi. Azərbaycan Hökuməti İİR ilə əlaqələrin genişləndirilməsində olduqca maraqlıdır. İki ölkə arasında mehriban qonşuluq əlaqələrinin tarixi köklərə əsaslanır. İran İslam Respublikası Azərbaycanın müstəqilliyini 25 dekabr 1991-ci ildə tanıdıqdan sonra iki ölkə arasında diplomatik əlaqələr (12 mart 1992-ci ildə) qurulmuşdur. Azərbaycan Respublikasının Təbriz şəhərindəki Baş Konsulluğu Azərbaycan Respublikası Milli Məclisinin 26 avqust 1992-ci il tarixli qərarı ilə təsis edilmiş və 20 oktyabr 2004-cü ildən fəaliyyət göstərir. Azərbaycan Respublikasının Təbriz şəhərindəki Baş Konsulluğunun fəaliyyət dairəsi İran İslam Respublikasının 4 vilayətinin ərazisini əhatə edir. Bunlar Şərqi və Qərbi Azərbaycan, Ərdəbil və Gilan vilayətləridir. Ərdəbil bölgəsi cənubda Zəncan bölgəsi ilə həmsərhəddir. Bu bölgə şərqdə Gilan bölgəsi ilə Ərdəbil, Xal-xal rayonları və Talış dağları ilə həmsərhəddir. Ərdəbil bölgəsinin ölkənin paytaxtı ilə əlaqələri Ərdəbil-Astara və Rəşt-Qəzvin yolları vasitəsi ilə həyata keçirilir. Ərdəbil bölgəsi 1993-cü ildə hökümətin təklifi və İslam məclisi şurasının (parlamentin) qərarı ilə Şərqi Azərbaycan bölgəsinin inzibati-siyasi idarəçiliyindən ayrılaraq müstəqil bölgəyə çevrilmişdir. Ölkənin axırıncı inzibati-siyasi bölgüsünə görə 2015-ci ildə Ərdəbil bölgəsinin 25 rayonu, 21 şəhəri və 66 kəndistanı (kəndlər birliyi) olmuşdur.

Azərbaycan və İranın arasında imzalanan vacib sənədlərdən biri də “Şimal-Cənub” nəqlıyyat dəhlizidir. Bu dəhliz çərçivəsində Azərbaycan və İran arasında malların, yükdaşımaların, sərnişin daşımalarının asanlaşdırılması üçün müvafiq qərarlar qəbul edilib. Bu da bizim iqtisadi əlaqələrimizə böyük təkan verə bilər.

2014-cü ildən başlayaraq iki ölkə arasında ikitərəfli münasibətlər həyata keçirilmişdir. Bunlardan: İran İslam Respublikasının Şərqi və Qərbi Azərbaycan, Ərdəbil vilayətlərində fəaliyyət göstərən 20-yə yaxın turizm şirkətlərinin rəhbərlərinin, təmsilçilərinin Azərbaycanın Naxçıvan

Muxtar Respublikasına tanışlıq səfərləri həyata keçirilmiş; Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayəti arasında "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayəti arasında əməkdaşlığın inkişaf etdirilməsinə dair" memorandum imzalanmış(2015-ci il, 9 iyun); "Azərbaycan Respublikasının Gəncə şəhəri ilə İran İslam Respublikasının Təbriz şəhəri arasında qardaşlaşmış şəhər münasibətlərinin yaradılmasına dair" Protokol imzalanmış(2015-ci il, 7-10 fevral), İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayətinin Elm və Texnologiyalar Parkı ilə Azərbaycan Respublikasının Yüksək Texnologiyalar Parkı arasında memorandum (2015-ci il, 4 avqust); Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayəti arasında "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayəti arasında əməkdaşlığın inkişaf etdirilməsinə dair"(2015-ci il, 9 iyun) memorandum və s. imzalanmışdı.

İranın Azərbaycana yatırdığı investisiya 1,2 milyard ABŞ dolları ətrafındadır. Bunun 150 milyon dolları qeyri-neft sektoruna yatırılıb. Ümumi potensialı nəzərə aldıqda daha geniş nəticələr əldə edə bilərik. Hazırda Azərbaycanda İranın 430-dan artıq şirkəti fəaliyyət göstərir. Müqayisə üçün demək olar ki, digər qonşu ölkələrlə bu rəqəm 1000-2000-dən artıqdır. Azərbaycanın çox böyük potensialı var və ölkələr arasındakı əlaqələr bütün aspektlərdə ən yaxın strateji əməkdaşlıq səviyyəsində ola bilər. İki ölkə arasında Şərqi Azərbaycan vilayəti ilə əməkdaşlığın inkişafı, ticarət əlaqələrinin genişlənməsi iqtisadiyyatın müxtəlif sahələrində əlaqələrin genişləndirilməsi üçün geniş imkanlar vardır. Mədən, qida, kimya, yüngül sənaye, kənd təsərrüfatı, tikinti və mebel istehsalı sahələrində Azərbaycanda yaradılmış əlverişli biznes və investisiya mühiti, sahibkarlara göstərilən dövlət dəstəyi mexanizmləri, xarici investorlar üçün yaradılmış əlverişli şərait vardır. Bu da gələcəkdə Azərbaycan-İran əlaqələrinin inkişafına təkan daha da təkan verəcəkdir.

Şərqi Azərbaycan Ostandarlığı ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında əlaqələrin genişləndirilməsi istiqamətində işlər görülmüşdür. Azərbaycan Culfası ilə İran Culfası arasında yeni və müasir körpünün inşa edilməsi, Naxçıvanın Ordubad rayonu ərazisində Araz çayının məcrasının təmizlənməsi, Bakı-Təbriz təyyarə reysinin bərpa edilməsi və dövlətlərarası münasibətlərə müsbət təsir edə biləcək məsələlər diqqət mərkəzindədir.

Диссертант Института экономики НАНА Гасанов Фамил Гасан оглы

Резюме

В статье рассматриваются вопросы, связанные с социально-экономическим развитием провинции Восточный Азербайджан в Исламской Республики Иране. В нем рассматриваются основные факторы и методы, влияющие на развитие региона и международную торговлю, проводится сравнение на основе статистических данных, а также анализируются результаты развития в различных отраслях.

Dissertation of the Institute of Economics of ANAS Hasanov Famil Hasan

Summary

The article examines issues related to the social and economic development of the East Azerbaijan Province of the Islamic Republic of Iran. It considers the main factors and methods affecting the development of the region and international trade, makes comparisons on the basis of statistical data, analyzes the results of development in various industries.